ŞƏMİSTAN NƏZİRLİ

# GÜLLƏLƏNMİŞ AZƏRBAYCAN GENERALLARI

*Portretlər, oçerklər, məqalələr, hekayələr*




Bakı-2016



ŞƏMİSTAN NƏZİRLİ
**GÜLLƏLƏNMİŞ AZƏRBAYCAN GENERALLARI**
*Hekayələr, portretlər, oçerklər, məqalələr*

***Minbir əziyyətlə yazılan kitabımı Anam Güllü Osman qızının işıqlı xatirəsinə ithaf edirəm.***

***Kitabın çapına maddi dəstək olduğuna görə Sayad İsmayıl oğlu Mahmudova təşəkkür edirik.***

*Uzun illər Azərbaycan hərb tarixinin tədqiqatı ilə məşğul olan hərbi tədqiqatçı istefada olan,Müdafiə Nazirliyi Hərbi-Elmi Mərkəzin Baş Elmi əməkdaşı polkovnik-leytenant Şəmistan Nəzirli samballı kitabların müəllifidir. Onun "Azərbaycan generalları", "Qəribə talelər", "Arxivlərin sirri açılır", "Cümhiriyyət generalları", "Tam artilleriya generalı Səməd bəy Mehmandarov", "General Yadigarov qardaşları", "General Əli ağa Şıxlinski və silahdaşları", "İlk hərbi təyyarəçi Fərrux ağa Qayıbov" və başqa əsərlərini oxucular maraqla qarşılamışlar.*

*Tədqiqatçı-publisist Şəmistan Nəzirli gərgin elmi axtarışlardan sonra "Güllələnmiş Azərbaycan generalları" adlı yeni kitabını bitirmişdir. Arxiv sənədləri əsasında yazılmış kitabda totalitar Sovet rejimi illərində Azərbaycanın on doqquz generalının, onlarla ali rütbəli polkovnik və podpolkovnikin faciəli həyatı araşdırılır.*

**Ş $\frac{4902020000-20}{124-2006}$**

***Əlavələrlə üçüncü nəşri***

***© Ş. NƏZİRLİ***

***Müəllifin icazəsi olmadan əsərdən parça və mənbəə kimi istifadə etmək qətiyyən qadağandır. Əks təqdirdə həmin şəxs məhkəmə qarşısında cavab verməli olacaqdır.***

## LAYİQLİ ÖMÜR YAŞAYAN İNSAN

Şəmistan Nəzirli. Bu imzanı yəqin ki, çoxları tanıyır, xüsusən də Azərbaycan hərb tarixini izləyənlər Şəmistan Nəzirlini yaxşı tanıyırlar. Şəmistanın yorulmaz əməyini, xeyirxah işlərini görməmək, qiymətləndirməmək mümkün deyildir.İstedadlı yazıçı, yorulmaz tədqiqatçı-jurnalist Şəmistan Nəzirli Azərbaycan hərb tarixini yaradanların siyahısında ən yüksək yerlərdən birini tutur. Keçmiş SSRİ məkanında az arxiv tapılardı ki, Şəmistan onun tozlu və özündə neçə-neçə sirr saxlayan saysız-hesabsız qovluqları vərəqləməsin. Bakıda, Moskvada, Sankt-Peterburqda, Tiflisdə və s. dövlət arxivlərində Şəmistan bəlkə də aylarla işləyib. Elə bütün bunların nəticəsidir ki, Şəmistan Nəzirli yüzdən çox unudulmuş, daha doğrusu unutdurulmuş Azərbaycan generalllarını, polkovniklərini xalqa qaytara bilmişdir. Məhz onun gərgin əməyi və araşdırmaları nəticəsində onlarla hərbiçilərimizin adı və fəaliyyətindən xəbərdar olmuşuq. Bəzən elə olub ki, bu generalları başqa xalqın nümayəndələri kimi təqdim ediblər. Biz də belə bilmişik. Ancaq Şəmistan tarixi sənədlərlə həqiqəti aşkar etmiş, bu insanların kimliyi barədə mübahisələrə birdəfəlik son qoymuşdur. Ümumiyyətlə, Şəmistan Nəzirli maraqlı, zəhmətkeş sənətkarlardandır. O, nədən yazır yazsın, məhəbbətlə yazır. Yazdığı şəxsi olduğu kimi oxuculara təqdim etməyə çalışır. Faktlara söykənir, onların dili ilə istədiyinə nail olur. Çünki əslində tarix riyaziyyatdan da dəqiqdir. Sadəcə bu məsələyə peşəkar yanaşanda, özü də obyektiv yanaşanda hər şey öz yerini tapır. Şəmistan məsələlərə bu cür yanaşır. Uzun illər Azərbaycan jurnalistikasında yorulmadan çalışan Şəmistanın bütün yaradıcılığı belə yoğrulub.

Şəmistan Nəzirli imzası "Vurğun keçib bu yerlərdən" adlı publisistik xatirələr toplusu ilə tanınıb. Böyük məhəbbət və həvəslə ünlü Azərbaycan şairi Səməd Vurğunla balğı xatirələri toplayaraq müxtəlif mətbuat orqanlarında çap etdirib. Həmin xatirələrin biri, Səməd Vurğunun Borçalı mahalının Sadaxlı kəndindən Qazağa qayıdarkən, indi Ermənistan adlandırılan klassik Azərbaycan torpaqlarının bir hissəsi olan Yuxarı və Aşağı Körpülü kəndlərindən keçməsinə və yolda Körpülü məktəbliləri ilə görüşlərinə həsr olunmuşdur. Körpülü məktəblisinin onun məşhur "Azərbaycan" şerini elə yoldaca söyləmələri şairin çox xoşuna gəlmişdi. Şəmistan bu balaca hadisəni elə gözəl qələmə almışdı ki. Yaxşı yadımdadır, həmin yazı ötən əsrin 70-ci illərində "Ulduz" jurnalında çap olunmuşdu. Körpülüdə hamılıqla bu nömrəni

axtarırdılar. Şəmistanın bu yazısı "Vurğun keçib bu yerlərdən" adlı kitabında dərc olundu. Onun "Ulduz" jurnalının səhifələrində dərc olunmuş "Krım dəftəri" adlı publisistik yazısı da Körpülüdə hörmətlə qarşılanmışdı. Şəmistan bu yazısında İkinci Cahan Savaşında itgin düşmüş atası Əmiraslan Omar oğlunun qəbrini tapmış, onun döyüş yolu barədə geniş məqalə yazmışdı. Bu həmin illər idi ki, Şəmistan onda Azərbaycan televiziyasının "Gənclik" baş redaksiyasında, hərbi proqramlar şöbəsində çalışırdı. Digər dinləyicilər və oxucularla yanaşı, Körpülü ədəbiyyat həvəskarları onun məqalələrini, televiziya verilişlərini maraqla oxuyur və dinləyirdilər. Çünki Şəmistan o illər unudulmuş və unutdurulmuş Azərbaycan hərbiçilərinin, o cümlədən çoxlarımızın tanımadığı azərbaycanlı generallar, polkovniklər barədə materiallar hazırlayırdı. Mən Şəmistan Nəzirlinin verilişlərini, məqalələrini səbirsizliklə gözləyən onlarla adam tanıyıram. Azərbaycan hərb tarixində özlərinə məxsus yer tutan tam artilleriya generalı Səməd bəy Mehmandarov, Əlağa Şıxlinski, Şıxlinskinin həyat yoldaşı ilk hərbi şəfqət bacısı Nigar xanım barədə Şəmistan dəfələrlə yazıb. Onların çar ordusunda və Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) dövrlərindəki xidmətləri barədə Şəmistanın yazılarında geninə-boluna materiallar tapmaq olar. Şəmistan Nəzirli bu böyük insanların taleyinin ən xırda məqamlarını belə qələmə alıb, onlar haqqında bilgilərimizi genişləndirib. Yaxud, ilk vitse-admiralımız İbrahim bəy Aslanbəyov barədə. Mətləbə keçməmişdən öncə bir məsələyə toxunmaq istəyirəm. Həmişə yüksək çinli hərbiçilərimizin az olması barədə söhbət düşəndə istər-istəməz adam bir az narahat olurdu. Başqa xalqlarla müqayisədə bizim generalların az olması faktı şəxsən məni çox məyus edib. Sən demə, 1920-ci il aprel çevrilişinə qədər Azərbaycanın 66 nəfər general oğulları varmış. Bütün bunları Şəmistan Nəzirlinin zəhməti hesabına tanıdıq, sevindik. Bunun üçün ona çox borcluyuq. Bunlar asan başa gəlməyib, bu ayların, illərin, yuxusuz gecələrin hesabına başa gəlib. İlk vitse-admiralımız İbrahim bəy Aslanbəyov da onlarla hərbçilərimizdən biri olmuşdur. İlk hərbi təyyarəçimiz Fərrux ağa Qayıbov, ilk topoqraf-generalımız İbrahim ağa Vəkilov, general-leytenant Balakişi bəy Ərəblinski, Borçalı general İsrafil bəy, Həsən bəy, Əsədulla bəy və Davud bəy Yadigarov qardaşları və başqaları barədə Şəmistan uzun və ardıcıl araşdırmalardan sonra onları Azərbaycan xalqına, oxucularına təqdim etmişdir.

Şəmistan Nəzirli ardıcıl və inadlı axtarışları ilə Azərbaycana tanınmış hərbçilər bəxş etmiş görkəmli nəsillər barədə də geniş və maraqlı məlumatlar

vermişdir. Qacarlar, Şıxlinskilər, Novruzovlar, Qayıbovlar, Yadigarovlar, Rəfibəylilər, Kəngərlilər, Talışxanovlar, Naxçıvanskilər, Bakıxanovlar barədə Şəmistan gecə-gündüz tədqiqatlar aparmışdır. Qacarların tarixdə rolunu heç kim dana bilməz. Bu nəslin İran və Rusiya ordusunda xeyli generalı olmuşdur. Əmir Kazım Mirzə, Məhəmmədəli Mirzə, Səməd Mirzə, Mahmud Mirzə, Rzaqulu Mirzə, Əmənulla xan Mirzə, Feyzulla xan Mirzə general rütbəsində xidmət etmişlər. Bundan başqa, Qacarlar ailəsində on beş polkovnik də vardı.

Naxçıvanskilər də Azərbaycan hərb tarixinə bir sıra hərbiçilər bəxş etmişlər. Kəlbalı xan, Ehsan xan, İsmayıl xan, Cəmşid xan, Hüseyn xan Naxçıvanskilərin həyat və fəaliyyətləri barədə Şəmistan maraqlı faktlar üzə çıxarmış və onları Azərbaycan xalqına təqdim etmişdir. Bu nəslin xüsusən Azərbaycan Xalq Cümhuriyyəti dövründə xidmət etmiş nümayəndəlirindən polklvnik Bəhram xan Naxçıvanski, Davud xan Naxçıvanski və Murad xan Naxçıvanski haqqında da axtarışlar Şəmistana məxsusdur.

Hər bir azərbaycanlı üçün əziz olan Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) dövründə Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasında iştirak etmiş generallar və digər hərbi qulluqçular haqqında Şəmistan Nəzirlinin tədqiqatları xüsusilə maraq doğurur. Şəmistan bu seriyadan "Azərbaycan generallrı", "Cümhuriyyət generalları", “General Əli ağa Şıxlinski ömrü”, "Qacarlar" və s. kitablar nəşr etdirmişdir. General-leytenant Məmməd bəy Sulkeviç, İsrafil bəy və Əsədulla bəy Yadigarov qardaşları, general-mayor Həbib bəy Səlimov, Cavad bəy Şıxlinski, Əbdülhəmid bəy Qaytabaşı, Firidun bəy Vəzirov, Murad Gəray bəy Tlexas, İbrahim ağa Usubov, Əmir Kazım Mirzə Qacar, Davud bəy Yadigarov, Xəlil bəy Talışxanov, Əlyar bəy Haşımbəyov, Teymur bəy Novruzov, Məmmədsadıq Ağabəyzadə, Səməd bəy Rəfibəyov, Mirkazım xan Talışxanov, Feyzulla Mirzə Qacar, Məhəmməd Mirzə Qacar, Cahangir bəy Novruzov və başqaları barədə Şəmistan Nəzirli qələmi yorulmadan yazmışdır. Fürsətdən istifadə edib bir arzumuzu bildirmək istərdik. Yaxşı olardı ki, Şəmistan bütün generallar haqqında yazdıqlarını bir yerə toplayıb "Azərbaycan Hərb tarixi" seriyasından fundamental "Azərbaycan generalları" kitabını tarixi ardıcıllıqla, yığcam şəkildə çap etdirsin. Düzdür, bu kitab bəlkə də bir neçə cildə sığışmayacaq, böyük xərclər aparacaq. İndiki bazar iqtisadiyyatı şəraitində bu problem məsələdir. Ancaq inanıram ki, belə fundamental kitabın nəşrini öhdəsinə götürən ləyaqətli Azərbaycan övladları tapılacaq. Bu mənim və inanın ki, onlarla insanların arzusudur.

Şəmistan Nəzirli eyni zamanda, gözəl nəsr ustasıdır. Şəmistanın "Qoridən gələn qatar", "Qarxunlu Əşrəf bəy", “Yaddaşlarda yaşayan Vurğun”, “Tam artilleriya generalı S.Mehmandarov”, “1920-ci ildə Qarabağ döyüşləri”, “Əfsanəvi Mixaylo”, “Beş günlük qonaq”, “General Şıxlinski və silahdaşları” povestləri onun yaradıcılığında xüsusi yer tutur. Sənədli faktlar əsasında yazılmış bu povestlərdə Şəmistan geniş yaradıcılıq imkanlarından istifadə edərək, maraqlı nəsr nümunələri yarada bilmişdir.

Ötən illərə nəzər saldıqca istedadlı yazıçı, tədqiqatçı jurnalist Şəmistan Nəzirlinin maraqlı və layiqli bir ömr yolu keçdiyinin şahidi olursun. Onun indiyədək otuz altı kitabı nəşr olunub. Bu kitablar narahat günlərin, yuxusuz gecələrin məntiqi nəticəsidir.

Azərbaycan hərb tarixini yaradanların birincisi olan Şəmistanın "Arxivlərin sirri açılır" və “Güllələnmiş Azərbaycan generalları” kitabları da müəllifin uzun illər topladığı qiymətli tarixi materiallar əsasında yazılmışdır. Bu kitablarda Azərbaycan hərb tarixinin indiyədək heç kimə tanış olmayan qaranlıq məqamları öz əksini tapmışdır. İnanıram ki, Ş.Nəzirlinin bu kitabları da digər əsərləri kimi Azərbaycan hərb tarixini izləyənlərin stolüstü kitabına çevriləcəkdir.

Möhtərəm oxuculara təqdim olunan “Güllələnmiş Azərbaycan generalları” kitabınının əlavələrlə üçüncü nəşridir.

***Elşad Qoca,***
***Azərbaycan Yazıçılar və***
***Jurnalistlər birliklərinin üzvü.***



**Heydər Əliyev**
*Azərbaycanın ümummilli lideri*

Azərbaycan çar Rusiyasının tərkibində olarkən xalqımızın çox dəyərli şəxsiyyətləri orduda yüksək rütbələrlə xitmət etmişlər. General Səməd bəy Mehmandarovla, general Əli Ağa Şıxlinski, Talışxanov, Novruzov, Bakıxanov, Qacarlar, Yadigarov və Naxçıvanski nəslindən olan generallarla fəxr eləyirik.

Onlar bizim tariximizə yazılıbdır. Biz onları böyük hörmət və ehtiram hissi ilə xatırlayırıq.

Bizim keçmişdə də ordu yaratmaq sahəsində böyük ənənələrimiz olub. Milli dəyərlərimizi, milli ənənələrimizi, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz.

Atalarımızın, babalarımızın, əcdadlarımızın qəhrəmanlıq nümunələri bu gün də, gələcəkdə də müstəqil Azərbaycanı qoruyub saxlamaqda, onun müstəqilliyini əbədi etməkdə bizim üçün örnək olmalıdır.

Gərək biz tarixi şəxsiyyətləri heç vaxt unutmayaq. Tarixin hər səhifəsinə hörmətlə, ehtiramla yanaşaq.

Bu günü daha yaxşı görmək üçün keçmişi bilməliyik.

***Ömər Xəyyam (1048-1131)***

*Biz türklər çox qəribə adamlarıq; bizə görə bilmək başqalarını öyrənmək və bizdən uzaq olan şeyləri anlamağa çalışmaqdır. Özümüzü öyrənmək heç ağlımıza gəlməz; özümüzü bir varlıq saymırıq.*

*Böyüklərini tanımaq hər millətin borcudur. Kimsə kimsəyə "Sən atanı tanıma, sən babalarının dünyadan necə gəlib keçdiklərini öyrənmə, sən əski atalarının adlarına, sanlarına maraq göstərmə!" - deyə bilməz. Deyərsə, ən təbii bir haqqa toxunmuş və ən böyük bir haqsızlıq etmiş olar. Özünü və öz böyüklərini tanımağa çalışmaq millətin vəzifəsidir; bunu etməyən bir millət nümayəndəsi milli vəzifələrini yerinə yetirməmiş hesab olunur.*

***Bəsim Atalay, (1882-1965)***
***Görkəmli Türk alimi.***

***Gah soldan, gah sağdan çapdılar bizi,***
***Yadlar çox ev yıxıb, çox quyu qazıb.***
***Əfsuslar olsun ki, tariximizi***
***Özgələr yazanda başqa cür yazıb.***

***Hüseyn Arif,***
***Xalq şairi.***

*Möhtərəm oxucum! Bu kitabı bir nəfəsə oxuma. Burda nə məhəbbət macarası var, nə də fantaziya. Bu kitabın hər vərəqində xalqımızın hərb tarixindən səhifələr, sərkərdə oğullarımızın döyüş və ömür yolu var. Əgər səbrin çatmayıb bir nəfəsə oxumalı olsan, onda 20-ci və 37-ci illərdə qanına qəltan edilmiş generallarımızın acı taleyindən kədərlənmə. Əksinə, nikbin ol, qürurlan, qoy sənin varlığında düşmənə qarşı nifrət artsın. Yetmiş ildən çox unutdurulan yaddaşın ayılsın. Ayılsın ki, indi sən müstəqil Azərbaycanın övladısan, sayıq ol ki, əhatən düşmənlə doludur. Unutma ki, torpağında parçalanma, qəlbində yara var. Bu yaralara məlhəm olacaq gənc ordumuzun sıralarının möhkəmlənməsi üçün əlindən gələni əsirgəmə.*

***Müəllif***

# 1920-Cİ İLƏRİN SƏRKƏRDƏ QURBANLARI



## N.NƏRİMANOV: «HEÇ KİM GÜLLƏLƏNMƏSİN…»

**Azərbaycanı başdan-başa qarət edirlər, sağa və sola güllələyirlər.**

**İşlərlə tanış olduqdan sonra, mən İnqilab Komitəsinin Rəyasət Heyətinin iclasını təyin etdim və o zaman faktiki olaraq hər şeyi idarə edən Semyon Pankratovu dəvət etdim. Mən belə bir məsələ qoydum ki, İnqilab Komitəsinin sanksiyası olmadan heç kim güllələnməsin.**

**Mirzə Davud Hüseynov və Əlhedər Qarayev bunun əleyhinə çıxdılar. Beləliklə, hər şey əvvəlki kimi davam edirdi…**

**Bütün bunların müəllifi, onlardan daha ağıllı olduğu üçün A.Mikayan sayılır. Çevriliş baş verdikdən sonra A.Mikayan dedi: «Biz Nərimanovu İnqilab Komitəsinin sədri seçərik və onu elə mühasirəyə alarıq ki, o çox da öz nüfuzundan istifadə edə bilməsin, o bizim təsirimiz altında olsun».**

***Nəriman Nərimanov «Ucqarlarda inqilabımızın tarixinə dair» (İ.V.Stalinə məktub). Kitabı, səh. 17-26-da***

Nahardan bir az keçmiş Azərbaycan Xalq Komissarı Soveti sədri Nəriman Nərimanovun qəbuluna XI ordu siyasi idarəsinin xüsusi şöbə rəisi Semyon Pankratov gəldi. Boz üzlü qovluğu açıb böyük bir siyahını sədrin stolun üstünə qoydu. Nərimanov: «Bu nə siyahıdır?» – deyə, soruşanda Pankratov:

- Bunlar, - dedi, - fəhlə və kəndli düşmənlərinin ad və sayıdır. Tanış ola bilərsiniz, hər biri dindirilib, onlardan izahat alınıb. Sübut olunub ki, bunların hamısı güllələnməlidir.

Siyahını vərəqləyən İnqilab Komitəsinin sədri təəccüblə yenidən birinci səhifədəki Adjibekov Uzeir bek Abdulquseyn oğlunun adını bərkdən oxuyub, əsəbi halda dedi:

- Hacıbəyov soyadını düz yazmamasınız. Baxıram, burda nə az, nə də çox 99 azərbaycanlı ziyalısının və hərbiçilərinin qətlinə fərman vermisiniz. Axı. nəyə görə, bunlar hansı əməllərinə görə güllələnməlidirlər?! Bu qədər də xalq düşməni olar?

Pankratov etiraz etdi:

- Hələ bunlar hamısı deyil. Yaxın günlərdə daha böyük siyahı olacaq. Samur

körpüsündə, Biləcəridə qabağımıza çıxıb bizə güllə atanları da həbs etmişik. İndi onların dindirilmə istintaqı gedir. Bu 99 nəfərin dindirilmə protokolları bizim idarədədir. Onları gətirmədim, ağır yükdür. Ancaq təsdiq olunmuş siyahını sizə təqdim etmişəm.

- Yoldaş xüsusi şöbə rəisi, mən sizdən yenə soruşuram: bu 99 adamın günahı nədir?

Yerində dikələn Pankratov həyasızcasına dedi:

- Axı, mən sizə dedim ki, onlar burjuydurlar… Yoldaş Nərimanov, siz məhz kimi soruşursunuz?

- Elə birinci şəxsi Hacıbəyovu, ya da general Mehmandarovu, Şixlinskini, Xosrov bəy Sultanovu, Mahmudbəyov qardaşlarını, hansı birini deyim?..

- Generallar müsavat vaxtı hərbi nazirliyə rəhbərlik edəndə bizə, Rusiyaya qarşı silah qaldırıblar. Bakıda fəaliyyətdə olan bizim kommunistləri həbs ediblər. Hacıbəyov isə yazdığı felyetonlarında biz rusları lağa qoyub. Mənə qəzet gətirdilər, oxuyub tərcümə etdilər. Hacıbəyovun orada 1918-ci illərdə çoxlu məqaləsi dərc olunub. Rusiyadakı bolşevik hökumətini ələ salıb gülür. O, yazır ki, Lenin hökuməti ilə keçmiş Nikolay hökuməti arasında heç bir təfavüt yoxdur. İkisi də bir benzin qırağıdır. Mən qəlbən rusun düşməniyəm. Türkçülüyə rəğbətim isə əbədidir. Yoldaş Nərimanov, o hətta, Azərbaycanın sadiq bolşeviki Əlhedər Qarayev yoldaşı da lağa qoyur.

- Siz bilirsinizmi felyeton janrı nədir, necə yazılır? Felyeton ona görə yazılır ki, insanın qüsurunu üzünə desin, səhvi olanı adamı düz yola qaytarsın. Görünür, yoldaş Qarayevin də haradasa səhvi olub. Burda cinayət tərkibli heç nə yoxdur. Yoldaş Üzeyr bəy Hacıbəyov sağlam ruhlu ziyalıdır. Mən onu yaxşı tanıyıram. O ki, qaldı generallara, onlar hərbi nazir və müavin vəzifəsinə ona görə qoyulmuşdurlar ki, Vətəni qorusunlar. Bu, onların vəzifə, vətəndaşlıq borcu idi. Onlar qaçaq-quldur deyildilər…

- Hansı vətəni?.. Bu generallar bizim Azərbaycanda qurduğumuz bolşevik hökumətini sevmirlər. Dindirilmə vaxtı bunu özləri etiraf etdilər. Məsələn, general Şıxlinski «Hansı siyasi partiyanın və ya inqilabın mənafeyini müdafiə edirsiniz?» sualına cavab verdi ki, hər bir inqilaba əks inqilab kimi yanaşıram, heç vaxt belə şeylərə qoşulmamışam, keçmişdə də qoşulmazdım…

Onun naziri Mehmandarov isə həmin suala belə cavab verdi:

- Bütün ömrüm boyu mən hər cür siyasətdən uzaq olmuşam.

Görürsünüzmü, yoldaş Nərimanov, hər ikisi bizim inqilabı təhqir edir, zəhmətimizi qiymətləndirmir. Bizim gətirdiyimiz azadlığı…

Nəriman Nərimanov:

- Bir dəqiqə dayanın. Onlar düz fikirləşir və düz də cavab veriblər, - dedi. – Ona görə ki, onlar hərbiçidirlər. Axı, bunu siz bilməlisiniz. Hərbiçi, paqon gəzdirən şəxs heç bir cəmiyyətin, partiyanın üzvü ola bilməz. Bu barədə hərbi nizamnamədə xüsusi qeyd olunub. Mənə verilən məlumata görə siz keçmişdə hərbi dəniz qüvvələrində xidmətdə olmusunuz. Matrossunuz. Elədir?

Pankratov şəstlə:

- Bəli, - deyə cavab verdi. – Odessada xidmətdə olmuşam…

Dərhal susdu. Az qaldı desin ki, ağqvardiyaçıyam. - Çünki Qırmızı orduya gələnə qədər həmişə, hər yerdə ağqvardiyaçı olmağı ilə fəxr edirdi. Ağqvardiyaçılar Rusiya ərazisindən qovulandan sonra o, fürsət tapıb bolşevik ordusuna soxulmuşdu. Bunu orduda çox az adam bilirdi.

- Semyon Andreyeviç, sizin generallar haqqında dediyiniz iradlar həqiqətdən çox ara söhbətlərinə oxşayır. Daha doğrusu, qarayaxmadır – deyən Nərimanov az qaldı soruşsun ki, sən hansı yuvanın quşusan?

- Siz bilirsinizmi, iki il əvvəl Azərbaycan adlı məmləkəti daşnaklardan qoruyan elə bu generallar olublar? Əgər ay yarım bundan əvvəl gələn bolşevik hökuməti bu qədər ziyalının və hərbçinin qətlinə fərman verirsə, özü də dəlilsiz-sübutsuz, onda bizim fəhlə-kəndli hökuməti xalqın məhəbbətini necə qazana bilər? Məlum olur ki, mən Azərbaycana gələnə qədər də xeyli adamı güllələmisiniz. Ona görə də mən belə bir ciddi məsələ qoydum ki, İnqilab Komitəsinin sanksiyası olmadan heç kim güllələnməsin.

- Onda Azərbaycanda bolşevik hökumətini qurmaq bizə çox çətin olacaq, yoldaş Nərimanov.

- Biz Sovet hökumətini qanla, silahla yox, təbliğatla, xalqa yeni hökumətin nüfuzunu başa salmaqla qura bilərik. Respublikada elə bir vəziyyət yaratmalıyıq ki, hakimiyyət süngü ilə deyil, kütlələrin şüurluğu ilə müdafiə olunsun. Sizdən soruşuram, mən rayonlarda səfərdə olanda on iki azərbaycanlı generalını və hərbçilərini nəyə görə, hansı əsasla güllələmisiniz?!

- Yoldaş Nərimanov, mən onları özbaşıma güllələməmişəm. Bu generallar yoldaş Orconikidze və Mikoyan yoldaşın əmri ilə güllələnib. Sanksiyanı da onlar verib. Mən əmri yerinə yetirmişəm. Sizə qədər bu stolda onlar əyləşirdi. Əmri də onlar verdi. Hər ikisi mənə başa saldılar ki, biz Dərbənddə dayananda həmin generallar bolşevik əkstəbliğatı aparıblar. Bakıda və Azərbaycanda bolşevikləri həbs edib güllələyiblər.

- Bu yersiz qətlləri törətməklə siz fəhlə və kəndlinin də ürəyinə qorxu xofu

salırsınız. ona görə də balaca fürsət tapan kimi ziyalılarımız qaçıb İrana, Türkiyə və Almaniyaya mühacirətə gedir. Bəs biz kimlərlə işləyəcəyik?.. Təkcə Gəncə üsyanının deyil, Zaqatala, Qarabağ, Tərtər və Dəvəçi üsyanlarının ölkəni ağzına almasının səbəblərini də burda axtarmaq lazımdır. Bakıda oturub qiymətli oğulları həbs etməkdənsə qəzalara gedib camaatın dərd-sərinə qalmaq lazımdır.

Nərimanov masanın üstündəki qovluqlardan birini açıb dörd-beş vərəqdən ibarət məktubu tapdı. İki gün əvvəl aldığı məktubun üstünə dərkənar qoymuşdu: yoxlayıb, dəqiqləşdirməli.

- Semyon Aleksandroviç, - dedi, - onsuz da sizi çağırtdıracaqdım, yaxşı oldu onsuz özünüz gəldiniz. Bu günlərdə siz və işçiləriniz Təzəpir məscidi yanında yaşayan Tacir Hacı Qədirin evində olmusunuz?

- Bəli, - deyə Pankratov cavab verdi.

- Hacının mənzilinə getməkdə məqsədiniz nə idi?

- Əvvəla mən oraya öz işçilərimlə getməmişdim. Bakı Komitəsinin katibi Sərkis Danilyanın və Qarayev yoldaşın mənə qoşduğu adamlarla getmişdim. Yeddi-səkkiz nəfər idik. Kapitan Kornev, Bakı fəhlə-kəndli klubunun müdiri Tevosyan, sıravi əsgər Yemelyanov, Nikolay Unanyan və mən. Danilyan yoldaş bizə tapşırıq vermişdi ki, Hacı Qədirin və o ərazidə yaşayan müsavat dövründə vəzifədə olan varlı adamların evində vəzndən yüngül, çəkidən ağır nə varsa alıb gətirin. Danilyan bizə varlı adamların siyahısını da vermişdi.

Nərimanov Hacının məktubu Pankratova göstərib dedi:

- Hacı Qədir mənə göndərdiyi məktubda onun təhqir və qarət olduğunu yazır.

- Bizə demişdilər ki, onun çoxlu qızılı var. Əvvəlcə Hacı boynuna almadı, qızılım-zadım yoxdu, - dedi, - kasıb adamam. Onda evi axtarmalı olduq. Aynabəndin döşəməsində ağzı təzəcə sementlənmiş quyu aşkar etdik. Hacı müqavimət göstərmək istədi. Nikolay Unanyan silahı göstərib, kənara çəkilməsini əmr etdi. Quyudan böyük bir küp çıxdı. Onun içində 22 pud zinət şeyləri, on pud qızıl və gümüş pullar həmçinin çoxlu brilyant və qiymətli daş-qaş vardı.

- Hamısını götürdünüz?

- Bəli, üstəlik də on yeddi iri ölçülü xalçaları da alıb gətirdik.

- Bu məktubda göstərilir ki, sizin dəstə həmin gün Təzəpir məscidi ərazisindəki əhalidən dörd min xalı-xalça götürüb.

- Doğrudur, o xalçaların hamısı da valyutaya gedən mallardır.

Nərimanov hirslə:

- Sizcə bu soyğunçuluq və qarət deyilmi? – dedi. – Belə məlum olur ki,

Qırmızı ordunun «Talan həftəsi» hələ də davam edir. Müsadirə olunan bu qiymətli mallar indi haradadır, maraqlanmısınızmı, xüsusi şöbə rəisi?..

- Xeyir, maraqlanmamışam. Biz o əşyaların hamısını sənədləşdirib Sərkis Danilyan yoldaşa təhvil verdik.

- Amma mən maraqlanmışam. Bilirsiniz hardadır, o xalı-xalçalar, o zinət şeyləri vaqonlara yüklənib Moskva və İrəvana göndərilib. Azərbaycan xalqının qiymətli sərvətini respublikadan çıxarmağa heç kimin ixtiyarı yoxdur. Belə biabırçılıqlara son qoymaqdansa siz həbslərlə, güllələnmələrlə məşğul olursunuz.

Pankratov dinmədi. Müqəvva kimi susub, heç bir əsaslı cavab verə bilmədi.

Nərimanov onun potaş sifətinə, bulanıq gözlərinə diqqətlə baxdı. Ona bir şey başa sala bildiyini az qala üz-gözündən oxumaq istədi. Amma o canilərə məxsus küt sifətdə rəhm görmədi. Ona görə də nifrətlə:

- Yaxşı, - dedi, - gedə bilərsiniz. Qoyun siyahı məndə qalsın. Bir daha baxıb, tanış olaram.

Semyon Pankratov gedən kimi Nərimanov köməkçisi Nurməmməd Şahsuvarovu (1881-1958) yanına çağırıb belə bir sərəncam verdi:

- Bu namərd əqidə dostlarının yanına çatmamış mənim adımdan həbsxana rəisinə bir əmr hazırla. Qoy 99 nəfərin hamısını azadlığa buraxsın. Rəsmi məktub da hazırlayın İnqilab Komitəsinin adından, özümü də həbsxana rəisi ilə telefonla calaşdır. Həbs olunanlardan iki nəfəri general Səməd bəy Mehmandarovu və general Əli ağa Şıxlinskini mənim yanıma gətirsinlər. Pankratova da xəbər verin ki, hər iki generalın dindirilmə protokollarını gətirib gəlsin.

* * *

Bir xeyli sonra sənədlərlə qayıdan Pankratovu Nərimanov dərhal qəbul etmədi. Köməkçisinə dedi:

- Protokolları və sənədləri ondan al gətir, qoy özü hələ gözləsin, bir azdan çağıraram.

Generalların hər biri haqqında on beş-iyirmi səhifəlik «Həbs vərəqəsi» tərtib olunmuşdu. Bir neçə rus və erməni bolşeviki dindirilmədə onların əleyhinə ifadələr vermişdilər. Nərimanov 717 nömrəli protokolu açıb oxuyanda donub qaldı. Buradakı azərbaycanlı rotmistrinin imzası ona daha ağır təsir etdi. Təəssüf hissilə başını yırğalayıb öz-özünə dedi: «Ay namərd İlyas bəy, kimi kimə satırsan? Vaxtilə adı, sanı ilə rus ordusunda şöhrət tapmış dindaşın olan sərkərdələrimizimi? Anam Həlimə haqlı deyərdi ki, oğul, hər çiy süd əmənə

inanma, insanın naxələfliyi onun bəy və ya rəiyyət olmasına dəlalət eləmir «Kotanı bərkdə, igidi yaman gündə sınarlar» - deyib, babalar.

Bu dindirənlərin A.Qubin, Boris Qluxaryev, Semyon Pankratov olmalarını başa düşürəm. Bəs səni – ziyalı nəslin bəy balasını, rotmistri necə anlayaq. Ay namərd, gör nə ifadə vermisən:

«General Səməd bəy Mehmandarov nazir olanda fəhlə və kəndliyə düşmən gözü ilə baxırdı. O, müsavat hökumətinin bu vəzifəyə təyin etdiyi əlaltısı idi. Bolşevik hökumətinə nifrət edirdi. İnqilabımızı, Qırmızı ordunu sevməyən qatı müsavatçıdır. Qoca general Səməd bəy Mehmandarov Qırmızı ordunun bəzən düçar olduğu məğlubiyyətdən çox razı qalardı. General Əli ağa Şıxlinskinin isə Denikin ordusuna rəğbəti vardı».

İki saatdan çox sənədlərlə tanış olan Nərimanov heç kəsi qəbul etmədi. Xeyli fikirli dayanıb daş kimi hərəkətsiz qaldı. Otaqda yalnız bircə səs sükutu pozur – divar saatı aramsız tıqqıldayırdı. O gözləmədiyi müdhiş bir çətinliklə üzbəüz durduğunu yaxşı dərk edirdi. Yuxudan yarımçıq oyanıb, yatağından durmağa taqəti olmayan adamlar kimi halsız idi. Başında dumanlı xatirələr cövlan edirdi. Qəlbinə dolan kəskin nifrət duyğusu ilə qarşısındakı sənədlərə indi ötəri baxırdı. Çox sevdiyi general eloğullarının əleyhinə yazılmış qarayaxma sətirlər gözlərini yandırırdı. Bayaqdan yarıaçıq qapıda dayanan köməkçi Nurməmməd məhəbbətlə ona baxırdı. Qayğıkeşliklə:

- Narahat oldum, yoldaş Nərimanov, - dedi, - yorulmadınız?..

Sədr köməkçisinin sualını cavabsız qoyub:

- Burax, gəlsin, - dedi, - onu…

İçəri girən Pankratov çox bikef idi. Hiss olunurdu ki, sədrin onu bu qədər gözlətməyi xətrinə dəymişdi.

- Yoldaş Pankratov, söhbətimiz bir növ istintaq sayağı olacaq. Mən sizin və Qubin familiyalı işçinizin dindirilmə protokolları ilə tanış oldum. Dəqiqlik naminə sizdən bəzi faktları bilmək istərdim. Bax, elə götürək general Əli ağa Şıxlinski barədə yazılanları. Siz burada göstərirsiniz ki, Əli ağa Şıxlinski ağqvardiyaçı general Denikinlə əlaqə yaradıb, Qırmızı ordunun məğlubiyyətinə sevinib və Qırmızı orduya qarşı hərbi qüvvələri indi də səfərbər edir. Bu faktlar hardandır və nə dərəcədə doğrudur?

- Bu faktları bizə agentimiz verib.

- Axı, burada agentin yox, xüsusi şöbənin böyük hərbi müstəntiqi Qubinin imzası qoyulub. Siz bu sənədi oxumusunuzmu?

- Yox, oxumamışam.

- Bəs dindirilmə protokolunun üstündə sizin dərkənarınız var. «Həbs olunsun və cəzalandırılsın?» yazmısınız.

- Mən əməkdaşlarıma özüm qədər inanıram.

- Necə inanırsınız ki, protokolu oxumadan az qala ölüm hökmünə qol çəkirsiniz. Görkəmli generalın taleyinə belə etinasız yanaşmaq nə dərəcədə doğrudur?

- İşimin çoxluğundan vaxt tapıb oxuya bilməmişəm.

- Onda mən oxuyum, siz də eşidin. «Tamamilə məxfidir». Tam artilleriya generalı, hazırda Azərbaycan Sovet Sosialist Respublikasının Hərbi-Dəniz Komissarının müavini Əli ağa Şıxlinski təqsirli bilinir:

1. Ondan ötrü ki, 1917-18-ci illərdə Əli ağa Şıxlinski hərbi hissələr təşkil etmiş və Sovet hökumətinə qarşı ən fəal iştirakçı olmuşdur.

2. 1920-ci ildə Qızıl ordu əleyhinə Azərbaycandakı bütün hərbi qüvvələri səfərbər etmişdir. 27 aprel çevrilişindən sonra Gəncəyə qaçmağa imkan tapmamışdır.

3. Fürsətdən istifadə edərək Hərbi-Dəniz Komissarının etibarını qazanmış və onun müavini olmuşdur. Bu vəzifədə olarkən fəhlə-kəndli hökumətinin Gəncədə və Gürcüstanda olan düşmənləri ilə gizli əlaqə saxlamışdır.

4. Sovet hökumətinə rəğbəti olan Azərbaycan zabitlərinin hamısını həbs etdirmişdir.

5. Azərbaycanda Sovet hökumətinin qələbəsindən sonra Könüllü Denikin ordusu ilə əlaqələri haqqında çox mühüm sənədləri mayın 15-17-də məhv etmişdir.

6. Mayın 25-də Gəncədə olan üsyan haqqında onun xəbəri olmuş və təşkilatçıları ilə əlaqə yaratmışdır.

***XI ordunun xüsusi şöbəsinin böyük hərbi müstəntiqi A.Qubin».***

Ürək ağrısı ilə köksünü ötürən Nərimanov dedi:

- Altı bəndin hamısının iftira olduğu məlumdur. Mən bunlar barədə daxili işlər naziri Həmid Sultanov və Hərbi-Dəniz Komissarı Çingiz İldırımla məsləhətləndim. Sizin əməkdaşınız A.Qubinin yazdıqlarının yalan olduğunu onlar da təsdiq etdilər. Digər bir sənəddə oxuyuruq ki, Gəncə üsyanı vaxtı general Şıxlinski Bakıda olub. Bunu keçmiş birinci Gəncə süvari diviziyasının qərargah rəisi polkovnik Vasili Sokolovdan aldığınız dindirilmə protokolunda açıq-aydın yazmısınız.

Gəlin həmin protokolla tanış olaq: «On birinci ordunun xüsusi şöbə müstəntiqi A.Qubin Gəncə üsyanının iştirakçısı və ağqvardiyaçı generalla yaxın münasibətinə görə ittiham olunan müttəhim Vasili Nikolayeviç Sokolovun dindirilmə protokolundan çıxarış:

***Sual:*** Nə vaxt və kiminlə general Cavad Şıxlinski teleqraf xətti və telefonla neçə dəfə, nə barədə danışmışdır?

***Cavab:*** Sovet hökumətinin ilk günləri Hərbi-Dəniz Qüvvələrinin xalq komissarı yoldaş Çingiz İldırım general Cavad Şıxlinskini telefona çağırdı. Orduda qalıb xidmət edib-etməyəcəyi fikrini soruşdu. Cavad bu təklifə cavab vermək üçün Əli ağa Şıxlinskidən məsləhət almaq istəyini bildirdi. Çingiz İldırım dedi ki, general Əli ağa Şıxlinski yanımdadır. Və dəstəyi ona verdi. Əli ağa Şıxlinski Cavada dedi: «Çevriliş qansız başa çatmışdır, vəziyyət əladır. Mən qulluq edirəm».

Bundan sonra Əli ağa Şıxlinski dəstəyi Çingiz İldırıma qaytarmışdır. Cavad da Çingiz İldırıma Sovet hökumətində hərbi qulluqda qalacağını və xidmət edəcəyini bildirmişdir.

Bütün bu söhbət Cavad Şıxlinski tərəfindən mənə deyilmiş və mən də bu izahatımda olduğu kimi çatdırıram. Cavadın Çingiz İldırımla gürcü zabitlərinin həbsi ilə bağlı telefon söhbəti də olmuşdu. Mayın iyirmisinə kimi (nə qədər ki, Gəncə şəhərindəki qarnizonun rəisi vəzifəsindən çıxarılmamışdı) özünün baş yavəri rotmistr Əhməd bəy Əfəndiyev-Musabəyovu beş dəfə Əli ağa Şıxlinskini telefona çağırmaq üçün teleqrafa göndərmişdi. Danışığın baş tutub-tutmaması haqqında mən heç nə bilmirəm.

***Sual:*** Hesab edirsiniz ki, Əfəndiyev, Əli ağa Şıxlinski ilə Cavad Şıxlinskinin adından danışmışdır? Üsyanın gedişi vaxtı Cavadın bu üsyanda təşkilatçı və iştirakçı olması mümkündürmü?

***Cavab:*** Üsyanın baş tutmasını Cavad çox istəyirdi. Mən belə fikirləşirəm ki, əlbəttə, üsyanın başında duran adam onun qələbə ilə nəticələnməsini arzulayar.

***Sual:*** Üsyanın başında kimlər dururdu?

***Cavab:*** Mayın 15-də və 20-də Azərbaycan diviziyasının zabitlərinin vəzifədən çıxarılıb əvəzində rus sovet zabitlərinin təyin olunması yalnız Azərbaycan zabit heyətinin deyil, Gəncə əhalisinə də bərk toxunmuşdu. Bu təyinatı milli zabitlər özlərinə təhqir bilirdilər. Bu xüsusilə, general Cavad Şıxlinskini, General Məhəmməd Mirzə Qacarı, polkovnik Cahangir bəy Kazımbəyovu və başqalarını bərk əsəbiləşdirmişdi. Səhv etmirəmsə üsyana da bunlar rəhbərlik edirdilər. Bu dəyişiklikdən sonra onlar özlərinə yer tapa bilmirdilər.

***Sual:*** Üsyan vaxtı general S.Mehmandarov və Ə.Şıxlinski Gəncəyə gəlmişdilər?

***Cavab:*** Xeyir, mən o vaxtlar Gəncədə idim. Onları orada görməmişəm.

***Sual:*** Bəs niyə Cavad məhz general Əli ağa Şıxlinski ilə məsləhətləşir və tez-tez onu telefona çağırırdı?

***Cavab:*** Axı, general Əli ağa Şıxlinski onun doğma əmisidir. Cavad ona ata kimi hörmət edirdi. Əvvəllər də həmişə ağsaqqal kimi onunla məsləhətləşirdi. Mən Azərbaycan ordusuna qulluğa gələndən belə məsləhətləşmənin dönə-dönə şahidi olmuşam. Mənim yadımdadır ki, Cavadın kiçik qardaşı, polkovnik Rüstəm bəy Şıxlinski də əmisi general Əli ağa Şıxlinskidən məsləhət alardı.

***Sual:*** O qardaşdan danışmayın, sizdən onun barəsində soruşmuram. Polkovnik Rüstəm bəy adlı şəxs daha yoxdur. O Bakıda Sovet hökumətinin düşməni kimi güllələnib».

Nərimanov oxumağına ara verib dayandı, diqqətlə Semyon Pankratova baxıb soruşdu:

- Polkovnik Rüstəm bəyi nəyə görə güllələmisiniz?

Pankratov soyuqqanlılıqla cavab verdi:

- O, komandanlıq etdiyi ikinci artilleriya divizionu ilə Biləcəridə qarşımıza çıxmışdı. Bizə qarşı vuruşurdu. Onu dördüncü şöbənin müstəntiqi kapitan Akopcanov və Troyan həbs edib iyunun 11-də güllələyiblər. Bizdən xəbərsiz…

Nərimanov:

- Davam edək, - dedi. – Daha sonra müstəntiq Qubin polkovnik Sokolovdan soruşur:

- Siz general S.Mehmandarov və Ə.Şıxlinski ilə yaxından tanışsınız?

***Cavab:*** Cahan müharibəsi illərində general Səməd bəy Mehmandarovun korpusunda xidmət etmişəm. Ordan tanışlığımız vardı. 1920-ci ilin fevral ayında mənzil məsələsinə görə raport yazmışdım. Çağırıb vəziyyətimi soruşdu. Ailəmin Tiflisdə yaşadığını biləndə kömək eləməyə söz verdi. Əli ağa Şıxlinski ilə dəfələrlə görüşüb söhbət etmişəm. Gəncəyə gələndə həmişə qardaşı oğlu Cavad Şıxlinskinin evində qalardı. Gəncədəki Azərbaycan praporşiklər məktəbini yoxlamağa və buraxılışına gələrdi.

***Sual:*** Üsyan vaxtı harada xidmət edirdiniz?

***Cavab:*** Sovet ordusu Gəncəyə gələndən üç-dörd gün sonra general Vodopyanovun ikinci süvari korpusunun qərargahında xidmət edirdim.

***Sual:*** Nə vaxt həbs olunmusunuz?

***Cavab:*** İyunun 25-də həbs olunmuşam. Qırmızı ordu gələnə qədər Gəncədəki

Birinci Azərbaycan süvari diviziyasında qərargah rəisi idim. Cavad Şıxlinski ilə birgə xidmət etdiyimə görə həbs olunmuşam.

***Sual:*** Günahınızı boynunuza alırsınızmı və niyə məhz Azərbaycan ordusuna xidmətə gəlmisiniz?

***Cavab:*** İmperiya ordusu dağılandan sonra bir çox hərbiçilər kimi mən də işsiz qaldım. Ailəm ehtiyac içində idi. 1918-ci ildə Gəncəyə gəlib raport yazdım. Dərhal qəbul etdilər.

***Sual:*** Siz Azərbaycan ordusunda xidmət edəndə ağqvardiyaçı general Denikinlə neçə dəfə görüşmüsünüz? Söhbətiniz hansı mövzuda olub?

***Cavab:*** Mən heç vaxt Denikinlə görüşməmişəm. Söhbətimiz də olmayıb.

***Sual:*** Yox, görüşmüsünüz. Polkovnik Sokolov, istintaqa yalan məlumat verirsiniz. Suala düzgün cavab verin. General Mehmandarov və Şıxlinski sizi ona görə qulluğa götürüblər ki, general Denikin Bakıya girməsi haqqında danışıqları siz aparasınız. Rus olduğunuza görə sizdən istifadə ediblər. Hətta, ağqvardiyaçı general Vladimir İrmanovun Kutaisi şəhərindən Mehmandarov və Şıxlinskiyə 31 mart 1920-ci ildə göndərdiyi surğuclu məxfi məktubu siz gətirmisiniz. Həmin məktub sizin seyfdə saxlanılıb.

***Cavab:*** Ağqvardiyaçı general İrmanovdan gələn məktubu mən oxumuşam. Onu mənə Cavad Şıxlinski verdi. Oxu – dedi, - gör əmimə İrmanov nə yazır. O da sənin kimi iş axtarır. Oxudum. Məndən alıb yavəri Əfəndiyevə verdi. – Qoy seyfində qalsın, gələndə əmimə verərik.

Mənim seyfimdə belə məktub olmayıb. Əslində belə məktub qərargah rəisinin seyfində saxlanılmalıdır. Cavad onu mənə vermədi. Görünür rus olduğuma görə etibar etmədi. Siz deyirsiniz ki, Azərbaycan generalları Denikinin Bakıya gəlməsini istəyiblər. Əksinə, hər ikisi – həm Şıxlinski, həm də Mehmandarov ağqvardiyaçı Denikinə nifrət edirdilər. Hələ mənim bildiyimə görə Mehmandarov Azərbaycan parlamentində çıxış edib deyib ki, Denikin məni keçmiş rus ordusundan yaxşı tanıyır. O heç vaxt mənim komandanlıq etdiyim ordunun üstünə yeriməyə cəsarət eləməz. Elə də oldu, tarixin gedişatı bunu sübut elədi.

***Sual:*** Yaxşı, general İrmanovun məktubunu siz oxumusunuz, nə yazırdı?

***Cavab:*** Əvvəla general İrmanov Port-Artur və Cahan müharibəsi illərində hər iki Azərbaycan generalları ilə çiyin-çiyinə vuruşub. Bunu məktubunda da yazırdı. Qısa bir tanışlıqdan sonra yazıb yalvarır ki, işsizəm, Azərbaycan ordusunda vicdanla xidmət etməyə hazıram. Lap kiçik vəzifə də olsa işləyərəm. Ailəm çox böyük maddi ehtiyac içindədir.

Məktubda general Denikini və general Şkuronu söyür, onlarla mübahisə edib işdən çıxdığını yazır. Bir müddət Şkuronun Kuban ordusunda xidmət etməsini, ac-yalavac, ordunun dağılıb stanitsalarına getməsini, Denikinlə siyasi baxışlarının barışmaması haqqında qısaca qeyd edir. Məktubda siyasi məzmunda heç nə yox idi. Hətta, qızlarından və həyat yoldaşından salam söyləyir. Görünür, ailəvi yaxın olublar.

## AZƏRBAYCANA ETİBAR OLUNMUR

**Azərbaycanda daşnak siyasəti tam gücü ilə həyata keçirilir. Mənim zərrə qədər də şübhəm yoxdur ki, Serqo və Stalinin simasında AKP MK biz türklərə etibar etmir və Azərbaycanın taleyini erməni daşnaklarına tapşırır... Onlar həmişə Əlheydər Qarayevi irəli çəkirlər, onu isə bütün Azərbaycan hər cəhətdən satqın adam kimi tanıyır. Azərbaycanda namuslu türk işçiləri partiyanın bu üzvlərinin simasında RKP MK tərəfindən Azərbaycana olan belə etinasızlığı heç vaxt yaddan çıxarmayacaqlar.**

***Nəriman Nərimanov***
***1924-cü il, 27 may, Moskva.***

29 iyun 1920-ci ildə müstəntiq A.Qubin təxribatçılıqda günahlandırılan rotmistr İlyas Əliqulu oğlu Şahtaxtinskinin dindirilmə protokolundan (İş № 717) çıxarış:

General Əli ağa Şıxlinskini Azərbaycan Ordu Qərargahında xidmət eləyəndən tanıyıram. Onun Sovet hökumətinə münasibəti barədə deyə bilirəm ki, o, heç də bundan razı deyildi. Əksinə, bu qoca general Qırmızı ordunun bəzən düçar olduğu məğlubiyyətdən razı qalırdı. Şıxlinskinin Könüllü orduya rəğbəti vardı. Bolşevik terroristləri Könüllü ordunun nümayəndələrinə mərmi atdıqlarına görə tutulan zaman Əli ağa Şıxlinski sevinc və məmnunluqla yavəri kapitan Stanislav Mixayloviç Çayevskiyə deyib: «Siz bu əclafları artıq həbs etmisiniz. Çox yaxşıdır». Bu sözlərini mən özüm eşitmişəm. Qırmızı ordu Dərbənddə olarkən Azərbaycan ordusunun qərargah komandiri Qədimova silahı təmizləyib həmişə qərargahda olmaq və heç yerə getməmək əmrini vermişdi. General Şıxlinski bu əmri verməyin səbəbini Qırmızı ordunun yaxınlaşmasını və bu səbəbdən də bolşeviklərin Bakıya girə bilməsi təhlükəsi ilə izah edirdi.

1920-ci il təxminən aprelin 15-də mən Qarabağ ordusunun Şuşadakı qərargahında ezamiyyətdə idim. Bu zaman müvəqqəti hərbi nazir vəzifəsini icra edən general Əli ağa Şıxlinskidən general Həbib bəy Səlimovun adına şifrəli teleqram gəldi. O, Quba və

Tatar süvari alayları vəziyyətinin ciddi olmasını nəzərə alaraq göndərilməsini tələb edirdi. Bu teleqramın şifrəsini mən açdım. General Səlimov alayları göndərdi və cavab verdi ki, Azərbaycan iki cəbhədə vuruşa bilməz. General Əli ağa Şıxlinskinin Sovet hökumətində yaxşı xidməti barədə heç nə deyə bilmirəm. Ona görə ki, bu vaxtlarda mən həbsdə olmuşam.

***İmzaladı:*** **İlyas Şahtaxtinski**
***İş icraçısı:*** …………………

Canüzücü, yalan və iftiralarla dolu protokolları oxuyub qurtardıqdan sonra Nəriman Nərimanov xüsusi şöbə rəisi Semyon Pankratovu vəzifəsindən azad etdi. Şübhəsiz ki, bu qədər cinayətindən sonra onun özü güllələnməyə məhkum olundu. Bu barədə 1920-ci il mayın 30-da menşevik Gürcüstanında dərc olunan «Грузия» qəzeti daha dəqiq məlumat verir. Qəzet yazır: «Fövqəladə komissiya qırğına ehtiyatla başlamışdır, lakin sonradan sərt şəkildə fəaliyyət göstərərək ucdantutma həbslər etdi. Komissiya xüsusi ilə matros Pankratovun rəhbərliyi altında «daha müvəffəqiyyətlə» işləmişdir. Lakin Nərimanovun Bakıya gəlişindən sonra Semyon Pankratov aradan götürüldü».

Azərbaycana «azadlıq» gətirən XI ordu 79 nəfər hərbiçilərimizi 1920-ci il iyunun 6-da həbs edib, Nargin arasında məhz matros Semyon Pankratovun sərəncamı ilə güllələmişdir. Onların arasında Gəncə general-qubernatoru Xudadat bəy Rəfibəyov, general Əbdülhəmid bəy Qaytabaşı, podpolkovnik İsmayıl xan Ziyadxanov, general İbrahim ağa Usubov, general Əmir Kazım Qacar, Bakı şəhər polis idarəsinin rəisi Quda Qudiyev, milyonçu Murtuza Muxtarov, general Məhəmməd Mirzə Qacar, general-leytenant Məmməd bəy Sulkeviç, general Həbib bəy Səlimov, İsgəndər bəy Seyfulin və başqa Azərbaycan ziyalıları vardı.

* * *

Nərimanov nə qədər yorğun olsa da, indi başından bir fikri qova bilmirdi. Bu qırğınlardan sonra qalan iki generalımızı necə qorumalı?...

Köməkçisi Nurməmmədi çağırıb bir fincan çay istədi.

- Başım bərk ağrıyır, - dedi, - sonra generalların harada olmasını soruşdu. Şahsuvarov cavab verdi ki, onların üst-başı pis gündə idi. Neçə günlük türmə həyatından çox sınıxıblar. Belə görkəmdə özləri də sizin qəbulunuza gəlmək istəmədilər. Bilirdim ki, Pankratovla söhbətiniz uzun çəkəcək. Evlərinə göndərdim. Amma, yoldaş Nərimanov, etibarlı bir nəfər mənə zəng edib xəbər verdi ki, generalları izləyirlər. Deyəsən başlarında yenə qovğa var.

- Mənim adımdan daxili işlər komissarı Həmid Sultanova zəng elə, hər

ikisinin Nikolayev küçəsindəki mənzilinə gözətçi qoysun. Özün də get, onlara baş çək, həm də xəbər ver ki, səhər saat onda onları gözləyəcəm.

Həmid Sultanov, Muxtar Hacıyev, Çingiz İldırım və bəzi yaxın adamlar, Nərimanovun Azərbaycana gəlməsinə sevinənlər ona bildirmişdilər ki, gələn Qırmızı ordunun sıralarında çoxlu saydı daşnak əsgəri və zabiti var. Onlar da havadarları Levon Mirzoyana, Anastas Mikoyana, Sərkis Danilyana, Serqo Orconikidzeyə arxalanıb minbir fəndlə, yerli-yersiz burjuy, müsavatçı damğası ilə Azərbaycanın oğul və qızlarını həbs edir və güllələyirlər. Xüsusilə Gəncə üsyanından sonra Azərbaycanlılara düşmən gözü ilə baxırlar.

1920-ci il aprelin 27-də yeni gələn bolşevik hökuməti Çingiz İldırımı Hərbiyyə və Bəhriyyə komissarı vəzifəsinə təyin etdi. Aprelin 30-da səkkiz saylı əmrlə o, özünə müavin general Əli ağa Şıxlinskini götürdü. Çingiz İldırımın sənəti inşaat mühəndisi olduğuna görə hərb işini o qədər də yaxşı bilmirdi. Sonralar Ə.Şıxlinski xatirələrində yazırdı: «Komissar mənim yanıma gəlib, onun müavini vəzifəsini qəbul etməyimi təklif etdi. Mən razı oldum. Onda o, gülümsəyərək mənim paqonlarımı göstərib dedi:

- Bunları çıxarmaq lazımdır.

Mən belə cavab verdim:

- Madam ki, mən sizinlə işləməyə razılıq verirəm, bu o deməkdir ki, məndə hər şeydən əvvəl daxili bir dəyişiklik əmələ gəlir; bu isə əlbəttə, zahiri əlamətdən daha əhəmiyyətlidir (Ə.Şıxlinski «Xatirələrim», Bakı, 1984-cü il, səh. 191-də).

İki ay yeddi gün Hərbi-Dəniz Komissarı vəzifəsində işləyən Çingiz İldırım gördü ki, bolşeviklər keçmiş milli ordunun əsgər və zabitlərini məhv edib dağıdırlar. Onda hərbi müşavirədə sərt şəkildə bolşevik rəhbərlərinə bildirdi ki, siz açıq-açığına bizim ordunu dağıdırsınız. Niyə və niyə görə, səbəbi məlum deyil. Axı, aprelin 27-də biz kommunistlər Azərbaycan Parlamentinin fövqəladə iclasına qərar təqdim etmişdik. Səs çoxluğu ilə qəbul edilən səkkiz şərtin birinci bəndində: **«Sovet hakimiyyətinin idarə etdiyi Azərbaycanın tam müstəqilliyi qorunub saxlanılacaqdır». Yeddinci bəndində isə «Azərbaycan ordusu olduğu kimi qalacaq».** Bu gün ordunu dağıdan, zabitlərimizi güllələyən yoldaşlar bu vədi, bu bəndləri niyə unudublar? Sizin ordunu qırıb-çatmağınız Azərbaycan xalqının, Azərbaycan bolşeviklərinin arasında bərk narazılıq yaradır. Xalq bolşevik hökumətinə inamını itirir. Əgər belə davam edərsə, mən bu vəzifədən istefa verəcəm.

İyulun 4-də elə həmin müşavirdə Çingiz İldırımı etibarsız komissar kimi vəzifəsindən çıxartdılar. Əvəzində rusların sadiq bolşeviki, onların marağını

sadiq qul kimi həyata keçirən Əlheydər Qarayevi iyulun 26-da Azərbaycan Hərbi-Dəniz Komissarı təyin etdilər. Əlheydər Qarayevin təyinatından bir az sonra müavin Əli ağa Şıxlinski də istefa verdi. Əli ağa Şıxlinski bilirdi ki, Əlheydər Qarayevin Hərbi-Dəniz işlərindən zərrəcə başı çıxmır. Deyilən məsləhəti də eşitmək istəmir. Hətta, həmin vaxtlarda Azərbaycan ziyalıları Qarayevə qəddarlığına görə istehza ilə «səfeh malçişka» ayaması vermişdilər.

Əlheydər Qarayevin təyinatından sonra Azərbaycanda qarətlər, sərxoş rus və erməni əsgərlərinin özbaşınalığı, sürgünlər, güllələnmələr daha da artdı.

Əlheydər Qarayevin həmin illərdəki fəaliyyətinin şahidi olan, 1939-cu ildə kommunist rejimindən idarə etdiyi təyyarə ilə birgə qaçıb canını qurtaran təyyarəçi-zabit Məmməd Altunbəy Türkiyədə qələmə aldığı «Azadlığa uçan türk» kitabında Əlheydər Qarayevin qəddarlığı haqqında yazır:

«Gəncə basqınından sonra yeni gələn bolşeviklərin ən yaxşı adamı olmuş Əlheydər Qarayev öz millətinə ermənidən və rusdan daha çox zülm etmişdi. Ruslar bir sıra azərbaycanlıların öldürülməsində, sürgün və həbs edilməsində məhz Əlheydər Qarayevin köməyindən istifadə etmişlər. Hətta, iş o yerə çatmışdı ki, Gəncədə bir-birinə qarğış edənlər «Əlheydər Qarayevin qəzəbinə gələsən» - deyərdilər. Əlheydər Qarayev çox zalım, qəddar bolşevik nökəri və amansız bir adam idi».

Nərimanov heç vaxt gözləmədiyi, ağlına belə gətirmədiyi vəziyyətə düşmüşdü. Neyləməli, indiki vəziyyətdə bu iki generalı necə qorumalı sualı ona rahatlıq vermirdi. Dərdini deməyə sirdaş, sadiq dost axtarırdı. Kiminləsə dərdləşmək, ürəyini boşaldıb məsləhət almaq istəyirdi. Uzun götür-qoydan sonra yox, - deyə fikirləşib qəti qərara gəldi. Bu qarışıq vaxtda onları Bakıda qorumaq mümkün olmayacaq.

* * *

Səhəri gün tezdən onları qəbul edib xeyli söhbət elədi. Respublikada bu günkü vəziyyətin çətinliyindən danışdı. Haqsız həbs olunanlardan, özbaşınalığın baş alıb getməsindən, mərkəz Moskvanın onu bir xeyli gec göndərməsindən təəssüfləndiyini bildirdi.

Ağsaqqal kimi hörmətlə ilk dəfə Səməd bəy Mehmandarova müraciət etdi:

- Səməd bəy, Gəncə hadisəsindən sonra hiss edirdim ki, qəzalarda vəziyyət o qədər də yaxşı deyil. Yerlərdən çoxlu şikayətlər gəlirdi. Şikayətlərin hamısı da Qırmızı ordunun yerli əhali ilə pis davranışı barədə idi. Məktublardan bir neçəsini yerində yoxlamaq üçün xüsusi komissiya ilə bölgələrə səfər etdim. Yevlaxda, Şəkidə, Zaqatala və başqa yerlərdə Qırmızı ordunun əsgər və

zabitlərinin özbaşınalığını bəzi yüksək rütbəlilər adi hal kimi qəbul edir. Mən bunlara dözməyib onları tənbeh edir və cəzalandırırdım. Ordan bir başa sizin ata-baba vətənimiz Şuşaya gəldim. İnanın, orada vəziyyəti lap acınacaqlı gördüm. Ona görə də götürüb mərkəzə şikayət xarakterli belə bir teleqram vurdum: «Respublikanın kəndlərinə səfərin zamanı mənə kütləvi şikayətlər daxil oldu və indi də bunlar davam edir. Kəndlilər şikayət edirlər ki, inqilab komitələri, ərzaq agentləri və XI Ordu hissələrinin nümayəndələri tərəfindən onların sonuncu tikə çörəyi, əllərindən alınır.

Mən hesab edirəm ki, bu inqilab komitələrinin öz işlərinə laqeyd və öz vəzifələrinə cinayətkarcasına yanaşması deməkdir. Bu irad XI ordu hissələrinə aiddir və qısa müddətdə bu biabırçılığa son qoyulmalıdır».

Moskvada Azərbaycanın səlahiyyətli müvəkkili Behbud bəy Şahtaxtinski bizim şikayət xarakterli daha bir məktubumuzu RSFR XKS sədri V.İ.Leninə çatdırıb. Orda da XI ordunun qüvvəsi ilə Ermənistan sərhədindəki müsəlman əhalisinin tərk-silah edilməsini, daşnak hücumlarının təhlükəsi qarşısında qoymasını yazmışıq. Yazmışıq ki:

«Müsəlman əhalisi tərk-silah edilir, daşnakların silahlı dəstələri isə müsəlman kəndlərini amansızcasına qılıncdan keçirir və məhv edirlər. Kəndlilər bağlarını, əkinlərini və avadanlıqlarını ataraq dağlara qaçır. Müsəlman əhalisi daimi müsadirələrə və xüsusilə də mənzillərin kommunallaşdırılmasına görə ümidsizliyə qapanırlar. Çünki bu axırıncı xalqın məişət tərzinə və şəraitə tamamilə əksdir. Buna əsrlərlə davam edən adət-ənənələrin ağır təhqiri kimi baxılır.

…Qızıl ordu əvvəlcə özünü yaxşı aparırdı, indi isə özünü irticaçı kimi göstərir. Yerlərdən sarsıdıcı məlumatlar alınır. İş o yerə çatıb ki, qızlar və qadınlar açıq şəkildə zorlanır. Öz çörəyi ilə dolanan Azərbaycan indi çörəksiz qalıb» (Sitat B.Rəfiyevin «Aysberqin sualtı hissəsi» kitabından götürülüb. Bakı, 1995, səh. 14-də).

Bunların başında gələn komandirlər və rəhbərlər yerlərdəki inqilab komitələrinə elə bir səlahiyyət veriblər ki, Azərbaycan hökuməti ilə qətiyyən hesablaşmır, ordu hissələrinin komandirləri müstəmləkəçilik siyasəti yeridirlər. Şuşada olanda «ordu klubu» deyilən bir binaya baş çəkdim. Nə görsəm yaxşıdır? Kef məclisinin şahidi olum. Qarabağ xanı Mehdiqulu xanın mülkünün böyük zalında xalı-xalçanın üstündə əyləşən sərxoş zabitlər erməni qadınları ilə musiqi dinləyir, rəqs edib, çalıb-oynayırlar.

Nərimanov danışdıqca Səməd bəy son dəfə gördüyü Şuşadakı dədə-baba mülkünü xatirində canlandırırdı. Ürək eləyib soruşa bilmirdi ki, bizim Mehmandarovlar mülkünə baş çəkdinizmi. Ehtiyat elədi, qorxdu ki, «Sizin mülkü də əsgərlər üçün kazarma eləyiblər» cavabını eşidər. İndi dağlar mələyi Şuşanın istilaçı əsgərlər tərəfindən nə kökə düşdüyünü xəyalında canlandıran Səməd bəy az qala sarsılardı. Nərimanov Əli ağaya nəyisə izah edirdi. Onların söhbətindən heç nə eşitməyən Səməd bəy öz aləmində idi. Lənkərandan iki-üç günlüyə Şuşaya gələndə atası Sadıq bəy həmişə balaca Səməd bəyi də özü ilə gətirərdi. Əlindən tutub enişli-yoxuşlu şəhərdə gəzdikcə bir-bir məhəllələri, əzəmətli mülkləri ona göstərib deyərdi: «oğlum, bura Köçərli məhəlləsidir, bu Vəzirovların evidir, bura xan qızı Natəvanın mülküdür. Bura isə qırx ildən çox Qarabağ xanı olan İbrahimxəlil xanın sarayıdır. Oğlum, bunlarda yaşayanların hamısı sənin yaxın-uzaq qohumlarındır.

Xəyallardan ayılan Səməd Bəy: «Yaxşı ki, sədrdən mülkümüzün nə kökdə olduğunu soruşmadım, birdən deyərdi ki, mülkümüzü əsgərlər at tövləsi eləyiblər. O da mənə bir dərd olardı», - deyə düşündü.

Nərimanov bolşeviklərin güllələdiyi on iki Azərbaycan generalının dadına çata bilməməsinə heyfslənib dedi ki, onların hər birini yaxşı tanıyırdı. Səməd bəy başını qaldırıb ilk dəfə onun üzünə baxdı. Kövrək, hüzünlü səslə:

- Heç bilirsinizmi general Əbdülhəmid bəy Qaytabaşının neçə yaşı vardı, - dedi, - özü də təəssüflə, - otuz dörd, - cavabını verdi. Çox istedadlı cavan bir sərkərdəni Azərbaycan xalqı itirdi. Otuz doqquz yaşı tamam olmamış general Həbib bəy Səlimov isə heç evlənməmişdi. Hər dəfə ona ata ərkilə deyəndə ki, niyə evlənmirsən, ömür-gün keçir, oğul; bircə cavabı olardı: «Səməd bəy, qoy dünyamız düzəlsin, sonra…». Bu da düzələn dünyanın sonu, – deyib, göz yaşını ağ dəsmalına hopdurdu.

Nəriman Nərimanov:

- Əli ağa, - dedi, - sizi hansı günahınıza görə ittiham etdiklərindən xəbəriniz var? Matros Semyon Pankratov o qədər qara yaxıb ki, guya ağqvardiyaçı Denikini Azərbaycana çağıran Siz olmusunuz. Həbs olunma sənədlərinizdə o qədər cəfəngiyat yazılmışdı ki…

Sədr sözünü bitirməmiş çılğın təbiətli Əli ağa Şıxlinski soruşdu:

- Ay Nəriman, niyə bizə başağrısı verirlər. Siz Azərbaycana gələnə qədər bizi üç dəfə həbs ediblər. Qoy güllələsinlər canımız qurtarsın. Nə qədər bitli-sirkəli türmələrdə çürümək olar?

Nərimanov günahkar adamlar kimi:

- Əli ağa, - dedi, - görünür, sən özünü qiymətləndirə bilmirsən. Axı, səni hamı «rus artilleriyasının allahı» adlandırır. Biz onu da başa düşməliyik ki, bizim xalq üçün bir generalı yetişdirməyə əlli il vaxt lazımdır! Bəs onda niyə biz öz generallarımızı güllələməliyik?

Sonra Səməd bəyə müraciətlə:

- Özünüz, - dedi, – bu saat respublikadakı vəziyyəti bilirsiniz, hazırkı vəziyyətə ziyalılarımızın, əsgər və zabitlərimizin əleyhinə qəsd-qərəzlik var. Mən bunu sizdən gizlətmirəm. Ona görə belə qərara gəlmişəm ki, sizi bir illiyə, burda sabitlik olana kimi, Moskvaya, Lenin yoldaşın sərəncamına göndərim. Əgər razısınızsa… Hərçəndi, burada daha çox lazımsınız. Yenə deyirəm, vəziyyət belə tələb edir. Başqa çarəmiz yoxdu.

Azərbaycan İnqilab Komitəsinin sədri Nəriman Nərimanov onların razılığını alandan sonra V.İ.Leninə yazdığı məktub və keşikçi dəstəsilə ayrıca vaqonda hər iki generalı Moskvaya göndərdi. Nərimanov məktubunda yazırdı:

«Əziz Vladimir İlyiç!

Gəncə üsyanı zamanı köhnə Azərbaycan ordusunun bütün zabitləri həbsə alınmışdır. Bu məktubu Sizə təqdim edən məşhur generallar – Mehmandarov və Şıxlinski də onların arasında idi. Diqqətli yoxlama nəticəsində məlum oldu ki, bu generalların üsyanla əlaqəsi olmamışdır. Lakin mövqeyimiz sakitləşənə kimi və ümumi işimizə kömək məqsədilə biz hər halda bu qərara gəldik ki, onları qərargahda işləmək üçün Sizin sərəncamınıza göndərək, çünki onlar, hərbi mütəxəssis olmaq etibarı ilə əvəzsizdirlər. Onlardan biri – Şıxlinski Nikolay ordusunda «artilleriyanın allahı» sayılırdı. Polşa cəbhəsi qurtarana qədər qoy onlar Moskvada işləsinlər. Sonra Sizdən xahiş edəcəyəm ki, bizim əsgəri hissələrimizi təşkil etmək üçün onları buraya göndərəsiniz. Bu müddətdə onların qayğısına qalmaq lazımdır.

***Kommunist salamı ilə: N.Nərimanov***
***01 avqust 1920-ci il».***

Qayğıkeş Nəriman Nərimanov hər iki generala iyulun 31-də öz imzası ilə belə bir vəsiqə də vermişdir:

«Bu vəsiqənin təqdim edən Əli ağa Şıxlinski yoldaş Azərbaycan İnqilab Komitəsi tərəfindən gələcəkdə döyüş cəbhəsinə yola düşmək üçün Moskvaya – RSFR inqilabı Hərbi Şurasının sərəncamına göndərilir.

Bütün hərbi və mülkü idarələr, ayrı-ayrı şəxslər yol boyu Əli ağa Şıxlinski yoldaşa mənzil başına maneəsiz çatmağa və ona qanuni kömək göstərməyə çağırılır.

Əli ağa Şıxlinski yoldaşa olan əşyalar və ərzaq məhsulları müsadirə və rekvizisiya oluna bilməz

***Azərbaycan İnqilab Komitəsinin sədri***
***Nəriman Nərimanov***
***İdarəsi işləri rəisi ………… imza».***

Bu minvalla hər iki general Azərbaycanda olan daşnak-bolşevik təhlükəsindən xilas oldular. Onlar bir il iki ay Moskvada yaşayıb Ali Topçuluq məktəbində müəllim işlədilər.

1921-ci il noyabrın 18-də hər iki generalı Nəriman Nərimanov xahiş və minnətlə Bakıya qaytara bildi.

* * *

Bəli, istəyirsiniz adınız baqi qalsın, tək özünüz üçün, öz nəfsiniz üçün yaşamayınız, ümumi və müştərək məqsədə çalışınız.

***Nəriman Nərimanov***

Nəriman Nərimanov yalnız bu iki məşhur generallımızı bolşevik qətlindən xilas etməmişdir. Az müddət Azərbaycan Respublikası Xalq Komissarları Sovetinin sədri olanda general Firidun bəy Vəzirovu, general-qubernator Xosrov bəy Sultanovu, polkovnik Gəray bəy Vəkilovu və onlarla hərbiçiləri, ziyalıları güllələnməkdən xilas etmişdir.

1920-ci il bolşevik-daşnak işğalından sonra Bakıda qalmağa ehtiyat edən Məmməd Əmin Rəsulzadə Lahıca getdi. Həmin il may ayının 16-da Moskvadan Bakıya gələn Nəriman Nərimanov M.Ə.Rəsulzadənin də bolşevik-daşnak təhlükəsindən xilas olması üçün təşəbbüs göstərmişdir. Məmməd Əmin Rəsulzadə «Stalinlə ixtilal xatirələri» əsərində (səh. 23-də) bu qayğını etiraf etmişdir. O, yazır: «Kommunist» qəzetinin 1920-ci il iyun ayı nüsxəsində Azərbaycan Sovet hökumətinin sədri doktor Nəriman Nərimanovun imzası ilə **ilk səhifədə rəsmi bir məlumat vardı: «Məmməd Əmin Rəsulzadəni vilayətlərdə hər cür təhlükədən qorumaq məqsədilə Sovet hökuməti onun paytaxta gətirilməsinə qərar vermişdir. Burada isə həyatı əmniyyət**

**(qorunması) altındadır, əhalinin bu xüsusda əmin olmasını və həyəcana düşməməsini tövsiyə edirik».**

Həmin kitabın 24-cü səhifəsində yenə Məmməd Əmin Rəsulzadə yazır: **«… Başda doktor Nəriman olmaqla Sovet Azərbaycanın bütün nüfuzlu şəxsləri «Məmməd Əminin başından bir tük belə əskik olmamalıdır!»**, - demişdi.

Həmin dövrdə Nəriman Nərimanov ziyalılarımıza da qayğısını əsirgəməmişdir. Məşhur alim-ədəbiyyatşünas Salman Mümtazın qızı Şəhla xanım atası ilə bağlı şahidi olduğu əhvalat haqqında yazır:

«1920-ci ilin əvvəllərində atama yaxın bir dostu deyib ki, Biləcəridə kimdəsə nadir bir əlyazması var. Atam tələsik evə xəbər verib gedib. O, vağzala gələndə qatar tərpənib. Yüyürüb bir əlilə vaqonun dəstəyindən tutub. İkinci əli dəstəyə çatmayıb və qatar onu sürüyüb. Camaat xəbər tutub qatarı saxlatdırır.

Fayton səsi gələndə darvazaya yaxınlaşdım. Gördüm ki, atamın paltarı cırılıb. Tozun içindədir. Onu faytondan bir neçə nəfər qucağında düşürüb evə gətirdi. Bir aydan çox yataqda qaldı. Sonra çətinliklə gəzdi.

1921-ci ildə yenə Biləcəriyə əlyazmaların dalınca gedəndə isə atam yatalaq xəstəliyinə tutulmuşdu. **Bunu eşidən Nəriman Nərimanov bizə gəlmişdi. O gedəndən sonra atama baxmaq üçün həkim təhkim etdi, evimizdə vanna otağı düzəltməklə yanaşı telefon da çəkdirdi. Nərimanov işinin çoxluğundan atamın yanına gələ bilmirdisə də, hər gün telefonla atamdan xəbər tuturdu. Nəriman Nərimanov atamı «Şərqin ədəbiyyat açarı» adlandırmışdı** (Şəhla xanım Mümtazzadə «Xatirə» məqaləsi, «Ədəbiyyat və incəsənət» qəzeti, 30 noyabr 1974-cü il).

***18 yanvar 2012-ci il***
***Görədil Hərbi İstirahət evi***

## GENERAL MURAD GƏRAY BƏY TLEXAS
## (və ya onun faciəli taleyi 1874-1920)



**Doğrusu bilirəm ki, mənim məzarım bir vaxt gül dəs–tələrilə bəzənməyə layiqdir ya yox. Lakin siz, mənim məza-rım üzərinə qılınc qoymalı-sınız. Çünki mən, bəşəriyyətin azadlığı uğrunda mübarizədə cəsur bir əsgər olmuşam.**

***Henrix Heyne, məşhur Alman şairi (1797-1856)***

Milliyyətcə çərkəz olan general-mayor Murad Gəray bəy Tlexas Heynenin dediyi kimi, bəşəriyyətin azadlığı uğrunda yox, Azərbaycanın müstəqilliyi uğrunda 1918-1920-ci illərdə mübarizədə cəsur bir sərkərdə kimi vuruşub. Azərbaycanlı olmasa da, din qardaşımız kimi həmin illərdə milli ordumuzun formalaşmasında onun danılmaz fəaliyyəti olub. Uzun illərdən sonra da olsa, general Tlexası biz bu gün Azərbaycan xalqının qəhrəman övladı kimi xatırlamalıyıq. Xalqımıza təmən–nasız və sədaqətlə xidmət edən belə bir sərkərdə unudulmağa layiq şəxsiyyət deyil. İnanıram ki, gələcək nəsil hərb tariximizdə onun şərəfli adı və fəaliyyəti ilə fəxr edəcək.

1920-ci il mayın 29-da güllələnən general Murad Gəray bəy Tlexasın nəinki ideya silahdaşları, hətta onunla əks cəbhədə dayanan bolşevik müasirləri Həmid Sultanov, Ağababa Yusifzadə və başqaları otuzuncu illərdə belə onun sərkərdə vüqarmı, zəhimli görkəmini yada salıb yazırdılar: "General Tlexasın xarici görkəmi çox təsiredicidir. Ucaboy, enli kürəkli, gözləri od saçır, çiyinlərində böyük epoletlər. Enli yazı stolu arxasında oturur. Stolun üstündə isə müxtəlif dəftərxana alətləri parıldayır. Bir sözlə yaşıl örtüyün üstü müxtəlif fiqurlarla doludur. Ən başlıcası isə sağ tərəfdə naqan, sol tərəfdə isə qamçı yerləşir. O, qorxu bilməz bir şəxsiyyət idi".

* * *

Etiraf edirəm ki, istər mətbuatda, istərsə də televiziya və radiodakı çıxışlarımdan sonra mən nəsə yeni bir şey "qazanıram". Qazanıram o mənada ki, bu çıxışlarımın əks sədası həmişə mənim xeyrimə olur. Xüsusilə, indi yaşı ötmüş adamlar vaxtilə ata-babalarından eşitdiyini, bəziləri də sərkərdələrimiz haqda bildiyi məlumatları mənə çatdırırlar.

Televiziyada "Hərb tariximizdən" verilişindəki çıxışımdan sonra da bir ağbirçək ana köməyimə çatdı.

- Sizin çıxışınıza baxdım, dedi, bir kövrək qadın səsi. - General Tlexas haqqında niyə ötəri danışdınız?

- Olan-qalan faktım bunlar idi. - Cavabını verdim.

- Mən uzun illər arxivdə işləmişəm, - dedi, General Murad Gəray bəy Tlexasın məhkəmə qovluğunun yerini sizə demək istəyirəm. Qırxıncı illərdə tale elə gətirdi ki, mən xeyirxah bir adamın köməyi ilə Daxili İşlər Nazirliyinin Arxiv İdarəsində işə düzəldim. Bir neçə dəfə "etibarsız nəslin nümayəndəsi, türk qarışıqlı casus" kimi məni işdən çıxarmaq istədilər. Orada işləyənlərin əksəriyyəti rus, erməni və cuhud idi. Amma işgüzarlığım və altı dil bilməyim köməyimə çatdı. Nəsil-nəcabətimdə türklük olduğunu bildiklərinə görə bəzi sənədlərlə məşğul olmağa mənə icazə vermirdilər.

Bir gün Əli Bayramovun öldürülməsi və məhkəməsi barədə sənədləri sahmana salmağı mənə tapşırdılar. Dünənki verilişdə etiraf etdiniz ki, general Tlexas haqqında çox az məlumatınız var. Generalın ömür yolunu oradan təfsilatı ilə öyrənə bilərsiniz. Orada hər şey var: məhkəmə sorğu-sualları, şahid dindirilmələri, güllələnmə haqqında hökm... Səhv etmirəmsə, səkkiz, ya da on qovluq olmalıdır. İndi həmin sənədlər Mərkəzi Dövlət arxivində saxlanılır.

Neçə il axtardığım sənədlərin yerini nişan verən ağbirçək ana Fatma xanım Məcid ağa qızı Yusifzadə idi. 1922-ci ildə Batumi şəhərində dünyaya gəlib. Atası Məcid bəy Yusif oğlu Şəkinin Zunut kəndindəndir. Aprel çevrilişindən əvvəl onun Batumda mülkü, dəri-yun zavodu olub. Bu varlı və səxavətli kişini bolşeviklərin fıtvası ilə 1927-ci ilin avqust ayında şəkili nökəri Əli bir Acarın köməyi ilə öldürüb. Bolşeviklər Məcid bəyi öldürənləri cinayətkar kimi həbs edib, Sibirə sürgün ediblər. Mülkə və var-dövlətə isə sahib olublar. Beş yaşlı balaca Fatmanı da Beşumi dağının ətəyində yerləşən yetimxanaya veriblər.

1930-cu ildə uşaq evinin müəllimi Makilyovski soyadlı rus ziyalısı xeyirxahlıq edib Fatmanı Batumdakı türk məktəbinə oxumağa qoyur. Fatma burda yeddi illik təhsil alır.

Fatma xanım deyir ki, anam Ayişə xanım Mustafa qızı türk idi, daha doğrusu,

milliyətcə Laz idi. Lazlar gürcü dinindən müsəlmanlığa keçiblər. Anamın ulu babası İslam dinini qəbul etmək üçün ilk dəfə bayraq qaldırıb lazları türkləşməyə çağırıb. Ona görə də ana tərəfim Bayraqdar, bəzi sənədlərdə isə Bayraqdarşi soyadını daşıyırlar. Babam Həccə getdiyinə görə ona Hacı Bayraqdar titulunu veriblər. İndi Türkiyədə bizim nəslin bir qolu Albayraq soyadını daşıyır...

Tarixdə özünü igid tayfa kimi tanıdan Lazlar haqqında altıncı əsrin Vizantiya tarixçisi Aqatiya yazırdı: "Lazlar qüdrətli və məğrur tayfadır. Onlar digər gürcü tayfalarına da hökm edirlər. Lazlar kolxların qədim adı ilə fəxr edirlər. Başqa dövlətlər içində öz sərvətinin bolluğu, təbəələrinin çoxluğu, torpaqlarının böyüklüyü, məhsuldarlığı və xasiyyətlərinin gözəlliyi ilə fərqlənən lazlara bərabər elə bir tayfa tanımıram..."

* * *

Fatma xanım Yusifzadənin məsləhəti ilə Mərkəzi Dövlət Arxivinə gedib general Murad Gəray bəy Tlexas haqqında araşdırmalar apardım.

Arxivdə rast gəldiyim sənəd Bakıda iğtişaş törətmək istəyənlərə qarşı görüləcək tədbirlər haqqındadır. Bakı ərazisinin Hərbi general-qubernatorluğu üzrə verilmiş həmin elanı Bakı möhkəmləndirilmiş rayonun hərbi general-qubernatoru, general-mayor Murad Gəray bəy Tlexasdır.

***Elanda deyilir:***

"Mənə məlumatlar çatır ki, şəhərdə əhali arasında yaxın günlərdə tətillərin, talanların və ictimai asayişi poza biləcək buna bənzər hadisələrin baş verə biləcəyi haqqında şayiələr gəzir.

Bu məlumatların bəd niyyətli adamlar tərəfindən şəhərin rəvan ictimai həyatmı açıq-aşkar pozmaq və əhalinin səbatsız ünsürlərini hökumət əleyhinə qaldırmaq məqsədilə yazıldığını nəzərə alaraq, bununla bəyan edirəm ki, mən heç bir vəchlə heç bir talana, yaxud hər hansı digər zorakılıq hərəkətlərinə yol verməyəcək, istənilən hökumət əleyhinə çıxış mənim tərəfimdən sərəncamımdakı ixtiyaratın bütün ciddiliyi ilə beşiyindəcə boğulacaq və təxribatçı şayiələr yayan şəxslərə qarşı onların müharibə dövrünün qoşunları ilə mühakimə olunmaqdan ötrü hərbi məhkəmələrə verilmələrinədək tərəfimdən ən qətiyyətli tədbirlər görüləcək.

Bunu nəzərə alaraq, Bakı şəhəri və onun rayonunun dinc vətəndaşlarından buna bənzər şayiələrə uymamağı və məndən asılı olan bütün tədbirlərə zəmanət verdiyim adi həyat tərzlərini, sakitliyi davam etdirmələrini rica edirəm.

Bununla birlikdə vətəndaşların nəzər-diqqətinə çatdırıram ki, hal-hazırda ağır

ərzaq böhranı keçirməyimizi nəzərə alaraq az təminatlı və digər əhaliyə ucuz qiymətlərlə ilk tələbat mallarını almaq imkanı yaratmaqla, həmişə böhranı səngitməkdən ötrü hökumət tərəfindən bir sıra təcili tədbirlər görülmüş və beləliklə yaxın günlərdə böhran əhali üçün əlverişli tərzdə həll olunmalıdır.

Bakı möhkəmləndirilmiş rayonunun Hərbi general-qubernatoru, general-mayor Murad Gəraybəy Tlexas"

***İkinci sənəd isə çox qısadır.***

O da general Murad Gəray bəy Tlexasa aiddir:

"1920-ci ilin aprelin 27-də Bakıda silahlı çevrilişin həyata keçməsində və hazırlığında Türk kommunistləri Süleyman Nuru, Məmməd Tahir, Fuad Sabit fəal çalışmışlar. Ona görə də bunların gücü və fəaliyyəti ilə Bakının hərbi qubernatoru, general Murad Gəray bəy Tlexas həbs edildi (MK - yanında MLİ MPAF, fondu 456, siy.18, iş 38, vərəq 16)

***Üçüncii sənəd:***

"1920-ci il aprelin 28-də Bakının general-qubernatoru Murad Gəray bəy Tlexas satqınları, qorxaqları ifşa edərək söz verirdi ki, bolşeviklərin hücumunu və daxildən olan üsyanları yatırdacaq. O, müdafiə istehkamlarını möhkəmlətdi və tələb etdi ki, ona vəzifə-sində qeyri-məhdud səlahiyyət verilsin. General-qubernator Tlexas deyirdi:

- Mənim ordum da var, donanmam da. "Qars", "Ərdahan", "Astarabad" hərbi gəmilərimizlə sahil istehkamlarından Bakının dəniz istiqamətini müdafiə edə bilərik".

Bəs Tlexas kim idi, onu bolşeviklər niyə güllələdilər ?

General-mayor Murad Gəray bəy Tlexas (1874, Kuban vil. 1920-ci il, 29 may, Bakı ş.).

Milliyətcə çərkəzdir. 1874-cü ildə Kuban vilayətinin Yekaterinodar şəhərində (indiki Krasnodar – Ş.N.) hərbçi ailəsində anadan olub. İlk təhsilini Maykop şəhərində alıb. Sankt-Peterburqdakı Mixaylovsk artilleriya məktəbini bitirib. 1912-13-cü illərdə 51-ci Artilleriya briqadasında kapitan rütbəsində xidmət edib. Port-Artur və Birinci Dünya müharibəsində iştirak edib. Hər iki müharibədə nümunəvi döyüşən zabit kimi şöhrət qazanıb. Tlexas zabitlərə məxsus iki dəfə "Müqəddəs Georgi" ordeni ilə təltif olunub. 1918-ci ilin payızında ağqvardiyaçılar Kuban və Adigeyanı tutdular. Tlexas ondan sonra din qardaşı kimi bizə pənah gətirib. General Əli ağa Şıxlinski onu Əlahiddə Azərbaycan korpusunun tərkibində olan ikinci nişançı topçu briqadasının komandiri təyin edib. Bir az sonra Baş Qərargahda Baş Artilleriya idarəsinin rəisi təyin olunub. 1919-

cu il dekabrın 4-dən Bakı möhkəmləndirilmiş rayonunun general-qubernatoru. Azərbaycan Milli hərəkatında və ordu quruculuğunda önəmli yeri var. Onun ilyarımlıq Azərbaycan ordusundakı əla fəaliyyəti hərb nazirinin və Baş Qərargah rəisinin iki əmrində öz əksini tapır. 1919-cu il sentyabr və dekabr aylarında verilən 421 və 559 saylı əmrlər Azərbaycan Yeni Tarix Mərkəzi Dövlət Arxivində "tamamilə məxfidir" qrifi ilə saxlanılır.

"Bizim üçün böyük əhəmiyyətə malik olan müxtəlif predmetlər, silahlar və başqa hərbi əmlak əldə etmək üçün mən Gürcüstan Respublikasının Tiflis şəhərinə Baş Artilleriya idarəsi rəisi, general-mayor Murad Gəray bəy Tlexasın rəhbərliyi altında komissiya göndərmişdim.

Bir sıra ciddi çətinliklərə baxmayaraq, qısa müddət ərzində olduqca sərfəli qiymətlərlə Bakıda və Gəncədə qiymətli əmlak kütləsi quraşdırılmış və gətirilmişdir. Əldə edilmiş predmetlərin əksəriyyəti təzə, istifadə olunmuşları isə tam yararlı haldadır.

Mənim komissiyaya verdiyim tapşırığın bu cür əla yerinə yetirilməsini, ona general-mayor Murad Gəray bəy Tlexas kimi qeyrətli, təcrübəli və vicdanlı şəxsin rəhbərliyində görürəm və ona xidməti şəxslər tərəfindən səmimi minnətdarlığımı bildirirəm.

Eləcə də alınmış malların baxılmasında, qəbulunda və yola salınmasında iştirak etmiş komissiyanın bütün üzvlərinə minnətdarlığımı bildirirəm.

***Hərb naziri, tam artilleriya generalı Səməd bəy Mehmandarov,***
***Baş Qərargah rəisi, general-mayor***
***Həbib bəy Səlimov "***

"Hərb nazirliyi təşkil edilərkən, ordunun özü kimi, mərkəzi idarələrinin və müəssisələrinin də, demək olar ki, heç nədən yarandığı zaman general-mayor Murad Gəray bəy Tlexas Baş Artilleriya İdarəsinin rəisi vəzifəsini icra etməyə başlamışdır. General-mayor Tlexas doğma ordumuzun təşkil edilməsi işlərində mənim ən yaxın əməkdaşlarımdan biri olmuşdur. Cəngavər insan və yorulmaz təcrübəli hərbi xadim olan Murad Gəray bəy Tlexas ordunun silahlanması, bütün Azərbaycan boyu səpələnmiş artilleriya əmlakının toplanması, artilleriya anbarlarının və emalatxanalarının qurulması işlərində böyük əmək sərf etmişdir.

İndi həmin general respublikanın müdafiə olunması üzrə yüksək dərəcədə mühüm hərbi vəzifələrin həvalə edilməsi ilə əlaqədar olaraq, ümumi işin xatirinə onun Baş Artilleriya İdarəsi rəisi vəzifəsindən azad edilməsini daha faydalı bilirəm.

Bu vəzifənin bir illik yerinə yetirilməsi müddətində göstərdiyi nümunəvi iş, səy və görkəmli nailiyyətlər üçün hörmətli Murad Gəray bəy Tlexasa xidməti şəxslər tərəfindən səmimi təşəkkürümü bildirirəm.

***Hərb naziri, tam artilleriya generalı***
***Səməd bəy Mehmandarov,***
***Baş Qərargah rəisi general-mayor***
***Həbib bəy Səlimov "***

1919-cu il sentyabrın 13-də Dövlət Müdafiə Komitəsinin əmri ilə Bakı Hərbiyyə General-qubernatoru vəzifəsini qəbul edən Murad Gəray bəy Tlexas demişdir:

"Mənə göstərilən etimad və ümidi həqiqətə çıxarmaqdan ötrü bütün var qüvvəmi ədalətli və bitərəfanə bir surətdə işə başlayıram.

Yerli bolşeviklər ermənilərlə birləşərək əhali arasında antiazərbaycan təbliğatı aparır, həyəcan və şayiələr yayırdılar. Bunlardan narahat olan general-qubernator Murad Gəray bəy Tlexas 1920-ci il yanvarın 25-də "Azərbaycan" qəzetinə verdiyi müsahibədə demişdir: Son günlərdə şəhərdə şayiələr yayılır ki, bolşeviklər çıxış edib bazar-dükanı talan edəcəklər. Əhali həyəcana gəlmişdi. Boş laqqırtılar böyük meydan alır. Belə hərəkətlər olmayacaqdır. Əgər baş verərsə, rəhmsizcəsinə basılacaq, hökumətin lazımı miqdarda qüvvəsi vardır. Heç kəsə şəhərə daxil olmağa müsaidə edilmir. Körpülərə vaporlar vürud edir. Sərnişinlərin yalnız bəzilərinə şəhərə girməyə icazə verilir. Üç gündə Ənzəli, Petrovski və Təzə şəhərdən (Krasnovodski) yeddi vaporda beş yüz nəfər gəlmişdir. Qismən şəhərə buraxılıblar. Lakin tezliklə də şəhərdən çıxarılıblar. Bəziləri Tiflisə gedir. Ermənilər Ermənistana, iranlılar isə İrana qaytarılır. Əcnəbilər mümәsillərinə verilir. Vaporlarda səpmə yatalaq və sair misri xəstəlikləri müşahidə olunur. Onlar tez təcrid olunub. Radio ilə vaporlara bildirilir ki, Bakıya gəlsələr dərhal qaytarılacaq. Lakin əcnəbi heyətlərə, siyasi nümayəndələrə və dövləti işlər üçün gələnlərə icazə veriləcək.

Köhnə rus pasportları etibardan düşmüş elan edilir, bir aya bütün vətəndaşlar türk pasportu almalıdırlar".

General Murad Gəray bəy Tlexas 1920-ci ildə bolşeviklərin istilasından sonra inqilabçı Əli Bayramovun qatillərindən biri kimi həbs edilib. Mayın 21-dən 29-dək Ali İnqilab Tribunalının məhkəməsində şahid kimi dindirilmişdir:

***Sədr Viktor Naneyşvili:*** - General Murad Gəray bəy Tlexas! Siz özünüzü bolşevik Əli Bayramovun qətli haqqında işdə müqəssir bilirsinizmi? Siz Bakı Möhkəmləndirilmiş rayonunun hərbi general-qubernatoru olanda cinayətkar

fəaliyyətsizlik göstərmisiniz, nəticədə belə dəhşətli cinayət baş verib.

***General Tlexas:*** - Qətiyyən yox! Hərbi vəzifəmə gəldikdə isə, həmişə hər yerdə vicdanla xidmət etmişəm. Cinayətkarlığa yol verməmişəm.

***Sədr:*** - Tribunala deyin, görək, Denikin könüllülərinin komandanlığı ilə siz Bakıda nə danışmısınız?

***Tlexas:*** - Könüllülərin komandanlığı ilə heç bir danışığım olmayıb.

***Naneyşvili:*** - Bizə çatan məlumata görə sizin ağqvardiyaçı könüllülərinin nümayəndələri ilə danışığınız olub.

***Tlexas:*** - Könüllülərin ayrı-ayrı nümayəndələri ilə də mənim heç bir gizli danışığım olmayıb.

Könüllülər və başqaları haqqında isə "soldat" kimi deməliyəm ki, yıxılana balta çalmazlar. Mən heç vaxt, müharibədə bir-birimizin üstünə qışqıranda da, silahı tullayanda da hərbi kompaniyada – rus-yapon və alman cəbhəsində də olmuşam. Onlar silahı təhvil verəndə mən sonuncu çörək tikəmi və qəndi vermişəm.

***Sədr:*** - Tribunala son sözünüz ?

***Tlexas:*** - Ali tribunal, burada deyəcəyim sözlər özümü müdafiə etmək xatirinə deyilməyəcək. Mən ucadan elan edirəm ki, bolşevik Əli Bayramovun qətlində mən qətiyyən iştirak etməmişəm. Məni müttəhimlər kürsüsünə gətirən qətiyyən tanış ol-mayan mühitə düşməyim və rəislərimin əmrlərini yerinə yetirməkdə "soldat" mənəviyyatı ilə tərbiyə olmağım oldu. Mən kasıb praporşik oğluyam, demək olar ki, yoxsul təbəqədən çıxmışam. İndi mənə elə gəlir ki, burjuaziya rütbəsi olan hərbi general-qubernatorluq mənim üçün rüsvayçılıq idi.

Əgər məndən soruşsanız ki, Bakıdakı fəaliyyətim dövründə kimləri özümə düşmən hesab edirdim. Cavab verərdim: ancaq və ancaq Azərbaycanın müstəqilliyinə qəsd etmək istəyən könüllülər mənim qatı düşmənimdir. Mən heç vaxt siyasi partiyaların işinə qoşulmazdım. Mənim məqsədim milli ordu yaratmaq, milli qırğının qarşısını almaq idi.

Qırx altı yaşım var. Ömrümün yarıdan çoxunu hərbi xidmətdə keçirmişəm. Atam evdəki yeganə samovarı satıb məni atın sağrısında Yekaterinardan oxumağa göndərib...

O ki qaldı ağqvardiyaçı general Denikinə qoşulmağım, onun könüllülərilə işləməyim, bu heç cür mümkün deyil. Çünki bütün il boyu mən denikinçilərə qarşı mübarizə aparmışam. Onun kəşfiyyatçıları mənim əməkdaşlarımdan və şəxsən məndən oddan qorxan kimi qorxurlar. Əgər siz bolşeviklər yox, Denikin Bakıya girməli olsaydı birinci məni güllələyərdi. Boynuma alıram ki, Azərbaycanda caynağımıza keçən Denikin kəşfiyyatçılarına qarşı çox amansız olmuşam.

Arxiv sənədlərindən məlum olur ki, bolşeviklər cəhd edirlər ki, general Murad Gəray bəy Tlexası Azərbaycan xalqının gözündən salmaq üçün ağqvardiyaçıların xəfiyyəsi kimi güllələsinlər. İndiki M.F.Axundov adına Akademik Opera və Balet teatrının binasında keçən səkkiz günlük, açıq məhkəmədə, generalın alovlu yekun sözündən sonra bu qarayaxına alınmayıb.

**Bolşevik Əli Bayramovun ölümündə də günahı sübut olunmadığına baxmayaraq, Murad Gəray bəy Tlexası əksinqilabçı və Müsavat generalı kimi mayın 29-da gecə saat ikidə güllələdilər.**

Həmin gecə inqilab etmiş "xalqın adından" general Tlexasla birgə bolşevik Əli Bayramovun qətli ilə bağlı Bakıda müsavatın polis rəisi olmuş Rüstəmbəy Mirzəyevi, dördüncü polis sahəsinin rəisi Nurəddin Seyidovu, onun müavini Süleyman bəy Sübhanverdixanovu, baş qorodovoy Məşədi İbrahim Babayevi, polis agenturasının rəhbəri Eyvaz Cəbrayılovu, polis xəfiyyəsi Levon Ter-Arutyunovu, məşhur Bakı qoçusu Nəcəfqulu Rzayevi, qorodovoy Həbib Nəzər oğlunu, Əbdürrəhman Qurban oğlunu və qoçu Mir Rəhim Mir Mövsüm oğlunu da güllələyiblər.

Xaricə qaçmış Daxili İşlər Nazirinin müavini Şəfı bəy Rüstəmbəyova, qoçu Əjdər Eminova, Hüseyn Qədir oğluna, qorodovoy Vəli Məşədi Hüseyn oğluna və Aleksandr Koberidzeyə isə İnqilabi məhkəmə qiyabi ölüm hökmü kəsdi. 1921-ci ilin iyun ayında onlardan biri – qoçu Hüseyn Qədir oğlu satqmlıqla ələ keçdi. Ali İnqilabi məhkəmə dərhal ona ölüm hökmü kəsib güllələdi.

XI bolşevik ordusu Xaçmazı, Dəvəçini keçib Xırdalana yaxınlaşanda «Yardım alayı» deyilən əldəqayırma bir qrup namərdlik edib dərhal bolşeviklərə təslim olub onların tərəfinə keçdilər.

Alayın əsgərləri Bakıdakı əsas obyektləri – teleqrafı, dövlət bankını və vağzalı tutdular. Gecə saat ikidə Bakıdakı bütün hökumət binalarını bolşeviklər aldılar.

Hələ kabinetini tərk etməyən qorxubilməz hərbi general-qubernator Murad Gəray bəy Tlexas şəhər komendantına təcili məktub göndərdi:

«Həbs etdiyiniz Bakının polis rəisi Rüstəm bəy Mirzəyevi təcili olaraq azad etmənizi xahiş edirəm.

***Bakı möhkəmləndirilmiş rayonun***
***hərbi general-qubernatoru,***
***general-mayor Gəray bəy Tlexas.***
***27 aprel 1920-ci il».***

Həmin gecə Tlexasın özünü həbs etdilər. Məhkəmədə müsavat polis rəisinin azad olunmasını tələb etdiyini də ona irad tutdular.

Arxiv sənədləri onu da göstərir ki, adını çəkdiyimiz şəxslərin əksəriyyətinin bolşevik Əli Bayramovun öldürülməsindən doğrudan da xəbərləri olmamışdır. Onu 1920-ci il martın 22-dən 23-nə keçən gecə polis xəfiyyələrinin tapşırığı ilə Bakı qoçuları öldürmüşdülər.

Müsavat parlamentində makinaçı-kargüzar vəzifəsində işləyən Əli Bayramovun arvadı Ceyran Bayramova sonralar "Xatirələrim"də yazırdı: "Məktəbli rəfiqəm Zeynəb Rizvanova ilə böyük cəldlik, çeviklik və fərasətlik göstərərək müsavatçıların hərbi planlarını öyrənir, gizli sənədləri ələ keçirib partiya komitəmizə çatdırırdıq. Əli son vaxtlar evə gəlmir, başqa yerlərdə gecələməli olurdu. Mən onunla əlaqə saxlamaq, məlumat vermək üçün Georgiyevski küçəsindəki Zərbəli Nəzərovun evində görüşürdük".

Şübhələnən polis işçiləri Əli Bayramovun evində axtarış aparırlar. Məlum olur ki, evdə iki telefon var: biri açıqda, digəri isə pərdə arxasında gizlədilmişdir. Ceyran gizli telefonla hər gün parlamentdə olanlardan bolşeviklərə məlumat verir. Qadına qıyıb əl qaldırmayan qoçular əvəzində onun əri Əli Bayramovu qətlə yetirirlər.

Arxiv sənədləri arasında çox qısa və çox təsirli bir məktub da var. Onu general Murad Gəray bəy Tlexasın həyat yoldaşı **Əminət xanım Tlexas 1920-ci il iyunun 6-da yazıb:**

"Azərbaycan Sovet Sosialist Respublikasının Ali İnqilab tribunalının sədrinə ərizə.

1920-ci il mayın 29-da Ali İnqilab məhkəməsinin qərarı ilə ərim Murad Gəray bəy Tlexas güllələnmişdir. Ərim həbs olunan günü evimizdən sizin əməkdaşlar ailəmizə məxsus olan qızıl və gümüş əşyalarını da aparmışlar. Acizanə surətdə xahiş edirəm, həmin qızıl və gümüş əşyalarının qaytarılması barədə sərəncam verəsiniz.

Həmin əşyalar yenicə həddi-bulağa çatmış iki qızıma və şəxsən mənə məxsusdur. İmza: Əminət xanım Tlexas.

İyunun 6-da ərizənin üstünə dərkənar qoyan bolşevik rəhbəri katibliyə tapşırır ki, vətəndaş Əminət xanım Tlexasa məlumat verin ki, sizə heç nə qaytarılmayacaqdır.

### *İki şahidin dedikləri*

**Dünən təkəbbürlü, beli silahlı gəzən qoçular oturduqları müttəhim kürsüsündə büzülüb yumağa dönmüşdülər. Yazıq, qorxaq nəzərlərlə məhkəmənin gedişini izləyir, gözləri ilə aman diləyirdilər. Yalnız Bakının general-qubernatoru Murad Gəray bəy Tlexas məğrur oturub zəhmli gözləri ilə salona baxırdı. Bu comərd generalın varlığında qorxudan əsər-əlamət yox idi.**

***1920-ci il, 29 may tarixli***
***Ali İnqilab Tribunalının sənədindən***

Həmin məhkəmənin iştirakçılarından bizim günlərimizə qədər yaşayan yalnız iki nəfər qalmışdı. Ötən əsrin doxsanıncı illərində Üzeyir bəy Hacıbəylinin ev muzeyinin direktoru mərhum Ramazan Xəlilovla çoxsaylı görüşlərimiz olardı. Güclü hafizəli, zəngin xatirəli bu ziyalı insanın söhbətindən doymaq olmazdı. 1918-1920-ci illərdə Ramazan müəllim general Əli ağa Şıxlinskinin kiçik yavəri olmuşdu.

1998-ci ilin oktyabr günlərində telefonla danışırdıq. Söhbət arası dedim ki, Ramazan müəllim, arxivdən bir foto-şəklin surətini çıxartdırmışam. Şəkildə on doqquz nəfər yüksək rütbəli müsavat ordusunun zabit heyəti təsvir olunub. Onlardan yalnız altı nəfərinin adı və soyadı göstərilib. Foto-şəkli gətirim, baxın, bəlkə, orada kimisə tanıdınız...

Dərhal durub muzeyə onun görüşünə getdim. Foto-şəkli göstərməmiş dedim ki, bunlar arasında general Tlexas olsa tanıyarsınızmı, onu yaxından görmüşdünüzmü?

- Əlbəttə, tanıyaram, əgər varsa. Onun elə zəhmli, əsl hərbçi vüqarı vardı ki, indi də gözümün qabağındadır.

İri ölçülü şəkli onun qarşısına qoydum. O, titrək əllərilə qalın şüşəli eynəyini gözünə taxıb diqqətlə baxdı. İkinci cərgədə sağdan üçüncü oturan vüqarlı şəxsi göstərib:

- Budur – dedi, general Murad Gəray bəy Tlexas. Sağ yanında oturan isə polkovnik Şirin bəy Kəsəmənlidir. Şirin bəy 1919-cu ildə səpmə yatalaq xəstəliyindən vəfat etdi.

İgid generalın indiyədək bizə məlum olmayan yeganə foto-şəklini Azərbaycan hərb tarixinə bəxş edən doxsan səkkiz yaşlı qocanı qucaqlayıb

öpdüm. İstər-istəməz o məşum günlərə qayıdan Ramazan müəllim söhbətinə davam etdi:

- Məhkəmə zalına giriş azad olduğuna görə bir neçə dəfə mən də getdim. Bu bolşeviklərin Ali İnqilab tribunalının ilk yığıncağı idi.

Məhkəmənin son iclası daha yaxşı yadımda qalıb. Çünki general Tlexasın mərdliyi hamını heyrətdə qoydu. Güllələnmək haqqında qərar oxunanda Tlexasa qol çəkməyi təklif etdilər. O, vüqarla irəli gəlib, düz qamətini azca əyib qol çəkdi və hökmlə dedi:

- Yenə və yenə də təkrar edirəm, mən bolşevik Əli Bayramovun öldürülməsində, bu çirkin işdə iştirak etməmişəm.

Növbə Bakı qoçularına çatanda onlar özlərini çox ləyaqətsiz apardılar. Qoçu Nəcəfqulu ucaboy, iri bədənli, göyçək adam idi. Əynində bənövşəyi rəngli jilet, ayağında uzunboğaz çəkmə vardı.

O da yadımdadır ki, general Tlexas və bütün dustaqlar Bayıl həbsxanasında saxlanırdı. Hər gün onları mühafizə ilə gətirib bulvarı süpürtdürərdilər. Bununla şura hökuməti fəhlə və kəndlilərə göstərirdi ki, görün, "cinayətkarlara" necə əzab veririk.

- Ramazan müəllim, general Murad Gəray bəy Tlexasm ailəsinin son taleyi necə oldu?

- Generalla atam Həmzət bəyin dostluğu vardı. Onun həyat yoldaşı Əminət xanım 1920-ci ildə atamdan İrana getmək üçün kömək istədi. Atam rəsmi icazə ilə onu yola saldı. Onun böyük qızı Cənnət xanım Müsavat dövründə Bakıdakı İran konsuluna ərə getmişdi. Kiçik qızının adını unutmuşam. General Tlexasın evi Parapet bağı ilə üzbəüz olan dörd mərtəbəli binada idi. İndiki "Araz" kino teatrı olan binada yaşayırdı.

* * *

***Xalqın bir məqsədi var idi: öz***
***doğma torpağını işğaldan azad etmək.***
***Lev Tolstoy***

General Murad Gəray bəy Tlexasın son günlərinin şahidi olanlardan biri də istiqlal mücahidi Əziz Alpout olmuşdur. O, «Həyatının hekayətləri» kitabının 177 və 178-ci səhifələrində yazır:

«Məscid küçəsindən rus hərbi dəstələri keçirdi. Əsgər kimi deyil çapovulçu sürüsü kimi: at, dəvə, qatır, ac, səfil, cır-cındır içində və tüfənglərində qayış yerinə ip… Ac çəyirtkə sürüsünü xatırladırdı bu «ordu»..

Bu əsgərlər, bu hərbi birləşmələrdirmi yurdumuzu işğal edənlər?! – deyə düşündüm.

Zavalı general Tlexas! Allah qəni-qəni rəhmət eləsin bu böyük şahidə; Quzey Qafqazlı qardaşımıza!..

Çaşqınlıq göstərən hökumətə Milli Məclisdə: «Mənə səlahiyyət verin, bircə həmləyə bu oğru, quldur sürüsünü darmadağın edim!» - demişdi.

Bu sözləri də onun başını yedi. İşğaldan az müddət sonra rus çapoulçuları Bakı Opera Teatrı binasında məhkəmə qurdular və general Tlexası edama-güllələnməyə məhkum etdilər.

Rus kölələri, satılmışlar, rus «hakimləri» ilə birlikdə:

- Sən, fəhlə-kəndli düşməni, burjuysan! – deyə ittiham irəli sürəndə general Murad Gərəy bəy Tlexas qamətini dikəldi. Ucaboylu, başında qəhvəyi rəngli qaragül papaq, əlini «hakim»lərə doğru uzatdı və qürurla hayqırdı:

- Mən nə fəhlə, nə də kəndli düşməniyəm! Burjuy da deyiləm. Bütün var-dövlətim, namusum bu şərəfli Azərbaycan əsgərinin hərbi paltarıdır!

Əvvəlcədən hazırlanmış edam qərarı oxundu. Bu mərd əsgərin tükü də tərpənmədi. Bu alçaqlara qartal kimi yuxarıdan aşağı baxırdı. O anda bizimlə bərabər, iki qız uşağının da göz yaşı axdı. Onlar general Tlexasın qızları idi… Atalarının məhkəməsinə gəlmişdi balaları… Rus əsgərini görəndə, nifrətim də artdı. Onlara əsgər, ordu deməyə şahid lazım idi. General Tlexas haqlıymış. Bu çəyirtkə sürüsünün qarşısı zorla alınıb, süpürülərək, çölə tökülə bilərdi. Amma nə etməli? Olan olmuşdu…

Bunlardan indi necə yaxa qurtarmalı. Bu tələyə qarşı hansı tələ qurulmalıydı? O anda öz-özümə cavab tapa bildim: gizli bir təşkilat qurmalıyıq! Ruslar hələ yaxşı dincəlib, neftimizlə qüvvətlənməmişdən qabaq, vətənimizdən süpürülüb atılmalıdır! Təşkilat!.. Birinci qurtuluşumuz yaxşı bir təşkilata bağıdır. Əvvəlcə canını belə düşünmədən fəda edə biləcək dostlar tapmaq lazımdır.

Qurduğum ilk əlaqələr məni çox sevindirmişdi. Sən demə, məndən əvvəl də hərəkətə keçənlər varmış. Lakin bir şey bizləri çox üzmüşdü: bir neçə türmədən çıxmış, saxtakar, hətta qumarbazlar da, xalqımızın həyəcanından faydalanaraq, ianə toplamağa başlamışdılar. Amma rus ajanları xəbər tutduqda, bu hoqqa-bazları izləyərək, qısa bir vaxtda «üsyançılar»dı deyə yaxalayıb güllələnmişdilər. Bu zaman bəhanə axtaran rus səlahiyyətliləri, üsyana hazırlıq görürlər deyə,

generallarımızı, yüksək çinli zabitlərimizi və ölkənin bir çox üzdə olan adamlarını gülllədən keçirməyə başladılar. Gecənin səssizliyində uzaqdan gələn makinalı tüfəng səsləri, baş verən bu cinayətlərin xəbərçiləriydi. Artıq, ruslar bəhanə də axtarmırdılar. Gözlərinə deyən varlıların, mal-mülk sahiblərinin zorla evlərinə soxulur, orada məskunlaşır və evdə olan hər şeyə sahiblənirdilər. Azacıq bir etirazla qarşılaşanda da elə yerindəcə güllə ilə dəlik-deşik edirdilər və «inqilab düşməni» adıyla adamı günahkar çıxarırdılar.

Eyni şeyi Əlibəygilin qonşusu milyonçu Murtuza Muxtarova da tətbiq etmək istədikdə, o tapançasını çıxarmış və gələn rus əsgərlərindən üçünü yerə sərmiş, sonra da özünü güllələmişdi: «Bu evə ancaq mənim cəsədimin üstündən keçib, girə bilərsiniz!» - demişdi…».



# GENERAL HƏBİB BƏY SƏLİMOV
**(1881-1920)**

***Vətən uğrunda ölüm həyatın davamıdır.***
***Cambul Cabayev (1846-1945)***
***Klassik Qazax şairi.***



*12 avqust 1919-cu il qeneral Həbib bəy Səlimov*

İyirminci il martın iyirmi ikisində, Novruz bayramı axşamı daşnaklar Əsgəran keçidini kəsdilər. Onlar bu yeganə keçidi kəsməklə Qarabağın dağlıq hissəsini Azərbaycandan ayırmaq istəyirdilər. Top və pulemyotlarla silahlanan qiyamçılara İrəvandan gələn daşnak generalı Dro Kanayan komandanlıq edirdi.

Azərbaycan Cümhuriyyətinin Müdafiə Nazirliyi Qarabağı düşməndən xilas etmək üçün fövqəladə tədbir hazırladı. Nazir Səməd bəy Mehmandarovun əmri ilə Əsgəran cəbhəsinə güclü qüvvə ayrıldı. Martın iyirmi üçündə Azərbaycan ordusunun əsas hissəsi - iyirmi minə yaxın əsgər və zabiti bu cəbhəyə göndərildi. O cümlədən, Üçüncü Gəncə, Beşinci Bakı, Birinci Cavanşir, Dördüncü Quba, Səkkizinci Ağdam alayları general Həbib bəy Səlimovun komandanlığı ilə Yuxarı Qarabağa yola düşdü. Aprelin üçündə başlayan bu ölüm-dirim savaşı on iki gün davam etdi. Azərbaycanın cəsur əsgər və zabitləri ana torpağın hər qarışı uğrunda mərdliklə vuruşaraq Şuşa qalasına, Xankəndinə daxil oldular. Yenilməz fədakarlıqla döyüşən əsgərlərimiz daşnak ordusunu darmadağın etdi. Dörd min nəfərlik erməni süvari dəstəsinin başçısı general Dəli Qazar öldürüldü. Əsgəranın böyürbaşında gizlənən general Dro Kananyanın piyada alayları xəndəklərdən çıxıb qaçmağa başladılar.

Qarabağ dağlarında yenidən Azərbaycan bayrağı dalğalandı. Bu vaxt cəbhəyə gələn ***hərbi nazir Səməd bəy Mehmandarov xain düşmən üzərində çalınan qələbəyə görə əsgərlərimizi təbrik edərək demişdi: "Qəhrəman əsgərlər, mən şəxsən Almaniya cəbhəsində bir çox döyüşlərdə olmuşam. Fəqət sizin qədər qəhrəman əsgərlərə az-az təsadüf etmişəm. Siz mənim ümidlərimi qüvvətləndirdiniz. Siz canınızla gənc Azərbaycan ordusunun namusunu müdafiə etdiniz".***

Əsgəranda qanlı döyüşlər gedəndə Maqsud Şeyxzadə yeniyetmə bir gənc idi. On səkkiz yaşı yenicə tamam olmuşdu. Bu qələbədən ruhlanan şair iyirminci ilin martında "Qarabağ" və "Əsgəran marşı" kimi sanballı şerlər yazmışdır. İkinci şer bu günümüzlə daha çox səslənir:

***Vardı Əsgəranda minlərlə əsgər,***
***Aslan yavrusu tək sarsılmaz ərlər.***
***İrəli, irəli, ey islamlarım,***
***Yağı yuvasını dağıdanlarım.***

***Dəydi top gülləsi yad ordusuna,***
***İstərəm alaylar dağılıb sına,***
***İrəli, irəli, ey tərlanlarım,***
***Geniş üfüqlərə can atanlarım.***

***Görək mərd çıxacaq neçənci igid?***
***Laləzar salacaq neçənci şəhid?***
***İrəli, irəli, türk oğulları,***
***Sizsiniz qısaldan uzaq yolları.***

Azərbaycan hərb tarixinin səhifələrinə yazılacaq belə parlaq qələbələrin ömrü, təəssüf ki, bundan sonra bircə ay davam etdi. Mikoyanın, Qazarovun, Avetisovun, Amazaspın quyruq bulayıb qabaqlarına düşdüyü bolşevik-daşnak ordusu bir ay sonra işğalçı kimi Bakıya soxuldu.

Həyatının son dəqiqələrinə kimi o məşum günü ürək ağrısı ilə xatırlayan Məmməd Əmin Rəsulzadə yazırdı: "Azərbaycan Cümhuriyyəti hökuməti aprel ayının 27-də yuxusundan sərsəm bir halda qalxdı. Bir tərəfdən Bakı limanında lövbər salan dəniz qüvvələrinin Yanar dağı səmtdən Qızıl ordunun atəş saçaraq gəldiyini və geri qaçmaq istərkən yolunun türkiyəli bir zabitin komandasında olan "Yardım alayı" tərəfindən kəsildiyi gördü".

Bununla da dəhşətli, qorxunc bir dövr gəldi. Xüsusi bir amansızlıqla Vətənimizə hücum edərək bolşevik-daşnak ordu birləşmələri vətənpərvər oğullarımızı qan içində boğdu. Ölkəmiz təqibə, böhtana məruz qaldı. Min cür həngamələrlə, izahı olmayan həbslərin dalğası gücləndi. Azərbaycan Milli Ordusunun min iki yüzdən çox əsgər və zabiti Arazı keçərək o taylı qardaşlarımıza pənah apardı. Təqib olunan minlərlə ziyalımız Türkiyə, Fransa və Almaniyaya mühacirətə getdi. Bolşevik-daşnak təqibinin əzabkeşlərindən biri - zabit Ələsgər Ələsgərov - Kəngərlinski şahidlik edir ki, "şəxsən özüm tərəfindən yoxlanılmış siyahıya görə, bolşeviklərin ***Azərbaycandakı ağalığı dövründə ancaq hərbi rütbəlilərdən məhv edilənlər: generallar - on iki, polkovnik və podpolkovniklər - iyirmi yeddi, kapitan və ştabs-kapitanlar-poruçik və podporuçiklər - qırx altı, praporşik və podpraporşik - yüz qırx səkkiz, qalan iki yüz altmış altı (hamısı müsəlmanlar) 1920-ci ilin aprelindən 1921-ci ilin avqustunadək Azərbaycanda qırmızı terrordan qırx səkkiz min adam öldürülmüşdü ki, bunun da çox hissəsi ziyalıların payına düşürdü".***

1920-ci il mayın 30-da "Kommunist" qəzeti bolşevik terrorunun alçaqlığına bəraət qazandıraraq, həyasızcasına "Layiqli cəza" adlı bir

məqalədə yazırdı: "Ali inqilab tribunalı bu işə yalnız həqiqi proletar ədliyyə orqanları nümayəndələrinə xas olan ehtiyat və təmkinlə nəzər salmışdır. Azərbaycanın azad əmək mənafeyini əsas tutan tribunal heç bir "qanuni intiqam" duyğularına yol vermədən özünün soyuq və ölçüb-biçilmiş qərarını vermişdir".

Bolşeviklər "təmkinlə", "soyuq və ölçülüb-biçilmiş" haqsız qərarları ilə bizi Azərbaycan Milli Ordusunun say-seçmə, yüksək rütbəli zabitlərindən və general oğullarından məhrum etdilər.

Yetmiş ildən çox adı və şöhrəti bağlı qapı arxasından qalan generallarımızdan biri də Həbib bəy Səlimov olmuşdu. 1918-ci ildə Milli Ordu yarananda polkovnik Həbib bəy Baş Qərargah və Dəftərxana rəisi olmuşdur.

Azərbaycan Demokratik Respublikasının hərbi naziri, tam artilleriya generalı ***Səməd bəy Mehmandarovun iyirmi altı fevral 1919-cu ildə otuz nömrəli əmri ilə general-mayor rütbəsi ilə təltif olunub,*** 1920-ci ilin martında "Əsgəran müharibəsi"nin qəhrəmanı kimi ad-san qazanmışdı. 1918-ci il avqustun 1-də təxribatçı polkovnik P.İlyuşenko Lənkəranda qondarma "Muğan Respublikası"nı elan etmişdi. 1919-cu il iyul ayında briqada generalı Həbib bəy Səlimovun komandanlığı ilə Muğanda və Lənkəranda Azərbaycan milli hakimiyyətini tanımaq istəməyən malakan və rus-erməni silahlı qüvvələri onun gücü ilə darmadağın edildi. Düşməndən qənimət üçün götürdüyü bir təyyarəni, iyirmi dörd topu və altmış pulemyotu Azərbaycan ordusunda istifadəyə vermişdi. Muğan və Lənkaranı ana yurdu Azərbaycana qaytaran Həbib bəy buraya qısa müddətə vali təyin edilmişdi.

1918-ci ildə Azərbaycanda olmuş türk podpolkovniki Rüştü bəy "Böyük hərbdə Bakı yollarında" ("Əsgəri məcmuə", 1934-cü il № 93) jurnalında Həbib bəyi igid bir sərkərdə kimi xatırlayır. O yazır ki, cəsur və döyüş texnikasını gözəl bilən türk ordusunun yüksək rütbəli zabitləri tərəfindən layiqincə qiymətləndirilən polkovnik Həbib bəy rus ordusunda yetişmiş azərbaycanlı zabitlərdəndir. Döyüşlərdə cəbhə iki yerə ayrılırdı: şimal və cənub qruplarına. Cənub qrupunun komandiri polkovnik Həbib bəy Səlimov idi.

Hərbi tədqiqatçı, polkovnik-leytenant Mehman Süleymanov 1998-ci ildə Türkiyədə yaradıcılıq ezamiyyətində olarkən general eloğlumuz Həbib bəy haqqında dəyərli məlumatlar əldə etmişdir. Həmin faktlar əyani surətdə göstərir ki, general Həbib bəy Səlimov daim ön cəbhədə olmuş və Azərbaycanı bolşevik-daşnak hərbi qüvvələrindən xilas etmək üçün

mərdliklə vuruşmuşdur. Həbib bəy Səlimovun komandanlıq etdiyi cənub qrupu Nəvai və Ağbulaq stansiyalarını bolşevik-daşnak qüvvələrindən azad etdikdən sonra o, Nuru paşaya aşağıdakı məzmunda raport göndərib:

"Birinci-bu gün Ağbulaq stansiyasını işğal edirəm. Yarın (1avqust 1918-ci il) Ələti düşmən alsa da, dəxi alahın inayəti ilə işğal etmək üzrə irəliləyəcəm.

İkinci - mütəanibən (sonra) Bakı istiqamətində hərəkət edəcəyəm. Fəqət qrupun suyu qətiyyən yoxdur. Susuzluqdan əfrad (bəzi adamlar) bayılmış bir haldadır. Sürətlə su gətirməsi üçün icad edənlərə əmr bulunmasını təkrar-təkrar rica edirəm.

Üçüncü - Ələtdən sonra qaradan (torpaq yol) hərəkət edəcəyimdən bir minlik avtomobilinin təhriki üçün əmr bulunmasını edirəm.

Avqustun birində cənub qrupunun komandanı Həbib bəy Səlimov bildirirdi ki, bu axşam Ələti işğal etdim. Dəfələrlə müraciət etməyimizə baxmayaraq, biz hələ də geridən içməli su almamışıq. Döyüşçülər susuz qaldığı kimi, su olmadığı üçün lokomativlər işləmirlər. Polkovnik Həbib bəy Səlimov susuzluğun qrupda ağır vəziyyət yaratdığını və su gətirilməyincə Ələtdən o yana hərəkət etməyin mümkünsüzlüyünü vurğulayır".

Həbib bəy Səlimovun milli Azərbaycan Ordusunun formalaşmasında böyük tarixi xidmətləri vardır. Hələ 1918-ci ilin avqustunda Qafqaz İslam Ordusu komandanı Nuru paşanın əmri ilə Azərbaycan korpusu yenidən qurulmağa başlayanda Hərbi təcrübəsinə və biliyinə görə polkovnik Həbib bəy Səlimov bu korpusun qərargah rəisi təyin edilmişdi.

Gəncə-Bakı dəmiryolu ilə irəliləyən cənub qrupunun komandanı kimi H. Səlimovun göstərdiyi təşkilatçılıq qabiliyyəti və igidliyi Azərbaycan hökuməti tərəfindən layiqincə qiymətləndirildi və elə bolşevik-daşnak qoşunlarına qarşı döyüşlərin gedişində ona polkovnik rütbəsi verildi.

1919-cu ildə Azərbaycan ordusundakı madii çətinliklərə görə polkovnik Həbib bəy Səlimov hökumətin adına göndərdiyi raportunda ürək ağrısı ilə yazırdı: "Demək olar ki, bütün əsgərlər Azərbaycan əyalətlərində yerli əhalinin hesabına dolanır, yarıac, yarıtox həyat sürürlər. Hətta böyük və varlı şəhər olan Bakıda əsgərlərə yemək tapılmır. Nə alayın, nə də korpusların anbarları yoxdur. Əsgərlərə həmişə "un şorbası" yedirmək olmaz ki, Onuncu alayın çoxlu əsgəri çəkməsiz və corabsızdır. Ordunu yeməksiz, paltarsız, atsız, təchizatsız yaratmaq olmaz. Yarıac, paltarsız əsgər əlbəttə ki, evə qaçmaq istəyəcək.

Ona görə də özümə mənəvi borc bilərək aşağıdakı fikirlərimi çatdırım:

1. Günün şüarı ancaq bu olmalıdır: hər şey ordu üçün.
2. Kağızda deyil, rəsmi şəkildə bir korpus yaratmaq lazımdır.
3. Belə korpusun yaradılması və təminatı üçün vəsaiti əsirgəməməli.

Böyük Napoleon Bonapart deyir ki, müharibə üçün üç şey lazımdır. Birinci pul, ikinci pul, üçüncü yenə də pul.

Ordunu yedirmək, geydirmək və bolşevikləri nəzərdən qaçırmadan hər cür xəstəliklərdən qorumaq lazımdır".

Cəsur general Həbib bəy Səlimovun müxtəlif arxivlərdən vətənpərvər ruhda yazılmış bir neçə məktub və teleqramını əldə edə bildik. Bu məktub və teleqramları Həbib bəy Qarabağ Ərazi Qoşunlarının Komandanı olarkən, - odlu döyüşlər gedən Xankəndindən, Laçından, Şuşa və Ağdamdan göndərmişdir. Bunlar Həbib bəy Səlimovun döyüş yolunu qismən də olsa öyrənməyə imkan verir.

"Azərbaycan" qəzetinin 15 iyun 1919-cu il tarixdə dərs olunmuş "Şuşadan axırıncı xəbər" yazısında deyilirdi:

"Ermənilər səkkiz gün ara vermədən şosse yolunu və ona yaxın olan kəndləri atəşə tutublar. General Həbib bəy Səlimovun avtomobili, ingilislərin avtomobili, sərnişinlə dolu altı fayton, atla və piyada keçib gedənlər atəşə tutulmuşlar, yalnız bu gün atəş kəsilmişdir.

Görüşmək üçün yerli əhalidən nümayəndələr də dəvət olunublar".

***Qarabağın general-qubernatoru***
***Xosrov bəy SULTANOV.***

***"Hərb nazirinə!***

Bakı alayında üç yüz doxsan süngü vardır. Noyabrın 23-də Qoçaz istiqamətində vəziyyət tədricən bərpa olunur. düşmən hər tərəfdən Zabuq çayının sağ sahilinə atılmışdır. Ümid edirəm ki, bu günlərdə… rayonu tuta bilərik. Cəbrayıl dəstəsində vəziyyət tam başqadır. Ora iki batalyon - 1000 süngü qüvvə göndərilməsə, vəziyyəti düzəltmək mümkün olmayacaqdır. Yaranmış vəziyyətdə bu cür qüvvəni Xaçmaz dəstəsinin tərkibindən çıxarmaq, məncə, mümkün deyildir.

Mən indii sizin barışıq fikrinizlə o şərtlə razıyam ki, barışandan sonra gələcək üçün sürətlə hazırlıq işləri görülsün.

***General Həbib bəy SƏLİMOV,***
***10 aprel 1920-ci il, Şuşa."***

***Qarabağ döyüşləri haqqında məlumat***
***29 mart 1920-ci il***

Ayın 29-dakı döyüşün təfərrüatını çatdırıram. Əsgəran möhkəmləndirilmiş həmlə mövqeyinə hücum etməkdən ötrü Xanabad daxil olmaqla şossedəki cəbhədən göndərilmişdir: partizanlar üç min üç yüz altmışıncı yüksəksikliyə və Xaramurt kəndinə, Parlamentin mühafizəsi Daşbaşı kəndinə həmlə etməkdən ötrü, şimal-qərbdən ötüb keçməklə bakılılar hücum edəcəklər. Ehtiyatımda bir bölük olub. Bundan başqa, partizanların bir qismi ilə Naxçıvanikə qarşı əməliyyat aparılırdı. Bakı alayının sağ cinahını təmin etmək üçün isə partizanların süvari dəstələrini və rotmistr Haşımbəyovun komandası altında əlli nəfərlik Tatar alayını göndərdim. Ümumi istiqamətdə qışlamağa Meşəliyə, ordanda Fərruxa.

Döyüş saat yeddidə başlandı və saat on bir radələrində Xaraşurt kəndi alındı ki, bura birinci gizir Mövsüm İbrahimovun komandası altında dörd süvarisi girdi. Kənd yandırıldı.

Saat on üç radələrində Parlament mühafizəsi 3366-cı zirvəyə yaxınlaşdı. Kürd-Xanabad ucqarı partizanlar tərəfindən alındı. Bakı alayı bu vaxt sıldırım qayalarla Daşbaşı yüksəkliyinə yanaşdı: podpolkovnik Bəhram bəy Nəbibəyov ermənilərin təqib edilməsinə uymasaydı və mövqeləri dəyişməsəydi alayın həmləsi uğurlu olardı. Artilleriya himayısinə qalmış alayın üç həmləsi əl qumbaraları ilə dəf edildi. Saat on yeddi radələrində batareya yerinə yetişdi, lakin artıq gec idi: alay bir verst geriyə yüksəkliyə çəkilmişdi.

Haşımbəyovun süvari dəstəsi həmin vaxt erməniləri Meşəlidən, Qazanı kəndindən sıxışdırıb çıxararaq Fərrux kəndini tutdu, o, indiyədək oradadır.

Sol cinahda ermənilər az qüvvə və bundan qabaq Əsgəranda ələ keçirdikləri iki pulemyotla əks həmləyə keçdilər, onları Xanabaddan vurub çıxartdıq və qaçmağa məcbur etdik. Qaçışın qarşısı yüz nəfərlik Parlament mühafizəsini şəxsən hərəkətə gətirməyimlə alındı. Artilleriya əla atırdı, xüsusən podpolkovnik Bəhram bəy Nəbibəyovun[1] batareyası, ancaq təəssüf ki, batareya komandiri özünü cilovlaya bilmir və batareya ilə birlikdə döyüşə atılır.

1. Bəhram bəy Qasım bəy oğlu Nəbibəyov (1884-1930) Azərbaycan milli ordusunda polkovnik rütbəsi alıb. Şəki şəhərində anadan olub. 1930-cu ildə Şəki rayon hərbi komissarı vəzifəsində olanda aprelin 13-də bolşeviklərə qarşı üsyana başçılıq edib. Yeddi gün hakimiyyətə qarşı döyüşlər aparıb. Bideyiz dağında sayca çox olan çekist qoşunları ilə vuruşmalarda həlak olub. Ş.N.

Hal-hazırda ermənilər Əsgəranı, Kürd-Xanabad kəndini, 3360-cı yüksəkliyi, Daşbaşı kəndini tuturlar.

Ümumilikdə, bizim tərəfdən ermənilər döyüşlə iki verstliyə sıxışdırılıblar. İtkilərimiz: beşinci alayda gizir Nəcəfəliyev və on əsgər öldürülmüş, gizir Dauşvili, gizirlər Əsgərov, Ərəbov yaralanmışlar; Parlament mühafizəsindən yeddi əsgər öldürülmüş və on beş yaralanmışdır.

Qoşunların əhval ruhiyyəsi əladır, düşmən çoxlu itki verib, təkcə Xaraşurtda düşmənin altmışadək meyidi var.

***General Həbib bəy Səlimov***

***

***"Hərb nazirinə!"***

Xankəndindən Şuşaya şosse yolu Malıbəyli kəndindən yüksəkliklər vasitəsilə Daşkəndə, cənubda Manaşarx kəndi də daxil olmaqla Şuşakəndədək uzanan erməni mövqelərindən atəşə tutulmuşdu. Həmin mövqelərdə sayı təxminən iki mindən az olmayan əsgərlər, dağ topları və iki pulemyotla silahlanmış Əskərandan çəkilmiş ermənilər, eləcə də bütün ətraf kəndlərdən silahlı adamlar cəmləşmişdilər.

Hücum saat onda üç kolonla başlandı: öndə qubalılar, sağ cinahı ötüb-keçməklə Malıbəylidən, Şuşakənddən şərqə olan yüksəklikdə iki dağ topu olan Tatar alayı, düşmənin sol cinahını Şuşakənd qəbiristanlığı tərəfdən ötüb keçmək üçün kəsə yolla Bakı alayının taboru göndərilmişdi.

Zati-Aliniz tərəfindən yaradılan şanlı qoşunlarımız köhnə, döyüşlərdə bərkidilmiş hissələrə məxsus şücaətlə vuruşurdular.

Döyüşün qəhrəmanları bunlar idi: şığıyaraq Daşkənd yüksəkliyini ələ keçirən qubalılar və bir neçə basqına baxmayaraq bir an da sarsılmayan və üzərinə düşən hər mərmiyə görə dərhal cavab atəşi açan podpolkovnik Bəhram bəy Nəbibəyovun batareyası.

Saat on iki radələrində mənim ehtiyatımın himayəsi ilə bakılılarla birlikdə qubalılar tərəfindən cinahlardan əhatə olunan və çevik həmləyə məruz qalan düşmən sarsıldı və Keşişkəndə tərəf qaçmağa üz tutdu.

Saat iyirmi radələrində qoşunların bir hissəsi ilə Şuşaya gəldim. Bütün dəstə bura toplaşır. Qoşunlar üç günlük döyüşlərdən bərk yorulublar və çox güman ki, sabah onlara istirahət verəcəyəm.

***General Həbib bəy Səlimov.***
***8 aprel 1920-ci il."***

***

***10 aprel 1920-ci il, Şuşa.***

Podpolkovnik Bəhram bəy Nəbibəyovun üçüncü batareyasının topları tamamilə yararsız hala düşdüyü üçün onların 1902-ci il nümunəli porşenli toplarla əvəz olunması və yaxşı olar ki, yeni batareya göndərilməsi haqqında təcili sərəncam verməniz xahiş edirəm.

***General Həbib bəy Səlimov.***

***

***Qarabağda döyüşün vəziyyəti haqqında***
***General Əli ağa Şıxlinskiyə məlumat***
***8 aprel 1920-ci il***

Dığ kəndi istiqamətində irəliləyən düşmən Abdallar kəndindən vurulub çıxarıldı. Zabuq çayının o tayına qədər qovuldu. Bizimkilər Yarma kəndini alıb Keçəl dağına gedən yolu Abdallara qədər təmizlədilər.

Cavanşir alayını yenidən təşkil etmək üçün Qarabağ alayından bir bölüyü də ona birləşdirdim. Yeni təşkil etdiyimiz dağ batareyasının gücü ilə düşməni Zabux çayının o tayından da qovub çıxartmaqdır.

***General Həbib bəy Səlimov.***

***

***"Hərb nazirinə***

Bu günkü vəziyyət əhali arasında çaxnaşma yaratdı. Onlar bizim Ağbulaq yaxınlığında dayanan alayımızı xəbərdar etmədən çaxnaşma salaraq, qaçır. Abdal kəndində olan əsgərlərin bir hissəsini də arxalarınca aparırlar.

Bütün bunlar aralarında iki minə yaxın silahlı şəxslər olan Ağdam əhalisinin gözləri qarşısında baş verirdi.

Bir nəfər belə Gülablıların köməyinə getmədi, əksinə iki-üç yüz erməninin Gülablıda görünməsi bütün "mərd qarabağlıları" çaxnaşmaya saldı, əlbəttə onlar səs-küyə salaraq mərkəzə teleqram vurdular və Bakı da tez onların köməyinə gəldi.

Mən Qarabağda baş verən hadisələrdən xəbərdaram və şəraitə görə mümkün olan bütün tədbirlərdən istifadə edirəm. Lakin abdallıların, gülablıların, Xaçınki kənd əhalisinin arzusu ilə qoşunu ata bilmərəm. Ayın on doqquzunda səhər saat onda mən özüm Ağdamda oldum, partizanlar üçün məhkəmə qurdum, lazım olan tədbirləri gördüm.

Nəticədə biz Güləbird kəndini, Qızıl hündürlüyünü tutmuşuq, Abdal kəndinə hücumu davam etdiririk.

Mənə inanın ki, mən özümü qorumuram, şəxsən olduğum və komandirlik

etdiyim yerlərdə düşmənin bizi qəflətən yaxalamasına yol verməyəcəyəm.

Tatar alayının dərhal qayıdıb Cəbrayıla gəlməsinin böyük əhəmiyyəti olar, çünki bu alayın əksəriyyətini ləzgilər təşkil edir, bu da Quba qəzasında az fayda verə bilər.

***General Həbib bəy Səlimov.***
***10 aprel 1920-ci il."***

***

***"Bakı, general-leytenant Əli ağa Şıxlinskiyə***

Dünənki döyüş göstərdi ki, ermənilər bütün vasitələrdən istifadə ediblər. Əsgəran cəbhəsində Dilicandan gəlmiş, əla təlim edilmiş və çox gözəl döyüş aparan Dəli Qazarın partizanları bir yerə cəmləşiblər. İndiki partizanlara ümid bəsləmək olmaz. Onlara kəsərli söz, xalqa çoxlu pul və bütün başqa vasitələrlə köməklik göstərmək lazımdır ki, onlar Vətənə daha böyük həvəslə xidmət etsinlər. Təkrar edirəm, məsələ çox ciddidir, artıq Ermənistan və Azərbaycan arasında Qarabağda gizli müharibə gedir. Hər tərəfdən patronlar tələb edirlər. Onların neçəyə olursa-olsun, alınıb gətirilməsi vacibdir. Hazırda dövlətin ehtiyatları Gəncədən Araza qədər ərazidəki cəbhə üçün, düşmənlə müqayisədə həddindən artıq azdır. Ancaq etibarlı və yaxşı təşkil olunmuş partizanları müvəqqəti bizim tərəfə yönəldə bilərlər.

***General Həbib bəy SƏLİMOV.***
***31 mart 1920-ci il."***

***

***"Bakı, general-leytenant Əli ağa Şıxlinskiy***ə

Dronun (Qarabağ ərazisində döyüşən erməni-daşnak silahlı birləşmələrinin komandiri - Ş.N.) qüvvələrinin hücumu zamanı Şuşa şəhərinin vəziyyətinin nə dərəcə ağır ola biləcəyini nəzərə alaraq, ermənilərə Cavad qəzası tərəfindən güclü təzyiq göstərilməsini lazım bilirəm. Eyni zamanda İran şahsevənləri Zəngəzur qəzasına soxulsaydılar, daha yaxşı olardı. Geniş hücum əməliyyatı aparmaq üçün tək Cəbrayıl qəzasının vəsaiti kifayət deyildir.

***ADR-in Qarabağ ərazi qoşunlarının komandanı,***
***General Həbib bəy SƏLİMOV,***
***31 mart 1920-ci il."***

***

1918-20-ci illərdə Milli Azərbaycan Ordusunun yaranmasında əvəzsiz xidmətləri olan general Həbib bəy Səlimov 1881-ci il fevralın 8-də İrəvanda anadan olub.

Onun 1920-ci il aprel çevrilişinə qədər olan hərbi fəaliyyəti Rusiya Dövlət Hərbi Tarix arxivində (f.409, s. l, it 37290. v. 1-6, şəxsi iş №976) saxlanılır[1]. Sənəddə göstərilir ki, generalın atası Hacı Yusif İrəvan quberniyasında məhkəmə iclasçısı vəzivəsində işləyib. Bir sinifli İrəvan Müəllimlər Seminariyasını bitirən Həbib bəy İrəvan gimnaziyasına qəbul olunur və gimnaziyanı birinci dərəcəylə qurtarır. 1900-cu il avqustun 12-də orduya könüllü gələn Həbib bəy 156-cı Yelizavetpol süvari alyında bir il iki ay xidmət edir. Unter zabit rütbəsi alır. O, Tiflisdəki süvari məktəbini 1902-ci il sentyabrın 1-də əla qiymətlərlə bitirir. Üçüncün Qafqaz atıcı batalyonunda xidmət edən Həbib bəy 1907-il avqustun 6-da üçüncü rotanin komandiri təyin olunur. Həmin il setyabrın 22-də "Müqəddəs Vladimir" ordeninin dördüncü dərəcəsi ilə təltif olunur. Sülh dövründə gənc zabitin belə bir yüksək ordenlə təltif olunması nadir hadisə idi. Sənədlərdə göstəilir ki, 1906-cı il iyulun 16-dan dekabrın 4-ə qədər Həbib bəy Şuşada ezamiyyətdə olarkən atıcı batalyonu ilə əhalini daşnaklardan qorumuşdur.

Sonrakı illərdə (1908-1910) beşinci Qafqaz atıcı batalyonun sıralarında Culfa sərhədlərində və İrandakı Qəzvin hərbi dəstəsində xidmət edən Həbib bəy Tehranda "Kəşfiyyatın məxfi tapşırığı" ilə fəaliyyət göstərmişdi. 1912-ci il avqustun 9-da Həbib bəy Səlimova ştabs-kapitan rütbəsi verilmişdi.

***Cümhuriyyət dövrünün ən görkəmli sərkərdələrindən biri, general-mayor Həbib bəy Hacı Yusif oğlu Səlimov 1918-ci il martın 4-də Petroqrada Baş Qərargahın Nikolayev Hərbi Akademiyasını bitirib.***

Baş Qərargah rəisi kimi mühüm vəzifəyə təyin olunan Həbib bəy nə kabinet, nə də məiyyət generalı olmamışdır. Milli ordumuzun il yarımlıq fəaliyyətində daim ön cəbhədə olmuş, fitri hərbi istedadı ilə Azərbaycanın müstəqilliyinə təcavüz etmək istəyən silahlı düşməni məhv etmişdir. Təəssüf ki, bu şöhrətin ömrü uzun çəkmədi. Həmin ilin aprelində ölkəmizə basqın edən bolşevik-daşnak qüvvələri mərd və yenilməz general Həbib bəy Səlimovu məhv etmək üçün min bir fəndkirliyə əl atdılar.

Respublika Milli Təhlükəsizlik Nazirliyinin arxiv sənədlərindən öyrənirik ki, may ayında Həbib bəy Səlimov Naxçıvana hərbi komissar təyin olunur. 1920-ci il iyulun 19-da Naxçıvan şəhər general-qubernatorunun 3402 saylı

1. Həbib bəy Səlimovun 1912-ci ilə qədərki "Şəxsi işi"ni bizə göndərən Moskvada yaşayan tədqiqatçı-alim Eldar İsmayılova təşəkkürümüzü bildiririk. - Ş.N

möhürlü rəsmi sənədi ilə Təbriz şəhərinə ticarət məsələləri ilə məşğul olmaq üçün on dörd günlüyə ezam olunur.

Avqustun 26-da Naxçıvan İnqilab komitəsinin sədri XI ordunun xüsusi şöbə rəisi, cəllad Semyon Pankrotova yazılı məlumat verir ki, Həbib bəy Səlimov iyunun 30-da qayıtdı. Qızıl ordunun ehtiyacı olduğu ticarət məhsullarından kifayət qədər gətirə bilmişdir.

Sentyabrın 1-də həbs olunan general Həbib bəy Səlimov üçün 2017 saylı həbs vərəqəsi yazılır. Yalançı ittihamların "bayramı" başlayır. Adamın varlığını sarsıdan odur ki, Qubin soyadlı rusdan başqa yalançı ittihamların əksər müəllifləri öz dindaşlarımızdır. Onlar çalışır ki, general Həbib bəyin yuxarıda xatırlatdığımız Əsgəran, Qarabağ, Muğan və Lənkəran döyüşlərində əvəzolunmaz xidmətlərini dansınlar. Alınmır, ağ yalan belə igid generalın hərbi fəaliyyətinə ləkə sala bilmir. Onda naxələflər başqa fəndə əl atırlar. Deyirlər ki, 1918-ci ildə türk generalı Nuru Paşa Azərbaycana gələndə Həbib bəy Səlimov onun ordusunda bolşeviklərə qarşı döyüşlər aparmışdır.

Bu tarixi fakt həqiqətən olmuşdur. Gəncədən sonra cəbhəni iki yerə - şimal və cənub qruplarına ayıran Nuru Paşa Cənub qrupunun komandiri polkovnik Həbib bəy Səlimovu təyin etmişdi.

Hətta sonralar (1934-cu ildə) vətəni Türkiyədə "Böyük hərbdə Bakı yollarında" adlı kitab yazan türk podpolkovniki Rüştü bəy Həbib bəy Səlimovu əsərində igid bir sərkərdə kimi xatırlayır: "Cəsur, döyüş texnikasını gözəl bilən türk ordusunun yüksək rütbəli zabitləri tərəfindən layiqincə qiymətləndirilən polkovnik Həbib bəy rus ordusunda yetişmiş azərbaycanlı zabitlərdəndir". Qəribə burasıdır ki, bolşeviklərə quyruq bulayıb Həbib bəy Səlimov haqqında iftira, yalançı ittihamlar verən dindaşımız rotmistrin özü də türklərlə birgə döyüşlərdə iştirak etmişdi. Milli Təhlükəsizlik Nazirliyinin arxiv sənədələrindən öyrənə bildim ki, rotmistri (nüfuzlu nəslinə hörmətim olduğuna görə rotmistrin adını, soyadını çəkmək istəmirəm) 1926-cı ildə bolşevik ÇK-sı Solovetsk adalarına ömürlük sürgünə göndərib. Atalar demişkən, özgəyə quyu qazanın özü də düşər.

Yuxarıda xatırlatdım ki, general Həbib bəy Səlimovun milli orduda vəzifəsi Baş Qərargah rəisi idi. Peşəkar hərbçilər yaxşı bilirlər ki, qərargah ordunu idarə edən ağıl, beyin deməkdir. Məgər dünya şöhrətli sərkərdə, hərbiyyə naziri Səməd bəy Mehmandarov və onun müavini "artilleriyanın allahı" Əli ağa Şıxlinski kimi peşəkar hərbçilər, bolşeviklərə quyruq bulayan rotmistrin zəif komandir zənn etdiyi Həbib bəy Səlimovu Baş Qərargah rəisi kimi məsul vəzifəyə təyin

edərdilərmi? ***1919-cu il fevralın 26-da otuz bir saylı əmrlə polkovnik Həbib bəy Səlimova general-mayor rütbəsi verərdilərdi? Əlbəttə yox!***

General Həbib bəy Səlimov 1918-20-ci illərdə milli ordumuzda xidmət edən, milliyətcə Litva tatarı olan general-leytenant Məmməd bəy Sulkeviçdən sonra ikinci generaldır ki, ali hərbi təhsili vardı.

General Həbib bəy Səlimovun ittihamlarında yazılır ki, Tiflisdə və Bakıda təşkilat fəaliyyət göstərir. Onlar üsyana hazırlaşırlar. Tiflis və Batumda əksinqilabçılara general Vrangel, general Səlimov vasitəsilə silah göndərir. Bakı quberniyasının Cavad qəzası İranın Şahsevən quldurlarının köməyi ilə üsyana hazırlaşır, köməyi general Səlimovdan alırdı.

Sonrakı ittihamlardan məlum olur ki, niyə məhz general Səlimovu, Naxçıvan Hərbi Komissarını onun vəzifəsinə, sənətinə heç bir dəxli olmayan ticarət malı gətirməyə İrana göndərmişlər. Bunların hamısı mərd general Həbib bəy Səlimovu həbs etmək üçün hazırlıq idi.

Üç ay yarım həbsxanada üzərinə oxunan yalançı ittihamları və üzləşmələri yazılı şəkildə rədd edən milli ordu generalı Həbib bəy Səlimovu güllələmək üçün "İran məsələsi", 1919-cu ildə Lənkaran yürüşündə yerli Muğan əhalisini guya soyub-talaması, ağqvardiyaçı praporşik Dubininlə, Nuru Paşa və Zeynalovla əlaqəsi, Cümhuriyyət vaxtı Sovet hökumətinə nifrəti, Sovet vaxtı Naxçıvanda xan və bəylərlə oturub-durması bolşeviklərin əlində daha "əsaslı" faktlar olub.

Həmin vaxtlarda Naxçıvandan "Azərbaycan Kommunist Partiyasına" Az. ÇK-nın mühüm şöbə katibinin tarixsiz və imzasız danos - məktubu general-mayor Həbib bəy Səlimovun cavan ömrünə son qoymaq üçün canfəşanlıqla təşkil olunurdu.

Danos-məktubda oxuyuruq: "Əksinqilabçı general Həbib bəy Səlimov Naxçıvan əhalisi arasında şayələr yayır, xan və bəylərlə Sovet hökumətinin əleyhinə işləyir. O, ilk dəfə Naxçıvana gələndə İnqilabçı Türk hökumətinə məktub göndərib ki, yerli Azərbaycan əhalisi Qırmızı ordu tərəfindən əzilib qul halına salınır. Bu məktubu barədə general H. Səlimovun özü bizimlə birgə işləyən ermənilərlə söhbətində açıq deyib. O, İranda olanda da burdan qaçıb getmiş, xan və bəylərlə oturub dururmuş. Bu gün onun əhval-ruhiyyəsi yerli əhalinin və komandiri olduğu əsgərlərin daşnaklara qarşı döyüş ruhunu məhv edir. Onun belə yaramaz hərəkətlərinə dözmək mümkün deyil. Xahiş edirik, fövqəladə halda onu buradan Bakıya göndərəsiniz.

***Az. ÇK-nın mühüm şöbə katibi.***

1920-ci il oktyabrın 15-də isə agent məlumat verir ki, general Həbib bəy Səlimovun təşkilatı ilə bağlı aşağıdakıları öyrənə bildim:

"General keçmiş rus ordusunda polkovnik rütbəsində xidmət edib. Baş Qərargah Akademiyasının məzunudur. Azərbaycan hökuməti onu general-mayor rütbəsi ilə təltif edib. Təşkil etdiyi əksinqilabi dəstəni indi ingilislər maliyyələşdirir. Dəstənin fəaliyyət dairəsi Araz çayının sahilləridir. Onun əksinqilabi dəstəsinin üzvləri quldur ağqvardiyaçıların və şahsevənlərin qalıqlarından təşkil olunub. Komandir heyəti ağqvardiyaçı zabitlərdən, gürcü və ermənilərdən (? - Ş.N.) ibarətdir. Təşkil olunmuş dəstənin məqsədi: əgər gürcülər və ermənilər hücuma keçərlərsə, Bakı-Tiflis yolunu onların köməyi ilə bağlamaq. Ənvər Paşa ilə hələ heç bir əlaqələri yoxdur. General Həbib bəy Səlimov Musavat hökuməti vaxtı Xəlil Paşa ilə apardığı münaqişəyə və yaramaz hərəkətlərinə görə müsəlman əhalisi arasında hörmətə malik deyil".

General Həbib bəy Səlimova məxsus 1920-ci il 19 dekabr tarixli "İstintaq işi"nin doğsan doqquzuncu səhifəsindən "Üçlü"yün çıxarışı:

"Əksinqilabi fəaliyyətdə günahlandırılan sabiq general-mayor Həbib bəy Yusif oğlu Səlimovun 1241 saylı işinə baxıldı. Onun günahları aşağıdakılardan ibarətdir.

1. Sovet hökumətinə qarşı əksiqilabi mübarizəsi. Musavat ordusunun döyüş hazırlığında saxlaması və rəhbərliyi.

2. Gəncə üsyanı zamanı Sovet Azərbaycanından qaçmaqda və İrandan gəlmiş qiyamçı dəstələrin Muğanda Qızıl orduya qarşı döyüşlərə rəhbərlikdə.

3. 1919-cu ildə Muğanda inqilabçı kəndliləri tərkisilah etməkdə və qarətdə günahlandırılır.

Səlimova qarşı yürüdülən ittihamlar və bir sıra başqa cinayətlər istintaq zamanı təsdiq olunmuşdur. Qərara alındı: Sovet hökumətinə qarşı çıxan Həbib bəy Yüsif oğlu Səlimov güllələnsin. Ondan alınan əmlak müsadirə olunsun və respublikanın gəlirinə keçirilsin. Cinayət işi və aktlar arxivə təhvil verilsin.

Əslini imzaladı: XI Ordunun xüsusi şöbə rəisi Semyon Pankratov və böyük müstəntiq Qubin".

Naxçıvan Mərkəzi Dövlət Arxivində saxlanan səksən iki nömrəli protokol da cəsur general haqqında ağ yalanda doludur. 1920-ci il avqustun iyirmi ikisində Naxçıvan Komyaçeykasının iclasında hərbi komissar Starovun sədrliyi və Fyodorovun katibliyi ilə yeddi nəfər boşevik musavat generalı Həbib bəy Səlimovun fəaliyyəti barədə işə baxıblar. Lakin cəmi üç nəfər - "Troyka" dindirilmişdir.

***Birinci şəxs Şahtaxtinski:*** "General Səlimov zəhmətkeş xalqın satqınıdır, səbatsızdır. O, Bakıdan İrana qaçdı və oradan Naxçıvana gəlib camaatı dilə tutdu ki, əhali razılıq versin, onun polku 600 əsgər 10 ədəd top və bir neçə pulemyotla Naxçıvana gəlsin. O, Sovet hökuməti əleyhinə təbliğat aparırdı. Lakin indiki hökumətə qarşı günahını boynuna almır. Alayın silahlarını İranda satıb mənimsəmişdir".

***İkinci şəxs Rüstəmov:*** "Mən Şahtaxtinskinin dediklərini təsdiq edirəm və əlavə olaraq bildirirəm ki, general Səlimov yerli əhalini başa salırdı ki, onun başçılığı ilə Naxçıvana yeni alay toplansın və bolşeviklər əleyhinə vuruşsunlar. O, həqiqətən Sovet hökuməti əleyhinə təbliğat aparırdı..."

***Üçüncü şəxs Xəlil bəy:*** "Daşnaklar Şuşaya hücum edəndə (1920-ci il mart ayında - Ş.N.) Azərbaycan hökuməti korpus təşkil edib general Səlimovun başçılığı ilə cəbhəyə daşnaklarla vuruşmağa göndərdi. Lakin Səlimovun təcrübəsizliyi və korpusa başçılıq edə bilmədiyindən, xeyli yaralı və ölüm hadisələri olmuşdur. Lakin mən işə qarışandan sonra döyüş müvəffəqiyyətlə başa çatdı və daşnak hücumu darmadağın edildi[1].

Bütün bunlardan sonra Azərbaycan hökuməti ona 242-ci polka və üçüncü kavpolka başçılıq etməyi tapşırdı. O vaxtkı qırmızılar Bakıya yaxınlaşırdı, mən ona təklif etdim ki, qırmızıları müdafiə etsin. O, söz versə də, sözünü yerinə yetirmədi, satqınlıq elədi. Sovet hökuməti əleyhinə təbliğat aparmağa başladı".

***Yekunda: yoldaş Starov*** təklif etdi ki, general Həbib bəy Səlimovu həbs edib XI ordunun hərbi məhkəmə sovetinin sərəncamına göndərmək.

Bütün bu yalançı ittihamlardan sonra ***bolşeviklər general Həbib bəy Səlimovu 1920-ci il dekabrın 30-da, saat 10.30 dəqiqədə güllələdilər.*** İstintiq işində Həbib bəyə yürüdülən ittihamlardan biri də onun əmlakının müsadirə olunmasıdır. Bəs nəyi vardı Həbib bəy Səlimovun? Sənədlərdə göstərilir ki, subaydır, 39 yaşı var. Qardaşı ilə birgə yaşayır, iki desyatin torpağı və üç desyatin dədə-baba bağ sahəsi. Vəssalam.

---

1.Naxçıvanın mühafizə komandanı Xəlil bəy tamamilə haqsız və qərəzli danışıb. O döyüşlərdən yazılan çoxlu xatirələrdə və arxiv sənədlərində daşnakların 1920-ci ilin martında Şuşa və Xankəndindən əzilib çıxardılması məhz general Həbib bəy Səlimovun komandirlik məharəti sayəsində olduğu dönə-dönə qeyd olunub. Bolşeviklərin əlaltısı, avantürist Xəlil bəyə isə həmin döyüşdə kiçik könüllülər dəstəsinin komandiri olmuşdur. General-mayor Həbib bəy Səlimov isə Qarabağ ərazi qoşunlarının komandanı idi. - Ş.N.

# GENERAL-LEYTENANT MƏMMƏD BƏY SULKEVİÇ

(1865-1920)

*Xoşbəxtəm ki, müsəlman ordusunun*
*zabiti kimi ölürəm. Xudahafiz!*

***General Məmməd bəy Sulkeviçin***
***son sözləri.***



Cümhuriyyət dövrünün iyirmi bir döyüş generalı sırasında oxucunu düşündürən və bir az təəcübləndirən soyada rast gəlmək olar: - General-leytenant Məmməd bəy Sulkeviç .

General Məmməd bəy Sulkeviç milliyətcə Litva tatarıdır. Atası Aleksandr Qusar alayında xidmət etmiş, podpolkovnik rütbəsinə qədər yüksəlmişdir.

Polşada yaşayan mühacir Arslan bəy yazır ki, general-leytenant Məmməd bəy Sulkeviç on səkkizinci ilin axırlarında Azərbaycan Respublikası Müdafiə Nazirliyində Baş Qərargahın rəisi olub. Lakin Azərbaycan Mərkəzi Dövlət Yeni Tarix Arxivində saxlanan hərbi sənədlər bu faktı inkar edir. Əvvəla həmin tarixdə bizim ordunun Baş Qərargah rəisi general-mayor Əbdülhəmid bəy Qaytabaşı olmuşdur. İkincisi də arxiv sənədlərindən aydın olur ki, Məmməd bəy Sulkeviç Azərbaycana on səkkizinci ilin dekabrında gəlib və 1919-cu ilin martın 26-dək Gəncədə yerləşən Birinci Müsəlman Korpusunun komandiri olub, həmin tarixdə yüz qırx yeddi nömrəli əmrlə Baş Qərargah rəisi təyin olunub. Hərbi Nazir Səməd bəy Mehmandarovun və general Həbib bəy Səlimovun Gəncədə imzaladığı bu əmrdə deyilir ki, general-leytenant Məmməd bəy Sulkeviç martın 19-dan təyin olunduğu vəzifənin icrasına başlasın.

Arxivdə saxlanan daha bir sənədin Sulkeviçin bioqrafiyası üçün əhəmiyyətli olduğunu nəzərə alıb, oxuculara onu da təqdim etmək istərdim.

Hərbi Nazirliyin dəftərxanasına məxsus 15 oktyabr 1919-cu il tarixli sənəddə Sulkeviçdən tələb olunur ki, özünün dini mənşəyi və atası barədə məlumat versin. Və xahiş olunur ki, gerbli-möhür üçün dörd manat da pul ödəsin.

Məmməd bəy Sulkeviç isə qara tuşla yazdığı ərizəsində onlara belə cavab vermişdir: "Dinim müsəlman, adım Məmməd bəy, rütbəm general-leytenantdır. Azərbaycan vətəndaşlığını qəbul edirəm".

General Məmməd bəy Sulkeviç 1865-ci il iyunun iyirmisində Vilen quberniyasının Kemeyşi yaşayış məntəqəsində zadəgan ailəsində dünyaya gələndə atası onun adını Maçey bəy qoysa da sonralar Krımdakı fəaliyyətinə görə tatarlar ona hörmət əlaməti olaraq "Süleyman Paşa" adı vermişlər. Bizdə isə özü könüllü olaraq "Məmməd bəy" adını qəbul etmişdi.

Tatar parlamenti, tatar xalqı və mətbuatı general Süleyman paşa Sulkeviçi 1918-ci ildə dövlət başçısı vəzifəsində böyük ruh yüksəkliyi ilə qarşılaşmışdır. Həmin ilin iyun ayında o, Krım hökumətində baş nazir, hərbi nazir və daxili işlər naziri vəzifələrini tutmuşdur. Tatar xalqının müstəqilliyinə sevinən ilk dəfə din və dil qardaşı Türkiyə olmuşdur:

"Krım hökumətinin Baş naziri general Süleyman bəy Sulkeviçə!

Cəfər bəylə birgə Krımda hökumət yaratdığınıza görə Sizi təbrik edirəm.

Sizə işinizdə uğurlar diləyir və yeni nailiyyətlər arzu edirəm. Türkiyə hökuməti öz müttəfiqi kimi bu işdə Sizə kömək etməyi özünə borc bilir. Osmanlı imperiyası da Sizə arxa olacaq və yardım göstərəcəkdir.

***Hərbi Nazir, Ali Baş Komandan Ənvər Paşa".***

"Tavriçeski qolos" qəzeti 1918-ci ilin iyun ayında "Müsəlman millətlərinin müdafiə cəmiyyəti" adlı xəbər-yazısında bildirirdi ki, general-leytenant Sulkeviçin fəal təşəbbüsü ilə Simferopol şəhərində "Rusiyada müsəlman millətlərinin müdafiə cəmiyyəti" yaradılmışdır. Bu günlərdə general Sulkeviç xüsusi məruzə ilə Odessadan keçib Buxarest şəhərinə müttəfiqlərlə görüşə getmişdir.

Krım tatarları arasında "Süleyman Paşa" adı böyük hörmət və ehtiramla çəkilirdi. Xalq Maçey bəy Sulkeviçi "Süleyman Paşa" adı ilə çağırırdı. Bu da səbəbsiz deyildi. Tatar xalqı arasında belə bir əfsanə yaşayır. Bu əfsanəyə görə rus imperiyasının Krımdakı hökmranlığı məhv olduqdan sonra şimaldan bir müsəlman oğlu peyda olacaq. Onların azadlıq hərəkatına

başçılıq edəcək. Bu adamın adı da Süleyman Paşa olacaqdır. Xalqın inamınca bu əfsanə 1918-ci ildə həqiqətə dönmüşdü. Ona görə də tatar xalqı Maçey bəy Sulkeviçi Süleyman Paşa timsalında qəbul etdi.

Arxiv sənədləri daha bir faktı da aşkarlayır. Orada göstərilir ki, general Sulkeviç Azərbaycana tək gəlməmişdir.

Kazım bəy Sulkeviç Musavat hökumətinin Xarici İşlər Nazirliyində dəftərxana direktoru olmuşdur. Çox təəssüf ki, onların qardaş, yoxsa əmioğlu olduğunu müəyyənləşdirmək mümkün olmadı. Məhz bu səbəbdən də bəzi tədqiqatçılar səhvən general-leytenant Məmməd bəyi Kazım bəy Sulkeviç kimi də yazırlar.

Məryəm xanım Sulkeviç isə məşhur milyonçu H.Z. Tağıyevin qız məktəbində müəllim işləmiş və Bakı Müsəlman qadınlarının Xeyriyyə Cəmiyyətinin fəal üzvü olmuşdur. Digər bir ziyalı qadın - Leyla xanım Sulkeviç Azərbaycan Parlamentinin dəftərxana işləri idarəsində iş icraçısı vəzifəsində işləmişdir.

İnqilabdan əvvəl dini müsəlman olan oğullara hərbi akademik təhsil almaq demək olar ki, nəsib olmamışdır. İndiyə qədərki tədqiqatımızda Məmməd bəy Sulkeviç imperiyanın Baş Qərargah Akademiyasında ali hərbi təhsil alan ilk dindaşımızdır.[1]

Məşhur Polşa-Lvov tatar əsilzadələrindən olan Sulkeviç həyatını hərb sənətinə həsr etmişdir. O, Voronejdəki Mixaylovsk kadet korpusunu bitirdikdən sonra Peterburqa gedərək Mixaylovsk artilleriya məktəbinə daxil olmuşdur. Məktəbi birinci dərəcə ilə bitirən Sulkeviç poruçik rütbəsində altıncı artilleriya briqadasına xidmətə göndərilir. 1883-cü il oktyabrın 3-də müvəffəqiyyətlə imtahan verib, Baş Qərargahın Nikolayev akademiyasına daxil olur. Hərb elmi sahəsində qazandığı uğurlara görə Baş Qərargahın Nikolayev Akademiyası onu ştabs-kapitan rütbəsilə təltif edir. 1894-cü il, iyulun iyirmisində isə Sulkeviç kapitan rütbəsi alır. Xidmət üçün 5084 saylı əmrlə Odessa Hərbi Dairəsindəki yeddinci ordu korpusunun qərargahına göndərilir.

1899-cu ildə Süleyman bəy Sulkeviç ilk mükafatını - "Müqəddəs Stanislav" ordenini alır. Həmin ilin dekabr ayında Sulkeviçə podpolkovnik rütbəsi verilir və Odessa Hərbi Dairə qərargahına baş yavər təyin olunur.

1. Baş Qərargahın Nikolayev hərbi akademiyasını 1918-ci il martın 4-də Petroqrada bitirən ikinci generalımız Həbib bəy Hacı Yusif oğlu Səlimov (1881-1920) olmuşdur. Ş.N.

1903-cü il, oktyabrın üçündə növbəti təyinatla o, on beşinci piyada diviziyasına qərargah rəisi vəzifəsinə göndərilir. Həmin il dekabrın altısında ona növbədən kənar polkovnik rütbəsi verilir.

1904-1905-ci illərdə o, Rus-yapon müharibəsində əlahəzrət imperatorun tabeliyində olan səkkizinci ordu korpusunda şərəfli döyüş yolu keçmişdir.

Polkovnik Süleyman bəy Sulkeviç 1905-ci il fevralın altısından 25-dək məşhur Mukden döyüşlərinin iştirakçısı olmuşdur. 1905-ci ilin iyun ayında isə əlli yeddinci Modlin piyada polkunun komandanlığını qəbul etdi. Ümumiyyətlə polkovnik Sulkeviç 1904-cü il noyabrın 8-dən 1906-cı ilin fevral ayınadək döyüşən ordu hissələrində xidmətdə olmuşdur.

Yaponiya ilə müharibədə Süleyman bəy Sulkeviç özünü ən yaxşı zabit döyüşçü kimi göstərmişdir. Rus-yapon müharibəsi illərində onun xidmətləri ikinci dərəcəli "Müqəddəs Anna" (qılıncla birgə), dördüncü dərəcəli "Müqəddəs Vladimir" (bant və qılıncla birgə) ordenləri ilə qiymətləndirilmişdir. 1906-cı il noyabrın 18-də Yaponlara qarşı inadlı döyüşlərdəki fəaliyyətlərinə görə üstü yazılı "İgidliyə görə" qızıl silahla təltif olunmuşdur.

***1910-cu il iyunun 23-də Sulkeviç Baş Qərargah rəisi yanında tapşırıq üzrə qərargah zabiti təyin olunur. Həmin ilin payızında hərbi xidmətdəki əla fəaliyyətinə görə ona general-mayor rütbəsi verilir*** və İrkutsk qərargah hərbi dairəsi üzrə general-kvartirmeyster vəzifəsinə təyin olunur. Keçdiyi bu xidmət illərində Süleyman bəy Sulkeviç ikinci və üçüncü dərəcəli "Müqəddəs Vladimir" kavaler ordenlərinə layiq görülüb. On səkkizinci ilin əvvəllərində imperiya ordusunda xidmətini bitirir.

İstedadlı sərkərdə kimi tanınan Məmməd bəy həm də hərb elminin tanınmış alimi idi. Odessa Hərbi Dairəsinin təşkilatçısı olan Sulkeviç bir müddət həmin dairə qoşunlarının qərargah rəisi olmuşdu. Məmməd bəy Sulkeviç özünün əmrlərindən, elmi əsərlərdən və məsləhətlərdən ibarət ikicildlik əsərlərini nəşr etmişdir. Rus tədqiqatçılarının yazdığına görə, onun hərbi tövsiyələrindən nəinki Rusiyada, hətta xarici ölkələrin ordularında da istifadə olunmuşdur.

General Məmməd bəy Sulkeviçi Rusiyada yaşayan müsəlmanların taleyi ciddi düşündürmüşdür. Dindaşlarının xristianlar arasında azad nəfəs alması, sərbəst yaşamamaları onu qeyrətli vətəndaş kimi həmişə narahat etmişdir. O, 1902-ci ildə Polşa şərqşünası, Peterburq Universitetinin professoru Anton Muxlinskinin (1808 -1877) "Litva tatarlarının mənşəyinin araşdırılması və vəziyyəti" kitabını Odessada öz xərcinə nəşr etmişdi.

1915-ci ildə nümunəvi döyüş xidmətlərinə və böyük ordu birləşməsinə qeyri-adi bacarıqla rəhbərlik etdiyinə görə general-mayor Süleyman bəy Sulkeviç birinci dərəcəli "Müqəddəs Stanislav" ordeni ilə (qılıncla birgə) təltif olunur. Onu da xatırladaq ki, əlahəzrət imperator həmin ili cəbhələrdəki müvəffəqiyyətlərə və ordu birləşmələrinə bacarıqla komandanlıq etdiklərinə görə beş müsəlman generalını səxavətlə təltif etmişdi: Dördüncü Ordu Korpusunun komandanı tam artilleriya generalı, milliyətcə çeçen Eris xan Sultan Gəray Əliyevə (1855-1920) "Ağ qartal" ordeni, İkinci Qafqaz Ordu Korpusunun komandanı general-leytenant Səməd bəy Mehmandarova (1855-1931) birinci dərəcəli "Müqəddəs Stanislav" ordeni, Ali Baş Komandan yanında artilleriya üzrə tapşırıq generalı Əli ağa Şıxlinskiyə (1865-1943) birinci dərəcəli "Müqəddəs Stanislav" ordeni və süvari korpusunun komandanı Hüseyn xan Naxçıvanskiyə (1863-1920) "Ağ qartal"[1] ordeni verilmişdir.

***1916-ci il aprelin 26-da otuz üçüncü piyada diviziyasının komandiri Məmməd bəy Sulkeviçə general-leytenant rütbəsi verilib.*** Buna qədər o, on birinci orduda yeddinci korpus qərargahının rəisi idi. Birinci Cahan müharibəsi başlananda onun qərargah mənzili Kazan şəhərində yerləşmişdir. O, "Əsgəri şuro" tatar təşkilatının Mərkəzi Komitəsi ilə sıx əlaqə saxlayır və Rumıniya cəbhəsində müsəlmanlardan ibarət Birinci Əlahiddə korpusu təşkil edir. General Sulkeviçin üç müsəlman diviziyasının təşkili haqqında arayışı Ümumrusiya Müsəlman Şurasının "Xəbərlər"ində, 1917-ci ildə xalqa çatdırılıb.

Müsəlman Hərbi Korpusu yaradan Məmməd bəyin ən böyük arzusu Kazana, ya da Krıma gedib dindaşlarının milli istək və arzularını həyata keçirmək idi. Nəhayət, 1918-ci ilin yazında "Əsgəri şuro" nun əmrilə Sulkeviç öz korpusu ilə Krıma gəlir. Bu vaxt Krımda vəziyyət olduqca ağır idi. "Bolşeviklər vəhşicəsinə yerli əhalinin qanını tökürdülər". (General Anton Denikinin "Rus qiyamı haqqında oçerklər" kitabı).

Bu zaman ölkədəki anarxiyadan istifadə edən alman generalı Koşanın diviziyası da gəlib Krıma çıxmışdı. General Koşanın dəstələri Sulkeviçin Korpusunun yolunu kəsib onu tərksilah edir. Lakin almanlarla sülh

---

1 "Ağ qartal" ordenini 1705-ci ildə Polşa kralı II Avqust təsis etmişdir. 1831-ci ildən Rusiya ordenləri sırasına daxil edilib. Ordenin yalnız bir ali dərəcəsi vardır. Bir qayda olaraq bu ordenlə ali komandan heyəti - generallar təltif oluna bilərdi. Ş.N.

danışıqlarından sonra onların köməyi və təklifi ilə Sulkeviç Krımın Baş Naziri təyin olunur.

General Sulkeviçin Krım dövrü özünün siyasi fəallığı ilə çox maraqlıdır. Tatar əhalisinin mövqeyinin sabitləşməsində bir sıra tədbirləri həyata keçirmiş, Krım dövlətinə başçılıq etdiyini demək kifayətdir.

Sulkeviçin Beynəlxalq siyasətdə ən mühüm addımlarından biri Krım hökumətinin səfiri kimi tatarların "Millət" qəzetinin keçmiş baş redaktoru Həsən Səbri Ayvazovu (1878-1988) İstanbula Krım dövlətinin səfiri göndərməsi oldu. Bu da Türkiyədə böyük ruh yüksəkliyi ilə qarşılandı. Ona Avropa səfirləri arasında fəxri yer ayrıldı. Eyni zamanda Krım səfirinin İstanbulda olması Berlində bir qədər narahatçılıq yaratdı. General Sulkeviç hökuməti keçmiş Rusiya imperiyasının ərazisində yaranmış başqa müsəlman dövlətləri ilə də əlaqə yaratdı. Məhz bu məqsədlə də Azərbaycanın Bakıdakı hərbi nazirinin adına xoş məramlı məktub göndərilmişdi. General Səməd bəy Mehmandarovla onlar hələ Port-Artur döyüşlərində tanış olmuşdular.

General Məmməd bəy Sulkeviç hökuməti humanizm prinsiplərinə arxalandı, o, özü isə həqiqi mənada demokrat siyasətçi idi.

1918-ci ilin sonlarında Krımın taleyində dəyişiklik oldu. Ağqvardiyaçı general Anton Denikinin könüllü ordusu Krımı zəbt etdi. General Sulkeviç hökuməti yıxıldı. Nə Vilhem hökuməti, nə də Türkiyə ona kömək edə bilmədi. Çünki özlərində də vəziyyət ağır idi. 1918-ci il noyabrın 3-də alman generalı Koş məktubla Sulkeviçə bildirdi ki, bundan sonra ona kömək edə bilməyəcək. Ona görə də yarımadanın taleyi dəyişdi. Məmmədbəy Sulkeviç Könüllü Ordunun komandanı Anton Denikinin təzyiqi ilə Krımı tərk etməli olur.

Ağqvardiyaçı general Anton Denikin yazır ki, noyabrın dördündə Məmmədbəy Sulkeviç mənə - Yekaterinodara teleqram göndərdi ki, Almaniya qoşunları arasında sürətli dağılma gedir. Silahlı qüvvə olmadığına görə (almanlar Krımda silahlı qüvvvələr yaradılmasını qəti surətdə qağan ediblər - Ş. N.), mübarizə üçün heç bir dayaq yoxdur. Yenidən partlayışlar və bolşeviklərin amansızlıqları təkrar oluna bilər. Vəziyyət müttəfiqlərin donanmasının və könüllülərin tezliklə köməyə gəlməsini aydın surətdə tələb edir.

Sol partiyaların mübarizəsi və güclü təbliğatına görə mənim kabinetim öz səlahiyyətlərindən əl çəkir, öz yerini kadetlərdən, sosialistlərdən və tatarlardan ibarət koalisiyalı nazirliyə verir... "

Bundan sonra general-leytenant Məmməd bəy Sulkeviç Azərbaycana gəlir. Az müddətdə birinci süvari müsəlman diviziyasının komandiri və sonra

Baş Qərargahın rəisi olur. Xüsusilə, 1919-cu ilin iyun ayının on altısında Azərbaycan və Gürcüstan hökumətləri arasında hərbi ittifaqın bağlanmasında Sulkeviçin böyük köməyi olub. Bu təşəbbüsü o irəli sürmüşdü:

"Üç il müddətində imzalanmış hərbi müdafiə paktına görə Azərbaycanın və Gürcüstanın istiqlaliyyət və ərazi bütövlüyünə hər hansı dövlət tərəfindən təcavüz olduğu təqdirdə müqavilədə olan tərəflər bir-birinə yardım göstərməyə borclu idilər" (C. Həsənov "Ağ ləkə"lərin qara kölgəsi" kitabı, 1991, səh.85).

Hər iki tərəf üçün ciddi müdafiə xarakteri daşıyan, on maddəli müqaviləni Azərbaycan Respublikası tərəfindən Xarici İşlər naziri Məmmədyusif Cəfərov, Hərbi nazir Səməd bəy Mehmandarov, Baş Qərargah rəisi Məmməd bəy Sulkeviç, Gürcüstan Respublikası tərəfindən isə Xarici İşlər naziri Geqeçkori, Hərbi nazir Ramişvili, Hərbi nazirin köməkçisi Qedevanov və general Odişelidze imzalamışdılar.

***1920-ci ilin mayında bolşeviklər general Məmməd bəy Sulkeviçi həbs edib Bakı Fövqəladə Komitəsinin zirzəmisinə salırlar[1]. İyulun 15-də "Əksinqilabi fəaliyyətdə" ittiham olduğuna görə güllələyirlər.***

Məmməd Əmin Rəsulzadə "Azərbaycan Cümhuriyyəti" kitabında iyirminci ildə güllələnən general Məmmədbəy Sulkeviçin adını yana-yana çəkir. Onun mərd, mübariz bir şəxsiyyət olduğunu iftixarla qeyd edir. O, xatirələrində yazır:

"Qardaşım, (əslində əmisi oğlu - Ş.N.) parlament üzvü Mehmed Əli bəyin hekayətini ilk dəfə xalqa çatdırmaq istəyirəm. O, qorxmaz general Məmməd bəy Sulkeviçin qəhrəmancasına ölümünün şahididir. Onunla bir kamerada olan Mehmed Əli bəy söyləyirdi: "Generala əmr etdilər ki, çekistlərin ardınca getsin. Bizə aydın oldu ki, onun ölüm saatı çatıb. Ətrafa ölüm sükutu çökmüşdü. Onun gözlərinə baxmağa cəsarət etmirdik, biz təsəlli sözü tapa bilmirdik. ***General Sulkeviçin özü bizi qabaqladı, sakit, qətiyyətli səslə dediyi sözləri ömrüm boyu unutmayacağam: "Xoşbəxtəm ki, müsəlman Ordusunun zabiti kimi ölürəm. Xudahafiz!".***

General-leytenant Məmməd bəy Sulkeviç, öz mərd davranışı ilə könüllü qəbul etdiyi Azərbaycan vətəndaşlığını və Litva tatarlarının şöhrətini şərəflə qorudu.

Əzablı bir ömür yolu keçərək əlli beş yaşında bolşevik-daşnak gülləsinin haqsız qurbanı olan general-leytenant Məmməd bəy Sulkeviçin nəinki

1 İndiki Yusif Məmmədəliyev küçəsindəki on beş saylı evin zirzəmisinə. - Ş.N.

Azərbaycanda, heç Rus imperiyası ərazisində belə sağ qalan kimsəsi yoxdur. Onun haqqında Musavat dövrünün arxivində az da olsa məlumat qalıb.

Şuşadan, Xankəndindən və Zəngəzur ekspedisiyasından vurduğu teleqramlar, Baş Qərargah rəisi kimi verdiyi əmr və sərəncamlar onun Azərbaycanı ürəkdən sevdiyinə əyani sübutdur.

Rəyasət və stol sevməyən döyüş generalı Məmməd bəy Sulkeviç həmişə ön cəbhədə olmuş, əsgərləri döyüşə ruhlandırmışdır.

Onun 1920-ci il yanvarın 28-də Şuşadan Hərb nazir əvəzi general Əli ağa Şıxlinskiyə vurduğu teleqramda oxuyuruq:

"Şəxsiyyətini yaxşı tanıdığım və birinci Zəngəzur ekspedisiyasında əla döyüşünün şahidi olduğum podpolkovnik Novruzovun Qarabağ dəstəsinin artilleriya rəisi təyin edilməsi üçün vəsadət edirəm.

***Baş Qərargah rəisi general***
***Məmməd bəy Sulkeviç".***

***

***General Əli ağa Şıxlinskiyə***

Bu gün yanvarın 27-də saat ikidə avtomobillə general Teymur bəy Novruzovla birlikdə Şuşaya getdik. Xankəndi qarnizonunun rəisini də ora çağırtdırmışam. Süvari diviziyasının qərargahı mənim tapşırığımla piyada qaydada Yevlaxdan Xankəndinə gedir.

***Baş Qərargah rəisi general***
***Məmməd bəy Sulkeviç".***

***

***Şuşadan general Əli ağa Şıxlinskiyə***
***28.01.1920-ci il.***

Gürcü təyyarəçilərinin Svanetidə üsyanı yatırmaq təcrübəsi çətin keçilə bilən dağ yerlərindən bu üsulun əlverişli olduğunu sübut etdi. Gürcü təyyarəçilərinin arasında, beş pudluq bombanı üsyan etmiş kəndin üzərinə atan leytenant Makeyev də var idi. Bu təcrübədən elə o cür, tez, qəti nəticələr verə bilən Zəngəzurda da istifadə etmək olar. Telefon vasitəsilə Tiflislə əlaqə saxlayıb, məsələni aydınlaşdırın, Zaxaryadze ilə gürcü dilində danışın. Bir aeroplan göndərmək olar, özü də təyyarəçisi Xan Əfşar ola bilər. Beləliklə, gürcü zabitlərinin bizim daxili ekspedisiyalarda iştirakını qadağan edən hərbi konvensiyanı pozmurlar. Uçuşlar qısa olacaq, uçuş radiusu yüz versdən uzaq olmayacaq. Aviasiya bazası Şuşada və ya Xankəndindədir. Cavabı mənə teleqrafla çatdırın. Yanvarın 29-da Xankəndində, yanvarın 30-

da axşam Yevlaxda, yanvarın 31-də Bakıda olacağam, bu halda cavabı mənə evə çatdırın. Yevlağa vaqon göndərmək üçün komendata tapşırıq vermişəm.

***Baş Qərargah rəisi general***
***Məmməd bəy Sulkeviç".***

İyirminci ilin iyulunda general Məmməd bəy Sulkeviçin son gününün şahidlərindən biri də Bakıda bolşeviklər tərəfindən həbs olunan Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi diplomatik departamenti ümumi şöbəsinin müdiri Meçislav Stanislavoviç Rudzinski olmuşdur:

- 1920-ci il aprelin iyirmi səkkizində Azərbaycanda bolşevik çevrilişi baş verdi. Mən Polşa nümayəndə heyətinin üzvləri ilə birlikdə həbs edildim. Bir neçə gündən sonra bizi Bakı Fövqəladə Komitəsinə apardılar. Az sonra general Məmməd bəy Sulkeviç də buraya gətirildi. Onun əhval ruhiyəsi çox pis idi. Fikirləşirdi ki, güllələyəcəklər. Özü haqqında veriləcək qərarı təkminlə gözləyirdi. Onunla bir kamerada olduğumdan bütün günü dərdləşirdik. Birinci günü döşəmədə yatır və başımızın altına yastıq əvəzi qəzet qoyurduq. Sonra rəflər düzəldildi. Çevrilişdən bir neçə həftə sonra sübh çağı çekistlər içəri girərək bir neçə nəfəri oyatdılar, onlara şeylərini yığmağı əmr etdilər. Çekistlər tələsdirir, haraya aparacaqları barədə məhbuslara heç nə demirdilər. Mən general Məmməd bəy Sulkeviçin yaxınlığında yatmışdım. General bizlərdən bir neçə nəfərin əlini sıxmağa macal tapdı. Xudahafizləşərkən o, tam yəqinliklə bildirdi ki, güllələməyə aparırlar. Özümüzün sağ qalacağımıza heç bir ümidimiz olmasa da, ona təsəlli verirdik. Onu da qeyd etməliyəm ki, general özünü çox ləyaqətli və mərdanə aparırdı. Bir neçə gündən sonra qəzetlərdə "əksinqilabi fəaliyyətində" ittiham olunanların güllələnməsi haqqında məlumatı oxuduq. Bu siyahıda general-leytenant Məmmədbəy Sulkeviçin familiyası da vardı. O da mənə məlumdur ki, general Sulkeviç haqqında heç bir araşdırma, məhkəmə istintaqı olmadı. O, Azərbaycan Demokratik Ordusunun generalı olduğuna görə sorğusuz-sualsız güllələndi.

# SÜVARİ GENERALI HÜSEYN XAN NAXÇIVANSKİ
(1863-1919)

*Peterburq zadəganlarının say-seçmə üzvlərindən ibarət qvardiya süvarilərinə general Hüseyn Xan Naxçıvanski komandanlıq edirdi.*
***A. Soljenitsin, "14 avqust" romanından***



Hüseyn xan Kəlbalı xan oğlu Naxçıvanskini müasirləri sərt, nüfuzlu bir general kimi təsvir edirlər. İlk dəfə mən onun şəklinə 1916-cı ildə çap olunmuş "Niva" jurnalının yeddinci nömrəsində rast gəldim. Doqquz nəfər ali rütbəli hərbçinin təsvir olunduğu şəklin altında belə yazılıb: Qafqaz cəbhəsinin Georgi duması, Qafqaz ordusunun baş komandanı, canişin Əlahəzrət böyük knyaz Nikolay Nikolayeviç Romanov[1] (1856-1929), korpus komandiri süvari generalı Kalitin, knyaz Qalitsin, general Xan Naxçıvanski, general Yanuşkeviç. Ayaq üstə duranlar: general Vatin, Çirkov, polkovnik-knyaz Nijeradze və polkovnik Naqorski.

Onun Rus-yapon və Birinci Dünya müharibəsindəki fəaliyyətini müxtəlif arxiv sənədlərindən öyrəndim. General Hüseyn Xan Naxçıvanski 1863-cü il iyulun 12-də general Kəlbalı xanın ailəsində anadan olunb. Atası on beş yaşlı Hüseyn xanı 1876-cı ildə Peterburqdakı Paj korpusu[2] məktəbinə oxumağa göndərir. O vaxtlar Peterburqda çoxlu naxçıvanlı ziyalı yaşayırdı. Onların da arasında xan

1. Çar II Nikolayın doğma əmisi.

nəslinin nümayəndələri çoxluq təşkil edirdi. İmperator II Aleksandrın şəxsi himayəsində olan korpus məktəbini Hüseyn Xan 1883-cü ildə əla qiymətlərlə bitirir. Çarın xüsusi süvari qoşununda xidmət edən kornet Naxçıvanski beş il keçməmiş podporuçik rütbəsi alır.

Hüseyn Xan Sankt-Peterburqda yerləşən birinci Qvardiya Süvari dviziyasının Leb-Qvardiya süvari alayında 1898-ci ilə qədər xidmət edir. Bu müddətdə eskadron komandiri vəzifəsinə qədər yüksələn Hüseyn Xan Naxçıvanskinin rütbəsi də artıb rotmistr olur.

Sonralar Qafqazda və Rusiyanın müxtəlif şəhərlərində hərbi xidmətdə olan Hüseyn Xan Naxçıvanski nümunəvi zabit kimi ali orden və medallara layiq görülür. Rus-yapon müharibəsi başlanana qədər o, İranın "Şire-Xorşid" ordeninin ikinci və dördüncü dərəcəsi ilə (bahalı almazla bəzədilmiş), zabitlərə məxsus "Rumın Ulduzu" ilə, Avstriyanın "Dəmir Xaç", birinci, ikinci və üçüncü dərəcəli "Müqəddəs Stanislav", dördüncü dərəcəli "Müqəddəs Aleksandr", birinci dərəcəli "Müqəddəs Anna", Bolqarıstanın "Döyüş xidmətlərinə görə" və üçüncü, dördüncü dərəcəli "Müqəddəs Vladimir" ordenləri ilə təltif olunur.

Nizami orduda sərkərdəlik qabiliyyətinə görə Hüseyn Xan 1903-cü il aprelin 6-da polkovnik rütbəsi alır.

İnqilabdan əvvəlki qəzetlər, müxtəlif arxiv sənədləri öz səhifələrində Hüseyn xan haqqında az da olsa məlumat verib. Onlarla tanış olanda istər istəməz belə qənaətə gəlirsən ki, Əli ağa Şıxlinski və Səməd bəy Mehmandarov artilleriya sahəsində hansı zirvəni fəth etmişdisə, Hüseyn Xan Naxçıvanski də süvari birləşmələrinə komandanlıqda həmin zirvədə dayanırdı.

1904-cü ildə Rus-yapon müharibəsi başlananda Naxçıvanski əksəriyyəti qafqazlılardan təşkil olunmuş ikinci Dağıstan süvari alayına komandanlıq edirdi. Polkovnik Hüseyn xanın alayı 1905-ci il yanvarın 14-də Landun-Qou kəndi uğrunda ağır döyüşlər aparmışdır. Bir neçə gün kəndi ala bilməyən döyüşçülər mahir komandirin hərbi fəndi ilə dan üzü hücuma keçərək sürətli zərbə ilə yaponları kənddən vurub çıxarmışlar. Həmin döyüşdə Kazak batareyasını yaponların mühasirəsinə düşmək təhlükəsindən xilas etdiyinə və Landun-Qou kəndini itgisiz aldığına görə polkovnik Hüseyn xan dördüncü dərəcəli "Müqəddəs Georgi" ordeninə layiq görülmüşdür. Bu güclü döyüş səhnəsi məşhur rəssam Viktor Vikentiyeviç Mazurovskinin yağlı boya ilə işlədiyi rəsmdə əbədiləşmişdir. Əsərdə alay döyüşçülərinin qızğın həmləsi və öndə at üstündə hücuma keçən polkovnik

2. Köhnə rus ordusunda Paj korpusunu və Nikolayev Kavaleriya Məktəbini bitirənlər yalnız qvardiyada xidmət etməyə göndərilirdi. Bu qapalı hərbi məktəblərdə adlı-sanlı zadəgan uşaqları oxuyurdu. - Ş.N.

Hüseyn Xan Naxçıvanskinin obrazı ustalıqla işlənmişdir.
Həmin əsər hazırda Moskvadakı Rusiya Dövlət Muzeyində saxlanılır.

***

Məşhur rus jurnalisti A. Kvitka Port-Arturda müharibə başlayanda könüllü cəbhəyə getmiş və döyüşlərdə jurnalist-zabit kimi iştirak etmişdir. Müharibə gedə-gedə "Zabaykalye kazak zabitinin gündəliyi" adlı maraqlı bir əsər yazmışdır. 1908-ci ildə Sankt-Peterburqda nəşr etdirdiyi həmin kitabda igid eloğlumuz polkovnik Hüseyn xan Naxçıvanski haqqında maraqlı səhifələr var:

***Səhifə 181-də:*** "Axşam üstü Bensixuda süvari-qvardiyaçı Xan Naxçıvanskinin ikinci Dağıstan alayı gözlənilir. Alay qafqazlılardan və süvari qvardiyasında xidmət edən zabitlərdən təşkil olunmuşdu.

... Avanqard tağımının ardınca yüzlərlə adam polk komandiri, onların da ardınca uca bir ağacın zirvəsində polkovnik Xan Naxçıvanskiyə məxsus qızılı aypara nişanlı dalğalanan dəstə göründü.

Alay cərgələnmiş tağımlarla kalon boyu uzanırdı. Biz isə Xanın zabitlərindəki atlara həsədlə baxırlıq. Mən axşam saat 10-a yaxın Xanı general Lyubavinin yanına ötürüb, evimə qayıtdım".

***Səhifə 245-də:*** "Dağıstanlıların komandiri Xan Naxçıvanski, podpolkovnik Byuntiq və knyaz Tumakov həyətimə daxil olanda səhər saat 11 olardı. Onlar mənimlə nahar etməyə qaldılar... Qafqazlıların əsgər və komandirləri döyüşlərdə hamıdan seçilirdi. Onları bir şeydə qınamaq olardı, o da həddindən artıq cəsur olmalarında...".

***Səhifə 361-də:*** "Polkovnik Xan Naxçıvanskinin Qafqaz-Kazak briqadasının cəsurları üç yapon nəqliyyatını məhv etmişlər...".

İgid həmyerlimiz, polkovnik Hüseyn xan Naxçıvanski yaponlara qarşı apardığı döyüş məharətinə görə dördüncü dərəcəli "Müqəddəs Georgi", "Müqəddəs Vladimir" (bantla birgə) üstü yazılı qızıl silahla və "İgidliyə görə" ordenləri ilə təltif olunmuşdur.

1910-cu ildə nəşr olunmuş "Port-Artur döyüşlərinin salnaməsi"ndə araşdırmalar aparanda Hüseyn xan Naxçıvanskinin komandanlıq etdiyi İkinci Dağıstan alayının sıralarında şərəfli döyüş yolu keçən həmyerlilərimizin də fəaliyyətinə rast gəldik.

Podyesaul (kazak qoşunlarında kapitan) şahzadə Feyzulla Mirzə Qacar 1905-ci il yanvarın 14-də Laizinqou uğrunda gedən döyüşlərdə qəhrəmanlıqla vuruşaraq yaralanmışdır. Sonralar Birinci Dünya Müharibəsində iştirak edən polkovnik Feyzulla Mirzə Qacara 1917-ci il mayın 7-də general-mayor rütbəsi vermişdir. 1919-cu il yanvarın 9-da Hərb naziri Səməd bəy Mehmandarovun iyirmi saylı əmrilə o, Azərbaycan ordusunda süvari diviziyasının

komandiri təyin olunur. 1920-ci ilin may ayında bolşeviklərlə döyüşdə qəhrəmanlıqla həlak olub. Şahzadə Feyzulla Mirzə Şəfi xan oğlu Qacar Nikolayev süvari məktəbini kornet rütbəsində bitirmişdir.

Ştabs-kapitan Gəray bəy Abbasqulu bəy oğlu Vəkilov (1884-1952), xorunjuy (kazak rotasında ilk zabit rütbəsi) Əbdürrəhman Qurbanov və xorunjuy Cəmaləddin Musayev isə əla kəşfiyyatçı kimi “Müqəddəs Stanislav” ordeninin üçüncü dərəcəsi ilə (qılıncla birgə) təltif olunmuşdur. Salnamədə sonuncu iki döyüşçünün fotoşəkili verilmiş və şəkilaltı yazıda Əbdürrəhman Qurbanovun yanvarın 14-də Laizinqou döyüşlərində həlak olması, Cəmaləddinin isə bu döyüşdə yaralanması qeyd olunmuşdur.

Port-Artur müharibəsi qurtardıqdan sonra polkovnik Hüseyn xan yenə Sankt-Peterburqa çağırılır və əvvəlki Leyb-qvardiya süvari alayında xidmət edir.

1906-cı ilin əvvəllərində polkovnik Hüseyn xan Naxçıvanski Qafqaza göndərilir. Qısa müddətli məzuniyyətdə olur. O, Tiflisdə yerləşən rus ordusunun ən şöhrətli - 17-ci Nijeqorod draqun alayının komandiri təyin olunur. 1906-cı il fevralın 14-də alayı polkovnik Konstadiusdan təhvil alan Hüseyn xan nijeqorodluların qarşısında çıxış edərək demişdir:

"Mən Peterburqda Əlahəzrət İmperatora təqdim edilərkən dövlətimizin başçısı iltifat göstərərək alaya onun çar salamını yetirməyimi buyurdu. Monarxın bu iltifatını ləyaqətli siz nijeqorodlulara çatdırmaqla özümü xoşbəxt sayıram".

17-ci Nijeqorod draqun alayı nəinki Qafqazda, bütün imperiyada özünün şərəfli döyüş ənənələri ilə məhşur idi. Alay istər sıra hazırlığı, istərsə də daxili intizam baxımından keçmişin qəhrəmanlıq ənənələrini uca tutmuşdur. Belə bir şan-şöhrətli alaya şəxsən ölkənin başçısının Hüseyn Xanı təyin etməsi onun üzərinə böyük məsuliyyət qoyurdu. 1906-cı il martın 21-də Qafqaz süvari briqadasını təmsil edən nümayəndə heyəti imperatorun yeganə oğlu Alekseyin ad gününü təbrik etmək üçün Peterburqa yola düşdü. Ayın 26-da 17-ci Nijeqorod alayının ünvanına belə bir teleqram gəldi.

"Əziz nijeqorodlulara bunu bildirməklə özümü xoşbəxt sayıram ki, bu gün Əlahəzrət İmperator iltifat göstərərək vəliəhd Alekseyi bizim doğma alayın siyahısına daxil etdi".

Nijeqorodluların sevincinin həddi yox idi. Çarın bu yeni iltifatı şərəfinə təntənəli dua mərasimi, parad və səmimi ailə ziyafəti keçirildi. Elə həmin vaxt belə bir fikir yarandı ki, vəliəhdə Nijeqorodsk alayının tam hərbi geyim forması təqdim edilsin. Bununla əlaqədar Hökmdar İmperatorun icazəsi ilə, alay komandiri polkovnik Hüseyn xan Naxçıvanski, podpolkovnik Qlonti, rotmistrlər Kobiyev və Kusov, alayın yavəri ştabs-rotmistr knyaz Trubetskoy və knyaz poruçik David Çavçavadzedən ibarət nümayəndə heyəti Peterburqa yola düşdü. Nümayəndə heyətinin şərəfinə qəbul 1906-cı il aprelin beşində Çars-

koye Seloda keçirildi. O vaxt çar ailəsi burada istirahətdə idi. İmperatriça və övladları ilə birlikdə nümayəndə heyətinin görüşünə gəlmiş Hökmdarın əynində Nijeqorod alayının sürtuku vardı. O Vəliəhdi qucağına götürmüşdü. Hökmdar nümayəndə heyətinə müraciətlə bir neçə iltifatlı söz deyəndən sonra alay komandiri Hüseyn xan Naxçıvanski miniatür Nijeqorod mundirini və şaşkanı şahzadəyə təqdim etdi. Şahzadəyə təqdim edilən şaşka şəxsən Hüseyn xan Naxçıvanskiyə məxsus, qədim qəbzəli döyüş şaşkası idi. Onu qafqazlı ustalar milli naxışlarla bəzəmişdi. Parıltısı göz qamaşdıran bu qiymətli hədiyyəyə heyranlıqla baxan Hökmdar onu lütfən qəbul etdi. Nijeqorodlulara təşəkkürünü bildirib alay komandiri polkovnik Hüseyn xan Naxçıvanskiyə dedi: "Bu günkü gündən xatirə olaraq, mən Sizi fligel-adyutant[3] təyin edirəm".

Sonra çar alay komandiri Hüseyn xan Naxçıvanskini qucaqlayıb öpdü. İmperatriça da lütfkarlıq edib nümayəndələrin hər birinə çinidən düzəldilmiş qiymətli hədiyyələr verdi.

1906-cı ilin payızında fligel-adyutant Hüseyn xan Naxçıvanski Leybqvardiya süvari alayının komandiri təyin edildi. Ayrılıq günü o, alaydaşları qarşısında çıxış edərək dedi: "Əziz nijeqorodlular! Dərin kədər hissiylə sizdən ayrılıram. Sizə komandirlik etdiyim qısa müddətdə sizə ürəkdən bağlanmışam. Şanlı və ləyaqətli Nijeqorodsk alayına komandirlik etmək şərəfinə layiq görüldüyüm üçün mən həmişə fəxr edəcəyəm. Əminəm ki, siz heç bir şəraitdə öz borcunuzu və nijeqorodluların andını unutmayacaqsınız! Əlvida, əziz alay yoldaşlarım! Allah amanında!

## "BİRİNCİ DÜNYA MÜHARİBƏSİNDƏ

*1916-cı ilin noyabr ayında general-leytenant Hüseyn xan Naxçıvanskinin komandası altında olan bizim süvarilərimiz (Dikaya diviziya - Ş.N.) alman süvarilərini darmadağın etmişdilər.*

***General Əli ağa Şıxlinskinin "Xatirələrim" kitabından.***

Birinci Dünya müharibəsinə qədər imperatorun xüsusi qoşununda xidmət edən Hüseyn xan Naxçıvanskiyə 1907-ci il martın otuz birində, qırx dörd yaşında general-mayor rütbəsi verilmişdir.

3. İmperatorun şəxsi qvardiyasında ən nümunəvi zabitlərə verilən fəxri rütbədir. - Ş.N.

Müasir rus tədqiqatçısı Fyodor Nesterov "İllərin əlaqəsi" (1984-cü il) tarixi publisistik əsərində əlahəzrətin sadiq generalları sırasında artilleriya generalı N.İ. İvanovun, general qraf Fyodor Kellerin və general Xan Naxçıvanskinin adlarını fəxrlə çəkir. Çar İkinci Nikolay manifestə qol çəkib hakimiyyətdən imtina edəndə belə, bu əsilzadə generallar əlahəzrətə teleqramla müraciət edərək bildirdilər ki, biz həmişə sənə və rus imperiyasına sadiq qalacağıq. İmperator uzun illər boyu bu əsilzadə generallara inanmaqda zərrəcə səhv etməmişdi.

1917-ci il martın 3-də general-adyutant Hüseyn xan Naxçıvanski Ali Baş Komandan vəzifəsini müvəqqəti icra edən general Alekseyevə göndərdiyi teleqramda yazırdı:

***"Bizə geniş miqyaslı hadisələr barədə məlumatlar çatıb. Sizdən xahiş edirəm, qvardiya kavaleriyasının Əlahəzrət imperatora olan sonsuz sədaqətini və öz sevimli monarxı uğrunda ölümə hazır olduqlarını çatdırasınız.***

***General-adyutant Xan Naxçıvanski"***

Hüseyn xan Naxçıvanski döyüşən ordu generalı idi. O, bütün rütbə və təltiflərə məhz cəbhələrdəki xidmətlərinə görə layiq görülmüşdü. O, nə buyruq, nə də məiyyət generalı deyildi. Hərbçilər daha yaxşı bilirlər ki, süvari qoşunu üzrə tam ali general rütbəsinə çatmaq nə qədər böyük istedad və sərkərdəlik bacarığı tələb edir. Hüseyn xan Rusiyanın o dövrdəki adlı-sanlı generalları ilə birgə işləyirdi. Şöhrəti bütün Rusiyanı dolaşan, adına cəbhə olan A.Brusilov, Y.Barsukov, M.Draqomirov, Y.Alekseyev kimi generallar onun ordu heyətindəki, müharibədəki döyüş xidmətlərini yüksək qiymətləndirirdilər. Yəqin ki, Hüseyn xan Naxçıvanskinin birinci dünya müharibəsindəki xidmətlərini Dövlət mükafatı laureatı, hərb elmləri doktoru, professor, general-mayor Yevgeni Barsukovun yüksək qiymətləndirilməsindən F.Nesterovun xəbəri olmamış deyil. Müharibənin ilk iyirmi gününü təsvir edən general Yevgeni Barsukov, general Hüseyn xan Naxçıvanskinin müvəffəqiyyətli hücumu haqqında yazır: "Bir döyüşdə Xan Naxçıvanskinin süvariləri beş batalyonu, iki eskadronu, on iki topu İnster çayının o tərəfinə ataraq, iki top və dörd qutu mərmi ələ keçirmişdilər. İnster çayında, Meşken, Kraupişken və Lauqaden yaxınlığındakı bərələr tutulmuşdu".

Bu müharibədə general Naxçıvanskinin düşmənə vurduğu zərbələr çox müvəffəqiyyətli olmuşdu. O, 1914-cü ilin avqustunda Şərqi Prussiyaya yürüşdə iştirak etmişdir. Onda general-leytenant Hüseyn xan on minlik rus

süvarilərinin ən yaxşı hissələrinə birinci, ikinci və üçüncü qvardiya süvari diviziyalarına komandanlıq edirdi. Avqustun on beşindən iyirmi birinədək məşhur Qumbien döyüşlərini qələbə ilə başa çatdıran Naxçıvanski süvariləri, həm də birinci ordunun kəşfiyyat əməliyyatlarını aparmış və döyüşdə onlara kömək etmişlər. Az sonra Hüseyn xanın qvardiya süvariləri Kraupişken şəhərinin ətrafında, səkkiz kilometr məsafədə özünə müdafiə mövqeyi tutmuş almanlarla döyüşə girdi. Bu, həlledici döyüş idi. Almanlar bir addım belə geri çəkilmək istəmirdilər. Onlar ilk gündən hücumu şiddətləndirib İnster çayının sahillərini tutmağa can atırdılar. Düşmən Naxçıvanski süvarilərinin hücumuna tab gətirmədi. İlk dəfə qvardiya süvari alayının eskadronları almanların müdafiə xəttini yarıb, onların bir neçə topunu ələ keçirdi, çoxlu zabit və əsgər itgisi verən düşmən tələsik geri çəkildi.

Sentyabr ayında isə düşmən cəhd edirdi ki, iki rus korpusunu birləşdiyi yerdə yaxalasın və onlara qəfil zərbə endirsin. Bu hiylədən onlar böyük üstünlük qazana bilərdilər. Düşmənin bu cəhdlərini hiss edən general Hüseyn xan Naxçıvanski Qordauen-Nordenberq dəmir yolu boyunca mövqe tutaraq şiddətli döyüşləri dayandırmadı. Almanlara birinci rus ordusu cəbhəsini yarmağa imkan vermədi.

Milliyyətcə fin olan marşal Karl Qustav Emil Mannerheym vaxtilə çar qoşunları sıralarında Port-Artur və Birinci Dünya Müharibəsində iştirak edib. 1918-ci ildə vətəni Finlandiyaya qayıdan Mannerheym səksən üç il ömür sürmüşdür. Qoca yaşlarında həcmi beş yüz səhifədən çox "Memuarlar" adlı kitab yazmışdır. Fin və rus dillərində nəşr olunan marşalın Birinci Dünya Müharibəsi dövrü xatirələrində eloğlumuz general Hüseyn xan Naxçıvanski hörmətlə yad edilir. Marşal yazır: "1915-ci il fevralın sonunda mənim alayım ordu korpusunun tərkibinə daxil edildi. İkinci kavaleriya korpusunun qərargahı Stanislav şəhərinin (indiki İvano-Frankovski) yaxınlığında yerləşmişdi. Mən hərbi vəziyyət haqqında yeni komandanım, əslən Qafqazdan olan general Xan Naxçıvanskidən məlumat aldım. İkinci kavaleriya korpusu Dnestrdə müdafiə xətti qurulana kimi Prut və Dnestr çayları arasındakı geniş məsafədə düşməni döyüşlə saxlamalı idi.

Korpusa on ikinci kavaleriya diviziyası və altı Əlahiddə Qafqaz alayı da daxil idi. Bu alaylardan üçü döyüşdə göstərdiyi şücaətə görə "Dikaya diviziya" adını almışdı. Alaylarda Qafqaz xalqlarının nümayəndələri çoxluq təşkil edirdi. Könüllülərdən təşkil edilən bu hərbi hissələrdə müxtəlif yaşlı əsgərlər, hətta ata və oğul çiyin-çiyinə döyüşürdü. Zabitlərin bir hissəsi ruslardan, digəri isə Qafqaz müsəlmanlarından ibarət idi. Diviziyaya imperatorun qardaşı böyük knyaz Mixail Aleksandroviç komandanlıq edirdi.

General Xan Naxçıvanski on ikinci kavaleriya diviziyasının Qolitsiyanı

necə tutmasını mənə başa saldı. Yaxşı hərbi birləşmədən imtina etsəm də, onun mənə tapşırdığı hərbi birləşmə əvvəlkindən heç də geri qalmırdı. Hərbi əməliyyatlara tam hazır idi. General Xan Naxçıvanski hərbi birləşməni yüksək qiymətləndirirdi".

1999-cu ildə Moskvada nəşr olunmuş "Kavaleristlər 1900-1920-ci illərdə müasirlərinin xatirələrində" (üçüncü buraxılış) kitabında da igid generalımız Hüseyn xan Naxçıvanskinin Birinci Dünya müharibəsi illəri haqqında maraqlı epizodlar var. Ayrı-ayrı fəsillərdə eloğlumuzun şəxsiyyətinə, məharətlə apardığı döyüş qabiliyyətinə yüksək qiymət verilir. K. Adaridi soyadlı müəllif "Rus süvariləri müharibədən qabaq və müharibə vaxtı" fəslində yazır: "General Xan Naxçıvanski müharibədən qabaq ikinci süvari diviziyasının komandiri idi. Müharibə başlananda o, böyük süvari birləşməsinin komandanı təyin olundu.

Xan orduda olduğu xidmət illərində Dağıstan süvari alayına komandirlik edərək rus-yapon müharibəsində şərəfli döyüş yolu keçmişdir. Onun ali hərbi təhsili olmasa da rəhbərliyin əmrlərini həmişə dəqiqliklə yerinə yetirən igid şəxsiyyət olmuşdur. Bilavasitə özünə tabe olan diviziya komandirlərinə sərbəstlik verdiyinə görə həmin komandirlər öz hərbi hissələri üçün yaxşı döyüş şəraiti yaradırdılar. O da məlumdur ki, general Xan Naxçıvanski vaxtilə özünün komandanlıq etdiyi süvari hissələrinə daha çox qayğı göstərirdi. İginci qavardiya Qafqaz süvari korpusundakı itkilər onu daha çox ağrıdırdı. Bu korpusun diviziyalarında döyüşən əsgər və zabitlər onun üçün çox doğma idi.

Ürəyi yumşaq olan general Xan Naxçıvanski bəzən məsuliyyətsiz adamların təsirinə də düşürdü. Onun tabeliyində olan ən yaxşı döyüşkən qvardiya alayları özlərinə xüsusi qayğı və münasibət tələb etdiklərindən general Xan Naxçıvanskiyə bu qvardiyalara komandanlıq etmək o qədər də asan deyildi".

General Xan Naxçıvanski öz gücünün müqabilində şəxsi mənafe güdmədən belə süvari birləşmələrinə məharətlə komandanlıq edirdi. O, birinci ordunun süvari diviziyalarının rəisləri arasında ən nümunəvi şəxsiyyət və ən görkəmli generallardan biri idi.

Məşhur polyak generalı Anders Qərb cəbhəsində süvari korpusunun komandanı Hüseyn xan Naxçıvanskinin tabeliyində polyaklardan ibarət süvari diviziyasının komandiri idi.

***Birinci dünya müharibəsi cəbhələrində göstərdiyi misilsiz qələbələrə və sərkərdəlik məharətinə görə, Hüseyn xan Naxçıvanski 1916-cı il yanvarın 23-də tam süvari qoşun generalı rütbəsi aldı. "Kaspi" qəzeti 1916-cı il aprelin 29-da iftixarla yazırdı: "Qafqaz Ordusunun Baş Komandanının sərəncamında***

***olan qvardiya süvarisi general-adyutant, general-leytenant həmyerlimiz Hüseyn xan Naxçıvanskiyə tam süvari generalı rütbəsi verilib. Süvari korpusunun komandanı "Müqəddəs Georgi" ordenli general Hüseyn xan həm də "Ağ qartal" ordeni ilə (qılıncla birgə) təltif olunub".***

Bir çox ali mükafatlara layiq görülən və zabitlərə məxsus "Müqəddəs Georgi" ordeninin iki dərəcəsi (3-cü və 4-cü) ilə təltif olunan görkəmli hərbi xadim Hüseyn xan Kəlbalı xan oğlu Naxçıvanskini 1919-cu ildə Petroqradda bolşeviklər güllələdilər.

Bəzi rus hərb tədqiqatçılarının fikrincə, Hüseyn Xan həyat yoldaşı tərəfdən çar ailəsinə yaxın qohum olduğuna görə həmin ilin yanvar ayında bolşevik "Qırmızı terror"çuları tərəfindən Petroqradda güllələnib.

1918-ci ilin sonunda Leninə sui-qəsdlə əlaqədar Petroqrad Fövqəladə Komissiyasının sədri M.S. Uritskinin əmriylə ölkədə qırmızı terror elan olundu. Bolşevik ÇEKA-sı keçmiş çar generallarını, zadəganları və sovetlərə rəğbəti olmayan ziyalıları sorğu-sualsız güllələyirdilər Hüseyn xan Naxçıvanski də bu qarşıqlığın qurbanı oldu.

Generalın ailəsi haqqında əlimizdə az da olsa məlumat var.

Peterburq və Tiflis arxivlərində pərakəndə halda saxlanan sənədlərdən məlum olur ki, Hüseyn xan Naxçıvanskinin həyat yoldaşı knyaginya Sofiya Nikolayevna Taube (1864-1941) olmuşdur. Sofiya Nikolayevna çar III Aleksandrın həyat yoldaşı Mariya Romanovanın qohumu idi. 1866-cı ildə rus çarına ərə gedən Mariya Daniya kralının qızı olub. Hətta böyük knyaz Qavril Romanov "Mərmər sarayda..." xatirələr kitabının bir yerində yazır ki, 1918-ci ildə çar ailəsinin üzvü kimi bolşeviklər tərəfindən təqib olunanda arabir gəzintiyə çıxardıq. General-adyutant Xan Naxçıvanski də həmişə bizimlə birgə olardı. Müharibə vaxtı mən onun komandan olduğu korpusda qulluq etmişdim.

General Hüseyn Xanın üç övladı vardı. Böyük oğlu Nikolay 1891-ci il yanvarın 25-də Peterburqda anadan olub. O da hərb sənətini seçmiş, vaxtilə atasının oxuduğu zadəgan balalarına məxsus Paj korpusunu bitirmişdir. Az müddət çar qvardiyasında xidmətdə olan Nikolay Naxçıvanski 1912-ci il fevralın 20-də vəfat etmişdir. Generalın 1889-cu il dekabrın 29-da anadan olan kiçik övladı Georgi Naxçıvanski də Peterburqda Paj korpusunu bitirib qvardiyada zabit kimi xidmət etmişdir. Atası Hüseyn Xan həlak olduqdan sonra xaricə mühacirətə getmiş, 1923-cü ilə qədər Parisdə yaşamış, sonralar Livana köçən Georgi orada da vəfat etmişdir.

1920-ci ildən sonra ömrünü Fransada mühacirətdə keçirən milyonçu Şəmsi Əsədullayevin nəvəsi görkəmli yazıçı Ümmülbanu 1991-ci ildə verdiyi müsahibələrinin birində general Hüseyn xan Naxçıvanskinin nəvələrini və



qızı Tatyananı tanıdığını söyləmişdir. O demişdir ki, Mariya Naxçıvanskaya Livanda təhsil alıb. Hazırda Misirdə yaşayır. Generalın digər nəvəsi Corc Naxçıvanski Amerika Birləşmiş Ştatlarındadır. Hüseyn xanın yeganə qızı Tatyana isə 1972-ci ildə Parisdə rəhmətə getdi. O, 1894-cü ildə anadan olmuşdu. Tatyana 1917-ci ildə atası Hüseyn Xanın dostu, tam süvari generalının oğlu qvardiya ataman alayının zabiti Dmitri Martınova ərə getmişdir. İnqilabdan sonra onlar Parisdə mühacirətdə yaşayırdılar.

***P.S.* Bəzi müəlliflər yazırlar ki, general Hüseyn xan Naxçıvanski imperiya dağılandan sonra dönə-dönə vətəni Azərbaycana, Naxçıvana gəlmişdir. Hətta 1918-1920-ci illərdə guya Azərbaycanda Milli ordu quruculuğunda da iştirak etmişdir. Lakin aparılan tədqiqatlar göstərir ki, general Hüseyn xan sonuncu dəfə Bakıda 1902-ci ildə olmuşdur.**

***O, Bakıdan keçib Avropaya gedən İran şahı Müzəffərəddin Qacarı (1853-1907) bir qrup hərbiçi ilə qarşılamışdır. Həmin heyətin şahla birgə çəkilmiş foto şəkli də saxlanılıb. Generalın ikinçi bir foto şəkli də həmin vaxtda Bakıda çəkilib. General portret foto şəklinin sol küncündə öz dəsti-xətti ilə: "Doroqomu N.N.Baratovu na dobruyu pamyat" sözlərini yazıb. Foto şəklinin sağ küncündə isə oxuyuruq: "Xan Naxçıvanski, Baku, 1902 q."***

***Həmin foto şəkilləri bu sətirlərin müəllifi 1999-cu ilin yazında Tiflis Mərkəzi Dövlət arxivindən tapıb gətirmişdir.***

***1918-1920-ci illərdə Azərbaycan Milli Ordusundakı iştirakına gəldikdə isə general Hüseyn xanın həmin vaxtlarda Bakıda olmasını yazanlar səhv edirlər. Ona görə ki, həmin illərdə milli orduda eyni ad-familyada xidmət edən polkovnik Hüseyn xan Naxçıvanski soyadlı ayrı bir şəxs olub. Onu 1930-cu il sentyabrın 29-da Naxçıvanda bolşeviklər güllələyiblər.***

***Yuxarıda qeyd etdiyimiz kimi tam süvari generalı Hüseyn xan Naxçıvanskini isə 1919-cu ilin yanvar ayında "Qırmızı terrorçu"lar Petroqradda güllələmişdilər.***

# UZUN ÖMRÜN SƏHİFƏLƏRİ

*Qarayazı,*
*Kür qırağı Qarayazı,*
*Ömrə çox da bel bağlama*
*Bir də gördün qara yazı.*
***El bayatısı.***



***Faris bəy Vəkilov***
***1923-cü il, Fransada***

Məni çox kefsiz və bir az da könülsüz qarşıladı. Əvvəlcə başa düşə bilmədim, bu etinasızlıq mənim gəlişimə görədir, yoxsa qoca xəstəhaldır. Elə-belə, nəzakət xatirinə "keçin əyləşin" - dedi. Bu tənha yaşayan qocanın tərtəmiz geyimindən, ev şəraitindən hiss etmək olurdu ki, çox səliqəli adamdır.

Qoca əvvəl eynəyini çıxartdı, sonra da dizinin üstündəki kitabı qatlayıb kənara qoydu. İri şkafın enli siyirməsini çəkib dərindən nəfəs ala-ala, qara məxməri parçaya bükülmüş bağlamanı açdı. Balaca bir şəkil tapıb işığa tərəf tutdu. İri ala gözlərini geniş açıb "budur - atam, - dedi, buyur, bax!" "Atam" - deyəndə səsi qırıldı. Bu qocanın bütün varlığını qəribə, təsvirolunmaz bir kövrəklik tətrətdi. Udqunub üzünü yana döndərdi.

Mən şəkli alıb baxdım. Bu, cavan, çox yaraşıqlı bir zabitin on doqquzuncu əsrin sonlarında çəkilmiş şəkli idi.

- Faris baba, - dedim, - bəs sənədləri? Təkcə bu şəkillə nə eləmək olar? Mümkünsə sənədləri də tapın, birgə baxaq, elə buradaca... Heç yerə aparmayacağam.

O, könülsüz geri döndü, ağır addımlarla yenidən şkafa yaxınlaşdı. Xeyli

əlləşdi. Bayaq oxuduğu kitabı o küncdən bu küncə qoyur, dəftəri açıb baxır, arasından heç nə tapa bilməyib əsəbləşdi...

Səbrim tükənmişdi, onun əhvalı mənə də təsir etmişdi. Nəhayət, şkafın tək gözündən götürdüyü qalın bir qovluğu mənə verib tətrək, kövrək səslə soruşdu:

- Cavan oğlan, sənin nəyinə lazımdı mənim atamın sənədləri?

- Faris baba, atanız xalqımızın hərbi topoqrafiya tarixində yeganə general olub. İstəyirəm qəzetdə, jurnalda onun barəsində bir yazı ilə çıxış edim, qoy bugünkü gənclik xalqımızın belə bir şöhrətli generalı olduğunu bilsin.

- Mənim atam çoxdan unudulub, - deyə incik halda əlini yellədi. Ani fasilədən sonra əlavə etdi: - Bəlkə, elə belə yaxşıdı. Musavat generalı kimin nəyinə lazımdır?.. - İndi başa düşdüm ki, qoca məni nəyə görə könülsüz qarşıladı.

- Bir vaxt özüm çox çalışdım ki, üzə çıxsın, generallar arasında onun da adı çəkilsin. O da Azərbaycan üçün, xalqı üçün can qoyub, cəbhələrdə vuruşub, gecəsi-gündüzü topoqrafiya çəkilişlərində keçib. Hələ 1883-cü ildə Rus-iran komissiyasının tərkibində Xəzər dənizindən Əfqanıstana qədər olan sərhədlərin dəqiqləşdirilməsində iştirak edib. Belə bir ciddi işi vaxtından əvvəl yerinə yetirən atamın xidməti İran hökumətinin ən yüksək "Şire-Xorşid" ordeninə layiq görülüb. O, Krımın, Dağıstanın və bütün Qafqazın topoqrafik xəritəsini tərtib edib. 1892-ci ildə Türkiyəyə ezam olunan atam Qars vilayətinin rus-türk sərhədlərində topoqrafiya işlərinə rəhbərlik edib. Cənubi Azərbaycanın Təbriz, Xoy, Urmiya və başqa şəhərlərinin də topoqrafik çəkilişinə atam rəhbərilik edib. Hər gələn bir sənədini, şəklini istədi, elə o gedən oldu. - Kövrək-kövrək, - mən də ki, belə, gördüyün kimi, qocaldım, əldən düşdüm. Sənəd, şəkil aparanların da ünvanını, telefonunu itirdim. O, insafsızlar da nə atam haqqında yazdılar, nə də şəklini qaytardılar.

- Mən burda baxacam, heç nəyi heç yerə aparan deyiləm. Qeydlərimi də burada eləyəcəm...

- Yaxşı, onda aç qovluğu, söhbət eləyək. Əvvəla, de görüm atamın sorağını sənə kim verib? - zəndlə üzümə baxıb soruşdu.

- Bir marşalın "Mənim xatirələrim" adlı yeni kitabı çıxıb. Orda atanız, polkovnik İbrahim ağa Vəkilovun Sərdarabad, Baş Abaran əməliyyatındakı fəaliyyətindən geniş məlumat verir. Qərargah rəisi polkovnik İbrahim ağa Vəkilovun hərbi döyüşlərdə məharətini marşal bütün ordu heyətinə nümünə göstərir, - dedim.

Üz-gözündən gördüm ki, bu fakt onu hədsiz dərəcədə sevindirdi. Məndən qabaq əl uzadıb qovluğu özü açdı.

1978-ci ilin yazında Faris bəy İbrahim ağa oğlu Vəkilovla tanışlığım belə oldu. Həmin il atası haqqında "Azərbaycan" jurnalında çıxış etdikdən sonra yenidən onun görüşünə getdim.

Faris baba jurnalı aldı, yazını o üz-bu üzə vərəqlədi. Divanda yanaşı əyləşdik.

- Oxu, - dedi, - görüm nə yazmısan?

Yarıya çatmamış sərlövhəsini bir də soruşdu.

- "Qəribə tale", - dedim və dönüb ona baxdım. Onun ağıllı, iri gözlərində yaş damcıları görüb dayandım.

- Daha oxuma, özüm oxuyacam, - deyib buz kimi əlilə biləyimdən yapışdı, - atamı yad etdiyiniz üçün hamınıza minnətdaram...

Yol boyu tənha qocanı düşünürdüm. "Mənim bu uzun ömrümün qarası ağından çox olub". Bu sözlər onun dilindən elə belə çıxmamışdı. Sonralar onun həyat tarixçəsi ilə yaxından tanış olanda heyrətə gəldim ki, bütün bu əziyyətlərə necə dözüb? Qəribə burasıdır ki, həmişə başı qovğalarda olan, çox əziyyətlər çəkən bu insanın yaddaşı zərrəcə ziflənməmişdi.

Faris bəy nə az, nə çox, ömrünün on səkkiz ilini doğma Azərbaycandan uzaqda, əzab-əziyyətlə Sibir və Karaqanda sürgünündə keçirmişdi. Neçə inqilabın, neçə müharibənin sınaqlarından sayıq çıxmışdı. Çünki amalı düz, əqidəsi pak olmuşdu. Harda, hansı şəraitdə olmasına baxmayaraq, qəlbində bir çırağın işığı yanmışdı. O çırağın da adı Azərbaycan idi. Lakin bir acı ilin sərt küləyi onun üzünü elə qarsımışdı ki, qapısını elə bərk çırpmışdı ki, o, hələ də özünə gələ bilmirdi. Birinci Dünya müharibəsi başlananda Texnologiya İnstitunun beşinci kurs tələbəsi Faris bəy Vəkilov Petroqradın Putilov zavodundakı top emalatxanasının müdafiəsinə səfərbər olunur. Gənc mühəndisin bu zavoddakı yaxşı fəaliyyəti onu pillə-pillə ucaldır.

1916-cı ildə yaxşı xasiyyətnamə ilə Petroqraddakı məşhur "Feniks" zavodunda baş mühəndis təyin olunur. Bir il sonra oktyabr tufanları zamanı bu səhmdar idarə öz fəaliyyətini dayandırır. Faris bəy Tiflisə - ailəsinin yanına qayıdır. O, bolşevik Əliheydər Qarayevlə birgə ictimayi-siyasi işlə məşğul olur. Onlar Peterburqda fəaliyyət göstərən "Azərbaycan Həmyerliləri Cəmiyyəti"ndə tanış olmuşdular.

1918-1920-ci illərdə Faris bəy Azərbaycan Respublikasının Gürcüstan

hökuməti yanında səlahiyyətli nümayəndəsi kimi mühüm vəzifədə çalışır.

Azərbaycanda aprel işğalından sonra təqib olunan ziyalılardan biri kimi Fransaya mühacirətə gedir. Parisdəki "Reno" zavodunda konstruktor işləyir.

Beş il Paris şəhərində işləyən Faris bəy Vəkilov mühacirətdə olan həmyerlimiz general-mayor Məmmədsadıq bəy Ağabəyzadə ilə görüşür, texniki biliyini artırır. Lakin Vətən həsrəti, ata məhəbbəti onu Azərbaycana qayıtmağa məcbur edir.

"Parisdə müvəqqəti qaldığıma əmin idim, tez-tez Azərbaycanda qalmış atamla əlaqə saxlayırdım. 1925-ci ildə atam yazırdı ki, məni Peterburqdan şəxsən tanıyan Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin birinci katibi Əliheydər Qarayev təklif edir ki, Vətənə qayıdım və hadisələr zamanı dağılmış təsərrüfatların bərpa edilməsində iştirak edim. Mən bu təklifdən çox məmnun oldum.

Sovet konsulluğundan lazım olan sənədləri aldım və 1926-cı ilin fevral ayında öz həyat yoldaşım ilə birlikdə Bakıya qayıtdım.

Əliheydər Qarayev məni səmimi qarşıladı. Mənzil almağa kömək etdi və leytenant Şmidt adına zavoda işə göndərdi".

...Axşam qonşusu mənə zəng eləyib dedi ki, Faris baba sabah sizi görmək istəyir. Mümkünsə ona baş çəkin.

İşdən bir az tez çıxıb onun yanına gəldim. Biz neçə ilin dostu, hətta deyərdim, qohum kimi görüşdük.

- İndi mənim sənə işim düşüb, - dedi. - Xəbərin varmı, atamın dayısı oğlu İbrahim ağa Usubov da general olub. Ondan da yazmaq lazımdır.

Həmin günü mənə çoxlu şəkil, sənəd göstərdi. Səxavət əli açılan Faris babanın mənə hədiyyə verdiyi şəklin biri 1901-ci ildə Qarsda çəkilib. Burda atası İbrahim ağa Vəkilov topoqrafiya çəkilişi zamanı təsvir olunub. Hər iki şəklin orjinalı indi də məndədir. Anası Yelena Yefimovna Vəkilovanın 1909-cu il martın 2-də böyük rus yazıçısı Lev Tolstoya öz övladlarının İslam dinini qəbul etmələrinin mümkünlüyü barədə yazdığı məktubdan söhbət açdı.

Faris baba bu məktubun fotosurətini və öz əlilə rus dilində yazdığı xatirələrini avtoqrafla mənə verdi.

- Oğul, - dedi, - mənim ömrüm qurtarır, səninki isə başlayır, qoy bunlar səndə qalsın. Amma mən tənha qocaya tez-tez baş çək, sənə lazım olan çoxlu materiallar verərəm...

## GENERAL-MAYOR İBRAHİM AĞA USUBOV
(1875-1920)

*Qatar səhər saat doqquzda Gəncəyə çatdı. Bayraqlar, xalı-xalça... Hər yer camaatla dolu idi. Hərbiyə naziri Səməd bəy Mehmandarov və müavini general Əli ağa Şıxlinski, Gəncə qubernatorunun müavini Hüseyinqulu xan Xoyski və başqalarına "xoş gəldiniz" rəsmi əda edildi.*

*Rəsmi keçid başlandı. Rəsmi keçidi hərbi nazir müavini general Əli ağa Şıxlinski və ərkani hərbi rəisi general Həbib bəy Səlimov idarə edirdilər. General İbrahim ağa Usubov komanda verirdi. O, gözəl at üstündə oturub əlində üryan qılınc nərəli bir səda ilə komanda verirdi.*

***1919-cu il martın 23-də Novruz bayramı münasibəti ilə keçirilən parad-nümayişdən.***



Bu dəfə söhbətimizin əsas mövzusu Faris babanın əmisi İbrahim ağa Usubov oldu. General-mayor İbrahim ağa Usubov 1875-ci il martın altısında Qazax qəzasının Qıraq Salahlı kəndində dünyaya gəlib. Sənədlərdən öyrənirəm ki, generalın atası Musa ağa da rus ordusunun zabiti olub. XIX əsrin əvvəllərində azərbaycanlılardan təşkil olunmuş Müsəlman Süvari alayında Musa ağa və əmisi Süleyman ağa Usubovlar Qazax Süvari dəstəsində mərdliklə vuruşmuşlar. Sonralar Polşa müharibəsində və dağlılara qarşı döyüşlərdə nümunəvi xidmətinə görə Musa ağa Molla Yusif oğlu poruçik rütbəsinə qədər yüksəlib.

Musa ağa praporşik rütbəsini 1839-cu il iyulun 2-də alıb. 1845-ci il noyabrın 28-dən general-adyutant

knyaz Vorontsovun komandan olduğu Əlahiddə Qafqaz korpusu yanında Müsələman ayında rəis köməkcisi olmuşdur. Həmin ili dağlılara qarşı döyüşlərdə Darqo kəndi və Gerzel yaşayış məntəqəsi uğrunda gedən döyüşlərdə göstərdiyi qəhrəmanlığa və şücaətə görə üçüncü dərəcəli "Müqəddəs Stanislav" ordeni ilə təltif olunmuşdur.

Musa ağaya 1848-ci il iyulun 9-da podporuçik, 1854-cü il dekabrın 4-də isə qüsursuz xidmətinə görə poruçik rütbəsi verilmişdir. 1891-ci il iyulun 22-də istefaya çıxan poruçik Musa ağa Usubova dövlət gümüş pulla ildə 97 manat 50 qəpik pensiya kəsmişdir. Həmin ili avqustun 1-də vəfat etdiyinə görə o zabit heyəti siyahısından çıxarılmışdır.

Faris baba sənədlərindən birini açır, titrək barmağını üstündə gəzdirə-gəzdirə:

- Fikir ver, əmim də Əli ağa Şıxlinski və atam kimi Tiflisdəki kadet korpusunu bitirib, özü də əla qiymətlərlə, - deyir, - 1892-ci ildə İkinci Konstantinovsk hərbi məktəbini bitirir. Bir il sonra unter-zabit rütbəsi alır. 1902-ci ildə ştabs-kapitan rütbəsində əsrimizin əvvəllərində başlayan Rus-yopon müharibəsində iştirak edir. Port-Artur döyüşlərində mərdliklə vuruşan əmim "Müqəddəs Vladimir" ordeninin dördüncü dərəcəsiylə və "Müqəddəs Stanislav" ordenin üçüncü dərəcəsilə (qılınc və bantla birgə) təltif olunur.

1914-cü ilin payızından podpolkovnik rütbəsi alır.

Həmyerliləri, artilleriya generalı Əli ağa Şıxlinski və Səməd bəy Mehmandarovla çiyin-çiyinə vuruşan podpolkovnik İbrahim ağa Usubov Birinci Dünya müharibəsində az şücaət göstərmir. Müharibədən sonra Xarkov şəhərində yerləşən 122-ci Tambov süvari alayında hərbi xidmətə başlayır. 1910-cu ildə İbrahim ağa Usubov Tiflisdə yaşayan qohumu, Zaqafqaziya müftisi Mirzə Hüseyn Əfəndi Qayıbzadənin kiçik qızı Gövhər xanımla ailə həyatı qurur.

Müsahibimdən soruşdum:

- Generalın oğlu, qızı qalırmı?

- Bu saat hamısını deyəcəyəm, - Faris baba yenidən əl-ayağa düşür. Köhnə cib dəftərçələrindən birini götürüb, o birini qoyur, - İki adamla görüş, söbət elə. Əmim qızı Nigar xanım Usubova və generalın qardaşı qızı Gövhər xanım Usubova ilə.

Elə həmin günü Mirzə Şəfi küçəsinin altı nömrəli mənzilində yaşayan Gövhər xanıma baş çəkdim. General-mayor əmisinin adını eşidən kimi səksən yaşlı qadının da gözlərində, sifətində qəribə bir işıq yandı. Sonra o işıq qəfildən çəkildi və yerində təəccüb qaldı:

"Nə əcəb? Haradan yada düşüb".

Gövhər ana əlini dizlərinə vurub yana-yana dedi:

- Fələyin gözü tökülsün, bircə əmin oğlu vardı, o da 1940-cı ildə qəflətən vəfat etdi. Yeganə kişi nişanəsi idi əmin ocağının. Atam İsmayılı zorla xatırlayıram, 1910-cu ildə vəfat etdikdən sonra əmim İbrahimin himayəsinə keçdim. O, Xarkovda hərbi qulluqda olsa da doğma kəndi Salahlını unutmurdu. 1914-cü ildə məni Bakıya gətirib Hacı Zeynalabdin Tağıyevin Qız məktəbinə qəbul etdirdi. 1917-ci ilədək bu məktəbdə oxudum. Əmim bir il sonra Azərbaycan Demokratik Hökumətinin dəvətilə Xarkovdan Bakıya köçdü.

Adətən hərbçi zəhmi ağırdı, deyirlər. Əlbətdə, işdə, qulluqda necə olmağını deyə bilmərəm, amma evdə, ailədə əmim xoşxasiyyət, həssas qəlbli insan idi. Təhsil və tərbiyyə məsələsinə ciddi fikir verərdi. "Gövhər, deyərdi, - səni atanın arzusu ilə müəllimliyə qoymuşam. Sənin qarşında mədəni insan yetişdirmək kimi nəcib bir vəzifə durur. Gərək elə şagird yetişdirəsən ki, onunla həmişə iftixar edə biləsən". Yadımdadı, general Əli ağa Şıxlinski tez-tez bizə gələrdi, hər iki bacanaq Port-Artur döyüşlərindən, Birinci Dünya müharibəsindəki fəaliyyətlərindən söhbət açardılar.

İbrahim ağa Usubov görkəmli dövlət xadimi Nəriman Nərimanovla, Əliheydər Qarayevlə, Mixail Frunze və başqaları ilə yaxın idi, 1915-ci il avqustun birində döyüş meydanlarında göstərdiyi şücaətə görə ona polkovnik rütbəsi verilmişdi.

Bu müharibədə onun göstərdiyi şücaət haqqında "Kaspi" qəzetinin 26 fevral 1916-cı il sayında Ceyhun Hacıbəyli yazır: "Yüz iyirmi ikinci Tambov süvari alayının zabiti, üçüncü dərəcəli "Müqəlləs Vladimir" (1916-cı ildə), ikinci dərəcəli "Müqəddəs Stanislav", ikinci dərəcəli "Müqəddəs Anna" ordenli, kavaler İbrahim ağa Usubov bu alaya təyin olunandan sonra polkovnik rütbəsi almışdır. 1914-cü il oktyabrın on dördündə Mizines kəndi ətrafındakı yüksəkliyə hücum zamanı İbrahim ağa batalyona komandirlik edərkən düşməni iki cərgə səngərdən vurub çıxarmış və üç gün bu yüksəkliyi avstriyalıların əks hücumlarından qoruyub saxlamışdır".

Polkovnik İbrahim ağa Usubov artilleriyası ilə öz alayına himayədarlıq etmiş və Peremişl qalasından düşməni vurub çıxartmışdır. Bu döyüşlərdə göstərdiyi igidliyə görə 1915-ci il aprelin 19-da "Müqəddəs Georgi" ordeninin dördüncü dərəcəsi ilə təltif olunmuşdur.

***1917-ci il iyulun birində 133-cü süvari diviziyasında briqada komandiri təyin olunan İbahim ağa Usubova general-mayor rütbəsi verilmişdir.***

1918-ci ilin may ayında İbrahim ağa Usubovu milli Azərbaycan ordusunda işləmək üçün dəvət etdilər. O, Əli ağa Şıxlinski, Səməd bəy

Mehmandarov, Əbdülhəmid bəy Qaytabaşı, Cavad bəy Şıxlinski və başqa hərbçilərlə birgə Azərbaycan Demokratik Hökumətinin Milli Ordusunun təşkilinə başladı. On səkkizinci ilin aprelində Gəncədə praporşik məktəbi açdılar. Burada azərbaycanlı gənclər təhsil alırdılar. Bir il sonra həmin məktəb Bakıya köçürüldü və Azərbaycan Hərbiyyə məktəbi adlandırıldı. 1919-cu il yanvrın 9-da milli hökumət xalqına sidq-ürəklə xidmət etdiyinə görə hərbiyyə naziri yanında İbrahim ağa Usubovu tapşırıq generalı vəzifəsinə təyin etdi.

Milli hökumət İbrahim ağanı on doqquzuncu ildə Azərbaycan ordusu üçün hərbi ləvazimat və hərbi geyim alıb gətirmək məqsədilə İtaliyaya ezam etmişdi. İbrahim ağa Usubovun xarici ölkəyə ezam olunması təsadüfi deyildi. O, fransız, ingilis, alman və polyak dillərini mükəmməl bilirdi. Respublika Mərkəzi Dövlət Arxivində saxlanan bir sənəd Musavat dövlətinin İtaliyadakı nümayəndəsinin Musavat ordusuna geyim və təchizat əşyaları almaq üçün hərbi nazirliklə danışıqları barəsində teleqram bunu təsdiq edir.

***2 dekabr 1919-cu il***

***Özünün sərəncamında olmadığından İtaliyanın hərbi nazirliyi paltar və silah verə bilmir. O avtomobillər, aeroplanlar, projektorlar, dizliklər, mələfələr və adyallar verir. Geyim əşyaları göndərilməsi Gellə tapşırılıb. İlk partiya dekabrın axırlarında Batuma gələcək. Keyfiyyətli köhnə paltar tapmaq mümkün deyil. Əgər qiyməti əl versə, bu əşyaların əvəzinə parça almaq barəsində fikirləşərəm. Parçanın bizdəki qiymətini bildirməyinizi xahiş edirəm.***

***General İbrahim ağa Usubov.***
***Topçubaşov C. Həsənli***

Cumhuriyyət dövründə Milli ordumuzda iyirmidən çox Azərbaycanlı Generalı xidmət etmişdir. Onların sırasinda peşəkar hərbiçi olan General İrahim Usubov biliyi, təcrübəsi və işgüzalığı ilə ordu heyətində yüksək nüfuz qazanmışdı. Yeni Hərbi Təhsil müəssisələrinin açılması və ayrı-ayrı vaxtlarda döyüş hazırlığının təşkili məhz İkinci piyada diviziyasının komandiri general İbrahim ağa Usubovun təşəbbüsü ilə həyata keçirilmişdir.

Həmin günlərdə (1920-ci il füvralın 3-də) hərbi ləvazimat almaq üçün İtaliyada danışıqlar aparan general İbrahim ağa Usubovun Romadan Əlimərdan bəy Topçubaşova göndərdiyi teleqram daha təsirli idi. General yazırdı: “Sizin konfrasda olmağınız bizim üçün əziz olan Azərbaycanın siyasi həyatında yeni

era yaratdı. Tarixi hadisə baş verdi və Azərbaycan bu andan etibarən artıq müstəqil dövlət hüququ qazandı. Ölkə onun həyatındakı bu nəhəng nəaliyyətin iştirakcısı kimi Sizə borcludur. Sizin büllur kimi təmiz adınız artıq əbədiləşib: qızıl həriflərlə yazılmış bu ad Azərbaycan tarixinin salnaməsində birinci yerdə dayanacaqdır".

***

- Əmim çox zarafatcıl idi, - deyən Gövhər xanım söhbətini davam etdirir. - bir dəfə süfrə başında olan bir əhvalat yadıma düşdü. İbrahim əmim köksünü ötürüb:

- Of, - dedi, - balalarım, kaş hər şeydə: ağılda, kamalda, şöhrətdə özümə oxşasınlar. Amma bircə şeydə mənə yox, dayılarına oxşasalar yaxşıdı.

Həyat yoldaşı Gövhər bibim tez üstünə düşdü:

- De görüm, o nədi elə?

Əmim bığaltı gülümsünüb:

- Boyumu deyirəm, - dedi, - bircə boy-buxundan kəm-kəsrim var.

Əmim orta boylu idi. Ona işarə vururdu.

Əlağa Şıxlinski də buna zarafatla cavab verdi:

- Eybi yoxdu, - dedi, - İbrahim, qəm eləmə, o da igidə bir yaraşıqdır.

- Gövhər xanım, general əminizin son taleyi necə olub.

- İyirminci ilin aprelində XI ordu gəldi. Əli ağa Şıxlinski, İbrahim ağa Vəkilov, Səməd bəy Mehmandarov, Əbdülhəmid bəy Qaytabaşı Firidun bəy Vəzirov, əmim və bütün azərbaycanlı hərbçilərə, generallara ilk günlər toxunmadılar. Xüsusi əmr verdilər ki, poqonlarınızı çıxarın, indi Qızıl Orduda xidmət edəcəksiniz. Onlar da dinib-danışmadılar. Dedilər, təki xalqa toxunmasınlar, biz də xalqa xidmət edərik. Səhv etmirəmsə, hətta, onlara əmək haqqı da təyin etmişdilər. Əmimə vəsiqə də vermişdilər ki, o, diviziya komandiri kimi xidmət edir. Yadımdadır, iyul ayının ilk günləri idi. Evimizdə Qazaxdan gələn qonaq da vardı. Əli ağa əmim, İbrahim dayım da (general İbrahim ağa Vəkilov - Ş.N) bizə gəlmişdi. Hamı kəndi, qohumları, uşaqlıq dostlarını soruşur, deyib-gülürdülər. O vaxt bütün hərbçilər indiki İstiqlal küçəsindəki beş nörəli evdə yaşayırdılar. Gecə on ikiyə işləyəndə hər kəs öz evinə getdi. Yenicə yatmağa hazırlaşırdıq ki, küçədə bir yük maşını dayandı. Maşından tökülən qırmızı əsgərlər qaça-qaça bloklara doldular. Tüfənglərin qundağı ilə qapıları döyüb içəri soxuldular. Əsgərlər içəri girən kimi əmimi əhatəyə aldılar. Mən əmimə tərəf atılıb zorla əlindən yapışıb ağladım. Əsgərlər ev əşyalarını siyahıya aldılar. Əmimin orden-medallarını və özünü də apardılar. O gecə azərbaycanlı generalları - Əli ağa Şıxlinskini, Səməd bəy Mehmandarovu, Murad Gəray bəy Tlexası, Firidun bəy

Vəzirovu, general-qubernator Nərimanbəyovu, polkovnik Rüstəm ağa Şıxlinskini, kapitan Bahadır bəy Vəkilovu, əmim İbrahim ağa Usubovu - hamısını yük maşınına doldurub apardılar. Dallarınca çox gedib-gəldik, bir xəbər öyrənə bilmədik. Onları həbs etdirən İlya adlı hərbçi idi. O, yarı erməni, yarı yəhudi idi. ***Əmimi, on iki azərbaycanlı generalı və zabiti ilə 1920-ci il iyunun on altısında gecə Nargin adasına aparıb güllələdilər.*** Çox get-gəldən sonra əmim arvadı Gövhər bibimə əl boyda kağız verdilər ki, onları səhvən güllələyiblər. Şura hökuməti ailənizdən üzr istəyir.

Əli ağa Şıxlinski və Səməd bəy Mehmandarov isə ayrı kamerada olublar. Xoşbəxtlikdən onların Nəriman Nərimanova göndərdikləri məktub çatıb və onlar xilas olublar. Orduya soxulan terrorçu-daşnaklardan ehtiyat edən Nərimanov ona görə də 1920-ci il avqustun 1-də Ə. Şıxlinskini və S. Mehmandarovu Moskvaya göndərdi.

General İbrahim ağa Usubovdan çox az nişanə qalıb. Bir neçə şəkil, bir də qızı - Azərbaycan Dövlət konservatoriyasının müəllimi, əməkdar incəsənət xadimi, professor Nigar xanım Usubova... Mübarizələrdə keçən ömrün anları indi saralıb-soldurduğunu çox az şəkil və sənədlərlə yaşayır. General-mayor İbrahim ağa Usubovun qızı Nigar xanım atasından fəxrlə söhbət açır:

- Əli ağa əmim deyirdi ki, atan İbrahimin hərbçi istedadı Birinci Dünya müharibəsi dövründə özünü parlaq şəkildə göstərdi. Döyüş zamanı çevikliyi, piyada qoşunlardan məharətlə istifadə etməsi, xüsusilə əsgərlərlə səmimi rəftarı İbrahimi rus ordusunda mahir bir sərkərdə kimi tanıtdı. Əli ağa əmim bir də danışırdı ki, M.V. Frunze atanı yaxşı bir insan kimi tanıyırdı. Birinci Dünya müharibəsindəki fəaliyyətini, hərbi sənətkarlığını çox yüksək qiymətləndirirdi.

Mən Xarkovda anadan olmuşam. Uşaq olsam da, bəzi əhvalatları yaxşı xatırlayıram. Yadımdadır, nə münasibətləsə evimizdə qonaqlıq vardı, məclisdə yüksək rütbəli zabitlərlə yanaşı sıravi əsgərlər də iştirak edirdi. Əsgərlərdən biri atam haqqında dedi: - baxmayaraq ki, o, rus deyil, azərbaycanlıdır, ancaq bizim üçün doğma atadan da yaxındır.

Atam həqiqətən də əsgərlərlə zabit arasında sərt sədd çəkməyən adam idi. Əsgərin bütün hüquqlarını əlindən alan zabitlərlə o, heç vaxt razılaşmazdı. Məhz bu keyfiyyətlərinə görə onu əsgərlər ata kimi sevir, hörmət edirdilər.

... Faris baba ilə görüşlərimin birində gördüm ki, o, lüğətlə bir Azərbaycan yazıçısının romanını oxuyur.

- Faris baba, - dedim, - indən belə dil öyrənmək gec deyilmi?

- Öyrənirəm ki, İbrahim əmim kimi dünənə sabah deməyim.

- O nə deməkdir?

- Bu saat danışacam, - deyib qoca iri gözlərilə gülümsündü.

- Xatirimdədir, 1914-cü ilin yazında atam məni də götürüb kəndimiz Salahlıya gətirmişdi. Hələ müharibə başlamamışdı. Atam doğma kəndinə getməyi, qohumlara baş çəkməyi çox sevirdi. Ali rütbədə, yüksək bir yerdə işləməyinə baxmayaraq, ildə bir neçə dəfə kəndə gedərdi. "Bu kənd - deyirdi, - oğul, harda olsam mənimlədi, adam nə qədər böyük şəhərlərdə, uzaq ellərdə olsa da doğmasını, anadan süd əmdiyi yeri unuda bilmir. Buna haqqı da yoxdur".

Atam eşidir ki, İbrahim ağa Usubov da ailəsi ilə kəndə gəlib. Abdulla əmimlə onun görüşünə gedirlər. Abdulla əmim İbrahim əmimdən soruşur ki, nə vaxt gəlmisən?

İbrahim əmim cavab verir ki, "Sabah".

Atam təəccüb edir ki, bu nə danışıqdır. Abdulla əmim işin nə yerdə olduğunu başa düşür. Gülə-gülə deyir:

- İbrahim, əgər sabah gəlmisənsə, yəqin ki, dünən də qayıdıb gedəcəksən.

- Qoca əhvalatı danışıb kədərlə gülümsündü. - İbrahim əmim - dedi, - uzun müddət Rusiyada qulluq etdiyindən Azərbaycan dilini bir az yadırğamışdı. Məni də tale ölkədən-ölkəyə, şəhərdən-şəhərə atıb. Fransız, ingilis və bir neçə dildə sərbəst danışıb yaza bilirəm. Amma hiss edirəm ki, o qədər yadlarla oturub-durmuşam ki, doğmamı unutmaq ərəfəsindəyəm.

Faris baba çoxillik ömründə bitib-tükənməyən hadisələrin, əhvalatların şahidi olmuşdu. Heyf ki, bu səmimi, mehriban qoca ilə görüşüm onun həyatının son günlərinə təsadüf etdi. O, bizim işıqlı dünyamızdan ömrünün doxsan dördüncü ilində köçdü.

Minillik ədəbiyyata, mədəniyyətə malik xalqımızın minillik də qəhrəmanlıq tarixi var. İgid Cavanşirin, əyilməz Babəkin, köhlən at belində yadellilərə qarşı vuruşan Koroğlunun, Nəbinin, Qaçaq Kərəmin adı həm öz xalqımızın, həm də bütün bəşər tarixinin səhifələrində yaşayır. Onların hər biri öz doğma torpağını, öz yurdunu, öz xalqının əsrlərdən bəri yaratdığı mədəniyyəti qəsbkarlardan mərdliklə müdafiə ediblər.

Hər əsr tarixə öz qəhrəmanlarını verib, hər igid özünün şücaəti ilə gələcək nəslə örnək olub. Zaman keçib, illər ötsə də, onlar yenə unudulmur, tarixin əbədi yaddaşında, sənədlərdə həmişəyaşar qalırlar.

İnanırıq ki, hərbi qüdrət tariximizin səhifələrində general-mayor İbrahim ağa Usubov da beləcə yaşayacaqdır.

# GENERAL ƏLİYAR BƏY MEHDİ OĞLU HAŞIMBƏYOV
(1856-1920)



*Qədim Dərbəndin əsl-nəcabətli Azərbaycan ailələri bir neçə şöhrətli generallar yetişdirmişdir. Zaqatala mahalında anadan olsa da general-leytenant Balakişibəy Ərəblinski ömrünün çox hissəsini Dərbənddə yaşamışdır. General Nemətulla bəy Heydərov, qardaşı kapitan Minətulla bəy Heydərov[1], şiə təriqətli istefada olan polkovnik Hacıbəy Sadıqov, hörmət və izzət sahibi Mirzə bəy Ağası bəy oğlu, hazırda qərbi Tabasaranın naibi Mirzə Mehdiqulu bəyin oğlu, Qarsda qoşun rəisinin müavini kapitan Əliyar bəy Haşımbəyov və başqa görkəmli hərbçi oğullar Dərbənddə dünyaya gəlmişlər.*

***Mirzə Həsən əfəndi Əlqədari***
***"Asari-Dağıstan" əsəri, 1891-ci il.***

Məşhur alim-şair Mirzə Həsən əfəndi Əlqədarinin (1835-1910) kitabından götürdüyümüz epiqrafda adı çəkilənlərin hamısı XIX əsrdə Dərbənddə doğulub boya-başa çatmış Azərbaycan oğullarıdır. General-leytenant Balakişi bəy Ərəblinski (1828-1902) əslən Zaqatalanın Tala kəndində dünyaya gəlib. 1898-ci ildə istefaya çıxdıqdan sonra Dərbəndə indiki Kommunarlar küçəsində mülk tikdirib ömrünün sonuna kimi orada yaşamış və Qırxlar qəbristanlığında dəfn olunmuşdur. Dərbəndin on kilometrliyindəki "Ərəblinski stansiyası"nı da o saldırmışdır. Stansiya yaxınlığındakı eyni adlı qəsəbə də onun adınadır. Hazırda həmin qəsəbədə üç min beş yüzdən çox azərbaycanlı ailəsi yaşayır. O, məşhur xeyriyəçi - milyonçu H.Z. Tağıyevin qaynatası idi.

1902-ci il yanvarın 3-də general-leytinant Balakişi bəy Ərəblinski vəfat etdi. Milyonçu Hacı Zeynalabdın Tağıyev öz xərci ilə qaynatasının qəbirüstünü qoydurdu. Dərbənddəki Qırxlar məzarlığının ətrafına daş hasar

1. Rusca sənədlərdə onun soyadı Qaydarov yazılır. Dərbənd əhalisi isə onun adını Mimatulla bəy kimi tələffüz edirlər. - Ş.N.

çəkdirdi. Qəbristanlığın girişində gözətçi otağı tikdirib, qəbrlrə qulluq edə fəhlələrə maaş ayırırdı. Ötən əsrin əllinci illərində komunistlər hasarı söküb dağıtdılar.

İkinci adı çəkilən general-mayor Nemətulla bəy Qasım bəy oğlu Heydərovdur (1827-1904). O da azərbaycanlıdır.

1880-ci il dekabrın 3-də Samur süvari alayında xidmət edəndə ona polkovnik rütbəsi verilir. Levaşinski yüksəkliyində göstərdiyi igidliyə və qəhrəmanlığa görə Neymətulla bəy Heydərov Müqəddəs Georgi ordeninin dördüncü dərəcəsi ilə təltif olunur. Göytəpə hücümündakı uğurlu əməliyyata görə ikinci dəfə Müqəddəs Georgi ordeninin üçüncü dərəcəsinə layiq görülən Nemətulla bəy Heydərov 1884-cü ildə general-mayor rütbəsi ilə təltif olunur. O, ehtiyat süvari alayına komandiri təyin olndu.

Hazırda onun nəslinin davamçıları Bakıda və Dərbənddə Heydərov soy adı ilə yaşayır.

Dərbənd şəhəri on bir generalın vətənidir: General-mayor İmamqulu bəy (?-1728), Nemətulla bəy Heydərov (1827-1904), general-leytinant Balakişi bəy Ərəblinski (1828-1902), general-leytinant Hüseyn Cümşüd oğlu Rəsulbəyov (1917-1984), Ədliyyə generalı İmran Cümşüd oğlu Rəsulbəyov (1920-1982), general-mayor, hərb tarixi üzrə elmlər namizədi, professor Tofiq Mirzə oğlu Seyidov (1922-1983), Ədliyyə generalı Əhməd Şahlar oğlu Ələkbərov (1939) Kontr-admiral Henrix Əli oğlu Həsənov (1910-1979), general-mayor Mustafa Cəfər oğlu Nəsirov (1921-2012), general-mayor Vladimir İbrahim oğlu Bayramov (1951), general-palkovnik Nəcməddin Hüseyn oğlu Sadıqov (1956).

1891-ci ildə Mirzə Həsən əfəndi Əlqədari "Asari-Dağıstan" əsərini yazanda Əliyar bəy Haşımbəyov kapitan rütbəsində idi. Onun nəsl-nəcabəti Dərbənd yaxınlığındakı Kürə nahiyyəsindəndir. Ata babası general Hacı Yusif xan Tahir bəy oğlu Yusifxanov (1806-1878) Kürə nahiyyəsinin hakimi olmuşdur.

Generalın ailəsi XIX əsrin əvvəllərində Bakıya köçmüş, 1856-cı il martın 8-də Əliyar bəy Haşımbəyov da Bakıda anadan olmuşdur. İlk təhsilini Ədadiyyə (realnı) məktəbində alan Əliyar bəy 1871-ci ildə Tiflisdəki piyadalar məktəbinə daxil olmuşdur.

Hərbi xidmətinin otuzuncu ilində ***- 1908-ci il dekabrın altısında general-mayor kimi yüksək rütbəyə layiq görülmüşdür.*** Həmin ili Qars vilayətinin



*Palkovnik Bəhram bəy Nəbibəyov (1884-1930) Şəki üsyanının başçısı. Şəkil 1911-ci il oktyabr ayında çəkilib.*

hərbi rəisi təyin olunmuşdur. Ordudakı qüsursuz xidmətinə görə 1889-cü ildə üçüncü dərəcəli "Müqəddəs Stanislav", 1894-cü ildə üçüncü dərəcəli "Müqəddəs Anna", 1895-ci ildə ikinci dərəcəli "Müqəddəs Stanislav", 1898-ci ildə ikinci dərəcəli "Müqəddəs Anna" və 1904-cü ildə "Müqəddəs Vladimir" ordenləri ilə təltif olunmuşdur.

General Əliyar bəy Haşımbəyov Birinci Dünya Müharibəsində üçüncü Qafqaz arabakaravan briqadasının komandiri olmuşdur. On yeddinci ildə istefaya çıxan general Əliyar bəy 1918-ci ildə Azərbaycan Milli Ordusunda könüllü xidmətə başlamışdır. Az müddət Azərbaycan Cümhuriyyətinin Daxili İşlər nazirinin müavini vəzifəsində işləyən general-mayor Əliyar bəy Haşımbəyov 1919-cü ildə Müdafiə Nazirliyində Hərbi İntendant idarəsinin rəisi, 1920-ci ilin əvvəllərində isə Zaqatala qəzasının general-qubernatoru vəzifəsində olmuşdur.

***General-mayor Əliyar bəy Haşımbəyovu 1920-ci ilin iyun ayında bolşeviklər güllələmişlər.***

# GENERAL ƏBDÜLHƏMİD BƏY QAYTABAŞI
(1884-1920)

*Tarix yoxdur.*
*Tarixi yaradan şəxsiyyətin bioqrafiyası var.*

***Ralf Emerson***
***Amerikalı filosof-tarixçi***

Doğrudan da bir başa deyilmiş olsa da, bu sözlərdə böyük həqiqət var. Hansı müharibənin və ya ölkənin tarixini şəxsiyyətin qəhrəmanlıq bioqrafiyası olmadan yazmaq mümkündür? Şübhəsiz ki, heç birinin. Ona görə də bir mənalı da olsa tarixi yaradan şəxsiyyətlərdir desək səhv etmərik. Çünki müharibələrin tarixi yazılanda mütləq ölkənin padşah və ya sərkərdəsinin də bioqrafiyasına müraciət olunur.

Son illərdə aparılan tədqiqatların sayəsində unudulub yaddan çıxmış xeyli sərkərdə adları xalqımıza qaytarılmışdır. Ötən XIX və XX əsrlərdə yaşamış generallarımızın əksəriyyətinin adı və fəaliyyəti bizə məlum deyildi. Sovetlər dövründə "Tamamilə məxfidir" qovluqlarında saxlanan general - mayor Əbdülhəmid bəy Şərif bəy oğlu Qaytabaşı da unudulmuşlardandır.

Bolşeviklər təkcə Əbdülhəmid bəyi yox, iyirminci ildə musavat generalı olduqlarına görə güllələdikləri Əmir Kazım Qacarın, Feyzulla Mirzə Qacarın, Məhəmməd Mirzə Qacarın, Məmməd bəy Sulkeviçin, İbrahim ağa Usubovun, Həbib bəy Səlimovun, Murad Gəray bəy Tlexasın, Davud bəy Yadigarovun, Əlyar bəy Haşımbəyovun, Firidun bəy Vəzirovun, İbrahim ağa Vəkilovun ömür yolunu xalqımızdan gizlədiblər.

***Aparılan tədqiqatlardan məlum olur ki, yalnız 1920-ci ilin aprel çevrilişinə qədər İmperiya və Musavat ordusunda altmış doqquz azərbaycanlı general olmuşdur. Dini müsəlman, milliyyəti azərbaycanlı olduğuna görə sovetlər dövründə onların haqqında danışmağa, yazmağa qadağa qoyulmuşdu.***

Onların sırasında ən gənc general Əbdülhəmid bəy Qaytabaşı idi. Ulu babası kapitan Əbdülməcid bəy XVIII əsrin sonlarında Türkiyənin İstanbul şəhərindən Tiflisə köçmüşdür. Alay başçısı olduğuna görə ona Xaytabaşı titulu verilmişdir. Ruslar onun Xaytabaşı soyadını sənədlərində səhvən,



təhriflə Qaytabaşı kimi yazmışlar. Sonralar rəsmiləşən bu nadir soyad 1920-ci ilin iyun ayında general Əbdülhəmid bəy güllənənə qədər işlənmişdir.

Bir möcüzə ilə arxivdə qarşıma çıxan sənədlərə baxıram, az qala gözlərimə inana bilmirəm. General - mayor Əbdülhəmid bəy Şərif bəy oğlu Qaytabaşı. Doğum təvəllüdü 10 iyul 1884-cü il. Güllələnib: 1920-ci ilin iyun ayında cəmi - cümlətanı otuz altı yaşında...

1918-1920-ci illərdə Milli ordumuzun sıralarında şərəflə xidmət edən ən yaxşı generallardan biri idi Əbdülhəmid bəy.

Düzü, Adama nağıl kimi gəlir bu yaşda sərkərdə rütbəsi almaq. Görünür o qarışıq illərdə azadlıq və istiqlaliyyət uğrunda çalışanları zaman özü yetiş-

dirib və təltif edib. Onların cəngavərliyi anadan gəlmə qanuni bir hal olub. Dövr onları yetişdirəndə yaşa yox, başa və bacarığa qiymət verib.

Yunker Əbdülhəmid bəy Peterburq yaxınlığındakı Pavlovsk hərbi məktəbini bitirib. 1906-cı il fevralın 23-də on altıncı Qrenadyor - Minqrel alayında xidmətə başlayıb.

Azərbaycan Mərkəzi Dövlət arxivində yunker Əbdülhəmid bəy Qaytabaşının həmin ildə bacısı, şahzadə Mələk xanım Qacara yazdığı məktublar, 97 saylı vəsiqə, dərslərə davamiyyəti haqqında qeydlər və konspektləri saxlanılır. Qovluqda yunker Əbdülhəmid bəy Qaytabaşının 1905-ci il avqustun 22-də komandirinə yazdığı raport da qalıb.

"Bildirirəm ki, yay tətili zamanı Ryazan quberniyasına, orada yaşayan yeznəm gilə getmişdim. Mən orada olarkən Tiflisdən teleqram aldım. Teleqramda göstərilirdi ki, bacım ölüm yatağında olduğuna görə təcili Tiflisə getməliyəm. Dərhal yola düşdüm və yeznəmdən xahiş etdim ki, bu barədə mənim rəislərimə xəbər versin. Mən Tiflisə gələndən cəmi bir gün yarım sonra bacım vəfat etdi. Mən onun yeganə qardaşı kimi, bacımın dəfni ilə bağlı qayğıları öz üzərimə götürdüm. Bu müddətdə mən özüm də xəstələndim və dərhal mənim müalicə olunmağım barədə raportla komendant idarəsinə müraciət etdim. Xəstə halda iki gün orada qalandan sonra hələ tam sağalmamış olsam da, sürət qatarı ilə Tiflisdən yola düşdüm. Mən bu barədə komendant idarəsinə məlumat vermişdim. Hərbi məktəbə xəbər çatdırmaq məsələsinə gəldikdə isə mənə dedilər ki, bu barədə narahat olmayım.

***İkinci rotanın yunkeri Əbdülhəmid bəy Qaytabaşı".***

Çox da qalın olmayan qovluğu vərəqləyir, sənədlərlə tanış oluram. Hansı bir möcüzədənsə generalın atası Şərif bəyin də az saylı sənədləri burda var. 1835-ci il oktyabrın 26-da Tiflis quberniyasında anadan olmuş podpolkovnik Şərif bəy Abdulla bəy oğlu Qaytabaşının "Tam xidmət kitabçası" burdadır. 1890-cı il aprelin 19-da tərtib olunmuş sənəddə süvari qoşunlarında Şərq dillərinin tərcüməçisi, podpolkovnik Şərif bəyin şərəfli döyüş yolu, aldığı orden və medalların qeydiyyatı öz əksini tapıb.

Podpolkovnik Şərif bəy döyüş xidmətinə görə dördüncü dərəcəli "Müqəddəs Vladimir", ikinci dərəcəli "Müqəddəs Anna", ikinci və üçüncü dərəcəli "Müqəddəs Stanislav" kavaler ordenləri və bir neçə medallar təltif olunub.

Sənəddə göstərilir ki, podpolkovnik Şərif bəy Qaytabaşı iki dəfə evlənib. Həyat yodaşı vəfat etdiyinə görə ikinci nigahda o, Qazax qəzasının Şıxlı

kəndindən olan mülkədar Mirzə Əli ağa oğlunun qızı Xədicə xanımla ailə qurub. İkinci nigahdan olan Əbdülhəmid ailənin yeddinci övladıdır.

Əbdülhəmid bəy Birinci Dünya müharibəsi illərində iki yüz beşinci Şamaxı piyada alayında ştabs - kapitan rütbəsində döyüşlərdə iştirak edib. 1916-ci il martın altısında dördüncü dərəcəli "Müqəddəs Vladimir" ordeni (qılınc və bantla birgə) ilə təltif olunub.

6 mart 1918-ci il, Tiflis şəhəri. Yenicə yaranan Müsəlman korpusunun komandanı, general - leytenant Əli ağa Şıxlinskinin əmri:

"Polkovnik Əbdülhəmid bəy Qaytabaşı Müsəlman Korpusunun Qərargah rəisi təyin edilsin!"

Mart ayının 28-dək həmin vəzifədə çalışan Əbdülhəmid bəy 1918-ci il noyabrın 15-də Hərbiyyə naziri Səməd bəy Mehmandarovun iki nömrəli əmri ilə Hərbi nazirliyinin növbətçi generalı kimi məsul vəzifə daşımışdır.

***1919-cu il iyunun 25-də isə Respublika Nazirlər Şurasının qərarı ilə Əbdülhəmid bəy Şərif bəy oğlu Qaytabaşı general - mayor rütbəsi ilə təltif olunmuşdur.***

Səksən ildən çox bağlı qalan saralıb - solmuş sənədlərdən məlum olur ki, peşəkar hərbçi kimi Milli Ordu quruculuğunda Əbdülhəmid bəyin əvəzsiz xidmətləri olmuşdur. Şəxsi heyətin təşkili, Baş Qərargahda növbətçilik sistemi, yeni hərbi idarə və hərbi müəssisələrin yaradılması üçün var qüvvəsi ilə çalışmışdır.

General Əbdülhəmid bəy Qaytabaşı 1920-ci ilin mart ayında yazırdı:

"Cəmi bir il ərzində Baş Qərargahın fəaliyyəti təşkil olunub qaydaya düşdü. Öhdəmizə düşən bütün vəzifələri qırargahın digər üzvləri ilə birlikdə vicdanla, namusla və yorulmadan yerinə yetirdik".

***General - mayor Əbdülhəmid bəy Qaytabaşı 1920-ci il aprelin 30-da bolşevik ordusunda müvəqqəti Qərargah rəisi təyin edilib. Həmin ili iyun ayında Gəncə üsyanına görə günahlandırılıb güllələnmişdir.***

1999-cu il iyunun 26-da Bakıda yaşayan general Əbdülhəmid bəyin bacısı nəvəsi Validə xanım Ələşrəf qızı Zeynalova ilə görüşdüm. 1922-ci ildə anadan olan Validə xanımın generalın ailəsi haqqında az da olsa məlumatı vardı. Xeyirxah müsahibim XIX əsrin sonlarında çəkilmiş üç nadir foto - şəkli mənə bağışladı. Foto - şəkillərdə general Əbdülhəmid bəyin anası Xədicə xanım Mirzə Əli ağa qızı, oğlu Əbdüllətif bəy və Əbdülhəmid bəy uşaq vaxtı təsvir olunub.

## GENERAL FİRİDUN BƏY VƏZİROV
**(1850-1925)**

*Vətən uğrunda millət eşqində*
*Bəzli-can et xülusi-niyyət ilə.*
*İş apar, baş gedərsə qoy getsin,*
*Ad qalar, bəs deyilmi, millət ilə?*

***Mirzə Ələkbər Sabir.***
***(1862-1911)***



1985-ci ildə Tiflis arxivində general Firidun bəy Vəzirov haqqında saxlanan qısa məlumatlarla tanış oldum. Böyük bir sərkərdənin tərcümeyi-halını oxuculara belə-natamam şəkildə çatdırmaq istəmirdim və inana da bilmirdim ki, indiyədək generalın bir doğması qalmamış ola. Bakıya qayıdanda tarix muzeyinə gedib onun əməkdaşlarından kömək istədim. Nərmin xanım Tahirzadə dedi ki, general Firidun bəyin qızı Nigar xanım Bakıda yaşayır.

Nigar xanım çox şeyləri xatırlaya bilmirdi. Yetmiş illik sərt rejimli vahimə onun yaddaşından çox əhvalatları silib aparmışdı. İllərin ağrı-acısı yaşı doxsanı keçmiş ananı yumağa döndərmişdi. Nəvəsi Erazm köməyinə çatdı. Babası Firidun bəyin və nənəsi Zeynəb Səlim qızı Vəzirovanın iki fotoşəklini tapıb mənə hədiyyə elədi.

- Erazm, - dedi, - arxiv sənədlərində nənən Zeynəbin adı Zinaida

Səlimovna Kriçinskaya kimi yazılıb. Yəqin ki, bunun da bir səbəbi var?

- Əlbəttə, var. Nənəm milliyyətcə Litva tatarıdır. O, istefada olan polkovnik Səlim bəy Kriçinskinin qızıdır. Sizin arxivdə rast gəldiyiniz onun qız ad-familidir. Babam yeddinci Belorus qusar alayında ştabs-rotmistr rütbəsində qulluq edəndə evləniblər. Evlənmə mərasimində babam onun ad-familini müsəlman ad-famili ilə rəsmiləşdirib. Nənəm də babamla birgə rus qoşunlarının tərkibində 1877-78-ci illərdə iştirak edib. Bunu o illərdən yadigar qalan iri ölçülü bir fotoşəkil də təsdiq edir. Babam Firidun bəy Vəzirov əla döyüş xidmətlərinə görə bu müharibədə kapitan rütbəsindən mayora qədər yüksəlmiş və alay komandiri vəzifəsinə təyin olunmuşdur.

Nəslən Tiflis zadəganlarından olan babam otuz səkkiz il imperiya ordusunda xidmət etdikdən sonra general-mayor rütbəsində istefaya çıxmışdır. 1906-cı ildən Tiflisdəki doğma ata-baba mülkündə yaşamış və azrəbaycanlıların nəfinə təşkil olunmuş xeyriyyə cəmiyyətində içtimai fəaliyyətini davam etdirmişdir.

1919-cu il mayın ilk günlərində Tiflisdə yaşayan general-mayor Firidun bəy Vəzirovun ünvanına Bakıdan bir məktub gəldi. Məktub altmış doqquz yaşlı generalın ahvali-ruhiyyəsinə xoş təsir bağışladı. Məktubda deyilirdi:

***"Çox hörmətli general Firidun bəy cənabları, Azərbaycan Demokratik Cümhuriyyətinin yaratdığı milli ordudan şübhəsiz ki, xəbərdarsınız. Xalqımızın sərkərdə oğlu kimi yəqin ki, bu şad xəbərə Siz də sevindiniz. Yeni yaranan orduda xidmət etmək üçün Sizin kimi bacarıqlı və təcrübəli sərkərdələrə çox böyük ehtiyacımız var. Onu da xatırladım ki, könüllülər hesabına ordumuzun sayı gündən-günə artır. Ağır şəraitdə olsa da, Baş Qərargah yaradılmasına nail olduq. Qərargahın nəzdində ümumi şöbə, növbətçi general şöbəsi, süvari şöbəsi, mətbuat və başqa şöbələr artıq fəaliyyətdədir. Azərbaycan hökuməti ordu üçün Dövlət büdcəsindən xeyli vəsait ayırmışdır. Hazırkı vaxtda hərbi ləvazimatla yanaşı, yeni zabit heyətinin hazırlığında da çətinliklərimiz çoxdur. İnanırıq ki, Azərbaycan müstəqillik qazandığı vaxtda gənc Azərbaycan orlusunun sıralarında xidmət edən oğullarımız üçün Siz hərbi təcrübənizi əsirgəməyəcəksiniz. Ona görə də xahiş edirəm, Baş Qərargahda birgə çalışmaq üçün dəvətimizi qəbul edəsiniz.***

***Hörmətlə: Baş Qərargahın növbətçi generalı, polkovnik ƏBDÜLHƏMİD BƏY QAYTABAŞI"***

Bu səmimi məktubu alan general dərhal ailəsi ilə birgə Bakıya köçmüşdü. Azərbaycan Demokratik Respublikasının hərbi naziri Səməd bəy Mehmandarovun 7 avqust 1919-cu il tarixli 351 nömrəli əmri ilə general-mayor Firidun bəy Vəzirov Bakı şəhərinin komendantı təyin olunmuşdur. Lakin 1920-ci ilin aprelində bolşevik-daşnak qoşunlarının gəlişi ilə digər milli generallarımız kimi Firidun bəyin də qismətinə acı bir ədalətsizlik qismət oldu. Həmin ili mayın 31-də Gəncə üsyanının iştirakçısı kimi komissar Çingiz İldırımın otuz altı saylı əmrilə vəzifədən azad edilib. Baş qərargahın sərəncamında saxlanılır.

Milli Təhlükəsizlik Nazirliyinin arxivində general Firidun bəyə məxsus iki min bir saylı şəxsi iş saxlanılır. Buradakı sənədlər 1921-ci il iyunun 2-də AzÇeka tərəfindən həbs olunub istintaq aparılan generala məxsusdur. İstefada olan yetmiş bir yaşlı general Firidun bəy Vəzirov "İslam" partiyasının agenti kimi ittiham olunur. Ona Tiflisdəki dədə-baba malikanəsinə, çar və musavat ordusundakı xidmətlərinə görə irad tutulur. Əslində isə bir il əvvəl olmuş Gəncə üsyanı ilə bağlı şübhəli şəxs kimi sorğu-suala tutulduğu aydın hiss olunur. İyunun on səkkizində generaldan rus dilində belə bir izahat alınıb:

"Musavat vaxtı mən Bakı şəhər komendantı idim. Bu vaxta qədər Tiflisdə yaşayırdım. 1919-cu ildə musavat hökumətinin dəvətilə Bakıya gəldim və Sovet hökuməti Azərbaycana gələnə qədər həmin vəzifədə işlədim. Nə musavat vaxtı, nə də Sovet hökuməti gələndən sonra mən heç bir partiyanın üzvü olmamışam. Nikolay ordusunda otuz səkkiz illik xidmətimdə süvari qoşunlarında qulluq etmişəm. Sovet hökumətinin Azrəbaycana gəlişindən sonra əvvəlcə Çingiz İldırımın qərargahında ehtiyat zabiti vəzifəsində saxlanılmışam. Beş-altı ay əvvəl isə yoldaş Əliheydər Qarayevin yanında xüsusi tapşırıqlar üzrə əməkdaş kimi çalışmışam. Burada olanda xidməti işimlə əlaqədar üç qəzada ezamiyyətdə olmuşam: birinci dəfə Gəncədə, ikinci dəfə Zaqatalada və üçüncü dəfə isə Qazaxda.

Sual: - Gəncədə kimlərlə görüşdünüz və tanıdığınız musavat liderləri ilə əlaqələriniz varmı?

Cavab: - Gəncədə mən keçmiş mülkədar Ağasıbəyovu, Qoşqarovu, Usubbəyovu, Seydəli Mir Kazımbəyovu tanıyırdım. Bunlardan başqa Gəncədə tanıdığım adam yoxdur. Xəlil Şakirov adlı şəxsi tanımıram və heç vaxt da onunla görüşməmişəm. Musavat liderləri ilə elə bir yaxınlığım olmayıb, onları dövlət başçısı kimi tanıyırdım. Nə qədər ki, Bakıda, Azərbaycanda olmuşam həmişə də hərbi xidmətimlə məşğul idim. Heç bir partiyanın, təşkilatın üzvü deyildim. Təkrar edirəm, mən hərbiçiyəm, hərbi

nizamnaməyə tabe olan süvari-kavaleriya generalıyam. Sizin dediyiniz "İttihad-islam" və "Turanın böyük İslamı" partiyaları haqqında heç nə eşitməmişəm, heç nə bilmirəm.

***Oxudum: general Firidun bəy Vəzirov.***

İmza atan general sonda öz dəsti-xəttilə belə bir cümlə də yazmışdır: özümü heç nədə, heç bir hadisədə günahkar bilmirəm.

1921-ci il iyunun on doqquzunda Azərbaycan Respublikası Xalq Komissarları sovetinin sədri Nəriman Nərimanovun və katibinin imzası ilə Fövqəladə komissiyanın komendantının ünvanına min altı yüz iyirmi saylı order göndərilib. Orada oxuyuruq: "Sizə tapşırılır ki, bu orderi alan kimi vətəndaş Firidun bəy Vəzirovu (keçmiş generalı) həbsdən azad edəsiniz".

Ancaq "sapı özümüzdən" olan baltalar yatmamışdılar. Onlar ideya qardaşı olan bolşevik-daşnak havadarlarının köməyi ilə özümüzün sağlam kökümüzü doğrayırdılar.

1925-ci ildə bolşevik orqanı olan " Qızıl əsgər" jurnalının dördüncü sayında Dağlı Əli Hüseyn adlı birisi "Musavat zamanında necə işləyirdik?" sərlövhəli yazı ilə çıxış etdi. Cəmi üç səhifəlik yazısında o, 1919-1920-ci illərdə Xankəndində, Qusarda və Bakıda musavat ordusunda bolşevik təbliğatı aparmasından, agent kimi ruslara quyruq bulayıb xəbər daşımasından fəxrlə yazır. Milli qeyrətli zabit və generallarımıza qara yaxan Dağlı Əli Hüseynin yazısının bir yerində oxuyuruq:

"Nəhayət, Rusiya ordusu Azərbaycan sərhədlərinə yaxınlaşır. Bakı proletariyası inqilab ruhu ilə qaynaşır və 29 aprel yetişir. Mən o zaman Bakı mövqe komandanlığında xidmət edirdim. Tağımımız qırmızı ordunu qarşılamaq üçün vağzala getmək istəyirdi. Hərəmiz bir parça döşümüzə qırmızı taxmışdıq. Bu zaman mövqe komandiri general Vəzirov Firidun bəy idarəyə girdi. Bu dəfə çavuş tərəfindən diqqət komandası verilmir. General məndən xəbər aldı:

- Əli Hüseyn, bu nə xəbərdir. Döşlərinizdə qırmızı nədir? Mən cavab verdim:

- Bu gündən etibarən sizlər yox, bizlər ordu təşkilində olacağıq. Bizlər mövqe komandiri vəzifəsini daşıyacağıq.

General Firidun bəy Vəzirov bu sözləri eşidib başını aşağı saldı və bayıra çıxdı".

Namərd Dağlı Əli Hüseynin yazısından sonra general yenidən həbs edilir. Bu dəfə onun imdadına çatan olmadı. ***1925-ci il iyunun 30-da yetmiş beş yaşında onu güllələdilər. Nəriman Nərimanov kimi qeyrətli, milli təssüfkeşli oğlumuz həmin ili martın 19-da Moskvada vəfat etmişdi. Azərbaycanda Kirov,***

***Mirzoyan, Sərkis Danilyan, Əliheydər Qarayev kimi pambıqla baş kəsənlər at oynadırdılar.***

***

Yazımızın əvvəlində qeyd etmişdik ki, istər Tiflis arxivində, istərsə də generalın qızı mərhum Nigar xanımda atası haqqında çox qısa məlumatlar vardı. O vaxtdan aylar, illər keçirdi. Çoxsaylı ziyalı ailələrinin qocaman nümayəndələri ilə görüşəndə söhbət zamanı general Firidun bəy Vəzirov haqqında da soruşurdum. Nə arxiv sənədlərindən, nə də görüşdüyüm adamlardan general haqqında heç bir soraq ala bilmirdim.

2003-cü ilin payızında hansı bir xeyirxahınsa Mərkəzi Dövlət Tarix muzeyinə general Firidun bəy Vəzirovun sənədlərini təqdim etdiyindən xəbər tutdum. Bu qiymətli sənədləri vərəqləyəndə istər-istəməz nə vaxtsa, kiminsə dediyi zərb-məsələ dönmüş sözlər ürəyimdən keçdi: "Əlyazmalar heç vaxt yanmır". Bu doğrudan da belədir.

General-mayor Firidun bəy Cəlal bəy oğlu Vəzirovun "Hərbi xidmət kitabçası"ndan sətirlər:

1850-ci il aprelin 19-da Tiflisdə zadəgan ailəsində anadan olmuşdur. Atası Camal bəy Mirzə İsmayıl oğlu Tiflisdə məhkəmə iclasçısı, anası Əsmət xanım evdar qadın idi. Firidun bəy ilk təhsilini Tiflis klassik gimnaziyasında almışdır. 1868-ci ildə Yelizavetqraddakı yünkerlər məktəbini ikinci dərəcə ilə bitirmişdir. Hərbi xidmətə unter-zabit rütbəsində yeddinci Belorus Qusar alayında başlamışdır.

1877-ci ildə Tver-Draqun alayında xidmət edən rotmistr Firidun bəyi dördüncü eskadrona komandir təyin etdilər. Onun komandirlik etdiyi eskadron avqustun 19-dan sentyabrın 8-dək Odessa şəhəri yaxınlığındakı Mehmetçi, Dobruji, Çobanköysü, Hacıoğlu, Bazar düzü kəndlərini düşməndən təmizlədi. Bu müharibədə komandirlik qabiliyyətinə görə onu tunc medalla, bir də üçüncü Aleksandrın imperatorluq etməsinin ildönümü şərəfinə gümüş medalla mükafatlandırdılar. Müharibədən sonra xidmət yeri ikinci Qafqaz kavaleriya diviziyasına dəyişdirilən podpolkovnik Firidun bəy Vəzirovu əlaçı zabit kimi Qafqaz-Hərbi Dairə məhkəməsinin üzvü seçdilər.

1897-ci il oktyabrın 13-də polkovnik rütbəsi ilə təltif olunan Firidun bəy iki il sonra onuncu Novotroski draqun alayına komandir təyin olundu. Bir müddət Varşava, Rılski və başqa şəhərlərdə hərbi xidmətdə olan ***Firidun bəy Vəzirov 1906-cı il aprelin 18-də general-mayor rütbəsilə təltif olundu.*** Həmin il ordudan tərxis olunan general-mayor Firidun bəy Vəzirov doğma şəhəri Tiflisdə Mixaylovsk prospektindəki yüz on bir saylı mülkündə yaşamışdır.

Nizami qoşun hissələrində otuz səkkiz illik qüsursuz xidmətində general Firidun bəy Vəzirov yüksək ali ordenlərlə təltif olunmuşdur. O, 1882-ci il yanvarın 19-da üçüncü dərəcəli "Müqəddəs Stanislav" (müsəlmanlar üçün təsis olunmuş), 1889-cu il mayın 6-da üçüncü dərəcəli "Müqəddəs Anna", 1893-cü il iyunun 15-də ikinci dərəcəli "Müqəddəs Stanislav", 1898-ci il sentyabrın 22-də dördüncü dərəcəli "Knyaz Vladimir", 1902-ci il avqustun 1-də ikinci dərəcəli "Müqəddəs Anna", 1905-ci il noyabrın 20-də üçüncü dərəcəli "Knyaz Vladimir" ordenləri ilə təltif olunmuşdur.

General-mayor Firidun bəy Vəzirova məxsus sənədlər arasında birisi diqqətimizi xüsusilə çəkdi. Rus və ərəb əlifbasında yazılmış "Beşik mahnıları". Məşhur marifçi İsmayıl bəy Əfəndiyevin Nuxa qəzasının kəndlərindən topladığı bayatıları, beşik mahnılarını, atalar sözlərini general rus dilinə tərcümə edib. Uzun müddət Rusiyanın ayrı-ayrı şəhərlərində yad mühütdə hərbi xidmətdə olmasına baxmayaraq general Firidun bəy Vəzirov ana dilini incəliklərinə qədər qoruyub saxlaya bilib.

## GENERAL-MAYOR ƏSƏDULLA XAN ƏBÜLFƏTHZADƏ
(? - 1918)

Naxçıvanın Şərurlu tayfasında Əbülfəth xanın ailəsində anadan olub. İkinci Rusiya-İran müharibəsindən (1826-1828) və rüsvayçı Türkmənçay sülh müqaviləsindən (10 fevral 1828-ci il) sonra Rusiyanın zəbt etdiyi torpaqlarda vətən, torpaq təəssübü çəkən bir çox ziyalı tayfalar və ayrı-ayrı bəylər rus təbəliyində yaşamağı özlərinə ar bilib İrana mühacirətə getdilər. Belə əsilzadə nəsillərdən biri də Əsədulla xan Əbülfəthzadənin ailəsi olmuşdur.


اسدالله خان ابوالفتح‌زاده

Əsədulla xan İrandakı Kazak diviziyasının əvvəllər sıravi əsgəri olmuş, uzun illər nümunəvi xidmətinə və dərin biliyinə görə general rütbəsi ilə təltif olunmuşdur.

Əsədulla xan Məşrutə inqilabının 1905-1911-ci illər ilk günlərində milyonlarla insanlara qoşulmuş Məmmədəli şahın əleyhinə çıxaraq Kazak diviziyasından istefaya çıxmışdır. 1908-ci il iyulun 24-də gecə məclis topa tutuldu. Həmin gecə məşrutə inqilabının fəal müdafiəçilərindən biri kimi Əsədulla xan məclisi müdafiə etmişdir. Bundan sonra o, İranda milli azadlıq hərəkatının mücahidi kimi şöhrət qazandı.

O, 1909-cu ildə mücahidlərin Tehrana daxil olması üçün, azadxahların Tehran və Qəzvinə yürüşündə də fəal iştirak etmişdir. General Əsədulla xan Əbülfəthzadə Tehran fəth olunandan sonra idarə heyətinin təklifi ilə Şahzadə Məsud Mirzə Zilli Sultanla birgə Avropaya getmişdir.

İnqilab yatırıldıqdan sonra Əsədulla xan Əbülfəthzadə amerikalı Morqan Şosterin əvəzinə baş xəzinədar təyin olunur. Az müddət bu vəzifədə işlədikdən sonra guya onun nəslinin və özünün Bəhayi təriqətinə mənsub olduğuna görə işdən azad edirlər. İran alimi Mehdi Bamdad yazır ki, Əsədulla xan Əbülfəthzadənin düşüncə və baxışları bu ehtimaldan çox-çox uzaqdır. Əsədulla xanın nəslinin Bəhailiklə heç bir əlaqəsi yoxdur. Çünki Bəhayi təriqətinin üzvləri heç vaxt siyasətlə məşğul olmamışlar. Əksinə, onlar bu işin tam əleyhinə olmuşlar. Əsədulla xan isə kamilən siyasətlə məşğul olmuş, onun gördüyü işlər bəhayilər tərəfindən qadağan olunmuşdu. Əsədulla xanın fəaliyyəti bəhayilərin əqidəsinə tamamilə zidd idi.

1915-ci ildə ruslar Tehrana hücum edəndə Əsədulla xan Tehrandan Kirmanşaha mühacirətə getdi. 1916-cı ilin avqust ayında keçmiş Kazak diviziyasının polkovniki, yaxın dostu İbrahim xan Münşizadə (1878-1918) ilə birgə "Cəza komitəsi" yaratdı. Sonralar bu komitəyə Məmmmədnəzər xan Mişkətülməmalik, Kərim Dəvatgər, dövlət buğda anbarının rəisi Mirzə İsmayıl xan Şirazi, Hüseyin Lələ, Ehsanulla xan, yazıçı Mirzə Ələkbər Ərdaği, xəttat Hüseyin İmadulküttab və Hacı Zaman Kürdüstanı Bahadurüssəltənə də daxil oldular. Komitə üzvlərinin vasitəsi ilə əhalini soyub-talayan bir neçə nəfər öldürüldü. Bu vaxt Kərim Dəvatgər komitənin sirlərini açmaq fikrinə düşdü. Onu komitənin tapşırığı ilə yaxın dostu Rəşidüssultan öldürdü. Komitəyə təsadüfi, mənfəətgüdən və tamahkar adamlarda üzv oldular. Tezliklə Hacı Zaman xan Kürdüstani komitənin bütün sirlərini açdı onun hiyləsilə komitə üzvləri Kürdüstanın Bani şəhərinə köçürüldülər. 1918-ci ildə onlar həbs edilib doqquz ay zindanda saxlanıldıqdan sonra azad edildilər. Həmin ili Həsən Vüsuqüdövlə baş nazir təyin olundu. Dərhal "Cəza komitəsi"nin bütün üzvləri həbs edildi. Hüseyin Lələni və Rəşidüssultanı dar ağacından asdılar. Komitənin başçısı Əsədulla xan Əbülfəthzadə və İbrahim Münşizadəni Gelata sürgün etdilər.

***1918-ci ilin sentyabr ayında baş nazir Vüsuqudövlənin tapşırığı ilə Simnanla Damğan arasındakı yolda onları güllələdlər.***

General Əsədulla xan Əbülfəthzadənin yaratdığı "Cəza komitəsi" cəmisi on ay fəaliyyət göstərdi.[1]

## POLKOVNİK QALİB BƏY VƏKİLOV
## (1888-1937)

*Bizim işimiz müqəddəs, haqq işidir, bizim ölməyimizlə o məhv olmayacaq. - Qalibiyyət yolunda bizim qanımız hələ çox töküləcək, ancaq göstərilən fədakarlıqla, verilən qurbanlarla böyük ideyalar qalib gəlir. Biz ölməklə, al qanımıza boyanmış azadlıq və bərabərlik bayrağını intiqam və qabiliyyət irsini gələcək nəsillərə qoyulub gedirik.*

***Spartak***

Topoqraf-general İbrahim ağa Vəkilovun qəribə taleyi ilə bağlı axtarışlar aparıb mətbuatda çıxış etdikdən sonra onun doxsan iki yaşlı oğlu Faris baba ilə dostluğumuz başlandı. Bir neçə dəfə görüşdükdən sonra qoca mənə etibar edib öz həyat yolundan, general-mayor İbrahim ağa Usubovdan danışdı. Hər dəfə görüşəndə günahsız olaraq həbs edilib əvvəl Mordoviyada, sonra Karaqandada on səkkiz il çəkdiyi əziyyətlərdən, iztirablardan yana-yana, bir-birindən dəhşətli əhvalatlar söyləyirdi.



1 General Əbülfət xan haqqında faktları bizə təqdim edən Respublika Əlyazmalar İnstitutunun əməkdaşı, tarix elmləri namizədi Tahirə xanım Həsənzadəyə səmimi qəlbdən təşəkkürümüzü bildiririk. Ş.N.

Eşitmişdim ki, Faris babanın kiçik qardaşı polkovnik Qalib bəy Vəkilovun 1918-ci ildə yaranan Milli Orduda böyük xidmətləri olub. Onu da otuz yeddidə həbs ediblər. Arabir qardaşı haqqında soruşurdum. Hər dəfə də o, söhbətin yönünü dəyişir və bu barədə danışmaq istəmirdi. Yüzü haqlayıb, uşaq kimi kövrək olan qocanın qəlbinə dəyməyə qıymırdım. Bir dəfə söhbəti Çingiz İldırımdan saldım. Bilirdim ki, Çingiz İldırımla Qalib bəy dost olublar. Qoca məcbur olub ötəri bir əhvalat danışdı. Mən əl çəkməyib, - Qalib bəy niyə tutulub? - deyə soruşanda qoca qəmli-qəmli üzümə baxıb xeyli dinmədi. Bu an divardakı saatın səsi bizi diksindirdi. Hər ikimiz dönüb ona baxdıq. Əqrəblər düz on birin üstündə dayanmışdı. Bu gün Faris baba ilə söhbətimiz həmişəkindən daha çox olmuşdu. Həqiqətən onu bərk yormuşdum. Durub getmək istəyəndə qoca əlimdən yapışıb:

- Bərk yorulmuşam, - dedi. Qoy qardaşım Qalib haqqında söhbət qalsın, onun faciəsi çox uzundur. Bu, illərlə ürəyimdə gəzdirdiyim yaralı bir söhbətdir.

Yazıq görkəm alan qoca üzrxaxlıq elədi; - İncimə, gələn şənbə-bazar gözləyəcəyəm...

Təəssüf ki, Faris baba mənə görüşmək üçün vəd etdiyi bazar gününə kimi yaşamadı...

Sonralar Qalib bəy Vəkilovun doğma qızı Leyla xanımla bir neçə dəfə görüşdüm. Pedaqoji elmlər doktoru, professor Leyla xanım Vəkilova M.F. Axundov adına Rus Dili və Ədəbiyyatı İnstitutunda işləyirdi.

General Əli ağa Şıxlinskinin onlarda saxlanan nadir şəkilərinin üzünü çıxartdıranda, general babası İbrahim ağa Vəkilov haqqında veriliş hazırlayanda arabir atası haqqında da soruşdum. O da əmisi kimi suallarıma çox qısa cavab verir və nədənsə bu mövzunun üstündən sükütla keçirdi.

***"...Bu gün bütün bunlar qəribə görünür, ancaq o illər repressiya olunanların, hətta uşaqları da bəzən öz ata-analarının günahkar olmasına inanır və açıq-aşkar onlardan üz çevirirdilər. Bu, nə ilə əlaqədar idi? Qorxaqlıqla, yoxsa öz şəxsi həyatını qorumaqla? Bu da vardı, amma əsas yalnız kor koranə, fanatik inam idi".***

Prefessor Nikolay Truşenkonun bu sətirlərini "Smena" jurnalında (1988,№ 9) oxuyanda dərhal Leyla xanımı xatırladım. Susmağının səbəbini sanki bu sətirlərdə tapmışdım. Elə ki, atası haqda danışmağa başladı, bir daha gördüm və hiss etdim ki, Leyla xanımdan qorxu hissi, doğrudan da,

çox uzaqdır. Zarafat deyildi, doğma atadan danışmaq, yazmaq əlli ildən çox idi yasaq edilmişdi. O, heç vaxt "xalq düşməni" atasından üz döndərməmişdi. Nə kor-koranə, fanatikcəsinə "ellər atası Stalinə", nə də cəllad M.C. Bağırova özünün pənahı kimi pərəstiş edə bilməmişdi. ***O illərdə incidilmiş əlli bir min "gözükölgəli" azərbaycanlı ailəsindən biri kimi dərdini ürəyində çəkmişdi*** və bəlkə də Leyla xanımın ağlına gəlməzdi ki, vaxt gələcək, aşkarlığın, demokratiyanın işığında hər şey açıq-aydın etiraf ediləcək. Bütün gümanlar, şübhələr ürəklərdən silinib atılacaq, haqq-nahaq öz yerini tapacaq.

- Təəssüf ki, mən atamı babam İbrahim ağadan daha az görmüşəm, - Leyla xanım söhbətinə general babasından başlayır. - ilk dəfə atam Qalib bəy həbs ediləndə mənim cəmisi altı yaşım vardı. İkinci dəfə isə on üç yaşında idim. Ona görə də atam haqqında anamın söhbətlərindən yadımda qalanlar çoxdur.

- Bəs general babanız İbrahim ağa Vəkilov atanız həbs ediləndə sizə onun haqqında heç nə danışmayıb?

- Yox, babam heç vaxt oğlunun günahsız həbs olunması haqqında söhbət salmazdı. Sonralar mənə məlum oldu ki, babam atamın tutulmasını ürəyində sağalmaz yara kimi gəzdirirmiş. Mənim kimi körpə qız uşağına xalqının, Vətəninin rifahı üçün çalışan atamın xidmətlərini və onun günahsızlığını başa salmaq iqtidarında deyilmiş. Atam tutlandan sonra babamın qəddinin əyilməyini indi də gözüm önünə gətirəndə kövrəlirəm. Babam o ağır illərdə qanadları qırılmış quş kimi gəzirdi.

General-topoqraf İbrahim ağa Vəkilovun ailəsində üç övlad böyüyürdü. 1866-cı il iyunun 20-də isə tale bu ailəyə yeganə qız payı - Rəna xanımı bəxş etmişdi. Xoşbəxt ailənin bircə nigarançılığı vardı: ata müsəlman, ana isə xristian dininə mənsubdur. Bəs övladları hansı məzhəbə qulluq etməlidir? - sualı ailəni keçilməz sədd, dibigörünməz qaranlıq qarşısında qoymuşdu.

1888-ci ildə anadan olan Qleb sənətində atanın yolunu seçdi. O, hərbçi olmaq məqsədi ilə Tiflis kadet korpusunu müvəffəqiyyətlə bitirib Xarkovdakı üçüncü Aleksandr adına Ali Hərbi-Texniki İnstituta qəbul olundu. İkinci kursdan sonra Qleb Vəkilov könüllü olaraq həmin institutu tərk etdi. Sonralar Moskvadakı Alekseyev Hərbi Məktəbində Təhsili davam etdirdi.

Əsrin əvvəllərində fəhlə sinfi ayağa qalxıb mütləqiyyətin rədd olunmasını tələb edirdi. Qanlı bazar hadisələrindən hiddətlənən xalq hərəkatı coşmuşdu. İmperiyanın hər yerində çarizmin qanlı cinayəti nifrətlə

qarşılandı. Belə təlatümlü, qarışıq bir dövrdə ananın da, atanın da əzabı onlara dinclik vermirdi. Peterburqda təhsil alan böyük oğlu Borisi, Moskvada yunker məktəbində oxuyan Qlebi də bir sual düşündürdü. Mən kiməm, hansı millətə məxsusam? Bu izahedilməz sual qarşısında qalan hər iki qardaş tez-tez ata-anaya müraciət edirdilər.

Faris bəy Vəkilovun söhbətindən: - Mənim on doqquz yaşım tamam oldu. Dərs məşğələləri ilə bərabər Məhəmmədin dininə keçmək fikri də məni tərk etmirdi. 1904-05-ci illərdəki şərait bu niyyətimin həyata keçməsinə kömək etməli idi. Bədniyyətli Rus-yapon müharibəsi, xalq kütlələri arasındakı inqilabi əhvali-ruhiyyə çar hökumətini bəzi liberal qərarlar verməyə məcbur etdi.

1904-cü ildə "Din azadlığı haqqında manifest" nəşr olundu. Orada hər hansı bir səbəbdən öz ata-baba dinindən dönmüşlərə yenidən o dinə qayıtmalarına icazə verilirdi. Adama elə gəlirdi ki, müvafiq ərizə vermək kifayətdir ki, bununla da məsələ həll olunsun. Təcrübəli adamlar, o cümlədən mənim valideyinlərim, Peterburqa gəlişimin birinci ilində pravoslav dinin müdafiəçilərini bilavasitə yaxınlığında bu məsələni qaldırmağı məsləhət görmədilər. Anamın Lev Tolstoya məktubunda da bu ehtiyat öz əksini tapmışdı. Xoşagəlməz hadisələrdən yaxa qurtarmaq məqsədilə mənim niyyətimin həyata keçirilməsini bir qədər ləngitməli olduq.

Ona görə də çıxılmaz vəziyyətdə qalan anam Yelena Yefimovna Vəkilova 1909-cu il martın 2-də yazıçı Lev Nikolayeviç Tolstoya məktubla müraciət etməli olub.

Lev Tolstoyun məktubundan sonra Yelena Yefimovnanın və İbrahim ağa Paşa ağa oğlunun evladlarının üçü də müsəlman dinini qəbul edir. Zaqafqaziya müftüsü Mirzə Hüseyn əfəndi Qayıbzadə bu barədə onlara rəsmi sənəd verib oğlanlarının adlarını belə dəyişdirir - Baris, Faris, Qleb isə Qalib olur.

1910-cu ildə yunker Qalib bəy Vəkilov Moskvadakı Alekseyev hərbi-texniki məktəbini bitirib xidmətə başladı. Birinci Dünya müharibəsi başlananda o, Qərb cəbhəsindəki mühəndis alayında döyüşürdü. Molodeçnıy şəhəri uğrunda gedən döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə podpolkovnik Qalib bəy Vəkilov ikinci dərəcəli “Müqəddəs Georgi” ordeni ilə təltif olundu. Hərbi-texniki mütəxəssis kimi Qalib bəy Vəkilovun ən başlıca vəzifəsi düşmənin qəfil hücum edəcəyi keçidlərin möhkəm qurulması, səngərlərdə piyada və tank əleyhinə mərmilərin dəqiq yerləşdirilməsi idi.

Leyla xanımın stolun üstünə qoyduğu müxtəlif sənəd və foto-şəkillərin

hamısı inqilabdan əvvələ məxsusdur. Onların arasında çox qalın olmayan bir kitab da var. Bu, məşhur ədəbiyyatşünas Firidun bəy Köçərlinin *"Azərbaycan tatarlarının ədəbiyyatı" kitabıdır. Onu müəllif 22 oktyabr 1903-cü ildə avtoqrafla Leyla xanımın general babasına hədiyyə verib. "Hörmətli İbrahim ağa Vəkilova böyük məhəbbət nişanəsi ilə Firidun bəy Köçərlidən. Qori şəhəri".*

Şəkillərdən ikisi daha maraqlıdır. Onlar general-leytenant Əli ağa Şıxlinskiyə məxsusdur. İndiyədək heç kəsə məlum olmayan və heç yerdə dərc edilməyən bu şəkillər 1915-ci ilə aiddir. Bir qrup zabit və üç nəfər şəfqət bacısı ilə birgə çəkilmiş şəkildə isə Əli ağa Şixlinski həyat yoldaşı Nigar xanımla birgə dayanıb.

- Nigar xanımla yanaşı əyləşən anam Aleksandra İvanovna Vəkilovadır. Anam da, atam Qaliblə birgə Birinci Dünya Müharibəsi illərində döyüşən orduda xidmət edib. Anamın rütbəsi leytenant olub. O da Nigar xanım kimi hərbi səhra qospitalında şəfqət bacısı işləyib. Oktyabr inqilabı başlananda onlar Minsk ətrafindakı cəbhədə olublar. Atam üç ay ordu sıralarında komandir kimi xidmət etdikdən sonra komandanlıq onu qulluğunu davam etdirmək üçün Bakıya ezam edir. O, yeni yaranan Azərbaycan Milli Ordusunda hərbi-mühəndislər idarəsinin rəisi təyin olunur. Podpolkovnik rütbəsində Azərbaycan ordusunun süqutuna qədər işləyir. Sonra atam XI Ordunun Ənzəli şəhərindəki mühəndis qoşunları hissənin rəisi vəzifəsində qulluq edir. Anam da bu yürüşdə atamla birgə olub. Atam bu yürüşdə ağır xəstələnib. O, malta qızdırmasına tutulub. Xəstəliyinə baxmayaraq, 1922-ci ildə yenidən Azərbaycan Baş Hərbi - Mühəndislər İdarəsinin rəisi vəzifəsində işə başlayıb. Sonra Zəqafqaziya Qızıl Ordu Hərbi İnqilab şurasının hərbi sənaye komitəsinin direktoru olub. Bu vəzifədə beş il işləyib.

- Leyla xanım, bayaq dediniz ki, atanız iki dəfə həbs edilib. otuz yeddinci ildən əvvəl nə vaxt həbs olunmuşdu?

- Atam ilk dəfə 1931-ci ildə həbs edilib. O, inşaatçı-mühəndis sifətilə Belomor-Baltik kanalının tikintisində dustaq kimi işləmişdi. 1933-cü ildə o, həbsxanadan gəldi. Qocalıb əldən düşmüş, xəstəhal atamın saçı tamam ağarmış və dinib-danışmaz olmuşdu. O, tək bircə dəfə mənimlə həbs olunması haqqında söhbət edəndə dedi: "Kim mənim haqqımda sənə nə deyir-desin, bilmirəm. Bircə onu yadında saxla ki, mən nə Vətənimin, nə xalqımın qarşısında, nə sənin, nə ananın, nə də heç kəsin qarşısında günahkar deyiləm".

Belomor-Baltik kanalı tikintisindən qayıdandan sonra atam Bakıda Məişət-Tikinti Trestində direktor müavini işlədi.

Yadımdadır, çox tez-tez xəstələnirdi. Semaşko adına xəstaxanada, dəmiryolu xəstəxanasında, sonra da Bayıldakı xəstaxanada müalicə olunurdu. Onu operasiya elədilər. Anamla yanına çox çətiliklə gedib-gəlirdik. Bir xeydi sonra atamın səhhəti yaxşılaşdı. Ailəmizin güzaranı da pis deyildi. O, işini dəyişmişdi. İndi Kür üstündəki Bankə qəsəbəsində işləyirdi. Sən demə, ən dəhşətlisi geridə imiş. Otuz yeddinci il gəlib çatdı. Laxa ağzını açan bu dəhşətli qara il yüzlərlə saf Azərbaycan ziyalısı ilə birlikdə atamı da uddu[1]...

1956-cı ildə atamın günahsız məhv edilməsi haqqında iki bəraət məktubu aldım. Biri 1931-ci ilə görə, biri də 1937-yə görə. Sonuncuda yazılmışdı ki, polkovnik Qalib Vəkilov 19 dekabr 1937-ci ildə həlak olub. Anamla mən isə otuz yeddinci ildən əlli altıya qədər onu həbsxanalarda axtarırdıq.

Leyla xanım Vəkilovanın stolunun üstündə daha bir tirixi şəkil var: süfrə arxasında altı nəfər əyləşib. Ovdan qayıdıb nahar edirlər. Məşhur sovet sərkərdəsi Mixail Frunze sol əli çənəsində dərin düşüncələrə dalıb. Onun sağ yanında dayanmış Əliheydər Qarayevlə Qalib bəy Vəkilov da fikirlidirlər. Təkcə diviziya komandiri polkovnik Məmməd Veysov məşğuldur. O, əlindəki çəngəl-bıçaqla qarşısındakı qabda nəyisə doğrayır. Qalan iki nəfərin kimliyi məlum deyil. Leyla xanım deyir ki, bu şəkil 1925-ci ilin qışında M.V. Frunze ikinci dəfə Azərbaycana gələndə Xaçmaz rayonun ərazisindəki keçmiş Neruçev (indiki 1 №-li sovxoz) malikanəsində çəkilib.

Altı ay keçməmiş bu sıradan biri - M. Frunze müəmmalı şəkildə qəflətən vəfat etdi. Əliheydər Qarayev, Qalib bəy Vəkilov otuz yeddinin qurbanı oldular. Polkovnik Məmməd Veysov isə doqquz illik həbs cəzası çəkib vətənə qayıtdı, 1957-ci ildə vəfat etdi.

- Leyla xanım. atanızın dostlarından kimləri xatırlayırsınız?

- Hələ uşaq idim, yadıma gəlir ki, M.V. Frunze, Əli ağa Şıxlinski, Serqo Orconikidze və ən çox Çingiz İldırım qonağımız olardı. Çingiz İldırım mənim üçün "Çi dayı" idi.

Onun ailəsi yox idi. Vaxtının çoxunu atamla bizdə keçirərdi. "Çi dayı" uşaqlara xüsusi məhəbbət və hörmətlə yanaşardı.

Onun danışdığı yarımfantastik hekayətlər də yaxşı yadımdadır. O, nəql edərdi ki, bir dəfə qatar gedə-gedə atılıb ona mindim, ordan da hoppanıb uçan təyyarənin üstünə qondum, bunları danışır, özü də mənimlə birgə gah təəccüblənər, gah da uğunub gedərdi.

O, danışırdı ki, bir dəfə Lənkəran tərəfdə ov eləyəndə qamışlıqdan qəfil

çıxan atanı qaban zənn edib az qala qanına qəltan eləmişdim. "Çi dayı" hər gəlişində mənə rəngli uşaq kitabları gətirərdi. bir dəfə ağacdan yonulmuş qaban heykəli gətirdi. Pəcəsində anama avtoqraf yazdırmışdı.

Həmin heykəl - qaban budur. indi də saxlayıram.

Atamın yazı stolunun üstündə "Çi dayı"nın Qırmızı Bayraq ordeni alandan sonra çəkilmiş foto-şəkli qoyulmuşdu. Onu Çingiz əmi avtoqrafla atama bağışlamışdı.

Birdən-birə "Çi dayı" yoxa çıxdı. bir müddət bizə gəlmədi. Hər dəfə mən atamdan soruşanda ki, "Çi dayı" niyə bizə gəlmir, onlar susardılar. Mənim sualım cavabsız qalarda. Xeyli sonra mən başa düşdüm ki, o qara illərin qorxunc əli onun da yaxasından yapışıb. Çingiz İldırım cəllad Bağırovdan yaxasını qurtarmaq üçün əvvəl Maqnitoqorsk, 1934-də isə Kirovoy-Roqa gedir. Amma M.C.Bağırov orda da onu axtarıb tapdırır və güllələtdirir.

Leyla xanım stolun üstündəki şəkli götürüb kədərli səslə:

- "Çi dayı"nın atama bağışladığı bu şəkil qeyri-adi bir təsadüf nəticəsində bizdə qalıb, -deyir. atam həbs olunanda onun kitabları, bağışlanmış şəxsi silahı, sənədləri hamısı müsadirə olundu. "Çi dayı"nın bu şəkli isə sonralar lazımsız bir kitabın arasından çıxdı. Atam Çingiz İldırımdan sonra həbs olunacağını gözləyirdi. O, hətta, "Çi dayı"nın həbs olunmasını eşidəndə anama deyib ki, indi növbə mənimdir.

Görünür, atam bilə-bilə "Çi dayı"nın şəklini lazımsız kitabın arasına qoyub ki, ələ düşməsin.

Çingiz İldırıma bəraət veriləndən sonra bu nadir şəkil o gözəl insandan demək olar ki, yeganə yadigar idi. Bizim muzeylər bu şəklin surətini çıxartdılar. adını daşıyan Politexnik İnstitutu qarşısındakı büst də bu şəkil əsasında qoyuldu.

İndi hər dəfə yolum Nərimanov prospektinə düşəndə o büst qarşısında istər-istəməz baş əyir, sanki canlı "Çi dayı"yla salamlaşıram.

***1978-ci il sentyabr.***

---

1. Polkovnik Qalib bəy İbrahim ağa oğlu Vəkilov 1937-ci il noyabrın 15-dən 16-na keçən gecə 169 nəfər soydaşımızla birgə güllələnib. Ş.N

## POLKOVNİK DANİYAL BƏY HƏLLƏCOV
(1876-1920)

*Ah, o qılıncları, o qalxanları,*
*Sinəmin üstündən axan qanları,*
*Nəsildən-nəsilə verdim yadigar,*
*Üstü zər yazılı bir keçmişim var.*

***SƏMƏD VURĞUN***



İyirminci ildə şəhid olmuş bir milli ordu sərkərdəmizin sorağı ilə 1985-ci ilin noyabrında Tiflisə getdim. Sorağı mənə jurnalist dostum Seyfulla Cəfərli vermişdi. Polkovnik Daniyal bəy Abdulla bəy oğlu Həlləcovun qızı Leyla xanımı evdə tapa bilmədim. O, Kutaisiyə hüzr yerinə getmişdi. İrena adlı mehriban bir qadın məni çox səmimi qəbul etdi. Elə ki, polkovnikin adını çəkdim, bütün müsahiblərimdə olduğu kimi onu da bərk təəccüb hissi bürüdü. Mən onu çox yaxşı başa düşürdüm. Yarım əsrdən çox keçən bir müddətdə birdən-birə bolşeviklərə qarşı vuruşmuş sərkərdənin ömür yolu ilə maraqlanmaq əlbəttə, hamını təəcübləndirə bilərdi. Özü də 1985-ci ildə, hər dəfə çar və musavat generallarının uzaq, ya da yaxın qohumlarını axtarıb tapanda belə təəccübləri çox görmüşdüm.

İrena xanımı şübhələrdən qurtarmaq üçün "Seyfullanın dostuyam", - dedim, - "Qohumunuzun Sizə salamı var, ünvanızı da ondan almışam..." Onda İrena xanım sevincindən bilmədi məni harda oturtsun.

Bayaqkı təəccübünə və şübhəsinə görə zadəgan xanımlarına məxsus incəliklə dönə-dönə üzrxahlıq etdi. Uzun illər keçməsinə baxmayaraq, danışığında, davranışında bəy və zadəgan nəslinə məxsus yaxşı nə varsa, bu səmimi xanım özündə saxlaya bilib. Belə saf keyfiyyətləri hələ də yaşadan ana və bacılarımızı görəndə, istər-istəməz adam hədsiz qurur hissi keçirir. Sevinirsən ki, bu saf bulağın gözü hələ tutulmayıb. Gələcək qızlarımıza onlar ülvi əxlaqı, gözəl və zərif davranışı ilə hələ çox şey verə bilərlər.

Evdə polkovnikə məxsus nə qalmışdısa, İrena xanım səxavətlə mənə göstərdi. Üstəlik də eşidib-bildiklərini nəql etdi. Divardan asılan rəngli rəsm işinin də polkovnikə məxsus olduğunu fəxrlə bildirdi.

Daniyal bəy Abdulla bəy oğlu 1876-cı ildə Balakəndə mülkədar ailəsində anadan olub. Ailəsində altı övlad böyüdən Abdulla bəy onların hamısına ali təhsil vermişdi. İki oğlu Qaraəli bəy və Murtuzəli bəy Peterburq Universitetinin hüqüq fakultəsini, Bəşir bəy isə həmin universitetinin Şərq dilləri və hüquq fakültələrini bitirmişdir. Ən kiçik Məhəmməd bəy Moskva Kənd Təsərrüfatı Akademiyasının aqronomluq fakültəsini qurtarmışdır (sonralar Sosialist Əməyi Qəhramanı olmuşdur). Ailənin yeganə qızı Məryəm isə Tiflisdəki Müqəddəs Nina Qızlar İnstitutunun mə'zunu idi.

Yalnız ailənin üçüncü oğlu özünün arzusu ilə hərb sənətini seçmişdi. Daniyal bəy Stavropoldakı ə'dadiyə (realnı) məktəbini bitirdikdən sonra bu qərara gəlmişdi. Sonra Peterburqdakı üçillik Mixaylov topçuluq məktəbində oxumuşdu. Artileriya məktəbini ə'la bitirən podporuçik Daniyal bəy Qars viləyətinin Cəlaus şəhərciyində yerləşən otuz doqquzuncu artileriya briqadasına xidmətə göndərildi. Bu briqadada on ildən çox xidmət edən Daniyal bəy ştabs-kapitan rütbəsinə qədər yüksələ bildi. Xidmətinin on ikinci ilində onu Tiflis quberniyasının Muxrovani şəhərindəki birinci artilleriya polkuna dəyişdilər. Bir az sonra həmin polk Qamboriyə köçürüldü. Cahan müharibəsindən yaralı qayıdan Daniyal bəy 1915-ci ildə uzunmüddətli müalicə mə'zuniyyətinə buraxılır. Dədə-baba vətəni Balakəndə yaşayır. Bununla da imperiya ordusunda xidmətini polkovnik rütbəsində başa vurur.

1918-ci ildə Azərbaycan Milli Ordusu yaradılanda Müdafiə Nazi ral Səməd bəy Mehmandarovun şəxsi də'vəti ilə Gəncədə yaradılan korpusa komandir müavini tə'yin olunur.

Axşam mehmanxanada İrena xanımdan aldığım qeydlərə bir daha göz gəzdirdim. Əlbəttə, onların azlığı məni mə'yus etdi. Nə vaxt qayıdacağı mə'lum olmayan Leyla xanımı gözləməyi qət etdim. Vaxt bolluğundan isti-

fadə edib, Qori Seminariyasının arxivində araşdırmalar apardım. Həmsənət dostlarımla görüşüb Tiflisdə anadan olmuş general Firidun bəy Vəzirovun (1850-1925) heç olmasa bir qohumunu tapmaq, görüşmək istədim. General Vəzirov da 1919-20-ci illərdə milli ordumuzda xidmət edib. Hamı təəssüflə bildirdi ki, belə bir generalın adını ilk dəfə eşidir.

Ötən əsrin əvvələrindən başlayaraq, bizim mütərəqqi fikirli ziyalılarımız Tiflisdə daha çox məskən salıblar. Ona görə də inqilaba qədərki ziyalılarımızın hansının ömür yoluna nəzər salırsansa, istər-istəməz Tiflislə bağlılığına rast gəlirsən. Təəssüf ki, belə görkəmli şəxsiyyətlərimizin adları əbədiləşdirilmir. Olub-qalan nişanələr isə bir yandan silinib itirilir.

General-topoqraf İbrahim ağa Vəkilovun ötən əsrin sonlarında tikdirdiyi şəxsi mülkü Uş.Çxeidze küçəsində əsl me'marlıq abidəsi idi. İki göz istəyirdi tamaşa eləsin. Bu evi mən 1983-cü ildə generalın oğlu Faris bəyin çəkdiyi sxem vasitəsilə axtarıb tapmışdım. Bakıya qayıdanda Faris bəyə dedim ki, eviniz sağ salamatdı, getdim, ziyarət elədim. Onda Faris bəyin necə sevindiyinin bir Allah, bir də mən şahidi oldum. Doxsan dörd yaşlı tənha qoca durub qara şkafın enli siyirməsində saxladığı həmin evin fotoşəklini tapdı, dönə-dönə öpüb uşaq kimi kövrəldi.

İkimərtəbəli mülkdə iki gürcü, bir erməni ailəsi yaşayırdı. Soruşdum ki, bilirsiniz bu mülk kimin olub? Cavab verdilər ki, bir tatar (Azərbaycan - Ş.N.) generalının.

Bu gəlişimdə də dözməyib evə yenə baş çəkmək istədim. Hansı gözəgörünməz qüvvəsə məni ora çəkirdi. Elə bilirdim orada, o mülkdə, qarşısındakı o cənnətəbənzər bağda Azərbaycanın bir parçası öz oğlunun həsrətindədir. Üstəlik də Faris bəy danışmışdı ki, qapımızdakı ağacların hamısını atam Qarayazıdan, Salahlıdan gətirmişdi. Atam o ağaclarla həmişə həmsöhbət olardı. Onları sığallaya-sığallaya, hər bir ağacın boyunu sevə-sevə böyüdərdi. Uzaq şəhərlərə topoqrafiya çəkilişlərinə gedəndə onlara da salam yazardı. Anama, bizə dönə-dönə tapşırardı ki, ağaclar amanatdı, onlara vaxtında su verin, korluq çəkməyə qoymayın.

Veriyski körpüsünü keçib balaca dikdirə çıxanda gözlərimə inanmadım. Generalın mülkü yox idi, yer üzündən silinmişdi, sanki burda heç belə şey olmayıbmış. Yalnız sahibsiz bağın ağacları qalmışdı. Məni qınamayın, mənə elə gəldi, o ağaclar yetim uşaq kimi ağlaşırdılar. Yaxınlaşıb oxşadım onları. Əlimi gövdələrinə çəkdim. Generalın ruhuna rəhmət oxudum, yaxşı tanıdığım mərhum Faris bəyi yada saldım. Kövrəldim. "Eh, dünya, niyə belə və-

fasızsan" - pıçıldadım. Başım üstündə göyə yüksələn ağacların yarpaqları xışıldadı. Küləkmi tərpətdi onları, yoxsa mənim gəlişimə sevinclə pıçıldaşırdılar? Deyə bilmərəm, bircə şeyi bilirəm ki, canıma od saldı o ağacların qürbətdə yetim qalmağı...

Xeyli aralıdakı qonşulardan soruşdum ki, bu mülkü niyə uçurublar? Cavab verdilər ki, guya yanından keçən yolu genişləndirmək istəyiblər, yol-zad da çəkməyiblər. Evi uçurduqlarına da peşman olublar...

Beləcə bizim tarixi abidəmiz, tariximiz keçmiş Tiflisdən silinir. Acınacaqlı haldır ki, bu da bizim səlahiyyətli vəzifə adamlarımızı narahat etmir. O vaxt, 1983-cü ildə ev salamat olanda Bakıda rəsmi idarədə, bir rəsmi vəzifə sahibinə dedim ki, Tiflisdə generalın evi qalır.

- Nə demək istəyirsən? - deyib boz-boz üzümə baxdı.

- Yaxşı olar, - dedim, Gürcüstan hökuməti ilə danışıb mülkə bir lövhə vurdurasınız. Axı, o evdə xalqımızın yeganə topoqraf-generalı İbrahim ağa Vəkilov yaşayıb. General İbrahim ağa Vəkilov tarixi şəxsiyyətdir...

Məni axıra qədər dinləməyən rəhbər şəxs e'tinasızlıqla:

- Fikirləşərik, - dedi, - indi vaxt yoxdur.

Təəssüf ki, bizim "ağıllı rəhbərimiz" fikirləşməyə vaxt tapana kimi "dəli vurub çayı keçdi"...

***

Həmin il Tiflisdə şahidi olduğum bir hadisəyə azərbaycanlı kimi hədsiz sevindim. İndi də unuda bilmirəm. Bir küçədən keçəndə kitab mağazası görüb içəri keçdim. Satıcı yaraşıqlı cavan bir oğlan idi. Eşitmişdim ki, gürcülərin rusca danışan adamdan acığı gəlir. Mən də rusca soruşdum ki, sizdə tarixi mövzuda yaxşı kitab varmı? Saxlancın varsa, ver, neçəyə desən alaram. Oğlan üzümə baxıb, təmiz Azərbaycan dilində:

- Var, - dedi, - buyurun, alın, cavan yaşında Gəncədə vəfat etmiş şair Nikolaz Barataşvilinin həyatından sənədli povestdir. Alsanız peşman olmazsınız. Burda naxçıvanlı şairə Qönçəbəyim haqqında da maraqlı məlumat var.

- Azərbaycanlısanmı? - deyə sevinclə soruşdum.

- Yox, - dedi, - gürcüyəm, - fəxrlə - Meydanda yaşayıram. Bizim Meydanda yaşayan bütün millətlər Azərbaycan dilində mənim kimi təmiz danışırlar, hələ Sizin mahnıları da oxuya bilirəm, hər bazar günü saat ikidə "Muğamat saatı"nı səbirsizliklə gözləyirəm.

Dünən general İbrahim ağa Vəkilov mülkünün uçurulması qanımı qaraltmışdısa, bu gün dilimizə, musiqimizə olan hörmət məni göyün yeddinci qatına qaldırdı. Kitab mağazasından sinədolu sevinclə çıxdım.

***

Üç gün sonra Leyla xanım Daniyal bəy qızı Kutaisidən qayıtdı. Mən onun görüşünə getdim. Söhbət zamanı şahid oldum ki, İrena xanımdakı yüksək səviyyəli zadəgan zərifliyi ona xalası Leyladan keçmədir.

- Leyla xanım, - dedim, - Sizi çoxusu ona görə gözlədim ki, Azərbaycan Milli Ordusunun yaradılmasının şahidi olmusunuz. Buna yaşınız da imkan verir. Üstəlik də hərbçi qızı olmağınız... O vaxt Sizin on beş yaşınız olub, demək, nəyisə xatırlaya bilərsiniz?

Hələlik sualımı bir yana qoyan müsahibimlə aramızda ərkyana belə bir söhbət oldu:

- Siz mənim yaşımı hardan bilirsiniz?

- Mənim dostum, Sizin qohumunuz Seyfulladan, - dedim.

- Kişinin qadının təvəllüdü ilə maraqlanmağı keçmişdə qəbahət sayılardı. Mən də keçmişin adamıyam. Amma Sizə bağışlayıram. Ona görə ki, əvvəla, qonağımsınız, ikinci də Siz cavansınız, mən isə qocayam - deyib ürək dolusu güldü. - Nə isə, keçək əsas mətləbə. Bakıda biz az yaşadıq. Tezliklə atamın xidmət yeri Gəncəyə dəyişdirildi. Atam Gəncədə iki dəfə işlədi: bir on səkkizdə, bir də iyirminci ildə.

On doqquzuncu ildə isə atamın Müdafiə naziri Mehmandarovla, müavinləri Əli ağa Şıxlinski,general İbrahimağa Usubovla və şahzadə Əmir Kazım Mirzə Qacarla Azərbaycan ordusunun nümayişini qəbul etdikləri yadımdadır.

Elə ki, XI ordu Bakıya gəldi, xalq möhkəm təşvişə düşdü. Çoxları İrana, Türkiyəyə qaçırdı. Onda atam, xalalarım - Leyla, Tamara və mən Gəncədə yaşayırdıq. Qaçmağı atama da təklif elədilər. O, imtina edib dedi ki, anamı, ailəmi Balakəndə qoyub hara gedirəm. Getmədi. Atamın dayısı Livan Hələcov Azərbaycan Xarici İşlər nazirinin müavini idi. O getdi İrana. İndiyə kimi də heç bir xəbər-ətər yoxdu.

Mən XI ordunun Gəncədə törətdiyi dəhşətlərin şahidiyəm. Bolşevik ordusu vağzal tərəfdən, ermənilər isə Bağmanlardan şəhəri güclü top atəşinə tutdular.

Bolşeviklər gələn axşamı atam evə bərk hirsli gəldi. Şəhərin hərbi komendantı general-mayor Əmir Kazım Mirzə Qacarın, Gəncədə yerləşən birinci süvari diviziyasının komandiri general Cavad bəy Şıxlinskinin vəzifələrindən azad edilmələri onu bərk əsəbiləşdirmişdi. Atamın yavəri dedi ki, XI Ordu-

nun qərargahından gələn zabitlər bizim komanda hey'əti ilə çox kobud rəftar edirlər. Azərbaycanlı zabitləri işdən çıxardıb özlərininkini qoymaq istəyirlər. Gözətçi məntəqələrinə öz adamlarını tə'yin edirlər. On birinci ordudan gələn zabitlərin əksəriyyəti ermənidir. Nə Gəncə atıcı alayının, nə də Şəki süvari alayının əsgər və zabitləri buna razılıq vermirlər. Hamı bir səslə e'tirazını bildirir.

Oğul, Gəncə qırğınının ilkin səbəbi ermənilərin aravurması oldu. Daha çox onlar özlərini "qalib" kimi aparırdılar.

Mayın iyirmi beşindən iyirmi altısına keçən gecə şəhərin ermənilər yaşayan hissəsindən toplar və pulemyotlardan atəş başladı. Yerli ermənilərin satqınlığı, xəyanəti tam üzə çıxdı. Bizim inadla vuruşan əsgərlərimiz ruslardan çoxlu əsir almışdılar. Yerli əhali üsyan edən döyüşçülərimizə canla-başla kömək edirdi. Mayın iyirmi yeddisi idi, yoxsa bilmirəm, iyirmi səkkizi idi. Bakıdan gələn zirehli qatar stansiyanı ələ keçirtdi. Bundan sonrakı iki gündə də hər iki tərəfdən atəş dayanmadı. Bolşeviklərin qabağına düşüb yol göstərən ermənilər şəhərin müsəlman hissəsində qanı su yerinə axıtdılar. Mayın otuz birində XI Ordu şəhərə girdi. Azərbaycanlılara qarşı vəhşilik, talan, qırğın daha da gücləndi. Şəhərin bütün küçələri insan meyidi ilə dolu idi. Su quyularının hamısı meyidlə doldurulmuşdu. Bolşeviklərlə ermənilər bunu qəsdən eləmişdilər ki, şəhərin müsəlman əhalisi içməyə su tapmasın. Meyidləri basdırmağa imkan vermirdilər, camaata acıq verirmiş kimi meyidləri ata, camışa qoşub şəhərin kənarına atırdılar.

Həyatımda bundan dəhşətli səhnə, bundan böyük vəhşilik görməmişəm. Belə vəhşiliyi ancaq sizin kommunistlər eləyə bilər, - deyib çox sərt sifətlə mənə baxdı.

- Mən kommunist deyiləm, Leyla xanım.

- Hə, nə yaxşı - deyib, təəccübləndi, - görürəm bolşeviklərə qarşı vuruşan milli ordu sərkərdələri ilə də ona görə canfəşanlıqla material toplayırsan. Bu daha pis, səni elə kommunist olmadığına görə də dolaşdıra bilərlər.

- Leyla xanım, mənim yaşıdlarımın çoxusu ona görə kommunist olurlar ki, əllərinə vəzifə keçirsinlər. Mənim isə bu barədə iştaham koruşdur. Vəzifə sahibi olsaydım, üç gün Tbilisidə sizi gözləyə bilməzdim. Yoxsa, Bakıya qayıdan kimi məni vəzifədən qovardılar.

Yaman sərtləşmişdik, az qala dalaşacaqdıq. Mənim kommunist olmamağım çulumu sudan çıxartdı, bizi barışdırdı.

1920-ci ilin avqustunda şəhərə vəba xəstəliyi yayıldı, - deyib köksünü ötürən Leyla xanım söhbətinə davam etdi. Atamdan isə heç bir xəbər yox idi.

Deyirdilər ki, general Cavad bəy Şıxlinski, polkovnik Cahangir bəy Kazımbəyov, Sarı Ələkbər, Qaçaq Qəmbər, atam böyük bir dəstə ilə meşələrdə vuruşurlar, bolşeviklərə tabe olmaq istəmirlər. Bir azdan atamın həlak olması xəbərini eşitdik.[1] Biz bir müddət zirzəmidə yaşadıq. Gəncədə vəziyyət çox pis idi. Əhalini milçək kimi qırırdılar: günahlını da, günahsızı da, həbsxanalar adamla dolu idi. Yəqin dostunuz Seyfulla Sizə demiş olar, atam həm də yaxşı rəssam olub. O dəhşətli ildə əsərləri it-bata düşdü. Bir neçəsini saxlaya bilmişəm: "Qars mənzərələri", "Balakən dağları"... Qırx altı yaşında həlak olan polkovnik atamın bircə fotoşəkli qalıb, o da at üstündə Qars şəhərində çəkilib.

- Leyla xanım, o qarışıq vaxtda Balakənə necə gəlib çıxdınız?

- Çox çətinliklə, atamın bir dostu bizi xilas elədi. Anamın yanına Balakənə gəldik. Anamla atam 1904-cü ildə Qarsda evləniblər.

Anam briqada komandirinin qızı olub, milliyyətcə polyakdır. Felisin Stanislavovna Krinseviç - Qijdeu. Anam Varşavadakı məşhur zadəgan nəslindən idi. Ailədə iki bacı idik; kiçik bacım Tamara uşaqkən vəfat edib.

- Yenə kinayəli zarafat edir - mənim isə üzüm bərkdi. Hələ də yaşayıram. Bu il səksənin arxasını yerə vuracam.

Bütün bunları daxili təlatümlə, göz yaşlarını içində boğaraq danışan Leyla xanım söhbətimizin sonunda yenə zarafatından qalmadı.

- Özünü gözlə, oğul.

- Nədən, Leyla xanım? - dedim.

- DTK-dan, milisdən, adam güdənlərdən...

- Niyə ki, neyləmişəm?

- Sən heç nə eləməmisən, hələlik... Mənim isə ağzım qızışdı, çox şeyi danışdım. Dediyimin hamısını yazıb özünü xata-balaya salma.

- Çalışaram, Sizin istəyinizcə olsun, - deyib inamla söz verdim.

Leyla xanımla söhbətimiz 1985-ci il noyabrın 14-də olmuşdu. Bu tarixi mən cib dəftərçəmdə də qeyd eləmişəm. Bu yazını isə 22 iyun 1992-ci ildə qələmə almışam. Leyla xanımın mənə tövsiyə elədiyi ehtiyata ehtiyac qalmadı.

***İyun, 1992-ci il***
***Mərdəkan sanatoriyası.***

1. Keçmiş milli ordu zabiti, 95 yaşlı Ramazan Həmzət oğlu Xəlilov şahidlik verir ki, polkovnik Daniyal bəyi Gəncə ÇK-sının sədri Tuxareli 1920-ci ilin iyununda həbs edib, şaşka ilə doğramışdır - Ş.N.

## POLKOVNİK ŞİRİN BƏY KƏSƏMƏNLİ
(1887-1919)

*Vətəni dərin bir məhəbbətlə sevən polkovnik Şirin bəy Kəsəmənli yeni ordumuzun yaranmasında öz gücünü əsirgəmədi. Təyin olunduğu vəzifədə, tapşırılan hər bir işin öhdəsindən bacarıqla gəlirdi. Hədsiz enerjiyə malik idi. Heç bir çətinlik qarşısında dayanmırdı.*

*Cəsarətlə demək olar ki, polkovnik Şirin bəy Kəsəmənli harada olursa, o yerdə onun müvəffəqiyyətinə əmin olmaq mümkün idi. Tərəddüdsüz arxayın olmaq gərəkdir ki, ona tapşırılan iş batmayacaq və sözsüz yerinə yetiriləcəkdir.*

***General Əli ağa Şıxlinski***



1918-20 illərdə hansı generallarımız Azərbaycan Demokratik Ordusunda xidmətdə olub? Sovet Hökuməti suqut etdikdən sonra yeni, azad Azərbaycanımızda bu haqlı sualı tez-tez eşitmək olur.

Əlbətdə, ən əvvəl iki şöhrətli generallarımızın adını xatırlamaq borcumuzdur: Əli ağa Şıxlinski və Səməd bəy Mehmandarov. Milli silahlı qüvvələrimizin yaradılmasında və təşkilində bunların xidmətləri əvəzsizdir.

1918-20-ci illərdə Azərbaycan Demokratik Ordusunda ilk topoqraf generalımız İbrahim ağa Vəkilov, Həbib bəy Səlimov, milliyətcə Litva tatarı olan Məmməd bəy Sul-

keviç, Firudin bəy Vəzirov, İbrahim ağa Usubov, Şahzadə Əmir Kazımxan Qacar, Cavad bəy Şıxlinski, Davud bəy Yadigarov, Şahzadə Əmənulla xan Qacar, Əbdülhəmid bəy Qaytabaşı, Süleyman bəy Əfəndiyev, Teymur bəy Novruzov, Şahzadə Məhəmməd Mirzə Qacar, Murad Gəray bəy Tlexas, Şahzadə Feyzulla Mirzə Qacar və başqaları milli orduda qeyrətlə xidmət ediblər.

Azərbaycan milli ordusunun on doqquzuncu ilin sonlarında otuz minlik piyadası, on min isə süvari qoşunu vardı.

Çox təəssüf ki, yeni gələn Şura Hökuməti Milli Ordunun əsgər və zabitləri ilə çox amansız rəftar elədi. Bakıya soxulan XI talançı ordu Milli Ordumuzun general və zabitlərinin əksəriyyətini 1920-ci ilin may-iyun aylarında məhkəməsiz - filansız güllələtdi. Qalanını isə Sibirə, Qazaxstana və Solovki adalarına sürgün etdilər.

Azərbayçan Demokratik ordusunda qeyrətlə xidmət edən sərgərdələrdən biri də Şirin bəy Kəsəmənli olub.

Tarixin bir parçasını yaşadan sənədlər, fotoşəkillər ötən qəhramanlıq illərimizdən xəbər verən ən e'tibarlı mənbələrdir. Tarixin "ağ səhifələri" indi açılır. Bu səhifələr olub-keçmiş hadisələrin gizlin qatlarını araşdırmağa, yeni həqiqətləri aşkara çıxarmağa imkan yaradır.

Yetmiş ildən çox adı heç yerdə çəkilməyən Azərbaycan Demokratik Hökumətinin sərkərdəsi Şirin bəy Cəfərağa oğlu Kəsəmənlinin fotoşəklinə ilk dəfə Respublika Mərkəzi Dövlət Kino-foto sənədlər arxivində rast gəldim.

Şəkildə on doqquz nəfərlik zabit hey'əti təsvir olunmuşdu. Arxasında isə belə yazılmışdı: "Musavat ordusunun generalları və zabitləri birinci cərgədə, soldan praporşik İsmayılov, Bahadır bəy Vəkilov, kapitan Sadıqov, ikinci cərgədə, soldan üçüncü kapitan Meydayev, beşinci polkovnik Şirin bəy Kəsəmənli və üçüncü cərgədə, sağdan üçüncü kapitan Heydər Vəzirov". Vəssalam. Qalanlarının adı, famili göstərilməyib. Şəkil 1919-cu ildə çəkilib[1].

Polkovnik Şirin bəyin adına inqilabdan əvvəlki sənədlərdə az da olsa, rast gəlmək olur. O, xeyirxahlığı ilə məşhur olan adlı-sanlı bir nəslin oğludur. Bakıda Şirin bəyin yeganə qızı, kimya elmləri namizədi Ləyyə xanımla, qardaşı Həsənin arvadı Tovuz xanımla və nəvələri tarix elmləri doktoru,

1. Sonralar Ramazan Xəlilov bu şəkildən iki nəfəri də tanıdı-general-mayor Murad Gəray bəy Tlexası və podpolkovnik Cəmşid xan Naxçıvanskini-Ş.N.

professor Fuad Məmmədovla, texnika elmləri namizədi Zaur Kəsəmənli ilə görüşüb söhbət etdim.

Tovuz xanımın illərin tufanından qayğı ilə qoruyub saxladığı şəkil və sənədlərlə tanış oldum.

Şəkillərin arxasında yazılmış rəqəmlər, tarix daha çox köməyimə gəldi. Onların vasitəsilə öyrənə bildim ki, Şirin bəy Kəsəmənli 1887-ci ildə Qazax qəzasının Qıraq Kəsəmən kəndində bəy ailəsində dünyaya gəlib. Atası Cəfər ağanın beş yüz desyatin torpağı olub. Onu da xatırladım ki, yazıçı Fərman Eyvazlının " Qaçaq Kərəm" tarixi romanında Şirin bəyin atası Cəfər ağanın obrazı xeyirxah bir ağsaqqal kimi təsvir olunub.

Cəfər ağa on üç yaşlı oğlu Şirin bəyi Tiflisdəki zadəgan uşaqlarının təhsil aldığı hərbi gimnaziyaya oxumağa qoyub. O, hərbi gimnaziyanı 1905-ci il iyulun 23-də bitirib. Bir müddət Qusar alayında qulluq etdikdən sonra hərbi təhsilini artırmaq üçün Kiyevdəki ikinci Konstantin topçu məktəbində oxuyub.

Birinci Dünya müharibəsində polkovnik Şirin bəy Kəsəmənli əvvəlcə Yelizavetpol piyada alayında və Qafqaz müsəlmanlarından təşkil olunmuş "Dikaya diviziya"nın tərkibində vuruşub. O, bu müharibədə "İgidliyə görə" medalı ilə, dördüncü dərəcəli " Müqəddəs Georgi" və üçüncü dərəcəli "Müqəddəs Stanislav" (qılıc və bantla birgə) ordenləri ilə təltif olunub.

1916-cı ildə Tiflisə qayıdan Şirin bəy Kəsəmənli ilk azərbaycanlı qadın rəssamı Qeysər xanım Kaşıyeva ilə ailə qurub.

Şirin bəyin yeganə övladı Ləyyə xanımın dedikləri:

- Anama nişan gələndən bir neçə gün sonra Birinci Dünya müharibəsi başlayıb. Ona görə də anam iki il nişanlı qalıb, müharibədən sonra evləniblər.

Mənim ana tərəfim də hərbçi olub. Anam danışardı ki, babam Terek kazakı olub. Stanitsa generalı rütbəsinə qədər yüksəlib. Babam Seyfulla Kaşıyev müsəlmanlığı qəbul edən Palina Yakovlevna Titovaya evlənib, Tiflisə köçüb. Dayım Davud bəy Kaşıyev praporşik idi. İndi bizdə saxlanan şəkildə atam Şirin bəy, anam Qeysər və dayım Davud bəy təsvir olunub. Belə şəkillər bizdə çox idi. Anam qorxudan otuz yeddinci ildə yandırdı.

1917-ci ildə mən anadan olanda atamla anam adqoydu üçün axundun yanına gediblər. Axund kitab açaraq deyib ki, bəxtinizə İbrahim peyğəmbər düşdü. Onun da üç arvadı olub. Sara, Həcər, Ləyyə. Bu adlardan hansını istəsəniz götürə bilərsiniz. Anam Ləyyə adını bəyənib.

Atamı demək olar ki, xatırlaya bilmirəm. Mən bir yaş yeddi aylıq olanda atam vəfat edib. Biz uzun müddət Tiflisdə və Qazaxda yaşamışıq. Mənə çox

vaxt Apollonun qızı deyərdilər. Böyüyəndə anamdan soruşdum ki, niyə məni belə çağırırlar. Anam cavab verdi ki, atan Şirin bəy qəddi-qamətli və yaraşıqlı kişi olduğuna görə camaat onu Apollon deyə çağırırdı.

Anam danışardı ki, bizi məscidin darvazasına qədər ötürən axund dilə gəlib dedi ki, cənab zabit, sizdə kişilərə məxsus ilahi gözəllik var, işıqlı Apollon gözəlliyi. Siz təkcə zahiri gözəlliyinizlə yox, həm də parlaq ağlınızla məni heyran etdiniz. Allah sizi hər bəladan hifz etsin.

Anam son nəfəsinə qədər vaxtsız həlak olan atamdan fəxrlə söhbət açardı.

1918-ci ildə, Azərbaycanın ağır günlərində Şirin bəy Milli Ordunun sərkərdələrindən biri olub.

Bir tərəfdən general Tomsonun ingilis hərbi dəstələri, o biri tərəfdən erməni daşnak ordusu Azərbaycanın müstəqilliyini boğmağa çalışırdı. Belə bir vaxtda respublikamızın sərkərdələri sırasında Şirin bəy Kəsəmənli də Qarabağda, Zəngəzurda və Qazaxda erməni daşnak dəstələrinin darmadağın edilməsində əsl komandirlik məharəti göstərirdi.

Polkovnik Şirin bəy Kəsəmənlinin 1918-19 cu illərdə Milli Ordumuzdakı fəaliyyətini öyrənmək üçün əlimizdə bircə əsaslı sənəd var. O da Hərbi Nazir vəzifəsini müvəqqəti icra edən tam artileriya generalı Əli ağa Şıxlinskinin və Baş Qərargah rəisi general-mayor Əbdülhəmid bəy Qaytabaşının Respublika Yeni Tarix Mərkəzi Dövlət arxivinin 2894 nömrəli fondunda saxlanan əlyazmasıdır. Həmin sənədin tam mətni belədir:

"Azərbaycan Respublikasının Gürcüstandakı Hərbi attaşesi teleqramla kədərli bir xəbər vermişdir. Yanvarın dördündə ağır keçən bir xəstəlikdən sonra ikinci süvari diviziyasının rəis müavini polkovnik Şirin bəy Kəsəmənli vəfat etmişdir.

Vətənini dərin bir məhəbbətlə sevən Kəsəmənli yeni ordumuzun yaranmasında öz gücünü əsirgəmirdi. Tə'yin olunduğu vəzifədə, tapşırılan hər bir işin öhdəsindən bacarıqla gəlirdi. Hədsiz enerjiyə malik idi. Heç bir çətinlik qarşısında dayanmırdı. Bütün çətinlikləri fövqəl'adə bacarığı ilə dəf edib, işlərini uğurla başa çatdırırdı. 1918-ci ildə praporşiklər məktəbinin rəisi tə'yin edildi. Alayı qəbul edəndə o, xaosla və üstəlik də səpmə yatalaq xəstəliyi ilə qarşılaşdı.

Bu xəstəlik alayda kütləvi qırğına səbəb oldu. Vəziyyətin acınacaqlı olmasına baxmayaraq, polkovnik Kəsəmənli aciz qalmadı, əksinə, tezliklə işə girişərək, dağılmış alayı yaxşı vəziyyətli hərbi hissə səviyyəsinə qaldırdı.

Xaçmaz dəstəsinə tə'yin olunduqdan sonra da bacarıqlı komandir olduğunu göstərdi. O, dəstənin təşkilində, mövqelərin möhkəmləndirilməsində böyük zəhmət çəkdi. Bacarıqlı komandir dəstənin qarşısına qoyulan vəzifənin öhdəsindən məharətlə gələ bildi.

Cəsarətlə demək olar ki, polkovnik Şirin bəy Kəsəmənli harda olurdusa, o yerdə onun müvəffəqiyyətinə əmin olmaq mümkün idi. Tərəddüdsüz arxayın olmaq gərəkdir ki, ona tapşırılan iş batmayacaq və sözsüz yerinə yetiriləcəkdir.

Polkovnik Kəsəmənli bütün bəlalarda dəstə ilə birgə olduğundan ağır formada qızdırma xəstəliyinə tutulur. İkinci piyada diviziyasına rəis müavini tə'yin edildiyi vaxtda Tiflisə müalicəyə gedir və orada da vəfat edir.

Polkovnik Şirin bəy Kəsəmənlinin şəxsində ordumuz ağır itgiyə mə'ruz qaldı. Qoy onun adı bizim gənc ordumuzun alaylarında əbədi yaşasın və onun hərbi xidməti alayın hər bir əsgəri üçün nümunə olsun.

Əmr edirəm ki, onun cənazəsinin gətirməsi və dəfn xərci xəzinə hesabına ödənilsin. Onun ailəsinə isə müalicəyə xərc çəkildiyi üçün on min manat məvacib verilsin".

Otuz iki yaşlı iste'dadlı sərgərdə Şirin bəy Kəsəmənli doğma kəndi Qıraq Kəsəmən qəbiristanlığında 1919-cu ilin yanvarında şərəflə dəfn olunub. Bakıdan, Gəncədən gətirilən alaylar onun məzarı üstündən yaylım atəşi atıblar.

***Tovuz xanım Kəsəmənlinin dedikləri:*** - Onda mən yeniyetmə qız idim. İldə iki-üç dəfə Qazağa gələn Şirin bəy bizim dərslərimizlə maraqlanardı. Hər dəfə gələndə onlara pay gətirər, pulla yardım edərdi, kasıb uşaqlarını aparıb Qazaxdakı "Üsuli-cədid" məktəbinə oxumağa qoyardı. Anam Şükufə xanım soruşardı ki, ay Şirin bəy, səndə bu qədər pul hardandır? Cavab verərdi ki, axı mən zabitəm, dövlət zabitin zəhməti müqabilində ona pulu çox verir.

Dəfnində bütün Gəncə, Qazax, Tiflis camaatı iştirak elədi. Yavəri Demyan adlı bir rus idi. Uşaq kimi ağlayırdı. Çox vəfalı adam idi. Sonralar da bizə gəlib-gedərdi.

Anam Şükufə xanım Şirin bəyin əmisi qızı idi. Sonralar onun qardaşı Həsən bəylə ailə qurdu. Bizim nəslə Qazaxda "Qəhraman ocağı" deyirlər. Ötən əsrin altımışıncı illərində taxıla güclü çəyirtkə düşübmüş. Kəndlilər ağlaşırmış ki, taxıl gözündən batdı, bu il aclıq olacaq. Ana babam Ağabəy hansı yollasa çəyirtkəni məhv edib, rəiyyəti aclıqdan xilas edir. Bu yaxşılığı unutmayan camaat imperatora ərzi-hal göndəriblər ki, Ağabəy bu xidmətinə görə mükafatlandırılsın. İmperator da babam Ağabəyi gümüş medalla təltif

edib, üstəlik də Kəsəmənski familiyasını daşımağa rəsmi icazə verib. Bundan sonra bizin nəslin famili rəsmi dairələrdə Kəsəmənli kimi yazılıb.

Şirin bəyin qardaşı arvadı Tovuz xanım mənə bir ünvan da verdi. Dedi ki, Çaylı kəndində yaşayan ağsaqqal qohumu Murad Novruzov Şirin bəy haqqında daha çox mə'lumata malikdir.

Axtarışlarımda ağsaqqallarımızın, ağbirçəklərimizin yaddaşına çox arxalanmışam. Ona görə də yaxşı yaddaşlı adam mənim təsəvvürümdə canlı arxiv kimidir. Bə'zən elə olub ki, bir faktı, bir sənədi tapmaq ümidi ilə günlərlə, aylarla arxivlərə ayaq döyüb, on illərlə kif basmış sənədlərin tozunu udmuşam, bir şey əldə edə bilməyib, qocaların yaddaşına pənah aparmışam.. Bu mə'nada Qazağın Salahlı, Kəsəmən, Ağköynək, Xanlıqlar, Şıxlı və başqa kəndləri mənim üçün xəzinə məkanı olub.

Daş Salahlı kəndi ilə Çaylını cəmi-cümlətanı bir kilometrlik məsafə ayırır. İlin hər fəslində Daş Salahlıya yolum düşür. Hər dəfə də Çaylının yanından ötüb sinəsi bayatılarla, şe'rlə dolu Daş Salahlı qocalarının el qəhramanları haqqında söhbətlərini dinləməyə gedirəm. Aşıq Bəhrama, İsmayıl Mahmudova, Paşa Salahlıya, Əvəz Avdıoğluna, Əbdüləzim Həsənova qulaq asdıqca eldə-obada nə qədər açılmamış səhifələrin, maraqlı tarixi söhbətlərin şahidi oluram.

Amma heç vaxt ağlıma gəlməyib ki, Çaylıda da müdrik bir qoca yaşayır, onun da el-oba üçün yararlı söhbətləri var. Ağac meyvəsi ilə tanındığı kimi Murad dayı da yaxşı yaddaşına, şirin söhbətinə görə kənddə sayılan, hörmət olunan ağsaqqallardandır. O, inqilabdan əvvəl olub-keçənlərin şahidi deyil. Yaşı buna imkan vermir. Cəmi-cümlətanı altmış üç yaşı var. Amma o illərin əhvalatlarını elə yaxş ı təfsilatı ilə danışır ki, dinləyəcisi sanki hadisələrin şahidi olur. Danışdığının, bildiyinin hamısı yetmiş il əvvəlin hadisələridir. Dilinin əzbəri keçmişin igid kişiləri - Qaçaq Kərəmdi, İsrafil ağa Kərbəlayevdi, Məmməd koxa Mahmudoğludu, Əli ağa Şıxlinskidi, Söyünbəyli Söyün ağadı, bir də bəy və musavat polkovniki olduğuna görə yetmiş ildən çox adı, fəaliyyəti qapalı qalan Şirin bəy Kəsəmənlidi.

Murad dayıdan elin igid, qeyrətli oğlu, qızı haqqında bir söz soruşsan, nə kitab vərəqləyəcək, nə də kağız-qələm axtaracaq. Allahın verdiyi iste'dadın gücü ilə hələ uşaqkən oxuduğu dastanları, eşitdiyi əhvalatları hafizəsinə yazıb, həkk edib. Tanrının kəramətinə şükürlər diləyirsən : nə yaxşı belə ağsaqqallarımız az da olsa qalıb. Nəslində bəylik var deyib onu da dolaşdırmayıblar. Sibirə, Qazaxıstan çöllərinə sürgün eləməyiblər. Elə bilməyin ki, otuz

yeddinin acı tufanı Murad dayıdan yan keçib. Yox, atası Məcid kişi əsl-nəcabətində ağalıq olduğuna görə, nə az, nə də çox, on səkkiz il Sibir sürgünü çəkib. Sağ-salamat qayıdıb, doxsan dörd yaşında Çaylıda vəfat edib.



- Atam həbs edildi, ailəmiz ağır vəziyyətə düşdü. Heç dörd il oxumamış ağır işin qulpundan yapışdım. Əlim işdə oldu, qulağım nənələrin, babaların sözündə, söhbətində. Nəyi unutsam da aşıq məclisinə getməyi, qoşma əzbərləməyi, dastan öyrənməyi unutmadım.

- Murad dayı, polkovnik Şirin bəylə qohumluğunuz varmı?

- Şirin bəyin xalası nəvəsiyəm. Mən Xanım Hacımuradalı qızının oğluyam. Bütün bildiklərimi mənə nənəm danışıb. Şirin bəyin şəkilləri də bizə nənəmdən yadigar qalıb. Yadımdadır, nənəm nağıl elərdi ki, Şirin bəy Birinci Dünya müharibəsindən qayıdanda hamı - bütün kənd camaatı görüşünə gəlmişdi. O, sinəsində "Müqəddəs Georgi" ordenilə gəlsə də, ayağından yaralanmışdı. Bir müddət müalicə olunub, yenidən "Dikaya diviziya"nın tərkibində hərbi xidmətini davam etdirib. Sonra Azərbaycan Cumhuriyyət ordusunun sıralarında yüksək rütbəli zabit kimi qulluq edib.

- Deyirlər, şair Əfqan Şirin bəyin orden alması münasibətilə şe'r yazıb. Amma heç yerdə çapda yoxdu. Hətta Çoban Əfqanın yeganə "Şeirlər" kitabına belə düşməyib. Siz o şeiri bilirsinizmi?

- Oğul, qocalıq üstümü alsa da, yaddaşımdan şikayətim yoxdu. Əvvəla, onu deyim ki, şair Çoban Əfqan bizim nökərimiz olub. Çox təbli, iste'dadlı şair imiş. Nökər, çoban olmasına baxmayaraq Şirin bəy onunla dostluq edərmiş. 1919-cu ildə Qazağa gələn Şirin bəyi şair Çoban Əfqan şe'rlə qarşı-

layır. "Bu bəyin" adlı şeiri aşıqlar biz uşaq olanda oxuyardılar. 1930-cu illərdə aşıqlara necə təpindilərsə, xırp səslərini kəsdilər. Şeir belədi:

***Bir imdad istərəm, ya şahi-mərdan[1],***
***Üzülməsin eldən əli bu bəyin.***
***Bağban da bəslədi bar gətirməyə,***
***Dağılmasın dəsti-gülü bu bəyin.***

***Özündən də qabaq gəlmişdi namən,***
***Görüşünə gəldi Qazax, Kəsəmən,***
***Cəfərağa yurdu çiçək, yasəmən,***
***Şad olubdu oymaq, eli bu bəyin.***

***Mahal unudarmı belə canları,***
***Hacı Axund kəsdiyi qurbanları.***
***Xələtlə qarşıladı cavanları,***
***Paylandı qumaşı, alı bu bəyin.***

***Əl uzatsam əlin mənə yetirsin,***
***Hər nə qulluq desəm, onu bitirsin,***
***Toplar qılınclasın, əsir gətirsin,***
***Qurşasın kəməri əli bu bəyin.***

***Belə bir ağamla çıxaydım ova,***
***Qüdrətin şəmşirin çəkərlər suya,***
***Əfqan gecə gündüz eylərdi dua,***
***Nə xoşdu, danışır dili bu bəyin.***

***1991-ci il.***

1. Şeiri eşitdiyim kimi də təqdim edirəm - müəl.

# NƏSİLLƏRİN HƏRB TARİXİNDƏN



## MÜƏLLİFDƏN

***Azərbaycanın ziyalı nəsillərindən otuzuncu illərin tuthatutunda güllələnməkdən, sürgün və həbs olunmaqdan qorxub ehtiyat edərək ad və soyadını (xüsusilə soyadını) dəyişənlər çox olub. Elələri də olub ki, Sovet sərhədləri o qədər də ciddi qorunmayanda ailəsi ilə Türkiyəyə, İrana pənah aparıblar. Bu ölkələrdə də günü-güzəranı pis keçəndə avropa ölkələrinə - Fransaya, Almaniyaya və ya Amerika Birləşmiş Ştatlarına köçüblər. Bir sözlə, cəlayi-vətən ömür sürüblər. Qocaları dünyasını dəyişəndən sonra yerində qalan gənclər yad millətdən evlənib nəsli assimilyasiyaya uğradıblar. Bir sözlə, nəsil-nəcabətlərini itirib avropalaşıblar. Ona görə də, indiyədək onların əksəriyyətindən bir xəbər çıxmır.***

***Aradan uzun illər keçməsinə baxmayaraq, mən bu gün də ümid edirəm ki, nə vaxtsa nüfuzlu Borçalı nəsli - Yadigaroğullarından hansı birisi gec-tez tapılacaq. Dilini, dinini itirmiş də olsa, ana vətəni Azərbaycana qayıdacaq. Bəlkə də, dədə-babasının vaxtı ilə apardığı sənədlə, fotoşəkillərlə bizi sevindirəcək. Dünyadan köçmüş ulularının sağ ikən onlara danışdığı acılı-şirinli xatirələri ilə hərb tariximizə yeni səhifələr yazacaq və bizi sevindirəcəklər.***

***Əziz oxucu, mən bu ümidlə yaşayıram, bu arzu ilə də Yadigaroğulları haqqında axtarışlarımı hələ də davam etdirirəm.***

***Sizə təqdim etdiyim bir nəsilin hərbiçi oğulları haqqında oçerkdə illərlə Sankt -Peterburq, Tiflis, Moskva, Bakıda və Borçalıda apardığım araşdırmaları qələmə almışam.***

# GENERAL YADİGAROV QARDAŞLARI

***XIX əsrin səksən-doxsanıncı illərində Tiflisdə yaşayanda biz tez-tez bir mənzildən başqasına köçürdük. Bu mənzillərin hamısından çox xoşuma gələni sonuncu dəfə köçdüyümüz Voronsov küçəsində olan Allahverdi bəy Yadigarovun mülkü idi. Bu, Mirzəyevin fabrikinə bitişik üç mərtəbəli mülk idi.***

***Abdulla Şaiq***
***"Xatirələrim" əsərindən***



General Yadigarov qardaşları Borçalının Təkəli kəndindən olublar. Borçalıda olanda ağsaqqalların əksəriyyəti fəxrlə dedilər ki, kəndin binasını da Yadigar oğulları qoyublar. Ona görə də kəndin adına çox vaxt "Ağalıq" da deyirlər.

Təkəli bizim qonşu kənddi. Kəndlərimizi bir-birindən ayıran ulu Babəkar dağıdır. Hələ uşaqkən bu əsilzadə nəslin general və mülkədar oğulları haqqında qohumlarımdan, xüsusilə əmim Nəziroğlu Məmişdən çox eşitmişdim. O, Alı, Nəzir və Süleyman babamın Yadigaroğlu general Həsən bəylə, mülkədar Sadıq bəylə dostluqlarından çoxlu epizodlar danışardı.

***Zeynəb xanım Nəzir qızının (1857-1958) xatirələrindən:***

— Yadigaroğulları öz torpaqlarından bizim kəndə payı məhz atam Nəzir Abdulla oğlunun (1820-1904) xətrinə vermişdilər. Atam, Mustafa bəy və onun general oğlu İsrafil bəy Yadigarovla çox yaxın dost idi. Sonralar bu dostluğu Nəzirin qardaşı oğlu Süleyman Katda Alı oğlu (1849-1918) davam etdirirdi. Debet çayından Qızıl qayaya kimi olan torpaqları 1900-cü ildə Süleyman katda Sadıq bəydən satın almışdı. 1916-cı ildə Sadıq bəy Muşulun meşəsini də Süleyman katdaya qızıl pula satdı.



Abbas Əli bəy Yadigarov







Rotminstr Ərçil bəy oğlu
Yadigarov.
1916-cı il. Qərb cəbhəsində



Kəndimiz Körpülünün çinar dərəsi deyilən səfalı bir yerində mülkədar Sadıq bəy Yadigar özünə yaylaq mülkü tikdirirmiş. 1920-ci ildə Şura hökuməti gələndə Sadıq bəy xaricə mühacirətə getdi, mülk yarımçıq qaldı. 1928-29-cu illərə kimi keçmiş bəy və ağalardan qalma mülklərə, bağlara nə camaat, nə də hökumət toxunmadı. Bəylər, ağalar və hətta kəndlilər də "bəlkə, keçmişi qaytardılar" arzusu ilə yaşayırdılar. 1930-cu il fevralın iyirmisində Sovet hökuməti "kollektivləşmə və qolçomaqlara qarşı mübarizə haqqında" xüsusi qərar verdi. Elə həmin vaxtdan keçmiş bəylər , ağalar həbs edilib güllələndi, sürgünə göndərildi. "Xalq düşmənləri"nin bağları doğrandı, mülkləri isə uçuruldu. Onda Əsəd İncəli oğlu da Sadıq bəyin yarımçıq qalmış yaylaq mülkünü söküb kənddə özünə yeddiotaqlı ev tikdirdi. 1936-cı ildə İncəlioğlu Əsədi də qolçomaq adı ilə həbs edib gedərgəlməzə göndərdilər. Onun tikdirdiyi yeddi otağı isə müsadirə edib kolxoz idarəsi, dəmirçixana və dükan elədilər.

Dahi Nizami Gəncəvi yaxşı deyib ki:

***Yaxşı iş görsən, pis iş də,inan,***
***Unutmaz onları bu qoca dövran.***

## GENERAL-LEYTENANT İSRAFİL BƏY YADİGAROV

***Nə qədər oxuyub, öyrəndim, heyhat,***
***Yenə də qəlbimi görmədim rahat.***

***Nizami Gəncəvi***

Moskvada yaşayan həmyerlimiz Eldar İsmayılov Bakıya gəlmişdi. Dostlarımdan biri zəng elədi ki, Eldar səninlə görüşüb, tanış olmaq istəyir. Eldarın "Azərbaycan tarixi şəcərə cəmiyyətinin xəbərləri"ndə yazılarını oxumuşdum. Bu yazıları ilə o, elə bir xeyirxah, tarixi iş görür ki, onun xidmətlərini qiymətləndirmək üçün söz tapamağa çətinlik çəkirəm... Bu yazıları tədqiq eləmək, ərsəyə gətirmək çox ağır zəhmət tələb edir.

Məmnuniyyətlə Eldarla görüşməyə razılıq verdim. Elə səhərisi günü vədələşib görüşdük. Yazılarına və axtarışlarına görə orta yaşlı zənn etdiyim Eldar çox cavan imiş; cəmisi otuz yaşı. İxtisasca geoloqdur. Milli təəssübkeşliyinin nəticəsidər ki, Sankt-Peterburq və Moskva arxivlərində saxlanan 150-200 illik tarixi olan sənədləri araşdırır. Adı və xidməti unudulmuş görkəmli ziyalılarımızın, sərkərdələrimizin fəaliyyətini, şəxsiyyətini üzə çıxardır.

Maraqlı söhbətləri məni valeh eləmişdi. Şəhərin qədim yerlərini gəzdik. Ta-

rix muzeyinə də baş çəkdik. Eldar mənə yenicə çapdan çıxmış "Xəbərləri"nin dördüncü sayını bağışladı. Mən də borclu qalmayıb "General Yadigarov qardaşları" kitabçamı ona hədiyyə elədim.

Ayrılanda:

— Vətəndən uzaqda yaşasam da, - dedi, - sizin axtarışlarınızı izləyirəm. Bakıda olan dostlarım sizin dərc olunan yazılarınızı, kitablarınızı mənə göndərirlər. Bəlkə, sizə Moskvadan bir şey lazımdı?

— Eldar, — dedim — indi sizə bağışladığım "General Yadigarov qardaşları"nın ilk generalı İsrafil bəyin foto-şəklini tapa bilmirəm. Sizin orada imkanınız var. Arxivlərə tez-tez gedirsiniz. Vaxt tapanda İsrafil bəyin şəklinin qalıb-qalmaması ilə maraqlanmağını xahiş edirəm.

— Moskvadakı Mərkəzi Hərbi - Tarix arxivində tanışlarım çoxdu, mütləq axtararam, - inamla söz verdi.

Aradan heç cəmi iyirmi gün keçməmişdir, zəng elədi. Cavan və xeyirxah dostum Moskvadan mənə elə bir şad xəbər dedi ki, bu sevincin cazibəsindən hələ də çıxa bilmirəm.

— General-leytenant İsrafil bəyin 1877-ci ildə çəkilmiş foto-şəklini tapmışam. Bu günlərdə göndərəcəm. Arxiv işçiləri generalın "Hərbi xidmət kitabçası"nı da tapmağa söz veriblər.

Otuz il Azərbaycan hərb tarixi və onun sərkərdələri haqqında araşdırmalar aparan adam üçün, görəsən, bundan qiymətli hədiyyənin olması mümkündürmü? Zənnimcə, yox!

Eldarın göndərdiyi şəklin altında oxuyuruq: ***"General İsrafil bəy Yadigarovun fotosu. Çəkiliş yeri Tiflis şəhəri, fotoqraf Y. Vestli".***

Şəkil çəkiləndə general Yadigarovun altmış iki yaşı vardı. Sağ sinəsində məşhur "Müqəddəs Anna" ordeninin birinci dərəcəsi, sol çiynindən isə aşırımlı gümüşü rəngli fəxri bafta-lent asılıb. Bu hər generala qismət olmayan parad-nümayiş geyim formasıdır.

> ***Əziz ata! Mənim dərin ehtiram hissi və daim minnətdarlıq bəslədiyimi, sadiq bəndəsi olmaq şərəfinə nail olduğumu, Sizdən arabir mənim haqqımda soruşaraq vəziyyətimlə maraqlanmağı özünə rəva gördüyü üçün bundan necə mütəəssir olduğumu Əlahəzrət general İsrafil bəyə çatdırmağı unutmayın. Mən Əlahəzrət İsrafil bəyi heç vaxt unutmayacam və həmişə onu atamın ən yaxşı dostu kimi pərəstişlə xatırlayacağam.***

***M. F. Axundovun oğlu Rəşid bəyin***
***1877-ci il noyabrın 7-də***
***Brüsseldən yazdığı məktubdan***

1883-cü il yanvarın 10-da tərtib olunmuş "Hərbi xidmət kitabçası"nda general İsrafil bəyin 1815-ci il dekabrın 15-də Tiflis quberniyasının Təkəli kəndində zadəgan ailəsində anadan olduğu göstərilir.

İlk təhsilini Tiflisdə şəxsi gimnaziyada alan İsrafil bəy Yadigarov 1834-cü il sentyabrın birində Zaqafqaziya bəylərindən təşkil olunmuş Müsəlman-Süvari alayına könüllü qəbul olunub. Bir il sonra praporşik olan İsrafil bəyə 1839-cu il dekabrın 23-də dağlılara qarşı döyüşlərdə fərqləndiyinə görə podporuçik rütbəsi verilib. Əlahiddə Qafqaz korpusunun qərargahında xidmətini davam etdirib.

1841-ci il yanvarın 2-də Əlahəzrət İmperatorun şəxsi təşəbbüsü ilə təşkil olunmuş Müsəlman Süvari alayına təyin olunub. Üç il sonra (1846-cı il) ştabs-rotmistri, 1849-cu il aprelin 3-də rotmistr rütbəsi alan İsrafil bəy üsyan etmiş macarlara qarşı döyüşlərdə iştirak edir.

1851-ci il yanvarın 29-da podpolkovnik İsrafil bəy Peterburqdan Tiflisə qayıdır, Əlahiddə Qafqaz süvari korpusunda xidmətini davam etdirir.

1853-cü ildə Krım müharibəsi başlananda podpolkovnik İsrafil bəy Yadigarov azərbaycanlılardan ibarət min nəfərlik süvari Müsəlman briqadası komandirinin müavini olub. Bir il sonra Borçalılardan ibarət könüllü yığma "ovçu" döyüşçülər təşkil edən İsrafil bəy ordunun tərkibində ikinci süvari Azərbaycan alayı yaradıb.

1854-cü il avqustun 19-da döyüşən ordu komandanı Əlahiddə Qafqaz korpusunun komandirinə göndərdiyi bir məlumatda yazırdı: "Bu gün möhkəm və dəhşətli bir hücum oldu. Düşmən müdafiə olunmağa cəhd göstərirdi. Lakin onlar polkovnik İsrafil bəy Yadigarovun süvarilərinin hücumuna davam gətirə bilmədilər. Düşmənin sol cinahı yarıldı. Draqunlar, kazaklar, ikinci Azərbaycan süvariləri və gürcü drujinası sürətlə irəli atılıb onları döyüş səhnəsindən sildilər".

Arxiv sənədləri göstərir ki, 1855-ci ilin iyul ayında polkovnik İsrafil bəy Yadigarov Şəki və Şamaxı könüllülərindən təşkil etdiyi süvari alayla Qars üzərinə olan qəti hücumda bir neçə dəfə fəal döyüşlər aparıb. Bu döyüşlərdə qeyri-adi qəhrəmanlığa görə təltif olunan 350-dən çox Azərbaycanlı arasında polkovnik İsrafil bəy Yadigarov da var.

Moskvada yaşayan həmyerlimiz, polkovnik, tarix elmləri doktoru Hacımurad İbrahimbəyli Krım müharibəsində rus hərb xadimlərinin xidmətindən danışarkən haqlı olaraq yazır: "Krım müharibəsi dövründə Qafqaz milli hərbi xadimləri içərisindən çıxmış hərbi rəisləri Rusiyanın şöhrətli hərbi xadimləri ilə yanaşı qoysaq, səhv etmərik. Onların sırasında azərbaycanlı general İsmayıl bəy Qutqaşınlı, podpolkovnik Mənsur ağa Vəkilovu, polkovnik İsrafil bəy Yadigarovu, general-leytenant Fərəc bəy Ağayevi, general Həsən bəy Ağalarovu, kabardin polkovniki Sultan Qazi Gərayı, osetin polkovniki Kondukovu, Dudarovu və başqalarını aid etmək olar" .

İsrafil bəy Yadigarova 1855-ci il yanvarın 17-də polkovnik rütbəsi verilir.

1855-ci il dekabrın 10-da Qars hərbi dairəsinin rəisi təyin olunur. Lakin Tiflis şəhərinə müalicəyə getdiyinə görə həmin vəzifəni qəbul edə bilmir.

Nizami orduda əla xidmətlərinə görə 1866-cı il noyabrın 8-də İsrafil bəy Yadigarova general-mayor rütbəsi verilir.

1877-ci il iyunun 6-da döyüşən ordu korpusunun tərkibində Qafqaz - Türkiyə sərhədlərinə ezam olunan general İsrafil bəyin süvari korpusu İqdır, Sərdarabad, Arpaçay, Kürəkdərə və Qars uğrunda döyüşlərdə qəhrəmanlıq nümunəsi göstərir.

Nizami orduda əlli illik xidmətlərinə görə İsrafil bəy Yadigarov 1883-cü il aprelin 14-də general - leytenant rütbəsi alır. Həmin ili istefaya çıxır, ona aldığı maaş saxlanılmaqla ömrünün axırına kimi general formasını gəzdirmək hüququ da verilir.

Rusiya Mərkəzi Hərbi Tarix Arxivindən aldığımız rəsmi sənəddə general-leytenant İsrafil bəy Mustafa bəy oğlu Yadigarova məxsus "Xidmət dəftərçəsi"ndə onun döyüş yolu, ailə vəziyyəti, təltif olunduğu orden və medallar təfsilatı ilə göstərilib.

Sənəddə qeyd olunur ki, şərəfli bəylər nəslindən olan İsrafil bəy Gürcüstanın Tiflis quberniyasının zadəgan ailəsindəndir. Dini müsəlmandır.

İsrafil bəy ilk dəfə 1848-ci ildə üçüncü dərəcəli "Müqəddəs Anna", 1854-cü ildə ikinci dərəcəli "Müqəddəs Anna", 1856-cı ildə ikinci dərəcəli "Müqəddəs Stanislav" (imperator tacının təsviri ilə birgə), 1859-cu ildə ikinci dərəcəli "Müqəddəs Anna" (imperator tacının təsviri və qılıncla birgə), 1860-cı ildə "İyirmi illik qüsursuz xidmətinə görə" medalı ilə, 1863-cü ildə müsəlmanlar üçün təsis olunmuş dördüncü dərəcəli "Müqəddəs Vladimir", 1869-cu ildə üçüncü dərəcəli "Müqəddəs Vladimir", 1877-ci ildə müsəlmanlar üçün təsis olunmuş birinci dərəcəli "Müqəddəs Anna" ordenləri ilə və üstü "İgidliyə görə" yazılı gümüş, Krım müharibəsindəki qəhrəmanlığına görə açıq rəngli xatirə medalları ilə təltif olunmuşdur.

Sənədlərdə o da qeyd olunur ki, general - leytenant İsrafil bəy Yadigarov Borçalı qəzasının Təkəli kəndində iki mərtəbəli dədə - baba mülkə (qardaşları ilə birgə) və Tiflis şəhərində daşdan tikilmiş, hər bir şəraiti olan mənzilə malikdir. Bir neçə mağaza, bağ və Qırmızı Körpü yanındakı Xorpuxis-Saneli, Kaziux-Kalone, Çələbli, Körpülü, Ənvəli və Loris - Aqek kəndləri və iki min desyatin torpaq sahəsi generala məxsusdur.

Ailə tərkibi: generalın həyat yoldaşı rotmistr İsmayıl bəy Vəzirovun qızı Səidə xanımdır. General - leytenant İsrafil bəy yeddi övlad atası olub. Birinci oğlu Rəhim bəy 1845-ci il oktyabrın10-da, Kərim bəy 1854-cü il yanvarın 21-də, Məmməd bəy 1855-ci il avqustun 25-də, Həsən bəy və Hüseyn bəy 1856-cı il oktyabrın 8-də (ekiz olublar), qızları: Səkinə xanım 1843-cü il martın 27-də, Xeyranisə xanım 1850-ci il dekabrın 23-də anadan olub. Həyat yoldaşı və uşaqları İslam dininə etiqad ediblər.

İstefaya çıxan general-leytenant İsrafil bəy ömrünün sonuna kimi Tiflis quberniyasında ikinci şöbənin barışdırıcı münsifi, yəni kəndlilərlə mülkədarlar arasında törəyən torpaq mübahisələrini qaydaya salan şöbənin rəisi vəzifəsində çalışmışdır.

General İsrafil bəy 1884-cü il fevralın 6-da vəfat etmişdir. Həmin il "Kafkaz" qəzeti (№ 99-da) belə bir elan vermişdir: "Fevralın 6-da istefada olan general-leytenant İsrafil bəy Yadıgarov vəfat etmişdir. Oğlanları yaxın qohum və tanışlardan xahiş edir ki, fevralın 8-də saat 12-də dəfndə iştirak etsinlər. Cənazə generalın Voronsov küçəsindəki şəxsi mülkündən götürüləcək. Dəfn Tiflisdəki müsəlman qəbiristanlığında olacaq".

***

General-leytenant İsrafil ağa Yadigarov böyük dramaturqumuz Mirzə Fətəli Axundovla yaxın dost və qonşu olub. Axundovun nəvəsi Mahmənzər xanım Qacarın xatirələrindən məlum olur ki, 1878-ci il martın 10-na keçən gecədən həyatının son dəqiqələrini yaşayan Mirzənin yanına qohum-əqrəbası, əziz dostları yığışıb. Can verən Mirzə Fətəlinin yatağı yanında dərin və ağır sükuta gedən qonşusu general İsrafil bəy Yadigarov kədərlə soruşub:

— Mirzə, Siz nə sayaq dəfn olunmağınızı istərdiniz?

Bütün dinləri puç və əfsanə hesab edən Mirzə Fətəli birbaşa verilən bu sualdan ölüm ayağında belə sarsılmayıb. Görünür, o, ağlını, huşunu hələ itirməyibmiş. Son qüvvəsini toplayan Mirzənin kədərli çöhrəsində zəif, titrək bir gülüş duyulub. Sonra onun sərt və möhkəm cavabı eşidilib:

— Siz bilirsiniz ki, mən heç bir dinə inanmıram. Ölülərin əziyyətindən dirilərin necə xilas olduqlarının mənim üçün heç bir əhəmiyyəti yoxdur. İstədiyiniz kimi dəfn edərsiniz.

## NƏSLİN KEÇMİŞİNDƏN...

***Çoxlu qoşunkeşlik və mütəmmadi müharibələrin yaratdığı xarabalıqlara baxmayaraq, onlardan (azərbaycanlılardan — Ş.N.) bir çoxu özünün elm və döyüşlərdə göstərdiyi hünəri ilə bütün dünyada şöhrət qazanmışdır. Onlar hər bir əsrdə, hər bir ölkədə hörmətli və inanılmış kimsələr olmuşlar.***

***Abbasqulu ağa Bakıxanovun***
***"Gülüstani-İrəm" əsərindən***

İllər nə qədər amansız və sərt olsa da, bu əsilzadə nəslin oğullarının əvəzsiz xidmətini nə hafizəmizdən silə biliblər, nə də tarixin yaddaşından.

1879-cu ilin noyabr ayında general İsrafil bəy Yadigarov "Ziya" qəzetinin nəşrinə maddi yardım göstərir və yeni il üçün qəzetin ilk abunəçilərindən biri

olur. O, Mirzə Hüseyn Əfəndi Qayibovu, Şərabçı oğlunu, Hafiz Əfəndizadəni, Xəlil Ağazadə və Hacı Molla Əfəndizadəni də bu xeyirxah işə qoşulmağa dəvət edir.

Məşhur şərqşünas-alim V.Dmitriyev 1864-cü ildə nəşr etdirdiyi "Koran Maqometa" kitabını xalqımızın görkəmli ziyalısı general-mayor İsrafil bəy Yadigarova həsr etmişdir.

"On üçüncü Leyb-Qvardiya İrəvan alayının tarixi" kitabında (1895-ci il nəşri) unter-zabit Ağabəy Yadigarovun döyüş şücaətindən bəhs olunur. Orada yazılır ki, Ağabəy döyüş başlananda həmişə əsgərlərin önündə gedirdi. Bu qoxmaz zabit düşmənə qarşı ruh yüksəkliyi ilə vuruşurdu. Təəssüf ki, Ağabəy Yadigarov 1830-cu il iyunun 17-də poruçik rütbəsində ailə vəziyyətinə görə istefaya çıxmalı olub.

1827-ci il 6 oktyabr tarixli Əlahiddə Qafqaz korpusuna məxsus sənəddə göstərilir ki, əla döyüş qabiliyyətinə malik zabitlər sırasında gürcü knyaz və zadəganlar süvarisində xidmət edən Borçalı dairəsindən ağalıq nəslinin nümayəndəsi poruçik Paşa ağa Vəli bəy oğlu Yadigarov general Paskeviç tərəfindən təltif olunub.

Tariximizin müxtəlif qatlarında Yadigarov nəslinin oğlanlarının layiqli izi var.

Əvəzsiz tarixçimiz Abbasqulu ağa Bakıxanov məşhur "Gülüstani-İrəm" əsərində Yadigarovlar nəslinin ulu babasından söhbət açır: "... Fətəli xan, Azərbaycan və, bəlkə də, bütün İran işlərini nizama qoymaq xəyalı ilə Gürcüstan valisi İraklı xanla görüşüb məsləhətləşmək binasını qoydu. İrakli xan da Sadıq bəy Yadigaroğlunu səfir sifətilə Fətəli xanın yanına göndərdi. O, qədim valilər nəslindən yadigar qalıb... Onun oğul və nəvələri indi də Tiflisdə yaşamaqdadır. Səfir Sadıq bəy Nuxada (Şəkidə - Ş.N.) xanın hüzuruna gəlib hədsiz lütf və mərhəmətə nail oldu".

Maraqlı tədqiqat əsərlərinin müəllifi, filologiya elmləri doktoru Şurəddin Məmmədlinin "Yadigaroğulları" məqaləsi ("Gürcüstan" qəzetinin 6 dekabr 1996-cı il) bu nəslin XVIII əsr dövrünün tədqiqi baxımından qiymətlidir. Müəllif yazır: "Bu nəslin 1701-ci ildə I İrakli, 1707-ci ildə II David, sonralar Anna, Konstantin, II Teymurazdan ağalıq imtiyaznamələri vardır. Sınıq körpüdən bəri kəndlər Yadigaroğullarına verilmişdir. O sıradan Yadigaroğlu Mirzə Bağır bəy I İrakli sarayının mustofisi (xəzinadarı), Yadigaroğlu Bahadır bəy 1730-cu illərdə gürcü valisinin naib-eşikağasıbaşı, Borçalı mahalında böyük mülk yiyəsi olmuşdu.

... Məhəmməd Sadıq bəy Yadigaroğlu Mustafa bəyin oğludur. 1780-ci ildə İrakli Sadıq bəyə, onun oğlanları Ağacan-Mamacana, Mustafa bəyə, Allahverdi bəyə və onların varislərinə Tiflisdə Meydan məhəlləsində məscid yanında beş dükan bağışlamışdı. 1787-ci ildə şahzadə Georginin buyruğu ilə Loridəki

Ağöyü kəndi də Sadıq bəyə verilmişdi. Sadıq bəy ora öz rəncbərlərini yerləşdirmişdi. Əsrin axırlarında Sadıq bəyin böyük oğlu Ağacan Baydar sultanı olub, öz elini oraya köçürüb Çələbili obasını qurmuşdu. 1797-ci ildə şah İraklinin Sadıq bəyə, onun oğlanları Ağacana, Mustafaya, Allahverdiyə, İsmayıla və onların varislərinə verdiyi imtiyaznamə:

"...Ağa Məhəmməd xan Tiflisi odlara qalayıb virana qoyanda sən bizimləydin və nə qədər bacardın bizə kömək elədin, oğulların Ağacan, Allahverdi bizi Araqviyəcən bələdlədilər və bizə sadəqətlə xidmət göstərdilər. Tiflis dağıdılan vaxt sən çox şey itirdin, xatırlanan imtiyaznamələri də o vaxt itirdin. Cani-dillə, sədaqətlə xidmətini nəzərə alıb, həmin imtiyaznamələrin qüvvəsini bərpa edirik və Sınıq körpü əhalisini rəiyyət kimi sənə bağışlayırıq".

1978-ci ilin oktyabrında Tiflisdə ezamiyyətdə olanda akademik Paata Vissarionoviç Ququşvili ilə görüşdüm. Gürcüstanda onu böyük şairimiz Səməd Vurğunun yaxın dostu kimi tanıyırdılar. Söhbətimiz istər-istəməz iki xalqın qədim dostluğundan, yadellilərə qarşı birgə mübarizəsindən düşdü. Paata Vissarionoviç dedi ki, 1795-ci ildə Qacar Tiflisə hücum edəndə Gürcüstanda yaşayan azərbaycanlılar da şah ordusuna qarşı şücaətlə vuruşub. Onlardan biri Sadıq bəy Yadigar oğlu, biri də Xudu bəy Borçalinski idi. Xudu bəy Borçalinski II İraklinin ən yaxın dostu olub. Ən çətin anlarında belə çar Xudu bəyə inanıb. Hətta bir gürcü sərkərdəsini qoşun başçılığından azad edib, onun yerinə Xudu bəyi təyin edib. Bizim gürcü tədqiqatçıları bu hadisəni indi də qeyri-adi bir fakt kimi xatırlayırlar. Xudu bəy də Yadigarovlardandır.

Mən 1929-cu ildə "Gürcü kitabı" (1629-1929-cu illəri əhatə edir) adlı əsərimi yazanda bu fakta arxivdə rast gəldim.

Fərəhləndirici haldır ki, Xudu bəyin qəhrəmanlığı haqqında Gürcüstana məxsus sənədlərdə və tarixi əsərlərdə iftixarla yazılır.

Gürcü ədəbi nəsrinin yaxşı əsərləri sırasına daxil olmuş Akaki Beliaşvilinin (1903-1961) "Besiki" tarixi romanında xalqımızın iki oğlunun fəaliyyətinə geniş yer verilmişdir. II İrakli dövründə Tiflisə səfər edən dahi şairimiz M.P. Vaqifin diplomatik görüşlərinə və sərkərdə Xudu bəy Borçalının qəhrəmanlığına səmimiyyətlə yanaşmışdır. Əsərin 168 və 178-ci səhifələrində Xudu bəyin qəhrəmanlığını təsvir edən müəllif yazır: "Döyüşdən zəfərlə qayıdan Xudu bəy Borçalı atdan düşüb düşmən sərkərdəsinin kəsilmiş başını çar İkinci İraklinin ayaqları altına atdı".

Xudu bəy Axalsixe yaxınlığında Gürcüstana soxulmuş ləzgilərlə döyüşdə də böyük rəşadət göstərir. İkinci İrakli Borçalı süvari dəstəsini Qoriyə göndərib ön cəbhə sərdarı rus generalına yazırdı: "Xudu bəy dörd yüz qoçaq müsalmanla Sizin yanınıza göndərilir. Borçalılar igid, yaxşı və mərd adamlardır".

Hazırda Marneuli şəhərindəki küçələrdən biri Xudu bəy Borçalının adını daşıyır.

Xalqımıza təmənnasız bir sevgi bəsləyən ağsaqqal akademik Paata Vissarionoviç sevinclə: - Hə, yadıma bir fakt da düşdü, - deyib söhbətinə davam etdi: - Ağa Məhəmməd şah Qacar Tiflisə yeriməmiş II İrakliyə 1795-ci il sentyabrın 12-də məktub-ultimatum göndərir. Qacar məktubunda tələb edir ki, II İrakli 1783-cü ildə ruslarla bağladığı müqaviləni pozsun. Şah yazır: "Yəqin, Əlahəzrət özü də yaxşı bilir ki, son yüz il ərzində siz İranın itaətində olmusunuz. İndi isə təəccüblə demək istəyirik ki, Siz ruslarla yaxınlaşıb onlara qoşulmusunuz. O ruslara ki, İranda ancaq alver etmək məqsədilə gəzib dolanırlar və elə bütün iş-peşələri də yalnız alverlə, ticarətlə məşğul olmaqdır.

Sən yaşı doxsanı haqlamış adamsan, amma bağışlanmaz səhvlərə yol verirsən. Kafirləri torpağına buraxırsan, onlarla birləşmisən və onlara istədikləri kimi şərait yaradırsan.

Sizin və bizim dinlərimiz müxtəlif olsa da, ancaq Siz həmişə İranla yaxın əlaqədə olmusunuz. İranda sənə məlum olduğu kimi, xeyli tatar, gürcü, erməni və digər dinlərə mənsub olanlar yaşayır. Ona görə də Siz utanıb xəcalət çəkməlisiniz ki, bu cür işlərə və əməllərə yol verirsiniz. Bu əməllərinizdən birdəfəlik əl çəkməlisiniz. Ötən il sən məni bir yığın gürcünü məhv etməyə məcbur etdin. Lakin biz öz təbəəliyimizdə olanları öz əlimizlə öldürməyin tərəfdarı deyilik.

İndi Allahın köməyilə biz böyük uğurlar əldə etmişik, nəhəng və güclü dövlətik. Sən bizə öz sadiqliyini sübut etməlisən. Biz böyük ixtiyar sahibi olduğumuz üçün, əgər ağıllı adamsınızsa, hazırkı niyyət və əməllərinizdən əl çəkməlisiniz, ruslarla əlaqənizi tamamilə kəsməlisiniz. Bu, yəqin ki, sənin ölkənin əhalisinin ürəyincə olar. Əgər bu göstərişə əməl etməsən, onda çox qısa bir müddətdə gürcüstan üzərinə yürüş edəcək, ruslarla bərabər gürcüləri qılıncdan keçirəcək, qanınızdan Kür çayına bənzər bir qan çayı axıdacağıq.

Bütün bunları sənə çatdırmaq və xəbərdarlıq etmək məqsədilə bu fərmanı göndəririk. Bu fərmanı yazmışıq ki, bizim dediklərimizi, buyurduğumuzu qulaqardına vurmayasan və özünün vəziyyətini dərk edəsən".

II İrakli hiss edirdi ki, onun ölkəsinə çox güclü və dəhşətli fəlakət gəlir. Ona görə də ailəsini salamat qalmaq üçün Tuşetə göndərməli olur. Bu vaxt çətin dağ yolları ilə II İraklinin arvadı Darecan xanımı və uşaqlarını müşayiət edən Xeyransa xanım Yadigarova və bir neçə digər azərbaycanlı hünərvər qadın olub. Bu fakta mən "Kavkaz" qəzetinin 1854-cü ildə nəşr olunmuş nömrələrində rast gəlmişəm.

Azərbaycan Dövlət Tarix Muzeyinin arxivindən əldə etdiyimiz bir sənəd 1846-cı ilə məxsusdur. Həmin ilin may ayında Qafqaz canişini knyaz-general M.S. Voronsov raportla çar birinci Nikolaya bildirir ki, Lori dərəsindəki kəndlərin Sadıq bəy Yadigarovun ixtiyarında qalmasına icazə versin.

"Əvvəllər Körpülü kəndinin gürcü çarları İrakli və Georgi tərəfindən Sadıq bəy Yadigarova bağışlanması haqqında ona fərman təqdim olunmuşdur. Bunun-

la bərabər çarlar ətrafdakı xristian və Azərbaycan kəndlərini də onlara bağışlamışdı və indiyədək də həmin kəndlər tamamilə Yadigarovların ixtiyarındadır" (M.S. Voronsovun raportundan).

Dekabrın altısında imperator M.S. Voronsova cavab məktubunda yazır ki, Lori dərəsindəki torpaqların Gürcüstanda yaşayan əsilzadə azərbaycanlıların ixtiyarında qalmasına etiraz etmir.

## DOĞMA YERLƏRİN ƏTRİ

***Mümkünmü unutmaq o doğma yeri,***
***Gözlərindən öpüb bənövşələri,***
***Al rəngə boyansın döyüşdə alnım,***
***Dostların əlilə qəbrə sallanım.***
***Ölərəm o barlı bağça, bağ üçün,***
***Xalqımın qəlbində yaşamaq üçün.***

***Bəkir Çobanzadə,***
***(1893-1937) Professor***

Təkəli kəndindən Bakıda yaşayan bir neçə ağsaqqal-ağbirçəklə görüşdüm. Şəkili kimə göstərdimsə, tanıyan olamadı. Borçalıya getdim. Təkəlinin qocaman sakinləri Hüseyn Eyyubovla, Əli Qurbanovla görüşdüm. On doqquzuncu əsrin səksəninci illərində şəkildə əbədiləşən Yadigarovu heç kim tanımadı.

Sonralar Gürcüstan Mərkəzi Dövlət Arxivindən polkovnik Vəli bəyin və Poruçik Nadir bəy Yadigarovun fotoşəklini tapmaq mənə qistmət oldu.

Vaxtilə Borçalı mahalının adlı-sanlı nəsillərindən biri olan Yadigarovlardan indi bu obada bir nəfər belə qalmayıb. İyirminci ilin sərt bolşevik ab-havası, 37-nin qara günləri bu nəslin oğullarını pərən-pərən salıb. Amma qeyrətli Yadigarov qardaşları haqqında qocaların sinəsi dastana sığışmayan əhvalatlarla doludur. Gümrüdən (indiki Leninakan şəhəri — Ş.N) Sınıq Körpüyə, Borçalıdan Cəlaloğluya (indiki Stepnavan şəhəri — Ş.N) qədər sahələri Yadigarovların ixtiyarında olub. İki mərtəbəli, on iki otaqlı Yadigarovların şəxsi evi indi kəndin orta məktəbidir. Kənddəki dəyirmanı, məscid binasını da bu qardaşlar tikdiriblər. İndi dəyirmandan çörəkxana kimi, məsciddən də mədəniyyət evi kimi istifadə olunur.

— İsrafil bəy uca boylu, enli kürəkli, qarayanız adam idi - Ağsaqqal Hüseyn dayı ilə birgə Yadigarovların həyətini, bərbad hala düşmüş bağlarını gəzirik. O,

mənə nəvə rotmistr İsrafil bəydən söhbət açır. — Bəy İngiltərədən bir at gətirtmişdi. Od parçası idi. Mən onda gənc idim, 14-15 yaşım ancaq olardı. Atam, əmilərim danışırdılar ki, Rus-Yapon müharibəsində İsrafil bəy döyüşlərin birində yaponların topunu qılınc gücünə ələ keçirmişdi.

Qafqaz süvari alayının tərkibində vuruşan rotmistr İsrafil bəy Yadigarov 1905-ci ildə zabitlərə məxsus "Müqəddəs Stanislav" ordeninin ikinci dərəcəsi ilə təltif olunmuşdur.

***

1916-cı ildə çar əsgərləri kasıb kəndliləri çox incidirmişlər. Ağır vergi, müharibəyə əsgər toplanışı camaatı cana doydurubmuş. Yanı əsgərli pristav, uryadnikli qubernator kəndi çapıb-talayırmış. Qaçağanlı Mustafa Tağıoğlu, Məmmədtağı Axundoğlu və Qasımlı Kərəm qubernatorun iki əsgərini öldürürlər. Az keçmir ki, iki polk əsgər Qaçağan kəndini mühasirəyə alıb kəndliləri döyür, işgəncə verib, cinayətkarları tələb edir. Kəndin bir neçə bəyi, hətta ortancıl qardaş Sadıq bəy Yadigarov da qubernatordan təvəqqe edir ki, camaatı nahaqdan incitməsin. Həsən bəy kənddə yox imiş. Tiflisdə imiş. Ona xəbər göndərirlər. O, dərhal kəndə gəlir. Camaatı döydürən qubernator faytondan generalın düşdüyünü görüb özünü yığışdırır.

Həsən bəy hirslə soruşur:

— Bu nə özbaşınalıqdır mənim kəndimdə?

Qubernator:

— Əlahəzrət, mən onlardan əsgərləri öldürən cinayətkarları tələb edirəm.

— Cənab qubernator, siz kasıb kəndlilərə vurduğunuz zərəri ödəyin, mən də bu saat sizin öldrülmüş əsgərlərin qanpulunu artıqlaması ilə verərəm. O ki qaldı çinayətkar kəndlilərin Sizə divan üçün verilməsinə... Nə qədər ki, mən sağam, siz onları heç vaxt ala bilməyəcəksiniz…

Dodaqaltı donquldanan qubernator:

— Əlahəzrət, məndə o qədər pul hardadır?

— Onda gedin işi divan-məhkəməyə verin…

Suyu süzülən qubernator əsgərləri də yığıb kəndi tərk edir. Bir daha geri qayıtmır.

Ağsaqqal Hüseyn Eyyuboğlunun söhbəti:

— İnsani keyfiyyətlərə məxsus olan general Həsən bəy çox rəhmli və səxavətli adam idi. Kəndlilərə icarəyə verdiyi yerin bəhrəsini məhsula görə alardı. Borc alıb verə bilməyənlərə, külfəti çox olanlara güzəştə gedərdi. Həyat yoldaşı Rüxsarə xanım əmisi qızı idi. Atalar məsəlidir, ərlə arvadın torpağı bir yerdən götürülər. Həsən bəy kimi Rüxsarə xanım da kəndin, Borçalı mahalının bü-

tün xeyir-şər işlərində iştirak edərdi. Kasıb da, ortabab da bəyin bəzəkli faytonunda gəlin gətirər, qız köçürərdi. Onlar heç kəsdən heç nəyi əsirgəməzdilər. Xoşxasiyyət və rəhmli Rüxsarə nənə kənd qızlarının toylarına gedər, qız-gəlinlərə hədiyyə alardı. Kasıblar üçün ayrıca qazan asdırardılar, onları yedizdirib-içirdərdilər.

Sadıq bəy Yadigarovun arvadı yarı gürcü, yarı Polşa tatarı idi. Üç oğlu vardı: Ərçil bəy, Vəli bəy və David bəy. İyirminci il onları kəndimizdən yox, ölkədən didərgin saldı. Heç kəsə pislikləri dəyməmişdi. Onlar çox sadə, əliaçıq adamlar idi: Rəiyyətlə rəiyyət, bəylə-bəy idilər.

Deyirlər, Sadıq bəyin nəvəsi David bəy bir neçə il əvvəl gəlib nənəsinin qəbrini ziyarət edib. Deyib ki, Zestafoni şəhərində yaşayır. Azərbaycanlı familyası ilə yaşadığından ona dinclik vermirmişlər. Ona görə də David Yadigaraşvili olub.

Tiflisdən Gəncəyə qədər elə bir məclis olmayıb ki, Yadigar oğullarının adı anılıb, sözləri danışılmasın. Tiflisdə imarəti, Borçalıda yurdu, qədim Gəncədə səxavəti, xalqın qəlbində isə məhəbbəti qalıb bu nüfuzlu nəslin oğullarının. Əgər yolunuz Gəncəyə düşsə, XVII əsrdə inşa edilmiş "İmamzadə" kompleksinə baş çəkin. Bu qədim memarlıq abidəsinin giriş qapısındakı qızılı rəngli yazıları oxuyun.

Türbənin iç divarına həkk edilmiş mərmər lövhədə ərəb əlifbası ilə belə yazılıb: "O (Allah) əbədidir. Bu, imam Məhəmməd Bağırın — ona salam olsun — oğluna Mövlana İbrahimin müqəddəs məkanı (yerləşmiş) şərəfli (cənnət) bağıdır. Öz babasının köçməsindən yüz iyirmi il sonra vəfat etmişdir. Allahın ona salavatı olsun. Və ona görə də, bu yüksək məqamlı yerin bərpa olunmasını Tiflisli general-mayor İsrafil bəy Yadigarzadə hicri 1296-cı (1878-79) ildə əmr etmişdir".

1878-ci ildə İkinci Süvari Müsəlman alayının komandiri general İsrafil bəy ulu babalarının dini əqidəsinə sadiq olaraq türbəni öz hesabına təmir etdirmişdir.

İmamzadə pirində general İsrafil bəy Yadigarovun hərbçi qohumları, əsli Tiflisdən olan Cəlal bəy və onun oğlu İsmayıl bəy Vəzirzadələr də dəfn olunmuşlar.

XIX əsrin əvvəllərində yaşayıb-yaratmış qazaxlı şair Mustafa ağa Arif Şıxlinskinin (1774-1845) Borçalı bəyləri haqqında olan bir şeiri ilə oxucuları tanış etməyi məqsədə uyğun bilirəm.

"Yeni dövrün möcüzəli məxluqu" titulunu qazanmış zalım general Aleksey Petroviç Yermolov Qafqaza hakim təyin olunan gündən - 1816-cı ildən yerli bəylərin, ziyalıların çar hökumətinə dönüklüyündən şübhələndiyinə görə onları dəstə-dəstə Sibirə sürgün edirdi. Mustafa ağanın sürgündə yazdığı "Düşmü-

şəm" qoşmasından məlum olur ki, bəylərdən biri namərdlik edib onun üzünə durub, şər atıb. Buna görə hökumət onu zaval təriqi ilə Rusiyaya sürgün etdirib. "Ağlaram" qoşmasında isə Mustafa ağa Arif Qazax, Şəmsəddin və Borçalı bəylərinin mərdliyini, on dörd il həsrətini çəkdiyi bulaqlarımızı, süsənli-sünbüllü dağlarımızı tərənnüm edib. Tuthatut günlərində məhz Borçalı bəylərinin elinə-obasına sadiq qaldığını, ağır günlərdə, namərd zəmanədə möhkəm və dönməz olduqlarını iftixarla yazır:

***Qaldı payidar Borçalının bəyləri,***
***Meydan günü bir-birindən yegləri,***
***Mehman qarşısına mərd gəlməkləri,***
***Yadıma düşəndə onlar , ağlaram!***

***Hanı Qazax? Mehribanlıq gedibdir,***
***Ağalıq, sultanlıq, xanlıq gedibdir,***
***Nücabadan alışanlıq gedibdir,***
***İtibdir şövkəti-şanlar, ağlaram!***

Təkəli kəndinin üst tərəfində kiçicik bir təpə var. Əsrləri yola salmış Babakər dağının ətəyindəki bu boz təpədə salxım söyüdlər altında məzarda bir igid, bir bəy uyuyur. Vaxtilə onun kəhəri Suqovuşanda kişnəyəndə Gümrüdə bəd xəyallara düşən ermənilər diskinərdi, qorxardı. Kəhərin kişnərtisindən Çubuxlunun göy yaylaqları, Calaloğlu meşələri lərzəyə gələrdi. Lori dərəsinin yalçın qayaları bu kəsilməyən kişnərtidən əks-səda verərdi. ***İndi bu adi məzar daşında çox qısa bir yazı var: "General-mayor Həsən bəy İsrafil bəy oğlu Yadigarov, 1856-1934".***

Çoxdan unudulmuş general babamızın məzarını, gec də olsa yad etdik. Ruhuna rəhmət oxuduq. Dağılıb talan olmuş həyət-bacasına baş çəkdik. Ovlağından ötüb keçdik. Vaxtilə tərlan ilə şikar etdiyi süsənli-sünbüllü dağları gəzdik. Gəzdikcə kövrələ-kövrələ əzabkeş şair Mustafa ağa Arif Şıxlinskinin şeirinə üz tutduq:

***Ellərimiz vardı bəyli-paşalı,***
***Dağlarımız vardı, əlvan meşəli.***
***Süsənli, sünbüllü, tər bənövşəli,***
***Qaldı bağlar, xiyabanlar, ağlaram!***

## GENERAL-MAYOR ƏSƏDULLA BƏY YADİGAROV

***İnsan üçün böyük dərslərin biri də tarixdir.***
***Aç qabağına tarixin səhifələrini və əgər gördün ki, bir vaxt insanlar bir para işlərdə səhv eləyiblər, dəxi sən həmin səhvi eləmə.***

***Cəlil Məmmədquluzadə***
***yazıçı-dramaturq***

Çoxsaylı Yadigarov oğulları arasında ömür yolunu müfəssəl öyrəndiyimiz Əsədulla bəy Yadigarovdur. Nizami orduda otuz iki illik xidmətdən sonra 1895-ci il oktyabrın on ikisində ona general- mayor rütbəsi verilib.

XIX əsrin ortalarında Peterburqun zadəgan dairələrində bəy nəslindən olan Yadigar oğulları — general-leytenant İsrafil bəy, saray müşaviri Ağabəy Yadigarov və onların bibisi oğlu görkəmli şərqşünas-alim, Peterburq Universitetinin professoru Mirzə Cəfər Topçubaşov (1784-1869) xüsusi hörmətə malik idilər. Xüsusilə, Mirzə Cəfər qohumlarının təlim-tərbiyəsinə və təhsil almalarına daha çox qayğı göstərirdi.

1844-cü il dekabrın iyirmisində Borçalı mahalının Təkəli kəndində anadan olan Əsədulla bəy Yadigarovu qohumu Mirzə Cəfər Topçubaşov təhsil almaq üçün Peterburqa aparır.

On altı yaşlı Əsədulla bəyi Peterburq yaxınlığındakı Pavlov kadet korpusuna oxumağa qoyur. Hərbi məktəbi müvəffəqiyyətlə bitirən kornet Əsədulla bəy 1863-cü il iyunun on ikisindən Əlahiddə Qafqaz Ordusunun piyada qoşunlarında xidmətə başlamışdır. İki il sonra 1865-ci il fevralın doqquzunda iyirmi bir yaşlı Əsədulla bəy Yadigarova poruçik rütbəsi verilmişdir.

Gürcüstan Mərkəzi Dövlət Arxivindəki 1899-cu ilə məxsus "Qafqaz Hərbi Dairəsində xidmətdə olan generalların və zabitlərin siyahısı" kitabında göstərilir ki, gənc zabit əla xidmətinə görə səxavətlə təltif olunmuşdur. O, 1866-cı il martın on ikisində ştabs-rotmistr rütbəsinə və iki il sonra "Müqəddəs Stanislav" ordeninin üçüncü dərəcəsinə layiq görülmüşdür.

1873-cü il yanvarın on altısında şəxsi raportu ilə mülki xidmətə keçən ştabs-rotmistr Əsədulla bəy Yadigarov dörd il ordudan uzaqlaşmışdır.

1877-ci ilin əvvəllərində Türkiyə ilə Rusiya arasında son dərəcə kəskin vəziyyət yarandı. Çar Rusiyası Qara dəniz boğazlarının açılmasını Türkiyədən israrla tələb edir və, üstəlik də, Balkanlarda öz nüfuzunu gücləndirmək üçün fəal mübarizə aparırdı. Nəhayət, bu qığılcımlardan alov törədi. Aprelin iyirmi dördündə Rusiya rəsmi olaraq Türkiyəyə müharibə elan etdi.



Mayın iyirmi üçündə yenidən orduya çağırılan podpolkovnik Əsədulla bəy Yadigarov Qafqazın Gəncə, Bakı, Zaqatala və Qazax bölgələrindən cəbhə üçün nizami süvari dəstələri təşkil etməyə ezam olundu. İki aydan çox cəbhə üçün araba, furqon, qoşqu atı toplanmasında çalışdı. Gəncənin və Qarabağın bəy, xan oğullarından iki yüz nəfərlik könüllü müsəlman süvari dəstəsi yaradıb özü ilə cəbhəyə apardı. Balkanlardakı hərbi əməliyyatlarda iştirak edən podpolkovnik Əsədulla bəy Yadigarov döyüş qabiliyyətinə görə üçüncü dərəcəli "Müqəddəs Anna" (qılınc və bantla birgə) və dördüncü dərəcəli "Müqəddəs Vladimir" (qılınc və bantla birgə) ordenlərilə təltif olundu.

Müharibədən sonra da Qafqazdakı nizami orduda nümunəvi zabit kimi xidmət edən Əsədulla bəy məsul hərbi vəzifələrdə çalışıb. O, 1881-ci il mayın otuzunda Qafqaz Hərbi Teleqraf parkının komandiri, 1883-cü ildə aprelin 13-də Qafqaz sanitar batalyonunun komandiri təyin olunub. Həmin ilin mayın on səkkizində qüsursuz xidmətinə görə Əsədulla bəy Yadigarova polkovnik rütbəsi verilib. 1889-cu il oktyabrın on altısında polkovnik Əsədulla bəyə məsul vəzifə tapşırılıb - Əlahiddə Qafqaz Ordusu komandanının əmrilə yetmiş səkkizinci Navahin alayının komandiri. 1895-ci il oktyabrın on ikisində isə polkovnik Əsədulla bəy Yadigarova piyada qoşunları üzrə general-mayor fəxri rütbəsi verilib. Ömrünün otuz iki ilini nizami orduda şərəflə xidmət edən general Əsədulla bəyin təltifat kitabçasında ona kavaler ordenləri ilə təltif göstərilir: "Müqəddəs Stanislav" ordeninin üç dərəcəsi (1874, 1883, 1898-ci illərdə), "Müqəddəs Vladimir" ordeninin üçüncü və dördüncü dərəcəsi (1879 və 1893-cü illərdə), "Müqəddəs Anna" ordeninin ikinci, üçüncü dərəcəsi (qılınc və bantla birgə 1877,1889-cu illərdə). O həm də 1884-cü ildə isə Əlahəzrət imperatorun şəxsi təşəkkürünə layiq görülüb.

Üç hərbi yürüşün - 1869, 1871 və 1877-78 -ci illərdə fəal iştirakçısı olan general-mayor Əsədulla bəy Yadigarov 1897-ci ildə Daniya ölkəsinin "Danevorq fəxri süvari xaç ordeni" ilə, 1898-ci ildə birinci dərəcəli "Buxara qızıl ulduzu" və 1889-cu ildə İranın ikinci dərəcəli "Şire-Xorşid" ordeni ilə təltif olunub.

İran şahı Nəsrəddin Qacar 1873-cü ildə Avropaya ilk səfəri zamanı Azərbaycandan keçmiş və onun bir neçə bölgələrini gəzib. Həmin səfər haqqında ayrıca kitab yazan şah yol qeydlərində eloğlumuz Əsədulla bəy Yadigarovu da məhəbbətlə yada salıb:

"Gecədən yarım saat keçmiş Dilicana yetişdik. Ətraf bütün qarla örtülü dağlardır. Təpələrin ətəyi isə yaşıllıqdır. Çox yerdə İran dağlarında olan vəhşi qırmızı güllər vardır. Təzə yarpaq açmışdır. Lakin çox əcaib və qəribə gül məskəni gördüm ki, beləsini heç yerdə görməmişəm. Dilican meşəliklər içərisindədir, çox gözəl yerdədir. Polkovnik Əsədulla bəy Yadigarovun evi Dilicanda bizim mənzilimiz oldu. Əsədulla bəy Dilican alayının rəisidir. Tiflis müsəlmanlarındandır, alay komandiridir.

Polkovnik Əsədulla bəy Yadigarovun xoş təsir bağışlayan gözəl imarəti, kiçik-kiçik bəzəkli otaqları vardır"... (Nəsrəddin şah Qacar "Ruznameyi-Səfəri-Sevvomi-Firəngistan" əsəri, səh. 42. Bombey nəşri, 1891-ci il).

Gürcüstan Mərkəzi Dövlət Arxivinin hərbi sənədlərində general-mayor Əsədulla bəy Yadigarovun 1903-cü ildə Tiflisdə vəfat etdiyi göstərilir. Şeyxülislam (Axund Əbdüssəlam Axundzadə 1843-1907) Müfti Hüseyn Əfəndi (Mirzə Hüseyn Əfəndi Qayıbzadə 1830-1917 — Ş.N) həzrətləri, quberniyamızın hər iki qazisi və başqa rəsmi və qeyri-rəsmi üləma heç məzhəb fərqi kimsənin xatirinə gəlmədiyi halda hər kəs kəndi üləmalıq və ruhanilik vəzifəsini əmələ gətirirdi.

Şahzadə polkovnik Şahrux Mirzə Qacar (1844-1915) dəxi hüzur ilə alayı zinətləndirməkdə idi.

Rus, gürcü və ........ mötəbərlərindən bir çox şəxs hazır idilər. Finans vəzavətinin (maaliyyə nazirliyinin) nümayəndəsi, məmləkətimizdə ümumi nafe işlərdə həmişə əvvəlinci sırada olan və müsəlmanlara daima xüsusi məhəbbət və ehtiram ibrazından çəkinməyən Sultan-Krım Gəray həzrətlərilə Tiflis quberniyasının nücabə rəisi knyaz Məlakə və knyaz Orbeliani təşyi-cənazədə var idi. Əhalinin sayı islam olsun (müsəlman), xristian olsun, saya gəlməz idi. Hər kəsdə hüzni-səmimi simalarda xüsusi bir ciddiyyət görünürdü. Əhəmiyyətli və məhbibi-ümumi olan əşxasın dəfni belə olur.

Şiə və sünni üləma (alimlər) və ümərasının (əmirlərinin) bilaistisna həpisinin və xüsusilə həzrəti-şeyxülislamın, qazi Hacı Axundun və şahzadə Şahrux

Mirzənin qəbirstanda təbliğ buyurulan müvəkkid (təkidli) xahişlərinə görə "Şərqi-rus" miyidlərimizin ehtiramı və İslam millətimizin xəvaric içində bihörmət olmaması naminə hər müsəlmanlardan israrla təvəqqe edirik ki, qəbirstanda halva dağıtmaq adətini tərk etsinlər. Çün Əsədulla bəyin dəfnində dəxi olduğu kimi halva paylamaq, iqtaşaşsız-davasız, təziyə sahiblərini və camaatı qəlbən mükəddər etməmiş heç vaxt əmələ gəlməyir. Halva xərcini ehsan üçün füqəraya paylayın! ("Şərqi-rus" qəzeti 2 iyul 1903, № 39, səh.2)

## GENERAL-MAYOR DAVUD BƏY YADİGAROV

***(1881-1920)***

***Hər gələn yurdumda bir at oynatdı,***
***Analar gənc ikən matəmə batdı.***
***Qorxudan dumana sığındı dağlar,***
***Bu yerin ən qanlı bir tarixi var...***
***Fəqət, bu torpağın qəhrəman oğlu,***
***Ürəyi inamla, ümidlə dolu***
***Qanlı süngülərə gərmiş köksünü,***
***Qan ilə yazmışdır hər qalib günü...***

***Səməd Vurğun***

General - mayor Davud bəy Sadıq bəy oğlu Yadigarov 1903-cü il avqustun 10-da Peterburq yaxınlığındakı Paj korpusunu kornet rütbəsində bitirib. 1909-1914 cü illərdə İranda ezpmiyyətdə olan Əlahəzrət imperator adına 17-ci Hijeqorodsk draqunalayında ratmistr rütbəsində xidmət edib. 1918-ci ildə Azərbaycan Milli Ordusunda mühafizə diviziyasının rəis müavini olub. ***23 oktyabr 1919-cu ildə Hərbi Nazir Səməd bəy Mehmandarovun 492 saylı əmrilə ona general-mayor rütbəsi verilib.*** 1919-cu il avqust-noyabr aylarında Zəngəzur uğrunda gedən döyüşlərdə general Cavad bəy Şıxlinskinin Birinci piyada diviziyasında Birinci dəstənin komandiri olub. Dığ, Goranzur, Xanazax, Abdallar və başqa kəndlər uğrunda daşnak hərbi qüvvələrinə qarşı döyüşlər aparıb.

1920-ci il 28 aprel çevrilişindən sonra Türkiyəyə mühacirətə gedib.

## POLKOVNİK VƏLİ BƏY YADİGAROV
*(1898-1971)*

***Bir arzum var: Qazax-Borçalı mahalının tarixi ilə gələcəkdə kimsə ciddi məşğul olmalıdır. Çünki belə bir böyük və cəsur camaatın uzun əsrlər boyu halı və vəziyyəti haqqında hələ ki, ciddi bir söz nə deyilib, nə də ki, yazılıb.***

***Akademik Ziya Bünyadov***

1918-ci ilin sentyabrından Milli Orduda korpus komandirinin yanında eskadron komandiri olub. XI Ordu Bakıya yürüş edəndə Üçüncü Şəki süvari alayının pərakəndə dəstəsi ilə birgə vuruşa-vuruşa Gürcüstan ərazisinə çəkilmişdir. 1921-ci ilin martınadək bolşeviklərə qarşı vuruşmuş və həmin il əvvəlcə Türkiyəyə, sonra Vəli bəy Polşaya mühacirətə gedib. Polşada "Armiya Krayova" ("Отечественная армия") - London mühacirlərinin alman faşistlərinə qarşı gizli hərbi təşkilatında çalışıb. Xalq ordusunda əməliyyat şöbəsində süvari rəisi və 10-cu əlahiddə atıcılıq diviziyasının komandiri olub.

Polşada çıxan "Jiçe Varşavi"-"Varşava həyatı" qəzeti 6 iyul 1990-cı il tarixli nömrəsində polkovnik Vəli bəy Yadigarov haqqında yazır: "Ötən şənbə Varşava qəbirstanlığında Vəli bəy Yadigar müsəlman-tatar qaydası ilə dəfn olunmuşdur. Dəfn fəxri qarovulun müşayiəti və hərbçi şöhrəti qaydaları ilə keçirilmişdir. Mərhumu son mənzilə yaxın qohumları, dostları, keçmiş alaydaşları yola salmışlar. Yaylım atəşi açılmış, orkestr Şopenin dəfn marşını çalmışdır. Cənazə üzərində müsəlman ayinini Varşava və Belostok yeparxiyasının imamı Aleksandr Əli Xaletski icra etmişdir.

Polkovnik Yadigar kimdir? Müsəlmandır, Azərbaycan knyazıdır...

Bu qərib Polşa ordusu heyətində vuruşub, K. Soskovski adına Yeddinci Ulan alayının zabiti olub. O, 1920-ci ildə tabeliyində olan hissə ilə birlikdə Azərbaycanı tərk etmək məcburiyyətində qalıb, 1921-ci ilin mart ayında Polşada sığınacaq tapmış, müqavilə ilə polyak ordusu sıralarına daxil olub.

Qruzdendə Süvari Məktəbini və Varşava Ali Hərbi Məktəbini bitirdikdən sonra yeddinci süvari polkunun komandir müavini təyin edilmişdir. Polyak qızıyla evlənmiş, polyak dilini öyrənmişdir. Keçmiş alaydaşları onu son dərəcə yüksək mədəniyyətə, sağlam həyat tərzinə malik insan, həm də olduqca tələbkar zabit kimi xatırlayırlar.

Vəli bəy Polşaya hücum etmiş hitlerçi qəsbkarlara qarşı 1939-cu il sentyabrın 11-də təşkil olunmuş müdafiə kompaniyasında iştirak edib, Mazovetsk süva-




ri briqadasının qərargah rəisi olub. Polşanın işğalından sonra Armiya Krayovanın (AK) tərkibinə daxil olan "Olen" polkunun komandiri kimi Varşava üsyanında iştirak etmişdir.

Müharibədən sonra Vəli bəy Yadigarov Argentinaya mühacirət edib, on doqquz il əvvəl - 1971-ci il yanvarın 13-də Buenos-Ayresdə vəfat edib.

Öz vəsiyyəti ilə Polşada təkrar dəfn edilib. Dəfn mərasimində mərhumun qızı - Züleyxa xanım Yaigarov-Kalinovskaya da olub. O, hazırda milliyyətcə polyak olan əri ilə İspaniyada yaşayır".

Hələ sovetlər dövründə Yadigarovlar nəslinin nüfuzlu oğulları haqqında axtarışlar aparırdım. Onlar barədə qəzet və jurnallarda dönə-dönə çıxış etmişdim. 2004-cü ildə nəşr olunan “General Yadigarov qardaşları” kitabımın “Müəllifdən” fəslində yazmışdım:

“Aradan uzun illər keçməsinə baxmayaraq mən bu gün də ümid edirəm ki, nə vaxtsa nüfuzlu Borçalı nəsli - Yadigaroğullarından hansı birisə gec-tez tapılacaq. Dilini, dinini itirmiş də olsa ana Vətəni Azərbaycana qayıdacaq. Bəlkə də, dədə-babasının vaxtı ilə apardığı sənədlə, fotoşəkillərlə bizi sevindirəcək. Dünyadan köçmüş ulularının sağ ikən onlara danışdığı acılı-şirinli xatirələri ilə hərb tariximizə yeni səhifələr yazacaq və bizi sevindirəcəklər”.

Budur, aradan cəmi beş il keçdikdən sonra zənnim doğru çıxdı. Varşavada yaşayan bu nəslin ziyalı qızı Züleyxa xanım Yadigar Kalinovska atası, polkovnik Vəli bəy barədə məlumat verdi. Azərbaycanda və Borçalıda heç vaxt olmayan, 1942-ci ildə Varşavada doğulan Züleyxa xanımın kövrək xatirələrini həyəcansız oxumaq mümkün deyil. Xatirələrindən açıq-aydın hiss olunur ki, 1920-ci ildən sonra ömrünün sonuna kimi Avropada cəlayi-vətən bir ömür yaşayan Vəli bəy yeganə qızı Züleyxa xanımı Azərbaycana sevgi ruhunda böyüdüb tərbiyə etmişdir. “Mən həmişə əsil-nəcabətimlə fəxr etmişəm”. — Züleyxa xanım Yadigar qürbətdən göndərdiyi xatirələrinə bu sərlövhəni təsadüfi seçməmişdir...

***Vaxtilə Polşa Silahlı Qüvvələrinin Ali Baş Komandanı olmuş, ordu generalı Kazimej Sosnkovski (1885-1969) həmyerlimiz Vəli bəy haqqında yazırdı:***

***"Doğma xalqının taleyini heç vaxt unutmayan polkovnik Vəli bəy Yadigar, eyni zamanda Polşanın da alovlu və sadiq oğlu idi".***

## «MƏN HƏMİŞƏ ƏSİL-NƏCABƏTİMLƏ FƏXR ELƏMİŞƏM…»

«Armiy Krayevoy» bülleteninin redaksiya heyətindən atam Ata (orijinalda bu cür yazılıb) haqqında xatirələrimi yazmaq üçün təklif almaq mənim üçün böyük şərəf idi. Çox mütəəssir oldum. Birincisi, ona görə ki, bu təklifi atamın «Armiy Krayevoy»da qulluq edən döyüş dostlarından almışdım. İkincisi isə, çox fəxr edirdim ki, bu xatirəni AK bülleteni üçün yazacağam. Bu jurnal mənim üçün hələ uşaqlıq illərindən tanış idi. Atam bu jurnala vaxtaşırı məqalələr yazırdı.

Polkovnik, peşəkar hərbçi olan Vəli bəy Yadigar müharibədən sonrakı Polşada (I Dünya müharibəsi nəzərdə tutulur) ziddiyyətli şəxsiyyət olub. Bir tərəfdən o, «ağqvardiyaçı» olduğuna və özünün ilk Vətəni Qafqazın azadlığı uğrunda vuruşduğu üçün «arzuolunmaz» şəxs elan olunmuşdu. Başqa bir cəhətdən isə, göstərdiyi xidmətlərə görə Polşa ordusunda nüfuzlu şəxs sayılırdı. Ötən əsrin yetmişinci illərində onun döyüş dostları deyirdilər ki , «Vəli bəy heç vaxt Polşaya qarşı laqeyd ola bilməzdi, çünki o, azərbaycanlı idi». Mənim atamın dediyi sözlər də həmin fikirlərlə üst-üstə düşür: «Müharibə dövründə Polşada qalmaq mənim müqəddəs borcum idi».

Vəli bəy Yadigar 1898-ci ilin oktyabrında Azərbaycan sərhədlərinə yaxın olan Borçalı mahalının Təkəli kəndində anadan olub. Borçalı varlı, təbiətən gözəl, olduqca qonaqpərvər bir mahaldır. Burada uzun müddət müstəqillik uğrunda mübarizə aparıblar. Atam hələ gənc ikən hərbi təhsil alıb və sonra müharibəyə yollanıb. Qafqaz uğrunda aparılan müstəqillik mübarizəsi tezliklə qələbə ilə nəticələnib.

1918-ci ildə Azərbaycan, Gürcüstan və Şimali Qafqaz öz müstəqilliyini elan edib və Millətlər Cəmiyyəti tərəfindən de-fakto və de-yure tanınıb.

Bolşevik ordusu yenidən Qafqazı işğal edərkən Vəli bəy, böyük qardaşı Abbasəli bəy və Ərçil bəy Yadigarovlar nəslin ağsaqqalı olan atalarından doğma yurdu tərk etmək haqqında əmr alıblar. Qardaşlar Gürcüstana keçiblər, oradan isə gəmi ilə Avropaya gediblər. Həmin dövrdə bir sıra xarici ölkələr (Türkiyə, Yunanıstan, Fransa, Polşa) sərhədlərini açaraq Qafqazdan olan za-

bitlərə siyasi sığınacaq verirdilər. Hətta onlara öz hərbi karyeralarını davam etdirməyə də söz vermişlər.

Gənc Yadigarovlar uzaq Lexistanı seçdilər. Bu təsadüfi deyildi. 1863-cü il Polşa üsyanında iştirak etmiş Martin Yanitski adlı bir polyak uzun illər onların evində aşpaz kimi qulluq etmişdi.

Qoca polyak axşamlar gənc qafqazlılara həmvətənlərinin müstəqillik uğrunda necə mübarizə etdikləri barədə «nağıllar» danışırdı. Bu nağıllar gənc qafqazlıların qəlbində öz müstəqilliyi və azadlığı uğrunda gərgin mübarizə aparan xalqa qarşı dərin məhəbbət və hörmət hissi oyatmışdı. Bu səbəbdən də onlar yaşamaq üçün Polşanı seçdilər.

1921-ci ildə Vəli bəy və böyük qardaşı Ərçil bəy Polşaya gəldilər. Onları qonaqpərvərliklə qəbul etdilər. Zabit kursunda təhsilini başa vuran atam Lansusda yerləşən atlı atıcı polkuna təyinat aldı. Növbəti hərbi manevr zamanı o, general Sosnkovski adına Lyublin ulan alayının komandiri general Yanuş Qluxovskinin diqqətini özünə cəlb etdi. General və onun həyat yoldaşı pan Mariya Qluxovska gənc qafqazlı zabitin gələcək taleyində böyük xidmət göstərdilər. Generalın məsləhəti ilə atam Ali Hərbi Akademiyanı bitirir (1930-1932-ci illər) və yeddinci ulan alayına təyinat alır və ömrünün axırına qədər buradan ayrılmır.

Atamın qulluq etdiyi yerdə, oturub-durduğu adamlar əsl legionerlər idi. Onun ən yaxın ürək dostu general Stanislav Qjmot-Skotniski olmuşdur. Bu o səbəbdən ola bilər ki, atam ömrü boyu legiondan başqa heç yerdə qulluq etməyib və əqidəsinə görə legioner olub. Həyatı boyu üç dəfə marşal Yuzef Pilsudski (1867-1935) ilə görüşüb. İlk görüşləri atam Hərbi Akademiyanın dinləyicisi olanda baş verib. Necə olubsa atam Belvedersk kitabxanasında gecəyədək məşğul olub və birdən yadına düşüb ki, sevdiyi qızla görüş barədə vədələşib. Hövləng kitabxanadan çıxıb və uzun hərbi şinelinin düymələrini bağlamaq yadından çıxıb. Belvedersk meydanı ilə qaça-qaça gedərkən tənha gəzən bir kişi ilə az qalıb ki toqquşsun. Sən demə, həmin adam marşal Pilsudskiymiş. Ona rəsmi təzim edən gənc zabitin həyəcanını duyan marşal ondan soruşur:



—Mənə de görüm, o gözəldirmi?

—Bəli, pan marşal, - deyə atam cavab verir.

—Onda tələs, ancaq düymələrini bağlamağı da unutma — deyə marşal dillənir.

İkinci görüşləri isə Türkiyədən yüksək çinli qonaqlar gələndə olub.

—Mənə elə bir türk tapın ki, söhbətimizi tərcümə etsin — deyə marşal əmr edir. Həmin «türk» isə mənim atam olub.

Üçüncü, sonuncu görüşü isə 1935-ci ildə Marşal Pilsudskinin cənazəsi önündə üç dəqiqəlik fəxri növbə çəkən zaman baş verib.

Müharibə atamı Qrudziadzedə kavalerist hazırlığı Mərkəzində rəhbər işlədiyi zaman yaxaladı. Atam təcili olaraq öz polkuna döndu və döyüşlərdə iştirak etdi. Döyüş zamanı almanlara əsir düşdü. Bir neçə aydan sonra auslender, yəni xarici dövlətin vətəndaşı kimi azadlığa buraxıldı.

O Varşavaya gəlir, ulanların yeddinci alayı ilə əlaqə yaradır və gizli fəaliyyət göstərməyə başlayır. 1944-cü ilə qədər Yelena hərbi dəstəsinin komandiri və təşkilatçısı olur. «Onun uşaqlarının» (atam onları belə adlandırıb) dediyinə görə o çox ciddi və intizamlı komandir idi. Çox ciddi olsa da hamı onu çox sevirdi. O əsgərlərin yanında olanda əsgərlər hərbi tapşırıqları sərbəst yerinə yetirir və bilirdilər ki, çətinliyə düşsələr cəsur zabit onlardan köməyini əsirgəməyəcək. General Tadeuş Bor Komorovski ilə möhkəm dostluğu ona gətirib çıxardı ki, atam AK-də iki yüksək vəzifə tutmuşdu. Öz sevimli alayında komandir olmaqla yanaşı, o, həm də Baş qərargahda kavaler şöbəsinin rəisi vəzifəsində işləyirdi.

Mən 1942-ci ildə Polşanın paytaxtı Varşavada doğulmuşam. Mənim anam Vanda Eminoviç-Yadigar Yelena hərbi dəstəsində rabitəçi idi və mən ona məxfi məktubu kiçik uşaq arabasında aparmaqda «kömək» etmişəm. Sovet İttifaqı öz gələcək muzdlularını Polşada yerləşdirdikdən sonra onların emissarları xalqı üsyana çağırırdılar. Onda Sovet ordusu ölkənin şərq hissəsinə nəzarət edirdi. Vəziyyəti belə görən general Bor-Komarovski atama Qərbə getmək əmrini verdi və onu inandırdı ki, heç bir üsyan olmayacaq. 1944-cü il aprelin 17-də biz Polşanı tərk edərək Venaya yola düşdük.

Atam faciəli avqust üsyanı barədə məlumat alan kimi, «yaşıl dəhliz»dən istifadə edərək təcili olaraq Polşaya qayıtdı. Çox təəssüf, artıq gec idi: Gestaponun Şuxadakı qərargahına uğursuz hücum zamanı alay demək olar ki, məhv edilmişdi. Atam alayın bayrağına görə çox narahat oldu. Xoşbəxtlikdən o tapıldı. Əsgərlər bayrağı Novom Dvorda pan Belkoviçə məxus malikanənin həyətində basdırmışdılar. Nə qədər ağır olsa da atam alayın buraxılması barədə sonuncu əmrini verdi.

Həmin faciəli anlarda, Polşaya gəlişinin son günlərində atam mənim babam

Stanislav Elinoviçi axtarıb. O, nənəm Yadviqin ölümündən sonra Varşavanın xarabalıqlarında gecələyib. Atam lazımi adamları ələ alaraq qayınatası ilə birlikdə axırıncı alman evakuasiya qatarı ilə şəhərdən çıxa bilib. Artıq həmin anlarda Sovet tanklarının ilk dəstələri Varşavaya daxil olmağa başlayıb. Nəhayət, bizim ailəmiz Venada bir-birinə qovuşdu. Üç aylıq sərgərdan həyatdan sonra İtaliyaya gəlib çıxdıq. Tərkibində olduğumuz ikinci ordu korpusunda heç kəs inanmaq istəmirdi ki, Sovetlər polyakları dəhşətli dərəcədə aldadıb. Bu ancaq «Sovet zonalarından» ilk qaçqın dəstələri gələndə aşkar məlum oldu. Mühacirətdə olan Polşa hökuməti bu faciəvi xəbərlə barışmalı oldu. Biz Polşa zabitləri və əsgərləri ilə birlikdə İngiltərəyə yollandıq. Əvvəlcə atamın komendant olduğu Tilsok hərbi düşərgəsində yaşadıq. Sonra Londona köçdük. Valideynlərim həmişə yeni gələn dəstələrin içində özlərinin AK-dən olan dostlarını və həmkarlarını axtarırdılar.

Həmin gün, Polyak hərbi birləşmələrinin döyüş bayraqlarının London muzeyinə təhvil verildiyi gün, mən də atamla birlikdə idim. Hamı ciddi görkəmli idi, heç kəs danışmırdı, mən generalların göz yaşını ilk dəfə görürdüm. Mənim üçün, böyüklərin əhatəsində olan və bütün bu hadisələrin şahidi olan bir uşaq üçün, bu günlər yaddaşımda əbədi qaldı. Mənim cəmi dörd yaşım vardı və atamın bütün dostlarının, o cümlədən general Bor-Komorovskinin, onun gözəl qadını İrenanın, general Yanuş Qluxovskinin və onun arvadının (mənim gələcək xaç anam), general Vladislav Anders və digər hərbçilərin sevimlisiydim. Dostların arzusu ilə mənim xaç suyuna salınma mərasimim müharibədən sonrakı illərə qədər təxirə salındı. Axır ki, həmin vaxt gəlib çatdı. Məni 1947-ci il yanvarın 28-də Londonda xaç suyuna saldılar. Xaç anam, yuxarıda qeyd etdiyim kimi, general Qluxovskinin arvadı oldu. Xaç atam isə həmin dövrdə Ali Baş Komandan olan Kazimej Sosnkovski oldu. Mərasimdə onu general Tadeuş Bor-Komorovski əvəz edirdi. Xaç suyuna salınmağım mənim xatirələrimin ən yaddaqalan işıqlı anları idi.

Müharibədən sonra, ordudan tərxis olunan atamın miqrasiya etməkdən başqa bir çıxış yolu yox idi. Biz Argentinaya getməyə qərar verdik. 1949-cu il fevralın 28-də hərbi gəmi ilə çətin, ağır səyahətə çıxdıq. Gəmidə bizimlə birlikdə gedən adamlar hər şeylərini itirmişdilər. Hətta bir çoxlarının heç bir sənədi də yox idi. Buenos-Ayresə gəlib çatan kimi atam AK-nın Buenos-Ayres özəyini və ulanların yeddinci alayının yerli şöbəsini yaratdı. Atam uzun müddət özəyin sədri oldu. İlk növbədə sayca az olan Qafqazlıların İttifaqı yarandı. Nəhayət ki, atam qula çevrilmiş Avropa xalqlarının — Liberasion Europa İttifaqının vitse-prezidenti oldu. Bu təşkilatın prezidenti isə polyakların böyük dostu litvalı general Teodor Daikantas seçildi.

Argentinaya gələndən dörd il sonra ağır xəstəlikdən sonra anam vəfat etdi.

Həyatının son günlərinədək o bizim ailə təsərrüfatını bacarıqla idarə etdi və ictimai işlərdə də iştirak etdi. Anamın ölümündən sonra ailənin və mənim bütün qayğılarım atamın üzərinə düşdü. İş tapmaq olduqca çətin idi. Peşəkar Polşa zabitinə harasa işə düzəlmək isə daha müşkül idi.

İlk bir neçə ili atam dəniz limanında yükvuran fəhlə işlədi, sonralar isə əyrici fabrikə fəhlə düzəldi. Belə vəziyyətdə olan təkcə o deyildi. Artıq o qədər də gənc olmayan Polşa zabitlərinin çoxu gecə gözətçisi, (məsələn, polkovnik Zemoviy Qrabovski, müxtəlif fabriklərdə qara fəhlə (məsələn, general Yeji Zavişa süni məmulatlar fabrikində) kimi işləyirdilər, bir neçə il keçdikdən sonra isə qocalar evində tənhalıq içində ölürdülər.

Mən bir az böyüyəndən sonra vaxtımı təhsil, ictimai iş və sadə təsərrüfatımız arasında bərabər bölüşdürməyə çalışırdım. 1971-ci il yanvarın 13-də polkovnik Vəli bəy Yadigar üçüncü ürək tutmasından sonra vəfat etdi. Sonralar mən əvvəlcə Polşada, sonra isə İngiltərədə oldum. İstəyirdim ki, atamın vəsiyyətini və lazımi kağızları atamın həmkarlarına daha tez çatdırım. Həm Varşavada, həm də Londonda məni çox səmimi və ürəkaçıqlığı ilə qarşıladılar. Ən yaddaqalan anlardan biri general Tadeuş Pelçinski ilə Polşa vətənpərvərlərinin həyat və gizli fəaliyyətini geniş əks etdirən sənədlərin saxlandığı London muzeyinə getməyimiz oldu. Ali Hərbi Akademiyanın məzunlarından ibarət dərnək, general Stefan Soboniyevskinin rəhbərlik etdiyi Polşa veteranlarının Ali Radası və digər təşkilatlar atamın xatirəsinə həsr olunmuş müxtəlif tədbirlər və gecələr keçirdilər.

Cəmi iki ildən sonra mən özüm də Argentinadan İspaniyaya mühacirət etdim. 1980-ci ildə Yeşi Kalinovski ilə ailə qurdum. Biz Argentinada tanış olmuşduq. Yeşi keşiş Rafala Kalinovskinin nəvəsi idi. 1990-cı il avqustun 4-də mənim valideynlərimin cənazəsi Varşavadakı Müsəlman qəbiristanlığında hərbi şərəflə ikinci dəfə torpağa tapşırıldı. Çoxdankı arzum həyata keçdi. Polkovnik Vəli bəy Yadigar ikinci sevimli vətəni olan Polşaya qayıtdı. Bu ancaq mənim yaxın dostlarımın, atamın etibarlı və sədaqətli həmkarlarının böyük köməyi və yardımı ilə baş tutdu. Argentina və Polşa dövlətləri təşkilati çətinlikləri birgə aradan qaldırdılar.

Bilmirəm, öz xatirələrimi hansı sözlərlə yekunlaşdırım. Fikirləşirəm və ürəyim bunu deyir: atam məni polyak qızı kimi tərbiyələndirib, ancaq mən isə həmişə qafqazlı əsil-nəcabətimlə fəxr eləmişəm.

***Madrid şəhəri, may 2003-il***

***

Qarabağ Zəngəzur döyüşlərindən general-mayor Davud bəyə və kornet Vəli bəy Yadigarova məxsus raport və sənədlər saxlanılır. 1920-ci ilin mart ayın-

da erməni-daşnak birləşmələri Əsgərana hücum edəndə kornet Vəli bəy Üçüncü Şəki süvari alayında döyüşürdü. Alay komandiri podpolkovnik Tongiyev Qarabağ ərazi qoşunlarının komandanı general-mayor Həbib bəy Səlimova göndərdiyi 26 mart tarixli məlumatında yazırdı: "Bu gün - martın iyirmi altısında artilleriya və tüfəng hazırlığından sonra Çaylı və Bürc kəndləri tutulmuşdur. Ermənilər Çaylıdan qərbə - dağların şərq ətəklərinə çəkilmişlər. Ermənilərdən bir neçə döyüşçü öldürülmüşdür. Bizim tərəfimizdən isə bir neçə partizan yaralanmışdır. Məlumat verirəm ki, sonrakı uğurlarımız və ermənilər üzərində qəti və son qələbəmiz mənim dəstəmin nizami hissələr ilə möhkəmləndirilməsindən asılı olacaqdır. Ona görə ki, cəbhə xətti getdikcə böyüyür, mənim alayımda döyüşçülər azdır və üç günlük ağır döyüş- lərdən sonra yorulub əldən düşmüş partizanlar evlərinə gedirlər.

Düşmənin çoxsaylı süvari dəstəsini başıalovlu qaçmağa məcbur etmiş birinci yüzlüyün korneti Vəli bəy Yadigarovun çevik süvarilərinin hücumunu xüsusi qeyd etmək istəyirəm. Artilleriya vzvodunun komandiri praporşik Seyidzadənin dəqiq atəşi ilə düşmən mövqeyi susdurulmuşdur"— Podpolkovnik Tongiyev. ("Azərbaycan Dövlət Arxivi, f. 2894, siy.2, iş 5, vərəq 6")

Vəli bəy Sadıq bəy oğlu 1898-ci il sentyabrın 31-də anadan olub. Borçalının Təkəli kəndindəki nüfuzlu Yadigarovlar nəslindəndir. 1916-cı ildə Tiflisdə gimnaziyanı bitirdikdən sonra könüllü surətdə Rus ordusunun Birinci Dağıstan süvari alayında döyüşüb. General Brusilovun ordusunda "Brusilov cəbhəsi"nin yarılmasında iştirak edib. Kiyevdəki Artilleriya Zabitləri Məktəbində təhsilini davam etdirmək üçün xidmətə göndərilib. Bolşevik çevrilişindən sonra imperiya-dağıldığına görə məktəbi bitirə bilməyib. Vətəni Azərbaycana qayıdıb, tağım komandiri dərəcəsinədək yüksəlib və Azərbaycanın azadlığı uğrunda eskadron komandiri kimi Qarabağ döyüşlərində iştirak edib. Sonralar isə Şəki süvari alayında xidmətini davam etdirib. Bolşeviklərin Azərbaycanı və Gürcüstanı istilasından sonra 1922-ci il noyabrın 19-da Qafqazdan köçüb, Türkiyə və Rumıniyadan Polşaya gəlib. 1923-cü ildə tağım komandiri, daha sonra isə Polşa ordusunun mayoru, Lantsutada 10-cu süvari atıcılar alayının eskadron komandiri olub. 1928-30-cu illərdə Ali Hərbi Məktəbdə oxuyub və oranı müvəffəqiyyətlə bitirib. Süvari briqadasına "Baranoviç" (Novoqrodska VK) qərargahına təyinat almış, 1936-cı ildə isə Lüblin ulanlarının yeddinci alay komandirinin birinci müavini olub. Bu tərkibdə 1939-cu ilin sentyabr proqramında alay komandanlığının qərargah zabiti kimi, sonra isə Mazovitsk süvari briqadasının qərargah rəisi kimi iştirak edib. Əcnəbi vətəndaş olduğuna görə almanlar onu azadlığa buraxıb. O, Polşa Milli Ordusunda xidmətə başlamışdır. Məxfi alayın komandiri təyin olunmuş və eləcə də Milli Ordunun süvari komandanlığı bölməsinin rəi-

si olub. 1944-cü ilin iyulunda Milli Ordu komandanlığı tərəfindən Varşavadan Polşanın Qərbdə olan hərbi qüvvələrinə ezam olunub. 1945-ci il yanvarın birində "Yelen" Lüblin-Ulan alayının yeddinci məxfi alayının və 1945-ci ilin yazında ikinci Polyak Korpusunun baş komandanı general Vladislav Andersonun yanında qeydiyyatdan keçib. Orada yeddinci Lüblin-Ulan alayında xidmətə başlamışdır. Azad olunduqdan sonra 1949-cu ildə Argentinaya köçüb. Buenos-Ayresdə məskunlaşmış və burada azadlıq uğrunda Polyak və Qafqaz mühacirət təşkilatlarında fəal iştirak edib. Azərbaycanın hərbi ordeni "İgid nişanı" ilə, eləcə də polyak ordenləri "İgidlik", "Qızıl xaç" (qılıncla), və Polşa Milli Ordusunun "Xaç" ordeni ilə mükafatlandırılıb.

Yadigarovlar nəslindən 1918-20-ci illərdə Milli Azərbaycan Ordusunda səkkiz zabit şərəflə xidmət edib: poruçik Nadir bəy, kornet Rəhim bəy, praporşik Adil bəy, poruçik Abuzər bəy, ikinci Qarabağ süvari alayında üçüncü bölüyün komandiri, ştab - rotmistr Məmməd bəy, İkinci Qarabağ süvari alayında ikinci bölüyün rotmistri Daniyal bəy, rəis müavini general-mayor Davud bəy Yadigarovlar. Zadəgan nəslinə məxsus olan Vəli bəy ilk hərbi təhsilini 1909-1915-ci illərdə Tiflis hərbi gimnaziyasında alıb. 1916-cı ildən kornet Vəli bəy Əlahiddə Qafqaz ordusunun korpusunda xidmət edib.

Uzun illər Polşada müharicətdə yaşayan rotmistr Vəli bəy Yadigarov 1933-cü ildə polyak dilində "Mustafa Axmatoviç adına Tatar-Ulan alayının hərbi tarixi oçerki" kitabını Varşavada nəşr etdirib. Kitabda 1920-ci ildən sonra Polşa, Krım, Litva və mühacirətdə olan Rusiya müsəlmanlarının Tatar-Ulan alayındakı fəaliyyəti geniş işıqlandırılır. Əsər 1990-cı ildə təkrar nəşr olunub. Onu da xatırladaq ki, podpolkovnik Vəli bəy Yadigarovun 1920-ci ildə bolşevik çevrilişindən sonra məhz Polşaya mühacirətə getməsi təsadüfi deyildi. Atası Sadıq bəy Yadigarov XIX əsrin ortalarında Polşada yaşayan tatar qızı, şahzadə Olqa Russiya-Korçibaşeva ilə evlənmişdi.

On yeddinci Nijedraqun alayında kornet rütbəsində xidmət edən Kərim bəy Yadigarov isə ön cəbhədə uğurlu döyüşlərə görə üçüncü dərəcəli "Müqəddəs Anna" (qılınc və bantla birgə), ikinci dərəcəli "Müqəddəs Stanislav" (qılıncla birgə) və dördüncü dərəcəli "Müqəddəs Anna" (üzərində "İgidliyə görə" yazısı ilə) ordenlərilə təltif olunub.

Arxiv sənədlərindən o da məlum olur ki, süvari alayında xidmət edən Məmməd bəy Yadigarov üstü "İgidliyə görə" yazılı "Müqəddəs Anna" ordeninin dördüncü dərəcəsilə təltif olunub.

Bunlar Yadigarov qardaşlarının 1914-16-cı illərdə təltif olunduğu ordenlərdir. Təəssüf ki, 1920-ci il aprel çevrilişindən sonra onların da taleyi məlum deyil.

## POLKOVNİK İSRAFİL BƏY YADİGAROV

***(1888-1944)***

1916-cı ilin yanvar ayında İsrafil bəy "Dikaya diviziya"nın Tatar-Azərbaycan Süvari alayında xidmətə göndərilir, Rumın cəbhəsindəki döyüşlərdə iştirak edir. Həmin il aprel ayının 29-da Əlahəzrət imperatorun əmri ilə İsrafil bəy Yadigarova rotmistr rütbəsi verilir. Rus imperiyası dağılana qədər orduda xidmət edən rotmistr İsrafil bəy 1917-ci ilin noyabr ayında doğma vətəni Borçalıya qayıdır. 1918-ci ilin payızında Gürcüstanın Ermənistanla Lori nahiyyəsinin torpaqlarına görə gedən döyüşlərdə Gürcü ordusunun sıralarında daşnaklara qarşı iştirak edir.

1918-20-ci illərdə Azərbaycan Milli Ordusunda xidmət edən İsrafil bəy Gəncə üsyanının fəal iştirakçısı olur. Gürcü dilini yaxşı bildiyinə görə 1920-ci ilin mayın 24-də onu gürcülərdən silahlı qüvvə gətirmək üçün Tiflisə göndərilir. Hələ 1919-cu il iyun ayının 16-da Azərbaycan və Gürcüstan hökümətləri arasında üç il müddətinə on maddəli hərbi ittifaq bağlanmışdı. Hərbi müdafiə paktına əsasən hər hansı düşmən qüvvəsi Azərbaycanın və ya Gürcüstanın ərazi bütövlüyünə, ya da istiqlaliyyətinə təcavüz edərdisə tərəflər bir-birinə hərbi yardım göstərməyə borcludur.

1920-ci ilin may ayında Gəncədə bolşevik əsarətinə dözməyən Azərbaycan əsgər və zabitləri silaha sarıldılar. Məqsəd əsarəti devirmək, istilaçı daşnak-bolşevik ordusunu silah gücünə ölkədən vurub çıxarmaq idi.

"…Mən bolşeviklərin əleyhinə çıxış etmək planını gerçəkləşdirdim. Bunun üçün üsyanı mayın 24-nə təyin etdim. Gürcü ordusu ilə əlaqə saxlamaq və onunla ümumi döyüş hərəkətlərini istiqamətləndirmək üçün Gəncədəki üç zabiti - gürcü podpolkovnikləri Eristovu, Sumbatovu və podpolkovnik İsrafil bəy Yadigarovu Tiflisə göndərdim və öz planımı onlara ətraflı şərh etdim. Qarabağ dəstəsi ilə əlaqə yaratmaq üçün iki zabiti müvafiq təlimatlarla Qarabağa göndərdim. Ağdamda və Tərtərdə yerləşən üçüncü Şəki süvari alayı Gəncə süvari alayına birləşəcək və bütün Qarabağ dəstəsinin avanqardı kimi Gəncəyə kömək etməyə tələsəcəkdi.

Hamı axıra qədər mübarizəyə hazır idi. Şəhərdə artıq qanlı döyüşlər başlamışdı. Qoy mayın 28-i tariximizə təkcə istiqlaliyyətimizin elan olunduğu gün kimi deyil, həm də vətən uğrunda fəda edilmiş böyük qurbanlar günü kimi yazılsın. Qoy bu gün düşmən ağır, amansız mübarizə ilə qarşılaşsın - həyat uğrunda deyil, ölüm uğrunda mübarizə ilə! Mayın 28-dək layiqli mübarizə mənəviyyatımızın böyüklüyünün, mənəvi qələbəmizin rəmzi olsun.

Mayın 28-dən 29-na keçən gecə Gürcüstanın bolşeviklərlə artıq bir neçə gündür ki, sülh bağlaması haqqında ilk məlumat alındı. Bu xəbər üsyançılar üçün fəlakətə bərabər idi. Axı, bütün ümidlər Azərbaycan və Gürcüstan arasında bağlanmış hərbi-müdafiə haqqında müqavilə bu dövlətləri qarşılıqlı yardıma məcbur edirdi (polkovnik Cahangir bəy Kazımbəyli. "Gəncə üsyanı haqqında xatirələr" ABŞ-dakı Azərbaycan Milli Birliyinin Orqanı olan "Azərbaycan" jurnalı, 1953-cü il, №12).

Üsyan məğlub olduqdan sonra rotmistr İsrafil bəy çoxlu sayda Azərbaycan əsgər və zabiti ilə birgə Türkiyənin İstanbul şəhərinə mühacirətə getməyə məcbur olur. Burada gün-güzəranı ağır keçən İsrafil bəy Yadigarov 1922-ci ilin noyabr ayında Polşaya köçür. O, mühacirətdə olan qohumu Züleyxa xanımla ailə qurur (İsrafil bəy Yadigarov birinci dəfə milliyətcə Litva tatarı olan Ədilə xanım Atabəyova-Koblanskaya ilə 1911-ci ildə evlənmişdi. 1912-ci ildə onun Ənvər adlı oğlu da vardı — Ş.N.). Polşa ordusunda xidmət edir. Böyük Vətən müharibəsi illərində Azərbaycan legionerləri sırasında rus işğalına qarşı döyüşlərdə fəal iştirak edir.

Polkovnik İsrafil bəy Məhəmməd bəy oğlu Yadigarov 1888-ci il avqustun 7-də Tiflis şəhərində anadan olub. Nəsil-nəcabəti ilə nüfuzlu Borçalı bəylərindəndir. Atası Məhəmməd bəy oğlunu Tiflisdəki zadəgan balalarına məxsus birinci dərəcəli Kadet korpusuna oxumağa qoyur. 1910-cu ildə hərbi məktəbi müvəffəqiyyətlə bitirən İsrafil bəy Qafqazda yerləşən 17-ci Nijeqorod süvari alayında podporuçik rütbəsində xidmət edir. Nümunəvi xidmətinə görə 1913-cü ildə ikinci eskadrona komandir təyin olunan İsrafil bəy poruçik rütbəsi alır.

Birinci Dünya müharibəsi başlananda İsrafil bəy bir müddət süvari generalı Hüseyn xan Naxçıvanskinin komandanlıq etdiyi 17-ci Nijeqorod süvari alayının sıralarında döyüşür. Qafqaz cəbhəsində və Qara dəniz sahillərində uğurlu döyüşlərin iştirakçısı olan İsrafil bəy Yadigarov dördüncü dərəcəli "Müqəddəs Vladimir" (qılınc və bantla birgə), üçüncü dərəcəli "Müqəddəs Anna" (qılınc və bantla birgə), dördüncü dərəcəli "Müqəddəs Anna" (üzərində "igidliyə görə" yazısı ilə) və üçüncü dərəcəli "Müqəddəs Stanislav" (qılınc və bantla birgə) ordenləri ilə təltif olunmuşdur.

Mühacirətdə Azərbaycan legionerləri dəstəsində və Polşa ordusunda ləyaqətlə xidmət edən həmyerlimiz İsrafil bəy Yadigarov polkovnik rütbəsini orada alıb. İyirminci ilin aprelindən sonra çoxsaylı Yadigarov hərbçiləri kimi cəlayi-vətən olan mərd zabit İsrafil bəyin həyatı faciə ilə qurtarıb.

Vətəndən uzaqlarda qəlbində əbədi Azərbaycan məhəbbəti yaşadan polkovnik İsrafil bəy və onun silahdaşları tezliklə Sovet totalitar rejiminə son qoyula-

cağı ümidilə yaşayıblar. İsrafil bəy 1943-cü ildə Berlində çağırılmış Milli Azərbaycan Qurultayında vətənpərvər bir çıxış edib.

Sovetlərin ordusu Avropa torpağında döyüşlər aparanda ingilislər namərdlik edib Qafqaz legionerlərini Sovet ordusuna satqın kimi təslim etdilər. Onda əsgər və zabit heyətinin təəssübünü çəkən polkovnik İsrafil bəy Yadigarov var səsi ilə bildirmişdi: "Nə qədər ki, mən sağam heç bir qüvvə mənim başçılıq etdiyim dəstəni barbar Sovet rejiminə təslim edə bilməz. Ya hamımız bərabər hürriyyətə qovuşacağıq, ya da bir nəfər kimi həlak olacağıq! Mənim əsgər və zabit heyətim əsirlikdə olan Vətənimizin hürriyyəti uğrunda çalışmış və gözlərimiz önündə on minlərlə qurban vermiş Azərbaycan oğullarından təşkil olunub. Mən bir komandan kimi onları yalqız qoyub kommunizmin qanlı xəncərinə təslim edə bilmərəm. Onlar mənim doğma övladlarımdır. Mən heç bir zaman övladlarımı darda qoymaram. Onlarla birgə həlak olmaq mənim üçün ən böyük şərəfdir".

***Sovet ordusunun çekistləri mərd polkovnik İsrafil bəy Məhəmməd bəy oğlu Yadigarovu 1944-cü ilin iyul ayında "Vətən xaini" kimi güllələdilər.***

***

Borçalı çökəyindən qayıda bilmirdim. Bu yerlər mənə uşaqlıqdan doğmadır. Ləlvar və Babakər dağlarından kəndimin, torpağımın ətrini alırdım. Buludların altı ilə kəndimizə tərəf uçan quşları görəndə gözüm yaşardı. Ürəyim şiddətli ağrı ilə döyündü. 1988-ci ildə Körpülünün yurd dəyişməsi könlümə, gözümə qubar olmuşdu. Dərdimin üstünə bir ağır dərd də gəldi Təkəlidə. Burda Yadigarovlar nəslindən bir nəfər də qalmayıb ... Təsəlli tapmaq, dərdləşmək üçün Debet çayının sahilinə endim. Bizim Çuvuxlu yaylağın- dan axıb gələn çayın dumduru suları daşları yalayıb sakitcə axırdı. Varlığımda uşaqlıq xatirələrim, qarmaqarışıq fikirlər qaynaşırdı. Düşmən əlində olan kəndim, yurdum, onun buz bulaqları, sarf qayaları, göy meşələri ... gözüm önündə saf dağ çayında canlanırdı. Axar-baxarlı kəndim yaddaşımda əbədi yaşayacaq...



***Elsiz mənim nə günüm,***
***Çıxmaz səsim, nə ünüm.***
***Ana yurdunu sevən***
***Oğlun başına dönüm.***

## NƏRMİN XANIMLA MÜSAHİBƏ

***Cənab sərkar, xalq məsləhətçisi Ağa bəy Yadigarov ərəb, fars və türk əlifbasının dəyişilməsi haqqında fikirlərini yazıb, onları oxumağı məndən xahiş etmişdir ki, onların haqq və ya yanlış olmasına dair fikrimi yazılı surətdə ona təqdim edəm. Ağa bəy Yadigarovun yazısının məzmunu bundan ibarətdir ki, İslam xalqlarının Avropa xalqlarından geri qalmasının səbəbi əlifbadakı nöqsanlardır. Çünki bizim uşaqlarımız bir neçə il vaxtlarını ancaq yazını oxumağa sərf edib, elm öyrənə bilmirlər. O yazır ki, Abbasilərin xilafəti və ərəblərin səltənəti də elmləri öyrənməyin mümkün olmaması və oxumaq işinin çətinliyi nəticəsində aradan getmişdir.***

***MİrzəFətəli Axundovun Şahzadə***
***Fərhad Mirzə Qacara məktubundan***

General babasının sənədləri ilə tanış olmaq üçün Rəna xanımla yenidən görüşdüm. O dedi ki, Yadigarovun şəklini Azərbaycan Dövlət Tarix Muzeyinin elmi işçisi Nərmin xanım Tahirzadəyə göstərim, bəlkə, o tanıdı. Məncə, o, mərhum Sara xanım Talışinskaya-Xürrəmoviçlə görüşmüşdü. Sara xanım general Mirkazım xanın qızı idi. O, inqilabdan əvvəl Kiyev Universitetinin hüquq fakültəsini bitirmişdi…

Belə axtarışlarda həmişə köməyimə çatan xeyirxah Nərmin xanım məni neçə aylıq intizardan qurtardı. Şəklə baxan kimi:

- Bu, Ağa bəy Yadigarovdur, - dedi,- Rusiyada təhsil almış ilk azərbaycanlı ziyalılardan biridir. M.F. Axundovun əlifba islahatı haqqında olan məktublarının birində Ağa bəy Yadigarovun adının çəkilməsinə baxmayaraq, onun həyat və fəaliyyəti 1966-cı ilə qədər öyrənilməmişdi. Mən elmi işimlə əlaqədar Gürcüstan, Moskva və Leninqrad arxivlərində işləyəndə Ağa bəyin fəaliyyəti haqqında material toplaya bildim. Həmin ili Akademiyanın "Elmi əsərlər"ində "Peterburq universitetinin ilk azərbaycanlı məzunu" adlı elmi məqalə ilə çıxış etdim.

— Nərmin xanım, XIX əsrin əvvəllərində bizim Rusiya ilə əlaqələrimiz o qədər də yaxşı deyildi. Mən şəxsən bunun ilkin səbəbini mənzilin uzaqlığında, bir də din ayrılığında görürəm. Bizə çox az ziyalımızın o vaxtlar Rusiyada yaşayıb yaratması məlumdur. Mirzə Kazım bəy, Mirzə Cəfər Topçubaşov, İbrahim Rəhimov, Mahmud İsmayılov və başqaları. Bəs necə olub ki, Ağa bəy Ya-

digarov o illərdə Peterburqa gedib çıxıb? Yəqin ki, bunun bir səbəkarı, vasitəçisi olub?

— Ağa bəy Yadigarovun Peterburqa getməsinin səbəbkarı məşhur şərqşünas Mirzə Cəfər Topçubaşovdur. Bu görkəmli alim Ağa bəyin doğma dayısıdır. Arxiv sənədləri göstərir ki, 1844-cü ilin yazında Peterburq Universitetinin Şərq şöbəsinə Cənubi Qafqaz gənclərinin nümayəndələrini göndərmək üçün heç bir perspektiv olmayanda universitetin fars dilçiliyi kafedrasının professoru Mirzə Cəfər Topçubaşov həmin şöbəyə öz bacısı oğlu Ağa bəy Yadigarovun dövlət xərci ilə qəbul edilməsi barədə xahişlə müraciət edib. Ağa bəy Yadigarov həmin ilin yayında üçüncü dərəcəli Peterburq gimnazıyasını bitirmişdi.

Yadigarov haqqında bioqrafik məlumat son dərəcə az və natamamdır. Əldə olan sənədlərə əsasən, Ağa bəy Yadigarov 1823-cü ildə Gürcüstanda doğulub. Peterburq gimnaziyasına 1837-ci ildə daxil olub. 1844-cü il iyun ayınadək ümumi əsaslarla gimnaziya nəzdindəki pansionda tərbiyə alıb. Uzun yazışmalardan sonra imperatorun razılığı ilə professor M.C.Topçubaşovun xahişi nəzərə alınıb, Ağa bəy Yadigarovun dövlət xərci ilə oxuması üçün Peterburq Universitetinin rektoruna sərəncam verilib.

Ağa bəy Yadigarov Peterburq gimnaziyasını bitirdiyinə görə qəbul imtahanları vermədən universitetinin Şərq şöbəsinə daxil olub. 1844-cü il iyulun 22-dən Ağa bəy universitetin nəzdindəki pansiona götürülüb.

1848-ci ildə Yadigarov imtahanları əla qiymətlərlə verib universiteti bitirir. Alimlik dərəcəsini yerinə yetirdiyinə görə Şərq dilçiliyi üzrə namizəd adı alır. Universiteti bitirdikdən sonra Ağa bəy Yadigarov hələ bir müddət Peterburqda, çarın müsəlman komandasının konvoy komandiri, rotmistr qardaşı İsrafil bəy Yadigarovun yanında qalır.

— Bəs Qafqazdakı fəaliyyətinə nə vaxtdan başlayıb, bu barədə məlumat əldə edə bilmisinizmi?

1848-ci ilin may ayında Ağa bəy Yadigarov Qafqaz canişinin sərəncamına göndərilir. Onu canişinlikdə dəftərxana şöbəsinin müdir müavini təyin edirlər. O, burada 35 ildən çox xidmət etmişdir. Hərtərəfli təhsil almış Ağa bəy Yadigarov öz bilik və bacarığından istifadə üçün imkan tapa bilməmişdir. Şərq və Rus mədəniyyətinə yaxından bələd olan Ağa bəy öz milli mədəniyyətini də dərindən bilir, ona hədsiz hörmət bəsləyirdi. Xalqının bu sahədə ehtiyaclarını da yaxşı başa düşürdü. O, əlifba islahatı uğrunda böyük mütəfəkkir Mirzə Fətəli Axundovla birgə çalışmışdır. M.F.Axundovun şəhadətinə görə Ağa bəy Yadigarov ərəb əlifbasının yeni, daha mükəmməl əlifba il əvəz edilməsi haqqında fikirlərini ifadə edən bir kitabça da yazmışdır.



— Nərmin xanım, otuz beş ildən çox Qafqaz canişinliyində saray müşaviri kimi faliyyət göstərən Yadigarovun xidməti dövlət tərəfindən layiqincə qiymətləndirilibmi?

— İnamla demək olar ki, yox! Sənədlər göstərir ki, Ağa bəy Yadigarov çox sadə bir insan olub,vəzifəyə və təltifata can atmayıb. O, əvvəllər dəftərxanada, sonra isə canişinliyin baş idarəsində qulluq etmişdir. Onun xidməti müsəlmanlar üçün təsis edilmiş dördüncü dərəcəli "Müqqədəs Vladimir" ordeni ilə qiymətləndrilib.

1853-56-cı illərdə Krım müharibəsindən xatirə olaraq verilmiş Andreyev lenti üzərindəki bürünc medal, onun 35 ildən çox xidməti müqabilində yeganə təltifatı olub.

Uzun axtarışlardan sonra mən Ağa bəy Yadigarovun nəvələrini və onun böyük bacısı Məsumə xanımın uşaqlarını tapa bildim. Onlardan böyüyü - Sara xanım Talışinskaya-Xürrəmoviç dedi ki, babam XIX əsrin 90-cı illərində Tiflisdə vəba epidemiyasından vəfat etmişdir. Həqiqətən də 1892-ci ildə Qafqazda güclü vəba epidemiyası yayılmışdı. Ölüm tarixini belə dəqiqləşdirdik. Yadigarovun ömrünün son illəri haqqında isə, demək olar ki, heç nə məlum deyil.

Yadigarovlar nəsli əsil-nəcabəti olan üç ziyalı ailə ilə yaxın qohum olub: Talışxanovlar, Vəkilovlar və Vəzirovlar. Hər üç nəsil də xalqımızın maarif, mədəniyyət və hərb tarixinə görkəmli oğullar bəxş edib.

General-mayor Mirkazım xan Talışxanovun nəvəsi Rəna xanım Axundzadədə babasının 1905-ci il martın 1-də tərtib olunmuş "Xidmət kitabçası" saxlanılır. Onun "Ailə vəziyyəti" bölməsində oxuyuruq:

"Tiflisli saray müşaviri Ağa bəy Yadigarovun qızı Məsumə xanımla Mirkazım xan 1888-ci ildə ailə qurmuşdur. Dörd uşaq atasıdır. Oğlu Mirəli xan 1895-ci il sentyabrın 9-da, Sarabəyim 1890-cı il fevralın 7-də, Liyabəyim 1891-ci il fevralın 8-də, Züleyxa xanım 1892-ci il avqustun 3-də anadan olmuşdur".

Məsumə xanım Yadigarova (vəfatı - 1923-cü il) Zaqafqaziya Qadın xeyriyyə Cəmiyyətinin üzvü olub. Onların ortancıl qızı Liyabəyim topoqraf-general İbrahim ağa Vəkilovun böyük oğlu Faris bəyin həyat yoldaşı idi.

***Sözardı:*** General Yadigarov qardaşları haqqında ilk dəfə 1985-ci ildə yazmışdım. Həmin yazı "Sovet Gürcüstanı" (4 noyabr 1989-cu il) və "Bərəkət" qəzetində (8 may 1991-ci il), 1991-ci ildə "Azərbaycan generalları" kitabında və "Borçalı" jurnalında (1993-cü il, № 1) nəşr olunub.

Müstəqillik qazanıldıqdan sonra açılan arxivlər və 1999-cu ildə Gürcüstan Mərkəzi Dövlət Arxivindən topladığım faktlara görə bu mövzuya yenidən qayıtmalı oldum. Zənnimcə, bu yazını da belə bir nüfuzlu nəsil haqqında tam hesab etmək olmaz. Ona görə ki, çoxsaylı Yadigaroğullarının əksəriyyətinin son taleyi hələ də məlum deyil.

1912-ci ildə Tiflisdə nəşr olunmuş "Kavkazskiy kalendar" kitabından sətirlər:

— ***Nadir bəy Yadigarov*** - Qafqaz Canişinliyində hərbi müşavir. Poruçik rütbəsində.

— ***Abuzər bəy Yadigarov*** - Poruçik rütbəsində Qafqaz Canişinliyində xidmət edir.

— ***Əli bəy Yadigarov*** - Aşağı Acariyanın Batumi şəhərində milis rəisi.

— ***Davud bəy Yadigarov*** - Tiflisdə yerləşən 17-ci Nijeqorod draqun polkunun ştabs-rotmistri.

— ***İsrafil bəy Həsən bəy oğlu Yadigarov*** - 17-ci Nijeqorod draqun alayının rotmistri.

# GENERAL-QUBERNATOR MƏMMƏD KOXANIN ACI TALEYİ

***Ömrün yollarında çox əsrarəngiz mənzərələrin şahidi olmuşam: keçilməz meşələr, yamyaşıl talalar, başı buludlara dəyən dağlar görmüşəm. Gördükcə, seyr etdikcə gözümdə Avey yaşayıb, Avey ucalıb. Avey dağı varlığıma hopub, səyyar xəyalım ildırım sür'ətilə ona qanadlanıb, ona uçub. Bu anlarda Daş Salahlı igidlərilə həmdərd, həmsöhbət olmuşam.***

***Müəllif***




***(1859-1933)***

Gözlərindən qəm yağan qocanın fotoşəkli bir müddət yazı stolumun üstündən "mənə baxdı". Düşünürdüm: onu otağımın harasından asım ki, bizə gələn qonaqlar dərhal görsünlər. İstəyirdim və çox arzu edirdim ki, bu şəkildəki qocanı hamı görüb tanısın. Mənim nəslimdə onun ancaq adı yaşayırdı, bir də mərdliyi barədə danışılan əfsanəyə bənzər əhvalatlar. Amma indiyədək heç kəs, hətta yaxın qohumlar belə onun fotoşəklini görməmişdi. Onu görüb xatırlayan qocaların çoxusu həyatdan getmişdi. Nəvənəticələrin yaddaşında isə mərd babamız yavaş-yavaş unudulurdu. Tapılan yeganə şəkil bizə onu elə bil yenidən qaytardı. Üstəlik də yaralarımızı göynətdi.

Milli Təhlükəsizlik Nazirliyinin arxivindən aşkar olunan keçmiş Qazax general-qubernatoru Məmməd Koxa Mahmud oğlunun (1859-1933) fotoşəkli danışa bilsəydi, biz çox mətləblərdən hali olardıq. Bu nadir fotoşəklin

bizim nəslə və bütün Daş Salahlı camaatına nə qədər sevinc bəxş etdiyini təsəvvür etmək mümkün deyil.

Altmış beş il əvvəl 1929-cu ildə çəkilən bu fotoşəklə baxanda adamın ürəyi göynəyir. İnsanın üzündə, baxışında nə qədər qəm, kədər olarmış, İlahi... Ovuc içi boyda şəkli böyütdürdüm. Sənətkar dostum Seyfəddin Məmmədvəliyev onun surətini elə ustalıqla çıxartdı ki, üstündən zərif ağ xətlər gedən köynəyinin rəngi belə indi aydın seçilir. Biri üzbəüz, digəri yandan çəkilən şəkildə Məmməd Koxanın bütün dərdi-qəmini kilidlənmiş dodaqlarından, adamın yeddi qatını dəlib keçən baxışlarından görmək olurdu. Köynəyinə yapışdırılmış "801" rəqəmi onun dustaq nömrəsidir. Bəli, Daş Salahlının dustaq Koxasının, Qazax general-qubernatorunun bəxtinə belə bir nömrə düşüb. 1929-cu il sentyabrın 14-də yetmiş yaşlı qocanı Sovet hökumətinin düşməni kimi həbs ediblər. Vaxtilə Qarayazıda, Ceyrançöldə, Mehrab düzündə kəhər at belində gəzən igidin əl-ayağı qandallanaraq dustaq edilib. Niyə, nə üçün, hansı günahın sahibi idi Məmməd Koxa?

Siyasi idarənin əməkdaşı Revaz Xaçikyan bu suallara "əsaslı" cavab tapıb: 1914-1918-ci illərdə general-qubernator olub, mülkədar - ağa nəslindəndir və ən başlıcası, Qazax mahalındakı "Həqiqət Ordusu" adlı gizli antisovet təşkilatının fəal iştirakçısıdır. Ona görə də Daş Salahlı sakini, yetmiş yaşlı Məmməd Koxa Mahmud oğlu, yenə həmin kəndin sakini, səksən yaşlı Miralayev Mustafa ağa (1849-1932), Poylu kənd sakini Rəhim bəy Hacıqasımov, Aslanbəyli kəndinin ağası, doxsan yaşlı Aşır Heyne oğlu, Dəmirçilər kənd sakini Mehdiyev Mustafa ağa Mehdi ağa oğlu cinayət əməllərinə görə (26 nəfərlə birlikdə) Azərbaycan SSR Cinayət Məcəlləsinin 64-cü maddəsilə həbs ediliblər.

***

Totalitar Sovet rejimində həmişə tənqidə məruz qalmış görkəmli el oğlu Məmməd Koxa unudulub yaddan çıxmışdır. Yaxşı ki, hələ ilk gəncliyimdən qocalarımızdan və onun az saylı silahdaşlarından bəzi faktları öyrənə bilmişdim. Onun haqqında yazarkən ən çox mənim köməyimə məhz onların vaxtilə söylədikləri əhvalatlar çatdı. Açığını deyim qohumluq marağı məndə Məmməd Koxa haqqında material toplamağa, yazmağa yanğı hissi hələ o vaxtdan yaranmışdı. Heyif, çox heyif ki, Əbdüləzim Həsənov, İsmayıl Mahmudov, Məmiş Nəziroğlu, Şivli oğlu Məhəmməd, Zurab oğlu Məcid və onlarla bu öncül şəxsiyyəti sevənlər əsərin çapını görə bilmədilər.

Bu qoca dünyanın pəncərəsindən çox adam baxıb keçib. Minlər, milyonlar unudulub, yaddan çıxıb. Vaxtilə Azərbaycanın bütövlüyü uğrunda kəhər at belində daşnak ermənilərlə döyüşlər aparan Məmməd Koxa kimi vətənpərvəri unutmağa haqqımız yoxdur. Xeyirxah və vətənpərvər adamların xatirəsi əbədi yaşamalıdır. Fikrimizcə bunun üçün bir yol, bir vasitə var. Hər bir mərdin obrazı ədəbiyyata, tarixə gətirilməli və əbədi yaşamalıdır. Onun qəhrəmanlığının gənclərimiz üçün tərbimyəvi əhəmiyyəti olduğunu labüd hesab edirəm.

Əgər Məmməd Koxa obrazını yaratmaqla oxucuya nəsə deyə bilmişəmsə, onda elə hesab edəcəyəm ki, Azərbaycanın minlərlə igidlərindən biri haqqında öz borcumu yerinə yetirmişəm.



*Kursant Həmid bəy Mahmudov. Tiflis, 1912-ci il*

"Məmməd Koxa əhvalatı"nın mübahisə doğuracağını bəri başdan bildiyim üçün bu yazıda Qazax ağsaqqallarının xatirələrinə arxalanmışam. Çalışmışam ki, olub-keçənləri olduğu kimi yazım. Ona görə də uzun illər boyu tələsmədən, arxivlərdə araşdırmalar aparmışam. O hadisələrin şahidi olan qocalarla görüşüb söhbət etmişəm. Nə yaxşı ki, aşkarlıq da gəlib çıxdı. Yoxsa tarix bu əhvalatların üstündən sükutla keçər, el arasında danışılan bu hadisələr də həmişəlik bağlı qalardı.

İşdir, müəyyən fakt və hadisələrlə bağlı ziddiyyət doğuran fikirlər ortaya çıxsa, təhriflər müəyyən edilsə, bu barədə mənə mə'lumat verəcək yoldaşlara irəlicədən təşəkkürümü bildirirəm. Mərd babamız Məmməd Koxa Mahmud oğlu barədə susmağa haqqım olmadığı üçün bu əhvalatları qələmə almağı özümə borc bildim.

## MƏMMƏD KOXA ƏHVALATI

***Daş Salahlı kəndində uzun illər koxalıq etmiş çox müdrik, nüfuzlu bir şəxs vardı. Onun adına Məmməd Koxa deyərdilər.***

***Mirvarid xanım Dilbazi,***
***Xalq şairi.***

***Qiymət qoyar aca, toxa,***
***Alardı hədəfə, oxa,***
***Daş Salahlı Məmməd Koxa,***
***Səni açıq bazar gördüm.***

***HƏSƏNƏLİ BƏY ƏSGƏRXANOV,***
***Qazax pristavı, 1916-cı il.***

Daş Salahlıda nər biləkli, düz qamətli, əyrilərə yağı kəsilən bir kişi olub. El qeyrəti, oba təəssübü çəkən Məmməd Koxa Mahmud oğlu Mahmudovu müdrik yaşlı qocalarımız xeyir-şər məclislərində "qeyrətli kişi", "çörəkli kişi" kimi tez-tez yad edirlər. 1914-20-ci illərdə daşnak dəstələrinin burnunu ovduğuna, haqq sözündə dönməz olduğuna görə ona el arasında "Boz Məmməd" də deyiblər. Otuzuncu illərdə cah-cəlalı dağılan, sürgün olunan Məmməd Koxanın "günahı" hürriyyət vaxtı Qazaxda qubernator olmağı idi.

Qırx ilə yaxın Daş Salahlıda kənd koxası olan Məmməd baba doğma kəndinin xoş güzəranı üçün az iş görməyib. O, XIX əsrin sonlarında Tiflisə, Qoriyə gedib Zaqafqaziya müftisi Mirzə Hüseyn Əfəndi Qayıbzadə ilə, Qori Seminariyasının Azərbaycan şö'bəsinin müdiri Aleksey Osipoviç Çernyayevski və görkəmli maarif xadimi Firidun bəy Köçərli ilə görüşüb, öz xərcinə kənddə səkkiz otaqlı ibtidai məktəb açmağa nail olub. Vaxtilə həmin məktəbin mə'zunlarından sağ qalanlar var.

Məmməd Koxanın xeyirxah əməllərinin nişanələri indi də qalır. O, Daş Salahlıda dəftərxana binası tikdirib, 1914-cü ildə Avey dağından kəndə bulaq çəkdirib - daş salahlılar indi də bu bulağın suyundan içirlər. Bulağın açılışına məşhur el aşığı Əsəd Rzayevi də'vət edib. Üç gün, üç gecə keçən bu el şənliyində aşıq Əsəd Qazax bəylərinin, Daş Salahlı igidlərinin vəsfini saza-sözə çəkib.

*Daş Salahlı Məmməd Koxa,*
*Gəl səni mərdanə deyim.*
*Eşidib hər qubernat*
*Əvvəl İrəvana deyim.*
*Gizlətməyim bu vəsfini,*
*Şəril[1]-Naxçıvana deyim.*
*Kəmərini qurşamağı*
*Ol şahi-mərdanə deyim.*

...1917-ci ildə, fevral-burjua inqilabından sonra imperiyanın hər yerində olduğu kimi, Azərbaycanın qərbindəki Qazax mahalında da hərc-mərclik yaranır, oğurluq, soyğunçuluq həddini aşır. Hamı tüfəngli gəzir, kimin kimdən xoşu gəlmirsə, yerindəcə güllələyir. Basqınlar, ev yarmaq, naxır-sürü oğurlamaq dəb düşür. Obada talançılıqdan fəlakətlər törəyir. Ziyalılar, başbilənlər kimi qubernator seçirlərsə də, vəziyyət düzəlmir ki, düzəlmir... Mahalda ikitirəlikdən günahsız qanlar, haqsız ölümlər çoxalır.

Obanın tarixinin mahir bilicisi, Daş Salahlı ağsaqqalı Əhmədağa Paşayev:

- Belə bir vaxtda Tiflisdəki menşevik hökuməti iddia irəli sürür ki, Şəmkir çayından bəri olan sahələr Gürcüstana qatılmalıdır, çünki Nadir şahın 1736-cı il fərmanına[2] əsasən həmin ərazilər Gürcüstan valisinin ixtiyarına verilib.

Xalq belə qarmaqarışıqlıqlardan, ərazi iddiasından hiddətlənmişdi. Qazağın məşhur bəyləri, vurub-yıxan qoçuları daha dözə bilməyib xalq arasında tanınmış şəxs olan Yuxarı Salahlı kənd sakini Məmmədağa Vəkilovun yanına məsləhət-məşvərətə yığışdılar. Məclisdə təklif olundu ki, bir nəfər rəhbər seçilsin və belə bir ağır zamanda qəzanı idarə etsin. Yerbəyerdən qəza pristavı vəzifəsində işləmiş polkovnik Cahangir bəy Şıxlinskinin namizədliyi irəli sürüldü. Cahangir bəy isə öz namizədliyini geri götürdü və məsləhət gördü ki, bu vəzifəyə bəylərdən yox, rəiyyətdən seçilsin, çünki indiki vəziyyət belə tələb edir.

Qazax mahalı quberniya olmasa da, nəhayət, çox söz-söhbətdən sonra Daş Salahlı Məmməd Koxaya qubernator adı verərək Qazax mahalına inzibati rəhbər seçdilər. Məmməd Koxa gecəni gündüzə qataraq çalışırdı ki, əminamanlığı qorusun. O, cəzaları özü təyin edirdi. Prokuror da, məhkəmə

1. Şərur.
2. Nadir şah belə bir fərmanı ona görə verib ki, 1736-cı ildə Muğanın Cavad şəhərində keçirdiyi özünü şahseçmə qurultayına qazaxlıların nümayəndəsi gəlməmişdi - Ş.N.

də özü idi. Quldurluq edənlərin gözünü qorxutmaq üçün bir nəfəri soyğunçuluq üstündə qulağından teleqraf dirəyinə mıxlatmışdı...

Tiflis menşevikləri qazaxlıların onların əmrlərinə tabe olmamaqlarından, özbaşınalıqlarından qəzəblənir, torpaq iddiasını daha israrla irəli sürürdülər. Məmməd Koxa savadsız olsa da, çox böyük milli qürura malik idi. Ona görə də gürcüləri saya salmırdı. Hətta bir dəfə torpaq iddiası ilə yanına gələn gürcü elçilərini qovmuş, vaxtilə Qazağı Gürcüstana ilhaq edən Nadir şahı da söymüşdü.

Gürcüstan menşevik hökuməti hərbi müdaxiləyə hazırlaşmağa başladı. Gürcü zabitləri Tiflisdən və ətraf kəndlərdən gürcülərin əlaltısı olan müsəlmanlardan əsgəri hissə düzəldib, qısa təlimdən sonra Ağstafa tərəfdən Qazağa hücum etdilər. Şiddətli mübarizə başlandı. Məmməd Koxadan narazı olan oğrular, əyrilər də ayağa qalxdı. 1918-ci ilin may ayında olan döyüşlərdə gürcülər şəhərin bir sıra mühüm ob-yektlərini ələ keçirdilər. Axşam qaranlıq çökəndə Qazağın din xadimi Mirseyid ağa əlində ağ bayraq Məmməd Koxanın qərargahına gəldi. Dedi ki, ay Məmməd Koxa, çıx şəhərdən, arada camaat qırılır, görürsən ki, bu hənə o hənadan deyil. Bədbəxt müsəlman özünü içəridən "yeyir", qardaş-qardaşı qırır. Arada gavur barmağı var... İgid Məmməd Koxa bir qədər məsləhətdən sonra cavab verdi ki, heç vaxt təslim olmayacağam, amma gecə yarı müvəqqəti şəhərdən çıxaram. Ona görə ki, düşmən gülləsini atan özümüzünküdür...

Beləliklə, qubernator Məmməd Koxa mərdi-mərdanə çıxıb getdi. Qazax şəhəri isə topun, pulemyotun və satqın adamların köməyi ilə gürcülər tərəfindən müvəqqəti alındı...

## MƏMMƏD KOXANIN SƏXAVƏTİ

***Ağılla və halallıqla qazanılan çörəkdən***
***kasıba, yetim-yesirə pay vermək ən böyük savabdır.***

1911-ci ildə Sibir sürgünündən qayıdan bir qaraçöplü Qazağa kimi zorgüclə gəlib çıxır. O qədər yoxsul imiş ki, evinə gedib çatmaq üçün cibində bir qəpiyi də yoxmuş. Bir xeyirxah ona məsləhət görür ki, bu gün bazardı, get ora. Daş Salahlı Məmməd Koxanı soruş, tap. Pul-para üçün ağız açsan, əl tutan adamdı, kömək eləyər. Daş Salahlı Məmməd deyə-deyə axtaran qaraçöplüyə Cəbioğlu Məmmədi nişan verirlər.

Cəbioğlu Məmməd şübhəli-şübhəli yuxarıdan-aşağı sürgündən qayıdana baxır. Elə zənn edir ki, bazarın lotuları sataşmaq üçün bu yoxsulu onun üstünə göndəriblər. Fəqirlə bir neçə kəlmə kəsəndən sonra:

- Oğul, - deyir, - gəlməyinə düz gəlibsən, sənə düz nişan veriblər. Pulum, varım boldu. Qapımda yüzə yaxın qızıl yelinli inəyim sağılır, kəhər erkək atlarım kişnəşir, subay malımın, qoyun sürümün sayını-hesabını bilmirəm... Amma mənim əlim pul verməyə öyrəşməyib, almağa, yığmağa öyrəşib. Mən Cəbioğlu Məmmədəm. Pul verən, əl tutan bizim əmizadə Koxa Mahmudoğlu Məmməddi, pulunun dəlisi odu. Bəri dur, onu göstərim. Odey, xəz kürklü, qarayanız, qara bığlı Məmməd Koxadı, iki nəfərlə söhbət edir. Get, pulu ondan istə.

Qaraçöplü gözləyir ki, Məmməd Koxanın yanındakılar aralanıb getsin, sonra yaxınlaşıb sözünü desin. Məmməd Koxa bir az aralıda gəzinən fəqirin ona nəsə demək istədiyini hiss edib:

- Oğul, - deyir, - nəsə sözlü adama oxşayırsan, yaxın gəl görüm kimsən, nə istəyin var?

- Ay ağa, dustaqlıqdan qayıdıram, yol pulum qurtarıb, mənə bir az xərclik ver, gedim evə çıxım.

Məmməd Koxa kürkünün ətəyini geri atıb əlini cibinə salır, bir dəstə pul çıxardıb saymadan hamısını ona verir.

Dustaq özünə bir dəst paltar və at alıb yola düşür. Bir ay sonra geyimli-gecimli, boynu qotazlı erkəklərlə dörd fayton adam Daş Salahlıya gəlib Məmməd Koxanın qonağı olurlar. Onlar dustaq qaraçöplünün qohumları idi. Sən demə, sürgündən qayıdan qaraçöplü də əsilli-nəsilli ailədən imiş. Bu əsl-nəcabətli ailənin dostluğu 1920-ci il bolşevik çevirişinə qədər davam edib.

***

***Məhəmməd Pənahoğlu***:- Bir dəfə Məmməd Koxa kasıblara, yetim-yesirə taxıl paylayırdı. Məni görüb çağırdı.

-Buralarda boş-boşuna nə hərlənirsən? Get, çuvaldan, kisədən bir qab gətir, taxıl verim, yetim oğlansan, aparıb üyüdüb yeyərsən.

İki çuval tapıb gətirdim. Koxa doldurtdurdu. Dolu çuvalları qırağa qoyub yanında durmuşdum.

- Apar, niyə durmusan? -dedi, Koxa.

- Koxa əmi,- dedim, taxıla görə çox sağ ol. Neyləyirəm taxılı, evə aparanda başıma bir qapaz vurub əlimdən alacaqlar, mənə bir şey verməyəcəklər. Əynim-başım pis gündədi, istəyirəm satım özümə paltar alım.

- Buraya gətir- dedi, özün də dur yanımda, bu saat o şiş papaqlardan birinə satacam.

Satdı. Pulları da verdi mənə:

-Get,-dedi, özünə pal-paltar al..

***

***Məmməd Koxanın qardaşı oğlu İsmayıl Həsən oğlu Mahmudov:***

- Şivlioğlu Məhəmməd Daş Salahlının mötəbər, nurani kişilərindən idi. Koxanın ürək sirdaşı, səmimi və sadiq gənclik dostu olmuşdu. Məmməd Koxa Qazağa qubernator gedəndə kəndin koxalıq talqasını ona verib. Şura hökuməti Koxanı sürgünə göndərəndə də onunla əlaqəni kəsməyib, məktublaşıb.

Əmim Məmməd Koxa sürgündən qayıdanda xəstəhal idi. Şivlioğlu hər gün ona baş çəkər, bostanından qarpız, yemiş gətirər, ötən günlərdən şirin-şirin söhbət edib dostunu darıxmağa qoymazdı.

Şivlioğlu Məhəmməd danışırdı ki, bilmirəm on dördüncü il idi, yoxsa on beş. Bir gün Koxa mənə dedi ki, a Məhəmməd, Həmid üçün yaman darıxmışam, yığış gedək görək uşaq nə təhərdi. Onda Həmid Tiflisdə gimnaziyada oxuyurdu.


*(1924-2003)*

Ağstafadan Tiflis qatarına mindik. Koxa qabaqda mən də dalınca vaqonun içi ilə yerimizə gedirdik. Birdən Koxa əyilib yerdən bir parça çörək götürdü.çörəyi üfürüb, əlilə tozunu sildi. Başladı ac adamlar kimi şirin-şirin yeməyə. Üzbəüz oturan iki nəfər ona diqqətlə baxırdılar. Onlardan biri:

- A kişi, -dedi, o tozlu-torpaqlı çörəyi necə yeyirsən, ayıb deyilmi? Bir abbası pulun yoxdu çörək alıb yeyəsən?

Koxa ağayana əyləşən səliqəli geyimli kişilərin sözünə əhəmiyyət vermədi. Çörəyi yeyib qurtardı, əlini cibinə salıb xeyli pul çıxartdı, arasından bir yüzlük götürüb əlini, ağzını sildi, yüzlüyü açıq pəncərədən çölə atdı. Sonra dönüb bizə diqqətlə baxanlara:

-Ağalar,-dedi, pul əl çirkidi, çörək isə bərəkətdi. Çörəyə həmişə, hər yerdə hörmət lazımdır. Çörəyə hörmət eləməyənin evində bərəkət olmaz.

Bir azdan bizim kupemizə gələn hər iki ağa Koxa ilə tanış oldular. Kobud danışdıqlarına görə ondan üzr istədilər.

Tiflisə çatan kimi bir başa Həmidin direktorunun yanına getdi. Direktorla dost, sirdaş kimi görüşüb söhbət elədi. Həmidlə oxuyan kurs yoldaşlarını da götürüb restorana qonaq apardı. Təkcə Həmidə yox, azərbaycanlı uşaqların hamısına xərclik verdi.

***

***Dəllək Əhmədin oğlu Hapı***:

- Atam çox vaxt Məmməd Koxanın üzünü, başını qırxmağa məni göndərərdi. Hər həftə Koxa çağırtdırardı, ülgüclə üzünü qırxdırardı. Haqqımı da artıqlaması ilə verərdi.

Bir dəfə üzünü, başını qırxıb qurtardım. Getmək istəyirdim.

Məmməd Koxa:

-Bir dəqiqə əylən-dedi, getmə, a bala.

Arvadı Bahar xanımı çağırdı.

- O dəri gödəkçəni bu oğlana ver- dedi, qabaqdan qış gəlir, kasıb oğlanda qoy geyinib kef eləsin.

Bahar xanım duruxub, sakitcə Koxaya nəsə dedi. Məmməd Koxa ona sərt-sərt baxıb:

-Nə olsun, -dedi bahalıdı, Tiflisə gedəndə birini də alaram. Get, gödəkçəni gətir.

Gödəkçəni qoltuğuma vurub evə gəldim. Geyindim, əlimi cibimə salanda gördüm yeddi abbası pul var. Tez pulları bir dəsmala büküb geri qayıtdım. Koxa evdə idi. Məni görən kimi:

-A dəllək oğlu, belə xeyir ola, tez geri qayıdıb gəlməkdə, mənimlə işin var.

-Koxa əmi,- dedim gödəkçənin cibində yeddi abbası pulunuz qalıb onu gətirmişəm.

Məmməd əmi gülümsünüb:

- Əyə-dedi, nahaq zəhmət çəkib qayıdıbsan. O pullar sənin qismətindi qabağına çıxıb, oğul. Apar özünə şalvar-köynək al.

***

***Səksən iki yaşlı müəllim Ərəş İlya oğlu Osmanovun dediklərindən:***

- Daş Salahlıda iki qardaş vardı: Omar və Osman, hər ikisi də Məmməd Koxanın nökəri olmuşdu. Kolxoz vaxtı Osman təsərrüfatda işləyirdi, Omar

naxıra gedirdi. Bir dəfə Osman kişidən soruşduq ki, vaxtilə Məmməd Koxanın nökəri olubsan, ondamı yaxşı dolanırdın yoxsa indi.

-A bala,- dedi özünüz görürsünüz səhərdən axşama kimi çöldə işləyirik. Nə əynimizdə var, nə də qarnımızda. Bütün ili çalışırıq bu kolxoz andıra, ilin başında da deyirlər ki, borclusan. Bir sözlə qısır əmək gününə işləyirik.

Məmməd Koxanın mal-qarasına gedəndə südümüz, qatığımız, yağ-pendirimiz bol olardı. İldə qış azuqəmizi, taxılımızı verərdi. Əməlli-başlı dolanmamız vardı.

Bir də görürdün Məmməd Koxa qardaşım Omarı çağırırdı.

-Gedin,- deyirdi o filan cöngəni kəsib bölüşdürün. Bir bişrim də bizə göndərin.

Kəsirdik cöngəni, bölüşdürürdük. İllik, aylıq haqqımız, haqq yerində qalırdı. Kişi kimi həmişə də vaxtında verərdi. Mənim toğlumu yemisiniz, cöngəmi kəsib aparmısınız pulunu haqqınızdan çıxıram. Mərd Məmməd Koxada elə xasiyyət yox idi.

Yadıma gəlir ki, Məmməd Koxa çölə yanımıza gələndə əlini salırdı cibinə bir xeyli pul verirdi bizə. Və deyirdi ki, gedin özünüzə paltar alın, əyin-başınızı abra salın.

"İndi elə səxavətli adam hardadı? Əli açıq, malının, pulunun" düşməni Məmməd Koxada əsl kişi səxavəti vardı.



Yaylaqda, ya da aranda onun sürüsünü qırxanda qırxınçılara deyərdi: "Tez olun, qardaşım Avdı gəlib çıxmamış payınızı götürün, o gələndə sizə bir tikə də yun verməyəcək".

1912-ci ildə Məmməd baba yeganə oğlu Həmid bəyi Tiflisdəki birinci klassik gimnaziyaya oxumağa göndərir. Həmid bəy həmyerlisi Vəli ağa Dilbazi ilə birgə təhsil almışdı. Onların 1913-cü ildə birgə çəkilmiş fotoşəkli də yadigar qalıb. 1916-ci ildə Tiflis gimnaziyasını bitirən Həmid bəy atasının məsləhəti ilə azərbaycanlı gənclər üçün Gəncədə yenicə açılmış "Hərbiyyə məktəbi"nə qəbul olunur.

1919-cu il mayın beşində həmin məktəbin ilk buraxılışı oldu. Hərb naziri Səməd bəy Mehmandarovun 236 nömrəli əmri ilə bir qrup yunker praporşik rütbəsilə təltif edildi. Məktəbi birinci dərəcə ilə bitirən Həmid bəy Mahmudova da praporşik rütbəsi verildi. Hərbi xidmətini davam etdirmək üçün o, üçüncü Şəki süvari alayına göndərildi.

İyirminci ilin aprelində zabit Həmid bəy Gəncə üsyanında iştirak edir. Vətənini yadlardan xilas etmək istəyən Həmid bəyin faciəsi də o gündən başlayır. O, Vətənində qaçaq düşür. Başına topladığı zabit dostları ilə Qarayazı, Tatlı meşələrində, Avey və Odun dağlarında düşmənə qarşı vuruşur. Şura hökumətinin təşkil etdiyi erməni milis dəstəsi onun dəstəsini qarabaqara tə’qib edir. Həmid bəyə görə atası Məmməd Koxa Sibirə sürgün olunur. Nəslin başıpapaqlıları günün-günorta çağı məhkəməsiz güllələnir. Bir sözlə, 1926-cı ildən başlayaraq, Məmməd Koxanın nəslinə kor gözlü bəla gəlir...

## İDEYA SİLAHDAN GÜCLÜ İDİ

*Daş sinəndə daşa dönmüş dərdlərdən,*
*Yurd uğrunda qurban gedən mərdlərdən,*
*Nələr gördün sən o üzü sərtlərdən...*
*Avey dağım, sən ey qoca cəngavər,*
*Ver başından keçən bir xəbər!*

*Avey dağım, başın niyə dumandır?*
*Keçənləri yada salma, amandır!*
*Mənim könlüm bir dalğalı ümmandır...*
*Mərd babalar torpağıdır bu torpağ*
*Bu torpağı babalar tək qoruyar.*

***Xalq şairi Mirvarid xanım Dilbazinin***
***“Avey dağı ilə söhbət” poemasından.***

Hər dəfə xeyir-şər məclislərində Həmid bəyin faciəsindən, Məmməd Koxanın mərdliyindən danışılanda ürək ağrısı ilə qulaq asır və düşünürdüm ki, nə üçün bunlar “xalq düşməni”dirlər. Axı, Vətəni yadlardan qoruyan oğul da düşmən olarmı? Suallarıma cavab tapa bilmirdim. Ona görə ki, beş-üç il əvvəl bə’zi adamlar məclislərdə

Məmməd Koxanın qeyrətindən, Həmid bəyin dönməzliyindən danışır, söhbətinin yekununda isə "hökumətin düşmənidirlər" deməkdən çəkinmirdilər. Onların danışığından belə mə'lum olurdu ki, bəy, ağa, xan, koxa, qubernator, pristav titullu adamların hamısı dövlətin, xalqın düşməni olublar. "Həmid bəy musavat zabiti olub" sözlərini partiyaçının, komsomolçunun, hətta kolxoz sədrinin iştirak etdiyi məclisdə demək belə mümkün deyildi.

Amma tez-tez görüşdüyüm ağsaqqal ziyalılar və hadisələrin şahidi, iştirakçısı olan Daş Salahlı sakinləri Əmrahoğlu Mədəd, Əhməd ağa Paşayev, Əbdüləzim Həsənov, Zuraboğlu Məcid, Əvəz Avdıoğlu, Rəsul dayı, Seyidoğlu Həsən və başqaları Məmməd Koxanın, Həmid bəyin "düşmən" olduqlarını tamamilə inkar edirdilər. Fəxrlə deyirdilər ki, kişi kimi yaşayıb, igid kimi də öldülər. ***Xüsusilə, doxsan dörd yaşlı Zuraboğlu Məcidi dinləyəndən sonra düşünürdüm ki, Azərbaycan Demokratik hökumətinin zabitlərində ideya silahdan da güclü olub.***

- Gürcülərin Qazağı almasının səbəbkarı özümüzünkülər oldu. Qubernator Məmməd Koxa az vaxtda Qazaxda tam əmin-amanlıq yaratdı. Qoçuların, başıpozuqların əl-ayağını yığışdırdı. Onun sərtliyi, məğrur səsi yaramazların hamısını elə bil zərərsizləşdirdi. Ev yaranlar, oğrular yoxa çıxdı. Ona Kosalardan Süleyman uşağı, Salahlı bəyləri, Söyünbəyli Söyünağa, Kəsəmənli Hacan, Alsöyün, Molla Zal uşağı çox kömək elədilər. Koxa Sınıq körpüyə gözətçi dəstəsi qoydu. Bütün Qazax sərhədləri möhkəmləndi. İcevan, Dilican tərəfdən bəd xəyala düşən bir erməni başını qaldırıb bəri baxa bilmirdi. Özünə güvənən cavanları səfərbər edib sərhəd kəndlərinə göndərdi.

Məmməd Koxanın şərti belə idi: kim Qazağı dağıtmaq xəyalına düşsə, əlində oğurluq tutulsa, güllələdəcəm. Özgə cür mümkün də deyildi. Başıpozuqların, yetim malı yeyənlərin, ev yaranların və bir neçə bəyin gözü bunları götürmədi. Çünki onların atişləməz yollarını Məmməd Koxa bağlamışdı. Belə olanda onlar gürcü menşeviklərinə yaltaqlanaraq, torpaq iddiasını irəli atdılar. İki polk, top və silahlı əsgər gətirdilər. Bir bəy və bir uçitel Qazağa yiyələnmək istədi.

Bizim kənddən bu döyüşdə gürcülərə qarşı Mahmud Qaragözoğlu, Seyidoğlu Mikayıl, Avdı Mahmudoğlu, İlya Osmanoğlu, Həmid bəy Məmmədoğlu igid kimi vuruşurdular. Mən, İlya Osmanoğlunun dəstəsində döyüşürdüm. Yazbaşı, taxılın sünbüllənən vaxtı idi. Gecə Ağstafa çayını keçib kəndə gəldik. Həmid bəynən İlya çox fikirli idilər. Sabah kəndə hücum gözlənilirdi. Axşam üstü Ürkməzli bozunda, Məhəd bəyin təpəsi deyilən yerdən gürcü qoşunu top atəşinə başladı. Əsas hədəf Məmməd Koxanın imarəti idi.



*Aşıq Əsəd Rzayev (1874-1950)*

Tüfənglə qabağını alammadıq, bizim topumuz yox idi. Evdən arvad-uşağı çıxardıq. Koxa Salahlı Annax bəyə və Xanıoğlu İsmayıl ağaya pənah apardı. Bir para nanəciblər evinə basqın eləyib, vardövlətini dağıtmaq istəyirdi. İsmayıl ağa qoymadı. Dedi ki, Koxa yoxdu, onun hörməti-izzəti burdadı. Kim irəli yerisə güllələyəcəyəm. Koxanın heç nəyinə toxunmadılar.

1914-cü ildə Məmməd Koxanın kəndə bulaq çəkdirməyi də çox yaxşı yadımdadır. Qazıntı vaxtı bulağın gözündən iri bir qaya çıxdı. Usta dedi ki, bu sal qaya çıxarılsa su bütün kəndə bəs eləyər. İki qardaş - Səməd və Əsəd Qurbanoğlu daşı çıxartdılar. Məmməd koxa onların hərəsinə bir sağmal inək bağışladı...

***

Bulaq hazır olandan sonra Koxa el-obanı yığıb təntənəli açılışını elədi. Borçalıdan general Həsən bəyi və qardaşı Sadıq bəy Yadigarovu, Gəncə qubernatorunun müavini Nağı bəyi, Körpülüdən xalası oğlu Süleyman Katda Nəziroğlunu, Orta Salahlıdan Annaq bəyi, Hüseynbəylidən Söyün bəy Sübxanverdixanovu və Qıraq Kəsəmən bəylərinin hamısını dəvət eləmişdi. Üç gün çalıb-oxuyan da Koxanın yaxın dostu aşıq Əsəd Rzayev oldu.

Qonaqlığın son anlarında bəylər, ağalar təklif eləyirlər ki, bu xeyirxah işə görə Koxa üçün nəmər yığılsın. Məmməd Koxa onların bu təklifinə razı olmur. Koxa bu təklifə ona görə razı olmur ki, camaat deyəcək ki, Məmməd Koxa burda heç nə itirmədi, xərcə düşmədi. Əksinə qazandı, yığılan nəmər pulu ilə bulaq tikdirdi, hələ artığını da cibinə qoydu.

Dostlarının xətrinə dəyməmək naminə tükü-tükdən seçən, həssas Məmməd Koxa birdən-birə fikrini dəyişib nəmər yığılmağa razılıq verir. Süfrəyə böyük bir şal sərilir. Ağalar, bəylər hər kəs öz adına layiq şalın üstünə nəmər atır. Xeyli pul-para yığıldıqdan sonra Məmməd Koxanın qolbəylərindən biri pul dolu şalı bükübgötürmək istəyir. Koxa yaxınlaşıb:

-Əl vurma,-deyir o pullara,-üzünü camaata tutub-kimin ki, bulağın çəkilişində zəhməti olub yaxın gəlsin.

Onların, xüsusilə iki qardaş Əsəd və Səməd Qurbanoğlu qardaşların zəhmət haqqını artıqlaması ilə verəndən sonra kasıbları, yetim-yesiri yaxına çağırır və yığılan nəmərin hamısını onlara paylayır. Bayaqdan Məmməd Koxanın bu mərdanə səxavətinə fikir verib izləyən aşıq Əsəd ayağa durur, sazını kökləyir və bədahətən "Deyim" müxəmməsini oxuyur:

***Səhər bulağın görüşünə***
***Gəncədən gələn xan yeridi.***
***Məmməd Koxa şölə saldı,***
***İlyanın cavan yeridi.***
***Mustafa bəy[1] inək kəsdi,***
***Qoç, toğlu qurban yeridi.***
***Nar dəsmalı tujun-tujun.***
***Dərdimə dərman yeridi.***
***Aşırlının hörmətin,***
***Yeddi Dağıstana deyim.***

***Aralığa səf çəkilir***
***Ortalığa saqi gəlir.***
***Hər tərəfdən adlı bəylər,***
***Gəncədən də Nağı gəlir.***
***Alqış deyir yetim-yesir***
***Abdının yığnağı gəlir.***
***Mirzə Səməd[2] cavanlıqda***
***Dünyaya baqi gəlir.***
***Atlıları atdan düşür,***
***Gündə yüz qonağı gəlir.***
***Aşıq Əsəd şövq eyləyib***
***Gəlib xoş meydana, deyim.***



***Soldan: Həmid bəy Məmməd Koxa oğlu Mahmudov və kursant yoldaşı. 1910-cu il, Tiflis şəhəri***

1. Nüfuzlu Miralayevlər nəslindən olan Mustafa bəy Vəli ağa oğlu (1849-1932). O, xalq şairi Mirvarid xanım Dilbazinin ana babasıdır. 1930-cu ildə sürgün olunub və 1932-ci ildə həlak olub.-Ş.N.
2. El şairi Daş Salahlı Mirzə Səməd Həsənov (1882-1965)

***Zuraboğlu Məcid:***

- Otuzuncu illərdə Şura hökuməti Məmməd Koxanı incitməkdə çox haqsız iş gördü. O, yetimlər atası, elin oğlu, obanın ağsaqqalı idi. İndinin özündə də bizim Daş Salahlını Məmməd Koxa kimi igid, xeyirxah kişiyə görə tanıyırlar.

Doxsan dörd yaşım var, bir ayağım gordadı. Yalan danışa bilməyəcəyəm. Koxanın özünə layiq, özü kimi də igid, qorxmaz oğlu vardı. Bu günə qədər Həmid bəy kimi ə'la tüfəng atana, cəld igidə rast gəlməmişəm. O, savadlı bir zabit idi. Yazbaşı taxıllıqnan kəndə gələndə Həmid bəylə yanaşı gedirdik. Mənə elə gəlirdi ki, Həmid bəyin yerişindən, zəhmindən yer titrəyir...

## NAMUSLU DÜŞMƏN

Yazımızın əvvəlində Məmməd Koxa haqqında xalq şairi Mirvarid xanım Dilbazidən epiqraf verdiyimiz onun şifahi söhbətindən deyil. Mirvarid xanım da o döyüşlərin şahididir. O, həmin hadisələrdən "Namuslu düşmən" adlı xatirə-hekayə də yazıb (Bax. M.Dilbazi "Abşeron bağlarında" kitabı, Bakı, 1984-cü il, səh.61).

Xatirə hekayənin məzmunundan mə'lum olur ki, hürriyyət vaxtı Məmməd Koxa ilə Mirvarid xanımın babası Mustafa ağanın yeniyetmə əmisi oğlanları arasında qan davası düşür. Qan düşmənçiliyinin həmişə əleyhinə olan, kəndin hörmətli ağsaqqallarından biri Mustafa ağa tündməzac, ehtiraslı cavanları yola gətirə bilmir. Hər iki nəsildən ölən və yaralananlar olduğuna görə düşmənçiliyin kökü daha da dərinləşir. Musavat dövründə isə Hacı Kərim Sanılı Gürcüstandan gətirdiyi qoşunun köməyi ilə Məmməd Koxanın evini top atəşinə tutur.

"Onda atam ölmüşdü, biz babamgildə idik. Top gülləri tez-tez Avey dağa da gəlib çatır, dağı söküb dağıdırdı.

Belə vəziyyətdə arvad-uşağın ələ keçməməsi və top atəşilə məhv edilməməsi üçün Məmməd Koxa qohumlarını başına yığıb deyir:

- Namussuz dostdan namuslu düşmən yaxşıdı. Mustafa ağa düşməndir, lakin namusludur.

Məmməd Koxa arvad-uşağını və evdə qiymətli nə varsa arabalara yüklədir. Bu hadisə mənim yadımdadır.

Axşam şər qarışmışdı. Bir də gördük qapımızda arabalar dayandı. Arabalarda al-şal içində qızlar, ahıl arvadlar bər-bəzəkli oturmuşdular. O biri arabalarda xalı-zili, ev avadanlığı yüklənmişdi.

Əhvalatı gələnlər babama, nənəmə danışıb dedilər:

- Məmməd Koxanın ailəsidi.

Arvad-uşağı hörmətlə qarşılayıb, onları qonaq otağına apardılar. Gətirdikləri əşyaları da himayə etdilər. Arabaçıları da yedirtdilər. Dərhal qoyun kəsildi, samovar buğlandı. Arvadlar ağlaşırdılar, nənəm onları sakit etdi.

Bir neçə gündən sonra ara sakitləşdi, gələnlər ehtiramla yola salındı. Keçmiş kişiləri mən belə xatırlayıram".

Mirvarid xanımın kiçik xatirə hekayəsində hadisə real verilib. Buna söz yoxdur. Lakin qoy, anamız Mirvarid xanım bizdən inciməsin, onun bircə cümləsinə iradımız var: "Məmməd Koxanın bir sözündən inciyib, özünü təhqir edilmiş hiss edən Hacı Kərim Sanılı günlərin birində yaxın məsafədən onun evini top atəşinə tutdurdu".

Məmməd Koxanın evi Sanılıya dediyi təhqiramiz sözə görə topa tutulmayıb. Aravuran casuslar Sanılıya demişdilər ki, Qazaxdan çıxan Məmməd Koxa Daş Salahlıdakı evinə yenidən qoşun yığır. Ona görə də Sanılı Koxanın evini atəşə tutdurdu. O vaxtlar sol menşevik partiyasının üzvü Hacı Kərim Sanılı gürcülərin köməyi ilə Qazaxda qubernator oldu. Amma bu vəzifənin ömrü onun üçün çox gödək oldu. Ay yarımdan sonra türklər gəldi. Yerli əhalinin tələbi ilə türklər Sanılını vəzifədən azad edib yenidən Məmməd Koxanı Qazağa qubernator tə'yin etdilər.Gürcülərin birinci hücumunu qubernator Məmməd Koxa 1918-ci ilin yazında Sınıq körpünün yanında Şıxlı, Salahlı, İncə dərəsinin say-seçmə igidləri ilə geri oturtdu. Bu döyüşdə İncəli Uzun Allahverənin, kosalardan Müseyib Məşədi İbrahim oğlunun, Orta Salahlıdan Mədəd bəy Annax bəy oğlunun, Şıxlıdan Tomtu oğlu Əmiraslanın, Qara Məşədinin, Qiyas bəy Şıxlinskinin, Körpülüdən Süleyman ağa Nəziroğlunun və başqa igidlərin süvari dəstələri xüsusilə fərqləndilər. İkinci dəfə dəmir yolu ilə hücuma keçən menşevik zirehli qatarının qabağını Soyuqbulaq stansiyasında ağac kötükləri ilə kəsib, əsgərləri tərksilah etdilər. Bir nəfərin belə burnunu qanatmadan geriyə - Tiflisə qaytarırlar. İki yüz nəfərlik menşevik alayı Tiflisə tərksilah olunmuş, üzü qara, gülünc vəziyyətdə qayıdır. Bu, menşevik hökumətini bərk qəzəbləndirir.



***Mustafa ağa Miralayev (1849-1932)***

Üçüncü hücumda qoşunun sayı artırılır. Bir neçə xırda çaplı yüngül "Don" markalı toplar

əlavə olunur. Bu dəfə hərbi eşalonu arxadan köməkçi topçu zirehli qatar da müşayiət edir. Qoşuna daha təcrübəli gürcü menşevik zabitlərinin komandanlığı tapşırılır. Sanı oğlunu, Tat Əbdüləlini, Kəsəmənli Taharı da onlara qoşub bərk-bərk tapşırırlar ki, gürcü zabitlərini qoruyun, gərək onlardan birinin belə burnu qanamasın. Hərbi eşalon o taydakı Salahlı stansiyasına çatıb dayanır. Top və pulemyotların lülələrini Kür sahilindəki binalərə tuşlayıb, həyəcanla fit verirlər. Danışığa gələn nümayəndələr tələb edirlər və şərt qoyurlar ki, on gün əvvəl eşalonu tərksilah edib aldığınız silahları qaytarın, yoxsa binələri yerlə- yeksan edəcəyik. Onlar şərtə əməl olunmadığını görüb Ağstafa tərəfdən hücuma başlayırlar...

İllər keçib, milli qürurlu Məmməd Koxanın ərazi iddiası üçün yanına gələn gürcü nümayəndələrinə verdiyi sərt cavabı qazaxlılar hələ də zərb-məsəl kimi danışırlar.

Məmməd Koxa onlara demişdir:

- Sizin Tiflis menşeviklərinin atının üzəngisini basmağa bizim təhərimiz yoxdur. Buna qeyrətimiz yol vermir. Biz göstərişi özümüzün Musavat hökumətimizdən alırıq. Bizə göstərişi Bakıdan və Gəncədən verirlər, Tiflisdən yox.

- Bəs Nadir şahın fərmanı? Ona əməl olunmalıdır...

- Elə bir fərman verməkdə Nadir şah çox böyük qələt eləyib, ata-babası ilə...-deyib Məmməd Koxa gürcüləri Qazaxdan qovdurur.



*Sayalı xanım Miralayeva*

***Gəlin sizə isnad verim,***
***Salahlıda Annax bəyi.***
***Kəsmək ona adət imiş***
***Hər qonağa bir inəyi.***
***Gecə-gündüz yığışmayıb***
***Süfrəsinin bol çörəyi.***
***Daş Salahlı Məmməd Koxanın,***
***Əyilməyib nər biləyi.***
***Əyrilərə şılğam çəkib***
***Dolaşıb aşkara deyim.***[1]

***

1. Bənd el şairi Qulu Çaylının "Deyim" müxəmməsindəndir.

Gec də olsa gəlib çıxan aşkarlıq sübut elədi ki, tarixdə elə faktlar, hadisələr var ki, onları yazmaq üçün müəyyən müddət gözləmək lazımdır. Dövr, zaman tarixi faktı təsdiq eləməlidir. Əhvalatlar, hadisələr olduğu kimi işləndə sənədli əsər ölmür, əhəmiyyətini itirmir. Olub keçmiş hadisələrə bu günün gözü ilə yox, məhz olan vaxtın ab-havası ilə baxmaq daha yaxşıdır. Quruluş xatirinə onu öz zamanından, dövründən qopardıb şişirtmək, tənqid və təhrif etmək ən azı insafsızlıqdır.

Dahi Lev Tolstoy nahaqdan yazmırdı ki, mən tarixi faktları qələmə alanda, xırda təfsilatlara qədər həqiqətə sadiq qalmağı sevirəm. Bu mə'nada Mixail Şoloxov cəsarəti bir çox sənədli əsər yazan yazıçılara nümunə olmalıdır. O, məşhur "Sakit Don"u yazanda kommunistlər - Stalin və Beriya kimi əjdaha "senzorlar" hakimiyyətdə ola-ola əsərində bolşevikləri güllələdi. Bu olmuş faktlar müəllifə baş ağrısı, ağır sarsıntılar qismət elədisə də "Sakit Don" misilsiz tarixi əsər kimi dünya ədəbi xəzinəsinə daxil oldu.

"Hacı Kərim Sanılı Gürcüstandan qoşun çəkib" - xəbərinə Məmməd Koxa inanmadı. "Balağı açıq müəllim hara, qoşun hara? - deyə güldü. Lakin xəbər səhihləşəndə "Gomurnat"ın fikrindən keçdi ki, Hacı Kərimə yə'qin, Ağamalıoğlu kömək edib. Bu işdə general Əli ağa Şıxlinskinin da əli olmamış olmaz... Yoxsa bu baldırıaçıq "uçitelə" heç kim e'tibar edib əsgər verməzdi". O, müxtəsər məktub yazdırıb Sanıoğluna göndərdi. Məktubda yazmışdı ki, Zəyəmdən o üzü sənə verirəm. Qazaxdan gözünü çək. Qoşunu qırdırıb özünü gülünc eləmə. Dilicandan Mesrop bəy min atlı ilə köməyə gəlib, İrəvandan Xatisov topxana və iki alay qoşun göndərib".

Bu kiçik epizod mərhum yazıçımız Nəsib Əfəndiyevin "Qızıl quşa atılan güllə" sənədli romanındandır. Burda bircə Ağamalıoğlunun menşevik olmağı düzdür. Qalanı qeyri-dəqiqdir: - Əli ağa Şıxlinski həmin il, həmin vaxtlarda Azərbaycanda deyildi. O, Tiflisdə Azərbaycan korpusunu təşkil edirdi. Əgər Qazaxda olsaydı da, general Şıxlinski Sanılının tərəfində ola bilməzdi. Ona görə ki, onun mənsub olduğu Şıxlinskilər nəsli Məmməd Koxanın tərəfdarı idilər. Şəxsən qəza rəisi Cahangir bəy Şıxlinski öz namizədliyini geri götürüb, Məmməd Koxanın qubernator olmasını məsləhət bilmişdi. Sanılı ilə döyüşdə də o, Məmməd Koxaya yaxından kömək edirdi. İkincisi, Məmməd Koxaya nə Dilicandan Mesrop bəy min atlı, nə də İrəvandan Xatisov topxana və iki alay göndərməyib.

Əksinə, o illərdə Qafqazda baş verən erməni-müsəlman qırğınının tarixini qələmə alan görkəmli yazıçımız M.S.Ordubadi "Qanlı illər" əsərində yazır: "İslamların ağır günlərində Şəmsəddin pristavı erməni Mesrop bəy bir neçə

İslam libasında olan ermənilərlə gəlib Qazağa çatdıqda tüfənglərə patron qoyub, yaxına gələn müsəlmanlara atəş atmağa başlayırlar. Müsəlmanlar da, təbii ki onların atəşinə cavab verməklə bir qədər atışma olur. Bir azdan sonra Mesrop və atlıları qaçırlar. Bu qayda ilə ermənilər qazaxlılarla ədavətin əsasını qoyurlar."

Ermənilərin Məmməd Koxaya kömək etmək faktını Qazaxda heç bir qoca təsdiq eləmədi. Axı, biz o vaxtlarda da indiki kimi ermənilərlə düşmən idik...

Ədalət naminə demək lazımdır ki, burada müəllifi o qədər də günahlandırmağa haqqımız yoxdur. Nəzərə almaq lazımdır ki, Nəsib Əfəndiyev əsərini aşkarlıqdan əsər-əlamət olmayan bir dövrdə yazıb, 1983-cü ildə isə çap etdirib. Bu o vaxtlar idi ki, qubernatoru, bəyi, xanı, koxanı müsbət obraz kimi vermək qeyri-mümkün idi.

Əsərdə belə bir cümlə var: "O, (H.Sanıyev - Ş.N.) Məmməd Koxanın çapolçularından Qazax mahalını təmizləmək üçün belə qərara gəlmişdi". İnanıram ki, burada da qubernator vəzifəsi, koxa titulu, koxa sözü Məmməd Koxanın başına qaxınc olub. Hazırda Qazaxda, Daş Salahlıda yaşayan qocaların heç biri Məmməd Koxanın döyüşçülərinin "çapolçular" olduğunu təsdiq etmirlər. Əksinə, onlar haqqında el qeyrəti çəkən, torpaq uğrunda vuruşan mərd igidlər kimi danışırlar. Torpağını, obasını gavura vermək istəməyən igidlər görəsən niyə "çapolçu" olublar?

Bütün bunlara baxmayaraq, Məmməd Koxa şəxsiyyətinə tənqidi yanaşan müəllif onu müsbət obraz, igid el başçısı kimi təsvir etmədən ötüşə bilməyib.

***"Məmməd Koxa əlini çənəsinə dirək verib fikrə getdi. O, qarayanız, hündürboy, cüssəli və zəhmli bir adam idi. Əynində gümüş vəznəli çərkəzi çuxa, ayağında uzunboğaz çəkmə, başında buxara papaq; həmişə qaşqabaqlı olan Məmməd Koxanın iri gözləri indi daha qorxunc görünürdü. Təpədən dırnağa silahlı idi. Başını ülgüclə qırxdırmış, qara, qalın bığını yatımına sığallamışdı".***

Tarix elmləri namizədi, ağsaqqal tədqiqatçımız Teymur Miralayev Gəncə-Qazax qırmızı partizanlarının inqilabdan əvvəlki fəaliyyətindən iki kitabça çap etdirib. 1963 və 1970-ci illərdə çap olunan hər iki kitabçada Teymur müəllim xırda bir epizodu təkrar verib, istehza ilə Məmməd Koxanı "güclü qolçomaq", "istismarçı" adlandırır.

1916-cı ilin avqust ayında başının dəstəsi ilə Daş Salahlıdan Qazağa gedən Məmməd Koxanı əsgərlikdən qaçan Aslan İskəndəroğlu və Nəbi Əli oğlu tikanlıqdan atdıqları güllə ilə yüngül yaralayırlar. Əvəzində Məmməd Koxa ona güllə atan Nəbi Əli oğlunu vurub öldürür, Aslan İskəndəroğlu isə qaçaq düşür.



***Vəli ağa Dilbazi və Şəmistan Nəzirli. Bakı, 1983-ci il***

Çox maraqlıdır, əsgərlikdən qaçan, vergi verməkdən imtina edən, üstəlik də yolunu kəsib ona qəsd etmək istəyən adama Məmməd Koxa bəs nə eləməli idi? Müəllifin zorla "qırmızı partizan" adlandırdığı Aslan İskəndəroğlunu bir il keçməmiş - 1917-ci ilin fevralında Salahlı qaçağı Matus Ağacan oğlu öldürdü. Atalar demişkən, su çanağı suda sındı.

***

Tale məni bir təsadüfdən gözəl maarif xadimi Vəli ağa Dilbazi ilə 1983-cü ildə Bakıda görüşdürəndə sevincimin həddi-hüdudu olmadı. Ömrünün son illərini yaşayan bu qoca mənim axtardığım adam idi. İlk dəfə Həmid bəyin 1913-cü ildə çəkilmiş fotoşəklini də onda gördüm. Üzünü çıxartdırıb özümdə indi də yadigar saxlayıram. Hələ o vaxtlar hiss eləmişdim ki, vaxt gələcək, Həmid bəyin faciəsini yazmağa imkan düşəcək. Yetmiş il Həmid bəyi "xalq düşməni" zənn edənlərin acığına aşkarlığın işığı onun qaranlıq taleyinə gec də olsa şəfəq saçdı.

Rəhmətlik Vəli ağa Dilbazi gimnaziya illərindən danışanda tez-tez köksünü ötürər, iri ala gözlərini üzümə zilləyib sükuta dalardı. O, bəylərə məxsus bığlarını fikirli-fikirli qurdaladıqca sanki sözünə, danışdığı əhvalatlara da sığal verirdi.

- Həmid bəy də yada düşərmiş, nə vaxtsa yazdıqlarını oxuyan olacaqmı? - sinədolusu nəfəs alıb əlavə elədi. - Heyif səndən, Həmid bəy. Səksən yaşı



*Soldan Böyük ağa Dilbazi, Həmid bəy Mahmudov və Vəli ağa Dilbazi. Tiflis, 1913-cü il.*

ötürmüşəm, hələ onun kimi cəsarətli oğul görməmişəm.

Həmid bəy birinci klassik gimnaziyasında oxuyanda əvvəlki tanışlığımız dostluğa çevrildi. Mən üçüncü klassik gimnaziyasında oxuyurdum. İkimiz də Mariya Vasilyevna Obolonskayadan fransız və rus dillərində əlavə ev təhsili alırdıq. Bu qadın Məmməd Koxanın tanışı idi. O, bizim hər ikimizi gimnaziyaya qəbula hazırlaşdırmışdı. Həmid bəy iti zehinli və qoçaq bir cavan idi. Rus və gürcü dillərini mükəmməl bilirdi.

Obolonskayanın çox mahir dərs keçməsi vardı: Zadəgan nəslindən olan bu yaraşıqlı qadın sözləri və cümləläri avazla, xüsusi ahənglə tələffüz edərdi. Həmid bəy onun bircə deyimindən hər şeyi qavrayıb özününkü edərdi. Mənə isə iki-üç dəfə təkrar söylərdi. Bir dəfə heyrətini gizlədə bilməyən Mariya Vasilyevna dedi ki, fəxr edirəm, Həmid bəy kimi yetirməm var. Heyif ki, Tatardır (Azərbaycanlı - Ş.N.). Gimnaziyanı qurtarandan sonrakı əzabını indidən duyuram. Bunu başa düşməyəcəklər. Həmid bəy də od olub özünü yandıracaq. Onda böyük şəxsiyyətlərə məxsus inadkarlıq görürəm.

Həmid bəy o vaxt söhbətlərində tez-tez Mirzə Hüseyn Əfəndi Qayıbovun, Firidun bəy Köçərlinin, Məmmədağa Vəkilovun, İbrahim ağa Vəkilovun, İsa bəy Abakarovun adını çəkər, onlarla görüşlərindən danışardı. Heç vaxt hakimiyyətə inanma, o fahişə qadın timsallı bir məxluqdur - deyərdi - elə ki, dediyini eləmədin boz üzünü göstərəcək. Ayağı çarıqlı kəndlinin e’tibarı daha çoxdu, nəinki, xrom çəkməli qrafın, knyazın, dövlət mə’murunun...

1920-ci il mayın 22-dən 30-dək olan Gəncə qiyamında Həmid bəy musavat zabiti kimi iştirak etmişdi. Qiyam iştirakçılarının çoxusu rus və erməni terrorunun təzyiqindən qorunmaq üçün xaricə getdi. Həmid bəy isə Qazağa gəldi. Çox keçmədi, onu həbs edib Bakıya apardılar. Bir ay keçmədi qayıdıb gəldi...

## KİM OLSA DA, QONAQDI...

1919-cu ilin sentyabrında bolşevik Əliheydər Qarayev qəzada kəndli qurultayı keçirmək üçün Qazağa gəlir. Meydanda çıxış edib deyir ki, möhtərəm kəndlilər, xəbəriniz varmı, Rusiyada fəhlə-kəndli qardaşlarımız inqilab edib, mülkədarın torpağını, sahibkarın zavod, fabriklərini özlərinki eləyiblər?

Yerlərdən:

- Bəli, xəbərimiz var - deyə, cavab verirlər.

- Bəs onda siz kimi gözləyirsiniz, kim gəlib varlıların əlindən torpağı alıb sizə verəcək? - deyir.

Bu, bir para Qazax ağa və bəylərinin qəzəbinə səbəb olur. Onu kürsdə çıxış edərkən vurmaq istəyirlər, amma nədənsə ehtiyat eləyirlər. Onsuz da bu bolşevik Qarayev gecə qatarına minmək üçün Ağstafaya gedəcək, yolda qətlə yetirərik - deyirlər.

Bunu Məmməd Koxa eşidir. "Kim də olsa, qonaqdı, onu öldürmək obanın adına ləkə gətirər", - deyə, e'tiraz edir. Bir neçə e'tibarlı adamla bolşevik Qarayevi Tovuza göndərir. - Aparın, çıxardın, bizim obadan o tərəflərdə başına nə gəlir-gəlsin, amma bizim eldə qonaq qanı axıdılmasın.

Həmid bəy Gəncə qiyamına görə həbs olunanda yeri dara düşən Məmməd Koxa ona əl boyda bir kağız göndərir. Bu yaxşılığı unutmayan Əliheydər Qarayev Həmid bəyi həbsdən azad elətdirir. Qarayev rəsmi kağız da göndərmişdi ki, ona Qazax qəza hərbi komissarlığında iş verin. Mən də o vaxt hərbi komissarlıqda işləyirdim. Birgə işlədik. Həmid bəy bütün günü Qızıl Ordudan nifrətlə danışardı. - Bu - deyərdi, - Qızıl yox, qəlp ordudur, talançı ordudur, qan tökən, istilaçı ordudur. Mən özüm şahidəm, Samur çayını keçəndən sonra XI Qızıl Ordu bizim xalqın başına nə müsibətlər açdı. Dinəni yerində güllələdi. "Qalib qızıl ordu" Bakını alandan sonra iki həftə talançılıqla məşğul oldu. Evlərə girib ana və bacılarımızın qulağından sırğanı, barmağından üzüyünü zorla çıxardır.

Həmid bəy Şura hökumətinə zərrəcə inam gətirmirdi. Mən yeni quruluşu tə'rifləyib, müdafiə edəndə sərt-sərt üzümə baxıb deyərdi:

- Yaxşı, sən Allah, bəsdi, az tə'riflə, görünən dağın dibi yaxındır. Sənin də başını bişirib yeyəcəklər. Amma Vəli ağa, mən Şura adlı hökumət tanımıram, ona da qulluq etməyəcəyəm. Mən bir hökumət tanıyırdım, ona da az-çox zabit kimi qulluq etmişəm. O da Azərbaycan Demokratik hökuməti idi.

İyirmi gün keçmədi, ipə-sapa yatmayan Həmid bəy yoxa çıxdı. Sorağı Qarayazı meşəsindən, Ceyrançöldən gəldi. Sonralar iki dəfə tutdular. Birində Şəkərin qalasından, o birində isə Bakıdan qaçdı. Bakı qalasını bilmirəm, amma Şəkərin qalasından qaçmaq hər oğulun işi deyildi. Bu sərt rejimli qaladan indiyədək cəmisi üç dustaq qaça bilib: 1914-cü ildə Orta Salahlı kəndinin sakini Cahangir Kərim oğlu, 1920-ci ildə Kosalar kəndindən Müseyib Məşədi İbrahim oğlu. Həmid bəy sonuncu oldu...

## MƏZƏM ƏHVALATI, OPERASİYA İLLƏRİ

1926-cı ildə tə'qib olunan Məmməd Koxa qardaşı Avdını və Hasanı da götürüb Türkiyəyə pənah aparır. Koxa hiss eləmişdi ki, güclü tufan gözlənilir. "Operasiya əməliyyatı" Qazağa və onun kəndlərinə də ayaq açmışdı. Nəsli bəy olanların, şuralaşmadan qabaq yüksək vəzifə daşıyanların, çar və musavat ordusunda qulluq edənlərin "səsi alınır", var-dövləti talan olunurdu. Gecənin bir vaxtı yerli milislərin köməyi ilə Qızıl Ordu əsgərləri kəndi mühasirəyə alır, zərrəcə şübhələndiyi adamları bir yerə toplayıb xəncəri, tüfəngi təhvil verməyi tələb edirdilər. Bə'zilərini "troykanın" aktı ilə kənddə güllələyirdilər. Nə məhkəmə, nə də prokuror sorğu-sualına ehtiyac qalmırdı. Aslanbəylidə Nəcəfoğlu Mahmudu, Kosalarda Nəbi və Müseyib Məşədi İbrahim oğlunu, Poyluda Hacan Əbdülkərimoğlunu, Salahlı, Əskipara, Çaylı, Alpout kəndlərində "troyka" çox belə günahsızları güllələdi. Onlarla ailə Qazaxıstana və Sibirə sürgün elədi.

1929-cu ildə Türkiyədən qayıdan Məmməd Koxa da belə bir odun-alovun içinə düşdü.

***Məmməd Koxanın qardaşı oğlu Əvəz Mahmudov:***

- Doğru deyib atalar, uşağın yadından heç nə çıxmaz. Onda on altı yaşım vardı. O faciəli günlər yadımda apaydın qalıb.

1931-ci il fevralın birində şiş papaqlı əsgərlər səhər tezdən kəndimizi mühasirəyə aldılar. Ev-ev gəzib silahı yığdılar. Camaatı kənd meydanına topladılar. Atamı axtardılar, tapmadılar. O, çöldə, kolxozun pambıq yerində işləyirdi. Atlı əsgərlər çaparaq gedib onu atdöşü meydana gətirdilər. Camaatın arasından dörd nəfəri - atam Avdanı, Nəziroğlu Abdullanı, Hacırəhimağa Miralayevi və Alı ağa Vəli ağa oğlu Halaybəyovu ayırdılar. Məmməd Koxanın tikdirdiyi məktəbin divarına qasnadılar.

Komandirləri dedi ki, Koxanın qardaşı Avdı bunları başına yığıb hökumət əleyhinə danışdığına görə "xalq düşməni" kimi güllələnirlər.

Atam bircə bunu dedi ki, ay camaat, haqsızlığın, yalanın özünüz şahidisiniz. Sizdən bircə təvəqqim var, axirət haqqımı halal eləyin.

Mən dözə bilməyib atamın əl-ayağına düşdüm. İri gövdəli bir soldat məni caynağına alıb qırağa elə atdı ki, ağrıların yeri indi də gizildəyir.

Onda əmim Məmməd Koxanı Sibirə sürgün eləmişdilər. Nəslimizin faciəsi bununla qurtarmadı. 1932-ci ildə əmim Mehdi ağanın iki oğlunu - Hüseyni və Əsədi günün-günorta çağı Qazaxda məhkəməsiz güllələdilər. Oruc əmimin oğlu Mahmudu, Koxanın qızı Badını, kürəkəni İlyası, bacısı oğlu Qara

Vəlini, əmim Mehdi ağanı ailəlikcə sürgün elədilər. 1941-ci ildə növbə mənə çatdı. Səbəbi də bu oldu ki, əmin Məmməd Koxa Qazax qubernatoru olub, atan "xalq düşməni" kimi güllələnib. Mən 1947-ci ildə sürgündən qayıtdım. Amma əmim Mehdi ağanın ailəsindən bir nəfər belə qayıtmadı.

Yadımdadır, 1929-cu ildə sürgün edilən əmim Məmməd Koxa 1933-cü ildə gəldi. Şux yerişli, dolu bədənli Məmməd Koxadan heç bir nişanə qalmamışdı. Kişi bərk qocalmışdı, dərd onu içəridən yemişdi. Vaxtilə xrom çəkmə, gümüş vəznəli çərkəzi çuxa geyinən cüssəli əmim indi daş kimi ağır kerzi sapoqda, nimdaş sırıqlıda camaat içinə çıxmağa utanırdı. Nəslinin darmadağın olduğunu görüb lap bihuş olmuşdu. Durub-oturub ağlaya-ağlaya Həmid deyirdi. Qocalar onu inandırmağa çalışırdılar ki, Həmid sağ-salamatdı, Türkiyədə yaşayır. O isə inanmırdı:

- Siz yalan deyirsiniz, Həmid sağ olsaydı, qardaşım Avdını güllələməzdilər - deyirdi.



***Şivli oğlu Məhəmməd (1858-1954)***
***Məmməd Koxanın ən sadiq dostu***

1933-cü ilin payızında huşunu tamam itirdi, ürəyi partlayıb öldü.

- Əvəz əmi, - dedim, - necə olub ki, sürgündən Məmməd Koxanı vaxtından əvvəl buraxıblar?

- Bunun da səbəbi var, oğul, yenə Məmməd Koxanın səxavəti, vaxtilə elədiyi yaxşılığı, halal tikəsi orda da ovsanata keçib. Əmim özü danışırdı ki, sürgün yerinə çatan günün səhərisi hamını cərgəyə düzüblər. Qalabəyi polkovnik onlarla tanış olmağa gəlir. Bir-bir hamıya baxa-baxa keçəndə əmimin qarşısında ayaq saxlayır. Ona diqqətlə baxıb yanındakı yavərinə:

- Bu kişini mənim kabinetimə apar, - deyə əmr edir.

Əmim qorxuya düşür. Polkovnik gələnə qədər ürəyini yeyə-yeyə onun kabinetində oturub gözləyir. Bir azdan içəri girən polkovnik:

- Koxa, sən hara, bura hara, bu nə ağır səfərdir?

Əmim çaşıb qalır. Matı-mutu qurumuş halda polkovnikə baxır, amma bir şey anlaya bilmir.

Polkovnik gülümsünüb:

- Deyəsən məni tanımadın, yaddaşını bir yoxla, - deyib tanışlıq verir - 1915-ci ildə Tiflisdə mənə elədiyin yaxşılığı nə tez unutdun? Biz səninlə Dilicanda duz-çörək kəsmişik. Səhərə qədər davam edən məclisin haqq-hesabını da sən verdin, dostları nə tez unutdun, Məmməd Koxa?

- Məndə indi dost tanımağa hal qalmayıb.

- Fikir eləmə, müdrik bir Azərbaycan məsəlində deyilir ki, igidin başı qalda gərək. Tale bizi gör harda görüşdürdü. Hər halda xətrinə dəymərik, nə qədər mən burdayam, hörmətini saxlayacağam. Çalışarıq sağ-salamat qayıdasan.

Xeyirxah polkovnik, əmim Məmməd Koxanı mətbəxdə baş aşbaz tə'yin edir. Bir gününü üç gün yazıb, dörd ildən sonra onu buraxdırır. Əmim Kazan şəhərinə gəlib çıxır, biletini alıb stansiyada qatar gözləyirmiş. Burda bir nəfər dindaşı ağlaya-ağlaya dilənçilik edirmiş, canıyanan əmim onu yanında oturdub pul-para verir. Dilənən deyir ki, dustağam, buraxılmışam, pulum yoxdu ki, bilet alıb evimə gedəm. Əmimin yazığı gəlir, ona da bilet alır, birgə yola düşürlər. Yol boyu əmim buna öz faciəsini, polkovnikin ona yaxşılığını, sürgündən də pullu-paralı sağ-salamat qayıtdığını açıb danışır. Üç sutka yol gəlirlər. Gecə su üstünə çıxan əmim qayıdıb görür ki, nə bilet aldığı yol yoldaşı var, nə də özünün çamadanları. Namərd, əmimin nəyi varsa, oğurlayıb aradan çıxır. Əmim bu əhvalatı danışanda bərk sarsıntı keçirərdi, yana-yana: "Niyə insanlar korlandı, - deyərdi. İyirminci ildə var-dövlətimi, mal-qaramı Şura hökuməti alanda heç belə sarsılmadım".

***

"Troyka"nın dalınca "Məzəm iclası" başlandı. İki nəfər qəfil Məzəm kəndində peyda oldu. Özlərini Bakıdan e'zam olunmuş türk nümayəndələri kimi təqdim etdilər. Əslində isə Türkcə təmiz danışan Türkiyəli ermənilər idi. Məzəmdə oturub təbliğata başladılar ki, yaxın vaxtlarda Türkiyə ilə müharibə olacaq. Müharibədə Türkiyə qalib gələcək, Azərbaycanı gavur dövlətinin caynağından xilas edəcək. Kəndlərə təbliğatçılar göndərirdilər ki, kim hansı silahı almaq istəyir, üzərinə hansı vəzifəni götürürsə "Məzəm iclası"nın üzvü olsun.

Xoşbəxtlikdən "iclas"ın üzvlüyünə yazılan olmadı. Az sonra mə'lum oldu ki, bu, şura hökumətinin sınaq təbliğatı imiş. Şura hökuməti bilmək istəyir-

miş ki, Türkiyəyə rəğbət bəsləyənlər kimlərdir. E'zam olunanlar da, Bakıdan yox, Yerevandan gəlmə, vaxtilə Türkiyədə yaşamış erməni daşnaklarıdır.

"Məzəm iclası"nın üstünü açan iki erməni qaçağı oldu. Daş Salahlı qaçaqlarına sığınan qaçaq Vanoy və Hampoy God kəndində şəxsi düşmənlərini öldürüb qaçaq düşmüşdülər. Müsəlmanlara tələ quran da onların qan düşmənləri imiş.

## HƏMİD BƏYİN ÖLÜMÜ

***Şura hökuməti qurulandan sonra Həmid bəy ona tabe olmaq istəmədi. Dövlət orqanlarının heç bir təklifini qəbul etmədi. Heç kəsə toxunmur, qabaq kəsib soyğunçuluq da etmirdi. O, yalnız ona hücum edən erməni milis dəstəsinə və ona toxunanlara qarşı vuruşurdu.***

***Əhməd ağa Paşayev.***

Yeni gələn şura hökuməti Azərbaycan Demokratik hökumətinin əsgər və zabitləri ilə çox amansız rəftar elədi. Bakıya girən "azadlıq" ordusu Milli Ordunun 12 generalını, 48 zabitini və çoxlu sayda əsgərini 1920-ci il mayın 25-də məhkəməsiz güllələtdi. 600-ə qədər zabiti olan Azərbaycan ordusunu bolşevik istilası pərən-pərən saldı. Onların əksəriyyəti İrana, Türkiyəyə, Almaniya və Fransaya qaçmağa məcbur oldu. İmkan tapıb qaça bilməyənləri Sibirə, Qazaxıstana və Solovetsk adalarına sürgün elədilər.

1920-ci ildə polkovnik Rüstəm ağa Şıxlinski Bakıda günahsız güllələnəndə Həmid bəy şura hökumətinə inamını tamam itirdi. O, İrana keçdi. Diviziya komandiri, general-mayor Cavad bəy Şıxlinski ilə görüşdü. Cavad bəydən öyrəndi ki, atası Məmməd Koxa Türkiyənin Sarıqamış mahalındadır. Atasının yanına gəlib xeyli birgə yaşadılar.

***

***Köçmək vaxtı gəlib çatmış bu vəfasız dünyadan,<br>Köç yolunda qalan bizik, çoxdan keçib karivan.<br>Yol üçün bir azuqəm yoxdur, ancaq nə edək,<br>Səfərimiz uzaqdadır, xəbsizik yollardan.<br>Sən kərimsən, əhf edənsən, rəhm edənsən, ay allah,<br>Əlimizdən tut ki, bizik qol-qanadsız natəvan!***

***Xaqani Şirvani.***

Atlılar çox da uca olmayan təpəni üzü aşağı endilər. Talanın qırağındakı bulağa çatar-çatmaz tək armudun kölgəsində üç-dörd qaraçıya rast gəldilər. At ayaqlarının səsini eşidəndə onların hamısı geriyə dönüb yolçulara baxdılar. Orta yaşlı, pərişan saçlı arvad öz dillərində yoldaşlarına nəsə deyə-deyə Koxa gilin dəstəsinə yaxınlaşdı. Əvvəlcə Mədəd bəyə üz tutub:

-Uğuru xeyirlilər,-dedi, gəlin falınıza baxım. Uzaq mənzil kəsib gəlirsiniz.

Belə şeylərdən xoşu gəlməyən Mədəd bəy Vəkilov:

Mənlik deyil, hamımızın böyüyü o kişidi, onun bəxtinə nə çıxsa, bizim üçün də qəbuldur-deyib Məmməd Koxanı göstərdi.

Üzünü turşudan qaraçı dərhal ondan aralandı. Şəstlə Koxaya əl açdı.

- Baba,-dedi, -sən səxavətli və mərd bir kişi, icazə ver başının dəstəsinə və sənin canına xeyir-dua verim. Falına baxım, inanmasan nəzirimi qabaqcadan vermə.

Koxa gülümsünüb:

-Hardan bildin mən, mərd və səxavətliyəm?

-Bunu vüqarından və gözlərindən görürəm,-deyib qaraçı şirin dilini işə saldı. Bir az da yaxına gəlib Koxanın sol əlindən tutub ovcunu açdı.-Aç,- dedi ovcunu aç, qorxma, sənə Allah elə bir qismət verib ki, getdiyin məkanda ən əziz adamınla görüşüb sonsuz sevinc nuruna bələnəcəksən. Amma bu məkanda sənə uzun müddət qalmaq qismət olmayacaq. Sağ-salamat vətəninə qayıdacaqsan.

Sərt səsli Məmməd Koxa:

-Mənim vətənim elə üz tutub getdiyim yerdir. Mən türkəm. Sən nə danışırsan?-deyə hirslə cavab verdi. Qaraçı gülümsünüb:

-Yox, baba, məni çaşdırma dayan, hələ burda sənin bəxtində çox uzun yollar görsənir. Özü də çalın-çarpaz yollar... O da burda, bu torpaqda yox, qayıdandan sonra olacaq. Səni qürbət gözləyir, bir xeyli də əzab çəkmək taleyində açıq-aydın görünür. Səndə əziyyəti çəkməyə dözüm də olacaq, amma həsrət səni qocaldacaq. İki-üç il əvvəl çox firavan həyat, qaynar ömür yaşamısan. Düzdür, o qürbət dediyim yerdən də sağ-salamat qayıdacaqsan...

-Sonrası bəs necə olacaq? - Koxa həyəcanla soruşdu.

-Sonrasını demirəm, o qalsın sən qayıdana. Mənə pay verməsən də olar, amma qismətində olanı dedim. İncidin?- Qaraçı girdə gözlərini ona zillədi.

Ona təfərrünclə baxan Koxa:

-Yox,-niyə ki... Koxa elə bil fikirdən ayıldı. Qaraçı aralanmaq istəyəndə qoluna toxunub-dayan, dedi,- mən elə kişiyəm ki, indiyə kimi minnətli çörək

yeməmişəm-Çaşqın halda-Sənin zəhmət haqqın nədi, qaraçı qızı?-Əlini cibinə salıb bir Nikolay çervonu çıxartdı.

Arvad pula gözucu baxıb gülümsündü:

-Onun-dedi, baba, sahibi kimi pulu da öldü. İndi o pul oldu dəmir parçası...

Koxa tez əlini döş cibinə salıb bir neçə şura manatlığı çıxartdı. Birini ona uzadıb:

-Al, dedi- halalın olsun düz danışdığına görə.

Qaraçı qadın on manatlığı alıb öpdü. Kişiyə məhəbbət dolu nəzərlə baxıb baş endirdi. Koxa hələ də quruyub yerində durmuşdu. Qaraçı qadın gedə-gedə qanrılıb:

-Qismət olsa beş il sonra mahalında görüşərik-dedi- sağ əlini qaldırıb beş barmağını göstərdi. İki addım aralıda yoldaşları ilə deyib-gülən Mədət bəy:

-Nə oldu, a Koxa,-dedi, deyəsən qaraçı qızı səni əfsunladı. Əyə, onlara inanma boş-boş danışandı bu sərgərdan uşağı.

Koxa Tatoğlunun verdiyi suyu içib:

-Siz də lağlağı eləməyə vaxt tapdınız. Amma vallah, bəzi şeyləri yaman düz dedi. -Koxa ürəyində, qəlbən qaraçı arvadın dediyinin hamısına inanmışdı.-Gedirəm,-dedi, əgər onun dediyi kimi Həmid balamla Türkiyədə görüşə bilsəm qayıdanda qaraçı arvadı tapıb bir xalis əşrəfi verəcəm ona...

Mədət bəy:

-Ay tapdın ha... Qaraçı bu gün burdadı, sabah cəhənnəmin isti bucağında. Bəlkə yanı buzovlu bir inək də verəsən?

-Mənim, ya da qaraçı qızının qismətində varsa, tapışarıq.-dedi,-Məmməd Koxa, - üzünü qardaşı Avdıya çevirib durun tərpənək, yolçu yolda gərək...

Atlanıb Sarıqamışın adını bilmədiyi talasından tərpəndilər.

Bayaqdan fikir-xəyal içində atın yalmanına baxa-baxa gedən Məmməd Koxa birdən-birə dilləndi:

-Ayə, a Mədəd bəy, mənim qaraçı arvadına inanmağıma irad tutursunuz, hiss eləyirəm ki, hələ ürəyinizdə gülürsünüz də.

Məmməd Koxa kürən Dilibozun başını buraxmışdı. Tatoğlu, Mədət bəy və dəstədəkilərin hamısı Koxadan geri qalmamaq üçün sürəti artıraraq atlarını dörddəmə ilə sürürdülər.

Fikir-xəyal içində atın ipək kimi titrəyən yalmanından gözünü çəkməyən Məmməd Koxa:

-Bilirsiniz, qardaşlar, -dedi mənim başıma gəlib axı! On altıncı ilin bir payız günü Gəncəyə getmişdim. Dostum Nağı bəylə Sərdar bağına gəzməyə çıxmışdıq. Yenicə bir çinar dibində oturmuşduq. Yanı uşaqlı bir qaraçı arvadı gəldi. O, hələ bundan da yaşlı idi. Düzü mən qovmaq istəyirdim Nağı bəy qoymadı, əlini cibinə salıb pul verdi qaraçıya. Pulu alan qaraçı getmədi.

Nağı bəy təpindi ki, rədd ol, pulunu aldın daha nə istəyirsən? Mən də əlimi cibimə salanda qaraçı: "ağa, dayan dedi, falınıza baxım sonra verərsən". Onda mən dedim ki, keçmişimizə yox, gələcək falımıza bax, görək nə olacaq?

Qaraçı əvvəlcə Nağı bəyin əlini istədi, əlini vermədi Nağı bəy.

-Yaxşı gəl mənim əlimi tut, falıma bax -dedim.

O, cibindən sarı bir parça çıxartdı, balaca stəkanın ağzına qoydu. Ona baxa-baxa:

-Ağalar,-dedi, çox yaxın zamanlarda çar taxtdan düşəcək. Ölkədə qarşılıqlıq olacaq. Yeni hökumət gələcək, bu gün vəzifədə olanları, ağa və bəyləri kulak adı ilə güllələyəcəklər. Bu gün vəzifədə olanların heç biri o hökumət gələndə öz əcəli ilə ölməyəcək. Qaranlıq kameralarda, uzaq sürgünlərdə çoxlu adam qırılacaq.

Buraya çatanda Nağı bəy hirslənib qaraçını qovdu. - Kefimi pozdu-deyib hirsləndi, qoymadı mən də pul verəm.

İndi deyin görüm qardaşlar, qaraçı deyənlər oldu, olmadı. Bax, o vaxtdan mən bu qaraçı tayfasına inanıram.

***

1926-cı ilin əvvəllərində Sovet hökuməti ölkədən qaçanların bağışlanması və əfv olunması haqqında fərman verdi. Bu fərman Vətənə qayıtmaq həsrətilə üzülən Məmməd Koxanın ürəyincə oldu. Amma oğlu Həmid bəy qayıtmağa razılıq vermədi.

- Ata, - dedi, - sən Koxa da olmusan, general-qubernator da, amma nəsli-nəcabətinlə rəiyyətsən. Qayıdıb kənddə əkin-biçininlə məşğul olsan, bəlkə də Şura hökuməti sənə dəyib-toxunmaz. Unutma ki, mən Musavat zabitiyəm, dövlətə, yeni hökumətə qarşı qiyamçı olmuşam. Yeni hökumət mənə Gəncə qiyamında elədiklərimi bağışlamaz. Bir də bu fərmandakı əfv olunmaya heç inanmıram. Səncə, bu, sənin, mənim kimisini çağırıb yenidən tora salmaq deyilmi? Gedin, əmim Avdı da gedir, uğurunuz xeyir olsun, yenə deyirəm, amma ehtiyatlı olun, bu bağışlanmadan heç gözüm su içmir. Bu, bolşevik bicliyinə daha çox oxşayır...

Məmməd Koxa bir neçə yaxın adamı ilə geri qayıtdı. Həmid bəy isə Annaxoğlu Mədəd bəylə 1930-cu ilə kimi Türkiyədə qaldı. Az sonra Vətən, torpaq həsrəti onu da çəkib gətirdi. Onda Məmməd Koxa sürgün olunmuşdu.

Uzaqgörən Həmid bəyin gəlişi "operasiya əməliyyatı" illərinə, güclü tə'qib, tuthatut günlərinə düşdü. O, başının dəstəsilə qaçaq kimi gəzməkdən başqa çarə tapa bilmədi. Yenidən Avey və Odun dağları, Ceyrançöl düzənləri, Xanlıqlar meşəsi onun məskəni oldu. Tale onun cavan ömrünə nöqtəni bir təsadüfdən qoydu.

## ULU TANRIDAN DİLƏK

***Ümidsizliyə qapılanda adam üzünü kimə tutmalıdır? -Allaha,- hələ uşaqlıqdan ürəyində kök salmış və heç vaxt şəkk eləmədiyi dini etiqada. Yaşamaq üçün yemək, qida nə qədər lazımdırsa, mənəvi həyat üçün də mənəvi qida-dua bir o qədər vacibdir.***

***Lev Tolstoy.***

Taxta barak isti olduğundan dustaq Məmməd Koxa dəri gödəkçəsini çıxarıb kənara atdı. Həmişə sandıqçanın böründə saxladığı aftafanı yarıya qədər su ilə doldurdu. Dəstəmaz alıb canamazı yerə sərdi. Üzünü qibləyə tutub, dizlərini cütlədi, aşağı çökdü. Ani olaraq başı aşağı sükutla dayandı. Əllərini Allahın dərgahına qaldırıb namaza başladı.

Qadir Allaha yalvaran Məmməd Koxa susub, qəddini düzəltdi. Vüqarla dizi üstə dayanıb, bir neçə dəqiqə yerindən tərpənmədi. Alnındakı soyuq təri əlinin dalı ilə silib, köksünü ötürdü. Hələ də dizi üstə qalan Koxa indi dua oxuyurdu.

Ən çox belə hallarda ötüb keçən günlər əzab verirdi ona. Varlığına hücum çəkən acı-şirin xatirələr dəhşətli dərəcədə incidirdi, həyata, yaşamağa inamını az qala itirirdi. İri gövdəli kişini zəiflədib, onu xəstəhal vəziyyətinə salırdı. Məmməd Koxanı incidən, insanlara inamını itirən, şeytan donuna girən bəzi kişilərin danos yazıb üzünə durmaları idi. O, kişilər ki, vaxtilə Məmməd Koxa onları vəzifəyə qoyub, çörək vermişdi. Şura hökuməti gəldi, onlar da cildini dəyişib oldular bolşevik. Sovet orqanlarında işə girib obadakı əsl kişilərin, ağa və bəylərin qənimi oldular. Onları keçi qiymətinə satdılar. Bu anlarda hələ uşaqlıqda öyrəndiyi duanı o öz-özünə oxuyur və Allaha yalvarırdı ki, İlahi xilas elə məni bu qarabasmalardan, çıxart qəlbimdən şəkk-şübhəni, o nadanların adını yadıma salmağa mənə imkan vermə, uzaq məsafədən də olsa onların murdar sifətini xəyalıma belə gətirməyim.

Hər dəfə el-oba yadına düşəndə dustaq Məmməd Koxa çalışırdı ki, xəyalən də olsa yaxşı kişilərlə həmsöhbət olsun. Ona görə ən çox xatırladığı həm kəndlisi Səttaroğlu Nuru idi. Nuru baməzə, hazırcavab və söz altında qalan adam deyildi.

...Bir gün Məmməd Koxa Nuru kişini çağırıb ona xeyli pul verir.

-Bayram yaxınlaşır,-deyir,- apar bu pulları kasıblara, yetim-yesirə payla, qoy ağız şirinliyi ilə bayram eləsinlər.

Səttaroğlu Nuru Koxanın verdiyi pulları son qəpiyinə qədər gətirib Cəbioğlu Məmmədə verir.

İki gündən sonra Koxa onu yanına çağırıb soruşur:

-Ayə Nuru, nə oldu pulları yetim-yesirə payladınmı, kimlərə verdin?

Nuru Səttaroğlu:

-A Koxa, deyir-verdiyin pulların hamısını aparıb Cəbioğlu Məmmədə verdim.

Koxa hirslənib deyir:

-Ayə belə filan oğlu, Cəbioğlunun varı-dövləti başından aşır. Kasıb-kusubu, yetim-yesiri qoyub pulu niyə ona veribsən?

Nuru:

-A Koxa, əzizim, hirslənib eləmə-deyir. Allah varı-dövləti Cəbioğluna verib, mən də aparıb ona çatdırdım. Allah məndən ağılsız deyil ki...

Koxa da gülüb ötürür, baməzə dostunun xətrinə dəymir.

...Koxanın, baməzə dostu Nurunun əlinə hardansa xeyli qır keçibmiş. Kənddən özünə bir yoldaş da götürüb qırı satmağa Borçalıya gedirlər. Qır alanlardan biri soruşur ki, aya, qardaşlar, adətən qır satanlar Bakıdan olurlar. Siz haralısınız, heç Bakı əhlinə oxşamırsınız?

Nuru tez cavab verir ki, Qazağın Xaccalı kəndindənik, əzizim.

Qır alan aralanan kimi yoldaşı deyir:

-A Nuru, Xaccalı kəndi nədi, öz kəndimizin adını niyə demədin?

Nuru kişi gülümsünüb:

-A sarsaq,-deyir, qır satdığımız yetmir, yox bir kəndin adını da biabır edək. Bizim arvadın adını dedim qoy, gedib Qazaxda Xaccalı kəndi axtarsın görüm tapa biləcəkmi? Birdə ki, Məmməd Koxa qır satdığımızı eşitsə kəndə qayıdanda səni də, məni də güllədən keçirər.

Ötən günlərdə olmuş əhvalatları xatırlayan dustaq Məmməd Koxa bığaltı gülümsəsə də düşdüyü sürgün həyatından çox oğlu Həmidin intizarı ona əzab verirdi. Nəyi unutsa da bircə oğlu Həmid bəyi yaddan çıxarda bilmirdi. Həmid bəyin cəlayi-vətən olub Türkiyəyə getməsi, Şura hökumətinə boyun əyməməsi, indi harda olması onu fikirdən-fikirə salırdı. Nə qədər düşünüb-daşınırdısa oğlunun bu hərəkətinə nə haqq qazandıra bilir, nə də sonunu yaxşı görə bilmirdi. Bayaqdan nimdaş namaz palazı üstündə quruyub qalan dustaq Məmməd Koxa:

-Ey rəhmdil Allah,-dedi, nəslimə gələn bu bəladan bizi xilas et! Harda, hansı məqamda sənin hüzurunda günah iş tutmuşamsa, məni bağışla. Kəramətinə qurban olum, ona min şükür. Heç vaxt sənin bəndəni haqsız yerdə incitməmişəm. Kəhər at belinə qalxanda da, uca-uca rütbələrdə də sənin varlığını unutmamışam. Yetim-yesirə pay verib, əl tutmuşam. Orucunu tutub, namazını qılmışam. Axı, indi bu əzablı sürgün həyatı nə üçündür?

Ey dərgahı uca olan xudavəndə, yer üzünün sahibi özünsən, bəndəni də özün yaratdın, özün də ona baxt, yığval ver. Mənə nübar kimi pay verdiyin bircə balam Həmid bəyi mənə çox görmə, onu uca qanadın altında qoru.

Pərvərdigara, qoy qürbətdəki bircə balam Həmidin qışı mülayim, yazı yağışlı keçsin. Cəlayi-vətən olanların, həbsxana küncünə atılanların, yetim-yesirin dadına yet. İlahi, bircə balamı, bütün məxluqatı şeytan şərindən, zənən məkrindən qoru.

Mərhəmətli, rəhmli Allahım, sənə ibadət edirəm, yalnız səndən kömək diləyirəm.

Koxa, duasını bitirib, salavat çevirdi, canamazı səliqə ilə bükdü. “Allahü-əkbər, kəraminə min şükür”,-deyib ayağa durdu. Palazı həmişəki yerinə qoydu.

Müdrik atanın xeyir-duası yeganə oğlu Həmidi 1930-cu ilin yazına kimi qoruya bildi.

***

...Onlar bir axşam Dağ Kəsəmən meşəsindəki Hacı Yusif ağanın yataq damlarına gəldilər. Yataq bom-boş idi. Yaylağa qalxan el Alpout yurduna, Dəlik daşın yanına düşmüşdü. İlyas o taya, Qarayazıya keçməyi məsləhət bildi:

- Gedək, dədə-babamızın Mehrab yatağına...

Həmid bəy e’tiraz elədi:

- Ora uzaqdı, uşaqlar yorulub, əldən düşüblər. Həm də oranı erməni otryadı bərk güdür. Bura meşəlik olduğundan erməni dəstəsi qorxusundan gecələr yaxın düşə bilmir. Gecəni burda qalaq, səhər tezdən Dilbazilər meşəsinə çəkilərik.

Gecə yarısı gözətçi qoyulan Tapdığı yuxu bərk təntitdi. Aşağı bulağın üstünə enib, əl-üzünü yudu. Axarın aşağısında hörüklənmiş atlara baş çəkdi. Yuxarı qaşa çıxıb Avey dağına, Daş Salahlıya həsrətlə baxdı. Kənddə nöqtə boyda közərən bir-iki çıraq işığından başqa heç nə görə bilmədi. Oturan kimi yenə mürgülədi, yuxu ona aman vermirdi. Qayıdıb İlyası oyatdı. Yarıyuxulu İlyas gözlərini övkələyə-övkələyə:

- Abdullanı oyat - dedi, - o dözümlüdü.



***Məmməd Koxanın bacısı oğlu və kürəkəni İlyas Nəsib oğlu Türkiyədə mühacirət illərində ailəsi ilə***

- Əyə, insafın olsun, o yazıq ötən gecə də yatmayıb, dur, bir azdan dan ağaracaq, bir tikə çimir alım, gözlərim acışıb yanır...

İlyas tüfəngini götürüb çölə çıxdı. Yuxusunu dağıtmaq üçün damların arxasına keçib, sal qayanın çökəyindəki yağışdan qalma sudan üzünə vurdu.

Kəsik-kəsik at kişnərtisi eşidəndə əli havadan asılı qaldı. Təpənin aşağısında yəhərli-yüyənli bir at dayanmışdı. Səksəkə ilə ona baxan atın üstündə heç kəs yox idi. İlyas aşağı sindi. Arxasınca adam gəlib-gəlməyəcəyini gözlədi. At gah yeri iyləyir, gah da kəsik-kəsik qorxu ilə gümüldənirdi. O sinə-sinə bir tikanın dalından o birisinə keçdi. Atın qabağına durdu. Xırdaca bir daş atıb ona ərklə, sahibisayağı təpindi. Aşağıda İlyas gilin atlarından biri kişnəyəndə nabələd at onlara tərəf götürüldü. Atlar bir-birini imsilədi. İlyas ehtiyatla yaxınlaşıb pişik cəldliyi ilə onun yüyənindən yapışdı. At bərk geri dartınıb ilan kimi fınxırdı, gözlərini bərəldib heyrətlə İlyasa baxdı. İlyas onu şirin-şirin muçqurdu, ehtiyatlı addımlarla yaxınlaşıb, oxşaya-oxşaya əvvəlcə üzünü, sonra yalmanını sığalladı. Cibindən bir tikə çörək tapıb ona uzatdı. Çörəyi yeyən at gərili ayaqlarını tamam boşaltdı. Çidar üçün boğazına dolanmış çatını açanda, ram olmuş at heç bir müqavimət göstərmədi. İlyas onu ağaca bağladı. Əyilmiş yəhərini düzəltdi, yəhərüstü zərif xalçaya yapışmış yabanı otları təmizlədi. Gözü xalçanın üstündəki əyri-üyrü yazıya sataşdı. Nə illah elədi oxuya bilmədi. “Erməni atıdı” - deyə fikirləşdi.

O, geri qayıdıb yoldaşlarını oyadanda artıq dan yeri ağarmışdı. Bulaqda əl-üzlərini yuyub atlandılar.

- Bu nə atdı, ay İlyas, kimindi? - Abdulla soruşdu.

Hamı yüyəni çəkib dan qaranlığında yad ata baxdı. Tapdıq lap yaxın gəlib:- Bu at mənə tanış gəlir, - dedi, - qardaşlar, - bir az duruxub - Həmid, bu bilirsən kimindi, Ballı qaya kəndində özündən deyən bir dığa var - Cahan dığanındı bu at. Görünür, həftə bazarına gedirmiş, at onu yıxıb qaçıb.

- Düz deyirsən, bu gün də bazardı, ola bilər.

İlyas necə bir fəndlə atı tutmağını danışdı. Həmid bəy ona axıracan qulaq asmayıb:

- Nahaq tutmusan, - dedi - gərək buraxaydın çıxıb gedəydi, nəyimizə lazımdır?

- Həmid bəy, insafın olsun, belə ceyran kimi atı da əldən buraxmaq olarmı?

- Sonra da bütün obaya, elə səs yayılacaq ki, Həmid gilin dəstəsi soyğunçuluqla məşğuldurlar. Kimi inandıracaqsan ki, at öz ayağı ilə gəlib çıxıb.

İlyas yarızarafat, yarıincik:

- Kor Qəniyə verəcəm, minib kef eləsin...- dedi.

Atları sürüb o taya keçdilər. Sola burulub, qalın meşədə görünməz oldular. Günəşin qızılı şüaları göyün ətəyini qızardanda Dilbazilər talasına çatıb çörəyə oturdular. Atları bir az aşağıda, talanın qırağında hörüyə açdılar. Həmid bəy üzü atlara tərəf oturmuşdu.

- İlyas, - dedi, - dığanın atı şeşələnib kəsik-kəsik kişnəyir, elə hey gümüldənir, heç otlamır. Ya qurd-quş görüb, ya da çöllüyə alışa bilmir. Üzülmüş elə hey boylanır...

İlyas oturduğu yerdə geriyə dönüb, lağla, ata baxa-baxa:

- Əyə, bu köpək oğlunun atı niyə farağat durmur, bəlkə erməni dığası dalınca gəlib, ona gümüldənir.

Hamı gülüşdü. Atlardan gözünü çəkməyən Həmid bəy yerində dikəlib ayağa durdu. O, ayağa duran kimi iki güllə dalbadal açıldı. Həmid bəy əvvəl ombasını, sonra qarnını tutub iki qatlandı. İlyas çörək əlində heyrətlə Həmid bəyə baxdı. Cəld tüfəngi götürüb ayağa durdu.

Abdulla qışqırdı:

- Dığadı, odu, qaçır, - deyib gülləni-güllə dalınca ata-ata üzü aşağı endi.

Yaralı Həmid bəyi götürüb üzüaşağı endilər. Xeyli getdilər, qanı saxlamaq mümkün deyildi. Həmid bəy əlilə “dayanın” işarəsi verdi.

- Məni aparmağın xeyri yoxdu, - dedi. - Gecdi, qoyun rahatca ölüm...

Doluxsunan İlyas aşağı əyilib onun üzündən öpdü, təsəlli verdi:

- Ay qağa, nədi danışdığın, ölüm nədi, zad nədi, bir az da aşağı enək, Cəfərlidən türkəçarə həkimlərdən birini gətirərik... Səndə heç nə yoxdu.

- Yox İlyas, gecdi. Ölümüm çox ucuz oldu... - Sağ əlini heysiz halda yuxarı qaldırdı. Ovcu al qan içindəydi. Son dəfə zorla gülümsünüb: - Sən Allah, dığanın ceyran atını kor Qəniyə ver, qoy minib kef eləsin, - deyib gözlərini yumdu.

***1991-ci il, aprel***

## NƏR MƏMMƏD KOXANIN İZİ BU YERDƏ

İllər gəlib keçdi. Üç qərinə bir əsri tamamladı. Könüllərdə yaşayan elin qeyrətli oğlu Məmməd Koxa yenə unudulmadı. Nəhayət XXI əsrin 2006-cı ilinin yayında mərd Daşsalahlılar keçmiş general-qubernator Məmməd Koxanın 1914-cü ildə inşa etdirdiyi bulağın yeni açılışına toplaşdılar. O gün uca Avey dağının başında nə çən vardı nə də çiskin. Günəşin dünyaya nur saçdığı bir gündə min evli Daşsalahlılar axın-axın gəlib ulu Aveyin sinəsində məclis qurdular. Mahir heykəltaraş Arif Qazıyevin və Ramiz İsmi Qayanın məharətlə yaratdığı barelyef-abidəni ziyarət etdilər. El aşığı Saqif, xalq müğənnisi Sahib Qazaxlı Məmməd babanın şərəfinə şeirlər və nəğmələr oxudular. Ağsaqqal və ağbirçəklərin uzun illər ürəklərində yaşatdıqları acılı-şirinli xatirələr də dilə gəldi.

***Uca boylu, düz qamətli ağsaqqal Tahir Bayram oğlu mikrafona yaxınlaşır, ürək sözlərini şeirlə bildirir:***



***Kəndimin Koxası el ağsaqqalı,***
***Hökümdar sifətli, ay Məmməd Koxa.***
***Allahdan almışdı ağlı, kamalı,***
***Mərd kişi qeyrətli, ay Məmməd Koxa.***

***Mərifətdə, səxavətdə sən təkdin,***
***Daşsalahlı üçün binalar tikdin,***
***Aveyin köksündən bulaq da çəkdin,***
***“Damcılı” sərvətli, ay Məmməd Koxa.***

Avey dağının sərt qayalı döşündə bir qartal süzürdü. O sürətlə aşağı enir, doxsan iki il əvvəl Koxanın əkdiyi uca çinarlardan birinin üstünə qonub heyran-heyran aşağıya bulağa və adamlara boylanırdı. Qocalar kövrələ-kövrələ qartala baxıb deyirdilər:

- Qubernator Məmməd babamızın narahat ruhudur qonaq gəlib bizlərə. Məclisinə xeyir-dua verir.



***El ağsaqqalı İsmayıl Hacıyev:***

- Harda kəndimiz Daş Salahlının adı çəkilir, orda mərd babamız Məmməd Koxa yada düşür. Onu tanıyan, haqqında eşidən ondan ibrətamiz əhvalatlar danışır. Məmməd baba sağlığında da kəndimizin sayılıb-seçilən kişisi olub. Bu gün də gələcəkdə də, o hörmətlə yad eiləcək. Baxmayaraq ki, totalitar Sovet rejimi onun adına və fəaliyyətinə qadağa qoymuşdu. Hər bir Daşsalahlı onun xeyirxahlığını, kəndimiz üçün elədiyi əvəzsiz yaxşılıqları varlığında yaşadır...



***Ağsaqqal müəllim Mehralı Əliyev:.***

- Kəndimizdə Qubernator Məmməd babanın yadigarları çoxdur. O, ötən əsrin əvvəllərində ilk dəfə kəndimizdə məktəb açdırıb, içməli su çəkdirib, idarə binası tikdirib. Min evli Daş Salahlı gəncləri onun tikdirdiyi məktəbdə təhsil alıb, görkəmli alim kimi Azərbaycanın fəxri olublar. Riyaziyyat elmləri doktoru, professor Rəşid Həmid oğlu Məmmədov, Vahid Şamxal oğlu Quluyev, Sabir Kamil oğlu Əliyev, İlham Teymur oğlu Pirməmmədov, Məhəbbət Dəmirçiyeva, Məqsəd Hüseyn oğlu Qocamanov və başqaları.

El oğlumuz şair Qara Qafqazlı "Daşsalahlıda" şeirdə yaxşı deyib:

***Nər Məmməd Koxanın izi bu yerdə,***
***O Mirzə Səmədin sözü bu yerdə***
***Paşa Salahlının özü bu yerdə,***
***Sözün xridarı Daş Salahlıda.***



***Daş Salahlı ziyalısı Şivli oğlu İlyas:***

- Babam Şivli oğlu Məhəmməd Məmməd Koxanın ən sadiq silahdaşı olub. Onların dost və qardaşlığı haqqında eldə, obada danışılan çox saylı əhvalatlar var. Bu iki dost Gəncəyə, Tiflis və Borçalı səfərlərinə həmişə birgə gediblər. Bütün Qazax eli bilir ki, Məmməd Koxa Qazax general-qubernatoru seçiləndə Daş Salahlı kəndinin koxalıq talqasını babam Şivli oğlu Məhəmmədə etibar edib. Bizim nəsl bu gün də bu etibarı saxlayır, Məmməd Koxanın nəvə-nəticələri ilə dostluğu davam etdiririk. İki qartal babamızın dostluğundan məclisdə xeyli söhbət oldu. Onların dəyanəti, qəhrəmanlıq tarixi bir əsri ötüb keçdi. Bu saf dostluq bundan sonra da uzun əsrlər boyu yaşayacaqdır.



***Ağsaqqal Cavad Veyis oğlu:***

- Məmməd Koxa el aşığı Əsəd Rzayevin şerində deyildiyi kimi "şahi-mərdanə kişi" idi. Əyrilərə şılğam çəkib doğru yola gətirərdi. Vaxtilə onun dediyi hikmətli sözlər indi də Gəncə, Qazax və Borçalı mahalında xeyir-şər məclislərində xatırlanır: ***"Ağılla və halallıqla qazanılan çörəkdən kasıba, yetim-yesirə pay vermək ən böyük savabdır"***. Bu gün onun xeyirxahlığını, səxavətini nəvəsi Sayad İsmayıl oğlu şərəflə davam etdirir. Mən istəyirəm onu şeirlə salamlayım.

***Nəvən gülşən etdi Qara bulağı,***
***Aləmə yayıldı, səsi sorağı,***
***Hamı burda qarşılayır qonağı,***
***Bəy ruhun şad olsun, ay Məmməd Koxa.***

***Bu gözəl guşəyə ellər gələcək,***
***Oturub, dincəlib şənlik edəcək.***
***Sayad balana çox sağ ol deyəcək,***
***Bəy ruhun şad olsun ay Məmməd Koxa.***

O gün mərd babaların xatirəsini yad etməklə Daşsalahlılar Koxa bulağının üstündə, ulu Avey dağının döşündə unudulmaz, yadda qalan saatlar yaşadılar. Doxsan iki ildən sonra el, oba tərəfindən adı və şöhrəti özünə qaytarılan mərd babamız, keçmiş Qazax general-qubernatoru Məmməd Mahmud oğlu Mahmudova min rəhmət oxudular. Amin.

***2006-cı il, iyul.***




***Nəvə Sayad İsmayıl oğlunun təşəbbüsü ilə 2006-cı ildə general-qubernator Məmməd Mahmudovun şərəfinə qoyulmuş xatirə abidəsi***



*Məmməd Koxanın 1912-ci ildə öz xərcinə tikdirdiyi məktəb binası*



*Məmməd Koxanın gəlni Səmayə xanım İbrahim qızı və nəvə-nəticələri.*



*Sağdan: Sayad Mahmudov, Araz Mahmudov, Şəmistan Nəzirli, Məhəmməd Mahmudov, və Bəhruz Mahmudov*

## *Tam artilleriya generalı Səməd bəy Mehmandarovun 160 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

*2015-ci ildə görkəmli hərbi xadim, Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri, general Səməd bəy Sadiq bəy oğlu Mehmandoruvun anadan olmasının 160 illiyi tamam olur.*

*General Səməd bəy Mehmandarov döyüş meydanlarındakı yüksək peşakarlığı və zabit şərəfinə hədsiz sədaqəti ilə Azərbaycan xalqının hərb salnaməsinə unudulmaz səhifələr yazmışdır. Azərbaycan Xalq Cümhuriyyəti yaradılarkən ordu quruculuğu prosesinin bütünlüklə milli zəmin üzərində həyata keçirilməsi, hərbi potensialın məharətlə istiqamətləndirilməsi və konkret tarixi şəraitdə ölkənin ərazi bütövlüyünün, hərbi təhlükəsizliyinin layiqincə təşkil edilməsi məhz onun fəaliyyətinin nəticələridir.*

*Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və gənc nəslin azərbaycançılıq məfkurəsinə uyğun, vətənə məhəbbət ruhunda tərbiyəsində əhəmiyyətini nəzərə alaraq, Azərbaycan xalqı qarşısında müstəsina xidmətlər göstərmiş general Səməd bəy Mehmandarovun 160 illik yubleyinin dövlət səviyyəsində keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:*

*1. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Azərbaycan Res–publikasının Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə görkəmli hərbi xadim, general Səməd bəy Mehmandarovun 160 illik yubleyinə dair tədbirlər planını hazırlayıb həyata keçirsin.*

*2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəcamdan irəli gələn məsələləri həll etsin.*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezdenti.***
***Bakı şəhəri, 29 sentyabr 2015-ci il***

## HƏRBİ TƏHSİL DALINCA

**Bizim keçmişdə başqa xalqların qibtə etmələrinə layiq böyüklərimiz çoxdur. Əgər biz istəyirik ki, gələcəkdə bizim xalqımızdan böyük şəxsiyyətlər yetişsin, həmin böyükləri müasirlərimizə, gənclərimizə yaxşı tanıtmalıyıq. Keçmişə məhəbbət gələcəyə xidmətdir.**

***Əkrəm Cəfər,***
***professor***



Генералъ-маіоръ
САМЕДЪ-БЕКЪ-САДЫКЪ-БЕКЪ-МЕХМАНДАРОВЪ,
командиръ 7-й Вост.-Сиб. стр. артилерійской бригады. За отличія во время осады Портъ-Артура онъ былъ награжденъ орденомъ св. Георгія 4-й ст.

...1871-ci ildə Mehmandarovlar ailəsində şadlıq keçirilirdi. Sadıq bəy oğlunun orta təhsil alması münasibətilə Bakıda yaxın dostlarından ibarət bir məclis düzəltmişdi. Qarabağdan adlı-sanlı bəylər, yaxın qohumlar, Lənkərandan qulluq yoldaşları Sadıq bəyin sevincinə şərik olmağa gəlmişdilər. Şuşadan gələn qonaqlar özlərilə müğənni də gətirmişdilər. Müğənni füsunkar Qarabağın igidlərini, türfə gözəllərini vəsf edib məclisi əyləndirirdi. Gecədən xeyli keçənə qədər davam edən məclisdən hamı deyə-külə dağılışdı. Uzaqdan gələn yaxın qohumlar ailəvi söhbəti hələ də davam etdirirdilər. Xanı bəy sağ yanında əyləşmiş Sadıq bəyə yanakı baxıb:

- Əmioğlu, yaxşı, Səməd bəy Ədadiyə məktəbində təhsilini ikmal elədi. Biz də yığışıb onu təbrik elədik. Bəs sonrası, indi



***Mirzə Sadıq bəy Memandarov (1807-1911)***

han sı ali məktəbə hazırlaşır?

Kefi kök, damağı çağ Sadıq bəy bığlarına ötəri əl gəzdirib:

- Ötən il, - dedi, - özü ilə söhbətimiz belə olub ki, gimnaziyaya getsin, müəllim olsun, onu da istəməz, bəyənməz doxtur, mühəndis... Bunların hansını istərsə...

- Yaxşı, bu ötən ilin söhbəti, bəs indi, bu il nə fikirləşib?

- Bu nə sözdü canım, fikirləşmək də ilnəndi? Nə fikirləşəcək, kişinin sözü bir olar! Nə bilim, ay qadan alım, əgər sən deyən kimidirsə, bu ilin qərarını yəqin ki, özü vermiş olar. Çağır özündən soruş. Əmi, qardaşoğlu - siz ki, köhnə dostsunuz.

Sadıq bəy oğlunun boy-buxunu, ədəb-ərkanı ilə fəxr edirdi. İstəyirdi ki, yaxın qohumlar da onun yarlı-yaraşıqlı oğul olmasını yaxından görsün.

Xanı bəy çaydan bir neçə qurtum alıb atasının yanında naz-qəmzə ilə şıltaqlıq edən Rüxsarənin saçlarını tumarladı.

- Qızım, - dedi, - get, qardaşın Səməd bəyi çağır gəlsin bura.

Səməd bəy ədəb-ərkanla salam verib stolun aşağı ucunda, qohumlarının hüzurunda müntəzir dayandı. Şuşadan gələn ağsaqqal qonaqlar olmasaydı, ötəri zarafatı olan əmisi Xanı bəylə öpüşüb görüşərdi. İçkidən xumarlanan Xanı bəy şad-xürrəm halda gülümsünür, gözünü Səməd bəydən çəkmirdi.

- Bura bax, əyə - dedi, - yaxın gəl, bir əmin səni təbrik etsin, öpsün.

- Sadıq bəy təəccüblə:

- Bay, balam, hələ görüşməmisiniz?

Xanı bəy gur səslə:

- Yox, - dedi, mən gələndə soruşdum, dedilər evdə yoxdu. Xanı bəy zarafatla şəhadət barmağını silkələyə-silkələyə: - Qırışmal gör heç əmisi ilə görüşməyə

can atır? Dirsəyi ilə əmisi oğlu Sadıq bəyə yüngülvarı toxunudu: - Ona izin ver yaxın gəlsin.

- Nə izin verəcəm, bura kimi gəlib, qoy bir-iki addım da atsın. Gəl, əminlə görüş, oğul. Xanı bəy hər iki əlilə onun başından yapışıb alnından öpdü.

İgidin alnından öpərlər, sən ki, Ədadiyəni əla bitirdin, demək, igidsən.

Səməd bəy qollarını əmisinin boynuna dolayıb qulağına pıçıldadı:

- Mən də elə bildim qız kimi üzümdən öpəcəksən.

Xanı bəy bərkdən qəhqəhə çəkərək:

- Əyə, - dedi. - Lənkəranda[1] dünyaya gəlsən də, vallah, Qarabağlısan ki, Qarabağlı... Eşq olsun sənə, qardaşoğlu!..

Səməd bəy şəhadət barmağını dodaqlarının ucuna toxundurdu. Yəni ağartma, atama, qonaqlara demə işarəsini verdi.

Sadıq bəy üzə vurmasa da, onun özünə də xoş gəlirdi ki, Xanı bəy oğlu ilə böyük kimi rəftar edir. Aralarında səmimi zarafatları var. Bir-iki dəfə elə-belə ehtiyata əmisi oğluna demişdi ki, çox da dərinə gedib uşağı üzdən salma. Zarafatın şiti-şoru çıxanda, aradan pərdə götürülür, hörmət-izzət itir, axırı yaxşı nəticə vermir.

Sadıq bəy qəlyanını doldura-doldura:

- Yenə başladınız. Xanı, o sənin qulağına nə dedi ki?..

Ağır-ağır yerinə əyləşən Xanı bəy:

- Heç, özümüz bilərik, - dedi. - Gözünü Səməd bəydən çəkmədən: - Yaxşı, qardaşoğlu, Ədadiyəni bitirdin, yəni möhtəşəm bilik məbədinə gedən pilləkənin birini çıxdın, bəs sonrası, indi fikrin nədir, hara oxumağa gedəcəksən?

Səməd bəy susurdu. Dinmək istəyirdi, ancaq atasından ehtiyat edirdi. Axşamdan özlüyündə fikirləşmişdi ki, arzumu əmimə təklikdə deyərəm, o da bəlkə atamı yola gətirdi. Bir ilə yaxın idi ki, qəti qərara gəlmişdi: oxumağa hərbiyyə məktəbinə gedəcək.

- Hə, dillən oğul, qonaqları, əmini intizarda qoyma. Hara istəyirsən? Tiflis gimnaziyasına, Xarkov Tibb institutuna, yoxsa Peterburqa?.. Maşallah, özün daha böyük oğlansan. Bəlkə mühəndis olmaq istəyirsən, bəlkə təbabət elmi fikrindən keçir?

Ata demək olar bütün sənətləri saydı, bircə Səməd bəyin bir ilə yaxın havası ilə uçduğu hərbi kəlməsini dilinə gətirmədi. Bu qədər ağsaqqalların yanında susmağı nəzakətsizlik sayan Səməd bəy özünü toplayıb bəy oğluna məxsus təmkinlə:

- Ata, Peterburqa, amma hərbiyyə məktəbinə getmək istəyirəm.

---

1. Əslən Qarabağlı olan Səməd bəy Mehmandarov 1855-ci il oktyabrın 16-da Lənkəranda varlı zadəgan ailəsində anadan olub. - Ş. N.

Sadıq bəy hərbiyyə sözünü eşidib yerində qurcalandı. Təəccüb və heyrətlə:

- Hara dedin, oğul?

- Hərbiyyə məktəbinə getmək çoxdankı arzumdur. Mən ora hazırlaşmışam, ata!

Səsinin tonu dəyişmiş Xanı bəy:

- Baho, qardaşoğlu, bu nə çətin oldu? Deyilişindən hiss olunurdu ki, əmi də onun hərbçi olmasına narazıdır. Bu dəfə lap ciddi: - Gələcəyin yolu yaman enişli-yoxuşlu oldu, qardaşoğlu. Bəri başdan yaxşı fikirləş haa...

- Bu, mənim qəti qərarımdır, əmi! - deyib Səməd bəy utancaq baxışlarını yerə dikdi. Ani olaraq gözaltı atasına baxdı. Kişinin sərt sifəti qara qayış kimi tarıma çəkilmişdi. Sinəsi körük kimi qalxıb enirdi. Otaqda tam sakitlik hökm sürürdü. Xanı bəy bikef halda stəkanı götürüb bir qurtum içdi. Özü də hiss etmədən stəkan əlindən sürüşüb nəlbəkidə şaqqıldadı. Əyilib diqqətlə stəkana yandan baxdı:

- Bay sənin, - dedi, çatladı ki... - Üzünü Səməd bəyə tutub: - Qardaşoğlu, kəl bunu mətbəxə apar.

Səməd bəy otaqdan çıxanda Xanı bəy üzrxahlıq edib Sadıq bəyə təsəlli verdi:

- Əmioğlu, - dedi, gördün, şüşə qab sındı, fikir eləmə, bəlkə xeyir elə bundadır. Uşağın arzusuna qarşı çıxma, hiss olunur ki, hərbiyyə işinə çox həvəsi var. Səməd bəy qanacaqsız uşaq deyil. Özün məndən yaxşı tanıyırsan. O sənəti sevməsə, bu qədər ağsaqqal hüzurunda deməzdi ki, bu mənim qəti qərarımdır. Allah xeyir versin...

Sadıq bəy hirslə:

- Yava-yava danışma, mənim on beş oğlum yoxdur ki, birinin də başından keçib rusa verəm. Böyük oğlum Ələkbər bəy iyirmi bir saylı Qafqaz hərbi taborunda xidmət edir, bəsdir.

- Rusa niyə verirsən, oxuyub qayıdacaq. Bakı, Gəncə, Tiflis qarnizonlarından birində xidmət edəcək. Xalqımızın bir silah tutan oğlu da artacaq. — Xanı bəy ayağa durdu, stulu döndərib Sadıq bəylə üzbəüz oturdu. İçkinin nəşəsindən sərməst olan Xanı bəy cəsarətə gəlmişdi. İlk dəfə idi özündən böyük əmisi oğlunun hüzurunda dil-dil ötürdü: - Ay canım, közüm, Mirzə Sadıq bəy, - dedi, niyə belə danışırsan ey, bir de görüm, sən özün Peterburq Universitetinin Hüquq fakültəsini bitirməmisən? İngilis, firəng və alman dillərini də orda oxuyanda öyrənməmisən? Sən - şuşalı Hüseyn bəyin oğlu, qatırçı Muradın nəvəsi - Rusiyada oxuyub gələndən sonra Muğanda pristav, Şamaxıda sahə iclasçısı, indi də Lənkəranda quberniya katibi deyilsən? Əşi, sevin ki, sənin gedib-gəldiyin yolu oğlun da gedir...

- Bəs o, gecə-gündüz Nizami, Füzuli oxuyurdu. Vidadi, Vaqif şerlərini

əzbərləyirdi. Fars, türk dillərinin qrammatikasını öyrənirdi. Mən də sevindim ki, oğlum müəllim olacaq, xalqına gərək olan maarif işində çalışacaq. - Sadıq bəy hirslə qızı Rüxsarəyə:

- Get, onu çağır, bura gəlsin! - dedi. Səməd bəy pörtmüş halda içəri girdi.

Bilmirdi baxışlarını hara diksin. Yenə bayaqkı yerdə böyüklərin hüzurunda müntəzir dayandı.

Sadıq bəy sərt və ötkəm səslə:

- Oğul, bu sənin qəti qərarındır?

- Bəli, ata...

- Axı sən onu bilirsənmi ki, sənin atan Sadıq bəyin indiyədək nə hökumət qulluğunda, nə dostlar arasında, nə də ki, evdə bir sözü iki olmayıb. Heç kəs onun sözünün qabağına söz deməyib. Bu mənasız fikir haradan sənin ağlına gəlib? Get, fikirləş, qərarını dəyiş! - kinayə ilə: - Hərbçi olacaq, yox bir yaranal olacaq... Elə bilirsən asandı gecə-gündüz çöllərdə qalmaq? Bu nə sənətdi? Qızmar günəşdə, sərt ayazda, dizə çıxan palçıqda günlərlə, aylarla çöllərdə qalacaqsan. Səni kimsə yoldan çıxardıb, yəqin ki, yaranal olmaq iştahın var... Dəyiş qərarını... On yeddi yaşın var, özünə sənət seçib, gün ağlaya bilmirsən.

- Əziz ata, ilk dəfə sözünüzdən çıxdığım üçün üzr istəyirəm. O ki, qaldı yaranal olmağa... yaranal qızlardan olmur. Yaranal elə mənim kimi oğullardan olur...

Anası Böyüknənə[1] dözə bilməyib oğluna qahmar çıxdı:

- A kişi, uşağı bu qədər danlama, özün də boş yerə hirslənib əsib coşma. Uşaqdı, indi deyib, bəlkə səhərə, o biri günə fikrini dəyişdi.

Sadıq bəy hirslə stulunu qabağa çəkib:

- Görmürsən deyir ki, bu mənim qəti qərarımdır. Oğul, eşit və bil, mənim də qəti qərarım ondan ibarətdir ki, səni heç yerə göndərməyə - nə hərbiyyə məktəbinə, nə də başqa yerə bir qəpik belə pulum yoxdur. Xoş gəldin, get otur evdə, un çuvalına tay ol...

- Ata, mən kor qız deyiləm ki, un çuvalına tay olam. Sizin yardımınızdan imtina edib, Peterburqa hərbiyyə məktəbinə oxumağa gedəcəm... - deyib çıxdı.

1871-ci ildə ata sözündən «çıxan», bir daha onun üzünü görməyən keneral Səməd bəy Mehmandarov ilk hərbi təhsil almağa belə getdi. Kaş, bütün gənclər ata sözündən belə «çıxaydı».

Səməd bəyin atası Mirzə Sadıq bəy Hüseyn bəy oğlu Mehmandarov 1812-ci ildə Şuşada anadan olmuşdu. O, ibtidai mədrəsə təhsili aldıqdan sonra Şuşanın nüfuzlu müctəhidi Əbdürrəhman ağa Molla İsmayıl oğlunun şəxsi məktəbində kamil biliyə malik olmuşdu.

Əsl adı Tutuxanım olub. Hörmət əlaməti olaraq Böyüknənə deyiblər

Bu gün əlimizdə 1864-cü il sentyabrın 29-da Sadıq bəy Mehmandarova məxsus rəsmi sənəd var: «Əlahəzrət imperatorun fərmanına görə attestat»ı həmin ili Bakı quberniya idarəsinin dövlət möhürü ilə təsdiq olunmuşdur. Sənəddə göstərilir ki, titulyar müşavir Mirzə Sadıq bəyin əlli iki yaşı var. Müsəlman dininin şiə təriqətinə mənsubdur, mənşəcə bəy rütbəsindədir və keçmiş Zaqafqaziya missionerlərindən təhsil almışdır.

Mirzə Sadıq bəyin ata babası Mirzə Əli bəy Qarabağ xanlığında mehmandar vəzifəsini icra edirdi. Nəslin övladları ulu babalarının vəzifəsinə hörmət əlaməti olaraq Mehmandarovlar soyadını qəbul ediblər.

Sadıq bəy Talış xanlığının rəhbəri general-mayor Karl fon Karloviç Krabbenin icazəsi ilə 1833-cü il iyunun 9-da tərcüməsi, 1840-cı il noyabrın 1-də Lənkəran qəza rəisinin sahə iclasçısı vəzifəsində çalışmışdır.

1849cu il iyunun 27-də Sadıq bəyin əla xidmətini qiymətləndirən dövlət onu tunc medalla təltif edir və Muğana pristav vəzifəsinə göndərir. Altı il bu vəzifədə qüsursuz xidmət edən Sadıq bəy 1855-ci il oktyabrın 24-də Lənkəran polis komissarı vəzifəsinə təyin olunur.

Dövrünün qabaqcıl ziyalısı, maarifpərvər Mirzə Sadıq bəy 1840-cı ilin yayında Şuşadan Lənkərana gedərkən Qaradonlu gömrükxanasında Şamaxılı şair Mirzə İsmayıl Qasirlə (1805-1900) görüşüb tanış olur. Qasirin söhbətinə və biliyinə aludə olan Sadıq bəy onu Lənkərana dəvət edir. Öz mülkünün bir neçə otağını ona verir. «Üsuli-Cədid» məktəbi açması üçün əlli nəfər uşaq toplamağa da köməyini əsirgəmir. İki dost az sonra məktəbin nəzdində «Fövcül-füsahə» («Səlis danışanlar») adlı ədəbi-bədii məclis də təşkil edirlər.

Səməd bəy də ilk ibtidai təhsilini Mirzə Qasirin yeni üsulla açılan məktəbində almışdır. Bu məktəbdə Azərbaycan dili ilə yanaşı, fars və rus dilləri də tədris olunurdu. Mirzə İsmayıl Qasir məktəb barədə yazdığı şeirlərində Mirzə Sadıq bəy Mehmandarovun da xidmətini yada salır:

***Ariflərin arifidir burda Mirzə Sadıq bəy,***
***Düz çörəkli, düz ürəkli, könül əhli bir insan.***
***Elmin bütün nöqtəsinə dəymiş onun qələmi,***
***Saf idrakı bir dəryadır, kamalısa asiman.***
***Onun urfan otağında oxuyurdu uşaqlar.***
***Yüz beytlik lüğət yazdım şeir ilə o zaman,***
***Fars dilindən, şəriətdən, bir də şeir – sənətdən***
***Dərs deyirdim, bülbül gülü səsləyərkən astadan,***
***Orda gözəl məktəb açdım, tez yığıldı başıma***
***Elmin əlli pərvanəsi – oxumağa can atan.***

Rəsmi dövlət idarələrində çalışmasına baxmayaraq Mirzə Sadıq bəyin maarifə, poeziyaya xüsusi marağı vardı. Şeir sənət vurğunu olan Mirzə Sadıq bəyin yazdığı bir qəzəl bu günümüzə qədər gəlib çatmışdır.

***Ey bəndeyi-şümşadın sərvi-səhi qamətlər,***
***Durma ki, düşər dursan dünyaya qiyamətlər.***

***Bu qamətü hüsnilə tərk eylə çəmən seyrin,***
***Şümşadu güli-bağə artırma xəcalətlər.***

***Ey gözləri bütxanə, gər Kəbə degil kuyin,***
***Eşq əhli neçün eylər kuyində ziyarətlər?***

***Hüsnun güli tək olmaz gülbərki-bəharəfruz,***
***Səbbaği-qəza versə yüz rəng ilə zinətlər.***

Sənəddə göstərilir ki, generalın atası Sadıq bəy Mehmandarov (1812-1911) uzun ömür yaşamışdır. Doxsan doqquz yaşında dünyadan köçən Sadıq bəyin Tutu xanımdan on övladı olmuşdur. Mehmandarovlar ailəsi nüfuzlu Talışxanovlarla qız verib, qız olmaqla yaxın qohum olmuşlar. Qardaşı Nağı bəy Mehmandarov (1844-1910) Mir Əbülfət xan Talışxanovun qızı Bikə xanımla evlənib. Övladı Sona xanım Səlimxanova idi.

***Səməd bəyin bacısı Mehparə xanım*** (1870-1943) Mir Musaxan Talışxanovun (1852-1904) ikinci arvadı olub.

***Balaxanım Mirzə Sadıq bəy qızı*** Mehparə xanım Mir İsabəy Talışxanovun (1825-1884) ikinci arvadı idi.

***Məryəm xanım Mirzə Sadıq bəy qızı*** (1870-1944) Mir Rzaqulu xan Talışxanovun (1863-1932) həyat yoldaşı idi.

1864-cü il sentyabrın 29-da Sadıq bəy Mehmandarova verilən attestasiya sənədində general Səməd bəyin təvəllüd tarixi səhvən 1850-ci il göstərilir. Moskva və Sankt-Peterburq hərbi arxivlərində saxlanan rəsmi «Zabitin xidmət» kitabçasında və 1920-ci il iyunun 4-də Bakıda bolşeviklər Səməd bəyi həbs edəndə öz əlilə doldurduğu «Həbs vərəqi»ndə generalın təvəllüd tarixi 16 oktyabr 1855-ci il göstərilir.

Sadıq bəyin və Tutu xanım Mehmandarovların sonrakı övladlarının yaşlarının ardıcıllığı belədir: Ələkbər bəy 26, Əlihacı bəy 20, Baba bəy 15, İbrahim bəy 12, İsa bəy 8, Yunis bəy 3, qızları; Bəsti xanım 21, Həslə xanım 16, Ağanənə xanım 9 yaşındadırlar. Oğlanlarından Ələkbər bəy iyirmi bir saylı Qafqaz hərbi taborunda xidmət edir. Əlihacı bəy Züvan sahə idarəsində kargüzar işləyir. Baba

bəy və İbrahim bəy isə yüksək dərəcəli Bakı məktəbində oxuyurlar. Sadıq bəy, arvadı Tutu xanım və uşaqları dinin şiə təriqətinə inanırlar.

1988-ci ildə Xırdalan qəsəbəsində yaşayan səksən iki yaşlı generalın qohumu Nadir Teymurzadənin söhbəti: «Məşhur sərkərdə Səməd bəy Mehmandarov anamın dayısıdır. Atam Teymur Peterburq mühəndislik institutunu bitirmişdi. O, milyonçu Musa Nağıyevin zavodunda işləyirdi. 1917-ci ildə Bakıda kor bağırsaq xəstəliyindən vəfat etdi. Ailəmiz 1928-ci ildə Gəncəyə köçdü. Məni anam yeddinci nümunə məktəbinə qəbula apardı. Məktəbin müdiri Paşa Hüseynov dedi ki, uşağı Mehmandarov familiyası ilə məktəbə qəbul edə bilmərik. Bu familiya həm uşağa, həm də bizə xeyir gətirməz. O vaxtlar bizim Mehmandarovları bir ucdan həbs edib Sibirə göndərirdilər. Paşa müəllim xeyli fikirli-fikirli dayanıb dedi ki, icazə verin atasının adını familiya edək. O vaxtdan mən Teymurzadə familiyasını daşıyıram.

Səhv eləmirəmsə 1930-cu ilin yay ayı idi. Anam Bəyimağaya xəbər göndərmişdilər ki, dayın Səməd bəy xəstələnib. Ona baş çəkməyə Bakıya gedən aanam məni də özü ilə apardı. İndiki İstiqlal küçəsindəki evinə gəldik, kişi bərk qocalmışdı. Evdə tək idi. Otaqlar demək olarki, boş idi. Kasıb bir ailə yaşayışı açıq-aydın hiss olunurdu. Yadımdadı, böyük otaqdakı iki şkaf kitabla dolu idi. Mənim stolun üstündəki şəkilli kitabı maraqla vərəqlədiyimə diqqətlə baxan Səməd baba dərslərimi soruşdu. Söhbət arası anam deyəndə ki, mən Teymurzadə familiyasını daşıyıram. Bərk hisləndi, anamı danladı:

- Famili niyə dəyişibsən? Heç bilirsən ki, Mehmandarov nə deməkdir? - Özü də əsəbi-əsəbi cavab verdi – Qonaqsevər, qonaqsevər... Bizim nəsl bu familiya ilə tanınır.

Bu mənim anamın dayısı, şöhrətli generalımız Səməd bəy Mehmandarovla birinci və axırıncı görüşüm idi».

## UZAQ ŞƏRQDƏ

Tam artilleriya generalı Səməd bəy Mehmandarov haqqında yazmağı düşünəndə qeyri-ixtiyari Əli ağa Şıxlinskini xatırladım. Tez-tez Şıxlinskinin «Xatirələrim»daki ayrı-ayrı epizodlar yadıma düşürdü. Mənə elə gəlir ki, Səməd bəy Mehmandarovun sonrakı ömür yolunu Əli ağa Şıxlinskidən yaxşı bilən ikinci şəxs olmayıb. Ona görə də Şıxlinskinin əvəzsiz xatirələrinə müraciət edəcəyəm. Onlar ilk dəfə 1888-ci ildə tanış oldular. Bu dostluq 1931-ci ilin fevralına kimi - Mehmandarov dünyadan köçən günə qədər davam etdi. Həmyerlilərin bu dostluğu bir neçə müharibə alovundan, inqilab tufanından keçib nəsillərə nümunə oldu.



Çox təəssüf ki, Səməd bəy Mehmandarov da Əli ağa Şıxlinski kimi hərbi memuar yazmayıb. Buna otuzuncu illərin sərt ab-havası günahkardır. Onda Heydər Hüseynov kimi məşhur, xeyirxah alim ədəbi ictimaiyyətə təzə gəlmişdi. Bizə əziz miras kimi qalan «Xatirələrim»in bəxti onda kəsdi ki, müharibə başlananda milli Azərbaycan diviziyasının yaradılması ilə bağlı məsləhətə gələn Heydər Hüseynov generalın xatirələrinin dəyərini qiymətləndirərək onu qələmə aldı. Ömrünün son günlərini yaşayan Şıxlinski də qürbətdə, səngərlərdə, palçıq və qanqarışıq cəbhə meydanlarında Səməd bəy Mehmandarovla keçirdiyi günlərini unutmayıb müəyyən epizodları ona diktə etdi.

Bir hərbçi xadim kimi, Səməd bəyin xidmətləri əvəzsizdir. Xüsusilə onun artilleriya atəşinin avtomatlaşdırılmasında və səhra toplarının yüngülləşdirilməsindəki xidmətləri hərb elminə layiqli töhfə olmuşdur. Hərbi sərkərdə kimi, rus hərb tarixçiləri, yazıçıları onun artilleriya sahəsindəki böyük nüfuzundan, qorxmazlığından, istedadından iftixarla yazırlar. Özümüzdə isə, inqilabdan əvvəlki generallarımızdan söz düşəndə ən az məlumata malik adam belə Şıxlinskinin və Mehmandarovun adını çəkə bilir. Etiraf etməliyik ki, son illərə qədər hər bir azərbaycanlının tanıdığı yalnız bu iki əfsanəvi general olub. Təəssüf ki, onların da adını çox vaxt qorxa-qorxa çəkmişik. Rəsmi dairələrdə isə onların adının yanında həmişə bir neçə ağ ləkə olub: «çar generalıdı», «müsavatın hərbiyyə naziri olub», «bəy nəslinin nümayəndələridir» və s. Bu minvalla, yersiz damğalarla görkəmli sərkərdələrimizi unutmuşuq, az, lap az tədqiq etmişik. Amma qonşularımız praporşik rütbəsində olan oğlunu elə tərifləyir, haqqında o qədər yazır ki, az qala gözündə generaldan da uca olur. Halbuki, yadların fəxrlə söhbət açdığı bu iki generalımız Port-Arturda yaponlara, Birinci dünya müharibəsində almanlara, 1918-20-ci illərdə erməni daşnaklarına qarşı vuruşaraq ulu babalarımızdan gələn döyüş ənənələrini bütün dünyaya yaymışlar. Birinə «artilleriyanın allahı» fəxri adı, o birinə isə «Müqəddəs Georgi» ordeninin üçüncü və dördüncü dərəcəsi verilib. Böyük imperiyanın minlərlə generalları arasında onların da öz yeri olub.

Əli ağa Şıxlinskinin aydan arı, sudan duru xatirələrindən bizə məlum olur ki, podpolkovnik Mehmandarov ilk dəfə 1900-cü il avqustun üçündə çinlilərə qarşı vuruşmada ad-san qazanmışdı. Uzaq Şərqə hərbi xidmətə gələn gənc zabit Əli ağa Şıxlinski həmin ili Nerçinsk şəhərində düşərgə salmış Zabaykal topçu divizionunda həmyerlisi ilə görüşünü sevinclə qeyd edir: «Divizion iki batareyadan ibarət idi: birincisinə podpolkovnik Enqelman, ikinci batareyaya isə mənim həmyerlim və köhnə tanışım podpolkovnik Səməd bəy Mehmandarov komandanlıq edirdi».

Əli ağa Şıxlinskinin xatirələrindən aydın olur ki, o, həmyerlisi ilə fəxr edirmiş. Bu da təsadüfi deyildi. Axı, hərbin sərt qanunlarında ciddi nizam-intizama baxmayaraq, kinayə ilə «aziat» deyilən bir millətin cavan zabit oğlu az müddətdə Rusiyanın ikinci və üçüncü dərəcəli «Müqəddəs Stanislav», ikinci dərəcəli «Müqəddəs Anna», üçüncü dərəcəli «Müqəddəs Vladimir», sərkərdələrə məxsus «İgidliyə görə» (qızıl qılıncla birgə) ali ordenləri ilə təltif olunmuşdur.

1875-ci ildə Peterburqdakı Konstantin yunkerlər məktəbini bitirən Səməd bəy hərbi biliyə olan güclü marağı və fitri istedadı sayəsində bir il keçməmiş podporuçik rütbəsi ilə təltif olunur. Xidmətdə çox sürətlə irəliləyən Mehmandarov, yeni əsrin başlanmasına iki il qalmış podpolkovnik idi. Bir az əvvələ qayıtsaq görərik ki, cəmi iki il Varşava hərbi dairəsində xidmət edən mayor Səməd bəy Mehmandarov şəhər hərbi məhkəməsinin üzvü seçilib.

Əli ağa Şıxlinski bunları bilirdi və həmyerlisinin Uzaq Şərqdə çinlilərlə döyüşdəki məharəti ilə haqlı olaraq fəxr edirdi.

Zabaykal topçu divizionun batareya komandiri Səməd bəy Mehmandarov tapşırıq almışdı ki, Kiçik Xinqan dağ silsiləsini düşməndən müdafiə etsin. Komandir üç sıra səngər qurdurdu. Silsilənin coğrafi şəraiti çılpaq təpələr olduğuna görə batareya düşmənin atəşi altında özünə mövqe tutmalı idi. Özgə çıxış yolu yox idi. Bura topların qurulması, topçuların əl-qol atması üçün münasib deyildi. Batareya döyüşə hazır olan anda Zabaykal vilayətinin rəisi, general-mayor Rennenkampf əmr verdi ki, çinli əsgərlər Sisikara şəhərindən çıxır. Onlara atəş açın. Bu vaxt silahsız, hərbi paltarda olan iki dəstə düşmən əsgəri təntənə ilə şəhərdən çıxmağa başladı. General nə qədər qışqırıb bağırdısa, Mehmandarov silahsız adamlara atəş açmadı.

Bu əhvalatın canlı şahidi Əli ağa Şıxlinski olub. O, yazır ki, bu hadisəyə görə general Rennenkampfla Mehmandarov arasında ciddi münaqişə oldu. General Rennenkampf Mehmandarovu hədələyərək dedi ki, əmri yerinə yetirmədiyinə görə, batareya komandirliyindən çıxarılıb məhkəməyə veriləcəksən. Səməd bəy Mehmandarov isə silahsız adamlara atəş açmağı qəti rədd etdi. O, şəhərdən çıxan çinlilərin başı üstündən atəş açdırıb onları geri qaytardı. Sisikara şəhərində bir

nəfərin belə qanı axıdılmadan Mehmandarovun batareyası tərəfindən alındı.

...Polkovnik Səməd bəy Mehmandarovun artilleriya divizionu 1902-ci ildə Mancuriya ərazisində öz xidməti borcunu yerinə yetirirdi. Komandanlıq ona mühüm bir tapşırıq vermişdi: Siyan-Sin rayonunda yapon agentlərinin - xunxuzların quldur dəstələrini ləğv etmək. Az bir müddətdə quldur dəstələrini ləğv edən polkovnik Mehmandarovun divizionu onların başçısı, xunxuz generalı Çembeyinin özünü də əsir aldı. Həmin əməliyyatlardakı əla döyüş xidmətlərinə görə komandir - Səməd bəy Mehmandarov üçüncü dərəcəli «Müqəddəs Vladimir» ordeni ilə təltif olundu.

1903-cü ilin əvvəllərində Səməd bəy Mehmandarov altı aylıq məzuniyyət alıb Peterburqa qayıdır. Jitomirli Yelizaveta Nikolayevna Teslavla ailə həyatı qurur. Yeddi aylıq topçu zabitləri məktəbində təhsilini davam etdirir.

Əli ağa Şıxlinskinin xatirələrindən:

«Mehmandarov bizdən ayrı olduğu bu müddətdə batareyaya mən komandanlıq edirdim. O, hissəmizə qayıdanda həyata keçirdiyim bütün tədbirlərlə tanış oldu, çox razı qaldı... Mehmandarov batareyanı qəbul etdi. Bütün dəftərlərdə pulun qəbul edilməsi aktına qol çəkdi. Amma pulları saymadı. Mən təəccüb edərək, pulları niyə saymadığını soruşduqda, gülümsəyərək:

- Siz ki, saymısınız, - dedi, - mənim saymağıma ehtiyac yoxdur.

Səməd bəy Mehmandarov həmişə kefi saz olanda etdiyi kimi, indi də papağını yan qoyaraq, açarı cibinə qoydu və evinə getdi. Kiçik rütbəli yoldaşlarım bu işə çox təəccüb etdilər. Çünki onlar komandirimizin dövlət pulu üçün necə can yandırdığını yaxşı bilirdilər. Mən onlara başa saldım ki, Mehmandarov kimi şəxslər, adama bir dəfə inandılarmı, hər cəhətdən inanarlar. Məni isə Səməd bəy Mehmandarov 1888-ci ildən tanıyır».

* * *

## PORT - ARTURUN AZƏRBAYCANLI QƏHRƏMANLARI

***Zaqafqaziya müsəlmanlarının başçısı Şeyxulislam Əbdülsalam Axundzadə Rus- Yapon müharibəsinin başlanması ilə xalqa xüsusi bir müraciətnamə ünvanlandı. Orada müsəlmanların xəyanətkar yaponlara qarşı müharibədə iştirak etməyə hazır olduqları göstərildi.***

***Azərbaycan burjuaziyası müharibə fonduna çoxlu vəsait verdi. Bakı Bələdiyyə idarəsi müharibə fonduna 15 min manat, Gəncə***

***şəhər duması 2 min manat. Neft sənayeçilərinin qurultay şurası 150 min manat, Hacı Zeynalabdin Tağıyev, Şəmsi Əsədullayev, Musa Nağıyev və başqa iri kapitalistlər 10 min manatdan çox pul vermişdilər. Müharibə fonduna vəsait toplanmasında varlılarla bərabər məmurlar, mürtəci zabitlər də can-başla iştirak edirdilər. Azərbaycanın bəy-mülkədar dairələrindən çıxan bir sıra azərbaycanlı zabitlər də Port-Arturun müdafiəçiləri sırasında idi.***

***"Azərbaycan tarixi" II cild, səh. 548, 1964-cü il nəşri***

595

спитали; подъ вечеръ стрѣляли съ часъ времени по городу, причемъ по Стрѣлковой улицѣ загорѣлась фанза.

9 час. веч. Ходилъ въ Красный Крестъ. По дорогѣ встрѣтилъ Г. Вдругъ защелкали вокругъ насъ перелетныя японскія пули; пришлось спрятаться отъ нихъ за каменную ограду Краснаго Креста.

На позиціяхъ болѣе нервная перестрѣлка и болѣе частый грохотъ орудій по всему фронту.

И. А. разсказалъ, что вблизи городской больницы какой то китаецъ похлопалъ встрѣчнаго раненаго солдата по плечу и сказалъ съ довольной улыбкой:

— М-ного, м-ного лусскій палохода ходи есть! Много чифанъ, много солдата есть—шибко холошо-о-о!..

То есть—идетъ много русскихъ судовъ, везутъ они много провіанта и войскъ—скоро освободимся.

Вѣримъ и радуемся.

Разсказываютъ, что послѣ взрыва на форту II отбили японцевъ и они стали забрасывать фортъ минами. Комендантъ форта шт.-кап. Кватцъ не пустилъ моряковъ въ контръ-атаку, а началъ взрывать фортъ; было заложено всего 8 минъ, а взорвались лишь 3; говорятъ, что для того, чтобы взорвать весь фортъ, нужно было бы заложить минъ 18. Будто орудія и пулеметы остались на форту — не успѣли увести или забыли. Наши потери на форту II около 200 человѣкъ.



Генералъ-маіоръ Самедъ-бекъ Садыкъ-бекъ Мехмандаровъ, бывшій начальникъ артиллеріи праваго фланга крѣпости, находившійся все время на боевыхъ позиціяхъ.

Г. говоритъ, что раненія отъ взрывовъ ужасны — ткани буквально измочалены, всюду нужна ампутація, и она не всегда спасаетъ жизнь, такъ

1904-1905-ci illərdə Uzaq Şərqdə Port-Artur qalası uğrunda döyüşlərin iştirakçısı iki sərkərdənin - Əli ağa Şıxlinski və Səməd bəy Mehmandarovun olduğu oxuculara məlumdur. Təəssüf ki, onların da həmin illərdəki döyüş yolları indiyədək xalqımıza çatdırılmamışdır. Hərb tariximizin bu açılmamış səhifələrində arxiv sənədləri əsasında tədqiqat aparanda məlum oldu ki, indiyədək adı və xidməti unudulmuş tam süvari generalı Hüseyn xan Naxçıvanski, Şahzadə-general Əmirkazım Mirzə Qacar, Əsəd bəy Talışxanov, Şahzadə-podyesaul (kazak qoşunlarında kapitan) Feyzulla Mirzə Qacar, Şahzadə-podpolkovnik Əliqulu Mirzə Qacar, polkovnik İlyas bəy Ağalarov, ştabs-kapitan Gəray bəy Vəkilov, xoruncuy (kazak rotasında ilk zabit rütbəsi) Əbdürrəhman Qurbanov,

Cəmaləddin Musayev, poruçik Ağababa Sadıqov, podporuçik Zülfüqar bəy Bağırbəyov və başqaları Port-Artur müharibəsində mərdliklə vuruşmuşlar.

* * *

Gecə keçirdi, istirahət etməyə hazırlaşırdım. Birdən telefon zəng çaldı. "Belə bivaxt, kimdi görəsən?" - deyə fikirləşib dəstəyi qaldırdım. Zərif səsli bir qadın üzxahlıq edib:

- Mənə filankəs lazımdır, - dedi.

- Mənəm, eşidirəm Sizi…

- Gec olduğu üçün bağışlayın, sizi narahat edən Qalina Semyonovna Səfərovadır. Telefonunuzun nömrəsini indicə çətinliklə öyrənə bildim. Tərtib etdiyiniz general Əli ağa Şıxlinskinin "Xatirələrim" kitabını mən də maraqla oxudum. Bilirsiniz, Sizi niyə narahat elədim? Bizdə 1905-ci ildə nəşr olunmuş "Niva" jurnalının bir illik nömrələri saxlanılır. Orda Əli ağa Şıxlinski və Səməd bəy Mehmandarov haqqında yazılar var, şəkilləri də dərc olunub. Amma nədənsə Şıxlinski kitabına yazdığınız "İzahlar və qeydlər" bölməsində bu barədə oxuculara heç bir məlumat verməmisiz.

- Qalina Semyonovna, - dedim, - mənim o mənbədən xəbərim yoxdur. Çox sağ olun ki, bu barədə məlumat verdiniz. Günü sabah kitabxanaya gedib…

- Kitabxanaya niyə, - deyə Qalina Semyonovna etiraz etdi, - məmuniyyətlə jurnalı müvəqqəti istifadə üçün Sizə verə bilərəm.

Ertəsi gün Q. Semyonovanın Bəşir Səfəroğlu küçəsindəki mənzilində görüşüb jurnalı birqə vərəqlədik.

"Niva" jurnalı 1905-ci il dördüncü nömrəsinin yetmişinci səhifəsində Əli ağa Şıxlinskini altı nəfər döyüşçü - zabit və iki qadınla birgə çəkilmiş foto şəklini dərc edib. Şəkilaltı yazıda oxuyuruq:

"Port-Artur müdafiəsində artilleriya divizionun komandiri Əli ağa Şıxlinski Suişin kəndinin yaxınlığındakı Drakonovıy Xrebet dağına atəş açaraq yaponların hücumunu dəf etmişdir. Podpolkovnik Əli ağa Şıxlinski göstərdiyi rəşadətə görə "Müqəddəs Georgi" ordeninin dördüncü dərəcəsinə təqdim edilmişdir". Şəkildə ortada artilleriya komandiri Əli ağa Şıxlinski, zabit Mixaylov, Şişkin, Karamışev, Qyunter, Şuleykin və başqaları".

Üçüncü istehkamda olan bu hadisəni illər keçəndən sonra Əli ağa Şıxlinski belə xatırlamışdır:

"Tamamilə açıqda duran toplarımın atəşi, hücum edən yapon piyada qoşununu geriyə oturtdu. Atışma səsini eşidən polkovnik Mehmandarov general Nadeinin yeraltı qazmasından çıxaraq yanıma gəldi. Fikirləşdim ki,




ehtiyatsızlığıma görə hirslənəcəkdir. Vəziyyətlə tanış olduqdan sonra dedi:

- Yaxşı eləmisiniz. Birinci batareyanın bir vzvodunu da Sizə köməyə göndərirəm.

Mehmandarov tədbir və sərancamları bəyəndiyini söyləyib, öz məntəqəsinə qayıtdı. Bu əməliyyata görə mən, köhnə orduda qəhrəmanlıq ordeni olan Georgi Pobedonessov ordeninə təqdim edildim".

Jurnalın həmin səhifəsində həmyerlimiz Səməd bəy Mehmandarovun da şəkili verilib. Haqqında isə belə bir məlumat yazılıb:

"Yeddinci Şərqi-Sibir artilleriya briqadasının general-mayoru Səməd bəy Sadıq oğlu Mehmandarov Port-Artur müdafiəsindəki qəhrəmanlığa görə dördüncü dərəcəli "Müqəddəs Georgi" ordeni ilə təltif olunub".

"Niva"nın yetmiş birinci səhifəsində gözəl, zərif naxışlarla işlənmiş bir buynuz şəkli də verilib. Port-Artur döyüşlərinin komandanı Anatoli Mixayloviç Stesselə Zaqatala şəhər cəmiyyəti tərəfindən hədiyyə olunan bu buynuz gümüşlə işlənib. Şəklin altında oxuyuruq: "Zaqatala şəhər sakinlərindən general-adyutant A. M. Stesslə dağ keçisi buynuzunu hədiyyə edirik".

"Niva" jurnalı təkcə biriilik nömrələrində Azərbaycan xalqının müharibəyə könüllü ianə toplaması haqqında və Qafqaz süvari briqadasının tərkibində vuruşan oğullarmızın qəhrəmanlığı barədə az da olsa məlumatlar verir. Onu da xatırladaq ki, Port - Arturda Ə. Şıxlinski və S. Mehmandarovdan başqa da yapon samuraylarına qarşı döyüşən həmyerlilərimiz olmuşdur. General-mayor Əsəd bəy Talışxanov, Hüseyn xan Naxçıvanski, İbrahim ağa Usubov, qvardiya polkovniki Kərim bəy Novruzov, polkovnik Davud bəy Yadigarov, Gəray bəy Vəkilov, poruçik Ağababa Sadıqov və hələ adını bilmədiyimiz onlarca başqaları.

Dövrdən, quruluşdan asılı olmayaraq həmişə oğullar Vətənin əsgərləridirlər. Vətən nə vaxt təhlükə qarşısında olarsa, igidlər bir səslə silaha sarılmağa hazırdırlar. İyirminci əsr tarixə "nəfəsindən" barıt püskürəndə eloğullarımız da bir səslə ayağa qalxıb Vətənin müdafiəsinə gediblər.

Otən XIX əsrin ortalarında Qarabağ igidlərinin, Şirvan alayının, Gəngərli döyüşçülərinin, Qazax süvari dəstələrinin yadellilərə qarşı qeyri-adi qəhrəmanlıqlarının şahidi olan xalqımızın böyük mütəfəkkir oğlu M. F. Axundov fəxrlə deyirdi: "doğmamış Qafqazda analar qorxaq".

Hələ bir xeyli əvvəl (1828-ci ildə) məhşur rus tarixçisi, general Platon Zubov

"Gürcüstan və Qafqaz haqqında altı məktub" əsərində yazırdı:

"Müsəlman süvari alayları haqqında mühakimə yürütmək üçün onları döyüşdə görmək lazımdır: bunlar şimşəyi xatırladır, bunlar qəzəblənmiş Allahın birdən-birə düşmənlər içərisinə düşərək ölüm və dəhşət saçan oduna bənzəyirdi. Müsəlman alaylarının gözlərim önündə törətdikləri igidlik xariqələrini hələ də heyrətlə yad edirəm… Onlar silahdan çox böyük bir məharətlə istifadə edərək, qorxmaz və cəsur kimi döyüşürdülər".

Əgər oxucu Aleksandr Stepanovun "Port-Artur", ya da Trofim Borisovun "Portarturçular" romanlarını mütaliə edərsə, onda görər ki, 1904-cü il dekabrın on altısında komandan Stessel qalanı yaponlara danışıqsız təslim etmək istəyəndə polkovnik S. Mehmandarov və onun zabit heyəti qəti etiraz edərək necə əsəbləşmişdilər. Səməd bəy Mehmandarov və onun zabit heyəti inad edirdilər ki, qalanı son nəfəsə qədər müdafiə etmək lazımdır. Heç kəs biabırçı vəziyyətdə rusiyaya qayıtmaq istəmirdi.

"- Kapitan, Sizin kimi zabitlərə orduda quluq etmək yaramaz, - Mehmandarov onun üstünə qışqırdı. - Siz bizim adımızı korlayırsınız, - deyib yumuruğunu havada oynatdı.

- Əlahəzrət, xahiş edirəm, məni təhqirlərdən qoruyasınız, - kapitan Vamenzon hirsindən pörtmüş halda Stesselə müraciət etdi.

- Hər şeydən əvvəl sakit olmaq lazımdır, cənablar! Polkovnik Mehmandarov, Sizi qayda-qanuna riayət etməyə dəvət edirəm.

Qızğın mübahisələr başlandı, zabitlər iki hissəyə bölündülər: bir neçəsi kapitan Vamenzonu, qalanları isə polkovnik Mehmandarovu müdafiə edirdilər" (A. Stepanov, "Port-Artur". səh. 777-778).

* * *

1904-cü il yanvarın 26-da Rus-yapon müharibəsi başlananda polkovnik Hüseyn xan Naxçıvanski əksəriyyəti qafqazlılardan təşkil olunmuş ikinçi Dağıstan süvari alayına komandanlıq edirdi. Hüseyn xanın alayı 1905-ci il yanvarın 14-də Lan-Lun-Qou kəndi uğrunda ağır döyüşlər aparmışdır. Bir neçə gün kəndi ala bilməyən döyüşçülər mahir komandirin hərbi fəndi ilə dan üzü hücuma keçərək sürətli zərbə ilə yaponları kəntdən vurub çıxartmışlar. Bu güclü döyüş səhnəsi məşhur rəssam Maruzovskinin yağlı boya ilə işlədiyi rəsimlərdə əbədiləşmişdir. Əsərdə alay döyüşçülərin qızğın həmləsi və süvari polkovniki Hüseyn xan Naxçıvanskinin obrazı ustalıqla işlənmişdir.

Məşhur rus jurnalisti A. Kvitka Port-Arturda müharibə başlananda könüllü cəbhəyə getmiş və döyüşlərdə jurnalist-zabit kimi iştirak etmişdir. Müharibə gedə-gedə «Zabaykalye kazak zabitinin gündəliyi» adlı maraqlı bir əsər

yazmışdır. 1908-ci ildə Sankt-Peterburqda nəşr etdirdiyi həmin kitabda igid eloğlumuz polkovnik Hüseyn xan Naxçıvanski haqqında da maraqlı səhifələr var.

Səhifə 181-də: «Axşam üstü Bensixuda süvari – qvardiyası Hüseyn xan Naxçıvanskinin təşkil etdiyi ikinci Dağıstan alayı gözlənilir. Alay qafqazlılardan və süvari qvardiyasında xidmət edən seçmə zabitlərdən təşkil olunmuşdu.

...Avanqard tağımının ardınca yüzlərlə adam polk komandiri, onların da ardınca uca bir ağacın zirvəsində polkovnik Xan Naxçıvanskiyə məxsus qızılı aypara nişanları dalğalanan dəstə göründü.

Alay cərgələnmiş tağımlarla kolon boyu uzanırdı. Biz isə Xanın zabitlərindəki atlara həsədlə baxırdıq. Mən axşam saat onda Hüseyn xanı general Lyubavinin yanına ötürüb, evimə qayıtdım.

Səifə 245-də: «Dağıstanlıların komandiri Hüseyn xan Naxçıvanski, podpolkovnik Byuntiq və knyaz Tumakov heyətimə daxil olanda səhər saat on bir olardı. Onlar mənimlə nahar etməyə qaldılar... Hüseyn xanın əsgər və komandirləri döyüşlərdə hamıdan seçilirdi. Onları bir şeyə qınamaq olardı, o da həddindən artıq cəsur olmalarında...»

Səhifə 361-də: «Polkovnik Xan Naxçıvanskinin Qafqaz-kazak briqadasının cəsurları üç yapon nəqliyyatını məhv etmişlər...»

İgid həmyerlimiz, polkovnik Hüseyn xan Naxçıvanski yaponlara qarşı apardığı döyüş məharətinə görə «Müqəddəs Georgi» və dördünçü dərəcəli, bantlı, üstü yazılı qızıl silahla «Müqəddəs Vladimir» və «İgidliyə görə» ordenləri ilə təltif olunmuşdur.

Rus-Yapon müharibəsindəki sərkərdəlik fəaliyyətinə görə Hüseyn-xan Kərbalı xan oğlu Naxçıvanskiyə 1907-ci il martın 31-də general-mayor rütbəsi verilmişdir.

## GENERAL SƏMƏD BƏY MEHMANDAROV PORT-ARTUR DÖYÜŞLƏRİNDƏ

Port-Arturun müdafiəsi zamanı göstərdiyi döyüş xidmətlərinə görə Səməd bəy Mehmandarov bir neçə döyüş ordeni və qızıl silahla təltif edildi, general-mayor rütbəsi aldı. General Səməd bəy Mehmandarovla bir yerdə xidmət edən və onu şəxsən tanıyan zabitlərin onun sarsılmaz soyuqqanlılığı və misilsiz rəşadəti haqqında böyük rəğbətlə danışırdılar.

1904-cü il dekabrın 16-da Port-Artur qalasının hərbi şurası danışıqsız təslim olmağa səs verdikdə, general Səməd bəy Mehmandarov və onun igid zabit heyəti



***General Səməd bəy Mehmandarovun oğlu İqor Mehmandarov və Şəmistan Nəzirli, 1986-cı il***

buna qarşı qəti olaraq etiraz etdilər.

«1904-1905-ci illərdə Rus-Yapon müharibəsinin salnaməsi»ndən

1904-cü ildə rus-yapon müharibəsi başlananda Səməd bəy Mehmandarovun qırx səkkiz yaşı vardı. Jitomirli Yelizaveta Nikolayevna ilə evlənmələrinin bir ili tamam olmamışdı. Yelizaveta Kiyev qadın-gimnaziyasını bitirmişdi. Port-Artur hərbi nəslindən idi. İyirmi bir yaşlı Yelizaveta (1883-1942), elə bil anadan olandan səbr dərsi keçmişdir. O, nə ağır hərb işinə, nə də yaralı əsgərlərə qarşı laqeyd deyildi. Zədəganlara müalicə ebid, savadsız olanların ailəsinə məktub yazır, müharibə çətinliyinə səbrlə, dəyanətlə dözürdü.

Bir dəfə Səməd bəy ona deyir: - Komandanlıqdan sənin Peterburqa qayıtmağına icazə almışam. Hazırlıq gör, sabah, ya da birisi gün səni yola salacam.

Ərinin üzünə şax baxan Yelizaveta:

- Səməd bəy, - demişdi, - ölkədə müharibə gedirsə, səncə əsgərin yeri harada olmalıdır?

- Əlbəttə cəbhədə!

- Bax, mən də cəbhədəyəm, yoxsa məni qadın görüb əsgər olmağıma şübhə edirsən?

- Axı, sən ana olmağa...

- Birdə bu söhbətə qayıtmayaq. Söz verirsən... Bu mövzudan vaz keç əzizim! Sənsiz mənə Peterburq yox, heç Paris də lazım deyil.

Bu, ərinə, Vətəninə sadiq bir qadının açıq ürək söhbəti idi.

Yanvarın iyirmi altısında gecə yaponlar rusların Port-Artur limanında dayanan eskadrasına hücum edib «Retvizan», «Sesareviç» zirehli gəmilərini və «Pallada» kreyserini yandırdılar. Müharibə başlandı. Səhərisi Səməd bəy Mehmandarovu yeddinci Şərqi-Sibir atıcı topçu divizionunun komandiri təyin edirlər. Bu, quru qoşunlarının komandanı, general-mayor Roman Kondratenkonun əmri idi. Roman İsidoroviç Mehmandarovun döyüşdə

dəyanətinə, komandirlik bacarığına yaxşı bələd idi. Məhz ona görə də Səməd bəyi Şərq cəbhəsinin rəisi təyin etdi. Bura Port-Artur müdafiəsində ən mühüm cəbhə hesab olunurdu. Yaponlar kəsilmədən bombalar yağdırırdılar. Polkovnik Səməd bəy Mehmndarov komandan Kondratenkonun ən yaxın köməkçilərindən biri idi. Topçuların əməliyyatına bacarıqla rəhbərlik edən Mehmandarov qala mühasirədə olanda həmişə ön mövqələrdə və çox təhlükəli yerlərdə sərrast atəşlə samurayların hücumunu dəf  edirdi.

* * *

Port-Artur müharibəsinin başlanmasından yüz bir il keçir. Bu müddətdə rus dilində minlərlə ədəbi-bədii, elmi və publisistik əsərlər nəşr olunub. Xüsusilə, 1905-1910-cü illərdə bu mövzuda çoxlu gündəliklər və xatirələr yazılmışdır. 1906-cı ildə nəşr olunmuş P. Larenkonun «Port-Arturun əzablı günləri» kitabı da bu qabildəndir. Burda sərkərdə eloğlumuz Səməd bəy Mehmandarovun təkcə döyüş qabiliyyəti deyil, həm də şəxsiyyət kimi dönməzliyi, böyüklüyü şahidlərin dili ilə verilib. İlk dəfə Azərbaycan oxucularına təqdim etdiyimiz gündəlikdən parçaları oxuyanda istər-istəməz həmyerlimizə görə iftixar hissi keçirirsən.

Həmin kitabın «Noyabr hücumları» fəslində, səhifə 494-də:

«Hələ avqust bombardmanı zamanı yaponlar hiss edirlər ki, hardansa, arxadakıfortlar xəttindən onları dəqiq atəşə tutblar. Polkovnik Mehmandarovun komandası altında olan yeddinci Şərqi-Sibir artilleriya divizionu (yəni səhra artilleriyası) həmləyə məruz qalmış istehkam xəttinin sağ cinahının arxasında örtülü mövqeləri tutaraq müdafiəyə böyük kömək göstərirdi. Çünki qala artilleriyası hələ bombardmanın ilk günlərində çox zərər çəkmişdi. Polkovnik Səməd bəy Mehmandarovun səhra artilleriyası ən fədakar həmlələri belə dəf edərək yaxınlıqda olan yapon batareyaları ilə son dərəcə müvəffəqiyyətlə vuruşurdu».

Səhifə 597-də:

«S. daxil oldu. O, söhbət edirdi ki, ön həmlənin topçularından polkovnik Mehmandarov (çağ cinahın bütün ərtilleriya yzrə komandiri) və podpolkovnik Stolnikov öz şəxsi təhlükələrinə qəribə nifrətlə yanaşırlar; bombardman vaxtı batareyalarda elə gəzirdilər ki, elə bil partlayan mərmiləri görmürlər. Belə ki, onlar bu hərəkətləri ilə yerdə qalanları da ruhlandırırdılar. Onların birincisi qafqazlılara məxsus cəngavər kimi (Səməd bəy Mehmandarov – ŞN.), ikincisi isə taleyinə sədatqətlə itaet edən dindar adamlar kimi davranırdılar.

Burda – səhra artilleriyasının öhdəsinə başlıca olaraq həmləni və şrapnellə, kartelə düşmən kolonlarını məhv etmək məsələsi düşür. Qala topları çox ziyan çəkdiklərindən, səhra artilleriyası isə tez-tez yerini dəyişdiyindən onlarla

mübarizə aparmaq yaponlar üçün çətin idi. O isə zərbələri elə hey endirirdi».

Səhifə 606-da (11-24 dekabr):

«Yaralı zabitlərlə apardığım söhbətlərdən polkovnik Mehmandarov haqqında bəzi şeyləri öyrəndim. O, cəsur, özünü çox sevən, tabeliyində olanlara tam ciddiyəti ilə yanaşan bir adam idi. Onları məcbur edirdi ki, şəxsi mərdlikləri ilə hamıya nümunə olmağı bacarsınlar. Təbiətən coşğun, hərarətli olan bu adam sözünü çox kəskin deyirdi. Polkovnik Mehmandarov deyirdi ki, yalnız şücaət göstərməyi bacaran, ağıllı, özünü sevən adamları qiymətləndirir; karyeraçı zabitlərinsə ən böyük arzusu – həyatlarını qoruyub saxlamaq və heç bir xidmət göstərmədən ordenlər almaqdır».

Səhifə 630-da (17-30 dekabr):

«Üçüncü fortun məğlubiyyəti bizim artilleriyanın vəziyyətinə pis təsir göstərdimi? – sualına polkovnik Mehmandarovbelə cavab verdi ki, o, vəziyyətdə bir ağırlaşma görmür. Artilleriya şəraitinin pisləşməsinə üçüncü fortun heç bir mənfi təsiri yoxdur.

Yalnız general A.V. Fok özünü birbaşa cavabdan qaçıraraq, ümumi nəticəsi olmayan bir yığın söz dedi».

Səhifə 643-də (18-31 dekabr):

«Kimsə döyüş meydanından belə bir xəbər gətirdi ki, bü gün general Fokla polkovnik Mehmandarov arasında ciddi mübahisə olub. Fok sübut etməyə çalışırdı ki, qala artıq dözməyəcək; Mehmandarov isə sübut edirdi ki, ayrı-ayrı istehkamların məhvi hələ qalanın sonu çatdığına sübut deyil, çünki müdafiənin ikinci xəttindən də müqavimət göstərmək olar.

Döyüş meydanında isə tək-tək atırdılar. Qaranlıqdır. Üçüncü fort istiqamətində, bəzən də qayalıqdanqırmızı fənərlər görünürdü. Deyirlər ki, bu fənərlər bizim sanitarlara sarğı məntəqəsini nişan verir.

Bərk yorğunluq hiss edirəm, ona görə də indi uzanıb yatacağam».

Səhifə 690-da (23 dekabr-5 yanvar):

«S. mənə xəbər verdi ki, dünən yapon artilleriyasının rəisi qərargahı ilə birgə qalaya gəlmişdi və qalanın sağ cinahının artilleriya rəisini, polkovnik Mehmandarovu (mühasirə zamanı general-mayor olmuşdu) axtarırdı. Səməd bəy Mehmandarov faktiki olaraq avqust ayının ortalarında bütün artilleriyaya rəhbərlik edirdi.

Görüş zamanı o belə bir söz işlətdi: «Hörmətli qonaqlar yəgin səhv salıblar. Onlar çox güman ki, qala artilleriyasının rəisi, general Belını görmək istəyirdilər. Lakin qonaqlar cavab verdilər ki, məhz mübarizə aparmaqda böyük əziyyət çəkdikləri, özlərinə möhtərəm rəqib saydıqları adamla – Mehmandarovla tanış

olman onlar üçün çox maraqlıdır. Onlar general Mehmandarovun şəninə çoxlu tərifli sözlər, komplimentlər dedilər; etiraf etdilər ki, Port-Artur yaxınlığında yapon artilleriyasının verdiyi itki olduqca çoxdur. İyirmi beş minə kimi adam tələf olub, çoxlu yapon silahı məhv edilib, həmçinin Port-Arturda mərmilərin çatışmamazlığı onların məsələsini yüngülləşdirib.

General Mehmandarov əsirliyə yolu düşdü… o, vicdanına and içib «evə» gedənlərin ən qəddar düşməni olacağını bildirdi.

Gündüz saat on ikidir. Yaralıların yanında idim. Hər yerdə eyni söz-söhbət – qalanın təhvil verilməsindən və əsirlikdən gedirdi».

Səhifə 752-də (3-16 yanvar):

«Hakimiyyətin ələ keçirilməsi» haqqında müxtəlif fikirlər söylənirdi. Məsələn: həmişə döyüş mövqelərinin sağ cinahında olan F. və Ş. qeyd etdilər ki, güya mövqelərdə olarkən necə olubsa, onların yanında polkovnik (indi general) Mehmandarov da söhbət əsasında bu mövzu haqda öz fikrini birdirmişdi: - «Hakimiyyəti ələ keçirmək» nə deməkdir? Mən bunu başa düşmürəm. Əgər mən komendant olsaydım və vəzifəmin öhdəsindən az da olma gələ bilsəydim, mənim qanuni hakimiyyətimi görüm əlimdən kim ala bilərdi?!... Əgər elə adam tapılsaydı mən deyərdim: Əlahəzrət, nə qədər ki, kimin əsl komendant olduğunu ayırd etməmişik, bu yerdən heç yana tərpənən deyilik… Bu ilin sonu nə qədər axmaq nəticələr versəydi belə, məni bu yolda niyyətimdən heç bir şey döndərə bilməzdi».

Həmişə ön cəbhədə olan Səməd bəy Mehmandarovun Port-Artur döyüşlərində xüsusi xidmətləri olmuşdur. Yaxşı ki, onun müasiri olan rus jurnalistləri Səməd bəyin döyüş fəaliyyətini qələmə almışlar.

Jurnalist E.K. Nojin Port-Arturda çıxan «Novıy kray» qəzetinin xüsusi müxbiri olmuşdur. Odlu cəbhələri gəzən jurnalist maraqlı gündəliklər müəllifidir. Qeydlərindən aydın olur ki, o, general eloğlumuz Səməd bəy Mehmandarovla həmişə ön xətdə görüşərmiş. Rus jurnalisti azərbaycanlı sərkərdənin vətəni Qafqaz üçün darıxmasının da şahidi olub.

«…Blindaja girdim. General Nadein həmişəki kimi sakitdir. Onun qərargah rəisi Stepanov yorğundur. Burada bir neçə zabit var. Polkovnik Mehmandarov da buradadır. Biz həmişəki kimi çox səmimi görüşdük. Mehmandarov heyranlıqla vətəni Qafqazı yad edirdi:

- Qafqaz çox yaxşıdır, çox gözəldir! – deyirdi. – Təbiət hər şeyin keyfiyyətinə zəmanət verərək ona öz möhrünü vurmuşdur. Amma bədbəxtlik ondadır ki, bəzən daş lazım olan yerdə bir dənə də daş tapmazsan, lazım olmayan yerdə isə sayı-hesabı yoxdur. Su lazım olan yerdə su olmur, ehtiyac olmayan yerdə dərya

qədərdir. – Ani olaraq dayanan Mehmandarov sözünə davam etdi: - Bəs İslam? Yaxşı nə varsa – onu sonrakı həyatın verəcəyini vəd edir. Hər şey çox yaxşıdır, amma bizə cənnətlə yeddi mələk boyun olublar, yeddincisinin də gözü girdə, Sizcə bu nə olan işdir? Peşmançılıq deyilmi? Bilirsinizmi, mən indi heç nə istəmirəm – nə cənnəti, nə də mələkləri. Mən yalnız azca istirahət istəyirəm.

Ətrafda hər yanda mərmilər partlayırdı. Onların ikisi blindajın tavanına düşdü. Zabitlər qorxu hisii ilə ayağa durdular. İgid polkovnik Mehmandarov isə heç tövrünü belə pozmazdı. Onun iri, ağıllı gözlərində zərrəcə qorxu hissi yox idi».

Səməd bəy Mehmandarovun ən təhlükəli döyüşdə belə özünü itirmədiyini şahidi olan onun silahdaşı Əli ağa Şıxlinski yazır ki, oktyabrın on dördündə qala topa tutulan zaman Səməd bəy Mehmandarov mənim mövqeyimə gəldi. Həmin mövqe yaponlar tərəfindən on bir düyməli topdan, otuz yeddi millimetrlik xırda dəniz topuna qədər müxtəlif toplarla atəşə tutulmuşdur. Həm də, bü mövqe yaponların tüfəng və pulemyot atəşi altında idi. Bu zaman Mehmandarovun yaxınlığında altı düymərlik mərmi partladı və yerdən qalxan qara palçıq onun üstünü buladı, amma yaralanmadı.

Mehandarov buna əsla əhəmiyyət verməyərək, böyük soyuqqanlıqla cibindən ağ dəsmalını çıxarıb, gözəl təzə paltosunun üzərinə sıçrayan palçığı silməyə başladı.

* * *

Dekabrın ilk günlərində qalaya iki ağır zərbə vurdular. Rusların inadlı müqavimətinə baxmayaraq, onlar qalanın bir neçə mühüm fortlarını tutdular. İkinci ağır zərbə isə dekabrın ikisində oldu. Komandan general Roman Kondratenko qəhrəmanlıqla həlak oldu. Əvəzində iradəcə zəif olan general Fok komandan təyin edildi. On altı gün sonra yaponlar qalanın taleyini həll edən Drakonovıy Xrebet dağını ələ keçirdilər. Port-Arturun qorxaq və istedadsız komendantı general Stessel qalanı dərhal düşmənə təslim etmək üçün hərbi şuranın iclasını çağırdı. Şurada iştirak edən bəzi komandirlər general Stesselin təklifinə şərik oldular. Lakin general-mayor Səməd bəy Mehmandarov, polkovnik Semyonov və bir qrup mərd zabitlər təslim olmağa qəti etiraz etdilər. Döyüşkən zabitlər inad edirdilər ki, güclü yapon ordusunu geri oturtmağa hələ qüvvələri çatar. General Mehmandarov başda olmaqla onlar deyirdilər ki, qala hələ özünü saxlamağa qadirdir, nə qədər ki, mərmi var, toplardan atəş yağdıracağıq. Nə qədər ki, patron var, tüfənglərdən atəş açacağıq. Mərmi və patron qurtardıqda isə süngü ilə döyüşəcəyik.

Lakin cəsarətsiz general Stessel mərd zabitləri eşitmədi, silahı yerə qoymağı

qarnizona əmr etdi. Sonralar Rusiyaya qayıdanda general Stessel qala müdafiəçilərinin tələbi ilə Port-Arturu tələsik təslim etdiyinə görə hərbi məhkəməyə verildi.

General-mayor Mehmandarov və onun zabit dostları qala təslim edildikdən sonra da hərbi anda sadiq qalaraq başqa əsgər və zabitlər üçün nümunə göstərdilər. Yaponların şərtlərinə görə əsgərlər hərbi əsir alınır, zabitlər isə Yaponiyaya qarşı bir daha müharibədə iştirak etməyəcəkləri barədə yazılı iltizam verəndən sonra Rusiyaya qayıda bilərdilər. General Stesselin ətrafındakı mürtəce fikirli bir qrup zabit dillərindən belə bir iltizam verdilər. Lakin xalqımızın igid oğlu Səməd bəy Mehmandarov zabit şərəfini təhqir edən belə bir alçaq vəddən boyun qaçırdı. Bir daha Yaponiyaya qarşı müharibədə iştirak etməyəcəyi barədə iltizam vermədiyinə görə general-mayor Səməd bəy Mehmandarov əsir alınıb Yaponiyanın Naqoya şəhərinə göndərildi. O, 1905-ci il avqustun 23-də Amerikanın Portsmut şəhərində sülh müqaviləsi bağlanandan sonra Rusiyaya qayıda bildi.

Üç yüz otuz iki günlük məşhur Port-Artur qalasının müdafiəsi general Səməd bəy Mehmandarovun taleyinə belə qismət oldu.

* * *

Aleksandr Stepanovun «Port-Artur», P. Lorenkonun «Port-Arturun əzablı günləri» və Trofim Borisovun «Portarturçular» romanlarında bir azərbaycanlı soyadına da rast gəldik – poruçik Sadıqov. Bu əsərlərdə poruçik Sadıqovun əzablı döyüş yolu yazıçılar tərəfindən maraqla izlənnilir. Hətta P. Larenkonun 1906-cı ildə Peterburqda nəşr olunmuş «Port-Arturun əzablı günləri» sənədli əsərində (II cilddə) yaralanmış poruçik Sadıqovun hospitalda müalicə olunduğu vaxtda iki dəfə fotoşəkli də dərc olunub. Döyüşlərdə mətanət və mərdliklə vuruşan poruçik Sadıqov qəhrəmanlıqla həlak olub. Poruçik Sadıqov kimdir?

Bu barədə «Kommunist» qəzetinin doqquz sentyabr 1984-cü il tarixli sayında dərc edilən yazımdan sonra respublikanın ayrı-ayrı bölgələrindən çoxlu məktub aldım. Xeyli adam poruçik Sadıqovun onun qohumu olduğunu yazırdı. Lakin Sabirabadlı Böyükağa Sadıqovun gətirdiyi faktlar, sənədlər və fotoşəkillər sübət elədiki, poruçik Ağababa Hacıbaba oğlu Sadıqov onun əmisidir. Poruçik Ağabab Sadıqov 1875-ci ildə Şamaxının Ərdəbilli məhəlləsində ziyalı ailəsində anadan olub. Atası Hacıbabanın Peterburq və Moskvada ipək dükanı varmış. 1903-cü ilin əvvəllərində igid poruçik Ağababa Peterburqdakı Mixaylov topçuluq məktəbini bitirib. 1905-ci ilin əvvələrində igid poruçik Ağababa Sadıqovun həlak olması haqqında qara kağız da alınıb.

Port-Artur döyüşçüləri haqqında inqilaba qədər onlarla əsərlər yazılıb.

Kabardin və çeçen igidlərinin Port-Arturdakı döyüş fəaliyyəti haqqında Əhmədxan Naloyevin «Dan üzünün atlıları» tarixi romanı, Vikenti Veresayevin «Yapon müharibəsi haqqında hekayətlər» silsiləsi, yazıçının irihəcmoi gündəlik və yol qeydləri, Sergey Senskinin «Susima» N.A. Levitskinin «1904-1905-ci illərdə rus-yapon müharibəsi» maraqla oxunan əsərlərdəndir. Bunların hamısında eloğullarımızın qəhrəmanlığı haqqında az-çox məlumat verilir.

«Niva» jurnalının 1905-ci il iyirmi beşinci sayında 496-cı səhifəsində bir həmyerlimizin də adına və fotoşəklinə rast gəldim. Onun haqqında ancaq bu sözlər yazılırdı: «Otuz üçüncü Şərqi-Sibir atıcı alayının poruçiki Zülfüqar Mirzə Ələkbər oğlu Bağırbəyov fevral döyüşlərində igidliklə vuruşub kontuziya oldu».

Adından, atasının adından və soyadından poruçik Zülfüqar Bağırbəyovun azərbaycanlı olması şübhəsizdir. Düşünürdüm. Görəsən, Uzaq Şərq sərhədləri uğrunda igidliklə vuruşan poruçik Zülfüqar Bağırbəyovun qohum-qardaşından sağ qalanı varmı? Doxsan ildən çoxdü bu tərlan baxışlı igid həmyerlimizin fotoşəkli «Niva» jurnalının səhifəsində saralıb solur.

Taleyin qismətinə min şükür ki, axtarışlarım bəhrə verdi. Sevindim ki, uzun illərdən sonra igid həmyerlimizin unudulmuş adı, xidməti xalqımıza bəlli oldu.

1987-ci ildə İçəri şəhərdə yaşayan səksən iki yaşlı bir ağsaqqalla görüşdüm. Məhəmməd Cavad oğlu Bağırov bildirdi ki, «Niva» jurnalından şəklini götürdüyümüz poruçik Zülfüqar Mirzə Ələkbər oğlu Bağırbəyov mənim doğma əmimdir. Əmim Zülfüqar 1874-cü ildə Şuşada anadan olub. Port-Artur döyüşlərindən sağ-salamat qayıdan əmim Novobəyazid süvari alayında ştabs-kapitan rütbəsində xidmət edib. 1912-ci ildən 1914-cü ilə qədək Bakı şəhərində hərbi komendant işləyib, rütbəsi mayor idi, Birinci Dünya müharibəsi illərində Avstriya və Rumuniya cəbhəsində döyüşlərdə iştirak edib.

Zülfüqar bəyin müasiri, Azərbaycan Cumhuriyyətinin liderlərindən biri Nağı bəy Şeyxzamanlı Türkiyədə nəşr etdirdiyi «Xatirələrim» kitabında yazır ki, Zülfüqar bəy Bağıbəylinin Birinci Dünyaa müharibəsində, 1915-ci ildə Qafqaz cəbhəsində ucqar Olti qəzasında məchul bir güllə ilə vurulduğunu ailəsinə xəbər verdilər. Sonralar məlum oldu ki, Zülfüqar bəy bir erməni tərəfindən vurulmuşdur. Ancaq rus komandanlığı tərəfindən qatil axtarılmış və cinayət «məchul güllə ilə törədilmiş» - deyə ört-basdır edilmişdir.

* * *

Böyük türk dünyasının nüfuzlu orqanı «Tərcuman» qəzeti Port-Artur müharibəsinin gedişatını müntəzəm izləmiş və öz səhifələrində orduda qəhramanlıqla döyüşən, dini müsəlman olan əsgər və zabitlərin fəaliyyətindən xəbərlər dərc etmişdir.

Qəzet 11 iyun 1904-cü ildə «Müxtəlif xəbərlər» rubrikasında yazırdı:

«İstehkamçı – kapitan İlyas bəy Ağalarov yeni podpolkovnik rütbəsi alaraq Uzaq Şərq döyüşlərinə yola düşür. Məşhur bəy nəslinin nümayəndəsi İlyas bəy Ağalarov əla hərbi təhsil almaqla elektrotexnika sahəsində də görkəmli mütəxəssis olmuşdur. Onun orduda keçən hərbi xidməti, həyatı və rütbəsi Rusiyada yaşayan hər bir müsəlman əhlində iftixar hissi doğurur».

Gürcüstan Mərkəzi Dövlət arxivində İlyas bəy Allahyar oğlu Ağalarova məxsus azsaylı sənədlərdən məlum olur ki, o, Port-Artur döyüşlərindən sağ-salamat qayıtmışdır. Sonralar ikinci Qafqaz istehkamçı batalyonun komandiri olan polkovnik İlyas bəy Ağalarov 1860-ci il iyunun 7-də Gəncədə nüfuzlu bəy ailəsində dünyaya gəlib.

Sənədlər göstərir ki, İlyas bəy İkinci Moskva hərbi gimnaziyasında və Pavlov hərbi məktəbində təhsil alıb. Hərbi xidmətə 1879-cu il aprelin 26-da başlayıb. 1887-ci il avqustun 8-də podporuçik, 1885-ci il avqustun 8-də poruçik, 1894-cü il avqustun 1-də ştabs-kapitan, 1898-ci il avqustun 1-də kapitan, 1904-cü il iyunun 26-da podpolkovnik, 1910-cüu il dekabrın 6-da isə polkovnik rütbəsi ilə təltif olunub.

Polkovnik İlyas bəy Ağalarovun Port-Artur döyüşlərində və nizami ordudakı nümunəvi xidmətləri 1901-ci ildə ikinci dərəcəli «Müqəddəs Stanislav», 1905-ci ildə ikinci dərəcəli «Müqəddəs Anna», yenə həmin ili dördüncü dərəcəli «Müqəddəs Anna» (qılıncla birgə ordenlərinə layiq görülmüşdür.

1913-cü il martın on səkkizində polkovnik ilyas bəy qəfil mərmi partlayışından həlak olub. Bu sərkərdə eloğlumuzun məzarı hazırda Gəncədə İmamzadə məscidinin həyətindədir. Məzarın mərmər başdaşından solmaqda olan «Qvardiya polkovniki İlyas bəy Ağalarov» sözlərini oxuyanda unudulmuş igidin xatirəsi qəlbimi göynətdi. İllərin tufanı mərmər qəbir daşından onun sonuncu izini də silib aparır… Sərkərdəlik fəaliyyəti lazımınca öyrənilməmiş və hərb tariximizin heç bir səhifəsində indiyədək adı çəkilməyən belə igidlərimizi düşünəndə: «Hər bir insanın içərisində onunla birgə doğulan və ölən kainat var. Hər bir başdaşı altında bütöv bir dünya tarixi yatır» - deyimini xatırlamaya bilmirsən.

*İstər-istəməz dahi Nizami Gəncəvinin:*

***Gəl, gör kiminkidir bu çökmüş məzar?***
***Yıxılmış baş daşı, göyərmiş otlar.***
***Mən torpaqda yatan bir mirvariyəm.***
***Qaldırsan görəsən sən tək diriyəm.***
***Batıb gedən bilmə sən hər gedəni,***
***Məni görməsən də, görürəm səni.*** – misları yada düşür.

«Tərcuman» qəzeti 5 noyabr 1904-cü ildə «Müsəlmanlar Port-Arturda» adlı xəbərində yazırdı: «Mancuriya ordusunun sıralarında və həmçinin Port-Artur döyüşlərinin qəhrəman müdafiəçiləri arasında azsaylı müsəlmanlar da şərəflə vuruşurlar. Redaksiyanın aldığı məktubundan aydın olur ki, yeddinci Şərqi-Sibir artilleriya divizionunun rəisi, general-mayor Səməd bəy Muxranskidir. Şimali Qafqazdan olan artilleriya poruçiki Y.İ. Dudarov isə avqust hücumlarının birində mərd zabit kimi şərəflə vuruşaraq həlak olmuşdur. Allah ona rəhmət eləsin. Amin!».

## GENERAL ƏLİ AĞA ŞIXLİNSKİ PORT-ARTUR DÖYÜŞLƏRİNDƏ

***Azərbaycanlılar birinci dəfə deyil ki, vuruş meydanlarında yaponlarla qarşı-qarşıya gəlirlər. Mən Port-Artur uğrunda gedən döyüşlərdə fərqlənmiş məşhur topçü Əli ağa Şıxlinskinin adını çəkə bilərəm. Bu ad rus hərbi elmi taixində şöhrət qazanmışdır.***

***Səməd Vurğun,***
***Xalq şairi.***

Port-Artur döyüşlərinin qala müdafiəsi zamanı düşmən həmlərinin dənə-dənə dəf edilməsində top artilleriyasının mahir ustası Əli ağa Şıxlinskinin döyüş xidmətləri misilsizdir. Onun 1904-1905-ci illərdəki hərbi rəşadəti bütün Rusiyaya yayılmışdır. Qəhrəmanlığı altı ordenə layiq görülən, rütbəsi kapitandan podpolkovnikə yüksələn Şıxlinski haqlı olaraq «Xatirələrmi»də yazır ki, Port-Artur epopeyasının iştirakçısı olduğumu həmişə iftixarla yad edirəm. 1905-ci il aprelin 1-də «Tərcuman» qəzetinin «Müxtəlif xəbərlər» rubrikasında oxuyuruq:

«Dördüncü Şərqi-Sibir atıcı artilleriya briqadasının kapitanı Əli ağa Şıxlinski oktyabrın yeddisindən noyabrın on doqquzunadək Port-Arturda yaponların basqınını dəf etməkdə fərqləndiyi üçün Ali ehtiramla «İgidliyə görə» medalı və üstü yazılı Qızıl qılıncla təltif olunub».

Həmin döyüşlərin iştirakçısı 1906-cı ildə «Port-Arturun əzablı günləri» adlı ikicildlik monumental əsərin müəllifi P. Larenko yazır ki, Laperov dağında batareya komandiri kapitan Əli ağa İsmayıl ağa oğlu Şıxlinski ağır yaralanmışdır. Bütün qafqazlılar kimi cəsur olan komandir Kinjo döyüşlərində, «Zelyonnı» və «Bolçye» dağları vuruşmalarında əsl qəhrəman kimi iştirak etdi. Avqustun əvvəllərində öz batareyası ilə «Vısokaya qora»da, avqustun onundan

isə daima Laperov dağında döyüşlərdə olmuşdur. Elə buradan da girəcək yerlərini və istehkamları atəşə tutub həmlə kalonnalarını dəf edərək düşmənin səhra artilleriyası ilə inamlı döyüşlər aparırdı.

Port-Artur qalası təslim olandan sonra müharibədə iştirak etməmək şərtilə yaponlar podpolkovnik Əli ağa Şıxlinskini ağır yaralı kimi vətənə göndərdilər. Vətəndə yaraları gözlənildiyindən də tez sağaldığından o yenidən Mancuriya ordusuna göndərilməyi xahiş etdi. Lakin onu buraxmadılar.

Müharibədən sonra Rusiyaya qayıtmağını və yenidən cəbhəyə getmək istədiyini Əli ağa Şıxlinski «Xatirələrim» hərbi memuarında daha dəqiq təsvir edir. O, yazır: «Mayın ikinci yarısında mən Peterburqa gedib böyük knyaza təqdim olundum və Mancuriya ordusuna qayıtmaq istədiyimi ona söylədim. O, məndən soruşdu:

- Siz oraya necə gedə bilərsiniz?

Onda mən hospitalımızdan aldığım şəhadətnaməni ona göstərdim. Şəhadətnamədə yazılmışdır ki, yapon tibb komissiyası məni hərbi qulluğa yararsız hesab edərək dilimdən iltizam almadan vətənimə qayıtmağa icazə vermişdir. Beləliklə, - dedim – hazırki müharibədə iştirak etməyə tam ixtiyarım var. Rusiyaya qayıtmağımın səbəbi ancaq budur, yoxsa müdafiədə iştirak etmiş o biri əsgərlərin taleyinə şərik olardım.



Bu sözləri deyərkən ağlıma gəldi ki, mənim bu fikrim yaponlarla vuruşmamaq üçün dillərindən kağız verərək vətənlərinə qayıdan zabitlərə qarşı bir ittiham kimi düşünülə bilər, odur ki, əlavə edib dedim:

- Orada zabitlərin arasında iki rəy var idi: bir qismi deyirdi ki, bizim böyük təcrübəmiz var, buna görə də vətənə gedib orada Mancuriya ordusuna göndərilmək üçün yeni qüvvələr hazırlamaqla fayda verə bilərik. O biri hissə isə (o cümlədən mən) başqa cür düşünürdük. Bu zabitlərin fikrincə ordu ancaq qismən səfərbəyliyə alınmışdır, vətəndə zabitimiz çoxdur, odur ki, orada bizim köməyimizə heç bir ehtiyac yoxdur. Buna görə də, əsgərlirin taleyinə şərik olmaq lazımdır. Belə ki, dilimdən

yaponlara heç bir iltizam vermədən evimə qayıtdım. İndi Sizdən xahiş edirəm ki, məni müharibəyə göndərəsiniz.

Sergey Mixayloviç əlilə işarə edərək dedi:

- Müharibədə nələr çəkdiyiniz yetər, buraxmaram».

1905-ci il aprelin 5-də yapon tibb komissiyasının verdiyi arayış generalın arxivində indi də saxlanılır. Onun mətni belədir:

«Arayış doqquz saylı ehtiyat səhra hospitalından dördüncü Şərqi-Sibir atıcı artilleriya briqadasının kapitanı Şıxlinskiyə verilir. Ondan ötrü ki, onun yapon tibb komissiyası tərəfindən hərb xidmətə yararlı olmadığı (Əli ağa Şıxlinski sol qıçından yaralandığı üçün yapon həkimi arayışı belə yazmışdı – Ş.N.) müəyyənləşdirilib. O, Rusiyaya buraxılır».

Yapon tibb komissiyasının onu hərbi qulluğa yararsız hesab etməsinə baxmayaraq, dilindən yazılı iltizam verməyən Əli ağa Şıxlinski Vətənə qayıdandan sonra yenidən yaponlarla döyüşmək üçün Mancuriya müharibəsində iştirak etmək arzusunda olduğunu bildirir. Lakin topçu general-müfəttişi knyaz Sergey Mixayloviç «Port-Arturda çəkdiyiniz yetər, buraxmaram» - deyir və onun yenidən cəbhəyə qayıtmasına qıymır.

Onun Port-Arturdakı nümunəvi döyüş xidmətləri «İgidliyə görə» sözlərlə yazılmış qılıncla, dördüncü dərəcəli «Müqəddəs Anna» ordeninə əlavə olaraq qızıl qılınc nişanı, qılınc və bantlı «Müqəddəs Vladimir» ordeni, üzərində «İgidliyə görə» sözləri yazılmış qızıl silah və məşhur «Müqəddəs Georgi» ordeninin dördüncü dərəcəsinə layiq görülmüşdür.

Azərbaycan Tarixi muzeyində generalın şəxsi əşyaları arasında 1908-ci il martın 5-də imperator tərəfindən təsdiq olunmuş «Port-Artur qalasının müdafiəçisi döş nişanı» saxlanılır. Onu Əli ağa Şıxlinskinin ünvanına keçmiş Kvantun vilayətinin və Port-Artur şəhər sovetinin sədri podpolkovnik İ.A. Verşinin göndərib:

***«Çox möhtərəm və əziz Port-Artur silahdaşım***
***Əli ağa Şıxlinskiyə***
***Keçmiş Kvantun vilayətinin Triryan hissəsi üzrə komissarı və keçmiş Port-Artur şəhər sovetinin sədri A. Verşinindən.»***

**ORDU VƏ DONANMAYA ƏMR**

Qarnizonun mərdliyi və mətinliyi ilə bütün dünyanın təəccübünə səbəb olmuş Port-Arturun qəhrəmancasına müdafiəsi, qalanın qəflətən rusvayçılıqla təslim edilməsi ilə kəsildi.

Ali məhkəmə qalanın verilməsinin müqəssirini yerindəcə cəzalandıraraq, igid

qarnizonun unudulmaz hünərlərinin doğruluğunu tam əzaməti ilə bərpa etdi.

Port-Arturun cəsur müdafiəçiləri.! Uzaq Şərqdə bizim istinadgahımızın müdafiəsi zamanı göstərdiyiniz fədakarcasına qəhrəmanlıq və anda sədaqətinizlə Siz ölməz şöhrət qazandınız və rus ordusunun hünər səlnaməsinə yeni parlaq səhifələr yazdınız.

Qədirbilən Rusiya Sizin ilə fəxr edir və Siz onun qarşısında borcunuzu unutmadığınız kimi, o da Sizin hünərinizi yaddan çıxarmayacaq.

***Əslini İmperator həzrətləri öz əli ilə yazmışdır:***
***II Nikolay, Çarskoe Selo şəhəri.***

* * *

Port-artur döyüşlərinin şahidi, yazıçı Aleksandr Stepanovun «Port-Artur» və «Zvonaryovlar ailəsi» romanları tarixi əsər kimi ədəbiyyatın qızıl fonduna daxil olmuşdur. İndiyədək on doqquz dəfə nəşr olunan romanın tirajı milyonu keçmişdir. İngilis, fransız, macar, yapon və başqa dillərə də tərcümə olunan belə bir məşhur əsərin səhifələrində (271, 350, 353 və s.) kapitan Əli ağa Şıxlinskinin qəhrəmanlıq fəaliyyəti öz əksini tapmışdır.

«…İrman ədəb-ərkanla təzim edib çevrildi və otağı tərk etdi. Diviziya rəisinin yanından çıxandan sonra irman cəl xəstəlik haqqında raport və komandan Kondratenkoya müfəssəl məktub yazdı. Sonra isə məktubu Əli ağa Şıxlinskiyə verdi və dərhal generalın yanına getməsini əmr etdi. İrman kapitana xeyir-dua verib dedi:

- Sizdən çox şey asılıdır, Əli ağa.

- Narahat olmayın, Vladimir Aleksandroviç. Əli ağa hələ indiyə kimi heç kəsin etimadını yerə salmayıb, ömründə satqınlıq eləməyib. Əgər general Fok yeddinci diviziyanın yaponların zərbəsi altına salmaq istəyirsə o, buna nail ola bilməyəcək. Onun kələyini kəsmək və general Kondratenkoya kömək etmək üçün bütün qüvvəmi əsirgəməyəcəyəm.

Bunu deyib, Əli ağa Şıxlinski sıçrayıb ata mindi və dördnala çaparaq ordan uzaqlaşdı…»

Keçmiş SSRİ xalqlarının bir neçə dilinə tərcümə olunan bu qiymətli roman təəssüf ki, hələ də Azərbaycan mütərcimini gözləyir. Romanda təkcə kapitan Əli ağa Şıxlinskinin yox, həm də general Səməd bəy Mehmandarovun, poruçik Sadıqovun fəaliyyətini oxuduqca fəxr etməyə bilmirsən.

«…Praporşik çadırdan çıxıb öz komandasının qərar tutduğu yerə tərəf getdi. Yolda Əli ağa Şıxlinskidə ona qoşuldu. İrmanın tapşırığı ilə o, batareyaya baş çəkməli və indiki mövqelərindən getmək üçün onları xəbərdar etməli idi.

- Necə, artilleriya da bu sahəni tərk edir? – deyə Zvonaryov təəcübləndi.

- Fok əmr verib ki, bütün topları yığışdırmalı, mühəndislər isə səngərdən sipərləri söküb, materiallarından başqa sahələrində istifadə etməlidir.
- Qısası, Kondratenkoya boş yer verilir ki, orada hər şeydən əvvəl yeni istehkam düzəltsin.
- Ehtimal ki, yaponlar istehkamları sökdüyümüzü görüb bizdən qabaq hücuma keçsinlər.
- Bu barədə təcili generalı xəbərdar etmək lazımdır, - Zvonaryov qərara gəldi və geri – Semyonovun qərargahına qayıtmaq istədi, lakin kapitan Əli ağa Şıxlinski təklif etdi ki, ora şəxsən özü getsin.



Защитники Портъ-Артура—изъ бригады генералъ-маіора Ирмана. Группа офицеровъ-артилеристовъ во главѣ со своимъ командиромъ Али-Ага Шихлинскимъ: Шишкинъ, Михайловъ, Карамышевъ, Гюнтеръ, Шулейкинъ, Бухало. По фот. авт. «Нивы».

- Çox da narahat olmayın. Mənim briqada komandirim polkovnik İrman qərara gəlib ki, sağ cinahdakı batareyaları Fokun əmrinin əksinə olaraq hələlik yerində saxlamaq lazımdır. Mən şəxsən polkovnik Mehmandarovla görüşəcəm. Biz onunla köhnə dostlarıq, bir-birimizi yek gəlmədən başa düşərik. Fok necə əmr verirsə versin, mənim zabiti olduğum podpolkovnik Laperovun batareyası Kondratenkonun diviziyasının polkunu köməksiz qoyub getməyəcək, - deyə Şıxlinski çoşğun halda dilləndi. – Romanovskinin sağdakı batareyasından iyirmi altıncı polkun qərargahınadək cəmi üç-dörd verstdir, mən yarım saata ora çatıb lazım olan hər şeyi deyərəm. Siz isə birbaşa Yençeyevskinin yanına gedin».

Əli ağa Şıxlinskinin döyüş məharətini gözləri ilə görən ikinci rus yazıçısı Trofim Borisov olmuşdur. Uzaq Şərq həyatından maraqlı, elmi və bədii əsərlər yazan T. Borisov sonu faciə ilə bitən rus-yapon müharibəsi haqqında 1959-cu ildə Vladivostokda «Portarturçular» adlı sanballı bir roman nəşr etdirmişdir. Müəllif sıravi əsgərlərin və zabitlərin döyüş yolunu özünəməxsus ustalıqla ön plana çəkir. Böyük hərarətlə, məhəbbətlə xalqımızın mərd oğulları Əli ağa Şıxlinski və Səməd bəy Mehmandarov haqqında söhbət açır. İlk gündən Şıxlinskinin batareyasında döyüşən podporuçik Trofim Borisov onun qəhrəmanlığını, xarakter və xasiyyətini daha dəqiq işıqlandırmışdır.

«Səhər saat onda batareyanın baş zabiti kapitan Əli ağa Şıxlinski kazarmaya gəldi. Onun iri uzunsov sifətinə bir qədər sivri burnu daha ciddi görkəm verirdi. Sıx bığları qalın idi, başının tükləri qabaqdan azca seyrəlmişdir. Çatma qaşları bir qədər yuxarı dartılmışdır. Qonur gözlərində sevinc işığı vardı. Balaca ağ əllərinin ağ barmaqlarını arxasında tutmuşdu. Əli ağa Şıxlinski hamı ilə görüşəndən sonra orduya təzəcə çağırılmışların adlarını oxudu:

-Antonov Valentin Pavloviç.

- Mən, - deyə o, cavab verdi.

- Sən az savadlısan?

Əsgər dolaşıq sözlərlə nəsə dedi, kapitan, Morozovu çağırdı.

- Sənin də savadın yoxdur, bu necə olur? Böyük şəhərdən gəlibsən, amma heç bir təhsilin yoxdur. – Sonra üzünü divizionun əsgərlərinə tutub: - Siz niyə oxumayıbsınız?

Bu iradlardan sonra Morozovun sifətinə yüngül qızartı çökdü.

Kapitan Əli ağa Şıxlinski sıranın önündən keçib, əlində yeni çağırılmışların siyahısı olsa da, gülümsəyə-gülümsəyə, bir-bir onların soyadını, adını, atasının adını çəkdi.

- Ancaq biz izləyir və fikirləşirdik ki, sibirlilər bizim inamımızı doğruldacaqlar… Pribaltika quberniyalarındakı və Mərkəzi Rusiyadakı savadsızlıq orada da hökm sürür. Yaxşı deyil, artilleriyaçı yaxşı biliyə malik olmalıdır. – Kapitan Şıxlinskinin sifətinə bir ciddilik çökdü. Gicgahı tarıma çəkildi, ancaq gözlərində bayaqkı təbəssüm işartısı qalırdı. Təzə çağırılanlarla söhbət edə-edə onlara göstəriş verirdi: - Başını düz tut, sağ çiynini əymə, - deyə kapitan, Pudovnikə müraciət etdi. Sən məhkəmə palatasında çoxmü işləyibsən? İki il? Bəs ona kimi harada işləyibsən?

- Prikazçik işləmişəm. Ancaq mənim əsas işim balıqçılıqdır.

- Sənin xəttin yaxşıdırmı?

- Mirzəliyi istəmirəm, zati-ailələri…

- Baxarıq. Bəs mirzəliyə kimi təyin edək? Özün görürsən, yazılarımızı yazmağa mirzə də lazımdır… Abramoviç Moisey İosifoviç! Sən usta-çilingərsən?...

- Yaddaşa bax, yaddaş belə olar, siyahını bircə dəfə oxuyan kimi hamının ad və soyadını, atasının adını necə də dəqiq yadında saxladı, - deyə Pudovkin fikrə getdi».

Port-Arturdakı oktyabr döyüşlərində Əli ağa Şıxlinskinin qəhrəmanlığını əyani əks etdirən tarixi sənədlər də az deyil. 1905-ci ildə çap olunmuş «Yaponlarla müharibənin səlnaməsi» almanaxının səksən birinci nömrəsinin mir beş yüz yetmiş yeddinci səhifəsində bu barədə oxuyuruq:

«Müqəddəs Georgi» ordenli süvari dumasının təqdimatına əsasən Əlahəzrət imperator – 1905-ci il oktyabrın 3-də böyük hörmət göstərərək, Port-arturun müdafiəsindən şücaəti ilə fərqlənmiş, 1904-cü il oktyabrın 13-dən 17-dək üç saylı istehkamı və bu istehkamın digər qurğularını artilleriya briqadasının pod-polkovniki Əli ağa Şıxlinskini dördüncü dərəcəli şəhid və müzəffər Georgi ordeni ilə təltif etmişdir. Podpolkovnik Əli ağa Şıxlinski bu döyüşdə böyük şücaət göstərmiş, ixtiyarında olan yarımbatareyanın nişançıları həlak olduğundan çox vaxt topları şəxsən özü tuşlayaraq düşmən artilleriyasını dəfələrlə susmağa məcbur etmiş və adı çəkilən istehkamlara yaxınlaşmağa can atan yapon piyadalarını qeyri-adi cəsarətlə keri oturtmuşdur…»

* * *

Şahzadə Bəhmən Mirzə Qacarın 1905-ci ildə Port-Artur döyüşlərində igidliklə həlak olmuş podpolkovnik oğlu Əliqulu Mirzə hərbdə və fotoqrafiya sənəti sahəsində qeyri-adi istedada malik idi. O, Tiflisdəki Kadet korpusunu bitirdikdən sonra Vladiqafqazda və Oryol şəhərində yerləşən əlli birinci Çerniqov alayında xidmət etmiş, 1903-cü ildə Yeletsdəki əlli ikinci Nejinski alayına dəyişdirilmişdir. Port-Artur döyüşlərində həlak olan podpolkovnik Əliqulu Mirzə Qacar döyüş xidmətlərinə görə «Müqəddəs Stanislav» ordenilə təltif olunmuşdur.

Bu barədə «Tərcuman» qəzeti 18 fevral 1905-ci il tarixli sayında yazırdı: «Qızıl Xaç Cəmiyyətinin əlahəzrət himayəçisi Məlakə imperator Mariya Fyodorovna Qızıl Xaç hesabına mərhum podpolkovnik, şahzadə Əliqulu Mirzə Qacarın cənazəsini Qafqaza, Yevlax stansiyasına qədər aparılmasını lazım bilmişdir».

Uzaq Port-Arturda gedən ağır döyüşlərdə minlərlə əsgər və zabit həlak oldu. Onların hamasına öz doğma torpağında uyumaq qismət olmadı. Vətəninə, Bərdənin İmamzadə qəbristanlığındakı məqbərədə dəfn olunmaq şərəfi Əliqulu

Mirzə Qacara ona görə qismət oldu ki, Şahzadə nəslindən idi. Səksən ildən çox sovetlərin tənqid atəşinə tutduğu imperator II Nikolay nüfuzlu nəsillərə belə ehtiram göstərirdi.

Şəhzadə-podpolkovnik Əliqulu Mirzə Qacar 1854-cü ildə Qarabağın Şuşa şəhərində anadan olmuşdur.

İllər keçir, eloğullarımızın Rus-yapon müharibəsindəki hünərlərini əks etdirən sənədlər müxtəlif arxivlərdə tədqiq olunmamış qalır. Açılmayan qovluqlar öz yazıçısını, tədqiqatçısını gözləyir.

Unutmaq lazım deyil ki, hərb tarixində misilsiz xidmətlərinə görə «Artilleriyanın allahı» sayılan alim-general Əli ağa Şıxlinski fəxrlə yazırdı ki, Port-Artur epopeyasının iştirakçısı olduğumu həmişə iftixarla yad edirəm.

***Dost sözü: - Əziz Şəmistan, «Port-Arturun azərbaycanlı qəhrəmanları» oçerkini birnəfəsə oxudum. Sənin yazıçı-jurnalist qeyrətinə heyrət etdim. Arxivlərin kəsif qoxulu tozunu udaraq belə gözəl tədqiqatı ərsəyə gətirdiyinə görə sənə «sağ ol» deyri və ürəyimdə təsis etdiyim qeyrət ordeni ilə təltif edirəm.***

***Öpürəm, bağrıma basıram. Sən xalqımızı nə qədər böyük məhəbbətlə sevirsən.***

***yazıçı qardaşın Əmir Mustafayev,***
***«Azərbaycan» qəzetinin Baş redaktoru,***
***20 dekabr 2001-ci il***

* * *

## GENERAL SƏMƏD BƏY MEHMANDAROV BİRİNCİ DÜNYA MÜHARİBƏSİNDƏ

***Əsgər komandirinə, zabit generalına oxşamalıdır.***
***Komandir döyüşkəndirsə, əsgəri də ona oxşayır,***
***zabit zəifdirsə, əsgəri də əfəldir.***

***SƏMƏD BƏY MEHMANDAROV,***
***Tam artilleriya generalı***

Sərkərdə kimi ümumxalq şöhrəti qazanmış Səməd bəy Mehmandarov və Əli ağa Şıxlinskidən danışanda talelərində oxşarlıq olan iki məşhur musiqi xadimlərimizi də yada salmamaq olmur. Üzeyir bəy Hacıbəyli və Müslüm Maqomayev. Onların hər ikisi bir ildə anadan olublar, eyni seminariyanı bitiriblər. Müəllim işləyiblər, musiqi yazıblar. Tale Üzeyir bəyə övlad qismət

eləməyib. Üzeyir bəylə Müslümün taleyindəki oxşarlıqları hər iki görkəmli hərb xadmlərinin həyatında da görmək olar. Əli ağa Şıxlinski də övlad həsrəti ilə dünyadan köçdü. Mehmandarova və Müslüm Maqomayevə tale övlad da verdi, şöhrət də. Amma Əli ağa və Üzeyir bəyə nisbətən onlar dünyadan tez köçdülər.

Hər ikisi on səkkiz yaşından əsgər çəkməsi geyindi, Peterburqda oxudu, Port-Arturda, Birinci Dünya Müharibəsində vuruşdu. 1918-ci ildə ilk milli Azərbaycan ordusu yaratmaq kimi şərəfli iş də hər iki şöhrətli generala qismət oldu. Tam artilleriya generalı ali rütbəsi aldılar.

Azərbaycanın dörd qartalı XIX əsrin sonlarından ötən əsrin ilk illərinədək daima xalqına sidq-ürəklə xidmət etdi.

Birinci Dünya Müharibəsi başlananda Mehmandarov Vladiqafqazda yerləşən 21-ci piyada diviziyasının komandanı idi. Bu vaxta kimi həyatında çox hadisələr olmuşdu. Əsirlikdən qayıdan kimi yeddinci Şərqi-Sibir artilleriya briqadasının komandanı təyin edildi, az sonra ona daha məsul vəzifə verildi – üçüncü Sibir ordusunun korpusunda artilleriya rəisi oldu. 1908-ci il Səməd bəyə bu yüksək vəzifədən başqa daha iki böyük sevinc bəxş etdi. Həmin il iyulun on üçündə ona general-leytenant rütbəsi verildi. İkinci, ən çox yadda qalan sevinc isə İrkutsk şəhərində noyabrın 18-də qismət oldu. Tale uzun intizardan sonra ona oğul payı göndərdi. Səməd bəy ona Pir adı verdi. Sonralar İqor adını daşıyan Mehmandarov otuzuncu illərdə general ataya görə çox ağrılar, əzablar çəkdi. 1988-ci ildə Bakıda görüşdüyüm İqor Mehmandarovun danışdığı bir epizodu heç vaxt unuda bilmirəm.

- Atamdan sonra tez-tez anamı və məni ÇK-ya çağırardılar. Min cür hədələyici suallar verirdilər. Suallara düzgün cavab versək də, verməsək də bizi döyüb incidirdilər. Bir dəfə lap cana doyub soruşdurm ki, axı, məni niyə incidirsiniz, niyə döyürsünüz? Bu sualların cavablarını mən həqiqətən də bilmirəm, yalandan nə deyim? Mənə əzab vermək, ağa qara demək kimi bir şeydir. Mənim günahım nədir?



- Günahınız ondan ibarətdir ki, özünüzə yaxşı valideyin seçməmisiniz.

Qəribə məntiqdir, nə vaxtdan övlad özünə valideyn seçib ki?..

Amansız təqiblərdən, yersiz sorğu-suallardan xilas olmaq üçün 1930- cu ildə, keçmiş Azərbaycan Demokratik Respublikasının Hərbi Naziri olmuş general atanın ölümündən sonra ana Yelizaveta

Nikolayevna və oğul İqor Azərbaycandan Sankt-Peterburqa köçməyə məcbur olurlar. Lakin Sovet ÇK-sı burda da onları təqib edirdi.

«…1937-ci ildə Mehmandarovlar ailəsi Peterburqdan Saratova sürgün edilir. Lakin İqor Mehmandarov burda də təqiblərdən yaxa qurtara bilmir. Adi yaşayış şəraitinin olmaması, ağır maliyyə çətinlikləri, günaşırı XDİK-ə çağırış onların həyatını burda katorqadan da dözülməz edir.

Lakin bütün bunlarla kifayətlənməyən cəlladlar Mehmandarovlar ailəsindən yenə də əl çəkmirlər. 1941-ci ildə Y.N.Mehmandarovanı oğlu ilə birgə yenidən Sibirə sürgün edirlər. Bu dəfə o, alman faşistləri tərəfindən partladılan qatarda həlak olur. Oğlu isə sürgündən sonra uzun illər Kalininqradda yaşayır. 1977-ci ildə isə Azərbaycanın hökumət rəhbəri onu Bakı şəhərinə dəvət edir.

…Azərbaycan Respublikası Baş Prokurorluğunun vəsatətinə əsasən vaxtilə Mehmandarovların yaşadığı Sankt-Peterburq və Saratov vilayət prokuror¬luqlarına sorğu göndərildi. Həmin işlər öyrənildi və nəhayət, İqor Səməd bəy oğlu Mehmandarova, anası Yelizaveta Nikolayevna Mehmandarovaya rəsmi sənəd aldıq. Gec də olsa xalqımızın tarixindən qara ləkələrin biri də silindi» (E.Hacıyev, «Bir qara ləkə də silindi» məqaləsi, «Xalq qəzeti», 8 iyun, 1993-cü il).

* * *

1910-cu ilin ılıq may günlərindən birində uzun ayrılıqdan sonra doğma Qafqaz Səməd bəyi qəhrəman oğul kimi qoynuna aldı. O, mayın 24—də Tiflisdə yerləşən birinci Qafqaz ordusunun korpusunda artilleriya rəisi təyin edildi. İyulun 31-də həmin korpusda artilleriya müfəttişi, 1913-cü il dekabrın 31-də isə iyirmi birinci süvari diviziyasının rəisi oldu.

Birinci Dünya Müharibəsinin ilk günlərindən Səməd bəy Mehmanda¬ro-vun diviziyası üçüncü Qafqaz ordu korpusunun sıralarında döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə rus ordusu heyətində böyük şöhrət qazandı. Bu döyüşlərdə onun rəhbərlik etdiyi səksən birinci Abşeron və səksən üçüncü Samur süvari alayları xüsusilə fərqləndi.

1914-cü il dekabrın on birində İkinci Qafqaz ordu korpusunun komandiri təyin olunan Səməd bəy Mehmandarov Sane çayı sahillərində, Prasnışa, Xolma və Vilno yaşayış məntəqələri uğrunda alman qoşunları ilə ağır və müvəffəqiyyətli döyüşlər apardı. Bütün müharibə boyu onun rəhbərlik etdiyi korpus düşmənə bir ədəd də olsa top itkisi vermədi.

Səməd bəyi yaxından tanıyan mayor Hacıağa İbrahimbəyli 1946-cı ildə çap etdirdiyi «Səməd bəy Mehmandarov» adlı kitabçasında iftixarla yazır:

«Rəsmən hərbi akademiya təhsili almayan bir zabit yalnız böyük bacarığı

sayəsində, hərbi xidməti çox sevdiyinə, döyüşlərdə misilsiz qoçaqlıq və hərbi məharət göstərdiyinə, işinə can yandırdığına və son dərəcə təmiz adam olduğuna görə bu qədər böyük rütbə sahibi ola bilərdi. Səməd bəy Mehmandarov da belə bir zabit idi.

Əla səviyyəli topçu olan Səməd bəy Mehmandarova rəsmən topçu akademiya təhsili olan bir artillerist, həmçinin görkəmli qoşun generalı olan hər bir ərkani zabiti həsəd apara bilərdi».

Birinci Dünya Müharibəsi illərində general Səməd bəy Mehmandarov alman diviziyalarını bir neçə dəfə ciddi surətdə məğlub edən istedadlı sərkərdə kimi ad-san qazanmışdı.

1914-cü il sentyabrın on beşində keçirilən Lodz döyüş əməliyyatında general Mehmandarov xüsusilə şöhrət qazandı. Alman generalı Makenzenin qoşunları güclü hücumla İvanqorod şəhərini alıb sürətlə Lodz şəhəri uğrunda əməliyyata başladı. Güclü təzyiqlə geri çəkilən rus qoşunları çox ağır vəziyyətdə idi. Bütün mövqelərdə hücuma keçən almanlar dayanmadan irəliləyərək geri çəkilən rus qoşunlarının bir hissəsinin qarşısını kəsib mühasirəyə almağa çalışırdı.

Səməd bəy Mehmandarovun iyirmi birinci piyada diviziyası səksən birinci Abşeron, səksən ikinci Dağıstan, səksən üçüncü Samur və səksən dördüncü Şirvan polklarından təşkil olunmuşdu. Bu polkların hərəsinin özünəməxsus döyüş ənənəsi vardı.

Korpus komandanı öz bölmələrinin müqəddəratı üçün təşvişə düşərək Mehmandarovun diviziyasının nə vəziyyətdə olduğunu telefonla ondan xəbər aldı. Səməd bəyin telefonda komandirlərə məxsus mərd, qısa cavabı belə oldu: «Vəziyyət ağırdır. Hücuma keçirəm!»

İki rus diviziyasının geri çəkildiyi belə bir ağır vaxtda Mehmandarovun diviziyası böyük bir iştahla irəliləyən düşmənə ağır zərbələr vurub onu geri oturtdu. Üç günlük ağır döyüşlərdən sonra İvanqorod şəhərinin hüdudlarına çatıb onu həmləyə aldı. Birinci Dünya Müharibəsi tarixində Səməd bəy Mehmandarovun bu müvəffəqiyyətli əməliyyatı alman generalı Makenzenin sürətli planlarını puça çıxartdı. Geri çəkilən iki rus diviziyasını isə mühasirəyə düşmək rüsvayçılığından xilas etdi.

Həmin əməliyyat zamanı general Əli ağa Şıxlinski Ali Baş komandan tərəfindən səhra toplarının baş müfəttişi yanında xüsusi tapşırıq generalı vəzifəsini daşıyırdı. Sonralar o yazırdı:

«O zaman rus ordusunda yeni bir silah olan ağır səhra toplarının vəziyyətini yoxlamaq və bu sahədə fəaliyyətə istiqamət vermək üçün Qərb cəbhəsinə çağırıldım. Mən yeddi korpusu gəzdim və müəyyən etdim ki, yalnız Səməd bəy Mehmandarovun korpusunda ağır topların vəzifəsi düzgün başa düşülmüş və bu

toplar həmin vəzifələrə uyğun yerləşdirilmişdir. Bu iş korpus top müfəttişinin yox, məhz mahir topçu olan Mehmandarovun şəxsi təşəbbüsünün nəticəsi idi».

Bu müharibədə misilsiz qələbələrə görə Səməd bəy Sadıq bəy oğlu Mehmandarova 1915-ci il martın 22-də tam artilleriya generalı rütbəsi verildi. Onun qəhrəmanlığı 1914-cü il sentyabrın 27-29-da apardığı müvəffəqiyyətli döyüşlərə görə üçüncü dərəcəli «Müqəddəs Georgi», 1915-ci il yanvarın 2-də ikinci dərəcəli «Müqəddəs Vladimir» (qılıncla birgə) ordenlərinə və 1915-ci il sentyabrın 9-10-da İvanqorod şəhəri uğrunda apardığı döyüşlərə görə brilyantla bəzədilmiş «Georgi Silahı» ilə təltif olunub.

General Səməd bəy Mehmandarovun döyüşlərdə göstərdiyi igidliyi və əsgərlərlə xoş rəftarı haqqında onun müasirləri iftixarla söhbət açırlar. Mayor Hacıağa İbrahimbəyli yazır ki, general Mehmandarov Birinci Dünya Müharibəsi zamanı olduqca çox şöhrət qazanmışdı. Vuruşmaların ən qorxulu dəqiqələrində onun misilsiz soyuqqanlığı və hədsiz qoçaqlığı rus ordusunda məşhur olmuşdu.

Mehmandarov ədalətli, namuslu, düz danışan adamları sevir, onlara kömək göstərir, ürəyi düz olmayanlara qarşı isə amansızlıq edirdi. Mehmandarovu şəxsən görənlərin hamısı təsdiq edir ki, ona tabe olanların hamısı ondan oddan qorxan kimi qorxar, lakin onu sevər, ona inanardılar.

Səməd bəy Mehmandarov həmişə əsgərlərlə xoş rəftar edərdi və daim onların qayğısına qalardı. «Mehmandarov nadir artilleriyaçıdır». Bu üç kəlmə söz Qırmızı Bayraqlı Qafqaz Ordusunun komandanı İ.E.Yakirə məxsusdur. Onu 1925-ci ildə «Birləşmiş Azərbaycan Hərbi Məktəbi»ndə müəllim işləyən Səməd bəyin şəxsi işinə komandan İona Yakir öz dəst-xəttilə yazıb. İnqilab illərində Mehmandarovun həyatı çox təlatümlü keçib. Nə yeni hökumət, nə də onun adamları ona inam gətirməyiblər. Hər yerdə «Çar generalı», «Müsavat naziri» kəlmələri sərt şillə kimi onun və silahdaşlarının üzünə çırpılırdı. Həmin o narahat illərdən – 1920-ci il iyunun 4-də Səməd bəy Mehmandarovun öz əli ilə doldurduğu iki vərəq kağız qalıb. Bolşeviklərin tələbi ilə doldurduğu «Həbs vərəqləri» Milli Təhlükəsizlik Nazirliyinin arxivində saxlanılır.

## LEV TOLSTOYUN QIZININ GENERAL SƏMƏD BƏY MEHMANDAROVLA GÖRÜŞÜ

1929-cu ilin payızında bolşevik hökumətindən narazı olan dahi yazıçı Lev Tolstoyun qızı Aleksandra Lvovna (1884-1979) Yaponiyada atasının əsərlərinin nəşri ilə maraqlanmaq bəhanəsi ilə A.V.Lunaçarskinin köməkliyi ilə icazə alıb

Rusiyanı tərk etdi.

Bolşeviklər Aleksandranı 1920-ci ildən 1929-cu ilə qədər beş dəfə həbs etmişdilər. Aleksandra Yasnaya Polyana kəndlərinin, din xadimlərinin kulak kimi günahsız həbs və sürgün olunmasına qarşı çıxır, L.Tolstoy muzeyinin baxımsızlığına qarşı üsyankar səsini kəsmirdi. Onun Leninə, Kalininə, Stalinə, Frunzeyə və başqa dövlət xadimlərinə yazdığı şikayət məktubuna əsasən türmədən azad edir və yenidən həbs edirdilər. Lubyanka türməsində həbsdə olan-da Aleksandra kameranın divarına yazmışdı: ***«İnsanın ruhu azaddır. Onu heç nəylə məhdudlaşdırmaq olmaz; nə divarla, nə də dəmir hasarlarla».***

Aleksandra 1931-ci ilə qədər iyirmi ay atasının çox güclü pərəstişkarı yapon yazıçısı Kendziro Tokutominin evində qaldı. Hələ 1906-cı il iyunun 30-da Yasnaya Polyanaya Lev Tolstoyun görüşünə gələn Tokutomi ilə Aleksandranın tanışlığı vardı. 1910-cu ildə Tolstoyun vəfatından sonra da yapon yazıçısı ilə Aleksandra məktublaşır və atasının Yaponiyada əsərlərinin nəşri barədə məlumat alırdı. Həbsxanalardan canını qurtaran Aleksandra Lvovna 1931-ci ildə Sovet vətəndaşlığından imtina edib böyük çətinliklə Yaponiyadan Amerikaya mühacirətə getdi. Bir daha geri qayıtmadı.

Amerikada qırx səkkiz il yaşayan Aleksandra Lvovna fermer təsərrüfatı ilə məşğul oldu. «Lev Tolstoy fondu» yaratdı və həm də Rusiya, Yaponiya və Amerikada keçirdiyi ağrı-acılı həyatı barədə «Atam», «Lev Tolstoyun qızı», «Qaranlıqda işartı», «Mənim həyatım sovetlərdə» və başqa əsərlərini yazdı.

Tədqiqatçılar yazırlar ki, Tolstoyun övladlarından ən istedadlısı onun 1884-cü il iyunun 18-də dünyaya gələn on ikinci övladı Aleksandra Lvovna olmuşdur. Atasının çətin xətlə yazdığı əsərlərin əlyazmasını qayğı ilə köçürən, ən yaxşı həmsöhbəti və etibarlı şəxsi də Aleksandra olmuşdur. Hətta dahi Lev Tolstoy Astanovo stansiyasında can verəndə 1910-cu il iyulun 22-də yazdığı «Vəsiyyətnamə»sini də kiçik qızı Aleksandraya etibar etmişdir. O, həm də cəsarət və şücaətdə də atasına çəkmişdir. Heç təsadüfi deyil ki, 1914-cü ildə Cahan müharibəsi başlananda hərbi şəfqət bacısı kimi Aleksandra cəbhəyə könüllü getmişdir. Cəbhələrdə yaralı əsgər və zabitlərə göstərdiyi qayğıya görə üç dəfə «Müqəddəs Georgi» medalı ilə təltif olunmuşdur.

1916-cı ildə Aleksandra «Ümumrusiya torpaq Birliyinin səkkizinci sanitar dəstəsi»nin rəhbəri kimi Qafqaz cəbhəsində yarım ildən çox şöhrətli həmyerlimiz artilleriya generalı Səməd bəy Sadıq bəy oğlu Mehmandarovun korpusunda xidmət etmişdir.

Aleksandra Lvovna xatirəsinin bir yerində yazır: «Smorqon yaxınlığında döyüşçülərinizin növbəti hücumu gözlənilirdi. İkinci Qafqaz ordu korpusunun



komandanı general Mehmandarov məni yanına çağırıb çox səmimi görüşdü.

- Qrafinya Aleksandra Lvovna, – dedi, bir azdan bizim 64-cü diviziya döyüşə başlayacaq, Sizin ad gününüzü təbrik eləməyə vaxt olmayacaq. Axı, bu gün iyunun 18-dir. Sizi ad gününüz münasibətilə səmimi qəlbdən təbrik edirəm».

Od-alov yağan döyüşlər zamanı belə xeyirxah komandan general Səməd bəy Mehmandarov qrafinyaya diqqətini əsirgəməmişdir. Hər iki şəxsiyyətin ağır cəbhə günlərində bir-birinə səmimi münasibəti, xüsusilə Aleksandra Tolstayanın həmyerlimiz haqqında Amerikada mühacirətdə yazdığı xatirə-görüşləri hər bir oxucu qəlbində iftixar hissi doğurur.

Xatirə-görüş ilk dəfə dərc olunur.

* * *

Aleksandra Tolstayanın müvəkkili olduğu «Ümumrusiya Torpaq Birliyinin səkkizinci sanitar dəstəsi» artilleriya generalı S.Mehmandarovun komandanlığı altındakı ikinci Qafqaz ordu korpusunun sərəncamına gəlmişdi. Bu 1916-cı ilin yayında, onun dəstəsinin Smorqondan bir qədər şimalda, Zalesye dəmir yolu stansiyası yaxınlığındakı ikinci Qafqaz korpusunun yerləşdiyi rayona göndərildiyi zaman olmuşdu.

Korpusun qərargahı ön cəbhəyə yaxınlaşmışdı və meşədə, hər tərəfdən maskalanmış rahat blindajda yerləşirdi. Aleksandra Lvovnanı korpusun qərargahına cavan zabit ötürdü və girişdə ona nəzakətlə blindaja birinci daxil olmağı təklif etdi. O, açıq xəritə üzərində əyilmiş üç zabitin qarşısına tam formada, dəstə müvəkkilinə necə yaraşarsa o cür, çıxdı. Gün işığından sonra blindajda alaqaranlıq hökm sürürdü.

«Yəqin ki, komandan elə budur», - deyə masanın yanında duran yaşlı zabitin formasını üzərindəki general poqonlarını və yaxasındakı hansısa ordeni görən Aleksandra Lvovna fikirləşdi. Müşayiətçi aydın Qafqaz ləhcəsi ilə rəhbərliyə dəstə müvəkkilin gəldiyini məruzə etdi.

- Cənab korpus komandiri, səkkizinci sanitar dəstəsinin müvəkkili qrafinya Tolstaya sizin sərəncamınıza gəlmişdir.

Aleksandra Lvovna hiss etdi ki, cavan zabit öz raportunda onun titul və soyadını xüsusilə qeyd etməyə çalışırdı. Ancaq bu və ya digər şəkildə, hər üç zabit, o gördü ki, onların ikisində general poqonu var, xəritədən ayrılaraq maraqla daxil olan qadına baxdı. Onun gözləri qaranlığa alışdı və detalları seçməyə başladı.

«Beləliklə, - nəhayət Aleksandra Lvovna hər şeyi anladı, - general-leytenant rütbəsində olan, görünür ki, korpus komandanı, bunlar isə – general-mayor və kapitandır». – Qafqaz cəbhəsində o hərbi rütbələri yaxşı fərqləndirməyə başlamışdı.

Rütbəcə böyük olan zabit masadan aralanaraq dəstə müvəkkilini qarşıladı.

- General Mehmandarov, hörmətli xanım, - deyə şəfqət bacısı formasındakı müvəkkilin titulu və soyadından karıxmış və buna görə də onun uzadılmış əlini xüsusi nəzakətlə öpən korpus komandiri özünü təqdim etdi. Digər iki zabit yerlərində qaldılar, ancaq qamətlərini düzəltməklə və başlarının hərəkətli ilə onu salamladılar.

General Səməd bəy Mehmandarov qrafinyaya öz qərargahının rəisi general-mayor Feyodorovu və kapitan İvliyevi təqdim etdi, sonra isə hamıya təmiz havaya çıxmağı təklif etdi. Buradaca, blindajın yanında Aleksandra Lvovna komandana sənədləri verərək dəstənin təyinatı, onun tərkibi və imkanları haqqında məruzə etdi. Gün işığında o, şanlı karyerası 1917-ci ilin qarışıqlığında dramatik şəkildə sonra yetən bu heç də cavan olmayan, ancaq igid generalın üzünü daha diqqətlə nəzərdən keçirə bilirdi.

Onun diqqət yetirdiyi ilk şey generalın artıq içində çoxlu sayda ağ tüklərin göründüyü çox sıx və olduqca özünəməxsus formalı saqqalı idi. Əvəzində isə gicgahlarından başlayaraq və daha da yuxarıda onun kifayət qədər gur saçları tamamilə ağarmışdı. Gözəl donqar burnu, tünd-qonur iri və mənalı gözləri generalın əsilli olduğunu göstərirdi. Bir qədər sonra onun tabeçiliyində olan zabitlər dairəsində vaxt keçirərkən Aleksandra Lvovna onun haqqında çoxlu sayda tərif və onun tərcümeyi-halının təfərrüatlarını eşitmişdi.

* * *

Səməd bəy Mehmandarov 1855-ci il oktyabrın 16-da Azərbaycanın Xəzər dənizinin sahilində yerləşən Lənkəran şəhərində varlı zadəgan ailəsində anadan olmuşdur. Səməd bəy ilk təhsilini Bakı gimnaziyasında almışdı. Gimnaziyanı bitirdikdən sonra Peterburqdakı Konstantinovski yunker məktəbində təhsilini davam etdirmişdir.

Səməd bəy Mehmandarov öz hərbi karyerasını 1876-cı ildə onun birinci Türküstan artilleriya briqadasının batareya komandiri təyin olunması ilə başlayır. Kokand xanlığın fəthində iştirakına görə cavan poruçik ilk hərbi mükafatına –

üçüncü dərəcəli Stanislav orderinə layiq görülür. 1894-cü ildə Mehmandarov Varşava hərbi dairəsinə, sonra isə komandiri olacağı Zabaykalye artilleriya divizionuna keçirilir. 1900-1901-ci illərdə Səməd bəy Mehmandarov Çində silahlı boksyor üsyanının yatırılmasında iştirak edir. Danışırdılar ki, Xeylunqazyan əyalətinin mərkəzi, üsyançı şəhər Sisikarının mühasirəsi zamanı o vaxt mühsirəyə rəhbərlik edən general Rennekampf Mehmandarovun batareyalarına üsyançıların dəstələrini, əgər onlar şəhərin cənub darvazalarından çıxmağa cəhd edərlərsə, məhv etmək əmri vermişdi. Silahsız üsyançıların, yaxınlığında rus batareyalarının gizləndiyi darvazalarından çıxdıqlarını görən Mehmandarov çinlilərə atəş açmaqdan imtina edir. Onların başları üzərindən cəmi bir neçə atəş açır ki, bununla da onları yenidən şəhər divarları arxasında gizlənməyə məcbur edir.

Rus-yapon müharibəsi zamanı Səməd bəy Mehmandarov artıq polkovnik rütbəsində Port-Arturun qəhrəman müdafiəsində iştirak edir. 1908-ci ildə yüksək hərbi peşəkarlığına görə Səməd bəy Mehmandarova general – leytenant rütbəsi verilir.

Birinci dünya müharibəsi təcrübəli generalı sentyabrın ilk günlərində onun məşhur Varşava-İvanqorod əməliyyatının bilavasitə iştirakçısı olduğu Varşava əməliyyat istiqamətində yaxalayır. Bu zaman general Mehmandarov general İrmanın komandanlığı altındakı üçüncü Qafqaz ordu korpusunun tərkibinə daxil olan 21-ci diviziyanın komandanı idi. Rus qoşunları Varşava ilə Sana çayı arasındakı 350 kilometrlik sahədə yerləşdiyi zaman infanteriya generalı Evertin komandanlığı altındakı Cənub-Qərb cəbhəsinin dördüncü ordusunun tərkibində olaraq, üçüncü Qafqaz korpusu qısa müddət ərzində gözlənilən əməliyyat rayonuna yürüş edir və İvanqorod qalasından şimalda yerləşir.

Hərbi əməliyyatlar bu sahədə general Hindenburqun alman ordularının hücumu ilə başladı. Üçüncü Qafqaz korpusunun qarşısında Kozenitsa rayonunda alman qüvvələrini hərbi əməliyyatlarla Varşavadan yayındırmaq vəzifəsi qoyulurdu.

Alçaq və bataqlıq əraziləri sözün həqiqi mənasında sulara qərq edən, onları nəinki ağır texnika, həm də piyadalar üçün keçilməz edən aramsız payız yağışları üçüncü Qafqaz korpusunun üç diviziya və korpus hissələrinin tərkibində hücumunun inkişaf etdirilməsinə ciddi maneə oldu. Kozenitsanı ələ keçirənə və o qədər də böyük olmayan plasdarmda (döyüş meydanında) möhkəmlənənə qədər üçüncü Qafqaz korpusunun diviziyaları birgə səylərlə hücumu üç dəfə inkişaf etdirməyə cəhd etmişdilər. Bu döyüşlərdə alman artilleriyasının sayca artıq qüvvələrinə baxmayaraq general Mehmandarovun diviziyası fərqləndi.

Sonralar tərkibində general Mehmandarovun 21-ci diviziyasının ilk sınaqdan çıxdığı üçüncü Qafqaz artilleriya korpusu Qorlitsiya əməliyyatında iştirak etdi. 1914-cü ilin sonunda onun ordu ehtiyatına rəhbər təyin edilməsi ilə əlaqədar olaraq general Mehmandarov 21-ci piyada diviziyasının komandanlığını general Nekrasova ötürür.

1915-ci ilin mayında almanların Qalisiya hücumu zamanı 3-cü Qafqaz korpusu düşmənin sayca üstün qüvvələrinin təzyiqi altında igidliklə müqavimət göstərərək və ciddi zərbələr vuraraq Sana çayına tərəf geriyə çəkilmə həyata keçirirdi. 1915-ci ilin axırında general Mehmandarov tərkibinə iki piyada diviziyasının, korpus artilleriyasının, süvari alayının, istehkamçı batalyonunun, aviodəstə və teleqraf bölüyünün daxil olduğu ikinci Qafqaz korpusunun komandiri təyin olunur.

Təyinatın ardınca Qərargahdan məlumat gəlir: ***«1915-ci il oktyabrın 15-də Əlahəzrət İmperator artilleriya generalı Səməd bəy Mehmandarova düşmənə qarşı döyüşlərdə fərqləndiyinə görə, Müqəddəs Mömin Böyük Knyaz Aleksandr Nevski Ordeni, qılınclarla lütf etməyi buyurmuşdur».***

General Mehmandarovun komandanlıq etdiyi korpusdakı 50 min şəxsi heyətə, yeddi təyyarəyə qulluq edən iyirmiyə yaxın aviapilota və mexaniklərə malik idi.

1916-ci ilin yay kompaniyasında Səməd bəy Mehmandarovun komandanlığı altında 2-ci Qafqaz korpusu Zalesye Smorqon rayonunda fəaliyyət göstərirdi.

Aleksandra Lvovna Smorqan rayonunda almanların tətbiq etdikləri bombardmanlar və qaz hücumları zamanı cəbhədə yaşanmış bu faciəli günləri heç zaman unutmayacaqdı. Qazla zəhərlənmişlərə göstərilən yardım zamanı onun qətiyyətli hərəkətləri və fədakarlığı ikinci Qafqaz ordu korpusu üzrə korpus komandiri artilleriya generalı Mehmandarov tərəfindən imzalanan qorunub saxlanılmış əmrdə də əks olunmuşdur. Hadisələr onda ətraflı şəkildə əks olunduğu üçün bu sənədin surətini təqdim edirik.

**Əmr**
***İkinci Qafqaz ordu korpusuna***
***№ 199***
***1916-cı ilin 10 oktyabrı. Döyüşən ordu.***

Zalesye stansiyası yaxınlığında yerləşmiş Ümumrusiya Torpaq Birliyinin müvəkkilinin səkkizinci sanitar nəqliyyatı və onun lazareti bu ilin oktyabrının 8-də, günorta saat 4-ə yaxın düşmən aeroplanından atəşə məruz qalmışdır ki, bundan da, təəssüf ki, onun həkim və sanitar heyəti ağır zərər görmüşdür.

Aeroplandan atılan bomba lazaretin bütün həkimlərinin, qadın-feldşer həkimlərinin və sanitarların bir hissəsinin xəstələrdən biri üzərində təcili əməliyyat icrası üçün toplandığı əməliyyat barakının yeddi addımlığında partladı və baş həkim D.V.Nikitini, qadın-həkim Y.Q.Çaadayevanı, qadın-feldşer T.L.Yanuşevskayanı, üçünün tezliklə öldüyü on iki sanitarı ikisinin də həmçinin tezliklə öldüyü, lazaretdə müalicə olan dörd xəstəni ağır yaraladı.

Qrafinya Tolstayanın lazareti, onun korpus ərazisində olduğu müddət ərzində öz nümunəvi işi ilə mənə həvalə edilmiş korpusun hissələrinə daim qiymətli xidmətlər göstərirdi. Lazaretin bütün heyətinin işi düşmənin iyulun 19-dan 20-ə keçən gecə Qrenadyor diviziyası cəbhəsində həyata keçirdiyi qaz hücumu zamanı, onun bir hissəsinin zərərçəkənlərə yerində yardım göstərilməsi və onların cəld şəkildə daşınması üçün ön mövqelərə böyük səylə yönəldiyi zaman xüsusilə rəşadətli idi. Digər hissə isə lazaretə çatdırılmış qazla zəhərlənmişləri qəbul edir və onlara vaxtında zəruri tibbi yardımı göstərirdi.

Bu qədər mühüm və faydalı fəaliyyətə görə başda qrafinya A.L.Tolstaya və həkimlər: baş həkim – D.V.Nikitin və kiçik həkimlər – Çaadayeva və Savvinıx olmaqla, lazaretin bütün heyətinə dərin minnətdarlığımı bildirməyi vəzifə borcum hesab edirəm.

***Əslini imzaladı.***
***Korpus komandiri,***
***artilleriya generalı Mehmandarov.***

Almanların birinci yaz hücumu 1915-ci ilin mayının axırında Varşavadan cənubda ikinci ordunun hissələrinə qarşı başlanmışdı. Onun nəticəsində doqquz min rus döyüşçüsü zəhərləndi. Smorqondakı qaz hücumu dəstənin bütün tibb heyəti üçün ağır sınaq olan, düşmənin növbəti barbar aktı oldu

Rus ordusuna xidmətə 40 ildən artıq vaxt sərf etmiş ikinci Qafqaz korpusunun komandanı artilleriya generalı Səməd bəy Mehmandarov da tezliklə ciddi mənəvi sınaqlardan keçməli olacaqdı.

Aleksandra Lvanovna Tolstaya Minsk lazaretində müalicədə olduğunda bu hadisələrin şahidi olmamışdı. General Mehmandarovun ikinci Qafqaz ordu korpusunun komandanı vəzifəsində olduğu son günlərdən general A.İ.Denikin «Rus iğtişaşı» oçerklərində ətraflı şəkildə söhbət açır: «1917-ci ilin martın 28-də generalın yanına gəlmiş iki zabit məruzə etdi ki, Olenets kəndi yaxınlığında düzülmüş ikinci Qafqaz qrenadyor diviziyası müxtəlif narazılıqlar bildirir və korpus komandanının mötəbər izahatlarını eşitmək istəyir».

General Səməd bəy Mehmandarov öz korpusunun qərargah rəisi general-

mayor Fyodorovla Qafqaz qrenadyor diviziyasının iki alayının – 703-cü Suram və 704-cü Rion alaylarının kiçik meydançada sıra ilə düzüldüyü Olenets kəndinə gəldikdə silahlı əsgərlər olduqca həyəcanlı idilər.

Qayda-qanun yaratmaqdan ümidlərini üzmüş iki alayın komandirləri əraziyə gəlmiş korpus komandirinə məlumat verdilər: «Əsgərlər nəzarətdən» çıxıblar. Hər şeyə praporşik Remnyov rəhbərlik edir.

Bu zaman praporşik əsgərlərin qarşısında çıxış edirdi:

«Yoldaşlar, fəhlə və əsgər deputatları şurası bizə etibar etmədiyimiz rəisləri kənarlaşdırmaq hüququnu vermişdir.

- Düzdür, - deyə ən dəliqanlı əsgərlər başları üzərində tüfəngləri silkələyərək qışqırırdılar.

Korpus komandirinin «Şuranın bu cür göstərişi haqqında haradan öyrənmisiniz?» sualına mitinqçilərdən biri cavab verdi: «Biz vərəqələrdən oxuduq! Əsgərlərin və bəzi zabitlərin əsas narazılığı onda ifadə olunurdu ki, onların fikrinə görə diviziya ön mövqelərə irəliləmək üçün hazır deyil. Aydın görünürdü ki, məğlubiyyətçilik əhval-ruhiyyəsi və müharibə əleyhinə təbliğat alaylarda özünə möhkəm yer eləmişdi.

General Səməd bəy Mehmandarov düzülmüş alaylara yaxınlaşdı və onların qarşısında çıxış etdi. Ancaq ehtiraslar o dərəcədə qızmışdı ki, komandirin izahatı əsgərləri razı salmadı. Əslində o həbs olunmuşdu.

Bu vaxt cəbhədə çox ağır bir vəziyyət yaranmışdı. Əsgərlər heç nəyi başa düşmək istəmirdilər. Yerindən duran odlu-ordlu nitq söyləyirdi. Əvvəlcə kommunistlər, sonra da onların əleyhinə çıxışlar olurdu. Əsgərlər çaş-baş qalmışdılar, ayırd edə bilmirdilər ki, bu natiqlər onları hara çağırırlar. Yadımdadır, bir dəfə mənim çadırıma soxulan əsgərlər ədəbsiz küçə söyüşləri işlətdilər. Biz, təsərrüfat və nəqliyyat rəisi ilə çay içirdik. Onda bərk qorxduq. Mən həmin əsgəri tanıyırdım, o kontuziyalı idi. Mən ona yaxınlaşıb əlimi çiyninə qoyub dedim: «Mən gələcəm sənin yanına söhbətimizi orda davam etdirərik». Bu anda qeyri-adi bir hadisə oldu, o uşaq kimi zarıdı, üzünü çiynimə söykəyib dedi: «Siz mənə deyin görüm, bu deyilənlərin hansı doğrudur? Bolşeviklər deyirlər ki, bütün günahlar sizdədi, ona görə ki, siz burjuysunuz. Ancaq mən bilirəm ki, Sizin mənə münasibətiniz yaxşıdır, deyin görüm həqiqət hardadır?»

Az savadlı adamlara baxmaq çox əzablı idi. Onlar qorxu hissi keçirirdilər və başa düşə bilmirdilər ki, sabah onları nələr gözləyir. Adamların əhval-ruhiyyəsi dəhşətli idi.

Davamlı müşavirədən sonra başda elə həmin praporşik Remnyov olmaqla

əsgər deputatları korpus komandanı artilleriya generalı Mehmandarova, qrenadyor diviziyasının komandanı general-mayor Nikolskiyə və diviziyanın qərargah rəisi polkovnik Voytsexovskiyə etimadsızlıq göstərilməsi və general-mayor Feyodorovu korpus komandiri seçdikləri haqda qərar çıxardılar. Ancaq korpus qərargahının rəisi korpusda rütbəcə böyüklərin olmasını bildirərək qətiyyətlə imtina etdi. Qısamüddətli müşavirədən sonra əsgərlər elan etdilər ki, onlar general-leytenant Tita Beneskulu komandir seçdilər. Öz növbəsində, general Tita Beneskul bildirdi ki, korpusa komandanlığını ancaq korpus komandirinin əmrindən sonra qəbul edəcək. Əsgərlər general Mehmandarovu əhatəyə aldılar və ehtirasların qızışdırdığı vəziyyəti bir az da qızışdırmamaq üçün ağsaçlı general müvafiq əmr verdi.

O zaman 10-cu ordu komandanı yanında tapşırıq üçün generalı vəzifəsini daşıyan general S.L.Markovun xatirələrindən başa düşmək olar ki, o ordu komandanının əmri ilə martın 31-də ikinci Qafqaz korpusuna getmiş və orada əslində vəzifəni praporşik Remnyovdan qəbul etmiş general Tita Beneskulun «Üzərinə düşmüş» və general Mehmandarovun əvvəlki vəzifəsində bərpa olunmasını tələb etmişdi. İki gündən sonra general Beneskul özünü güllələdi. «Mən Beneskula onun korpusun praporşik Remnyovdan qəbul edilməsinin nəzakətsiz olduğunu deməməli idim, – deyə general Markov özünü danlayırdı. – Mən onun ruhunun, iradəsinin zəifliyini bilməli idim».

Səməd bəy Mehmandarovun müharibənin iki ildən də artıq vaxtı ərzində uğurla komandanlıq etdiyi ikinci Qafqaz ordu korpusuna gəldikdə isə o inqilab güllərində son qoymuşdur. Qərb cəbhəsi ordularının komandanı kimi bir qədər sonra korpusun bir hissəsinə baş çəkən general Denikin buna şəxsən əmin olmuşdur.

Denikinin özü onun axırıncı iki müharibədə iştirak etdiyi zaman ərzində dəfələrlə təsdiqlədiyi əməksevərliyi, yüksək peşəkarlıq, mürəkkəb qərarlar verən zaman soyuqqanlılığı və qorxmazlığını qiymətləndirərək general Mehmandarov haqqında müsbət fikirdə idi. Aleksandra Lvovna Tolstaya qohumları ilə yazışmalarında məşhur generalın hansısa keyfiyyətlərini yada salmır. Ancaq o, ikinci Qafqaz ordu korpusunun komandirinin və zabitlərinin ona qarşı gözəl münasibətlərini dəfələrlə qeyd etmişdi ki, bu da öz-özlüyündə acı taleyini qarışıq zamanda bir çox rus zabitlərinin də paylaşdığı ağsaçlı general üçün gözəl xasiyyətnamədir (Yuri Xaçinov «A.Tolstayanın sərt yolları» kitabından. Moskva, 2000-ci il).

## GENERAL SƏMƏD BƏY MEHMANDAROVUN ANKETİ

Həyatda o, boyca balaca, iki yerə daranıb ayrılmış ağsaqqallı bir adam idi. Həmişə kiçik ayaqlarına görə xüsusi dəridən tikilmiş yüngül çəkmə geyərdi.

Deyirlər ki, 1923-cü ildə ağsaqqallı generalı… əlində süpürgə Bakıda görüblər. Altmış yeddi yaşlı general, Müsavat hökumətinin hərbi naziri kimi iki il keçdiyi həmin bu küçəni süpürüb adamlardan utanaraq, Azərbaycan Fövqəladə Komissiyasına qeyd olunmağa tələsirdi. Özü də həmin gün. Qoy görsünlər ki, o yerindədir, heç hara getməyib, heç yana qaçmayıb.

Deyirlər ki, belə olub. Hər ehtimala qarşı, bizim əlimiz çatan nəşrlərdə bu yoxdur, ancaq adamların yaddaşında bu qalıb. Uzun müddət belə hesab edirlər ki, öz tariximizi, onun bütün keçidlərində bilmək bizə o qədər də lazım deyil, əgər biz onu bütün ziddiyyətləri ilə – lap həqiqət olsa belə – yazsaq «düz başa düşmərik». Lakin oxşarlığın şüası, çəkilmələr zamanı sualtı daşlar təmizlənən kimi, həqiqəti üzə çıxardaraq bütün qaranlıq künclərə işıq saçır.

1999-cu ilin oktyabr ayında tədqiqatçı axtarışı məni çekistlərin arxivinə gətirib çıxartdı. Burda «keçmiş adamlar»ın anketləri arasında illərin soldurduğu və Mehmandarovun xırda hərflərlə yazdığı ikiqat bir vərəq saxlanılır. O illərin qoxusunu verən bir vərəq…

***Səməd bəy Sadıq bəy oğlu Mehmandarov xidmət illərini necə və harada keçirib, anketdən bunu müəyyən etmək olmur. Ancaq anketin «təltiflər» sütununa görə mühakimə yürütsək, məlum olur ki, o üçüncü və dördüncü dərəcəli Georgi ordeni, brilyantla bəzədilmiş qızıl silah, birinci, ikinci və dördün¬cü dərəcəli Stanislav ordeni, birinci, ikinci və üçüncü dərəcəli Anna ordeni, ikinci, üçüncü, dördüncü dərəcəli Vladimir ordeni, «Ağ qartal» , «Aleksandr Nevski» ordeni və s. təltif olunub. Burda sütunda yer qurtarıb, aşağıda yazılıb «və başqaları…».*** Aydın məsələdir ki, ordenlər də əla hərbi xidmətə və qəhrəmanlığa görə verilirdi.

Sonra isə anketdə bir yığın sual var. Köhnə orduda sonuncu rütbəniz və vəzifəniz? Tam artilleriya generalı, ikinci Qafqaz korpusunun komandiri. 1917-ci il fevral inqilabı zamanı harda olmusunuz? Alman cəbhəsində. Bəs oktyabr inqilabı zamanı? Petroqradda, 1917-ci ilin mayında üzv seçildiyim yaralıların Aleksandrovsk komitəsində. 1918-ci ildə altmış iki yaşlı generala Azərbaycan Demokratik Respublikasının müsavatçılar kabinetində hərbi nazir vəzifəsini təklif eləyirlər və Mehmandarov bu təklifi qəbul eləyir. 1920-ci il iyunun dördündə onu həbs eləyib iki aydan sonra general Əli ağa Şıxlinski ilə birgə Moskvaya göndərirlər. Moskvaya çatan kimi hər ikisini həbs edib Butursk

həbsxanasına salırlar. ***Qatarı qarşılayan Azərbaycanın Moskvadakı səlahiyyətli nümayəndəsi Behbud bəy Cavanşir, Nəriman Nərimanova təcili teleqram vurur ki, sizin dediyiniz qatar gəldi, lakin generallar yoxdur. Stalinlə telefon əlaqəsi saxlayan N.Nərimanov onları tapdırır.***

Hazırda bizim Milli Təhlükəsizlik Nazirliyinin arxivində saxlanan Stalinin məktubu (surəti) generalları xilas edir. Stalin o vaxtkı Ümumittifaq Fövqəladə Komissiyasının birinci müavini H.Q.Yaqodaya 1920-ci il 12 noyabr tarixli məktubunda yazır:

***«Yoldaş Yaqoda! Hərtərəfli yoxlamadan sonra məlum oldu ki, Azərbaycan generalları S.Mehmandarov və Ə.Şıxlinski heç nədə günahkar deyillər. Xahiş edirik onların həbsxanadan buraxılmasına nail olasınız. İ.Stalin»***

Ad gününü həbsdə «qeyd eləyir». Yeddi gündən sonra azad edilib Daimi Artilleriya Komissiyasının üzvü kimi səhra qərargahına göndərilir. Burda Səməd bəy Mehmandarovun əliylə yazılıb:

«Bir dəfə də istintaq aparmadılar, heç bir ittiham irəli sürmədilər». Bəs nəyə görə?! Rus qanı tökməyib, bolşeviklərə qarşı çıxış eləməyib, hərbi andı qəbul eləyib. Əsgərdən generala kimi yüksəlib. Sədaqətlə xidmət edib. 1921-ci il noyabrın on səkkizində Səməd bəy Sadıq bəy oğlu və Əli ağa Şıxlinski Nərimanov və Qarayevin xahişi ilə Bakıya – Hərbi Dəniz Xalq Komissarlığına qaytarılır.

1923-cü ildə yazılmış anketində göstərir: «İndiki vaxtdan tapşırıqçı və pul kağızlarının bölgüsü üzrə komissiyanın sədriyəm».

Bildiyimiz kimi, pul isə hər adama etibar edilmirdi. Deməli, təmiz adam olub.

**Əgər Oktyabr inqilabına rəğbət bəsləmişsinizsə, bunun səbəbi nə olub? (Həmin dövrdə sizin etiqadınız?).**

**C a v a b:** - Bu suala ən yaxşı cavab – aprelin iyirmi səkkizində, yəni çevriliş günündə mənim Azərbaycan ordusuna verdiyim əmrdir. Bu əmr və eyni dərəcədə hərbi hissə rəislərinə göndərilmiş teleqramlar Qərargah arxivində qorunur və onlar mənim Sovet hakimiyyətinə münasibətimi müəyyənləşdirə bilər.


РАСПИСКА. 68

1920 года Ноября 5 дня, я нижеподписавшийся даю настоящую подписку Коменданту Московской Бутырской М. Ч. К. тюрьмы в том, что по освобождении меня из под стражи обязуюсь ~~никуда не выезжать и по первому требованию~~ явиться в Окрвоенкомат, без права занимать ответств. должностей.

в чем и расписуюсь. Мехмандаров

Проживать буду: Большая Казен. 5, кв. 5

**Otuz doqquz nömrəli sual:** - Hansı səpgili fəaliyyətə daha çox meyl edirsiniz?

**C a v a b:** - Mənim yaşımda sakit və dinc fəaliyyətə…

Bəli, əsrin əvvəllərindən başlayan müharibələr, inqilab turanları ağsaqqal generalı yormuşdu. Üstəlik də ölkəmizə varvarcasına soxulan istilaçı bolşeviklərin poqonunu daşımaq istəmirdi.

## TƏLATÜMLÜ GÜNLƏRDƏ

«1923-cü ildə ağ saqqallı general Səməd bəy Mehmandarovu əlində süpürgə Bakıda görüblər». Anketdən bu sözləri oxuyanda istər-istəməz adamın ürəyi ağrıyır. Orduda minlərlə əsgərə, zabitə silah tutmağı öyrədən igid bir sərkərdəni bu qədər alçaldan kimlər idi? Şöhrəti Rusiyanın sərhədlərini aşan Port-Artur, Birinci Dünya Müharibəsinin qəhrəmanı ilə ömrünün ağsaqqal çağında belə «ciddi zarafat» edən şəxsdə vicdandan əsər-əlamət vardımı?

1920-ci ildən şahid qalmış bir sənədlə bu sualların cavabını tapmaq olur. Orada oxuyuruq:

«Qızıl Ordu demək olar ki, bütünlüklə döyüş qabiliyyətindən məhrum və daşnak zabitlərinin komandası altında olan erməni könüllülərindən ibarət idi. Bu dəstələr ətraf kəndləri qarət edir, bununla müsəlman kəndlərinin qəzəbinə səbəb olurdular».

- Bax, bu «könüllülər» Bakıya varid olandan sonra cəmi il yarım Azərbaycan Demokratik Respublikasının hərbi naziri olmuş Səməd bəy Mehmandarovu xalqın gözündən salmaq üçün əlinə süpürgə verib küçə süpürtdürmüşlər. Bu «könüllü» düşmənlərimiz yaxşı bilirdilər ki, Səməd bəy Mehmandarovu xalq sevir və inanırdılar ki, onları «azadlıq gətirən könüllülərin» zülmündən məhz Səməd bəy Mehmandarov kimi generallar qurtara bilər. Bu ümidlə də hələ 1919-cu il iyunun altısında Qusar, Quba, Xaçmaz, Dəvəçi əhalisinin keçirdikləri mitinqin qətnaməsində deyilirdi:

«Biz əminik ki, hökumətimiz (Azərbaycan Demokratik Respublikası – Ş.N.) döyüş meydanında özünün son üzvünü itirənədək ona etibar etdiyimiz qadın və qızlarımızı qara generalların əlinə verməyəcək. Nikolayın mənafeyi naminə Port-Artur civarlarında fərqlənmiş şücaətli hərbi nazirimiz Mehmandarov bizim mahalda olduğu vaxt gözündə yaş damlaları süzüldüyü halda, vətən, qadın və qızlarımızın, ana və bacılarımızın namusunun müdafiəsi yolunda canından belə keçməyə hazır olduğunu bildirmişdi».

Lakin işlər elə dəyişdi ki, dünyanın çərxi sanki tərsinə fırlandı. Dindarla din-

sizin müharibəsi başlandı. Bu döyüşlərdə biz çoxlu tələfat verdik. Azərbaycanı içəridən «yeyən» S.Şaumyan, T.Amirov, S.Lalayev, Avakyan kimi daşnaklar quzu cildində qurd olmuşdular. Onların quldur dəstələri gecələr müsəlman evlərinə hücum edir, kəndlilərin silahını əlindən alır, vəhşicəsinə döyürdülər. «Azərbaycan» qəzeti (30 17 mart 1919, №67) yazırdı ki, Qafqaz cəbhəsindən türk orduları geri çəkilərkən Türkiyə erməniləri Qafqaz erməniləri ilə birləşdilər və birlikdə həmin hissələrə qarşı hücuma keçərək, onlara zərbə vurmağa başladılar. Bir tərəfdən Andronikin, digər tərəfdən isə erməni generalları Dro, Keri, Muradın dəstələri hərəkət edirdilər. Tərk edilmiş bütün müsəlman kəndləri qarət olunmuş və yerlə yeksən edilmişdi. Məhz bu vaxt Şaumyanın və Avakyanın fitnəkarlığı sayəsində Şamaxı hadisələri başlandı. Şaumyan tərəfindən bu hadisələrlə əlaqədar yazılmış məktub Gəncə komendantının əlinə düşdü. Bu məktubdan Şaumyan və Avakyanın daşnak olduqları açıq-aydın görünürdü… Bu faciələrin hamısı on səkkiz-on doqquzuncu illərdə olmuşdu. 1920-ci ilin aprelində isə qırx minlik milli Azərbaycan Ordusu yetmiş iki minlik XI Ordunun qarşısında tab gətirə bilmədi. Ona görə ki, otuz minlik piyadası, on min süvari qoşunu olan milli Azərbaycan Ordusu Zəngə¬zurda, Qarabağda, Qazax və başqa qəzalarda daşnak quldurları Hamazaspın və Andronikin dəstələrinə qarşı vuruşurdu.

On birinci ordu ilə Azərbaycana gələn marşal S.A.Krasovski «Jizni v aviasii» kitabının (1960-cı il nəşri) yetmişinci səhifəsində bu barədə yazır: «XI 0rdu hissələri Azərbaycan sərhədinə, Yalama stansiyasına yaxınlaşanda Bakıda müsavat hökumətinin iclası gedirdi. Bu iclasda hərbi nazir general Səməd bəy Mehmandarovdan hökumət başçısı Nəsib bəy Yusifbəyov soruşur: «Müsavat ordusu düşmənin hücumunun qarşısını ala biləcəkmi?» Nazir də sualı sualla qarşıladı: «Hansı düşməni nəzərdə tutursunuz? Daşnakları yaxud menşevikləri? Menşevikləri deyirsinizsə ümid var. Hərgah XI Ordunu nəzərdə tutursunuzsa, onda bizim gücümüz yalnız bir dəqiqəliyə kifayətdir, cənab nazir».

General S.Mehmandarovun «Gücümüz bir dəqiqəliyə kifayətdir» - deməkdə haqlı idi. Yeni gələn bolşevik hökuməti Azərbaycana hücum edən ordusunun sayının 72 min olduğunu elan etmişdi. Lakin 1921-ci ilin fevral ayında məlum olmuşdur ki, Azərbaycana hücum edən bolşevik-daşnak ordusunun sayı 300 min nəfərdir. Bu da o zamankı Azərbaycan əhalisinin hər beş, yaxud altı nəfərindən birinə iki nəfər əlisilahlı rus əsgəri düşürdü. Leninin rəhbərlik etdiyi Sovet imperiyası beynəlxalq hüquq normalarını kobud şəklində pozduğunu başa düşərəkdən Azərbaycana hücum edən ordunun sayını gizlətmişdir.

Şübhəsiz ki, hərbi nazir general Səməd bəy Mehmandarov gələn istilaçı

ordunun sayının 72 min yox, 300 min olduğunu kəşfiyyat vasitəsilə öyrənmişdir.

Sual olunur, hələ sayı 40 minə çatmayan, üstəlik də həmin vaxtlarda Qarabağ, Naxçıvan, Qazax və başqa bölgələrdə erməni-daşnak ordusu ilə döyüşlər aparan Azərbaycan ordusu, həm də 300 minlik istilaçı bolşevik-daşnak ordusu qarşısında tab gətirə bilərdimi? Əlbəttə yox!

«Sovet tərəfinin xahişi ilə xüsusi olaraq Bakıya dəvət olunmuş türk hərbi generalı Xəlil Paşanın (1882 – 1957) da daxil olduğu XI Qızıl Ordu 1920-ci il aprelin 28-də döyüşsüz Bakıya daxil oldu. Xəlil Paşa Dərbənddən bu tərəfə yol boyu bütün dayanacaqlarda çıxış edib əhalini Sovet hakimiyyətini müdafiə etməyə çağırırdı. İstanbul hərbi muzeyində Xəlil Paşanın RSFSR, MİK tərəfindən təltif olunduğu gümüş xəncər saxlanılır» (Z.Bünyadov «Elm və həyat» jurnalı, 1988-ci il, №10).

Bu yaxınlarda Türkiyədə səfərdə olmuş oyma işləri üzrə sənətkar dostumuz Firidun Seyfəddinoğlu 1976-cı ildə İstanbulda çap olunmuş «Azərbaycan» adlı bir kitab da gətirmişdi. Kitabın müəllifi Kərim Odər xalqımızın ədəbiyyatından, tarixindən, iqtisadiyyatından və Azərbaycan Demokratik Hökumətinin fəaliyyətindən məhəbbətlə söhbət açır. Kitab həm də xalqımızın görkəmli oğullarının nadir fotoşəkilləri ilə bəzədilib. Orda Səməd bəyin on səkkiz-iyirminci illərdəki fəaliyyəti haqqında məlumat və bizə məlum olmayan fotoşəkli də verilib. Kərim Odər yazır:

«Cümhuriyyət hökuməti əsgəri işlərə əhəmiyyət vermişdir. Hərbiyyə nəzarətə general Səməd bəy Mehmandarov təyin olunmuşdu. Onun müavini Rus Artilleriyasının Allahı», general-leytenant Əli ağa Şıxlinski, baş qərargah rəisi isə Məmməd bəy Sulkeviç idi. İyirmi dörd min piyada, süvari, topçu və digər siniflərdən ibarət hər cür silahla yaraqlanmış bir ordu qurulmuş və Xəzər dənizində kiçik bir flot hazırlanmışdır. Bakıda, Lənkəranda və Qarabağda milli hökuməti tanımaq istəməyənlərdən acı bir vəziyyət yaranmışdır. Rus və digər düşmən qüvvələri itaət və nizam altına alınmışdır».

İyirminci illərdə general Səməd bəy Mehmandarovun təlatümlü keçən günlərini o vaxtlar on iki yaşı olan oğlu Pir daha yaxşı xatırlayırdı: «Atam aprelin iyirmi yeddisində parlaman iclasından qayıdıb özümüzlə aparmaq üçün anamın hazırladığı çamadanları gördükdə dedi ki, bunları boşalt, heç yerə gedəsi deyilik. Anam: Nə danışırsan? Necə gedəsi deyilik? Bilirsən ki, səni güllələyəcəklər?

Atam cavab verdi ki, parlamanın son iclası qurtaranda «Hümmət» fraksiyası lideri Əliheydər Qarayev mənə yaxınlaşıb əmin etdi ki, Səməd bəy, getmə, qal! Heç yerə getmə. Söz verirəm ki, başınızdan bir dənə də tük əskik olmayacaq. Qal bizimlə işlə…

Anam isə etiraz edib dedi: Ola bilər ki, sənə heç nə eləməzlər, amma oğlunun taleyi, gələcəyi, mənim vəziyyətim?..

Atam qəti səslə: Heç yerə getməyəcəyik, - dedi. Anam inadla: Axı, qatar Biləcəridə gözləyir… Atam: bizsiz də gedərlər. Vətəndən ayrılmağa heç bir əsasım yoxdur, – cabvabını verdi

Doğrudan da Biləcəridə müsavat hökumətinin başçılarını Tiflisə aparacaq qatar atama görə saat yarım gözləmişdi».

Tədqiqatçılar Səməd bəy Mehmandarovun tərcümeyi-halından danışanda iyirmi birinci ildən iyirmi dördüncü ilə kimi olan fəaliyyətindən demək olar ki, sükutla keçirlər. 1920-ci ilin avqustun birindən Səməd bəy Mehmandarov Əli ağa Şıxlinski ilə birlikdə baş qərargahda işləmək üçün Moskvaya göndərilir. Şıxlinski Ali Artilleriya məktəbində gələcəyin marşalı L.A.Qovorova, N.D.Yakovlevə, M.N.Çistyakova, baş artilleriya marşalı N.N.Voronova və başqalarına dərs deyir. Səməd bəy Mehmandarov da Artilleriya Nizamnaməsi hazırlayan komissiyanın tərkibinə daxil edilir, həm də Hərbi Akademiyada taktikadan dərs deyir. İyirmi birinci ilin payızında Azərbaycana qayıdan hər iki general Respublika Hərbi Komissarlığının sərəncamında saxlanılır. Əli ağa Şıxlinski bu barədə daha dəqiq məlumat verir: «İyulun on səkkizində biz ikimiz də Bakıya yola düşüb, iyulun iyirmi ikisində gəlib Bakıya çatdıq. Bakıda biz Azərbaycan Sovet Qoşunları Qərargahına daxil edildik. Bundan başqa hər ikimiz Azərbaycan Komandirlər məktəbində topçuluqdan – Mehmandarov rus, mən isə Azərbaycan dilində dərs deməyə başladıq. Qarnizon rəisi öz sədarəti altında olaraq, «Bakı Qarnizonu Hərbi-Elmi Cəmiyyətinin təşkili haqqında» əmr verdi. Mən sədr müavini təyin edildim. Qarnizon rəisi özü sədrlik etmirdi, adətən iclasları mən aparırdım. Mehmandarov isə bu cəmiyyətin üzvlüyünə təyin edilmişdi».

Bəs iyirmi üçüncü ildə general Səməd bəy Mehmandarovun əlinə süpürgə verib küçə süpürtdürən kimlər idi? Mərkəzdə oturan Stalin əmr vermişdi ki, müsəlman ziyalıları arasında təmizlənmə aparılsın. Bakıda solların mövqeyini möhkəmlədən, Nərimanovun məsləkdaşlarına qarşı mübarizəni gücləndirən AK(b)P Bakı Komitəsinin katibi L.Mirzoyan, S.Orconokidze, A.Mikoyan, A.Qutin onun əlaltıları və içərimizi qurd kimi gəmirən bir qrup keçmiş daşnak havadarları Stalinin əmrini canla-başla yerinə yetirirdilər. Həmin ildə onlar Nərimanovu da Bakıdan perik salmışdılar. Onlar yaxşı bilirdilər ki, Nərimanov general Səməd bəy Mehmandarovu sərkərdə kimi çox yüksək qiymətləndirir.

***Mərhum general-mayor Akim Əli oğlu Abbasov:***

- Mənim bəxtim gətirib ki, üç il məşhur sərkərdə, Rus-yapon və Birinci dünya müharibələrinin qəhrəmanları Mehmandarovun və Şıxlinskinin tələbəsi

olmuşam. Onların mühazirələri o qədər maraqlı olurdu ki, diqqət kəsilirdin, çalışırdın ki, bir sözü də buraxmayasan. Hərb işinə dərindən bələd olmaları heyrətə gətirirdi adamı. Artilleriya və riyaziyyat biz kursantların ən çox sevdiyi fənlər idi. Niyə? Əlbəttə, ona görə ki, bu fənlərdən mülahizələri sevimli müəllimlərimiz general Səməd bəy Mehmandarov və general Əli ağa Şıxlinski oxuyurdu. Onların erudisiyası, hərbi işin, xüsusilə də artilleriyanın nəzəriyyə və praktikasının ən mürəkkəb məsələlərini son dərəcə aydın və hərtərəfli başa salmaq qabiliyyətləri dinləyiciləri heyrətləndirir, vəcdə gətirirdi. Elə bir kursant tapılmazdı ki, döyüşlərdə dəqiq komandir əmrləri, igidliyi ilə hər bir əsgəri və zabiti qəhrəmanlığa ruhlandıran bu şanlı sərkərdələrin həyat və fəaliyyətini dərindən öyrənməsin.

Bu qoca generallar ağlasığmaz dərəcədə zəhmətsevər idilər, özlərinin ağır peşələrini ürəkdən sevirdilər, sadiq idilər sənətlərinə və qibtə ediləcək bir səbrlə hisslərini gələcəyin gənc zabitlərinə aşılamağa çalışırdılar.

## SƏMƏD BƏY MEHMANDAROV CÜMHURIYYƏT DÖVRÜNDƏ

***Ağqvardiyaçı general Denikin 1919-cu ildə sərhədlərimizə yaxınlaşaraq cümhuriyyətimizə hədə-qorxu gəlirdi. Dövlətimiz və xalqımız onların təhdidlərinə əhəmiyyət vermirdi. Bir ziyafət vaxtı general Denikinin təhdidlərindən söhbət açılmışdı. Dövlətmizin, xalqımızın və ordumuzun fikirləri eyni idi: gələcəkləri varsa, görəcəkləri də var. Ziyafətdə onların hamısı müdafiə naziri general Mehmandarlıya qulaq asırdılar. Möhkəm iradəli 63 yaşlı qoca aslan ayağa qalxır. Ətrafına baxıb deyir: «Əziz övladlarım, general Denikinin təhdidlərinin nə mənası var, nə də qiyməti. Denikin məni rus millətindən, çardan və ordusundan yaxşı tanıyır. Və çox yaşı bilir ki, mənim rəhbərlik etdiyim rus ordusu daimi digər rus ordularından üstün olmuşdur. Övladlarım, mən bütün gəncliyimi, gücümü rus ordusuna sərf etdim. Nə xoşbəxt insanam ki, ixtiyar yaşımda millətimin ordusunu yaratmaq mənə nəsib oldu. Qurduğumuz orduya komandanlıq edirəm. Mənim komandanlıq etdiyim orduya qarşı Denikin cəsarət edib vuruşmaz. Narahat olmayın və işinizlə məşğul olun.***

***Nağı bəy ŞEYXZAMANLI,***
***1919-cu ildə Azərbaycan hökumətinin***
***ks-kəşfiyyat idarəsinin rəisi***




**Nağı bəy ŞEYXZAMANLI,**

Qırx altı il çar ordusuna xidmət edən Səməd bəy Mehmandarov 1917-ci ildə martın 28-də tam artilleriya generalı rütbəsində istefa verdi. Onun sonuncu vəzifəsi ikinci Qafqaz ordusuna korpuslar qrupunun komandanı idi. Mütəxəssislərin fikrincə, bu, ordu komandanı vəzifəsinə bərabərdir. Birinci dünya müharibəsində iki ildən çox korpusa komandanlıq edən Səməd bəy o qədər məharətli döyüşlər aparırdı ki, ikinci Qafqaz ordu korpusu «General Mehmandarovun qrupu» kimi şöhrət qazanmışdı. Xüsusilə, Vilno (Vilnyus şəhəri) istiqamətindəki əməliyyatlar onu şöhrətin zirvəsinə qaldırmışdı. On il ərzində (1904-15-ci illərdə) Səməd bəy əla xidmətinə görə üç dəfə general rütbəsi almışdır: 1904-cü il oktyabrın 22-də general-mayor, 1908-ci il iyulun 13-də general-leytenant və 1915-ci il martın 22-də tam artilleriya generalı. Qısa müddətdə generallıq pillərini keçmək və sürətli təltifat hərb aləmində çox nadir hadisədir.

Hərbi akademiya təhsili olmayan eloğlumuzun imperiya ordusunda belə sürətlə irəliləməsinin ilkin səbəbi qoçaqlığı və güclü hərbi-elmi məharəti olmuşdur. Səməd bəy Mehmandarov tam artilleriya generalı kimi ali rütbəyə layiq görülən ilk azərbayanlı idi.

Səməd bəy Mehmandarova məxsus Rusiya Dövlət Hərbi Tarix arxivinin sənədlərində (f.407, s.1, iş 51) göstərilir ki, o, iki dəfə Ali Hərbi Akademiyada təhsil almaq üçün təşəbbüs göstərmişdir. Birinci dəfə 1879-cu il aprelin 16-da Peterburqdakı Mixaylovski Artilleriya Akademiyasına, ikinci dəfə isə 1881-ci il avqustun 1-də Baş Qərargahın Nikolayev Akademiyasına qəbul imtahanı vermişdir. Hər ikisində də qəbul oluna bilməmişdir.

Həmin illərdə şovinist N.İ.İlminskinin (1822-1891) ruslaşdırma siyasəti impreiyada çox güclü idi. Qeyri-rəsmi də olsa ali məktəblərə belə dini müsəlman olanları götürmürdülər. Şübhəsiz ki, Səməd bəy də rus olmadığına görə imtahandan keçməmişdir.

Bu siyasətdə məqsəd Qazan, Orenburq, Ufa tatarlarının, Orta Asiya, Qafqaz türklərinin və Krım tatarlarının yaşadıqları quberniyalara təbliğatçılar göndərib ruslaşdırmanı təbliğ edirdilər. Xristiyanlığı yaymaq yalnız hərbi sahədə deyil, maarifçilikdə də aparılmasına baxmayaraq İlminskinin üsulu – yəni müsəlmanları xaçpərəst eləmək fayda vermədi.

Görkəmli ədəbiyyatşünas-alim Firudun bəy Köçərli yazır ki, doğrudur Qazan şəhərində və onun həvalisində tatarlardan bəziləri pravoslaviya dinini qəbul elədilər. Amma onlar həqiqi müsəlman olmadıqlar kimi, həqiqi rus da olmadılar, əbədi mürtəd oldular, böyük səhvlərə düçar qıldılar.

Xalis zadəgan ailəsində Azərbaycan tərbiyəsi almış Səməd bəy Mehmandarov cavan olmasına baxmayaraq ali təhsil almaq naminə nə dinini, nə də dilini xaçpərəstə dəyişmədi.

Bunların hamısı general Səməd bəyin fevral burjua inqilabına qədərki fəaliyyətidir. İmperiya dağılandan sonra Vladiqafqaz şəhərinə gələn Mehmandarov 1917-ci il avqustun 7-də yaralılara yardım edən «Aleksandr komitəsi»nin üzvü seçilir. Ömründə ilk dəfə hərbi ximdətə son qoyub dinc həyat sürməyə başlayır. Cəmi bir neçə ay sakit yaşayan Səməd bəy 1918-ci il avqustun əvvəlində Vladiqafqazı tərk etməli olur. Şimali Qafqazda Sovet Hakimiyyəti quran bolşeviklərlə işləməkdən imtina edən Səməd bəy Mehmandarov hərbi Gürcüstan yolu ilə Bakıya gəlir.

1918-ci il noyabrın 1-də Azərbaycan hökuməti Hərbi Nazirliyin yaradılması haqqında qərar verir: «Respublika hökuməti yanında Hərbi Nazirlik təsis edilsin. Nazir portfeli Nazirlər Şurasının sədri Fətəlixan Xoyskiyə təqdim edilsin. Ona müavin isə general Səməd bəy Sadıq bəy oğlu Mehmandarov təyin edilsin.

Milli ordu quruculuğunda əsas vəzifə və çətinliklər barədə general Səməd bəy Mehmandarov həmin il noyabrın 7-də bir saylı əmrini verir:

«Azərbayacan Respublikası Nazirlər Şurasının qərarı ilə mən Hərbi Nazirin müavini edilmişəm. Bu barədə Hərbi Nazirliyə elan edirəm. Vəzifələrimin icrasına başlayarkən mənim görməli olduğum o böyük işin bütün ciddiliyini, mürəkkəbliyini və çətinliyini yaxşı anlayıram. Ancaq bu iş görülməlidir və Hərbi Nazirliyin qarşısına çıxan bütün çətinlikləri birgə fəaliyyət və vəzifəyə təmiz münasibət bəslənildiyi halda aradan qaldırmaq mümkündür.

Döyüşən ordunun yaradılmasının uğuru bütünlükdə bu işin düzgün qurulmasından asılıdır. Hamını birgə, səmimi fəaliyyətə dəvət etməklə mən bütün səviyyələrdə olan rəislərin əsas diqqətini qoşunlarda təlim və tərbiyəyə, onlarda möhkəm intizamın aşılanmasına, işə məsuliyyət və məhəbbət hisslərinin, xidməti mülkiyyətə marağın oyadılmasına, qayda-qanuna riayət

edilməsinə və nəhayət, tabeçilikdə olanlara qayğıkeş və mehriban münasibət göstərilməsinə çağırıram.

Yalnız bu keyfiyytlərin varlığı ordunun yaradılmasını, gənc respublika tərəfindən ona böyük xərclər çəkilməsini doğrulda bilər və belə bir ordunun yaradılması üçün mən heç bir çətinlikdən çəkinməyəcəyəm. Qoşunların bütün təminat və təchizatının vaxtında ödənilməsi mənim daimi diqqətim altında olacaqdır».

***1918-ci il dekabrın 25-də Azərbaycan Demokratik hökumətinin qərarı ilə tam artilleriya generalı – Səməd bəy Mehmandarov Hərbi nazir, dekabrın 29-da isə general-leytenant Əli ağa Şıxlinski Hərbi nazirin müavini təyin edildi. Həmin ili dekarbın 24-də nazir hərbi salamlaşma barəsində belə bir əmr verir:***

«Sırada, eləcə də sıradan kənarda olarkən əsgərlərin azərbayanca salamlaşması – bir sözlə «Salam», cavabı isə «Əleyküm salam» olmasını bütün zabitlərə əmr edirəm.

Təltif zamanı əsgərə deyilməlidir: «Mərhaba!», əsgər cavab verməlidir: «Çox sağ ol!».

***Hərbi nazir, tam artilleriya generalı***<br>***Səməd bəy Mehmandarov.***<br>***Baş qərargah rəisi***<br>***polkovnik Həbib bəy. Səlimov».***

* * *

Görkəmli sərkərdəmizin Azərbaycana gəlişini, dar gündə xalqın dayağı olmasını əsgərlər böyük sevinclə qarşılamışdır. İl yarım fəaliyyətdə olan Milli ordumuzda iyirmi bir azərbaycanlı general xidmət etmişdir. Onlardan yalnız ikisinə – Teymur bəy Novruzova və Səməd vəy Mehmandarova əsgərlər şərqi qoşmuşlar:

***Qafqaziyaya şan gəlir,***<br>***Dərdlərə dərman gəlir.***<br>***Aç köksünü, qarlı Qafqaz,***<br>***Sevdiyin Səməd gəlir.***

***Çoxdan bəri gözlədik,***<br>***Qafqaziyanı əhv et yaşa.***<br>***Onun sizə salamı var,***<br>***Minlər yaşa, Səməd paşa.***

***Aslan ürəkli Səməd paşamız,***
***Şanlı komandan, sənsən babamız.***
***Sənə qurban olsun ata-anamız***
***Al bir düşməndən türkün qanını.***

* * *

Yetmiş il əl vurmadığımız üzümüzə «tamamilə məxfidir» qrifilə bağlanan Respublika Yeni Tarix Mərkəzi Dövlət arxivində generalımız haqqında belə şərqilər çoxdur. Bu şərqilərdən hiss olunur ki, xalq öz xilaskarını gözləyirmiş.

***Səməd paşa sərdarımız,***
***Qan axıdar xəncərimiz.***
***Düşmənləri qəhr edərik,***
***Yurdlarını məhv edərik,***
***Biz bir tabor əsgərlərik,***
***Pək şanlıyıq.***

* * *

***Sağ ol Səməd paşa, səni min yaşa,***
***Vətənin üstündə oldun tamaşa.***
***Səməd paşa əsgərlərin padəri,***
***Çağırır silah başına irəli.***

Azərbaycanın taleyi həll olunduğu bir vaxtda müdafiə naziri kimi məsul vəzifəyə gələn Səməd bəy Mehmandarov qarşıda duran çətinlikləri çox yaxşı dərk edirdi. Yüz illərlə əsgəri qüvvəsi olmayan bir xalqa qısa vaxtda nizami ordu yaratmaq ağır və məsuliyyətli iş idi. Bir tərəfdən də bu dar gündə Azərbaycanın ətrafı düşmənlərlə əhatə olunmuşdu. Dağılan imperiyadan Azərbaycana heç nə qalmamışdı. Nə silah, nə əsgəri qüvvə, nə də qışlalar vardı. Tərəddüd, şübhələr, bəzən də inamsızlıq altımış iki yaşlı ixtiyar generala əzab verirdi. Amma qəlbindəki inamı, güclü vətənpərvərliyi hər şeydən üstün idi. Bu inam güclü dağ seli olub tərəddüd və şübhələri yuyub aparırdı. Ana vətənə olan sonsuz bir məhəbbətlə o, kürsüyə qalxmışdı.

Səməd bəyin səlis danışığı, mərd siması, vətən təəssübkeşliyi ilə yana-yana danışması ziyalı qadınlarımızdan birinin – Məryam xanım Bayraməlibəyovanın yaddaşında əbədi qalmışdır:



- Kürsüdə, gözqamaşdıcı şüaların düşdüyü yerdə general Səməd bəy Mehmandarov dayanmışdı. Ağarmış saçları, nurani sifəti daxili kamillikdən xəbər verirdi. Bu gün o, hərbi nazir vəzifəsinə təyin edilməyinə razılıq verməli idi. Respublikanın fəaliyyətinin elə ilk günlərindən generala təkidlə müraciət etmişdilər ki, belə bir məsuliyyətli vəzifəni öz üzərinə götürsün. O isə hər dəfə qətiyyətlə bu təklifi rədd etmişdi. Ona görə yox ki, çətinlik çəkəcəkdi. Dərk edirdi ki, indiyə qədər çarın etibarsız saydığı müsəlmanları, hərbi mükəlləfiyyətə layiq görmədiyi xalqı indi yeni sənətə hazırlamalı idi. Bu ona bənzəyirdi ki, yaşlı, ahıl bir adama yazı yazmağı öyrədəsən. Yox, yox, yüksək təşkilatçılıq keyfiyyətinə malik olan keçmiş çar generalını belə çətinliklər qorxuda bilməzdi.

…Səməd bəy Mehmandarovu bu addımı atmağa vadar edən isə qarşısı alınmaz, çox qüvvətli bir hiss idi – Vətən məhəbbəti. Azca həyəcanla dediyi – «Üzərimə götürdüyüm bu müqqədəs vəzifəni yerinə yetirməyim üçün bütün gücümü və bacarığımı sərf edəcəyəm!» - sözləri yerdən alqışlarla qarşılandı. Onun yan yörəsində parlıdayan günəş şəfəqləri bu günün bayram əhval–ruhiyyəsini daha da artırırdı. «Generalın bu müdrüklüyü təzimə layiqdir. Allah özü onu bizə xilaskar yollayıb», - deyə hörmət əlaməti olaraq başımı endirdim.

* * *

Tapılan hər bir sənəd, fotoşəkil yenidən yazılacaq Azərbaycan tarixinin sanballı səhifəsi olacaq. Xüsusilə, hərbi tariximizdəki boşluğun doldurulması suveren dövlətmizin özülünü qoyan gənclərmizdə daha çox maraq doğurur. Çünki bu sahə uzun illər araşdırılmamış, «tamamilə məxfi» qalmış və hətta lazımsız bir tarix kimi öyrənilməmişdir. Öyrənilən və öyrədilən isə yalnız «böyük qardaşımızla», bir də nankor qonşumuzla «dostluq səhiflərimiz» olub.

Yetmiş il əl vurmadığımız 1918-20-ci illərin arxiv qovluqları açıldıqca bizə məlum olur ki, il yarım fəaliyyətdə olan Milli Ordu tariximiz çox zəngin olmuşdur. O da məlum olur ki, hərb tariximizi zənginləşdirən general Səməd

bəy Mehmandarov, Əli ağa Şıxlinski, Həbib bəy Səlimov, Məmməd bəy Sulkeviç, Şahzadə Əmir Kazımxan Qacar, topoqraf-general İbrahim ağa Vəkilov… bir də Azərbaycanın əsgər və zabitləri idilər.

Şöhrətli generalımız Səməd bəy Mehmandarovun bu illərdəki (1918-20) fəaliyyəti xüsusilə böyükdür. Onun yeni ordunun yaradılmasındakı müstəsna rolu, 1918-ci il dekabrın 25-də Azərbaycan xalqına müraciəti, əsgər, zabitlər qarşısında ata nəsihətli çıxışları və nəhayət, güclü Vətən təəssübkeşliyi qırx minə yaxın əsgəri olan nizami ordu yaratmağa səbəb oldu.

Həyatı və fəaliyyəti hələ də lazımınca tədqiq olunmamış general Mehmandarovun haqqında araşdırmalar apardıqca təkcə o illərin sənədlərində yox, qəzetlərin də səhifələrində çıxış və nitqlərinə rast gəlmək olar.

İlk hərbiyyə nazirimiz Səməd bəy Mehmandarov belə bir nitqlərdən birini 1919-cü il fevralın 25-də Azərbaycan Məclisi-Məbusanında da söyləmişdir. Generalın nitqi həmin il martın 7-də «Azərbaycan» qəzetində (131-ci nömrəsində) dərc olunmuşdur.

Səməd bəy öz nitqində bugünkü ordumuzda da mənfi hal kimi qəbul edilən fərarilikdən söhbət açır və o vaxtlar orduda onun olmasını xüsusi qeyd edir: «… Gəncədə son zamanlar bir adam qaçmışdır. Əhali özü qaçanlara nifrət edir və hətta çox vaxt olmuşdur ki, əsgərlikdən qaçanı döyüb geri gətirmişlərdir. Güman var ki, müsəlmanlarda olan fitri nizam və ədəbə görə vaxtilə heç kəs qaçmayacaqdır».

Ümumi məzmunu vətənpərvəlik ruhi ilə dolu olan Səməd bəy Mehmandarovun nitqi bugünkü ağrı-acılarmızla tam səsləşir:

«Cəbhədə bulunmuş bütün zabitan ordu tərəfindən onlara verilmiş əşya, yer və başqa ləvazimati hərbiyə deyil, kəndi əşyalarını dəxi tamamən qeyb etmişlər. Bu qism şeyləri yenidən düzəltmək üçün bir manatlıq nəsnəyə 30-dan 100 manata qədər pul verilməlidir».

Parlamentdə mülahizələrini sərt şəkildə bildirən nazir bahalığın tüğyan etdiyi ölkədə ordu quruculuğuna mane olanları cəzalandırmağı tələb edir. Axı, əlli ilə yaxın nizami orduya qulluq edən Mehmandarov heç vaxt görməmişdi ki, zabit əsgərin yeməyini, paltar və silahını satıb cib xərcliyi eləsin. İliyinə qədər təmiz adam olan Səməd bəy indi gördüklərinə heyrət edir və dəhşətə gəlirdi. O, zabit adını, zabit şərəfini qorumağı hər şeydən üstün tuturdu. Ona görə də Məclisi-Məbusandakı nitqində xüsusi vurğuyla qeyd edilir ki, əsgəri təlim və ölümə kimi varmağa hazırlıq tərbiyəsi üçün dəvət olunmuş zabitan əsgər nəzərində sahibi-nüfuz və şərəf olmalıdır. Bunun üçün zabitan yalnız mərifət çəhətincə deyil, zahiri dəxi əsgərə hüsni-təsir bəxş olmalıdır. Onun geyiminin daimi təmiz və faxir olması vacibdir.

Səməd bəy Mehmandarov Azərbaycana müharibə şəraitində gəlmişdi. Hələ imperiya dağılmamış ölkədə anarxiya, başıpozuluq hökm sürürdü. Ayrı-ayrı qəzalarda qaçaq-quldur dəstələri yaranmışdı. Bakıda bolşevizm hökmranlıq iddiasında idi. İrandan və Qafqaz cəbhəsindən qayıdan rus əsgərləri, erməni-daşnak dəstələri ilə birləşib «Şura bayrağı» altında təkcə Bakıda on iki min nəfərə yaxın azərbaycanlını qanına qəltan eləmişdi.

Bu talan və qırğınlar yalnız Bakıda deyil, Quba, Şamaxı, Gəncə, Qarabağ, Muğan bölgələrində də olmuşdu. İrəvan və Zəngəzurda dağılan kəndlərin, öldürülən soydaşlarımızın sayı yüz mini keçmişdi.

Azərbaycan hökumətini tanımaq istəməyən əldəqayırma Muğan respublikası, ingilis qoşunlarının gəlişi, ağqvardiyaçı general Denikin təhlükəsi, müxtəlif siyasi «Hümmət», bitərəf sosialist, daşnak partiyaları, parfelsiz nazirlər elə hey çoxalırdı. Sərhəd bölgələrində erməni hücumları, məhəlli toqquşmaları yeni yaranan orduya dirçəlməyə imkan vermirdi. Belə şəraitdə hərb naziri və onun tabeliyində olanlar gərgin işləməli olurdu. Əsgəri qışlaları gəzib yoxlayan Səməd bəy Mehmandarov hələ ki, könülaçan heç nə görmürdü. Nə nizam-intizam, nə geyim və silahlanma nə də hərbi hazırlıq peşəkar hərbiçi olan naziri qane etmirdi.

Parlamentdə «Türklər külli miqdarda ərzaq şeyləri qoyub getmişlərdir. Onlardan külli miqdarda taxıl, heyvan və s. məkulat qalmışdır» - deyən hərb naziri din və dil qardaşımızın xeyirxahlığı ilə yanaşı qüsurlarını da söyləməkdən çəkinməmişdir.

«Əlbəttə, heç kəs inkar etməz ki, türklər bizim millətimizə nicat verməklə bizə böyük xidmət etmişlərdir. Amma burası onların hərəkətini tənqid etməyimizə də mane olmaz. Hərbiyyə nəzarəti Gəncəyə köçənədək bizə xəbər verdilər ki, əsgəri işlərmiz yaxşıdır və çoxlu yığılır, lazım olan kimi məşq verilir və ilaxır. Hər yeri gəzdim, qətaəti-əsgəriyyəmizə baxdım. Fəqət iş heç də yaxşı deyildi. Əsgərlərimiz əzgin, düşgün bir halda, yeməkləri pis, mənzilləri fəna bir halda, yorğan-döşək yox, onların çoxu xəstə idi. Xəstə əsgərlərin həpsini sağlamları ilə dəyişməyə məcbur olduq. Qoşun yığmaq işləri yaxşı getmirdi. Rəislər və moqif komandaları öz vəzifələrindən sui istifadə edirlərdi. Çox bir külfətin yeganə çörək gətirəni əsgərə alırdılar. Bu iş də camaatı narazı salıb, qoşun yığmaqdan nifrətləndirirdi. Nuru paşa Azərbaycandan gedərkən özü mənim yanıma gəldikdə boynuna aldı ki, əsgərlik barəsində Azərbaycan fəna bir halda qoyulmuşdur».

1918-ci il dekabrın 25-də Azərbaycan Respublikasının hərbi naziri general Səməd bəy Mehmandarov öz xalqına yanıqlı bəyanətlə müraciət etmişdir.

Bəyanatın əsas mövzusu o vaxtlar milli orduda yaranan hərcmərclik və özbaşınalıq idi. Həmin illərdə nazir Səməd bəy Mehmandarovun müavinləri Əli ağa Şıxlinski, Məmməd bəy Sulkeviç və Həbib bəy Səlimov, İbrahim ağa Vəkilov kimi məşhur generallar olsalar da, yenə də orduda fərarilik və xoşagəlməz hallar baş verirdi. Lakin onlar zəngin hərbi təcrübələrinin, biliklərinin və əsil hərbçi dəyanətlərinin sayəsində tam nizami ordu yaratmağa nail olmuşlar.

Zaman, dövr dəyişib. Səksən beş ildən sonra tarix təkrar olunur. O vaxtkı ümumi vəziyyət bu gün yeni yaranan ordumuzda qismən də olsa var: bəzi nadanların fərariliyi və min bir bəhanə ilə Vətənin müdafiəsindən yayınmaq…

Bəs o vaxtkı məşhur sərkərdələrimiz, xüsusilə nazir Səməd bəy Mehmandarov fərariliyin qarşısını necə almışdır? Məhz tələbkarlığı və sərt bəyanatı ilə 1918-ci ildə Səməd bəy Mehmandarov orduda yaranan çatışmazlığın qarşısına keçilməz bir sədd çəkmişdir.

Xalqımızın dar günündə hərbi nazir Səməd bəy Mehmanadrovun on səkkizinci ildə yazdığı «Azərbaycan vətəndaşları» adları müraciəti bu günümüzlə tam səsələşir. Onu da xatırladım ki, aşkarlığın işığı ilə açılan «tamamilə məxfidir» qrifli sənəd oxuculara ilk dəfə təqdim olunur. Bu maraqlı əlyazmasını Respublika Yeni Tarix Mərkəzi Dövlət Arxivində araşdırmalar aparарkən əldə etdik.

«Cari ilin yazından etibarən Azərbaycan müstəqil dövlət oldu. Bu müddət ərzində cəmi hökumət adamlarının bütün səyləri ölkədə anarxiyanın qarşısını almaq oldu və qanunçuluq pozulan yerlərdə onun bərpasına yönəldilmişdir. Bu məqsədə nail olmaqdan ötürü hökumətin başqa tədbirlərinin arasında özümüzə məxsus hərbi qüvvələrin yaradılması, yəni Azərbaycan qoşunlarının təşkili haqqında qərar qəbul olunmuşdur

…Hal-hazırda qoşunlarımızın təşkilini öz öhdəmə götürmüşəm.

İndi ölkəmizin bütün vətəndaşları, istər kasıb, istər dövlətli, eyni şəkildə hərbi qulluğu çəkəcəklər. Və əgər haçansa, kimsə dövlətliləri hərbi qulluqdan azad etsə gunahkarlar ağır cəzalanacaqlar.

Hərbi hissələrdə əsgərlər yaxşı geyinəcək, onların ərzaqlarının keyfiyyətcə yaxşı olmasına xüsusi fikir verib, bu barədə ciddi elan etmişəm. Göstəriş verilib ki, otaqlar təmir olunsun, qızdırılsın, bütün əsgərlərin fərdi yorğan-döşəyi olacaqdır.

Mən tədbir görmüşəm ki, əsgərlərə qarşı bütün qeyri-qanuni hərəkətlər ciddi töhmətlənsin və xüsüsi ilə əsgərlərin döyülməsi halları ciddi cəzalandırılsın.

…Bütün bu tədbirləri həyata keçirib, üzümü ilk növbədə sizə, hərbi hissələri

tərk etmiş Azərbaycan vətəndaşlarına tuturam və bəyan edirəm ki, sizin böyük xətanızı, əsgərlikdən qaçmağınızı bağışlayıb öz hissələrinizə köhnə təqvimlə yanvar ayının birindən gec olmayaraq qayıtmağa çağırıram. Lakin, əlavə edirəm ki, bu müddət üçün kim öz bölüyünə qayıtmasa o hərbi dövrün qanunlarına görə ağır cəza alacaq.

Bundan sonra, ölkəmizin bütün əhalisinə əziz Vətənimiz adından müraciət edərək xahiş edirəm ki, gözəl Vətənimiz Azərbaycan eşqinə, yüksək vətənpərvərlik hissimiz naminə mənə bizim qoşunumuzun təşkili işində yardım göstərəsiniz, bu qoşun bizə ölkəmizdə qanunçuluğu qorumaqdan ötrü vacibdir və yenə də xahiş edirəm ki, bütün o şəxslər ki, çağırış yaşları çatıb, əsgərlik etməlidirlər. Torpaqlarımızı qorumaq üçün özlərini çatdırsınlar. Qoy Vətən qarşısında borcunu unudan hər kəs Vətən qarşısında böyük günah işlətdiyi üçün qohum-qardaş qınağı altına düşsün və əlbəttə, qanun üzrə cəzalandırılsın.

Mənim bu bəyanatım ölkənin hər yerində yayılacaq və qoy savadlılar onu oxuyub mənasını savadsızlara çatdırsınlar».

## SƏNƏDLƏRİN İZİLƏ

***Yalnız azərbaycanlılırdan təşkil olunmuş hərbi qüvvələrimiz, dünya tarixinə yazılmış və bütün Avropa xalqlarının bizə nisbətən daha çox bildikləri, danışdıqları qəhrəmanlıqlardan ibarət şanlı hərb tariximizi bilməlidir. Yüz illik rus hakimiyyətindən azad olmuş türk xalqına xatırlatmaq lazımdır ki, biz həmişə boyunduruq altında olmamışıq. Hətta Avropa və Asiyaya öz tələblərimizi etmişik.***

***...Belə zənn edirəm ki, türk tarixini yaxşı bilən kiməsə, bu günkü mühüm hadisələr də daxil olmaqla bizim xalqın tarixinə dair əsər yazmağı tapşırmaq lazımdır .Bu əsərdə xalqımızın keçmiş şöhrəti və yad hakimiyyəti dövründəki əzabları güzgüdə olduğu kimi öz əksini tapmalıdır.***

***Səməd bəy Mehmandarov,***
***2 aprel 1919-cu il***

İndiyənədək arxivdə generalın imzaladığı yüzlərlə sənədə, raporta və müraciətə rast gəlmişəm. Onların hamısı makinada yazılıb, ya da mətbəədə nəşr olunub. Yalnız bu yaxınlarda əlyazması olan bir sənəd tapdım. O, hərb naziri Mehmandarovun öz dəst-xəttilə Azərbaycan hökumətinin ünvanına yazılıb. 1919-cu il aprelin ikisində yazılan iki səhifəlik məruzə mənim üçün qeyri adi tapıntı oldu. Nə gizlədim, bu tapıntıma hədsiz dərəcədə sevindim. Ona görə

sevindim ki, müharibə aparan ölkənin generalının xalqının hərb tarixini yazdırmaq təşəbbüsünü vətənpərvərliyin zirvəsi kimi qiymətlən-dirdim.

Yuxarıda epiqraf kimi istifadə etdiyimiz cümlələr də həmin məruzədəndir. Belə tarixi sənədlərdən bixəbər olduğumuza görə bəzi «sapı özümüzdən» olan nadanlar keçmiş sərkərdələrimiz barədə artıq-əskik danışırlar. Onlar hətta «hücuma» keçərək yazırlar ki, niyə Mehmandarovun, Şıxlinskinin və başqa sərkərdələrimizin Napoleon, Kutuzov, Suvorov kimi müdrik fikirləri, hərbi elmi əsərləri qalmayıb. Bir sözlə, özümüzünkülərə qeyri-vətənpərvər damğası vururlar. Onda belələrinə cavab vermək çox ağır və əzablı olur. Bu müasir «vətənpərvərlərə » başa salmaq lazımdır ki, totalitar rejim yetmiş ildən çoxdu onların 1918-20-ci illərdək fəaliyyətinə «tamamilə məxfidir» möhürünü vurub. İndi, budur, aşkarlığın sayəsində səkəsn beş ildən sonra belələrinə Səməd bəy Mehmandarovun yazdığı tarixi sənəd cavab verir:

«Düşmənə qarşı mübarizə tədbirlərindən biri də xalq içərisində sağlam milli hisslərin yaradılmasıdır. Bu vəziyyət Azərbaycan Respublikasının yaranmaqda olan gənc ordusu üçün xüsusilə zəruridir. Yuxudan yenicə oyanmış xalqda sağlam, milli hiss oyatmalıyıq. Biz müsəlmanlar ancaq indi şüurlu həyat və milli yaradıcılıq dövrünə ayaq basmışıq… Xalq arasında türk irsinin milli hisslərini və vüqarını qaldırmaq üçün xalqı, qoşunlarımızı onun tarixi keçimşi ilə tanış etməliyik.

Yazılacaq məşhur tarixi əsərlər xalq içərisində və qoşunlarda geniş yayılmalı, hər bir kənd müəllimi və hər bir azərbaycənlı zabiti ondan istifadə etməlidir.

Gələcəkdə hökumətin köməkliyi ilə türk xalqının dahi xadim və rəhbərləri üçün müvafiq abidələr qoymaqla, onların xatirələri əbədiləşdirilməlidir ».

Zənnimizcə, general Səməd bəy Mehmandarov belə sağlam, milli düşüncəsi ilə heç bir publisistdən geri qalmır. Sənətini, dövrünü nəzərə alsaq, bəlkə də o, müasiri olan ən yaxşı yazıçı-publisisti bir neçə addım ötüb keçir.

Azərbaycan Dövlət Arxivində saxlanılan iki nömrəli qovluqda general Səməd bəy Mehmandarovun daha bir vətənpərvərliyinin, milli qürurunun şahidi oluruq. Orada yazılır ki, 1918-ci ildə ingilis qoşunlarının Azərbaycanda öz ərazilərində olduqları kimi etinasız ağalığı hərb naziri Səməd bəy Mehmandarovu qəzəbləndirmişdir. Nazir onların istilaçı hərəkətlərinə etiraz əlaməti olaraq, vaxtilə (Birinci dünya müharibəsi illərində – Ş.N.) ingilis komandanlığı tərəfindən təltif olunmuş ordenləri geri qaytararaq qəzəblə demişdir:

-Torpağımı, xalqımı fəth edən ikiüzlü bir ölkənin ordeni mənə lazım deyil. Xalqıma silah qaldıran bir ordunun ordenini gəzdirmək mənim üçün ən böyük təhqirdir.

Azərbaycandan çıxan ingilis qoşunlarının komandanı general Tomson şayiələr yayırdı ki, Azərbaycan bundan sonra özünü idarə edə bilməyəcək.

Azərbaycan ordusu yox dərəcəsindədir. Orada qayda-qanun da yoxdur. Guya Azərbaycanı yağılardan qoruyan, onu idarə edən Tomsonun min ingilis və səkkiz yüz nəfərlik balağıaçıq hind əsgəri olmuşdur. Bu şayiələrdən sonra Azərbaycanda olan ingilis hərbi jurnalisti Skotlend-Liddel İngiltərə qəzetləri üçün hazırladığı xəbərlərdə yazırdı ki, Transqafqaz şayiələr ocağıdır. Burada şayiələr külək təpələr arasında yayılan kimi yayılır. Bir çox şayiələr Moskvada quraşdırılır və dövriyyəyə buraxılır. Bakıda ingilis ordusuna ehtiyac yoxdur. Azərbaycan özü-özünə qayğı göstərə bilər. Mən bura iki gün əvvəl gəlmişəm və açığını deyim ki, bütün gördüklərim məndə dərin təəssürat yaradıb. Mənim şəhərdə olmadığım dörd həftə ərzində burada çox təəccüblü dəyişikliklər olub. Mən buraya gəldim ki, hamının mənə dediyi qarışıqlığı görüm, lakin onu tapa bilmədim. Tam qayda-qanun var. Mənə dedilər ki, mən ordu əvəzinə pozğunlaşmış kütlə görəcəyəm, lakin mən yaxşı, nümunəvi, güclü, odlu-alovlu gənclər gördüm. Doğrudan da mən indi Bakıda elə qayda-qanun gördüm ki, müharibə başlayan vaxtdan bu günədək Bakıda olmamışdım… Qayda-qanun ancaq Bakıda hökm sürmür, son dəyişikliklər bütün respublikada vəziyyəti aydınlaşdırmışdır. Qarabağ şuluqluğunu sülh əvəz etmişdir. Ermənilər və azərbaycanlılar sazişə gəlmişlər. Lənkəranda bolşeviklər Azərbaycan ordusu tərəfindən məğlubiyyətə uğradıldılar. Onlar bütün silah və sursatlarını Azərbaycan hökumətinə təhvil verdilər, adamlar isə xahiş etdilər ki, onları Azərbaycan hökumətinin tabeliyinə götürsünlər… Bütün bunlar şübhəsiz sübut edir ki, Azərbaycan qarmaqarışıqlıqdan qorxmur və bolşeviklərdən çəkinmir. Azərbaycan dövləti indi Transqafqazın bütün qalan xalqları üçün nümunəyə çevrilmişdir .

İngilis hərbi jurnalisti Skotlend-Liddelin Azərbaycan ordusunun ünvanına dediyi xoş məramlı sözlərə görə xalqımız ilk növbədə iki görkəmli sərkərdəmizə, 1918-ci ildə ordumuzun təməl daşını qoyan Əli ağa Şıxlinskiyə və Səməd bəy Mehmandarova borcludur. Nizami və döyüşən ordu yaradan hər iki sərkərdə ilk hərbi nümayişin keçirilməsini, hərbi məktəblərin açılmasını, hərbi geyim formasının təşkilini və başqa gərəkli işləri həyata keçiriblər. İl yarım fəaliyyətdə olan Azərbaycan ordusu Lənkəranda bolşeviklərin üsyanını yatırdıb. Zəngəzurda, Əskəranda erməniləri məğlubiyyətə uğradıblar.

1919-cu ilin sonlarında Azərbaycan Respublikası üçün üç təhlükə vardı: şimaldan ağqvardiyaçı general Denikin, Zəngəzur və Qarabağdan daşnak erməniləri, ordunun daxilində isə bolşevik təbliğatı. Bu təhlükənin ikisinin

qarşısını hərbçi dəyanəti ilə alan nazir Səməd bəy Mehmandarovu ən çox narahat edən «bolşevik» xəstəliyi idi. Qırmızı bolşeviklərin təblitatı orduda olduğu kimi fəhlə-kəndli arasında da yayılmışdı. Bu təsir az da olsa əsgər və zabitlərə də keçmişdi. Ona görə də nazir Səməd bəy Mehmandarov əsgərlərlə görüşəndə təkrar-təkrar deyərdi ki, qoşun torpağımızı yağılardan qorumaqdan ötrü vacibdir. Qoşunun əsgəri siyasətlə maraqlanmalı, beynəlxalq aləmdə nələr baş verdiyindən hali olmalıdır. Amma nə zabit, nə də əsgər heç bir partiyanın, ya da cəmiyyətin qulu olmamalıdır.

Səməd bəy Mehmandarovun Cümhuriyyət dövründə Hərbiyə naziri vəzifəsini şərəflə daşımasını dahi bəstəkar publisist, dramaturq Üzeyir bəy Hacıbəyli 1919-cu il aprelin 16-da yazdığı «Yeni Kabinə» adlı məqaləsində yüksək qiymətləndirmişdir. O yazır: «… Hərbiyə işlərimizi öhdəsinə götürmüş olan general Səməd bəy həzrətlərinin dövlətimizin istinadgahı olan ordumuzun təşkil və tənzimi ilə camaat arasında layiqli şöhrət qazanmış olan, adını xüsusi surətdə zikr etməyi özümüzə caiz bilirik».

1919-cu il martın 28-də isə Üzeyir bəy «Ordumuz» məqaləsində general Səməd bəyin sərkərdəlik fəaliyyətinə daha yüksək qiymət verərək yazır ki, ordu görməmiş, rəsmi əsgərliyə adət etməmiş millətimiz içində, həm də qat-qarışıq zamanda nizami ordu yaratmaq işini öhdəsinə götürmüş Səməd bəy Mehmandarovun sahibi-qüdrət və maliki-qüvvət, güclü təşkilatçı bir şəxsiyyət olduğunun şahidi olduq.

Üzeyir bəy, Səməd bəyin Gəncədə Novruz bayramı münasibətilə keçirdiyi Azərbaycan ordusunun rəsmi keçidini gördükdən sonra nizami ordunun varlığına inanır və bu istedadlı sərkərdəyə dərin inam bəsləyirdi. Üzeyir bəy: «Səməd bəy Mehmandarovu kargün (işçil adam) bacarıq sahibi kimi əsl sərkərdə - deyə qiymətləndirir».

## Bolşevizmə qarşı mübarizədə

***Hökumətin fəaliyyətinin əsasında Azərbaycanın müstəqilliyi durur və mən şübhə etmirəm ki, bolşeviklərin dağıdıcı cəhdlərinə qarşı zəruri tədbirlər görüləcəkdir. Mən öz tərəfimdən bolşeviklərin Bakı qarnizonu qoşunlarına partlayıcı təsirindən ehtiyat edirəm. Belə ki, Bakı indi Zaqafqaziya bolşeviklərinin fəaliyyət mərkəzi hesab edilir.***

***General Səməd bəy Mehmandarovun Nazirlər Kabinetinin sədrinə 1919-cu il 21 aprel tarixli raportundan.***

Rotmistr İlyas Əliqulu oğlu Şahtaxtinskinin 29 iyun 1920-ci ildə bolşeviklərə verdiyi istintaqın protokolundan:

«- … Hərbiyyə naziri Səməd bəy Mehmandarova gəldikdə deyə bilərəm ki, o da bolşeviklərə və Sovet hakimiyyətinə düşmən kimi münasibət bəsləyirdi. Ona görə belə deyirəm ki, o, bolşevikləri həbs etdirərdi. Məsələn, Babayev Cəfəri göstərə bilərəm, onu Mehmandarovun şəxsi əmrinə əsasən təkadamlıq kamerada gündəlik bir parça quru çörək və bir parça su ilə saxlayırdılar. Habelə Mehmandarovun bolşevizmdə əli olanların hamısını həbs etmək və ciddi rejim altında saxlamaq barədə sərəncamı da vardı».

Həmin bolşevik Cəfər Babayev 1960-cı ildə «Canlı xatirələr» adlı 69 səhifəlik bir kitabça nəşr etdirib. Onun xatirələrindən belə məlum olur ki, Bakını və Azərbaycanı daşnak ermənilər, istilaçı ruslar daha çox sevirmiş, nəinki müsavatçı azərbaycanlılar. Özünü bolşevik qəhrəmanı kimi təqdim edən C. Babayevin oturub-durduğu adamlar A. Mikoyan, S. Şaumyan, M. Babayan, T. Qəhrəmanyan, Ə. Qarayev, R. Axundov və başqaları olub. Onun yazılarında müsavatın əsgəri də, zabitləri də savadsız və amansız təsvir edilir. Bircə epizodda Babayev həqiqətdən qaça bilməyib: «Bakının general-qubernatoru Murad Gəray bəy Tlexas dişlərini qıcıdıb bolşevikin üstünə elə təpindi ki, səsinin zərbəsindən pəncərələrin şüşələri cingildədi».

Zənnimcə, general Tlexas vətənini düşmənə satmaq istəyən bolşevik Məmmədağa İbrahimovla sərt rəftar etməkdə çox haqlı idi.

Bütün bunlardan sonra 1919-cu il avqustun 15-də əsgəri xidmətə çağrılan bolşevik C. Babayev yazır:

«… Mənə hərbi çağırış vərəqəsi gəldi. Müsavat ordusuna çağrıldım. Bir işə bax, düşmən bildiyim, gecə-gündüz əleyhinə mübarizə apardığım müsavat partiyasının ordusunda xidmət etmək üçün əsgər çağrıldım. Mən kimə qarşı vuruşmağa göndərilirdim? Öz xalqıma qarşımı? Mən bir ovuc bəyin, mülkədarın mənafeyini qorumaq üçün müsavat ordusuna əsgər getməli idim.

Məni dəhşət götürmüşdü. Acığımdan az qala çağırış vərəqəsini cırıb, Bakıdan qaçmaq və ilim-ilim itmək istəyirdim. Mən Bakı partiya təşkilatımızın rəhbərinə bu məsələni danışdım və bildirdim ki, fərari olacağam.

-Yox, sən orduya getməlisən,-deyə Anastas İvanoviç Mikoyan heç gözləmədiyim halda sözümü kəsib dilləndi.

Mən özümü saxlaya bilməyib tez cavab verdim:

-Nə üçün? 1918-ci ildə müsavatçılar məni Gəncə hərbi məktəbinə aparanda bolşevik partiyamız etiraz edirdi. Deyirdilər ki, necə olursa-olsun orduya getməməlisən. İndi isə…

-Bəli, o vaxt bam-başqa idi. Onda sənin inqilabi təcrübən yox idi. Müsavatçılar səni yoldan döndərə bilərdilər. Sən indi orduda əsgərlər arasında

partiya təbliğatı apara bilərsən, onları bolşeviklərin tərəfinə çəkməyi bacararsan.

Bir azdan məni Qusardakı dördüncü Tatar süvari alayına yazdılar. Paqonu əlimə alanda elə bil ki, məni ilan vurdu. Onu çiynimə vurmaq istədim. Elə o dəqiqə bu hərəkətim alay zabiti Amloxvarinin gözünə dəydi. O mənə elə bir sillə çəkdi ki, əlimdəki şeypur yerə düşdü… »

Bolşevik «vətənpərvəri » C. Babayevin öz millətinə «xidməti » göz qabağındadır. Hərbi nazir Səməd bəy Mehmandarov onu həbs edib təkadamlıq kamerada bir parça quru çörək və bir parça su ilə saxlamaqda tamamilə haqlı idi.

Burada S. Mehmandarovun «günahı » ondadır ki, gərək ideya düşməni olan bolşevik C. Babayevi güllələtdirəydi. Onda xalqımıza qara yaxanın, orduda zərərli bolşevik təbliğatı aparanın heç olmasa biri də əskik olardı.

* * *

İstər Səməd bəy Mehmandarov, istərsə də Əli ağa Şıxlinski uzun illik ordu həyatında siyasi partiya və qurumlardan uzaq olmuşlar. Onların ən ümdə vəzifəsi Vətəni, torpağı yağılardan qorumaq üçün nizami qoşun yaratmaq idi. İyirmi səkkiz aprel çevrilişinin səhəri onları dindirən bolşeiik çekistləri hər ikisinə: «Hansı siyasi partiyanın və ya inqilabın mənafeyini müdafiə edirsiniz? » - sualını vermişdir.

General Səməd bəy Mehmandarovun cavabı: «Bütün ömrüm boyu mən hər cür siyasətdən uzaq olmuşam».

General Əli ağa Şıxlinskinin cavabı: «Hər bir inqilaba əks-inqilab kimi yanaşmışam, heç vaxt belə şeylərə qoşulmamışam, qoşulmazdım da…».

Bolşeviklərin Azərbaycana hücumuna düz bir il qalmış və onların ordudakı zərərli siyasətini əvvəlcədən hiss edən nazir S. Mehmandarov 1919-cu il aprelin 20-də Nazirlər Sovetinin sədrinə yazırdı: «Yaxşı olardı ki, Azərbaycan ordusundan azad olunmuş rus zabitləri, etibarsız element kimi Azərbaycan hüdudlarından kənar ediləydi. Lakin ümumi siyasi vəziyyətin bu məsələyə munasibətini bilmədiyimdən, xahiş edirəm, bu haqda mənə məlumat verəsiniz. Sizin qərarınızın nəticəsini bilmək istərdim».

Sovet hakimiyyəti illərində Səməd bəy Mehmandarov haqqında cəmi iki:1946-cı il mayor Hacıağa İbrahimbəylinin «Səməd bəy Mehmandarov» (18 səhifəlik) və 1977-ci ildə polkovnik, tarix elmləri namizədi Əli Abbasovun «General Səməd bəy Mehmandarov» (80 səhifəlik) kitabçaları nəşr olunmuşdur. İndiyənədək 1918-20-ci illərin sənədləri nə tarixçilərin, nə də S. Mehmandarov tədqiqatçılarının sərəncamına verilmədiyindən şöhrətli generallarımızın həmin illərdə daxilən hansı hisslər keçirdiyindən, ən başlıcası azərbaycanlı kimi vətəndaşlıq təəssübkeşliyindən bixəbər olmuşuq.

Demokratiyanın sayəsində yeni açılan arxiv sənədləri arasında ilk hərb nazirimizin çoxlu teleqramları, əmr və raportları işıq üzü gördü. Bu sənədlər o vaxtkı ordumuz, zabit və əsgər heyətimiz haqqında qiymətli məlumatlar verir.

* * *

**Lənkəran qəzası sakinlərinə müraciətnamə.**

**Vətəndaşlar!**

Azərbaycan Respublikası Dövlətinin xahişi ilə mən Lənkəran qəzasına dəstə göndərirəm. Vətəndaş müharibəsinə birdəfəlik son qoymaq, qayda-qanun yaratmaq, Sizi dinc əhaliyə əzab verən zorakı dəstələrdən və qatillərdən azad etmək işi bu dəstəyə tapşırılıb.

Azərbaycanın ayrılmaz bir hissəsi olan qəzada məskunlaşmış bütün millətlərə ədalətli münasibət bəsləyən Azərbaycan qoşunları Sizə qanun daşıyıcıları kimi göndərilirlər.

Silahlı qüvvələrin himayəsi ilə ölkənin bütün sahələrinin idarə olunmasında təcili mülki idarəetmə bərpa ediləcək. Mən əminəm ki, Siz özünüz də Azərbaycan Respublikasının gələcək tam hüquqlu vətəndaşları kimi sülh şəraitində birgə yaşamağın möhkəm əsasının qoyulması marağındasınız və görəcəyiniz bütün tədbirlər ölkədə qanun-qaydanın bərpa olunmasında hökumətin bütün qanuni əmrlərinin könüllü surətdə yerinə yetirilməsində və Azərbaycan Respublikası Dövlətinin nümayəndələrinə öz xeyirxah münasibət-inizlə imkan daxilində köməklik göstərəcəksiniz.

Bununla bərabər, Sizi əmin edirəm ki, Sovetlər, Komitetlər və ya «Muğan Respublikası» adı altında heç bir sərbəst təşkilatların yaradılmasına yol verilməyəcək.

Lənkəran qəzasında yeganə – Azərbaycan Respublikası hakimiyyəti tanınır və onun verdiyi qanunlara qulaq asmayan hər bir şəxs müharibə dövrünün qanunlarına əsasən qiyamçı kimi məsuliyyətə cəlb olunacaq.

Dəstə rəisinin[1] göstərişi ilə əhali silahları təhvil verməlidir, kim əmri yerinə yetirməsə, hərbi-səhra məhkəməsinin sərəncamına veriləcək.

Xəbərdar edirəm ki, rus əhalisinə qarşı hər hansı bir zorakarlığa və soyğunçuluğa yol verməyəcəyəm, çünki qəzada yaşayan başqa millətlərin nümayəndəsi kimi onları da Azərbaycan Respublikasının vətəndaşı sayıram.

Amma rus əhalisinin şəxsiyyətinə və toxunulmazlığına təminat verərək, mən onlardan da yerli hakimiyyətin verdiyi qanunların yerinə yetirməsinə əməl etmələrini tələb edirəm.

Hər bir silahlı müqavimət ölüm cəzası ilə cəzalanacaq və belə hallarda qoşunlara amansız olmaları haqda əmr olunub.

1. General-mayor Həbib bəy Hacı Yusif oğlu Səlimov (1881-1920)

Bu və ya digər bəhanələrlə xalqı ordu və hökumət əleyhinə qaldıranları bu haqda xəbərdar edirəm.

Mən də öz növbəmdə dəstə rəisinə əmr etmişəm ki, qoşunun əhaliyə heç bir xətər toxundurmaması haqda ölçü götürsün və dinc əhaliyə qarşı hər cür zorakarlıq göstərən günahkarlar ciddi cəzalansınlar.

***Azərbaycan Respublikasının hərb naziri,***
***Tam Artilleriya generalı Səməd bəy Mehmandarov.***
***General-leytenant Məmməd bəy Sulkeviç.***
***23.07.1919-cu il, Bakı şəhəri.***

21 oktyabr 1919 –cu il Lənkərandan teleqram.

Lənkəran Şəhər duması əhalinin istəyi ilə 15 oktyabr tarixli yığıncağında hərb naziri general Səməd bəy Mehmandarovu Respublika parlamentinə üzv seçmişdir.

Şəhər Dumasının üzvləri

## TÜRK İRSİNİ ÖYRƏDƏN GENERAL

Şöhrətli generalımız Səməd bəy Mehmandarovun 1918-20-ci illərdək fəaliyyəti xalqımız qarşısında əvəzsizdir. Onun Milli Ordunun yaradılmasındakı müstəsna rolu, 1918-ci il dekabrın25-də Azərbaycan xalqına müraciəti, əsgər və zabit heyəti qarşısında ata nəsihətli (Həmin ili Səməd bəy Mehmandarovun 63 yaşı vardı - Ş. N.) çıxışları və nəhayət, güclü Vətən təəssübkeşliyi qırx minə yaxın əsgəri olan nizami ordu yaratmağa səbəb oldu.

Səməd bəy Mehmandarov haqlı olaraq yazırdı ki, düşmənə qarşı mübarizə tədbirlərindən biri də xalq içərisində sağlam milli hisslərin yaradılmasıdır. Bu vəziyyət Azərbaycan Respublikasının yaranmaqda olan gənc ordusu üçün xüsusilə zəruridir. Yuxudan yenicə oyanmış xalqda sağlam, milli hissi oyatmalıyıq… Xalq arasında türk irsinin milli hisslərini və vüqarını qaldırmaq üçün xalqı, qoşunlarımızı onun tarixi keçmişi ilə tanış etməliyik.

Səksən ilə yaxın əl vurmadığımız 1918-20-ci illərin arxiv qovluqları açıldıqca bizə məlum olur ki, il yarım fəaliyyətdə olan Milli Ordu tariximiz çox zəngin olmuşdur. O da məlum olur ki, hərb tariximizi zənginləşdirən tam artilleriya generalı Səməd bəy Mehmandarovun və Əli ağa Şıxlinskinin rəhbərliyi ilə, onların silahdaşları general Həbib bəy Səlimovun, Məmməd bəy Sulkeviçin, Şahzadə Əmir Kazım Mirzə Qacarın, Cavad bəy Şıxlinskinin, Murad Gəray bəy Tlexasın, Əbdülhəmid bəy Qaytabaşının, Teymur bəy Novruzovun, Süleyman

bəy Əfəndiyevin, topoqraf-general İbrahim ağa Vəkilovun misilsiz fəaliyyəti olmuşdur.

Port Arturda, Birinci cahan savaşında və 1918-20-ci illərdə şərəfli döyüş yolu keçən general Səməd bəy Mehmandarovun haqqında araşdırmalar apardıca o illərin sənədlərində və qəzetlərində onun çıxışlarına, nitqlərinə rast gəlmək olur.

Belə tarixi sənədlərdən bixəbər olduğumuza görə bəzi «sapı özümüzdən» olan nadanlar keçmiş sərkərdələrimiz barədə artıq-əskik danışırlar. Onlar hətta «hücuma» keçərək yazırlar ki, niyə Mehmandarovun, Şıxlinskinin və başqa sərkərdələrimizin Napoleon, Kutuzov, Suvorov kimi müdrik fikirləri, hərbi-elmi əsərləri qalmayıb. Bir sözlə, özümüzünkülərə qeyri-vətənpərvər damğası vururlar. Onda belələrinə cavab vermək çox ağır və əzablı olur. Bu müasir «vətənpərvərlərə » başa salmaq lazımdır ki, totalitar rejim səksən ilə yaxın onların aprel çevrilişindən əvvəlki fəaliyyətinə «tamamilə məxfidir» möhürünü vurub. İndi, budur, aşkarlığın sayəsində səksən beş ildən sonra belələrinə general Səməd bəy Mehmandarovun Azərbaycan Hərbiyyə məktəbinin ikinci buraxılışında, 1926-cı il sentiyabrın 15-də elədiyi tarixi çıxışı çavab verir.

Həmin ili «Azərbaycan Hərbiyyə məktəbi»ndə Səməd bəy Mehmandarov topçuluqdan rusca, Əli ağa Şıxlinski isə Azərbaycan dilində mühazirələr oxyurdular.

Onlar həm də 1921-ci ildə öz təşəbbüsləri ilə yaratdıqları Bakı Qarnizonu Hərbi-Elmi cəmiyyətinin üzvü idilər.

Çıxış Azərbaycan oxucularına ilk dəfə təqdim olunur.

## AZƏRBAYCAN HƏRBİ MƏKTƏBİNİN İKİNCİ BURAXILIŞI HAQQINDA

Yoldaşlar! Bu gün biz yeni qırmızı komandirlər kimi sizi təbrik edirik.

Qırmızı komandir kimi siz daha müstəqil yola çıxdınız. Bu müstəqil yolda sizi çətin və məsul iş gözləyir. Həmin işin bacarıqla və vicdanla yerinə yetirilməsi sizin tabeliyinzdə olan adamların döyüş hazırlığı səviyyəsindən asılıdır. Öz xidməti və döyüş təcrübəmdən istifadə edərək sizin üçün bu əlamətdar gündə həmin iş haqqında bir neçə söz demək istəyirəm.

Azərbaycan hərbi məktəbini qurtaran sizlər, yoldaşlar, möhkəm yadda saxlamalısınız ki, heç bir məktəb, hətta ali məktəb də olsa, tam bilik vermir, gəncləri gələcək özünü təkmilləşdirməyə hazırlayaraq buraxır. Bu cəhəti biz hərbi qulluqçular xüsusilə yadda saxlamalıyıq, çünki, ümumiyyətlə, hərbi işdə, əsasən də qüdrətli mübarizə vasitəsi olan artilleriyada öz əksini tapan hərbi texnika böyük müvəffəqiyyətlərə nail olmuşdur.

Texnika və taktika bir-birilə ayrılmaz surətdə əlaqədardır və texnikanın inkişafı taktika sahəsində böyük dəyişikliklərə səbəb olur. Daimi yeni hərbi-texniki kəşflər sayəsində artilleriya atəşinin gücü ilbəil artır, döyüşün üsullarını və taktiki xüsusiyyətlərini, hücum və müdafiə formalarını əsaslı surətdə dəyişdirir. Buna görə də müasir tələblərdən geri qalmamaq üçün, yoldaşlar, siz yorulmadan öz üzərinizdə ciddi çalışmalı, geri qalmamaq üçün cari hərbi əməliyyatı diqqətlə izləməlisiniz, başqa sözlə, yenə də öyrənmək və öyrənmək lazımdır. Bu tələblərə əməl etsəniz siz öz yerinizə layiq olacaqsınız və tabeliyinizdə olanların hüsn-rəğbətini qazanacaqsınız.

Texnikanın inkişafı və artilleriya atəşinin artan gücü ilə yanaşı, mən deməliyəm ki, irəli getmək coşğunluğu ideyası ilə ruhlanan qoşunlarda əsas amil insandır, texnika isə ikinci dərəcəlidir, çünki texnikanı da insan idarə edir.

Hərbi-elmi cəmiyyətdəki məruzələrimdən birində, yoldaşlar, mən demişdim ki, hərbi iş yaradıcı işdir, bu işdə təcrübə və praktikanın böyük əhəmiyyəti vardır, bu təcrübə və praktika bir çox nəzəri müddəaları üstələməlidir. Bunu deməklə mən nəzəriyyənin əhəmiyyətini heç də azaltmıram, çünki hərbi sənət nəzəriyyəsi həmin praktikadan doğmuşdur. Əgər bu belədirsə, onda bacarıq, təcrübə və praktikanı hansı vasitələrlə mənimsəmək olar?

Müharibə dövründə bacarıq və təcrübə şəxsi praktika ilə, sülh dövründə isə sülh və müharibə dövrlərində göstərişlərini rəhbər kimi qəbul etdiyimiz nizamnamələrini əsaslı surətdə öyrənməklə, texniki tapşırıqla çölə çıxmaqla, ikitərəfli manevrlərlə, komanda heyətinin çöl təlimləri ilə, hərb tarixini öyrənməklə və b. üsullarla qazanılır.

Bunları mən geniş izah etməyəcəyəm, öyrənilməsinə böyük əhəmiyyət verdiyim hərb tarixi üzərində dayanacağam.

Hərb tarixini öyrənmək dünya görüşünü genişləndirir, tənqidə qabil olan adamın zəkasını, fərasətini və bacarığını inkişaf etdirir. Hərb tarixini öyrənməklə siz ovcunuzun içi kimi bu və ya o tərəfin səhvini görürsünüz. Görürsünüz ki, nə etmək olar və nə etməmək lazım deyil. Hərb tarixini öyrənməklə siz çox mürəkkəb vəziyyətdən baş çıxarmaq, həmin vəziyyətə uyğun bu və ya digər qərar qəbul etmək vərdişləri qazanırsınız. Hərb tarixini öyrənməklə siz qoşunların müharibədə çəkdikləri əziyyətlərin qarşısını almağa təminat verirsiniz.

Mən belə fikirləşirəm ki, hərb tarixini öyrənməyin əhəmiyyətini başa düşmək üçün bu deyilənlər də kifayətdir.

Buna görə də mən belə hesab edirəm ki, sizin özünüzü həsr etdiyiniz sahədə müvəffəqiyyət qazanmağınız üçün hərb tarixi kitabı hər bir hərbi qulluqçunun stolüstü kitabı olmalıdır.

Sizin hər bir müvəffəqiyyətiniz sizin keçmiş rəisinizi sevindirəcək, çünki onlar sizin müvəffəqiyyətinizdə öz zəhmətlərinin və öz məsləhətlərinin bir hissəsini görəcəklər.

Sizinlə vidalaşanda sizə demək istədiyim bunlardır. İndi isə, yoldaşlar, mənim ən xoş və səmimi arzularımı qəbul edin.

***SƏMƏD BƏY MEHMANDAROV***
***15 sentyabr 1926-cı il***

***İki il sonra səhhətinə görə istefaya çıxan general Səməd bəy Mehmandarova dövlət yüz manat pensiya kəsmişdir. 1931-ci ilin fevralın 12-də Bakıda vəfat edən S. Mehmandarov keçmiş Çəmbərəkənd qəbristanlığında (indiki Şəhidlər xiyabanında - Ş. N.) dəfn olunmuşdur. Sonralar – 1939-cu ildə bolşevik S. M. Kirova heykəl qoyulanda həmin qəbristanlıq dağıdılmışdır. O illərdə generalın ailəsi sürgündə idi. Qəbri başqa yerə köçürülmədiyindən yerlə yeksan edilmişdir.***

* * *

Uzun müddət yad ölkədə – Rusiyada yaşayıb, qulluq etməsinə baxmayaraq böyük sərkərdəmiz Səməd bəy Mehmandarov milli hisslərdən, milli varlığından uzaqlaşmamışdır. O, 1892-94-cü illərdə «Novoye obozreniye» qəzetində «İslam dini və onun əhəmiyyəti barədə», «Necə edək?», «Müsəlmanların geridə qalmalarının səbəbləri», «Şiələrin yeni misteriyaları», «Müsəlmanların öz-özlərinə işgəncə verməleri haqqında» və «Şiələrdə dini misteriyanın mənşəyi» adlı silsilə məqalələri ilə çıxış etmişdir. İslam dininin çox yayıldığı bir ölkədə ona tənqidi yanaşmaq, əlbəttə, öz dövründə böyük cəsarət tələb edirdi. Özünün dini baxışlarında ardıcıl və barışmaz olan Səməd bəy Mehmandarov ilk növbədə xalq maarifini inkişaf etdirməyə və ruhani başçılarını müftəxorluq azarından uzaqlaşmağa çağırırdı: «İslamın keçmişinə müraciət etmək, onun tarixini diqqətlə öyrənmək, bu tarixdə diqqətəlayiq nə varsa hamısını toplamaq lazımdır».

Polkovnik Səməd bəy Mehmandarov «Necə edək?» silsilə məqalələrində Quranın tərtib edilməsi tarixindən və Məhəmməd Peyğəmbərin şəxsiyyətindən geniş söhbət açır. O. yazır ki, Quran üçün hamıdan əvvəl və hamıdan çox Məhəmməd Peyğəmbər tarix qarşısında məsuliyyət daşıyır. Tarixi mənbələr göstərir ki, Məhəmməd çox ağıllı, yaradıcılıq dühasına və gözəl danışıq qabiliyyətinə malik bir adam idi. Həyat tərzində sadəlik, düzlük, ədalətlilik, mərdlik, alicənablıq, hamı ilə rəftarında səmimilik və bərabərlik dağınıq və pərakəndə ərəb qəbilələrini birləşdirən bu din və dövlət islahatçısının xarakterik xüsusiyyətləri idi… Məhəmməd Peyğəmbər ömrünün axırına kimi öz dövrünün ən nəcib şəxsiyyətlərdən biri olaraq qaldı.

Həmin illərdə Varşava Hərbi Dairəsində qulluq edən polkovnik Səməd bəy Mehmandarov «Tərcüman» qəzetinin redaktoru İsmayıl bəy Qasprinskidən, Qoridəki Zaqafqaziya Müəllimlər Seminariyasında müəllim işləyən ədəbiyyatşünas Firidun bəy Köçərlidən, lənkəranlı müəllim Teymur bəy Bayraməlibəyovdan və tarixçi-alim Əhməd bəy Cavanşirdən polemik cavablar almışdı.

Firidun bəy Köçərli Səməd bəy Mehmandarovu dinə tənqidi münasibət bəslədiyinə və buna görə də guya dindarların hisslərinə toxunduğuna görə tənqid etmişdi.

Firidun bəy Köçərli «Tərcüman» qəzetinin redaktoru İ. Qasprinskiyə «hücum» edir, onu Səməd bəy Mehmandarovun «Necə edək?» məqaləsinə tənqidi münasibət bəsləməməkdə günahlandırırdı. «Tərcüman»ın abunəçisi kimi F. Köçərli həmin qəzetin səhifələrində S. Mehmandarova həsr olunmuş məqaləni oxumuşdu. Lakin İsmayıl bəy Qasparinski «Necə edək?» məqaləsinin müəllifini nəinki tənqid etmişdi, hətta «Novoye obozreniye» redaksiyasına göndərdiyi məktubda onun bəzi fikirlərinə müəyyən qədər tərəfdar çıxmışdı.

Səməd bəy Mehmandarovun Məhəmməd Peyğəmbərin şəxsiyyətindən müsbət danışdığına görə İsmayıl bəy Qasprinski əvvəlki məktubundaki kimi onu hirslə tənqid etməyir, İslam dinini islah etmək məsələsində onun fikrinə şərik çıxır. O, Səməd bəyə razılığını bildirib yazır ki, artıq İslam dini haqqında ümid-siz məqalələr yazmır. Bu dindən barışdırıcı tonda danışır, müsəlmanın cəhalətini və durğunluğunu müalicə etmək tədbirlərini irəli sürür.

Səməd bəy Mehmandarovun həmin məqalələri yazdığı dövrdən yüz on ildən çox bir vaxt keçir. Lakin onlar bu günlərimiz üçün də əhəmiyyətlidir. Həmin yazılarda qaldırılan məsələlər - xüsusilə, xalqın geriliyini görən ziyalı «müsəlmanlara» mədəni tərəqqi yolunu tutmaq vəzifəsini tövsiyə etməsi onun islam dinini incəliklərinə qədər bilməsinə dəlalət edir. O, cəsarətli çıxışları ilə müsəlman cəmiyyətindəki bəlalardan xalqı xilas etməyə çağırır. Səməd bəy Mehmandarov təhsil və maarifdə qızların və gələcək anaların təhsil almalarına xüsusi əhəmiyyət verirdi. Müsəlman geriliyinin səbəbini İslamdakı bəzi ehkamların məhvedici təsirində axtarırdı. O, Firidun bəy Köçərliyə cavab məktubunda yazırdı ki, ayrı-ayrı şəxslər və silklər əksər hallarda eqoist niyyətlərlə xalq kütləri içərisində mövhumatın qorunub saxlanılmasına və inkişaf etdirilməsinə çalışmışlar. Çünki onlar öz nüfuzlarını, qüdrət və sərvətlərini həmin mövhumat hesabına əldə etmişlər. Bunun da nəticəsində dini təmayüllər amansız təhriflərə məruz qalmışdır.

Yad mühitdə yaşamasına və hərbiçi olmasına baxmayaraq Səməd bəy Mehmandarov müsəlmanın tutulduğu azarı görür və dərk edirdi. Şəxsi

mənafeyini dövlət mənafeyindən üstün tutanlara qarşı çıxış edərək vətəndaş yanğısı ilə qeyd edirdi ki, müsəlmanları bekar, müftəxor, pozğun intriqa azarına tutulmuş geniş hüquq və güzəştlərə malik olan , hökumət yanında sözləri keçən, lakin buna baxmayaraq, heç bir işdən yapışmayaraq öz şəxsi mənafelərini güdən, ictimai və dövlət mənafeyini də öz xeyirləri ilə ölçən, canlı, azad fikrin hər bir təzahürünə qarşı çıxan ləyaqətsiz qəyyumların (bəzi din xadimlərinin) pəncəsindən xilas edə biləcək qüvvəni haradan tapmalı?










## A L İ M - G E N E R A L

*General Əli ağa Şıxlinski ilə yaxından tanış olanlar, onun maraqlı söhbətlərinə qulaq asanlar bilirlər ki, bu təvazökar və səmimi insan nə qədər ağıllı və ibrətli bir şəxs idi.*

***Heydər Hüseynov,***
***filosof - alim***

*Yaxşı adamların əməllərinin bizə nə qədər fayda gətirdiyini yadına sal...! Onda başa düşərsən ki, onların xatirəsi də özləri qədər əzizdir.*

***Seneka Lutsi Anney,***
***Roma filosofu***

Fitri istedada malik olan tam artilleriya generalı Əli ağa Şıxlinski bütün varlığı ilə sevdiyi Azərbaycan xalqına ömrünün sonunadək sədaqətlə xidmət etmişdir. Hərbi fəaliyyətində araşdırmalar apardıqda onun bir çox sahələrdə ilkin şəxs olduğunun şahidi oluruq. Yalnız general kimi vəzifəsini bitmiş hesab etməyən bu məhşur sərkərdə həm də hərb elminin görkəmli alim idi. Hələ əsrin əvvəllərində hərbi mütəxəssislər tərəfindən yüksək qiymətləndirilən "Şıxlinski üçbucağı" ndan təkcə Rusiyada deyil, Fransa, Avstriya, Norveç, İsveçrə və başqa ölkələrin artilleriya məktəblərində dərslik kimi istifadə olunmuşdur.

Əli ağa Şıxlinski "Üçbucağı" nda artilleriya tarixində ilk dəfə topların gözlə görünməyən hədəfə atəş açmaq texnikasını işləyib hazırlamış və topların təkmilləşdirilməsi işinə bir sıra dəyərli yeniliklər gətirmişdir. Hərb elminin mütəxəssisləri bu gün də etiraf edirlər ki, general Şıxlinski qeyri-adi fəaliyyəti ilə fərqlənmiş nadir hərbi mütəxəssislərdir. O, yeganə azərbaycanlıdır ki, ilk dəfə Fransanın generallara məxsus fəxri "Legion ordeni" və zabitlərə verilən "Legion xaçı" ilə təltif edilmişdir. Əli ağa Şıxlinski generallar arasında ən yaxşı hərb alimi, alimlər arasında ən məhşur artilleriya generalı idi.

Arxiv sənədlərindən məlum olur ki, general Əli ağa Şıxlinski 1939-cu il-

dən sonra alim Heydər Hüseynovla müntəzəm elmi yaradıcılıq əlaqəsi saxlamışdır. Respublika Mərkəzi Dövlət Ədəbiyyat və İncəsənət arxivindən aşkar etdiyimiz 1940-cı il 15 iyul tarixli məktub da general tərəfindən alimə ünvanlanmışdır. İri ölçülü kağızlarda yazılmış iyirmi səhifəlik məktub-müraciətində general Əli ağa Şıxlinski alimə 852 sözün izahını və düzəlişlərini yazıb göndərmişdi. Məktubdan məlum olur ki, 1939-cu ildə Heydər Hüseynovun redaktorluğu ilə nəşr olunmuş "Rusca-Azərbaycanca lüğəti mütaliə etdikdən sonra general bu ağır zəhməti çəkmişdir. General "Qeydləri"nin müqəddəməsində yazır: "Redaksiyanın çağırışına əməl edərək, lüğətdə mənim rast gəldiyim səhvlər haqqında bəzi mülahizələrimi təqdim edirəm.

Ümumiyyətlə lüğət çox gözəldir. Hər bir sözü ayrılıqda deyil, bütün cümlənin ümumi mənasını tərcümə etmək üçün, tərcüməçilərə kömək edəcək, frazeologiya xüsusilə yaxşıdır".

Ümumi müddəalarında isə Əli ağa Şıxlinski belə qərara gəlir ki, lüğətin əsas çatışmayan cəhəti onun qısa olmasıdır.

"Lüğətdə çox yerdə əsas sözlər buraxılmış, ancaq onların törəmə sözləri verilmişdir.

Bizim dilimizi ona yad olan söz düzəltmələrindən təmizləmək lazımdır. Əgər başqa dillərə məxsus sözlərdən istifadə etmək ehtiyacı varsa, onda törəmə sözlər bizim dilimizin qanunlarına uyğun olmalıdır. Bu hər şeydən əvvəl, isimlərdən sifət əmələ gəlmə hallarına aiddir. Məsələn: avtomat yazmaq olar və yazmaq da lazımdır. Ancaq avtomatik - olmaz, artıqdır. Hərb sözü isə dilimizə çoxdan qəbul edilmişdir, onu saxlamaq, hərbi sözünü isə atmaq lazımdır. Azərbaycan xalq dilinin zəngin xəzinəsində rus və Avropa sözlərinin qarışığı kimi işlətmək də məqsədə uyğundur. Məsələn: axıntı/ cərəyan/, saxlanc/ ehtiyat, dövrçağ dönümü/ dövr, düzgü/ quruluş, bilgi/ nəzəriyyə və s".

Təvazökar general məktubunun sonunda yazır: "Əgər Siz təqdim olunmuş materialın heç olmasa kiçik bir hissəsindən istifadə edə bilərsinizsə, onda mən özümü çox xoşbəxt sanaram. Sevinərəm ki, mən də öz balımın kiçik bir damlasını Sizin gözəl arı pətəyinizə əlavə etmişəm".

General Əli ağa Şıxlinskinin bu iradlarını məmuniyyətlə qəbul edən alim Heydər Hüseyinov cavab məktubunda yazır ki, lüğətin gələcək nəşrində sizin elmi zəhmətinizdən mütləq istifadə olunacaq. Alim bunun üçün generala sətir haqqı da göndərmişdir.

Akademik Əlheydər Orucov "Əli ağa Şıxlinskinin bir əlyazması haqqında" adlı məqaləsində haqlı olaraq belə qənaətə gəlir ki, generalın alim Hey-

dər Hüseynova göndərdiyi "Qeydləri" lüğətçilik, xüsusən də termin yaradıcılığı baxımından çox faydalıdır. İndiyə qədər hərbi mütəxəsis kimi tanınan Əli ağa Şıxlinskinin dil, lüğətçilik, terminologiya məsələlərilə maraqlanması faktının özü səciyyəvi haldır. / (Bax: "Terminoligiya məsələləri" kitabı, Bakı, 1987 il, səh. 12/.)

General Əli ağa Şıxlinski lüğətçiliklə 1940-cı ildənmi məşğul olmağa başlamışdır? Xeyir. Onun şəxsi arxivində mühafizə olunan "Zabitin dəftəri"ndəki qeydlərindən məlum olur ki, o, hələ gənc zabit ikən hərb elmi ilə, dilçilik və hərbi lüğətlə, terminologiya ilə maraqlanmış və bu sahədə gərgin axtarışlar aparmışdır. Uzun illər-1879-cu ildən 1917-ci ilədək həyatının çox hissəsini Azərbaygandan uzaqlarda, yüksək hərbi dairələrdə, özgə məmləkətdə və başqa dil mühitində yaşamasına baxmayaraq general milli varlığını, ana dilini qoruyub saxlaya bilmişdir. Orada Azərbaycan dilində mətbuatın və nəşriyyatın olmaması üzündən "Rusca-Türkcə qısa hərbi lüğəti"ni 1926-cı ildə Bakıda uç əlifbada rus, ərəb və latın əlifbası ilə nəşr etdirə bilmişdir. Bununla da ilk dəfə Azərbaycanda hərbi lüğətin yaradıcısı olmuşdur. Məhz bu əvəzsiz xidmətinə görə general Əli ağa Şıxlinski SSRİ Hərbi İnqilab Şurasının 1928-ci il 23 fevral tarixli qərarı ilə "Fəxri Fərman"la təltif olunmuşdur.

Şıxlinskinin lüğəti hərbi nizamnamələrin, hərbi elmi ədəbiyyatın Azərbaycan dilində tərcümə olunmasında böyük əhəmiyyət kəsb etmişdir. Eyni zamanda hərbi məktəblərdə, yenicə yaranmış orduda xidmət edən azərbaycanlı əsgər və zabitlər bu lüğətdən qiymətli vəsait kimi istifadə etmişlər. Həmin kitabın elmi terminoloji əhəmiyyətini maraqlı faktlarla araşdıran fologiya elmləri namizədi A. Hacıyeva yazır: "Əli ağa Şıxlinskinin lüğəti geniş dil materialının dərin təhlilinin nəticəsi idi.

Azərbaycan dilinin lüğət tərkibini geniş əhatə etməsi xalq dilinə məxsus söz və ifadələrdən yerli-yerində, səmərəli istifadə olunması, bir çox unudulmuş və az işlənən sözlərə yenidən termin kimi həyat vəsiqəsi verilməsi baxımından Ə. Şıxlinski lüğəti o dövrdə nəşr edilən lüğətlərin hamısından fərqlənir. …Azərbaycan dilində hərbi terminologiyanın olmaması bu işdə böyük çətinlik törədirdi. Əli ağa Şıxlinskinin lüğətinin nəşri ilə həmin çətinlik, demək olar ki, aradan qaldırıldı".

General Şıxlinskinin 1926-cı ildə nəşr etdirdiyi 280 səhifəlik "Rusca - türkcə qısa hərbi lüğət" elmi əsəri xüsusi dəyərə malikdir. Həmin lüğətin misilsiz elmi əhəmiyyətindən danışan görkəmli filosof-alim Heydər Hüseynov yazır:

..."Kitabın əvvəlində general Əli ağa Şıxlinski lüğət tərtib edərkən yeddi

əsas qəbul etdiyini göstərir: 1. Yad sözlərin yerinə bacardıqca, Türk-Azərbaycan sözləri qoyulubdur. 2/. El arasında işlənən türkləşmiş ərəb və fars sözləri buraxılmayıbdır: bu dürlü sözlər, onlar elə bir mənalı türk sözlərinin yanında dırnaqlar arasında yazılıbdır; məsələn: çağ/ vaxt, zaman/. 3. Türkcəyə qarışmış bəzi ərəb sözləri türkcə deyilişinə uyğun yazılıbdır. Məsələn: qala/ qələ yerinə/, sahat/ saət yerinə/. 4./ Kökləri ərəbcədən olan sözlərin deyilişləri türkcəyə uyğunlaşdırılıbdır; məsələn vəqtlər, təbiblər, vəzifəli/ ev-qat, ətibba, müəzzəf yerinə/ və sairə...".

Azərbaycan Respublikası Elmlər Akademiyasının müxbir üzvü Əliheydər Orucovun "Ə. Şıxlinskinin bir əlyazması haqqında" məqaləsindən:

"Yaşının ötməsinə, səhhətinin pozulmasına baxmayaraq general Əli ağa Şıxlinski həyatının son günlərinə qədər dilimizin vəziyyəti, terminologiya, orfoqrafiya, lüğətçilik məsələləri ilə maraqlanırdı. Onu tez-tez Lüğətlər İnstitutunda, həmin instutun direktoru Heydər Hüseynovun yanında görmək olardı. Heydər Hüseynov Əli ağa Şıxlinskiyə dərin hörmət və həsas münasibət bəsləyirdi. İnstitunun hazırladığı lüğətlərlə onu tanış edər və bu barədə fikrini bilmək istərdi. Onun 1940-cı ildə akademik Heydər Hüseynova 49 səhifədən ibarət göndərdiyi "Qeydlər"- dən göründüyü kimi, ana dili ilə bərabər, klassik ədəbiyyatımızı, xüsusən folklorumuzu çox gözəl bilirmiş. Əli ağa Şıxlinski indi ədəbi dildə işlənməyən, buna görə də müasir lüğətlərə düşməmiş, amma bəzi dialekt və şivələrimizdə işlənməkdə davam edən sözləri yada salmaqla onların yazılı dilə / lüğətlərə/ keçirilməsini məqsədəuyğun hesab edir. Bu baxımdan onun özünün yeni söz və formalar yaratmaq təşəbbüsü təqdirə layiqdir. Bu günki şəraitdə daha böyük əhəmiyyət qazanmış bu məsələ, görünür, hələ o zaman Əli ağa Şıxlinskini düşündürmüş və fürsətdən istifadə edərək, yazdığı "Qeydlər" vasitəsilə fikrini lüğətçilərin nəzərinə çatdırmışdır".

O vaxtdan illər keçdi. General Əli ağa Şıxlinskinin ilk vəsait olan hərbi lüğəti bir daha işıq üzü görmədi. Totalitar Sovet rejimi azərbaycanlı generalın elmindən bəhrələnməyi öz millətinə yasaq etdi. Az tirajla nəşr olunmuş bu kitabın nadir nüsxələri qalıb. Bu gün zaman, dövr dəyişib. Yeni yaranan ordumuz üçün həmin lüğətin əhəmiyyəti şübhəsiz ki, əvəzsiz olardı. Ona görə də, nəşriyyatlarımız böyük hərb alimi Şixlinskinin lüğətinin yeni nəşri barədə təşəbbüs göstərməlidir.

## MİLLİ ORDU QURUCULUĞUNDA

Əlli ildən çox nizami orduda qüsursuz xidmət edən Əli ağa Şıxlinski həmişə birincilər sırasında olmuşdur. O, beş müharibənin şahidi, dördünün iştirakçısı olub: 1900-1901-ci illərdə Çin hərbi yürüşündə (tarixə "Boksyor üsyanı" kimi düşüb), 1904-1905-ci illərdə Port-Artur, 1914-cü il Cahan Müharibəsində, 1918-ci illərdə isə torpaqlarımızın bütövlüyü uğrunda daşnak Ermənistanına qarşı döyüşüb. Böyük Vətən müharibəsinin şahidi olan qoca general yenə də fəaliyyətini dayandırmamışdır. O, "Xatirələrim" kimi qiymətli hərbi memuarını diktə edib yazdırmışdır. Bu, Azərbaycan hərb tarixində ilk və yeganə hərbi memuardır. İnqilabdan əvvəl və inqilabdan sonrakı dövrlərlə məşğul olan hərb elminin elə bir alimi yoxdur ki, həmin kitabdan qidalanmasın, bir qiymətli mənbə kimi ondan istifadə etməsin.

Görkəmli sərkərdə Əli ağa Şıxlinskinin xalqımız üçün ən böyük xidmətlərindən biri də 1917-ci ilin noyabrında olmuşdur. Həmin ayın on beşində Qafqaza qayıdan Şıxlinski ilk dəfə Tiflisdə azərbaycanlardan ibarət milli korpus yaratmışdır. Bununla da o, Milli Azərbaycan Ordusunun təməl daşını qoymuşdur. Bu barədə general "Xatirələrim" hərbi memuarında daha dəqiq məlumat verir:

"Tiflisə qayıtdıqda, müvəqqəti olaraq mənə korpus komandanlığı həvalə olduğu barədə əmri oxudum. Öz xalqımın, baş verə biləcək xarici təzyiqlərdən və daxili qarışıqlıqlardan özünü qorumasına xidmət etmək arzusu liə korpus təşkil etməyi qət edib, Tiflisdə öz qərargahımı düzəltməyə başladım (Qərargah Tiflisdəki "London" mehmanxanasının birinci mərtəbəsində yerləşirdi. *İki mərtəbəli mülk indi də qalır. Bu sətirlərin müəllifi 1999-cu ilin aprel ayında Tbilisidə yaradıcılıq ezamiyyətində olanda həmin binanı axtarıb tapmışdı. /-Ş.N./ )…*

Dekabrın otuz birində mən öz qərargahımın ilk heyəti ilə Gəncəyə getdim ki, orada hissələrin təşkil edilməsilə məşğul olum. Korpus hissələrinin təşkilində böyük əngəllərə rast gəlirdik".

"Açıq söz" qəzeti 1918-ci il 7 yanvar tarixli nömrəsində nizami müsəlman əsgəri qüvvələrinin yaranması haqqında belə bir xəbər yaymışdı:

"Yanvarın üçündə Mərkəzi Müsəlman Zaqafqaziya Komitəsinin üzvü, Mərkəzi Komitə sədri Fətəli xan Xoyski müsəlman əsgəri dəstələri təşkilati haqqında məruzədə bulunmuşdur. Məruzədən anlaşıldığına görə 1917-ci il dekabrın on birində Zaqafqaziya Komissarlığı Zaqafqaziya müsəlmanlarından nizami ordu təşkil etməsi qətnaməsini çıxarmışdır. Nizami ordu üçün la-

zimi qədər könüllü cəm edilməsi işi Zaqafqaziya Mərkəzi -Müsalman Komitəsinə həvalə edilmişdir. Nizami ordu təşkil edildikdən sonra müsalmanlardan alınan əsgəri verginin ləğv edilməsi haqqında Zaqafqaziya Komissarlığı tərəfindən dekret veriləcəkdir. Zaqfqaziya Komissarlığının qətnaməsinə əsasən dekabrin 19 -da beşinci və yeddinci Qafqaziya nişançı firqələrindən ibarət olan altıncı ordu korpusunun Müsalman nizami ordusu əvəz edilməsi haqqında Qafqaziya cəbhəsi qoşunlarının baş qomandanı tərəfindən ***"Əmrnamə" verilmişdir. Həmin əsgər dəstələrinin milliləşdirmək işlərinin nəzarəti general Əli ağa Şıxlınınskiyə həvalə edilmişdir.***

General Əli ağa Şıxlınınski öz vəzifəsinin ifasına başlamışdır"

1919 -ci il fevralın 20-də general Əli ağa Şıxlınınski Gəncədə yeni yaratdığı Milli Azərbaycan Korpusunun əsgərləri qarşısında çıxış edərək demişdir: "Azərbaycanlılar bir dəfəlik bilməlidirlər ki, doğma ordu əsla təmbəlxana deyil və onun mövcdluğu hər hansı bir Azərbaycanlının maddi rifahını daha da yaxşılaşdırmaq üçün yaranmayıb. Ordu xalqın istinadgahıdır -bura xalqın ləyaqətli oğulları gəlməlidir".

General Əli ağa Şıxlınınski bu vətənpərvər çıxışını Gəncədə praporşiklər məktəbinin birinci buraxılışı münasibəti ilə söyləmişdir. Bu şənlikdə Qafqaz Ordusunun baş komandanı Nuru Paşa, atası Hacı Əhməd, xalq təhsil naziri Nəsib bəy Usubbəyov, Daxili İşlər nazirinin vəkili Mehti bəy Hacınski, Sosial təminat naziri Mussa bəy Rəfibəyov, Gəncə qubernatoru, general İbrahin ağa Vəkilov və başqa dövlət xadimləri iştirak edirdilər.

Elçi adlı müəllif 1918 -ci il noyabrın 7 və 8- də "Azərbaycan" qazetində (rus dilində) yazır ki, ertəsi gün Bakıdan gəlmiş qonaqlar və demək olar ki, bütün Gəncə şəhər əhalisi hərbi meydana yollandılar. Meydanda təlim üçün əvvəlcədən səngərlər, yarqanlan və cürbəcür maniələr hazırlanmışdı. Hamı özünün Milli bayramına, Türk-Azərbaycan zabitlərinin ilk buraxılışına tamaşa etməyə gəlmişdi. Ətrafda bayram əhval-ruhiyyəsi var idi.

Əlahiddə Azərbaycan korpusunun komandanı general Əli ağa Şıxlinski ətrafdakılarla birgə səflə düzülmüş yunkerlərə yaxınlaşıb salamlaşdı. General Əli ağa Paşanın mehriban "Salamına" birdən-birə səkkiz yüz gəncin ağzından gurultulu "Salam" cavabı çıxdı. Sonra proqram üzrə təlim sınaqları keçirilməsinə başlandı.

1918-20-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin təşkilində Əli ağa Şıxlinskinin müstəsna rolu olmuşdur. Doğma xalqın nizami ordusunu yaratmaq istəyən general uzun illik hərbi təcrübəsindən gecə-gündüz istifadə edirdi. Yetmiş ildən çox Respublika Yeni Tarix Mərkəzi Dövlət arxivində "tamamilə məxfidir" qrifi ilə saxlanan qiymətli bir sənəd bunu bir daha təsdiq edir.

Milli Azərbaycan korpusunun komandiri general Əli ağa Şıxlinski 1918-ci il dekabrın 13-də Gəncədən göndərdiyi "Məlumat"ında yeni Azərbaycan Ordusunun layihəsini hazırlamışdı.

General yazır ki, Azərbaycanın müstəqil respublika elan edilməsi mənə may ayının 27-də qəzetlərdən aydın oldu.

Mən mayın 28-də yeni dövlətin hərb nazirliyinin layihəsini artıq hazırlamışdım; layihənin arxasında izahedici qeyd olan müfəssəl sxem əlavə edilmişdir.

Vəziyyətlə əlaqədar Əli ağa Şıxlinski layihəsində təklif edir ki, vaxtilə türk zabitlərinin köməyi liə yaradılmış hərbi korpus ləğv edilsin. Müharibə şəraitində bu azlıq təşkil edir. -Əvəzində diviziyalar təşkil edilsin. Onlar da hərb nazirinə və onun köməkçisinə tabe olunsun.

Gözəl təlim və tərbiyə almış, Mancuriyada Müvəffəqətlə döyüşən, yüksək döyüş qabiliyyətli Yapon ordusunun korpus təşkilatı haqqında təsəvvürü belə yox idi.

Şıxlinski layihədə incə bir mətləbə də toxunmuşdu. May ayında ilk müstəqil Azərbaycan hökuməti yarananda hərb naziri doktor Xosrov bəy Sultanov təyin edilmişdi. O da mülki şəxs idi.

Xosrov bəy türk zabitlərinin köməyi ilə ordunun təşkilində bəzi təxirəsalınmaz işlər görsə də, bu, ölkədəki ağır vəziyyəti yüngilləşdirmədi. Azərbaycanın həm daxilindəki, həm də qonşuluğundakı amansız düşmənə qarşı güclü ordu yaratmaq vacib idi. Təhlükə o qədər artmışdı ki, ölkənin qərb rayonlarında hərbi vəziyyət elan olunmuşdu. Belə şəraitdə mülki şəxsin hərb naziri olmasını peşəkar hərbçi olan Əli ağa Şıxlinski məsləhət bilmirdi. Ona görə də haqlı olaraq yazırdı ki, hərb naziri - əgər o mülki şəxsdirsə - onda o özünün yanında səlahiyyətli şəxslərin çox kiçik sayından hərbi şura yaratmaq və qoşunların təlim və tərbiyəsinə bilavasitə nəzarət etmək üçün köməkçi təyin etməlidir.

Mətndən o da məlum olur ki, general Əli ağa Şıxlinski layihəni artıq ikinci, bəlkə də üçüncü dəfə hökumətin ünvanına göndərmişdir.

"Hökümət Gəncə şəhərinə köçən kimi /iyun ayının əvvəlində/ mənim layihəm hərb nazirliyi müəssisələrinin müfəssəl sxemi şəklində Nazirlər Sovetinin sədrinə təqdim edilmişdir.

Ehtimal edilirdi ki, hökümətə tam məlumatı, yəqin ki, Nazirlər Sovetinin müvafiq iclasına dəvət ediləcək korpus komandiri şəxsən özü təqdim edəcək.

Lakin mən heç bir yerə dəvət edilməmişəm və layihə haqqında heç bir xəbərdarlıq almamışam. Guman edirəm ki, layihə heç müzakirə edilməmişdir. Çünki Bakı quberniyasının bolşeviklərdən təmizlənməsi və bunun üçün lazım olan xarici kömək ilə əlaqədar olaraq yaranmış xüsusi şəraitə görə hökümət hərb naziri təyin etməkdən imtina etmişdir".

Nəhayət, hökümətin əmrilə 1918-ci il dekabrın 25-də tam artilleriya generalı Səməd bəy Mehmandarov hərb naziri oldu və həmin gün yanıqlı bəyanatla xalqa müraciət etdi. Dekabrın 29-da isə general-leytenant Əli ağa Şıxlinski hərb nazirin müavini təyin edildi.

"…Əli ağa Şıxlinski Cümhuriyyət dövründə Səməd bəyin müavini olmaqla bərabər həm də onun sağ əli idi. Səməd bəy Ə.Şıxlinskinin işıqlı zəkasını, hərbçilik istedadını və nəhayət, insani keyfiyyətlərini yüksək qiymətləndirirdi. Səməd bəy Ə.Şıxlinskinin bilik və təcrübəsindən özü bəhrələndiyi kimi, ordu quruculuğunda da ondan geniş istifadə edilirdi. Ordu quruculuğu prosesinin elmi-praktik biliklər tələb edən məsələlərinin həlli əsasən Ə.Şıxlinskiyə həvalə edilirdi və həmin məsələlərin keyfiyyətlə həll ediləcəyinə də Səməd bəydə heç vaxt şübhə olmazdı. Səməd bəy insani qısqanclıqdan həmişə uzaq olmuşdu və vaxtilə rastlaşdığı bir çox hərbiçilərdən fərqli olaraq o, Ə.Şıxlinski kimi bir hərbiçi ilə birgə xidmət etməyi nəinki karyerasına təhlükə saymamış, əksinə, onun nazir müavini olmasını təkidlə Cümhuriyyət hökuməti qarşısında qaldırmışdı. Səməd bəy bilirdi ki, Ə.Şıxlinski bütünlükdə Nazirliyin yükünü öz üzərinə götürməyə qadir olan bir şəxsdir və onun xidmət başında olması xalqına yalnız fayda verə bilər. Nazirlikdə olmadığı vaxtlarda da Səməd bəy nazir vəzifəsinin icrasını Ə.Şıxlinskiyə həvalə edərdi. Cümhuriyyət dövründə hərbi nazirin vəzifəsini digər generallar da icra etmişlər. Ancaq bu o zaman olurdu ki, həm Mehmandarov, həm də Ə.Şıxlinski xidməti ezamiyyətdə olurdular.

***General Ə.Şıxlinskinin Cümhuriyyət ordusunun təşkilində çox böyük xidmətləri vardır. Onun komandanlığı altında yaradılmış Müsəlman korpusunun və Azərbaycan korpusunun tarixinə toxunmadan qeyd etmək lazımdır ki, ilk milli peşəkar milli hərbi məktəbin təşkili də əslində Ə.Şıxlinskinin adı ilə bağlanmalıdır.*** Gəncədə açılan bu məktəbin – Milli hərbiyyə məktəbinin işə başlaması çox vaxt tarixi ədəbiyyatda türk hərbiçilərinin fəaliyyəti ilə bağlanılır. Sözsüz ki, Milli hərbiyyə məktəbinin fəaliyyətə başlamasında, ilk milli hərbi kadrların hazırlanmasında türk hərbiçilərinin böyük zəhmətini qiymətləndirməmək olmaz. ***Ancaq ədalət naminə o da bildirilməlidir ki, Milli hərbiyyə məktəbinin əsası Ə.Şıxlinski tərəfindən qoyulmuşdur. Bu məktəbin təşkili üçün Ə.Şıxlinski Müsəlman korpusunun komandiri kimi 1918-ci ilin əvvəllərində əmr vermişdi.*** Məktəb Bakıda açılmalı idi. Sonradan Bakıda hərbi şəraitin mürəkkəbləşməsi üzündən onun Gəncədə təşkili qərara alındı". (M.Süleymanov. "Mehmandarov" kitabı, Bakı, 2000, səh.167)

## GENERALA ALİM QAYĞISI

*Əli ağa Şıxlinski taktika sahəsində dərin nəzəri əməli bilikli sayca çox olmayan artilleristlərdən biri olub. O, hərb elmini təcrübədə tətbiq etmək sahəsində nadir bir istedada malik idi. Əli ağanın qəhrəmanlığı öz vətəninin şərəf və azadlığını müdafiə edən hər bir şəxs üçün nümunə olmalıdır.*

***Hərb elimləri doktoru,***
***professor general-mayor,***
***Dövlət mükafatı laureatı Yevgeni Barsukov***

*Əli ağada general təkkəbbüründən əsər-əlamət yox idi. General Şıxlinski hərbi akademiyanı bitirməsə də, fitri zəkası, praktik fəhmi artilleriya elmində ona böyük nüfuz qazandırmışdı.*

***Aleksandr Stepanovun***
***"Zvonaryovlar ailəsi" romanından***

Şöhrətli sərkərdəmiz Əli ağa Hacı İsmayıl ağa oğlu Şıxlinskidən danışanda filosof-alim Heydər Hüseynovun xidmətlərini unutmaq haqsızlıq olardı. Generalın "Xatirələrim" kitabının yazılmasında ən müstəsna rolu olan ilkin şəxs Azərbaycan Elmlər Akademiyasının akademiki Heydər Hüseynovdur.

Bu "Xatirələr" Azərbaycan tarixində yeganə və ilk hərbi memuardır. Düzdür, yetmiş-səksəninci illərdə bəzi veteranlar Böyük Vətən Müharibəsi haqqında xatirələrini qələmə aldılar. Lakin heç biri general Əli ağa Şıxlinskinin əsərinin səviyyəsinə çatmadı. İstər faktların zənginliyi, istər mövzu baxımından, istərsə də yazı dilinin şirinliyinə görə əsər özünə geniş oxucu marağı qazandırmışdır. Yalnız mərhum polkovnik Baxış Mehdiyevin 223-cü Azərbaycan atıcı diviziyası haqqında yazdığı "Xatirələrim" kitabını hardasa general Əli ağa Şıxlinskinin hərbi memuarı ilə yanaşı qoymaq olar.

1944-cü ildə akademik Heydər Hüseynov general Əli ağa Şıxlinskinin xatirələrini iki dildə - Rus və Azərbaycan dillərində 7500 nüsxə tirajla nəşr etdirdi. Təəssüf ki, amansız ölüm görkəmli generalımıza xatirələrini kitab şəklində görməyə imkan vermədi. Kitab generalın ölümündən doqquz ay



sonra - 1944-cü ilin may ayında nəşr olundu. Bu qiymətli kitaba hərb elminin böyük alimi professor, general-mayor Yevgeni Barsukov çox dəyərli ön söz yazmışdır. Əlbəttə, bu da akademik Heydər Hüseynovun xidmətidir. Maraqlı burasıdır ki, general Əli ağa Şıxlinskinin şəxsiyyəti və döyüş qəhrəmanlığı ilə fəxr edən Heydər Hüseynov general Barsukovun həmin məqaləsini (lç.v.həc.) yenə iki dildə ayrıca kitabça şəklində "Əli ağa Şıxlinski" adı ilə nəşr etdirmişdir. Bundan başqa alim Heydər Hüseynov həmin illərdə Rusiyanın görkəmli sərkərdələrinə, vaxtı ilə Əli ağa Şıxlinski ilə birgə çalışıb işləyənlərin xatirələrini istəmişdir.

Məhz Heydər Hüseynovun təşəbbüsü ilə 1945-ci ildə Moskvada çıxan "İstoriçeskiy jurnal"ın üçüncü nömrəsində professor Arkadi Lavroviç Sidorovun generalın kitabı haqqında "Ə. Şıxlinski - Mənim Xatirələrim" adlı elmi məqaləsi dərc olunmuşdur.

M. V. Lomonosov adına Moskva Dövlət Universitetinin professoru A. L. Sidorov bu qiymətli kitabın hərbiçilər və tarixçi alimlər üçün ən yaxşı məxəz olmasından bəhs edərək yazır:

"General Əli ağa Şıxlinskinin xatirələri inqilabdan sonra da öz əlaqəsini Vətəndən və ordudan kəsməyən şəxslər tərəfindən yazılmış qiymətli tarixi sənədlərdən biridir. Buna görə də Şıxlinskinin xatirələri, ordunun tarixini öyrənmək üçün xüsusi bir məxəz kimi qiymətlidir.

Rus-Yapon müharibəsi haqqındakı fəslin tarixçilər üçün əhəmiyyəti daha böyükdür. Məhşur artilleriyaçı Əli ağa Şıxlinskinin adı artilleriya elmində həmişə hörmətlə çəkilib və gələcək illərdə də çəkiləcəkdir".

Məhz bundan sonra generalın xatirələri İttifaq miqyasında daha çox şöhrət qazanmışdır. Baş Artilleriya marşalı Nikolay Yakovlev, general-polkovnik Mixail Parseqov, Birinci Dünya Müharibəsi illərində general Şıxlinskinin tabeliyində hərbi xidmətdə olan ordu generalı Pavel Lebedev və başqaları bu qiymətli kitabdan bir nüsxə onlar üçün göndərməyi Heydər Hüseynovdan xahiş etmişlər.

1945-ci il aprelin 20-də professor general-mayor Yevgeni Barsukov akademik Heydər Hüseynova göndərdiyi məktubunda yazırdı: "Sizdən artıq dərəcədə xahiş edirəm general Əli ağa Şıxlinskinin "Xatirələrim"dən heç olmasa iki nüsxə də əlavə göndərəsiniz. Mənim xahişimi rədd etməyin. Baş Qərargahda yoldaşlar məndən çox-çox rica edirlər, çünki biz artilleristlərə, ilk növbədə artilleriyamızın şanlı tarixini öyrənmək üçün general Əli ağa Şıxlinskinin kitabı əvəzsiz vəsaitdir".

1945-ci il aprelin iyirmi altısında isə artilleriya general polkovniki Mixail Parseqov SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının direktoruna yazırdı: "Hörmətli direktor, bu gün SSRİ EA Tarix İnstitunun nəşri olan "İstoriçeskiy jurnal"ın üçüncü nömrəsini "Tənqid və biblioqrafiya" bölməsində Moskva Dövlət Universitetinin professoru Arkadi Sidorovun "Əli ağa Şıxlinski. Mənim xatirələrim" resenziyasını oxudum. Giriş sözü Dövlət mükafatı laureatı, hərb elmləri doktoru E. Z. Barsukovundur.

Məlum olduğu kimi, Əli ağa Şıxlinski qocaman artilleriya (topçu) generalıdır, onun böyük mübariz həyat təcrübəsi var. İlk dəfə mən bu general barədə iyirmi il bundan əvvəl eşitmişəm, o vaxt mən hələ Qızıl Ordu artilleriyasının təkmilləşmə kursunda dinləyici idim.

Artıq dərəcədə Sizdən təvəqqə edirəm, xahişimi rədd etməyib mənə general Əli ağa Şıxlinskinin "Mənim xatirələrim" əsərinin bir nüsxəsini göndərəsiniz. Çünki biz artilleristlərə ilk növbədə artilleriyamızın tarixini bilmək üçün hər bir hərbiçinin stolüstü kitabıdır".

Generalın döyüş yolunu, şəxsiyyətini, ədəbi-bədii yaradıcılığını, ən başlıcası onu tarixi şəxsiyyət kimi qiymətləndirən alim Heydər Hüseynov yazırdı: "General Əli ağa Şıxlinski ilə yaxından tanış olanlar, onun maraqlı söhbətlərinə qulaq asanlar bilirlər ki, bu təvəzökar və səmimi insan nə qədər ağıllı və ibrətli bir şəxs idi".

***

Alim Heydər Hüseynov general Şıxlinskinin ölümündən sonra da onun xidmətlərinin unutmamış, xatirəsini əziz saxlamışdır. O, Respublika mərkəzi mətbuatında generalın ömür və döyüş yolundan bəhs edən Rus və Azərbaycan dillərində silsilə məqalələr dərc etdirmişdir: "Bakinski raboçi"

(18 avqust 1944-cü il). "Kommunist" qəzeti (18 mart 1944-cü il). "Azərbaycan EA Xəbərləri" (№8 səh. 87-94, 1945-ci il), "Kommunist" qəzeti (18 avqust 1945-ci il), "Ədəbiyyat qəzeti" ("5 avqust 1945-ci il), "Azərbaycan" (Cənubi Azərbaycan Demokrat firqəsinin orqanı, 1946-cı il, №8, səh. 14-15), "Kommunist" qəzeti (18 avqust 1946-cı il), "İzv. Az. FAN" (1944-cü il, №9, səh. 78-83).

Görkəmli ədəbiyyatşunas - alim Məmməd Arif 1965-ci ildə "Heydər Hüseynov" adlı məqaləsində yazır: "Çap olunan şey qalacaqdır" - sözlərini təkrar edən Heydər Hüseynov nəşriyyat işinə xüsusi əhəmiyyət verirdi. O, yeni çıxan kitabı əlinə götürüb iftixarla deyərdi: "Tərcümədə respublikalar arasında biz qabaqda gedirik. Bax, bu Üzeyir bəy Hacıbəyovun "Azərbaycan musiqisinin əsasları" əsəridir; xalq musiqisi haqqında misilsiz kitabdır. Bəs general Əli ağa Şıxlinskinin xatirələrini oxumusunuzmu?.. Oxuyun, görün, orda nələr var, şöhrətli bir insanın döyüş və ömür yolu başdan-başa tarixdir".

Bütün bunları tədqiq edən nəşri üçün ürəkdən sevinən, generalın elmi fəaliyyəti ilə iftixar edən alim ***Heydər Hüseynov yazırdı: "Əli ağa Şıxlinski dünyada şöhrət qazanmış artilleriya elmi sahəsindəki kəşfləri və fəaliyyəti ilə yanaşı olaraq, dil və ədəbiyyat məsələləri ilə də yaxından məşğul olurdu. O, uzun illər Rusiyada qulluq etsə də Azərbaycan dilinin mükəmməl bilirdi. İslah, ifadə quruluşu, yeni söz yaradıcılığı ilə ciddi məşğul olmuşdur".***




Çoxları indiyədək bilmir ki, general həm də güclü poeziya həvəskarı idi. Onun özünün yazdığı bir sıra şerləri, bədii tərcümələri və məktubları alim Heydər Hüseynovun şəxsi fondunda saxlanılır. Generalın 1904-cü ildən qeydlər apardığı "Zabitin dəftəri"də alimin fondunda saxlanılır. General iftixarla yazır ki, mən klassik şairlərimiz Molla Vəli Vidadinin, Mustafa ağa Arif Şıxlinskinin və Mirzə Məhəmməd Qayıbzadənin nəslinə məxsusam. Anam Şahyəmən xanım Molla Vəli Vidadinin qız nəvəsidir.

Alim Heydər Hüseynov 1945-ci il aprelin 20-də general Şıxlinskinin qayını doktor Bahadır bəy Qayıbovun tibbi-ictimai fəaliyyətinin 40 illiyi münasibəti ilə təbrik məktubunda yazırdı: "Mən burada Sizin Vətən və elm qarşısındakı daha böyük xidmətinizi qeyd etmək istəyirəm. Siz və Sizin həyat yoldaşınız məşhur hərbi xadim və alim, keçmiş ordunun generalı, Azərbaycan xalqının sadiq oğlu Əli ağa Şıxlinskinin həyatının son illərini qayğı və diqqətlə əhatə etmiş və bəzəmisiniz".

Doktor Bahadır bəy Qayıbov isə 1946-cı il sentyabrın 30-u tarixli məktubunda yazırdı:

***"Hörmətli Heydər Nəcəfoğlu!***

Əlbəttə, Sizin unudulmaz Əli ağa və Nigar bacı haqqında yazılarınız həmişə çox uğurlu alınır. Bəli, onları unutmaq olmaz! Onların hər ikisi öz vətəni Azərbaycanı və xalqını səmimi qəlbdən sevirdilər. Onlar yalnız təhsil aldığı rus dilini deyil, öz doğma ana dillərinini də əla bilirdilər.

Heç vaxt unutmaram ki, onların hər iksinə şəxsən ana dilində təhsil verən, həmçinin Tiflisdə və Qoridə Müəllimlər Seminariyasında yüzlərlə Azərbaycanlı uşağını oxudan rəhmətlik atam Mirzə Hüseyn Əfəndi Qayıbzadə səbabkardır. Rəhmətlik Nigar bacım atamdan daha çox şey əxz etmişdir; o, yetkinliyində, nəinki İran klassikləri Sədi, Firdovsi, Hafiz, Cami, türk Məhəmməd Fizuli, Molla Pənah Vaqif və başqalarını oxumuş həmçinin klassik şairlərimiz Xəqani, Nizami, Əlişir Nəvaini mütaliyə etmiş ərəb dilini öyrənmiş və ərəb ədəbiyyatı ilə də yaxından tanış idi.



Heyf ki, Siz onunla tanış deyildiniz. O, həqiqətən rus dili bir yana, Azərbaycan və fars ədəbiyyatının bilicisi idi.

***Hörmətlə Sizin dostunuz:***
***Bahadır bəy Qayıbov"***

## SOLMAYAN ŞÖHRƏT VƏ ƏBƏDİ MƏHƏBBƏT



1943-cü il avqustun 18-də indiki Musa Nağıyev adına xəstəxanada kardiosklerozdan vəfat edən general Əli ağa Şıxlinskinin dəfn mərasimini filosof-alim Heydər Hüseynovun özü təşkil etdi. Generalla heç bir qohumuluğu olmayan alimin Ə. Şıxlinski şəxsiyyətinə, onun sərkərdəlik fəaliyyətinə, xüsusilə, lüğətçilik sahəsindəki elmi-publisistik yaradıcılığına böyük rəğbəti vardı.

Dəfn mərasimi Bakı Hərbi Qarnizonunundan çağırılmış alay orkestrlə müşayət etdi. Qəbri üstündə topdan və avtomat lardan yaylım atəşi atıldı. "Artilleriyanın allahı"nı görkəmli sərkərdələrə məxsus hərbi qaydada torpağa tapşırdılar. Heydər Hüseynovun özü, generalın yetirmələri və qohumları son vida nitqi söylədilər.

Tam artilleriya generalı Əli ağa Hacı İsmayıl ağa oğlu Şıxlinskinin adı və hərbi quruculuq tariximizdəki misilsiz xidmətləri bu gün də unudulmamışdır. İndi Bakıda, Gəncədə, İmişli və Qazax rayonlarında abad küçələr onun adını daşıyır. Respublika Nazirlər Sovetinin 1990-cı il 28 iyul tarixli qərarı ilə Sabirabad rayonundakı altı saylı pambıqçılıq kolxozuna və Bakının yeddinci mikrorayonundakı 135 saylı orta məktəbə general Əli ağa Şıxlinskinin adı verilmişdir. Vaxtilə yaşadığı Cəfər Cabbarlı küçəsindəki binaya xatirə-barelyefi vurulmuşdur.

1990-ci il iyulun 23-də isə Respublika Prezdentinin fərmanı ilə ali məktəb tələbələri üçün xüsusi "general Əli ağa Şıxlinski" təqaüdü təsis edildi.

Qazax Xeyriyyə Cəmiyyəti cəbhə bölgəsində və orduda fəallıq göstərən

əsgər və zabitlər üçün "General Əli ağa Şıxlinski mükafatı" təsis edib. Hər il general Əli ağa Şıxlinskinin doğum və vəfatı günü qeyd olunur. Fəaliyyəti və şəxsiyyəti haqqında kitablar və çoxlu məqalələr yazılır, xatirə günü keçirilir.

Vətənin, doğma Azərbaycanın şərəf və azadlığı yolunda igid bir sərkərdə kimi danılmaz xidmətləri olan tam artilleriya generalı Əli ağa Şıxlinski doğma xalqının ehtiramına tam mənada layiq şəxsiyyətdir.

## YADLARIN ETİRAFI

***General Əli ağa Şıxlinskinin adı daima böyük nüfuza və rəğbətə malik olmuşdur. O, təkcə rus topçularına deyil, Avstriya və Fransa ordusunun geniş dairələrində də çox yaxşı tanınmışdı və son dərəcə məhşurlaşmışdı.***

***General-mayor,***
***hərb elmləri doktoru,***
***professor Yevgeni Barsukov***

İllər keçəcək, zaman, dövr dəyişəcək ama məhşur sərkərdəmiz Əli ağa Şıxlinskinin hərbi-elmi fəaliyyətinə, sərkərdəlik bacarığına münasibət dəyişməyəcək… yeni gələn nəsl onun hərbi biliyindən bəhrələnəcək, döyüş yolu ilə fəxr edəcək.

Vaxtilə Əli ağa Şıxlinskinin müasiri olan minlərlə rus generalı nizami orduda xidmət edir və müxtəlif hərbi-elmi mərkəzlərdə çalışırdı. Hər birinin də özünə görə bacarığı və xidməti vardı. Amma heç bir rus və ya qeyri millətdən olan oğula "Artilleriyanın allahı" kimi fəxri ad almaq qismət olmadı. Bu şöhrət çələngi ancaq bizim eloğlumuzun - Əli ağa Şıxlinskinin çiyinlərinə qondu. Nizami ordu generalı Əli ağa Şıxlinski hərb elminin alimi kimi qeyri-adi bacarığa malik şəxsiyyət idi. 1912-ci ildə "Şıxlinski üçbücağı" Varşavada nəşr olunanda (Professor V.Bertelsin ön sözü ilə) eloğlumuzun şöhrəti Avstriya, Fransa, Norvegiya və başqa ölkələrin sərhədlərini aşdı. Həmin ili Artilleriya Zabitləri məktəbinə birinci müavin təyin edilən Şıxlinskiyə dünyanın adlı-sanlı topçuları təbrik teleqramı göndərdilər.

Fransa Topçu Zabitləri məktəbinin rəisi, general-mayor Nolle iftixarla yazırdı:

***"Rus topçu məktəbinin ikinci şefi (məktəb müdrinin müavini ikinci rəhbər***

***hesab olunurdu - Ş. N.) təyin edilməyinizi eşitdim. Sizin simanızda rus artilleriyasını təbrik edirəm".***

***Rusiya Baş Qərargah Akademiyasının professoru, general-mayor A. A. Neznamov isə yazırdı: "Sizi və rus artilleriyasını təbrik edirəm".***

Yalnız bir şəxsin timsalında bütöv bir ölkənin artilleriya heyətini təbrik etmək… əlbəttə, o şəxsin - Əli ağa Şıxlinskinin böyüklüyündən, dahiliyindən başqa bir şey deyildi. Üstəlik də yad məmləkətdə, xristian dünyasında tək bir türk-Azərbaycan oğlu Əli ağa Şıxlinskinin danılmaz, parlaq qələbəsi idi.

Bu günlərimizdə isə - tarixin olduğu kimi yazıldığı bir vaxtda rus tarixçisi B. Semyannikov ulu babamız Şıxlinskinin doxsan il əvvəlki parlaq qələbəsini etiraf etmişdir. Onun "Rusiya generalı, Azərbaycan oğlu" məqaləsinin "Voennıe znaniya" jurnalında (1995-ci il, noyabr ayı) dərc olunması oxucuda təəccüb hissi doğurmamalıdır. Əksinə iftixar və sevincə səbəb olmalıdır.

B. Semyannikovun məqaləsi Əli ağa Şıxlinskinin hərbi fəaliyyətinin 1917-ci ilə qədərki dövrünü qısaca əhatə edir. Bu da təbii haldır. Əlbəttə rus tarixçisi eloğlumuzun Milli Azərbaycan ordusunun yaradılması kimi misilsiz fəaliyyətindən bixəbərdir. Üstəlik də general Əli ağa Şıxlinski ömrünün sonuna kimi (1943) milli Azərbaycan diviziyalarının təşkilində, Azərbaycanda ilk dəfə "Hərbi bilik" jurnalının, Hərbi-Elmi Cəmiyytin, hərbi lüğətin, hərbi nizamnamələrin yazılması və tərcüməsində əvəzsiz əmək sərf etmişdir.

Bütün bunların tədqiq olunması bu gün Azərbaycan hərb tarixçilərinin vəzifə borcudur.

Rus tarixçisi B. Semyannikovun yığcam yazılmış oxunaqlı məqaləsində hər şey olduğu kimi tədqiq olunmuşdur. Hətta bizə məlum olmayan bir neçə fakt yenilik oldu: 1912-ci ildə Peterburqda "Artilleriya Zabitləri məktəbinin jurnalı"nın ilk dəfə Əli ağa Şıxlinskinin təşəbbüsü ilə buraxılması, 1917-ci il aprelin 2-də Əli ağa Şıxlinskinin general-leytenant rütbəsi alması və s. faktlar Azərbaycan oxucusu üçün yenilikdir.

Yalnız bir faktda rus tarixçisi B. Semyannikov səhvə yol vermişdir. O da Əli ağa Şıxlinskinin təvəllüd tarixinin 1866-cı il kimi göstərilməsidir. Bu, əlbəttə, o qədər də qeyri-adi səhv deyil.

Zənnimizcə. Tarixçi B. Semyannikovun məqaləsində gedən təvəllüd yanlışlığı olsa-olsa mətbəə səhvi ola bilər. Şübhəsiz ki, bu fakt tarixçi B Semyannikovun məqaləsinin istər elmi, istərsə də publisistik dəyərini azaltmır. Azərbaycan hərb tarixi üçün qiymətli odur ki, bizim xalqın görkəmli oğlunun xidmətini yadlar da etiraf edirlər.

***

***Ümumiyyətlə, götürdükdə general Əli ağa Şıxlinskinin təvəllüd tarixi yalnız bir mənbədə səhv göstərilib. Generalın vəfatından bir il sonra 1944-cü ildə nəşr olunmuş "Xatirələrim" kitabında onun təvəllüd tarixi 23 aprel 1863-cü il göstərilib. Üzdə olan bu səhv faktla hamı Əli ağa Şıxlinskinin ad və xatirə gününü qeyd edir. Amma arxivlərdə saxlanan rəsmi sənədlər bunu inkar edir.***

***Unutmamalıyıq ki, generalın "Xatirələrim" kitabı ölümündən doqquz ay sonra nəşr olunub. İndi generalın şəxsi əşyaları arasında saxlanan 1943-cü ilin iyun və avqust ayına məxsus sənədlərdə kiminsə tərəfindən edilən saxtakarlıqlar aydınca görünür.***

***Generalın təvəllüdündə yalnız 23 aprel doğum günü olduğu kimi saxlanılıb. Anadan olma ili isə qara mürəkkəblə düzəldilib. 1865-ci il, 1863-cü illə əvəz olunmuşdur.***

***Bəs general Əli ağa Şıxlinskiyə məxsus sənədlərdə bu saxtakarlığı kim eləmişdir? Mərkəzi Dövlət Tarix Muzeyində saxlanan sənədlərdə generalın qaynı Bahadır Qayıbovun arvadı, milliyyətcə erməni olan Varvara Minayevanın elədiyi məlum olur. Tamamilə generala məxsus olmayan xətlə Əli ağa Şıxlinskinin adından Varvara özünə vərəsəlik yazıb. Həmin saxta sənədləri keçmiş Oktyabr Rayon Hərbi Komissarlığının dördüncü şöbə rəisi Tumanyan və Bakı şəhər dördüncü milis şöbəsinin "məsul şəxsi Kerimaryuk" imzalayıb təsdiq etmiş və çox pis oxunan möhür vurmuşlar.***

***Şübhəsiz ki, generalın ölümündən sonra da vərəsə kimi Varvara Minayeva fərdi təqaüd (ayda 500 manat) almaq üçün belə bir saxtakarlığa əl atmışdır.***

***General Əli ağa Şıxlinskiyə məxsus sənədlərdən məlum olur ki, həmin günlərdə o "Semaşko" xəstəxanasında son günlərini yaşayırdı. erməni Varvara Minayevanın saxtakarlığını sübut etmək üçün Sankt-Peterburq, Moskva və Çarskoye-Seloda saxlanan rəsmi arxiv sənədlərinə müraciət edək.***

***Sankt -Peterburqdakı Artilleriya muzeyinin arxivində saxlanan sənəddə general Əli ağa Şıxlinski öz dəsti-xətti ilə "1865-ci il aprelin 23-də anadan olmuşam" sözlərini yazıb.***

***1914-cü ildə Çarskoye-Selo şəhərində özünün qol çəkib təsdiq etdiyi "Hərbi xidmət kitabçası"nda oxuyuruq "1865-ci il aprelin 23-də Yelizavetpol quberniyası, Qazax qəzasının Qazaxlı kəndində ağalıq nəslində anadan olmuşam".***

***Həmin sənədin on birinci səhifəsində isə yazır: "1909-cu il oktyabrın 27-də, 44 yaşında Zaqafqaziya müftisi Mirzə Hüseyn əfəndi Qayıbovun qızı-dul qadın Nigar xanım Palovandova ilə qanuni evlənmişəm. Uşaqlarımız yoxdur. Hər ikimiz İslam dininə etiqad edirik".***



*Nigar və Cövhər xanım bacıları*

Generalın 1944-cü ildə çıxan "Xatirələrim" kitabında isə saxta düzəliş edilib "46 yaşında" yazılıb.

Bu sətirlərin müəllifi 1984-cü ildə Sankt-Peterburqda və Çarskoye-Seloda yaradıcılıq ezamiyyətində olarkən general Əli ağa Şıxlinskiyə məxsus "Hərbi xidmət kitabçası"nın kserosurətini çıxardıb gətirmişdir. Həmin qiymətli sənəd şəxsi arxivimdə saxlanılır. Onu da xatırladım ki, həmin sənədin bir surəti də Rusiya Mərkəzi Dövlət Hərbi Tarix arxivində mühafizə olunur. (Bax! F. H/k, iş 109, vərəq 1.)

1920-ci il Bakıda 28 aprel çevrilişinin səhəri bolşevik çekistləri həbs etdikləri Hərbiyyə naziri Səməd bəy Mehmandarova və müavini Əli ağa Şıxlinskiyə belə bir sualla müraciət etmişlər:

- Hansı partiyanın və ya inqilabın mənafeyini müdafiə edirsiniz?

***General Səməd bəy Mehmandarovun cavabı:***

***"Bütün ömrüm boyu mən, hər cür siyasətdən uzaq olmuşam"***

***General Əli ağa Şıxlinskinin cavabı: "Hər bir inqilaba əks-inqilab kimi yanaşıram, heç vaxt belə şeylərə qoşulmamışam, qoşulmazdım da…".***

Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin arxivində saxlanan həmin dindirilmə sənədində:

- Neçə yaşınız var? Harada yaşayırsınız? -sualına general Əli ağa Şıxlinski belə cavab vermişdir.

- Əlli beş yaşım var. 1865-ci ildə anadan olmuşam. Nikolayev küçəsində (indiki İstiqlal küçəsi - Ş.N) beş saylı evin üçüncü mənzilində yaşayıram.

Rus hərb tarixçisi K. A. Zalesskinin 2003-cü ildə "Birinci Dünya müharibəsində kim-kim olub" iri həcmli (893 səh) ensiklopedik əsəri Moskvada nəşr olunub. Həmin kitabın 675 və 676-cı səhifələrində general Əli ağa Şıxlinski haqqında geniş məlumat verilir. Orada da generalın doğum təvəllüdü 23 aprel 1865-ci il göstərilir.

## VƏTƏNİ CANDAN ƏZİZ TUTAN GENERAL
*(Sənədli hekayə)*

***Azərbaycan nişançı firqəsi gəncdir. Azərbaycan qızıl əsgərlərinin keçmiş təcrübəsi azdır. Ona görə də onlar öz hərbi biliklərini artırmaq üçün daha çox çalışmalıdırlar. Onların Hərb zamanında döyüşkən olcaqlarına tam əminəm. Azərbaycan qızıl əsgərinə səmimi salamlar.***

***Bakı, 1925-ci il 18 aprel***
***Mixail Frunze.***

1925-ci il aprelin 16-da SSRİ Hərbi və Dəniz İşləri Xalq Komissarı M. V. Frunze ikinci dəfə Azərbaycana gəldi. Qarnizon qoşunları Salyan qazarmaları önündə ona təqdim olundu. General Əli ağa Şıxlinski Azərbaycan komanda heyəti məktəbinin rəis müavini vəzifəsində idi. Komissar generalla köhnə tanış kimi (onlar 1916-cı ildə Qərb cəbhəsində tanış olmuşdular) səmimiyyətlə görüşdü və xahiş etdi ki, indi keçiriləcək müxtəsər təlim vaxtı onunla azərbaycanlı əsgərlər arasında tərcüməçi olsun. Azərbaycanlı əsgər və zabitlərin hərbi işə marağını, hərbi biliyini yoxlamaq üçün Mixail Frunze əvvəlcə sadə suallar verirdi. Cavablardan razı qalan komandan suallarını getdikcə mürəkkəbləşdirirdi. Üz-gözündən hiss olunurdu ki, topçuların həm təlim, həm də taktiki biliyi onu qane edir. Xoş əhval-ruhiyyə ilə şən-şən gülümsünən komandan aradabir onlarla zarafatlaşırdı: "Nişanlın varmı, ona məktub yazırsanmı? Çalış, Azərbaycan gözəlinin gözünü yolda qoyma. Sən Vətəni, torpağı, ana-bacına görə qoruyursan, yoxsa sevgilin üçün?" - suallarına aldığı cavablara bəzən qəh-qəhə çəkib gülürdü.

Arabir də Türk-Qırğız dilində bildiyi sözləri işlədirdi: "Siz cigidsiniz, cigid qorxmaz!" - deyəndə topçu əsgərlər arasında pıçha-pıç düşürdü. Onları narahatçılıqdan xilas etmək naminə Frunze özü haqqında fəxrlə deyirdi: "Mənim əsl-nəcabətim Bessarabiyadandır. Orada da qonum-qonşumuz türklər və qırğızlar idi. Ötən il Türkiyədə olanda türkcə danışdığımı eşidənlər deyirdilər: "Ələdüşməz qırmızı rus-türküdür bu!" Əli ağanın sevinci Frunzeninkindən qat-qat artıq idi. Zarafat deyildi, komandan nə əsgərlərdə, nə də bir zabitdə qüsur olduğunu demədi halbuki qüsur vardı, istəsə deyərdi. Xırda-para qüsuru görürdüsə üstünü vürmurdu. Şıxlinski özü də hiss edirdi ki, komandan gəncləri orduya həvəsləndirir. Topçulara kağızsız qısa nitq söyləyən Frunze sonda fəxrlə qeyd etdi ki, Azərbaycan diviziyasının əldə etdiyi müvəffəqiyyətlər xüsusilə gözə çarpır. Bu diviziyada nizami duruş və hərbi təlim tamamilə təqdirəlayiqdir. Sizin pis əsgər, zəif zabit olmağa haqqınız yoxdur. Çünki sizin xalqa, sizə örnək olan general Səməd bəy Mehmandarov və Əli ağa Şıxlinski kimi şöhrətli sərkərdələriniz var. Çox sağ olun ki, onların adına layiq xidmət edir və onların yaxşı davamçılarısınız.

Təlimdən sonra Frunze general Əli ağa Şıxlinskidən soruşdu:

- Siz nə fikirdəsiniz, batalyonlarda top tətbiq etməyə dəyərmi?

- Əlbətdə dəyər, - cavabını verdi, general.

Mixail Frunze:

- Bununla biz piyadanın yükünü artırmış olarıqmı?

- Yox, artırmırıq, çünki qoşunda top, cibdə qızıl kimi bir şeydir: o nə qədər çox olsa, sahibinin ruhu da o qədər yüksək və özü də o qədər ürəkli olar. Başqa cür desək, orduda top nə qədər çox olsa, o qədər cürətlə hücum edər. - Bir də ki, Mixail Vasilyeviç, - deyə general izahını davam etdi - "batalyon topları" sözü düzgün olmaz, çünki orada minaatanlar və əldə sürülən kiçik toplar da olacaq ki, bunlar əsl toplar deyil, onların yalnız surroqatlarıdır. Batalyonlara verilən minaatanları və kiçik topları top deyil, batalyonun atəş vasitələri adlandırmaq lazımdır.

- Çox gözəl, çox yaxşı təkliflərdir, yoldaş general, - deyə ürəkdən səmimiyyətini bildirən M. V. Frunze - mən həmişə demişəm və yenə də deyirəm, Azərbaycanda general Şıxlinski üçün fəaliyyət sahəsi çox dardır. Sizin də, general Səməd bəy Mehmandarovun da iş yeri Moskvadır. Axı, Sizlər vaxtilə ordulara komandanlıq etmisiniz. 1921-ci ildə yoldaş Nərimanovun təkidli tələbi olmasaydı Sizi Azərbaycana qaytarmayacaqdıq… Yaxşı, nə üçün Moskvaya qayıdıb orada işləməyə, bizə kömək etməyə razılıq vermirsiniz?

General Əli ağa Şıxlinski:

-Əvvəla arvadım xəstədir, yaş ötüb kövrəlib, qohum-əqrabadan ayrılmaq istəmir - dedi. Elə mən özüm də. - Qocalmışam sözünü dilinə gətirə bilmədi - 1916-cı ilə baxmayın onda cavan idim. Vaxtilə rütubətli çəmənlərdə, su dolu səngərlərdə o qədər qalmışam ki, indi məndə şiddətli yel ağrıları baş qaldırıb. Bu vəziyyətdə qorxuram ki, vicdanla işləyə bilməyəm. Sizin dəvətinizi topçu müfəttişi, keçmiş şagirdim Mixail Mixayloviç Ratkeviç mənə çatdırıb. Çox sağ olun ki, unutmamısınız. Yalnız səhhətimə və ailə vəziyyətimə görə dəvətinizi qəbul edə bilmirəm…

Mixail Frunze əlini generalın çiyninə toxundurub:

- Söz verirəm ki, Sizə çətin və məsuliyyətli iş tapşırmayacayıq. Mənzil və təqaüdlə də təmin edərik, sakitcə yaşayacaqsınız. Hərdən bir məsləhət üçün Sizə müraciət edəcəyik. Buna ehtiyacımız var.

Əli ağa Şıxlinski fikirli-fikirli dedi:

- Mixail Vasilyeviç, axı Moskvada daha yaxşı hərbi mütəxəssislər var. Elə götürək mənim dostlarım general Aleksey Brusilovu, Yevgeni Barsukovu, bir də son vaxtları Voroşilov soyadlı generalı çox tərifləyirlər.

Frunze ehtiyatla ətrafına boylandı. Onlar əsgər və zabitlərin yığışdığı gur yerdən xeyli aralanmışdılar. Şıxlinski neçə dəfə ayaq saxlayıb geri dönmək istədisə hiss elədi ki, komandan nə dayanmaq, nə də geri qayıtmaq istəmir. Yanğı ilə danışa-danışa, asta-asta hey irəliləyirdilər. Onlar qarnizonun qərb tərəfinə doğru gedirdilər. Sonuncu qazarmanı keçib, geniş təlim-məşq meydanına çıxdılar. Yenicə susan Frunze dərdli adamlar kimi dərindən nəfəs aldı. Onun sifətində əzab nişanələri vardı. Topçularla görüşdəki şən-şux Frunzendən əsər əlamət yox idi.

- Əli ağa, - dedi, sizin dostunuz general Brusilov qocalıb xəstəhaldır. Karlovı-Varıya istirahətə, müalicəyə getdi. Düzü, indiki hakimiyyətin də ona münasibəti sən deyən yaxşı deyil. Belə ağıllı, bilikli mərd bir generalı qəbul etmək istəmirlər, köhnəliyin qalığı deyə ona hədyanla baxırlar. Məhz ona olan pis münasibət onu ruhdan salıb qocaltdı. Ona görə də başını götürüb müalicə adı ilə aradan çıxdı və düz də elədi.

Yevgeni Barsukov isə bildiyiniz kimi sırf hərbi nəzəriyyəçidir, kəsəsi elm xadimidir. Praktiki işlərdə məharəti yoxdur. Adını çəkdiyiniz Voroşilovda isə mən yaltaqlıqdan başqa heç nə görmürəm. Nə hərb elmində, nə də taktiki təcrübədə onun bacarığı yoxdur. Siz allah məni bağışlayın açıq danışdığım üçün…

- Sizi başa düşürəm, Mixail Vasilyeviç, düz sözə nə deyəsən. Mənə

Voroşilovla nə işləmək, nə də tanışlıq qismət olmayıb.

Mixail Frunze dərhal:

- Yaxşı ki, qismət olmayıb. Bilirsiniz, bu saat Qızıl Ordu deyilən təşkilatda vəziyyət necədir? İndiki halda bu ordu döyüş qabiliyyətini tamamilə itirib, pərakəndə intizamsız quldur dəstəsini xatırladır. İnanın, mən sizə bu sözləri Baş Hərbi İdarənin başçısı kimi deyirəm. Sizi Dünya müharibəsindən yaxşı tanıdığıma görə ürəyimdəkiləri açıb söyləyirəm. Yeni qurulan hökumətə belə ordu yaramır. Hakimiyyət orduya baxmır, yuxarı eşalon siyasi çəkişmələrlə məşğuldur.

- Mixail Vasilyeviç, yaxşı hərbi kadrların əksəriyyəti mənə çatan məlumata görə mühacirətə gedib. Onları çox nahaq buraxıblar.

Frunze:

- Buraxmaq yox, qovdular… Dərd burasındadır ki, 1918-1920-ci illərdə burada qalan bacarıqlı hərbi kadrların da əksəriyyəti güllələndi, yada bu saat türmələrdə çürüyürlər. Eloğlumuz Hüseyn xan Naxçıvanski yadınızdadırmı?

- Əlbəttə, əlbəttə çox böyük sərkərdə idi. Heyif ondan. Deyirlər Hüseyn xan güllələnəndən sonra ailəsi xaricə mühacirətə gedib.

- Hüseyn xanı 1919-cu ildə "çarın qohumusan, ona məktub yazmısan ki, hakimiyyətdən imtina etmə" faktını bəhanə gətirib güllələdilər. Eləcə də süvari generalı Aleksey Kaledini, qardaşı general Vasili Maksimoviçi, Kolçakı isə İrkutskda güllələdilər. Denikini ölkədən didərgin saldılar. General Dmitri Baqrationu, Eris xan Əliyevi və onlarla belələrini Lelinə sui-qəsdən sonra güllələdilər. İndi Qızıl ordu deyilən qurum fakt başsızdır. Ordu keçmiş praporşik və podpraporşiklərin ümidinə qalıb.

Əli ağa Şıxlinski onun səmimiyyətinə bir tərəfdən inanır, o biri tərəfdən qəlbinin dərinliyində şübhə onu boğurdu. O da ürəyindəkiləri, Sovet hökuməti dövrünün beş ilində şahidi olduğu ədalətsizlikləri danışıb yüngülləşmək istəyirdi. Amma ehtiyat edirdi… Frunze papirosunu atıb ayağı ilə əzdi:

- Sizdə - dedi, görürəm ki, balaca respublika olsanız da vəziyyət ordu barədə pis deyil. İki gündür gəzib görürəm. Mənim bildiyimə görə çar və müsavat dövrünün zabitlərini, hətta sıravi əsgərlərini də orduda saxlamısınız. Çox da yaxşı eləmisiniz. Bu yəqin ki, Səməd bəyin və Sizin təşəbbüsünüzdür. Bizdə isə deyirlər ki, fəhlə kəndli gəncləri orduya çağırın, qoy onlar komandanlıq etsinlər. Axı, istər kəndlinin, istərsə də fəhlənin peşəkar hərbçi kimi yetişməsinə bir qərinə vaxt gərəkdir. Əvvəla onların

əksəriyyəti sırf savadsızdır. Belə olan halda savadsız adamı komandir qoymaq olarmı. Əlbət ki, yox!

- Mixail Vasilyeviç, bizdə hələ bundan qat-qat yaxşı ola bilərdi. Keçmiş Az. ÇK-nın sədri namərd Semyon Pankratov olmasaydı. O, bizə, bizim orduya çox ağır zərbələr vurdu. İyirminci ildə yüzlərlə, minlərlə əsgər və zabitlərimizi, qabaqcıl ziyalılarımızı güllələtdi, didərgin saldı, Sibirə göndərdi. Müsavat generalı kimi yalnız Səməd bəylə mən qalmışam. Ona da Nəriman Nərimanov səbəbkar oldu. Düz üç dəfə bizi həbs etdi, sorğu-sual min cür baş ağrısı. Bircə ona şükür etdik ki, anamız namaz üstə imiş, rəhmətlik Nəriman tez xəbər tutub bizi xilas etdi.

Qaça-qaça gələn cavan bir kapitan onların beş altı addımlığında dayanda:

- İcazə Verin, yoldaş komandan, məruzə edim. Bizim komandir Sizi nahara dəvət edir.

Bikef Mixail Frunze:

- Gedin biz də indi gələrik,- deyib üzünü yenidən Əli ağaya tutdu. - Mən buradan başqa respublikalara da gedəcəyəm. Səfərim bir aya qədər davam edəcək. Xahiş edirəm, bu müddətdə götür-qoy edəsiniz. Moskvaya qayıdanda bu məsələ barədə yenə düşünməli olacağam.

- Fikirləşərəm, bəlkə bir çıxış yolu tapdım. Hələlik söz vermirəm…

Frunze gülə-gülə:

- Siz evdəki "generalla" oturub yaxşı-yaxşı düşünüb bir qərara gəlin. Mən öz adımdan da xanımınıza Can sağlığı arzu edirəm. Ümidim var ki, Moskvada yenidən görüşəcəyik…

Təəssüf ki, həmin il oktyabrın otuz birində komandan M. V. Frunze qəflətən müəmmalı şəkildə vəfat etdi. Cərrahiyyə əməliyyatı aparan Mərkəzi Komitənin həkimi, milliyətcə erməni Poqosyants bicliklə məhz Frunzenin bədəninin tab gətirmədiyi anestaziya (keyləşdirmə)tətbiq etmişdi. Komandan cərahiyyə stolunda keçindi. Bu ölümün qəsdən edildiyini dəqiqləşdirən Frunzenin arvadı Sofiya Alekseyevna intihar etdi. Yazıçı Boris Plinyak bu faciədən otuzuncu illərdə "Söndürülməmiş ay dastanı" əsərini yazdı. Həmin povest ona baha başa gəldi. Onu 1937-ci ildə güllələdilər. General Əli ağa Şıxlinski isə ömrünün axırına kimi (1943-cü il avqustun 18) candan əziz bildiyi vətəni Azərbaycanda qalıb işlədi.

# İLK HƏRBİ MEMUARIMIZ

***General Əli ağa Şıxlinski içərisindən çıxmış olduğu Azərbaycan xalqına bütün varlığı ilə sadiq olub, onu sonsuz dərəcədə sevib. Əli ağa Şıxlinskinin "Xatirələrim"i son dərəcə maraqlı və ibrətlidir. Bunu bütün vətənimizin geniş oxucu dairələrinə tövsiyə etməli, ordunun komanda heyəti onunla tanış olmalı, topçular isə öyrənməlidirlər.***

***Əli ağanın aldığı hərbi tərbiyə, təhsil, orduda xidməti, şanlı döyüş fəaliyyəti və keçdiyi yol elə bir həyat nümunəsidir ki, öz Vətəninin şərəf və namusunu, azadlıq və istiqlaliyyətini qorumaq kimi müqəddəs bir vəzifəyə layiq olmaq istəyən hər bir kəs ondan nümunə götürməlidir.***

***Yevgeni Barsukov,***
***general-mayor, hərb elmləri doktoru,***
***professor, Dövlət mükafatı laureatı***



*Birinci cərgədə soldan birinci Nigar xanım, dördüncü isə həyat yoldaşı general Əli ağa Şıxlinski (Çarskoe selo, 1912)*

Durğunluq dediyimiz illərdə şöhrətli sərkərdəmiz Əli ağa Şıxlinskinin "Xatirələrim" hərbi memuarına izahlar və qeydlər fəsli əlavə etməklə yenidən nəşrə hazırladım. (1982-1984). Kitabı hansı nəşriyyata təqdim edirdimsə bir-iki aydan sonra özümə qaytarırdılar ki, çar və müsavat generalı olub, nəşr edə bilmərik. Nəhayət, mərhum xalq yazıçımız İsmayıl Şıxlıya müraciət etdim. Daha doğrusu, ondan kömək istədim. Qovluğu götürüb İsmayıl müəllimlə birgə nəşriyyata getdik. Mübahisələr, yersiz iradlar başlandı, nə başlandı…

Vüqarla əyləşib, səbrlə bu nadanları dinləyən İsmayıl Şıxlının əvəzinə mən əsəbləşirdim. Yerimdə otura bilmirdim. Onun səbrinə heyran qalmışdım. Dinib cavab vermək istəyirdim. Düzü, İsmayıl müəllimdən çəkinirdim. O biri tərəfdən də burdakıların hamısı məndən yaşca çox böyük idi.

Qocalar o qədər "alovlu" danışırdılar ki, biri asqırdı, biri öskürürdü, üçüncüsünün səsi xırıldalayanda İsmayıl Şıxlı eynilə qəhrəmanı Cahandar ağa sayağı sərt səslə:

-Qurtardınız? - dedi. Sizin üçünüzə bircə sualım var. Bu kitabı 1944-cü ildə hamımızın yaxşı tanıdığı filosof-alim Heydər Hüseynov yazdırıb, cəmisi yeddi min nüsxə nəşr etdirib. Elə bir vaxtdakı Mircəfər Bağırovun qılıncının dalı da kəsirdi, qabağı da. Təbiidir ki, Stalin də hakimiyyətdə idi. İndi deyin görüm, Siz ağıllısınız, vətənpərvərsiniz yoxsa Heydər Hüseynov? Nə deyirsiniz?.. Aparaq bu kitabı rusca, ermənicə çap etdirək? Öz nəşriyyatımız, öz dilimiz ola-ola…

Üçlərdən heç biri dinmədi. Otağa ağır, çox ağır bir sükut çökmüşdü. Mən fəxrlə, həm də böyük qürur hissiylə döyüşdən qalib çıxmış sərkərdə - kişi kimi əyləşən İsmayıl Şıxlıya baxdım. Baxırdım və düşünürdüm ki, ürəyi, varlığı Azərbaycan üçün yanıb-yaxılan İsmayıl Şıxlılar niyə azdır… Amma ötəri də olsa gördüm ki, əzəmətli İsmayıl Şıxlının yaraşıqlı üzünün əti əsəbdən titrədi. O, şümşad barmaqları ilə eynəyini düzəldib:

- Gedək, Şəmistan, - deyib ayağa durdu. Bir-iki addım atar-atmaz başda əyləşən qoca yumşaq səslə:

- İsmayıl, qoy qovluq qalsın, baxarıq, yuxarılarla məsləhətləşərik, dedi:

İsmayıl müəllim sərt hərəkətlə geriyə dönüb:

- Yuxarıları bəhanə gətirməyin, - dedi. Siz kitabı plana salın, yuxarılarla özüm danışaram…

1984-cü ildə general Əli ağa Şıxlinskinin "Xatirələrim" kitabı uzun əziyyətdən və mübahisələrdən sonra "Azərnəşr"də rus və Azərbaycan



dillərində altmış min tiracla nəşr olundu.

Yeni nəşr olunmuş "Xatirələrim" kitabından üç nüsxəni Moskvaya, Hərbi Sovet Ensiklopediyasının baş redaksiyasına göndərdim. Əlavə məktub da yazıb baş redaksiyaya iradlarımı da bildirdim ki, rus general-mayorları və polkovnikləri haqqında ensiklopediyanızda məqalələr var. Amma general-leytenant Səməd bəy Mehmandarov, nə də Əli ağa Şıxlinski haqqında sətir belə yoxdur. Bunu necə başa düşək? Nə üçün belə şöhrətli generalların haqqında səkkiz cidlik "Hərbi Sovet Ensiklopediyası"nda qısaca bir məqalə verilməyib. Əgər general Şıxlinski haqqında məlumatınız yoxdursa, onun haqqında yazıb sizə bildiriəm. Həm də generalın kitabından üç nüsxə Sizə göndərirəm, ordan daha geniş məlumat ala bilərsiniz.

Düz bir aydan sonra "Hərbi memuar ədəbiyyatı" redaksiyasının baş redaktoru V. Makeyevdən cavab məktubu aldım. O, yazırdı ki, məktubunuzu və general-letenant Əli ağa Şıxlinskinin kitablarını aldıq. Generalın kitabını rəy üçün SSRİ Müdafiə Nazirliyinin Hərbi tarix İnstitutuna göndərdik. Yaxın günlərdə onlardan aldığımız rəyi sizə bildirəcəyik.

Nəhayət, 1986-cı il iyulun 26-da "Hərbi nəşriyyat"dan sevindirici cavab aldım. Bu dəfə hərbi-memuar redaksiyasının baş redaktor əvəzi A. Kryukov yazırdı ki, general-leytenant Əli ağa Şıxlinskinin kitabını redaksiyada oxuduq və onun yenidən çapını hərbi-tarixçi alimlərlə məsləhətləşdik. Kitab onların da çox xoşuna gəldi, institut əməkdaşları "Xatirələrim" kitabının çox qiymətli olmasını xüsusi qeyd etdilər. Lakin kitabın yenidən çap olunması üçün azı beş il növbəyə durmaq lazımdır.

Baş redaktor A. Kryukov mənə göndərdiyi cavabında M. V. Frunze adına Hərbi Akademiyanın Hərb-sənəti tarixi kafedrasının baş müəllimi, polkovnik L. Zaytsevin general-leytenant Şıxlinski kitabının yeni nəşri üçün yazdığı rəyi də göndərmişdi.

Düzü rəyi oxudum fərəhdən heyrətə gəldim. Ona görə ki, polkovnik L. Zaytsev böyük bir ürəklə və hərarətlə yazdığı altı səhifəlik makina yazısında Əli ağa Şıxlinskini xalqının həqiqi qəhrəmanı, alovlu vətənpərvəri adlandırırdı. Port-Artur, Birinci Dünya müharibəsindəki və artilleriya sahəsindəki misilsiz xidmətlərini xüsusi qeyd edirdi. Kitabın yenidən çapına tam məsuliyyətlə redaktor kimi cavabdeh olduğunu bildirirdi. Təəssüflənirdi ki, nə üçün kitab respublikamızda çox az -cəmisi 30 min (ruscası) tiracla nəşr olunub. Bunları ona görə qeyd edirəm ki, "Azərnəşr"də mənim kitaba yazdığım izahlar və qeydlər fəslində məhz bu sözləri "xalqımızın qəhrəman oğlu, igid general"ı ixtisar etmişdilər.

Əlavə olaraq polkovnik L. Zaytsev bildirirdi ki, "Birinci Dünya müharibəsi" adlı iri həcmli xatirələr, repartiojlar, oçerk və sənədlər məcmuəsini nəşrə hazırlayırıq. Sizin göndərdiyiniz general Əli ağa Şıxlinski kitabından "1916-cı ilin yayında Qərb cəbhəsində" fəslini bütövlükdə mən həmin məcmuəyə daxil etdim. Kitab 1989-cu ilin tematik planına daxil edilib.

Həmin ili 607 səhifəlik məcmuədə Əli ağa Şıxlinskinin xatirələrindən bir parça bu kitabda dərc olundu. Lakin Sovet hakimiyyəti dağıldığına görə generalın kitabı Moskvada işıq üzü görmədi…

## SANKT-PETERBURQDA İYİRMİ İKİ GÜN

***Əli ağa Şıxlinski heç bir zaman mənsəb dalınca düşməmişdir, onun heç bir himayəçisi olmamışdır. Xidmətdə irəli getmək üçün o, heç bir intriqaya əl atmamışdır: mənsəb özü onun ayağına gəlmiş və o, köhnə ordunun topçuluğunda yüksək vəzifə qazanmışsa, bu cəhətdən tamamilə özünə borcludur.***

***Dövlət mükafatı laureatı, general-mayor,***
***hərb elmləri doktoru, professor***
***Yevgeni Barsukov.***

Sankt-Peterburqda həmişə gur olan Sadovaya küçəsində qədim bir bina var. Məşhur rus yazıçısı Saltıkov-Şedrinin adını daşıyan kütləvi kitabxana burada yerləşir. Məni bu kitabxanaya məşhur general Əli ağa Şıxlinskinin inqilabdan əvvəl çıxmış kitabı və Peterburq jurnallarında dərc olunmuş məqalələri ilə tanış olmaq arzusu gətirmişdi.

Axtarışa "Rus jurnalı şöbəsi"ndən başladım. 1912-ci ildən fəaliyətə başlayan "Artilleriya zabitləri məktəbinin xəbərləri" jurnalının elə üçüncü nömrəsində Əli ağa Şıxlinskinin "Öz qoşunlarının başı üstündən top atəşi" adlı iri məqaləsi dərc olunub. Rus-yapon müharibəsindən sonra bu atəş üsulu məxtəlif fikirlərə səbəb olubmuş. Bir çoxları deyirmiş ki, hücum edən piyada qoşununu himayə etmək üçün bəzən onun başı üstündən atmaq lazımdır. Ali rütbəli zaitlərin bir qismi bu atəş üsulunun öz qoşunlarına zərər verəcəyindən ehtiyat edir, daha doğrusu, ondan istifadə etmək istəmirdilər.

Polkovnik Əli ağa Şıxlinski isə bu məqaləsində hesablama və sxemlərlə sübut edirdi ki, bu üsul, qoşunlar düzəngahda dayanıb hədəfə anjaq yüz sajen qalanda qorxuludur. "Bu məsafəyə qədər, heç bir şeydən ehtiyat etmədən atəş açmaq olar. Düşmən üzü bizə tərəf olan yamacı tutduqda, bu məsafə otuz-otuz beş sajen azalır. Düşmən bizimlə üzbəüz olan başqa bir yamacı tutduqda isə biz hücum edən hissəmizi süngü vuruşması başlayana qədər top atəşi ilə himayə edib qoruya bilərik". Həmin jurnalın 1914-cü il fevral (22) nömrəsində "V. İ" imzalı bir müəllif bu üsula yüksək qiymət verərək artilleristlərə tövsiyə edir ki, Port-Artur döyüşlərinin iştirakçısı Şıxlinskinin toxunduğu bu məsələni dərindən öyrənsinlər…

Bu yeniliyə dönə-dönə qayıdan jurnal özünün "Redaksiyadan" adlı qeyidlərində göstərir ki, Şıxlinskinin məqaləsi topçu qoşun komandirlərinin görüşlərində böyük və əsaslı dəyişiklik yaratdı.

General Əli ağa Şıxlinski 1942-ci ildə qələmə aldığı "Xatirələrim" adlı hərbi memuarında bu barədə yazır: "Hələ 1924-cü ildə Qızıl Ordu məcmuələrinin birində bu məsələyə istinad edilmişdir. Bu cür atəşdən qorxan skeptiklər (Skentik- Hər şeyə şübhə ilə baxan adam) şübhəsiz ki, indi də vadır".

İllərin zərrəcə saraldıb-soldura bilmədiyi jurnalı yenidən vərəqləyirəm. Yüksək keyfiyyətli kağızda çap olunmuş məqalələrlə, ölkənin ayrı-ayrı hərbi dairələrində qulluq edən artilleriyaçılar haqqında verilən xəbərlərlə yanaşı Şıxlinskinin müxtəlif şəkillərinə də rast gəldim. Onun ordugahda məşq zamanı, tələbə və zabit heyətilə birgə təsvir olunmuş şəkillərini nə şəxsi arxivində, nə də qohumlarında görmüşdüm.

Jurnalın 1914-cü il fevral nömrəsində "1913-cü ildə artilleriya zabitləri məktəbinin yerinə yetirdiyi kursun hesabatı" verilib. Qırx iki səhifəlik hesabat yeddi fəsildən və bir epiloqdan ibarətdir. Onu artilleriya zabitləri məktəbinin rəisi, artilleriya generalı Aleksandr Nikolayeviç Sinitsin, məktəbin rəis müavini general-mayor Əli ağa Şıxlinski və Sergeyev, hərbi təlim meydanının rəisi podpolkovnik İvanov imzalayıblar.

Jurnalın səhifələrindən öyrənirəm ki, 1913-cü ilin payızında artilleriya zabitləri məktəbinin rəisi, artilleriya-generalı A. N. Sinitsin qocalığına görə istefaya çıxır. Jurnal bu münasibətilə Sinitsinin portretini ikinci səhifədə dərc edir, haqqında böyük bir yazı verir. Əli ağa Şıxlinskinin bu münasibətilə yazdığı iki bənd şer də dərc olunur.

***General-leytinant A.N.Sinitsına həsr olunur***

*Yorulmaq bilmədən sən uzun illər,*
*Öz ağır topuna sükançı oldun.*
*Hər dəfə əmrinlə birləşdi əllər,*
*Bir ailə kimi sənin mərd ordun.*

*Toplardır bədi məktəbimiz də;*
*Siz onun atası, tarix yazanı.*
*Ürəkdən salamlar göndərib sizə,*
*Hörmətlə önündə baş əyir hamı...*

A. N. Sinitsin istefaya çıxdıqdan sonra düz bir il (1913-cü ilin payızından 1914-cü ilin oktyabr ayına kimi-Ş. N.) artilleriya zabitləri məktəbinin rəisi vəzifəsinni general-mayor

Əli ağa Şıxlinski aparmışdır. 1914-cü ilin oktyabr nömrəsində jurnal "Redaksiyadan" adlı məqaləsində yazır:

"Artilleriya zabitləri məktəbinin rəisi vəzifəsini ifa edən general-mayor Əli ağa Şıxlinski hazırkı müharibənin iştirakçılarına məktubla müraciət edərək döyüşçülərin, artilleriyanın fəaliyyəti barədə bildiklərini təfsilatı ilə yazmalarını və lazım olan ünvana göndərmələrini xahiş etmişdir".

1914-cü ilin dekabr nömrəsində jurnal məktəbin qırx səhifəlik illik hesabatını dərc edib. Həmin hesabatı da məktəbin rəisi vəzifəsini ifa edən general-mayor Əli ağa Şıxlinski və Sergeyev, hərbi təlim meydanının rəisi podpolkovnik İvanov hazırlayıblar.

Çox keçmir ki, yuxarı dairələrdə, baş topçuluq idarəsində məktəbə təzə rəis təyin olunması məsələsi müzakirə olunur. Böyük knyaz bu vəzifəyə general-leytenant Qaitinovu məsləhət görür. Lakin o, bu işə hazır olmadığını bildirir.

Böyük knyaz cavabında deyir:

- Mən sizi ancaq bir illiyə təyin edirəm. 1914-cü ildə orduda islahat aparmaq üçün böyük proqramm həyata keçiriləcək, onda siz Odessa hərbi dairəsinin topçu rəisi vəzifəsinə təyin olunacaqsınız. Məktəbə rəhbərlik isə

Şıxlinskiyə tapşırılacaq. Şıxlinski məktəb müdiri müavini vəzifəsində az işlədiyinə görə hazırda hərbi məsləhətçilərimi razılığa gətirə bilmirəm.

General -leytenant Qaitinov soruşur:

- Bəs bu bir ilin ərzində mən nə edə bilərəm, əlahəzrət?

- Sizin işi yaxşı bilən Şıxlinski kimi köməkçiniz olacaqdır.

- Onda icazə verin, əvvəlcə onunla danışım.

- Danışın…

"Məni telefona çağırdılar. Gəldim. Həyəcanlı bir səs eşidildi.

- Salam, Əli ağa, sizinlə danışan Qaitinovdur.

- Salam, Valeri Mixayloviç, mənə iad qulluğunuz?

- Mən əlahəzrətin kabinetindən danışıram. Mənə təklif edilər ki, sizin məktəbdə rəis işləyim. Sizdən çox xahiş edirəm ki, saat beşdən ordu və donanmanın klubuna gələsiniz. Həm bir yerdə yemək yeyək, həm də məsləhətləşək.

Mən oraya getdim. Qaitinov rəhbərliyi öz üzərinə götürdü, mənim isə məşğələləri aparmağıma razı olub-olmadığımı soruşdu. Razılıq verdim. - Təşəkkür edirəm, - dedi…

Yeni rəis general-leytenant Qaitinov daima auditoriyalara baş çəkir, baş qərargah zabitlərinin rəhbərliyi altında mühazirə və taktiki məşğələlərə gəlir, lakin bu məşğələlərin gedişatına qarışmır, bunların hamısını öz müavininə (Şıxlinskiyə - Ş. N.) tapışırırdı".

Bu kiçik epizod "Xatirələrim" kitabındandır. Şıxlinskini dəmir yaddaşı çox şeyi olduğu kimi hifz edib saxlanmışdır. Məsələn, vaxtilə (1907-ci ildə) məktəbin rəisi onu ikinci Konstantin topçu məktəbinə batareya komandirliyi vəzifəsinə namizəd göstərəndə Baş topçu idarəsinin rəisi general Kuzmin Karavayev gözlənilən təklifi rədd edərək demişdir ki, "bu vəzifəyə "tatar" (azərbaycanlı - Ş. N.) yox, rus tapmaq lazımdır.

Bütün bunlara baxmayaraq, çar hökuməti, çar ordu heyəti general Əli ağa Şıxlinskinin əvəzsiz xidmətinə laqeyd qala bilməmişdir…

1912-ci ildə artilleriya məktəbinə müavin təyin edilən Şıxlinskinin müvəffəqiyyətinə sevinənlər az deyildirlər. Ona Rusiyanın, hətta xarici ölkələrin adlı-sanlı topçuları təbrik teleqramları göndərmişlər. Baş Qərargah Akademiyaının professoru ***general-mayor A. A. Neznamov yazırdı:***

***"Sizi və rus artilleriyasını təbrik edirəm!".***

***Fransa topçu zabitləri məktəbinin müdiri Nolle isə ürək sözlərini belə ifadə eləmişdi:***

***"Rus topçu məktəbinin ikinci şefi (məktəb müdirinin müavini ikinci rəhbər hesab olunurdu-Ş. N.)" təyin edilməyinizi eşitdim. Sizin simanızda rus artilleriyasını təbrik edirəm!".***

Jurnalın nömrələrini vərəqlədikcə məlum olur ki, əsrin əvvəllərində "Şıxlinski üçbucağı" adlı hərbi nəzəriyyə müəllifinə böyük şöhrət gətiribmiş. Bu nəzəriyyə təkcə Rusiyada dərc olunan hərbi dərsliklərə salınıb istifadə olunmurduabout weather. Ədəbiyyatlardan məlum olur ki, "Şıxlinski üçbucağı" Fransa və Avstriyada da geniş yayılıbmış. Məsələn, Fransa topçu divizionunun komandiri mayor laver Şıxlinski ilə söhbətlərindən birində demişdir:

***"Fransaya elm üçün çox əhəmiyyətli olan xeyli material aparıram. Bunun üçün sizə minnətdaram".***

1913-cü ilin yayında general Joffre fransız ordusunun on yeddi nəfərlik zabit heyəti ilə Rusiyaya gəlir. Onlar bir neçə gün artilleriya zabitləri məktəbinin proqramı ilə maraqlanırlar.

Fransızlar qısalüləli topdan örtülü atəş üsulu ilə bir komandirin rəhbərliyi altında batareyadan necə atəş açıldığını göstərməyi xahiş edirlər. Bütün atəş üsulunun təşkilinə komandirlik Əli ağa Şıxlinskiyə həvalə olunur. General Şıxlinskinin təşkil etdiyi dəqiq atəş üsulu və qısalüləli ağır top atışı fransızları heyrətdə qoyur. Onlar qısalüləli atəş üsulunu ( o vaxta qədər fransızlarda qısalüləli top atəşindən istifadə olunmurmuş-Ş. N.) özlərində tətbiq etməyi elə oradaca qət edirdilər.

Bir il sonra Rusiyaya gələn Fransa prezidenti Paunkare Raymon rus artilleristlərinin general Joffreyə və onun heyətinə göstərdikləri hörmət müqabilində mükafatlar gətirir. Bu mükafatların arasında generallara məxsus cəmi iki fəxri "Legion ordeni" də vardı. Onun biri süvari generalı Bezovrazova, ikincisi ilə Əli ağa Şıxlinskiyə təqdim olunur.

Əli ağa Şıxlinskinin hərbi və pedaqoji fəaliyyəti ilə yaxından tanış olduqda bu mahir sərkərdənin misilsiz istedadına qibtə etməyə bilmirsən.

1897-ci ildə gənc Əli ağa Şıxlinski ilə söhbət edən iyirminci topçu briqadasının baş həkimi Zelenski ondan soruşur ki, belə bir istedadınız olduğu halda niyə akademiyaya getmədiniz?

Əli ağa Şıxlinski isə cavabında "iş belə gətirdi" - deyə təvazökarlıqla cavab verir.

***Bu görüşdə iştirak edən general Baumqarten də söhbətə qoşulur: "Akademiyanı neyləyir, akademiya onun başıdır".***

***Doğrudan da keçmiş rus ordusunda ikinci elə bir şəxs yoxdur ki, qeyri millətdən ola-ola, ali hərbi təhsil almadan qısa bir vaxda dörd il otuz altı gündən sonra növbəti general-mayor rütbəsinə yüksəlsin.***

Əli ağa Şıxlinski hərbi xidmətdə belə tez, həm də böyük sürətlə irəliləməsinin ilkin səbəbini Rus-Yapon müharibəsinin iştirakçısı olmasında,

bir də Topçu Zabitləri Məktəbindəki hərbi - pedaqoji fəaliyyətində görürdü.

Əli ağa Şıxlinskinin 1908-ci il noyabrın 26-dan 1914-cü il iyulun 8-dək topçu zabitləri məktəbində olan elmi-pedaqoji fəaliyyəti çox yüksək qiymətləndirilmişdir. ***O. üçüncü dərəcəli "Müqəddəs Vladimir", eləcə də fransızların zabitlərə məxsus fəxri "Legion ordeni"nə layiq görülmüşdür.***

"Artilleriya zabitləri məktəbinin xəbərləri" jurnalının səhifələri, orda verilmiş ayrı-ayrı elanlar təsdiq edir ki, Əli ağa Şıxlinski məktəbdə qoşun bölmələrində və Peterburqun müxtəlif elmi yığıncaqlarında hərbi mövzuda silsilə mühazirələr oxumuşdur. Bu mühazirələr Baş Qərargahın əmrilə kitabça şəklində çap olunmuşdur. Onun "Divizion miqyasında topçu manevrlərinin təşkili üçün təlimat", "Dağ və səhra artilleriyası üçün məsələ və misallar məcmuəsi", ***(1913-cü ildən 1916-cı ilədək üç dəfə təkrar nəşr olunub-Ş. N.)*** "Səhra toplarının cəbhədə işlədilməsi" və "Topçu zabitləri məktəbində podpolkovnik Şıxlinski tərəfindən oxunmuş mühazirələrin xülasəsi" kimi sanballı kitabları çap olunmuşdur. Xüsusilə, sonuncu kitab topçular arasında çox böyük şöhrət qazanmışdır. Onu da deyək ki, artilleriya zabitləri məktəbinin mətbəəsində çap olunan bu kitab məktəbə xeyli mədaxil gətirir. Həmin gəlirdən Əli ağa Şıxlinskiyə qızıl pula 500 manat müəllif haqqı verilir…

Bizə Əli ağa Şıxlinskinin indiyədək bircə kitabı məlumdur. O da 1944-cü ildə SSRİ Elmlər Akademiyasının Azərbaycan filialı tərəfindən rus və Azərbaycan dilində çap olunmuş "Xatirələrim"dir. Vəssalam. Bəs, yuxarıda adını çəkdiyimiz kitabların taleyi nə yerdədir, harda, kimdə, necə saxlanılır? Bax, bu suallara cavab tapmaq lazımdır.

## K İ T A B   A X T A R I Ş  I N D A

Anketlərin ağ səhifəsini doldurmaqdan yorulurdum. Dalbadal general Əli ağa Şıxlinskinin kitablarını sifariş verirdim. Səhərisi cavabı üçün gələndə eyni sözləri oxuyurdum. "Belə kitab yoxdur. Mənbəni dəqiqləşdirin".

Məni təəccüb bürümüşdür. Axı, müəllif özü yazır ki, belə bir kitabım çıxıb. Onu da bildirim ki, Əli ağa Şıxlinski "Xatirələrim" hərbi memuarını ancaq yaddaşına qüvənib yazmışdır. Özü də yetmiş səkkiz yaşında! "Xatirələrim"i yenidən çapa hazırlayanda düzü şübhələndim: axı ola bilməz ki, bu yaşda adam bu qədər faktı yadında saxlaya, rəqəmləri, tarixi hadisələri dəqiq deyə bilsin. Ona görə də kitabda adı çəkilən şəxsiyyətlərin familiya və rütbəsini, ayrı-ayrı hadisələri bir daha hərbi ensiklopediya ilə yoxlayıb tutuşdurdum. Zərrəcə səhv tapa bilmədim. Ona görə də mən

general Əli ağa Şıxlinskinin yazdığı hər bir fakta tam inamla yanaşırdım. Altıncı günü anketimə baxan növbətçi qız dedi ki, sizi biblioqrafiya fondunun baş mühafizəçisi çağırır. Dəftər-qələmimi yığışdırıb onun yanına getdim. O, məni "hücumla" qarşıladı:

- Hələ sizin kimi inad adama rast gəlməmişəm. Bütün azərbaycanlılar belədirlər?

- Xeyir, - dedim,- əlimizdə əsaslı fakt olmasa, biz heç vaxt yersiz inad göstərmərik.

- Axı sizə dönə-dönə deyirlər ki, belə bir kitab yoxdur, siz isə yenə də yazırsınız. Heç olmasa anketlərə heyfiniz gəlsin. Özünüz fikirləşin, olmayan şeyi sizə hardan və necə verə bilərik?

Mən yenə də əl çəkmədim:

- Siz inanın, - dedim, - artıq on beş ilə yaxındır ki, Şıxlinskinin həyat və fəaliyyəti ilə məşğul oluram. Onun rus və Azərbaycan dilində xatirələrini çapa hazırlamışam. Yazdığı yüzlərlə faktı dönə-dönə yoxlamışam, bir işıq ucu qədər yanlışlıq görməmişəm. O, özü yazır ki, 1910-cu ildə Luqa şəhərində belə bir kitabım çıxıb. Özünüz fikirləşin, bundan sonra mən neyləməliyəm?

- Bilmirəm, -cavan oğlan, - dedi, - onun haqqında bizdə bircə kitab var. O da Sabir İbrahimovun "General Əli ağa Şıxlinski" monoqrafiyasıdır. Sizi qane edirmi? Böyük Vətən müharibəsi illərində Luqa şəhəri faşistlər tərəfindən dağıdılmışdır. Bəlkə kitab o vaxt məhv olub, bizə gəlib çatmayıb?

Kor-peşman qayıdıb oxu zalına gəldim, buraxılış vərəqəsi almaq üçün. Qəfildən ağlıma bir fikir gəldi. Təzə anket götürüb doldurdum. Kataloqda inqilabdan əvvəl Luqada nə qədər artilleriyaya aid kitab və kitabca çıxıbsa, sifariş verdim. Yarım saatlıq fasilədən sonra stolunun üstündə ondan çox kitab vardı. Bir-bir vərəqləyib onların axırıncı səhifəsində verilən elanları oxudum. Üz qabığı qalın, həcmcə o qədər də böyük olmayan, 1911-ci ildə çap olunmuş "Artilleriya zabitlər məktəbinin anbarına satış üçün qəbul olunmuş kitablar".

Yeddinci kitab Əli ağa Şıxlinskinin "Səhra toplarının cəbhədə işlədilməsi" əsəri idi. Sevindiyimdən gözlərimə inanmadım. Dönə-dönə baxdım. Açıq-aydın yazılmışdır. "Şıxlinski Ə. 1910-cu il, qiyməti 70 qəp. Luqa şəhəri, V.M. Kuroçkinin yeni mətbəəsində çap olunub". Ayağa qalxdım. Növbətçi qızın yanına gedib yazını ona göstərdim. Ordan birbaşa fondun baş mühafizəçisinin yanına qaçdım.

- Baxın, baxın…

Baş mühafizəçi məni sakitləşdirdi:

- Özünüzə gəlin, qoyun əməlli-başlı baxım. O, eynəyi çıxarır, oxuyur, özü də bərkdən. "Ə. Şıxlinski". Bəli, biz təslim olduq, cavan oğlan, indi bildim haradadır. - Nina Qriqoryevna, - deyə yaxınlıqdakı bir qadını səslədi. Bir baxın, bu azərbaycanlı bizi təslim etdi. Demək, belə bir kitab varmış.

Nina Qriqoryevna:

- Bu kitab olsa olsa hərbi dərsliklər şöbəsində olacaq, - dedi. Sifarişi təzələyin…

Artıq bir həftədir ki, Santk-Peterburq bəyaz havasına oxşar binada məni bir yazı stolu gözləyir. Beş ya da on dəqiqə, lap uzağı iyirmicə dəqiqə geciksəm gərək kiminsə durmağını gözləyəm. Nahara qədər də öz "isti yuvasını" tərk edən adam çox çətin tapılar. Ona görə də səhər saat doqquz tamamda kitabxananın qarşısında olmağa adət eləmişəm.

Mənə müvəqqəti verilmiş vəsiqəmi təqdim edib soruşuram.

- Zəhmət olmasa, K-9178 nömərli sifairşi yoxlayın.

- Sizin istədiyiniz kitab tapılıb, amma bir qədər gözləməli olacaqsınız…

- Yəni nə qədər?

- Dəqiq deyə bilmirəm… Bəlkə bir gün, bəlkə üç gün, bəlkə bir həftə… Ona görə də hər gün gəlib yoxlamalısınız.

Sankt-Peterburq ətrafındakı iki şəhər Əli ağa Şıxlinskinin hərbi fəaliyyəti ilə bağlı olub. Onlardan biri Luqa, digəri isə Çarskoye Selo (indiki Puşkin şəhəri- Ş. N.) şəhəridir. Əli ağa Şıxlinski xatirələrində bu yerləri böyük məhəbbətlə yad edir. İnqilabdan əvvəl artilleriya zabitlər məktəbi Çarskoye Seloda, bütün Avropada ən nümunəvi hərbi təlim meydanı isə Luqa düzənliyində yerləşirmiş. Ona görə də fürsətdən istifadə edib Çarskoye Seloya getmək - Şıxlinskinin yaşayıb-işlədiyi şəhəri görmək arzusu məni rahat buraxmırdı…

## AZƏRBAYCANLI, YOXSA POLYAK?

İstirahət günü olduğundan Litsey-muzeyə baxmağa gələnlər daha çox idi. Hava dumanlı və yağışlı olsa da, böyük növbə var idi. Şəhərin qədim və zəngin tikililəri, təkrarsız gözəlliyi-sarı xəzəlli cökə xiyabanları, uzaqdakı dumanlı meşələr, "Səssiz" gölün cilvələnən ləpələri doğurdan da insanı valeh edir.

Yanımda dayanan eynəkli kişi əlindəki qəzeti büküb gileylənməyə başladı:

- Başa düşmürəm ki, bu boyda binaya niyə az adam buraxırlar. Ötən il də burada olmuşam, onda belə deyildi.
- Əgər ötən il olmusunuzsa, bu il nəyinizə gərəkdir?- deyə mən söhbətə qoşuldum.
- Elə deməyin. Gərək tarixə dönə-dönə baş çəkəsən... Bağışlayın, hardansınız?
- Azərbaycandanam...
- Mən də Tambovdanam. Gəlin tanış olaq: biologiya elmləri namizədiyəm.

Mən də özümü təqdim etdim. Buraya nə məqsədlə gəldiyimi dedim. O, tələsik soruşdu:

- Yaxşı, ay dost, bir dayan, Litsey hara, Azərbaycan hara? Məgər burda azərbaycanlılar da oxuyub?
- Düzü, bu haqda heç nə bilmirəm. Amma bir faktı dəqiq bilirəm ki, xalqımızın general oğlu Əli ağa Şıxlinski burda, keçmiş Çarskoye Seloda xidmət edib. Mən onun sorağı ilə gəlmişəm. Vaxdan istifadə Litsey-muzeyə də baxmaq istədim. Nikolay Xaritonoviç heyrət və təəccüblə:
- Məgər general Şıxlinski sizin xalqın oğludur?
- Bəli, necə məgər?
- O,  ki, polyakdır.

Mən acı-acı gülümsünürəm. Eyni zamanda fikirləşirəm ki, bunun günahı özümüzdədi. Biz xalqımızın şöhrətli oğlunu yaxşı tanımırıq. Üstəlik bəzi qələm sahiblərimiz yerli-yersiz ona çar generalı damğası vurublar. Elə burda, bu dar macalada, necə deyərlər, dəridən-qabaqdan çıxıb müsahibimi başa salıram ki, o, polyak deyil, azərbaycanlıdır.

Mən ona Dövlət mükafatı laureatı, general-mayor, hərb elmləri doktoru, professor Yegeni Zaxaroviç Barsukovun sözlərini xatırladıram:

"Əli ağa Şıxlinski içərisindən çıxmış olduğu Azərbaycan xalqına bütün varlığı ilə sadiq olub, onu sonsuz dərəcədə sevib, eyni zamanda bütün Rusiyanın və bütün Sovetlər ölkəsinin də qızğın bir vətənpərvri kimi həmişə Vətən yolunda canından keçməyə hazır idi".

Nikolay Xarinonoviç:

- Oxumuşam, - deyir, - onun haqqında. Mən bioloq olsam da, tarixlə maraqlanıram. Lovğalıq olmasın, az-az tarixi roman və yaxud elmi-tarixi əsər olar ki, oxumamış olam. Aleksandr Steponovun "Port-Artur"u, "Zvonaryovlar ailəsi" romanları stolüstü kitablarımdır. Orada kapitan Şıxlinski, general Şıxlinski qoçaq adam kimi təsvir olunur, fəxr etməyə dəyər. Təsəvvür edin ki, çar, Port-Arturda uduzan rus generallarını -

Stesseli, Foku, Smirnovu və başqalarını məhkəməyə verdi. Şıxlinskinin isə əksinə, (1906-cı ildə-Ş. N.) məşhur Georgi ordeni ilə təltif etdi.

- Azərbaycanlı general Şıxlinski-qəsdən "azərbaycanlı" sözünü tez-tez işlədirəm ki, həmsöhbətimin yadında yaxşı qalsın, bundan sonra heç vaxt çaşmasın, - öz xatirələrini yazıb. Heç şübhəsiz ki, oxumamısınız.

- Xeyr oxumamışam. Nəsə rast gəlməyib.

- Bizim Azərbaycanda nəşr olunub. Hökmən göndərərəm…

- Yadıma düşdü, - deyə Nikolay Xaritonoviç sevinclə bildirir. Onun familiyasına "Rus artilleriyası Birinci Dünya müharibəsində" adlı kitabda da rast gəlmişəm. Amma yenə deyirəm, mən bu günədək onu polyak bilmişəm. İndi siz deyirsiniz azərbaycanlıdır. Bunu sübut edən əsaslı bir faktı varmı?

İlişmişdim, özü də möhkəmcə. Yaxşı ki, əl çamadanımda Əli ağa Şıxlinskiyə, onun həyat yoldaşı Nigar xanıma aid materialları, fotoşəkilləri özümlə götürmüşdüm.

- Litsey-muzeydən çıxanda hara gedəcəksiniz? - deyə soruşdum.

-Sankt-Peterburqa, orda qalıram, "Sovetski" mehmanxanasında.

- Nə xoş təsadüf, mən də orda qalıram, on üçüncü mərtəbə, on doqquzuncu otaq. Axşam qonağımızsınız, ətraflı söhbət edərik…

Sankt-Peterburqda ən çox sevindiyim 1984-cü ilin bir oktyabr günü oldu. İntizarında olduğum kitab nəhayət, tapıldı. "Səhra toplarının cəbhədə işlədilməsi", müəllifi polkovnik Şıxlinski, Luqa şəhəri. 1910-cu il.

Artilleriyanın, xüsusən Rus-Yapon müharibəsində, səhra artilleriyasında döyüşdə istifadə olunması qaydaları konkret şəkildə işlənib hazırlanmış və elmi cəhətdən əsaslandırılmışdır. Kitab altı fəsildən ibarətdir.

Bu uğurlu gündə V. Bertelsin 1912-ci ildə Varşvada çap etdirdiyi "Quru qala qoşunları və ağır səhra artilleriyası tərəfindən atəş açılmasında artilleriya cihazlarından istifadə edilməsi haqqında məlumatlar" kitabını əldə edib, hər ikisinin surətini çıxartdırdım. V. Bertels kitabının ikinci hissəsində polkovnik Şıxlinski "Üçbucağı"nın artilleriyada böyük, əvəzsiz əhəmiyyətindən bəhs edir: "Artilleriya atəşinin aparılmasında "Şıxlinski üçbucağı" böyük rol oynamışdır. "Üçbucağın" ətraflı şəhri və yazılışı ilk dəfə 1912-ci ildə çap olunmuşdur.

"Şıxlinski üçbucağı" təkcə rus artilleriyasında deyil, Fransa, İsveçrə, Norveç və Avstriya artilleriyasında da böyük şöhrət qazanmışdır".

***General Əli ağa Şıxlinskinin qadını Nigar xanım Şıxlinskaya hərbi vəzifədə işləyən ilk azərbaycanlı qadınıdır. Nigar xanım birinci imperialist müharibəsində ordu sıralarında yaralılara tibbi yardım göstərən qadın komitəsinin sədri olmuşdur. Şıxlinskayanın "Russkiy invalid" qəzetinin 1914-cü il bir avqust tarixli nömrəsində rus qadınlarına müraciətnaməsi, həm vətənpərvərlik hissi, həm də ifadəsi etibarilə diqqətə şayandır. Nigar xanım Azərbaycan ədəbiyyatı məsələləri ilə çox yaxından məşğul olmuşdur. Bu fədakar qadın geniş məlumata və yüksək mədəni səviyyəyə malik olaqmla, Azərbaycan xalqının ümumi inkişafı və mədəni yüksəlişi uğrundu bacardığı qədər çalışmışdır.***

***HEYDƏR HÜSEYNOV***
***Azərbaycan EA-nın həqiqi üzvü,***
***fəlsəfə elmləri doktoru.***

***Şəxsi həyatında general Əli ağa Şıxlinski sonsuz bir məhəbbətlə arvadı Nigar xanımı sevən sədaqətli bir ər idi.***

***Yevgeni Barsukov,***
***general mayor, hərb elmləri doktoru,***
***professor, Dövlət mükafatı laureatı***

## GECİKMİŞ VÜSAL
***(Sənədli hekayə)***

***Mənim ölüm tarixini sevimli Nigar xanımın vəfatı günü ilə hesablayın.***

***General Əli ağa Şıxlinski***



***(1871-1931)***

Nigar xanım Şıxlinskayanın iyirminci əsrin əvvələrində çəkilmiş bir foto şəkli var. Şəkildə o, oğlu ilə birgə təsvir olunub. Bizə yaxşı məlumdur ki, general Əli ağa Şıxlinski ilə iyirmi iki illik birgə yaşayışdan Nigar xanımın heç bir övladı olmayıb. Bəs onda Xosrov bəyin atası kimdir? Bunun qısa tarixçəsi var.

Nigar xanımın atası Zaqafqaziya müftisi Hüseyn Əfəndi Qayıbzadə Əli ağanın anası Şahyəmən xanımın əmisi oğlu idi. Zaqafqaziya müftisi kimi məsul vəzifədə çalışan Mirzə Hüseyn on iki yaşından Əli ağanın təlim-tərbiyəsi ilə özü məşğul olmuşdur. Onu Tiflisə gətirib Semyon Monastırsevin şəxsi gimnaziyasına oxumağa qoymuşdur. İllər keçəcək ömrünün son illərində bu əvəzsiz yaxşılığı xatırlayan Əli ağa Şıxlinski yazacaq: "Ata-anam həmişə kənddə yaşadığına görə mən tamamilə Mirzə Hüseyn Əfəndinin himayəsinə keçdim. Sonrakı tərbiyəm bütünlüklə onun əlində oldu. Bu adamın nəsihətləri və örnək ola biləcək şəxsi həyatı mənə o qədər böyük təsir bağışlamış və mənim xasiyyət və dünyagörünüşümdə o qədər dərin iz buraxmışdır ki, mən hər cəhətdə diqqətə layiq olan bu şəxsiyyətə borcluyam".

Əli ağanın təlim-tərbiyəsində əvəzsiz xidmətləri olan müfti ilk vaxtlar qı-

zı Nigarla onun ailə qurmasına razılıq vermişdi. Arada hələ heç bir nişan-filan olmasa da Peterburqdakı Mixaylovsk topçuluq məktəbində təhsilini davam etdirən Əli ağa ilə qızının yazışmasından da xəbərdar idi. Müdrik müfti Mirzə Hüseyn yaxşı bilirdi ki, qeyri-adi istedada malik olan Əli ağanın çox parlaq bir gələcəyi var. Ona görə bu izdivacın baş tutacağına qəlbən razı idi.

1886-cı ildə Əli ağa Peterburq topçular məktəbini də birincilər sırasında bitirdi. Ona əla oxuduğuna görə pul mükafatı və buraxılış imtahanında qızıl saat hədiyyə verdilər. Podporuçik rütbəsində onu 39-cu topçu briqadasına xidmətə göndərdilər.

Aradan beş aydan çox keçsə də Əli ağadan heç bir səs-soraq yox idi. Həmin vaxtlarda milliyyətcə Acar olan knyaz Məmməd bəy Palavandov Qazax qəzasına hakim təyin etdilər. Uzun illər Stavropol ərazisində yüksək rütbədə olan Məmməd bəyi müfti hələ gəncliyindən yaxşı tanıyırdı. O vaxtlar Məmməd bəyin bir neçə qohumu Qori Seminariyasında təhsil alırdı. O səbəbdən də Qoriyə tez-tez gələrdi.

Müfti Qori seminariyasında dərs deyəndə görüşüb dostlaşmışdılar. Dədəbaba Vətəni Qazaxa hakim təyin olunan Məmməd bəyi təbrik etmək üçün ailəsilə birgə Tiflisə qonaq çağırdı. Elə bu qonaqlıqda Nigarı görən Məmməd bəyin arvadı onu oğlu Dərviş bəyə istədi. Qız anası Səadət xanım dönədönə işarə vurdu ki, Nigar bibisi oğluna istəklidir. Üstəlik də qızının hələ kiçik olduğunu və təhsil aldığını da xatırlatdısa mümkün olmadı. Nə Məmməd bəy, nə də inadkar arvadı əl çəkmədilər. Zor-xoş müftidən razılıq aldılar. Müftidən soruşanda ki, Nigarla Əli ağa bir-birilərini çoxdan sevirlər. İndi qızı Palavandovlara niyə verirsən. Əli ağada hansı qüsuru gördün? Daxilən əzab çəkən müftinin cavabı yarızarafat, yarıciddi belə olardı:

- Əli ağa hərbçidir, onun şələsi dalındadır. Bu gün bu şəhərdə, sabah o birində yaşayacaq. O həm də ağıllı və istedadlıdır. Harda olsa xöşbəxtliyini tapacaq. Nigarı mən gözümün nuru qədər istəyirəm. O, mənə yazı-pozu işlərində ən yaxın köməkçidir. Onu gözümdən qırağa qoya bilmərəm kəsəsi istəmirəm gül kimi balam yad şəhərlərdə, gavurlar içində yaşasın.

İllər ötdü, yaşın üstünə yaş gəldi. Amma ilk sevgisini heç cür unuda bilməyən Əli ağa başqa birisinə könül verib evlənə bilmirdi. 1906-cı ildə Port-Artur müharibəsindən ad-sanla qayıdan Əli ağa Şıxlinskini öz xahişi ilə Çarskoye-Seloda yerləşən "Artilleriya zabitləri məktəbi"ndə təhsilini davam etdirməyə göndərdilər. Kursu böyük müvəffəqiyyətlə bitirən podpolkovnik Əli ağa Şıxlinskini məktəbdə müəllim saxladılar. Elmləri asanlıqla mənimsəyən Əli ağanın tərtib etdiyi "Üçbucağı" məktəb heyətində yaxşı mənada səs-küy qaldırıb onun şöhrətini artırdı. Məktəbin rəisi onun ixtisasını şurada müza-

kirəyə qoydu. Müəllim və professor heyəti ona zabitlər üçün yeni məsələ kitabı tərtib etməyi tapşırdı. Məktəbin rəisi tam artilleriyə generalı Aleksandr Nikolayeviç Sinitsin əmr etdi ki, nəşr olunan kitabda üçbucağın şərhi "Şıxlinski üçbucağı" kimi yazılsın.

1908-ci il noyabrın 25-də Çarskoye-Selodakı Yekaterina sarayında Georgi Pabedonosev günü qeyd olunacaqdı. İmperatorun əmri ilə buraya dəvət olunanların əksəriyyəti Port-Artur döyüşlərinin iştirakçıları və Georgi kavalerləri idi. Onların arasında Əli ağa da vardı. Kavalerlər sırasında padşaha təqdim olunanda Əli ağa sağ ayağına laklı, qəşəng, sol ayağına isə mahud çəkmə geymişdi. İmperator ona diqqətlə baxıb xoş təbəssümlə gülümsündü:

- Cənab zabit, - dedi od-alov içindən çıxmış Georgi kavalerlərindən soruşmazlar ki, niyə axsayırsan? Məgər yaralarınız hələ də sağalmır?

- Əlahəzrət, sol dizimin üstündən aldığım yara sağalmır ki, sağalmır. Qıçım qatlanıb açılmır. Elə hey çirk verir. Həkimlərin dediyinə görə yara xeyli dərinə işləyib.

İmperator xəfifcə gülümsündü:

- Sizə şərəfli Georgi ordeni təqdim edir və altı ay padşah xəzinəsi hesabına Qafqaz sularında müalicə olunmağı tövsiyə edirəm. Baxıram, Siz cavan və sağlam zabitsiniz. Hələ uzun müddət orduda qulluq edə bilərsiniz. Çalışın ki, tez sağalın - deyib Əli ağa Şıxlinskinin əlini sıxdı.

Altı aylıq məzuniyyətin iki ayını Yessentuki mineral sularında müalicə olunan Əli ağanın yarası xeyli yaxşılaşdı. Çoxdan qürbət ellərdə dolaşan Əli ağanı könlü doğma eli-obası, qohumları istədi. Onun Qazaxa gəlişi özü ilə bayram əhval-ruhiyyəsi gətirdi. Hamı onu görməyə gəlir, qonaq çağırırdı. Qəzetlərdə təriflənən Port-Artur qəhrəmanını hamı yaxından görüb həmsöhbət olmağı özünə şərəf bilirdi. Hər gün evləri görüşə gələnlərlə dolu olurdu. Bir gün Tiflisdən Müftinin böyük oğlu Bahadır da Qazaxa gəldi. Aralarında yaş fərqi olsa da Əli ağa Bahadırı çox istəyirdi.

- Əli ağa, - dedi anam səni bizə qonaq çağırır.

- Bəs Müfti necə, çağırmır? Əli ağa zarafat etdi. - Mən dəvətsiz də gələcəkdim. Anam da bir neçə dəfə bu barədə söhbət salıb. Amma bu gəlib-gedənin əlindən imkan yoxdur. Mən özümdə kəndim-kəsəyim üçün darıxmışam. Axı, on ildən çoxdu mən Vətənə gələ bilmirəm.

Neçə illik ayrılıqdan sonra Əli ağa ilk gənclik illərini keçirdiyi Tiflis və heç vaxt unutmadığı Nigarını gördü.

İllər ötsə də Nigar az dəyişmişdi, əvvəlki gənclik təravətini saxlamışdı. İlk görüşdə özünü şən göstərən Nigarın qəlbi kədər və nisgilli idi. İki il əvvəl əri Dərviş bəy Palavandov vəfat etmişdir. Onların Xosrov bəy adlı bir oğlu var

idi. O da əmisi ilə Türkiyəyə getmişdi. Yaxın günlərdə qayıtmalı idi. Əli ağa fürsət tapıb Nigarla ayrıca söhbət elədi. Səmimi qəlblə bildirdi ki, onu unuda bilmir.

Əli ağanın Nigarla evlənmək xəbərini eşidən Şıxlinskilərin bəziləri onu töhmətləndirdi ki, qız tapılmır, sən gedib dul qadın alırsan. O vaxt Qayıbovlar bir qızı da bizə çox gördülər. Müfti tamahının ucundan qızı vəzifəli adamın oğluna verməklə bizi təhqir etdi. İndi sən təzədən onun dul qızını istəyirsən. Əli ağa isə inadından dönmədi:

- Nigar - dedi, mənim ilk məhəbbətim, ilk arzumdur. İki dünya bir də olsa Nigarla evlənəcəm, vəssalam. O ki, qaldı qız, ya dul məsələsinə mənim üçün nə olsa da qəbuldur. Təki ilk sevgim Nigar olsun.

1909-cu il, oktyabrın 27-də qırx dörd yaşlı Əli ağa Şıxlinski ilk sevgisinə belə qovuşdu.

Yəqin ki, Əli ağa Şıxlinskinin şeir yazmağından çoxlarınız xəbərsizsiniz. Elə isə bu böyük sevgi hekayəsinə Generalın Nigar xanıma ithaf etdiyi şeirlə bitirək...

Nə lazimdir mənə dünya,
Əgər yanımda yar olsa.
Kim istər malı-dünyanı,
Əgər yarı Nigar olsa...

## ULU VƏSİYYƏTİ FAYDASIZ OLMAZ

***Yarın könlün alaydım,***
***Dərdim yada salaydım.***
***Qismət belə imiş,***
***Gərək yalqız qalaydım.***
***El bayatısı***

General Əli ağa Şıxlinskiyə tale övlad qismət eləməmişdi. O, sevimli həyat yoldaşı Nigar xanımın ölümündən sonrakı həyatını tamamilə artıq hesab edirdi. Bu, doğrudanmı belədir, yoxsa şair təbli məşhur sərkərdəmiz ötəri hissəmi qapılmışdı?

1931-ci il avqustun 12-də vəfat edən Nigar xanımdan sonra general on üç il yaşamışdı. Bu on üç ildə tənha yaşayan Əli ağa Şıxlinski həyatının bir anını belə Nigarsız təsəvvür etməmişdi. O, hər cümə axşamı sevimli həyat yoldaşının qəbrini ziyarət etmiş, vəfatının ildönümündə ehsan vermişdir.

Görüşdüyüm Şıxlinskilər nəslinin çoxsaylı nümayəndələri mənə dönə-dönə demişlər ki, generalın ən çox sevdiyi insan yalnız və yalnız həyat yoldaşı Nigar xanım olub. Əli ağa Şıxlinski məşhur "Xatirələrim" əsərində, şerlərində və məqalələrində bu barədə söhbət açıb. Biz də bu məhəbbətin ülviliyindən oxuculara az-çox çatdırmışıq.

1983-cü ildə Azərbaycan Dövlət Tarix Muzeyinin arxivindəki "Şıxlinski fondu"nda araşdırmalar apararkən ağzı bağlı bir məktuba rast gəldim. Mavi rəngli zərfin üstündə rus dilində belə yazılmışdır: "Vəsiyyət. Mən öləndən sonra açmalı".

Məktub əlimdə bir müddət kövrək hisslərin ağır təsirindən quruyub qaldım. Gözlərimdə yaş dumanı, beynimdə qarma-qarışıq sözlər fırlanırdı: "açım, açmayım. Bu müqəddəs kişinin ruhu məni lənətlənməz ki...".

Məktubu o biri üzünə çevrib yapışdırılmış tərəfinə dönə-dönə baxıram. Məktub bağlıdır. 1943-cü il avqustun 18-də Bakıda vəfat edən generalın ölümündən isə düz 40 il keçir. Kədərlə köks ötürüb çölə boylanıram. Fevral ayının sazağı sanki uğultu liə içəri dolub varlığımı titrədir. Həyat və fəaliyyətini az-çox öyrəndiyim general Əli ağa Şıxlinski bilirəm ki, çox maraqlı bir insan olub. Güclü müşahidəsi, əla mütaliəsi və geniş dünyagörüşü olan bu adam heç vaxt ötəri və ya başdansovdu iş görməzmiş. Onun şəxsi əlyazmalarını araşdıranda görürsən ki, xırdaca bir qeydi də böyük məna kəsb edir. Mənim yəqinim idi ki, generalın hələ oxumadığım vəsiyyətnaməsində də müdrik sətirlərə rast gələcəm.

Bu anda ağlıma qəribə bir fikir də gəldi. Əgər arxiv işçiləri icazə versəydi bu ağzıbağlı məktubu götürüb generalın yaxın qohumlarından birinin yanına gedər və onunla birgə açıb oxuyardım. Məlumdur ki, vəsiyyət hər şeydən əvvəl yaxın qohumu üçün yazılır. Mən də istəyirdim ki, bu məktubu generalın doğması müdrik yazıçı İsmayıl Şıxlı ilə birgə oxuyam. Amma bu, mümkün deyil. İndi bu məktub adi kağız parçası deyil. Möhürlənib, qeydə alınıb və tarixi bir sənəd olub. Bəs bu tarixi sənəd nə üçün indiyədək heç kəsi maraqlandırmayıb. Bəlkə tədqiqatçıların rastına çıxmayıb. Elə isə onda mənim uğurumdur qarşıma çıxıb, açsam heç bir günah sahibi olmaram.

Ehtiyatla qələmin iti ucunu ağzıbağlı məktuba yaxınlaşdırıram. Qırx il qurumuş yapışqan asanca qopur. İçərisindən adi dəftər kağızında yazılmış dörd vərəq çıxır. Birincisinin sərlövhəsi : "Ailə vəsiyyətnaməsi", 30 oktyabr 1933-cü ildə yazılıb. İkincisi - "Əziz Bahadır və Varya" (həmin tarixdə yazılıb). Üçüncü sərlövhəsizdir, yalnız "3 yanvar 1938-ci il" tarixi qoyulub. Dördüncü : "Son rica (xahiş)", 13 mart 1942-ci ildə yazılıb.

General Əli ağa Şıxlinskinin "Vəsiyyətnamə"sinin dördünün də üzünü

köçürüb evə qayıdıram. Yol boyu ikinci vəsiyyətnamədəki bir cümləni ürək ağrısı ilə öz-özümə təkrar edə-edə qəlirəm.

"Əgər tale mənim bu sevincsiz həyatımı uzun müddət davam etdirərsə, onda mənim "əmlakım" mənim dəfn olunma və ən sadə qəbr daşı qoyulma xərclərinə belə bəs etməz, bu halda mənim vəsiyyətim gülünc hal almış olar".

Oxucum, general Şıxlinskinin vəsiyyətnamələrindəki kədər təkcə bu cümlədə deyil. Onların dördü də tənha yaşayan insanın kədər və həsrətilə doludur. Burda onun sevimli Nigarına ülvi məhəbbətinin də şahidi olacaqsan.

Mən on bir il əvvəl ulu generalımızın kədərinə şərik oldum. Vəsiyyətnamələri Sizə təqdim etməkdə bircə məqsədim var: xalqımız üçün əvəzsiz xidmətlər göstərmiş general Əli ağa Şıxlinskinin nikbinliyinə, qayğılarına Siz də şərik olun. Ulu vəsiyyəti faydasız olmaz.

## Ailə vəsiyyətnaməsi

*Mənim ölümümdən sonra, əmlakımdan nə qalarsa: mebel, qab-qacaq, geyim şeyləri və başqa əşyalar, eləcə də qalmış nəğd pul məbləğini- həyatımın kimsəsiz illərində mənə qayğı göstərmiş həkim Bahadır Qayıbova[1] və onun arvadı Qayıbovaya[2] vəsiyyət edirəm.*

***Yazılanları öz şəxsi imzam ilə təsdiq edirəm.***
***30 oktyabr 1933-cü il, Bakı***
***Əli ağa Şıxlinski***

*Biz mətnin altında imza atmış şəxslər, aqronom Nəsrulla Əlizadə və texnik Sadiq Əlizadə şahidik ki, Əli ağa Şıxlinski 30 oktyabr 1933-cü ildə bizim iştirakımızla vəsiyyətnaməni tərtib edib, imzalayarkən tam sağlam əqlə və yaddaşa malik idi.*

***1. Nəsrulla Əlizadə. 2. Sadiq Əlizadə.***

***

***Əziz Bahadır və Varya!***

*Əgər tale mənim bu sevincsiz həyatımı uzun müddət davam etdirərsə, onda mənim "əmlakım" mənim dəfn olunma və ən sadə qəbr daşı qoyulma xərclərinə belə bəs etməz, bu halda mənim vəsiyyətim gülünc hal almış olar.*

*Lakin, ona əvəz olaraq, unudulmaz həyat yoldaşım Nigar xanımın vəfatından sonra, siz məni qayğı ilə hərtərəfli əhatə edərək, onsuz yaşadığım*

*günləri mənim üçün mümkün və dözümlü etdiyinizə görə, mənim Sizə qarşı olan minnətdarlığımın həddi-hüdudu yoxdur.*

*Bu qəni minnəttarlığı mən özümlə qəbr evinə aparacağam.*

*Sizin mənə qarşı mərhəmətinizə görə Allah Sizdən razı olsun.*

***Sizi sevən Əli ağa Şıxlinski***

***Bakı, 30.X-1933-cü il***

***3 yanvar 1938-ci il***

*Vəsiyyətnamə yazılarkən, mənim bəzi qiymətli şeylərim var idi ki, onlar Bahadır və Varyanın mənə göstərdikləri qayğı və mənəvi köməklikdən əlavə, maddi yardımlarını qismən ödəyə bilərdi.*

*Lakin mən gözlənildiyindən də artıq yaşadım, satmalı nə vardısa, satıb xərclədim və bununla da vəsiyyətnamə öz mənasını itirmiş oldu.*

*Əgər evdə qalmış əşyaların dəyəri dəfn mərasiminə və sadə qəbr daşına kifayət edərsə, ona da şükr. Heç bir ehsan və elan lazım deyil.*

*Qohumlara telefon vasitəsilə, telefon yoxsa, məktubla xəbər vermək olar.*

*Qəbir daşı yalnız onun üçündür ki, mənim adım unudulmaz həyat yoldaşım Nigar xanımın adı ilə yanaşı yazılsın.*

***Əli ağa Şıxlinski***

*Son rica (xahiş)*

*1. Əgər mən yataqda qalası xəstə olsam, məni xəstəxanaya göndərin.*

*2. Əgər xəstəxanada ölsəm, nəşimi evə yox, xəstəxanadan qəbristanlığa aparın.*

*3. Qəzetdə elan verməyin.*

*4. Dəfnetmə xərclərinin az olmasına çalışın. Yorğan ağına bükülmüş cəsədi rənglənməmiş, üstünə ağ kilim salınmış tabuta qoyun.*

*5. Heç bir ehsan verməyin, bunu etmək həmişə gərəksizdir, müasir çətinlikləri nəzərə alsaq isə qəbahətdir.*

*6. Mənə əziz olan Nigar xanımın qəbri ilə yanaşı qəbri yastı tava daşı ilə örtüb, üstünə yazarsınız: Əli ağa Şıxlinski - heç bir tarix lazım deyil.*

***Əli ağa Şıxlinski***
***Bakı, 13.03. 1942-ci il***

*Nə tabutun içinə, nə də tabutun üstünə bir dənə də olsun gül qoyulmasın.*

***Əli ağa Şıxlinski***

---

1. Bahadır bəy Mirzə Hüseyin Əfəndi oğlu Qayıbov (1878-1949) Əli ağa Şıxlinskinin qaynıdır. 1897-ci ildə Tiflis gimnaziyasının və Xarkov dövlət Universtetinin tibb fakultəsini (1903-cü il) bitirmişdir. onlar həm də qonşu olmuşlar.
2. Varvara Qayıbova doktor Bahadır bəyin arvadı Ş. N.

# Ömrün son günləri

*(Sənədli hekayə)*

***Təbiət Əli ağaya böyük bir ağıl, müstəsna bir qabiliyyət və hərbi istedad, mərdlik və nəcib sifətlər, Vətən müdafiəsi üçün çox faydalı olan fəaliyyət ehtirası ilə dolu coşğun bir enerji vermişdir.***

***Yevqeniy Barsukov,***
***artilleriya generalı, professor***

Görünür qismətdi, bəlkə də bu taleyin hökmüdür. Hər nədisə, əlli beş il bundan əvvəl görülən iş Azərbaycanımızın hərb tarixinə əvəzsiz töhfədir. Əgər 1942-ci ildə məşhur filosof-alim Heydər Hüseynov ömrünün son illərində dünya şöhrətli sərkərdəmiz Əli ağa Şıxlinski ilə görüşməsəydi, Azərbaycan hərb memuarının təməl daşını qoyan "Xatirələrim" kitabı da yaranmayacaqdı. Generalın xatirələri ölümündən bir il sonra 1944-cü ildə cəmi yeddi min beş yüz tirajla nəşr olundu. Nadir nüsxəyə dönən bu qiymətli kitab 80-ci illərdə tapılmadı. Bu dövrdən başlayaraq hərb tariximizə general Əli ağa Şıxlinski xatirələrinə oxucu "aclığı" güclənmişdir.

Respublika Müdafiə Nazirliyinin baş zabiti, polkovnik-leytenant Şəmistan Nəzirli, mərhum xalq yazıçısı İsmayıl Şıxlının qayğısı ilə generalın aydan arı-sudan duru xatirələrini 1984-cü ildə kütləvi tirajla (60 min) yenidən Azərbaycan və rus dilində nəşr etdirdi. Kitabı izahlar, qeydlər və əlavələrlə nəşr etdirən Şəmistan Nəzirli topladığı yeni faktlar əsasında "Ömrün son günləri" adlı sənədli hekayə yazıb.

* * *

General qocalmışdı, elə qocalmışdı ki, nə gözü əməlli-başlı görürdü, nə də qulağı eşidirdi, yerişi də o yeriş deyildi. At belində, piyada cəbhələr gəzən batalyonlara, alaylara, orduya sərkərdəlik edən generalın indi tərpənməyə halı qalmamışdı. Dövlətin ona verdiyi bir neçə otaqdan özü üçün ancaq birini saxlamışdı. Onda da tək tənha yaşayırdı. Oğulsuz-qızsız, nəvəsiz-nəticəsiz.

Tale onu bu nemətdən məhrum etmişdi. Həyat onun üçün hələ adiləşməmişdi. Nikbin baxışı, əzəmətli vüqarı, yaşamaq ehtirası və dərin ağılı tam üstündə idi. Kim onu küçədə, bayırda görürdüsə, fəxrlə tanımayana göstərirdi. - "Port-Artur qəhrəmanı, artilleriyanın allahı Əli ağa Şıxlinski!". Bu adı 1906-cı ildə qazanmışdır. Hər yerdə onu belə nişan verirdilər.

... İndi uzaqlarda toplar dinir, tüfənglər atılır, insanlar qırılır, kəndlər, şəhərlər dağılırdı. Onun topçuluq və artilleriya haqqındakı təklifləri bu müharibədə də əsgərlərimizin köməyinə gəlirdi. Rus topçuluq elmindəki kəşflərindən xüsusən " Şıxlinski üçbucağı"ndan və "Şıxlinski formulu"ndan geniş istifadə olunurdu. General isə dəmir darvaza arxasında saxlanan pələng kimi tək-tənha qalmışdı.Yetmiş səkkiz illik ömür yolunda general yaşamağına, dünyaya gəlməsinə zərrəcə heyfslənmirdi. Keçmişdən söhbət düşəndə o, fəxrlə deyirdi:

***... Mən öz keçmişimə sakit bir vicdanla nəzər salır və müasirlərimin gözlərinə cürətlə baxıram. - Stola söykənib qalın bığlarını eşər, xeyli süküt etdikdən sonra gülümsünən general - bu günlər də bizim ömrümüzün qocalıq çağına düşdü,*** -deyərdi.

Altmış ildən çox nümunəvi hərbi qulluğu ona şan-şöhrət gətirmişdi. Uzaq Şərqdəki xidməti, Rus-Yapon və Birinci Dünya müharibələrində, 1918-1920-ci illər də Milli Ordudakı misilsiz fəaliyyyəti bütün hərbiçilərə nümunə göstərilirdi.

Bunların hamısı Vətənin azadlığı naminə görülən ən xeyirxah, yaddançıxmaz xidmətlər idi. General xidmət illərini xatırlayanda qəlbi nurla dolur, gözünə işıq gəlir. Bu anlarda sanki uzaqlarda atılan qələbə soraqlı topların səsini belə eşidirdi.

Onu yalnız tənhalıq sıxırdı. Bu anlarda dünyada ən çox sevdiyi bir adamla səssizcə danışmaq ona təsəlli verirdi. Bu

General Əli ağa Şıxlinski və həyat yoldaşı Nicar xanım Mirzə Hüseyn qızı, 1926-cı il, Bakı şəhəri

adam şəkil olub divardan asılmışdı. Düz on iki ildən çox idi şəklə dönən insan onun pıçıltılarına cavab vermirdi. Onunla danışanda generalın səsi boş otaqda əks-səda verib özünə qayıdırdı.

O, özü kimi qoca kresloda sakitcə əyləşmişdi. Ötən günləri qovub xəyalından, yaddaşından silmək istəyirdi. Keçmişə qayıtmaq istər-istəməz əziz Nigarını xatırlamaq demək idi. O, bunsuz keçinə bilmirdi. Bu mümkün də deyildi. Bütün xidməti boyu Nigar onunla qoşa addımlamışdı. Saysız-hesabsız əsgərlərə zərif əllərilə şəfa verib həyata qaytarmışdı.

Otaq buz kimi soymuşdu. Bakıya, qatı duman gəlmişdi. Gözə-görünməz çisəkdən nəmlənmiş asfalt parıldayırdı. Küçələrdən gediş-gəliş kəsilmişdi. Cəbhə həyatı keçirən şəhər sanki köçmüşdü. Bayaqdan pəncərə ağzında quruyan generalın yadına Sovet Məlumat Bürosunun hər saat radio ilə verilən xəbərləri düşdü. Yaxasından gödəkçəsinin cibinə sallanan qədim saatın zəncirini çəkib onu işığa tutdu. Səkkizə beş-üç dəqiqə qalırdı. Küçədə telefon dirəyindən asılmış reproduktorun altına xeyli adam yığışmışdı. General pəncərəyə yaxın oturub, buradan aydın eşidilən cəbhə xəbərlərini dinlədi.

… Bu gün Qızıl Ordu hissələrimiz Stalinqrad ətrafı döyüşlərdə faşist generalı Fridrix Paulyusun və Feldmarşal Fon Manşteynin ordusunu darmadağın etmişdir. Xilaskar Qızıl Ordu hissələri müvvəffəqiyyətlə hücumu davam etdirir…

İndi qələbə tam bizimlədir. Quduz qəsbkarın yuvası dağılacaq…

Daha heç nəyi eşitməyən general evin içində sürətli addımlarla gəzinirdi. Qalın cod bığları sevincdən titrəyirdi. Sevincini bölüşməyə adam axtarırdı. Geriyə dönüb şəklə baxa-baxa:

- Gözün aydın, Nigarım, Vətən oğulları qırdı düşmənin belini.

Şair Vidadinin nəvəsi olan general bütün həyatı boyu bir neçə şer yazmışdı. Həmin şerlər iyirmi iki il bir yastığa baş qoyduğu ömür-gün yoldaşı Nigara həsr olunmuşdu. İndi ona elə gəlirdi ki, qulağı da eşidir, gözü də görür.

Radioda son xəbərlərin oxunuşu qurtardı. Azacıq zəfər marşından sonra diktor:

- Şair Səməd Vurğun mikrofon qarşısındadır, - dedi.

Gur, alovlu şair səsi şəhərə yayıldı:

***Ay, ellər, obalar, gözünüz aydın!***
***Düşmənin səfləri pozulur bu gün!***
***Bizim qoç igidlər nərə çəkdikcə,***
***Zalımın məzarı qazılır bu gün!***

Qapı döyüldü. O, cəld irəliyə doğru getdi. Fikirləşdi ki, yəqin qonşum Bahadurla Varvaradır, gəzməkdən qayıdırlar. Fikrindən keçdi ki, bu qələbə münasibətilə hər ikisini öpsün. Soruşmadan qapını açdı. Cavan, yad bir adamı qapıda görüb özünü itirən kimi oldu.

Gecdən-gec:

- Kimi istəyirsiniz? - deyə həyacanla soruşdu.

Qapıda dayanan cavan oğlan dedi:

- General Əli ağa Şıxlinski sizsinizmi?

- Bəli, buyurun içəri keçin.

Qonaq irəli bir addım atıb əl uzatdı:

Akademiyanın elmi işçisiyəm. Məni vitse-prezident Heydər Hüseynov Sizin yanınıza göndərib. Tapşırıb ki, xatirələrinizi yazmaqda Sizə kömək edim.

- Yaxşı eləyib gəlmisən, oğul, düzü mənim üçün çox çətindir. Belə ki, əllərim əsir, gözüm pis görür, qulaqlarım da yaxşı eşitmir. Ancaq hafizəm, yaddaşım hələ qalıb. Hər bir hadisəni, əhvalatı gününə, hətta saatına qədər də xatırlayıram. - Sonra buz kimi soyuq, kimsəsiz otağı göstərdi. - Nə bilim, bu şəraitdə mümkündürmü?..

Səhərisi akademik Heydər Hüseynovun özü qoca generalın görüşünə gəldi. Görkəmli alim qarşısında dayanan ucaboy, enlikürək generala heyranlıqla baxırdı. Sanki onun sağlığına inana bilmirdi. Professor Barsukovun kitablarında Əli ağa Şıxlinskinin adına dönə-dönə rast gələndən sonra şəxsən alim özü elmi işçi Avedyayevi məcbur eləmişdi ki, qapı-qapı gəzməli olsa da, generalı tapmalıdır.

Alimlə general üzbəüz oturdu. Ötəri də olsa, evə göz gəzdirən alim, burada kitablardan və qədim mebeldən başqa qiymətli heç nə görmədi.

Ağzı yarıaçıq qalan şkafdan bir dəst general mündiri asılmışdı. General əli əsə-əsə stolun üstündəki solğun gülün əyilmiş budağını düzəltdi. Qonaq titrək səslə:

- Yoldaş general, - dedi - bizim akademiya general- professor Yevgeni Barsukovun yenicə nəşr olunmuş əsərlərini alıb. Professor dörd cildlik "Rus artilleriyası Birinci Dünya müharibəsində" əsərində Sizin yalnız rus topçuları arasında deyil, həm də rus ordusunun geniş dairəsində hörmət və nüfuzunuzu, Port-Artur epopeyasında son dərəcə böyük şöhrətinizi məhəbbətlə, ehtiramla xatırlayır.

Bayaqdan susan, qonağını dinləyən general təvazökarlıqla:

- Hə, - dedi, - az-çox cavanlıqda Vətən qarşısında xidmətimiz olub. Yevgeni Zaxaroviçlə təxminən iyirmi il birgə qulluq etmişik. Topçu zabitləri məktəbində, Luqa şəhərində, topçu general müfəttişliyində işləmişik.

Heydər Hüseynov onu tapdığına uşaq kimi sevinirdi. Fikrində, ürəyində özünü danlayırdı ki, xalqımızın belə şöhrətli oğulları çoxdur. Amma biz

onları itirib axtarmırıq. Bu gün görkəmli rus professoru onun əvəzsiz xidmətini nahaqdan xatırlamır. Özü də bir-iki yerdə yox. Düz qırx bir dəfə öz elmi əsərində onun hərbi üçbucağından, Birinci dünya müharibəsindəki fəaliyyətindən ağız dolusu danışır.

O, özü ilə gətirdiyi kitabı stolun üstünə qoydu. Səhifələrin arasında qoyulan nazik kağız parçalarını götürüb dedi:

- İcazənizlə bir epizod oxuyum, yəqin ki, Sizin üçün maraqlı olcaq.

- Buyurun, - deyib - ağır eşidən general stulunu bir az da yaxına çəkdi. Damarı çıxmış iri əllərini dizləri üstünə qoydu. - Məmuniyyətlə qulaq asıram.

-"General Əli ağa Şıxlinski 1916-cı ildə Krevo yaxınlığında alman mövqelərinin yarılması əməliyyatına, Qərb cəbhəsinin onuncu ordu cəbhəsində 1917-ci il iyul əməliyyatının topçuluq cəhətindən hazırlanmasına rəhbərlik etmişdir. Əli ağa Şıxlinskini həmişə ön mövqelərdə görmək olardı. O, topçu hissələrinin yerlərini yoxlayır, topları daha düzgün yerləşdirmək üçün göstərişlər verir, onların döyüş əməliyyatalrını izləyir və rəhbərlik edirdi".

Heydər Hüseynov səhifəni axıra qədər oxuyub vərəqi çevirdi. Sakitcə oturub onu dinləyən generala baxdı. O, keçmişdən gələn şan şöhrətinə diqqətlə qulaq asırdı. Dumanlaşmış eynəyini çıxardıb ehmallıca sildi. İri sifətindəki batıq orduları həyəcandan titrədi.

- Bu səhifədə isə Sizin onuncu ordunun komandanı olan vaxt yazdığınız bir raportun mətni verilib.

- Maraqlıdır, mən yüzlərlə raport yazmışam. Görəsən, hansı əməliyyatdır ki, bir tarixi fakt kimi hətta kitaba belə düşüb? Oğul, zəhmətdən keçib, rica edirəm, onu da oxuyun, - deyə, general nəzakətlə xahiş etdi.

"Topçu hazırlığı başlandı. Müharibənin üç ili ərzində mən topçuların bu qədər gözəl bir əməliyyatını görməmişdim. Qoşunların ruhu yüksəlməyə başladı. Hətta topçulara çox böyük tələblər verən piyada da razı qalmışdı. Otuz səkkizinci korpusda piyadalar hazırlığı tamamilə bitmiş hesab edib, hətta onu davam etdirmək təklifindən əl çəkdi… hissələr hücuma keçdilər, onlar təntənə ilə yürüyərək düşmənin iki-üç sıra səngərini aşıb, onun batareyalarına çatdılar, düşmən toplarının nişangahlarını götürüb gətirdilər"…

- Hə, yadıma gəldi, - deyib, general sinədolusu nəfəs aldı. Çox sağ ol, oğlum…

- Hələ qurtarmamışam, yoldaş general, - deyib, Heydər Hüseynov yenidən oxumağa başladı. O, generalı sevindirdiyinə özü də hədsiz dərəcədə şad olmuşdu.

- Əli ağa çox tələbkar və zabitəli komandir olmaqla bərabər, eyni zamanda ədalətli, xeyirxah, özünə tabe olanların qeydinə qalan bir adam idi. Onlar Əli ağaya hörmət edər və onu son dərəcə sevərdilər…

- Bəsdi, oğul bəsdi, - deyib, general alimin biləyindən tutdu. Dosta üzgörənlik eləyib Yevgeni Zaxaroviç məni lap çox tərifləyib.

- Zənnimizcə elə xidmətiniz muqabilində də Yevgeni Zaxaroviç tərif yazıb. Amma siz nədənsə, elə tərifdən qaçırsınız.

- Axı, ay oğul, biz o işləri tərif naminə görməmişik. Bu hər birimizin borcu idi, onu da pis-yaxşı yerinə yetirdik.

- Yoldaş general, borca qalanda… - susdu, cəsarət eləməyib elə-belə kitabı vərəqlədi.

- Hə, buyur, oğul, nəsə sözlü adama oxşayırsan, de, utanıb çəkinmə…

- Sizdən bir təvəqqəm var, amma gərək yox deməyəsiniz…

- Oğul, bir de görüm əlimdən gələn işdimi. - kövrək-kövrək, məgər bu əldən-ayaqdan düşmüş qoca da kiminsə işinə yarıyar?

- Yaxşı olar ki, Siz də xatirələrinizi yazasınız. Sizin xatirələr bu gün faşizmə qarşı ölüm-dirim mübarizəsi aparan əsgər və zabitlərimiz üçün ən gözəl töhfə olardı.

General kitabı əlinə alıb, eynəyini gözünə taxdı. Kitabın ilk səhifəsinə elə-belə göz gəzdirib:

- Ay, oğul, - dedi, - dünən Sizin bir elmi işçinizdə gəlmişdi ona da dedim. Bu elə çətin işdi ki, tək mən öhdəsindən gələ bilmərəm. Belə ki, lap uşaqlıqdan hərbi işə olan marağım, hərbi gimnaziyada, Peterburqdakı Mixaylov adına Topçuluq Məktəbində oxumağım, hamısı Rus-Yapon müharibəsindəki xidmətim, Cahan müharibəsində və inqilab illərində olan bütün hadisələr təfərrüatı ilə yaddaşımda qalıb. Bu, görünür, ömrümdə bir dəfə də olsun araq içməməyimdən, ət yeməməyimdən irəli gəlir.Ümumiyyətlə, uşaqlıqdan məndən qumara və insana məxsus olmayan əyləncələrə qarşı nifrət var. Boş vaxtımı at sürməkdə, kitab mütaliəsində keçirmişəm. Bəlkə ona görə də yaddaşdan yaxşıyam. Amma qulaqlarım və gözlərim mənə vəfasızlıq edir. Bu da görünür qocalıqdandır. Axı, zarafat deyil, bu yolu mən ötən əsrin ortalarından gəlirəm.

Alim sevinclə:

- Eybi yoxdur, yoldaş general, - dedi, - generalın xatirələrini yazmağa razılıq verməyi onun hədsiz sevincinə səbəb oldu.- mən Sizə köməkçi verərəm. Hiss eləyirəm nasazsınız, əgər etiraz etməsəniz Sizə bir nömrəli xəstəxa-

nada otaq ayırardıq. Orada həm müalicə olunardınız, həm də xatirələrinizi diktə edərdiniz. O adam gecə-gündüz sizinlə bir otaqda yaşayacaq.

- Mən etiraz etmirəm, - deyə general qocalara məxsus xoş təbəssümlə gülümsündü. - onsuz da evdə tək-tənha darıxıram. Həkimlər mütaliəni də mənə çox gördülər. Amma bir şeyi də demək istəyirəm. Sizin o alim yoldaşın günahı nədi, sap-sağlam ola-ola xəstə…

- Siz onun üçün narahat olmayın. O özü buna ürəkdən razıdır. Başa düşür ki, bu xatirələrin hər bir epizodu xalqın azadlığı yolunda əzab-əziyyətlərə dözən, odlu səngərlərdə "Vətən uğrunda!" deyib hücuma keçən əsgər və zabitlərə hava, su qədər gərəklidir.

- Mən hazıram, - deyə general ürəkdən razılıq verdi. Gur səslə, - bir şərtlə ki, lap uşaqlıqdan başlayacağam. Çünki uşağlığım mənim üçün çox əzizdir, - dedi. Sizə onu da xatırladım ki, kiçik bir mülkədar olan atam İsmayıl ağa Əli Qazax oğlu Şıxlinski, əsli 1537-ci ildən başlayan igid bir nəslə mənsub olub. Bizim ulu babamız Ağdolaq Məmmədağa Qazax qəzasında igidliyi ilə ad-san qazanıbmış. Onun iki oğlu olub. Böyük oğlu Şıxı çox ağıllı və sakit, kiçiyi Əli Qazax isə çox igid, amma dəlisov bir adam imiş. Mən Əli Qazaxın nəslindənəm. Əvvəllər ikisi də Qazaxlı kəndində yaşayıblar. Şıxının övladları artıb böyüyəndə görünür, torpaq sahəsi azlıq edib. Ona görə də onlar bir qədər də Qərbə köçüb biri Sınıq körpünün yanında, o biri də Kürün sahilində kənd salıblar. İndiki Şıxlı kəndləri mənim ulu babamın adını daşıyır.

- Eşitdiyimə görə Sizin böyük şair Molla Vəli Vidadiyə də qohumluğunuz çatır?

- Çatır, oğul, - general fəxrlə izah etdi. - Mənim anam Şahyəmən xanım Vidadinin dost-doğma nəvəsidir. O dövrün iki məhşur şairi də bizim nəslin yetişdirməsidir. Kazım ağa Salik və Mustafa ağa Arif Şıxlinskilər eşitmisənmi?

- Bəli, ədəbiyyat tarixində belə şairlər var. Amma heyf ki, çox az şerləri bizə gəlib çatıb. O da Firidun bəy Köçərlinin xidməti sayəsində...

Alim hiss edirdi ki, danışmaq, o illəri xatırlamaq general üçün çətin də olsa xoşdur. Səhhəti ona imkan vermirdi. Həyəcanlanmış general durub rəfdən qalın bir kitab gətirdi. Vərəqləyib istədiyi səhifəni tapdı. Kresloda əyləşib dərindən nəfəs aldı.

- Rəhmətlik Firidun bəy Köçərli gör nə qədər cünglərdə, boxçalarda itib - batmaqda olan Azərbaycan şairlərinin şerlərini üzə çıxartdı. Yəqin ki, bu kitabı oxumusunuz. Görürsünüzmü, Kazım ağa Salikin, Mustafa ağa Arifin neçə şeri verilib. Ömrünü Rusiyada sürgündə keçirən mayor Mustafa ağa da

bizim nəslə mənsubdur. Mustafa ağa ilə Kazım ağa deyilənə görə qardaş, ya da əmioğlu olublar. Diqqət elə , gör qürbətdə Qazaxı xatırlayan Mustafa ağa Arif Salikə nə yazır:

***Bilməm nə oldu bizim Qazax, Şəmsəddin,***
***Gəlmədi onlardan bir xəbər yəqin.***
***Qəzayi-ilahi bu imiş həmin,***
***Getdi əldən o dövranlar, ağlaram!***

... Söhbət elə şirinləşdi ki, qonaq getməyi general isə xəstəliyini unutmuşdu. Sanki onlar bir-birini neçə illər idi tanıyıb sevirdi. Alim ürəyində deyirdi: "Hər xalqın təlxəyi də var, məhşur sərkərdəsi də,. Ağıllı xalq şübhəsiz ki, sərkərdəsi ilə fəxr edir. Biz isə belə sərkərdəni itirib-axtarmırıq. Vaxtilə rus artilleriyasının "allahı" sayılan, xalqımızın hərb tarixinə şanlı səhifə yaza biləcək insan Cəfər Cabbarlı adına küçənin on dörd nömrəli evində təktənha ölümünü gözləyir".

- Bəs hərbçi necə? Nəslinizdə Sizdən əvvəl hərbçi olubmu?

- Bizim nəsil cəngavərliyi, tündməcazlığı ilə tanınıb. Ona görə də bizi qəzada "dəliqazaxlı" adlandırıblar.

Əli Qazaxoğlu nəslində birinci savadlı adam mənim atam olub. O, 1804-cü ildə Rusiya-İran müharibəsində süvari dəstənin tərkibində vuruşmuşdur. Atam İsmayıl ağa döyüşdə xüsusi ilə fərqlənən, təltif olunanlar sırasında olub.

Şıxlinskilər nəslində Avropa üsulu ilə tam təhsilli birinci Adam isə mən olmuşam.

Atam rus dilini bilməsə də, görünür ona böyük hüsn-rəğbəti olub. Məndən iyirmi beş yaş böyük qardaşımı çar konvoyuna göndərib. Qardaşım atamdan aldığı maddi yardımla özünə müəllim tutub rus dilini öyrənir. Üç ildən sonra zabitliyə imtahan verib, süvari zabiti adını alır.

Mənə isə Avropa üsulunda hərbi təhsil vermək atamın ən böyük arzusu idi. Ona görə də məni götürüb özü ilə Tiflisə apardı. Anamın əmisi oğlu o vaxt çox məhşur olan, savadlı, bir çox azərbaycanlıların təhsil almasına yaxından kömək edən Mirzə Hüseyn Əfəndi Qayıbzadəyə tapşırdı. Bundan sonrakı bütün fəaliyyətim üçün həm müəllimim, həm də qayınatam Mirzə Hüseynə borcluyam.

General susdu. Gödək saqqalını, qalın bığını fikirli-fikirli sığalladı. Qonağın sorğu-sualı onu həyatının ilk gənclik çağına qaytardığından ürə-

yindəki, qəlbindəki niskili də tərpətmişdi. Görüşdüyü saysız-hesabsız əsgərləri, dostları, tanışları, hamısını elə bil qonaq özü ilə gətirmişdi. "Qayınatam" deyəndə, istər-istəməz, Nigarını xatırladı. Başını söykəncəyə dirədi. Dünyanın ağrısı-acısı köksünü didirdi.

- Hə, oğul, - deyəsən kitabın bir fəslini yazıb bitirdik. Alim onun bərk yorulduğunu görüb ayağa durdu. Sağollaşıb ayrıldı. Söhbətdən sonra xeyli vaxt özünə gələ bilməyən general nahar etməyi də unutmuşdu. O, fikrə getdi. Ötən günlər onu bərk yaxalamışdı. Diqqəti məchul bir nöqtədə ilişib qalan ev sahibi fikrən hadisələri ilbəil bir-birinin yanına düzürdü.

... 1908-ci il iyirmi beş noyabr. Çarskoye-Seloda müqəddəs Qeorqi Pobedonosev ordeni günü bayram edilirdi. Podpolkovnik Şıxlinskiyə əla xidmətlərinə görə polkovnik rütbəsi verilirdi. O, on illik xidməti borcunu üç ildə yerinə yetirmişdi. Bu barədə yuxarı dairələrdə də, orduda da çox nadir bir hadisə kimi danışılırdı. Sülh vaxtı bu, ağlasığmaz təltifat idi.

Əli ağanı məşhur Şibka qəhrəmanı, piyada generalı Nikolay Qriqoryeviç Stoletova burada təqdim etdilər. Hərbi sovetin üzvü N. Q. Stoletov çatılmış qaşları altından iri mavi gözlərini Əli ağaya dikib, təmiz Azərbaycan dilində dedi:

- Tanışlığımıza çox məmnunam, cənab polkovnik.

Əli ağa donub qaldı. Ona elə gəldi ki, qulağı səsə düşüb. Generalın qarşısında hərbi qaydada farağat dayanıb təəccüblə:

- Mən də həmçinin ... səsi qırıldı.

- Qulluğunuz necə keçir, füsunkar Qafqaz üçün darıxmırsınızmı?

- İşin çoxluğu bəzən buna imkan vermir. Lakin vətən həmişə vətən olaraq qalır. Məgər onun üçün darıxmamaq olarmı ?

- Çoxdanmı ayrılmısınız Qafqazdan?

- Artıq səkkiz il keçir cənab general. İcazənizlə soruşmaq istərdim, əgər sirr deyilsə, bizim dili belə təmiz kimdən öyrənmisiniz?

General gülümsünüb ərklə əlini Əli ağanın çiyninə qoydu:

- Bu dili mən sizinkilərdən öyrənəndə yəqin ki, sən onda uşaq idin.

1860-ci ildə Tiflisdə hərbi xidmətdə olmuşam. Sevastopol kompaniyasından sonra mənə ştabs-kapitan rütbəsi verib, Qafqaz ordusunun baş qərargahına göndərdilər. Onda cavan bir azərbaycanlı ilə tanış oldum. Bu adam ərəb, fars dilində yaxşı təhsilə malik olsa da, rus dilini çox zəif bilirdi. Bu dilə isə güclü marağı var idi. Biz onunla dostlaşdıq, belə qərara gəldik ki, mən ona rusca, o da mənə azərbaycanca dərs keçsin. Azərbaycan dilini bilməyən adam Qafqazda çətin hərəkət edə bilər. Bunu Martınov qulləsinin günahsız

qurbanı, böyük şair Lermontov da etiraf etmişdir.

Onu da deyim ki, Sizin Azərbaycan dili bir neçə dəfə Şibka döyüşlərində də köməyimə çatıb. Son həmlələrin birində əsir aldığımız məşhur türk sərkərdəsi Hacı Osman Paşanı mən azərbaycanca danışdıranda onun gözü kəlləsinə çıxdı. Dodaqaltı deyinib, hirslə gözlərini üzümə bərəltdi:

- Gavura satılan qafqazlı, - deyə məni təhqir etdi.

- Lütfən deyin, cənab general, o dərs aldığınız adamın adını xatırlamırsınız ki…

- Əlbəttə, xatırlayıram, Mirzə Hüseyn Əfəndi - general ani olaraq fikrə getdi.

Əli ağa Şıxlinski dərhal sevinclə soruşdu:

- Qaibzadə, eləmi?

- Bəli, məgər Siz də onu tanıyırsınız?

- Necə tanımayım. Hüseyn Əfəndi mənim anamın doğmaca əmisi oğludur. Həm də mənim qayınatamdır. Mən də ondan dərs alıb bu rütbəyə çatmışam.

- Görürsünüz, tanış çıxdıq. Bu çox yaxşı oldu. Axtarılsa, siz qafqazlılar hamınız bir-birinizə qohumsunuz. Vaxtınız olanda bizə buyurun, cənab polkovnik, Sizi Qafqaz çayına qonaq edərik.

- Cənab general, icazə versəydiniz mən də Sizi keçmiş dostunuzun qızı Nigar xanımın bişirdiyi Qafqaz plovuna dəvət edərdim…

- Böyük məmuniyyətlə…

Əli ağa Şıxlinski Uzaq Şərqdəki xidmət illərini, Çinə səfərini, Rus-Yapon və Birinci Dünya Müharibəsindəki iştirakını, Azərbaycanda xidmətini, Nəriman Nərimanov, general Səməd bəy Mehmandarov, Məmməd bəy Sulkeviç, Həbib bəy Səlimov, Mixail Frunze, Əbdülhəmid bəy Qaytabaşı kimi dövlət xadimi və məşhur sərkərdələrlə görüşlərini xatırlayır, titrək qələmi ilə xırdaca qeydlər edirdi.

O gündən unudulmuş qoca generala fərdi təqaüd kəsildi. Həkimlər həyəcanlanmamağı tapşırırdılarsa da, bu, mümkün olmurdu. Daim ön xətlərdə, müharibə meydanlarında döyüş əməliyyatlarının mahir sərkərdəsi həyəcansız danışa bilmirdi.

1943-cü ilin aprelində kitabın son səhifələrini diktə edən general vətəndaşlıq borcunu xatırlayaraq deyirdi: "İçərisindən çıxdığım xalqıma və onun özü üçün seçmiş olduğu hökumətə həmişə sədaqətlə xidmət etmişəm, edirəm və edəcəyəm".

Bütün varlığı ilə xalqını sonsuz ehtiramla sevən generala nə kitabının çıx-

masını, nə də xalqımızın cahanşümül qələbəsini görmək qismət oldu. Gələcək nəsillərə onun böyük bir əmanəti qaldı. İbrətamiz həyat yolunu, hərbi xidmətini ayna kimi göstərən məşhur "Xatirələrim" kitabı ölümündən bir il sonra işıq üzü gördü. Topçu hissələri ilə tankların açıq üsulu kimi ağıllı təklifləri düşməni məhv etməkdə döyüşçülərimizin köməyinə gəldi.

Dövlət mükafatı laureatı, hərbi elmlər doktoru, artilleriya taktikası professoru Yevqeniy Zaxaroviç Barsukov kitaba yazdığı müqəddimədə bunu bir daha təsdiq edirdi:

"Qızıl Ordunun artilleriyası özünün möhtəşəm qüvvəsini yaradarkən təkcə bu günün nailiyyətlərindən istifadə etməmiş, təkcə gələcəyə baxmamış, eyni zamanda keçmişdən bütün faydalı və lazım olanları da götürmüşdü. O, köhnə rus ordusunda olan ən yaxşı döyüş ənənələrini mənimsəmişdir.

Döyüş ənənələri və köhnə rus artilleriyasında yaxşı nə vardısa, hamısı general-leytenant Əli ağa Şıxlinski ilə əlaqədardır".

1944-cü ildə isə professor respublika Elmlər Akademiyasına göndərdiyi məktubda yazırdı:

"Hörmətli yoldaş Hüseynov! Əli ağa Şıxlinskinin kitabından altı nüsxə göndərdiyiniz üçün səmimi qəlbdən təşəkkür edirəm. Həmin kitabları marşal Voronova, Yakovleva, Proçkoya, Xoxlov və Samsonov yoldaşlara vermişəm.

Bundan əlavə, əgər mümkünsə, SSRİ EA Tarix İnstitutunun direktoru, akademik Qrekova, bizim şanlı Qızıl Ordunun komandanlığının Əli ağa Şıxlinskinin "Xatirələrim" kitabı ilə maraqlanan bəzi üzvlərinə verməkdən ötrü daha altı nüsxə göndərməyinizi Sizdən xahiş edirəm".



# GENERAL ƏLİ AĞA ŞIXLİNSKİNİN MÜDRİK FİKİRLƏRİNDƏN



- Adi bir insan özünü dahi hesab edərsə, demək o, ən küt bir adamdır.
- İnsan nə mələkdir, nə də heyvan; ancaq özünü mələk hesab edəndə, heyvan vəziyyətinə düşür.

***

1920-ci ildə iyirmi səkkiz aprel çevirilişinin səhəri həbs olunan general Əli ağa Şıxlinskiyə bolşevik çekisti belə bir sual vermişdir:

- Hansı siyasi partiyanın və ya inqilabın mənafeyini müdafiə edirsiniz?

General Əli ağa Şıxlinskinin cavabı:

- Hər bir inqilaba əks-inqilab kimi yanaşıram, heç vaxt belə şeylərə qoşulmamışam, qoşulmazdım da...

***

1918-ci ildə general Əli ağa Şıxlinski Gəncədə yeni yaratdığı Əlahiddə Azərbaycan Korpusunun əsgərləri qarşısında çıxış edərək demişdir:

- Azərbaycanlılar birdəfəlik bilməlidirlər ki, doğma ordu əsla tənbəlxana deyil və onun mövcudluğu hər hansı bir azərbaycanlının maddi rifahını daha da yaxşılaşdırmaq üçün yaranmayıb. ***Ordu xalqın istinadgahıdır- bura xalqın ləyaqətli oğulları gəlməlidir.***

***

İyirminci ilin aprel çevrlişi günlərində Musavat hökumətinin Daxili İşlər nazirinin müavini Şəfi bəy Rüstəmbəyov Əli ağa Şıxlinskidən soruşmuşdur:

- Hə, cənab general, qaçmırsınızmı?
- Öz vətənimdən niyə qaçım ki?
- Sizi öldürərlər.

Ağır təbiətli general təmkinini pozmadan cavab vermişdir:

- Gələnlər ağıllı adam olsalar, məni öldürməzlər, çünki mən onların işlərinə yararam. Axmaqlardan isə, heç yerdə canını qurtara bilməzsən. Buna görə də, Vətənimin adama ehtiyacı olduğu bir zamanda, mən onu qoyub heç yerə getmərəm.

***

1880-cı ildə Tiflis kadet korpusunda təhsil alan kursant Əli ağa Şıxlinski bir gün dostları ilə şəhərə gəzməyə çıxır. Kursantlar güclərini sınamaq üçün güc tərəzisinə yaxınlaşırlar. Hamı bir-bir öz gücünü göstərir. Əli ağaya da təklif edirlər. O, deyir ki, gəlsəniz mən bunu divardan tamam qopardam (O vaxtlar güc sınanan tərəzi yumruqla vurulmurdu. Divara bərkidilirdi, güc sınayanlar onu özlərinə tərəf dartırdı).

Yoldaşları deyir:

- Əli ağa, zarafat eləmə, altıya, yeddiyə qədər çəkə bilsən qalibsən.

Tərəziçi:

- Bala, əvvəl çək, sonra öyün, - deyib ona kinayə ilə baxır.

Əli ağa var qüvvəsi ilə elə çəkir ki, güc sınanan tərəzi divardan yerli-dibli qopur.

Tərəziçi:

- Bala, - deyir, sən doğrudan da güclü imişsən, bu güclə öyünməyə haqqın var. Beşə qədər çəkənə altı manat düşür. Sən isə onu yerli-dibli qopartdın. Al, mükafatın on manatdır.

Əli ağa:

- Mənə on manat lazım deyil. Mən istədim biləsiniz ki, tərəzinizi dibindən çıxardan oğullar da var - deyə cavab verir.

Vətənə məhəbbət ailə və məktəbdən başlayır.



## QACAR NƏSİLİNİN GENERAL OĞULLARI

Azərbaycanda elə məşhur nəsillər var ki, həkim, mühəndis və elm xadimləri yetişdirməklə yanaşı, onların hərbçi oğullurı da olmuşdu. Hələ İmperiya və Cümhuriyyət dövründə Naxçıvan kəngərlilərindən beş, Bakıxanovlardan üç, Yadigarovlardan dörd, Cavanşirlərdən dörd, Talışxanovlardan beş, Şxiliniskilərdən iki, Novruzovlardan üç, Qacarlardan səkkiz nəfər general yetişmişdir.

Tarixi qaynaqlar imkan verir ki, bu gun Qacarlar haqqında iftixarla söhbət açaq. Digər Oğuz tayfaları kimi Yaxın və Orta Şərq tarixinndə Qacar oğullarının nümayəndələri mühüm rol oynamışlar. Onların gücü ilə Azərbaycan Səfəvi dövlətinin təməl daşı qoyulmuşdur. ***Qarabağ və Gəncə bəylərbəyliyini bu tayfanın sərkərdələri idarə etmişlər. Qacarlar nəslinin yeddi oğlu yüz iyirmi doqquz il - 1796-cı ildən ta 1925-ci ilədək İran şahı olmuşlar.***

***Qacarlar nəslinin yeddi oğlu 129 il -1796-ci ildən 1925-ci ilədək İran şahı olmuşlar. Ağa Məhəmməd şah (1796-1797), Fətəli şah (1797-1834), Məhəmməd şah (1834-1848), Nəsrəddin şah (1848-1896), Müzəfərəddin şah (1896-1907), Məhəmmədəli şah (1907-1909) və Əhməd şah (1909-1925).***

Görkəmli tarixçi-alim Abbasqulu ağa Bakıxanov yazır: “Qacarlar tayfası Cəlayır türklərindəndir, iki yüz min ailədən ibarət olub. Onlar Çingiz xanın nəvəsi Hülaku xanın əmri ilə İrana köçürülmüşlər. Qacarların tarixini yazan Əbdürrəzzaq bəy “Məasiri-sultaniyə” adlı əsərində deyir: Abaqa xanın əmrilə bu tayfanın rəislərindən Sərtaq adlı bir nəfər Arqun xana əmabəy təyin edilib, Xorasan və Təbəristanda qoşun başçısı olmuşdu. Onun Qacar adlı bir oğlu vardı, bu tayfanın çoxu onun nəslindəndir. Qacarlar bir çox zaman keçdikcə Rum və Şam vilayətlərinə getmişlər. Əmir Teymur onlardan əlli min ailəni gətirib İrəvan, Gəncə və Qarabağ ərazilərinə yerləşdirmişdir. Onlar gündən-günə artıb, cah və cəlal sahibi oldular. Qacar əmrlərindən bir çoxuda Səfəvilər döründə etibarlı hökumət adamları olub, İrəvanda və Şirvanda yüksək iqtidara malik idilər.

İrəvan hakimləri həmin nəsildən olmuşdur. Gəncə və Qarabağ hakimləri də Ziyad oğlu ləqəbi ilə, Xudafərin körpüsündən başlayaraq Sınıq körpüdən yuxarı olan Şülaver kəndinə qədər hökmranlıq edirdilər." (A. Bakıxanov "Gülüstani-İrəm" əsəri, Bakı, 1951-ci il nəşri, səh. 179.)

1804-cü ildən işğalçı Rus ordusuna qarşı illərlə qəhrəmanlıqla döyüşlər aparan İrəvan sərkərdəsi şahzadə Həsən xan, gəncəli Cavad xan Qacarlar nəslinin nümayəndəsidir.

***Qacarlar nəsilinin nüfuzlu nümayəndəsi olan şahzadə Əbdülsəmid Bəhmən Mirzə Abbas Mirzə oğlu (1811-1884) tarixçi-alim kimi xalqımıza az da olsa tanıdılıb. O, həm də çox sayda yaxşı oğul-qız atası olub. Şahzadə Bəhmən Mirzənin qanuni olaraq evləndiyi on altı arvaddan altımış üç övladı olub. Onların otuz biri oğlan, otuz ikisi qız idi. Şahzadə altımış üç övladının hamısına ali təhsil vermiş, xalqımız üçün yararlı şəxsiyyətlər böyütmüşdür.***

***Onun otuz bir oğlunun səkkiz nəfəri zər general paqonu daşımışdır: Rzaqulu Mirzə, Əmir Kazım Mirzə, Əmənulla Mirzə, Feyzulla Mirzə, Məhəmməd Mirzə, Mahmud Mirzə, Əbdulsəməd Mirzə və Şəfixan Mirzə Qacarlar.***






**General-mayor Mirzə Rza xan Daneş (1853-1937)**

# GENERAL ŞAHZADƏ - ƏMİR KAZIM MİRZƏ QACAR (1853-1920)

*De tarix, nə acı xəbərlərin var!...*
*Boğulmuş nə qədər haq danışanlar.*
*SƏMƏD VURĞUN.*



Şahzadə Bəhmən Mirzənin otuz bir oğlunun on səkkizindən çoxu hərbi qulluqda olmuşdur. Bəs Sovet hakimiyyəti illərinə qədər sağ qalan bu oğlanların sonrakı taleyi necə olub?

Onların on beş nəfərinin Azərbaycan Demokratik Respublikasının ordusunda xidmət etməsi barədə arxiv sənədlərində məlumat var. 1918-ci ildə polkovnik Xosrov Mirzə Qacar Birinci Azərbaycan süvari alayının komandiri olmuşdur. Polkovnik Seyfulla Mirzə Qacar isə Baş Qərargahda intendant şöbəsinin rəisi idi. General Əmir Kazım Mirzə Qacarın hərbi nazir Səməd bəy Mehmandarovun adına yazdığı raport Respublika Yeni Tarix Mərkəzi Dövlət Arxivində saxlanılır. General Əmir Kazım Mirzə Qa-

carın 1918-ci il dekabrın 1-də vətənpərvər ruhda yazdığı raportda onun ömür yolunun indiyədək açılmayan səhifələri də var:

***"Əlahəzrət yoldaş hərbi nazirə***

Hörmətli cənab Səməd bəy, təəssüflər olsun ki, Bakıya gəlib Siz əlahəzrətlərinə xahişimi çatdıra bilmədim. Bunun da səbəbi Hərb Nazirliyin Gəncəyə köçürülməsi oldu.

Sizinlə görüşə bilmədiyimə çox təəssüf etdim. Bakıya gəlib Sizi tapa bilmədim. Çünki Siz xidməti işlərinizlə əlaqədar şəhərdən müvəqqəti getmişdiniz. Oğlumun və qızımın xəstəliyi haqqında evdən teleqram almışam. Tiflis şəhərinə qayıdıram. İcazənizlə Sizə yazılı surətdə müraciət edirəm və bundan əlavə raport da yazmışam.

Mən otuz dörd il hərbi xidmətdə olmuşam. Və iki hərbi kampaniyada iştirak etmişəm: 1877-78-ci illərdə rus-türk müharibəsində və rus-yapon müharibəsində. Öz xahişimlə cəbhəyə göndərilmişəm və döyüşlərdə podpolkovnik rütbəsində iştirak etmişəm. Bir neçə döyüş təltifatı alandan sonra polkovnik rütbəsinə layiq görülmüşəm.

Xidmət etdiyim müddətdə qoşun hissələrinin iki tədris kursunu bitirmişəm: Qafqaz süvari tədris rotasının və ikinci süvari zabit məktəbinin kurslarını. Hər iki kursu da birincilər sırasında, mükafatla.

Az müddət istefada olsam da hərbi ruhda tərbiyə almış, həmişə də hərbi işlə maraqlanmış və hərbi ədəbiyyatı izləmişəm. Məhz buna görə də hərbi qulluğun müasir tələblərinə uyğun olaraq xidmət borclarını icra etmək bacarığına və lazımi qədər fiziki qüvvəyə malik olduğumu hiss edirəm.

Qərargahın Azərbaycan korpusuna təqdim etdiyim xidmət dəftərçəmdə keçdiyim hərbi xidmət haqqında tam məlumat almaq olar.

Zati-aliləri, Vətənin keçdiyi bu ağır vaxtda öz xalqıma xeyir vermək məqsədilə bu, həm də mənim ailəmin zəifləmiş iqtisadi vəziyyətinin yaxşılaşmasına səbəb olardı.

Xahiş edirəm, Azərbaycanın hər hansı hərbi idarəsində mənə general vəzifəsindən birini /nəzarət generalı və ya məiyyət generalı/ və yaxud Sizin məsləhət gördüyünüz vəzifəni həvalə edəsiniz.

***Sizin mənim haqqımda xeyirxah qərarınızı gözləyən bəndəniz GENERAL-MAYOR ŞAHZADƏ ƏMİR KAZIM MİRZƏ QACAR".***

Respublika Dövlət Arxivində saxlanan bir sənəddə deyilir ki, Gəncə üsyanında türk zabitləri və denikinçilər iştirak edirdilər. Üsyançıların artilleriya hissəsinə denikinçi polkovnik Nikolayev komandirlik edirdi. Üsyançıların başçılarından biri də keçmiş musavat ordusunun zabiti Məhəmməd Mirzə Qacar idi.

Bundan sonra Qacarlar nəslinin faciəsi başlanmışdır. Şahzadə Bəhmən Mirzənin oğlu - general-mayor Əmir Kazım Mirzəni Gəncədə bolşevik çekistləri doğrayırlar. Nəvəsi, podpolkovnik Sədrəddin Mirzəni isə 1920-ci ilin iyununda 23 nəfər musavat zabiti ilə birlikdə həbs edib Arxangelsk adasına sürgün edirlər. General-mayor Əmənulla xan Mirzə İrana köçüb Tehranda yaşayır. Onların Tiflis və Şuşadakı mülkləri müsadirə olunur.

Azərbaycan hərb tarixinə, maarif və mədəniyyətinə görkəmli simalar bəxş etmiş bu ziyalı nəslinin bir nümayəndəsi ilə görüşə bildim. Respublika MEA-nın müxbir üzvü Çingiz Qacarda babalarından qalma nadir əlyazmalar, qiymətli fotoşəkillər və müxtəlif yadigarlar saxlanılır. Onlardan biri general-mayor Əmir Kazım Mirzə Qacara məxsusdur. Əmir Kazım Mirzə 25 il orduda qüsursuz xidmət etdiyinə görə üstündə tuncdan tökülmüş atlı fiquru olan stolüstü saatla mükafatlandırılıb. Saatın üstündə "Əmir Kazım Mirzəyə əla xidmətinə görə" sözləri yazılıb. 44-cü Nijeqorod alayının marşını çalan saat indi də işləyir. Bu qiymətli hədiyyə general Əmir Kazım Mirzəyə 1898-ci il dekabrın 16-da verilib.

General Əmir Kazım Mirzə 1855-ci il mayın 1-də Şuşada anadan olub. İlk təhsilini Tiflis klassik gimnaziyasında alıb, 20 yaşında isə Peterburqdakı Nikolayev süvari məktəbini bitirib. 1871-ci ildə kornet-zabiti Əmir Kazım hərbi xidmət üçün Qafqaz Əlahiddə ordusunun 44-cü Nijeqorod alayına göndərilib. Qüsursuz xidmətinə o dəfələrlə imperiyanın yüksək orden və medalları ilə təltif olunub.

1877-78-ci illərdə rus-türk müharibəsində dördüncü dərəcəli "Müqəddəs Anna" və üçüncü dərəcəli "Müqəddəs Stanislav" ordenləri ilə mükafatlandırılıb. Ən yaxşı süvari zabitləri sırasında mayor Əmir Kazım Mirzə 1881-ci ildə imperator üçüncü Aleksandrın tacqoyma mərasimində iştirak edib. Süvari polkovniki Əmir Kazım Mirzə 1895-ci ildə eskadron komandiri təyin olunur. Həmin ili o, Buxara əmirliyinin üçüncü dərəcəli "Parlayan ulduz" ordeni ilə təltif edilib.

XIX əsrin yetmişinci illərindən hərbi xidmətdə sürətlə irəliləyən igid zabit Əmir Kazım Mirzəni hökumət səxatətlə təltif etmişdir. O, 1879-cu ildə

üçüncü dərəcəli "Müqəddəs Anna", ikinci dərəcəli "Müqəddəs Stanislav" /(qılıncla birgə)/, 1881-ci ildə ikinci dərəcəli "Müqəddəs Anna", altı il sonra üçüncü və dördüncü dərəcəli "Müqəddəs Vladimir", 1890-cı ildə isə İranın dördüncü dərəcəli məşhur "Şire-Xorşid" ordenləri ilə mükafatlandırılmışdır. Əmir Kazım Mirzə 1904-1905-ci illərdə Port-Artur döyüşlərində Amur-kazak süvari polkunun komandiri kimi vuruşmuşdur. Bu müharibədə ona döyüş şücaətlərinə görə polkovnik rütbəsi verilir, bir neçə orden, medalla və1905-ci ildə üstü yazılı qızıl silahla təltif olunur.

***1902-ci ilində diviziya komandirinin birinci müavini kimi yüksək vəzifəyə təyin edilən polkovnik Əmir Kazım Mirzə 1910-cu ildə general-mayor rütbəsinə layiq görülmüşdür.***

General şahzadə Əmir Kazım Mirzə təkcə hərbçi deyildi. O, xalqımızın maariflənməsində də yaxından iştirak etmiş, Tiflisdə və ayrı-ayrı qəzalarda ibtidai məktəblərin açılmasına maddi yardım göstərmiş və kasıb balalarını öz xərcinə oxutdurmuşdur. General-mayor Əmir Kazım xan Qacar 1910-cu ildən Qafqaz Müsəlmanları Xeyriyyə Cəmiyyətinin fəxri üzvü seçilmişdir. Onun ən böyük xidmətlərindən biri 1912-ci ildə Tiflisdə Azərbaycan dram cəmiyyətinin təsisi və tamaşa binasının açılmasında yaxından iştirakı olmuşdur. 1911-ci ildə M.F.Axuundovun yüz illik yubileyi də general-mayor Əmir Kazım Mirzə Qacarın sədrliyi ilə keçmişdir.

1913-cü ildə "Molla Nəsrəddin" jurnalında Məmmədəli Əbdülmanafzadənin "Gimnazist" şeri dərc olundu. Çar məmurları və qaraguruhçular jurnalı məhkəməyə verdilər. Məşhur ədəbiyyatşünas-alim Firudin bəy Köçərli, İranın Tiflisdəki vitse-konsulu Mirzə Məhəmmədxan və general Əmir Kazım Qacar müsəlman ədəbiyyatının bilicisi kimi məhkəmədə iştirak edib jurnalı müdafiə etdilər.

General Əmir Kazım Qacar 1918-ci il dekabrın 1-də Gəncə şəhər hərbi komendantı təyin olunur.

***1920-ci ilin may-iyun aylarında daşnak-bolşevik ordusuna qarşı vuruşan general Əmir Kazım xan Qacar əsir düşür və Gəncə "ÇK"-sı Tuxareli tərəfindən qılıncla vəhşicəsinə öldürülür.***

## GENERAL-MAYOR FEYZULLA MİRZƏ QACAR (1872-1920)

***Ötüb keçən illəri yada salın,***
***keçmiş nəsillərin fəalliyyətini unutmayın.***
***Nüfuzlu nəsillərin gördüyü işlər bu***
***günkü gəncliyə örnək olmalıdır.***
***EL HİKİMƏTİ***



Feyzulla Mirzə Qacar 1872-ci ildə Şuşada general Şəfi xan Mirzənin ailəsində dünyaya gəlib, dörd general əminin - Rzaqulu Mirzənin, Əmir Kazım Mirzənin, Əmənulla xan Mirzənin, Məhəmməd Mirzənin ilk general rütbəsi alan ilk qardaş övladıdır. 1920-ci ilin may ayında bolşeviklərlə savaşda Gəncə üsyanında həlak olub. Şahzadə Feyzulla Mirzə Peterberqdakı Nikolayev süvari məktəbini kornet rütbəsində bitirib.

1904-1905-ci illərdə Port-Arturun müdafiəsində iştirak edib. Süvari generalı Hüseyn xan Naxçıvanskinin komandanlıq etdiyi İkinci Dağıstan alayında podyesaul (kazak qoşunlarında kapitan) rütbəsində döyüşən şahzadə Feyzulla Mirzə Qacar bir neçə uğurlu döyüşlərin iştirakçısı olub.

1905-ci il yanvarın 14-də o, Laizinqou kəndi uğrunda gedən döyüşlərdə qəhrəmanlıqla vurşaraq yaralanmışdır. Həmin ildə nəşr olunmuş "Niva" jurnalının 18-ci nömrəsində igid həmyerlimizin foto şəkli də verilmişdir.

1912-ci ildə 16-cı Tver-draqun alayında şahzadə-podpolkovnik Feyzulla Mirzə Qacar rotmistr rütbəsində xidmət edib. Birinci Dünya müharibəsində o, Çeçen süvari alayının komandiri kimi ön cəbhədə vuruşaraq ad-san

qazanmışdır. 1916-cı il fevralın 26-da "Kaspi" qəzeti yazırdı: "Çeçen süvari alayının komandiri, dördüncü dərəcəli "Müqəddəs Georgi" ordenli şahzadə podpolkovnik Feyzulla Mirzə Qacar 1915-ci il fevralın 15-də şəxsi təşəbbüsü ilə sıralarında yalnız bir zabiti olan Ulan-kazak alayının dörd bölüyünə komandanlığı öz üzərinə götürmüşdür. Güclü tüfəng və pulemyot atəşindən məharətlə istifadə edən cəsur komandir Feyzulla Mirzə Qacar Brın kəndini düşməndən itkisiz geri almışdır. Belə mühüm əhəmiyyətli döyüş sahəsini düşməndən təmizlədiyinə görə igid komandir Feyzulla Mirzə Qacar üçüncü dərəcəli "Müqəddəs Vladimir" (qılıncla birgə) və ikinci dərəcəli "Müqəddəs Anna" (qılınc və bantla birgə) ordenləri ilə təltif olunmuşdur. Şahzadəyə həm də polkovnik rütbəsi verilmişdir".

Məhz Birinci Dünya müharibəsi illərində göstərdiyi qeyri-adi igidliyə və komandirlik məharətinə görə şahzadə Feyzulla Mirzə Qacar 1917-ci il sentyabrın 30-da Qafqaz müsəlmanlarından təşkil olunmuş Birinci Qafqaz süvari diviziyasına komandir təyin olunur.

***Həmin il mayın 7-də əla komandirlik məharətinə və döyüş qabiliyyətinə görə şahzadə Feyzulla Mirzə Qacara general-mayor rütbəsi verilmişdir.***

Yeri gəlmişkən, ilk dəfə şahzadə Feyzulla Mirzə Qacarın general-mayor olması faktına biz K.A. Zalesskinin 2003-cü ildə Moskvada nəşr olunmuş "Birinci Dünya müharibəsində kim-kim olmuşdur" hərbi ensiklopedik kitabında rast gəldik. (səh. 876-da).

Rusiyadakı inqilabi çevrilişdən sonra vətənə qayıdan şahzadə general Feyzulla Mirzə Qacar Azərbaycan Milli Ordusunda xidmətini davam etdirmək istəyir. 1918-ci il dekabrın 23-də Gəncəyə gəlir və Baş Qərargah rəisinin adına belə bir raport yazır: "Yenidən hərbi xidmətimi davam etdirmək arzusu ilə mənim Azərbaycan ordusu sıralarına qəbul olunmağım haqqında zəmanət vermənizi xahiş edirəm.

***General-mayor şahzadə, Feyzulla Mirzə Qacar,***
***Gəncə şəhəri".***

1919-cü il yanvarın 9-da hərbiyə naziri, tam artilleriya generalı Səməd bəy Mehmandarovun və Baş Qərargah rəisi, polkovnik Həbib bəy Səlimovun 20 saylı əmrilə general-mayor Feyzulla Mirzə Qacar Gəncə qarnizonunun rəisi təyin olunur.

***1920-ci ilin aprelində bolşevik-daşnak qoşunları ölkəmizi istila etdilər. Bu təhqirə dözməyən Azərbaycan ordusunun mərd əsgər və zabitləri ölkəmizin hər yerində olduğu kimi, Gəncədə də istilaçılara tabe olmaq istəmədilər. Silahlanmış bütün Gəncə əhalisi üsyana qalxdı. Bir həftə davam edən ağır döyüşlərdə qacarlar nəslindən olan dörd generaldan üçü - Əmir Kazım Mirzə, Məhəmməd Mirzə və Feyzulla Mirzə son nəfəslərinə qədər vuruşaraq vətən torpağı uğrunda şəhid oldular.***

***Belə bir fakt da var ki, Gəncə üsyanında süvari dəstəsi ilə mühasirəyə düşən general-mayor Feyzulla Mirzə Qacarı həbs edilib, Bakıya gətirilir və "ÇK" onu müsavat siyasi xadimləri ilə birgə Nargin adasında güllələyir.***

## GENERAL-MAYOR MƏHƏMMƏD MİRZƏ QACAR
(1872-1920)

Şahzadə Bəhmən Mirzənin beşinci arvadı Çiçək xanımdan olan dördüncü oğlu. General Əmənulla xan Mirzənin (1862-1937) kiçik qardaşıdır. 1872-ci ildə Şuşada dünyaya gəlib. ***1920-ci ilin mayında Gəncə üsyanında bolşevik-daşnak qoşunlarına qarşı döyüşlərdə həlak olub.***

General-şahzadə Məhəmməd Mirzə Qacar həmişə ön cəbhədə olmuş erməni-daşnak qoşunlarına qarşı müvəffəqiyyətli əməliyyatlar aparmışdır. 1920-ci il yanvarın 24-də Qarabağda düşmən qüvvələrinin getdikcə artdığını hiss edən ayıq sərkərdə Məhəmməd Mirzə Qacar Baş qərargah rəisi general-leytenant Məmməd bəy Sulkeviçə Xankəndindən belə bir teleqram vurub əlavə kömək istəmişdir: "Xəbər verirəm ki, Qarabağ qubernatorluğunda ermənilər tərəfindən çox ciddi, demək olar ki, faciəli vəziyyət yaradılmışdır. Çox böyük və ciddi qüvvə lazımdır. Xankəndi qarnizonunun dəstə rəisinə dəymək olmaz, əks halda yerli ermənilər - Əsgəran və Şuşanı tuta bilərlər. Ermənilər haqqında qəti tədbir görmək lazımdır".

***1918-ci ildə Azərbaycan Milli Ordusunda Baş Artilleriya idarəsinin rəisi kimi fəaliyyətə başlayan polkovnik Məhəmməd Mirzə Qacara 1919-cu il iyulun 19-da əla xidmətlərinə görə 320 saylı əmrlə general-mayor rütbəsi verilmişdir.***

Şahzadə general Məhəmməd Mirzə Qacar haqqında hərbi nazir Səməd bəy Mehmandarovun və Baş Qərargah rəisi general Həbib bəy Səlimovun həmin il noyabrın 30-da imzaladıqları 1 nömrəli əmr onun sərkərdəlik fəaliyyəti barədə nadir sənədlərdən biridir. Əmrdə deyilir:

"Hərb naziri köməkçisinin məlumatından aydın olur ki, general-mayor şahzadə Məhəmməd Mirzə Qacar 1-ci piyada diviziyasına müvəqqəti komandanlıq etdiyi müddətdə Gəncə qarnizonunun rəisi vəzifəsini icra edərkən batalyon yaradılması və xüsusi təyinatla yola salınması, eləcə də qoşun hissələrinin isti əsgəri geyimlə təmin edilməsində çoxlu səy və fəaliyyət göstərmişdir. Buna görə də mən ona səmimi minnətdarlığımı bildirirəm".

1910-cü ildən böyük knyaz, general-feldmarşal Mixail Nikalayeviç adına birinci Kuban kazak batareyasının komandiri podpolkovnik Məhəmməd Mirzə Qacar Birinci Dünya müharibəsinə qədər nümunəvi xidmətinə görə ikinci dərəcəli "Müqəddəs Anna" ordenini (qılıncla birgə) və həmin ordenin dördüncü dərəcəsi ilə ("igidliyə görə" yazısı ilə) təltif olunmuşdur.

Birinci Dünya müharibəsi illərində də kazak süvari qoşunlarının sıralarında mərdliklə döyüşən Məhəmməd Mirzə Qacarın xidmətləri ikinci və üçüncü dərəcəli "Müqəddəs Stanislav" ordeninə (qılınc və bantla birgə) layiq görülmüşdür.

1920-ci ildə Gəncə üsyanı zamanı yerli hökumətin ümumi rəhbəri və təşkilatçısı seçilən general Məhəmməd Mirzə Qacar bolşeviklərlə döyüşlərdə həlak olmuşdur.

## GENERAL - ŞAHZADƏ ƏMƏNULLA XAN QACAR
(1857-1937)



Qacarlar nəslinin daha bir general oğlu şahzadə Əmənulla xan Mirzə Qacar olmuşdur. O, qardaşı Əmir Kazım xandan dörd yaş kiçik idi. Təəssüf ki, onun haqqında əlimizdə olan faktlar o qədər də çox deyil. İnqilabdan əvvəl dərc olunmuş qazetlər - "Kafkaz", "Kaspi", "İrşad" Əmənulla xanın hərbi fəaliyyətindən qısa yazılar verib.

1857-ci il yanvarın 8-də Şuşuda anadan olan şahzadə Əmənulla xan Qacar Peterburuqdakı hərbi kadet korpusunu bitirmişdir. 22 yaşında paruçik rütbəsi alan Əmənulla xan 1879-cü il iyulun 19-da xidmətə başlamış, doqquzuncu Kuban piyada kazak batalyonunda komandir olmuşdur. 1900-cü il mayın 6-da nizami kazak batalyonundakı nümunəvi xidmətinə görə Əmənulla xan Bəhmən Mirzə oğluna yesaul (kazak qoşunlarında mayor) rütbəsi verilmişdir.

Birinci Dünya müharibəsi illərində Avstriya cəbhəsində vuruşan igid suvari komandirin döyüş fəalliyəti üçüncü dərəcəli "Müqqədəs Vladimir", ikinci dərəcəli "Müqəddəs Anna" və üçüncü dərəcəli "Müqəddəs Stanislav" ordenlərinə layiq görülür.

1915-ci ildə üçüncü Kuban-kazak piyada diviziyonuna komandirlik edən Əmənulla xan Mirzəyə həmin il aprelin 25-də polkovnik rütbəsi verilir. Güclü döyüşlər zamanı ayağından ağır yaralanan Əmənulla xan arxa cəbhəyə göndərilsə də, hərbi fəaliyyətini dayandırmır.

1916-ci ilin noyabrında yenidən cəbhəyə qayıdan polkovnik Əmənulla

xan Qacar Marxonovka kəndi uğurunda döyüşlərdə komandanlıq etdiyi batalyonla möhkəm mövqe tutaraq, süngü döyüşü ilə düşmən səngərlərini zəbt edir və artilleriya atəşinin gücü ilə düşmənin çoxlu sayda əsgər və zabitini əsir götürür. Bu müvəffəqiyyətli döyüş əməliyyatına görə polkovnik Əmənulla xan Qacar 1916-cı il noyabrın beşində "Georgi silahı" ilə tərtif olunur.

Kuban - kazak nizami hissələrindəki nümunəvi xidmətlərinə görə şahzadə Əmənulla xan Qacar 1917-ci ildə general-mayor ali rütbəsi ilə təltif olunur.

Fevralt burja inqilabından sonra Qafqaza qayıdan Əmənulla xan bir müddət Tiflisdə və Şuşada yaşayır. 1918-ci ildə Milli Ordumuz yaradılanda Azərbaycan Respublikası hərbi nazirinin adına dekabrın birində belə bir raportla müraciət edir:

"Respublika ordusuna böyük xeyir gətirmək arzumu nəzərə alaraq məni müvafiq bir işlə təmin etməyinizi xahiş edirəm. Bununla yanaşı, Sizə məlum edirəm ki, mənim zabit kimi 35 illik fasiləsiz hərbi xidmətim və döyüş mövqelərində, bir də iştirakçısı olduğum rus-yapon və Birinci Dünya müharibələrində qazandığım döyüş təcrübəm var.

Azərbaycan Əlahiddə korpusunun siyahısında mənim təyin olunmam haqqında sənədlərim və şəxsi işim vardır. Xidmət kitabçam da adı çəkilən korpusun qərargahında saxlanılır.

***Hörmətlə general-mayor, şahzadə Əmənulla xan Mirzə Qacar, Gəncə şəhəri".***

General Əmənulla xan Qacar Xankəndində yerləşən birinci suvari diviziyasının rəis müavini və qarnizon rəisi olmuşdur. 1920-ci il martın 21-də gecə qəfil basqın edən daşnaq ordusuna qarşı döyüşlərdə mərdliklə vuruşmuşdur. Aprel çevrilişində bolşevik təzyiqinə dözməyən və bolşevik təhlükəsini əvvəlcədən hiss edən Əmənulla xan 1920-ci ildə İrana mühacirətə getmişdir. Tehranda yaşayan general-mayor Əmənulla xan Mirzə Qacar hərbi məktəbdə işləmiş, İran nizami ordusunun yaradılmasında yaxından iştirak etmişdir. İran Milli Məclisinin deputatı və İran-Sovet dostluğu cəmiyyətinin sədri seçilən general-mayor Əmənulla xan Mirzə Qacar 1937-ci ildə Tehranda vəfat etmişdir.

## GENERAL - ŞAHZADƏ RZAQULU MİRZƏ QACAR
(14.08.1837 - 26.04.1894)



O, məhşur tarixçi, şahzadə Bəhmən Mirzə Qacarın üçüncü oğludur. 1837-ci ildə Şuşada anadan olan şahzadə Rzaqulu Mirzə atası ilə 1848-ci ildə Tiflisə gələrək zadəgan balalarına məxsus kadet korpusu məktəbində təhsil alıb.

Uzun müddət Qafqaz Əlahiddə ordusunda xidmət edən şahzadə Rzaqulu Mirzə Qacar Əlahəzrət imperatorun adını daşıyan Leyb - qvardiya xas alayında eskadron komandiri olub. O, 1860-cı il fevralın 4-də zabit - kornet rütbəsi alıb. 1862 və 1864-cü illərdə üsyan etmiş dağlılara qarşı hərbi yürüşlərdə iştirak edib.

1873-cü ildə xidmətdə fərqləndiyinə görə polkovnik rütbəsi alan şahzadə Rzaqulu Mirzə Qacar Türküstan hərbi dairəsinə ezam olunur. 1877-1878-ci illərdə Rus - Türk müharibəsində briqadaya komandanlıq edən şahzadə Rzaqulu Mirzə Bəyazid qalası uğrunda döyüşlərdə iştirak edir. Müharibədən sonra Qafqaza qayıdan polkovnik Yelizavetpol və Zaqatala süvari alaylarının təşkili ilə məşğul olur.

***Şahzadə Rzaqulu Mirzə Qacar 1883-cü il mayın 15-də general - mayor rütbəsi almışdır.***

Şahzadə Rzaqulu Mirzə hərbçi olmasına baxmayaraq əbədi yaradıcılıqla

da məşğul olub. O, şərqşünas Adolf Berje, böyük dramaturq Mirzə Fətəli Axundov, dövlət müşaviri şərqşünas Aleksandr Şerbin, müsyö V. Qrimm, Mariya Pollan və başqa görkəmli şəxslərlə məktublaşaraq qohumu M. F. Axundovun əlifba və "Kəmalüddölə məktubları" əsərinin çapına çalışmışdır. (Şahzadə Rzaqulu Mirzənin kiçik qardaşı polkovnik Xanbaba xan (1849-1926) Mirzə Fətəli Axundovun qızı Seyrəbəyimlə ailə qurmuşdur. Vaxtsız vəfat edən Seyrəbəyimdən sonra Xanbaba xan onun kiçik bacısı Nisə xanımla evlənmiş-dir). Şair təbiətli şahzadə dərin məzmunlu məktublarını "Şahzadə Rzaqulu Mirzə İrəvani" təxəllüsü ilə imzalayıb.

Mülkü müşavir A. Q. Şerbinin Mirzə Fətəli Axundova 14 may 1877-ci il tarixli məktubundan: "Bir az bundan əvvəl cənab V. Qrimdən öyrəndiyim sevinc dolu xəbərlə Sizi təbrik etməyi özümə borc bilirəm. Şad oldum ki, şahzadə Rzaqulu Mirzə iki süvari alayına briqada komandiri (Çar ordusunda XVIII əsrdə təsis olunmuş polkovniklə general arasında yüksək hərbi rütbə idi) təyin olunub".

Şahzadə Rzaqulu Mirzə Qacarın peterburqlu Mariya Pollana 28 yanvar 1876-cı il tarixli məktubundan: "Mənim Qafqaz ordusuna göndərilməyim yəqin ki, Sizə məlumdur. Mən ayın 15-də Şuşadan İrəvana yola düşdüm. Əlahəzrət böyük knyaz Qafqaz canişininin əmri ilə mən oraya təyin edilmişəm. Mənim Tiflisdə bir nəfər qohumum vardır. O, mənim sevimli qardaşım poruçik Xanbaba xanın qayınatası, polkovnik Mirzə Fətəli Axundovdur. Mən onu gözəl sifətlərinə görə səmimi qəlbdən sevirəm və sizin xanım həzrətlərinizə onu təqdim edirəm..."

40 ildən çox nizami orduda şərəflə xidmət edən general - mayor Şahzadə Rzaqulu Mirzə Qacar imperiyanın yüksək ordenləril ilə təltif olunub. Onun xidmətləri "Brilyant qaşlı ordenə" (1861), "Müqəddəs Stanislav" ordeninin birinci, ikinci və üçüncü dərəcəsinə (qılınc və bantla birgə - 1862, 1868, 1892-ci illərdə), "Müqəddəs Anna" ordeninin ikinci və üçüncü dərəcəsinə (qılıncla birgə - 1865, 1877-ci illər), "Müqəddəs Vladimir" ordeninin üçüncü və dördüncü dərəcəsinə - (1875 və 1888-ci illərdə) layiq görülüb.

General Rzaqulu Mirzə Qacar iki xarici ölkənin - 1873-cü ildə Prusiyanın "Tac ordeni" və 1891-ci ildə maarifçilik sahəsindəki xidmətlərinə görə Fransanın zabitlərə məxsus "Xaç ordeni" ilə təltif olunub.

Ömrünün son illərini Şuşada yaşayan general Rzaqulu Mirzə Qacar 1894-cü ildə, 57 yaşında vərəm xəstəliyindən vəfat etmişdir.

# ŞAHZADƏ - GENERAL HƏSƏN XAN QACAR
(? - 1855)



№ 3853. Гасанъ-ханъ. Генералъ.

*İrəvanın dərdi var,*
*Dərd içində mərdi var.*
*Ordular qan axıtdı*
*Səngər oldu hər divar.*
***İrəvan bayatısı***

Həsən xan yaxud, baş komandan Məhəmməd Həsən xan, xalq arasında isə yüksək nüfuzuna görə Sarı Aslan xan Sərdar ləqəbi ilə məşhur olub. ***Məhəmməd xan Qacar İrəvaninin oğludur.*** İran ordusunda şərəflə xidmət edib igidlik göstərdiyinə görə Əmir Teymurdan miras qalan qılıncla təltif edilmişdir. O, İranın məşhur sərdarlarındandır. Onu və qardaşı Sərdar Hüseynəli xan Qacar - Qəzvini İranın fəxri sayılırdı. Hər iki qardaş 1828-ci il fevralın 10-da Türkmənçayda bağlanmış mənhus sülh müqaviləsinin on ikinci maddəsinə əsasən Rus çarı birinci Nikolayın əmrilə onlar bütün əmlak və var-dövlətdən məhrum edildilər. Bu maddəyə əsasən İrəvanın sabiq sərdarı Hüseynəli xan, onun qardaşı Həsən xan və Naxçıvanın sabiq hakimi Kərim xanın Arazın hər iki kənarındakı yerləri, var-dövləti Rusiya imperiyasının ixtiyarına keçdi.

1804-cü ildə ruslar İrəvanı istila etmək fikrinə düşərkən Cəfərquluxan Dünbüli də onlara qoşuldu. On min piyada və süvarini İran ordusuna qatdı. O vaxt yüzbaşı olan Həsən xan ordusunu yüksəklikdə yerləşdirib böyük şücaətlər göstərərək rus ordusunu geriyə qovdu və təqib etdi.

1806-cı ildə ruslar İrəvana yenidən hücuma hazırlaşarkən Hüseynəli xan Qacar İrəvan sərdarı təyin olundu. Bu zaman-1807-ci ildə Həsən xan qardaşının yerinə Fətəli şahın qullar ağasıbaşı (rəisi-qulaman) idi.

1808-ci ildə Ruslar İrəvan üzərinə yürüş etdilər. Həsən xan İranın digər sərkərdələri ilə birləşərək şəhəri qoruyurdu. Möhkəm vuruşma oldu sentyabr və dekabr aylarında olan hərbi əməliyyatlarda ferdmarşal İ.V.Qudoviçin qoşunları darmadağın edildi. Rusların on üç minlik qoşunu pərən-pərən düşdü. Həmin il noyabrın 17-də olan döyüşdə isə rus qoşunlarından 289 nəfər qılıncdın keçirildi, 574 nəfər ağır, 285 nəfər yüngül yaralandı. 7 nəfər yüksək rütbəli rus zabitindən biri öldürüldü, 4 nəfəri isə ağır yaralandı. Rus çarı bu rüsvayçı məğlubiyyətdən sonra ferdmarşal İ.V.Qudoviçin hörmətsiz vəziyyətdə geri çağırıb istefaya göndərdi. İravan döyüşlərində heç bir müvəffəqiyyət əldə edə bilməyib rus qoşunu Gürcüstana qayıtdı.

1820-ci ildə Həsən xan İranda Çehriçini tutmaq istəyən Osmanlı hakimlərinə qarşı vuruşa getdi və osmanlıların bir neçə şəhərini tutdu, onlara böyük təlafat verdi. Bir ildən sonra, 1821-cı ildə türklər alınmış şəhər və kəndləri geri qaytarmaq üçün yetmiş min ordu ilə İran sərhəddinə yeridilər. Azərbaycan valisi şahzadə Abbas Mirzə Naibüssəltənə ordunu təşkil edib hücuma keçdi və bu döyüşdə İran ordusu qələbə qazandı. Sərdar Həsən xan Qacar İranın ən yaxşı sərkərdəsi kimi özünü göstərdi və Sarı Aslan xan ləqəbini aldı.

Sarı Aslan Türk kəlmələri olub, mənası şiri-zərd deməkdir. Bu mərd və vətənpərvər insan belə şərəfli ada layiq idi.

1825-ci ildə ruslar Balıqlı-Güney və İrəvan hüdudunda olan Göyçə dəryasının guya onların zəbt etdikləri yerlər olduğunu iddia edirdilər. Hər iki dövlət arasında bu məsələ müzakirə olundu və Sərdar Sarı Aslan xan Həsəni İrəvandan çağırdılar ki, həqiqəti aşkar etsin. O, bu danışıqlarda Rusiyanın iddiasına qarşı kəskin çıxış edib onların bəhanələrini rədd etdi. Lakin ruslar müzakirənin nəticələrini gözləmədilər, həmin yerlərə yiyələndilər. Həsən xan Rusiya-İran müharibəsində (1826-1828) o sərdarlardan idi ki, öz əsgəri vəzifəsinə əməl etdi, son saata qədər ruslarla vuruşdu və düşmənə təslim olmadı, amansız döyüşlər apardı. 1826-cı ilin yay hücüm əməliyyatında general Həsən xan Qacar Pənbək və Şoragöl ərazisini tutdu, rus qoşunlarına hücüm edib onları məğlubiyyətə uğratdı. İyun ayında müharibə başlananda qoşun başçısı kimi əsgərlərin qarşısında qısa nitq söyləyən Sərdar Sarı Aslan xan Həsən and içmişdi ki, Qafqazda yaşayan din və dil qardaşlarını kafir ruslardan təmizləyəcəkdir. Onu Rusiyaya qarşı "Müqəddəs müharibə" adlandırmışdı.

1827-ci ildə Sarı Aslan xan Həsən Mustafa xan Şirvani və şəkili Hüseyn xanla birlikdə Tiflisin yaxınlığınadək rus qoşununu məhv etmək üçün hücu-

ma keçdilər. Bu cəbhədə güclü müqavimətə rast gələrək ruslarla vuruşdular və ağır döyüşlərdən sonra geri çəkilməyə məcbur oldular. Rus qoşun başçılarından general Doyq 1827-ci ildə Rus-İran müharibəsində Sərdarabadı tutmaq üçün İrəvana hücum etdi və Həsən xanın güclü müqaviməti ilə rastlaşdı, çarəsiz qalıb İrəvanın otuz altı kilometrliyində olan Talinə qayıtdı. Bir az sonra ruslar Üçkilsədən Həsən xanın ordusuna hücum etdilər. Bu döyüşdə ruslar xeyli qırıldılar və əsir düşdülər. Bu dəfə də Sərdar Həsən xanın qəhramanlığı və şücaəti onların öz məqsədlərinə çatmağa mane oldu. Onlar İrəvanın mühasirəsindən əl çəkib Naxçıvana getməyə məcbur oldular.

1828-ci ilin sentyabrında Naibüssəltənə Abbas Mirzə, Həsən xanı İrəvana Sərdarabad qalsının mühafizəsi üçün göndərdi. General İ.V.Paskeviç onu mühasirə aldı və qala şərq tərəfdən süquta uğradı. Həsən xan düşmənə əsir olmamaq üçün qala divarlarından kənara çıxıb İrəvana hücüm edib düşməni qovdu. General İ.V.Paskeviç Sərdarabadı zəbt etdikdən sonra İrəvana tələsdi, on iki gün gecə-gündüz aramsız döyüşlərdən sonra İrəvanı tutdu. Yenilməz sərkərdə Sarı Aslan xan Həsən bu dəfə əsir düşdü. General İ.V.Paskeviç Qasım xanı, Fətəli xanı, Süvanqulu xanı, Sarı Aslan xanı, Mirzə Mahmud Maqsudlu Astarabadı və Həmzə xan Əzanini özü ilə Tiflisə gətirdi. Feldmarşal İ.V.Paskeviç onlarla əsir kimi yox, sərkərdələrə layiq hörmət və ehtiramla davrandı.1828-ci il fevralın 10-də Türkmənçay müqaviləsi bağlandı və onun on üçüncü maddəsinə əsasən hər iki tərəfdən olan əsirlər öz ölkələrinə qaytarıldı. O cümlədən Sərdar Həsən Sarı Aslan xan azad edildi. Sərdar Həsən xan İrana gəlib daha mühüm işlərlə məşğul olmağa başladı.

1828-ci ildə Fətəli şah Qacar Sərdar Həsən xanı Xorasanda baş vermiş ixtişaşları yatırmaq üçün göndərdi. Əyalətdə ciddi nizam-intizam yaradan Sərdar Həsən xan 1830-cu ilədək orada hökuməti idarə etdi. Sonra Fətəli şah general Həsən xanı Tehrana çağırdı. Yolda Həsən xan müqəddəs yerlər olan Ətbata (İraq) gedir. Bir müddət sonra o, Tehrana gəlir. Həsən xan 1848-ci ildən Yəzd, Girman və Belucistanda Sərdar-hakim olur.

Rusların qənimi, məşhur Azərbaycan sərkərdəsi Həsən xan Qacar 1855-ci ildə Girmanda ürək xəstəliyindən vəfat etmişdir. Müqəddəs Nəcəf şəhərində dəfn olunmuşdur.

# ŞAHZADƏ - GENERAL KAMRAN MİRZƏ QACAR
(1855 - 1928)



Kamran Mirzə Naibüssəltənə Nəsrəddin şahın üçüncü oğludur. İranda bütün qoşunların rəisi və Hərbi nazir vəzifəsini icra etmişdir. O, eyni zamanda Tehran və İranın digər əyalətlərinin hakimi idi. Hərbi nazirlik 1880-cı ildən ta 1896-cı ilədək, yəni Nəsrəddin şahın qətlinədək *(Nəsrəddin Şah Qacar (1831-1896) şahlığı dövründə İranı Rusiyanın və İngiltərənin yarımmüstəmləkəsinə çevirdiyinə görə terrorçu panislamist Mirzə Rza Kirmani tərəfindən 1896-cı ildə öldürülmüşdür.- Ş.N.)* on altı il onun komandanlığı altında olmuşdur. 1880-cı ildə azərbaycanlı Mirzə Hüseyn xan Mürşirüddövlə Hərbi nazir vəzifəsindən uzaqlaşdırıldıqdan sonra Kamran Mirzə onu əvəz etmişdir.

Kamran Mirzə 1855-ci ildə anadan olmuşdur. 1861-ci ildən, altı yaşından Paşa xan Əminilmülkün himayəsində, Tehran hakimi Firuz Mirzə Nüsrətüddövləni əvəz edir. 1867-ci ildə Nəsrəddin şah Xorasana səfər edərkən on bir yaşlı Kamran Mirzəni öz yerinə qoydu. On üç yaşında Kamran Mirzə artıq Naibüssəltənə tituluna layiq görüldü. Həmin il ona Əmiri - Kəbir ləqəbi də verildi. Bundan sonra Nəsrəddin şahın bütün səfərlərində onun yerinə taxta əyləşirdi. Sonra Nəsrəddin şah Tehran, Qəzvin, Gilan, Mazandaran, Dəmavənd, Firuzguh, Qum, Kaşan, Savə, Məlayer, Tuysərçan, Nəhavənd, Astarabad, Şahrud, Bestam, Damcan, Simnan əyalətlərinin idarə olunmasını Kamran Mirzəyə tapşırmışdı. Kamran Mirzə tələbkar şəxs idi.

Nəsrəddin şahın Müzəffərəddin, Zilli Sultan və Kamran Mirzə bu üç oğlu üç ayrı- ayrı arvaddan olmuş, xasiyyətləri başqa - başqa idilər. Zilli Sul-

tan za- lım idi və Kamran Mirzə onu sevmirdi. Məmmədhəsən xan Etimadüssəltənə öz "Xatirat"ında bu ədavət barədə yazmışdır.

1906-1911-ci illərdə Azərbaycanda və İranda Səttar xanın başçılığı ilə məşrutə inqilabı olanda Zilli Sultan Avropaya getmiş, əzazil və qan içən şəxs olduğuna görə yenidən İrana qayıtmaq istəyəndə üsyan edən xalq onu Rəşitdə saxlamışdır. Zilli Sultanı İrana buraxmayan xalq tələb etmişdir ki, əmlakı müsadirə olunsun.

1889-cu ildə Nəsrəddin şahın Avropaya üçüncü səfərindən sonra Kamran Mirzəyə sərhəng-sərtib-tümən (on min nəfərlik orduya) və Nəsrəddin şahın ölmünə qədər əmri noyani (100 min nəfər orduya komandan) təyin edilir.

1907-ci ildə Kamran Mirzənin hakim olduğu əyalətlər artıq rusların nəzarətində idi. Zilli Sultana məxsus olan əyalətlər isə İngilislərin nəzarətində idi.

Kamran Mirzə on ildən sonra, yenidən yəni, 1908-ci ildə hərbi nazir təyin olunmuş, bir aydan sonra, məşrutiyyət dövründə Məhəmmədəli şah kənarlaşdırıldıqda (1909-cu il) yenidən vəzifədən uzaqlaşdırılır.

Qardaşı nəvəsi Əhməd şahın dövründə (1916) Xorasana təyin olunmuş cəmi bir il orada hakim olmuşdur. Tehrana qayıdıb ömrünün sonunadək istefada olmuş, 1928-ci ildə yetmiş beş yaşında vəfat etmiş və Şah Əbdülzimdə Nəsrəddin şahın məqbərəsində dəfn edilmişdir.

## AZƏRBAYCANIN İLK ADMİRALI

***İnsanın ata-anası olmayanda ona yetim deyirlər. Daha böyük fəlakətdir ki, millət yetim qalsın. Yetim millət kimə deyirlər? Öz tarixini bilməyən millət yetimdir. Öz dahilərindən, böyük adamlarından xəbərsiz yaşayanlar yetim hesab edilirlər.***

***Biz elə bir xalqıq ki, böyük dahilər, dünya miqyasında şöhrət tapan adamlar yetirmişik, amma başqa millətlər ona sahib olmaq istəyiblər.***

***Əkrəm CƏFƏR,***
***Professor***

### BƏLƏDÇİ QIZIN DEDİKLƏRİ

İlk dəfə onun adını 1976-cı ildə Sevastopal şəhər muzeyində eşitdim. Bələdçi qız nəhəng bir kreyser şəkli önündə dayanıb 1853-1856-cı illər müharibəsinin qəhrəmanları haqqında məlumat verirdi:

— 1854-cü ilin mart ayında İngiltərə və Fransa Rusiyanın Balkanlarda güclənməsindən bərk narahat olmuşdu. Onların məqsədi Qara dəniz boğazlarını ələ keçirmək və Rusiyanın ticarət yollarını bağlamaq idi. Ona görə də hər iki ölkə müharibəyə qoşulub Krıma qoşun çıxartdı. Sevastopal mühasirəyə alındı. O vaxtdan da Sevastopalun qəhrəmancasına müdafiəsi başlandı. Admiral İstomin, Naximov, Aslanbəyovun (axırıncı famili Aslambekov kimi tələffüz edirdi) və rus əsgərlərinin qəhrəmancasına vuruşmasına baxmayaraq, ingilis və fransız qoşunları şəhəri aldılar. Təhkimçi Rusiyanın gücsüzlüyü və çürüklüyü ölkəyə baha başa gəldi. Bax, bu gördüyünüz şəkildəki vitse-admiral Aslanbəyov 1871-ci ildə üçüncü donanma ekipajının rəisi olanda Sevastopala dəmir yolu çəkilməsinə rəhbərlik etmişdi.

## SƏNƏDLƏRDƏN SORAQ ALDIM

Bələdçi qız sözünə ara verib bildirdi ki, indi də o biri salona keçək. Tamaşaçıların bəzisi irəli durub admiralın portretinə baxıb keçirdilər. Mən isə şəklin önündə xeyli dayandım… Onun üzündə, gözündə qafqazlıya, daha doğrusu, azərbaycanlıya oxşarlıq axtarırdım. Etiraf edim ki, sövq-təbii bir hiss onun bizim xalqın oğlu olmasına məndə şübhə yaratmırdı. Əzəmətli duruşu, qafqazlılara məxsus burma bığları bəy nəsilli olmağından nişan verirdi. Çərçivənin aşağısındakı qısa məlumatı oxudum: "Vitse-admiral A.B.Aslambekov. 1820-1900-cu illər"

Bayaqkından daha geniş bir salona keçdiyimizdən hərə bir tərəfə çəkilib eksponatlara baxırdı. Bir nəfər sualları ilə bələdçi qızı bezikdirmişdi. Mən isə sual vermək üçün fürsət gözləyirdim. Bələdçi qız ondan canını qurtarmaq üçün deyirdi:

— Ay yoldaşlar, bir az yaxın gəlin, eksponatlara əl vurmayın, belə olmaz. Suallarınızı axırda verməyinizi xahiş edirəm…

Üçüncü - axırıncı salona keçməyimizi bildirəndə mən dözə bilməyib ona yaxınlaşdım.

— Möhtərəm xanım, Sizinlə bir məsələni aydınlaşdırmaq olarmı? — deyə soruşdum.

Qu quşu kimi zərif olan bu incə məxluq heysiz halda:

Buyurun, - dedi, amma qısa olsun.

— Vitse-admiral Aslanbəyovun milliyyəti məni maraqlandırır, başqa heç nə…

— Bilmirəm, — deyib təəccüblə üzümə baxdı. — Necə məgər, rus deyil? Siz hardansınız?

— Bakıdanam, — dedim. — Zənnimcə, rus deyil.

- Deyilənə görə, bakılı da deyil. Onun erməni olduğunu deyənlər də var. Əgər Sizi maraqlandırırsa, bir azdan otağa gələrsiniz. Otaqda aydınlaşdırarıq. Gərək ki, onun sənədləri saxlanılır…

Həmin gün əsas fond bağlı oldu. Yelena ilə səhər görüşmək üçün vədələşdik. Əsas fondun bu gün bağlı olmağı onu da narahat etmişdi. Ona görə də mənə belə bir məsləhət verdi:

— Vaxtınız varsa, bu gün "Sevastopal şəhər panoramı"na da baş çəkin. Admiral Aslanbəyov haqqında orada da məlumat olmalıdır.

…Panoram-muzeydə məni pis qarşılamadılar. Amma gəlişimin məqsədini biləndə dodaq büzdülər. Dedilər ki, admiral azərbaycanlı ola bilməz, o illərdə sizinkilərdən orduya, donanmaya götürmürdülər.

— Niyə götürməyiblər? — dedim, götürüblər. Bu müharibədə (1853-1856-cı illər) hər birində beş yüz nəfər döyüşçü olan Azərbaycanlı süvari alayları və ayrıca Qarabağ süvari alayı vuruşurdu. Məhz rus hərb tarixçiləri yazırlar ki, Rusiyanın Qafqaz cəbhəsində əldə etdiyi qələbələrdə Azərbaycan süvariləri xüsusilə fərqlənirdi. Onların bu qələbəsi Krım uğrunda gedən döyüşlərdə vəziyyəti bir qədər yüngülləşdirirdi. Bu müharibədə üç yüz əllidən çox azərbaycanlı zabit və əsgər təltif olunmuşdu. Vuruşanların da əksəriyyəti bəy, xan və ağa nəslindən olan oğullar idi.

Onlar barədə "Kavkaz" qəzeti 1849, 1852, 1855 və 1858-ci il nömrələrində kifayət qədər məqalələr verib. Hətta Peterburqda nizami orduda qulluq edən bir qrup azərbaycanlı döyüşçünün və zabitin siyahısını da dərc edib. Zadəgan nəslindən olan süvari korneti Məmmədəli Eyvaz Əli oğlu, Əliskəndər ağa Süleyman ağa oğlu, kornet Fərzəli Fətəli ağa oğlu, Abdulla Əsgər ağa oğlu, Murtuzəli Məhəmmədəmin oğlu, Əhməd Ağa oğlu, Miryusif bəy, Mir Məşədi bəy oğlu, Nəsrulla bəy Hüseyn bəy oğlu, Adəm Məhəmməd Hacı Məhəmməd oğlu, Əli Hacı Abbas oğlu, Hacı Əlhəngü oğlu, Hacı Məhəmməd oğlu və praporşik İskəndər oğlunun döyüş yolu barədə qısa da olsa məlumat verilir.

Qəzetin 1855-ci il (№ 48) və 1858-ci il (№ 83) saylarında göstərilir ki, azərbaycanlı poruçik Əli Şaban oğlu Varşavadan Peterburqa ezam olunub. Polkovnik Ziya xan Mirzə Nəbi xan oğlu Sankt-Peterburqda yaşayır.

Kornet İdris bəy Ağalarov Varşavada Əlahiddə Müsəlman alayında xidmət edir. Bundan başqa "Kavkaz" qəzeti general İsmayıl bəy Qutqaşınlı, general-leytenant Cəfərqulu ağa Bakıxanov və onun hərbçi qardaşları barədə yazılar da verib.

***

Təəssüf ki, burada admiral Aslanbəyov haqqında heç bir sənəd tapılmadı. Amma muzey işçilərinin göstərdiyi ədəbiyyatdan öyrənə bildim ki, 1855-ci ildə Sevastopalda güclü döyüşlər zamanı admiral Naximov ağır yaralanıb.

Mərkəzi kitabxanaya gedib, admiral Naximovla bağlı kitabların hamısını sifariş verdim. Yazıçı Yuri Davıdovun "Naximov" sənədli povestində admiral haqqında belə bir epizoda rast gəldim: "Konsilium müəyyən etdi ki, Naximovun vəziyyəti ümüdsizdir. Həkim- lər onun bundan sonra yaşamasına inanmırlar. Ölüm yatağında Naximovun əzabı qırx saat çəkdi. Qırx saat tamam olanda canvermə başladı. Həmin anlar şahid kapitan-leytenant Aslanbəyovun gündəliyində dəqiq yazılıb:

"İyunun 30-da saat on birə yaxın onun nəfəs alması daha da gücləndi. Otaqda sakitçilik hökm sürürdü, həkimlər mübahisəni kəsdilər və otaqdakılar çarpayıya yaxınlaşdılar. Sokolov ucadan və çox aydın şəkildə dedi: "Budur, ölüm yaxınlaşır…"

Müəyyən an ötdükdən sonra Voyevodskinin sualına Sokolov bərkdən "keçindi" cavabını verdi. Hamı saata baxdı, saat on bir on dəqiqə idi".

Sonra yazıçı Yuri Davıdov izah edir ki, admiral Naximovun ən yaxın adamı kimi kapitan-leytenant Aslanbəyov qeydlərində heç bir fantaziya yoxdur. Məhz ona görə də admiral Naximovdan yazan bütün rus tədqiqatçıları - akademik Y.V.Tarlə, məşhur hərbi cərrah və həkim müharibənin iştirakçısı N.Piroqov və başqaları Aslanbəyovun qeydlərinə əsaslanırlar.

Sonralar "Naximovun bioqrafiyası" adlı əsərin müəllifi Aslanbəyov yazır ki, admiral Kornilovun həlak olmasını eşidən Naximov ona son borcunu verməyə getdi. Mən içəri girəndə Naximov ağlaya-ağlaya artıq ölmüş dostu Kornilovu öpürdü.

Sabahkı günü həyəcanla gözləməyə başladım.

Uzun bir dəhlizdən keçib, həyəta çıxdıq. Dolama pilləkənlərlə aşağı düşüb qapısına "İnqilaba qədərki mühafizə otağı" sözləri yazılmış qapını açdıq. Yelena hər şeyi ağ saçlı qadına təfsilatı ilə danışdı. Onun üzünə donuq bir ifadə çökdü. Əlindəki qələmi oyna- da-oynada təəccüb və kinayə ilə məni ötəri süzdü. Dodaqaltı nəsə mızıldanıb yerində qurcalandı. Qadının əhvalı-

nın pozulduğunu duyan Yelena öz işi üçün xahiş edən adamlar sayağı: "Rica edirəm, həm öz adımdan, həm də uzaq yol gəlmiş bu yoldaşın xətirinə etiraz etməyəsiniz. Görünür, çox lazımdır..."

Yerindən durmaq istəməyən müdir ağır-ağır başını qaldırıb rişxəndlə:

— Bunun üçün Bakıdan buraya gəlmisiniz? — Xeyli duruxub: Axı Aslanbəyov erməni admiralıdır. Sizin axtarışınız, məncə, mənasızdır.

— Ola bilməz, — dedim, əvvəla ona görə ki, admiralın familiyası Aslanbəyov deyil, Aslanbəyov ola bilər. İkincisi də, əgər erməni olsaydı, Aslanyan olardı.

— Siz bunları hansı mənbədən və nəyə əsaslanıb deyirsiniz?

— O illərdə heç bir erməni familiyasında "bəy" sözü ola bilməzdi. "Bəy", "xan" və "ağa" titulları ancaq müsəlman xalqlarına məxsusdur. Ermənilərin isə bircə titulu olub, "məlik", o da sonradan.

Fondun müdiri nə Yelenaya, nə də mənə bir söz demədən durub sol tərəfə buruldu, sonu görünməyən rəflər arasında yoxa çıxdı. Yelena əyilib arxasınca baxdı. Əlini dodaqlarının üstünə qoyub astadan yeniyetmə qızlara məxsus şıltaqlıqla:

— Dənizçilər demişkən, sükanı belə də tutun, hələlik biz onu məğlub eləmişik. Bircə, Allah eləsin, familiya məsələsi siz deyən kimi olsun.

Təxminən on-on beş dəqiqədən sonra əlində qədim boz bir qovluq geri qayıdan mühafizəçi yerində oturub, bizi heç görmürmüş kimi qovluğu özü vərəqləməyə başladı. Dərin, sükutlu bu yarımzirzəmi otaqda arabir açılan vərəqin səsi mənim intizarımı daha da artırırdı.

Handan-hana:

— Baxaq görək, — dedi, — Sizin sözlərinizdə həqiqət varmı? Şəxsən mən şübhə edirəm ki, belə bir görkəmli admiral müsəlman ola...

Mən daha dözə bilməzdim. Düzü, qorxurdum, özü baxıb, sonra da götürüb geri aparsın və desin ki, sizin dediklərinizdən əsər-əlamət yoxdur. Ayağa durdum. Əlimi cibimə salıb, pasportumu və vəsiqəmi çıxardıb stolun üstünə qoydum.

— Buyurun, — dedim, — mən bu iki sənədimi Sizə etibar edirəm. Siz də əvəzində qovluğu verin, özüm baxım.

Hiss elədim ki, mənim bu səbirsizliyim Yelenanın da xoşuna gəlmədi. O, astadan, narahatlıqla:

— Axı, belə olmaz...

Müdir də dözə bilməyib bir az əsəbi:

— Nə deyirəm, buyurun, — deyib, — qovluğu mənə verdi.

Admiralın şəxsi işinə baxır və gözlərimə inanmıram. İlahi, bu qədər saxtakarlıq etmək olarmı? Nəfəsim təngiyir, həyacandan şəxsi iş əlimdə əsir. Dözə bilməyib sevincimi onlara da bildirmək istəyirəm.

— İcazə verin, Sizin üçün admiralın ad-familiyasını oxuyum.

Müdir dinmir. Amma Yelena, mənim qələbəmi, sevincimi duyan Yelena:

— Buyurun oxuyun, — deyə şən səslə cavab verir.

Oxuyuram:

— Aslanbəyov İbrahim bəy Allahverdi bəy oğlu. Əsli belədir. Lakin qara tuşla bu ad-familiyanın üstündən xətt çəkilib, düzəliş edilib: Aslambeqov Avramiy Boqdanoviç, 1822-ci ildə Bakıda anadan olub. Əsl-nəcabəti isə ağalıqdır (zadəgan). Dini müsəlmandır. Sonuncu iki sözün üstündən də xətt çəkilib, əvəzində "pravoslavnıy" yazılıb. Əgər mümkünsə, icazənizlə admiralın şəxsi işindən qeydlərimi götürüm…

Yelena sevinclə:

Əlbəttə, olar, buyurun, əyləşib qeydlərinizi edin, mənə isə icazə verin mürəxxəs olum.

Mənim səmimi təşəkkürümü məmnuniyyətlə qəbul edən Yelena gedən kimi müdir sərt səslə bildirir:

— Yoldaş, qeydlər götürmək olar, amma nadir fonda saxlanan şəxsi işin foto-surətini çıxartmağa icazə verilmir.

— Çox sağ olun, — dedim, — mənə bu qeydlər də bəs eləyər.

Belə bir qadağanın olmamasını mən çoxdan bilirdim. Lakin bu dar macalda mübahisəyə girişməyi artıq hesab etdim. Bir də ki, bu mənə heç lazım deyildi. Başlıcası o idi ki, mən həmyerlim haqqında, ilk azərbaycanlı vitse-admiral barədə nadir tapıntı ilə üzləşmişdim. Bu sevinc mənə bəs idi.

## MƏNBƏLƏRDƏN GƏLƏN SƏSLƏR

***"Bakı limanı getdikcə yararlı hala salınırdı... Gəmi heyətinin əksəriyyəti bakılılardan olurdu. Gəmiçiliyin inkişafı bakılıların çoxunu dənizə həmişəlik bağlayırdı. O illərdə şəhərə nadir ailələrə rast gəlmək olardı ki, dənizçi olmasın. Gəmilərdə qara fəhlə işləyən də çox idi. 1820-ci illərdə Bakı sularında artıq altmışa qədər yelkənli gəmi üzürdü.***

***Qılman İlkin, xalq yazıçısı***

Azərbaycan Hərbi Dəniz Donanması tarixində ilk admiralımız Dərgahqulu bəyin oğlu Birinci Mirzə Məhəmmədxan olmuşdur. Təəssüf ki, hələlik onun fotoşəklini əldə etmək və ömür yolunu tam öyrənmək mümkün olmamışdır. Lakin Hərbi Dənizçilik tariximizin səhifələrində Mirzə Məhəmmədin fəaliyyəti barədə az da olsa məlumat var. İyirmi yaşında Bakı xanlığına hakim olan Mirzə Məhəmmədxan atası Dərgahqulu bəydən sonra bərbad hala düşmüş iqtisadiyyatı qaydaya salmaqla yanaşı, xəzərdə gəmiçiliyin inkişafına xüsusi qayğı göstərdi. İlk dəfə Bakı limanında gəmiçiliyin inkişafına da o başlamışdır. Bu məqsədlə Avropada gəmiqayırma təcrübəsini öyrənmək üçün səfərə də çıxmışdır. Sevimli yazıçımız Qalman İlkinin "Bakı və bakılılar" sənədli əsərindəki bir epizod tarixi fakt kimi qiymətlidir.

"Bir gün Mirzə Məhəmmədxan oğlu Məlik Məhəmmədi yanına çağırıb dedi:

— Qulaq as, Məlik Məhəmməd, gör, nə deyirəm. Biz dəniz sahilində oturmuşuq, ancaq öz gəmilərimiz yoxdur. Balıqçı gəmiləri ilə iş aşmaz. Bizə elə gəmi lazımdır ki, üstümüzə düşmən gələndə onun qabağına çıxa bilək.

Atıcının sözlərindən heç bir şey başa düşməyən Məlik Məhəmməd gözlərini döyə-döyə ona baxırdı.

— Bunun üçün mən Avropaya getməliyəm, — deyib Mirzə Məhəmməd xan dərindən nəfəs aldı. — Yaxşı gəmiləri ancaq oralarda düzəldirlər.

— Bəs burada kim qalacaq? - Məlik Məhəmməd təəccüblə soruşdu.

— Necə yəni kim qalacaq? Sən!

Məlik Məhəmməd bəzi işlərə qarışaraq atasına kömək edirdisə də, özünə qarşı bu cür ehtibarı heç gözləmirdi.

Həmin illərdə Bakıda olmuş səyyah Lerx yazırdı ki, Bakı xanı admiral Mirzə Məhəmməd xan tez-tez Langertə gedərək orada gəmi inşasına rəhbərlik edirdi.

On doqquzuncu əsrin əvvəllərinə məxsus başqa bir mənbə də mövcuddur. 1804-1806-cı illərdə Azərbaycana işğalçılıq məqsədilə gələn rus qoşunlarının burnunu Xəzərdəki hərbi dənizçilərimiz ustalıqla ovmuşdular. İran tarixçisi Nəsir Nəcimi yazır ki, Abbas Mirzənin cəsarətli sərkərdəsi, Bakının igid komandiri (əslində valisi) Hüseynqulu xan toplardan birini rus gəmilərindən azacıq aralı olan yerə çəkib, heyrətləndirici cəldlik və fədakarlıq göstərərək düşmənin bir neçə gəmisini top mərmisiylə dənizə qərq etmişdi.

Şübhəsiz ki, on yeddi yaşlı İbrahim bəy Aslanbəyovun Peterburqda Hərbi Dəniz Korpusunu bitirməsi də ilk admiralımız Mirzə Məhəmmədin arzu və istəyi ilə bağlı olmuşdur. Bakıxanovların ailə şəcərəsində Allahverdi adlı bir şəxs vardı. Bəlkə, İbrahim bəy Aslanbəyov həmin Allahverdi bəyin oğludur? Təəssüf ki, yüz yetmiş üç illik zaman məsafəsində bunu dəqiqləşdirmək mümkün olmadı. Ancaq xatırlamaq istədik ki, o vaxtlar aşağı təbəqəyə məxsus ailənin on üç yaşlı oğlu Rusiyada oxumaq imkanına malik ola bilməzdi. Deməк, ilk vitse-admiralımız İbrahim bəy Aslanbəyov Bakı xanlarının nəslinə mənsubdur. Şəxsi işindən zədagan nəslinə mənsub olması barədə qeyd də bunu sübut edir.

Adətən ensiklopediyaya düşən hər hansı görkəmli fərdin, şəxsiyyətin harada doğulduğu, hansı millətin oğlu oduğu yazılır. Nə məşhur naşir İ.D.Sıtinin 1911-ci ildə nəşr olunmuş çoxcildli "Hərbi ensiklopediya"sında, nə də sovet dövründə çıxan hərbi dəniz ensiklopediyalarının heç birində admiral Aslanbəyov haqda bu cür məlumatlar yoxdur. Görünür, Rusiyanın hərbi-dəniz donanması tədqiqatçılarına belə görkəmli bir sərkərdəni özününküləşdirmək sərfəli olub. Niyə də olmayaydı? Axı, vitse-admiral Aslanbəyov həm də hərbi donanma tarixində görkəmli alim kimi tanınıb!

## ADMİRALIN ÖMÜR YOLU

Bəzi mənbələrdə, xüsusilə sovet dövründə nəşr olunan əsərlərdə Aslanbəyovun təvəllüdü 1820-ci il göstərilir. Fikrimizcə, bu da səhvdir. Çünki 1917-ci il inqilabından əvvəl nəşr olunan mənbələrdə admiral İbrahim bəy Alləhverdi bəy oğlu Aslanbəyovun 1822-ci il sentyabrın 10-da Bakıda anadan olduğu göstərilir. Üç il Peterburqdakı dənizçilik məktəbində təhsil alan İbrahim bəy oranı 1837-ci ildə (adı "Qırmızı lövhə"yə yazılmaqla) bitirmişdir. Baltik dənizində "Aleksandr Nevski" və "Prozerqin" hərbi freqatlarında üzən miçman Aslanbəyov iki il "İmperator I Petr" sürətli hərbi gəmisində Daqerord yaxınlığında keçirilən təlimlərdə iştirak etmişdir.

1842-ci ildə dənizçilik məktəbi zabitləri sinfini bitirən İbrahimbəy Qara Dəniz Donanmasının hərbi nəzarət gəmilərində üzmüş, Qara dənizin Şərq sahillərində baş verən toqquşmalarda iştirak etmişdir.

"Elbrus" hərbi gəmisinə komandirlik edən leytenant Aslanbəyov 1854-cü ildə düşmənin ticarət gəmilərini darmadağın etmək üçün dörd dəfə (30 iyun, 7 iyul, 3 və 6 avqust tarixlərində) dənizə çıxmış, avqust ayında isə desant gəmisinin döyüşən batareyasına komandirlik etmişdir. Bu xidmətinə görə ona kapitan-leytenant rütbəsi verilmişdir. Həmin il sentyabrın 13-dən müharibənin axırına kimi Sevastopal qarnizonunda olmuş, avqustun 27-də sonuncu hücumu dəf edərək kontuziya almışdır. Şərq müharibəsindən sonra Nikolayev limanında 36-cı donanma ekipajına komandirlik etmişdir.

Aslanbəyov 1860-1861-ci illərdə "Sokol" pərli korvet gəmisinin komandiri kimi Aralıq dənizində üzmüş və həmin gəmini Kronştadta gətirmişdir. 1863-cü ildə həmin korvetlə Nikolayev şəhərinə qayıdan İbrahim bəy iki ildən sonra "Retvizan" gəmisinə komandir təyin edilmişdir. Bir müddət məşhur vitse-admiral Butakovun zirehli eskadrilyasında qərargah rəisi olmuşdur.

Aslanbəyov 1869-1872-ci illərdə dəfələrlə müxtəlif ümumdövlət əhəmiyyətli məsələləri öyrənmək üçün toplanmış komitələrə sədr təyin edilmişdir. Estoniyaya ezam olunan İbrahim bəy gəmiçilik məktəblərinin yaradılması və ticarət gəmilərinin düzəldilməsi üçün yaranan komitənin üzvü olmuşdur.

1878-ci il yanvarın 1-də kontr-admiral rütbəsi veriləndə İbrahim bəy Aslanbəyov səkkizinci donanma ekipajının rəisi idi.

Onun tərcümeyi-halı həm admiral kimi, həm də hərbi dəniz tarixçisi kimi çox zəngindir. Əgər başqa hərbçinin ömür yolu ilə müqayisə etməli olsaq, ancaq general Əli ağa Şıxlinskinin artilleriya tarixindəki xidmətləri ona bərabər ola bilər. Ona görə ki, azərbaycanlı generallarından hərb elmi ilə məşğul olan ancaq Əli ağa Şıxlinski idi. Fərq bircə ondan ibarətdir ki, Əli ağa Şıxlinskinin elmi və hərbi fəaliyyəti Azərbaycanla daha çox bağlı olmuşdur. Admiral Aslanbəyovun elmi tədqiqatları isə rus hərb elmində geniş istifadə olunsa da, bu günə qədər bizə gəlib çatmamışdır. Daha doğrusu, özümüzdə nə tədqiqat olmuşdur, nə də təbliğat…

1872-ci ildə Birinci Pyotrun anadan olmasının 200 illiyi Rusiyada böyük bayram şənliyi kimi keçirilirdi. Bu münasibətlə ümum rus texniki sərgisində iştirak etmək və imperatorun kiçik avarlı gəmi dəstəsinə Moskvaya kimi rəhbərlik etmək həmyerlimiz Aslanbəyova etibar olunmuşdu.

1879-82-ci illərdə İbrahim bəy gəmi heyətilə dövrü-aləm səyahətinə çıxmışdır. O, Sakit okeanda dəmir zirehli hərb və buxar yelkənli iti gedən gəmi-

lərdən ibarət hərbi heyətə ("Minin", "Knyaz", "Pojarskiy", "Herçoq Edinburskiy", "Assiya" və "Afrika") rəhbərlik etmişdir. Aslanbəyov okeanda sürətlə hərəkət edən kreyserlərin və "uçan eskadrilya"nın orduda tətbiq edilməsinin təşəbbüska- rıdır. O, məşhur admiral A.A.Popovun xahişi ilə sonuncu lahiyədə nəzərə almaq məqsədilə tələb və qüsurlarını, siyahısını tərtib etmişdir.

Admiral İbrahim bəy Aslanbəyov sakit okean adalarında üzmüş, hətta Poleneziyanın xırda adalarını da dolaşmışdır. Onun şəxsi işində saxlanan rəy və xatirələrdən, xüsusilə dənizçiliyə aid inqilabdan əvvəlki ədəbiyyatdan məlum olur ki, Aslanbəyov öz heyəti və ümumiyyətlə, tabeliyində olanların arasında yüksək hörmət qazanmışdır. İllərin soldurduğu sənəddə ad-familiyasını oxuya bilmədiyimiz bir kontr-admiral yazır ki, rus adını yüksək tutan Aslanbəyov xarici ölkələrdə də yaxşı tanınırdı. O, gəmi heyətində ruh yüksəkliyi yaratmağı məharətlə bacarırdı. Hətta kiçik rütbəlilərin də şəxsi təşəbbüsünü qiymətləndirirdi. Açıq ürəkliliyi və qətiyyəti ilə çoxlarından fərqlənirdi. Aslanbəyovun gəmilə səfərləri haqqında çoxlu lətifələr, eləcə də özünün danışdığı məzəli şərq əhvalatları hələ də məşhurdur. Bu onun məşhur şəxsiyyət kimi nə qədər sevildiyini bir daha göstərir.

1884-cü ildə kontr-admiral İbrahim bəy Aslanbəyov Baltik komandasının kiçik flaqmanı təyin olunur. Üç il sonra - 1887-ci il sentyabrn 22-də hərbi-dəniz donanmasındakı misilsiz xidmətlərinə görə ona vitse-admiral rütbəsi verilir. Bu ali rütbədən sonra Baltik donanması üzrə flaqman vəzifəsinə təyin olunan Aslanbəyov 1901-ci il dekabrn 7-də Peterburqda vəfat edir.

O, həmyerlimiz, böyük şərqşünas alim Mirzə Kazım bəylə dost olmuş, dahi rus yazıçısı Lev Tolstoy isə onu axtarıb tapmış, admiral Naximovun həlak olma səhnəsini ona danışmasını xahiş etmişdir. Lev Tolstoy məşhur "Sevastopal hekayələri"ni yazarkən admiral Aslanbəyovun xatirələrindən bəhrələnmişdir. Ömrünün əlli ildən çoxunu hərbi dəniz donanmasında nümunəvi xidmətdə keçirən admiral İbrahim bəy Aslanbəyov Rusiyanın və xarici ölkələrin yüksək orden və medalları ilə təltif olunmuşdur.

*3-cü dərəcəli Müqəddəs Stanislav ordeni*
*2-ci dərəcəli Müqəddəs Stanislav ordeni, imperator tacı və qılınclarla (1856)*
*1-ci dərəcəli Müqəddəs Svyatoslav ordeni (1881)*
*3-cü dərəcəli Müqəddəs Anna ordeni*
*2-ci dərəcəli Müqəddəs Anna ordeni, qılınclarla (1855)*
*1-ci dərəcəli Müqəddəs Anna ordeni (1883)*
*4-cü dərəcəli Müqəddəs Vladimir ordeni, bantla (1857)*
*3-cü dərəcəli Müqəddəs Vladimir ordeni (1874)*

*2-ci dərəcəli Müqəddəs Vladimir ordeni (1885)*
*Ağ qartal ordeni (1888)*
*Takov, serb ordeni (1879)*
*Müqəddəs Aleksandr Nevski ordeni (1898)*
*Doğan günəş Yapon ordeni (1882)*
*2-ci dərəcəli Kalakaya Havay Kral ordeni (1882)*

*Georgi lenti üzərində yaxalığa taxmaq üçün, "Sevastopolun müdafiəsinə görə gümüş medal" (1855)*

*"Şərq (Krım) müharibəsi xatirəsinə" bürünc medal 1853-1856. (1856)*

*1881-ci ildə imperator III Aleksandrın tac qoyma mərasimində iştirak edən Aslanbəyova hədiyyə olaraq qılınc verilmiş və bir illik məvacibi həcmində pul mükafatı verilmişdi.*

*1888-ci ildə Rusiya İmperator Coğrafiya cəmiyyətinin həqiqi üzvü secilmişdir. 1898-ci ildə isə istefaya çıxmışdır.*

*Hələ sağlığında - 1882-ci ildə Saxalində bir yarımada, Oxot dənizində isə bir körfəz Aslanbəyovun adı ilə adlandırılmışdır.*

*Boris Maslenikovun 1986-ci ildə nəşr olunmuş "Dəniz xəritəsi nəql edir" kitabının 28 və 253-cü səhifələrində həmyerlimiz haqqında verilmiş qısa bioqrafik göstərici çox böyük əhəmiyyət kəsb edir. Əsaslı mənbələrdən topladığı faktları müəllif ilk dəfə oxucuya təqdim edir:*

*"Aslanbəyov yarımadası. Oxot dənizi, Saxalin adası, 1882-ci ildə ekipaj kliper təsvir edilib. Sakit okean komandanı, eskadriya kontr-admiralı İbarhim bəy Allahverdi bəy oğlu Aslanbəyov soy adı ilə adlandırılıb. Soyadları xəritə üzərində hərf səhvi ilə yazılıb".*

*Aslanbəyov körfəzi. Oxot dənizi, Saxalin adası, 1882-ci ildə kəşf edilib və xəritəyə ekipaj, kliper "Plaston" kimi yazılıb. Elə həmin vaxtda da İ.A.Aslanbəyov soyadı ilə adlandırılıb.*

*Aslanbəyov İbrahim bəy Allahverdi bəy oğlu (1822-1900). Dəniz korpusu məktəbini bitirib. 1837-42-ci illərdə Baltik dənizində üzüb. 1842-61-ci illərdə Qara dəniz donanmasında "Selafail", "Varşava" gəmilərində, "Femistokol" briqində və başqalarında qulluq edib. 1865-68-ci illərdə "Retvizan" gəmisinin komandiri, 1879-1882 ci illərdə Sakit okean eskadrilyasının komandiri olub. 1887-ci ildə vitse-admiral rütbəsi alıb.*

1888-ci ildə Rusiya İmperator Coğrafiya cəmiyyətinin Həqiqi Üzvü seçilmişdi. O 1898-ci ildə istefaya çıxdı.

## QƏRİBƏ VƏ XOŞ BİR TƏSADÜF

Min doqquz yüz doxsan üçüncü ilin sentyabr ayında Qax rayonuna ezamiyyətə getmişdim. Marsan kəndində Eldar Hacı oğlu Məmmədov soyadlı bir cavanla tanış oldum. İşi, sənəti ilə maraqlandım.

— Mühəndisəm, — dedi, 14 ildir ki, Saxalində neft çıxarıram, indi məzuniyyətə gəlmişəm.

— Təsadüfən orada "Admiral Aslanbəyov" adasına rast gəlməmisən?

— Elə mən o adada yaşayır və işləyirəm, — dedi.

— Nə yaxşı təsadüfdür, Azərbaycanlı admiralın adını daşıyan adada həmyerlisi yaşayır və işləyir.

— Admiral Aslanbəyov məgər azərbaycanlıdır? Siz bunu dəqiq bilirsiniz?

— Bəli, — dedim, — o, xalqımızın ilk vitse-admiralıdır.

— Bu barədə bizim ada sakinləri arasında, qeyri millətlərə tez-tez mübahisəmiz olur. Familiya oxşarlığına əsaslanaraq mən və həmyerlilərim "admiral bizim xalqın oğludur" — deyiriksə də, əlimizdə heç bir əsas yoxdur. Bilmirik, nə vaxt yaşayıb, nə vaxt ölüb… Bir-iki dəfə məzuniyyətə gələndə rayonumuzun tanınmış ziyalılarından bu barədə soruşdum. Hamısı dedi ki, bizim elə admiralımız yoxdur.

Mən sevinclə:

— Var, — dedim, — Eldar, Saxalinə qayıdanda yolunu Bakıdan sal, görüşək, sənə admiralın fotoşəkillərini və bioqrafiyasını yazıb verim. Aslanbəyovun bizim xalqın oğlu olması haqqında əlində əsas dəlil olsun.

Məndən də artıq sevinən Eldar:

— Çox sağ olun, — dedi, — mən də admiral Aslanbəyovun haqqında qəsəbə kinoteatrında bir güşə düzəldəcəyəm.

## ADMİRAL HƏM DƏ ALİMDİR

…Admiral İbrahim bəy Aslanbəyovdan yazan rus tədqiqatçısı onun haqqında "Admiral Naximovun bioqrafı kimi daha çox məşhurdur" sözlərini iftixarla qeyd edir. Təsadüf deyil ki, İbrahim bəyin "Naximovun bioqrafiyası" adlı oçerki kitab kimi bir neçə dəfə nəşr olunmuşdur.

Admiral Aslanbəyovun elmi-publisistik əsərləri isə ayrıca tədqiqata layiqdir. Hərbi-dəniz donanmasının on doqquzuncu əsr tarixini araşdıran tədqiqatçıların əksəriyyəti mənbə kimi bu gün istifadə edirlər. Heç təsadüf deyil

ki, 1889-cu ildə Sankt-Peterburqda "Vitse-admiral Aslanbəyovun yarıməsrlik yubileyi" adlı kitab da nəşr olunmuşdur. V.Fridriksin "Kontr-admiral Aslanbəyovun bayrağı altında üzən "Afrika kreyseri" adlı kitabı isə hələ 1880-ci ildə yenə Sankt-Peterburqda işıq üzü görmüşdür. Q.İ.Syominin "Sevastopal" tarixi oçerkləri kitabında (1955-ci il) isə admiral Aslanbəyovun gündəliyindən geniş istifadə olunmuşdur.

Knyaz-admiral V.İ.Baryatinski isə həmyerlimiz haqqında yazdığı xatirələrində qeyd edir ki, Şərq və Qafqaz lətifələrini o qədər maraqla danışardı ki, müsahibi qəşş edənə qədər gülərdi. Bu lətifələr indi də dənizçilərin dillərində gəzir.

On doqquzuncu əsrin altmışıncı illərindən başlayaraq admiral İbrahim bəy Aslanbəyovun "Morskoy sbornik" jurnalında silsilə elmi-publisistik məqalələri dərc olunmuşdur: "Sokol" üçdorlu hərb gəmisinin Aralıq dənizindən Kronştadta səfəri" (1861), "Admiral Naximov" (bioqrafik oçerk, 1868), "Admiral A.S.Qreyq" (1873), "Admiral A.İ.Panfilov" (1874), "Dəniz akademiyasının 50 illiyinin bayram edilməsi münasibətilə nitqi" (1877), "Kontr-admiral Aslanbəyovun səfərləri haqqında məlumatlar" (1881) və başqa məqalələrdən tədqiqatçılar bu gün də bəhrələnirlər.

Şübhəsiz, admiral İbrahim bəy Aslanbəyov Rusiyada yaşayıb-işləməsəydi, belə ali rütbəyə çata bilməzdi. Yüz altmış ildən sonra onun bizim üçün qaranlıq qalan ömür yoluna, hərbi fəaliyyətinə az da olsa işıq sala bildik. Bu isə son dərəcə vacibdir. Yoxsa, qeyri millətlər, xüsusilə naxələf qonşularımız bizim unutduğumuz məşhur oğullarımızı özününküləşdirir, üstəlik də: "Sizin tarixiniz kasıb olub, görkəmli hərbçi oğullarınız yoxdur", - deməklə xalqımızı təhqir edirlər.

...Hərbi-Donanma tariximiz onsuz da kasıbdır. Bu sahədə fəaliyyət göstərən oğullarımız az qala barmaqla sayılacaq qədərdir: Kontr-admiral Cəlil Cavadov (1916-1980) və vitse-admiral Həmid Qasımbəyov (1923-2005), kontr-admiral Rafiq Əsgərov (1949), Eduard Hüseynov (1938-1993), vitse-admiral Şahin Sultanov. Vəssalam!

Nə yaxşı ki, bu boşluğu müəyyən qədər də olsa dolduracaq İbrahim bəy Aslanbəyov kimi admiralımızı gəc də olsa tapa bilmişik.

***20 noyabr 1993-cü il***







## BAKIXANOVLARIN HƏRBÇİ OĞULLARI

Nüfuzlu Bakıxanovlar nəsli Azərbaycan tarixinə çox görkəmli oğullar bəxş etmişdir. Onların sırasında məşhur şair, tarixçi-alim, polkovnik Abasqulu ağa Bakıxanovun xüsusi yeri var. Bu nəslin oğulları ordu və donanma tarixində ilkin şəxslər olmuşlar. Arxiv sənədlərindən məlum olur ki, 1800-cü illərdə Azərbaycan Hərbi Dəniz Donanması tarixində ilk admiralımız Dərgahqulu bəy Bakıxanovun oğlu İkinci Mirzə Məhəmməd xan olmuşdur.

1837-ci ildə Peterburqdakı Hərbi Dənizçilik məktəbini əla qiymətlərlə bitirən İbrahim bəy Allahverdi bəy oğlu Aslanbəyov (1822-1901) da ana tərəfdən Bakıxanovlar nəslindəndir. İbrahim bəy Rusiya donanmasındakı misilsiz xidmətlərinə görə 1887-ci il sentyabrın 22-də vitse-admiral kimi ali rütbəyə layiq görülmüşdür. İbrahim bəy həm də donanma sahəsində elmi-publisistik əsərlərin müəllifi olmuşdur. Hələ sağlığında – 1882-ci ildə Saxalində bir yarımada, Oxot dənizində isə bir körfəz İ.Aslanbəyovun adı ilə adlandırılmışdır. Bu gün də xəritələrdə və donanmaya aid elmi-publisistik əsərlərdə həmin yarımada və körfəz vitse-admiral İbrahim bəy Aslanbəyovun adını daşıyır.

Azərbaycan xalqına çoxsaylı ziyalılar bəxş etmiş Bakıxanovlar nəsli hərb tariximizə süvari alaylarında xidmət edən zər paqonu sərkərdələr vermişdir. Tarixi araşdırmalardan məlum olur ki, 1920-ci il çevrilişinə qədər bu nəsildən on dörd polkovnik, mayor, ştab-kapitan, praporşik rütbəli hərbiçilər, üç nəfər isə general-leytenant Cəfərqulu ağa Bakıxanov (1799-1867), general-mayor Abdulla ağa Bakıxanov (1824-1878) və bu gün möhtərəm oxuculara təqdim etdiyimiz general-mayor Həsən ağa Cəfərqulu ağa oğlu Bakıxanovlar da bu nəslin nümayəndəsidir.

* * *

### GENERAL-MAYOR ABDULLA AĞA BAKIXANOV
### *(1824, Quba – 1879, 20 iyul Tiflis)*

***Sən yaradılmışa diqqət et ki, yaradanı əql ilə dərk edə biləsən. Ayıq ol, vaxtı əldən verməyəsən, çünki vaxt keçicidir, keçici şeyin isə əvvəli və sonu olar.***

***"Qabusnamə"dən***

Abdulla ağa, şair, tarixçi-alim Abbasqulu ağa (1794-1847) Bakıxanovun ata bir, ana ayrı qardaşıdır. Onların atası İkinci Mirzə Məhəmməd xan (1774-1836) üç dəfə evlənmişdi. Birinci arvadı gürcü qızı Sofiyadan ( ? – 1836) Abbasqulu


*БАКИХАНОВ Абдулла-Ага*
*(1824 - 20.07.1879)*
*генерал-майор (01. 01. 1871).*

Сын Мамед-хана Бакинского.
Участник русско-турецкой (1877–78) войны.
Состоял при Главнокомандующем Кавказской армией по армейской кавалерии.
За боевое отличие награжден орденом **Св. Анны** –1 ст. (с мечами – 04. 12. 1878).
Погребен в Тифлисе, на мусульманском кладбище.

20 сего іюля скончался въ Тифлисѣ состоящій при Его Императорскомъ Высочествѣ Главнокомандующемъ арміею, **генералъ-маіоръ Абдулла-Ага-Бакихановъ**. Друзья покойнаго, извѣщая о семъ родныхъ и знакомыхъ, просятъ пожаловать на выносъ тѣла покойнаго изъ мусульманской шіитской мечети на мусульманское кладбище, 24 іюля, въ 9 часовъ утра.

/Газета „Кавказ" – №12–27. 01. 1871; №284 – 21. 12. 1878; „Кавказский календарь" на 1872 г., стр 119; Списки генералам по старшинству на 1871 г./

ağa və general-leytenant Cəfərqulu ağa (1799-1867), ikinci arvadı Xeyransa xanımdan ( ? – 1861) Hacı Qədir ağa (1817-1844), Mustafaqulu ağa (1822 - ?), Cavad ağa (1808-1866) və Abdulla ağa dünyaya gəlmişdi. Üçüncü arvadı Xanbikə xanımdan ( ? – 1806) isə övladı olmamışdır.

Abdulla ağa İkinci Mirzə Məhəmməd xanın Xeyransa xanımdan olan dördüncü oğludur. O, dövrünün maarifçi – xeyriyyəçi və general kimi görkəmli şəxsiyyəti idi. 1845-ci il martın 31-də ilk zabit rütbəsi alan Abdulla ağa Leyb-qvardiya kazak alayında, 1848-ci ildə isə Qafqaz ordusunun süvari qoşununda poruçik rütbəsində xidmət etmişdir. 1858-ci ildə polkovnik, 1871-ci il yanvarın 1-də general-mayor olmuşdur. Abdulla ağanın xidmətləri dövrünün şərəfli ordenləri: 1857-ci ildə üçüncü dərəcəli "Müqəddəs Anna" (bantla birgə), 1859-cu ildə ikinci dərəcəli "Müqəddəs Stanislav" (qılıncla birgə), 1861-ci ildə müsəlmanlar üçün təsis edilmiş ikinci dərəcəli "Müqəddəs Anna" və 1869-cu ildə "Müqəddəs Vladimir" ordeninin dördüncü dərəcəsi ilə təltif olunmuşdur.

General-leytenant Cəfərqulu ağanın vəfatından sonra – 1867-ci ildən Bakıxanovlar nəslinin qanuni varisi Abdulla ağa olmuşdur.

Abdulla ağanın general olmasını təsdiq edən iki arxiv sənədi var. Birincisi Azərbaycan Dövlət Tarix Muzeyindədir. Həmin sənəd 29 aprel 1894-cü ilə məxsusdur. Orada deyilir ki, 1859-cu ildə qubalı zadəgan, polkovnik Ağabəy Sadıqov Quba qəzasındakı Xudat adlı kəndini hazırda general-mayor rütbəsində olan Abdulla ağa Bakıxanova dövlət qanunu ilə satmışdır.

## «Əkinçi»yə Abdulla ağanın yardımı

***Hər vilayətin qəzetəsi gərək o millətin ayinəsi olsun.***
***Həsən bəy Zərdabi***

İkinci sənəd isə Respublika Əlyazmaları İnstitutunda saxlanan general-mayor Abdulla ağa Bakıxanovun görkəmli maarifpərvər Həsən bəy Zərdabiyə yazdığı məktublarıdır. Birinci məktubda – 4 may 1873-cü ildə general Abdulla ağa yazır ki, qəzet nəşr etmək xəbərini eşidəndə sevindim. Sizə mətbəə açmaqdan ötrü min manat vəsait göndərirəm. 24 oktyabr 1873-cü il tarixli ikinci məktubunda isə general-mayor Abdulla ağa Bakıxanov Zərdabiyə bildirir ki, «Əkinçi»ni

çıxartmaq üçün heç şeydən, xüsusilə maddi çətinlikdən çəkinməsin, lazım gələrsə əlavə yenə pul verməyə hazırdır.

Qəzetin kütlələrə, xüsusilə Azərbaycan xalqına böyük kömək edəcəyini yaxşı başa düşən general Abdulla ağa Bakıxanov müxtəlif idarələrə müraciət edib «Əkinçi»nin çıxması üçün var qüvvəsi ilə çalışmışdır. Həsən bəy Zərdabiyə isə abunəçi toplamaqda çar çinovniklərini «narahat» etməməyi məsləhət görmüşdür. Məktubların məzmunundan məlum olur ki, maarifpərvər Zərdabi ilə general A. Bakıxanov yaxın dost olmuşlar. 19 iyul 1875-ci il tarixli məktubunda general yazırdı:

***«Əziz və istəkli Həsən bəy!***

***Sizin məktubunuzu Tiflisdə aldım. Qəzetin nəşri haqqında elan isə Qubada mənə məlum oldu. Ona görə də mən Tiflisdən məktub yazmaq imkanından məhrum oldum.***

***Qubaya gəldikdə öyrəndim ki, Əhməd ağa (qardaşı general-leytenant Cəfərqulu ağa Bakıxanovun oğludur. Rütbəsi qvardiya polkovniki idi. 1882-ci il aprelin 13-də nökəri Ocaqqulu ilə birgə Gəncədə naməlum şəxslər tərəfindən öldürülmüşdür – Ş.N) onları paylamış, bir neçə nüsxəni isə özündə saxlamışdır. Elə burada da öyrəndim ki, elanların paylanması üçün siz hökumətə müraciət etmisiniz və onların vasitəsi ilə abunəçi toplamısınız. Onu da deməliyəm ki, yuxarı dairələri narahat etməkdənsə qəzetin labüdlüyünü dərk etdirmək yolu ilə abunəçilər axtarmaq daha yaxşı olardı. Onda xeyrini dərk edən xalq könüllü olaraq sizin qəzeti qəbul edərdilər. Qəzet möhkəm zəmin üzrə yayılardı.***

***Nə isə, bu mənim şəxsi mülahizəmdir. Ona görə də sizi vadar etmirəm.***

***Hər halda mən Sizin tədbirə yenə kömək etməyə çalışacağam. Allah eləsin ki, müsəlman əhalisi arasında savadlanma geniş yayılsın. Sonra sizin qəzetin sadiq abunəçiləri olacaqdır. O zaman sizin qəzetin xalq kütlələrinə mənfəət gətirəcəyini inamla söyləmək olar.***

***Başladığınız işdə sizə səmimi qəlbdən müvəffəqiyyət arzulayıram. Baxmayaraq ki, ilk vaxtlar bəzi uğursuzluqlar da ola bilər. Yaxşı olar ki, ruhdan düşməyərək həmişə olduğu kimi xeyirxah işi inamla davam etdirəsiniz.***

***Sizin sadiq nökəriniz***
***Abdulla ağa Bakıxanov.***

***İki nüsxə göndərin: birini mənim, o birini isə Əhməd ağanın adına».***

***19 iyul 1875-ci il.***
***Quba.***

Qəzeti nəşr etmək üçün böyük çətinliklərlə üzləşən Həsən bəy Zərdəbi 1873-cü il aprelin 12-də Bakının general-qubernatoru D.S.Staroselskiyə sevinclə yazırdı:

«General-mayor Abdulla ağa Bakıxanov mənə Bakı şəhərində mətbəə açmağa və qəzet nəşr etmək üçün min manat (1000) verir. Qəzet tatar (Azərbaycan – Ş.N.) dilində olacaq. Fürsətdən istifadə edib belə qərara gəldim ki, qəzeti aşağıdakı əsaslarla nəşr edim: 1) Qəzetin redaktorluğunu və nəşrini öz üzərimə götürüm. 2) Qəzet Bakıda tatar dilində Azərbaycan ləhcəsində, Zaqafqaziya diyarının müsəlman əhalisi üçün nəşr olunacaq. 3) Hələlik qəzet iki həftədə bir dəfə, bir çap vərəqi həcmində nəşr olunacaq. 4) Abunə, göndərilmə və oxucuya çatdırılma qiyməti ildə iki manat olacaq...».

Bakı general-qubernatoru Dmitri Semyonoviç Staroselski (15.05.1832-11.03.1884) 1874-cü il 31 may tarixli məktubunda Qafqaz Canişinliyinin Baş İdarəsinə yazırdı: «Mən xidməti işimlə bağlı əgər səfərdə olsam da idarəmizdə qəzetə nəzarət edəcək etibarlı şəxs var. Qubernatorluğun dəftərxana əməkdaşı Nuh bəy Hüseynbəyov qəzetdə dərc olunacaq məqalələrin rus dilinə tərcüməsini yaxşı bacarır. Nuh bəy bu sahədə etibarlı şəxsdir. Mən ona inanıram. Onu da əlavə edim ki, mən özüm Tatar dilinin Azərbaycan ləhcəsində kifayət qədər yazıb, oxumaq qabiliyyətinə malikəm.

Qəzetin maliyyə xərcini general-mayor Abdulla ağa Bakıxanov öz öhdəsinə götürür»

Müsəlmanlara yaxşı hüsn-rəğbəti olan general-qubernator D.S.Staroselski Tiflisdəki Qafqaz Senzura Komitəsinə və Qafqaz Canişinin Baş İdarəsinə bir neçə dəfə rəsmi müraciət etməklə icazə alır. Bakıda qəzetə nəzarət edəcək dövlət senzoru olmadığına görə qubernator qəzetin senzorluğunu da öz öhdəsinə götürür.

Hələ 1871-ci ildə Həsən bəyin ilk dəfə Azərbaycanda yaratdığı «Cəmiyyəti-xeyriyyə»yə qubernatorun yardımı haqda yazır: «Təəccüb budur ki, Bakıdan o vaxtda qubernator olan bircə general Staroselskinin qolu var ki, yazıbdır: nə qədər Bakıda qubernator olsam, borcumdur ki, hər ildə müsəlman ***«Cəmiyyəti-xeyriyyə»sinə yüz manat verim. Qubernator Staroselskinin əvəzsiz xidmətlərini unutmayan Həsən bəy Zərdəbi 1905-ci ildə yanvar ayında «Rusiyada əvvəlinci türk qəzeti»*** məqaləsində yazırdı: «Bizim qubernator mütəvəffi (vəfat etmiş – Ş.N.) general Staroselski doğrudur xalis rus idi, amma övrəti gürcü qızı idi. Ona görə Qafqazın yerli əhalisini daha artıq dost tuturdu. Mən ona dərdimi deyəndən sonra məsləhət gördü ki, qəzetin adını «Əkinçi» qoyum ki, guya məhz əkin və ziraətdən danışacaq və özü də boynuna çəkdi ki, senzorluğu qəbul eləsin. Bu dövr ərizə verib, izin aldım... «Əkinçi»nin əvvəlinci bədbəxtliyi qubernator Staroselskinin Bakıdan getməyi oldu. Ondan sonra vitse-qubernator bir yoğun senzor oldu. İkinci və böyük bədbəxtliyi Osmanlı davasının başlanmağı oldu».».

1877-ci il iyunun 23-də «Əkinçi» qəzeti birinci səhifəsində belə bir elan dərc etmişdi:

«Cənab şahzadə sərəsgər, Qafqazın ixtiyarında hesab olunan general Abdulla ağa Bakıxanov Bakı quberniyasına gəlib. Quba şəhərində olan zaman Qafqazda zəxmdar (yaralılar – Ş.N.) olan əsgərlər üçün oranın müsəlmanlarından 233 manat siyahı ilə cəm edib, iyun ayının üçündə qubernatora göndərib. Cənab qubernator isə o məbləği və siyahını cənab sərdarın övrətinin qofmeysteri Tolstoya göndərib ki, zəxmdar olanlara məsrəf olunsun».

Bakıxanovlar nəslinin sonuncu generalı Abdulla ağa Bakıxanov ömrünün sonlarını Tiflisdə yaşamışdır. O, 1879-cu il iyulun 20-də, 55 yaşında vəfat etmişdir. Tiflis əhalisi onu hörmət və şərəflə dəfn etmişdir. Məzarı böyük dramaturqumuz M.F.Axundovun dəfn olunduğu Nəbatat bağındadır. Övladı olmamışdır.

Bir nəsildən, bir kökdən qanadlanan üç general oğlumuzun fəaliyyətindən sizə söhbət açdıq. Doğma Azərbaycanımızda belə adlı-sanlı nəsillər çox olub. Onların yetirdiyi sərkərdələr haqqında axtarışlarımızı davam etdiririk. Ümid edirik ki, general oğullarımızın həyatını, döyüş fəaliyyətini öyrənməkdə siz oxucular da bizə kömək edəcəksiniz.

## GENERAL-MAYOR HƏSƏN AĞA BAKIXANOV
### *(1833-1898)*

***Mən, öz Vətənimin tarixini yazmaq üçün qiymətli materiallar toplamışam... Vəziyyət məni məcbur etdi ki, öz istirahət vaxtlarımı, mənsub olduğum ölkənin keçmişini yazmaq işinə sərf edim.***

***Abbasqulu ağa Bakıxanovun 1844-cü il 9 mayda imperator I Nikolaya ərizəsindən.***

General-mayor Həsən ağa Cəfərqulu ağa oğlu Bakıxanov 1898-ci il noyabrın 28-də vəfat edib. O, Abbasqulu ağa Bakıxanovun qardaşı oğlu, general-leytenant Cəfərqulu ağa Bakıxanovun böyük oğlu idi.

Cəfərqulu ağanın ölümündən sonra beş övladı qalmışdı: Həsən ağa (08.05.1833-28.11.1898), Əhməd ağa (16.06.1838-13.04.1882), Hidayət aga (04.08.1845- ?) və qızları Nurcahan xanım (06.07.1832-1912), Ayna xanım (08.09.1836- ?).

Oğlanlarının hər ikisi atasının yolu ilə gedib. Böyük oğlu Həsən ağa general-

mayor, kiçiyi Əhməd ağa isə qvardiya polkovniki rütbəsinə qədər yüksəlmişdi. Polkovnik Əhməd ağa qırx beş yaşında – 1882-ci il aprelin 13-də nökəri Ocaqqulu ilə birgə naməlum şəxslər tərəfindən Gəncədə öldürülüb.

General Həsən ağa Bakıxanov 1833-cü ildə Qubada anadan olmuşdur. On dörd yaşında Tiflis kadet korpusunu bitirən Həsən ağa hərbi təhsilini artırmaq üçün Peterburqdakı Paj korpusuna daxil olur. Hərbi məktəbi müvəffəqiyyətlə bitirdikdən sonra o, xidmət etmək üçün Əlahiddə Qafqaz Ordusuna göndərilir. Dəfələrlə hərbi yürüşlərdə iştirak etdiyinə görə orden və medallarla təltif olunub.

1894-cü ildə tərtib olunmuş bir arxiv sənədində general-mayor Həsən ağa Bakıxanov 1854-cü ildə Qafqaz müharibəsində fərqləndiyinə görə təltif olunduğu hərbi orden və medallar qeydə alınıb.

O, üçüncü dərəcəli Müqəddəs Vladimir, üzərində «İgidliyə görə» yazısı olan dördüncü dərəcəli Müqəddəs Stanislav, bundan başqa yüz altı nömrəli ikinci dərəcəli hərbi fərqlənmə ordeni, Georgi lenti (üzərində qızıl medal), müqəddəs hərbi Georgi ordeninin yüz illiyi şərəfinə buraxılmış bürünc medalla, 1877-1878-ci il müharibəsinin şərəfinə buraxılmış tunc bürünc medal və Qafqazdakı əla xidmətinə görə xaç ordeni ilə təltif olunub.

Bir müddət İrandakı Rusiya səfirliyində xidmət etdiyinə görə general-mayor Həsən ağa Bakıxanov həmin ölkənin ali ordeni olan «Şire-Xorşid» ordeninin üçüncü dərəcəsinə layiq görülüb.

Car ordusunda belə yüksək ordenlərlə təltif olunan zabit və generallara kavaler kimi fəxri titul da verilirdi. Ona görə də arxiv sənədlərin hamısında, təltifat qrafasında general Həsən ağa Bakıxanovun adının yanında kavaler sözü iftixarla qeyd olunmuşdur.

1855-ci ildə Həsən ağa əmisi Abbasqulu ağa Bakıxanov böyük qızı Ziba Nisəbəyimlə (1831-1894) ailə qurmuşdur. ***1879-cu ildə general-mayor rütbəsilə təltif olunan Həsən ağa Bakıxanov bir il sonra istefaya çıxıb Quba qəzasındakı dədə-baba torpaqlarını idarə etməklə məşğul olmuşdur.***

Ömrünün son üç ilini Bakıda yaşamışdır.1898-ci il noyabrın 28-də vəfat edən general Həsən ağa Bakıxanovu öz vəsiyyətinə görə Şıx kəndində Bibi-Heybət məqbərəsində atası Cəfərqulu ağanın yanında dəfn etmişlər. Bura Bakıxanovların ulu babalarının fəxri sərdabəsi udu. Onun təntənəli və şərəfli dəfni münasibətilə nekroloq dərc edən «Kaspi» qəzeti dekabr ayının birində yazırdı:

«Noyabrın 28-də axşam saat doqquzda uzun sürən ağır xəstəlikdən sonra Bakı şəhərində general-mayor Həsən ağa Bakıxanov altmış beş yaşında vəfat etmişdir. Mərhum, Bakının keçmiş hakimi məşhur Mirzə Məhəmməd xanın nəvəsi idi. Onun mərhum atası general-leytenant Cəfərqulu ağa Bakıxanov

Mirzə Məhəmməd xanın ikinci oğlu olmuşdur. Cəfərqulu ağa Qafqaz ordusunda yerli əhalidən ibarət süvari alayına komandirlik etmişdir. Mərhum Həsən ağa iyirmi il bundan əvvəl vəfat etmiş qardaşı polkovnik Əhməd ağa ilə birgə süvari qvardiyasında xidmət etmiş, şərəfli döyüş xidmətlərinə görə Rusiyanın və xarici ölkələrin kavaler ordenləri ilə təltif olunmuşdur. O, üçüncü dərəcəli müqəddəs Vladimir, ikinci dərəcəli müqəddəs Stanislav və başqa ali ordenlərə layiq görülmüş nizami ordu zabiti idi.

1879-cu ildə general rütbəsində istefaya çıxan Həsən ağa ömrünün çoxunu Qubadakı şəxsi malikanəsində keçirmişdir. Son üç ili isə Bakıda yaşamışdır. Həsən ağa Bakıxanovun ölümü ilə keçmiş Bakı xanlığının kişi nümayəndəsi kəsildi. General Həsən ağadan sonra bacısı Nurcahan xanım və qızı Reyhan xanım qalmışdır.

Dünən, noyabrın 30-da dəfn mərasimi xüsusi təntənə ilə keçmişdir. Səhər tezdən mərhumun həyətinə toplaşan çoxsaylı camaat axırıncı Bakı xanını son mənzilə yola salmağa gəlmişdilər. Saat onda Bakının ali və aşağı rütbəli ruhaniləri, həmçinin şəhərin adlı-sanlı bəyləri, tacirləri mərhumun yas mərasiminə toplaşmışdılar. Həmin anlarda da mərhum xanın evi qarşısında Salyan alayının bir batalyonu musiqi sədaları altında nizamla dayanmışdı.

Zəngin və bahalı parçaya bükülmüş tabut saat on birdə yaxın qohumlarının çiynində Şamaxı küçəsindən Təzəpir məscidinə tərəf istiqamət götürdü. Arxada sonu görünməyən Bakı əhalisi gedirdi. Qabaqda Salyan alayının qvardiyaçı zabitləri ipək döşəkcələrdə mərhumun orden-medallarını, bir zabit isə cilovundan yapışdığı atın üstündə tabutun qapağını aparırdı. Onların dalınca Quba qəzasının sakinləri dairə şəkilində müqəddəs Qurandan kədərli ayələri xorla oxuya-oxuya gedirlər. Quba dərvişləri azacıq fasilə verəndə ali ruhanilərin Qurandan oxuduqları surə daha gur və əzəmətlə səslənirdi. Tabutun arxasınca gedən insan kütləsinin arasında çoxlu zabit, idarə işçiləri, məmur və ali rütbəli şəxslər vardı. Şəhərin bələdiyyə başçısı Fon-der-Honne də onların arasında idi. Salyan alayının musiqili xoru mərasimə qoşuldu. Ruhanilərin Təzəpir məscidində ibadətindən sonra mərasim eyni ahənglə Persidski və Nikolayev küçələrindən keçib Sahil boyu irəlilədi. Bayıla çatan mərasim oradan Şıx kəndinə istiqamət götürdü. Bibi-Heybət məscidi yanında salınmış ayrıca Bakıxanovlar soyadının sərdabəsində Həsən ağa Bakıxanov torpağa tapşırıldı.

Mərasimi müşayiət edən batalyon general-mayor Həsən ağa Bakıxanova axırıncı hörmət əlaməti olaraq tüfənglərdən üç dəfə yaylım atəşi açıb son borcların verdilər».

## GENERAL-MAYOR ƏSƏD BƏY TALIŞXANOV

***Talışxanovlar nəsli Azərbaycan hərb tarixinə Mir Mustafa xan, Qara xan, Mir İbrahim xan, Xəlil bəy və Mir Kazım xan kimi generallar bəxş edib.***

General-mayor Əsəd bəy Talışxanov 1857-ci il noyabrın 16-da anadan olub. Atası Ağaəli bəyin Lənkəranda açdığı müsəlman məktəbində ilk ibtidai təhsil aldıqdan sonra, o vaxtın ən yaxşı tədris ocaqlarından biri olan Bakı ədadiyyə məktəbində oxuyub.

Peterburqdakı Mixaylovsk artilleriya məktəbini bitirəndə gənc zabit Əsəd bəyin artıq iyirmi yaşı vardı. Nizami ordu üçün püxtə¬ləşmiş, yetkin bir zabit idi. 1878-ci il aprelin 16-da Qafqaz Əlahiddə ordusuna göndərilən Əsəd bəy Talışxanov praporşik rütbəsilə 52-ci briqadada xidmətə başlayıb. Xidmətinin üçüncü ilində əlaçı zabit olduğuna görə iyirmi birinci artilleriya briqadasında bi¬rinci batareyanın komandiri təyin edilib.

Hərbin çətin yolları, müharibələrin əzab-əziyyəti onu nəinki bez¬dirib, hətta ürəkdən sevdiyi hərb sənətinə daha da möhkəm bağlayıb.

Çar Rusiyası XIX əsrin otuzuncu illərindən başlayaraq Orta Asi¬yada işğalçılıq siyasəti aparırdı. Qafqazda Krım müharibəsi (1853-1856) sona yetən kimi Şərqə tərəf yürüş başlandı. Ən böyük əraziyə malik olan Kokand və Buxara xanlıqları işğal olundu. Çimkənd, Daşkənd, Səmərqənd şəhərləri bir-birinin dalınca alındı. 1880-cı ildə Türkmənistanı fəth etmək üçün ruslar oraya on bir minlik nizami qoşun yeritdi. Torpağın hər qarışı uğrunda inadla döyüşən mərd Axal-Təkinlilər general Lazerevin ordusunu məğlubiyyətə uğradırdılar. Şərqə yürüşdə qələbə əldə etmək istəyən çar Göytəpəni, Axal-Təkini ələ keçirmək üçün Şipka qəhrəmanı general M. D. Skobolevi də göndərdi. Skobelevin qoşunu Qafqaz Hərbi Dairəsinin döyüşçüləri ilə birləşib Göytəpə şəhərini dağıtdı, onu müdafiə edən iyirmi beş min döyüşçünü qılıncdan keçirtdi. Axal-Təkin və Mərv şəhərini özlərinə tabe etdilər.

Əsəd bəy Talışxanov da öz batareyası ilə Axal-Təkini işğal edən hərbi yürüşün tərkibində iki il (1880-1881) iştirak edib. İşğalçı çarın əmrilə vəzifə borcu kimi din qardaşlarına silah qaldırıb.

Bu döyüşlərdəki igidliyinə görə üçüncü dərəcəli “Müqəddəs Anna (qılınc və bantla birgə), “Müqəddəs Stanislav" ordenləri ilə təltif olunub.

On altı il keçəndən sonra həmin ordenlərin ikinci dərəcəsi ilə təltif olunan kapitan Əsəd bəy Talışxanov yeni əsri podpolkovnik rütbəsində qarşılayıb. O, 1904-1905-ci illərdə Port-Artur döyüşləri¬nin də iştirakçısı olub.

Hərbi xidmətinin iyirmi beş illiyi münasibətilə Əsəd bəy 1902-ci ildə dərəcəli

“Müqəddəs Vladimir (bantla birgə) ordenilə təltif olunub, 1910-cu ildə isə polkovnik rütbəsi qaza¬nıb. Bu illər ərzində o, 52-ci artilleriya briqadasının birinci divizionunun komandiri vəzifəsinə qədər yüksələ bilib. Əsəd bəy Talışxanov ordudakı nümunəvi xidmətlərinə görə 1916-cı il aprelin 22-də general-mayor rütbəsilə təltif olunub. O, həmin il iyulun 25-də Qafqaz Əlahiddə ordusunun əlli ikinci artilleriya briqadasında birinci divizionun komandiri kimi yüksək vəzifəyə təyin olunub. Bu ordunun tərkibində uzun illər xidmətinə görə birinci dərəcəli "Müqəddəs Anna", "Müqəddəs Stanislav", üçüncü dərəcəli "Müqəddəs Georgi" ordenləri ilə təltif olunub.

General-mayor Əsəd bəy Talışxanov 1919-cu ildə Dağıstanın Teymurxan-Şura (İndiki Buynaksk - red.) şəhərində vəfat edib və orada dəfn olunub.

## GENERAL-MAYOR MIR İBRAHIM XAN TALIŞXANOV

***General-mayor Mir İbrahim xan Talışxanov 1828-ci il iyulun 11-də Lənkəranda anadan olub. Talış xanı Mir Mustafa xanın nəvəsidir.***

O, Tiflis kadet korpusunu bitirdikdən sonra 19 yaşında poruçik rütbəsində rus ordusunda xidmətə başlayıb. Onun haqqında ilkin məlumata ilk milli qəzetimiz "Əkinçi"nin 26 may 1877-ci il tarixli nömrəsində rast gəldik. Qəzet "Təzə xəbərlər" bölməsində yazır: "Badikubə quberniyasından cəm olunan süvari əsgərə polkovnik Mir İbrahim xan Talışxanov hakim, yəni polkovoy komandir təyin olunub".

1990-cı ildə Tiflis Dövlət Tarix Arxivindən Mir İbrahim xan Talışxanov haqqında az da olsa, daha dəqiq məlumat əldə edə bildik. Arxiv sənədlərində göstərilir ki, dağlılara qarşı döyüşlərdə, Tabasaran və Samur sahillərində, Krım müharibəsində (1853-1856) döyüşüb, Rus-Türk müharibələrinin (1877-1878) iştirakçısı olub. Ona görə də generalların və zabitlərin şəxsi işində nümunəvi zabit olduğu xüsusi qeyd edilib. Orada general Mir İbrahim xanın təltif olunduğu ordenlər də göstərilib.

Mir İbrahim xan 1851-ci ildə igidliyə görə dördüncü dərəcəli "Müqəddəs Anna", 1858-ci ildə müsəlman əhalisi üçün təsis olunmuş, üçüncü dərəcəli "Müqəddəs Stanislav", 1859-cu ildə üçüncü dərəcəli "Müqəddəs Anna", 1871-ci ildə iyirmi beş illik qüsursuz xidmətinə görə dördüncü dərəcəli "Müqəddəs Vladimir", 1888-ci ildə "Müqəddəs Stanislav", 1889-cu ildə üçüncü dərəcəli "Müqəddəs Vladimir" ordenləri ilə təltif olunub.

Mir İbrahim xan Talışxanov 1883-cü il may ayının 15-də nizami ordudakı əla xidmətinə görə general-mayor kimi fəxri rütbəyə layiq görülüb.

Mir İbrahim xan Talışxanov 1894-cü il aprelin 29-da vəfat edib. Generalı son mənzilə yola salanda məzarı üstündə yaylım atəşi açılıb.

## GENERAL MIR KAZIM BƏY TALIŞXANOV

Talışxanovlar nəslindən olan generallarla maraqlanmasaydım, general Yadigarov qardaşlarından illərlə zərrə-zərrə topladığım bu faktlar bəlkə də, heç işıq üzü görməyəcəkdi. Çoxdan topladığım faktları işləməyə bir istinad nöqtəsi tapa bilmirdim. Söz sözü çəkib gətirən kimi, mövzu da mövzunu üzə çıxartdı.

Yadigarov qardaşları haqqında axtarışlarım az qala məni əsas məqsəddən – Talışxanovlardan yayındırmışdı. Bu nəsil əsil-nəcabəti olan üç ziyalı ailə ilə yaxın qohum olub: Yadigarovlar, Vəkilovlar və Vəzirovlar. Hər üç nəsil də xalqımızın maarif, mədəniyyət və hərb tarixinə görkəmli oğullar bəxş edib.

Mir Kazım bəy Talışxanov nəslin üçüncü generalıdır. Onun ulu babası Qaraxan Lənkəran xanlığının əsasını qoyub. Xanlığın siyasi və iqtisadi qüdrətini möhkəmlədən Qaraxan İran təhlükəsindən qorunmaq üçün nizami qoşun təşkil edir. Müstəqil Talış xanlığı yaradır. 1786-cı ildə Qaraxan vəfat etdikdən sonra yerinə oğlu Mir Mustafa xan keçir.

1812-ci il avqustun 9-da ölüm-dirim vuruşmasında Lənkəran-Ərkivan qalaları İran ordusu tərəfindən alınır. Lənkəran qalasından çəkilməyə məcbur olan Mir Mustafa xan mübarizədən əl çəkmir, özündən çox qüvvətli olan İran ordusuna qarşı döyüşü davam etdirir... Lənkəran qalasında iranlıların dörd minlik qoşunu yerləşdirilmişdi. Vəziyyəti nəzərə alan Mir Mustafa xan Rusiyadan yardım istəməyə məcbur olur. Qafqazda olan rus ordusunun komandanı general İ.F.Rtişşev İran qoşunlarını Lənkərandan çıxartmaq istəyən Mir Mustafa xana kömək etmək üçün 1812-ci il dekabrın 1-də general P.S.Kotlyarevskiyə göstəriş verir.

1813-cü il yanvarın 1-də talış qoşununun köməyi ilə ruslar Lənkəran qalasını geri alır. Bu münasibətlə imperator I Aleksandr Talış xanı və talış qoşununun sərdarı Mir Mustafa xanı general-leytenant rütbəsilə təltif edir.

General-leytenant Mir Mustafa xan Talışxanov 1814-cü il iyulun 26-da Lənkəranda vəfat edir.

Mir Kazım bəy Talışxanovun atası Mirəlixan da hərbçi olmuşdur. O, orduda 20 ilə yaxın xidmət etdikdən sonra ştabs-kapitan rütbəsində istefaya çıxmışdır. Atanın hərbi sənətini davam etdirən Mir Kazım bəy 21 yaşında ikinci dərəcəli Konstantin yunkerlər məktəbini bitirib. Bundan əvvəl o, Bakıdakı realnı

məktəbin tam kursunda oxumuşdur. Cəmi birillik xidmətdən sonra ona unter-zabit rütbəsi verilir.

1877-ci ildə Rusiya Türkiyəyə müharibə elan etdi. Balkanlar kimi Qafqaz da hərbi əməliyyat meydanı oldu. 16-cı qrenadyor Minqrel alayının praporşiki Mir Kazım bəy də döyüşən ordu sıralarında cəbhəyə getdi. Aleksandropol hərbi əməliyyat rayonunda fəal iştirak edən Mir Kazım bəy Talışxanov tünd bürünc medalla təltif olundu.

Orduda əla və qüsursuz xidmət edən Mir Kazım bəy hərbi pillələri çox sürətlə keçmişdir. 1882-ci ildə tərtib olunmuş bir sənəddə göstərilir ki, əla atıcı olduğuna görə avqustun 20-də ona birinci dərəcəli mükafat verilmiş və 74 manat pulla mükafatlandırılmışdır. İki il sonra Tiflisdəki yunkerlər məktəbinə müəllim təyin olunan Mir Kazım bəy Talışxanova ştabs-kapitan rütbəsi verilir. 1891-ci ilə qədər yunkerlər məktəbində müəllim işləyən Talışxanov həmin il vaxtilə xidmət etdiyi qrenadyor Minqerel alayının 13-cü rotasının komandiri təyin olunur. Podpolkovnik Mir Kazım bəyin rotası səhra məşqlərində həmişə fərqləndiyinə görə onun xidmət yerini tez-tez dəyişmişlər. Yaxşı komandir kimi onu "axsayan" rotaya komandir təyin etmişlər. 1899-cu ildə podpolkovnik Mir Kazım bəy Talışxanov 119-cu Kolomensk piyada alayına, bir il sonra isə 82-ci Dağıstan alayına, 1904-cü ildə 206-cı Larqo-Kaqul ehtiyat piyada alayına, bir neçə aydan sonra isə 55-ci piyada batalyonuna komandan təyin olunur.

Polkovnik Mir Kazım bəy 1903-cü ildə Qafqaz hərbi dairəsinin 270 nömrəli əmri ilə Qafqaz hərbi dairə məhkəməsinin üzvü seçilir. Orduda uzun illər qüsur-suz xidmətinə görə 1914-cü ildə Mir Kazımbəy Talışxanov general-mayor rütbəsinə layiq görülür. Generalın nəvəsi Rəna xanım Axundzadədə babasının 1905-ci il martın 1-də tərtib olunmuş "xidmət kitabçası" saxlanılırdı. Onun ailə vəziyyəti bölməsində oxuyuruq:

"Tiflisli saray müşaviri Ağabəy Yadigarovun qızı Məsumə xanımla 1888-ci ildə ailə qurmuşdur. Dörd uşaq atasıdır; oğlu - Mirəlixan 1895-ci il sentyabrın 9-da, qızları - Sarabəyim 1890-cı il fevralın yeddisində, Lilabəyim 1891-ci il fevralın 8-də, Zülüyxa 1892-ci il avqustun 3-də anadan olmuşdur".

Sənədlərlə tanış olarkən qovluqdan saralıb-solmuş bir vərəq də çıxdı. Onu Mir Kazım bəyin qızı Züleyxa xanım yazıb: "Atam Rusiyanın müxtəlif şəhərlərində hərbi xidmətdə olub. Minskdə, Magilyovda, Qroznı və başqa yerlərdə. Birinci Dünya müharibəsi başlananda Nikolsk-Ussuriysk şəhərində yerləşən üçüncü Sibir atıcı polkunun komandiri idi. Yaşının çox olmasına bax-mayaraq, yenə də çox sevdiyi hərbi işdən ayrılmaq istəmirdi. Yadımdadır, o

vaxtlar inqilabi iş üstündə "Potyomkin" zirehli gəmisinin heyəti Sibirə Sürgün olunmuşdu. Onlar bizim qonşuluqdakı qəsəbədə yerləşdirilmişdilər. Komandirlər xırda bir səhvə görə ağır və dözülməz cəza verəndə atam onlara havadar dururdu. Hətta bir neçəsini ölüm cəzasından belə xilas etmişdi. Ucaboy, enlikürək matroslar atamla çox hörmət-izzətlə görüşərdilər. Onlar küçədə atama rast gələndə qurşağa qədər əyilər "Əlahəzrət, səxavətiniz həmişə var olsun. Kölgəniz bizim əzabkeşlərin üstündən əskik olmasın", - deyib yolun qırağına çəkilər, lal-dinməz dayanardılar. Atam isə gülümsünüb onlara yanaşar, əl tutar və "bu qədər təzim nəyə gərəkdir", - deyib kədərlə köks ötürərdi.

1914-cü ildə Birinci Dünya müharibəsi başlananda atam bizi Tiflisə göndərib, özü isə üçüncü Sibir atıcı polku ilə müharibəyə getdi.

Atam qırx beş ilə yaxın ordu xidmətində çoxlu orden və medallarla təltif olunmuşdu. Onlardan yadımda qalanları üçüncü dərəcəli "Müqəddəs Anna", ikinci və üçüncü dərəcəli "Müqəddəs Stanislav" ordenləri, III Aleksandrın hakimiyyəti dövrünə aid xatirə və 1877-1878-ci illər müharibəsində aldığı tünd bürünc medallardır. Atam 1916-cı ildə general-mayor rütbəsində istefaya çıxdı. Topoqrafiya general-mayoru İbrahim ağa Vəkilovla yaxın dost olan atam Tiflisdəki Qafqaz Müsəlman Xeyriyyə Cəmiyyətində onunla birgə fəaliyyət göstərirdi. Cəmiyyətin sədri İbrahim ağa Vəkilov, katibi isə atam Mir Kazımbəy Talışxanov idi. Az sonra bu səmimi dostluq qohumluğa çevrildi. İbrahim ağa Vəkilovun böyük oğlu Faris bəy bacım Liyabəyimlə ailə həyatı qurdu. Bu saf izdivacdan, təəssüf ki, övlad olmadı".

**General Mir Kazım xan** Cümhuriyyət hökuməti dövründə - 1920-ci ildə Lənkəran dairə müfəttişi vəzifəsində şərəflə çalışmışdır. O, 1938-ci ildə 84 yaşında Bakıda vəfat etmişdir.

## GENERAL-MAYOR XƏLIL BƏY MIRƏLIXAN OĞLU TALIŞXANOV

1917-ci ildə Vətəndaş müharibəsindən Azərbaycana qayıdan general-mayor Xəlil bəy Mirəlixan oğlu Talışxanov "Dikaya divizya"nın tərkibindəki Tatar-Azərbaycan alayının komandiri idi. 1918-ci ildə Bakıdakı daşnak hərbi qüvvələri tərəfindən həbs olunmuş, lakin yerli əhalinin haqlı tələbi ilə azad edilmişdir.

1859-cu ildə Tiflisdə anadan olan Xəlil bəy Birinci Dünya müharibəsində alay komandiri olmuş, qoçaq zabit kimi "Müqəddəs Anna", "Müqəddəs Stanislav" və başqa ordenlərlə təltif olunmuşdur. 1920-ci ilə kimi Azərbaycan

Milli Ordusunda Əskəran və Zəngəzur ərazisində daşnak ermənilərinə qarşı döyüşlərdə fərqlənmişdir. Bolşeviklərin Azərbaycandakı istilasından sonra taleyi barədə heç bir məlumat yoxdur.

***

Onu da xatırladaq ki, 1918-1920-ci illərdə istər Azərbaycan Milli ordusunda, istərsə də Daxili İşlər Nazirliyində nüfuzlu Talışxanovlar nəslindən xeyli sayda zabit şərəflə xidmət etmişdir.

**PODPOLKOVNIK FUAD XAN HƏSƏNXAN OĞLU TALIŞXANOV**

1896-cı ildə Lənkəranda zadəgan ailəsində anadan olub. Tiflisdəki kadet korpusunu bitirib. Çar ordusunda rotmistr rütbəsinə qədər yüksəlib. 1918-1920-ci illərdə birinci Cavanşir piyada alayının yavəri olub. Sovetlər vaxtı Qırmızı Orduda komandir vəzifəsində çalışıb, podpolkovnik rütbəsinə qədər yüksəlib. 1930-cu ildə Gəncədə hərbi müfəttişlikdə işləyəndə həbs edilib.

**Mir Haşımxan Talışxanov**

1918-1920-ci illərdə Azərbaycan Cümhuriyyətinin Hərbiyyə nazirliyində intendant idarəsində qərargah zabiti vəzifəsində çalışıb.

**Mir İlyas bəy Talışxanov** 1882-ci ildə Lənkəranda anadan olub. 1918-1920-ci illərdə Azərbaycan Milli Ordusunda mayor rütbəsində xidmət edib. 1920-ci ildə müsavat zabiti olduğuna görə bolşeviklər güllələyiblər.

**Mir Əhəd bəy Talışxanov** - Daxili İşlər Nazirliyində xüsusi tapşırıq zabiti.

**Böyükxan Talışxanov** - Daxili İşlər Nazirliyində icraçı zabit.

**İlyasxan Talışxanov** - Birinci süvari alayında poruçik.





## NURU PAŞANIN QAFQAZ YÜRÜŞÜ




***Əşrəf bəy Qarxunlu 1908-ci ildə***

- Nuru paşa ilə Əşrəf bəyin görüşlərindən hekayətlər.
- Nuru paşanın xilaskarlıq rolu.
- Nuru paşa 1920-ci ilin aprelində bolşevik ordusu Azərbaycanı işğal edəndə bir qrup türk zabiti ilə Dağıstandan keçərək Şuşaya gəlmiş, Qarabağda bolşeviklərə qarşı döyüşlər aparmışdır.

### ƏŞRƏF BƏYİN NURU PAŞA İLƏ GÖRÜŞÜ

*Tanrımızdan başqa güvəndiyimiz xalqımıza Nuru paşanın açdığı hərbi məktəbin mə'zunları olan zabitlərimizə, Bakının azad olunmasında yanbayan vuruşub böyük qardaşlarından təcrübə almış gənc ordumuza güvənərək yaşamaqda idik.*

*Qədirbilən Azərbaycan xalqı yardımına gələn türk qardaşlarına, komandirlərinə, əsgərlərinə olan minnətdarlığını qəlbinin dərin guşəsində saxlamaqda və tarixə qeyd edib nəsildən-nəsilə yaşatmaqdadır.*

***Nağı bəy Şeyxzamanlı,***
***Azərbaycan hökumətində***
***əks- kəşfiyyat idarəsinin rəisi.***

Yuxarı Qarxunun girəcəyində hündür bir yer var. Adına Domba yeri deyirlər. İyunun ilk günləri idi, Şirvanda istilər çəkilməmişdi. Atlı carçılar kəndbəkənd xəbər verirdilər ki, sabah hamı Qarxuna yığışsın, türk generalı Nuru paşa gəlir, camaatla söhbət edəcək.

Qəbələdən, Göyçaydan, Şəkidən, Zərdabdan və Aran Qarabağdan gələn ağalar, bəylər, süvari dəstələri ilə ayrıca dayanmışdılar. Bir az aralıda mehtərlər onların tərli atlarını gəzdirirdilər.

Günortaya azca qalmış Yevlax yolunda sonu görünməyən qoşun peyda oldu. Öndə gələn tunc rəngli süvarilər eyni rəngli yarımqol sətin köynəkdə idi: onların qıvraq bədənlərinə çalın-çarpaz pulemyot lentləri salınmışdı. Dalısınca nizamla hərəkət edən piyadaların süngüləri yerişin ahəngilə Günəş işığında gah parlayır, gah da yox olurdu. Qoşunun yerişindən, araba təkərlərindən boğucu toz dumanları qalxırdı. İkitəkərli arabalar güllə yeşikləri, tüfəng, pulemyot və ərzaqla yüklənmişdi. Rotalar arasında iki atın yorğun-yorğun çəkib apardığı arabalara toplar qoşulmuşdu. Dəmir körpüdən ta Qarxuna kimi, yolun o tay bu tayında dayanan izdiham ordunu sevinclə qarşılayırdı.

Öndəki süvaridən beş-on addım qabaqda gedən dörd atlı şirin-şirin söhbət edirdi. Qafqaz İslam ordusunun komandanı Fəriq Nuru paşa, Ərəş mahalının bəylərbəyi Əşrəf bəy Qarxunlu, ordunun hərbi müşaviri Ağaoğlu Əhməd bəy və Azərbaycan hökumətinin əks-kəşfiyyat idarəsinin rəisi Nağı bəy Şeyxzamanlı. Oynaq at üstündə qədd-qamətli Nuru paşa vüqarla oturmuşdu. O, gah Nağı bəy Şeyxzamanlı ilə, gah da Əşrəf bəylə şirin-şirin söhbət edirdi. Hiss olunurdu ki, hər ikisilə çoxdan tanışdır. O:

- Nağı bəy, - dedi, - Qazaxdan başlayaraq hər yerdə səni soruşurdum. Elə hey gözüm səni axtarırdı. Ötən il İstanbulda Heydər paşa stansiyasında ayrıldığımızdır. Gəncədə mənə dedilər ki, Yevlağa gəlib Əşrəf bəyin yanında gözləyəcəksən. Nə yaxşı oldu ki, iki dostumu birgə görmək xoşbəxtliyi mənə qismət oldu. Allaha min şükür, Sizi sağ-salamat gördüm, demək səfərim də uğurlu keçəcək.

Əşrəf bəy:

- Paşam, - dedi, bizim torpağa xoş məramla qədəm qoyanı qurbanla, xoş üzlə qarşılayırıq. Pis niyyətlə gələni isə boz üzlü silahla... Bu, bizim babalarımızdan qalma mirasdır. Onu demək artıqdır, biz din və dilbir qardaşıq. Bu ağır günümüzdə bizə hərbiköməklə təşrif gətirmisiniz. Fikir verin, bu yığışanların sevincinə, yayın cırhacırında heç bir silahın gücünə bu qədər əhalini buraya toplaya bilməzsən. Sizin ordunun Qazağa çatmaq xəbərini eşidəndən xalq sevinc içindədir.



***Soldan Ənvər Paşa (1881-1922), atası Hacı Əhməd bəy və qardaşı Nuru Paşa (1889-1949)***

Qəlbi kövrək hisslər içində çırpınan Nağı bəy Şeyxzamanlı köksünü ötürüb, atının üstündə bir az da dikəldi; sağa və sola boylanıb:

- İlahi, - dedi, - bu sevinci mənim məzlum xalqıma çox görmə. Ona bu işıqlı istiqlal yolunda xeyir-dua ver.

Yığışan camaatın sevinci yerə-göyə sığmırdı. Yol boyu boğazı qotazlı erkəklər qurban kəsilir, camaat çalıb-oynayırdı. İzdiham dəniz kimi dalğalanır, alqış səsindən qulaq tutulurdu. Ulu Şirvan düzü belə təntənə, təlatüm görməmişdi. Gündə yanıb qaralmış tunc sifətli rəiyyət, kəndli ahəngdar səslə xilaskarı olacaq din qardaşlarını alqışlayırdı. Qarılar, qocalar sevincdən kövrəlib ağlayırdı.

Onlar açıq havada qurulmuş kürsünün yanına çatanda, hazır dayanmış çilovdarlar üzəngini tutdular. Enlikürək, tökmə bədənli Əşrəf bəy qabağa düşüb qonaqları xitabat kürsüsünə də'vət elədi. İzdihama baxanda özü də çaşıb qaldı. Gur və məğrur səslə:

- Camaat, - dedi, - çoxdan gözlədiyimiz qardaşlarımıza qovuşduq.

Hamı sakitləşib diqqət kəsildi. Bayaqkı qarma-qarışıq səslərdən əsər-əlamət qalmamışdı. Ani olaraq nəfəs dərən Əşrəf bəy bir az toxtadı. Gözlərini

ümidlə onlara zilləyən adamlar sıx-sıx dayanmışdılar. Bu dərin sükutu bir az aralıda otlayan atların fınxırmaları, kəsik kişnərti pozurdu.

- Yüz ildən çox gavurlar bizim qanımızı sordular, var-dövlətimizin çox hissəsini əlimizdən aldılar. İndi din və dil qardaşlarımızla əl-ələ verib yaşayacağıq. Xoş gəlib, gözümüz üstə yeri var türk ordusunun. Onun komandanı general Nuru paşanı alqışlayırıq.

Bir-birinə qarışan alqış səsləri Şirvanın sinəsini yarıb keçən ana Kürə qədər sakitləşmədən uğuldayırdı.

- Bu gün bizim bir xilas yolumuz var. Ancaq özümüz də cavanlarımızdan əsgər toplamalıyıq. Hər birimiz oğlumuzu əsgər verməsək, ordu yaratmasaq, türk qardaşlarımızla çiyin-çiyinə vuruşmasaq, gavur zəncirini yenidən boynumuza salmış oluruq. Bu saat, bu gün bizim ən böyük təhlükəmiz Bakıdan və Zəngəzurdan başlayaraq, rusla birləşib millətimizi qıra-qıra gələn erməni daşnaklarıdır. Onların qabağına çıxmaq üçün cavanlarımız silaha sarılmalıdırlar. Şərqin müdrik şairi şeyx Sə'di Şirazi demişdir:

***Oğlunu yanında bəsləsə hər kəs,***
***Övladı hərb vaxtı döyüşə bilməz.***
***Bərkdən-boşdan çıxıb güləşən ərlər,***
***Döyüşdə göstərər böyük hünərlər.***
***Naz-ne'mət içində bəslənən insan,***
***Qorxar hərb zamanı görəndə meydan.***

Gəlin ulu müdriklərin vəsiyyətinə əməl edək.

Əşrəf bəy çiyninə toxunan əldən geriyə döndü. Arxasında general Nuru paşa dayanmışdı. O gülümsəyib:

- Müdrik şe'rə görə çox sağ ol, - dedi. Əşrəf bəy bir addım sola çəkilib, - buyurun, - dedi, - Paşam.

Nuru Paşa izdihama göz gəzdirib bir anlıq sakitcə dayandı. Əlini məxmər kimi yumşaq Şirvan xalçasının üstündə gəzdirdi. İnsan axını həyəcanla onun dinməsini gözləyirdi. Hiss olunurdu ki, təntənəli qarşılama, alqışlar Nuru paşanı kövrəldib.

- Mənim qan qardaşlarım, - dedi, - şəfəqlərindən nur daman Azərbaycana gəldiyim üçün özümü xoşbəxt sanıram. Osmanlı torpağından tərpənən gündən dayanmadan, durmadan irəliləmişik. Biz yaxşı bilirik ki, sizin bizdən başqa ümidiniz yoxdur. Məstəvsiz erməni Azərbaycan xalqına qənim kəsi-

lib. Biz sizə köməyə gəlmişik. Bizə ən əvvəl sursat daşımağa at və araba ilə kömək edin, qalanı ilə işiniz olmasın. Əsgəri qüvvəmiz kifayət qədər var. Hələ üç ay bundan öncə mən Gəncəyə üç yüzə yaxın yaxşı tə'lim görmüş zabit hey'əti göndərmişdim. Onlar dostum Əli ağa Şıxlinskinin və polkovnik Süleyman bəy Əfəndiyevin rəhbərliyi ilə zabit məktəbi açmışlar. Bu günlərdə həmin məktəbin ilk buraxılışı olmalıdır. Bayaq dostum Əşrəf bəy qeyd elədi ki, sizdən də əsgər toplanmalıdır. Həqiqətən də əsgəri olmayan xalq kimə və nəyə gərəkdir. Əlbəttə, bizim bir türk bölüyünün, heç olmasa, on-on beş qara papaq əsgəri sizdən olmalıdır. Çünki onlar öz torpağının hər dağına, cığır və yoluna bələddirlər.

Mənim din və dilbir qardaşlarım, imkanı olanlar əlindən nə gəlirsə, Allah tərəfindən verilən zəkat köməyini də əsirgəməsin. Çünki siz başqasına yox, sizi qoruyana kömək edirsiniz. Mən və mənim əsgərlərim bura düşmənlə döyüşməyə, gavurları silib bu torpaqdan atmağa gəldik. Biz dönməyə yox, ölməyə gəldik. Sayca az olsa da, sizin Azərbaycan Əlahiddə Korpusunda döyüş havasına alışmış komandirləriniz var. Adını, şöhrətini hələ ötən il Qarsda ikən eşitdiyim general Əli ağa Şıxlinski ilə, podpolkovnik Həbib bəy Səlimovla Gəncədə görüşümdən çox məmnun qaldım. Sizin sevincinizi mən yaxşı duyur və buna qəlbən sevinirəm. "Bizim Türk ordusunu Qazaxda sizin azərilər tarixdə görünməmiş bir sevinc və səmimiyyətlə qarşıladı"[1].

Gəncədə, Qarabağda bu səmimiyyətin, sevincin təntənəsi daha çox idi. Gəncə camaatı bir nəfər kimi Artilleriya meydanına - bizim görüşümüzə gəlmişdi. Ötən müharibədə, bilirsiniz ki, ruslar Türkiyənin şərq vilayətlərini işğal etmişdi. O vaxt Gəncənin "Cəmiyyəti-Xeyriyyə"si qardaşlıq naminə o ərazidə sahibsiz qalan uşaqları yığıb gətirmişdi. Həmin uşaqlar da meydanda idilər. Onlar əsgərlərə yanaşır, əl-ayaqlarına sarılır və haralı olduqlarını soruşurdular. Birdən bərk qışqırıq və ağlaşma qopdu. Doqquz yaşında Sarıqamışlı bir oğlan bizim əsgərlərdən olan atasını tanımışdı. Ətrafdakılar dözə bilməyib sevinc yaşı axıdırdılar. Biz bu yaxşılığı heç vaxt unuda bilmərik. Bu tə'sirli səhnə indi də gözümün önündən silinmir.

Yenə deyirəm, arxayın ola bilərsiniz, kifayət qədər hərbi gücümüz var. Sizin qarşınızda and içib deyirəm ki, Bakını hücumla alacaq, oranı rus-erməni və sentrokaspi qüvvələrindən təmizləyəcəyik.

1. Sitat türk podpolkovniki Rüşdü bəyin "Bakı yollarında" hərbi məcmuəsindən götürülüb, 1934-cü il, İstanbul, səh.24-25

## NURU PAŞA HAQQINDA BİR NEÇƏ SÖZ

***Azərbaycan xalqı, ziyalılar, xüsusilə bəy və ağalar Türkiyə ordusunu, onun komandanı general-leytenant Fəriq Nuru Paşanı Gəncə və Yevlaxda böyük sevinclə, mehmannəvazlıqla, duz-çörəklə qarşıladılar. Onun gəlişinə təntənəli nitqlər söylədilər. Məmməd Əmin Rəsulzadənin e'tirafına görə, musavat əks-kəşfiyyatı Nuru Paşanı "göydən enmiş xilaskar-mələk" kimi qarşıladı.***

Süvari general Mustafa Nuru paşa 1889-cu ildə İstanbulda hərbçi Əhməd Tofiqin ailəsində anadan olub. Onun atası Əhməd paşa əslən Rumelidən idi. İlk hərbi təhsil almaq üçün Nuru paşa 1906-cı ilin noyabr ayında Quru qoşunları hərbi məktəbinə girib. 1909-cu il avqustun iyirmi altısında Quru qoşunları hərbi məktəbini leytenant rütbəsində bitirib və xidmət üçün üçüncü ordu komandanlığına göndərilib. 1910-cu il yanvarın doqquzunda padşaha məxsus piyada bölüyünə tə'yin edilib.

1912-ci il oktyabrın on doqquzunda Nuru paşa birinci korpusun altıncı alayının birinci taburunun üçüncü bölüyündə baş leytenant rütbəsində qulluq edib. O, 1913-cü il noyabrın iyirmi altısında kapitan rütbəsinə yüksəlib. 1914-cü il iyulun on beşində Türkiyənin Vyana səfirliyinin Attaşeliyinə və həmin il avqustun on beşində hərbi Attaşenin yavərliyinə tə'yin edilib.

Trablusqərbdə italyanlara qarşı aparılan müharibələrdə göstərdiyi qeyrətli çalışmalara görə padşahın əmrilə 1916-cı il sentyabrın iyirmi dördündə mayor rütbəsilə təltif olunub. Yenə də Trablusqərbdə italyanlara qarşı apardığı müharibələrdə göstərdiyi qeyrətli çalışmalar və oradakı hərbi bölmələri məharətlə idarə etdiyinə görə, 1918-ci il martın üçündə padşahın əmrilə ona podpolkovnik rütbəsi verilib. Qərbi Afrika qrupları komandanlığının mərkəzi olan Mistratada xidmət edən podpolkovnik Nuru bəy Trablusqərbə göndərilmək üçün İstanbula gəlib.

Ənvər paşa Azərbaycanı və Dağıstanı xilas etmək üçün qərargah təşkil edəndə, Qafqaz İslam Ordusu Komandanlığına podpolkovnik Nuru bəyi də'vət elədi. Padşah, yavəri Nuru bəyə növbədənkənar general-mayor rütbəsi verdi.

Nuru Paşa 1918-ci il martın iyirmi beşində Mosula gəldi. Altıncı ordudan təşkil olunan zabitlərlə birlikdə 1918-ci il aprelin səkkizində Azərbaycana getmək üçün Mosuldan yola düşdülər. Həmin il mayın iyirmi beşində Qafqaz İslam Ordusunu yaratmağa başladı. 1918-ci il iyulun on yeddisindən sentyabrın on dördünədək bir sıra uğurlu döyüş əməliyyatı apararaq işğal al-

tında olan Azərbaycan torpaqlarını azad etdi. Həmin il sentyabrın on beşində Nuru Paşanın qoşunları Bakını aldı.

1918-ci il oktyabrın otuzunda imzalanan Mondros barışığından sonra Osmanlı qüvvələri Azərbaycandan çıxarıldı.[1]

Nuru paşa istiqlal savaşında Şərq cəbhəsindəki on beşinci nizami ordudan on ikinci diviziyanı yaratdı. İstiqlal savaşından sonra 1923-cü il oktyabrın dördündə nuru paşa təqaüdə çıxdı. Savaşın sonunda İstanbulda yaşamış və cümhuriyyət dövründə sənaye sahəsində çalışmışdır. O, İstanbul yaxınlığında poladəritmə zavoduna rəhbərlik etmişdir.

İkinci Dünya müharibəsi illərində İstanbulda ordu üçün minaatan və əl qumbarası istehsalı ilə məşğul olmuşdur. Nuru paşa 1949-cu ildə zavodda baş verən partlayışdan həlak olmuşdr.

Xalqımızın xilaskarı Nuru paşa çətin və əzablı hərbçi ömrü yaşamışdır. ***İgid sərkərdə qeyri-adi bacarığına görə iyirmi doqquz yaşında general-leytenant kimi fəxri rütbəyə layiq görülüb.*** Bu yaşda, belə yüksək rütbə hərb aləmində nadir adamlara qismət olur. Döyüşən ordu general-leytenantı Nuru paşanın qəlbi həmişə Azərbaycanla döyünmüş, din və dilbir qardaşlarını bolşevik-daşnak istilasından xilas etmək üçün əzmlə çalışmışdır. Nuru paşa 1920-ci ilin aprelində bolşevik orduları Azərbaycanı işğal edəndə bir qrup türk zabiti ilə Dağıstandan keçərək Şuşaya gəlib, Qarabağda bolşeviklərə qarşı döyüşlər aparıb. O, Tərtər, Ağdam, Bərdə və Zaqatalada əhalisini istilaçılara qarşı üsyana qaldırıb.

General Nuru paşanın Qafqaza qısa müddətli hərbi yürüşü onun ömründə yaxşılı-yamanlı izlər qoyub.

Azərbaycan Mərkəzi Dövlət Arxivində "tamamilə məxfidir" qrifilə saxlanan birn sənəd var. Bu teleqram-sənəd 1919-cu ildə Yevlax Cəmiyyətinin üzvləri tərəfindən Azərbaycan Cümhuriyyətinin Parlamentinə vurulub. Teleqramdan məlum olur ki, Azərbaycanı sidq ürəklə sevən, onun xilası və azadlığı uğrunda yorulmadan çalışan general Nuru paşa Mondros sülh bağlanışından sonra da Azərbaycanı tərk etməmişdir. Qafqazın ayrı-ayrı bölgələrində gizlin də olsa çalışmışdır. Teleqramda deyilir: "Keçən il anarxiya nəticəsində baş vermiş ağır günlərdə Nuru paşa Azərbaycanda peyda olmuşdur. O, özünün ədalətli və bacarıqlı hərəkətləri ilə böyük təhlükənin qarşısını ala bilmişdir.

---

1. Antanta dövlətlərilə Sultan Türkiyəsi arasında imzalanan Mondros barışığından sonra Türkiyə silahı dərhal yerə qoymalı və öz taleyini qalib dövlətlərin - Antantanın ixtiyarına verməli oldu. Bundan sonra Antantanın oyuncağına çevrilən Sultan Türkiyəsinin bir çox hissəsini ingilislər, fransızlar işğal etdilər. Türkiyə parçalanmaq təhlükəsində qaldı. - müəl.

Yalnız onun bu ədaləti və bacarığı sayəsində millətlər arasındakı milli müharibə dayandırıldı. Biz azad nəfəs almağa başladıq.

Lakin bizə çatan kədərli mə'lumata görə sevgi və təşəkkürə layiq olan bizim xilaskarımız xəbis adamların yaydıqları iftiralar nəticəsində həbs olunmuşdur. Vətənimizin sülh şəraitində yaşaması belə nadürüstləri qane etmir.

Biz Yevlax Cəmiyyətinin üzvləri, Parlamentdən xahiş edirik ki, general Nuru paşa tə'cili olaraq həbsdən azad edilsin. Bununla da qəhrəmanımız Nuru paşanın qəlbi edilən qəsdlərdən xilas olsun.

Hörmətlə: Yevlax Cəmiyyətinin üzvləri: Molla Əli Musazadə, İsa bəy Qarabəyov, Əşrəf bəy Tağıyev-Qarxunlu, İsfəndiyar İsmayılov, Aslanov, Qamboy ağa Quliyev-Qaramanlı, cəmisi 27 imza".

Tarixi sənədlərdən və Cümhuriyyətin görkəmli şəxsiyyətlərinin xatirələrindən mə'lum olur ki, general Nuru paşa Azərbaycan uğrunda həyatı bahasına mübarizə aparmışdır. 1918-20-ci illərdə Azərbaycan əks-kəşfiyyat idarəsinin rəisi Nağı bəy Şeyxzamanlı "Azərbaycan istiqlal mücadiləsi xatirələri" kitabının səksən beşinci səhifəsində bu barədə geniş mə'lumat verir. O yazır:

"Günlərin bir günü Gəncədə idim. Eşitdim ki, ingilislər Nuru paşanı tutub Batuma gətiriblər. Orada ingilis hərbi tribunalına verəcəklər. Buna səbəb də guya Bakının azad olunması vaxtı erməni qırğını törədilməsi idi. Tez Bakı ilə telefon danışığı apardım və xəbərin doğru olduğunu öyrəndim. Gəncə ermənilərindən bir arayış almaq lazım idi ki, Nuru paşanın Gəncəyə gəlişində ermənilərə heç bir pislik etmədiyi kimi, erməniləri mühasirədən qurtarıb hürriyyət verdiyini, həyatlarını təhlükəsizlik altına aldığını, bu yaxşılığa qarşı ermənilərin bir hey'ət göndərərək Nuru paşaya təşəkkür etdiklərini isbat etmək mümkün olsun. Arayışın alınması üçün Gəncənin görkəmli ziyalıları ilə bərabər erməni milli təşkilatına müraciət etdim. Arayışı alacağıma qəti şəkildə inanırdım, çünki həqiqət barədə arayış istəyirdim. Ancaq ermənilər xahişimizi rədd etdilər və dedilər: "Biz uşaq deyilik. Çox yaxşı bilirik ki, əgər Gəncədə erməni qırğını törədilsəydi, Bakının tutulması vaxtı orada bir nəfər erməni belə qalmayacaq idi. O gözlədi ki, Bakını tutub oradakı qırğını bitirsin və ondan sonra bizi qırsın. Ancaq mütarikə (barışıq - Ş.N.) oldu, Osmanlı ordusu qırğına vaxt tapa bilmədi".

Biz əliboş geri qayıtdıq. Bakıya gəldim, mərhum Nəsib bəylə (Usubbəyov - Ş.N.) görüşərək arayışı almadığımı və çox kədərli olduğumu söylədim. Nəsib bəy dedi: "Bəli, mən səni heç bu qədər kədərli görməmişdim". Mən də dedim: "Nəsib bəy, ermənilər çox naşükürlük etdilər. Nuru paşa üçün haqlı

olan arayışı mənə vermədilər". Nəsib bəy gülərək dedi: "Üzülmə, Nuru paşanın azad olunmasının daha asan yolu var. Batumdan xəbər aldım. Hopa bəyləri plan hazırlayıblar. Nuru paşanı basqın ilə qurtaracaqlar. Ancaq pula ehtiyacları var. Sən iki min manat pul götürüb Batuma get". "Əmr et, pul versinlər, axşam yola düşüm", - sevinərək dedim. Pulu alıb Batuma gəldim. Azərbaycan konsulu doktor Mahmud bəylə[1] görüşdüm. Məsələni ona anlatdım və soruşdum. Doktor dedi ki, imkan yoxdur. Ancaq Mürsəl paşa ilə görüşə bilərsən. İngilis komandanlığında nəzarət altındadır. Mən tez gedib Mürsəl paşa ilə görüşdüm. Mürsəl paşa dedi: "Aman, mənə bir şey etməyəcəklər. Ancaq Nuru paşanı e'dam edəcəklər. Onun qaçırılmasının yolunu tapın". Mürsəl paşa gizli saxladığı bir kağızı mənə verdi. Aldım, oxudum. Bu bəyannaməni Almaniyadan göndərmişdilər. Paşa dedi: "Bunu çoxaldıb İslam dünyasına dağıtmaq. İslam dünyasını böyük cihada çağırmaq. Qurtuluş bundadır, başqa çıxış yolu yoxdur". Onu dinlədikdən sonra dedim: "Ay paşam, bu bir mərsiyədir. çox tə'sirli yazılıb, bu yanıqlı sözlərə ancaq göz yaşı ilə cavab verilir. İslam dünyasında birlik yox, qüvvə yox və olmayacaq. Olsa da bir şey çıxmayacaq. Allahıma inandığım kimi inanıram ki, Türkiyənin bir türk kəndində olan qeyrət, iman, Vətənə, dinə bağlılıq müraciət etdiyimiz İslam dünyasında yoxdur. Bu, boş işdir. Varlıq, qüvvə yalnız milli imandır". Bəyannaməni kimə oxudumsa, hamısı mənimlə eyni fikirdə oldu. Mən Bakıya geri qayıtdıqdan dörd gün sonra Nuru paşa ilə Bakıda görüşdük".

Türkiyənin Quru qoşunlarının hərbi arxivindən aldığımız rəsmi sənəddə igid sərkərdə Fəriq Mustafa Nuru paşanın ümumtürk dünyasında göstərdiyi xidmətlərinə görə təltif olunduğu orden və medallar da göstərilmişdir.

1. 1916-cı il, iyulun iyirmi doqquzunda Almaniya imperatorluğu tərəfindən "Dəmir Salib" medalı ilə;
2. 1916-cı il noyabrın iyirmi ikisində Trablusqərbdəki qeyrətli döyüşlərinə görə "Altın Ləyaqət" medalı ilə;
3. 1917-ci il martın on ikisində padşahın qərarı ilə Trablusqərbdəki qeyrətli döyüşlərinə görə vaxtından əvvəl hərbi rütbə verilmişdir.
4. 1917-ci il aprelin üçündə Qərbi Afrika hərbi qruplarına komandanlıq etdiyinə görə Avstriya-Macarıstan dövləti tərəfindən üçüncü dərəcəli fəxri əsgəri fərqlənmə nişanı verilmişdir.
5. 1917-ci il iyunun iyirmi beşində Trablusqərbdəki döyüş xidmətlərinə və hərbi birliklərə ə'la komandanlıq etdiyinə görə padşahın qərarı ilə "Altın-imtiyaz" medalı ilə mükafatlandırılmışdır.

1. Azərbaycan Respublikasının 1918-20-ci illərdə Batum şəhərindəki baş konsulu Mahmud bəy Əfəndiyev - Ş.N.

6. 1918-ci il fevralın altısında üçüncü dərəcəli "Osmani" ordeni ilə (qılıncla birgə) təltif olunmuşdur.

7. 1918-ci il avqustun altısında birinci dərəcəli "Məcidiyyə" ordeni ilə (qılıncla birgə) təltif olunmuşdur.

8. Sarıqamış hücumunda könüllü olaraq on ikinci diviziyaya komandanlıq etdiyinə görə 1929-cu il yanvarın on altısında 15260 saylı "İstiqlal" medalı ilə təltif olunmuşdur.

***

***O günki, Nuru Paşa Gəncəyə mehman oldu,***
***Türkə əyri baxanın bağrı qızıl qan oldu.***
***Sancdı dağlar başına hilallı al bayrağını,***
***Qalxdı bu Türk diyarı, Azərbaycan oldu!***

***Məhəmməd Hadi.***
***(1879-1920)***

1918-ci ilin noyabr ayında podpraporşiklər məktəbinin ilk buraxılış təntənəsində Azərbaycan hökumətinin nümayəndələri ilə birgə Qafqaz müsəlman ordusunun baş komandanı Nuru paşanın atası Hacı Əhməd paşa da iştirak etmişdir. O vaxt həmin təntənədə çıxış edən Azərbaycan xalq təhsili naziri Nəsib bəy Usubbəyov Hacı Əhməd paşaya müraciət edərək demişdir:

- Zati-aliləri! Sizin şanlı oğullarınız Ənvər paşa və Nuru paşanın adları nəinki təkcə Azərbaycanın, eyni zamanda bütün Türk xalqlarının yaddaşında həmişəlik qalacaqdır. Belə qəhrəmanların atasının başını dik tutmağa və xoşbəxt olmağa haqqı var. Sizin kimi atalar azdır. Allah Sizi və oğullarınızı hifz eləsin və Sizin illər boyu köməyiniz olsun.

Türklərin köməyi ilə açılan Gəncə podpraporşiklər məktəbinin buraxılışı günündə on dördüncü Çanaqqala diviziyasının komandiri, polkovnik Nazim bəy də çıxış edib üç ay müddətində azərbaycanlı gənclərin qazandıqları müvəffəqiyyətə görə xalqımıza öz sevincini bildirmişdir:

- Cənablar, Azərbaycanın həyatında bu gün ən xoşbəxt gündür. Biz - sizin uzaqdan gəlmiş qardaşlarınız sizin iste'dadınız qarşısında baş əyirik və sizi bu günkü ana görə yox, ən çox əldə edilmiş parlaq gələcəyinizə görə təbrik edirik. Mən şəxsən müharibə tərəfdarı deyiləm, amma belə bir söz var: ***"Əgər sülh istəyirsənsə, müharibəyə hazırlaş". Ona görə ki, əgər ölkə güclüdürsə və müharibəyə hazırdırsa, onda heç kəs cür'ət edib onun üzərinə hücuma keçə bilməz.*** Cənablar, mən çox şadam ki, siz hərbi işi öyrənmisiniz və əminəm ki, Azərbaycanın şanlı və zəhmətsevər zabitləri olacaqsınız, lazım

gəldikdə öz ölkəmizin mənafeyini qorumağı bacaracaqsınız. Bunun üçün güclü ordu lazımdır və ümid edirəm ki, onun yaranmasında siz öz gücünüzü əsirgəməyəcəksiniz. Mən ölkəni ilk buraxılış münasibətilə təbrik bir də edirəm və inanıram ki, gələcəkdə siz Vətənin iftixarı olacaqsınız (hər iki çıxış "Azərbaycan" qəzetinin (rusca) 8 noyabr 1918-ci il tarixli sayından götürülüb).

***

Nuru paşa ikinci gün idi ki, general Əli ağa Şıxlinski ilə Göyçaya getmişdi. Müsüslü, Bərgüşad və Göyçay uğrunda döyüşlər gedirdi. Onuncu Qafqaz alayının komandiri Osman bəydən həyəcanlı xəbər alınmışdı. İyunun on yeddisində Göyçayın qərbində vuruşan alay iki yüz nəfərdən çox itgi vermişdi. Günah döyüşçülərdə deyildi. Şamaxı və Ağsudan enib gələn bolşeviklərin hərbi qüvvəsinin qəfil zərbəsinə mə'ruz qalmışdılar. General Şıxlinskinin təklifilə dörd yüz nəfərlik Azərbaycan süvarisi və Ərəş alayından bir vzvod Osman bəyə köməyə göndərildi. Nuru paşa gecədən xeyli keçmiş Yevlaxa qayıtdı. Məqsədi sabah axşam üstü Gəncəyə getmək idi.

Dan üzü ağarar-ağarmaz avtomobil Əşrəf bəyin Qarxundakı həyətinə çatdı. Küləfirəngidə yatan bəy maşının səsini eşidib dərhal yataqdan qalxdı, geyinib aşağı düşdü.

- Sabahın xeyir, Paşa. Cəbhədə vəziyyət necədir?

- Yaxşıdır, narahat olmağa dəyməz.

- Keçin evə, bir az istirahət edin, yol gəlmisiniz.

Nuru paşa geriyə - Kürə tərəf boylandı. Baxışlarını bir xeyli oradan çəkmədi. Əşrəf bəy də Kürə tərəf baxdı, amma ins-cins görmədi.

Nuru paşa yorğun-yorğun:

- Bəy, - dedi, - yol boyu yaxşıca mürgüləmişəm. İki gündü Şirvanın tozu-torpağı canıma hopub.

Əşrəf bəy dərhal onun fikrini başa düşdü. Darvazanın yanında dayanan oğlu Knyazı çağırıb nəsə dedi. Üzünü Nuru paşaya tutub:

- Biz gedək, paşam, - dedi, uşaq da dalımızca gəlib özünü bizə yetirər.

Yarı yolda onları haqlayan Knyaz iki can dəsmalını atasına verib qayıtdı.

Yarğanın başına çatanda hər ikisi dayandı. Gah sağa, gah da sola dönüb çay boyunca baxan Nuru paşa köksünü ötürdü.

- Nə qılınc çalmalı sudur.

- O nə deməkdir, paşam. Suya qəzəbin var?



*Sağdan Nuru Paşa və general Əli ağa Şıxlinski ön cərgədə 1918-ci il, Gəncədə.*

- Yox, suya hirslənmirəm. Belə dərin çaylara məhəbbətim var. Bu ağır nəhri gördüm, uşaqlığım yadıma düşdü. Bilirsən, atam Əhməd bəy biz qardaşlara balaca olanda qılınc çalmağı suda öyrədib. Özü sahildə dayanar, bizi isə dizə qədər suya salıb, əlimizə də qılınc verərdi, əlbəttə, qılınc balaca olardı. Sağı-solu və qarşını döyəcləyə-döyəcləyə "düşmənə" qılınc çalmağı öyrənərdik. Kəl belində, at üstündə Ənvərlə o tay-bu taya keçərdik. Mən Ənvərə çata bilməyəndə hirsimdən ağlayırdım, qardaşım məni bağrına basıb toxdadardı. İndi harda belə əzəmətli çay görürəmsə, elə bilirəm onda qolumun gücü, qəlbimin məhəbbəti var.

Əşrəf bəy məhəbbət dolu nəzərlərlə ona baxıb gülümsündü:

- Böyük Füzuli, - dedi, - sağ olaydı, sizin bu qeyri-adi, qəribə məhəbbətinizi tarixə salardı.

- Bu dan üzünün saflığında nə yaxşı elədin aydan arı, sudan duru Füzuli babamızı xatırladın. Bəy, mənə elə gəlir, hər bir türk oğlu ilk məhəbbətilə yanaşı, qəlbində Füzuli babamızın da sevgisini yaşadır.-Nuru Paşa köksünü ötürüb, dərindən nəfəs aldı. - Of dedi, bircə bu döyüşlər, savaşlar tezliklə bitəydi. Oturaydım həyətimizdəki tut ağacının kölgəsində babam Füzulinin şərbət dadlı misralarını qəlbimin gözünə yedirəydim.

- Paşam, xəbəriniz var, Füzuli İraqın Kərbəla şəhərində doğulsa da, atası müfti Süleyman əfəndi bizim Ərəşlidir. Hətta bə'zi mə'lumatlara görə, şairin oğlu Fəzli atasının ölümündən sonra bizim Ərəş mahalına qayıdıb, qohumlarının yanında yaşamışdır.

Nuru paşa Əşrəf bəyin çiynini qucaqlayıb iri, yorğun gözlərini təəccüblə açdı.

- Bu, rəvayətdir, yoxsa özün elə indicə uydurdun. Sırağa gün məclisdə də gördüm, müğənniləriniz elə hey Füzulidən oxudu. Sən də babamız Füzulidən böyük şövqlə şe'rlər deyirdin.

- Paşam, mən sözümün əvvəlində dedim ki, bə'zi mə'lumatlara görə... Bizim Ağdaşda Çələbilər nəsli var. Bu nəslin qocaları deyir ki, Fəzli onların məhəlləsində yaşayıb. Bir də ki, paşam, narahat olmağa dəyməz, böyük Məhəmməd Füzuli nə sizindir, nə də bizim. O, bütün türk dünyasında şe'r-sənət soltanıdır.

- Bax, bu fəhminə əhsən, bunu gözəl dedin, bəy. Füzuli böyük türk dünyasının şe'r-sənət soltanıdır.

Kefi durulan Paşa dostunun dirsəyinə toxundu. Aşağı, çaya düşmək işarəsi verdi. Yarğanı enib çaya çatana kimi üç-dörd dəfə: "Füzuli şe'r-sənət soltanıdır" deyə öz-özünə təkrar etdi.

Dostunun onun sözlərinə qiymət verməsindən məmnun olan Əşrəf bəy:

- Amma bir məsələ də var, - dedi. Bizdən bir az əvvəlki və bizim nəsil gün çıxandan gün batana kimi olan türk dünyasını qoruya bilmədik.

- Bunu nə mə'nada deyirsən, Əşrəf bəy?

- O mənada ki, görün bir nə gündəyik. Bizi yüz iyirmi il əvvəl sarı ruslar parçalayıb. Yarımız o tayda - İranda, İrakda daha nə bilim haralarda. Bu saat elə siz də bizim günümüzdəsiniz. Sultan Türkiyəsi Antanta dövlətlərinin əlində fağır bir ölkəyə çevrilib. Deyilənə görə, Sultan Türkiyəsinin Şərq vilayətlərini Rusiya almaq iştahındadır. Suriya tərəfləri Fransa, Mesopatomiya, İzmir və Aydın dəmir yollarının keçdiyi ərazini ingilislər, Anadoluya isə almanlar göz dikib. Bəs bizim taleyimiz necə olacaq? Əgər o boyda Türkiyənin taleyi belə acı olsa, parçalansa, görün biz Azəri türkləri nə günə düşəcəyik. Paşam, bizim ümidimiz, nicatımız sizədir. Siz də ki, bu gündə...

- Sən lap qardaşım Ənvər paşa kimi yana-yana danışırsan. Onun ən böyük arzusu türkçülük, turançılıq uğrunda mübarizə aparmaqdır. İnşallah, vaxt gələr, səni onunla tanış edərəm. Siz qardaşımla eyni fikirdəsiniz, eyni zindana döyürsünüz.

- Hər bir türk oğlunun borcudur ki, birlik uğrunda eyni zindana çəkic vursun.

- Dərd də bundadır ki, bizim yeni padşah olan Sultan Vahidəddin belə düşünmür. Əşrəf bəy, siyasət söhbəti başımızı qatdı, çimməyi unutduq, - deyib

Paşa suya atıldı... Beş-on dəfə qol atıb üzə-üzə geriyə döndü. - Çıxanda babamız Füzulidən sənə bir məktub oxuyacağam, - dedi. - Yadıma salarsan.

Yarğanın qaşında on iki yaşında bir oğlan uşağı “ata, ata”, - deyə qışqırıb əl eləyirdi. Bu, Əşrəf bəyin kiçik oğlu Məhəmmədəli idi.

- Nə olub? - deyə ata aşağıdan yuxarı qışqırdı.

- Gəncədən qonağımız gəlib, sizi istəyirlər - dedi.

Sudan çıxan Nuru paşa:

- Gedək, - dedi, - yarğanı çıxana kimi məktubu da sənə oxuyaram.

- Onda tələsmə, əl-ayağını qurula, məktubu da tap, oxuya-oxuya yarğanı çıxarıq.

Nuru paşa gülümsünüb:

- Məktub-zad axtarmayacağam, o burdadır, - deyib əlilə başını göstərdi.

- Yaddaşındadır?

- Bəli, necə bəyəm, ola bilməz?

- Əhsən sənin yaddaşına, qardaş.

- Sən arada siyasi “dərddən” danışdın. Mənim isə hüsni-xəyalım hələ də babamız Füzulidən ayrılmayıb. Sən Çələbi dedin, Füzulinin Bəyazid Çələbi-



***İlk Azərbaycan Demokraktik Cumhuriyyətinin Milli Ordusunun Gəncədən Bakıya qayıtması, 1919-cu il 5 aprel, İstiqlal küçəsi***

yə yazdığı məktubu xatırladım. Oğlu Fəzli Ərəşə qayıdıb, Çələbilər məhəlləsində yaşayıbsa, burda bir qanunauyğunluq var. Kim bilir, bəlkə də Füzuli bu nəsillə qohum imiş. Allah onun torpağını pak, yerini behişt eləsin.

- Paşam, çələbilərin dediyinə görə Füzulinin gəlini, Fəzlinin arvadı bu nəsildən imiş.

- Bəy, onda qulaq as, məktubu oxuyum. Füzuli Sultan Süleymanın oğlu şahzadə Bəyazid Çələbiyə yazır:

"Mənə bir məktub, bəlkə çiçəkli bir bağça gəldi. Onun işıqları gözümün nurunu artırdı. O, ən lətif lövhələr üzərinə diqqətlə təsvir edilmiş gözəl bir şəklə bənzəyir. Onun sətirləri, işarələri ulduzlu səmaya oxşayır. Yazıları budaqlar, ibarələri çiçəklər kimidir. O, mə'rifət fənlərini əhatə edən bir səhifə, ne'mət budaqları yetişdirən bir bağçadır. Onun gəlişi göz bağçasını çiçəkləndirdi..."

Əşrəf bəylə Nuru paşa mülkə dönəndə, bir qədər sükut içərisində addımladılar. Buna sükut demək olmazdı. İçlərində lal bir haray vardı. Füzuli harayı idi bu: türk qardaşlarım, çiçəkli bağçamızın viranəliyə çevrilməsinə imkan verməyin!

Və onlar sanki bu harayın tə'siri ilə addımlarını yeyinlətdilər...

***

Türk qoşunları Azərbaycana ilk dəfə iki qrup halında gəlmişdir. General Nuru paşanın təşkil etdiyi birinci qrup 1918-ci il iyunun 7-də, ikinci qrup isə bir gün sonra Qazağa və iyunun 9-da Gəncəyə çatmışdı. Hər iki qrup üçüncü türk ordusunun beşinci Qafqaz diviziyasından seçilmişdi. Gümrü və Qazax istiqamətində hərəkət edən birinci qrupa onuncu Qafqaz alayı, doqquzuncu və on üçüncü Qafqaz alayına mənsub iyirmi altıncı batalyon, topçu dağ batalyonu, istehkam bölüyü, rabitə vzvodu daxil idi. Bu qrupda yüz qırx zabit və iki min səkkiz yüz on iki əsgəri qüvvə vardı.

Lori nahiyəsi boyunca üzüaşağı gələn ikinci türk hərbi qüvvələrinin yolu Cəlaloğlu şəhərindən sonra Sadaxlı, Körpülü, Kəmərli və Aslanbəyli kəndlərindən keçərək Qazağa iyunun 12-də çatmışdır. On üçüncü Qafqaz alayından təşkil olunan bu qrupda güclü dağ topçu batalyonu, yüz on zabit və iki min yeddi yüz altmış üç əsgəri qüvvə daxil idi.

Türk qoşunlarının gəlişini Lenin və Stalinə bildirən daşnak Şaumyan həyəcanla Bakıdan yazırdı: "Türklər Qarakilsədən, Dilicandan keçib Ağstafaya çatıblar. Oradan da birbaşa Bakıya yeriyəcəklər. Bağlanan sülh müqaviləsinə əsasən türklər dəmir yolu ilə qoşunlarını Bakıya və Culfaya daşıyacaqlar. Xəbər verirəm: "Hücum başlanmışdır".

Türklərin gəlişindən bərk qorxuya düşən ermənilər 1918-ci il iyunun 30-da azsaylı rus hərbi qüvvələrinə arxalanaraq qəfildən Göyçaya basqın etdilər. Həmin hadisəyə görə türklərə otuz səkkizinci alaydan ibarət yeni qüvvə göndərildi. Alayda altmış beş zabit, iki min dörd yüz yetmiş beş əsgəri qüvvə, dörd güclü dağ topu və bir güclü dağ batareyası vardı.

İyulun doqquzunda ehtiyatda olan üçüncü türk ordusundan üç yüz əlli əsgəri qüvvə seçilib Bərgüşad və Göyçay uğrunda gedən döyüşlərə göndərildi. Beşinci qrup isə polkovnik Nazim bəyin komandanlığı ilə birbaşa Bakı döyüşlərinə çatdırılmışdı. Azərbaycan Əlahiddə korpusu, yerli əhalidən təşkil olunmuş könüllü dəstələr də türk ordusu ilə çiyin-çiyinə vuruşurdu.

Cənub qrupuna azərbaycanlı polkovnik Həbib bəy Səlimov, Şimal qrupuna isə türk polkovniki Osman bəy komandanlıq edirdi.

"Azərbaycan-Türkiyə qüvvələrinin əks hücuma keçməsi bolşevikləri təşvişə saldı. Bakı Soveti iyulun 12-də hərbi səfərbərlik e'lan etməyə məcbur oldu. Lakin bu tədbir onları məğlubiyyətdən xilas edə bilmədi. Göyçay ətrafındakı şiddətli döyüşlərdə Azərbaycan-Türkiyə birgə qoşunları parlaq qələbə qazanmışdı. Biçeraxovların, avetisovların Qırmızı Orduya köməyə gəlişi zəfər yürüşünün qarşısını ala bilmədi. Göyçaydan sonra Şamaxını yadellilərdən təmizləyən ordu sür'ətlə Bakıya yaxınlaşırdı" (A.Rüstəmli, "Azərbaycan ordusu" məqaləsi, "Həqiqət" qəzeti, 2 dekabr 1992-ci il).

Həmin döyüşlərin iştirakçısı, türk ordusunun podpolkovniki Rüştü bəy 1934-cü ildə İstanbulda nəşr etdirdiyi "Böyük hərbdə, Bakı yollarında beşinci Qafqasiya piyada firqəsi" adlı memuarında verdiyi mə'lumata görə, türk hərbi qüvvələrinin ümumi sayı on min nəfər olmuşdur. O yazır: "Şamaxının zəbtindən sonra Bakıya yaxınlaşan ordu avqustun 5-də Bakı şəhərinə yapdığı müvəffəqiyyətsiz bir hücum üzərinə on beşinci firqənin kamilən Azərbaycana göndərilməsi üçün müraciət edilmiş və ingilislərin Bakıya İran tərəfindən yardım göndərmələrini nəzərə alaraq Qarakilsədən Bakıya min iki yüz hərbçi, mövcud firqə qərargahı ilə əlli altı və yüz altıncı piyada alayları da gəlmişdi. Bundan başqa, cəbhədə min nəfərlik bir Azərbaycan qüvvəsi, iyirmi makinalı tüfəng, altı top və bir zirehli qatar hərb edirdi. Əlavə olaraq artan Türkiyə qüvvələrilə bərabər, Azərbaycan qüvvələri də artmış, Qazax, Gəncə, Şəki, Zaqatala, Cavanşir, Ağdaş, Ağdam, Quba, Səlyan, Göyçay və Bakı ətrafında süvari milis təşkilatı, silahlı könüllü qrupları vücuda gəlmişdi".

Bu dövrdə Azərbaycan türklərinin vəziyyəti çox ağır idi. İrəvanda, Zəngəzur və Göyçayda rus hərbi qüvvələrinə arxalanan daşnaklar xalqı qılıncdan keçirir, tonqalda yandırır, daşqalaq edirdi. Yüzlərlə kəndi yerlə-yek-

san etmişdilər. Bakıda bolşeviklərin və daşnakların fitvası ilə mart qırğını törədilmişdi. Bu qırğında on beş minə yaxın azərbaycanlı öldürülmüşdü. Ölkədə anarxiya, başıpozuqluluq hökm sürürdü.

Martın 20-də Zaqafqaziya seyminin iclasında çıxış edən musavat lideri Aslan bəy Səfikürdski bütün qafqazlıları bolşeviklərə qarşı mübarizəyə səsləyirdi: "Biz Zaqafqaziya hökumətindən xahiş edirik, bolşevizmi məhv etmək üçün özünümüdafiə şurası yaratsın. Biz müsəlman sosialist bloku adından xəbərdarlıq edirik ki, həmişə bolşevizmə qarşı mübarizə etmişik və bu gün də ona hazırıq. Əgər bu barədə ölçü götürülməsə, biz özümüz bolşevizmi məhv edəcəyik... Bizim tarixdə çox qanlar axıdılıb. Tariximiz başdan-ayağa qanla yazılıb. Biz bolşevizmi əzməklə yenə də tariximizi qanlı hərflərlə yazacağıq".

Musavat hökumətinin nümayəndələri türklərin qardaş köməyinə arxalanmaqdan başqa yol görmədiklərini açıqdan-açığa bildirirdilər.

Azərbaycan Xalq Cümhuriyyəti e'lan olunan gün Tiflisdəki "Oriant" mehmanxanasında Zaqafqaziya Seyminin üzvlərindən biri Fətəli xan Xoyskidən soruşmuşdu:

- Siz Bakıya döyüşə-döyüşə gedəcəksinizmi?

- Bəli, gedəcəyik.

- Siz döyüşlə Bakıya getsəniz, onda bu imperializm üzərinə ilk hücum olacaq. Amma siz o yürüşü təkbaşına edə bilməzsiniz. Siz Türkiyənin və türk qoşunlarının köməyi ilə Bakını düşmənlərdən azad edə bilərsiniz.

"1918-ci ilin iyun-iyul aylarında erməni hərbi hissələri iki istiqamətdə - Göyçay-Ərəş-Nuxa istiqamətində və Kürdəmir-Yevlax-Gəncə istiqamətlərində irəliləməyə başladılar. Lakin daşnak quldur dəstələrinin Yevlağı ələ keçirmək planları baş tutmadı. Ermənilər burada yerli əhalidən təşkil olunmuş könüllü dəstələrin güclü müqaviməti ilə üz-üzə gəldilər.

Daşnakların qarşısının alınmasında o zaman öz igidliyi ilə Qarabağda ad çıxarmış M.Ə.Rəsulzadənin yaxın dostu və məsləkdaşı Qaramanlı Qamboy ağanın, Qarxunlu Əşrəf bəyin, Bərdəli Sarıtel Aslanın misilsiz xidmətləri və qəhrəmanlıqları olmuşdur. Yaranmış real təhlükəni vaxtında dərk edən Qamboy ağa və Əşrəf bəy öz silahdaşları ilə ətraf kəndlərdən qısa müddətdə minlərlə könüllü yığaraq onları silah, sursat, paltar, ərzaq, at-araba və digər ən zəruri şeylərlə tə'min edirlər. Az vaxtda Yevlax ərazisində xeyli könüllü və beş min nəfərdən çox süvari dəstə toplanır ki, bu da sonralar Azərbaycan Xalq Cümhuriyyətinin ilk süvari dəstələrinə çevrilmişdir" (V.İsayev, "Haradan gəlir bu köç" kitabı, Azərnəşr, 1995-ci il, səh. 50-51).

***

Sonrakı tarixi hadisələr də göstərdi ki, Azərbaycan xalqının Türkiyə və türk ordusundan başqa ikinci bir arxası, xilaskarı olmamışdır.

Türkçülüyə dərin ehtiram, sonsuz məhəbbət bəsləyən gənc bir şairə yaşayırdı Bakıda. 1918-ci il sentyabrın 15-də türk qoşunları ilə birgə qalib kimi Bakıya varid olan Azərbaycan əsgərlərini Ümmügülsüm Sadıqzadə (1899-1944) "Ey türk oğlu" şe'rilə alqışlamışdı:

***Ey türk, sən ey qəhrəman,***
***igid oğlu türklərin,***
***Şanlı, ulu babanın öyüdünü unutma!***
***Sən də yürü o yolu, ad çıxarsın əsgərin,***
***Ulular ardınca get, başqa bir yolu tutma!***
***Yüz illərcə əzildin,***
***ayaqlandın yetər, keç,***
***Yüz illərcə ağladın, eşidilmədi səsin.***
***üz illərcə dərd-sərin duyulmadı***
***nədən heç,***
***Sən şimdi oyan, hayqır,***
***bitməmişkən nəfəsin!***

Əsrin əvvəllərində istiqlalımız uğrunda dönmədən mübarizə aparan on doqquz yaşlı Ümmügülsüm böyük öndərimiz Məmmədəmin Rəsulzadənin əmisi qızı idi. "Azərbaycan xalqının öz ruhundan doğan ümummilli bir hərəkat və hadisədən (M.Ə.Rəsulzadə)" sonra başı bəlalar çəkən şairə Ümmügülsüm cəmi qırx beş illik ömrünün çoxusunu Vətəndən uzaqlarda, Mordoviyada sürgündə keçirmişdir. Bu nəcib və vəfadar şairə görkəmli yazıçımız, otuz yeddinci ilin günahsız qurbanlarından biri olan Seyid Hüseynin həyat yoldaşı idi.

Hələ 1919-cu ildə müstəqilliyimizə qəsd etmək istəyən daşnak-bolşevik qəsbkarlarının təhlükəsindən qəzəblənən Ümmügülsüm yazırdı:

***Ey buzlu Şimaldan qopan ruzigar,***
***Toxunma qəlbimə, atəşim parlar.***
***Sakın, gəlmə, nəfəsim boğar,***
***Dəf ol, Vətənimdə görməm səni!***
***Sən ey murdar çöhrə, ey mənhus sima,***
***Gözümə görünmə, qarşımda durma!***
***Nifrətim var sənə, mənə yaxlaşma,***
***Kinlərim məhv edər yaxın gələni!***

# TÜRKİYƏNİN HƏRBİYYƏ NAZİRİ ƏNVƏR PAŞANIN BAKININ XİLASI HAQQINDA 1918-Cİ İL SENTYABRIN 16-DA ŞƏRQ ORDULAR QRUPUNUN KOMANDANI XƏLİL PAŞAYA TƏBRİK TELEQRAMI

*BAKIDAKI UĞURLARINIZA GÖRƏ SİZİN GÖZLƏRİNİZDƏN ÖPÜR VƏ TƏBRİK EDİRƏM. Bakının xilasından sonra Azərbaycanda hələlik bir diviziya saxlayaraq, qalan qoşunları doqquzuncu ordunun sərəncamına vermək istəyirəm. Nuru paşaya Dərbənd, Petrovsk şəhərlərinin ələ keçirilməsi üçün Şimali Qafqaza bir alay, iki batareya və bir pulemyot dəstəsindən ibarət qoşun göndərməyi tapşırdım. Digər tərəfdən, Ənzəli və Rəşt şəhərlərinin işğalı üçün qoşunların Cənuba göndərilməsinə sərəncam verdim və Təbriz-Qəzvin istiqamətində irəliləyən qoşun dəstəsinin Kiçik xana[1] yardım etməsini və bu məsələ ilə əlaqədar Sizinlə görüşməsini tövsiyyə etdim. Tapşırıqların qısa bir vaxtda yerinə yetirilməsini rica edirəm.*

*Nuru paşa öz qüvvələrini toplayaraq, yalnız bolşeviklərin irəliləməsinin qarşısını almaqla kifayətlənməlidir.*



**Ənvər Paşa Əhməd Paşa oğlu**
**(22.11.1881-04.08.1922)**

1. Kiçik Xan Mirzə (1881-1921) - Cənubi Azərbaycanın siyasi xadimi. Rəşt, Ənzəli və Gilan şəhərlərində şah hakimiyyətinə qarşı inqilabi çıxışların rəhbəri. 1921-ci il mayın 8-də yaradılmış Gilan Respublikası yeni hökumətinin - İnqilab Komitəsinin sədri olub. 1921-ci ilin noyabrında bolşeviklərin əlilə Talış dağlarında öldürülüb - Ş.N.



## Oxucuya müraciət

***Sovet çekistlərinin dili ilə desək, "Nuxa-Zaqatala banditizm üsyanı" məni çoxdan düşündürürdü. Düşünürdüm ki, necə ola bilər ki, səkkiz rayonun əhalisi ayağa qalxıb hakimiyyətə qarşı üsyan etsin, sonra da onlar "bandit" adlandırılsınlar. Qəribədir ki, 1920-ci il aprel çevrilişdən əvvəl həmin ərazilərdə çar hökumətinə qarşı olmuş üsyanlara görə sovet hökuməti özünün tarix kitablarında xalqa haqq qazandırır və çar üsul-idarəsini tənqid edir. Bu mənada 1806-cı ildə Aşağı Göynük kəndində, 1830-cu ildə Car-Balakəndə, 1837-ci il sentyabrın 5-də Qubada, 1844-cü il sentyabrın 4-də Qaxın İlisu kəndində, 1838-ci ilin avqustunda Şəkidə Məşədi Məmmədin başçılığı ilə, 1863-cü ildə Hacı Murtuzun başçılığı ilə Zaqatalada olan üsyanlarda xalqa bəraət qazandırılır. Amma yüz il sonra sovetlər quruluşunda ac-yalavac saxlanan xalq üsyana qalxıb haqqını tələb etdiyinə görə səkkiz rayonun əhalisinə "bandit" damğası vurulur?***

***Mən bir neçə ildir ki, Şəki üsyanını arxiv sənədləri əsasında öyrənirdi. Respublika Mərkəzi Dövlət və Milli Təhlükəsizlik Nazirliyinin arxiv sənədləri ilə "silahlanıb", Zaqatala, Şəki bölgəsinə yerli ağsaqqal və ağbirçəklərlə görüşə getmişəm. Balakən, Qax, Şəki, Zaqatalanın kəndlərini gəzib çox qiymətli fotoşəkillər, sənədlər və xatirələr toplamışam.***

***Milli Təhlükəsizlik Nazirliyinin arxiv sənədlərinə əsasən "Nuxa - Zaqatala banditizm üsyanı"nın başçısı dörd nəfər olmuşdur: Qarxunlu Əşrəf bəy, Baş Şabalıdlı Molla Mustafa Şeyxzadə, Şəki rayon hərbi komissarı polkovnik Bəhram bəy Nəbibəyov və qaxlı Sadıq bəy Balacayev.***

## ƏŞRƏF BƏY QÜRURU

**- Knyazlar az, kəndlilər çox. Bir kəndli üstündə knyazları cəzalandırmaq olmaz. Kəndli nədir? Budur. Bu? – deyə, - Şakro bir ovuc torpaq göstərdi… - Amma knyaz ulduz kimidir!**

***Maksim Qorkinin***
***«Mənim yol yoldaşım» hekayəsindən***

İndi keçmiş bəyin, ağanın yaxşı keyfiyyətindən söz düşəndə öyünürük. Fəxrlə deyirik ki, balam, kişi bəy olub, başqa cür ola da bilməzdi. Hətta iftixarla şəhadət veririk ki, filan görkəmli ziyalımızı filan bəy oxudub. Ancaq yetmiş illik sovet rejimində bəyin, ağanın yaxşı keyfiyyətini açıq, yüksək kürsüdən nə deyə, nə də yaza bilmişik. Bu gün saralıb solmuş tarixi sənədlər sübut edir ki, çox az bəydə mənfi keyfiyyət olub. «Dəli Kür» romandakı Cahanlar ağa və "Komsomol poeması"ndakı Gəray bəy obrazlarından başqa ədəbiyyatımızla bütün bəy, ağa sürətləri mənfi olub. Bədii əsərlərimizin əksəriyyətində bəy kasıb qızını zorlayıb, tamahkar olub, xalqı istismar edib, xalq malını oğurlayıb. Bir sözlə bəyi insanlıq simasını itirmiş bir naxələf, nadan kimi oxucuya təqdim etmişik. Totalitar sovet dövründə keçmiş bəy ailələri, onların qohumları yetmiş ildən çox gözükölgəli yaşayıblar. Bəzilərini isə yaşamağa da qoymamışlar. Sürgün, güllələnmə, həbslər onların "qisməti" olub.

Otuz beş il əvvəl Marksizm-Leninizm İnstitutunun Azərbaycan filialının arxivində min səkkiz yüz otuz saylı bir sənədə təsadüf etdim. Onu oxudum. Bir müddət özünə gələ bilmədim. Bircə cümləsini köçürənə kimi əlim on dəfə titrədi. Sənəddə yazılırdı: ***«1930-cu ilin yanvar – mart və aprel aylarında anti-sovet Şəki-Zaqatala üsyanının iştirakçılarını, əksinqilabçı ünsür 1642 nəfər qolçomaq və bəy adı ilə həbsə alındı».***

Oxucu yəqin bilir ki, o illərdə keçmiş ağa və bəylərin hamısına qolçomaq kimi kobud bir ayama yapışdırmışdılar. Bu yolla xalqın düşünənini, ziyalısını məhv etdilər. Əslində ulu babalarımız dövründə bəy və ağa titulları həm də ziyalı kimi qəbul olunmuşdu. Xalq yox yerdən demirdi ki, sən lap bəy kimi oturursan, bəy kimi danışırsan, bəy kimi geyinirsən. Bəy və ağa xalq arasında sayılan-seçilən, nümunəvi bir şəxs, nüfuzlu el başçısı olmuşdu.

Otuzuncu illərdə bəy və ağaların bir sinif kimi məhvi, onların başına gətirilən

faciə xalqın, millətin faciəsi və cırlaşdırılması idi. Bu fəlakəti o vaxt da dərk edən və üsyankar səsini qaldıran oğul və qızlarımız olub. Bu üsyankarlar da elə bəylərin dalınca Sibirə, Karaqandaya və Solovetsk adalarına gedər-gəlməzə sürgün olunub, ya da dəniz qırağındakı zirzəmilərdə güllələnib.

Belə faciəli ölüm 1930-cu il martın 3-də altmış üç yaşlı Əşrəf bəy Həsən bəy oğlu Qarxunluya da «qismət» olub.

* * *

Əşrəf bəylə bağlı Baş Siyasi İdarənin arxiv sənədlərilə tanış olanda dahi yunan alimi Sokratın bir müdrikliyi yadıma düşdü.

Filosofun dostu və tələbəsi Hermogen həbsdə olan ustadının ölüm qabağı tamam başqa şeylər fikirləşdiyini görüb təəccüblə soruşur:

- Sokrat, sən öz məhkəmənə hazırlaş.
- Sənə elə gəlmir ki, mən bütün ömrüm boyu ona hazırlaşmışam.
- Nədən ibarətdir sənin hazırlığın?
- O şey ki, məndən asılıdır, onu həmişə qoruyub saxlamışam.
- Hansı yolla?
- Nə şəxsi, nə də ictimai həyatımda heç zaman ədalətsiz iş tutmamışam.

Müsavat dövründə Ərəş mahalının bəylərbəyi olan Əşrəf bəyi 1924-cü ilə qədər heç nədə günahlandıra bilməyiblər. Şura hökuməti çalışıb ki, xaricə müharicətə gedən cümhuriyyət liderlərini təxribatla öldürməkdə, onlar haqqında donoslar toplamaqla Əşrəf bəyin nüfuzundan istifadə etsin. Lakin bunun heç biri alınmamışdır. Görünür bəylik nüfuzuna, qürur və şəxsiyyətinə belə alçaq hərəkətləri sığışdırmayan Əşrəf bəy şəninə ləkə gətirə biləcək bütün təkliflərdən minbir bəhanə ilə imtina edib.

«Şəki banditizm üsyanı»ndan (Sovetlər tarixinə üsyanın Adı belə düşüb – Ş.N.) bir az əvvəl Əşrəf bəyi həbs etdilər: yenə də bütün dindirilmələrdə, sorğu-suallarda «1918-ci ildə türklərlə birləşib dinc erməni əhalisini qırmısınız» - deyiblər. Buna bənzər hadisə, doğrudan da, olmuşdu. Özü də bir dəfə yox, bir neçə dəfə Əskaranda, Göyçay, Müsüslü və Bərgüşad stansiyalarında o, dostu Nuru paşa ilə birgə daşnak dəstələrini darmadağın etmişdi. Əşrəf bəy də dindirilmələrdə bu «günahını» boynuna alır və üstəlik də əlavə edir ki, mən öz torpağımı yağılardan qorumuşam. Bəs bu «günahlarını» bilə-bilə yeni gələn Şura hökuməti onu niyə belə gec – 1929-cu ilin oktyabrında həbs etdi? Səbəbi var. Əsas səbəb budur ki, hökumət orqanları əvvəlcə onun İrana, sonra isə Türkiyəyə getməsinə və beləliklə «əsaslı» ittihamına şərait yaratdılar.

Dindirilmə sənədlərini oxuyanda bütün suallara cavab tapmaq olur. Hər iki

ölkəyə o, şəxsən Baş Siyasi İdarənin rəisi Mircəfər Bağırovun dolayısı sərəncamı ilə göndərilmişdir.

Mircəfər Bağırovun Markaryana, Laptinova, Aqrobaya tapşırığından aydın olur ki, bu ölkələrdən qayıdan Əşrəf bəy onların tapşırığını yerinə yetirməmişdir. Tapşırıq isə aydın idi: Əşrəf bəy Qarxunlu İran və Türkiyədəki müsavat liderlərindən Gepoya donos gətirməli, ya da onlara sui-qəsd etməlidir. Lakin İrandan qayıdan Əşrəf bəy məlumat verir ki, xəstələndim, heç bir fəaliyyət göstərə bilmədim. Türkiyədən qayıdanda isə bəhanə gətirir ki, qorxdum ki, məni tanıyıb öldürərlər.

Gepoçular və şəxsən Bağırov istəyirmiş ki, Əşrəf bəy onlara işləsin, daha doğrusu, casusluq etsin. Lakin Əşrəf bəy Qarxunlunun bəy qüruru, kişi vüqarı, Milli təəssübkeşliyi belə satqınlığı qəbul etmir. Onda gepoçular köhnə sandığı açıb pambığı tökməklə məşğul olurlar. Əlbəttə, onun ən böyük «günahını» - 1918-ci ildə guya dinc erməni əhalisini qırması faktı ilə yanaşı əlavə köməkçi materiallar da toplayırlar. Guya altmış üç yaşlı ağsaqqal Əşrəf bəy Qarxunlu Yevlaxdan qatarla keçən Azneftin kassirini və gözətçisini öldürüb, pulları da mənimsəmişdir. Müsavat dövründə bəylərbəyi vəzifəsindən sui-istifadə edərək rəiyyəti döymüş, onların haqqını vaxtında verməmişdir…

1929-cu il noyabrın 20-də Ağdamdan məxfi şöbənin rəis müavini Markaryan və İdarə rəisinin köməkçisi K.Laptinov Azərbaycan Dövlət Siyasi İdarəsinin Şərq şöbəsinin rəisinə göndərdikləri, tamamilə məxfi və təcili məktubundan açıq-aydın hiss olunur ki, onlar Əşrəf bəyin xalq arasındakı nüfuzundan bərk qorxuya düşüblər. Məktubda yazılır:

«Azərbaycan Dövlət Siyasi İdarəsinin Qarabağ Dairə şöbəsi məlumat verir ki, Şirvan dairəsinin Qarxun kənd sakini Əşrəf bəy Tağıyev Müsavat vaxtı Yevlaxda böyük nüfuza malik idi. O, Müsavat parlamentinin üzvü olmasından istifadə edərək adamlara hədə-qorxu gəlmiş, onlardan pul qoparmışdır.

1920-ci ildə Azərbaycan sovetləşəndən sonra Qarabağ üsyanının iştirakçısı kimi İrana mühacirətə getmiş, oradan 1922-ci ildə qayıdıb açıq-aşkar gəzmişdir. Nəticədə Əşrəf bəy Tağıyev Şura hökuməti əleyhinə təbliğat apardığına görə 1924-cü ildə yenidən həbs edilmişdir.

Əşrəf bəy Tağıyevin əks-inqilabi fəaliyyəti Şirvan dairəsi ərazisində olduğuna görə faktiki məlumatları da ala bilərsiniz».

Həmin il, həmin tarixdə Azərbaycan Baş Siyasi İdarəsinin sədr müavini Aqrobanın və şərq şöbəsinin rəis müavini Borşovun imzası ilə təcili və tamamilə məxfi məktub Şəki-Zaqatala Baş Siyasi İdarənin dairə rəisi Müzəffərovun ünvanına göndərilmişdir:

«Sizin göndərdiyiniz Əşrəf bəy Tağıyev bizim tərəfimizdən həbs olunmuşdur. Sizin şəxsi cavabdehliyinizlə onun haqqında təcili köməkçi materiallar toplamağa başlayın. Bu şərtlə materiallar elə əsaslandırılmalıdır ki, Azərbaycan Baş Siyasi İdarəsi onu respublikadan kənara sürgün edə bilsin. Onun antisovet ünsürlərlə və cinayətkarlarla əlaqələrinə daha çox diqqət yetirmək lazımdır. Çalışın Əşrəf bəyin Şəki-Zaqatala üsyanın başçısı olması təsdiq olunsun.

Bizim tələb etdiyimiz material ən geci üç həftə ərzində çatdırılmalıdır».




**BİRİNCİ İSTİNTAQ**

***İnsanı öz millətinə məhəbbət bəsləmək üstündə günahlandırmaq olmaz.***

***Məhəmməd Peyğəmbər Əleyhisalam,***

***(530-632) – İslamın banisi və siyasi xadim***

Qabaqda gedən əsgər ayaq saxladı. Geri qanrılıb arxadakına şəhadət barmağı ilə qapının üstündə yazılmış 58 rəqəmini göstərdi. Dayanıb nəzarətçini gözlədilər. Yaxındakı kameradan deyinə-deyinə çıxan sərt sifətli, caydaq

nəzarətçi topa açarları cingiltilədib arasından asanlıqla birini tapıb qapıya saldı. Tükürpərdici səslə cırıldayan dəmir qapını geri itələdi. Əşrəf bəyin qabağındakı bolşevik əsgəri bir addım sağa çəkilib kinayə ilə rusca dedi:

- Bəy, buyur sarayına…

Nəzarətçi iri sümüklü əllərini açdı:

- Elə bu? Mən də elə bildim, üç nəfər olacaq, - dedi.

Dilli-dilavər əsgər onu cavabsız qoymadı:

- Bu sənin üçün adi «quşcuğaz» deyil, ha… Bu, bir orduya bərabər Əşrəf bəy Qarxunludur. İndi Şəki üsyanının qarşısı alınacaq…

Nəm qoxuyan kamerada üç dəmir stul vardı. Əşrəf bəyə elə gəldi ki, onlar divara söykədilib. Əl atıb birini divardan aralayıb oturmaq istədi. Buz kimi armatur stul əlini ağrıtdı, divara elə bərkidilmişdi ki, tərpətmək mümkün deyildi. Qapının arxasında əsgər nəzarətçiyə nəsə deyirdi. Nəfəsliyə qəfil vurulan yumruq onu səksəndirdi. Nəzarətçi ətli sifətini deşiyə soxub kobud səslə:

- Bəy, təcili nə sözün olsa üç dəfə qapını taqqıldadarsan, qulluğunda hazır olarıq. Çalışarıq darıxmayasan, - deyib, nəfəsliyi bağladı.

Ayaq səsləri uzaqlaşıb eşidilməz oldu. Səs-səmir tamam kəsildi. «Qu» desən qulaq tutulardı. Kameranın tar qranlığında Əşrəf bəy əllərini hövkələdi. Divarların nəmi onu təpədən dırnağa kimi üşütdü. Yalxı köynəkdə kürəyi soyuqdan göynəyirdi. Dərindən nəfəs alıb oturdu, armatur stul buz kimi idi. İndi hiss elədi ki, ağır havadan nəmdən çox miz iyi gəlir. Könül bulandıran pis qoxudan onu öyümək tutdu. Sağ əlilə sinəsini hövkələdi. Alatoranda qarşıdakı divarı zorla görə bilirdi.

O, bəxtinin gətirəcəyinə həmişə inanmışdı. İlk gəncliyindən bütün işləri uğurlu olmuşdu. Xüsusilə, bolşeviklər gələnə qədər uğursuzluq nə olduğunu bilməmişdi. Qırmızılar onu beş ildə iki dəfə həbs edib, bir dəlil-sübut olmadığına görə buraxmışdılar. Özü demişkən, Şura vaxtı tale iki dəfə üzünə gülmüşdü.

Bu da üçüncüsü… Bayaqkı dindirilmələrdən hiss edirdi ki, bu xına daha o xınadan deyil. İndi nədən qaçsa da, «qolçomaq» adından qaça bilməyəcəkdi. Keçmiş bəylərin, ağaların hamısı həbsxanalarda və Sibirdədir. «Şura hökuməti var – dövlətimizi aldı bəs olmadı, indi də canımızı alır» - deyə, düşündü.

Uzanıb dincəlməyin həsrətində idi. Dünəndən başlayan sorğu suallarda ayaq üstə durmaq və əyləşmək onu əldən salmışdı. Beli ağrıyırdı, canında qocalara xas küt sızıltı və üzüçü ağrılar vardı. Əllərini dizinə qoydu, başını aşağı salıb fikrə getdi. Bağırovun müavini Aqrobanın gözünü bic-bic qıyıb verdiyi ikibaşlı sorğu-sualını unuda bilmirdi…

Baş Siyasi İdarənin sədr müavini Aqroba:

- Haqq-hesaba çəksək bu üçüncü dəfədir, Əşrəf bəy, - dedi. – Kişi kimi bizim yolun yolçusu olmaq istəmirsən ki?..

Nə olar. Ət yeyən quş dimdiyindən bəllidir. Axır ki, sənin də ideyan əməllərində özünü birüzə verdi. O birilərini keçdik, fikirləşdi ki, bəlkə kollektivləşmədə bizə kömək elədin. Sən isə əksinə, bütün Şəki-Şirvanı bir şüarla ayağa qaldırdın: «kim kolxoza yazılsa, deməli, Azərbaycanın düşmənidir». Bu da bəs eləmədi. Quldur və banditləri yığıb Şura hakimiyyətinə qarşı açıq çıxışlara və Şəkidə silahlı üsyana hazırladın.

Əşrəf bəy:

- Sizin xəbəriniz varmı şuraların vəzifəli adamları yerlərdə camaatı necə incidirlər? Qapı-qapı düşüb deyirlər ki, kolxozda arvadlar ictimailəşdiriləcək. Kolxozçuların hamısı altmış metrlik yorğan altında yatacaq…

Aqroba:

- Bəs sən nə bilirdin, bəy? Ağzında kollektivləşmə deyirsən. Getdi o günlər ki, tək yeyib, tək də gəzirdin. Bu sənin üçün oyuncaq Müsavat hökuməti deyil. Bu hökumətdə, bu quruluşda hamı bir qabdan yeyəcək, bir yorğan-döşəkdə də yatacaq.

Əşrəf bəy:

- Sizin yuxarı dairədə, yəni hökumət işçilərində də belə olacaq?

Aqroba:

- Qanun aliliyi, icrası yuxarıdan yox, həmişə aşağıdan başlayır. Əvvəl o qara camaatın üstündə tətbiq olunur. Nəticəsi yaxşı olarsa rəhbər yoldaşlar da öz ailəsində onu həyata keçirirlər. Sən axı bunları bilməlisən. Nikolay vaxtı, müsavatda da bəylərbəyi olmusan.

Əşrəf bəy:

- Düzü, mən yaxşı başa düşürəm ki, ixtiyarım da yoxdu ki, sizə sual verməyə. Məhkəmə dililə desək müttəhim mənəm bu saat. İcazənizlə yoldaş Aqroba, bir məsələni də soruşmaq istərdim.

Aqroba:

- Buyur, Əşrəf bəy, bilirsən ki, kimə görə səninlə belə yumşaq davranırıq (O, başının üstündə divara vurulmuş iki portretdən birini göstərdi – Dzerjinski yox, Mircəfər Bağırovu).

Əşrəf bəy:

- Bəs din xadimlərinin, molla və axundalırın günahı nədi, hamısını ucdantutma sürgün edirlər. Kimin evindən ərəb, fars əlifbasında kitab çıxırsa yandırırlar.

Allahsız, axundsuz da ölkə olar? Yaxşı, var-dövlət dediniz hamısını hökumətə könüllü verdik. İndi bəyləri, ağaları qolçomaq ləkəsilə dəstə-dəstə Solovetsk adalarına, Sibirə niyə göndərirsiniz? Axı, bu günahdı – ağzı quranlı Adamı dörd divar arxasında çürütmək.

Baş Şabalıq kəndinin ən nüfuzlu Şeyxzadə nəslinin din xadimləri Molla Sadəddin və Molla Məhəmməd nə vaxtdandı Şəki türməsində niyə çürüyürlər? Soruşmaq olarmı?

Aqroba:

- Ona görə ki, o din xadimləri də Sovet hökumətinin düşmənidirlər. Bunu Stalin yoldaş əmr edib. Sənin və qolçomaq dostlarının başqa cür düşünməyə haqqı yoxdur. Stalin yoldaş deyib ki, düşmənlərin, yəni bəylərin və din xadimlərinin hamısı ucdantutma məhv edilməli, ortabablar isə Sibirə sürgün olunmalıdır. Məsələn, sənin kimi nüfuzlu Adamı ən azı belə cəza gözləyir.

1922-ci ildə və 1924-cü illərdə səni göndərsəydik, bu gün belə fikirləşməzdin. Amma yoldaş Bağırov vaxtilə kəsdiyi duz-çörəyə görə sənə etibar edirdi. Daha doğrusu qıymırdı. Sən isə neylədin? Şura hökuməti sənə tərəf getdikcə, sən də ondan qaçdın. İndi bizdə məlumat var ki, təkcə «Şəki banditizm üsyanı» yox, sənin həm də Şəmkirdəki Bitdili antisovet fitnəkarlıq pirində də fəaliyyətin var.

Əşrəf bəy:

- Doqquz ildən çoxdu Şəkidə yaşayıram. Həyat yoldaşım Maral xanım da oralıdır. Amma 1917-ci ildən sonra bir dəfə də Şəmkirə yolum düşməyib. Sizə yalan məlumat veriblər.

Aqroba:

- Sənin şəxsən orada olmamağına inanıram. Amma qolçomaq ideyanız ki, gedib çıxıb, Şəmkirə, Bidtiliyə… Mən çox yaxşı bilirəm ki, sənin başındakı ideya, əlindəki silahdan güclüdür. Mən onu da bilirəm ki, havayı yerdən on səkkizinci ildə səni Azərbaycan parlamentinə üzv seçməyiblər. Azərbaycanda yüzlərlə bəy, ağa vardı, amma türk generalı Nuru paşa kimin qonağı oldu? Ərəş mahalının bəylərbəyisi Əşrəf bəy Qarxunlunun. Nə isə… Əşrəf bəy onu da bil ki, ellər atası Stalin yoldaş deyib ki, sosializm ellikcə olmalıdır. Olacaq da. Sosializm SSRİ-də bütün cəbhə boyu hücuma keçməlidir. Keçir də…

Əşrəf bəy:

- Baxır necə hücumdur. Ev quşlarına, qab-qaçağa və yataq ləvazimatına vergi qoyulur. Qapısında üç qoyunu, iki inəyi olanlar qolçomaq adlanıb səsdən və seçki hüququndan məhrum olunur. Antisovet ünsür ləkəsilə işsiz-gücsüz qalır. Günlərlə tarlada işləyən rəiyyət ilin sonuna kimi ac-yalavacdır, kor qəpik də ala

bilmir. Bütün cəbhə boyu hücuma keçən sosializm xalqın qarşısında ədalətsiz tələblər qoymur ki??.

Aqroba:

- Narahat olma, Əşrəf bəy, sənin kimi qolçomaq ünsürlərinin axırına çıxandan sonra hər şeyi düzəldəcəyik. Onda biz nəinki sosializmdə, hətta kommunizmdə də yaşayacağıq. Yaxşı yadıma düşdü. Bayaq deyirdiniz ki, 1917-ci ildən sonra Şəmkirdə olmamışam. Xeyir ola, o vaxt Şəmkirə getməkdə?

- Əşrəf bəy:

- Mənim bircə qız balam Ceyhun xanım şəmkirli Ağalar bəy Zülfüqarovun həyat yoldaşıdı. Tiflisdən qayıdanda onlara qonaq düşdük.

Aqroba:

- Görürsən, burada da yalan deyirsən. Sən o vaxt Ərəş mahalından süvari dəstə yığıb Şəmkirə getmisən. Türk cəbhəsindən qayıdan bolşevik əhval-ruhiyyəli rus əsgərlərini Dəllər stansiyası ilə Şəmkir arasında tərk-silah etmisiniz. Nə az, nə çox iki mindən artıq bolşevik rus əsgər və zabitini qırmısınız. Dostların Xəlil bəy Xasməmmədov, Aslan bəy Səfikurdski, Adil xan Ziyadxanov və başqaları ilə. Yalandı, doğru? Hə, indi xatırladım. Bu hadisə 1917-ci ildə yox, 1918-ci ilin yanvarında olub.

Əşrəf bəy:

- O vaxt bizim bircə məqsədimiz vardı: Azərbaycanı istilaçılardan xilas edib, təmizləmək! Vəssalam!

Aqroba:

- Kim idi sənin dediyin istilaçılar?

Əşrəf bəy:

- Erməni-daşnak qoşunları, sentrokaspi oyuncaq hökuməti, esserlər, bolşeviklər və nə bilim daha kimlər… Amma elə olmadı. Biz bu saydıqlarımızdan xilas olduq. 1920-ci ilin aprelində isə bir damla suda batdıq. O da çoxusu öz günahımızdan oldu.

Aqroba:

- O günah hansıdı, Əşrəf bəy?

Əşrəf bəy:

- Günah oldu ki, bizim bəzi nadanlar, qoy elə satqın da deyim, Dərbəndə və Vladiqafqaza gedib kiminsə qabağına düşdülər.

Aqroba:

- Yəni bolşevikləri Azərbaycana gətirdilər eləmi?

Əşrəf bəy:

- Bəli, bu bir tarixi həqiqətdir.

Aqroba:

- Demək hələ iyirminci ildə sən bolşeviklərin gəlməsindən narazı qalmısan, yəni istəməmisən ki, onlar Azərbaycana gəlsinlər.

Əşrəf bəy:

- Söhbət tək mənim istəyimcə deyildi. Xalq, millət onların gəlişini istəmirdi. Yaxşı, bolşeviklər gəldi. Xalqı, daha doğrusu ziyalıları, başbilənləri niyə qırır, ordumuzu niyə məhv etdi? Mülklərimizi niyə dağıtdı? Bağlarımızda bar ağacını kəsirlər ki, bəy əkib, onun barı, bəhəri lazım deyil. Acığınız gəlməsin, inciməyin bu nə məntiqə sığır, nə də allah bunu qəbul etməz. Camaatın məscidlərə hədiyyə elədiyi minlərlə xalı-xalça müsadirə edilir. onları kimlərsə yığışdırıb öz malı eləyir. Allahın müqəddəs evi, xalqın inam yeri məscidlər bağlanır. İstanbulda, Bağdadda, Qahirədə təhsil alan üləmalar, oruc tutanlar, namaz qılanlar «Sovet hakimiyyətin düşməni» kimi həbs edilir. Bunların hamısı xalq arasında güclü narazılıq yaradır. Xalqın partiyaya, Şura hökumətinə inamını öldürür. Ona görə də nə rəiyyət, nə də kəndli kolxoza girmək istəmir.

Aqroba:

- Yaxşı, sən şəxsən kolxozu, kollektivləşməni niyə istəmirsən?

Əşrəf bəy:

- Unutmuşam, deyəsən haradasa oxumuşam, yoxsa eşitmişəm. Deyir vay o gündən ki, çəkməçi şəkərçörəyi bişirə, şəkərçörəyi bişirən də çəkmə tikə. Sözümün canı budur ki, kolxozlara təyin etdiyiniz rəhbərlərin əksəriyyəti çəkmətikəndi. Gözünü yumub qılıncını hərləyir, babam mənə kor deyib, gələnə-gedənə vur deyib, misalı ilə işləyirlər. Nə söz qanırmaq olur, nə də ağsaqqalı eşidirlər. Elə durub-oturub deyir: «Stalin yoldaş belə əmr edib, kitabında belə yazıb». «Axı, bu kolxoz başçısının heç oxumaq, yazmaq qabiliyyəti yoxdu, qolunu da çəkə bilmir. Sual olunur harada, necə oxudu o Stalin yoldaşın məqaləsini, ya da kitabını. Bax, budu, yoldaş Aqroba, bəlanın böyüyü. Belə olan vaxt siz istərdinizmi?

Bizim Şirvanda deyirlər ki, bağ var tumana salarlar, bağ da var meyvəsini yeyərlər. Bu mənada sizin bolşevik bağına nə tuman salmaq olur, nə də meyvəsi yeyilir.

Aqroba:

- Burda, yerli təşkilatlardan bizə göndərilən bəzi sənədlərdə göstərilir ki, sən bəylər bəyi olanda rəiyyəti döymüsən, incitmisən. Olub elə bir şey?

Əşrəf bəy:

- İcazənizlə, sizə qısaca bir əhvalat danışım: Söyüd kölgəsində qəlyanını tüstülədən müdrik bir Hacı at üstündə yoldan ötən çobanın salamını aldıqdan sonra:

- Oğlum, atını bir əylə görüm, - dedi.

Çoban:

- Buyur, Hacı əmi! – dedi, eşidirəm.

- Oğlum, deynən Hacı əmi, əgər mən erkəyi yemişəmsə, bu söyüd məscid olub, mənə qənim olsun!

Hazırcavab çoban:

- And içmərəm, Hacı əmi.

Hacı xoş təbəssümlə:

- Get oğlum, dedi, halal xoşun olsun.

İndi açıq deməliyəm, siz deyən söymək, döymək olub. Ancaq kimi? Əsgərlikdən qaçanı, oğurluq eləyəni, müxənnətlik edib başqasının arvadına sataşanları, yəqin ki, döymüşəm də, söymüşəm də. Bəylərbəyi olanda, heç kəsə qul, ya da riayət gözü ilə baxmamışam. Hirslənəndə balalarım gözümün önündə durub. Fikirləşmişəm ki, nə pislik eləsəm, o da övladımın qabağına çıxar.

Aqroba:

- Yaxşı, 1918-ci ilin yayında türklər Azərbaycana gələndə, sən Ərəş alayı təşkil edib general Nuru Paşaya qoşulmusan və «dinc erməni» əhalisini qırmısınız. Bu doğrudurmu?

Əşrəf bəy:

- Bəli, mən daşnak qurğusuna düşmüşləri zərərləşdirməyə bilməzdim.

Aqroba:

- Niyə?

Əşrəf bəy:

- Sizdən soruşuram, əgər Volqaboyunda yaşayan almanlar silahlanıb Rusiyadakı rusları qırarlarsa, siz ruslar onda neylərdiniz?

Aqroba:

- Şübhəsiz ki, almanlara qarşı vuruşar və onları Rusiyadan qovub çıxarardıq.

Əşrəf bəy:

- Mən də 1918-ci ildə türk-azərbaycanlı kimi torpağımıza sahib çıxmaq istəyən daşnak ermənilərə qarşı vuruşmuşam. Əgər Göyçayda, İsmayıllıda və Qarabağda yaşayan ermənilər xalqıma silah qaldırırsa, əlimi əlimin üstünə qoyub oturmayacaqdım ki?..

Onlar – daşnaklar bizə öz içimizdən, daha doğrusu arxadan zərbə vurdular.

Biz də geriyə dönüb, onlarla üzbəüz vuruşduq. Unutmaq lazım deyil ki, ölkəmizdə erməni-müsəlman davası gedirdi. Əgər Azərbaycanda müharibə gedirsə, onun oğlu nə etməlidir? Vuruşmalıdır, vəssalam! Mən də vuruşmuşam…

Aqroba qabağa əyilib özünü Əşrəf bəyə canıyanan adam kimi göstərdi. Açıq bildirmək istəyirdi ki, sən Mircəfərlə vaxtılə çörək kəsdiyinə görə bunların hələlik üstünü çox vurmuruq. Yoxsa dəyənəklə boynuna qoyardıq.

Sonra kresloya yayxanıb yorğun-yorğun əsnədi:

- Gəl, söhbəti uzatmayaq, yoxsa çox sirlər çözələnib açılar. – Mühafizəçi, apar bu kişini, - deyib əlilə qapını göstərdi.

## HƏBSXANA, İKİNCİ İSTİNTAQ

***Möhnətindən daim halım pərişandır, fələk!***
***Dəmbədəm aləm ləbindən içdiyim qandır, fələk!***
***Bu nə sevdadır edirsən, ona kim razı olub?***
***Verdiyin dərdü-bəladır, aldığın candır, fələk!***

***Kazımağa Salik Şıxlinski***
***(1781-1842)***

Əşrəf bəy bütün gecəni oturduğu yerdə mürgülədi. Bu dar kamerada başqa cür mümkün də deyildi. Nəm divarlar ilk anlarda onun canına bərk titrətmə saldı. Bir saatdan çox özünə gələ bilmədi. Özünə toxtaqlıq verdi. Ayağa durdu, başı hərləndi. suyu daman divarları, qarşısındakı iki armatur stulu, hətta, tez-tez deşiklərdən çıxan siçovulları bom-boz duman içində görürdü. Onlar bir tindən o birinə qaçır, yaxınlaşıb ayağına sürtünür, tərpəniş hiss edən kimi qaçıb yenidən deşiklərə doluşur, tükürpərdici səslə təzədən civildəşirdilər. Əşrəf bəy onlara baxa-baxa düşünürdü: «Hələ diriykən adamın ayağına dolaşıb, qıçlarına dırmaşan bu siçovullar qorxmurlar. İnsanı ölmüş görsələr yəqin ki, kef edərlər. Dünyanın işi belədi: hər bir canlı yemək, tox olmaq istəyir. Guya ki, biz insanlar belə deyilik. Dilsiz-ağızsız qoyunun gözü qabağında quzusunu kəsib yeyirik, bir axşam tox olmaq naminə. Görəsən onda bu düşüncəsiz vəhşiləri niyə qınayırıq?».

Əlini üzünə, boyunun ardına çəkdi. Hər yeri qaşınırdı. Havasızlıqdan, üşərgələndiyi siçovullardan canına vic-vicə düşmüşdü.

İri ala gözlərini geniş açıb əlini qapı tərəfdən sızan dumana bürünmüş nazik işıq selinə tutdu. Heç nə görə bilmədi. Dümağ uzun bığlarını tumarlayıb qaşlarını çatdı. Dişlərini qıcayıb ovcunun içiylə uzanmış, sıx saqqalını övkələdi. Evini, ailəsini fikrindən çıxara bilmirdi: Məmmədəli görəsən Türkmənistandan qayıtdımı? Çox güman ki, onu da həbs ediblər. Evi yəqin ki, axtardılar. Azneftin kassirini və onun mühafizəçisini öldürüb, pulları qarət eləmişəmsə, əlbəttə evimi axtararlar. Heç soruşmadım kassir arvad olub, ya kişi. Görəsən bunu kim uydurub çıxartdı? Yəqin ki, Müzəffərovun (Şəkidəki xüsusi şöbənin rəisi – Ş.N.) quramasıdır. O neyləsin ki, yuxarıdan əmr var, əsaslandırmalıdır yoxsa yox? Güllələsələr də, assalar da, bu iyrənc iftiranı boynuma almaram. Şura hökumətinin mənə elədiyi zülmlər bəs deyilmiş kimi, indi də üstümə şər atırlar ki, oğurluq eləmişəm. Bir o qalmışdı altmış üç yaşında Əşrəf bəy oğurluq, quldurluq da eləsin. Bu gülünc böhtanla gora ayaq basmaram…

Uzaqdan kobud tappıltı səsi eşidildi. Başını qapı tərəfdəki divara söykəyib dinlədi. Addım səsləri getdikcə yaxınlaşırdı. Düz qapı bərabəri dayandılar. «Yəqin yeni dustaq gətirirlər» - deyə fikirləşdi. Nəzarətçi dəhrə boyda açarı qapıya salıb güclü qolları ilə onu özünə tərəf çəkdi. Dəhlizdən düşən işıq Əşrəf bəyin gözünü qamaşdırdı. Əlini qaşının üstünə qoyub, yerə baxdı.

- Hə, necəsən Ərəş bülbülü? – deyə, nəzarətçi yalançı canıyananlıqla soruşdu. – Dünəndən başımız elə qarışıb ki, səni də unutmuşuq. Günah sənin qolçomaq həmsiniflərindədir. Ay maşallah, bu Azərbaycanda nə qədər qolçomaq, ağa və bəy varmış… Biz yığdıqca elə hey artır, elə bil analar hər gecə bir qolçomaq doğur. Nə isə… Bu cavan oğlan səninlə məşğul olacaq. Əşrəf bəy, sənin taleyin bu stul oğlanın əlindədir. Bax, ha, ona hər şeyi olduğu kimi doğru danışmaq lazımdır.

Əşrəf bəy mütənasib qamətini dikəldib şax dayandı. İri mavi gözlərini nəzarətçiyə dikib:

- Narahat olmayın, - dedi, - hələ mənim nəsli-nəcabətimdə yalan danışan olmayıb.

Müstəntiq gülümsünüb:

- Hər halda ağsaqqalla söhbət eləməyə dil taparıq, - deyib, əlindəki qaytansız qovluğu açdı. – Tağıyev Əşrəf bəysiniz eləmi?

Nəzarətçi Əşrəf bəyi qabaqladı:

- Bəli, bəli, - dedi, - buyurun, qol çəkib məhbusu təhvil alın. Şahidlər də nə vaxt desəniz hazır olacaq.

Uzun dəhliz boyu iki silahlı əsgərin və müstəntiqini müşayətilə onu apardılar.

Yarı yolda müstəntiq ayrılıb harasa getdi. Dəhliz yavaş-yavaş işıqlaşırdı. Burada ara-sıra gedib-gələn də görünürdü. Üçüncü kəsişmənin tinində, yuxarı mərtəbəyə qalxan pilləkənin yanında cavan bir Adam papiros çəkə-çəkə üzü bəri baxırdı. Gözünü Əşrəf bəydən çəkməyən qaraşın oğlan yekəxanalıqla çiynini divara söykəmişdi. O, təkəbbürlə:

- Salam, Əşrəp bəy, - dedi.

Əşrəf bəy ayaq saxlayıb diqqətlə ona baxdı, amma tanıya bilmədi. Əsgərlər oğlana heç nə demədilər. Onlardan biri Əşrəf bəyin kürəyinə astadan toxunub:

- Olmaz dayanmaq, marş! – dedi.

Oğlan arxadan uca səslə:

- Mən Vanoyam, - dedi, - Qarabağlı Mıkırtıçın oğlu Vanoyam, görüşəcəyik…

Əşrəf bəy öz-özünə:

- Tanıdım, - fikirləşdi. – Atan da bir köpək oğlu deyildi. Qarabağda yaxşı adam qalmadı, hamısını keçi qiymətinə satdı. Qaçaqlar yaxşı gəbərtdilər, görbagörü. Bu niyə dayanıb məni gözləyirdi, çox maraqlıdır. Özünü mənə göstərir ki, belə nüfuzlu yerdə işləyirəm.

Əşrəf bəy çiynini qaşımaq bəhanəsilə dönüb geriyə baxdı. Vano görünmürdü.

Onu dəmir qapısına kobud hərflərlə, rus dilində «Yeməkxana» yazılmış otağa gətirdilər. Uzun burun, yorğa yerişli arvad taytaya-taytaya stollardan qabları yığışdırırdı. Əsgərləri görən kimi yaltaq-yaltaq salam verib onlara başdakı stolu göstərdi.

- Tıy izdes, i tıy izdes sadis, - dedi.

Əsgərlər gülümsünüb:

- Siz narahat olmayın, - deyib, qapının yanındakı tənha stola yaxınlaşdılar.

- Mı zdes, a on tam – yəni orda tək dustaq Əşrəf bəy oturacaq, deyib əyləşdilər.

İfritəyə oxşayan mırıx qadının gətirdiyi bir cam sulu xörək və iki nazik dilim çörək qap-qara idi. Yuyulmamış ağac qaşığı Əşrəf bəy ətəyilə silib bir neçə dəfə xörəyin içində gəzdirdi. Tikə-tikə nazik kələm və bir-iki yerkökü qırığından başqa heç nə yox idi. Daxılın dalından ona diqqət kəsilən qadın:

- Qorxma, quşat elə, man ozu bişirdi. Vah, - deyib, baş barmağını dikəltdi.

Əşrəf bəy başını qaldırıb, əlini üzünə dayayan qadına ötəri baxdı. Onun əlinin üstündəki eybəcər tüklər Əşrəf bəyi iyrəndirdi. Kameradakı siçovulların bığı, gözünün önündə durdu. İki gündən çox idi sudan başqa dilinə heç nə dəymirdi. Canını dişinə tutub əlini çörəyə uzatdı. İstədi doğramac eləsin. Nəm çörək barmaqlarına yapışdı. Dişləyib şorbadan dalbadal yeməyə başladı: «Bu ifritə də

ermənidi, qırılmışın arvadı, kişisi evində ölmür, bu orqanlara daraşıblar».

Yan otaqdan bərk bağırtı səsi gəldi. Döyülən dustaq yalvara-yalvara elə qışqırırdı ki, sanki ətini kəsirdilər. O, var səsilə bağıraraq deyirdi:

- Yox, yox, and olun ata-babamın ərvahına, o getdikləri müqəddəs Həccə mən onu həmin günü nə görmüşəm, nə də elə söz demişəm. Nə olsun ki, şəkiliyəm, otuz ildi Ağdaşda yaşayıram.

- Demisən əclaf, budur, öz əmin oğludur. Sən də onun üzünə dur, bəlkə bu da kolxozu dağıdır, keçmiş müsavatçıdır… Hə, nə fikirləşirsən?

Qaşıq da, rütubətli qara çörək də Əşrəf bəyin əlində qalmışdı. Elə bil boğazı quruyub, nitqi tutuldu. Daha bir tikə də yeyə bilmədi. O biri otaqda isə şallaq, təpik səsləri bir-birinə qarışmışdı.

- Xayamı sıxma, ondan əl çək, öldüm, ay dinsiz oğlu dinsiz…

- Onda bura qol çək…

Tappıltı ilə döşəməyə nəsə dəydi. Elə bil meşədə nəhəng bir ağac kəsildi. Bayaq «qol çək» deyən səs bağırdı:

- Üstünə su töküb, qaldırın, qələt eləyir, bicin biridir. – Manya, - deyə, daha bərkdən bağırdı. – Bir vedrə su… bu tülkünü oyadaq…

- Hazırdı, gəldim, - deyib tosqun Manya yanındakı dolu vedrəni götürdü. Putluq əndamını titrədə-titrədə, balağına dağılan suyu vecinə almadan yan otağa keçdi. Qayıdıb yerinə oturdu, gözünü qırpmadan başıaşağı dayanan Əşrəf bəyə tamaşa etdi.

Əsgərlərdən biri irişə-irişə soruşdu:

- Çto smotriş, nravitsa starik tebe?

Manya ayağı sürüşkən qadınlar sayağı-yaşına yaraşmayan naz-qəmzə ilə:

- Da, xoroş starik, belıy-belıy, çistıy starik, - deyib, şorgözlüklə çiyinlərini qısıb, əllərini hövkəldi. Bic-bic gülüb, əndamını yırğaladı.

Əsgər tüfəngin lüləsilə stolu taqqıldadı. Əşrəf bəy ona tərəf baxanda, əlilə işarə elədi ki, ye, çıxaq gedək.

Manya gödək boynunu irəli uzadıb:

San obraşat elama, - dedi, - qoca, quşat elə, gunda bela, burda gunda bela… ola…

Əşrəf bəy «yedim» deyib ayağa durdu.

* * *

Əşrəf bəyi gətirən əsgərlərdən biri ehtiyatla qapını açdı. Müstəntiq əlilə «gətirin» işarəsi verdi. Əşrəf bəy içəri keçdi. Çox da böyük olmayan masanın sağ və solunda iki stul qoyulmuşdu. O, göstərilən yerdə əyləşdi. Dikəlib stulu bir az

qabağa çəkmək istədi. Ciddi görkəm almış müstəntiq:

- Zəhmət çəkməyin, - dedi, - mıxlanıbdır.

Sonra şax-şax kağızda çap olunmuş anketi götürüb, əvvəlcə 22 oktyabr 1929-cu il tarixini qoydu. Nömrə işarəsinin qabağında əlli səkkiz rəqəmini yazdı. Onunla yanakı ağ yerdə isə «qırx doqquz saylı kamera» yazıb üzünü Əşrəf bəyə tutdu:

- Hə, ağsaqqal, tanışlığımız var, - dedi, - görüşmüşük. Bir daha xatırladıram ki, mən Baş Siyasi İdarənin Şərq şöbəsinin xüsusi işlər üzrə müvəkkiliyəm. Yəqin, sizə məlumdur ki, dindirilmə vaxtı yalan məlumat verən məhbus və ya saxlanılan şəxs qanunla ciddi cəzalandırılır.

- Bəli, məlumdur. – Əşrəf bəy bikef cavab verdi.

Yeməkxanadakı bağırtı, yalvarış sədaları hələ də beynində, başında uğuldayırdı. O, yaxşı başa düşürdü ki, Bağırova görə ona hörmət edib əl qaldırmırlar. «Yeməkxanadakı teatrı da mənə görə qurmuşdular. Demək istəyirlər ki, bizim dediyimizi eləməsən aqibətin bundan pis olar. Xeyri yoxdu. Öldürsələr də özümə qara yaxan deyiləm».

- İndi keçək əsas məsələyə: adınız, soyadınız və doğulduğunuz yer məlumdur. Danışın, Sizi dinləyirəm.

Əşrəf bəy başını qaldırmadan, stolun üstündə şəhadət barmağını gəzdirə-gəzdirə dedi:

- Mənim əhvalatım çox uzundur, altmış üç ildə başıma o qədər qəzavü-nədər gəlib ki, hansı birini danışım?

- Başlayaq ailə vəziyyətindən.

- Həyat yoldaşım Maral xanımdır, qırx yaşı var, evdar qadındır. Bir oğlum Məhəmmədəli on yeddi yaşındadır, kənar yerdə işləmir.

- Niyə?

- Ehtiyac olmayıb.

- Necə yəni ehtiyac olmayıb?

- Mənim var-dövlətim vardı, onları idarə edirdi. Birinci arvadımdan isə Knyaz adlı otuz beş yaşlı oğlum var. O da kənar yerdə işləməyib, təsərrüfatla məşğul olub. Milliyyətimi də ki, bilirsiniz, türkəm.

- 1919-cu ildə harada, nə iş görübsünüz?

- Həmin ili Ərəş mahalının bəylərbəyisi olmuşam. Azərbaycan Demokratik Cümhuriyyətində parlament üzvü və «Əhrar» kəndli partiyasının təşkilatçılarından biri idim. 1920-ci ildə isə Türkiyənin Konstantinopol şəhərinə getmişəm. 1923-cü ildə oradan qayıtmışam. Azərbaycan Fövqəladə Komissiyası

bir neçə gün həbsdə saxlayıb, ömrüm boyu məhkum olunmamışam. Hazırda heç bir partiyanın üzvü deyiləm. Ağdaşda və Şəkidə yaşayıram. Doğma kəndim Yuxarı Qarxunda da mülküm var. Onu Şura hökuməti alıb.

- Əşrəf bəy, sizi Azneftin kassirini və mühafizəçisini öldürməkdə və pulu oğurlamaqda da günahlandırırlar. Bunun üçün də cinayət işi açılıb.

- Əvvəla, mən quldur deyiləm. İkincisi də, altmış üç yaşında ağsaqqal sizcə, belə bir işin öhdəsindən gələ bilərdimi? Əlbəttə, yox. Sizə bəri başdan deyim ki, mənə aid edilən bu iftiranı tamamilə inkar edirəm. Şəxsən mən belə bir cinayəti eləməmişəm, nə də belə məsələ haqqında eşitməmişəm. Dünən yoldaş Aqroba da bu barədə mənimlə sorğu-sual apardı. Düzü, o qədər əsəbi idim ki, unutdum, soruşam, kassir arvad idi, yoxsa kişi…

- Sizin üçün maraqlıdırsa, deyim, kişi imişlər. Onlar Tiflisdən qayıdırmışlar. Tiflis-Bakı qatarında onları Yevlaxda öldürüb, pulları da aparıblar.

- Onların dediyi vaxtda, sentyabrın 25-də mən Yevlaxda yox, Şəkidə olmuşam, xəstə yatırdım. Ədilxan İlisuyskinin evində müalicə olunurdum. Şəkidəki xüsusi şöbənin rəisi Müzəffərov təcili məni yanıma çağırdı. O, məndən Şəki və Ərəşdəki antisovet ünsürlər barədə məlumat istədi. Mən heç bir cinayətkar və antisovet ünsür tanımadığımı ona bildirdim. Oktyabrın beşində Ağdaşdakı evimə gəldim. İki gündən sonra – ayın yeddisində Müzəffərov məni yenidən çağırdı və bildirdi ki, həbs olunub Bakıya göndərilirəm.

Müstəntiq iki-üç cümlə də yazıb, diqqətlə Əşrəf bəyin üzünə baxdı.

- Bu dediklərinin hamısını yazdım. Oxumaq və qol çəkmək lazımdır.

Əşrəf bəy arxayınçılıqla:

- Ehtiyac yoxdur, - dedi, - oğul, mən sizə inanıram. Verin, qol çəkim. Onsuz da hiss edirəm ki, bu dəfə torba çox iri tikilib. Mən nə desəm də, neyləsəm də oradan çıxa bilməyəcəm. Görünür, qismət belə imiş…

- Onda axırıncı cümləni oxuyum, tanış olun və altından qol çəkin. «Azneftin kassirinin, onun mühafizəçisinin öldürülməsi və pulların qarət olunması cinayətindən qətiyyən xəbərim yoxdur. Mən belə cinayəti eləməmişəm. Bu barədə daha heç nə deyə bilmərəm. Mənim dediklərim burada sözbəsöz yazıldığına görə qol çəkirəm».

- Buyurun, - deyib, anketi Əşrəf bəyə verdi. O isə qol çəkmək əvəzinə rus dilində: «Əşrəf Tağıyev» yazdı.

- Bəs niyə «bəy» sözünü yazmadınız? – müstəntiq ona diqqətlə baxıb, səmimiyyətlə soruşdu.

Əşrəf bəy insanın varlığının titrədən hüzünlü bir səslə cavab verdi:

- Qoydunuz ki… Bəylik də, kişilik də getdi, bir də qayıtmaz.

Əşrəf beyin kədərli danışığı gənc müstəntiqə ağır təsir etmişdi. O, matı-mutu qurumuş halda müsahibinə baxdı. Dərindən köks ötürüb elə bil yuxudan ayıldı. Stolun üstündəki kağız və sənədləri qovluğa yığışdırıb, üzünü qapıya tutub:

-Konvoy, - deyə çağırdı.

Hər iki əsgər eyni vaxtda qapıda göründü. Əşrəf bəy ayağa durub onlarla getdi.

* * *

Aradan düz iki ay keçdi. Onu heç kəs dindirib, sorğu-suala tutmadı. Dekabrın doqquzunda həmin cavan müstəntiq tamam ayrı-siyasi suallarla gəldi. Müstəntiq bu dəfə sərt və zəhmli davranmaq istəyirdi. Ancaq onun nə xarici görkəminə, nə də davranışına qəddarlıq, qansızlıq yaraşmırdı. Əşrəf bəy də bunu hiss eləmişdi. Onun bu humanistliyini duyduqca düşünürdü, necə olub ki, belə bir pak cavan nadürüst təşkilatda işləyir.

Bu dəfə iri çap şrifti ilə yazılmış protokol sözünün altına tarix qoydu: «9 dekabr 1929-cu il». Altındakı sətirdə isə «A.Ələkbərov», sonra boynunu azca sol çiyini üstə əyib, səhifənin yarısına iri hərflərlə: «Ə.Tağıyevlə sorğu-sualın davamı» sözlərini yazdı.

Əşrəf bəy rus dilində kifayət qədər bildiyinə görə aralından da olsa bunların hamısını oxuya bilirdi. Müstəntiq bunları hiss edir, amma heç nə demirdi. Görünür, dili bir, dini bir dindaşına, kim bilir, bəlkə də nurani ağsaqqala rəhmi gəlirdi, hörməti vardı.

***Sual:*** Sən Gəncə dairəsinin antisovet ünsürü olan keçmiş müsavatçılardan kimi tanıyırsan? Şəxsən sənin onlara əlaqən varmı? Onların adını, soyadını bir-bir deyin.

***Cavab:*** Mənim tanındığım bunlardır: Səfikürdski qardaşları. Onlardan Aslan bəy Müsavat Parlamentinin üzvü idi. Gəncədə yaşayırdı. Quşbaz oğlu Hacı Goranboy-Əhmədli kəndinin dövlətlisi, hazırda Şamaxıya sürgün olunub. Aslan bəy Mustafayev Gəncə bankının direktoru idi, indi bilmirəm haradadır. Müsavatçı Məşədi Əli Rəfiyevi tanıyırdım, o, Gəncədə yaşayırdı. Hazırda Türkiyənin Konstantinopol şəhərində yaşayır. Müsavat vaxtı Sərkər Səməd «Əhrar» partiyanın üzvü idi. İndi Gəncədə yaşayır. Lal Hacı müsavat vaxtı dükanları vardı, o da indi Gəncədə yaşayır. Hacı Əli müsavat vaxtı «Əhrar» partiyasında idi, hazırda öz evindədir. Aslan Qarasuçlinski tanıyırdım. Çar Nikolayın zamanında igidliyi və vurub-tutmağı ilə ad-san qazanmışdı. Müsavat vaxtı öz qohumlarını başına toplayıb çalıb-çapmaqla məşğul idi. Ona görə də

«Qoçu» ləqəbilə tanınırdı. Səhv etmirəmsə, heç bir partiyanın üzvü deyildi. Hazırda öz kəndində yaşayır. Sərxoş Məşədi Məmməd Ələkbərovu tanıyırdım. Onun müsavat vaxtı Bakıda və Gəncədə parça mağazaları vardı. Hansı partiyaya məxsus olması barədə mənə heç nə məlum deyil. Mühəndis Abuzər bəy Gəncəli Müsavat Parlamentinin üzvü idi, səhv etmirəmsə, 1920-ci ildə vəfat etdi. Daxili İşlər naziri və müsavat Parlamentinin üzvü Xəlil bəy Xasməmmədov hazırda Konstantinopoldadır. Gəncədə podratla ev işi görən Böyük bəy Ağabəyov – 1920-ci ildə Konstantinopola getdi. Müsavat parlamentinin üzvü Ələkbər (Bağmanlı) keçmişdə pristav olub. Səhv etmirəmsə, onun da müsavat vaxtı yüksək vəzifəsi vardı. Adını saydıqlarımın hamısı ilə tanışlığım vardı. Türkiyəyə gedəndən sonra onlara heç bir əlaqəm olmayıb.

Ağdaş qəzasından isə «İttihad-İslam» partiyasına rəğbəti olanları tanıyıram: Abuzər bəy Məlikov, Yusif bəy Məlikov, amma İbad Əbdüləziz oğlunun hansı partiya mənsub olduğunu bilmirəm. Mənim qardaşlarım Bəxşəli Tağıyev və Cavad Tağıyev heç bir partiyaya mənsub olmayıblar. İndi də heç bir partiyanın üzvü deyillər.

Qarabağ qəzasının Qaraqoyunlu kəndindən Qurbanəli Hacıyev və Cavanşir qəzasının Alpout kəndindən İsfəndiyar Hacıyevlə yaxın dostluğum vardı, onları çoxdan tanıyırdım. Söhbətlərimizdə onlar həmişə deyirdilər ki, «İttihad» partiyasının hüsni-rəğbətimiz var. Amma onları sənədlə bu partiyanın üzvü olub-olmadıqları mənə məlum deyil. Üç-dörd il əvvəl İsfəndiyar Hacıyev qaçıb İrana getdi. Deyəsən yenə də orada yaşayır.

***Sual:*** Azərbaycan Sovet Hökuməti qurulduqdan sonra sən Qarabağda nəylə məşğul idin? Sizi kim məcbur elədi, oraya getdiniz, oradakı müsavatçılardan kimləri tanıyırsınız? Niyə məhz Qarabağdan İrana getdiniz?

***Cavab:*** 1923-cü ildə yoldaş Mircəfər Bağırov məni Qarabağa göndərdi ki, oradakı antisovet ünsürlər barədə material toplayım. Mən cəmisi üç gün orada qaldım, heç bir şey araşdıra bilmədim. 1920-ci il Qarabağ üsyanından dörd ay sonra Türkiyəyə getdim. Şəfi Əfəndiyevlə aramızda yaranmış güclü intriqadan və şəxsi haqq-hesabdan ehtiyat eləmişəm. Qorxdum ki, məni şərə salıb həbs etsinlər. Bu barədə bütün Ağdaş camaatı bilir.

Qarabağda mən «İttihad»çılardan və müsavatçılardan bunları tanıyıram: Məlikyeganov, mühəndis Sultanov da müsavatçı idi, Behbudxan Cavanşirov «İttihad»çı, Vəzirov «İttihad»çı və parlament üzvü, müsavatçı və parlament üzvü Axundov və «İttihad»çı Qarabəy Ağdamski, Parlamentin üzvü və Qarabağ üsyanın iştirakçısı Qurbanəli Hacıyev, İsfəndiyar Hacıyev. Qalanlarını

tanımıram və özüm də heç bir silahlı üsyanda iştirak eləməmişəm.

1924-cü ildə İrandan qayıdanda məni yenidən həbs etdilər. Guya ki, mən İranda mühacirətdə olanlarla məktublaşıram. Üç aydan sonra Zaqafqaziya Fövqəladə Komissiyası məni həbsdən azad etdi.

1923-cü ildə Qarabağın Qaraqoyunlu kəndindəki Suvurulan adlı yerdə İsfəndiyar Hacıyevlə görüşdüm. Ordakı söhbətdə Məmməd Həsənxanov, müsavatçı Məşədi İsgəndər və Türkiyədən yenicə qayıtmış Axundov da iştirak edirdi. Axundov nəql elədi ki, Türkiyədə Xosrov bəy Sultanovla görüşdüm, bizim işimiz yaxşı olacaq. Hansı tərəfdən, nə mənada, bunu heç kəs soruşmadı. Mən bu barədə 1924-cü ildə həbs olunanda Azərbaycan Fövqəladə Komissiyasında yoldaş Volkova demişəm.

***Sual:*** Sən vətəndaş Molla İsmayıl Mir Həsən oğlu Əfəndiyevi tanıyırsanmı? Onun şəxsiyyəti barədə nə deyə bilərsiniz? Hazırda nə işlə məşğul olur, haradadır? Sizin onunla əlaqəniz varmı və bundan başqa Qarxun kəndindən hansı şəxsləri tanıyırsınız?

***Cavab:*** Mən Molla İsmayıl Əfəndiyev adlı qarxunlu şəxsi tanımıram. Kimliyi barədə məlumatım yoxdur. Adi və sadə kəndlilərdən başqa Qarxundan elə bir görkəmli adam tanımıram.

***Sual:*** Bəs sən Molla Mirini, Molla Mahmud Molla Cələbi oğlunu, Musa Hacı İsmayıl oğlunu, Molla Mustafa Şeyxzadəni, polkovnik Bəhram bəyi və Məmmədtağını tanıyırsanmı?

***Cavab:*** Sənin dediklərindən yalnız – Musa Hacı İsmayıl oğlunu, polkovnik Bəhram bəy Nəbibəyovu tanıyıram. Musa tacirdir, onun atası ilə çoxdan tanışam. Bir neçə dəfə onun dəvətilə çayxanada oturub çay içmişik. Amma, onun siyasi baxışları haqqında heç nə bilmirəm. Bu barədə söhbət etməmişik. Müsavat vaxtı mən onun haradasa işləməyini görmədim – nə partiyada, nə də ki, xidməti işdə. Qalanlarına gəldikdə isə heç birini tanımıram.

***Sual:*** 1927-ci ildə Qarxundakı evinizdə xaricdən gələn Molla Mirinin iştirakı ilə yığıncaq olub. O, Sizə xaricdən hansı xəbərləri gətirmişdi?

***Cavab:*** Qarxundakı evimdə heç bir yığıncaq olmayıb. Mən o kənddə artıq on iki ildir ki, yaşamıram. Amma doğma kəndimə gedib-gələrdim. 1918-ci ildən sonra Qarxuna tək-tək hallarda gələrdim. Çox vaxt mən Şəkidə yaşayırdım. Orda mülküm və fabrikam vardı.

## MƏZARSIZ AZƏRBAYCAN GENERALLARI

**O xalq pisdir ki, yaddaşı yoxdur, öz tarixini, tarixi şəxsiyyətlərini qiymətləndirmir və sevmir.**
***Viktor Vasnesov (1848-1926), məşhur rus rəssamı və memarı***

Onların sümüklərini basdırmağa da cəsarətimiz yoxdursa hamımız cəhənnəmdə külə dönəcəyik.

Nə sevgimiz sevgi, nə nifrətimiz nifrət, nə də mübarizəmiz mübarizədir. Sadəcə, Allah bizə iştaha verib ki, yeyib ölməyib də əzab çəkək. Keçmişini unudub, yaddaşını itirən bir millətdən nə desən gözləmək olar. O millətin nümayəndələri açıq-saçıq qəzetlərdə axmaq bir kəs tərəfindən uydurulmuş fahişə qadının gündəliyini öz babasının hansı amansızlıqla qətlə yetirildiyini özündə əks etdirən ibrətamiz tarixi yazılardan da üstün tutar, hələ istəsən...

Nə isə, artıq sabahkı uşaq haradan yarandığını öyrənmək üçün babasının, nənəsinin yanına qaçmayacaq. Heç olmasa bundan istifadə edən qocalar da uşağın sualına cavab verməzdən əvvəl ona hansı nəsildən, kimlərdən olduğunu xatırlada bilməyəcək. Beləliklə də general mundiri ilə fəxr edən ulu babanın oğul nəvəsi qadın tumanı geyinib küçələrdə ucuz qazanc ardınca qaçacaq. Allah, Səni uzun və unutqan həyatdan hifz etsin mənim millətim.

Mənim bu yazım Azərbaycan generallarının itib-batmış məzarlarından bəhs edir. Amma təkcə ondan yox. Ardı növbəti sayımızda erotik seriallardan fərqli olaraq bütün yazını bir sayımızda dərc edəcəyik. Oxuyun görün KİM olmuşuq, kimik və "kimə" çevrilirik. Bu mövzuda yazmağıma səbəb tam artilleriya generalı Səməd bəy Mehmandarov oldu.

Mehmandarov kim olub?

**Tədqiqatçı, hərb tarixinin araşdırıcısı Şəmistan Nəzirlidi:**

- Əslən Şuşalı olan Səməd bəy Mehmandarov əlli üç il çar ordusunda xidmət edib 1917-ci il martın 22-də tam artilleriya generalı rütbəsində istefa verdi. 1918-ci il noyabrın 6-da Azərbaycan Demokratik hökumətinin qərarı ilə Hərbiyyə Nazirliyi yaranıb. Onun təşkili iki məşhur generala tapşırılıb – Səməd bəy Mehmandarov və müavini Əli ağa Şıxlinskiyə, Səməd bəy Mehmandarov Azərbaycanın ilk hərbiyyə naziri olub.

1920-ci il aprelin 28-də XI Ordu Azərbaycana daxil oldu və bizim Milli Ordunun sərkərdə oğullarının güllədilər.

1919-cu ildə Qusar, Quba, Xaçmaz və Dəvəçi əhalisinin keçirdikləri mitinqinin qətnaməsində deyilirdi:

"Biz əminik ki, hökumətimiz döyüş meydanlarında özünün son üzvünü itirənədək ona etibar etdiyimiz qadın və qızlarımızı qara generallarının əlinə verməyəcək. Çar Nikolayın mənafeyi naminə Port-Artur civarlarında fərqlənmiş şücaətli hərbi nazirimiz Mehmandarov bizim mahalda olduğu vaxt gözündən yaş damlaları süzüldüyü halda, Vətən, qadın və qızlarımızın, ana və bacılarımızın namusunun müdafiəsi yolunda canından belə keçməyə hazır olduğunu bildirmişdi".

Bəlkə də elə buna görə idi ki, 1923-cü ildə xalqın azadlığa olan bütün inamını qırmaq və nazir, general Səməd bəy Mehmandarovu xalqın gözündən salmaq üçün onun əlinə süpürgə verib küçə süpürtdürmüşdülər. Azərbaycan xalqının düşmənləri yaxşı bilirdilər ki, Səməd bəy Mehmandarovu xalq sevir və inanır ki, onları "Qızıl Ordu"nun zülmündən məhz belə generallar qurtara bilər.

Bəs onun əlinə süpürgə verən kimlər idi? Mərkəzdə oturan Stalin əmr vermişdi ki, müsəlman ziyalıları arasında "təmizləmə" aparılsın. Bakıda solların mövqeyini möhkəmlədən, Nəriman Nərimanovun məsləkdaşlarına qarşı mübarizəni gücləndirən AK(b)P Bakı Komitəsinin katibi L.Mirzoyan, onun əlaltıları S.Qutin, A.Mikoyanın "varisləri" Sərkis Danolyan və içimizi qurd kimi gəmirən bir qrup keçmiş daşnak havadarları Stalinin əmrinin canla-başla yerinə yetirirdilər.

Afaq Quliyeva:

- Bizi hansı vəziyyətə saldıqları ilə bağlı isə ömrünün 40 ilini Azərbaycan hərb tarixinin araşdırılmasına həsr edən Şəmistan Nəzirli ilə söhbəti oxuyanda biləcəksiniz. Onunla etdiyimiz söhbətimiz 1930-cu illərə kimi general çinini çiyinlərində daşıyanlar barədə olacaq.

## BƏXTSİZ GENERALLAR MƏMLƏKƏTİ

**Binanın son daşı heç vaxt bünövrə daşını inkar edə bilməz; etsə, özü yuxarıda dayana bilməz...**

***Üzəyir bəy Hacıbəyli***

-Azərbaycan generallarından kimləri bəxti gətirmiş hesab etmək olar?

-Deyərdim ki, heç birini. Çünki həmin generallar döyüşlərdə nə qədər şücaət göstərib ad-san qazansalar da sonlakı ömür yolları çox faciəli olub, xüsusilə, 1920-1937-ci illərdə. Bizim xalq həmişə Heydər Hüseynova minnətdar olmalıdır ki, o heç olmasa general Əli ağa Şıxlinskini 1943-cü ildə şərəflə dəfn etdirdi. Onun və həyat yoldaşının qəbirüstü abidəsini düzəltdirdi. Mən deyərdim ki, o

bizim yeganə generalımızdır ki, şərəflə dəfn edə bilmişik və bu gün də xatırlayanda heç olmazsa qəbrini ziyarət edə bilirik.

- Şəmistan müəllim, basdırılmaqdan məhrum olanlar. Bəs Şıxlinskinin müasirləri olan generalların necə?

- Onlardan bir neçəsini sadalayacam özünüz nəticə çıxarın. Əli ağa Şıxlinski ilə birlikdə işləyən Məmməd bəy Sulkeviç əlli üç yaşında 1920-ci ilin iyul ayında güllələnib, qəbri yoxdur. General-leytenant Məmməd bəy Sulkeviç Milli ordumuzun Baş Qərargah rəisi idi.

General Qambay Vəzirov 1937-ci ildə güllələnib, qəbri yoxdur.

Cəmşid xan Naxçıvanski 1938-ci ildə avqustun 26-da Moskvada güllələnib məzarı yoxdur.

General-mayor Həbib bəy Səlimov 1920-ci il dekabrın 30-da saat 10.30-da güllələnib qəbri yoxdur.

Əbdülhəmid bəy Qaytabaşı 1920-ci ilin iyul ayında güllələnib. Onu Gəncə üsyanının başçısı olmaqda günahlandırıblar. Qəbri yoxdur.

Murad Gəray bəy Tlexas 1920-ci il mayın 29-da güllələnib. Onu bolşevik Əli Bayramovun öldürülməsində əli olmaqda günahlandırıblar. Lakin mən bunu araşdırmışam. Tamamilə yalan faktlardır. General Murad Gəray bəy Tlexasın da qəbri yoxdur.

Şahzadə-general Əmir Kazım Qacarı isə 1920-ci ildə bolşevik çekası Tuxareli Gəncə üsyanı zamanı mühasirəyə salıb, sonra da qılıncla doğrayıblar. Qəbri yoxdur.

General – Şahzadə Feyzulla Qacar Mirzə və Şahzadə Məhəmməd Mirzə Qacar qardaçlarını isə 1920-ci ildə güllələyiblər. Heç birinin qəbri yoxdur.

Bundan əlavə neçə-neçə generallarımız isə Azərbaycandan mühacirətə gedib qürbətdə vəfat ediblər.

General Teymur bəy Novruzov əvvəlcə Almaniyada mühacirətdə olub. 1926-cı ildə bolşevik təzyiqlərdən Fransanın Nitse şəhərinə mühacirətə getməyə məcbur olub. 1880-cı il mayın 3-də Tiflisdə general-leytenant Hacı Mirzə bəyin ailəsində anadan olan Teymur bəy Novruzov 1961-ci il yanvarın 23-də vəfat edib. Onun qəbri Nitsa şəhərinin Kokad qəbiristanlığındadır.

General -mayor Cavad bəy Məmməd ağa oğlu Şıxlinski (1874-1959) Gəncə üsyanın ən fəal iştirakçısı olub. Əvvəlcə İrana, sonra isə Türkiyəyə mühacirətə gedib 1959-cu ildə İstanbulda vəfat edib. Qəbrinin harada olması bilinmir.

General-qubernator Cavab bəy Rza bəy oğlu Məlikyeganov 1920-ci il sentyabrın 19-da komissar Nersesyan tərəfindən həbs edilib Kareliyanın Keme şəhərinə sürgün edilib. Həyat yoldaşı məşhur maarifpərvər Məryəm xanım Bayraməlibəyova 1935-ci ildə sürgündən göndərdiyi məktubunda yazırdı: «Sən

yaxşı bilirsən ki, mən Vətənimi, Azərbaycanımı, xalqımı sevirəm. Hər şeydən əziz tuturam və canımı onlara qurban verərəm».

Şimal həbs düşərgələrində olmazın əzablar çəkən, 1918-ci ildən Azərbaycan parlamentinin üzvü Cavad bəy 1942-ci il mayın 18-də ürək partlamasından vəfat etmişdir. Məzarı yoxdur. Cavad bəy Məlikyeganov Lənkəran şəhərinin general-qubernatoru olmuşdur.

General-qubernator Xosrov bəy Sultanov 1920-ci il çevrilişdən sonra məcbur olub İstanbula gedib. Onu Nəriman Nərimanov bolşevik-daşnak sürgünündən xilas edib. 1956-cə ildə vəfat edib.

General-qubernator Xosrov bəy Paşa bəy oğlu Sultanov - 1919-cu il yanvarın on beşindən Qarabağın general-qubernatoru. Həmin il martın 21-dən 30-dək olan Əskəran döyüşlərində daşnak generalı Dronun quldur dəstələrini darmadağın etmişdir. İyun ayının əvvəllərində gizli yolla Şuşaya silah gətirən erməni milli Şurasının üzvlərini həbs edib, onların Qarabağ hüdudlarından çıxarılmasına nail olmuşdur. Zaqafqaziya Seyminin və Azərbaycan Parlamentinin üzvü idi. 1918-1920-ci illərdə daşnakların Qarabağdan təmizlənməsində xidmət göstərmişdir.

Xosrov bəy 1879-cu il martın 10-da Laçın rayonunun Kürdhacı kəndində anadan olub. Orta təhsilini Gəncə klassik gimnaziyasında, ali təhsilini isə Odessa Universitetində almışdır. 1920-ci il aprel çevrilişindən sonra Türkiyənin Trabzon şəhərinə mühacirətə getmişdir. Az sonra daşnak təqibindən İstanbula köçmüş və 1956-cı ildə Bursa şəhərində vəfat etmişdir. Məzarının yeri məlum deyil.

General-mayor Məmmədsadıq bəy İsmayıl oğlu Ağabəyzadə – şərqşünas-alim kimi daha çox məşhurdur. 1919-cu ildə Azərbaycan Demokratik Cümhuriyyətində daxili işlər nazirinin müavini olmuşdur. 1920-ci ildə İstambula – əmisi oğlu, professor Əlibəy Hüseynzadənin yanına gedir. Bir il orada yaşadıqdan sonra Fransaya mühacirətə gedir. Ali məktəblərdə fars və türk dillərindən dərs deyən Məmmədsadıq bəy fransızcanı da gözəl bilirdi.

Bəxtinə cəlayi-vətənlik düşən görkəmli Azərbaycan oğlu Məmmədsadıqbəy Ağabəyzadə 1927-ci ildən Lvov Universitetinin professoru Ziqmund Smoqjevskinin dəvətilə Lvov Universitetində işləyir. O, ərəb, fars, türk dillərindən dərs deyir, islam paleoqrafiyasını, epiqrafiyasını və kalliqrafiyasını tədris edirdi. Məşhur polyak şərqşünasları Teofil Volodarski, Olqa Bak, Tadeuş Levitsin və başqaları həmyerlimiz, general-professor Məmmədsadıq bəyin yetirmələri olmuşlar. Hərbi fəaliyyətilə yanaşı şərqşünas kimi də böyük şöhrət qazanan M.Ağabəyzadə 1904-cü ildə rus dilində «Türkmən ləhcəsi», 1931-ci ildə polyak dilində «Türk dili», 1932-ci ildə «Fars dili», 1934-cü ildə «Ərəb dilinin qrammatikası» kimi sanballı əsərlərini nəşr etdirmişdir.

1944-cü ildə Lvov şəhəri faşistlər tərəfindən alınanda bir alman zabiti tənha yaşayan professor Məmmədsadıq bəyin mənzilini öz qərargahına çevirir. Yarıqaranlıq, nəmli zirzəmiyə köçən Məmmədsadıq bəyin zəif vücudu daha da pisləşir. Elm fədaisi və müsavat generalı Məmmədsadıq bəy Ağabəyzadəni 1944-cü il noyabrın 8-də sevimli tələbəsi Tadeuş Levitski Lvov şəhərindəki "Liçakivski Svintar" qəbiristanlığında dəfn edir. Lvov şəhərində adına küçə var.

«Əgər qardaşlarım gəlib çıxmasalar, onda nəyim varsa, T.Levitskiyə qoyub gedirəm. Mənə uzun müddətli sədaqətli xidmətinə görə pani Severina Vilkoşinskayaya üç yüz zlot, Teodozi Krulyovaya yüz zlot, Olqa Voşçaka, mənim şagirdimə bir kitab və istədiyi üç qrammofon val verərsiniz».

Bu, bolşevik təzyiqindən qürbətdə tənha yaşayan görkəmli həmyerlimizin ölümqabağı yazdığı vəsiyyətindən bir parçadır.

General-şərqşünas Məmmədsadıq bəy 1865-ci ildə Göyçayda anadan olmuşdur. İlk təhsilini Bakı realnı məktəbində alan M.Ağabəyzadə Konstantinovsk piyada məktəbini əla qiymətlərlə bitirmişdir. Ona görə də 1886-cı ildə Sankt-Peterburqdakı Mixaylovski artilleriya məktəbinin üçüncü kursuna qəbul edilmişdir. Az müddət Qafqazda qulluq edən gənc zabit Məmmədsadıq bəy yenidən Peterburqa qayıdıb Xarici İşlər Nazirliyinin Şərq dilləri kurslarında təhsil alır. 1899-cu ildən 1913-cü ilə kimi Türküstan hərbi dairəsində qulluq edir. Əla hərbi xidmətinə görə general-mayor rütbəsi alıb.

General Məmmədsadıq bəy Ağabəyzadə Birinci Dünya müharibəsində iştirak etmişdir.

Azərbaycanın ilk vitse-admiralı İbrahim bəy Aslanbəyov 1901-ci ildə Peterburqda vəfat edib.

Qayıdaq yenə ilk hərbi nazirimiz tam artilleriya generalı Səməd bəy Mehmandarovun uğursuz taleyinə. Çünki onun ömür yolu bizim yaralı yerimizdir.

1939-cu ildə Dağüstü parkda S.M.Kirova heykəl qoyanda, Səməd bəy Mehmandarovun kimsəsiz qəbrini traktorla dağıtdılar.

Tam artilleriya generalı Səməd bəy Mehmandarov bizim ən böyük dərdimizdir. O, 1931-ci il fevralın 12-də vəfat edib. O vəfat edəndə ailəsinin vəziyyəti çox pis olub. Onun həyat yoldaşı Yelizaveta Nikolayevna Teslav Kiyevin zadəgan nəsillərindən idi. Litvada böyümüşdü. O, 1920-ci ildən sonra dəfələrlə həyat yoldaşını Rusiyaya getməyə təkid etsə də Mehmandarov vətəni Azərbaycanı tərk etmək fikrində olmayıb.

Hətta Biləcəridə Müsavat hökumətinin başçılarını Tiflisə aparacaq qatar ona görə saat yarım ləngiyib. Səməd bəy getməyib deyib ki, vətənimi Azərbaycanı tərk etməyə heç bir əsasım yoxdur.

- Doğrudur ki, bolşeviklər 1920-ci ildə ilk hərbiyyə naziri, tam artilleriya generalı Səməd bəy Mehmandarova küçə süpürtdürüblər?

1918-ci ildən 1922-ci ilə qədər, əvvəlcə Tiflisdə, sonra isə Türkiyədə hərbi attaşe işləmiş Əsgər Əsgərov – Kəngərlinin «Azərbaycan faciəsi» məqaləsindəki kiçik bir epizodu oxuyanda polis əməkdaşı olan erməninin insanlıqda payı olmadığına şübhə yeri qalmır. O, yazır ki, əleyhimə kifayət qədər material olmamasına görə məni Bakı *«ÇK»*-sına, məşhur cəllad Pankratovun birbaşa pəncəsi altına göndərdilər. Bədbəxtlikdən gəlişim Azərbaycanın bütün ərazisini üsyanların bürüdüyü bir dövrə təsadüf edirdi (1920-ci ilin may-iyun aylarında Azərbaycanın ayrı-ayrı qəzalarında - Gəncə, Şuşa, Qazax, Şəki və Zaqatalada bolşevik işğalına qarşı güclü üsyanlar başlanmışdı - Ş. N.). Buna görə hərbi məktəb yoldaşlarımın hamısı, ən kiçik zabit rütbəsindən tutmuş hərbi nazirə qədər general Səməd bəy Mehmandarov öz qərarkahı ilə burada, «ÇK»-da idi. Bizə tətbiq edilən bütün işgəncə və təhqirləri burada sadalamayacağam. Təkcə onu qeyd edim ki, hamımızın hörmət etdiyimiz ağsaqqal hərbi nazirə ayaq yolunu təmizləmək tapşırılanda biz, gənc zabitlər onun əvəzinə bu işi görmək üçün irəli atıldıq. Lakin keçmiş polis əməkdaşı, erməni növbətçisi bizi kobudluqla kənar edərək: *«Ayaq yolunu Mehmandarov təmizləməlidir, özü də saqqalı ilə»* - deyə bağırdı...

Görəsən bu sətirləri arvadı erməni olan, ya da «ermənilərlə dost olaq» - deyən azərbaycanlı oxuya bilsə, hansı hissləri keçirərdi?

1931-ci ildə vəfat edən Mehmandarovu o vaxtkı Çəmbərəkənd – indiki Şəhidlər Xiyabanında dəfn ediblər. Həmin yer general Həzi Aslanovun abidəsinin sol yanındadır. 1935-ci ildə bolşeviklər belə bir qərar çıxarıblar ki, Çəmbərəkənd qəbiristanlığının yerində S.M.Kirov adına Dağüstü park salınsın, Kirovun heykəli də orada ucaldılsın. Həmin vaxt elan verirlər ki, hamı gəlib öz doğmalarının qəbirlərini başqa yerə köçürsün. Bunun üçün az vaxt ayrılıb. Bir müddətdən sonra kimin yaxını, qohumu var qəbirlərini başqa yerə köçürüblər. Mehmandarovun heç kimi olmadığı üçün onun qəbri bir çox kimsəsizlərlə birlikdə traktorla dağıdılıb.

-Bəs Mehmandarovun xanımı və oğlu harada idilər?

-Onun oğlu İqor (əsl adı Pir idi) və həyat yoldaşı sürgün edilmişdilər. Maraqlı faktlardan biri də odur ki, onları sürgün etməzdən əvvəl NKVD tərəfindən dindirilmə də olub. Həmin vaxt İqoru çox incidiblər hətta atası barədə suallara cavab verməyəndə döyüblər də. Axırda bezmiş İqor onu sorğu-suala tutan NKVD əməkdaşı ermənidən soruşub: "axı, mənim günahım nədir ki, mənə bu qədər əzab verirsiniz?". Cavab alıb ki, "sizin günahınız ondan ibarətdir ki, özünüzə yaxşı valideyn seçməmisiniz". Bundan "ağıllı" cavab heç kimin ağlına gələ bilməzdi. Bu barədə İqor özü danışmışdı mənə.

Onlar əvvəlcə sürgün olunublar. Simbirski vilayətinə, 1941-1945-ci il

müharibəsi başlayanda onları yenidən sürgün ediblər Qazaxıstana. Yolda qatar alman təyyarələrinin bombardmanına düşüb. Nəticədə Yelizaveta Nikolayevna həlak olub. İqor isə sağ qalıb. 1987-ci ildə Azərbaycan hökuməti İqor Səməd bəy oğlu Mehmandarovu Azərbaycana gətizdirdi və ona ev verdi. İqorun həyat yoldaşından başqa bir kimsəsi yox idi. Övladı olmamışdı. Onun həyat yoldaşı general Kulaginin qızı idi. Qadın indi də sağdır, İqor isə 1989-cu ildə vəfat etdi.

* * *

## DAŞYONANLAR HÖRMƏT ETDİ

**Tarixi öyrənin, tarixin sirlərində dövlətin gücü yaşayır.**

***Uinston Çörçill (1874-1965),***
***İngiltərənin keçmiş Baş naziri***

-Atasının xatirəsinin əbədiləşdirilməsi üçün heç bir təşəbbüs göstərməyib?

-Demək olar ki, yox. Neçə dəfə yalvardım ki, gəl səndən veriliş hazırlayım, qoy xalq tanısın ki, sən Azərbaycanın ilk hərbiyyə naziri Mehmandarovun oğlusan. Bir kəlmə ilə dedi ki, "ne xoçu". Özündə də atası barədə heç bir sənəd yox idi. O vaxt məni qınadı ki, nə üçün mənim atam barədə araşdırma aparmırsan? Dedim ki, əlimdə sənədlər çox azdır. Sonradan çox şey əldə etdim. Lakin əldə etdiklərim hələ də tam deyildi.

Xeyli müddət arxivlərdə axtarışlar aparandan sora "Tam artilleriya generalı Səməd bəy Mehmandarov" adlı ayrıca kitab yazdım. Kitab 1997-ci ildə nəşr olundu. Amma İqor Səməd bəy oğluna kitabı oxumaq qismət olmadı...

-Bəs siz özünüz necə Mehmandarovun xatirəsini əbədiləşdirmək üçün hansısa bir addım atmısınızmı?

-Mehmandarovun respublikada heç bir nişanəsi yox idi. 1994-cü ilin noyabr ayında mənim uzun müddətli mübarizəmdən sonra onun yaşadığı mənzilin qarşısına xatirə lövhəsi vurdurdum. O xatirə lövhəsinin icazəsini Bakı şəhər Sovetindən bir güc-bəla ilə aldıq. Sonra da dedilər ki, onu düzəltdirmək üçün pul yoxdur. Belə olan halda mən və rəisim o vaxt polkovnik olan Çingiz Məmmədov, hazırda general-leytenant rütbəsindədir, "Qurd Qapısı" deyilən yerdəki qəbiristanlığa yollandıq. Oradakı daşyonanlara xatirə lövhəsi üçün nəzərdə tutulmuş ölçünü və fotoşəkli göstərib ona nə qədər xərc tələb olunduğu ilə maraqlandıq. Onlar dedi ki, biz bunu sizin üçün pulsuz edərik. Onlar həqiqətən də bizdən bir qəpik də almadılar. Lakin buna baxmayaraq Bakı Soveti yenə də bizə mane olmaq istədi ki, yox, bunu onun yaşadığı evinə vurmayın,

gələn il ora böyük bir abidə qoyarıq. Dedim ki, biz bunu edirik, sizin sözünüz isə hələ nisyə söhbətdir.

-Bəs o abidəni harada qoydular?

-Heç bir yerdə. Dedikləri elə söz olaraq qaldı. Biz isə barelyef-abidəni İstiqlal küçəsində qoyduq, indi də qalır, var. Onun adına Əhmədli qəsəbəsində küçə qoyulmasına nail olduq.

-Həmin mənzil haradadır?

-Əlyazmalar İnstitutu ilə üzbəüz, İstiqlal küçəsi 43-də. Mən bu xatirə lövhəsinin açılışından sonra başqa bir təşəbbüslə çıxış etdim. Bu da ondan ibarət idi ki, axı bu kişinin qəbrinin yeri məlumdur, heç olmasa ora simvolik bir qəbir və başdaşı qoysunlar. Özü də Mehmandarovun qəbrinin yerlə yeksan edildiyi yerdə başqa qəbirlər də olub. Onların içərisində tanınmışlar da az deyil Məsələn, Azərbaycanın Türkiyədə səlahiyyətli nümayəndəsi, dövlət xadimi olmuş İbrahim Əbilovun qəbri. Xatırladım ki, 1922-ci ildə o Türkiyədə vəfat edəndən sonra Atatürk onun mumiyalanmış meyitini Azərbaycana göndərib. Bundan başqa məşhur çekist İslam Əliyev də Mehmandarovla yanaşı basdırılıbmışdı. Onların da qəbirləri artıq yoxdur.

Ən əsası da budur ki, Azərbaycanda generalların xatirəsini əbədiləşdirmək üçün vaxtilə S.Mehmandarovun yaşadığı mənzildə xatirə-muzeyi açmaq olardı. Bu xalq öz generallarından nə vaxta kimi bixəbər olacaq. Adama bəzən elə gəlir ki, bütün bunlar düşünülmüş şəkildə edilir.

**“General rütbəsi döyüşdə qazanılır”**

-Əgər belə bir muzey açılası olsa yəqin ki, onun üçün böyük bir mənzil lazım olacaq?

-Əlbəttə, 1920-ci ilə kimi Azərbaycandan 73 generalın olduğu məlumdur. Tədqiqatlar isə hələ ki davam edir. Məsələn, mən sonuncu dəfə Tiflisdə olanda bu günə kimi bizə məlum olmayan dörd generalın adını aşkar etdim. Bu işlə 40 il məşğul olsam da, onların general olduqları mənə məlum deyildi. Lakin bizim generalların bir “bədbəxtliyi” var. Bu da nədəndir? Krım tatarlarının, Şimali Qafqaz müsəlmanlarının, Ufa, Tatarıstan və Başqırd və Orta Asiya müsəlmanlarının da ad-soyadı bir-birinə oxşardır. Buna görə də tədqiqatçılar çox vaxt ad və soyadda səhvə yol verirlər. Onun üçün də uzun müddətli araşdırma aparmaq lazım gəlir.

-Bəs sovet dövründə necə?

-Sovetlər dövründə Azərbaycandan olan generalların sayı yüzə qədərdi. 1990-cı ildən bu yana da o qədər generallar var. Acıqlarına gəlməsin, mən yalnız döyüşlərdə bu şərəfli rütbəni qazanmışları general hesab edirəm. Kabinetdə oturub axşama kimi xarici siqaretlər çəkən, müxtəlif düymələri basıb tapşırıqlar

verən adamları mən general kimi qəbul edə bilmirəm.

-Bəlkə gileydən keçib qayıdaq əsl generallara. Bildiyimiz kimi Azərbaycan generallarından xeylisi Tiflisdə yaşayıb, elə orada da vəfat ediblər.

-Düzdür. Məsələn, general Abdulla ağa Bakıxanov 1878-ci il iyulun 20-də Tiflisdə vəfat edib. Qəbri də oradakı Nəbatat bağındadır. Yadınızdadırsa prezident Heydər Əliyev Tiflisdə olanda Fətəli xan Xoyskinin qəbirüstü abidəsinin açılışında iştirak etdi. Bakıxanovun da qəbri oradadır. Məşhur din alimi, görkəmli maarifçi Mirzə Hüseyn əfəndi Qayıbzadə də orada dəfn edilib. Polkovnik Xanbaba xan Qacarın (Şahzadə Bəhmən Mirzənin oğlu) da qəbri onların yanındadır. Fikir verin, 1939-cu ildə Bakının Çəmbərəkənd qəbiristanlığını S.M.Kirovun şərəfinə istirahət parkı ediblər. Tiflisdə isə bir saylı Müsəlman qəbiristanlığını Nəbatat bağına çeviriblər. Nə yaxşı ki, Mirzə Fətəli Axundovun qəbrinin ətrafındakı bir qrup görkəmli oğullarımızın qəbirləri qalıb.

**Fəxri Xiyabanda uyuyan generallar**

-Bakıda ikinci Yasamal adlanan qəbiristanlıqda çoxlu tanınmış soyadlara rast gəlmək olur. Lakin əksəriyyət qəbirlərin üzərinə yazılar əski əlifba ilə yazıldığından onların kimə mənsub olduğunu müəyyənləşdirmək mümkün olmur. Daha doğrusu ərəb-fars əlifbasını oxuya bilməyən bugünkü gənclər onlardan bixəbərdirlər.

-Söhbət Yasamal qəbirstanlığından düşdü sizə bir maraqlı hadisə danışacam. Azərbacanın yeganə general-topoqrafı İbrahim ağa Paşa oğlu Vəkilov 1934-cü il fevralın 6-da Bakıda vəfat edib. Bir neçə il əvvəl mən istəyirdim onun anadan olmasının 140 illik yubileyini keçirək. Qarışıqlıq oldu yubileyi qeyd edə bilmədik. Onun nəvəsi, professor Leyla xanım Vəkilova ilə ikinci Yasamal qəbiristanlığına gəlib nə qədər axtarsaq da onun qəbrini tapa bilmədik. Leyla xanım babası ölən vaxt uşaq olub. Babasının basdırıldığı yer uşaq da olsa yadında qalmışdı üç gün onun göstərdiyi ərazini axtardıq, lakin qəbir tapılmadı. Bilirsiniz İbrahim ağa Vəkilovun hələ sağlığında onun oğlanlarını həbs ediblər. Bir sözlə ailədə başıpapaqlı qalmayıb. Oğlanlarından biri polkovnik Qalib bəyi 1937-ci ildə sürgündə güllələyiblər. Faris bəy isə 18 il həbsdə qalandan sonra qayıdıb gəlmişdi. Onunla görüşmüşdüm. Yəqin ki, qəbirə baş çəkən olmadığı üçün onu məhv etmişdilər.

-General deyəndə adamda fəxr hissi yaranır. Azərbaycan generallarından Fəxri xiyabanda basdırılanı varmı?

-Var general Heybət Atamoğlan oğlu Heybətov 1959-cu ildə Fəxri Xiyabanda dəfn olunub. O, Sovet dövrünün generalıdır. Böyük Vətən Müharibəsi illərində əla döyüş yolu keçib. Bundan başqa general Tərlan bəy Əlyarbəyov, Akim Abbasov, Mahmud Əbilov da Fəxri Xiyabanda şərəflə dəfn olunublar.

Peterburqda Baş Qərargah Nikolayev Akademiyasında, yeganə Ali hərbi təhsil almış generalı Həbib bəy Hacı Yusif oğlu Səlimovun isə qəbri də yoxdur. Onu bolşeviklər hakimiyyətə gələn kimi 1920-ci il dekabrın 30-da, 39 yaşında güllələyiblər. Çox savadlı və mərd adam olub. Əskəran döyüşlərinin qəhrəmanı kimi tarixə düşüb.

Həmin il güllələnənlərdən biri də general İbrahim ağa Usubovdur. O cavan olmasına baxmayaraq altı xarici dil bilirmiş. Əli ağa Şıxlinskinin bacanağı olub.

-Onu harada güllələyiblər?

-İbrahim ağa Usubov 1920-ci il iyunun 16-da Nargin adasında güllələnən generallardandır. Həmin gecə Abdiyev familiyalı bir nəfərin yük maşınına yığıb hərbiçiləri gəmi ilə Nargin adasında aparıblar. Orada güllənənlərdən 12 nəfəri general, 46-sı polkovnik və digər çinli zabit və çavuşlar olublar. Həmin vaxt Səməd bəy Mehmandarovla, Əli ağa Şıxlinskini bir kamerada saxlayırmışlar. Nəriman Nərimanov onların vəziyyətindən xəbər tutub və hər ikisini xilas edib. 1920-ci il avqustun 1-də hər ikisini Nəriman Nərimanov Moskvaya göndərib ki, burada onları təhlükəsizliklərini mühafizə etmək mümkün deyil. Çünki daşnaklar və bolşeviklər Azərbaycana soxulub, meydan sulayırdılar. Avakyanlar, sərkislər, orconokidzelər, mirzoyanlar və daha kimlər görkəmli ziyalı oğullarımızı, hərbiçilərimizi məhv edirdilər.

**Nargin və Bulla – ziyalıların qisməti olub**

-Nargin adasında o vaxt baş verənlərin izi qalırmı?

-Adada qumların altında insan sümükləri hələ də qalmaqdadır. Yağış onların qol, bel və kəllə sümüklərini üzə çıxarıb. Bulla adasında ən dəhşətli faciələr baş verib. Bilirsiniz orada nə edirmişlər? Ora 60 kilometrdən çox dənizin içindədir. Müsavat əsgərlərini, zabitləri və ziyalı müsavatçıları gəmiyə doldurub aparıb yaşayış olmayan adaya töküb qayıdırmışlar. Təsəvvür edin onlar hansı əzabla ölürmüşlər. Yaşayış olmayan bir yerə canlı insanları aparıb atasan. Ora elə bir yerdir ki, üzüb can qurtarmaq da mümkün deyil. Bulla adası indidə insan sümüklərilə doludur.

-Bulla adası indidə insan sümükləri ilə doludur.

-Düşmən də hədəf də eynidir. Həmin adalardan insan sümüklərini yığıb muzey kimi seyr edənlər heç vaxt yenidən düşmənini humanist hesab edib ona öz qoynunda yer verməzdir.

***Şəmistan Nəzirli ilə söhbətləşdi***
***jurnalist Afaq Quliyeva***

# TARİXİN AĞ SƏHİFƏLƏRİ





## 37-Cİ İLİN SƏRKƏRDƏ QURBANLARI



***Qambay Məmməd oğlu Vəzirov*** (1899-1937)- 77-ci **Azərbaycan diviziyasının komandiri.** *(Sağdan ikinci)* 1937-ci il oktyabrın 13-dən 14-nə keçən gecə ***güllələnmişdir.***

***Gümrü***



***Cəmşid xan Cəfərqulu xan oğlu Naxçıvanski*** (1895-1938) **- komdiv**. 1938-ci il avqustun 26-da "Troyka"nın şahidliyi ilə Moskvada ***güllələnmişdir.***

***Naxçıvan***



***Şəmistan Mahmud oğlu Əyyubov*** (1896-1937) **- diviziya komissarı**. 1937-ci il yanvarın 5-dən 6-na keçən gecə ***güllələnmişdir.*** S.Vurğunun "Komsomol poeması"nın qəhrəmanı.

***Qazax***



***Cəlil Məşədipaşa oğlu Əliyev*** (1905-1938) - qərargah rəisi. 1938-ci il yanvarın 3-dən 4-nə keçən gecə ***güllələnmişdir.*** Mayor.

***Şəmkir***



***Məmməd Kərim oğlu Veysov*** (1900-1972) - **polkovnik.** 37-ci ildə həbs olunmuş, ***9 il Sibir sürgünü çəkmişdir.***

***Şamaxı***



***Qalib bəy İbrahimağa oğlu Vəkilov*** (1888-1937) - **polkovnik**. 1937-ci noyabrın 15-dən 16-na keçən gecə ***güllələnmişdir.***

***Qazax, Tbilisi***



***Seyfulla Hacı Rüstəm oğlu Mehdiyev*** (1902-1937) - **polkovnik**. 1937-ci il oktyabrın 13-də ***güllələnmişdir.***

***İsmayıllı, Lahıc kəndi.***



***Cabir Əmrulla oğlu Əliyev*** (1902-1937) - 77-ci Azərbaycan divizyasında briqadada **komissarı**. 1937-ci il oktyabrın 13-də ***güllələnmişdir.***

***Bakı***



***Heydər Sadıq oğlu Vəzirov*** (1893-1937) - **komissar**. 1937-ci il oktyabırın 13-dən 14-nə keçən gecə ***güllələnmişdir.***

***Naxçıvan***



***Murtuz Heydər oğlu Talıbzadə*** (1902-1938) - **polkovnik**. 1938-ci il yanvarın 8-dən 9-na keçən gecə ***güllələnmişdir.***

***Bakı***



***Soltanhəmid Cəbrayıl oğlu Paşayev*** (1898-1938) - **hərbi komissar**. 1938-ci il yanvarın 3-dən 4-nə keçən gecə ***güllələnmişdir.***

***Şamaxı***

***Sədrəddin Məmməd oğlu Vəzirov*** (? - 1938) - (general-mayor Qambay Vəzirovun qardaşı). 1938-ci il yanvarın 3-dən 4-nə keçən gecə ***güllələnmişdir.***

***Naxçıvan,***
***Nehrəm kəndi***

***Seyidbəyli Zülfüqar Abbas oğlu*** (1892 - 1938) - **hərbi komissar**. 1892-ci ildə anadan olub. 1938-ci il yanvarın 7-dən 8-nə keçən gecə ***güllələnmişdir***.

***Şuşa***



***Mehdibəy Eynalı oğlu Sultanov*** (1880 - 1937) - **polkovnik**. 1918-ci ildə Bayılda yerləşən Göyçay piyada alayının komandiri. 1920-ci ildə isə Azərbaycan diviziyasında 3-cü alayın komandiri. 1937-ci il iyulun 26-dan 27-nə keçən gecə ***güllələnmişdir.***

***Gəncə***



***Hacıbaba Hacı Ələsgər oğlu Nəzərli*** (1895-1938). **Hərbi-yazıçı, komissar**. 1938-ci il yanvarın 8-dən 9-na keçən gecə ***güləlenmişdir***. "Laçın", "Cəsusun yardımçısı", "Yüz iyirmidən ikisi" və b. əsərlərin müəllifidir. "Qızıl əsgər" qəzetinin və "Azərbaycan Hərbi nəşriyyat"ında şöbə rəisi olub.

***Şamaxı***



***Həsən Paşa oğlu Rəhmanov*** (1902-1938) - Azərbaycan Dağ-atıcı dvizyasının **komissarı**. 1922-ci ildən "Savadlı Qırmızı Əsgər" və "Hərbi bilik" jurnallarının məsul redaktoru olmuşdur. 1930-cu ildə "Azərbaycan Dağ-Nişançı diviziyasının on illiyi" kitabçasını nəşr etdirmişdir. 1938-ci ildə həbs edilib ***güllələnmişdir.***

***Bakı***

***Öz müzəffər bayrağıyla gəlib keçdikcə illər***
***Bir əbədi bahar kimi gül açacaq xatirən.***
***Yad edəcək hörmət ilə səni gələn nəsillər,***
***Heykəl kimi ucalırsan qəlbimizdə bu gün sən.***

***Al qanınla suvardığın Azərbaycan torpağı***
***Öz başını əyməyəcək cəlladlara bir daha!***
***Vüqarına and içtiyin bu azadlıq bayrağı,***
***Sənin ölməz adını da aparacaq sabaha.***

***Səməd Vurğun,***
***Xalq şairi.***

***Öz ata-babasına hörmət etməyən***
***başqalarının da hörmətinə layiq deyil.***

***Xalq məsəli.***

## 37-NİN GENERAL QURBANLARI




**(1899-1937)**

Yüksək sərkərdəlik qabiliyyətini Müsavat ordusunda qazanmış general Qambay Vəzirov, Cəmşidxan Naxçıvanski, polkovnik Seyfulla Mehdiyev, Murtuz Talıbzadə, Məmməd Veysov və başqaları otuzuncu illərdə hərbin çətin yollarında sür'ətlə irəliləyir, milli alay və diviziyalara komandirlik edirdilər.

Qeyri-adi bacarığa malik olan hərbçi oğullarımız Səməd bəy Mehmandarov, Əli ağa Şıxlinski, Məmməd bəy Sulkeviç, İbrahim ağa Vəkilov, Şahzadə Əmir Kazım xan Qacar, Həbib bəy Səlimov kimi qüdrətli generallarımızın şinelindən "çıxmışdılar".

Azərbaycan sərkərdələrinin ildırım sür'ətli irəliləyişi Sovet imperiyasında yuxarı dairənin narahatlığına səbəb oldu. Onları məhv etmək üçün hərəsinə bir qara yaxdılar: pantürkçü, müsavat zabiti, trotski-zinovyevçi və daha nələr...

Sibir və Solevetski adalarına azərbaycanlı zabitlərin ucdantutma sürgünü başlandı. Yüksək rütbəlilər - generallarımız isə həbs edilib dar zindanlarda güllələndilər. Milli Azərbaycan diviziyaları isə ləğv edildi.

Böyük Vətən müharibəsi başlananda rus diviziyalarının tərkibində döyüşən azərbaycanlı əsgər və zabitlər addımbaşı diləgəlməz bir söyüşlə təhqir olunur, güllələnirdilər. Onda (1942-ci ildə) ömrünün son aylarını yaşayan məşhur generalımız Əli ağa Şıxlinskinin təklifi ilə milli diviziyalar təşkil olundu.

Acınacaqlı haldır ki, "respublikanın sahibi" M.C.Bağırov məhz onda ayıldı ki, bu milli diviziyalara komandanlıq etmək üçün bir nəfər belə azərbaycanlı general qalmayıb, hamısı güllələnib...

Otuz yeddinci ildə günahsız həbs olunub güllələnən hərbi xadimlərimizin acı taleyi məni çoxdan düşündürürdü. O illərdə ən mahir sərkərdə oğullarımız vicdansızcasına məhv edilib, istintaq zamanı onları ağlasığmaz vəhşiliklə döyüb bir-birinin üzünə dirəndiriblər. Nə respublikada, nə də Azərbaycan diviziysında "əksinqilabi-təşkilat" olmaya-olmaya onlardan iftiraçı, yalan ifadələr alıblar. Bunların hamısı zorla, qeyri-insani işgəncələrin və amansız cəzanın tətbiqi sayəsində əldə olunmuşdur.

Repressiyaya mə'ruz qalmış belə hərbiçilərin oğlu, qızı, həyat yoldaşı və yaxın-uzaq qohumları mənə onların çəkdiyi dəhşətli əzablardan danışanda istər-istəməz ***Fyodor Dostoyevskinin "Heyvan heç vaxt insan qədər qəddar ola bilməz, insan qədər mahir və yaradıcı qəddarlıq edə bilməz",*** - sözlərini xatırlayırdım.

Əziz oxucu, əgər vaxt tapıb bu yazıları oxuya bilsən hərbçi oğullarımızın dözülməz əzablarla məhv edildiyinin şahidi olacaqsan.

## GENERAL-MAYOR QAMBAY VƏZİROV

***Əlini vurmasa oda bir nəfər,***
***Odun istisini necə hiss edər.***

***Nizami Gəncəvi***

Otuz yeddinci illərdə hərbçilərin tuthatutu başlananda ordu komandanı Oka Qorodovikov (1879-1960) marşal Semyon Budyonnıya deyir:

- Semyon, hamını bir-bir aparırlar. Bunun axırı necə olacaq?

Budyonnı təmkinini pozmadan cavab verir:

- Hamını yox, yalnız ağıllıları aparırlar. Bu, nə sənə, nə də mənə aid deyil...

Bu epizodu oxuyanda istər-istəməz həmin illərin günahsız qurbanları olan hərbçi oğullarımızı xatırladım. Diviziya komandiri general-mayor Qambay Vəzirov, briqada komandiri Cəmşidxan Naxçıvanski, komissar Heydər Vəzirov, Cabir Əliyev, polkovnik Seyfulla Mehdiyev, Cəlil Əliyev, Murtuz Talıbzadə, komissar Şəmistan Əyyubov və onlarca başqaları belə ağıllı, bacarıqlı sərkərdələr idi... İyirmi-otuzuncu illərdə milli hərbi kadrların hazırlanmasında, Vətənimizin müdafiə qüdrətinin möhkəmləndirilməsində bu sərkərdələrimizin danılmaz xidmətləri olub. Onların arasında Qambay Vəzirovun xüsusi yeri var. Bu igid komandir Azərbaycan hərb tarixinə beş cəsur general bəxş edən Naxçıvandakı nüfuzlu Kəngərli nəslindəndir.

Ömrünün otuz səkkizinci baharında həbs edilən Qambay Məmməd oğlu Vəzirov 1899-cu il avqustun 19-da Ermənistanın Gümrü[1] (indiki Leninakan şəhəri) şəhərində anadan olmuşdur. İlk yeddi illik təhsilini İrəvan gimnaziyasında alan Qambay on səkkizinci ildə səfərbər olunaraq altı ay Türkiyədə işləmişdir. 1919-cu ildə Azərbaycan Demokratik Respublikası milli ordusunda xidmət edən və hərbiyyə məktəbini bitirən Qambay iyirminci ildən iyirmi ikinci ilə kimi Qazaxda, Cəbrayılda və Qarabağda bolşevizm əleyhinə mübarizə aparan daşnaklara qarşı döyüşlərdə vuruşmuşdur.

1. Son vaxtlara qədər Qambay Vəzirovun Naxçıvanda anadan olduğu göstərilirdi. Mərhum polkovnik R.Zeynalovun tapdığı arxiv sənədlərindən mə'lum olmuşdur ki, atası Məmməd Gümrüdə işlədiyinə görə, Qambay orada anadan olmuşdur - Ş.N.

Bəs iyirminci ildə bolşevik ordusuna könüllü keçən, sonralar general-mayor ali rütbəsi verilən və diviziya komandiri kimi məs'ul vəzifə tapşırılan Qambay Vəzirovun otuz yeddinci ildə günahı nəydi?

Arxiv sənədlərində göstərilir ki, guya o, terrorçu-əksinqilabi milli təşkilatın rəhbəri olub. Təşkilatın əsas məqsədi silahlı üsyan təşkil etməklə Bakı qarnizonunun və 77-ci diviziyanın zabitlərini üsyana qaldırıb Azərbaycanı SSRİ-dən ayırmaq idi.

Bunların hamısının yalan və iftira olmasını gec də olsa tarix özü sübut elədi. Ancaq diqqətlə təhlil edib, fikirləşəndə belə qənaətə gəlirsən ki, Qambay Vəzirov kimi iste'dadlı sərkərdənin "günahı" hərbi pillələri sür'ətlə keçməsində olmuşdur. Hələ tör-töküntüsü qalan, özümüzdə mühüm vəzifələr tutan daxili düşmənlərimiz bundan qorxuya düşürdülər. Axı, Qambay həm də vaxtilə musavat ordusunda sıravi əsgər kimi xidmət etmişdi. Bir də, həmin illərdə Qarabağda, Qazaxda daşnak ünsürlərinin məhv edilməsində yaxından iştirak etmişdi. İndi, 1937-ci ildə Azərbaycanda XDİK DTİ beşinci şö'bəsinin rəisi Avanesyan ondan heyfini alırdı. Qambay Vəzirovu həbs etdirən və yalançı ittihamnamələrlə güllələtdirən də daşnak Avanesyan olmuşdur. Akademik Ziya Bünyadovun otuz yeddinci ildə güllələnmiş kapitan Kə'bi Saniyev haqqında "13896 nömrəli istintaq işi" adlı məqaləsindən bir epizodu oxuyanda adam istər-istəməz ürək ağrısı keçirir. 1955-ci il sentyabrın ikisində SSRİ Baş Prokurorluğunun prokuroru keçmiş canilərin birindən soruşmuşdur:

***"SUAL:*** - Söyləyin görək, sizin Azərbaycan SSR XİDK-də işlədiyiniz dövrdə məhbuslara qarşı cəza tədbirləri tətbiq olunurdumu?

***CAVAB:*** - Məhbuslara cəza tədbirləri (repressiya) mənim rəhbər olduğum şö'bədə tətbiq olunurdu, amma konkret olaraq kimə, - indi deməyə çətinlik çəkirəm. Amma yadımdadır ki, Azərbaycan diviziyasının Siyasi şö'bə rəisi Əliyev Cabiri döyürdülər. Başqa familiyalar yadımda deyil. Əliyevi ondan ötrü döyüb əzişdirirdilər ki, o, istintaqa lazım olan ifadələr versin, yə'ni Vəzirov, Axundov və başqaları tərəfindən idarə edilən "əksinqilabi mərkəz" haqqında ifadələr olsun.

***SUAL:*** - Qambay Vəzirovu tanıyırsınızmı?

***CAVAB:*** - Tanıyıram. O, Azərbaycan diviziyasının komandiri idi. O, bizim şö'bə tərəfindən həbs edilmişdi. Onun işini şəxsən beşinci şö'bənin keçmiş rəisi Avanesyan aparırdı. Qambay Vəzirovu dindirmələr zamanı bərk döyürdülər. Onu Avanesyan şəxsən mənim və şö'bənin başqa əməkdaşları-

nın yanında döyürdü. Avanesyan Qambayı şallaqla döyüb ondan tələb edirdi ki, o, özünün əksinqilabi millətçi mərkəzində iştirakı haqda ifadə versin. Qambay əvvəlcə özünü müqəssir bilmədi, bərk döyüləndən sonra isə hər şeyi boynuna alıb lazımi ifadələr verdi. Mən Vəzirov Qambayı döyməmişəm, amma bir daha deyirəm ki, Avanesyanın onu döyməsinin şahidiyəm.

***SUAL:*** - Vəzirov Qambayın həbs edilməsi və məhkum olunması əsaslı idimi?

***CAVAB:*** - O zamankı, mən bildiyim işlərin arasında heç bir diqqətə layiq iş yox idi. O işlərin hamısı məhbuslara zorluğun, işgəncələrin tətbiq olunması ilə quraşdırılıb və o işlərin hamısı qeyri-obyektiv idi. O cümlədən Vəzirov Qambayın işi də ondan və başqa həbs edilmiş adamlardan zorla və işgəncələrlə alınmış yalan ifadələr üzərində quraşdırılıb. İstintaq zamanı məhbuslar dəfələrlə bu ifadələri rədd edirdilər, amma onların bu ifadələri işlərinə tikilmir, məhv olunurdu. İşlərə yalnız o ifadələr tikilirdi ki, onlar istintaq üçün faydalı idi. Həbs edilənlərin başqa ərizələri və rədd cavabları da heç vaxt işlərinə tikilmirdi".

Qambay Vəzirov tək həbs olunmamışdı. Onunla birlikdə Azərbaycan diviziyasından qırx nəfər, Respublika Hərbi Komissarlığından iyirmi nəfər yüksək rütbəli azərbaycanlı zabit həbs olunub "əksinqilabi hərbi təşkilatın üzvləri" kimi günahsız olaraq güllələnmişlər.

***

***1937-ci il oktyabrın on üçündə 77-ci Azərbaycan diviziyasının komandiri, general-mayor Qambay Vəzirovu güllələdilər.*** Bu güllə təkcə Qambaya yox, Azərbaycanın hərb tarixinə dəydi. Onun şəxsində biz Azərbaycanın ən yaxşı sərkərdələrindən birini itirdik. Deyirlər, məşhur generalımız Əli ağa Şıxlinski onun güllələnmək xəbərini eşidəndə qırx gün yas saxlamış və niyə bikef olduğunu soruşanlara "oğlum Qambay güllələnib, belim qırılıb" - cavabını verirmiş.

General-mayor Qambay Vəzirov həbs ediləndən sonra Azərbaycan diviziyasında qadınlar şurasının sədri işləyən həyat yoldaşı İzzət xanım Qiyasbəyli-Vəzirova və yeganə övladı Yavuz da həbs edilib Qazaxıstana sürgün olunurlar. Səkkiz illik Qazaxıstan sürgünündən xəstə qayıdan İzzət xanım 1976-cı ildə Bakıda vəfat edir.

1937-ci il oktyabrın 22-də İzzət xanım İsmayıl ağa qızı Vəzirova Bakıda ümumi həbsxanada saxlanılmışdır. Onu səkkizinci şö'bənin baş müfəttişi, dövlət təhlükəsizlik leytenantı Moşeçkov dindirmişdir.

***SUAL:*** - Nə zamandan siz Qambay Vəzirovla ailə qurmusunuz?

***CAVAB:*** - 1920-ci ildən onunla ailə qurmuşam və onunla birlikdə o, həbs olunana, yə'ni 27 iyun 1937-ci ilə qədər yaşamışam.

***SUAL:*** - Sizə əriniz Qambay Vəzirovun əksinqilabi fəaliyyəti barədə nə mə'lumdur?

***CAVAB:*** - Qambay Vəzirovun əksinqilabi fəaliyyəti barədə mənə heç nə mə'lum deyil.

***SUAL:*** - İş üzrə siz nə əlavə edə bilərsiniz?

***CAVAB:*** - Heç nə əlavə edə bilmərəm. İfadələr mənim sözlərimlə yazılmışdır. Mən onun doğruluğunu öz imzamla təsdiq edirəm.

1937-ci il noyabrın ikisində vətən xaininin arvadı kimi İzzət xanım Vəzirovanın istintaq işi SSRİ XDİK-in xüsusi müşavirəsinə göndərildi. SSRİ XDİK-i yanında Xüsusi Müşavirənin 1937-ci il 9 dekabr protokolundan çıxarış.

***EŞİDİLDİ:*** - 1903-cü il təvəllüdlü İzzət İsmayıl qızı müddəti 1937-ci il oktyabrın altısından hesablanılmaqla səkkiz il müddətinə İslah Əmək Düşərgəsinə göndərilsin. İş arxivə təhvil verilsin.

***Xüsusi Müşavirənin bu qərarından sonra İzzət xanım Vəzirovanı Qazaxıstanın Akmolinsk şəhərinə 8 il müddətinə sürgün etdilər. Onlar 1920-ci ildə evlənmişdilər. On yeddi il sonra hər ikisinə əbədi ayrılıq qismət oldu. 1937-ci il oktyabırın 5-də İzzət xanımı həbs etdilər. Həmin ayın 13-də isə Qambayı əksinqlabi - millətçilik fəaliyyətinə görə vətən xaini adı ilə birinci kateqoriya ilə məhkum edib güllələdilər.***

***1944-cü ildə həbsxanadan buraxılan İzzət xanım Bakıya qayıtdı. Lakin ona burada yaşamağa icazə vermədilər, məcbur olub Şamaxıya getdi. Bir müddət burada yaşadı. Əllinci illərdə Bakıya qayıdan İzzət xanım əri Qambay Vəzirovun və özünün günahsız olduğu haqqında "yuxarılarla" mübarizə aparıb bəraət aldı.***

İzzət xanım sürgündən göndərdiyi məktublarda oğlu ilə maraqlanır və Vətəni üçün darıxdığını bildirirdi. 1938-ci il aprelin on dördündə İ.V.Stalinə yazdığı məktubda yeganə övladının günahsız olaraq həbs olunmasından danışır və acizanə surətdə onun buraxılmasını xahiş edirdi" (C.Qasımov, "Bir ailənin faciəsi" məqaləsi, "Sərhəd" qəzeti, 3 fevral 1996-cı il).



*Öndə general-mayor Qambay Vəzirov (1899-1937), sağdan I-ci polkovnik Murtuz Talıbzadə (1902-1937)*

***

Qambayın yeganə oğlu Yavuz Vəzirov sürgündə olanda Stalinə məktub yazır ki, atam "xalq düşməni" kimi güllələnib. Mən bir sovet gənci kimi atamın günahını yumağa hazıram. İcazə verin, Vətənimizin bu ağır günündə torpağımızın azadlığı uğrunda cəbhələrdə mən də vuruşum...

Cəza batalyonunda döyüşən Yavuz Vəzirov iyirmi iki yaşında, 1942-ci ildə Stalinqrad yaxınlığında qəhrəmanlıqla həlak olmuşdur.

1956-cı il iyulun iyirmi səkkizində SSRİ Ali Məhkəməsinin hərbi Kollegiyasının qərarı ilə ölümündən sonra 77-ci Azərbaycan diviziyasının komandiri general-mayor Qambay Məmməd oğlu Vəzirova bəraət verilmişdir.

Bir müdrik Şərq məsəlində deyilir ki, uşaqlıqda eşidilən söz, oxunan elm daşa yazılmış yazı kimidir. İllərin tufanı, qasırğası belə onu poza bilmir. 37-nin qara tufanları başlayanda Fəxrəddin Vəzirovun 12 yaşı vardı. Əmiləri Qambay və Heydər Vəzirovun haqsızlığın qurbanı olmaları onun uşaq qəlbinə ağır zərbə vurdu. Yaddaşında uşaqlıq illərinin ağrılı-acılı xatirələri yaşayır:

- Qambay Vəzirov atamın əmisi oğlu idi. Böyük qardaşı Sədrəddin maliyyə işçisi idi. Elmi dərəcəsi də vardı. Kiçik qardaşı Hüseyn də hərbçi idi. Rütbəsi polkovnik olub. Sədrəddin əmimi də xalq düşməninin qardaşı kimi 37-də güllələdilər. Hüseyn əmim respublikadan qaçıb, deyilənə görə Gürcüstana gedib, Veziraşvili familiyası ilə yaşayıb. Bu günə kimi də ondan bir xəbər bilmirik...

Bütün bunlardan sonra bizim ailəni, nəsli yenə də tə'qib edirdilər. Dayım Həqqi və Kamal Kəngərlinskiləri, babamı sürgün etdilər. Qambay əmim tutulanda biz yaylaqda idik. Qayıdanda evimizi dağılıb, talan olmuş gördük.

Nəyimiz vardı çölə töküb, kitabları, əlyazmaları, evdə qiymətli nə varsa hamısını aparmışdılar. Bizə olmazın əzab verdilər.

Bir hadisəni xatırlayanda indi də xəcalət çəkirəm. Altıncı sinifdə oxuyurdum. Səhər dərsə gələndə gördüm uşaqların hamısını məktəbin qabağına yığıblar. Direktor məni çağırıb dedi ki, gəl, sən çıxış et, de ki, əmilərim və dayılarım "xalq düşməni" olduqlarına görə biz onları istəmirik. Bütün ailəmiz adından bildirirəm ki, onlar "xalq düşməni" kimi haqlı olaraq güllələniblər. Yoxsa səni məktəbə buraxmayacağıq. Oxumaq üçün burnumun ucu göynəyirdi. Məcbur olub direktor deyənləri dedim...

Cəmisi on yeddi il ordu sıralarında xidmət edən Qambay Vəzirov sıravi əsgərdən general-mayor rütbəsinə qədər yüksəlib. İnsafla demək lazımdır ki, bu da az-az hərbçiyə qismət olub. Xüsusilə milliyyətcə rus olmayan zabitin otuz üç yaşında diviziya komandiri və general-mayor rütbəsi alması Sovet hərb tarixində nadir hadisədir. Adətən başqa millətin oğluna Sovet Ordusunda ali general rütbəsini iste'faya çıxanda, qocalıb əldən düşəndə verirdilər. O da nadir hallarda...

1932-ci ilin baharında SSRİ Xalq Müdafiə Komissarı K.Y.Voroşilovun şəxsi teleqramı ilə Moskvaya çağırılan Qambay Vəzirovun Belorusiyadakı hərbi fəaliyyəti yüksək qiymətləndirilir. O, Xalq Müdafiə Komissarının 886 nömrəli əmri ilə Azərbaycan dağ-atıcı diviziyasına komandir tə'yin olunur.

Qambay hərb sənətinin çətin yollarını çox böyük müvəffəqiyyətlə keçmişdir. Hələ 1922-ci ildə 23 yaşlı Qambay Əlahiddə Qafqaz Ordusu Hərbi İnqilab Şurasının əmri ilə ə'laçı siyasi rəhbər kimi batareya komandiri, Frunze adına Hərbi Akademiyaya oxumağa göndərildi. Qambay Vəzirov hərbi akademiyada təhsil alan ilk azərbaycanlı idi. Üç illik hərbi təhsildən sonra o, 1925-ci ilin avqust ayından Birləşmiş Azərbaycan Hərbi-siyasi məktəbinin rəisi tə'yin olundu. Onun bir illik fəaliyyəti haqqında attestasiyasında Qırmızı Bayraqlı Qafqaz ordusu Ali Hərbi Təhsil Müəssisələrinin baş müfəttişi Artomonov yazırdı:

"Məktəb rəisi işlədiyi bir il ərzində yalnız müsbət keyfiyyətli işinin şahidi olduq. Böyük iradəyə, təşəbbüskarlığa malikdir. Özünə hörmət edən, qətiyyətli, işgüzar və yaxşı metodist-müəllimdir. Kursantların, müəllimlərin və komandir hey'ətinin hörmətini qazanıb. İctimai işlərdə, xüsusilə hərbi-elmi cəmiyyətdə fəal iştirak edir. Ali təhsili var. Böyük inzibati-təcrübi stajı olmasa da, öz qabiliyyəti və əməksevərliyi sayəsində məktəbin rəisi vəzifəsinin öhdəsindən tam gələ bilir (Sovet Ordusunun Mərkəzi Dövlət Arxivi, Q.M.Vəzirovun 157-871 nömrəli şəxsi işi. 1-ci vərəq).

***

Milli hərbi kadrların hazırlanması üçün gərgin fəaliyyət göstərən Qambay Vəzirov məktəbin ikinci buraxılışında "Yüz on yeddi" adlı məqaləsində iftixarla yazırdı ki, fəhlə-kəndli balalarından hazırlanan müdavimlərimiz ordunun ən yaxşı ən'ənələrini davam etdirəcəklər. Biz inanırıq ki, yüz on yeddi müdavimin şəxsində hərbi hissələrimiz hərtərəfli biliyə və komandirlik qabiliyyətinə malik vzvod komandirləri ilə tə'min olunacaqlar.

Qambay Vəzirov daha sonra yazırdı: "Milli olaylarındöyüş bacarığını yüksəltmək qarşıda duran əsas vəzifədir. Sentyabrın 15-də Azərbaycan Birləşmiş Hərbi məktəbindən yüz on yeddi nəfərin buraxılması böyük əhəmiyyətə malik olmaqla yanaşı, fəhlə-kəndli cəmiyyətinin geniş kütlələrinin diqqətini özünə cəlb etməyə layiq faktdır. Yeni buraxılış milli alaylar üçün kadrlar hazırlanması və onların özəyinin möhkəmləndirilməsi işində tamamilə yeni addım olacaqdır."

1927-ci ilin oktyabrında ölkədə hərbi islahatın həyata keçirilməsi ilə əlaqədar Zaqafqaziya milli hərbi ali təhsil məktəbləri birləşdirilib Tiflisə köçür. Həmin il o, Leninakanda yerləşən üçüncü Qafqaz atıcı diviziyasında qərargah rəisi olur. İste'dadlı komandir Qambay Vəzirovun rəhbərliyi ilə Azərbaycan atıcı diviziyası 1929-cu ilin avqust-sentyabr aylarında Əlahiddə Qafqaz ordusunun ilk manevrlərində müvəffəqiyyətlə iştirak edir. Bu manevrdə göstərdiyi komandirlik məharətinə görə üstü yazılı silahla mükafatlandırılır.

1930-cu ilin noyabrında ən yaxşı döyüş komandiri olan Qambay Vəzirova Belorusiya hərbi dairəsindəki 111-ci atıcı alayının komandiri və həm də jizdra şəhər qarnizonunun rəisi kimi məs'ul vəzifələr tapşırılır.

1925-ci ildən başlayaraq, ona verilən attestasiya arayışlarında Qambay Vəzirovun hərb sənətini yaxşı mənimsəyən, ə'la inzibatçı, təmiz və sayıq bir komandir olduğu göstərilir. Diviziya komandiri Cəmşid xan Naxçıvanskinin, diviziya hərbi komissarı Həsən Rəhmanovun, hərbi komissar Korobkovun təqdimatında onun diviziyaya, hətta korpusa belə komandirlik edə biləcək bacarığı olduğu iftixarla qeyd olunur.

Onu da xatırladaq ki, Qambay Vəzirovun iste'dadlı hərbi xadim kimi yetişməsində məşhur generallarımız Əli ağa Şıxlinskinin və Səməd bəy Mehmandarovun xüsusi xidmətləri olmuşdur. Məhz onların müdrik məsləhət və köməklikləri ilə Azərbaycan milli diviziyasının atıcıları, topçu və süvariləri istər Hacıkənddə, Qarayazıda, istərsə də Şimali Qafqazda Zaqafqaziya ordusunun taktiki tə'lim-məşqlərində birinci yeri tutmuşlar.

"Xatirələrim"də 1924-cü ili yada salan Əli ağa Şıxlinski yazır ki, Azərbaycan komanda hey'əti məktəbi rəisinin xahişi ilə məni ona müavin tə'yin etdilər. O biri il - 1925-ci ildə məktəb kollektivi Surami şəhəri yanındakı düşərgəyə getdi. Bütün Zaqafqaziya hərbi məktəblərinin kollektivləri buraya yığılmışdı. Ötən il burada hərbi məktəblərin atəş yarışı olmuşdu. Azərbaycan məktəbi hazır olmadığından bu yarışlarda iştirak etməmişdi. Bu, mənə çox toxundu. Silahı sevən gənclərimizin yarışa çıxa biləcək dərəcədə hazırlanmamaları mənə ağır gəldi.

Elmi komitənin ilk iclasında mən göstərdim ki, belə tə'lim vermək olmaz. Hər kursanta atmağa bircə güllə verilməli və atdığı bu güllənin nəticələrini bildirərkən güllənin nə səbəbə boşa çıxdığını ona izah etməli, buraxdığı səhvi düzəltmək üçün ona ikinci dəfə güllə atdırılmalı və i.a. Məktəb rəisi əmr verdi ki, "müavinimin təklifi protokola qeyd edilsin və ona mütləq əməl olunsun". Bu zamandan başlayaraq, biz atəş məşqində kursantlarımızı "işə çəkməyə" başladıq. Düşərgə toplanışının axırında bizim vzvod yarış atəşinə çıxdı və birincilik qazandı. Mənim azərbaycanlılıq izzəti-nəfsim tə'min edilmiş oldu.

Diqqətli oxucu yə'qin fikir verdi ki, xatirə müəllifi məktəb rəisi Qambay Vəzirovun bir dəfə də adını çəkmədi. Bunun da səbəbi var: Əli ağa Şıxlinski xatirələrini 1942-ci ildə yazıb. Onda keçmiş məktəb rəisi Qambay Vəzirovun həbs olunmasından beş il ancaq keçirdi. Onun tərcümeyi-halında hələ də "xalq düşməni" damğası vardı.

***

1935-ci il dekabrın otuzunda Azərbaycan atıcı diviziyasının on beş illiyi qeyd olunurdu. Diviziya SSRİ Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə Qırmızı Bayraq ordeni ilə təltif olundu. 1936-cı il yanvarın 27-də isə bir qrup azərbaycanlı əsgər və zabitin xidməti Qırmızı Ulduz ordeninə layiq görüldü. Onların arasında diviziya komandiri Qambay Vəzirov, komissar Cabir Əliyev, alay komandiri Seyfulla Mehdiyev, kiçik komandir Rəhim Aslanov və İlyas Verdiyev də vardı. Bu təntənəyə görə Bakıda qarnizon hissələrinin nümayişi keçirildi.

Müasirlərinin xatırladığına görə, Qambay Vəzirov o vaxtkı komandir hey'əti arasında ən savadlı, cəsur və hazırlıqlı bir şəxsiyyət olmuşdur. Onun döyüş dostu, respublikanın keçmiş hərbi komissarı polkovnik Ağəli İsmayılov yazır ki, Qambay Vəzirov, necə deyərlər, anadangəlmə sərkərdə idi. O, milli birləşmələrin təşkili və hərbi kadrların artması sahəsində bir sıra mühüm tədbirlərin hazırlanıb həyata keçirilməsində yaxından iştirak edirdi.

Mərkəzdən təftişə gələn hərbi şuranın üzvləri belə onun qeyri-adi hərbi bacarığına heyran qalırdı.

Vaxtilə Qambay Vəzirovun dviziyasında zabit kimi xidmət etmiş ***Musa Həmid oğlu Heybətov*** 1956-cı il mayın 3-də verdiyi şahid ifadəsində demişdir:

"Azərbaycan dviziyasının komandir və siyasi işçilərinin çoxusunu yaxından tanıyırdım. Mən bizim dviziyada hər hansı bir əksinqilabi təşkilatının fəaliyyətini qətiyyətlə inkar edirəm. Bu haqda hələ 1937-ci ildə demişəm. Elə buna görə də əvvəlcə məni partiya sıralarından çıxartdılar. Sonra da etibarsız adam kimi ordudan təxis etdilər.

Qambay Vəzirovu sağlam ideyalı, yüksək mədəniyyətli, savadlı, alicənab və bacarıqlı bir komandir kimi tanıyırdım. General Qambay Vəzirov tələbkarlığı ilə yanaşı, əsgər və zabitlərin qayğısına qalır, bütün komanda heyətinə səmimi münasibət bəslədiyi üçün hamı onu sevir və hörmət edirdi."

***Xalqımızın general oğlu mərhum Akim Əli oğlu Abbasov*** ordu sıralarında çox şərəfli bir ömür yolu keçib. Ona xidmətinin ilk illərində şöhrətli diviziya komandiri Qambay Vəzirovla görüşmək və tabeliyində işləmək nəsib olub. Komandirini general Akim Abbasov xoş sözlərlə xatırlayırdı:

- Yadımdadır, 1935-ci ildə diviziyamız hərbi tə'limdən yenicə qayıtmışdı. Bizim diviziya Böyük Qafqaz sıra dağlarına yürüşdə dörd yüz iyirmi kilometr məsafəni qət eləmişdi. Növbəti məşğələ keçirirdik. Bir döyüşçü yaxınlaşıb mənə dedi ki, yoldaş leytenant, sizi diviziya komandiri Vəzirov çağırır. Tə'cili onun yanında olmalısınız. Mən dərhal qərargaha getdim. Gördüm məndən başqa da dörd zabit var. Diviziya komandiri məni qəbul edib dedi:

- Çox sağ olun, yay tə'limində göstərdiyiniz fəallığa görə xalq müdafiə komissarı, marşal Voroşilov sizi saatla mükafatlandırır.

Qambay Vəzirov bizi təbrik etdi. Tə'limdə və siyasi hazırlıqda yeni müvəffəqiyyətlər arzulayıb saatı bizə təqdim etdi. Sevimli komandirimin hədiyyəsini bu gün də əziz yadigar kimi saxlayıram.

Bu yürüşdə Kazbek dağının zirvəsinə hamıdan qabaq mənim rotam qalxmışdı. Döyüşçüləri "hücuma" və "müdafiə döyüşlərinə" ə'la hazırladığıma görə, Qambay Vəzirov özü bu mükafatı mənə təqdim etmişdi. Qambay Vəzirovun xatirəsi mənim üçün son dərəcə əziz olaraq qalır. O vaxtlar onun adı hər bir azərbaycanlı döyüşçü üçün fədakarlıq, igidlik rəmzi idi. Siyasi məşğələlərdə, hərbi tə'limlərdə onun hər bir sözünü belə diqqətlə dinləyirdik. O, alovlu natiq olmaqla bərabər, taktiki məşğələlərin də mahir bilicisi idi. Dövrünün texnikasını mükəmməl bilirdi.

1935-ci ilə qədər mənim kimi çox gənc bir azərbaycanlı zabitinin dördüncü Dağ-Atıcı alayının istehkamçılar rotasının komandiri vəzifəsinə qədər yüksəlməyində unudulmaz komandirim Qambay Vəzirovun böyük əməyi olmuşdur. Qambay orduda, milli birləşmələrdə azərbaycanlı komandirlərin artması uğrunda var qüvvəsi ilə çalışırdı.

"Hərbi bilik" jurnalının nəşri general Əli ağa Şıxlinskinin adı ilə bağlıdır. Bu jurnal onun təşəbbüsü ilə yaranmışdı. "Qızıl əsgər" qəzeti isə komissar Cabir Əliyevin təşəbbüsü ilə nəşr olunurdu. Bakıda ilk ordu klubunun yaradılması isə Qambay Vəzirovun və Cabir Əliyevin adı ilə bağlıdır. Hər ikisi möhkəm dost idilər. Heyf ki, ikisi də otuz yeddidə günahsız güllələndi. Biz gənc zabitlər istər general Şıxlinskinin, istərsə də Qambay və Cabirin hərbi mövzuda yazılarını acgözlüklə mütaliə edərdik.

General Qambay Vəzirov, Cəmşidxan Naxçıvanski, komissar Həsən Rəhmanov və Heydər Vəzirov hərb elmində həm də hərbi nəzəriyyəçi kimi yetişmişlər. Qambay rus dilində olan hərbi ədəbiyyatları, nizamnamələri Azərbaycan dilində tərcümə etmişdi. Milli diviziya və birləşmələr haqqında həm publisistik, həm də elmi məqalələrlə "Qızıl əsgər", "Hərbi bilik", "Kommunist" və "Bakinski raboçi" kimi mətbuat orqanlarında müntəzəm olaraq çıxış etmişdir.

1920-ci ildən həyat və fəaliyyətini xalqının müdafiə qüdrətinin möhkəmlənməsinə həsr edən Qambay Vəzirov respublikanın ictimai-siyasi işində də fəal iştirak etmişdir. Dəfələrlə Respublika Mərkəzi Komitəsinin tərkibinə seçilən Qambay Vəzirov Zaqafqaziya MİK-in və SSRİ Mərkəzi İcraiyyə Komitəsinə də üzv seçilmişdir.

***

Təəssüf ki, belə şöhrətli sərkərdəmiz unudulmuş, yaddan çıxmışdır. Bir-iki dəfə anadan olma günü yetmişinci illərdə qəzetlərdə qeyd olunmuşdur. Acınacaqlı haldır ki, Qambay haqqında yazılan quru, ürəksiz və partiyalı olan bu məqalələrin müəllifi milliyyətcə erməni olmuşdur. Bu gün onun adı bircə ünvanda əbədiləşmişdir: Naxçıvandakı 6 saylı orta məktəb Qambay Vəzirovun adını daşıyır.

1989-cu ilin fevralında igid komandir Qambay Vəzirov haqqında "Hünər" televiziya verilişinin səhifələrində söhbət açdıqdan sonra xeyli məktub aldıq. Hətta vaxtilə İzzət xanım Qiyasbəyli - Vəzirovanın qonşusu olmuş Zahidə Mustafayeva redaksiyamıza gəlib Vəzirovlar ailəsinin faciəsindən tə'sirli epizodlar danışdı. Redaksiyamıza gələn çoxsaylı məktublardan biri daha

tə'sirli olduğu üçün onun qısa məzmunu ilə oxucuları da tanış etmək istərdim. Məktubu vaxtilə igid sərkərdənin əsgəri olmuş, indi elimizdə, obamızda yaxşı tanınan ağsaqqal aşıq Barat Şirvanlı göndərib. O yazır: "Yanvarın on dördündə olan verilişinizə də baxdım. (Tamaşaçıların xahişi ilə Q.Vəzirov haqqında üç veriliş verdik). Həm kədərləndim, həm də sevindim. Sevindim ona görə ki, mənim əziz komandirimi əlli ildən sonra da olsa efirdə görə bildim. Kədərləndim ona görə ki, o illəri xatırladım. Bu ahıl vaxtımda göz yaşlarımı saxlaya bilmədim. Verilişdən sonra bütün varlığım titrəyirdi. Sizə məktubu da əlim əsə-əsə yazıram...

1937-ci ildə Salyan kazarmasında hərbi xidmətdə idim. Əvvəlcə mən kapitan Şahtaxtinskinin yavəri oldum. Diviziya komandirimiz Qambay Vəzirov idi. Vəzirovun Çovğun adlı bir atı vardı, ona da mən baxırdım. Bu yaraşıqlı at sanki dil bilirdi. Onu elə öyrətmişdim ki, hər səhər yəhərləyib-yüyənləyəndən sonra bircə dəfə yüngülvari təpinib deyərdim: get, komandiri gətir. Yüyəni yəhərə bənd olunmuş Çovğun at Salyan qazarmasından birbaşa Qambay Vəzirovun yaşadığı Nizami küçəsindəki mənzilinə gələrdi. Həyətdə iki-üç dəfə kişnəməyi ilə gəlişini sahibinə bildirərdi. Hər səhər əziz komandirimiz Qambay Vəzirovu Çovğun at beləcə işə gətirərdi. Bir dəfə də olsun Çovğun nə yolunu azdı, nə də yüyənini, yəhərini itirdi.

Bir gün siyasi məşğələ keçirdik. Xəbər gəldi ki, komandirimiz Qambay Vəzirovu həbs ediblər. Səhərisi Çovğunun yəhərlənmək vaxtı gələndə kişnərtisindən dayanmaq olmurdu, o dartınır, yerində oyur-oyur oynayırdı. Yerə-göyə sığışmayan Çovğunu göz yaşımla yəhərləyib, həmişəki kimi yüyənini yəhərinə bənd eləyib buraxdım. İzlədim ki, görüm hara gedəcək. Çovğun at yenə birbaşa Nizami küçəsinə, komandirimizin həyətinə getdi. Dalınca gəlib gördüm ki, başıaşağı sakitcə dayanan Çovğun at burnu uzunu göz yaşı tökür. Özümü saxlaya bilməyib mən də zülüm-zülüm ağladım. Zorla onu darta-darta kazarmaya gətirdim. Heç kəsi minməyə yaxın qoymurdu. Kişnəyib şahə qalxan at Salyan kazarmasının həyətini başına götürmüşdü. Qərargah binasına yaxınlaşır, tükürpədici səslə bir-iki ağız kişnəyib, götürülürdü klub tərəfə, məşq meydanına, həyətdə fır-fır fırlanırdı. Sanki dilə gəlib "hanı mənim komandirim?" - deyə nalə çəkirdi. Heç kəs Çovğun ata baxa bilmirdi. Hamı qulağını tutub içəriyə qaçırdı. Bir həftəyə yaxın heç nə yeməyib, nalə çəkən Çovğun çərləyib öldü.

Bax, bu hadisə oldu, məni sizin verilişdən sonra zülüm-zülüm ağladan...

## KOMİSSAR HEYDƏR VƏZİROV



***Heydər Vəzirov (1893-1937) və həyat yoldaşı Leyla xanım (1898-1938)***

Zülmət gecələrin birində "Çornı voron" maşını komissar Heydər Sadıq oğlu Vəzirovun həyətində dayandı. Maşından düşən üç kölgənin biri çöldə - qapı ağzında dayanıb, ikisi sür'ətlə ikinci mərtəbəyə qalxdı. Evi ələk-vələk elədilər, qorxudan titrəşən körpələrə məhəl qoymadılar. Şəkilləri, əlyazma və sənədləri yığışdırıb kəndirlə bağladılar. Gicgahları yenicə ağarmış kişi meşin qovluğu açıb həbs orderini stolun üstünə qoydu, naqanın lüləsini onun son səhifəsinə dirəyib "burdan qol çək" - dedi. Komissar Heydər Vəzirov bir kəlmə danışmadan qol çəkdi. Bilirdi ki, danışmağın, müdafiə olunmağın xeyri yoxdur. "Əmioğlu Qambayı apardılar, ailəsini həbs etdilər. Naxçıvandakı uzaq-yaxın Kəngərli qohumları da apardılar... İndi də növbə

mənimdir". O, şinelini geyindi. Əvvəlcə dörd yaşlı qızı Elmiranı öpdü. Uşaq tir-tir titrəyirdi, boynuna sarılıb boğula-boğula ağladı. Onu zorla özündən qoparıb, anası Leylaya verdi. Öz adını qoyduğu böyük oğlu Heydərin alnından öpüb astadan "anandan, bacından muğayat ol. Yaxşı, ayıbdı, sən axı kişisən" - deyib, özü də doluxsundu.

Qambayın əmisi oğlu komissar Heydəri beləcə sorğusuz-sualsız apardılar.

Köpək leşə dadanan kimi onlar da harda xalqımızın yaxşı oğulları, adlı-sanlı nəsilləri vardısa, onlara hücuma keçib "təmizləmə" aparırdılar. Beləcə, 37-ci illərin ağır zərbəsi xalqımızın milli tarixinə, bütün sahələrdə - ədəbiyyat, incəsənət, kənd təsərrüfatı, sənaye və ən başlıcası hərb tariximizə çox dəhşətli zərbələr vurdu. Hər gecə bir komissar, hər gecə yüksək rütbəli zabit, hərbi komisar gedər-gəlməzə göndərilirdi. Əgər o illərin haqsız qırğınları olmasaydı, indi neçə-neçə general, admiral oğullarımızın şan-şöhrəti ilə fəxr edərdik. Stalin, Beriya və Bağırov vəhşiliklərinin ehtirasının qurbanı olan zabitlərimiz günahsız olaraq həbs edilib Sibirin, Qazaxıstanın həyat nişanəsi olmayan qarlı çöllərində, dar və havasız, bir nəfərlik kameralarda üstünə min cür yalan, şər atılmaqla məhkəməsiz və qanunsuz güllələndilər.

İyirminci illərdə respublikamızda ilk hərbi məktəblərin yaradıcılarından biri və Əliheydər Qarayevdən sonra ikinci respublika hərbi komissarı (1924-26-cı illərdə) olan Heydər Vəzirovu 1937-ci ildə Respublika Torpaq komissarı işləyəndə "pantürkist" adı ilə həbs etdilər.

***Görkəmli şairimiz, mərhum Qasım Qasımzadənin yaddaşından:***

- Onda mənim on üç-on dörd yaşım vardı. O ilin təlatümlü günlərini indiki kimi xatırlayıram. Kənddə çox nüfuzlu sayılan, sözükeçən şəxsiyyətlər bir-bir dənlənirdi. Bir hadisə gözümün qabağından getmir. Gərək ki, Azərbaycanda Sovet hakimiyyətinin ildönümü idi. Kənddə təntənəli yığıncaq keçirilirdi. Klub ağzına kimi dolmuşdu. Biz məktəblilər yerimizi yaşlılara verib ayaq üstə dayanmışdıq. O zaman hər mə'ruzədən, çıxışdan sonra yer-yerdən rəhbərliyin, xalq komissarlarının şə'ninə "yaşasın"la başlayan şüar demək dəbdə idi. Mə'ruzə qurtaran tək alqışlar başlandı. Bir nəfər kolxozçu - suçu Hüseyn ayağa qalxıb dedi: "Yaşasın Azərbaycanın Torpaq komissarı yoldaş Vəzirov!". Onun alqışı təkəmseyrək çəpiklə qarşılandı. Sən demə, bir gün əvvəl Vəzirov "xalq düşməni" kimi "ifşa" edilibmiş. Bir-iki əl çalan da bundan xəbərsizmiş. Rəyasət hey'əti bir-birinə dəydi.

Sədr ayağa qalxdı:

- Vətəndaş, səhvini geri götür!

Suçu Hüseyn çaşbaş qaldı:

- Vəzirov yoldaşa nə olub ki, səhvimi geri götürüm?
- Demək, bilmirsən nə olub?
- Bilmirəm...
- Başa salarlar bilərsən...

İclas yekunlaşdı. Dağılışdılar. Suçu Hüseyn də belini götürüb, pambıq sulamağa getdi. Aradan iki saat keçməmiş klubun qarşısında iki maşın dayandı. Taxta qoburlu, onatılan tapançalı zəhmli adamlar tökülüşdülər. Az sonra şalvarı dizinəcən çirməkli, ayaqları palçıqlı suçu Hüseyni milisioner qabağına qatıb gətirdi. Əl-ayağını yudurtdular. Evindən ayaqqabısını və bir həftəlik azuqəsini götürtdürüb maşına mindirdilər. Kişi çaşıb qalmışdı. Elə hey soruşurdu:

- Axı yoldaş Vəzirova nə olub ki?!
- Gedərsən yanına, özündən soruşarsan ki, sənə nə olub?

Suçu Hüseyn o gedəndi ki, gedib, xəbərsiz-ətərsiz...

***

Otuz yeddinin acı burulğanlarında belə mürvətsiz, qansız hadisələr, həbslər çox olub. Çox ailələr başsız qalıb, evi talan olunub. Axşam ailəsi ilə birgə şam eləyib yatan ata, səhər "xalq düşməni" çıxıb. Sumbatovların, borşovların, markaryanların, qriqoryanların murdar əlləri suçu Hüseynlərin günahsız qanını axıdıb. Haqqında söhbət açdığımız nə Qambay, nə də Heydər Vəzirovların ailəsindən bir nəfər belə sağ qalmayıb. Sürgünlər, həbsxanalar onları sağalmaz xəstəliyə yoluxdurub vaxtsız məhv etdi.

1913-cü ildən başlayaraq ömrünün sonunadək xalqına sidq ürəklə xidmət edən Heydər Vəzirov bu günə qədər unudulmuş, yaddan çıxmışdır. Azərbaycan Sovet Ensiklopediyasında onun adı heç olmasa bir cümlə ilə də xatırlanmır, xidmətləri nədənsə danılır. Onun unudulmağının ilkin səbəblərindən birini biz rus dilli sənədlərdə görürük. Çox vaxt Qambay Vəzirovla onu qarışıq salırlar. Rus dilli sənədlərdə Heydər adı da "Q" hərfilə yazılır, Qambay da. Hər ikisi də hərbçi olub. Ona görə də bir çox tədqiqatçılar Heydərin xidmətlərini bə'zən Qambay Vəzirovun adına yazıblar. Bu günə qədər komissar Heydər Vəzirovun nə anadan olmasının ildönümü qeyd olunub, nə də onun adı əbədiləşdirilib.

Heydər Sadıq oğlu Vəzirov 1893-cü ildə Naxçıvanın qədim Nehrəm kəndində ziyalı ailəsində anadan olub. İlk ibtidai təhsilini o vaxtın qabaqcıl ma-

arif ocağı olan “Tərbiyə” adlı üsuli-cədid məktəbində alıb. Heydər Vəzirov həmin məktəbdə məşhur ədəbiyyatşünas Əziz Şəriflə, teatr xadimi Rza Təhmasiblə birgə oxuyub. Məktəbin hamisi məşhur maarif xadimi Məmməd Tağı Sidqi idi.

Naxçıvanda üsuli-cədid məktəbini bitirdikdən sonra atası Sadıq, Məmməd Tağı Sidqinin məsləhəti ilə balaca Heydəri İrəvan seminariyasına qoyur. Seminariyanı müvəffəqiyyətlə bitirən Heydər 1913-cü ildə gimnaziyanın səkkizinci sinfinə imtahan verir. Birinci Dünya Müharibəsi başlandığına görə az müddət gimnaziyada oxuyan Heydər Vəzirov səfərbərliyə alınaraq qısa müddətli hərbi məktəbdə təhsil alır. 1915-ci ilin iyun ayında kiçik zabit rütbəsi ilə Qalitsiya uğrunda döyüşlərdə əsir düşür.

Üç il alman əsirliyində qalan Heydər Vəzirov 1918-ci ildə Rusiya ilə Almaniya hərbi əsirləri dəyişəndə yaralılar sırasında Türkiyədən keçərək Qafqaza qayıdır.

1918-ci ilin noyabrından Azərbaycan Demokratik Respublikasının Milli Ordusunda kiçik komandirlər hazırlayan məktəbdə müəllim işləyir. 1920-ci ilin aprel çevrilişindən sonra Heydər Vəzirov və hərbi məktəbin kollektivi bolşeviklərin tərəfinə keçir. Həmin ilin iyun ayında o, partiya sıralarına qəbul edilir.

Komissar Heydər Vəzirov bundan sonrakı bütün şüurlu həyatını milli hərbi kadrların hazırlanmasına sərf edir. Onu “Hərbiyyə məktəbi”nin rəisi tə’yin edirlər.

Hələ iyirminci illərin sənədləri göstərir ki, komissar Heydər Vəzirov komandir şərəfini yüksək tutmuş və bu adı hörmətlə daşımışdır. Onun böyük bacarıqla rəhbərlik etdiyi Azərbaycan Birləşmiş Hərbi Məktəbinin müdavimləri Gürcüstanda menşeviklərə, Ermənistanda daşnaklara qarşı hərbi əməliyyatlarda fəal iştirak etmişdir. Azərbaycan İnqilab Komitəsinin sədri Nəriman Nərimanovun, Xalq Hərbi və Dəniz komissarı Əliheydər Qarayevin verdiyi əmr və sənədlərdə bunu aydın görmək olur.

Əliheydər Qarayevin Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinə göndərdiyi 29 iyun 1920-ci il tarixli raportda deyilir: “Mənim adımı daşıyan (həmin illərdə hərbi məktəb korpus komandiri Əliheydər Qarayevin adına idi - Ş.N.) hərbi məktəbin rəisi yoldaş Vəzirov Heydər Sadıq oğlu məktəbin təşkil olunmasından bu vaxtadək öz vəzifəsini müstəsna fədakarlıqla yerinə yetirir. İşinin öhdəsindən bacarıqla gələn bir komandir kimi Heydər Vəzirovun təltif olunmasını xahiş edirəm.

Vəzirov yoldaş başda olmaqla məktəb tam tərkibdə Quba, Gəncə və Qazax qəzalarında, habelə Qarabağda daşnaklara qarşı döyüşlərdə bir neçə kursantını və bir qırmızı komandirini itirib. Məktəbin sonuncu yürüşü Gürcüstana, Qızıl Ordunun Tiflisə irəliləyişi zamanı olmuşdur. Buna görə də hərbi məktəb "Qırmızı bayraq"la təltif olunmuşdur. Məktəbin komandiri Heylər Sadıq oğlu Vəzirovun "Qırmızı Bayraq" ordeni ilə təltif olunmasını layiq bilirəm".

Heydər Vəzirov 1923-cü ildə Qırmızı Bayraq ordeni ilə və 6197 nömrəli Fəxri Fərmanla təltif olunmuşdur. Komissar Heydər Vəzirov hərbi sahədə göstərdiyi fəallığa və qəzalarda banditizmə qarşı mübarizəyə görə dəfələrlə qiymətli silahla mükafatlandırılmışdır.

Respublikamız üçün ağır illər olanda Heydər Vəzirov mərd, mübariz dövlət xadimləri və məşhur generallarımız Əli ağa Şıxlinski, Səməd bəy Mehmandarov, mayor Hacı ağa İbrahimbəyli ilə birgə işləmişdir. İyirminci illərdə Azərbaycanda işləyən general-leytenant Aleksandr Todorski sonralar "Bakinski raboçi" qəzetində (22 fevral 1958-ci il) bir sıra görkəmli Azərbaycan oğullarının əvəzsiz xidmətini xatırlayaraq yazırdı: "İllər keçsə də mən hərtərəfli hərbi biliyə malik olan, yaraşıqlı, vüqarlı Azərbaycanın o vaxtkı hərbi komissarı Heydər Vəzirovu yaxşı xatırlayıram. Qəlbən təmiz, xalqını ürəkdən sevən Heydər yorulmaq bilmədən çalışqan adam idi".

İste'dadlı sərkərdə, SSRİ Hərbi Təhsil Müəssisələri Baş İdarəsinin rəisi, komkor İ.E.Yakir 1925-ci ilin martında hərbi məktəblərin və Azərbaycan diviziyasının taktiki hazırlığını yoxlamağa gələndə hərbi milli kadrların hazırlığında Heydər Vəzirovun xidmətini xüsusilə qeyd etmişdir.

Xatırladaq ki, həmin illərdə Heydər Vəzirov bir neçə mühüm vəzifədə işləmişdir: Azərbaycan Sosialist Şura Cümhuriyyətinin Hərbi komissarı idi. O, həm də mətbuatda hərbi mövzularda maraqlı yazılarla müntəzəm olaraq çıxış edirdi. "Qızıl əsgər" qəzetində hərbi tə'limin keçirilməsi, hərbi dərslərin keyfiyyəti, döyüş taktikası, hərbi nizamnamələrin hazırlanması və çapı barədə maraqlı yazıların müəllifi idi.

Cəmi 44 il ömür sürmüş komissar Heydər Vəzirovun bir hərbçi kimi xalqımız qarşısında əvəzsiz xidmətləri var. O, 1925-ci ildə Göyçay Qəza İcraiyyə Komitəsinin sədri, 1927-ci ildə Zaqafqaziya Sosialist Federativ Şura Cümhuriyyəti Xalq Torpaq komissarı, 1933-cü ildə isə Azərbaycan SSR torpaq komissarı tə'yin edilir.

Otuzuncu illərdə ölkədə Stalinin cəza tədbirləri sənayeni, kənd təsərrüfatını, elm və maarifi gücdən saldı. Sovet Ordusu da, Azərbaycan milli diviziyası da özünün ən yaxşı komandirlərini itirdi. Diviziya komandirləri Cəmşid Naxçıvanski, Qambay Vəzirov, komissar Şəmistan Əyyubov (Sarı Şəmistan - Ş.N), polkovnik Seyfulla Mehdiyev, Murtuz Talıbzadə, Abdulla Məlikov kimi oğullar repressiyanın qurbanı oldular.

1937-ci ildə Azərbaycan SSR Xalq Torpaq Komissarlığının ünvanına "Əksinqilabçı burjua, millətçi-üsyankar, terrorçu-ziyankar təşkilatın işi" adlı saxta bir ittiham yaradıldı. Bu azmış kimi, şəxsən komissar Heydər Vəzirovun işinə bir söz də əlavə elədilər: "Pantürkist". DİN ayrı, NKVD işçiləri bu sözü ona görə əlavə elədilər ki, bu barədə komissarla "dopros" aparmağa əldə tutarlı "əsas" olsun. Axı, Vəzirov Birinci Dünya Müharibəsindən qayıdanda Türkiyədən keçib gəlmişdi. On səkkizinci ildə musavatın hərbi məktəbində işləmişdi, üstəlik də onun musavat ordusunda birgə işlədiyi zabitlərin çoxu Türkiyədə özlərinə sığınacaq tapmışdılar. Bu saxta ittihamlarla komissarlığın bir neçə əməkdaşı və komissar Heydər Vəzirov ailəsi ilə birgə məhv edildi.



***1937-ci il oktyabrın 13-dən 14-nə keçən gecə general Qambay Vəzirovla birgə 26 nəfər yüksək rütbəli azərbaycanlı hərbçi güllələndi.***

***1938-ci ildə Mircəfər Bağırovun Moskvaya göndərdiyi bir hesabatı oxuyanda adamın inanmağı gəlmir. Təəssüf ki, bu faktdır və ən başlıcası sənəddir. Ona inanmamağa haqqımız yoxdur. Orada yazılır ki, 32 rayon partiya komitəsinin katibi, 28 rayon icraiyyə komitəsinin sədri, 18 xalq komissarı və müavinləri, milli diviziyanın 88 komandiri və hərbi-siyasi işçilər həbs edilərək "xalq düşməni" kimi məhv edilmişlər.***

## SAHİBƏ XANIMLA SÖHBƏT



***Komissar Soltanhəmid Paşayev (1898-1938)***

Bakı, Ələsgər Ələkbərov küçəsi, Dadaşovların mənzili. Bura komissar Soltanhəmid Paşayevin kürəkəni Xeyrullanın evidir. Eşidəndə ki, "37"nin haqsız qurbanı olan komissar Soltanhəmid Paşayevin həyat yoldaşı Sahibə ana qızı Rəfiqə xanımgildədir, nəvə-nəticələrini görməyə gəlib, fikirləşdim ki, həyat yoldaşının ömür yolunu ondan yaxşı bilən ikinci bir adam tapmaq hələlik qeyri-mümkündür. Hələlik ona görə deyirik ki, bizim yazımızdan sonra bəlkə onunla birgə işləyən keçmiş hərbiçilərdən kimsə Soltanhəmidin fəaliyyətindən daha ətraflı məktub yazıb, mə'lumat verəcək.

Onu da xatırladım ki, Sahibə ana 1932-ci ildən partiyanın üzvü olub. Əri tutulandan iyirmi üç il sonra yenidən onu partiya sıralarına bərpa ediblər.

- Sahibə ana, həyat yoldaşınız Soltanhəmid günahsız olaraq həbs ediləndə uşaqların neçə yaşı vardı?

- Oğlum Rəfiqin 10 yaşı vardı. Onu çox tez itirdim, Rozanın 8, Elmiranın 5, Rəfiqənin isə cəmi 1 yaşı vardı. Bir sözlə bir oğul, üç qız anası idim. Soltanhəmid tutulandan sonra özümü itirmədim. Dəyanətimi saxladım. Onları min bir əziyyətlə də olsa böyütdüm. Oxutdum, ali təhsilli elədim. Təkcə ciyərparam Rəfiqi itirdim. İndi yeddi nəvəm, dörd nəticəm var. Sağ olsunlar, ağıllı balalardı. Hamısı ali təhsil alıblar. Tahir ali təhsilli həkimdir, Gülnarə elmlər namizədidir.

- O vaxtın qara günlərindən yaddaşınızda ən çox hansı məqamlar qalıb?

- 1926-cı ildə Soltanhəmidlə ailə qurduq. Xoşbəxt də yaşayırdıq. O, komissarlıqda işləyirdi. El-obada yaxşı hörməti vardı. Çox keçmədi, onu Şamaxıya hərbi komissar tə'yin etdilər. Otuz yeddinci il gəlib çatdı, gündə bir

xəbər çıxdı: "Filankəsi apardılar, filankəs xalq düşməni çıxdı". Bu filankəs deyilənlərin də hamısı hörmətli, partiyaya sadiq, xalqını sevən adamlar idi. Hamı qorxu içində, səksəkədə yaşayırdı. Axşam olub, qaranlıq düşəndə, bir şaqqıltı, bir səs eşidəndə deyirdilər ki, filankəsi aparmağa gəliblər. O "çornı voron" deyilən maşın nə qədər yaxşı oğulları aparıb məhv elədi. Eh, uzun dərddir, bala.... Nə qədər günahsız adamlarımız "xalq düşməni" ləkəsi ilə güllələndi.

- Soltanhəmid həbs edilən gün, il yə'qin ki, yadınızdıdır. Bu müdhiş hadisə nə vaxt olub?

- 1937-ci ilin avqust ayı idi. Daha dəqiq, avqustun 17-si idi. Mən balalarımla Sulut kəndinə getmişdim. Soltanhəmid də axşama qayıtmalı idi. Şamaxıda yığıncaqları vardı, ləngidi, gəlmədi. Səhərisi Rozanın ad günü idi. Tezdən gəlməyə söz vermişdi. Kənddə, tanış müəllimgilə gedib patefonu istədim, şənlənməyə. Min cür bəhanə gətirib vermədi. Mənə çox müəmmalı, ikibaşlı cavab verdi. Kor-peşman geri qayıtdım. Yolda milis işçisi Ələşrəfə rast gəldim. Şamaxıdan gəlirdi. Hal-əhval tutmaq istədim. Başını aşağı salıb xəcalətlə bircə bunları dedi: "Dadaşım Soltanhəmidi tutub apardılar". Daha sonrası yadımda deyil...

Səhərisi yığışıb Şamaxıya qayıtdıq. Öyrəndim ki, onu yığıncaq vaxtı aparıblar. Onunla birgə Şamaxı Rayon Partiya Komitəsinin birinci katibi Xəlfə Hüseynovu, ikinci katibi Avalovu, torpaq şö'bəsinin müdiri Yuxanovu, altı nömrəli şərabçılıq sovxozunun direktoru Əlisahib Məmmədovu, rayon prokuroru Əhməd Əmirovu, Padar Kənd Sovetinin sədri Babalı Bəkirovu da həbs etmişdilər...

Bir sözlə, Şamaxı ziyalılarına süpürgə çəkirdilər. Kimin evində ərəb əlifbası ilə kitab, əlyazması tapılırdısa, pantürkist, panislamist damğası ilə cəzalandırılıb həbs edilirdi.

NKVD-nin sədri Şabanbəyovdan evimizin açarını istədim. Qapımıza qıfıl vurmuşdular. Sumbatov-Topuridze də orada idi. Mənə tərs-tərs baxıb: "Deyəsən, öz ayağınla gəlmisən, rədd ol burdan, bu saat səni də həbs edərəm" deyib özündən çıxdı.

O gündən həyatımın faciəsi başladı....

- Sahibə xanım, Soltanhəmidin "günahı" nə oldu?

- Sonralar öyrəndim ki, bir ambardarı döyməklə Soltanhəmidin üzünə şahid ediblər. Guya o deyib ki, biz komissarın kabinetində, evində tez-tez yığıncaq keçirirdik. Komissar Paşayevin rəhbərliyi ilə silahlı üsyana hazırlaşır-

dıq. O, bizə güllə atmağı öyrədirdi. Komissar Paşayev məni əskərliyə ona görə göndərmədi ki, təşkilatın işində yaxından iştirak edirdim. Təşkilata silahı mən tapıb alırdım.

- Görüşməyə necə, icazə verirdilərmi?

- Yox. Ayda iki dəfə "yemək" götürürdülər. Yemək, ərzaq aparmaq qadağan idi. Ancaq dəyişmək üçün paltara icazə vardı. Bir dəfə, bir nəfər nə yollasa ondan barmaq boyda kağız gətirdi. Yazmışdı ki, Sahibə, mən "xalq düşməni" deyiləm. Mənim vicdanım təmiz və ləkəsizdir. Bunları balalarımıza da başa sal ki, gözükölgəli böyüməsinlər. Üçüncü dəfə dalınca gedəndə dedilər ki, 20 il həbs cəzası kəsilib. Dalınca da əlavə elədilər ki, əriniz güllələnib, daha gəlməyə bilərsiniz....

"Güllələnmək" sözünü eşidəndə ağlım başımdan çıxdı. Handan-hana özümü ələ aldım. Düşmənlərin əhatəsində olduğumu xatırladım. Körpələrimi fikirləşdim. Sağ olsun, yaxın-uzaq qohumlar, o çətin illərdə gizli də olsa "xalq düşməni"nin ailəsinə arxa oldular.

Soltanhəmid Paşayevin ömrü yoldaşı Sahibə xanım o ağrılı-acılı illərə qeyrətlə, kişi dəyanəti ilə dözmüş, övladları Rozanı, Elmiranı, Rəfiqəni böyüdüb ərsəyə çatdırmış, komissar ərinin, nüfuzlu ziyalı nəslinin adına layiq vəfalı ömür yaşamışdır.

İllərin əzabından saçı qar kimi ağarmış nurani Sahibə ana ilə söhbət edəndə elimizin müdrik ***sənatkarı Abbasqulu ağa Bakıxanovun sözlərini xatırladım "Namuslu qadın kişi üçün elə bir sərvətdir ki, onun misli yoxdur".***

Onu da xatırladaq ki, Soltanhəmid Cəbrayıl oğlu Paşayev 1898-ci ildə Şamaxıda ziyalı ailəsində dünyaya gəlib. İlk təhsilini Şamaxıdakı realnı məktəbində alan Soltanhəmid sonralar Bakıdakı Azərbaycan hərbiyyə məktəbini bitirib. Zabit kimi ordu sıralarında sidq-ürəklə xidmət edən Soltanhəmid Baskal Qəsəbə İcraiyyə Komitəsinin sədri, Göyçay hərbi komissarlığında komissar köməkçisi (1925-30-cu illərdə) işləmişdir. Yaxşı hərbi fəaliyyətinə görə dəfələrlə mükafatlandırılan Soltanhəmid məşhur şairimiz Məhəmməd Hadinin doğmaca xalası oğludur.

Komissar Soltanhəmid Paşayev 1938-ci il yanvarın 3-dən 4-ə keçən gecə güllələnmişdir.

***1991-ci il.***

# GENERAL CƏMŞİD XAN NAXÇIVANSKİ

(Sonuncu Kəngərli generalı)



***Azərbaycan öz suverenliyi, tam azadlığı barədə fikirləşirsə, o ilk növbədə öz milli ordusu, Milli zabitləri barədə fikirləşməlidir. Mən bunların hamısını düşünürdüm.***

***İyirmi beş il öncə mən Azərbaycanda əvvəllər heç vaxt oxşarı, analoqu olmayan ixtisaslaşdırılmış hərbi orta məktəb yaratmaq haqqında fikir irəli sürdüm. Bu məktəbi yaratdıq. Doğrudan da, mənim həyatımda gördüyüm işlər içərisində bu addımı, bu işi, bu təşəbbüsü o dövrdən artıq iyirmi beş il keçəndən sonra özüm də yüksək qiymətləndirirəm.***

***Heydər Əliyev***
***Azərbaycan Respublikasının***
***Prezidenti***
***(1990-cı ildə verdiyi müsahibədən)***

Hər şeyin ilki gözəl və yadda qalan olur. İlk müəllim, ilk general, ilk kosmonavt, ilk məhəbbət... Bunlar ilk övlad qədər şirin və əzizdir. Bu gün hərbi qüdrət tariximizin zabit heyətindən söz düşəndə istər-istəməz general Cəmşid xan Naxçıvanski adına hərbi liseyin məzunlarını yada salırıq.

Fəxr etməliyik ki, Cəmşid xanın "şinelindən çıxmış" bu zabitlər suveren Azərbaycan Milli Ordusunun sıralarında torpaqlarımızın qəsbkarlardan təmizlənməsi uğrunda şərəflə vuruşmuşlar.

1918-ci ilin iyun ayında məşhur sərkərdəmiz Əli ağa Şıxlinski Gəncədə Milli yunkerlər məktəbinin banisi olmuşdur. Totalitar rejimin məngənəsində ikinci dəfə belə bir məktəbin 1971-ci ildə yaradılması Heydər Əliyevə qismət oldu.

Əlbəttə, o dövrün acı abı-havasını udanlar yaxşı bilirlər ki, həmin illərdə Milli zabit heyətinin yetişdirilməsi üçün nəinki məktəb açmaq, hətta bu barədə fikirləşmək belə böyük cəsarət və risk tələb edirdi. Bütün zamanlarda xalqını düşünən Heydər Əliyev haqlı olaraq millətimizin sonsuz məhəbbətinə layiq şəxsiyyətdir.

Cəmşid xan Naxçıvanski Kəngərli nəslindən olan axırıncı generaldır. Onun general babaları Ehsan xan, Kəlbalı xan, Hüseyn xan və İsmayıl xan qoca yaşlarında öz əcəlləri ilə vəfat ediblər. Tale Cəmşid xana cəmi qırx üç il ömür qismət elədi. Onun da 26 ilini hərbi fəaliyyətdə keçirdi. Ömrünün ən qaynar çağında otuzuncu illərin haqsız qurbanlarından biri oldu. Günahı da bu idi ki, qardaşı Davud xan və Kəlbalı xan İranda şah qvardiyasında xidmət edirdi. Guya Cəmşid xanın da başçılıq etdiyi "casus təxribatçı dəstəsi" də onlarla sıx əlaqə saxlayırdı. Azərbaycanda Şura hökuməti qurulanda hər iki qardaş rəsmi şəkildə icazə alıb İrana getmişdilər. Tezliklə İran ordusunda ad-san qazanıb yüksək rütbə almışdılar. Lakin otuzuncu illərdə şahənşah onlara inamını itirdi. Səbəbi qardaşları Cəmşid xan Naxçıvanskinin Qızıl Orduda briqada komandiri olması idi. Vaxtilə onların ata-babaları rus qoşunlarının tərkibində İran ordusuna qarşı vuruşmuşdular. Görünür, şahənşaha bu məlumatda da çatdırılıbmış... Ona görə də şah onları güllələtdirdi. ***Bu tayda, 1938-ci ilin mayında Cəmşid xan həbs edildi. Həmin ilin avqustun 26-da güllələnəndə artıq dörd il əvvəl qardaşları İranda qətlə yetirilmişdi.*** Onda C. Naxçıvanski Moskvada M. Frunze adına Ali Hərbi-Siyasi Akademiyanın Ümumi Taktika kafedrasının rəisi kimi yüksək vəzifədə işləyirdi.

1938-ci il avqustun on ikisində "Sovet Hökumətinin qatı düşməni, müqəssir" Cəmşid xan Naxçıvanskiyə olunan ittihamnamədən:

***Birinci:*** — Azərbaycan Milli Mərkəzi adlanan Azərbaycan antisovet millətçi təşkilatın fəal iştirakçısıdır. O, təşkilata Qarayev tərəfindən cəlb olunmuşdur.

***İkinci:*** — Azərbaycanda Sovet hökumətinin devrilməsi planının hazırlanmasında və Azərbaycanın Sovet İttifaqından ayrılmasında fəal iş aparmış, Azərbaycanda hərbi üsyan planını şəxsən özü hazırlamışdır.

***Üçüncü:*** — İran ordusunda xidmət edən qardaşı, mühacir Kəlbalı xanla əlaqə saxlamışdır. Azərbaycanda üsyan başlarkən mühacirlərdən ibarət kömək məqsədilə qardaşına hərbi dəstələr göndərmək tapşırığını vermişdir.

***Dördüncü:*** — 1931-ci ildə həbsdən azad olunduqdan sonra Moskvaya gələrək Qarayevlə yenidən əlaqə yaratmışdır. Azərbaycan Milli Mərkəzində anti-sovet fəaliyyətini daha da gücləndirmiş və mərkəzin işlərində yaxından iştirak etmişdir.

***Beşinci:*** — Antisovet hərbi qəsdlə bilavasitə əlaqə saxlamış və onlara Azərbaycan Milli Mərkəzinə konkret kömək göstərəcəyi barədə razılıq vermişdir.

***Altıncı:*** — 1921-ci ildən 1926-cı ilə kimi casusluqla məşğul olmuş, Az. Pambığının keçmiş sədri Məmməd Hacıyev vasitəsilə qardaşı Kəlbalı xana ordu barəsində (RKKA) tam məxfi məlumatlar vermişdir.

***Bu ittihamnamələrdən on dörd gün sonra SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası bağlı məhkəmə iclası keçirdi. Hərbi Kollegiyanın sədri V.V. Ulrixin və üç nəfərin şahidliyi ilə cəmi 15 dəqiqə çəkən məhkəmə iclası saat 1250-də general Cəmşid xan Naxçıvanskiyə ölüm hökmü oxudu. Hökm oxunandan sonra ona son sözünü deməyi təklif etdilər. Döyülüb ağır yaralar almış Cəmşid xan kəkələyə-kəkələyə danışmağa utandı. Bir də ki, şər və iftira dolu ölüm hökmü kəsiləndən sonra vida sözünü deməyi xan kimi qüruruna sığışdırmadı. Həmin gecə onu Moskvada güllələdilər...***

* * *

“Onun dalınca gecə gəldilər. Axtarış aparmaq üçün şahid gərək idi. Dalandar şahidlik etməkdən boyun qaçırdı: "Kim olsaydı gedərdim, bircə Naxçıvanskidən başqa. Mən onun gözünə necə baxaram?" Həbs barədə orderlə qara "Emkada" gələnlərdən biri pillələri tələsik qalxdı. Qapını açan ev sahibəsinə hövlanak dedi: "Qiymətli nəyiniz varsa, gizləyin". Qızıl ordunun xan nəsilli briqada komandiri Cəmşid Naxçıvanski pula, mala qətiyyən tamah salmayan, bir insan idi.

Vidalaşarkən o, qızı Aliyənin yuxulu gözlərindən öpdü, arvadını bağrına basdı: "Özündən və uşaqlardan muğayat ol. Mənim heç bir günahım yoxdur. Tezliklə qayıdacağam" dedi.

O, uzun illər keçəndən sonra qayıtdı. Qayıtdı ki, xalqın yaddaşında əbədi qalsın" (Qreqori Akselrod, "Xan nəsilli briqada komandiri", "Nedelya" qəzeti № 17, 1988-ci il).

Repressiya illərində haqsız güllələnən briqada komandiri Cəmşid xan Naxçıvanski, diviziya komandiri Qambay Vəzirov, komissar Heydər Vəzirov, Cabir Əliyev, polkovnik Cəlil Əliyev, Seyfulla Mehdiyev, Qalib bəy Vəkilov və Soltanhəmid Paşayevin sənədləri ilə tanış olanda, sağ qalan müasirlərdən gener-

---

1. Cəmşid xanı antisovet millətçi təşkilatın fəal üzvü kimi birinci dəfə 1931-ci il fevralın 22-də Zaqafqaziya Baş Siyasi İdarəsinin xüsusi şöbəsi Tiflisdə həbs etmişdi - Ş.N.

al-mayor Akim Abbasovun, professor Əyyub Əsgərovun və onların ailə üzvlərinin xatirələrini dinləyəndə yanıb-yaxılırsan. Adamı yandıran odur ki, bu igid komandirlərin fəaliyyətində yeni quruluşa qarşı hardasa zərrəcə inamsızlıq, səhv və büdrəmələr tapa bilmirsən. Bəs haqsız qan niyə axıdılıb, onların ailələri sürgünlərdə niyə min bir əziyyət çəkib? Stalinin əshabələri — Beriya, Bağırov belə görkəmli hərbi xadimlərimizi qanlı "təmizləmə" maşınında niyə məhv ediblər?

Suallar, suallar... Onlara cavab tapmaq çətindir.

Otuzuncu illərdə bağları doğradılar ki, bəylər salıb, bəhrəsini yemək olmaz. Mülkləri uçurdular ki, ağalardan, xanlardan qalıb. Məscidləri bağlayıb Allahsızlar ittifaqı yaratdılar. Oğulları həbs edib öldürdülər ki, nəsli bəy olub, xan olub. Müsavat hökumətinə qulluq edib.

Bu gün tarix bu səhvləri etiraf edərək otuz-qırxıncı illər dövründə və əllinci illərin əvvəllərində repressiya qurbanlarına bəraət verir. Onların şərəfinə abidələr ucaldır, küçələrə, meydanlara adları verilir. Nəhayət, gənc nəsil gec də olsa görkəmli ata-babalarının xatirəsi önündə mənəvi borcunu yerinə yetirir.

Heç bir "casus-təxribatçı dəstəsi" olmayan (əslində belə bir dəstə yox idi), İrandakı qardaşları ilə heç vaxt məktublaşmayan Cəmşid xan da o vaxt çox adi bir hala çevrilən müdhiş cəzanın qurbanı oldu.

Amma döyməklə, saatlarla ayaqüstə ac-susuz saxlamaqla Cəmşid xanı əydilər. Məcbur elədilər ki, yalançı-iftiraçı faktlara qol çəksin.

Onu da qeyd etmək lazımdır ki, Cəmşid xanın verdiyi dindirilmə “Protokol”unda söhbət 1921-1930-cu illərə aiddir. O illərdə “Protokol”da adı çəkilən adamlar Sovet hakimiyyəti əleyhinə əks fəaliyyət göstərə bilməzdilər. Əliheydər Qarayev, Cingiz İldırım, Qəzənfər Musabəyov, Həmid Sultanov və başqaları bolşevik hökumətinə sidq ürəklə xidmət edir və bu yeni hökumətə ürəkdən inanırdılar.

Bu yalan iftiraları 1938-ci ildə Cəmşid xanın boynuna qoymaqda məqsəd Azərbaycanın bir qrup yüksək rütbəli zabitlərini və ziyalılarını onun əli ilə məhv etmək idi.

***Həbs olunmuş Cəmşid xan Cəfərqulu xan oğlu Naxçıvanskinin dindirilmə***

**P R O T O K O L U**

1938-ci il 12 avqust tarixindən Cəmşid xan Cəfər xan oğlu Naxçıvanski, 1895-ci il təvəllüdlü, Naxçıvan şəhərində doğulub, milliyyətcə azərbaycanlı, SSRİ vətəndaşıdır, bitərəfdir, xan ailəsində doğulub, çar ordusunda pod-polkovnik rütbəsində olub, Müsavat ordusunda alaya komandanlıq edib. 1930-cu ildə XDSİ orqanları tərəfindən həbs olunub. Həbsə qədər Frunze adına Akademiyanın taktika kafedrasının müəllimi – FKQO-nun briqada komandiri olub

***Sual:*** 1930-cu ildə Siz XDSİ orqanları tərəfindən həbs olunmuşdunuz. Danışın, Siz nəyə görə həbs olunmuşdunuz?

***Cavab:*** 1930-cu ildə Azərbaycan diviziyasının komandiri olarkən XDSİ orqanları tərəfindən həbs edilmişdim, bir neçə ay istintaq altında saxlanılmış, sonra isə azad edilmişdim.

Mənim guya antisovet Azərbaycan milliyyətçi təşkilatının iştirakçısı olduğum haqda mənə qarşı ittihamlar irəli sürülmüşdü.

***Suala:*** Siz o zaman özünüzün antisovet işinizi etiraf etdiniz?

***Cavab:*** Xeyr, çünki mən heç bir antisovet Azərbaycan milliyyətçi təşkilatının iştirakçısı olmamışam.

***Sual:*** Siz Müsavat ordusunda hansı vəzifədə xidmət etmisiniz?

***Cavab:*** Mən Müsavat ordusunda onun təşkilinin başlanğıcından 1920-ciilədək süvari alayının komandiri vəzifəsində xidmət etmişəm. 1920-ci ildə mən sovet hakimiyyətinin tərəfinə keçdim.

***Sual:*** İstintaq sizi antisovet Azərbaycan milliyyətçi təşkilatının fəal iştirakçısı kimi ifşa edən kifayət qədər yoxlanılmış materiallara malikdir.

İnadkarlığı buraxmanızı və özünüzün cinayətkar fəaliyyətiniz haqqında danışmağınızı tələb edirik.

***Cavab:*** Bundan sonra da inadkarlıq etməyi mənasız sayıram, çünki istintaqın məni ifşa edən kifayət qədər materiallara malik olduğunu görürəm: Mən həqiqətən də Azərbaycan Milli Mərkəzi adlı antisovet Azərbaycan milliyyətçi təşkilatının (AMM) iştirakçısıyam.

***Sual:*** Azərbaycan Milli Mərkəzinə kim tərəfindən, nə vaxt və hansı şəraitdə cəlb olunmusunuz?

***Cavab:*** Azərbaycan Milli Mərkəzinə mən 1924-cü ildə Azərbaycan (B) KFMK-nin keçmiş katibi – Qarayev tərəfindən cəlb olunmuşam. Düzəliş edərək deməliyəm ki, Qarayev tərəfindən mənə təsir edilməsi xeyli əvvəl başlanmışdı. O təqribən 1921-ci ildə, mənim onunla ilk dəfə tanış olduğum vaxta aiddir.

1921-ci ilin sentyabrında Qarayev Azərbaycanın hərbi işlər xalq komissarı təyin edildikdən sonra o, məni öz yanına çağırdı və Azərbaycan diviziyasına komandanlığı qəbul etməyi təklif etdi (buna qədər mən Azərbaycan hərbi məktəbinin təsərrüfat müdiri vəzifəsində işləyirdim). Mən imtina etməyə çalışdım, Qarayev məni hədələdi və mən diviziyanı qəbul etdim.

Bu vəzifəyə qədəm qoyduqda mən Qarayev tərəfindən böyük dəstəklə qarşılandım və onun mənə qarşı münasibəti çox diqqətli idi. Bu cür yaxşı münasibətlə o, məni ələ aldı və mən, ona sadiq adam oldum.

Söhbətlərdə Qarayev həmişə keçmiş xan və müsavatçı kimi mənim FKQO sıralarındakı vəziyyətimin möhkəm olmadığını təlqin etməyə çalışırdı. 1924-cü ilə qədər bunlar bu cür davam edirdi.

1924-cü ildə söhbətlərin birində o, mənə xəbər verdi ki, Azərbaycanda Azərbaycan Milli Mərkəzi (AMM) adını daşıyan antisovet milliyyətçi təşkilatı mövcuddur, ona daxil olmağı təklif etdi ki, buna da mən öz razılığımı verdim.

***Sual:*** Azərbaycan Milli Mərkəzinin məqsədləri konkret olaraq nədə ifadə olunurdu?

***Cavab:*** Azərbaycan Milli Mərkəzi sovet hakimiyyətinin devrilməsi, Azərbaycanın Sovet İttifaqından ayrılması və Azərbaycanda, başda milli burjua hökuməti olmaqla kapitalist ictimai quruluşunun bərpa olunmasını qarşısına əsas məqsəd kimi qoyurdu.

***Sual:*** Bu düşmən, antisovet məqsədin hansı üsulla həyata keçirilməsi düşünülürdü?

***Cavab:*** Silahlı üsyan yolu ilə.

***Sual:*** Bunun üçün nə edilmişdi?

***Cavab:*** Silahlı üsyanın hazırlanması üçün Azərbaycan Milli Mərkəzi tərəfindən böyük iş görülmüşdü; üsyana hazırlıq işinə başçılıq edən və üsyan zamanı ona rəhbərlik edəcək Hərbi Mərkəz yaradılmışdı.

***Sual:*** Bu Hərbi Mərkəzə kim daxil idi?

***Cavab:*** Hərbi Mərkəzi heyətinə bu şəxslər daxil idi. Çingiz İldırım, Mən – Naxçivanski və Qalib bəy Vəkilov.

***Sual:*** Silahlı üsyanın hazırlanması üçün Azərbaycan Milli Mərkəzinin və Hərbi Mərkəzin gördüyü iş haqqında ifadə verməyinizə davam edin.

***Cavab:*** Hərbi Mərkəz silahlı üsyanın öz iclaslarından birində müzakirə edilən və təsdiqlənən əsaslı planını işləyib hazırladı. Bu iclas Çingiz İldırımın, Ordubadskinin, mənim – Naxçıvanskinin, Q.Vəkilovun da orada olduğu, Çingiz İldırımın mənzilində baş verirdi. Silahlı üsyanın hazırlanması planı haqqında məlumatı mən, Naxçıvanski, hazırlayırdım. Silahlı üsyanın planı aşağıdakılardan ibarət idi.

Silahlı üsyan SSRİ-nin qərbdə və ya şərqdə aparacağı müharibənin başlanğıcı ilə eyni vaxtda başlamalı idi. Məlum idi ki, müharibənin başlanması ilə ikinci Stepin diviziyası Azərbaycandan gedirdi. Azərbaycanda Azərbaycan atıcı diviziyasından başqa Azneftin mədənlərini və Xəzər donanmasını qoruyan DSİ-nin iyirmi dördüncü alayı da qalırdı.

Şəhərin tutulması planına əsasən ilk növbədə AzDSİ-nin 24-cü alayını tərksilah etmək və dövlət idarələrini, poçtu və teleqrafı ələ keçirmək nəzərdə tutulurdu, şəhər sektorlara bölünürdü.

Bu məqsədlərin yerinə yetirilməsi üçün Hərbi Mərkəzin sərəncamında Azdiviziyanın iki altıncı alayı, Azdiviziyanın artilleriya alayı, istehkamçı bölüyü, rabitə batalyonu və Azdiviziyanın süvari eskadronu var idi. Əgər say tərkibi mənasında hər şey, az və ya çox dərəcədə, yaxşı idisə sosial və milli tərkib mənasında heç də hər şey yaxşı deyildi. Demək lazımdır ki, Azdiviziyanın 3-cü Bakı alayının 50 %-dən çoxu ruslardan və 60-70 %-dən də çoxu fəhlələrdən ibarət idi. Diviziyanın başqa hissələrində də həmçinin, fəhlələrin və qeyri-türk milliyyətli əsgərlərin faizi çox idi. Buna görə də rus əsilli qızıl ordu əsgərlərinin azaldılması hesabına diviziyanın türk heyətini artırmaq ən vacib məsələ hesab olunurdu.

Azərbaycan diviziyasının əsgər heyətinin hazırlanması üçün xüsusi işin aparılması tələb olunmurdu. Çünki əsas istinad qızıl ordu əsgəri – türkün təbiətinə, onun böyük rəisə sonsuz etibarına edilirdi.

Buna görə də, mənə tapşırılmış olan, komandir kadrlarının seçilməsi məsələsi əsas kimi qarşıda dururdu. Bu məsələni həll etmək mümkün oldu.

Artilleriya alayının başında keçmiş Müsavat və çar orduları zabiti Novruzov dururdu; alayın qərargahının rəisi də həmçinin Müsavat və çar ordularının keçmiş zabiti olan Şahtaxtinski və nəhayət alay komandirinin köməkçi keçmiş zabit Dagirov idi.

---

1. Polkovnik Məmməd Kərim oğlu Veysov (1900-1972) M.V. Frunze və V.İ. Lenin adına Ali Hərbi Akademiyanı bitirmişdir. Otuz yeddinci ildə həbs olunmuş, günahsız olaraq doqquz il Sibir sürgünü çəkmişdir - Ş.N.

Digər alaylarda da dördüncü Azərbaycan alayının komandiri keçmiş Müsavat zabiti İsmayılov, birinci atıcı alayın qərargah rəisi Mirzəyev, süvari eskadronunun komandiri Abdullabəyov kimi etibarlı şəxslər var idi.

Bu məsələdən başqa əhalidə silahın toplanması və əhalinin özünün üsyana hazırlaşdırılması məsələsi də qaldırılırdı.

***Sual:*** Hərbi Mərkəz bu məsələni həll etməyi necə bacardı?

***Cavab:*** Hərbi Mərkəz bu məsələnin öhdəsindən belə bir şəkildə gəldi.

Deməк lazımdır ki, Azərbaycanda silahın olmadığı ev yox idi. Bu silah 1917-1920-ci illər dövründən qalmışdı və bu silah əhaliyə öz mülkiyyətini quldurlardan qorumaq üçün lazımdır bəhanəsi ilə 1930-cu ilə qədər əhalidən yığılmamışdı. Ondan başqa Osoaviaxim təşkilatının hesabına silahın yeni toplanması həyata keçirilirdi. Bu iş Qarayevin Osoaviaxim təşkilatının sədri olması səbəbi ilə asanlaşmışdı.

Osoaviaxim xətti ilə və Qarayevin təşəbbüsüylə tək Bakının deyil, həm də Azərbaycan rayonlarının əhalisinin üsyana hazırlanması üzrə böyük iş aparılmışdı. Bu məqsədlə Bakı şəhərində «fəhlə təşkilatları» pərdəsi altında «fəhlə batalyonları» təşkil olunmuşdu. Bu batalyonların sayını mən dəqiq xatırlamıram, ancaq, hər halda bu rəqəm kifayət qədər böyük idi. Silahlar bu batalyonların döyüşçülərinin əlində idi. Silahın qeydiyyatı pis idi və onun böyük miqdarda oğurlanması baş verirdi.

Azərbaycanın rayonlarında silahlı dəstələrin yaradılması işi, başlıca olaraq, kütlələrin sovet hakimiyyəti əleyhinə təşviq edilməsi xətti ilə gedirdi. Türk əhalisinin aşağı mədəni səviyyəsi, həmçinin, Azərbaycan Mərkəzinin işçilərinin kolxoz quruculuğunda yaratdığı bəzi ifratçılıqlar da nəzərə alınırdı. Əhalinin silahla təmin olunması da, həmçinin, başlıca olaraq. Osoaviaxim hesabına aparılırdı. Hərbi əmlakı daşıyan əsgəri nəqliyyata hücum edilərək silah və sursatın aparıldığı hallar olurdu. Bu dəstələrin yerlərdəki say vəziyyəti haqqında mənə heç nə məlum deyil, hər halda onların da sayı həmçinin, Bakının özündəki qədər çox idi.

***Sual:*** Sovet hakimiyyətinin devrilməsində Siz əksinqilabın ancaq daxili qüvvələrinə ümid edirdiniz?

***Cavab:*** Azərbaycanda Sovet hakimiyyətinin devrilməsinin təşkilində Azərbaycan mili mərkəzi, öz qüvvələrindən əlavə, İran tərəfindən ediləcək köməyə də ümid edirdi.

Bu kömək ilk növbədə İran ərazisində Azərbaycan mühacirlərindən təşkil olunmuş dəstələrdən ibarət olmalı idi.

Bu dəstələrin formalaşdırılması İran hökuməti tərəfindən Kalbalı xan Naxçıvanskiyə – mənim qardaşıma həvalə edilmişdi. Demək lazımdır ki, bütün mühacirət İran hökuməti tərəfindən sərhədyanı zolaqda məskunlaşdırılırdı. Silah onlardan nəinki alınmırdı, həm də əksinə, əhalinin tam silahlandırılması üçün tədbirlər görülürdü.

Beləliklə, sərhəddə istənilən dəqiqə onu keçməyə hazır olan, daimi döyüş hazırlıqlı, olduqca böyük döyüş bacarığına malik dəstələr yerləşirdi.

Bu dəstələrin məqsədi sərhədi keçdikdən sonra müəyyən məntəqələrə yönələrək üsyançıların onların ətrafında birləşəcəyi özək rolunu oynamaq idi. Buna görə də bu mühacir dəstələri ərazi əlamətinə görə formalaşdırılırdı.

Bu köməkdən əlavə Azərbaycan Milli Mərkəzi İran hökuməti ilə lazım gəldikdə nizami qoşunlarla da yardımın edilməsi barədə danışıqlar aparırdı. Ancaq bu danışıqlar mənim xəbərim olmadan aparılırdı.

***Sual:*** İranla konkret olaraq kimin vasitəsilə əlaqə saxlanılırdı?

***Cavab:*** İran hökumətinə meyllənmənin mövcudluğu mənə Firuz bəy Ordubadskidən məlum idi. Danışıqları konkret olaraq kimin apardığı mənə məlum deyil. Mən şəxsən ancaq Kalbalı xanla əlaqə saxlayırdım. Bu əlaqə xidməti işlərinə görə tez-tez İrana gedən Azərpambığın keçmiş sədri Hacıyev vasitəsilə saxlanılırdı. Əlaqə hücum olacağı halda birgə fəaliyyətin işlənib hazırlanması üçün lazım idi. Kalbalı xan, mən yuxarıda göstərdiyim kimi, Azərbaycan mühacirləri arasında çox tanınmışdı və onlardan müharibə vaxtı Azərbaycan ərazisinə ötürülməli olacaq dəstələr formalaşdırmalı idi. Bu dəstələr ətrafında üsyançıların qruplaşa biləcəkləri özək olmalı idilər.

***Sual:*** İstintaqa məlumdur ki, Azərbaycan Milli Mərkəzi Azərbaycanın bir sıra rayonlarında silahlı antisovet çıxışları hazırlayaraq həyata keçirmişdir. Bu məsələ haqqında Sizə məlum olanların hamısını danışmanızı tələb edirik.

***Cavab:*** Mən yuxarıda göstərdiyim kimi, AMM Azərbaycanın rayonlarında üsyanların hazırlanması üzrə olduqca böyük iş aparırdı. Hazırlıq əhalidə olan gizlədilmiş silahın onlardan alınmaması, rayonların Osoavixim silahları ilə təmin edilməsindən ibarət idi. Həmçinin, quldurların geniş şəkildə amnistiya edilməsi (leqal vəziyyətə keçirilməsi) işi də aparılırdı, hərçənd, bu tədbir özünü doğrultmadı. Bir qayda olaraq, fürsət düşən kimi amnistiya olunmuş quldurlar yenidən silaha əl atırdılar. Silahlı üsyanın, mən göstərdiyim kimi, qərbdə və ya şərqdə aparılacaq müharibə dövründə başlanması düşünülürdü. Ancaq müharibənin başlanması uzadıldığından AMM 1930-u ilin əvvəlində silahlı üsyana başlamağı qərara aldı.

Üsyanın yatırdılması üçün rus qoşunlarının Bakıdan çıxardıldığı halda Bakının özündə də üsyana başlamaq üçün üsyana daha ucqar rayonlardan başlamaq qərara alınmışdı.

Bu üsyanlar kifayət qədər nizamlı şəkildə deyil, böyük fasilələrlə başlamışdı ki, buna görə də tez bir zamanda yatırdıldı. Silahlı üsyanlar Naxçıvanda, Qarabağda, Zaqatalada, Nuxada və Ağdaşda baş verirdi. Şəxsən mən bu üsyanlara rəhbərlikdə iştirak etmirdim.

***Sual:*** Azərbaycan Milli Mərkəzinin iştirakçısı kimi özünüzün sonrakı cinayətkar fəaliyyətiniz haqqında danışın.

***Cavab:*** Azərbaycanın yuxarıda göstərilən rayonlarındakı uğursuz silahlı çıxışlardan sonra bizim fəaliyyətimiz XDSİ orqanları tərəfindən aşkar edildi və AMM-nin iştirakçılarının çoxu, mən də həmçinin həbs olundu. Bir neçə aylıq həbsdən sonra mən azad edildim, orduya bərpa olundum və 1931-ci ildə Moskvaya Frunze adına Akademiyaya təhsil almaq üçün yola düşdüm. Bu andan başlayaraq mənim bütün antisovet fəaliyyətim dayandı. Çünki mən Moskvada yaşayırdım və Azərbaycan Milli Mərkəzinin iştirakçıları ilə heç bir əlaqə saxlamırdım.

***Sual:*** Yalandır! Siz bütün dövr ərzində Qarayevlə əlaqə saxlayır və antisovet fəaliyyəti aparmaqda davam edirdiniz.

***Cavab:*** Bəli, həqiqətən mən Qarayevlə əlaqə saxlayırdım. Mənim onunla tamamilə təsadüfi xarakterli bir neçə görüşüm olub. Ancaq hər hansı bir antisovet fəaliyyəti aparmamışam. Bunu mən qətiyyətlə inkar edirəm.

***Sual:*** Naxçıvanski, Sizə təklif edirik ki, öz fəlsəfi mühakimələrinizi qurtarasınız. 1931-ci ildən həbs gününə qədər Sizin Moskvadakı fəaliyyətiniz bizə yaxşı məlumdur. Özünüzün 1931-ci ildən indiyədək olan dövrdə antisovet fəaliyyətinizə dair ifadələrinizə başlayın.

***Cavab:*** Həbsdən azad edildikdən və Moskvaya gəldikdən sonra mən 1931-ci ildə yenidən öz əksinqilabi fəaliyyətimə başladım. Məni bu işə 1930-cu ildən Moskvada işləyən AK(b)RMK-nin keçmiş katibi Əliheydər Qarayev cəlb etmişdi

Əliheydər Qarayevlə mənim görüşüm 1931-ci ilin qışında, biz Azdiviziyanın siyasi bölməsinin keçmiş rəisi Ələkbərovun dəfnində görüşdükdə onun məni dəvət etdiyi mənzilində baş verdi.

Söhbətin təfərrüatları yadımda deyil, ancaq onlar onun məni öz əksinqilabi fəaliyyətimi davam etdirməyim üçün dilə tutmağından ibarət idi. Qarayev göstərirdi ki, hal-hazırda mövcud olan Azərbaycan Milli Mərkəzi, 1930-cu ildə

dağıdılmışla müqayisə edilməyəcək dərəcədə, güclü təşkilatdır və bu təşkilatın nəzərdə tutduğu iş etibarlıdır. Bu haqda təşkilata daxil olan şəxslərə əsasən fikir yürütmək olar.

***Sual:*** Azərbaycan milliyyətçi təşkilatının iştirakçıları olan şəxslərdən kimin adını Qarayev Sizə dedi?

***Cavab:*** Qarayev mənə bu soyadlarını dedi: Ruhulla Axundovun, Mirzə Davud Hüseynovun, Qəzənfər Musabəyovun, Hüseyn Rəhmanovun, Dadaş Bünyadzadənin, Həmid Sultanovun, Həbib Cəbiyevin, Axundzadənin, Əfəndiyevin, Talıblının və d.

Mən ona öz razılığımı verdim və bununla da bizim söhbətimiz sona yetdi. Demək lazımdır ki, o, soyadlarının çoxunu mən onunla işləməyə öz razılığımı verdikdən sona mənə dedi.

***Sual:*** Sizin milliyyətçi təşkilatınız hansı əksinqilabi qruplarla blok yaratmışdı?

Cavab: 1931-ci ildə Qarayevdən mənə məlum oldu ki, Azərbaycan Milli Mərkəzi sağtrotskiçi mərkəzlə əlaqədədir.

***Sual:*** Azərbaycan Milli Mərkəzinin sağtrotskiçi mərkəzlə əlaqəsi nədən ibarət idi?

***Cavab:*** Azərbaycan Milli Mərkəzinin sağtrotskiçi mərkəzlə əlaqəsi haqqında məni məlumatlandırdıqda Qarayev göstərdi ki, danışıqlar sağtrotskiçi mərkəzin nümayəndələri Buxarin və Rıkovla o – Qarayev, Ruhulla Axundov və Mirzə Davud Hüseynov tərəfindən aparılırdı. Bu danışıqlar zamanı birgə iş haqqında razılaşmaya nail olundu. Bu birgə iş partiya və hökumətlə birgə mübarizədən, həmçinin, Azərbaycan Sovet İttifaqından ayrılmasına razılıq verilməsindən ibarət olmalı idi. AMM-in partiya və hökumətlə birgə mübarizə üzrə işdəki rolu, başlıca olaraq, xalq təsərrüfatının bütün sahələrində (başlıca olaraq, neft təsərrüfatında) ziyankarlığın təşkilindən və Azərbaycanda üsyanın hazırlanmasından ibarət olmalı idi.

Bu mərkəzlər arasında daimi əlaqəni 1930-cu ildən daimi olaraq Moskvada yaşayan Qarayev həyat keçirirdi.

***Sual:*** Onunla görüşdükdə Qarayev Sizi daha nə haqqında məlumatlandırdı?

***Cavab:*** Elə bu söhbət əsnasında Qarayev məni Azərbaycan Milli Mərkəzinin Azərbaycandakı sovet hakimiyyətinin devrilməsindən, burjua-demokratik quruluşun bərqərar edilməsindən və Azərbaycanın Sovet İttifaqından ayrılmasından ibarət olan proqrammı haqqında məlumatlandırdı. Bu məqsədin, həmsərhəd dövlətlərdən biri ilə aparılacaq müharibə ilə eyni vaxtda başlayacaq

silahlı üsyanın köməyi ilə həyata keçirilməsi düşünülürdü. Həm də təkcə Azərbaycanda təcrid edilmiş halda deyil, Gürcüstan və Ermənistanla birlikdə, çıxışların olması düşünülürdü. Demək lazımdır ki, o dövrdə (1931-ci il) bu razılığa tam şəkildə gəlinməmişdi.

***Sual:*** Azərbaycan Milli Mərkəzinin Gürcüstan və Ermənistanın milliyyətçi təşkilatları ilə razılaşması nə vaxt və məhz kimin vasitəsi ilə həyata keçirilmişdir?

***Cavab:*** Bu danışıqların başlanması 1931-ci ilə təsadüf edir.

Silahlı üsyanın təşkili üçün AMM Azərbaycan diviziyasının, həmçinin, arasında müvafiq iş aparılan yerli əhalinin qüvvələrinə malik idi. Qarayevin sözlərinə görə Ermənistan və Gürcüstanda da, həmçinin, orduda böyük iş aparılırdı və Qarayev deyirdi ki, bu respublikalardakı milli diviziyalar silahlı üsyanın təşkili zamanı əsas aparıcı qüvvə olacaqlar.

Bu respublikalarda tam istinad yerli əhalinin silahlı çıxışlarına edilirdi. Gürcüstan və Ermənistanda milli mərkəzlərə Eliava, Oraxelaşvili, Ter-Qabrielyan rəhbərlik edirdilər.

Yerli əhali arasında aparılan iş sovet hakimiyyəti əleyhinə müvafiq təşviqatdan, kəndin ən nüfuzlu şəxslərinin, rayon komitələri katiblərinin və rayon icra komitələri sədrlərinin cəlb edilməmələrində ibarət idi. Əhalinin əllərində çoxlu sayda silahın saxlanılması və orduya çağırılmamalı olan şəxslərin (qolçomaq uşaqlarının və s.) böyük faizinin ordu Osoaviaxim vasitəsilə hərbi təlim almasını da bu işə aid etmək lazımdır.

***Sual:*** Azərbaycan Milli Mərkəzindəki rolunuz barədə danışın.

***Cavab:*** Ya 1932-ci ilin sonunda, ya da 1933-cü ilin əvvəlində, Qarayevin mənzilində, Azərbaycan Milli Mərkəzində mənim işimin konkret olaraq nə ilə ifadə olunduğu izah etdiyi söhbətimiz oldu.

Bu söhbətdə Qarayev göstərdi ki, AMM Buxarin vasitəsi ilə Hərbi Mərkəzlə əlaqə yaratdı və Azərbaycan Milli Mərkəzinin nümayəndələri (Qarayev, Axundov, Hüseynov) o mərkəzin nümayəndələri ilə (marşal Mixail Tuxaçevski və ordu komandanı Avqust Korkla) danışıqlar aparırdılar.

AMM-in Hərbi Mərkəzlə razılaşması Hərbi Mərkəzin Azərbaycandakı silahlı üsyana hər vəchlə kömək etməsindən ibarət olmalı idi. Bu konkret olaraq silahlı üsyanın yatırdılması üçün göndəriləcək qoşunların gecikdirilməsi və rus hərbi hissələrinin Azərbaycandan çıxardılması ilə ifadə olunmalı idi.

Qarayev buradaca göstərdi ki, mən Azərbaycan Milli Mərkəzinin nümayəndəsi kimi onların və Hərbi Mərkəzin nümayəndəsi kimi, Korkun arasında, əlaqə saxlamalı olacağam.

Korkla saxlanılan bu əlaqə Azərbaycanda üsyanın hazırlanmasının gedişi haqqında məlumatlandırmaqdan, üsyanın hazırlanmasının gedişinə və əgər bu həyata keçirilə bilərsə, üsyanın özünə Hərbi Mərkəz tərəfindən rəhbərlik edilməsindən ibarət olmalı idi. Bu məlumatları mən Qarayevdən almalı və Korkun vasitəsi ilə Tuxaçevskini məlumatlandırmalı idim.

***Sual:*** Siz Korkla əlaqəyə girdiniz?

***Cavab:*** Bəli, əlaqəyə girdim. Qarayevlə olan söhbətdən iki həftə sonra mən Korkun yanına getdim. Bu söhbət onun Moskva hərbi dairəsinin qərargahındakı kabinetində baş vermişdi. Kork məni olduqca lütfkarlıqla qarşıladı və dedi ki, ona mənim gəlişinin məqsədi Qarayevdən məlumdur.

***Sual:*** Korkla olan söhbətinizdən daha ətraflı danışın və o, Sizin qarşınızda hansı məqsədlər qoydu?

***Cavab:*** Kork söhbət zamanı göstərdi ki, mənim rolum əsasən Azərbaycanda silahlı üsyana hazırlığın gedişi haqda onu məlumatlandırmaqdan və Hərbi Mərkəz tərəfindən üsyana hazırlığın gedişinə rəhbərliyinin həyata keçirilməsindən ibarət olmalıdır.

Bu əlaqənin hansı yolla həyata keçirilməli olduğunu mən yuxarıda göstərdim.

Sonra Kork Tuxaçevski ilə onun, AMM-lə nə barədə razılaşdıqlarını, yəni üsyanın həmsərhəd dövlətlərdən biri ilə başlanacaq müharibə ilə eyni vaxtda, əgər lazım gələrsə Hərbi Mərkəzin göstərəcəyi tarixdə başlamalı olduğunu mənə təkrar etdi.

O, həmçinin Hərbi Mərkəzin silahlı üsyanın ayrı-ayrı rayonlarda deyil, hər yerdə və eyni zamanda başlaya bilməsi üçün müvafiq şəkildə hazırlanmalı olduğu haqda direktivi də xəbər verdi.

***Sual:*** Sağtrotskiçi mərkəzin və Tuxaçevskinin direktivlərinin icrasında Azərbaycan Milli Mərkəzi hansı işi yerinə yetirmişdi?

***Cavab:*** 1935-ci ildə elə onun öz mənzilində növbəti görüş zamanı Qarayev Azərbaycandakı vəziyyət barəsində məni ətraflı məlumatlandırdı. Qarayev göstərdi ki, işlər çox gözəl gedir, Azərbaycan Milli Mərkəzinə Musabəyov, Rəhmanov, Ruhulla Axundov, Əfəndiyev kimi nüfuzlu şəxslərin və digərlərinin daxil olması hesabına cəlb etmə olduqca uğurla keçir. O, göstərdi ki, rayonların rəhbərliyinin (rayon komitələrinin katibləri və rayon icra komitələrinin sədrləri) əksəriyyəti cəlb ediliblər.

Elə bu söhbətdəcə o göstərdi ki, orduda böyük iş görülməsinə nail olunmuşdur. Azərbaycan Milli Mərkəzinə Azdiviziyanın təkcə yüksək və orta rəis heyəti deyil, həm də bu çox vacibdir, siyasi rəhbər heyətinin böyük faizi də cəlb edilmişdir.

Diviziya üzrə cəlb edilmiş şəxslərdən o, diviziya komandiri Qambay Vəzirovu, diviziya qərargahı rəisi İbrahimovu, diviziyanın hərbi komissarı Cabir Əliyevi, Azdiviziyanın tribunalının sədri Tağıyevi göstərdi. O, soyadlarına görə hamını tanımırdı.

Qarayevin məlumatlarına görə cəlb edilmə davam edir və diviziyanın ali və baş rəis heyətini deyil, həm də orta rəis heyətini də əhatə etməyə ümid var. Mənim Qarayevə verdiyim – diviziyanın rəhbərliyi ilə əlaqə yaratmalı və işə nəzarət etməliyəmmi sualıma Qarayev cavab verdi ki, bunu etmək lazım deyil. Çünki bu diviziya komandiri Vəzirov tərəfindən narazılıqla qarşılanacaq.

***Sual:*** Siz Korku Əlhedər Qarayevlə olan söhbətləriniz barədə məlumatlandınız?

***Cavab:*** Bəli, Həmin vaxt Akademiyanın rəisi olan Korkin kabinetində görüşdükdə mən bütün bu məlumatları ona ötürdüm. Kork dedi ki, bütün bunlar düzdürsə onda hesab etmək olar ki, böyük iş görülmüşdür. Ancaq rəis heyətinin böyük faizlə cəlb edilməsinin iflasa gətirib çıxaracağından ehtiyatlandığını bildirdi. Buna görə də rəisi heyətindən olan şəxslərin dar çərçivəsini əhatə etmək və qalanların da arasında bacarıqlı iş aparılması (təşviqat, rəisi heyətinin və qırmızı ordu əsgərlərinin müvafiq seçimi) təklif olundu.

***Sual:*** Silahlı üsyan planı haqqında sizə nə məlum olduğunu ətraflı danışın.

***Cavab:*** Azərbaycandakı üsyanın planı mənə Qarayevin sözlərindən məlum olmuşdu.

Artıq göstərdiyim kimi üsyan zamanı Azərbaycan Milli Mərkəzinin arxalanmalı olduğu qüvvə Azdiviziya, qismən də Azərbaycanın bütün rayonları üzrə hazırlaşdırılması üçün gücləndirilmiş iş gedən – milis və yerli əhali olmalı idi.

Rayon üsyançı dəstələrinə təşkilatın iştirakçıları – rayon icra komitələrinin sədrləri və rayon komitələrinin katibləri başçılıq etməli idilər. Dəstə qərargahlarının rəisləri rayon hərbi komissarları və ya rayon hərbi komissarlıqlarının olmalı idilər. Tərxis olmuş qırmızı ordu əsgərləri, milis və bu rayonlarda yaşayan tərxis olunmuş rəis heyəti bu dəstələrin özəyi və komandir heyəti olmalı idilər.

Üsyan bütün rayonlarda eyni zamanda başlamalı idi.

Rayon dəstələri rayonlarda öz işlərini tezliklə bitirərək sonrakı təyinatlarını olacaqları yerlərdə – yaxınlıqdakı dəmiryol stansiyalarında toplanmalı idilər. Bu sonrakı təyinat, şəraitdən asılı olaraq, ya Bakı (əgər hakimiyyətin tutulmasında gecikmə baş versəydi), ya da RSFSR-dan Qırmızı ordu hissələrinin hücuma

keçəcəyi halda müqavimətin təşkili üçün RSFSR-ın sərhədi olmalı idi. Dəstələrin bir hissəsi isə sərhədçi dəstələri ilə mübarizəyə yollanırdı. Bakıda ətraf rayonlarda hakimiyyətin Azdiviziyanın, milisin və yerli əhalinin köməyi ilə ələ keçirilməsi nəzərdə tutulurdu.

Azdiviziyanın Bakıdan kənarda yerləşdirilmiş olan hissələri gecikmədən Bakıya yola düşməli idilər.

Bakıda hakimiyyətin ələ keçirilməsi planı və Azərbaycan üzrə ümumi plan Azdiviziyanın komandiri Qambay Vəzirov tərəfindən tərtib olunmuşdu.

***Sual:*** Siz Korku Azərbaycandakı silahlı üsyanın bu planı barədə məlumatlandırdınız?

***Cavab:*** Bəli, məlumatlandırdım. Mənim bu planın Korka, sonuncunun isə Tuxaçevskiyə etdiyi məruzəsindən sonra aşağıdakı düzəlişlər daxil edilmişdi.

1) üsyançı dəstələri və Azdiviziya təkcə sərhəddə toplanmalı deyil, həm də Dağıstan üsyançılarına kömək etməyə hazır olmalıdırlar;

2) Azdiviziyanın Bakıdan kənarda yerləşmiş hissələri Bakıda hakimiyyətin ələ keçirilməsini etibarlı şəkildə və tez bir zamanda həyata keçirmək üçün üsyandan qabaq istənilən bəhanələrlə Bakıya yaxınlaşdırılması idilər.

Hərbi Mərkəzin bu göstərişlərini mən Qarayevə ötürdüm. Bu cür planlar isə Ermənistan və Gürcüstanda da var idi. Bu respublikaların hərbi təşkilatlarına müvafiq diviziyaların komandirləri – təşkilatın iştirakçıları başçılıq edirdilər.

Bu respublikaların silahlı üsyan planlarının Qarayevə məlum olub – olmadığını bilmirəm. Hər halda o mənə bu haqda danışmırdı.

***Sual:*** 1930-cu ildə Azərbaycan Milli Mərkəzinin darmadağın edilməsindən sonra yenidən yaradılmış mərkəz tərəfindən kapitalist ölkələri ilə əlaqə yaradılmışdımı?

***Cavab:*** 1937-ci ildə Qarayevlə olan söhbətim zamanı öyrəndim ki, Bakıda Azərbaycan Milli Mərkəzi tərəfindən müvafiq konsulların vasitəsilə Türkiyə və İran hökumətləri ilə müvafiq danışıqlar aparılır. Kömək, müvafiq kompensasiya hesabına silahlı yardımdan ibarət olmalı idi. Azərbaycan Milli Mərkəzindən bu danışıqları aparmaq üçün konkret olaraq kimə səlahiyyət verildiyini Qarayev mənə deməmişdi və mən bu haqda ondan heç nə soruşmadım.

Türkiyə və İran hökumətlərinə veriləcək kompensasiya ərazi güzəştindən (Naxçıvan Respublikasını – Türkiyəyə və Lənkəran qəzasının İrana), material kompensasiyadan – başlıca olaraq neftlə və sonralar ticarət razılaşmalarının bağlanması zamanı müvafiq imtiyazlardan ibarət olmalı idi. Qarayev buradaca bu söhbətin böyük məxfiliyi barədə məni xəbərdar etdi və Korku bu barədə məlumatlandırmamağı xahiş etdi.

***Sual:*** Moskvada olduğunuz zaman ərzində Siz Azərbaycan mərkəzinin iştirakçılarından daha kimlə görüşmüsünüz?

***Cavab:*** Azərbaycan Milli Mərkəzinin Azərbaycandan gələn iştirakçılarından Xəzər donanmasının (mülki) rəisi işləyən Azdiviziyanın keçmiş hərbi komissarı Həsən Rəhmanovla və Bakı şəhərinin komendantı Məhərrəmovla Azərbaycandakı vəziyyət haqqında söhbətlərim olmuşdu.

Mən Həsən Rəhmanovla Azərbaycan Milli Mərkəzi tərəfindən aparılan cəlbetmədən və silahlı üsyanın hazırlanması haqqında danışırdım. Rəhmanov mənə Azərbaycan Milli Mərkəzinə daxil olan şəxslərin adlarını çəkdi, soyadları Qarayevin mənə dedikləri ilə uyğun gəlir. Bütün soyadlarını mən xatırlamıram; yadımda qalan soyadlarını mən artıq ifadəmdə sadalamışam. Rəhmanov məni həmçinin, silahlı üsyana hazırlığın gedişi haqqında da məlumatlandırdı. O, göstərdi ki, Azərbaycan Milli Mərkəzinin olduqca nüfuzlu heyəti hesabına cəlb etmə olduqca uğurla gedir. Rayonlarda iş xüsusilə uğurla gedir. Rəhmanov, həmçinin, göstərdi ki, hazırlanan üsyanla Azərbaycanda əvvəllər baş vermiş üsyanlar arasında əsas fərq ondan ibarət olacaqdır ki, gələcək üsyana rayonların məsul şəxsləri başçılıq edəcəklər.

Rəhmanov tam əminlik bildirdi ki, üsyan tam uğurla nəticələnəcək. Mən Məhərrəmovla başlıca olaraq cəlbetmə ilə bağlı vəziyyət və Azdviziyada aparılan iş haqqında danışmışdım.

Məhərrəmov göstərdi ki, diviziya komandiri Vəzirovla diviziyanın hərbi komissarı Cabir Əliyev arasında baş tutan barışıqdan sonra iş uğurla getməyə başladı.

Məhərrəmov cəlb edilməsinə müyəssər olunmuş şəxslərin adını sadaladı. Məhərrəmov diviziya komandiri Vəzirovun hərbi komissar Cabir Əliyevin, Azdiviziyanın siyasi şöbəsinin rəis müavini Yusifovun, diviziyanın qərargah rəisi Sursal İbrahimovun (onun diviziya qərargahı rəisi və ya qərargahın 1-ci hissəsinin rəisi olub – olmadığını xatırlaya bilmirəm), Azdiviziyanın tribunalının sədri Tağıyevin, diviziya qərargahı rəisinin köməkçisinin (soyadını yaxşı xatırlamıram, deyəsən Məmmədovdur) adlarını çəkdi.

O, həmçinin, baş və orta rəis heyətindən olan şəxslərin də soyadlarını dedi. Bütün soyadlarını xatırlamıram. Mənim yadımda bu şəxslərin soyadları qalıb: Bakı alayının komandiri Seyfulla Mehdiyevin, alay komandiri Murtuz Talıbzadənin, artilleriya alayının komandirinin (soyadını unutmuşam). O, həmçinin, bir sıra alay qərargahları rəislərinin və alay komandirləri köməkçilərinin də soyadlarını dedi, ancaq mən indi o soyadlarını xatırlamıram.

Məhərrəmov göstərdi ki, cəlbetmə davam edir və güman etmək olar ki, diviziyanın rəis heyətinin çox böyük faizini əhatə edəcək.

Mən Məhərrəmova məlumat verdim ki, bu cür kütləvi cəlbetmə moskvalı işçiləri (mən Hərbi Mərkəzi nəzərdə tuturdum) ehtiyatlandırır, bu konspirasiya prinsiplərini pozur və bütün işin iflasına gətirib çıxara bilər. Məhərrəmov göstərdi ki, bu məsələ Azərbaycanda heç kəsdə qorxu yaratmır, çünki etibarlı adamlar cəlb edilirlər. Ancaq o cəlbetməni ən etibarlı və lazımlı adamların əhatə edilməsi və ağırlıq mərkəzinin rəis heyətinin və əsgərlərin müvafiq seçiminə keçirilməsi, həmçinin, diviziyanın şəxsi heyətinin şovinist ruhunda tərbiyələndirilməsi göstərişi haqqında xəbərdar idi.

***Sual:*** Siz göstərdiniz ki, İranda yaşayan mühacir qardaşınız Kəlbalı xanla əlaqəniz olub. Deyin, Siz Kalbalı xanla ancaq antisovet işi ilə bağlı olaraq əlaqədə idiniz?

***Cavab:*** Xeyr, antisovet işi üzrə əlaqədən başqa, mən Kalbalı xanla həm də casus fəaliyyəti ilə bağlı olaraq əlaqədə idim. Mənim casus fəaliyyətim 1921-ci ilin sonundan başlandı.

1921-ci ilin sonunda soyadını xatırlamadığım Naxçıvanın bir sakini yanıma gəldi və xəbər verdi ki, o tez-tez qeyri-leqal şəkildə İranda olur. Həmçinin, mənim valideynlərim haqqında bəzi məlumatları da xəbər verdi və qardaşım Kalbalı xandan məktub çatdırdı. Qardaşım özü və yaxınlarımız haqqında xəbər verir və məktubu çatdıran şəxsin vasitəsilə Azərbaycandakı vəziyyət, həmçinin, qoşunların yerləşməsi haqqında ona məlumat verməyi xahiş edirdi.

Mən məktubu çatdıran şəxsin vasitəsilə qardaşım üçün Qafqaz ordusu hissələrinin dislokasiyası və sayı haqqında məlumatı ötürdüm.

1924-cü ildə mən casusluq işi ilə bağlı olaraq Azərpambığın rəisi Məmməd Hacıyevlə əlaqə yaratdım.

Məmməd Hacıyev xidməti işləri ilə əlaqədar tez-tez İranda olur və orada mənim qardaşım Kalbalı xanla görüşürdü.

Hacıyev bir dəfə mənim yanıma gəldi və qardaşımdan salam çatdırdı və danışdı ki, İranda mənim qardaşımı görüb və qardaşım xahiş etmişdi ki, İrana növbəti səfəri zamanı mən onun vasitəsilə Qırmızı ordu hissələrinin Azərbaycandakı dislokasiyası və say tərkibi haqqında məlumatları qardaşıma ötürüm.

Müəyyən müddətdən sonra Hacıyev mənimlə görüşdüyü zaman yaxın günlərdə İrana yola düşəcəyi haqda məni xəbərdar etdi və qardaşımın dilədiyi məlumatları tərtib edərək ona ötürməyi xahiş etdi ki, mən də bunu yerinə yetirdim.

Analoji məlumatları mən Kalbalı xan üçün elə həmin Hacıyevin vasitəsilə 1926-cı ilə qədər ötürürdüm.

1926-cı ildə Məmməd Hacıyev İrana getdi və qayıtmaz oldu.

Həmin vaxtdan həbs gününə qədər casus işi ilə əlaqədar heç kəs mənimlə əlaqə yaratmamışdı və mən öz casus fəaliyyətimi bərpa etmədim.

Protokol mənim tərəfimdən oxunub və mənim sözlərimdən düzgün qeydə alınıb.

***İmza***
***(Naxçıvanski)***

## İĞTİŞAŞLI İLLƏRİN HƏYƏCANI



***...Naxçıvanda mütərəqqi ziyalılar az deyildi. Kəngərli nəslindən olanları da mən ehtiramla yada salıram. Bu nəsildən bir sıra məşhur ziyalılar yetişmişdir. Böyük xan, general İsmayıl xan, Hüseyn xan, Cəfərqulu xan, Məmmədqulu bəy, Məmməd ağa Şahtaxtinski, rəssam Bəhruz Kəngərli buna misal ola bilər. Naxçıvanlılar bu adamlara inanır, onlara müşkül bir işdə müraciət etməkdən çəkinmirdilər. Onu da qeyd edim ki, məşhur general Cəmşid xan Naxçıvanski də bu nəslin layiqli nümayəndəsidir.***

***Əli Səbri (1892 - 1983)***
***nasir, tərcüməçi***

Haqqında söhbət açdığımız Kəngərlilərin xan nəsli Azərbaycan hərb tarixinə qızıl səhifələr yazmış Cəmşid xanı 1895-ci il avqustun 15-də dünyaya bəxş etdi. O, yeddi yaşına çatanda anası Fərəntac xanımdan Azərbaycan dilində yazmağı, dayəsi Anna İvanovna Nikolayevnadan isə rus və fransız dillərində danışmağı öyrənmişdi. Rus ordusunun zabiti olan atası Cəfərqulu xan səkkiz yaşlı Cəmşidi Tiflisdəki yunkerlər məktəbinə qoydu. 1914-cü il noyabrın 8-də onu Qərbi Ukraynadakı Yelizavetqrad (indiki Kirovqrad — Ş.N.) qvardiya məktəbinə göndərdilər. 1914-cü ildə praporşik rütbəsi ilə həmin məktəbi bitirdi.

Birinci Dünya müharibəsi başlananda imperiyanın müsəlman əhalisindən təşkil olunmuş tatar süvari eskadronunun komandiri təyin olundu. Cəmşid xan Naxçıvanski öz hərbi məharəti ilə ilk dəfə Birinci Dünya müharibəsində ad-san qazanmışdı. "Brusilov cəbhəsi"nin yarılmasında iştirak etmiş, “Müqəddəs Georgi” ordeninin dördüncü dərəcəsi ilə təltif olunmuşdur. Avstriya və Rumıniyanın cəbhələrində üç dəfə yaralanan Naxçıvanski igid bir süvari zabit kimi 1916-cı ilin fevralından 1917-ci ilin yanvarınadək xidməti müddətində gümüş silahla təltif edilmiş və ikinci, üçüncü və dördüncü dərəcəli “Müqəddəs Anna”, ikinci, üçüncü dərəcəli "Müqəddəs Stanislav" ordenləri ilə mükafatlandırılmışdır.

Cənub-qərb cəbhəsi dağıdıldı. Ştab-rotmistri Naxçıvanski başçılıq etdiyi süvari alayı ilə birgə doğma Azərbaycana qayıtdı.

1918-ci il sentyabrın 15-də Türk qoşunları Azərbaycan Əlahiddə Korpusu ilə birgə Bakını düşmənlərdən təmizlədi. Əlahiddə Korpusun sıralarında Azərbaycanın müstəqilliyi uğrunda Cəmşid xan da inamla vuruşurdu. Füsunkar Qarabağın Şuşa şəhərində yerləşən Cəmşid xan Naxçıvanskinin alayı 1920-ci ilin martında daşnak tör-töküntülərinə və daxili düşmənlərə qarşı döyüş əməliyyatlarında fəal iştirak etdi.

Azərbaycanda Sovet hakimiyyəti qurulandan bir neçə gün sonra Respublika Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanov Şuşaya təcili teleqram göndərdi. Milli Ordu hissələrinin təşkilinə başlansın. Cəmşid Naxçıvanskinin komandirlik etdiyi ikinci Qarabağ süvari polku könüllü olaraq sovet ordusu tərəfinə keçdikdən sonra birinci fəhlə-kəndli polku adı ilə XI Ordunun tərkibinə daxil edildi. Podpolkovnik Cəmşid xan Naxçıvanskinin özü isə ilk Azərbaycan Birləşmiş Komanda məktəbinin rəis müavini, az sonra isə rəisi təyin olundu. İgid komandir kimi ilk günlərdən ləyaqətlə xidmət edən C. Naxçıvanskiyə həmişə müsbət xasiyyətnamələr verilmişdir.

İstedadlı sərkərdənin xalqına, Vətəninə sədaqəti, yüksək hərbi biliyi XI Ordunun komandanı M.İ.Levandovski, Hərbi İnqilab Şurasının üzvü S.Orconikidze, Azərbaycan Hərbi Dəniz Xalq Komissarı Əliheydər Qarayev tərəfindən yüksək qiymətləndirilmişdir.

1921-ci il martın 14-də ordu komandanı M.İ.Levandovskinin Cəmşid Naxçıvanskiyə verdiyi xasiyyətnamədə oxuyuruq:

"Korpus da daxil olmaqla bütün hissələrə operativ, taktiki cəhətdən komandanlıq etməyə tam layiqdir. Sakit, təmkinli, fəal və təşəbbüskardır. Azərbaycan MİK-in və Zaqafqaziya MİK-in tərkibinə seçilmişdir. Diviziya

komandirliyi vəzifəsinə tam uyğundur". İllər keçdi. Qızıl Ordunun məşhur komandirlərindən biri olmasına baxmayaraq, otuz yeddinci ilin qara tufanlarında M.İ.Levandovskiyə də inam, etibar azalıb yox dərəcəsinə endi. 1938-ci ilin martında onu da həbs etdilər. Martın 23-də çekistlər ondan zor gücünə Cəmşid xanın əleyhinə belə bir ifadə aldılar:

"Mənim Cəmşid xan Naxçıvanski ilə 1927-ci ildən yaxın dostluq əlaqəm vardır. Elə o zaman — 1927-ci ildə Naxçıvanski Azərbaycan MK-nın keçmiş katibi Qarayev (Əliheydər Qarayev — Ş.N.) tərəfindən burjua-millətçi əksinqilabi təşkilata cəlb olunmuşdu. Bu barədə mənə şəxsən Qarayev özü demişdi. Eyni zamanda o, mənə bildirmişdi ki, Naxçıvanskinin nüfuzunu orduda artırmaq üçün onu Sov. İKP sıralarına keçirmək lazımdır.

Qarayev öz kabinetində mənə kollektivin zəmanətini öz imzası ilə hazırlamışdı. Xatırlaya bilmirəm, deyəsən, Bakı şəhər partiya komitəsinin keçmiş katibi Levon Mirzoyan da ona imza atmışdı. Az.K(b)PMK-nın Naxçıvanskiyə həsr olunmuş iclasında qərar qəbul olunmuşdu ki, mən "şəxsən" açıq şəkildə onunla söhbət aparmalıyam.

Mən Cəmşid Naxçıvanskini "Avropa" mehmanxanasına öz yanıma çağırdım. Ona aid olan ittihamların hamısını dedim. Yəni ki, onun İranda qubernator işləyən əmisi ilə əlaqələri və casusluq işləri barəsində danışaraq ittiham etdim. Naxçıvanskini qorxutduqdan sonra mən ona mənimlə birgə keçmiş zabitlərin əksinqilabi təşkilatın üzvü kimi işləməyi təklif etdim. Naxçıvanski razılıq verdi. Mən ona məsləhət gördüm ki, şübhələri öz üzərindən götürmək üçün yığıncaqlarda çıxış etmək, riyakarlıq edərək sözdə Sovet hökumətini müdafiə etmək mövqeyində durmalıdır. Bundan sonra Naxçıvanski mənə bildirdi ki, onun tərəfindən təşkilata Azərbaycan alayının keçmiş komandiri Veysov və digərləri də cəlb olunmuşlar".

Milli diviziya yaratmaq işindəki fəallığına görə Cəmşid xan Naxçıvanskiyə 1921-ci il dekabrın 19-da Azərbaycan Hərbi-Dəniz Xalq Komissarlığı təşəkkür elan etmiş və mükafat olaraq ona gümüş dəstəkli qılınc hədiyyə vermişdi. O, yeni yaradılan Azərbaycan Dağ-Atıcı diviziyasına komandir təyin olundu.

1923-cü ildə Moskvadakı qısa müddətli Ali Hərbi Akademiya kursuna göndərilən Cəmşid xan Naxçıvanski 1924-cü ilə qədər orada hərbi təhsil almışdı. Azərbaycana qayıdandan sonra yenidən diviziya komandiri təyin edilmişdi. Üç il sonra o, ikinci dəfə Hərbi Akademiyaya oxumağa göndərilmiş və 1928-ci ildən 1929-cu ilədək məşhur generalımız Əliağa Şıxlinskinin

təşəbbüsü ilə Azərbaycan dilində nəşr olunan ***"Hərbi bilik"*** jurnalının redaktorlarından biri olmuşdur.

Mərhum general Akim Abbasov vaxtilə Naxçıvanskinin komandir olduğu diviziyada xidmət edib. Onun dediklərindən:

— Cəmşid xan Naxçıvanski qətiyyətli komandir idi. Onun gözəl cizgili siması, səliqəylə yana ayrılıb daranmış qara saçları və qalın qaşları altında açıq, aydın baxışları indi də gözümün önündədir. O, yaraşıqlı qaməti, hərbçilərə məxsus dəyanəti ilə müasirlərindən seçilirdi. Biz — Cəmşid xan Naxçıvanskinin diviziyasında xidmət edənlər, bu istedadlı sərkərdədən hərbi peşənin sirlərini öyrənmiş komandirlər onu iftixarla xatırlayırıq. Biz bu gün də keçmiş ənənələrə görə onu "Xan Naxçıvanski", döyüş təxəllüsünə görə "Şamo" deyə yad edirik. Xanlar rayon ərazisindəki iki kilometr cənub-şərqdə yerləşən dağı biz komandirlər və qızıl əsgərlər, həmçinin yerli sakinlər komandirimizə ehtiram əlaməti olaraq "Xan Naxçıvanski dağı" adlandırırdıq.

Cəmşid xan komanda məntəqəsini bu dağda qurmuşdu. Buranın relyefi elədir ki, həmin dağdan ətrafda Azərbaycan diviziyasının təlim meydançaları aydın görünürdü.

***Cəmşid xan Naxçıvanski hərtərəfli mütəxəssis, siyasi cəhətdən hazırlıqlı, hərb işinə sədaqətli zabit idi. Məhz bu yüksək keyfiyyətlərinə görə 1923-cü ildə Hərbi İnqilab Şurasının əmri ilə Cəmşid xan Qızıl Ordunun Ali Komanda Heyəti kursuna dinləyici qəbul olundu. Bu kursu müvəffəqiyyətlə bitirən Naxçıvanski 1931-ci ildən M.V.Frunze adına Ali Hərbi Siyasi Akademiyanın xüsusi qrupunda təhsilini davam etdirdi. Buranı da fərqlənmə diplomu ilə başa vuran Cəmşid Naxçıvanski Xalq Müdafiə Komissarının əmri ilə akademiyada müəllim saxlanıldı.***

Həmin dövrdə C. Naxçıvanskiyə verilmiş attestasiya sənədində oxuyuruq:

"C. Naxçıvanskiyə əvvəllər verilən müsbət rəylər öz qüvvəsində saxlanılsın. O, hər cəhətdən inkişaf etmişdir. Cəmşid xan Naxçıvanski hərbi təlimlərdə, operativ taktiki təlimatlarda özünü bacarıqlı sərkərdə kimi göstərmişdir. C. Naxçıvanskidən korpus komandiri kimi də istifadə etmək olar. O, təmkinli, sakit təbiətlidir, tükənməz enerjiyə malikdir, təşəbbüskardır, gözəl inzibatçıdır, yaxşı təşkilatçılıq qabiliyyəti vardır..."

Bu da Hərbi Akademiyanın kurs rəisi və komissarı, sonralar Sovet İttifaqı marşalı Boris Şapoşnikovun həmin attestasiyasının təsdiqi barədə rəyi:

"Cəmşid Naxçıvanskinin attestasiyası ilə razıyam, atıcı diviziyasının komandiri vəzifəsinə münasibdir".

Vaxtilə süvari qoşunun qızğın pərəstişkarı olan Cəmşid xan orduda bir qoşun növünə vətəndaş müharibəsinin təəssüratı ilə həddən artıq aludə olanlarla razılaşmır. Akademiyanın dinləyicilərini köhnəlmiş şablonlardan tezliklə yaxa qurtarmağa çağırırdı. Sübut edirdi ki, gələcək müharibədə cinahların dövrələnməsi üstünlük təşkil edəcək: döyüş meydanlarında o kəs qalib gələcək ki, müxtəlif qoşun növlərinin qarşılıqlı fəaliyyətini təmin edə bilsin, döyüşün idarə olunmasına yaradıcı şəkildə yanaşmağı öyrənsin. Toxum münbit zəminə düşmüşdü. Lakin bu toxumun cücərməsi...

Bəli, nadanlar, şər və iftira düşkünləri bu toxumun cücərməsinə imkan vermədilər. Onun tərbiyə edib yetirdiyi müdavimləri — S.Biryuzov, A.A.Qreçko, P.F.Batistki marşal rütbəsinə çatdılar. Özü isə günahsız məhv edildi. Onun fəaliyyətinə verilən xasiyyətnamələrlə, rəylərlə tanış olandan sonra Cəmşid Naxçıvanskinin "xalq düşməni" olmasına inanmaq çox çətindir. Bu ağa qara demək kimi bir şeydir. Ona görə də polad kimi əyilməyən Cəmşidi sındırdılar. Lakin o, istintaqda heç bir iftiranı boynuna almayıb, özünün günahsız dostlarını satmayıb, xalqının, nüfuzlu nəslinin adını ləkələməyib.

İllər keçdi. Başqaları kimi sonralar ona da bəraət verildi. Vaxtilə haqqında ürək dolusu ilə danışa bilmədiyimiz bu görkəmli komandir haqqında gənc nəslə məlumat vermək imkanı yarandı. İndi onun adına Bakıda Hərbi lisey var. Boya-başa çatdığı Naxçıvanda isə ev muzeyi açılmışdır.

Bakı Dövlət Universitetinin müəllimi, hüquq elmlər doktoru, professor Əyyub Əsgərov vaxtilə yetmiş yeddinci Azərbaycan atıcı diviziyasının sıralarında zabit kimi xidmət edib. O, istedadlı sərkərdə Cəmşid xan Naxçıvanskinin son günlərinin şahidi olub:

— 1937-ci ilin payızında Sankt-Peterburqda keçirdiyim məzuniyyətdən geri qayıdırdım. Moskvada hərbi kursda oxuyan yoldaşlarımla görüşmək üçün Frunze adına Hərbi Akademiyaya getdim. Yaxın dostum və Akademiyanın müdavimi Hacıbaba Zeynalovun qonağı oldum, həmyerlilərimiz Cəlil Əliyev, Əhmədəli Əliyev, Bayram Şıxıyev, Fərhad Şahbazov və başqaları ilə də burada görüşdüm.

Bir gün Hacıbaba Zeynalovun otağında şam yeməyinə toplaşmışdıq. Bu vaxt C. Naxçıvanski otağa girdi. Biz hamımız ayağa qalxdıq, ehtiramla, rəsmi təzim edərək onu salamladıq. Görkəmli sərkərdə hər birimizlə ayrı-ayrılıqda görüşdü. Üz-gözündə xoş təbəssüm cilvələnirdi... O, 77-ci Azərbaycan atıcı diviziyasında xidmət etdiyimi biləndə məni söhbətə tutdu. Azərbaycan xalqının həyatı ilə yaxından maraqlanırdı, diviziyanın siyasi döyüş hazırlığı sahəsində əldə etdiyi

uğurlar barədə məlumatları çox diqqətlə dinlədi və ürəkdən sevindi. O, Vətənin müdafiə qüdrətini daim möhkəmləndirməyin, dövrün tələblərinə uyğun olaraq, yüksək bilikli kadrlar hazırlanmasının, xüsusilə yeni texnikaya yiyələnməyin vacib olduğunu bildirdi. Sonra: "Oğul, bizim xalqımıza yaxşı hazırlıqlı kadrlar lazımdır",-dedi. Gedərkən hamıya müraciət etdi: "Bu Ali Hərbi məktəb-Akademiya əsl siz gənclərin yeridir, sizin üçündür, əfsus ki, bizim nümayəndələrimiz burada çox azdır". Üzünü mənə döndərdi: "Çalışın, qoçaq olun, mən elə sizi də burada görmək istərdim".

## DÖRD QARDAŞIN FACİƏSİ

Xan nəsilli generalın Naxçıvandakı ev muzeyində 1898-ci ildə çəkilmiş köhnə bir şəkli var. Tən ortada oturmuş ana — Fərəntac xanım körpə qızını bağrına basıb. Yanında şux qamətli üç oğlu — Ehsan xan, Kəlbalı xan və Cəmşid xan əyləşib. Çərkəzi geyimdə olan üç qardaşın duruşunda yaşlarına uyuşmayan ciddilik, mərdanəlik və vüqar oxunur. Həyatın hələ dinclik və rahatlıq dövrüdür. Yastığın üstündə oturan iki yaşlı Cəmşid uşaqlara məxsus heyranlıqla obyektivə baxır. Dünyaya uşaq marağı ilə baxan, iki ildən sonra başlanacaq yeni əsrdə onu nələr gözlədiyindən hələ bixəbərdir. Dünyanın inqilab tufanı, həyat qasırğası və müharibənin alovları balaca Cəmşidi on altı il sonra polad kimi bərkitdi... Hələ qarşıdakı həyat faciəsinə bir qərinədən çox qalırdı. Elə bir faciə ki, orada Cəmşid xan yox, onun qardaşları Ehsan xan, Kəlbalı xan və hansı təsadüfdənsə bu fotoşəkilə düşməyən Davud xan da məkr və böhtanın qurbanı olacaq.

1920-ci ilin iyununda Cəmşid xanın xidmət etdiyi ikinci Qarabağ süvari alayı Şuşada yerləşirdi. Podpolkovnik Naxçıvanski nizami hissə üzrə müavin idi. Bir gün gecədən xeyli keçmiş qaldığı evin qapısı döyüldü. Qardaşı Ehsan xan onun qonağı idi. Ondan iki yaş böyük olan Ehsan xan da peşəkar hərbçi idi.

O, Moskvada zadəgan balalarına məxsus kadet korpusu məktəbini bitirmişdi. Ehsan xanın da, çox saylı gənc Naxçıvanski zabitlərinin də tam süvari generalı Hüseyn xan Naxçıvanski kimi örnək əmiləri vardı. Hüseyn xanın şöhrəti bütün Rusiyaya yayılmışdı. Onlar belə igid əmiləri ilə fəxr edir, onun hərb sənətinin davamçısı kimi orduda şərəflə xidmət edirdilər.

Elə Əlahəzrət imperator adına şöhrətli on yeddinci Nijeqorodsk Draqun alayında ştabs-rotmistr Murad xan, qvardiya rotmistri Kəlbalı xan (nəvə), poruçik İsgəndər xan Naxçıvanskilər göstərdikləri şücaətlərə görə cəbhədə ad-san qazanmışdılar.

*1914-cü ildə bölüyü ilə düşmən qüvvələrini pərən-pərən salan Murad xanın döyüş xidmətləri "Müqəddəs Anna" ordeninin dördüncü dərəcəsinə, 1915-ci ildə "Müqəddəs Stanislav" ordeninin üçüncü dərəcəsinə (qılınc və bantla birgə), "Müqəddəs Anna" ordeninin üçüncü dərəcəsinə (qılınc və bantla birgə), "Müqəddəs Stanislav" ordeninin ikinci dərəcəsinə (qılıncla birgə) və 1916-cı ildə "Müqəddəs Anna" ordeninin ikinci dərəcəsinə (qılıncla birgə) layiq görülmüşdür.*

Birinci Dünya müharibəsindən sonra Vətənə qayıdan rotmistr Murad xan Naxçıvanski Milli Ordunun üçüncü Şəki alayında birinci bölüyün komandiri oldu.

*Döyüşlərdə igidliklə vuruşan poruçik İsgəndər xan Naxçıvanskinin xidmətləri isə "Müqəddəs Anna" ordenin üçüncü dərəcəsinə (qılınc və bantla birgə), "Müqəddəs Anna" ordeninin dördüncü dərəcəsinə (İgidliyə görə yazısı ilə) və "Müqəddəs Stanislav" ordeninin üçüncü dərəcəsinə (qılınc və bantla birgə) layiq görülmüşdür.*

1916-cı il aprelin 1-də "Kaspi" qəzeti yazırdı: "Ulan Leyb - qvardiya alayının rotmistri Kəlbalı xan Naxçıvanski 1914-cü il avqustun 15-də Sokokov kəndini düşməndən geri aldığına görə "Georgi silahı" ilə təltif olunmuşdur. Onun komandir olduğu vzvod heyəti alayın sol cinahında döyüşlər apararkən qəflətən avstraliyalıların bir eskadronunun basqısına məruz qalmışlar. Özünü itirməyən rotmistr Kəlbalı xan az saylı qüvvə ilə hücuma keçərək düşməni qaçmağa məcbur etmiş, qaranlıq düşənə qədər onları təqib dərək döyüş ərazisindən çıxartmışlar. Ötən döyüşlərdə də uğurlu qələbələr qazanan rotmistr Kəlbalı xanın xidmətləri üçüncü dərəcəli "Müqəddəs Anna" (qılınc və bantla birgə) və ikinci dərəcəli "Müqəddəs Anna" ordenləri ilə (qılıncla birgə) qiymətləndirilmişdir".

1918-1920-ci illərdə Azərbaycan Milli ordusunda xidmətini davam etdirən Kəlbalı xan Naxçıvanski və Kərim xan İrəvanski haqqında Respublika Nazirlər Soveti sədrinin adına 1919-cu ilin mart ayında yazılmış raport saxlanılır. Həmin sənədi Hərbiyyə naziri, tam artilleriya generalı Səməd bəy Mehmandarov və Baş Qərargah rəisi general-mayor Həbib bəy Səlimov imzalamışlar. Sənəddə oxuyuruq: "Qvardiya ştab-rotmistrləri Kəlbalı xan Naxçıvanskinin və Kərim xan İrəvanskinin keçmiş Rusiya hərbi nizamnaməsinə görə rütbələri ştab-rotmistr idi. Bugünkü orduya dəyişdirildikdə isə həmin rütbə podpolkovnik olmalıdır. Şərur və Naxçıvan qəzalarının erməni daşnaklarından azad olunmasında fərqləndiklərinə görə onlar polkovnik rütbəsi almağa tam mənada layiqdirlər".

Naxçıvan və Şərur qəza qoşunlarının komandanı olan Kəlbalı xanın

polkovnik rütbəsi alması barədə fakta təəssüf ki, sonrakı arxiv sənədlərdə rast gəlmədik. Dörd qardaşdan ikisi — Ehsan xanın və Cəmşid xanın doğma qardaşı Davud xan və Kəlbalı xan 1920-ci ildə bolşevik istilasından sonra İrana mühacirətə getməyə məcbur oldular.

Hətta anası Fərəntac xanım, atası Cəfərqulu xan və bacısı Nəzakət xanım Bakıya gəlib Nəriman Nərimanovun və Daxili İşlər Naziri Həmid Sultanovun rəsmi icazəsi ilə İrana gediblər. Çar rotmistri Cəfərqulu xanın altı övladı vardı. 1920-ci ilin aprel çevrilişindən sonra Cəmşid xandan başqa hamısı İrana gedib. İran ordusunda hərbi xidmətdə olan Kəlbalı xan haqqında dəqiq olmayan versiya var:

"*Birincisi* Rza şah biləndə ki, Kəlbalı xan Kəngərli nəslindəndir onu güllələdib. Deyib ki, vaxtilə babalarınız İrana qarşı vuruşub.

*İkincisi* hələlik dəqiq olmayan fakt ondan ibarətdir ki, 1931-ci ildə İranda qalxan kürdlərin üsyanını yatırılmasındakı döyüşdə həlak olub.

*Üçüncüsü* isə güya Kəlbalı xan İran ordusunda diviziya komandiri olub, general rütbəsində.

Lakin bütün bunlar barədə nə arxiv sənədi var, nə də fotoşəkil..."

Birinci Dünya müharibəsi illərində ştab-rotmistr Ehsan xan da leyb-qvardiya Varşava Ulan alayında şöhrətli döyüş yolu keçmişdir. 1914-1916-cı illərdə üstü "İgidliyə görə" yazılı dördüncü dərəcəli "Müqəddəs Anna", yenə həmin ili üçüncü dərəcəli "Müqəddəs Stanislav" (qılınc və bantla birgə), 1915-ci ildə "Müqəddəs Anna" (qılınc və bantla birgə), 1916-cı ildə ikinci dərəcəli "Müqəddəs Anna" (qılınc birgə) ordenləri ilə təltif olunmuşdur.

Polkovnik Tuqanov 1918-ci il avqustun 20-də Tiflisdə Ehsan xana verdiyi xasiyyətnamədə yazırdı ki, alayın bütün yürüş və döyüşlərində, xüsusilə 1916-cı il aprelin 3-də apardığı kəşfiyyat işlərində bacarıqlı komandir kimi fərqlənmişdir.

İmperiya ordusu dağılandan sonra Vətənə qayıdan ştab-rotmistr Ehsan xan 1919-cu il mayın altısınadək dördüncü Borçalı süvari alayında bölük komandiri kimi Lori nahiyəsində və Qarayazı ərazisində daşnak ermənilərə qarşı döyüşlər aparmışdır. Həmin ildən üçüncü süvari alayında, üçüncü bölüyün komandiri olan Ehsan xanın Qarabağda göstərdiyi qəhrəmanlığa görə rütbəsi də polkovnikə çatmışdı.

Cəmşid xan kiçik qardaş kimi onun şücaətinə, döyüşlərdə aldığı ordenə və rütbədə sürətlə irəliləməsinə çox sevinirdi. Podpolkovnik Ehsan xan yenə Qarabağı daşnaklardan qorumağa gəlmişdi. 1920-ci ilin aprelində Azərbaycana

soxulan silahlı bolşeviklər hər şeyi tar-mar eləmişdi. Azərbaycan hökuməti buraxılmış, ordusu dağıdılmışdı. Bolşeviklər Bakıda və Gəncədə talan həftəsini yenicə qurtarmışdılar. Amma müsavat əsgər və zabitlərinin sorğu-sualsız güllələnməyi hələ də davam edirdi. Gecə yarısı qapı döyüləndə Ehsan xan hamıdan tez ayıldı. Qardaşı Cəmşidin oyanmasına qıymayıb durub qapını açdı. Bolşevik-daşnak əsgərlərinin tüfənglərindəki süngülər ay işığında parıldadı. Taxta qoburlu mauzeri olan daşnak zabiti soruşdu: "Cəmşid xan Naxçıvanski sizsiniz?" Ehsan xan dərhal məsələni anladı. Bir anlığa ləngidi, kandarı o tərəfə adlayıb qapını bağladı. "Bəli, Cəmşid xan mənəm" — dedi.

***Onu şəhərin kənarına aparıb müsavat zabiti olduğuna görə sorğusuz-sualsız güllələdilər...***

***1920-ci il iyunun 11-də isə Fövqəladə Komissiya 1108 saylı "Həbs sənədi" tərtib etdi.***

***Nəyə görə həbs olunub güllələnmişdir sualının qarşısında : on birinci ordu-da xidmət etmək istəmədiyinə görə müsavat zabiti kimi güllələnmişdir. — Cavabını yazdılar. İyirmi yeddi yaşı yenicə tamam olan Ehsan xan Naxçıvanskinin ömrünə namərdlər nöqtə qoydular.***

Otuzuncu illərin axırlarında isə İran ordusunda xidmət edib yüksək rütbələrə çatan Davud xanı və Kəlbalı xanı şah 1934-cü ildə qvardiyaçılarına güllələtdi. Çünki bu taydan gedən bolşevik-daşnak donoslarına əsaslanan şah, igid Kəngərli qardaşlarına inamını itirmişdi.

Dörd qardaşdan heç biri otuzuncu illərin tufanlarından salamat çıxmadı...

***İyul 1991-ci il***

## KOMISSAR SARI ŞƏMISTAN
**(1895-1937)**

***...Bulayıb başını Sarı Şəmistan:***
***-Gözləmək olmazdı sizdən bu halı,***
***Bu çətin günlərin var istiqbalı.***
***Ömür dedikləri dalğalı bir su,***
***Vardır əziyyəti, vardır qayğısı;***
***O bəzən insanı büküb əyildir!..***
***Çarpışıb yaşamaq asan deyildir!..***
***Hər kimin qüvvəsi vardır qolunda,***
***Həyatda tutduğu məslək yolunda***
***Bəzən gözlərinə qaranlıq çökür.***
***Ölür və öldürür, qızıl qan tökür.***

***Səməd Vurğun***
***“Komsomol poeması”ndan***

“Komsomol poeması” ötən əsrin otuzuncu illərində yazılıb. 1970-ci ildə isə bu əsər əsasında “Yeddi oğul istərəm” bədii filmi çəkildi. Hər iki əsərdə eyniadlı qəhraman Sarı Şəmistan obrazını çoxları şairin bədii təxəyyülündən yaranmış surət kimi qəbul edirdilər. Bu gün də Sarı Şəmistanın tarixi şəxsiyyət olmasını bilənlər çox azdır.

El-obada Sarı Şəmistan adı ilə məşhur olumuş **Şəmistan Mahmud oğlu Əyyubov 1895-ci ildə** Qazax qəzasının Dağ Kəsəmən kəndində əkinçi ailəsində anadan olmuşdur. Aprel inqilabından əvvəl Qazaxda ikiillik məktəbi bitirib.

1924-cü ildə banditizmə qarşı mubarizənin fəal iştirakçısı olub. Hələ 1918-ci ilin oktyabr ayında iyirmi üç yaşlı Şəmistan Əyyubov bolşevik partiyasının üzvü olub.

İnqilabın məzlum xalqlara səadət gətirəcəyinə sidq ürəklə inanan Şəmistan Əyyubov könüllü olaraq qızıl ordu sıralarına qoşulur. O, Zakaspi, Əndican, Aktubə cəbhələrində baş verən döyüşlərdə iştirak etmişdi.

1918-ci il oktyarbın 25-də RK(b)P Daşkənd təşkilatına çağrılan Şəmistan Mahmud oğlu həmin günü bolşeviklər partiyasına qəbul edilir. Qəbul vaxtı o demişdir: “Mən bolşeviklər partiyasına qorxuya görə yox, namusa görə



***Arxada soldan birinji: Fərhad Babayev, öndə, sağdan diviziya komissarı Şəmistan Mahmud oğlu Əyyubov (1896-1937) (S.Vurğunun "Komsomol poeması"nın baş qəhrəmanı), 1930-ju il. Şəkil ilk dəfə dərj olunur.***

daxil oluram. Mən ideyama görə şüurlu surətdə bu partiyanın sıralarında canla-başla xidmət etməyə söz verirəm. Heç bir qüvvə fəhlə-kəndli bacı-qardaşımın seçdiyi bu sağlam yoldan məni döndərə bilməz."

Komissar Şəmistan Əyyubov Daşkənddə baş verən (1919-cu il yanvar ayında) əksinqilbçı Osipov üsyanının yatırılmasında mərd komissar kimi əldə silah vuruşmuşdu.

Həmin ilin mart ayında mətin bolşevik kimi Buxara ərazisində əksinqilabçılara qarşı döyüşə göndərilir. O, burada Türküstan Bürosunun Poltorotski şəhər RK(b)P Müsəlman Komitəsinin və Zakaspi Müsəlman Bürosunun sədr müavini vəzifəsində çalışır.

1920-ci ilin iyun ayında Şəmistan Əyyubov Azərbaycana qayıdır. Qazax Qəza Partiya və İnqilab Komitələrinin sədri təyin edilir. İl yarım Qazaxdakı fəapliyyətindən sonra onu Şamaxı və Göyçay qəzasına məsul işə göndərirlər. O, bu qəzalarda neçə-neçə qaçaq-quldur yuvalarını dağıdır.

Komissar Şəmistan Əyyubov 1930-cu illərdə Qazax Rayon Partiya Komitəsinin katibi, Yevlax pambıq zavodunun direktoru, Biləsuvar Rayon İcraiyyə Komitəsinin sədri, Azərbaycan Toxucular İttifaqının sədri kimi məsul vəzifələrdə çalışır.

1937-ci ilin qara günləri kabus kimi ölkəmizə yeriyəndə təhlükə mərd komissar Şəmistan Əyyubovun da qapısını döydü. Hələ 1935-ci ilin noyabr ayından bu faciə, hökumət adamlarının inamsızlığı qaraba-qara onu izləməyə başlayır. Həmin il, həmin ayda onun üçün qondarma sənəd Mir Cəfər Bağırovun və Şahverdiyanın imzası ilə hazırlamışdır: "Antipartiyaçı hərəkətlərinə, burcua ailə mühitində irticaçı ənənələrinin qalıqlarına rəğbət bəslədiyinə görə Şəmistan Əyyubov RİK-nin sədri vəzifəsindən azad edilsin və Şəmistan Əyyubov partiya məsuliyyətinə cəlb etmək üçün sənədlər Partiya Kollegiyasına göndərilsin".

***AK(b)P MK katibi M.C.Bağırov***
***AK(b)P MK və BK xüsusi***
***bölməsinin müdiri Şahverdiyan***

Mərd komissar Şəmistan Mahmud oğlu Əyyubovu SSRİ Ali məhkəməsinin Hərbi Kollegiyasının səyyar sessiyası əksinqilabçı-trotskçi və millətçilik fəaliyyətinə görə birinci kateqoriya ilə güllələnməyə məhkum etdi. **Onu 1937-ci ildə yanvarın 5-dən 6-a keçən gecə güllələndilər.**

Komissar Şəmistan Əyyubov güllələndikdən sonra Pəri xanım Abdulla qızı Vəlikova-Əyyubova "vətən xaini"nin həyat yoldaşı kimi cəzasını İslah Əmək Düşərgəsində çəkməklə SSRİ XDİK-nin 1938-ci il 9 aprel tarixli qərarı ilə 8 il müddətində azadlıqdan məhrum edildi. Dörd uşaq anasını Pəri xanım Mordoviyaya sürgün olundu. Böyük oğlu on beş yaşlı Mahmud həbs olunub, Bayıl həbsxanasına salındı. On bir yaşlı İsmayıl, on dörd yaşlı Gülzar və on üç yaşlı Ədiləni isə Şüvəlandakı "bezprizorniklər" saxlanan kaloniyaya göndərdilər.

**Sarı Şəmistanın kiçik qızı Ədilə xanım Əyyubova** (05.10.1925 - 06.06.2006):

-Koloniyadakı uşaqların hamısı cinayət üstündə tutulanlar idi. Onlarla bizə heç bir fərq qoyulmurdu. Kaloniyada hər gün bizi də cinayətkar uşaqlar kimi vəhşicəsinə döyürdülər.

Biz koloniyadakı bu ağır cəzalara, müsibətlərə dözməyərək Moskvaya, V.İ.Lenin arvadı N.Krupskayaya məktub yazdıq. Yazıq ki, heç bir günahımız olmadan iki bacı, bir qardaşı cinayətkar uşaqlarla bir koloniyada saxlayır və bizə əzab verirlər. Xahiş edirik bizə kömək edəsiniz.

Aradan iki-üç həftə keçər-keçməz məni Rastova, o biri qardaş-bacımı isə Krasnodar vilayətindəki uşaq evinə göndərdilər. Böyük qardaşım Mahmudu on beş yaşı olduğuna görə həbs etmişdilər. Bunu eşidən anam türmədə aclıq elan etmişdi. Yuxarılara yazıb bildirmişdi ki, əgər oğlumu buraxmasanız özümü öldürəcəm. Ananın bu məktubundan sonra böyük qardaşım Mahmudu həbsxanadan birbaşa əsgərliyə göndərmişdilər.

Məni Rostovun Proletarskaya stansisındakı bir saylı uşaq evinə gətirdilər. Uşaq evinin müdiri İrina Mizaylovna Tarasova məni çox istəyirdi. Bir azdan müharibə başlandı. 1942-ci ilin noyabr ayında faşistlər Rostovu işğal etdilər. Onda bizi vaqonlara doldurub Almaniyaya apardılar.

Bizi Almaniyaya Zigen şəhərindəki silah zavodunda işlədirdilər. Üç il həbs düşərgəsində qaldıq. 1945-ci ildə Sovet ordusu Almaniyaya hücum edəndə bizi mühafizə edən alman əsgər və zabitləri qaçıb dağıldılar. Əsirlərlə birgə hasarı söküb qaçdıq. İki gün, iki gecə yol gedəndən sonra sovet ordusuna gəlib çatdıq. Bizi siyahıya aldılar. Kim haradan gəlibsə, oraya da göndərdilər. Mən yenidən Rostov uşaq evinə gəldim. Artıq on yeddi yaşım vardı. İki ildən sonra dayım oğlu Abdulla Vəlikovdan məktub aldım. Yazırdı ki, anan sürgündən qayıdıb, sən də qayıt gəl Bakıya.

Bakıya gəldim. Getməyə yerim olmadığına görə Mehdixan dayımgilə getdim. dayım arvadı Ruqiyyə xanım məni tanımadı. Soruşdu ki sən kimin qızısan, sənə kim lazımdır? Cavab verdim ki, mən Sarı Şəmistanın və Pəri xanımın qızıyam. Rostov uşaq evindən qayıdıb gəlmişəm. Burada evimiz yoxdur, anamın da yerini bilmirəm. Bəs indi hara gedim?... Ruqiyyə xanım dərhal qaynı Səməd Vurğuna zəng edib əhvalatı danışdı. Səməd əmim Abdullanı tapıb, tapşırdı ki, Bunu Şəmkirə anası Pəri xanımın yanına apar. O, vaxt da anam "xalq düşməni" Sarı Şəmistanın arvadı olduğuna görə nə Bakıya, nə də Qazaxda yaşayıb-işləməyə icazə verməmişdilər. Ona görə də Şəmkirdə uzaq qozumlarımızdan birinin evində qalırdı.

Kiçik əmin Əyyub Krasnodara məktub yazıb uşaq evindən bacımla




qardaşımı gətirmişdi. Onları Dağ Kəsəmənə aparıb özü saxlayırdı. Bacım Gülzar müəllimlik texnikumunu bitirmişdi. "Xalq düşməni" nin qızı olduğuna görə heç yerdə işə götürmürdülər.

Böyük qardaşım Mahmud müharibədən bir gözü şikəst qayıtdı. Mən Gəncə Tibb texnikumunu əla qiymətlərlə bitirib, imtahansız Tibb İnstitutuna qəbul olundum. Kiçik qardaşım ismayıl Gəncə Kənd Təsərrüfatı İnstitutunu bitirib aqronom işlədi. Mən otuz iki yaşımda dayım oğlu Abdulla Paşa oğlu Vəkilovla ailə qurdum.

O vaxtlar Səməd dayım - Səməd Vurğun bizə tez-tez gələr, bizə təsəlli verər, bizim ailədən qayğısını əsirgəməzdi...

Pəri xanım Vəkilovanın 1954-cü ildə Gəncədən Səməd Vurğuna yazdığı bir məktubu həyəcansız oxumaq mümkün deyil. Həmin məktub Əlyazmalar İnsititutunun elmi arxivində (Arx.46, Q-51(929); s.v.429) saxlanılır.

Bu təsirli məktubu oxuyanda əsilzadə nəslin qızının və igid komissar Sarı Şəmistanın həyat  yoldaşının necə böyük bir ehtiyac içində yaşadığına görə keçmiş Totalitar sovet recminə insanın nifrəti qat-qat artır.

**Pəri xanım Abdulla qızı Vəkilova (1898-1975) yazır:**

**Əziz Səməd!**

"Əvvala məndən və İsmayıldan böyük salamlar. Əzizim, mən xəstəyəm, göz xəstəsi olmaq çox pisdir. Bir gözüm tamam kor olub, heç bir müalicənin

xeyri yoxdur. Neyləmək olar, görünür qismətim belə imiş. Allah sənə can sağlığı versin, əgər sənin köməyin olmasaydı, çoxdan bu dünyadan getmişdim. Səməd, elə düşünmə ki, mən sənə müraciət edərkən mənəvi ağrı hiss etmirəm. Mən çox məğrur adamam, lakin qismətin acılığı məni sənə müraciət etməyə məcbur edir. Bunun müqabilində mən gecə-gündüz Allahdan sənə sağlamlıq diləyirəm. Eybi yoxdur, mənim iztirablarımın sona yetməsinə az qalıb. İsmayıl artıq Kənd Təsərrüfatı İnsititutunda təhsilini başa vurmaq üzrədir. Bəlkə bir az onda vəziyyətimiz düzəldi. Sən elə bilmə ki, mənə sənə müraciət etmək asan gəlir. Gözümün yaşını saxlaya bilmirəm, lakin çıxılmaz vəziyyətdəyəm. İsmayıl cəmi 320 manat pul alır, iki nəfərik. O, indi işləyə bilmir, səhər saat doquzdan axşam saat beşə, bəzən yeddiyə kimi dərsdə olur. Ona görə də xahiş edirəm ki, söz verdiyin kimi bizə kömək edəsən. Qışdır, soyuqdur, aclıqdır, çox çətindir. Hələ bütün bunlardan əlavə İsmayılın geyimi yoxdur, təkcə bir köynəyin içində qalıb. Bu vəziy\yətdə dərsə gedir, ətrafdakıların ona necə münasibət göstərdikləri, ona nə gözlə baxdıqları sənə aydındır. Bir daha üzr istəyirəm, yoxluq məni səni narahat etməyə məcbur edir. Ümid edirəm ki, bu ağır vəziyyətimdə sən məni darda qoymayacaqsan. Nə qədər mümkün edərsənsə, artıq bir neçə gecədir ki, acıq.

Sənin bədbəxt Pərixanım bacın (Vəkilova)

Ünvanım: Gəncə şəhəri, ev 31

Eyyubov İsmayıl

İstəyirsən pulu Ədiləyə ver, Paşa qağamgildə qalır. O mənə çatdırar, onun ünvanı: Bakı şəhəri, İkinci Parallel küçəsi, 65, Vəkilova Nigar.”

## 1937-Cİ İL OKTYABRIN 13-DƏ 13896 №-Lİ İSTİNTAQ İŞİ İLƏ GÜLLƏLƏNƏN 77-Cİ AZƏRBAYCAN DİVİZİYASININ HƏRBİÇİLƏRİ

| № | Adı, atasının adı və soyadı | Rütbəsi |
|---|---|---|
| 1 | Məmmədov Nəsir | Baş leytenant |
| 2 | Tağıyev Bayram Əli oğlu | Siyasi rəhbər |
| 3 | İsmayılov Ağa Həmid oğlu | Batalyon kamissarı |
| 4 | Hüseynov Mustafa Əliqulu oğlu | Kapitan |
| 5 | Sultanov Əli Sultan oğlu | Mayor |
| 6 | Quliyev Tahir Naib oğlu | Alay komissarı |
| 7 | Fətəliyev Həmid Əhəd oğlu | Baş leytenant |
| 8 | Əliyev Əli Məşədiəli oğlu | Batalyon komissarı |
| 9 | Zülfüqarov Məmməd İsazadə | Hərbi komissar |
| 10 | Zülqədərov İsgəndər Əli oğlu | II dərəcəli intendant |
| 11 | ***Babayev Fərhad Məmmədəli oğlu*** | ***Alay komissarı*** |
| 12 | Məhərrəmov Manaf Murad oğlu | Polkovnik |
| 13 | Cəfərov Əliyusif Əbutalıb oğlu | Alay komissarı |
| 14 | Sofiyev Əhməd Səfərəli oğlu | II dərəcəli intendant |
| 15 | Abdullayev Abdulla Teymur oğlu | II dərəcəli intendant |
| 16 | Müustafayev Əli Həsən oğlu | Kapitan |
| 17 | Sofiyev Bəhmən Əli oğlu | Kapitan |
| 18 | İbrahimov Mürsəl Məmməd oğlu | Mayor |
| 19 | Mollayev Əbdül Əzim oğlu | II dərəcəli kapitan |
| 20 | Tağıyev İsmayıl Əhməd oğlu | Hərbi tribunalın sədri |
| 21 | Məlikov Abdulla Hüseyn oğlu | 77-ci Diviziyanın komissarı |
| 22 | Sanıyev Kəbi Murad oğlu | Kapitan |
| 23 | Məmmədov Cəlil Mustafa oğlu | II dərəcəli intendant |
| 24 | Qoşqarov Ağamirzə Məmmədibrahim oğlu | Kapitan |
| 25 | Süleymanov Nəriman Həsən oğlu | Baş siyasi rəhbər |
| 26 | Kərimov İbrahim Əbdüləli oğlu | Kapitan |
| 27 | Kərimov Rəşid Tağı oğlu | Kapitan |
| 28 | Qasımov Ağarza Fərman oğlu | Siyasi rəhbər |



***Soldan: 77-ci dviziyada alay komisarı Fərhad bəy Məmmədəli oğlu Babayev (? - 1937) və hərb həkimi Baba Əsəd oğlu Babayev (1884-1941)***

## "DİKAYA DİVİZİYA", yoxsa...

*Azərbaycanlılar hərbçilik iste'dadına, sönməz daxili ruhi zənginliyə malikdirlər. Belə xalq həmişə qalib gələr.*

***ALFONS RABBE,***
***Fransız tarixçisi.***



*Birinci dünya müharibəsi illərində Tatar-Azərbaycan alayı günorta namazında. Öndə alayın baş axundu şair Məhəmməd Hadi*

***1930-cu il martın üçündə Zaqafqaziya Dövlət Siyasi idarəsinin qərarı ilə güllələnən Qarxunlu mərdi Əşrəf bəyi müstəntiqlər ən çox 1918-ci ildə "dinc erməni əhalisi"ni qırdığına və həmin ildə Ərəş mahalında bölşeviklərə qarşı döyüşən əsgəri qüvvə təşkil etdiyinə görə günahlandırmışlar. Bu könüllü hərbi qüvvələrin əksəriyyəti o vaxt Birinci Dünya müharibəsindən qayıdan "Tatar süvari alayı"nın əsgər və zabitləri idi. Əşrəf bəy Qarxunlunun özü də 1918-ci ilin iyun-sentyabr aylarında həmin alayın tərkibində Göyçayı, Müsüslünü, Bərgüşadı, Şamaxını və Bakını düşmənlərdən təmizləmək üçün igidliklə vuruşmuşdur.***

***

Bu gün hamını haqlı bir sual düşündürür: 1918-ci ildə müstəqilliyini e'lan edən Azərbaycan hərbi qüvvələri necə və nəyin əsasında yaranıb? Axı, deyilənlərə görə, bu tarixdən əvvəl azərbaycanlılar əsgəri xidmətə çağırılmırdı...

Bu suallar qarşısında uzun müddət düşünməli olursan. Ona görə ki, bə'zi tarixçilərimiz ordunun yaranmasını alqışlayır, digəri onun komandirlərinə tənqidi yanaşır, başqa birisi də yazır ki, 1918-ci ildə ordumuz "könüllülərdən" yaranıb. Mətləb isə açılmır, bu "könüllülər" yerli mülki əhalidən ibarət idi, yoxsa kənardan gətirilmişdi?

Amma ordunun yaranmasında ilkin mənbə kimi bir fakt da var ki, tarixçilər ona da ötəri toxunurlar və bu mənbəyə tənqidi münasibət bəsləyirlər. O da Birinci Dünya müharibəsində iştirak edən "Dikaya diviziya"nın azərbaycanlılardan ibarət nizami "Tatar alayı"nın əsgəri qüvvələridir. 1920-ci ildən ta bu günlərimizə qədər sovet rejimində də "Dikaya diviziya"nın fəaliyyətinə tarixçi alimlərimiz tənqidi yanaşıblar. Açılan arxiv qovluqlarında isə bunların tam əksinin şahidi oluruq. Sənədlərlə tanış olanda düşünürsən ki, 1914-cü ildən 1917-ci ilə qədər rus imperiyasını almanlardan, 1918-20-ci illərdə isə Azərbaycanı daşnak-bolşevik əsgəri qüvvələrindən qoruyan və torpağımızın bütövlüyü uğrunda silaha sarılan "Vəhşi diviziya"nın Tatar-Azərbaycan alayı həm bizim, həm də rus hərb tədqiqatçılarının niyə tənqid obyekti olub. Guya səbəbi də ondan ibarətdir ki, "Vəhşi diviziya" 1914-17-ci illərdə çara, 1918-20-ci illərdə isə Azərbaycan Demokratik hökumətinə xidmət edib. Faktlar göstərir ki, Nuru paşanın ordusu 1918-ci ilin iyun-sentyabr aylarında Bakını düşmənlərdən təmizləyəndə onlarla çiyin-çiyinə vuruşan min nəfərdən çox könüllünün əksəriyyəti "Tatar süvari alayı"nın əsgər və zabitlərindən təşkil olunmuşdu. Bəs süvari alayının o vaxtlarda qoruduğu, uğrunda vuruşduğu torpaqlar bizim deyilidmi?

Bəli, bitib-tükənməyən bu suallara cavab tapmağın vaxtı çatıb. Bunu bugünkü müstəqil Azərbaycan və onun yenidən yazılan hərb tarixi tələb edir. Bə'zi məqalə müəllifləri ağızdolusu yazırlar ki, Birinci Dünya müharibəsi illərində şovinist ruslar Qafqaz müsəlmanlarından təşkil olunmuş diviziyaya "Vəhşi" adını təhqir mə'nasında veriblər. Əvvəla, diviziyanın döyüş yolunu təsvir edən sənədlərdə belə fakta rast gəlmək qeyri-mümkündür. Bütün rəsmi sənədlərdə diviziyanın adı belədir: "Kavkazskaya tuzemnaya diviziya" - yə'ni Qafqazın yerli əhalisindən təşkil olunmuş süvari diviziya, "Vəhşi" ayaması isə cəbhədaşları tərəfindən diviziyaya qeyri-rəsmi verilib. Müharibənin ilk günlərindən diviziyanın apardığı döyüş əməliyyatları çox uğurlu və qəhrəmanlıqları parlaq olmuşdur. Diviziya bütün müharibə boyu məğlubiyyətin

nə olduğunu bilməyib, hücumları həmişə zəfərlə bitib. Onların döyüş amalı belə idi: ***"Nə bir addım geri çəkilməli, nə də əsir düşməli"***. Ona görə də döyüşlərin ən çətin məqamında düşmən mühasirəsini yarmaq üçün bu diviziyanın təcrübəsindən və gücündən istifadə olunurdu.

Hətta "Vəhşi dviziya"nın sıralarında zəfərlə döyüşən həmyerlilərimizin şərəfinə cəbhədaşları hərbi marş da qoşmuşdular. Hərbi marşın bir bəndi 1920-ci ildən sonra Berlində mühaciratda yaşayan general-mayor Teymur bəy Novruzovun (1880-1961) yaddaşından bizə gəlib çatıb:

***Döyüşdə, cəngidə, zəfər yolunda,***
***İgidlər həmişə-ən öncül olmuş.***
***Gəncə süvarları, sağı-solunda,***
***Borçalı igidləri birinci olmuş.***

***Ruscadan tərcüməsi şair***
***Vilayət Rüstəmzadənindir.***

Tutaq ki, bizdə bə'zi məqalə müəlliflərinin dediyi kimi, diviziyaya təhqir mə'nasında "vəhşi" adı verilmişdir. Bəs, Koroğlu igidlərinə və Dədə Qorqud qəhrəmanlarına "dəli" ayamasının verilməsi necə, onlar həqiqətənmi "dəli" idilər? Əlbəttə yox!

Hər iki ifadədə incə yumor, sevgi, nəvaziş çalarları var. Niyə uzağa gedirik. Bizim müasirimiz, dünya şöhrətli sərkərdə Əli ağa Şıxlinski aydan-arı, sudan-duru olan "Xatirələrim" kitabında yazır ki, bizim nəsil öz cəngavərliyi, tündməcazlığı ilə qəzada tanınırdı. Qəzada bizi ***"Dəli qazaxlı"*** adlandırırdılar. Əli Qazaxoğlu içərisində birinci savadlı adam mənim atam idi.

Sual olunur: hərfi mə'nada başa düşsək, "dəli" olan bir nəsil "artilleriyanın Allahı" kimi oğul yetirə bilərdimi? Onu da unutmaq lazım deyil ki, Şıxlinskilər nəsli Azərbaycan maarifinə, ədəbiyyatına və hərb tarixinə bütöv, sağlam ziyalı nəsli bəxş etmişdir.

***Sonralar (1917-ci ilin noyabrından - Ş.N.) həmin diviziyanın Tatar (Azərbaycan - Ş.N.)*** süvari alayının əsgərlərindən ibarət ilk dəfə 600 nəfərlik "Müsəlman korpusu" təşkil olundu. 1918-ci ildə müstəqilliyini e'lan edən Azərbaycan Zaqafqaziya Seymindən çıxdı. Bu dövrdə ölkədə siyasi durum çox qarışıq və mürəkkəb idi. Bolşevik-daşnak silahlı qüvvələri tərəfindən güclü təhlükə yaranmışdı. Məhz Tatar-Azərbaycan alayının qüvvəsinə arxalanıb, əlavə könüllülər toplamaqla həmin il iyunun 26-da "Əlahiddə Azərbaycan korpusu" yaratmaqla Əli ağa Şıxlinski və Səməd bəy Mehmandarov Milli ordunun təməl daşını qoydular.

"...Birləşməyə belə bir ad qoşulanda onun mə'na mərkəzində müsbət bir münasibət dayanırdı və bununla da "Dikaya diviziya"nın məğlubedilməzliyinə işarə ifadə olunurdu. Xüsusən, daşnak və ifrat bolşevik elementləri "Dikaya diviziya"dan danışarkən heç də bu sözü həmin diviziyanın şücaətinə olan heyranlığına görə işlətmirdilər. Belə münasibət elə sovet tarixşünaslığının özündə də mövcuddur. Bir sıra müəlliflər "Dikaya diviziya"dan danışarkən bu ifadənin nəzərdə tutulan mə'nasını deyil, məhz "dikiy" sözünün leksik mə'nasını qabartmağa çalışmışlar. Bununla da həmin birləşmənin hissələrinin hərbi keyfiyyətlərinə, Cümhuriyyət Ordusunun özülünü təşkil etmiş qoşun hissələrinin nizam-intizamına bir istehza ifadə olunmuşdur. Həmin diviziya 1917-ci ildə ləğv edilmiş və bununla da onun mövcudluğuna son qoyulmuşdur. Diviziya ləğv edildikdən sonra azərbaycanlılardan və çeçenlərdən təşkil olunmuş Tatar süvari alayının qalıqları Azərbaycana qayıtmış və onun bazasında Müsəlman korpusunun ikinci süvari alayı yaradılmışdı" (M.Süleymanov, "Azərbaycanda "Dikaya diviziya" olubmu?" məqaləsi, "Hərbi bilik" jurnalı, 1998-ci il, №4). Və bu hərbi qüvvələrin özəyi əsasında da 1920-ci ilə kimi Azərbaycan Demokratik Cümhuriyyətinin tərkibi 40 minə yaxın olan Milli ordusu yarandı. Əli ağa Şıxlinski və Səməd bəy Mehmandarov kimi iliyinə qədər hərbçi olan generallar ordunun təməl daşının "dəlilər"dən olmasına razı olardımı?

1917-ci ildə imperiya dağılandan sonra Petroqrada aparılan "Dikaya diviziya"dan qarmaqarışılıqları yatırmaq və üsyan edən xalqı qırmaq üçün istifadə etmək istədilər. Onlar isə nizamnaməyə və milli adət-ənənəyə sadiq qalaraq silahsız xalqı qırmaqdan imtina edib Qayqaza qayıtdılar.

"Müsəlman milli korpusu"nun əsasında Petroqraddan köçürülən həmin "Vəhşi diviziya"nın "Tatar süvari alayı" dayanırdı. General Əli ağa Şıxlinski ümumi komandanlığı qəbul etdi. Tərxis edilmiş rus ordusunun zabitləri də həmin qoşun birləşmələrinə götürüldü. Bu zaman müsəlmanlara üstünlük verilirdi. Bundan əlavə, 1917-ci il çevrilişindən sonra Bakıdakı kadet məktəbində yerli zabit kadrlarının hazırlanmasına da başlandı".[1]

Ayrı-ayrı sənədlər şahidlik edir ki, Birinci Dünya müharibəsi cəbhələrində üç mindən çox sıravi və kiçik rütbəli azərbaycanlı döyüşürdü. Bunlar müharibə başlananda səfərbər olanlar idi. Lakin imperiya qoşunlarının tərkibində yüksək rütbəli zabit və generallarımız da az deyildi. Tam artilleriya generalı Səməd bəy Mehmandarov, general-leytenant Əli ağa Şıxlinski, süvari

1. T.Svyatoçevski, "Rusiya Azərbaycanı. 1905-1920-ci illər" məqaləsi.

generalı Hüseyn xan Naxçıvanski, general Məmmədsadıq bəy Ağabəyzadə, Əsəd bəy və Mirkazım xan Talışxanovlar, rotmistr Teymurbəy Novruzov, təyyarəçi Fərrux ağa Qayıbov, Soltan Əhmədov praporşik Sayad Zeynalov və onlarla başqa oğullarımız cəbhədə ad-san qazanmışdı.

1917-ci il noyabrın 15-də Peterburqdan Qafqaza qayıdan general - leytenant Əli ağa Şıxlinski ilk dəfə Tiflisdə azərbaycanlılardan ibarət milli korpus yaratmışdı. bununla da o, Milli Azərbaycan Ordusunun təməl daşını qoymuşdu. Bu barədə general "Xatirələrim" hərbi memuarında daha dəqiq məlumat verir:

"Noyabr ayında Tiflisə qayıtdıqda, müvəqqəti olaraq mənə korpus komandanlığı həvalə olunduğu barədə əmri oxudum. Öz xalqımı, baş verə biləcək təzyiqlərdən və daxili qarışıqlıqlardan özünü qorumasına xidmət etmək arzusu ilə korpus təşkil etməyi qət edib, Tiflisdə öz qərargahımı[1] düzəltməyə başladım".

"Açıq söz" qəzeti 1918-ci il yeddi yanvar tarixli nömrəsində nizami müsəlman əsgəri qüvvələrinin yaranması haqqında belə bir xəbər yaymışdı:

"Yanvarın üçündə Mərkəzi Müsəlman Zaqafqaziya komitəsinin üzvü, Mərkəzi Komitə sədri Fətəli xan Xoyski müsəlman əsgəri dəstələri təşkilatı haqqında məruzədə bulunmuşdur. Məruzədən anlaşıldığına görə 1917-ci il dekabrın on birində Zaqafqaziyaya Komissarlığı Zaqafqaziya müsəlmanlarından nizami ordu təşkil etməsi qətnaməsini çıxarışdır. Nizami ordu üçün lazımi qədər könüllü cəm edilməsi işi Qafqaziya Mərkəzi Müsəlman Komitəsinə həvalə edilmişdir. Nizami ordu təşkil edildikdən sonra müsəlmanlardan alınan əsgəri verginin ləğv edilməsi haqqında Zaqafqaziya Komissarlığı tərəfindən dekret veriləcəkdir. Zaqafqaziya Komissarlığının bu qətnaməsinə bianən dekabrın on doqquzunda beşinci və yeddinci Qafqaziya nişançı firqələrindən ibarət olan altıncı ordu korpusunun Müsəlman nizami ordusuna əvəz edilməsi haqqında Qafqaziya cəbhəsi qoşunlarının baş komandanı tərəfindən Əmrnamə verilmişdir. Həmin əsgəi dəstələrini milliləşdirmək işlərinin nəzarəti general Əli ağa Şıxliskiyə həvalə edilmişdir. General - leytenant Əli ağa Şıxlinski öz vəzifəsinin ifasına başlamışdır".

1918-ci ildə ölkəmiz ağır və təhlükəli günlərini yaşayırdı. Həmin ilin yanvar ayında Türkiyəyə hərbi yardım üçün gedən Azərbaycan hökumətinin

1. Qərargah Tiflisdəki "London" mehmanxanasının birinci mərtəbəsində yerləşirdi. Həmin iki mərtəbəli mülk indi də qalır. Bu sətirlərin müəllifi 1999-cu ilin aprel ayında Tbilisdə yaradıcılıq ezamiyyətində olanda həmin binanı axtarıb tapmışdır - (Ş.N.)

əks-kəşfiyyat idarəsinin rəisi Nağı bəy Şeyxzamanlı Türkiyənin hərbi naziri Ənvər Paşa ilə görüşəndə demişdir:

- Paşam, Birinci Dünya müharibəsidə biz azərilərdən dörd general rus ordusunda ordu komandiri olmuşdular. Qonşularımız erməni və gürcülərdən ordu komandiri çıxmamışdır. Yalnız bir gürcü generalı hərbi korpus komandiri ola bilmişdir. Azərilərdən ordu komandiri Səməd bəy Mehmandarlı rus-yapon müharibəsində hərbi korpus komandiri olaraq rus ordusunun ən yüksək ordenini almışdır. İkinci general Əli ağa Şıxlinskidir. Rus ordusunun topçu baş inspektoru idi. Üçüncü general Hüseyn xan Naxçıvanskidir. Dördüncüsü isə Xan İrəvanskidir. (N.Şeyxzamanlı, "Azərbaycan istiqlal mücadiləsi xatirələri" kitabı, 1997-ci il, səh.73).

1914-cü ildə Gəncədə, Şuşada və başqa qəzalarda alaylar təşkil olundu. Şuşalılardan "Tatar süvari alayı", gəncəlilərdən isə "İkinci Gəncə süvari müsəlman alayı" yaradıldı. Bunların hamısı "Qafqazın yerli əhalisindən təşkil olunmuş süvari diviziyası"nın tərkibinə daxil oldu.

Diviziya üç briqadadan və üç süvari alayından ibarət idi: birinci alay Kabardin və dağıstanlılardan, ikinci alay tatar (Azərbaycan - Ş.N.) və çeçenlərdən, üçüncü alay inquş və çərkəzlərdən təşkil olunmuşdu. Bundan başqa, osetinlərdən ibarət piyadalar briqadası və Don kazaklarından səkkizinci artilleriya divizionu yaradılmışdı.

Diviziyanın baş komandanı imperator II Nikolayın qardaşı, böyük knyaz Mixail Aleksandroviç Romanov, rəisi isə general-leytenant, knyaz D.P.Baqrationi (1863-1919) idi.

Sıravi əsgərləri (aşağı rütbəliləri) "süvari", bə'zən də "atlı" deyə çağırırdılar. Zabitlər ayda 25 manat maaş alırdı. Onlardan əksəriyyəti ruslardan və Qafqazın xan, bəy və ağa oğullarından ibarət idi.

Diviziya əsgərlərinin yaxşı tə'limi, ə'la döyüş qabiliyyəti vardı. Bunu "Gəncə alayı"nın komandiri podpolkovnik Polovtsovun 1915-ci il iyulun on birində Gəncə qubernatoru Q.Kovalyovun adına göndərdiyi teleqram da təsdiq edir:

"Qafqazın yerli əhalisindən təşkil olunmuş diviziya"nın alayları arasında Gəncə süvari alayı birinci olaraq öz komandirinə "Müqəddəs Georgi xaçı" ilə təltif olunmaq şərəfi nəsib etdi. Bu yüksək mükafatla fəxr edərək onu tatar (Azərbaycan - Ş.N.) süvarilərinin yüksək döyüş bacarığı və fədakar qəhrəmanlığının qiyməti kimi qəbul edirəm. müsəlman süvari döyüşçülərinin misilsiz şücaəti qarşısında mənim dərin heyrətimi qəbul etmənizi xahiş edirəm".



***Birinci Dünya müharibəsində qəhrəmanlıqla döyüşən Azərbaycan Süvari alayının bir qrup əsgər və zabiti 1916- cı ildə.***

Görkəmli şairimiz Məhəmməd Hadi azərbaycanlılardan ibarət alaylarla birgə Polşada, Lvovda, Stanislavda, Karpatlarda, Qaliç və Qorodinka şəhərləri uğrunda gedən döyüşlərdə üç il cəbhə həyatı keçirmişdir. Həmyerlilərimizin qəhrəmanlığından ruhlanan böyük şair bu mövzuda silsilə şe'rlər yazmışdır. O, cəbhədə Azərbaycan alayının imamı olmuşdur. ***1917-ci ildə Gəncədə əsgərlər qarşısında çıxış edən Məhəmməd Hadi demişdir:***

***- Əziz vətəndaşlarım! Alayımızı təşkil edən Azərbaycan türklərinin göstərdikləri hərbi qabiliyyəti və yapdıqları qəhrəmanlıqları söyləməklə bitməz. Ancaq mən burada bir hadisə üzərində dayanacağam. Hərb şiddətlə davam edirdi. General Samsonovun komandasındakı rus ordusu ilə alman qüvvələri şiddətlə çarpışırdı. Samsonovun sağ cinahını "Dikaya diviziya" (Müsəlman diviziyası - Ş.N.) qorumaqda idi. Almanlar çəmbəri daraldarkən ətrafla əlaqəsi kəsilən alay komandanımızın verdiyi əmrlə Alman çəmbərinə hücum edərək, çəmbəri yardı və alayı ikiyə böldü. Yarılan çəmbərin sağ və solunu sıxışdırmağa başladı. Beş alaydan ibarət olan Qafqaziya qardaşları rusları alman çəm-***

***bərindən qurtardı. Bu mühüm hadisə həftələrcə rus mətbuatını işğal etdi. Rus çarı bizim alayın bayrağına ən böyük nişan verdi.***

1914-cü il avqustun 15-16-da Şərqi Prussiya əməliyyatında general A.V.Samsonovun ikinci ordusunun 30 min əsgər və zabiti mühasirəyə düşmüşdü.

Cəbhədə ruhani kimi öz vəzifəsini icra edən şair Məhəmməd Hadi əsərlərində eloğlularımızın igidliyini də vəsf etmişdir:

***Bu ağır yük çəkilməz,***
***Bu ağular içilməz.***
***Sənsiz, a parlaq dilək,***
***Qaranlıqlar keçilməz.***

***Mə'yus olma amandır,***
***Mə'yus olmaq yamandır.***
***Qorxaq diləksiz yaşar,***
***Millətim qəhrəmandır.***

"Hadi doğma Azərbaycandan minlərlə kilometr uzaqda, Karpat dağlarında, müharibə alovları içində də Vətənin taleyini düşünməyi, onun təbii gözəlliklərini və gələcək xoşbəxtliyini tərənnüm etməyi çox sevirdi". (Ə.Mirəhmədov, "Məhəmməd Hadi" kitabı, Bakı, 1962-ci il, səh.183)

***Azərbaycan Demokratik Cümhuriyyətinin liderlərindən biri, dahi bəstəkarımız Üzeyir bəyin kiçik qardaşı Ceyhun bəy Hacıbəyli - Dağıstani 1916-cı ilin fevral - iyun aylarında Birinci Dünya müharibəsində azərbaycanlı əsgər və zabitlərin döyüş yolunu əks etdirən "Müsəlman zabitləri" adlı on dörd silsilə məqalə dərc etdirmişdir. "Kaspi" qəzetində dərc olunmuş bu məqalələrdə cəbhələrdə şərəflə vuruşan yalnız azərbaycanlıların deyil, ümumi Qafqazda yaşayan din qardaşlarımızın qəhrəmanlığı haqqında da qiymətli məlumatlar var. Ceyhun bəy 19 aprel 1916-cı il tarixli (№86) məqaləsində yazır ki, apardığımız araşdırmalardan məlum oldu ki, yalnız 1915-ci ildə müsəlman zabitlərindən yeddi general, on iki polkovnik, bir kazak qoşun starşinası[1], on doqquz podpolkovnik, iyirmi dörd kapitan, iki yasaul, on yeddi rotmistr, iyirmi bir ştabs - rotmistri, on səkkiz ştabs-kapitan, beş padyasaul, üç yüzbaşı, əlli poruçik, iki xorunji, otuz səkkiz podporuçik, iyirmi bir kornet və on iki praporşik rütbəli müsəlmanlar döyüşlərdə fərqləndiklərinə görə təltif olunmuşlar. Bu saydan üç general üçüncü dərəcəli "Müqəddəs Georgi", on***

***yeddi zabit, o cümlədən bir polkovnik, beş podpolkovnik, üç kapitan, bir rotmistr, bir ştabs rotmistr, bir ştabs-kapitan, iki poruçik, iki podporuçik və bir praporşik dördüncü dərəcəli "Müqəddəs Georgi" ordeni ilə təltif olunmuşdur.***

***On dörd zabitə, bir polkovnikə, iki podpolkovnikə, bir kapitana, bir yasaula, bir rotmistrə, bir ştabs-kapitana, bir yüzbaşıya, dörd poruçikə, bir podporuçikə və bir kornetə isə adlı Georgi silahı bağışlanmışdır.***

"Kaspi" qəzetinin 1916-cı il 29 aprel tarixli nömrəsində belə bir fərəhli faktada rast gəldik: "Qvardiya süvarisindəki Qafqaz Ordusunun Baş Komandanının sərəncamında olan general - adyutant, general-leytenant Hüseyn xan Naxçıvanskiyə tam süvari generalırütbəsi verilsin". Qafqazın yerli əhalisindən təşkil olunan süvari diviziyanın qəhrəmanlığından iftixarla danışan Ceyhun bəy yazır: "Almanlara qarşı vuruşan müsəlman döyüşçülərinin mərdlik və fədakarlığı bütün imperiya mətbuatını onlar haqqında danışmağa vadar etdi. "Dikaya diviziya"nın adı əfsanələşdi. Onu demək kifayətdər ki, üç min müsəlman döyüşçüsünə müharibə vaxtı beş min "Müqəddəs Georgi xaç" nişanı verilmişdir. Bu mərdlikdə heç bir saxtakarlığın olmadığını "Terski vedomost" qəzetində verilmiş aşağıdakı nümunə bir daha təsdiq edir.

Diviziya komandanına xidməti iş üçün bir neçə günlüyə on beş nəfəri Tiflisə göndərmək lazım idi. O, döyüşçüləri yığıb getməyi təklif etdikdə heç kəs könüllü olaraq cəbhəni tərk etmək istəmədi. Axırda püşk atmaq məcburiyyətində qaldılar. Püşk düşən əsgərlər səhər Tiflisə yola düşməli idilər. Amma... səhərisi onlardan heç kəs tapılmadı. Onların döyüşçü dostları gülümsünərək deyirdilər: - onlar səngərlərdən çıxmırlar, Tiflisə başqa döyüşçülər göndəriləndən sonra üzə çıxacaqlar.

"Dikaya diviziya"nın əsgərləri sadəcə olaraq cəbhəni tərk etmək istəmirdilər. Tiflisə on beş nəfər yola düşəndən sonra göründülər".

İmperiya dağılıb, "Dikaya diviziya" buraxılandan sonra Azərbaycanda "Tatar alayı"na kim başçılıq etmişdir? Tiflisdə general-leytenant Əli ağa Şıxlinski, Gəncədə polkovnik Süleyman bəy Əfəndiyev (1919-cu ildə general-mayor olub, həmin ili də səpmə yatalaq xəstəliyindən vəfat edib), Bakıda isə milyonçu Şəmsi Əsədullayevin oğlu paruçik Mirzə Əsədullayev Azərbaycan Demokratik hökuməti qurulana qədər "Tatar alayı"nın ayrı-ayrı dəstələrinə başçılıq və himayədarlıq etmişlər. Bu dövrdə Gəncə Milli Komi-

1. Kazak süvari qoşunlarında podpolkovnik rütbəsi belə təsis olunmuşdu. - Ş.N.

təsinin üzvü Adilxan Ziyadxanovun və Ərəş mahalının bəylərbəyisi Əşrəf bəy Qarxunlunun başçılığı ilə "Tatar alayı" Gəncə və Şamaxıdakı rus əsgərlərinin silah anbarını ələ keçirdilər. Şəmkirin Dəllər stansiyasında Qars və Sarıqamışdan qayıdan rusların hərbi eşalonunu tərksilah etdi. Bakıda erməni-bolşevik qoşunu ilə döyüşlər apardı...



*Poruçik Mirzə Şəmsi bəy oğlu Əsədullayev (1875-1936)*

1917-ci ilin sonunda könüllülərdən yaranan Milli Azərbaycn korpusunda döyüş və təlim görmüş nizami hissə birinci Azərbaycan süvari alayı idi. "Dikaya diviziya"nın ikinci alayından təşkil edilmiş bu süvarilərə 1918-20-ci illərdə "Tatarski polk" da deyirdilər. Həmin illərdə Milli Ordumuzda döyüş qabiliyyəti ilə fərqlənən ən yaxşı əsgər və zabitlər də bu alayda vuruşurdu. Məşhur sərkərdə Cəmşidxan Naxçıvanski, poruçik Osman ağa Gülməmmədov, praporşik Lütvəli bəy Vəkilov, poruçik Məhəmməd bəy Aslanbəyov, praporşik Paşa bəy Rüstəmov, Sayad bəy Zeynalov və bir çoxları Birinci Cahan savaşında göstərdikləri igidliyə görə imperiyanın ən ali "Müqəddəs Georgi Xaçı" ilə təltif olunmuşlar.

***

O vaxt Gəncədə rusların 218 və 219 saylı tibb xidməti alayı yerləşirdi. Bu ehtiyat alayları Birinci Dünya müharibəsi illərində yaralıları müalicə edib, yenidən cəbhəyə göndərirdi. İmperiya dağılsa da, minə yaxın əsgər və zabiti olan rus alayı hələ də fəaliyyətini davam etdirirdi. Erməni məhəlləsində yerləşən bu rus alaylarına ermənilər xüsusi qayğı göstərir, onlara ərzaq və silah verir, özlərinin xilaskarı kimi himayədarlıq edirdilər.

Gəncə Milli Komitəsi "Difai" firqəsinin köməyi ilə uzun mübahisədən sonra onların silahlarını alıb döyüşsüz, davasız Rusiyaya yola saldı.

Qafqaz-Türk cəbhəsində sülh bağlandıqdan sonra 1917-ci ilin noyabr ayından başlayaraq, bolşevik əhval-ruhiyyəli rus əsgərləri geri, Rusiyaya qayıdırdı. Yeni yaranan Milli Ordumuza silah lazım idi. İmperiya dağılandan sonra Tiflisdəki silah anbarından biz müsəlmanlara heç bir pay verilməmişdi. Lakin gürcülər hərbi korpus yaratmaq üçün silah paylarını almışdı. Hətta, ermənilər külli miqdarda silahı daşıyıb İrəvana aparmışdılar.

Gəncədəki Müsəlman Milli Komitəsi Qafqaz-Türk cəbhəsindən qayıdan rus hərbi eşelonlarının Azərbaycan ərazisindən kəlib keçəcəyi vaxtı öyrənib həmin günü - 1918-ci il yanvarın doqquzunu "Döyüş günü" e'lan etmişdi. Məqsəd onlardan silah almaq idi.

Milli Komitənin başçıları Adil xan Ziyadxanov, Nəsib bəy Usubbəyli, Xəlil bəy Xasməmmədov, Xudadat bəy Rəfibəyov, Aslan bəy Səfikürdski və başqaları gürcü menşeviklərindən aldıqları zirehli qatarla və Gəncədəki Azərbaycan alayının (bu alay keçmiş "Dikaya diviziya"nın "Tatar alayı"nın əsgər və zabitlərindən ibarət idi - Ş.N.) qüvvəsilə rus hərbi eşalonunun qabağını Gəncənin otuz kilometrliyində - Şəmkir və Dəllər stansiyaları arasında kəsdilər. Zirehli qatara general-mayor knyaz Maqalov (300 nəfər gürcü əsgər və zabiti ilə birgə), "Azərbaycan-Tatar alayı"na isə polkovnik Süleyman bəy Əfəndiyev komandirlik edirdi. Bu qabaqkəsmədə Gürcüstan menşevik hökumətinin də silah təmənnası vardı.

Yanvarın doqquzunda, səhər saat onda başlayan qanlı döyüş dörd gün davam etdi. İki mindən çox rus əsgəri öldürüldü və yaralandı. On beş min tüfəng, yetmiş pulemyot və iyirmi top ələ keçirildi. Azərbaycan tərəfindən on beş, gürcülərdən isə qırx nəfər əsgər şəhid oldu. Güclü müqavimətə rast gələn rus əsgər və zabitləri perrona çıxıb ağ bayraq qaldırdılar: ***"Lə'nət olsun, biz bu silahları verməyə çoxdan razıyıq, bircə evimizə sağ və salamat gedə biləık"*** - deyib, silahları təhvil verdilər.

Bu, Bakıda özünə yuva qurmuş Sovetlər hakimiyyətinə qarşı Gürcü və Azərbaycan xalqının silahlı mübarizəsi idi. Sonralar isə kommunistlər bu üsyanı "qardaş qırğını" və "Azərbaycan burjua hökumətinin ruslara divanı" kimi qiymətləndirdilər.

Bakıda Şaumyan başda olmaqla, Qafqaz Ölkə Komitəsi bərk qəzəblənib bildirdi ki, "Şamxor cinayətkarları inqilabi məs'uliyyətə alınacaq və Zaqafqaziya komissarlığını devirib, Zaqafqaziya fəhlə, əsgər və kəndli deputatları Sovetləri hakimiyyətini təşkil edəcəkdir".

Lakin tarixi dönüşlər daşnak Stepan Şaumyana bəd niyyətlərini həyata keçirməyə imkan vermədi. Onu 1918-ci il sentyabr ayında iyirmi altılarla birgə güllələdilər.

***

Bəs sonralar "Tatar-Azərbaycan alayı"nın əsgər və zabitlərinin döyüş yolu haradan, hansı oddan-alovdan keçib? 1920-ci ilin aprel ayında XI Ordunın daşnak-bolşevik dəstələri xüsusi şöbənin rəisi, cəllad Semyon Pankratovun rəhbərliyi ilə yüzlərlə əsgər və zabitlərimizi güllələdi. Sibirə və Solovetsk adalarına sürgün etdi. Çoxunu da Bulla və Nargin adasında təşkil etdikləri konslagerdə saxladılar. Bir az sonra isə onların ayaqlarına dağ basıb, bəzilərinin də boğazına ağır dəmir bağlayıb diri-diri dənizə atıb məhv edirdilər.

***

***Zülm etsən istiqlal mücahidlərinə,***
***Və nə qədər zəncir vursan***
***Onların dəmir biləklərinə.***
***Yenə qovuşacaqlar***
***Sönməz, böyük diləklərinə.***
***Əyilməyən və əyilmək bilməyən***
***Övladlarımız.***
***İstərsin sənin qanlı "Çeka"ların***
***Qurşuna tutsun bizi.***
***Yenə könüllərdə dalğalanacaq***
***Dalğalı bir dəniz.***
***Getdikcə bir dəniz.***
***Getdikcə alovlanacaq,***
***Alovlu mücadiləmiz.***
***Çünki bizim fikirlərimizin***
***Üfüqləri deyildir dar;***
***Bizdə sönmək bilməyən***
***Bir istiqlal eşqi var!..***

***AĞAKƏRİM BƏY ƏLİZADƏ***
***İstiqlal şairi***



***Nuru Paşanın 1918-ci ildə qəhrəmanlıqla döyüşən Azərbaycan əsgər və zabitini təltif etdiyi "Məcidiyyə" ordeni***

On birinci ordu Bakıya tərəf yeriyəndə onun sıralarında Hacı İlyas soyadlı bir kommunist də vardı. Şəxsən Lenin verdiyi mandatla o, 1920-ci il iyunun 19-da otuz iki saylı əmrlə Azərbaycan Respublikası Hərbi İnqilab

Səhra məhkəməsinin sədri və kəşfiyyat idarəsinin rəisi təyin olundu. Fəaliyyətə başladığı ilk gündən Hacı İlyas (arxiv sənədlərində onun soyadı M.Z. Xadjilas kimi göstərilir - Ş.N.) imkanlı adamları ailəsi ilə birgə həbs edib çəkidən yüngül, vəzndən ağır olan şeyləri mənimsəyirdi. Günün günorta çağı qız və qadınları saxlatdırır, üstündəki sırğanı, boyunbağını, üzükləri dartıb qopardırdı. Qalib XI ordu üçün "talan" həftəsi keçirirdi. Bu "talan" həftəsinin müddəti artıq iki ayı keçirdi. İyun ayında Azərbaycanda, xüsusi ilə Bakıda “Talan həftəsi” keçirəndə əhalidən küllü miqdarda sərvət toplandı. Bakı komitəsinin katibi daşnak Sərkis Danilyan Moskvaya göndərdiyi məruzəsində fəxr ilə yazırdı : “Biz Azərbaycan burjuaziyasından 200 pud gümüş, 10 pud qızıl və 800 qızıl üzük, 100-dən çox telefon aparatı, makına, mebel dəsti və başqa qiymətli əşyalar müsadirə etmişik. Bir neçə min xalı-xalça götürmüşük. Hamısı valyutaya gedən mallardır.”

Daşnak Sərkis Danilyan azərbaycanlılarının mülklərini, bağlarını musadirə edib A.Mikoyanın, L.Mirzoyanın, S.Orconikidzenin himayədarlığı ilə Bakıda yaşayan ermənilərə bəxşeiş edirdi. Milyonçu H.Z.Tağıyevin, Ş.Əsədullayevin, M.Nağıyevin, M.Muxtarovun və başqalarının mülklərindəki mebel və qiymətli əşyaları Moskvaya və İrəvana göndərirdi. Bu illərdə “sapı özümüzdən” olan Əlheydər Qarayev, Mirzə Davud Hüseynov, Ruhulla Axundov kimi korazehinlər üzdə bolşevik, daxildə qatı daşnaq olanların fitvasına uyub deyirlər ki, biz azərbaycanlılara heç bir müstəqillik lazım deyil, bizim Azərbaycan da Dağıstan kimi Sovet Rusiyasının tərkibində olsa yaxşıdır.

Həmin illərdə bolşevik-daşnak şovinistləri ilə əhatə olunan və onlara qarşı ciddi mübarizə aparan Nəriman Nərimanov ürək ağrısı ilə yazırdı: “Mikoyandan sonra BEKA-nın katibi Sərkis olur. Sərkisdən sonra isə Mirzoyan. Çox güman ki, Mirzoyandan sonra Kasparyan olacaq və i.a.”

1919-cu il dekabrın 2-də General İbrahimağa Usubovun İtaliyadan Milli ordu üçün gətirdiyi otuz beş min dəst geyim və təchizat əşyalarını cındır köynəkdə, yamaqlı şalvarda gəlmiş XI ordunun əsgərlərinə paylayırdı. Üsyan səsini qaldıran ziyalıları, Azərbaycan ordusunun əsgər və zabitlərini Krasnovodskiyə, Orta Asiyaya sürgünə göndərmək adı il gəmiyə doldurub Nargin, Bulla və Çilov adalarına aparıb boyunlarına daş bağlatdırır, gicgahına güllə ilə vuraraq dənizə atdırırdı.

İnsan qanına susamış namərd Hacı İlyas bir nəfər rus zabitini də həbs edir. Məhbusun arvadı biləndə ki, ərini Hacı İlyas həbs edib, xilas etmək üçün onun qəbuluna gəlir. Onunla söhbət edən qadın təəccübdən donub

qalır. Ordan birbaşa Hərbi Səhra Məhkəməsinin sədr müavini Teymur Əliyevin yanına gedir. O, Teymur Əliyevə məlumat verir ki, sizin sədr əsl inqilabçı Hacı İlyas deyil. Mən Hacı İlyası yaxşı tanıyıram, o ərimin yaxın dostudur. Dəfələrlə bizim evdə qonaq olub, bu əllərimlə ona çay - çörək vermişəm.

Temur Əliyev Respublika İnqilab Komitəsinin sədri Nəriman Nərimanova bu barədə məruzə edir. Nərimanovun tapşırığı ilə "Altıbarmaq" Baba Əliyev və Semyon Ponkratyov Hacı İlyasın kimliyi barədə axtarışlar aparırlar. Nərimanov həm də göstəriş verir ki, həbsxana rəisinə tapşırın, qadının ərini Hacı İlyas dindirilməyə və ya başqa yerə aparmağı tələb edərsə verməsin.

Ciddi araşdırmalardan sonra məlum olur ki, şəxsən Leninin mandat verdiyi, hazırda Respublika Hərbi Səhra məhkəməsinin sədri vəzifəsində işləyən şəxs əsl bolşevik Hacı İlyas deyil. O, Odessadan xaricə qaçmaq istəyən ağqvardıyaçı zabitdir. Bolşeviklər Odessanı alanda cildini dəyişib onlara qoşulur, XI ordu ilə Dərbəndə gəlir. Burada Leninin şəxsən mandat verdiyi əsl inqilabçı Hacı İlyasla tanış olur. Onunla dostlaşır və qətlə yetirir. Onun sənədləri ilə də XI ordunun sıralarında Bakıya gəlir.

Əsl inqilabçı Hacı İlyasın arvadını da tapıb Bakıya gətirirlər. Gizlindən ərini ona göstərirlər. Qadın sədrin onun "əri" olmadığını təsdiq edir. Üstəlik də əsl inqilabçı Hacı İlyasın türmədə olan dostu və onun arvadı da Azərbaycan Respublikasının Hərbi Səhra məhkəməsinin sədrinin yalançı Hacı İlyas olduğunu təsdiq edirlər.

Üç aydan çox - iyun, iyul və avqust aylarında bu vəzifədə çalışan Hacı İlyas general - leytenant Məmməd bəy Sulkeviçi, general - mayor İbrahim ağa Usubovu, şahzadə - general Feyzulla Mirzə Qacarı, Əbdülhəmid bəy Qaytabaşını, Murad Gəray bəy Tlexası, Əliyar bəy Haşımbəyovu, Həbib bəy Səlimovu, polkovnik Rüstəmbəy Şıxlınskini, İsgəndər bəy Seyfullanı və mindən çox dindaşımızı məhv etmişdir.

Fövqəladə Komissiya yalançı, müsəlman qanına susamış Hacı İlyası dərhal həbs etdi. 1921-ci ildə güllələnmə kəsiləndə o, məhkəmədə demişdir: "Müsəlmanları o dünyaya göndərmək üçün var qüvvəmlə çalışırdım. Amma heyf... Mümkün olsaydı, daha çox qırar və daha çox adam öldürərdim".

Respublika Mərkəzi Dövlət Arxivindəki sənədlərdən məlum olur ki, yalançı Hacı İlyasın milliyyəti yəhudidir. O, Odessa şəhərində anadan olub. Ağqvardiyaçı general Anton Denikinin qoşununda xidmət edib. Kəşfiyyatçı olub.

Arxiv sənədlərində bolşeviklərin iç üzünü açan belə bir epizod da var.

1920-ci ilin may ayında bolşevik - daşnak qoşunlarına qarşı Gəncə əhalisi və Gəncədə yerləşən Bbirinci Piyada Azərbaycan diviziyası üsyan etdi. Üsyana diviziya rəisi general Cavad bəy Şıxlinski, Azərbaycan ordusunun baş intendantı general - şahzadə Məhəmməd Mirzə Qacar, süvari diviziyasının rəisi general Teymur bəy Novruzov və polkovnik Cahangir bəy Kazımbəyov başçılıq edirdi. May ayının 24-dən 31-nədək davam edən döyüşlərdən sonra Bakıdan göndərilən əlavə qoşun və zehirli qatarla bolşeviklər yerli əhaliyə, Milli ordu əsgərlərimizə divan tutdular. Həmin vaxtlar Gəncə ÇEKA-sı olan polkovnik Tuxareli qeyri - bərabər döyüşlərdə general - şahzadə Əmir Kazım Mirzə Qacarı, polkovnik Daniyal bəy Hələcovu, kapitan Hüseyn bəy Mirizadəni və onlarla əsgərlərimizi mühasirəyə alıb doğrayırdı. Yüzlərlə azərbaycanlı qanı axıdan Tuxareli üsyan yatırılandan sonra evləri, ailələri talan etməkdə də əli uzunluq edirdi. İyun ayında o, üç bolşevik əsgərinə iki dolu çəmadan verib tapşırır ki, bunları Tiflisə aparıb, filan ünvanda, filankəsə verin.

Sınıq Körpüdə sərhədçilər üç bolşevik əsgərini saxlayır və tələb edirlər ki, çəmadanlar açılsın, yoxlayacağıq. Əsgərlər imtina edib deyirlər ki, çəmadanlar Tiflisdəki gizli bolşevik təşkilatında açılacaq. İçindəki onlara çatası məxfi sənədlərdir. Uzun mübahisədən sonra şübhələnən sərhədçilər Bakı ÇEKA-sı ilə əlaqə yaradırlar. Respublika ÇEKA-sından: "Çəmadanlar açılıb, yoxlanılsın!" əmrini verirlər.

Məlum olur ki, bolşevik polkovniki Tuxarelinin Gürcüstana qohumlarına ötürmək istədiyi bu qiymətli əşyaları Gəncədə güllələdiyi imkanlı azərbaycanlı arvad - uşağın boynundan, qarət etdiyi evlərdən yığıbmış.

Dərhal keçmiş ağqvardiyaçı Tuxarelinin həbs edib Bakıya gətirdilər. Onu indiki Yusif Məmmədəliyev küçəsindəki on beş saylı binanın zirzəmisində güllələyirlər. O, vaxtlar Respblika ÇEKA-sı həmin küçədə yerləşirdi.

***

*Biz Azərbaycanda elə vəziyyət yaratmalıyıq ki, Sovet hakimiyyəti süngü ilə deyil, kütlələrin şuurluğu ilə müdafiə olunsun.*
***Nəriman Nərimanov.***

Vaxtilə Məmməd Əmin Rəsulzadə İstanbulda nəşr etdiyi "Odlu yurd" dərgisində Dəmiçioğlu soyadlı müəllifin iki kiçik hekayətini dərc etmişdi.

"Ana" və "Ölüm düyünü" adlı xatirələri oxuyanda namərd Hacı İlyasın, Semyon Pankratovun və Tuxarelinin xalqımıza etdikləri olmazın zülmün şahidi olursan. "Ana" hekayətində oxuyuruq:

"Asobu oddelə (çekadan daha müdhiş bir yer) götürdülər. Soyuqlu bir gün. Sabah erkən, baxdım gənc, əsmər, zəif bir qadın bir məmurla yeyin - yeyin gediyor. Minlərcə edamlar əmri verilmiş ölüm kançılaryasına sevinərək ediyor.

Bu qadının belə gedişi məni çox maraqlandırdı. Bunun kim olduğunu sordum, dedilər ki, bu bir azərbaycanlı zabitin arvdıdır. Ərini bolşeviklər başqa bir şəhərdə həbs edib, sonra da öldürmüşlər. Bu qadın ərinə təsəlliverici bir məktub yazmışdır. Bolşeviklər qadını məktub yazdığı üçün və qoca qaynanasını da məktubu göndərdiyi üçün həbs etmişlər. Qadının bir südəmər uşağı vardır. Gündə üç dəfə uşağı anasına əmizdirmək üçün gətirirlər. Gənc ana da balasını görmək üçün belə tez - tez gedir. Bu qadın günlərlə belə qaçaraq gedirdi!..

Onu hər gün körpəsinin yanına aparan məmur bir gecə gəlib onu amiranə üç kəlməlik bir söz söylədi:

- Şəxsi əşyalarını topla!

Qadın əşyalarını topladı və getdi.

Bu üç kəlmədən ibarət olan bir cümlə gedənlərin yüzdə doxsanının ölümə getdiyini bildiyimiz halda bu gənc ananın da ölümə getdiyinə inana bilmirdik.

O biri gün səhər erkən qadını köpəsinə aparan məmurun uşağı gətirən adama söylədiyi üç kəlməlik:

- Uşağı daha gətimə! - cümləsi bu gənc ananın edam edilməsinə bir işarə idi.

İxtiyar baba və qaynana həbsxananın bir küncündə oturaraq, heç bir söz söyləmədən ağlayırdılar. Göz yaşları ağ saqqalından üzünə tökülürdü. Məhbuslar da onun ətrafına toplanmış, heç bir söz söyləmədən, bəzisi kinli - kinli baxır, bəzisi də ağlayırdı.

***

Məni böyük bir həbsxanaya gətirdilər. Məndən əvvəl gətirilmiş məsləkdaşlarımın saxlandıqları kameraya girdim. Altı adamlıq kameraya on iki kişi yerləşdirilmişdi.

Part, part, part. Dəhşətli bir avtomobil gurultusu eşidildi.

- Bu nədir?

- Ölüm avtomobili.

- Ölüm avtomobili nə deməkdir?
- Hərbi İnqilab Məhkəməsinin rəisi yəhudi Hacı İlyasın avtomobili.
- Gurultu nə üçündür?
- Edama aparılanların səsləri eşidilməmək üçün.

Yoldaşlar bu sözləri deyər - deməz bəzisi teşt, bəzisi ağ tabaq və digərləri də başqa şeylər alaraq çalmağa və şərqi oxumağa başladılar.

Mən vahimələndim və bu nə oxumaqdır - deyə soruşdum.

Mənə - sən də oxu! - dedilər.

- İndi ölümə məhkum olanları ovludan içəriyə çıxaracaq və həbsxananın arxasında, dəniz sahilində güllələyəcəklər.

Onların ovludan gedərkən bağırtılarını və edam edilərkən yalvarmalarını, dualarını və güllələrin səsini eşitməmək üçün məhbuslar hər gün belə etmək məcburiyyətində olduqlarını əlavə etdilər.

Mən oxuyammadım, çünki edama aparılanların səsi ovludan və sonra yenə onların və onları öldürən güllələrin səsi çöldən eşidilirdi.

Bu ölüm düyünü (toy) hər axşam davam edirdi.

Havalar istiləşdikcə dərin basdırılmamış edam edilənlərin ağırlaşmış iyisi həbsxanaya gəlirdi.

Bir gün məhbuslar Hacı İlyasdan kiçik bir xahiş edirlər: edam edilənlər daha uzaq bir yerdə edam edilsinlər ki, məhbuslar və onları öldürən güllələrin səslərini eşitməsinlər. Və bir də ölüləri bir az dərin basdırsınlar.

Hacı İlyas qəzəblənərək dedi ki, bu sizin qarışacağınız iş deyil. Mən istəsəm burda öldürər və burda da qoyaram.

Hətta qaniçən bolşeviklər Azərbaycana basqın edən günü Samur çayının sahilində onların qarşısına çıxıb vuruşan, ağır döyüşlərdən sonra son nəfəsinə qədər vuruşub həlak olan üç yüz nəfərdən çox əsgər və zabitlərimizin qohum - əqrabasını da güllələdilər, sürgünə göndərdilər.

***Dekabr, 1997-ci il***

# UNUTSAQ, UNUDULARIQ...

*Vaxt gələr açılar bağlı qapılar,*
*Əsrin arxivindən nələr tapılar.*

***Məmmədhüseyn Şəhriyar***

*Azərbaycanın gənc alimlərinə mənim diləyim: öz xalqınızı öyərək böyütməyə cəhd etməyin, o, onsuz da böyükdür. Bir şey ki, gözəldir, onun tərifə ehtiyacı yoxdur.*

***Lev Qumilyov,***
***Məşhur Türkoloq-alim***

## İLK MİLLİ ORDU GENERALIMIZ

***1917-ci il noyabrın on beşində mən Qafqaza gəldim. Öz xalqımın baş verə biləcək xarici təsirlərdən və daxili qarışıqlıqlardan qorunmasına xidmət etmək arzusu ilə Azərbaycan korpusu təşkil etməyi lazım bilib, Tiflisdə öz qərargahımı düzəltməyə başladım.***

***Əli ağa ŞIXLİNSKİ,***
***Tam artilleriya generalı.***



*General Süleyman bəy Əfəndiyev (05.10.1864 - 21.02.1919) Gəncə ziyalıları arasında*

Hər ağacın öz kölgəsi var, hər millətin də ordusu olmalıdır. Süleyman bəy, indiki vəziyyət bunu daha çox tələb edir. Biz ordu yaratmasaq, milləti qırğına verə bilərik. Hadisələrin belə sür,ətli inkişafı göstərir ki, ordusu, top-tüfəngi olan bir xalq, digərini məhv edə bilər. Bu saat bizim

vəziyyət elədir ki, düşmən həm içimizdədir, həm də qonşuluğumuzda. Yüz il arxalandığımız rus imperiyası axırımızı gətirib bura çıxartdı.

- Əli ağa, Səməd bəy hardadır, niyə üzə çıxmır? Ordu təşkil etməyə, xalqın müdafiə qüdrətini möhkəmləndirməyə yaxşı imkan yaranıb.

- Vladiqafqazdadır. Bu günlərdə gəlmişdi, Tiflisdəki Milli Müsəlman Şurasında lazım olan adamlarla görüşdük yenə qayıtdı Vladiqafqaza. Ailəsini köçürüb Bakıya gətirməyə getdi.

Biz bir məsələni də çox tez həll etməliyik. Vaxtilə "Dikiy diviziya" da və hazırda imperiya ərazisində xidmətdə olan zabitlərin hamısını çağırmalıyıq. Xarkovdan polkovnik İbrahim ağa Usubovu, Murmanskdan general Mirkazımbəy Talışxanovu, Nijeqorod alaylarından şahzadə Əmir Kazım Qacarı, polkovnik Əmənulla xan Qacarı, Seyfulla Qacarı, general Firidun bəy Vəzirovu. Xüsusilə beşinci və yeddinci Qafqaz nişançı diviziyalarında bizim həmyerlilər daha çoxdur. Onların hamısını çağırmaq lazımdır. Silah tutan oğul Vətənin dar günündə gərək olmayacaqsa, əmin-amanlıq dövründə heç lazım deyil. Sən bilirsən general Əlyarbəy Haşımbəyov indi harada qulluq edir?

- Qafqaz araba-karvan birqadasında. Ünvanı məndə var, tel vuraram.

- Bu işi tez eləmək lazımdır. Zabitlərdən birinə tapşırsan daha səlah olar. Sənin işin çox olur, çatdıra bilməzsən. Polkovnik Şirinbəy Kəsəmənliyə, bir də qardaşım uşaqları Cavad bəyə və Rüstəm bəyə özüm xəbər eləmişəm. Onlar çoxdan milli orduda qulluq eləmək arzusundadırlar. Gələcəklər. Dayan, qardaş, bir nəfəri də xatırladım. Polkovnik Davud bəy Yadigarov indi harda xidmətdədir, bilmirsən?

- Yox, çoxdandı onunla əlaqəm yoxdu.

- Onu mən öyrənərəm, əmisi Həsən bəyin ailəsi Tiflisdə mənim qaynım Bahadır bəylə qonşudur.

- Əli ağa, mənim Zaqafqaziya seymi deyilən dövlət hakimiyyətinə heç bir ümidim yoxdur. Gürcüləri deyə bilmərəm, məncə, ermənilər bu təşkilata daxil olmaqla vaxt qazanırlar və güc toplayırlar.

- Aydın məsələdir, ermənilərin bu bicliyini hamı başa düşüb. Lori dərəsindəki gürcülərlə davadan əllərinə bir parça torpaq keçirə bilmədilər, rüsvay oldular. İndi bizimlə torpaq iddiasına başlayacaqlar.

Sənin xəbərin var ki, daşnak generalı Foma Nazarbəyov Tiflisdə erməni korpusu təşkil edir. Bu yandan da Andranik, Nijde, Dro Kanayan əməlli-başlı könüllü milli erməni dəstələri yaradıblar. Mənə belə gəlir ki, mənim

Tiflisdə təşkil etdiyim korpusla sənin burda, Gəncədə yaratdığın alayı birləşdirməliyik. Çünki ayrılıqda biz heç nəyik. Gəncənin yarısı erməni əhalisidir. Sabah ayağa qalxsalar, tək sənin alayınla onların qarşısını ala bilmərik. Bizim korpusu da Gəncəyə köçürmək lazımdır.

- Bilirsən, Əli ağa, xeyli vaxtdır Gəncədəyəm, öyrənmişəm. Gəncə və Çaykənd ermənilərinin İrəvan daşnakları ilə çox yaxın əlaqələri var. Deyilənə görə, onlar Gəncənin müsəlman əhalisini qırmaq üçün əməlli-başlı silahlanıblar. İrəvan daşnaklarının işarəsini gözləyirlər.

Əli ağa dayandı. Fikir və düşüncə ilə dostu Süleyman bəyin üzünə baxa-baxa qaldı. Sağ əlini qaldırıb yoğun gövdəli çinara söykəndi.

- Qardaş,- dedi,- bizim əsas çətinliyimiz odur ki, əsgər və zabitlərimiz üçün nə silah var, nə cəbbəxana, nə də əməlli-başlı paltar və ayaqqabı. İmperiya ordusu bizim ərazilərdən çəkilib gedəndə hamısını özü ilə aparıb. Bir müsəlman bəndəsi qabağa durub bunları ruslardan almayıb. Amma erməni daşnakları, gürcü zadəganları, menşevikləri onların ərazilərini tərk edən rus qoşunlarından hər bir silahı, hətta kazarmaları belə təhvil alıb, öz əsgərlərini yerləşdiriblər.

- Bu barədə bizim alayın vəziyyəti pis deyil, Əli ağa. Burda mənim yaxın bir dostum var, imkanlı və karagələn adamdır. Məmmədbağır ağa Şeyxzamanov cənablarını deyirəm. Yer və ərzaq məsələsində bizim alaya yaxından, cani-dillə kömək edir. Hərbiyyə məktəbinin hələlik azsaylı müdavimlə açılmasına da maddi kömək edəcəyinə söz verib. Məmmədbağır ağa əsl-nəcabəti ilə tanınan bir zatdır, milli parlamanın da üzvüdür.

- Hər kimdirsə ol zatdan möhkəm yapışmaq lazımdır, - dedi Əli ağa. - Tiflisdə də belə bir dindaşımız var. Tanımamış olmazsan, Həmzət bəy Xəlilov bizim Milli korpusa həm ərzaqla, həm də geyimlə çox kömək edir. Bu günlərdə xeyli silah və balakənlilərdən ibarət bir kiçik alay da təşkil edib gətirdi. İki qoçaq oğlu da - Rüfət bəy və Ramazan bəy mənim korpusumda qulluq edir. Hər ikisi ali təhsilli zabitdir.

- Amma Məmmədbağır ağa səninlə çox maraqlanır, Gəncəyə təşrif gətirməyinizdən xəbərdar deyil. Qayıdaq evə, adam göndərərəm, məmnuniyyətlə sizin görüşünüzə gələr.

Əli ağa etiraz etdi:

- Yox, - dedi, - bizim ona işimiz düşüb, bəlkə biz ikilikdə onun görüşünə gedək, inciməz ki?..

Süleyman bəy sevinclə:

- Yox, canım, nə danışırsan, - dedi, - əksinə, xoşhal olar, inan nə qədər sevinəcək səni gördüyünə. Port-Artur və cahan müharibəsi zamanı sənin, Səməd bəyin, Hüseyin xan Naxçıvanskinin haqqında qəzet və jurnallarda nə yazılıbsa, hamısını yığıb səliqə-səhmanla saxlayır. Evinə gələn ali qonaqlara o yazıları oxumaqdan ləzzət alır. Evi də burda yaxındadır, Sərdar bağının qərb həndəvərində...

***

1917-ci il dekabrın ortalarında Azərbaycan Milli ordusu yaratmaq haqqında dərdləşən iki nəfərin kimliyi ilə yəqin ki, oxucular da maraqlanırlar. Onlardan birini - məşhur generalımız Əli ağa Şıxlinskini həssas oxucu şübhəsiz ki tanıdı. Digəri isə indiyədək haqqında müasirlərimizin mə,lumatı olmadığı general-mayor Süleyman bəy Əlisüleyman oğlu Əfəndiyevdir. İlk dəfə Gəncədə Azərbaycan hərbiyyə məktəbinin açılmasında və Gəncə süvari alayının yaradılmasında böyük xidməti olan görkəmli sərkərdələrimizdən biridir. Azərbaycan Demokratik ordusunun sıralarında cəmi-cümlətanı bir il general kimi xidmət edən Süleyman bəy Əfəndiyevin adı yetmiş üç il arxiv səhifələrində gizlədilmişdir. Beş il bundan əvvəl onun haqqında əlimizdə çox az mə,lumat olduğuna görə, mətbuatda çıxış eləməyə cəsarət etmirdik. Tədqiqatçı dostumuz professor Alxan Məmmədov "Azərbaycan" qəzetinin 3 mart 1919-cu il və "İstiqlal" qəzetinin 10 mart 1919-cu il tarixli nömrələrində general barədə əldə etdiyi kiçik həcmli yazıları səxavətlə bizə bağışladı. Hər ikisində - "Möhtərəm bir generalın ölümü" və "General Süleymanbəy" yazılarında xalqımızın sərkərdə oğlunun ömür yolu haqqında dolğun mə,lumat əldə etdiyimizə görə alim dostumuza təşəkkürümüzü bildiririk. Yazılırdan görünür ki, 1919-cu ildə qəflətən səpmə yatalaq xəstəliyinə tutulan general Süleyman bəy Əfəndiyevin vaxtsız ölümü bütün Azərbaycan ictimaiyyəti üçün ağır itki olmuşdur. "İstiqlal" qəzetində imzasız verilmiş yazıdan bunu açıq-aydın görmək olur.

"Ey möhtərəm əsgər! Sən Azərbaycanın ən qəhrəman övladı idin. Sən öldün. Fəqət, sənin qəhrəmanlığın səndən sonraya yetişəcək, zabitlərimiz arasında ölməyəcəksən. Səni Azərbaycan hərb tarixində yad etmək Azərbaycan üçün böyük bir şərəfdir. Sənin ruhuna təzim və hörmətlərimizə ithaf edər ikən Vətən və millətimizə də bəyan-təziyyət eyləriz".

Bəs general Süleyman bəy Əfəndiyevin on yeddinci ilə qədərki fəaliyyəti necə və harada keçmişdir? Bu suala tarixin dərin qatarında, toz basmış arxiv sənədləri cavab verir.

...1864-cü il oktyabrın 5-də Süleyman bəy Əlisüleyman oğlu Əfəndiyev Ağdamada dünyaya gəlmişdir. İlk təhsilini Gəncədəki progimnaziyada[1] və Tiflisdə realnı məktəbdə almışdır.

On altı yaşında həmin məktəbi bitirən Süleyman bəy 1880-ci ildə Yelizavetqrad[2] süvari məktəbinə daxil olmuş və oranı 1885-ci ildə müvəffəqiyyətlə bitirmişdir. Hərbi xidmətə Qafqaz süvari ordusunun polis nəzarəti idarəsində başlayan gənc zabit Süleyman bəy iki il sonra, mayın 18-də kornet-zabit rütbəsi 1892-ci il martın 25-də isə poruçik ilə təltif olunmuşdur.

Eskadron komandiri Süleyman bəy Əfəndiyev nümunəvi xidmətinə görə 1899-cü il martın 15-də rotmistr rütbəsinə layiq görülmüş və ona kavaler kimi fəxri ad verilmişdir. 1900-cü ildə üçüncü dərəcəli "Müqəddəs Stanislav" 1907-ci ildə isə üçüncü dərəcəli “Müqəddəs Anna” ordenləri ilə təltif olunmuşdur.

Əsrimizin əvvəllərində xidmət yeri bir neçə dəfə dəyişdirilən Süleyman bəy 1907-ci il fevralın 28-dən Zaqafqaziya polis keşikçi dəstəsinin Kutaisi quberniyası üzrə baş nəzarətçisı tə,yin olunmuşdur.

Süleyman bəy Əfəndiyev yalnız hərbçi deyildi. O həm də xalqımızın maariflənməsinə görkəmli ictimai xadim kimi fəal iştirak etmişdir. Tez-tez Qoriyə gələn, azərbaycanlı balalarının təhsili və güzəranı ilə maraqlanan Süleyman bəy onlara maddi köməyini əsirgəməmişdir. Görkəmli maarifçi, ədəbiyyatşünas Firidun bəy Köçərli və Səfərəli bəy Vəlibəyovla dostlaşmış, Tiflisdə azərbaycanlıların təşkil etdiyi mədəni-maarif cəmiyyətinin işində yaxından iştirak etmişdir.

1912-ci il dekabrın 6-da polkovnik rütbəsi alan Süleyman bəy Əfəndiyevin imperiya ordusundakı xidmətləri sonralar üçüncü dərəcəli ***"Müqəddəs Anna"***, ikinci dərəcəli ***"Müqəddəs Stanislav", "Müqəddəs Anna"*** və üçüncü dərəcəli ***"Müqəddəs Vladimir"*** ordenlərinə layiq görülmüşdür.

Polkovnik Süleyman bəy Əfəndiyevin imperiya ordusunda sonuncu vəzifəsi Əlahiddə Qafqaz ordusunda Zaqafqaziya polis - keşikçi dəstəsinin təftiş-yoxlama üzrə baş nəzarətçisi idi (1912-ci ildən).

1 İnqilabdan əvvəl dörd, yaxud altısinifli natamam təhsil verən məktəb. - Ş.N.
2 İndiki Kirovoqrad şəhəri. - Ş.N.

Öncə dediyimiz kimi, Süleyman bəy Əfəndiyevin çox böyük və danılmaz xidməti 1917-ci il iyul ayından başlayaraq Azərbaycan Milli ordusunu yaratmaq təşəbbüsüdür.

1919-cü ildə "Azərbaycan" və "İstiqlal" qəzetlərində verilmiş hər iki nekroloq-yazıda generalın bu misilsiz fəaliyyəti barədə məlumat var. Ona görə də hər iki yazını kiçik ixtisarla əziz oxuculara təqdim edirəm.

## MÖHTƏRƏM BİR GENERALIN ÖLÜMÜ

*O, solmaz və sönməz! Əbədiyyətə*
*qovuşanlar üçün ölüm yoxdur.*
***Cəfər Cabbarlı***

Azərbaycan, ümumiyyətlə, Zaqafqaziyada namuspərvəranə və xalisanə bir surətdə islamlara xidmət edən möhtərəm zabit - Süleyman bəy Əfəndiyev cümləmizi mütəəssir və məyus buraxaraq vida etdi.

Süleyman bəy Əfəndiyev Rusiya inqilabından sonra Zaqafqaziya islamlarının hərbi təşkilatında qiymətli bir üzv olaraq çalışmış və çalışdığı işlərdə böyük bir əzm və səbat göstərmişdir. Süleyman bəy Əfəndiyev Namiq Kamalın "Cahan titrər səbat pay ərbab-əzmü məqanətdən" beytinə masdəl olmuş, səbatını məhviyyəti - şəxsiyyəyə qədər götürmüşdür. Süleyman bəy bir vaxt Gəncədə ifayi-xidmət edirdi. Sovuq şiddətli bir surətdə idi. Kəndisini salamlamaq üzrə yanına gəlmişdim. Qısa bir cümlə ilə ***müqabilə etdi: "Camaatımız oyanır. Qoçaq əsgərlərimiz çoxalır" - dedi: sonra ən zabitpərvər bir əsgər vəziyətini alaraq: "Vəzifə denilən şeyi əgər həqiqəta bilinə hər işimiz yaxşı olar idi".***

Mərhum siyasət ilə əsla əlaqədar olmaz idi. Onun nəzərində yalnız əsgərlik və əsgərliyə məxsus bir iman var idi.

Gəncədən sonra Tərtərə getmiş və orada islam təşkilatını müvəffəqiyyətlə ikmal etmişdir. Sonra Qarabağa - Ağdama da gələrək ifayi-vəzifə xüsusunda böyük bir qabiliyyət və qeyrət göstərmişdir.

Süleyman bəy hiss və fikircə çox nəziə və təmiz adam idi. Heç kimsə bilməz ki, Süleyman bəydən bir pis iş sadiq olmuşdu. Bir dostumuz bizə təmina deyirdi ki, Azərbaycanda namus və iffəti ilə mücəssəm bir təmsil təşril edən bir sima varsa, o da Süleyman bəy Əfəndiyevdir.

Parlaman əzasından Məmmədbağır ağa Şeyxzamanov cənabları mərhumun ən yaxın tanıdığı və bir çox zamanlarda bərabər işlədiyi bir zat

olması etibarı ilə də bizə deyirdi ki, general Süleyman bəy Əfəndiyev eyni zamanda bütün Azərbaycan zabitləri arasında çalışması ilə, təşkilatçılığı ilə də birinci tanınıb bilinmiş bir zat idi.

***Əvət! Azərbaycan üçün bu ziya böyük bir ziyadır. Bu ziya qarşısında mütəəssir olmamaq qabil degildir.***

General-mayor Süleyman bəy Əfəndiyev haqqında ikinci nekroloq-məqalə 1919-cu il martın 3-də "Azərbaycan" qəzetində dərc olunub. Məqalənin yazarı Səid adlı müəllifdir.

## GENERAL SÜLEYMAN BƏY

Bu günlərdə Azərbaycan Cümhuriyyəti ordusu komandanlarından - ordunun böylə mühüm bir vəziyyətində - mirliva (general) Süleyman bəy Əfəndiyevin səpmə yatalaq xəstəliyindən vəfat etməsi xəbəri gəldi. Rəhmətulla əleyh rəhməto vaseh.

Mirliva Əfəndiyevin vəfatı nəinki yalnız mirtəvanın əqraba və metəlağatını məhzun və dilgər edəcəkdir. Bəlkə onu tanıyan, onun həqiqinə arif, onun vətən və millət uğrundakı xidmət və fədakarlıqlarını bilmiş olan cümlə Azərbaycanlıları dilxun və dağdar edəcəkdir.

Süleyman bəy Əfəndiyev kim idi?

***Bu suala hazırki hərbiyyə nazirimiz general Səməd bəy Mehmandarov həzrətləri: "general Süleyman bəy Əfəndiyev təmizlikdə, namusda, qeyrət və fədakarlıqda təht idarəmdəki cümlə zabitan arasında ən birinci mövqe tutanlardan idi!"*** - deyə cavab vermişdir. Bizlər isə mərhumun səhifeyi tarixiyyəsinə bir nəzər edəlim. Bən onun bütün səhalfe tarixəsindən bəhs etməyə məal-təəssüf qadir degiləm. Bu bana dəxi məchuldur. Fəqət mərhumun Gəncə şəhərindəki imrar həyatından bəhs etmək mümkündür.

O vəqt miralay (polkovnik) rütbəsində olan Süleyman bəy 1917-ci sənənin iyul ayında Gəncə şəhərinə təşrif gətirdi. Müəyyən bir vəzifə ilə mavərayi - Qafqaz hökuməti tərəfindən e,zam edilmiş idi, vəzifəsi isə təşkil ediləcək süvari milis alayı üçün kiçik zabitlər yetişdirmək idi. Mərhum Gəncə şəhərinə varid olan kimi Gəncə Müsəlman Milli komitəsinə təşrif gətirərək bəyanat verdi. Və Azərbaycan türklərinin qəvay əsgəriyyəsi olması və buna əşd ehtiyac xüsusunda izahat verərək əlavə etdi ki, əgər bu məsarifi Gəncə milli komitəsi öz öhdəsinə götürərək qəvay əsgərliyə təşkili əsasına ibtidar etmək arzusunda bulunarsa, məalməmnuniyyə bu xüsusda heç bir fədakarlıqdan çəkinməyəcəkdir Milli komitə işə başladı. Yüz əlli nəfərlik

gecə-gündüz olaraq bir məktəb hərbiyyə güşadına qərar verdi. Bu miqdarı Gəncə vilayəti qəzaları arasında nüfuz etibarı ilə təqsim edərək namizədlər və onların məsariflərini göndərmək xüsusunda cümlə qəzaların Milli komitələrinə müraciət etdi.

Bəzi qəzalardan mütəllimlər göndərildi, lakin məsarif üçün para gəlmədi. Bəzi komitələr tərəfindən para göndərildisə, nəhayət az miqdar.

Mərhum Süleyman bəy çalışmağa başladı. Pulsuzluq, aclıq, əlbəsəssizlik onu məyus etmədi, qorxutmadı. Hətta özü 1917-ci sənə avqustun əvvəlindən vəzifəyə başladığı halda 1918-ci sənənin şəbat ayında keçmiş maaşlarını almaq üçün özü utanıb bəndəni vasitə etdi.

Bu qədər müddət öz hesabına xidmət etdikdən sonra yenə maaş istəməyi özünə bir müşkül əmr hesab ediyordu.

Gəncədə akarşi[3] başlandı, cümlə mülki və hərbi mə,murlar dəxi qarətkarlara, talançılara iltihaq etdilər. Kimsə kimsəni tanımaq istəmədi, kimsə kimsəyə itaət etmədi, şübhə etmək olur ki, düz, doğru, qeyrət və namuslu şəxslər tapılmayacağı bir dərəcəyə gəldi. Mərhum Əfəndiyev gündüzlər ac, gecələr uyğusuz öz cavan müəllimləri ilə şəhərin hərastına, şəhərdə əmin-asayişi əmələ gətirməyə zərrə qədər qüsur gətirmədi. Şəhərdə, istisionda, nərəyə gedilsə Süleyman bəy görünürdü. Özü namus və qeyrətli, mütəllimləri düz, doğru.

Şəmkir müharibəsi əsnasında isə mərhum Süleyman bəy heç bir fədakarlıqdan çəkinmədi. Əvvəldən axıradək ən təhlükəli, ən mühüm nöqtələrdə isbat vücud edənlərin birinçisi oldu. Bundan sonra Süleyman bəyin məmuriyyəti qara yazıya təbdil edildi. Bir müddət Gəncədən getdi. Bu halda müsəlman ordusu təşkilinə hökumət tərəfindən müsaidə edildi. General Əli ağa Şıxlinski baş komandan (Gəncədə ilk dəfə yaradılan Əlahiddə Müsəlman korpusuna Ə. Şıxlinski baş komandan təyin olunmuşdur - Ş. N.) tə,yin edildi. Gəncədə qəvay əsgəriyyə təşkilinə başlandı.

Mərhum Süleyman bəy beşinci alay komandanlığına tə,yin edilərək yenidən Gəncəyə təşrif gətirdi. Yenə fəaliyyətə, fədakarlığa başladı. Bu vəqt şəhərdə öylə bir anarşi hökmfərma idi ki, heç bir qüvvə tə,min asayişə müqtədir deyildi.

Nəhayət, mövcud türk əsgərlərini müsəlləh edərək onların namus və qeyrətlərinə istinadən onların vasitəsilə e,adeyi-asayişə və Bakı tərəfdən

---

Aşkari - anarxiya - Ş.N.

Gəncə üzərinə tərtib edilməkdə olan hücuma qarşı müdafiə etməyə müqtədir ola bilmək lüzumu hiss edilərək buna təşəbbüs edildi.

Süleyman bəy: "Bən bu vəzifəyi qəbul edə bilərəm" - deyə bütün zəhmət və çətinliyi öz alayına qəbul və hər bir cəhətdən tə,min etdi. Həqiqətən bununla da Gəncədə eadeyi-asayiş əmələ gələrək nizam, intizam bərqərar etdilər. Böyləcə mərhum general Süleyman bəy Əfəndiyev heç bir gün fədakarlıqdan çəkinməyərək fəaliyyətinə davam etməkdə idi. Bu günlərdə bir ziyai-əbədi qəbilindən mədud olaraq darulbəqaya ertihal edərək cümlə azərbaycanlıları hüzn və ələm dəryasına qərq etmiş.

## YENİ AÇILAN ARXİVDƏN

İnamla demək olar ki, 1918-20-ci illərdə Milli ordumuzun keçdiyi ömür yolu tam tarixi səlnamədir. Yetmiş iki il "tamamilə məxvidir" möhrü ilə xalqımızdan gizlin saxlanan hərb tariximizin qiymətli sənədlərini araşdırmaq bizə yalnız 1992-ci ilin noyabr ayında qismət oldu. Burda nələr yoxdu... Hər sənəddə bir qəhrəman oğlumuzun taleyi, döyüş yolu, kimisi yarımçıq, kimisi də bütöv. Bu nadir sənədləri araşdırdıqca böyük Səməd Vurğunun dillər əzbəri olan misraları yada düşür:

***Hər türbədən bir qəhrəman***
***Sanki baxıb deyir bizə:***
***"Alovların arasından***
***Yollar açdım eşqinizə".***

Respublika yeni Tarix Mərkəzi Dövlət Arxivində saxlanan belə qiymətli sənədlərdən biri də general-mayor Süleyman bəy Əfəndiyevə məxsusdur. 1919-cu il fevralın 21-də hərbi nazir vəzifəsini müvəqqəti icra edən general-leytenant Əli ağa Şıxlinskinin və Baş qərargah rəisi, polkovnik Həbib bəy Səlimovun imzaladığı 89 nömrəli əmrdə oxuyuruq:

"Bu gün Ağdamdan birinci piyada Azərbaycan diviziyasının rəisi general-mayor Əfəndiyevin səpmə yatalaq xəstəliyindən vəfat etməsi haqqında kədərli teleqram almışıq. 1917-ci il fevral çevrilişindən sonra general-mayor (o vaxt polkovnik) Əfəndiyev var qüvvəsi ilə ictimai-təşkilati işlərdə və Vətənin müdafiəsi sahəsində xalqına xidmət etməyə başladı.



*Azərbaycan Xalq Cümhuriyyətinin dördüncü hökümət kabinəsi. Birinci cərgədə soldan üçüncü Hərbiyyə naziri Səməd bəy Mehmandarov*

Yeri gəlmişkən qeyd edək ki, Gəncə şəhərində onun təşəbbüsü ilə yeni yaranan Azərbaycan ordusuna tə,limatçılar hazırlamaq üçün tədris dəstəsi yaradılmışdı. Polkovnik Əfəndiyevin rəhbərlik etdiyi çox da böyük olmayan bu dəstə vətənimizin mərkəzi Gəncə şəhərində qayda-qanun yaradılmasında, anarxiyadan qorunmaqda, eşalonların tərksilah edilməsində və xalq əmlakının qorunmasında əsas rol oynayırdı.

Gəncə şəhərində Müsəlman korpusu yaradılanda polkovnik Əfəndiyev beşinci Müsəlman alayının komandiri tə,yin edilir. Tiflisdəki müxtəlif təşkilatların açıq müxalif mövqeyi, rəsmi dairələr tərəfindən müsəlman alayının yaradılmasına mənfi münasibəti və bir çox digər çətinliklərə baxmayaraq polkovnik Əfəndiyev Tiflis rəsmi dairələrindən öz bacarğı hesabına alayı üçün lazım olan əsas şeyləri alır və Gəncəyə çatdırır.

Könüllülərdən təşkil olunmuş beşinci atıcı alayı, yerlərdə hərbi sahədə onlara kömək edə biləcək hakimiyyətin olmadığı bir dövrdə əksəriyyəti yaxşı geyinmiş və orta səviyyədə tə,lim görmüş əsgərlərdən ibarət idi. Komandirin qayğısı təkcə əsgərlərlə qurtarmırdı. Polkovnik Əfəndiyev zabitlər üçün də əla təşkil olunmuş ucuz yeməkxana təşkil etmişdi.

Azərbaycan korpusunun süvari hissələrinin müvəqqəti buraxıldığı dövrdə polkovnik Əfəndiyev qərargaha çoxlu əşya və xeyli ərzaq məhsulları təhvil verdi. Bundan sonra ikinci Qarabağ süvari alayının komandiri tə,yin olunan polkovnik Əfəndiyev bir çox çətinliklərə baxmayaraq alayı tam hazırlıqlı hərbi hissə səviyyəsinə qaldıraraq, ə,la vəziyyətdə Hərbi Nazirliyə təqdim etdi.

Başqa rəislər arasında hərbi nazir tərəfindən fərqləndirilən ***polkovnik Əfəndiyevə bu il (1919-cu ildə) yanvarın 6-da general-mayor rütbəsi verilir və birinci piyada diviziyasının komandiri təyin edilir.***

General Əfəndiyev hazırkı şəraitdə diviziyanın təşkil olunması kimi ağır işə başlayır, Azərbaycanın vacib bölgəsində istirahət bilmədən fədakarcasına hərbi hissələrdə qanun-qayda yaratmağa çalışır.

Öz diviziyasındakı tibbi vəziyyətdən narahat olan general Əfəndiyev şəxsən özü lazaretin təşkilinə rəhbərlik edir, tez-tez xəstələr arasında olaraq, bəzən xoş sözlə, bəzən də rəhbər tələbkarlığı ilə onların taleyini yüngülləşdirir. Qayğıların çoxluğundan o, özü haqqında düşünmür və səpmə yatalaq xəstəliyinə tutularaq mərd bir əsgər kimi vəzifə başında həlak olur. Yorulmaz döyüşçü və Vətənin əsl oğlu, qəbrin nurla dolsun!

Vəfat etmiş general Süleyman bəy Əfəndiyev Batumda yaşayan ailəsini maddi çətinlik qarşısında qoymuşdur. Hətta böyük oğlu Həsənin vəfatı xəbərini eşidən general ona tapşırılan işlərin böyük əhəmiyyətini düzgün dərk edərək öz vəzifəsini tərk etməmişdir.

Əmr edirəm ki, onun dəfninin xərcləri xəzinənin hesabına olsun və ailəsinə birdəfəlik beş min rubl məbləğində müavinət verilsin. Eyni zamanda ailəsinin normal yaşayışını təmin edə biləcək məbləğdə təqaüdlə təmin olunması barədə hazırda Bakıda yerləşən Hərbi Nazirlik qarşısında vəsadət qaldırıram".

Beş gün sonra - fevralın 26-da general Əli ağa Şıxlinski həmin əmrinə belə bir əlavə də etmişdir:

"Vəfat etmiş Birinci piyada diviziyasının rəisi, general-mayor Süleyman bəy Əfəndiyevin dul qalmış həyat yoldaşı Laləndar xanım xahişi ilə mərhum Gəncə şəhərində yox, Qazax qəzasında dəfn olunacaqdır".

Təəssüf ki, Vətənimizin azadlığı uğrunda canını fəda edən general Süleyman bəy Əfəndiyevin bu günədək yaxın qohumunu tapmaq mümkün olmadı. İllərin uzaqlığı bizə imkan vermədi ki, öyrənək görək bu mərd generalımız harada - Qazağın



Генералъ-маіоръ
САМЕДЪ-БЕКЪ-САДЫКЪ-БЕКЪ-МЕХМАНДАРОВЪ, командиръ 7-й Вост.-Сиб. стр. артилерійской бригады. За отличія во время осады Портъ-Артура онъ былъ награжденъ орденомъ св. Георгія 4-й ст.

***(1855-1931)***

# GENERAL - LEYTENANT FƏRƏC BƏY AĞAYEV

*Hər kəs insanları sevib, mədəniyyətinin tərəqqisinə kömək edərsə, mən onun dostu və müxlisiyəm.*

***M.F. Axundov***



***General-leytenant Fərəc bəy Ağarza bəy oğlu Ağayev (1814-1891)***

General - leytenant Fərəc bəy Ağarza bəy oğlu Ağayev 1891-ci il noyabrın 26-da səksən yaşında Tiflisdə vəfat etmişdir.

1999-cu ildə Gürcüstan Mərkəzi Dövlət Arxivində xalqımızın hərbiçi oğulları haqqında araşdırmalar aparanda indiyədək bizə məlum olmayan çoxlu sayda fotoşəkil və rəsmi sənədlər əldə edə bildim. 1850-1855-ci illərdə Dmitrii Yermakov soyadlı bir şəkil çəkən Qafqazın müxtəlif bölgələrini gəzmiş, XIX əsrin görkəmli adamlarının - ziyalılarının, məhşur musiqi xadimlərinin, bəylərin, xan və ağaların foto şəklini çəkmişdir. Onların arasında hərbçilər də az deyildi. Dmitrii Yermakovun öz əlilə tərtib etdiyi on beşdən çox iri həcimli foto albomda bir şəkil diqqətimi cəlb etdi. Orada təxminən 40-45 yaşında cavan zabit təsvir olunmuşdu. Qalın bığlı, iri alınlı, mavi gözlü zabitin qurşağında naxışlı bir xəncər bağlanmışdı. Onun ağayana oturuşunda bəy vüqarı vardı. Şəkil sanki dilə gəlib deyirdi: "Mən azərbaycanlıyam!" Ümumi siyahıda

göstərilirdi ki, fondda onun iki fotoşəkili saxlanılır. Hər ikisini sifariş verdim. Hər ikisinin də altında "Tatarskiy bek" sözləri yazılmışdı. Daha heç nə. Şəkildə kimin təsvir olunduğunu isə fondda saxlanan ad göstəricisi dəftərindən öyrənə bildim. Orada yazılmışdı: "2899 və 8215 saylı foto şəkillərdə general - leytenant Fərəc bəy Ağayev təsvir olunmuşdur". Bir ay üç günlük yaradıcılıq ezamiyyətimdə bu anlardakı qədər sevinməmişdim. Nə yaxşı ki, zəndim məni aldatmamışdı. Bir də ki, necə sevinməyəydim. Yüz doxsan bir il əvvəl anadan olmuş, yüz on dörd il əvvəl isə vəfat etmiş generalın fotoşəklini indiyədək Azərbaycanda görən olmamışdı. Hələ iyirmi il əvvəl Sankt - Peterburqda oxuduğum bir arxiv sənədindən mənə məlum idi ki, general - leytenant Fərəc bəy Ağayev məhşur maarifçimiz Həsən bəy Zərdabinin atası Səlim bəyin doğmaca dayısı olub. 1858-ci ildə balaca Həsən bəyin birinci dərəcəli Tiflis gimnaziyasına qəbul olunmasına kömək etmişdir.

1858-ci ildə Şamaxıdakı dörd sinifli Ali - ibtidai məktəbdə yüz qırx dörd nəfər buraxılış imtahanı verdi. Onlardan otuz iki nəfəri azərbaycanlı idi. Burada zadəgan, ruhani, rəiyyət silkinə məxsus uşaqlar təhsil alırdılar. İmtahan verənlər arasında uzun illər çar ordusunda xidmət edən praporşik Səlim bəyin oğlu Həsən bəy Məlikov da vardı. Buraxılış imtahanlarını qeyri - adi bir müvəffəqiyyətlə verən Həsən bəy fitri istedadı ilə hamını heyran qoydu. İmtahanda iştirak edən Qafqaz Təhsil Dairəsinin müdiri baron Aleksandr Pavloviç Nikolai Həsən bəy Məlikovun padşahlıq hesabına birinci dərəcəli Tiflis gimnaziyasına qəbul olunmasına məmuniyyətlə razılıq verdi.

Lakin məktəbin direktoru üzrxahlıq edib:

- Aleksandr Pavloviç, - dedi, - cəsarət edib haqqında hüzurunuza tərif dolu tələbnamələr yazdığım şagird Həsən bəy Məlikov, bax budur. Özünüz onun biliyinin şahidi oldunuz.

- Yadımdadır, səhv etmirəmsə bir ildə iki dəfə yazmışdınız. - Baron Nikolai ani olaraq fikrə gedib, - cənab direktor, - dedi, - bu cılız müsəlman balası sizin yazdığınız təriflərə də layiqdir. Əlbəttə, bu müvəffəqiyyətin qazanılmasında sizin müəllimlərin böyük əməyi var. Mən onun Tiflis gimnaziyasında oxumasına bütün qəlbimlə sevinərdim. O, həqiqətən istedadlı uşaqdır.

Məktəb müdiri ona və məktəbinə qarşı deyilən tərifdən xoşhal olub, barona hörmətlə tənzim etdi.

- Möhtərəm Aleksandr Pavloviç, ancaq bir çətinliyimiz var.

- Nədi, o çətinlik, nədən ibarətdir?

- İnişil bu uşağın atası Səlim bəy vəfat etdi. İndi ailənin başçısı onun böyük qardaşıdır. O, da iki ayağını bir başmağa dirəyib deyir ki, qardaşım Həsən bəyin Tiflisə oxumağa getməsinə razı deyiləm.

- Niyə?

- Deyir ki, uşağı gözümdən qoya bilmərəm. Hələ çox balacadır.

- Olarmı o cənabla özüm söhbət edəm? Bəlkə yola gətirdik.

- Olar, amma bir məsələni sizə açım...

Baron şəhadət barmağını dik tutub, zarafatla:

- Dayan, dayan yəqin sünnidir, tərs damarı var. Sən də ondan qorxursan, - deyib - başını bulaya - bulaya ay müsəlmanlar, ay müsəlmanlar...

- Yox, Aleksandr Pavloviç, sünni olmağına sünni deyil, qorxuram, tərs damarı tutar daha da acığa düşər, belə istedadlı uşaq əlimizdən çıxar. Mən belə bir fənd işlətmişəm. Deyim, qulaq asın. Həsən bəyin atasının dayısı general - leytenant Fərəc bəy Ağayev Tiflisdə yaşayır. Generalın imzası ilə bir xahişnamə hazırlamışam. Guya o, bizim məktəb müdriyyətindən təvəqqe edir ki, Həsən bəyi Tiflis gimnaziyasına oxumağa göndərək...

- Qardaşı yenə də razılaşmır?

- Biz hələ generalın məktubu barədə Həsən bəyin böyük qardaşına bir söz deməmişik. İstərdik ki, məktub barədə ona siz deyəsiniz.

- Niyə məhz mən...

- Ona görə ki, siz Qafqaz təhsil Dairəsinin hamisiniz, Zaqafqaziya Baş İdarəsi Sovetinin üzvüsünüz, həm də həqiqi - mülki - müşavirisiniz. Sizin - baron Aleksandr Pavloviç Nikolainin sözü daha inandırıcı olar.

- General - leytenant Fərəc bəy Ağayev həzrətlərini mən də yaxşı tanıyıram. Deyirsən, cəsarət edib onun adından danışaq? Mənə belə gəlir ki, bir müsəlman ziyalısının artması üçün işlətdiyimiz fəndə görə cənab general bizi bağışlar. Amma onu da deyim ki, bu fənd heç də bəd deyil. Çox məharətlə tapılıbdır. Uşağı xilas etməyin başqa yolu yoxdur. General tərəfindən arxayın olun, razılıq mənim boynuma. Bu barədə Tiflisə qayıdan kimi onun özünə də məlumat verərəm.

Baron Aleksandr Pavloviç Nikolai Tiflisə qayıdanda Şamaxı məktəb müdirinin işlətdiyi "fənd" haqqında generala məlumat verdi. General bığaltı gülümsündü və məmuniyyətlə qohumu Həsən bəy Məlikovu himayəsinə keçirərək, birinci Tiflis Gimnaziyasına qəbul olunmasına kömək etdi.

***

Bəs, general - leytenant Fərəc bəy Ağayev kimdir? Necə olub ki, tədqiqatçılarımız onun üstündən sükutla keçiblər? Həsən bəy Zərdabi kimi

görkəmli maarifpərvəri bizə bəxş edən bu xeyrxah adamın ömür yolu həyatın hansı sınaqlarından çıxıb?

General - leytenant Fərəc bəy Ağayevin haqqında biz ilkin məlumata "Kavkaz" qəzetinin səkkiz dekabr min səkkiz yüz doxsan birinci il tarixli nömrəsində və "Kavkazski kalendar" illik məcmuəsinin 1873-1874-cü illərdəki nömrələrində rast gəldik. Birinci mənbədə haqqında geniş məlumatla "Fərəc bəy" kimi təqdim olunan eloğlumuz, ikincidə Qafqaz Əlahiddə Ordusunun generalları sırasında "Nikolay Nikolayeviç Ağayev" adlandırılır. Ona görə ki, bu yaraşıqlı, igid qafqazlı zabitini 1844-cü il aprelin 27-də imperator birinci Nikolay və onun arvadı Mariya Aleksandrovna xaç suyuna çəkib oğulluğa qəbul etmişdilər.

Uzun müddət Peterburqda xidmət edən padşahın sevimlisi Fərəc bəy Ağayevə Qafqaza qayıtdıqdan sonra yaxın qohumları belə yaxşı münasibət bəsləməmişlər. Hətta Həsən bəy Zərdabi məktublarından birində yazır ki, atam el arasında xəcalət çəkirdi ki, dayısı rus adını qəbul edib. Ona görə də ondan üz döndərib küsmüşdü. Get - gəlimiz belə yox idi. Ömrünün sonlarında Tiflisdə yaşayan generala hamı "Rus Ağayev" deyərmiş. Şübhəsiz ki, sonralar səhvini başa düşən general vəsiyyət etmişdir ki, nekroloqunda ad - familiyası Fərəc bəy Ağayev kimi göstərilsin. Onun bu vəsiyyətinə əməl olunmur.

General - leytenant Fərəc bəy Ağarza oğlu Ağayev füsunkar Qarabağın Şuşa şəhərində 1814-ci il dekabrın 4-də adlı-sanlı bəy nəslində dünyaya gəlib. İlk hərbi təhsilini Tiflis kadet korpusunda aldıqdan sonra 1834-cü il mayın 1-də Qafqaz Müsəlman Süvari polkunun sıralarında Varşavada xidmət etmişdir. Cəmi iki illik xidmətdən sonra bacarıqlı və igid zabit olduğuna görə onu qvardiyaçılar alayına keçirirlər. Xidmətinin yeddinci ilində ən yaxşı qvardiya rotmistri Fərəc bəy eskadron komandiri kimi Peterburqa göndərilir. Peterburqda o, çar birinci Nikolayın xüsusi qvardiya kazak polkunda leyb-qvardiya komandiri vəzifəsinə təyin olunur. Elə burada da o, imperatorun və onun arvadı Mariya Aleksandrovanın sevimlisi olur.

Fərəc bəy Ağayev özünü qeyri - adi hərbi qabiliyyəti və igidliyi sayəsində xidmətinin on ili ərzində - 1849-cu il dekbrın 6-da polkovnik rütbəsinə kimi yüksəlir. 1850-ci ilə qədər Peterburqda, xüsusi qvardiya kazak polkunda qüsursuz xidmət edən polkovnik F. Ağayev həmin ili Əlahiddə Qafqaz Ordusunun sərəncamına göndərilir.

1853-cü ildə Krım müharibəsi başlananda polkovnik Fərəc bəy Ağayev Qarabağın azərbaycanlı igidlərindən ibarət Süvari alayı təşkil edib, özü də

onun komandiri olub. Müxtəlif arxiv sənədləri, komandanlığa göndərilən raport və məktublar göstərir ki, Fərəc bəyin şuşalılardan ibarət süvari polku Kürəkdərə uğrunda gedən döyüşlərdə altmış minlik korpusa qarşı dönməz bir iradə ilə vuruşmuşdur. 1854-cü ildə osetinlərdən təşkil olunmuş milis alayı da Fərəc byin alayına təhkim edilir. Süvari qoşun dəstəsinin komandiri kimi yüksək vəzifə daşıyan eloğlumuz hərbi xidmətinə və qoşun başçısı kimi göstərdiyi qəhrəmalığa görə üstündə "Cəsurluğa görə" yazılmış qızıl xəncərlərlə, həmçinin iki dəfə imperator tacı ilə bəzədilmiş birinci dərəcəli "Müqəddəs Anna" (qılıncla birgə), "Müqəddəs Stanislav", "Müqəddəs Vladimir" və başqa kavaler ordenləri ilə təltif olunmuşdur.

1862-ci il iyunun 25-də ***sərkərdəlik fəaliyyətinə görə Fərəc bəy Ağayev general - mayor kimi fəxri rütbəyə layiq görülür***.

Müharibə yenicə başlayanda Fərəc bəy Ağayevin başçılığı ilə Qarabağlılardan ibarət Azərbaycan süvari dəstəsinin təşkili haqqında Peterburqda məlumat göndərən Qafqaz canişini general - qraf Vorontsov qeyd edirdi ki, polkovnik Fərəc bəyin sayəsində könüllü dəstələr tezliklə yığıldı. Döyüşçülər yürüşə məhşur Qarabağ kəhərlərində və layiqincə silahlanmış halda başladılar.

Qırx ilə yaxın orduda qüsursuz xidmət edən ***Fərəc bəy Ağayev 1882-ci il noyabrın 29-da general-leytenant rütbəsində istefaya çıxmış,*** ömrünün sonuna kimi Tiflis müsəlman Xeyriyyə Cəmiyyətində çalışmışdır.

"Kavkaz" qəzetinin 8 dekabr 1891-ci il tarixli nömrəsində general haqqında yazılan nekroloqda onun xeyirxah bir insan olması xüsusilə qeyd olunur. Qəzet yazır: "Ona yardım və kömək üçün müraciət edən hər bir şəxsə, xüsusilə dini müsəlman olanlara general - leytenant Fərəc bəy Ağayev çox böyük insani keyfiyyətlə təmənnasız yardım etmişdir".

Ömrü Polşa, Sankt - Peterburq, Moskva, Tiflis və müxtəlif hərbi yürüşlərdə keçən general eloğlumuzun özümüzdə nəyi var? Respublika Əlyazmalar İnstitutunda, Mirzə Fətəli Axundovun arxivində general - leytenant Fərəc bəy Ağayeva məxsus bir məktub saxlanılır. Məktub 1869-cu il mayın 10-da Tiflisdən xan qızı Xurşidbanu Natəvana yazılıb. İki il əvvəl Natəvanın general - mayor rütbəli milliyətcə Kumuk olan əri Xasay xan Usmiyev (1808-1867) erməni generalı Mixail Loris - Melikovun fitvası ilə müəmmalı şəkildə Voronej şəhərində qətlə yetirilmişdir. Üstəlik də cavankən vəfat edən sevimli oğlu Mir Abbasın ölümü şairəni qanadları sınmış yaralı quşa döndərmişdi. Dul qalan şairə Natəvanın gözəllik başına bəla olmuşdu. Qarabağın bir para ağzıgöyçək nadan bəyləri onun haqqında fitnəkar

söhbətlər yayır, xalqın gözündən salmaq üçün şayələr, iftiralar uydururdular. Belə nadürüstlərin tikanlı sözlərindən qəzəblənən general Fərəc bəy Ağayev şairə Natəvana təsəlli verərək yazırdı: "Mənim hörmətli möhtərəm Xurşidbanu Bəyimim. Sizin xoşbəxtliyiniz əbədi olsun! Bu ovqat Tiflis məclisində bir para nagüvar və namülayim əxbarat Sizin haqqınızda müntəşir olduğu üçün ürəyim qüssə içində olur və qarabağlıların haqşünaslıqlarından qayətdə azərdəxatirəm. Özünüzə məlumdur ki, sizin padəri - cənnət-məkanınızın dövlətindən nanünəmək və müknətü qüdrət sahibi olan qarabağlılar, cəsarət bəhəm edib Sizə nisbət tərki - əbədilik binası qoyublar və siz bu ovqat bilkülliyə yalqız və bimaavin və bixeyirahü biham qalıbsınız".

Canı yanalıqla yazılan məktubdan aydın görünür ki, general xan qızı Natəvanı da yaxından tanıyırmış.

Ayrı - ayrı tarixi əsərlərdən, xüsusilə Gürcüstan Dövlət arxivində saxlanan sənədlərdən məlum olur ki, general Fərəc bəy Ağayev nizami orduda xidmətdə olmasına baxmayaraq nə vətəni Qarabağla, nə də dövrünün ziyalıları ilə əlaqəsini kəsməmişdir. O, böyük dramaturqumuz M. F. Axundovla general - leytenant Cəfərqulu ağa Bakıxanovla, görkəmli şair Qasım bəy Zakirlə, məşhur ədəbiyyat toplayıcısı, din alimi Mirzə Hüseyn Əfəndi Qayıbovla və Şuşa ziyalıları ilə əlaqə saxlamışdır. General 1837-40-cı illərdə Varşavada müsəlman süvari alayında hərbi xidmətdə olanda Molla Pənah Vaqifin qardaşı oğlu rotmistr Əhməd bəylə tanış olub dostlaşmışdı. Polyak tədqiqatçısı, Lodz Universitetinin professoru Boqdan Baranovski yazır ki, Varşavadakı müsəlman zabitləri arasında hər iki dost yar - yaraşaqları ilə seçilirdilər.

İki müsəlman ölkəsi General-leytenant Fərəc bəy Ağarza bəy oğlu Ağayevin xidmətlərini yüksək qiymətləndirmişdir. O, 1864-cü ildə İran hökumətinin "Şire-Xorşid" ordeninin ikinci dərəcəsi ilə (ulduzla birgə), 1872-ci ildə isə Türkiyənin "Məcidiyyə" ordeninin birinci dərəcəsi ilə təltif olunmuşdur. General Fərəc bəy Ağayev manufaktur - müşavirinin qızı Mariya Nikolayevna Manuxina ilə ailə qurmuşdur.



***Poruçik Nadir bəy Yadigarov. Tifilis 1889-cu il***



***General-mayor Həsən ağa Vəkilov (1833-1998)***



*General-leytenant Səməd bəy Mehmandarov Birinci Dünya Müharibəsi illərində*



***Abbasqulu bəy Yadigarov***



***Rotmistir Ərçil bəy Sadıq bəy oğlu Yadigarov. 1916-cı il, Qərb cəbhəsində.***



***Sağdan: general S.Mehmandarovun oğlu İqor Mehmandarov və Şəmistan Nəzirli. 1986-cı il***

## GENERAL-LEYTENANT BALAKİŞİ BƏY ƏRƏBLİNSKİ (1828-1902)

***Kim keçmişi dərindən öyrənirsə bu günü yaxşı bilir, bu günə yiyələnən isə gələcəyi görür.***

***Yakut atalar sözü.***



Min doqquz yüz ikinci il, yanvarın üçündə Dərbəndin qədim Qırxlar qəbiristanlığında istefada olan general-leytenant Balakişi bəy Əlibəy oğlu Ərəblinskini əsgəri şərəflə dəf etdilər. Bu, Qafqazın müsəlman əhalisindən Rusiyada ilk ali hərbi təhsil alan Azərbaycan oğlu idi.

Həmin gün keneral-leytenantı Dərbənd əhalisi, Abxaz, Samur, Abşeron və Şirvan süvari alayının əsgərləri şərəflə son mənzilə yola saldılar.

Tam əlli il rus ordusunda nümunəvi xidmət edən general-leytenant Balakişi bəy Ərəblinski 1828-ci ildə Zaqatalanın Tala kəndində azərbaycanlı ailəsində anadan olmuşdur. Mahal rəisi Əlibəyin ailəsində böyüyən Balakişi bəy Peterburqdakı birinci dərəcəli kadet korpusunu 1848-ci il iyulun 13-də müvəffəqiyyətlə bitirib kornet rütbəsi almışdır. Müxtəlif hissələrdə qüsursuz xidmət edən Ərəblinski çox gənc yaşlarında, podpolkovnik rütbəsində briqada komandiri kimi məsul vəzifəyə irəli çəkilmişdir. Sonralar diviziya komandiri olan general-leytenant Balakişi bəy Ərəblinski əlli illik xidmətində o vaxt Rusiyada olan bütün yürüş və döyüşlərdə iştirak etmişdir.

Hələ 1848-49-cu[1] illərdə Vilaqoş qalası uğrunda gedən ağır döyüşlərdə həmyerlimiz Balakişi bəy Ərəblinski də mərdliklə vuruşaraq birinci dərəcəli "Müqəddəs Stanislav" ordeni ilə təltif olunmuşdur.

Sonrakı hərbi yürüşlərdə də onun xidmətləri yüksək qiymətləndirilmişdir. 1849-cu ildən 1892-ci ilə qədər səkkiz dəfə odlu-alovlu döyüşlərdə mərdliklə vuruşan Balakişi bəy Ərəblinski 1860-cı ildə üçüncü dərəcəli "Müqəddəs Stanislav" (qılınc və bantla birgə), 1862-ci ildə üçüncü dərəcəli "Müqəddəs Anna" (qılınc və bantla birgə), 1874-cü ildə ikinci dərəcəli "Müqəddəs Stanislav" (qılıncla birgə), 1877-ci ildə dördüncü dərəcəli "Müqəddəs Vladimir" (iyirmi beş illik qüsursuz xidmətinə görə bantla birgə), 1879-cu ildə "İgidliyə görə qızıl qılıncla", 1882-ci ildə üçüncü dərəcəli "Müqəddəs Vladimir", 1891-ci ildə birinci dərəcəli "Müqəddəs Stanislav", 1892-ci ildə "Qırx illik qüsursuz hərbi xidmətinə görə" ordenlərini almışdır.

Balakişi bəy Ərəblinskinin ikinci böyük yürüşü 1854-cü ildə Rusiyanın Xivə xanı ilə apardığı müharibədə olmuşdur. Bu hərbi səfərdə mayor Ərəblinski general Lazerevin ordusunda vuruşurdu.

Bu illərdə Qarabağ süvari dəstəsinin tərkibində general-leytenant Fərəc bəy Ağayev. Azərbaycan süvari briqadasında general-mayor İsmayıl bəy Qutqaşınlı, kapitan Mənsurağa Vəkilov, ikinci süvari Azərbaycan alayının komandiri, polkovnik İsrafil bəy Yadigarov, podpolkovnik Cəfərağa Əlibəyağa oğlu, general-leytenant Cəfərquluağa Bakıxanov, dördüncü İrəvan süvari batalyonunun komandiri mayor Ağasıbəy Avşarov (1883-cü ildən general-mayor olub. -Ş.N), mayor Firidun bəy Vəzirov və başqa həmyerlilərimiz qorxmaz döyüşcü, bacarıqlı komandir kimi tanınırdılar.

1853-56-cı illərdə Krım müharibəsində dörd süvari alayında mindən çox azərbaycanlı əsgər və zabit vuruşurdu. Onlardan biri də Balakişi bəy Ərəblinski idi. Bu müharibədə podpolkovnik Ərəblinski göstərdiyi igidliyə görə üstü yazılı qılınc və "Müqəddəs Anna" ordani ilə təltif olunmuşdu.

Balakişi bəy Ərəblinskinin iştirak etdiyi sonuncu müharibə 1877-1878-ci illərdəki Rusiya-Türkiyə müharibəsi idi. Görkəmli sərkrdə 21-ci piyada divizyasının briqada komandiri kimi yüksək vəzifəyə təyin olunmuşdu. Qısamüddətli döyüşdə gösdərdiyi qeyri-adi igidliyə və əvəzsiz komandirlik fəaliyyətinə görə həmyerlimiz Balakişi bəy Ərəblinski 1887-ci il martın 12-də general-mayor rütbəsinə layiq görülmüşdü.

1898-ci ildə 21-ci piyada divizyasında briqada komandiri olan general-leytenant Balakişi bəy Ərəblinski həmin ili istefaya çıxıb Dərbəndə qayıtmış, ömrünün axrına kimi orada yaşamış, imperator tərəfindən ona hədiyyə

1. 1849-cu ildə Macarstanda Avstriya hökmranlığına qarşı inqilabi üsyan olmuşdur. Həmin üsyan zamanı rus imperatoru Nikolay, Avstriya imperatoru Frans İosifin xahişilə oraya xeyli qoşun göndərərək qəhraman Macar xalqının öz milli azadlığı uğrunda mübarizəsini amansızcasına yatırılmasına kömək etmişdir. (-Ş.N.).

olunan torpaq sahəsinə başçılıq etmişdir. Yerli əhali arasında gözəl insani keyfiyyətləri ilə hədsiz hörmət qazanmış general-leytenant Balakişi bəy Ərəblinskinin şərəfinə adlandırılan Dərbənd yaxınlığındakı qəsəbə və stansiya indi də onun adını daşıyır. Şəhərin mərkəzində isə çox mənzilli mülkü Kommunarlar küçəsində indi də qalır.

1902-ci il 20 yanvar tarixli nömrəsində "Kaspi" qazeti general-leytenant Balakişi bəy Ərəblinskiyə həsr etdiyi nekroloqda yazırdı: "Mərhum təbiətən humanist idi. Rütbəsindən və milliyyətindən asılı olmayaraq çətin anlarda həmişə hamının köməyinə gəlir, həyatda özünü çox sadə aparardı. Rəis kimi xidməti işdə tələbkar olsa da, ədalətli idi. Tabeliyində olanlara qayğı ilə yanaşardı. Buna görə də aşağı rütbəlilər belə onu ata kimi sevir, hörmət edirdilər. Onun diqqəti cəlb edən keyfiyyətlərindən biri də qonaqpərvərliyi idi.

General-leytenant Balakişi bəy Ərəblinskinin dəfn mərasimində iştirak edənlərin hədsiz çoxluğu ona olan xalq məhəbbətinin əyani təzahürüdür. Onun evindən qəbiristanlığa qədər uzanan yol mərhuma son borcunu vermək məqsədi ilə tabutu müşayiət edənlərlə dolu idi".

General-leytenant Balakişi bəy Ərəblinskinin iştirak etdiyi müharibələr haqqında onlarla elmi, bədii əsərlər yazılıb. Ancaq nədənsə general Ərəblinskinin adı bu müharibəyə aid nə elmi, nə də bədii əsərlərdə heç olmasa bir dəfə də çəkilmir. Tədqiqatçı və tarixçilərimiz onun haqqında heç bir məlumat verməyiblər.

İlk dəfə mənə general Ərəblinski haqqında söhbət açan Azərbaycan Dövlət Tarix Muzeyinin elmi işçisi Nərmin xanım Tahirzadə oldu. Onun nəvələrini tapmaqda da Nərmin xanım köməyimə çatdı.

Hazırda general-leytenant Ərəblinskinin iki nəvəsi Bakıda yaşayır. Montin qəsəbəsində yaşayan qız nəvəsi Fatma xanım general babası dünyadan köçəndən iki il sonra anadan olub. Fatma xanımın dediyinə görə, babasının mənsub olduğu Ərəblər məhəlləsi Zaqatalada indi də durur.

Fatma xanımda generalın cəmi iki şəkli, bir də generalın qızı Sona xanım Ərəblinskayanın (1881-1932) bacısı Nurcahana atasının xəstəliyi və ölümü haqqında yazdığı qısa bir məktubu saxlanılır.

"Noyabrın iyirmisində sarılıq xəstəliyinə tutuldu, az sonra sağaldı və bədbəxtlikdən yenidən çiban çıxartdı. Dekabrın ikisində təşrih edib yaranı kəsdilər. Yaranın yerini qızmar dəmirlə xlorofomsuz dağladılar. Atamız yaşlı olduğuna görə xlorofomdan istifadə etmək olmazdı. Operasiyadan sonra özünü bir qədər yaxşı hiss etdi. İyirmi gündən sonra əhvalı birdən-birə pisləşdi və keçindi.

Min doqquz yüz ikinci il yanvarın ikisində dəfn olundu. Müxtəlif polklardan zabitlər, deputatlar gəlib anamıza başsağlığı verdilər.

Evimizin qabağı adamla dolu idi. Sonra matəm musiqisi çalındı. Küçələrdə adam əlindən güclə tərpənmək olurdu".

General-leytenant Ərəblinskinin ikinci nəvəsi Həyat xanım Abdullayevadan isə onun çox qısa tərcümeyi-halını öyrənə bildim.

Bir dəfə Azərbaycan Dövlət Tarix Muzeyinin inqilaba qədər ki, sərgi guşəsində bir portret gördüm. Orda meşin divanda əyləşən Bakı milyoneri Hacı Zeynalabdin Tağıyev öz evində təsvir olunmuşdu. H.Z.Tağıyevin başının üstündə isə general-leytenant Balakişi bəy Ərəblinskinin portreti asılmışdı. Bələdçi qızdan portretdəki generalın kimliyini soruşdum. "Bilmirəm, tanımıram - dedi. - Bircə h.Z.Tağıyevi tanıyıram..."

General Balakişi bəy Ərəblinskinin portreti h.Z.Tağıyevin başı üstündə təsadüfən asılmayıb. Onlar qohum idilər. Generalın kiçik qızı Sona xanım Hacı Zeynalabdin Tağıyevin həyat yoldaşı idi. Manaf Suleymanovun "Eşitdiklərim, oxuduqlarım, gördüklərim" kitabındakı maraqlı epizod bunu bir daha təsdiq edir. Müəllif yazır ki, Hacı Zeynalabdin öz qızları - Sara və Leylanı Peterburqa, Smolnı Qızlar İnstitutuna oxumağa göndərmək qərarına gəlir və sənədləri ora yollayır. Çox keçmir Smolnıdan rədd cavabı gəlir ki, nə bəy, nə xan və nə də zadəgan olmadığınız üçün qızlarınızı qəbul edə bilmərik: bu instituta yalnız qraf, knyaz, xan, bəy, əmir qızları qəbul edilir.

Hacının arvadı Sona xanım rəsmi sənəd təqdim edir ki, atası general Balakişi bəy Ərəblinski müharibələrdə rəşadət göstərib və Rusiyaya sədaqətinə görə çar tərəfindən qızıl silahla təltif olunub; bu qızlar da onun nəvələridir, bütün imtiyazlardan istifadə etmək hüquqları var.

Tağıevin qızları Leyla və Sara ana babalarına - general Ərəblinskiyə görə Peterburqdakı Smolnı Qızlar İnstitutuna qəbul edilirlər.

1901-ci il oktyabrın yeddisində H.Z.Tağıyevin Bakıda açdığı ilk qız məktəbinin təntənəli açılışında general Balakişi bəy Ərəblinski iştirak etmişdir.

***Hacı Zeynalabdin Tağıyevin qızı Sürəyyə xanımın xatirələrindən:***- hələ ötən əsrin doxsanıncı illərində Buxara Əmiri Mirzə Seyid Əbdül Əhəd Bahadır xan hər il Qafqaza müalicəyə gedərdi. Onun yolu hər dəfə Bakıdan keçər və gedib qayıdanda məiyyəti ilə bərabər bir neçə gün şəhərimizdə qalar, neft mədənlərinə, toxuculuq fabrikinə, ayrı-ayrı zavodlara, Mərdəkandakı bağbanlıq məktəbinə, Bibi-heybət məscidinə, teatr və digər yerlərə baş çəkərdi.

...Buxara əmri hər dəfə Bakının bir neçə nəfər yüksək rütbəli mənsəb sahiblərinə, milyonçulara və hətta adi adamlara belə qızıl və gümüşdən



*Əlahəzrət Buxara Əmiri (1910-1920-ci illərdə) Mirzə Seyid Əbdül Əhəd Bahadır xan*

birinci və ikinci dərəcəli Buxaranın "Ucalan ulduz" ordenini və digər Buxara medalları bağışlayırdı. Atam və anam babam general-leytenant Ərəblinskiyə də birinci dərəcəli "Ucalan ulduz" qızıl ordeni vermişdi. Hacıya arxa tərəfində xoş sözlər həkk edilmiş iri, çox qiymətli bir qızıl saat da bağışlamışdı.

1898-ci ildə istefaya çıxan general Balakişi bəy Ərəblinskiyə imperator Dərbəndin altı kilometrliyindəki böyük bir torpaq sahəsini özünün arzusu ilə hədiyyə edir. General burada kənd saldırır və stansiya tikdirir. Hazırda qəsəbədir, orada üç mindən çox azəribaycanlı yaşayır. Stansiya və qəsəbə indi də "Ərəblinski" adlanır.

1906-cı ildə məşhur aktyor Hüseyn Xələfov sənət dostları Mirmahmud Kazımovski, İbrahim İsfahanlı, Cahangir Zeynalov, Midhət və Mahmud Məlikov qardaşları ilə Bakıdan Dərbəndə qastrola gedirdilər. Həmin stansiyada qatar xeyli gözləməli olur. Onlar düşüb stansiyada gəzişirlər. Qarşıdan gələn qatarı gözləyirlər ki, yol açılsın. Bu vaxt Mirmahmud Kazımovski:

- Hüseyn, -deyir, -sən özünə təxəllüs axtarırsan, bir stansiyanın adına diqqət elə...

Hüseyn Xələfov:

-Nə demək istəyirsən?

-Gəlsənə özünə Ərəblinski təxəllüsü götürəsən. Pis deyil, balam, dilə yatandır, yaxşı da əzamətlə səslənir. Dostlar razılıq əlaməti olaraq bir-birinin üzünə baxırlar.

Dərbəndə çatan kimi afişaya Hüseyn Xələfov əvəzinə "Hüseyn Ərəblinski" yazırlar. O vaxtdan böyük aktyor bu təxəllüsü qəbul edir. Onu da xatırladım ki, həmin illərdə aktyorlar arasında mahal, şəhər adlarını familiya kimi qəbul etmək dəbdə olub. Bakıda isə bu daha böyük gurultu və səs küylə qarşılanır. İlk vaxtlar qəzet satanlar küçələrdə qışqırırlarmış ki, təzə aktyor peyda olub: Hüseyn Ərəblinski.

Dönə-dönə qədim Dərbəndə səfərimdə ağsaqqal Kərim Paşabəyov, Davud Talıbov və başqaları bu əhvalatı mənə danışıblar. Aktyor Hüseyn Xələfova "Ərəblinski" stansiyasında gözəl bir qızın gül bağışlaması,

Hüseynin ona vurulması və vüsalına yetmədiyi o afətin eşqinə onunla ilk və son dəfə rastlaşdığı "Ərəblinski" stansiyasının adını özünə soyad götürməsi isə həqiqətə uyğun deyildir.

Hətta bəziləri yazırlar ki, guya aktyor Hüseyn Xələfov generalın qızını sevirmiş, lakin qızı ona vermədiklərinə görə o, "Ərəblinski" təxəllüsünü götürüb. Bu da tamamilə yalan faktdır. Çünki aktyor Dərbənddə olanda generalın vəfatının dördüncü ili idi.

Bu barədə mən gözəl folklorçumuz mərhum Qulam Məmmədli ilə də söhbət etmişdim. O, bu əhvalatın bizim bir teatrşunas qadın (o rəhmətə gedib tərəfindən uydurulduğunu və doğru olmadığını təsdiq etdi.

Qəribə burasıdır ki, bu səhv fakt ədəbiyyatımıza da gəlib çıxıb. Gözəl əsərlər müəllifi, görkəmli dramaturqumuz Sabit Rəhman Hüseyn Ərəblinskinin ömür yolundan "Son faciə" adlı povest yazıb.

"1906-cı ildə Dərbənddə qastrol verib geri qayıdırdılar... Kiçik bir stansiyada əyləndilər. Əylənməyin səbəbi bu idi ki, qabaqda məşhur general, mülkədar Ərəblinskini gətirən qatar vardı. O qatar gəlib ötməli, sonra da bunlar getməli idilər". (Sabit Rəhman, əsərləri II-cild. Səh. 253-də).

O vaxtlarda general Ərəblinski haqqında tədqiqat aparılmadığına görə mərhum dramaturqumuza məlum deyilmiş ki, general-leytenant Balakişi bəy Ərəblinski 1902-ci il yanvarın 1-də vəfat etmişdir. Onda mərhum general 1906-cı ildə qatarda necə gedə bilərdi?

***1988-ci il, avqust.***



Rotmistr Balakişi bəy Ərəblinski

## GENERAL-MAYOR HACI YUSİF XAN TAHİR XAN OĞLU YUSİFXANOV
***(1806 - 1878)***

1806-cı ildə anadan olub. 1852-ci ildə general-mayor rütbəsi alıb. 1878-ci ildə yetmiş iki yaşında vəfat edib. Dərbənddəki Qırxlar ziyarətgahında dəfn olunub. General Yusif xan çox səxavətli və maarifpərvər bir insan idi. O, Kürə nahiyəsinin hakimi olanda şəxsi məvacibi hesabına çətin keçilən dağ çaylarının üstündən körpülər saldırıb, məscidlər tikdirib. Müsəlman dindaşlarının maariflənməsinə xüsusi diqqət və qayğı göstərən general-mayor Yusif xan Tahir bəy oğlu məktəblər açdırıb, Dağıstanın azərbaycanlı əhalisi yaşayan ərazisində, böyük kəndlərdə kitabxanalar təşkil edib. Dünyanın bir neçə ölkəsindən kitablar alıb, qəzetlərə abunə yazılıb. Milli mətbuatımızın qaranquşu "Əkinçi"nin vaxtsız bağlanmasına çox pərişan olan general Yusif xan qəzetin bütün saylarını ən qiymətli xəzinə kimi şəxsi mülkündə saxlayırmış. 1862-ci ildə Həcc ziyarətinə gedib, qayıdandan sonra xanlığı idarə etməkdən istefaya çıxıb. Dərbəndə köçüb.

Görkəmli ədəbiyyatşünas-alim Firidun bəy Köçərli (1863-1920) general Əlhac Yusif xanın müsəlman xalqına əvəzsiz xidmətləri barədə öz əsərində qiymətli sətirlər yazmışdır:

"Bu zati-şərif qayətdə pəhrizkar və taatü qərabata mülazimü müttəqi və dindar bir şəxs olduğundan, özünə artıq hörmət və məhəbbət qazanmışdı. Ol cənabın (general Yusif xanın - Ş.N.) otaqları daima mədrəsə kimi təlim və təəllümiülumi funundan xali olmazdı və bundan əlavə ol mərhumun himmət və xərci ilə Kürə nahiyəsində çoxlu körpülər tikilib, yollar qayrılıb və məscidü mədrəsələr təmir olunubdur. Öz ehsanatı xeyratı ilə külli - Dağıstanda şöhrət kəsb edibdir". (F. Köçərli "Azərbaycan ədəbiyyatı" II cild, səh. 337-də Bakı, 1981-ci il).

Şair-alim Mirzə Həsən Əlqədari (1835-1910) altı il onun mülkündə yaşayıb, general Yusif xanın balalarının - Ömər bəyin təlim-tərbiyəsi ilə məşğul olub. Qafqazda xüsusilə də Külli Dağıstanda xeyirxahlığı və insani keyfiyyətləri ilə məşhur olan general Yusif xanın ölümündən xalq yasa

batmışdı. Yasa batan elin matəmini şair Mirzə Həsən Əlqədari 1878-ci ildə nəzmə çəkmişdir:

***Dəriğa,[1] ahü vaveyla ki, alicah Yusif xan.***
***Edib darül-bəqa əzmin, candan oldu rugərdən***
***Vücudi zinəti - Qafqaz idi, həm əhli - islamə***
***Pənahi - xas olmuşdu, olanda müztərib dövran.***
***Qalıbdır indi başsız əhli - islam bu diyar içrə,***
***Cəzadır kim, ona matəm tuta məcmüyü - Dağıstan.***
***Xudaya, mərqəndi - pakın münəvvər eylə lütvinlə.***

General-mayor Yusif xanın Kürə nahiyəsində üç min beş yüz desyatin topaq sahəsi vardı.

***

**GENERAL - MAYOR EHSAN XAN KƏNGƏRLİ** (1770, Naxçıvan - 1843 orada) - Naxçıvanın sonuncu xanı. Birinci Kəlbəli xan Kəngərlinin oğlu, İsmayıl xan Naxçıvanskinin, Kalbalı xan Naxçıvanskinin və şairə Qönçə Bəyimin atasıdır. 1826-28-ci illər Rusiya - İran müharibəsi zamanı Abbasabad qalası qarnizonunun hərbi rəislərindən biri, İran ordusunun sərhəngi (polkovnik) olan Ehsan xan Kəngərli rusların tərəfinə keçmiş və qalanın alınmasında onlara köməklik göstərmişdir. Tarixi mənbələrə görə Ehsan xan Kəngərli naxçıvanlılardan və ruslardan ibarət on minlik qoşuna başçılıq etmişdir. Azərbaycanın şimalı Rusiyaya birləşdirildikdən sonra general - mayor rütbəsi alan Ehsan xan Kəngərli İrəvan və Naxçıvan xanlıqlarının, Ordubad dairəsinin səlahiyyətli nümayəndəsi kimi Türkmənçay müqaviləsinin (1828) imzalamış, xanlıq ləğv edildikdən sonra Naxçıvan əyalətinin ilk naibi təyin olunmuşdur. Ehsan xan abadlıq, quruculuq işlərinə, dünyəvi təhsilə böyük diqqət yetirirdi. Çeşmənbasar kəndində çeşmələr qazdırmış, Ərəzin kəndinin yaxınlığındakı təpədən keçən tunel vasitəsilə Nehrəm kəndinə su gətirmiş, Naxçıvanda ilk Rus - Tatar (Azərbaycan) qəza məktəbi açmışdır. 1840-ci ildə süvari dəstəsinə başçılıq etmək şərti ilə naiblikdən imtina etmişdir. "Müqəddəs Georgi" ordeni ilə təltif edilmişdir. A. Bakıxanov və A. S. Qriboyedov İrana gedərək Ehsan

1.Dəriğa-Əfsus.

xan Kəngərlinin Xan dikindəki evində qonaq olmuşlar. A. S. Qriboyedov "İrəvan yürüşü" yol qeydlərində bu barədə bəhs etmişdir. General Ehsan xan Kəngərlinin adı Georgi salonunda qızılı hərflərlə yazılmışdır.

## İYİRMİNCİ İLDƏ QARABAĞ DÖYÜŞLƏRİ

***1920-ci il martın iyirmi ikisində, Novruz bayramı gecəsi Qarabağ vilayətinin dağ yerlərində məskun ermənilər qiyam edərək "Əskəran keçidi"ni tutdular. Bu səbəbdən də Əskəran cəbhəsinə mirliva Həbib bəy Səlimovun komandanlığı ilə qüvvətli bir ordu yeridildi. Aprelin üçündə Azərbaycan ordusu ermənilərə qarşı qüvvətli bir hücum etdi. Əcəba, hansı azərbaycanlı o məsud günü xatırlamır?! Ordunun qalibiyyət və intizamı, mənəviyyatı təsvirolunmaz dərəcədə fövqəladə idi. Xarici aləm az bir müddət ərzində vəsaitsizlik içində bu qədər müntəzəm təşkilatçılığa malik bir əsgəri qüvvə vücuda gətirdiyimizə heyran qalmışdı. Əhalidən bir çoxu duyduğu həyəcandan ağlayırdı.***

***O gün Azərbaycanın ən şanlı, ən bəxtiyar günü idi.***

***Polkovnik İsrafil bəy İsrafilbəyov***
***(25.01.1893 - iyul 1945), "Milli Azərbaycan hərəkatı" kitabından***

Hərbiyyə naziri Səməd bəy Mehmandarov Əskəran cəbhəsinə gəlmişdi. Ön cəbhədə ölüm-dirim savaşında vuruşan əsgərləri təbrik edir, onların qələbəsinə uşaq kimi sevinirdi. Ordu yaranan gündən üç böyük qələbəsi olmuşdu.

1919-cu ilin ilk günlərində Zəngəzur erməniləri İrəvan daşnaklarının köməyi ilə qəzanı Azərbaycandan ayırıb Ararat respublikasına birləşdirmək üçün azərbaycanlıları qovur və kəndləri yandırır- dılar. Üstəlik də elan eləmişdilər ki, Azərbaycan hökumətini tanımaq istəmirlər. Yanvar ayında general-mayor Cavad bəy Şıxlinskinin komandanlığı ilə əsgəri qüvvə yeridildi. Onun komandanlığı ilə piyada diviziyası bir aydan çox inadlı döyüşlər

aparıb ermənilərin möhkəmləndirilmiş son sığınacağı olan Dığ kəndini də ələ keçirdilər. Zəngəzur qəzası yenidən Azərbaycan ərazisində qaldı.

İkinci qələbə həmin ilin iyul ayında olmuşdu. Muğanda və Lənkəranda Azərbaycan Milli hakimiyyətini tanımaq istəməyən malakan və rus-erməni qüvvələri ordumuzun gücü ilə darmadağın edilmişdi.

Bu gün nazir Səməd bəy Mehmandarovun təbrikinə gəldiyi üçüncü qələbə idi. 1920-ci il martın iyirmi ikisində Novruz bayramı gecəsi ermənilər qiyam edib Əskəran keçidini zəbt etdilər. Qiyama İrəvandan gələn daşnak generalı Dro Kanyan başçılıq edirdi.

Azərbaycan Cümhuriyyətinin müdafiə nazirliyi Qarabağı düşməndən xilas etmək üçün fövqəladə tədbir hazırladı. Nazir Səməd bəy Mehmandarovun əmrilə Əskəran cəbhəsinə qüvvə ayrıldı. Martın iyirmi üçündə Azərbaycan ordusunun əsas hissəsi-iyirmi minə qədər əsgər və zabiti cəbhəyə göndərildi. O cümlədən üçüncü Gəncə, beşinci Bakı, birinci Cavanşir, ikinci Quba polkları general-mayor Həbib bəy Səlimovun komandanlığı ilə Yuxarı Qarabağa yola düşdü. Qızğın döyüşlər on iki gün ara vermədi. Azərbaycanın cəsur əsgər və zabitləri ana torpağın hər qarışı uğrunda mərdliklə vuruşaraq Şuşa qalasına daxil oldular.

Sonuncu iki qələbə Milli ordumuzun ən cəsur generallarından biri Həbib bəy Səlimovun mahir komandanlığı ilə qazanılmışdı. Əslində altmış dörd yaşlı hərbiyyə nazirini həyəcana gətirən və Qarabağa təbrikə aparan da general Həbib bəyin aprelin səkkizində göndərdiyi raport idi. Cəmisi bir səhifəlik raportu dönə-dönə oxuyan nazir bir neçə yerdə işarələr qoydu, ürəyində "afərin" sözünü təkrar etdi. Səməd bəy istər general, istərsə də nazir olanda özünü həmişə sıravi əsgər, döyüşçü sanırdı. Neçə-neçə müharibənin iştirakçısı kimi o yaxşı bilirdi ki, komandanın əsgərlərini döyüş meydanında təbrik etməsi nə deməkdir. Ona görə də müavini Əli ağa Şıxlinskiyə:

— Əmr hazırlayın, əvəzində nazir vəzifəsində sən qalırsan, - dedi, - mən sabah tezdən Qarabağa döyüşçüləri təbrik etməyə gedirəm. Ancaq Əli ağa, bu rabortda Həbib bəyin "günümüzün qəhrəmanı" - deyə təriflədiyi Nəbibəyovu, nədənsə, xatırlaya bilmirəm.

Azacıq eyhamla gülümsünən Əli ağa Şıxlinski:

— Yadınızdadırmı, — dedi, — keçən ilin iyun ayında Siz bir neçə gün Yevlaxda olanda yenə nazir əvəzi məni təyin etmişdiniz. Onda birinci Cavanşir piyada alayının kapitanı Vahid bəy Nəbibəyov raport yazıb hərbi xidmətdən azad olunmasını xahiş etmişdi. O, raportunda belə bir cümlə

işlətmişdi: "səhhətim və şərait mənə respublika hökumətinə xidmət etməyə imkan vermir". Mən də məhz bu cümlədən qəzəblənib Azərbaycan zabitinin ləyaqətini, şərəf və şanını yüksək tutmadığına görə yanıma çağırıb onu danladım, xidmətdən azad etməklə həbs edilməsi barədə əmr verdim. Bir neçə gündən sonra Siz qayıdıb onun qanının arasına girdiniz.

Səməd bəy Mehmandarov pensinesini silə-silə gülümsündü.

— Hə, yadıma düşdü. Əzizim, indi bildim: ağır təbiətli, ucaboy…

— Bəli, sizin nəzərinizdə ağır təbiətli, mənim fikrimcə, tənbəl və bir az da yaşı ötmüş zabit-kapitan Vahid bəy Nəbibəyovdur. Həbib bəyin "günümüzün qəhrəmanı" dediyi isə onun kiçik qardaşı podpolkovnik Bəhram bəy Nəbibəyovdur. Bəhram bəy Birinci dünya müharibəsində də yaxşı döyüş yolu keçib. Buyurun. Xidmət dəftərçəsini istəmisiniz, gətirmişəm. Tanış ola bilərsiniz.

— Verin. Baxım. Nazir podpolkovnik Bəhram bəy Nəbibəyovun çox da böyük olmayan, cəmi səkkiz səhifəlik şəxsi xidmət dəftərçəsini ilk səhifəsini açıb dayandı.

— Əli ağa, - dedi, unutmuşam. onu da deyim ki, kapitan Vahid bəy mənim yanıma gəldi, belə raport yazmaqda səhv etdiyini boynuna aldı. Hiss elədim ki, uzun müddət milis dəstəsində xidmət etdiyinə görə hərbi nizamnaməni o qədər də dərindən bilmir. Bildirdi ki, işlətdiyi cümlədə heç bir qərəzli məqsədi olmayıb. Ona inandım. Mən də şəxsən sənin. — General Şıxlinskinin nüfuzunun qorunmasına ehtiramla yanaşmaq şərtilə kapitan Nəbibəyovun raportunun üstünə "mən ona verdiyim cəzanı bağışlayıram" - cümləsinin dərkənar qoydum. Məsuliyyəti öz üzərimə götürüb onu orduya yenidən qaytardım. Deyirsən podpolkovnik Bəhram bəy onun kiçik qardaşıdır, lap yaxşı.

— Səməd bəy, bu onun kimi astagəl zabitlərdən deyil. Bəhram bəy od parçasıdır. Vahid bəy, Bəhram bəy, Zahid bəy, Hüseyin bəy.. yox, beş nəfərdir, bir də Məmməd bəy.

Nazir:

— Əli ağa, nə yaxşı da yadında qalıb, əhsən sənə və yaddaşına, dostum.

—Bilirsən, 1918-ci ilin noyabr - dekabr aylarında Tiflisdə Müsəlman korpusunu təşkil edəndə Nəbibəyov qardaşlarını orduya mən qəbul eləmişdim. Onda qərargahım Veriyski korpusunun yanındakı "London" mehmanxanasının birinci mərtəbəsində yerləşirdi. Düzü, ona görə yadımda qalıb ki, bunların çox maraqlı, dünya görüşlü ataları var. Oğlanları ilə Qasım bəy özü də

gəlmişdi. Türkmənistanda general Kurpatinin qərargahında Şərq dilləri üzrə tərcüməçi olub. İndi istefadadır. Mirzə Fətəli Axundovla dostluğundan danışırdı.

—Demək, Bəhram bəy 1884-cü il dekabrın altısında Şəkidə bəy ailəsində anadan olub. Sonra Kutaisi realnı məktəbini və 1904-cü ildə, sentyabrın ikisində Peterburqdakı Konstantin Artilleriya məktəbini birinci dərəcəli diplomla bitirib. - Nazir dayanıb pensnesinin üstündən müavininə baxdı, fəxrlə: - Oho, nə yaxşı.. bizim məktəbi bitirib ki, bir yuvadan pərvazlanmışıq… Görürsən, Əli ağa, Konstantin məktəbinin artilleristlərini?..

- Səməd bəy, əsgər komandirinə, zabit generalına oxşamalıdır. Zərbməsələ dönmüş bu müdrik kəlamlar sizə məxsusdur. Amma xalqımızda belə bir məsəl də var: alma kökündən gen düşməz. Mən inanıram ki, podpolkovnik Bəhram bəy sizin layiqli davamçınızdır.

— Demək istəyirsən ki, Bəhram bəy xidmətdə mənə oxşamayıb?-

deyən nazirin sevincdən gözləri parıldadı.

— Əli ağa Şıxlinski ciddi general zəhmilə:

— Mən hələ 1918-ci ilin iyun-iyul aylarında onun hövsan və Nobel çənləri ətrafındakı bolşevik-daşnaklara qarşı apardığı döyüşlərin şahidi olmuşam. Bəhram bəy çox qoçaq və bilikli zabitdir. Onunla fəxr etməyə dəyər. Dəli Qazar kimi generalı mühasirəyə salıb məhv etməsinə şəxsən mən şəkk-şübhə etmirəm. Belə qoçaq, hərbi işə böyük məhəbbəti olan zabitin yeri akademiyadır.

- Mən də bu fikirdəyəm. Ancaq hanı hərbi akademiya? Rusiyaya yollar bağlı, özümüzdə isə yox, ölkəmiz də müharibə vəziyyətində - deyən nazir yenidən Bəhram bəyin sənədlərinə göz gəzdirdikcə baxışları canlanır, üzündə sevinc görünürdü:

- Qafqaz Əlahiddə ordusundakı iyirminci Artilleriya briqadasında podporuçik, 1909-cu il, sentyabrın yeddisində poruçik, 1912-ci ildə üçüncü batareyanın komandiri, sonra Əlahiddə Qafqaz ordusunda artilleriya rəisinin müavini vəzifəsində çalışıb. Müharibəni axıra qədər Qafqaz cəbhəsində keçirib.

- Təltiflərini axtarırsınız? O biri səhifənin arxasındadır - deyə Əli ağa Şıxlinski şəhadət barmağını irəli uzadıb göstərdi.

- Aha. Budur. - deyə Mehmandarovun iti nəzərləri kağızın üzərində gəzindi. - "Müqəddəs Stanislav" ordeninin üçüncü dərəcəsi və "Müqəddəs Anna" ordeni. Amma sonuncunun dərəcəsi göstərilməyib. Eybi yoxdur, hər şey

aydındır. Siz doğru buyrursunuz, Əli ağa. Belə peşəkar zabitlərimiz çoxdur. Onlar akademik hərbi təhsil ala bilsəydilər, ordumuzun gücü birəbeş artardı. Nə fayda, hələlik buna imkan yoxdur.

## POLKOVNİK BƏHRAM BƏYİN İGİDLİYİ

Raportun son cümlələri nazir Mehmandarovda xüsusi maraq oyatmışdı. General Həbib bəy Səlimov yazırdı ki, Zati-Aliniz tərəfindən yaradılan şanlı qoşunlarımız köhnə, döyüşlərdə bərkimiş hissələrə məxsus şücaətlə vuruşurdular.

Döyüşün qəhrəmanları bunlar idi: şığıyaraq Daşkənd yüksəkliyini ələ keçirən qubalılar və bir neçə erməni basqınına baxmayaraq, bir an da sarsılmayan və üzərinə düşən hər mərmiyə görə dərhal cavab atəşi açan podpolkovnik Bəhram bəy Nəbibəyovun dördüncü dağ batareyası.

Yol boyu qələbənin havası ilə öz-özünə danışan, ilk baxışdan qaraqabaq nazirin ürəyi işıqlı arzularla dolu idi. Oğlu qədər sevdiyi,

istedadlı komandir həbib bəy səlimovun uğurları ona, elə bil, qanad taxmışdı. Üstəlik də Həbib bəy kimi qoçaq generalın Nəbibəyovun haqqında göndərdiyi raport ona sonsuz sevinc bəxş eləmişdi.

İnişil (1918-ci il, dekabrın 5-də) yenicə təşkil olunan Azərbaycan ordusunun hissələrinə baxış keçirən hərbiyyə naziri Səməd

bəy Mehmandarov Tərtərdə yerləşən Dağ batareyasının əsgər və zabitlərindən tam razı qalmışdı. Nazir səkkiz saylı əmrində qeyd edirdi ki, yoxlanış zamanı batareya komandiri Bəhram bəy Nəbibəyovun əsgərləri məndə xoş təəssürat yaratdı. Hiss olunur ki, batareya komandiri zabitlərlə birlikdə qüsurları aradan qaldırmağı bacarır. Komandir Nəbibəyovun qısa müddətdə etdikləri mənə qəti inam verir ki, ən yaxın vaxtda bu batareyanı daha yüksək səviyyədə görəcəyəm. Onun azsaylı zabitlərinə və komandir Nəbibəyova yorulmaz zəhmətlərinə görə təşəkür edirəm.

"Demək, Həbib bəyin raportundan belə məlum olur ki, daşnak dəli Qazarın dəstəsini bizim Dəli Bəhram bəy Nəbibəyovun batareyası mühasirəyə salıb məhv edib. - yaxşıdır, çox yaxşıdır, -deyə, öz-özünə danışan nazir podpolkovniklə generalın döyüş dostluğundan qürrələnirdi. - qələbə, ancaq və ancaq, döyüş vaxtı əmr verənlə icraçının başa düşməsi sayəsində qazanılır. Nə yaxşı, Nəbibəyov haqqında inişilki raportu yazanda zənnim məni aldat-

mayıb… Elə biri Baş qərargah rəisi. onda, dolayısı da olsa, mənə işarə verdi ki, Bəhram bəy yaxşı komandirdir. Amma çox çılğındır, bəzi məsələlərdə özünü cilovlaya bilmir..

- Komandir cəld və çılğın olmasa, əvvəla, əsgərlər onu saymaz. İkincisi də, döyüş vaxtı özü zorla yeriyən komandirin əsgərləri yerindən qalxana kimi düşmən onları haqlayıb məhv, -cavabını vermişdi nazir Mehmandarov.

Mehmandarov Milli Orduda hərbiyyə Naziri vəzifəsində xidmətdə olandan ilk dəfə idi ki, təzə mundirini geyinmişdi. Təmtaraqlı geyimin o qədər də aludəçisi olmayan nazir bu dəfə akselbant və venzilli1 də taxmışdı. Yaxasında isə bircə orden vardı: birinci cahan savaşında hər sərkərdənin ala bilmədiyi "Ağ qartal" ordeni.. O, 1915-ci ildə alman generalı makenzenin sürətli döyüş əməliyyatı planlarını puça çıxartdığına görə bu ali ordenlə təltif olunmuşdu.

## QƏHRƏMAN ALAY

Avtomobilin şeypuru təhlükə görmüş qaz kimi həyəcanlı gəlirdi. Qışlanın qabağında toplaşmış zabit və əsgərlər naziri tanıyıb "urra" - deyə qışqırdılar.

Bəhram bəy irəli yeridi. Sərt səslə "sıraya düzülün" komandası verdi. Zabitlər qabaqda, əsgərlər də onlardan sonra nizami qıvraqlıqla sıraya düzüldülər. Bəhram bəy sıra qabağında vüqarla dayanıb ahəngdar səslə komanda verdi:

- Alay, sağa-dön! Düzlən, - düzlən deyirəm, arxada səs var…

Alay bir nəfər vücud kimi sağa dönüb farağat dayandı.

Maşından üç nəfər düşdü. Qarabağın general-qubernatoru Xosrov bəy Sultanov, Qarabağ ərazi qoşunlarının komandanı general - mayor Həbib bəy Səlimov və hərbiyyə naziri, tam artilleriya generalı Səməd bəy Mehmandarov. Nazirin iti qartal baxışları nizami qaydada düzülən əsgərlərə zillənmişdi.

- Cənab hərbiyyə naziri, tam artilleriya generalı, sizin gəlişiniz münasibətilə döyüşən ordunun üçüncü artilleriya batareyasının zabit və əsgər heyəti sıraya düzülmüşdür. Batareya komandiri, podpolkovnik Bəhram bəy Nəbibəyov.

---

1. Akselbant, venzil - imperiya ordusunda zabitlərin çiyinlərinə və döşlərinə taxdıqları zərli, hörmə qaytan. — Ş.N.

Nazir Səməd bəy Mehmandarov gur və məğrur səslə:

- Azad, mənim vətənimin qəhrəman əsgərləri, — deyib bir neçə addım irəli yeridi, Bəhram bəyin əlini sıxdı: -Mərhaba, alayına da, özünə də. Sizin döyüşdə göstərdiyiniz qeyri-adi qəhrəmanlıqlar artıq Azərbaycanın hər yerində iftixarla söylənilir. Komandanınız general Həbib bəy Səlimov da burdadır. Əmr edirəm! Üçüncü artilleriya batareyasının hər bir əsgər və zabit heyəti döyüşdə göstərdiyi igidliyə görə təltif olunsun. Komandiriniz Bəhram bəyi isə təbrik edə bilərsiniz. O, daha podpolkovnik yox, polkovnikdir…

Batareya üç dəfə: "urra, urra, urra," deyə komandirini alqışladı.

Nazir birdən sərt hərəkətlə yerində dikəlib, pəncələri üstə qalxdı.

- Mərhəba, yenə mərhəba, mənim Vətənimin xilaskarları!

Batareyanın əsgər və zabitlərindən dalğa-dalğa çıxan səs Qarabağ dağlarında əks-səda verdi. Onlar bir nəfər kimi avazla: "Azərbaycan xalqına xidmət edirik!" - cavabını verdilər. Hərbiyyə naziri sıra qarşısında var-gəl edib, tən ortada dayandı.

- Biz bu gün səhər Şuşada bir yığıncaq keçirdik. Mən orada da qoşunlarımızı təbrik etdim. Əvvəlcədən əmr vermişdim ki, sizin batareyanı oraya gətirməsinlər. Sonra Bakıdan çıxanda öz-özlüyümdə belə qərara gəldim ki, sizi öz yerinizdə, döyüş bölgənizdə təbrik edim. Siz buna layiqsiniz, bu hörmət və ehtiramı qəhrəman- lığınızla qazanmısınız. Bəli, Dəli Qazar kimi generalı məhv edib, süvarisini də pərən-pərən salan üçüncü artilleriya batareyası Azərbaycan bayrağını ilk dəfə Qarabağda dalğalandırdı. Martın iyirmi ikisindən iyirmi üçünə keçən gecə saat üç radələrində düşmən ilk dəfə güclü qüvvə ilə burdan, Əsgərandan baş qaldırıb. Bizim əlli nəfər əsgərimizin bir neçəsini məhv edib və əsir alıb. Siz də ilk dəfə düşmənin burnunu Əsgəranda ovub, öz silahdaşdarımızın qanını yerdə qoymadınız.

Qəhrəman əsgərlər, mən şəxsən Almaniya cəbhəsində bir çox döyüşlərdə oldum. Fəqət sizin qədər qəhrəman əsgərlərə nadir hallarda təsadüf etmişəm. Siz mənim ümidlərimi qüvvətləndirdiniz. Siz canınızla gənc Azərbaycan ordusunun namusunu layiqincə müdafiə etdiniz. Eşq olsun sizə və sizə döşlərindən süd verən analara!

Əsgərlər sevimli komandalarını "yaşasın Azərbaycan!" sözlərilə alqışladılar.

Ürəyini boşaldan nazir xeyli sakitləşdi. O, özünü rahat və gümrah hiss edirdi. Sıradakı əsgər və zabitlərə yaxınlaşır, həmsöhbət olur və hal-əhval

tuturdu. Mehmandarov cavan, sirsifətdən göyçək zabiti göstərib nəsə soruşdu. General Həbib bəyin işarəsilə həmin zabit addımlarla qabağa çıxıb dedi:

- Möhtərəm Səməd paşa, mən Qafqaz İslam ordusundan könüllü olaraq sizdə yardımçı qaldım. Çünki dilimiz bir, inancımız bir, tariximiz də birdir. Azərbaycan həm sizin, həm də bizim vətəndir.

- İsminiz nədir? - nazir maraqla soruşdu.

- Əfv edin, günahkar bəndəyəm. Unutdum, daha doğrusu, şaşırdım. İsmim: yarbay İsmayıl Həqqi əfəndidir.

General Həbib bəy Səlimov nazirə bir az yaxınlaşıb əlavə etdi:

- Cənab nazir, yarbay əfəndi yaxşı şərqilər qoşur. Döyüşlərarası fasilədə əsgərlər üçün tarixdən, ədəbiyyatdan, fəlsəfədən maraqlı söhbətlər eləyir. Hər gün də yarım saat özü yazdığı marşları əzbərlədir.

Nazir səmimiyyətlə:

- Afərin, - dedi. - Bu da gərəkdir. Çox gərəkdir. Yüz illik rus hakimiyyətindən azad olunmuş türk xalqlarına xatırlatmaq lazımdır ki, biz həmişə boyunduruq altında olmamışıq. Hətta Avropa və Asiyaya öz tələblərimizi diktə etmişik... xalq özünün ümumdünya tarixinin səhifələrində yazılmış şanlı, mübariz keçmişini bilməlidir. Əgər düşmənə qalib gəlmək istəyirsənsə, xalqda sağlam Milli hissləri oyatmalısan.. Cənab yarbay, evlisinizmi?

- Xeyr, hələ subayam.

— Nə oldu, briqada komandanı Həbib bəy subay. Diviziya komandiri Cavad bəy subay, batareya komandiri Bəhram bəy subay, siz də subay… Canım, atın bu subaylığın daşını..

İsmayıl Həqqi əfəndi:

-Möhtərəm paşam. - dedi - məstəvsiz gavurların axırına çıxaq sonrasına...

Nazir general Həbib bəydən soruşdu:

— Yarbay İsmayıl Həqqi əfəndi harada yaşayır. Bakıda?

— Xeyr, cənab nazir, Şəkini özünə vətən kimi qəbul edib. Bu da, bilirsiniz, kimə gərəkdir? O, Bəhram bəyin çox yaxın dostudur.

— Çox əla, çox pakizə, — deyib nazir dübarə sorğu-suala başladı:

— Yarbay İsmayıl Həqqi əfəndi, cəlallı İstanbul üçün darıxmırsınız ki?

— Xeyr, mən öz Vətənim Azərbaycandayam. Mən Qeysər şəhərində dünyaya gəldim. İstanbulda az, lap az yaşamışam. Qafqazda çox yerlərdə oldum. Dərbənddə, Teymurxan-Şurada, Axtıda, hətta, İmam Şamilin köyünə də getdim. Amma oralarda bənd almadım. Çünki oralarda İslama, müqəddəs dinimizə, hörmət görmədim, orda şişpapaq bolşeviklər yabancı

təbliğatlar aparırlar. Ötən il dostum Bəhram bəy məni Şəkiyə qonaq apardı. Şəkini Vətən kimi, Bəhram bəyi qardaş qədər sevdim, yenə sevəcəm. Oradan ev də aldım.

Nazir soruşdu:

— Şarkılarından birini oxuyarmısan?

— Baş üstə, icazə verin... Mən oxuyan kimi bütün batareya mənə qoşulacaq.

***Biz əsgəriz -azəriyiz***
***Aləmdə urfanlıyız.***
***Uca Qafqaz vətənimiz,***
***Qan axıdar Məcfərimiz,***
***Pək şanlıyız!***

***Ata-ana əkbərimiz,***
***Allah, allah rəhbərimiz.***
***Yaşa, yaşa sərdarımız,***
***Qan axıdar xəncərimiz***
***Pak şanlıyız!***

***Düşmənləri qəhr ediriz,***
***Ordusunu məhv ediriz.***
***Aslan gibi cəng edəriz.***
***Biz bir tabur aslanlarız.***
***Mərdanlarız!***

## DÜŞMƏN TƏSLİM OLMAYANDA

Mehmandarovun gəlişinə yığışanlar çəkilib getdilər. Otaqda nazirdən başqa üç nəfər qalmışdı: qubernator Xosrov bəy Sultanov, general Həbib bəy Səlimov və polkovnik Bəhram bəy Nəbibəyov. Nazir qonaq üçün ayrılmış otağın bürkülü havasından darıxdı. Üzürxahlıq edib yan otağa keçdi. Bir azadan ev qiyafəsinə qayıdıb:

— Qafqazda, hər yer gözəldir! — dedi — Amma mənim Vətənim, dədəbaba torpağım Qarabağın füsunkar təbiətinin tayı-bərabəri yoxdur. Əlli ilə yaxın ondan cismən ayrılsam da ruhən həmişə Qarabağlı olmuşam. Uzaq Şərqdə, Port-Arturda və Varşavada da olanda həmişə onu xatırlayıb, istəmi-

şəm. Dünyada heç nəyi- nə var-dövləti, nə cənnəti, nə də onun mələklərini istəməmişəm. Ən böyük arzum istefaya çıxıb ömrümün axırına kimi şuşada yaşamaq olub. Atam rəhmətlik bu şəhəri övladı qədər sevərdi. - Üzünü qubernator Xosrov bəyə tutub:

— Sənə qibtə eləyirəm, — dedi,— qardaşım. Bilirəm ki, bu namərd daşnakların öhdəsindən Qarabağ general-qubernatoru kimi bircə sən gələ bilirsən. Çünki sən, üzünə deməк olmasın, hünər, əməl, iş adamısan. Nə isə, bu təhlükədən də sovuşaq…

Mehmandarov bu tərifləri Xosrov bəy haqqında nahaq yerə demirdi. Ötən ilin yayında Qarabağda hay-küy qaldıran daşnakları yenə Xosrov bəy dizə çökdürmüş və onları silah gücünə Azərbaycan hökümətini tanımağa məcbur etmişdir. Hətta Şuşadakı gizli daşnak komitəsinin üzvlərini qovub ərazidən çıxartmışdı. Əllərindən bir iş gəlməyən daşnaklar bolşevik əhval-ruhiyyəli müsəlmanların köməyilə səs yaymışdılar ki, hərbiyə naziri Xosrov bəyi geri çağıracaq. Bu şayələri kəsmək üçün üzeyir bəy hacıbəyov "Azərbaycan" qəzetində (24 iyun 1919 ildə) yazırdı:

"Həqiqətən, Xosrov bəy Qarabağ üçün ən münasib bir rəisidir. Qarabağ həyatına tamamilə aşna olan bu zat sağlam bir vücuda malik olan kimi sağlam və salamat politika yeridən və təht idarəsinə tapşırılmış olan ümum mənafeyini xüsusi surətdə nəzərdə tutan bir zatdır. Ermənilər Qarabağda qəsdən süni iğtişaşlar çıxarmaqla Qarabağ general-qubernatorunu baş komandanlıq gözündə ləkələmək istəyirlər. Əgər Qarabağ müsəlmanları arasında böyük və layiqli bir nüfuza malik olan və erməni camaəti tərəfindən dəxi möhtərəm sayılan Xosrov bəy Qarabağın hököməti başında olmasa idi burası Azərbaycanın cənnəti hesab olunan bu yer çoxdan bəri cəhənnəmə dönüb qətli-qital ocağı olmuşdu".

Dəmir çarpayıda mütəkkəyə dirsəklənən nazir astadan yorğun-yorğun danışırdı. Onun səsindəki yaşlı adamlara məxsus kövrəklik həmsöhbətlərinin diqqətindən yayınmamışdı.

— Altmış dörd yaşım var, — deyirdi, general, xoşbəxtəm ki, ömrümün sonunda bir əsgər kimi vətənimə gərək oldum. - Sonra birdən nəyisə xatırlamış kimi oldu. — Balam, elə təkcə mən danışıram.. Bəs siz? Mən Bakıdan sizi eşitməyə gəlmişəm. Bayaq Əskərandan qayıdanda Həbib bəydən soruşdum ki, dəli Qazar əməliyyatı necə olub, təfsilatı ilə bir danış görüm. O da cavab verdi ki, həmin əməliyyatı polkovnik Bəhram bəy aparıb, o da Sizə danışacaq. Hə, Bəhram bəy, eşidirik səni.

Ayaq üstə dayanan Bəhram bəy gözləmədiyi sualdan qıpqırmızı oldu.

Nazir:

— Danış, — dedi, — burda çəkinməyin yeri deyil. Bu qələbənin, əgər belə demək mümkünsə, qəhrəmanı sənin batareyandır.

General Həbib bəy dostunun sıxıldığını görüb onun köməyinə gəldi.

— Daşbaşı yüksəkliyi uğurunda döyüşlərdə artilleriyanı susduran Bəhram bəy əvvəlcə məni hövsələdən çıxartmışdı. Yavərim tez-tez xatırladırdı ki, Bəhram bəy deyir, tələsməsin. Dəli Qazarsa elə hey irəliləyirdi. Onu da deyim ki, Bəhram bəy batareyasını çox böyük məharətlə meşənin ətəyində gizlətmişdi. Sanki düşmən qarşısında heç nə yox idi. Dəli Qazarın süvari dəstəsi də inamla irəliləyirdi. Bəhram bəy susur, düşmən irəliləyir, dözmək olmur, az qala ürəyin partlayırdı. Nəhayət, dözməyib bunların mövqeyinə gəldim. Mənə işarə verdi ki, narahat olmayın. Kəşfiyyat xəbər gətirib ki, ermənilərin toplarının əksəriyyəti sıradan çıxıb, atmır. Biclik eləyib yararsız topları da özlərilə gətirirlər. Necə deyərlər, bizə "xox" gəlirlər. Təxminən səkkiz-on dəqiqə keçdi. Bax, indi vaxtdır, — deyib, bəhram bəy səs ilə komanda verdi: "İrəli, mənim tərlanlarım. İrəli, anamız Azərbaycan uğurunda!"

Döyüşə bir qasırğa kimi başlayan batareya güllə yağışı altında düşmən üstünə şığıdı. Heç yarım saat çəkmədi erməni süvarisi yavaş-yavaş geri çəkilməyə məcbur oldu. Quba batalyonunun bir rotası və Zaqatala alayının xeyli hissəsi düşmənə yandan və arxadan göz açmağa imkan vermədi. Dəli Qazarın süvarilərindən otuz-otuz beş adam ancaq qaçıb canını qurtara bildi. Ortada beş-altı nəfərlə sağ qalmış dəli Qazar yaralı heyvan kimi bağırırdı. Bəhram bəyin səsini eşidib daha da qəzəbləndi.

Nazir maraqlandı:

— Necə danışırdılar. Yəqin ki, rusca?..

— Yox, əksər sözləri Bəhram bəy o itin öz dilində deyirdi. Düzü, çoxunu başa düşə bilmirdim. Bir onu gördüm ki, insanın tələyə düşməsi necə də böyük fəlakət imiş. Eşitmişdim ki, suda boğulan saman çöpünə əl atar. Bax, elə bir vəziyyətdə idi, erməni generalı.

Nazir cəld bir hərəkətlə başını qaldırıb:

— Axı, nə deyirdin, Bəhram bəy, sən ona?...

— Kutaisi realnı məktəbində oxuyanda onların dilini öyrənmişdim. Əvvəla, mən ona təklif elədim ki, təslim olsun, uşaqlara da tapşırdım ki, hələ atmayın. Onu diri tutmaq istəyirəm. Gördüm, ipə-sapa yatmır. Yalandan

dedim ki, zavallı, sənin əsgərlərinlə əvvəlcədən danışmışam. Səni satın almışam. Səni özününkülər satıb. Təslim olmalısan…

General Həbib bəy Səlimov:

— Cənab nazir, eynilə bir teatr səhnəsi…

Nazir:

— Dayan, dayan, dedi, Həbib bəy, qoy, özü danışsın.

Bəhram bəy davam elədi:

— Dedim, təslim olmursansa, onda belə çıxır ki, müsəlman əsgərinin gülləsilə ölməyə özün özünü məhkum eləmisən.

— Gözəl demisən, əhsən sənə. Bax, görürsünüzmü, peşəkar hərbiçi olmaq budur. Bu əclafın döyüş ruhu varmış. Qəsbkarlıq iştahı da varmış, amma döyüş qabiliyyəti yoxmuş. Yalançı general olduğunu dar macalda büruzə verib. Heç bir xidməti olmadan aldığı general rütbəsi onu iştahlandırıb ölümə gətirib. Belə adamdan yalnız döyüşçü kimi istifadə etmək olardı. Hə, maraqlıdır, sonra nə oldu?

Bəhram bəy:

— Dəli Qazar yalvarırdı ki, icazə verin çıxıb gedim. Dilcana, bir də Qarabağda görünsəm, atama nələt. Uşaq aldadır.. Gəldim Həbib bəyin yanına. Soruşdum ki, nə etməliyəm, əsgərlərim də qanına susayıblar, öldürmək istəyirlər. O da yek kəlmə ilə cavab verdi: Susdurun!

Biz də tapşırığa əməl elədik.

Səməd bəy Mehmandarov:

— Düz eləmisiniz, — dedi, — düşmən təslim olmadıqda onu məhv edərlər.

## GENERAL SƏMƏD BƏY NARAHATDIR…

Qapı astadan döyüldü, Səməd bəy "buyurun" - deyənə kimi qapıya yaxın olan polkovnik Bəhram bəy irəli yeridi. Qapıda mehriban üzlü, qıvraq geyimli bir gənc zabit "çay hazırdır, icazə verin gətirim", deyib əli padnoslu içəri keçdi. Divara söykə- dilmiş çox da böyük olmayan stolu nazirin çarpayısına yaxınlaşdırdı. Səməd bəy mütəkkəni kənara qoyub, çarpayıda oturdu. Çay gətirən gənc zabit dərhal dabansız ev ayaqqabılarını cütləyib onun ayaqlarının yanına qoydu. Səməd bəy mehribanlıqla zirək zabitə baxıb üzərində "afərin" — dedi. Üzü pörtmüş gənc zabit stəkanlara çay süzüb, stolun qırağındakı çaynikin üstündə qalın dəsmal sərdi. Ayaqlarını cütləyib, yaraşıqlı

vücudunu şax tutdu. "İcazə verin mürəxxəs olum". Nazir hələ də xoş təbəssümlə onun, hərəkətlərini izləyirdi.

General Həbib bəy:

— Azadsan, — dedi, — amma uzaq getmə…

Gənc zabit çıxan kimi Səməd bəy onun davranışını, səliqəli geyimini və əsl zabit yaraşığını təriflədi.

- Bəzi rus şovinistləri təkidlə deyirlər ki, siz müsəlmanlardan hərbiçi olmaz. Buyursun, baxsın. belə yaraşıqlı zabiti rus ordusunda çıraqla da axtarsan, tapmazsan. İlyarımlıq fəaliyyəti dövründə ordumuzda qabiliyyətli zabit yetişibsə, rus ordusu kimi üç yüz il yaşı olsaydı, gör, nələrə qadir olardıq. - O, dərindən köks ötürdü. Qoyurlar ki, yağlı tikə olan Azərbaycana hərə bir caynaq atır. Denikin rədd olub getdi. İndi də bu bic bolşeviklər cənuba qoşun yeritmək həsrətilə min bir oyundan çıxırlar. Dağıstanda, şimali qafqazda kazaklarla dağlıların arasına təfriqə salıb toqquşdurdular. Bu, bilirsiniz, "ayır-buyur" siyasətinin ən bariz nümunəsidir.

— Səməd bəy, Sizcə, Denikin yenidən Qafqazda peyda ola bilərmi? — qubernator Xosrov bəy Sultanov çəp gözlərlə1 Səməd bəyə baxıb soruşdu.

1. 1917-ci ildə Bakıda məşhur bir ağanın qoçusu ilə mübahisədən sonra bir-birinə güllə atıblar. Qoçu xosrov bəy sultanova sol gözündən xətər yetirib. Bundan sonra gözü çəp qalıb. Ş.N.

— Yox, heç vaxt! Bolşeviklər artıq onun mahnısını oxudular. Denikinin işi bitdi. - Üzündə təbəssüm yox olan nazir Səməd bəy sonra nifrət hissilə əlavə elədi: bolşeviklər elə toxumdur ki, onlar hara yerisələr yüz il orda ot bitməz. Bu saat Volqa boyunda və Sibirdə vətəndaş müharibəsi aparan Kolçak cənablarını da belə bir tale gözləyir.

— Əsir aldığımız ermənilər deyirlər ki, sizə qarşı ağ qvardiyaçı Denikinlə birləşmək istədik, baş tutmadı — deyən, polkovnik Bəhram bəy Nəbibəyov söhbətə qoşuldu. — Gec-tez bolşeviklərlə əlbir olub Azərbaycan adlı müstəqil respublikaya divan tutacağıq. Keşikənd uğrunda qanlı döyüşlər gedəndə ermənilərin çoxusu sərxoş idi. Podpolkovnik Rəfibəyovun və polkovnik Levestamın Əsir götürdüyü ermənilər də bu barədə çox sayaqladılar.

Səməd bəy Mehmandarov:

— Bolşeviklər Bakıda yaşayıb işləyən rus fəhlələri və müsəlman bolşevikləri arasında güclü təbliğat aparıb Azərbaycan milli hökumətinə və bu hökuməti istəyənlərdə nifrət hissi yaratmağa çalışırlar bu gün də içimizdən təmiz-

ləyə bilmədiyimiz agent və şpionların sayəsində. Bir həftə əvvəl Gəncədə agent Smıslovun təxribatçı qrupunu həbs etdik. Bu dəstədə kimlər vardı? Bakıda Baş Qərargahda çalışan, adını çəkmək istəmirəm - bir nəfərin zövcəsi Nelli Çernışova, Stanislav Zuber və başqaları - hamısı bizim əleyhimizə işləyib. Görünür, bizim əkskəşfiyyat və daxili orqanlar zəif fəaliyyət göstərir, mürgüləyirlər…

Mənim aldığım məlumata görə bolşeviklər Ermənistanda başqa cür təbliğat aparır. Onlar ermənilərə canıyananlıqla bildiriblər ki, Siz nə Azərbaycansınız, nə də Gürcüstan. Siz İran, Türkiyə və Azərbaycan kimi müsəlmən ölkələri arasında boğulursunuz. Biz Sizə Türkiyə və Azərbaycandan torpaq qopartmaqla ərazinizi böyüdüb tam dövlət müstəqilliyinizə zəmanət veririk. Görürsünüzmü, bolşeviklər özlərinin ikiüzlü, xəbis siyasətlərilə Şimali Qafqazı və Dağıstan dağlılarını fəth edib, indi də murdar əllərini bizə - cənuba tərəf uzadırlar.

General Həbib bəy Səlimov ikrah hissi ilə:

— Rusların bu iki üzlü siyasəti bizi təngə gətirib — dedi. — Siz ötən həftə Gəncədə olanda müavininiz general Şıxlinskiyə erməniləri Qarabağdan qovub çıxartmaqla arxayınlaşmamaq barəsində bir məlumat göndərmişdi. Yəqin ki, Sizə çatdırıb. Şuşa və Xankəndi Cavanşir alayının, Quba alayının, bir də Tatar süvari alayının sayını artırmaq şərtilə, qvardiyanın da sayını çoxaltmalıyıq. Çünki, əsir alınan ermənilər desə də, deməsə də daşnaklar Qarabağ iştahı ilə yaşayırlar. Mənim zənnimcə, onlar mütləq bolşeviklərlə birləşib məhz Qarabağa hücum edəcəklər.

Yorğun və əsəbi Səməd bəy Mehmandarov:

— Məncə, — dedi, — hələlik Şəki və Ərəş alaylarını da burda saxlamalıyıq. Polkovnik Seyfulla Qacarın alayını isə Qazağa göndərin. Ordan da həyəcanlı xəbərlər gəlir. Əmir xan Xoyskinin məlumatına görə sərhəd kəndi Kəmərliyə və Tatlıya ermənilər hücuma hazırlaşırlar.

Dostları gedəndən sonra Səməd bəy yata bilmədi. Yuxusu ərşə çəkilmiş nazir oturduğu yerdə xeyli fikrə getdi. Gərgin düşüncələr onu ağır məngənə kimi sıxırdı. Günorta üstü polkovnik Bəhram bəyin batareyasında olan şən əhval-ruhiyyəsindən, elə bil, onu illər ayırmışdı. Dirsəyini mütəkkəyə söykədi, göz qapaqlarını yumdu ki, bəlkə, yuxuya gedə, mümkün olmadı. Həyəcandan boynunun damarları, əlləri titrəyirdi. Durub pəncərənin qabağına gəldi. Aşağılarda, Ərimgəldi təpəsindəki evlərdə təkəm-seyrək işıqlar yanırdı. Uzaqdan qəfil güllə səsi eşidildi. İtlər dərhal ağız-ağıza verib

hürüşdülər. Səməd bəy pəncərəyə yanaşı durub dədə-baba Mehmandarovlar mülkünə baxmaq istədi. Heç nə görə bilmədi. Birdən xatırladı ki, o tamam başqa səmtdədir. — Sabah mütləq ora gedəcəm, — deyə, fikiləşdi. Mütləq, yoxsa atam Sadıq bəyin, babam qatırcı Muradın ruhu məndən inciyər. Ya qismət, bir də nə vaxt gələcəm Şuşaya, Allah bilir… Fikir-xəyal ona aman vermirdi. İllah ki, bolşeviklərin Azərbaycana soxulmaq iddiası. — Dünyanın işinə bax ki, Bakıda yaşayan rus fəhlələri özlərini şəhərin mütləq sahibi kimi aparırlar. Onların hamısına malçişka Əlheydər dil verir. Cəfər Babayev kimisini Qusara göndərib alayda bolşevik təbliğatı apartdırır. Kimin fitvası ilə? — Mikoyan kimi daşnakın. Niyə bolşeviklər bu millətə sərbəst, müstəqil yaşamağı günah hesab edir? Qayıdan kimi belələrini həbs elətdirib ciddi rejim altında saxlamaq barədə sərəncam verməliyəm. Yoxa… Əlheydər kimi bolşeviklər rus fəhlələrini öyrətməklə, özümüzün bəzi nadanlarımızı da başdan çıxarır. Bu da fitilə od vurmaq kimi bir şeydir. Mübarizə aparmalıyıq. Kim gəlir, gəlsin, qabağına silahla çıxmalıyıq. Döyüş- məliyik, vəssəlam!

Orta boylu, ağ saçlı, ağ saqqalı, səsində və sifətində hərbiçi zəhmi olan altmış dörd yaşlı general Səməd bəy Mehmandarov gecənin dan qaranlığında xalqının taleyinin fikirləşməkdən yumağa dönmüşdü. Qəzəb və hiddət hissi onu boğurdu.

İki addımlıqdakı Köçərli məhəlləsində xoruzlar səs-səsə verdi. Bikef nazir gözucu stolun üstündəki zəncirli saatına baxdı. Gözlərinə inanmadı, pensinesini taxıb təəccüblə dodaqlarını bir-birinə sıxdı. Saat dördə on dəqiqə qalırdı. Canı ağrıyan, narahat Səməd bəy çarpayısına tərəf getdi…

## GENERAL MƏMMƏDSADIQ BƏY HACI İSMAYIL OĞLU AĞABƏYZADƏ
***(15.03.1865. Göyçay. 08.11.1944. Lvov şəhəri)***



Bakı realnı məktəbini və Konstantinovsk piyada məktəbini əla qimətlərlə bitirib. 1886-cı ildə Peterburqdakı Mixaylovsk Artilleriya məktəbinin birbaşa üçüncü kursuna qəbul edilib. Poruçik rütbəsində bir müddət Tiflisdə xidmət edib. 1896-cı ildə Sankt - Peterburqa gedərək Baş Qərargah nəznindəki üç illik Şərq Dilləri kursuna qəbul olunub.

1899-cu ildə oranı bitirdikdən sonra Türküstan və Zakaspi Hərbi Dairələrində hərbi tərcüməçi kimi on dörd il xidmət edib. O, Şərqşünas - alim kimi daha çox məşhurdur.

Podpolkovnik Məmmədsadıq bəy Ağabəyzadənin 1904-cü ildə Aşxabada "Zakaspi vilayəti türkmənlərinin atalar sözləri və məsəlləri toplusu əlavəsi ilə türkmən dili dərsliyi" nəşr olunub.

Müəllif kitabın əvvəlində köçəri həyat sürən türkmənlərin məişəti və mədəniyyəti haqqında məlumat verir. Xivədə və Buxarada dini təhsil aldıqlarına görə türkmənlər Avropa mədəniyyətindən uzaqdırlar. İndiyədək qrammatika dərslikləri belə yazılmayıb.

M. Ağabəyzadə daha sonra yazır ki, türkmənlərin yazılı qrammatikaları olmadığını, eləcə də bu dilin Türk-osmanlı Azərbaycan dilinə oxşarlığını nəzərə alıb Axaltəkin dialekti əsasında bu dərsliyi hazırlamışam. Həmin dillərin qrammatika kitablarından istifadə edib, onlara əsaslanmışam.

Filologiya elmləri doktoru, professor Nadir Məmmədli "Podpolkovnik Ağabəyzadə Türküstanda" məqaləsində yazır ki, türkmən dilinin

qrammatikasından, geniş və hərtərəfli bəhs edən vəsaitin hazırlanmasında podpolkovnik Ağabəyzadəyə türkmən dilinə dərindən bələd olan tanınmış Azərbaycan ziyalıları Ş. B. Yüzbaşınski və M. B. Əfəndiyev yaxından kömək göstərmişlər.

Məmmədsadıq bəy Ağabəyzadənin bu qiymətli əsəri Peterburqdakı Şərq dilləri kursunun professoru Vambaninin, Əhmədi - Rasiminin türk dili qrammatikaları və Soltan Məcid Qənizadənin "İstilahi - Azərbaycan" kitabı əsasında tərtib olunub. Dərslikdə Türkmənistanın Axaltəkin dialekti əsas götürülərək türk dilləri oğuz qrupuna xas olan ümumi qrammatik qanunların, formaların konkret, bəzi vacib bildiyi məsələlərin geniş şərhi verilir.

Zakaspi vilayətlərinin rəisi, general - leytenant E. E. Ussakovskinin təşəbbüsü və xahişi ilə hərbi dairənin Baş qərargahında nəşr olunan kitab müəllifi podpolkovnik Məmmədsadıq bəy Ağabəyzadəyə böyük şöhrət gətirmişdir.

Türkmən xalqı üçün xeyrxah və müqəddəs bir iş görüb əvəsiz töfhə edən təvazökar müəllif kitabın ön sözündə yazır: "Mən peşəkar dilçi deyiləm, yalnız xeyrxah iş görmək arzusu ilə bu dərsliyi tərtib etmişəm. Kitabın tərtibində heç də az səhv buraxmadığımı, xəta elədiyimi nəzərə alıram. Əvvəlcədən, bu vəsaitdən istifadə edənlərdən xahiş edirəm ki, türkmən qrammatikasının tərtibində ilk təcrübə olduğu üçün əziyyətimə mərhəmət göstərsinlər və məşhur bir ***kəlamı yadlarına salsınlar: o adamlar səhv etmirlər ki, heç bir iş görmürlər"***.

Eloğlumuz podpolkovnik Məmmədsadıq bəy Ağabəyzadənin özünün ilk elmi təşəbbüsünə təvəzökarlıqla yanaşmasına baxmayaraq, əsər tezliklə elm aləmində böyük razılıqla qarşılandı. Bu qiymətli kitab haqqında 1904-cü ildə A. Semyonovun "Etnoqrafiçeskoe obozreniye" məcmuəsinin altmış üçüncü cildində və məhşur türkoloq A. Samoyloviçin 1907-ci ildə "Zapiski Vostoçnoqo otdeleniya İmperatorskoqo Russkoqo Arxeoloqiçeskoqo obşestvo" jurnalını on yeddinci sayında yüksək səviyyəli, tərif dolu resenziyalar dərc olundu. Hətta A. Samoyloviç 1905 -ci il oktyabrın 28-də yazdığı məqaləsinin bu sözlərlə bitirir: ***"İlk uğurlu addım atan podpolkovnik M. Ağabəyzadəyə eşq olsun!".***

General - mayor Məmmədsadıq bəy Ağabəyzadə sonrakı illərdə də hərbi xidməti ilə yanaşı elmi fəaliyyətin də dayandırmamışdır. O, 1931-ci ildə polyak dilində "Türk dili dərsliyi", 1932-ci ildə "Fars dili dərsliyi", 1934-cü ildə isə "Ərəb dilinin qrammatikası" kimi samballı əsərlərini nəşr etdirib.

***1913-cü ildə, qırx səkkiz yaşında ordudakı nümunəvi xidmətinə görə M. Ağabəyzadəyə general - mayor rütbəsi verilib.*** O, Birinci Dünya Müharibəsində (1914-1916) döyüşən ordunun sıralarında şərəfli yol keçmişdir.

1918-1920-ci illərdə Azərbaycan Demokratik Respublikasında bir müddət Daxili İşlər Nazirinin müavini olmuşdur. İyirminci ilin bolşevik istilasından sonra əvvəlcə İstanbula - əmisi oğlu, türk dünyasının məhşur alimi Əlibəy Hüseynzadənin yanına gedir. Bir il orada yaşadıqdan sonra Fransaya mühacirətə gedən Məmmədsadıq bəy ali məktəblərdə fars, türk və ərəb dillərindən dərs deyir. O, fransızcanı da gözəl bilirdi.

Bəxtinə cəlayi- vətənlik düşən görkəmli Azərbaycan oğlu Məmmədsadıq bəy Ağabəyzadə 1927-ci ildən Lvov universitetinin professoru Ziqmund Smoqjevskinin dəvəti ilə Lvov Univesitetində işləyir. O, ərəb, fars və türk dillərində dərs deyir, islam paleqrafiyasını, epiqrafiyasını və kaleqrafiyasını tədris edirdi. Məşhur polyak şərqşünasları Teofil Vlodarski, Olqa Voşçak, Marian Levitski və başqaları həmyerlimiz, general-professor Məmmədsadıq bəy Ağabəyzadənin yetirmələri olmuşlar.

Şərqşünas- general M. Ağabəyzadənin elmi - pedaqoji fəaliyyətini dünya şöhrətli alim Q. Kovalski, Y. Slujkeviç, A. Zaminçkovski, A. Krımski yüksək qiymətləndirmişlər.

1944-cü ildə Lvov şəhəri faşistlər tərəfindən alınanda yüksək rütbəli bir alman zabiti tənha yaşayan professor Məmmədsadıq bəyin mənzilinin öz qərargahına çevirir. Yarıqaranlıq, nəmli zirzəmiyə köçən Məmmədsadıq bəyin zəif vücudu daha da pisləşir. Elm fədaisi və musavat generalı Məmmədsadıq bəy Ağabəyzadəni 1944-cü il noyabrın 8-də sevimli tələbəsi Tadeuş Levitski Lvov şəhər qəbirstanlığında dəfn edir. "Əgər qardaşlarım[1] gəlib çıxmasalar, onda nəyim varsa, Tadeuş Levitskiyə qoyub gedirəm. Mənə uzun müddətli sədaqətli xidmətinə görə pani Sverino Vilkoşinskayaya üç yüz zlot[2], Teodizi Krulyova yüz zlot, Olqa Voşçaka, mənim şagirdimə bir kitab və istədiyi üç qramafon val verərsiniz".

Bu, bolşevik təzyiqindən qürbətdə tənha yaşayan görkəmli həmyerlimizin ölümqabağı yazdığı vəsiyyətindən bir parçadır.

Hazırda Lvov şəhərində general - şərqşünas alim Məmmədsadıq bəy Ağabəyzadənin adına küçə var.

1. General - mayor, professor Məmmədsadıq bəyin iki qardaşı və bir bacısı olmuşdur. - Həzrət bəy, Rəhim bəy və Badam xanım həmin illərdə Göyçayda yaşayırdılar - Ş.N.
2. Zlotı - Polşada əsas gümüş pul vahidi.

# KNYAZ-PODPOLKOVNİK MEHDİQULU XAN USMİYEV[1]

***(1855-1900)***

***Böyüklük özünü rahat edib, baş girləmək deyil, biçarələrin fəryadına yetişməkdir.***

***Mir Möhsün Nəvvab (1833-1918), şair - alim.***




1. 2002-ci ildə nəşr olunmuş "Topoqraf-general İbrahim ağa Vəkilov" kitabımda bu fəslin adı mətbə xətasına görə səhvən "Xasay xan Usmiyev" getmişdir. Fəsil əlavələrlə yenidən işlənmişdir. (Müəllif).

Mehdiqulu xan Xasay xan oğlu Usmiyev 1895-ci il fevralın 26-da podpolkovnik rütbəsi alıb. O, məşhur şairə Xurşidbanu Natəvanın böyük oğludur. 1855-ci ildə Şuşada anadan olub. 1874-cü ildə Peterburqdakı zadəgan balalarına məxsus Paj hərbi korpusunda təhsil alıb. Rus-türk müharibəsi (1877-78) illərində Dunay ordusunun sıralarında süvari alayının komandiri olmuşdur.

1999-cu ildə Gürcüstan Mərkəzi Dövlət Arxivindən əldə etdiyimiz bu yaraşıqlı zabitin foto-şəklinin altında da "1877-ci il, Dunay" yazılıb. İki il cəbhələrdə böyük igidlik və şücaət göstərdiyinə görə knyaz Mehdiqulu xan Usmiyev dörd dəfə ordenlə təltif olunub. O, "Müqəddəs Anna" ordeninin dördüncü dərəcəsinə (igidliyə görə), üçüncü dərəcəli "Müqəddəs Stanislav" (qılınc və bantla birgə), üçüncü dərəcəli "Müqəddəs Anna" (qılınc və bantla birgə) və "Müqəddəs Vladimir" ordeninin dördüncü dərəcəsinə layiq görülüb. Əlbətdə, qısa ömründə belə yüksək kavaler ordenləri ilə qeyri-adi igidlik göstərmiş zabitlər təltif olunurdu. Şübhəsiz ki, knyaz Mehdiqulu xana bu igidlik irsən keçmədir. Axı, onun atası general-mayor Xasay xan Usmiyev (1808-1866) idi. Ötən əsrin məşhur tədqiqatçıları Firidun bəy Köçərli, Mir Möhsün Nəvvab, Məhəmmədağa Müctəhidzadə və başqaları iftixarla yazırlar ki, cənab knyaz Mehdiqulu xan alicah knyaz Xasay xanın oğludur. O, əlahəzrət qüdrətli Çingiz xanın nəslindəndir.

Qafqaz Əlahiddə Ordusunun süvari qoşunlarında xidmət edən knyaz-podpolkovnik Mehdiqulu xan Usmiyev ordudakı əla qulluğuna görə sonrakı illərdə də təltif olunub. O, 1877-ci ildə "Müqəddəs Stanislav" ordeninin ikinci, 1891-ci ildə "Müqəddəs Anna" ordeninin ikinci dərəcəsini və 1881-ci ildə İranın "Şire-Xorşid" ordeninin üçüncü dərəcəsini ala bilib.

1894-1895-ci illərdə rotmistr Mehdiqulu Xan Usmiyev Qafqaz hərbi Dairəsində Qafqaz qoşunları komandanının yavəri vəzifəsində olub.

Klassik üslubda "Vəfa" təxəllüsü ilə Azərbaycan və fars dillərində şerlər yazan knyaz-podpolkovnik Mehdiqulu xan Usmiyev 1897-ci il fevralın on yeddisində Şuşada öz xərcinə Azərbaycan əhalisi üçün qiraətxana açdırmışdır. Hərbiçi olmasına baxmayaraq, o anası Xurşid bəyimin rəhbərlik etdiyi "Məclisi-üns"də yaxından iştirak edib. Knyaz-podpolkovnik Mehdiqulu xanın poeziyaya və füsunkar Şuşaya məhəbbətini əvəzsiz ədəbiyyatşünasımız Firidun bəy Köçərli 1903-cü ildə Tiflisdə rusca nəşr etdirdiyi "Azərbaycan tatarlarının ədəbiyyatı" kitabında yüksək sənət nümunəsi kimi qeyd edir: "İnsana məhəbbət, dostluq, mehribançılıq,

mərhəmət, əfv və iztirab istedadlı Mehdiqulu xan Usmiyev poeziyasının canını təşkil edir". Şair oxucusuna xitabən deyir: "Çəmənzarə yavaş gir ki, xırda böcəklər, yaşıl otlar, yeni gül şaxələri ayaqların altında qalıb əzilməsin".

***Qarabağ içrə bu tənhalığa səbrü qərarım yox,***

***Qəmindən başqa, bu viranədə bir qəmküsarım yox*** - deyən, Mehdiqulu xan babası İbrahimxəlil xanın cah-cəlalının dağılmasını, rus hakimiyyətinə arxalanıb Qarabağı viran qoyan erməni generalı Mədətovun, Lazerevin və Karqanovun müsəlmən qəbirstanlıqlarını kotanın ağzına verib əkdirmələrini və xalqa olmazın zülmlərini kədərlə yad edir. Namərd erməni təhlükəsini hiss edən Mehdiqulu xan üsyankar poeziyasında deyirdi:

***Yaran[1], gəlin bu gün fürsət məqamıdır,***
***Viran olub vətən qeyrət məqamıdır.***

Mehdiqulu xan 1900-cu il sentyabrın 5-də Tiflisdə Mixaylovski küçəsindəki yüz qırx səkkiz saylı mülkündə vəfat etmişdir. Öz vəsiyyətinə görə Ağdamdakı İmarətdə ata-babalarının yanında dəfn olunub.

Görkəmli ədəbiyyatşünas **Salman Mümtaz** yazır: ***"Mehdiqulu xanın nəşi Qarabağa gətirilərkən ətraf kəndlərdən gələn bütün insanlar yollara çıxaraq onu qarşılayırdı. Xan xüsusi bir ehtiramla Ağdamda ata-babalarına məxsus xanlıq imarətində dəfn olundu. Qarabağlılar bir neçə səbəbdən onu çox sevirdilər. Birinci fövqəladə səxavətli idi. İkinci çox alicənab və mərifətli adam idi. Üçüncü çar hökumətinin əleyhinə və xalqın qeydinə qalan idi.***

***Mehdiqulu xanın Qafqaz sərdarının yanında xüsusi rütbəsi vardı. Nəsrəddin şah Tiflisə gələndə onun qarşılanmasını xüsusi hüsni-rəğbət bəslərdi. Onun at çapmaqda böyük məharəti vardı. Çoxlu cins at saxlardı. O cümlədən Gülgün, Şənhar, Göyərçin, Durna, Ceyran, Ağ cidalı onun sevimli atları idi. Gülgün cinsindən çox istədiyi bir atı vardı ki, çox zamanlar onu minərdi. Həmin at ilə Sərdarın sarayının salonuna çıxdığı məşhurdur."***

Haqqında nekroloq verən "Kaspi" qəzeti (1900-cu il, sentyabrın 8-də №200) yazırdı: "Nadir şərq kitablarını yığmaq və oxumaq onun ən sevimli məşğuliyyəti olmuşdu. Bu kitabları toplamaq xatirinə knyaz

1.Yaran - dostlar, sevgililər.

Mehdiqulu xan heç bir vəsait əsirgəməzdi. Onun şəxsi kitabxanasındakı ədəbiyyat az-az yerlərdə tapılardı".

Knyaz Mehdiqulu xanın müasiri, məşhur alim Mir Möhsün Nəvvab yazır ki, biçarə knyaz Mehdiqulu xan son illər Şuşaya tez-tez gələrdi. Hər dəfə də zəmanənin hərc-mərcliyini görüb əsəblik cəhətindən aşağıdakı fərdləri deyərdi:

***Abad olan Vətən axır xərab olub,***
***Bu dəştü-zülmdə min lalələr solub.***
***Dünyada məhv olub namü nişanımız,***
***Yoxdur bu möhnətdə tabü təvanımız.***

***Axır nə vaxtadək bu hala səbr edək,***
***Bunca sitəm görək, belə cəfa çəkək?***
***İcma edin, bu gün dərdə dəva edək,***
***Dini təriqətə canlar nisar edək.***

Bəzi müasir yazarlarımız Mehdiqulu xan Usmiyevin general rütbəsi aldığını qeyd edirlər. Lakin nə Tiflis, nə də Bakı arxivlərində Mehdiqulu xanın general olması haqqında sənədə biz rast gəlmədik. Bütün sənədlərdə onun son rütbəsi podpolkovnik göstərilir. Şübhəsiz ki, tədqiqatçılar onu general-mayor atası Xasay xan Usmiyevlə səhv salırlar. Bu səhvin yaranmasında ikinci bir səbəb də var: Mehdiqulu xanın adı qoyulan ana babası Qarabağın sonuncu hakimi Mehdiqulu xan İbrahimxəlil xan oğluna (1763-1845) ruslar 1805-ci il mayın 14-də Gəncə yaxınlığında Kürəkçayda keçirilən sazişdə general-mayor rütbəsi vermişdilər. Bu barədə məşhur tarixçi Mirzə Camal Cavanşir "Qarabağ tarixi" əsərində yazır: "Haman yığıncaqda İbrahim xana və Səlim xana (Şəkinin hakimi, İbrahim xanın kürəkəni - Ş.N) general-leytenantlıq, mərhum Məhəmməd Həsən ağaya və Mehdiqulu xana general-mayorluq, mərhum Xanlar ağaya isə polkovnik rutbələri verilməsi haqqında sərdar knyaz Sisianovun vasitəçiliyi ilə padişaha ərizə yazıldı. Dörd aydan sonra bu iltifat və daimi məvacibli dərəcələrin verilməsi haqqında fərman gəlib çatdı".

Ona görə də 1920-ci ilə qədər olan ədəbiyyatlarda Knyaz-podpolkovnik Mehdiqulu xanın adının yanında “Sani” yəni ikinc sözünü də yazırlar.

***

Əslzadə nəslindən olan podpolkovnik Mehdiqulu xan sadə təbiəti, səxavəti və insanpərvərliyi ilə Qarabağ camaatının məhəbbətini qazanmışdı. Hələ sağlığında şairə anası Xurşudbanı Nətavan Ağdamdakı mülkləri və bir neçə kəndi onun ixtiyarına vermişdi. Mehdiqulu xan mülklərdən və torpaq sahələrindən gələn gəliri camaatın özünə paylayır, onlardan bəhrə almırdı. Bu alicənab şəxsiyyət haqqında onun müasiri Mirzə Xosrov Axundovun (1889-1960) şahidi olduğu əhvalat nəsillərə nümunə olmağa layiqdir.

Mehdiqulu xan Vəfa çox vaxt Tiflisdə olardı. Müəyyən vaxtlarda Ağdama yaxud Şuşaya gələrdi. Ağdamın Sarıcalı kəndində bir nəfər yoxsul qadın varmış. Bu qadının yeganə oğlu xəstələnərək vəfat etmişdi. Oğlunun ölümündən sonra qadın həyatın ağırlığı içərisində boğulurdu.

Knyazın Ağdama gəlib mehmananada yerləşdiyini qadına xəbər verirlər. Mehdiqulu xan öz səxavətilə şöhrət qazandığından qonşuları qadına məsləhət görürlər ki, knyazın yanına gedib öz halını ona bildirsin. Yoxsul qadın birdən-birə onun yanına getməyə cəsarət etmirdi. Qonşular ona belə məsləhət gördülər ki, bir sini "bedanə tut" yığıb onun üstünü qızıl güllərlə bəzəyib knyaza aparsın. Bu vasitə ilə knyazla görüşüb öz dərdini ona bildirsin.

Qadın bu məsləhətə əməl etməyi qərara aldı. Çadır hazırlayıb, tut çırpdırdı. Bir sini tapıb "bedanə tut"dan seçib doldurdu və tutun üstünü qızılgül ilə bəzədi. Tutu götürüb Mehdiqulu xanla görüşmək üçün mehmanxanaya getdi. Darğa qadını görüb dedi:

- Knyaz yatıbdır, onu narahat etmək olmaz. Qadın nə qədər yalvardısa, darğa "İndicə yatağa girib" - deyə, onu knyazın yanına buraxmadı. Doğrudan da knyaz yenicə soyunub yatağa girmişdi. Onu hələ yuxu aparmamışdı.

Eyvanda olan danışığı eşidən knyaz zəngi vurub darğanı içəri çağırdı. Darğa otağa daxil oldu. Mehdiqulu xan ondan çöldəki danışığın səbəbini soruşdu. Darğa yaşlı bir kəndli qadının onun yanına gələrək tut gətirməsini və knyaz ilə göüşmək istədiyini ona xəbər verdi. Knyaz darğaya dedi:

- Çölə çıx, qadını qoyma getsin. Mən libasımı geyinənə kimi qadını çöldə saxla, zəng çalan kimi içəri gəlsin.

Darğa çölə çıxıb getmək istəyən qadını qaytardı. Bir neçə dəqiqədən sonra zəngin vurulmasını eşidən qadın içəri buraxıldı. Arvad içəri girən kimi knyaz irəli gəlib onun əlindən tutdu və ona xoş gəldin etdi. Qadın gətirdiyi töhfəni mizin üstünə qoyub dedi:

- Ağrın alım, knyaz, sənə bedanə tut gətirmişəm. Tutların hamısını da bircə-bircə öz əlimlə seçmişəm.

Knyaz gülərüzlə, çox mehribanlıqla onu qarşılayıb dedi:

- Ana, çox zəhmət çəkibsən.

Qadın ona müraciət edərək dedi:

- Başına dönüm, knyaz, ye gör nə gözəl tutdur.

Mehdiqulu xan qadının könlü sınmasın deyə tutdan bir qədər yedi və onun tutunu tərifllədi. Sonra qadından əhval-püsan oldu.

Qadın cavan oğlunun vəfat etməsi, özünün ağır və çətin həyat sürməsi haqqında knyaza danışdı.

Mehdiqulu xan onun halına acıyaraq qadına başsağlığı verib dildarlıq etdi. Bundan sonra da hər çətinliyi olarsa hamısını düzəldəcəyini vəd etdi.

Darğanı çağırdı, bir siyahı verib bazara göndərdi. Darğa qayıdana kimi qadına nələr lazım oduğunu ondan soruşdu.

- Ana, - dedi, heç ürəyini sıxma, mənim həmişə nəzərim sənin üstündə olacaq. - Ağdam bazarında bir nəfəri ona tanıtdırıb dedi: - Mən burada olmayanda sən o adama müraciət eylə, çünki mən ona sən haqda lazım olanları tapşıracağam. Sənə hər nə lazım olsa, o adam sözsüz düzəldəcək.

Darğa bazardan qayıdıb gəldi. Knyaz verdiyi siyahı üzrə qənd, çay, düyü, yağ və sairə ləvazimat alıb zənbilə yığmışdı. Alınan şeyləri zənbil ilə bərabər qadına verdikdən sonra tut gətirən qabı boş qaytarmasın deyə onun içinə on metr parça, bir ədəd yaylıq, bir ayaqqabı və əlli manat pul qoyub qadına verdi. Knyaz öz faytonunu qoşdurub qadını Sarıcalı kəndinə yola saldı.

Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyinin elmi fondunda podpolkovnik Mehdiqulu xan Usmiyevin 1877-ci ildə Dunay cəbhəsindən ailəsinə yazdığı məktubları saxlanılır. Onların imlasına toxunmadan təqdim edirik.

**BİRİNCİ MƏKTUB:**

Bu gün ki, ibarət olsun aprelin 12-si padişah cəmi qoşunu bir yerə cə,m edüb davanı elan etdi və bu gün axşamadək hər tərəfdən qoşun hərəkət edir. Amma biz, yəni Nikolay Nikolayeviçin hüzurunda onlar hənuz padişah Peterburqa gedənədək Kişinyovda olarıq, ondan sonra biz həm hərəkət edürük. Amma hansı tərəfə hərəkət olmağın yazmağa məzun degiləm. İnşallah, mümkün olduqca hər məkandan təbl irsal olar. Xatircəm olun mənim üçün çəndən düşvar əmir yoxdur. Ağabikədən və Bilqeyisdən soruş ki, mənim şəklimi tanıyırlarmı!

*MEHDİQULU XAN*
***Kişinyov ş.***
***12 aprel 1877-ci il.***

***İKİNCİ MƏKTUB:***

Keçib Bulayeşt şəhərinə ki, Rumıniyanın şəhərlərindəndir varid olduq. Kim bilərdi ki, mənim bu səfərim bu növ bəndülhəd olar. Bu gün bir ildən beş gün izafədir ki, Qələdən[1] çıxıb müsafirət əzmin etmişəm. Bu əmr, o növ asan degilmiş ki, təsəvvür olurdu. Əlxüsüs davanın ittifaqı məni çox müqəyyəd etdi. Xülasə qeydi nəkarədəyəm ki, moyəssər şəvəd... Ağbikə və Bilqeyis mənim şəklimi görəndə yəqin bir şey zehinlərinə gəlmir çünki əslin bəndülhəd qeybəti surəti zəhindən zayıl edir. Əlhəmdülillah hər növ salamatlıq və asudə xatırlıq vüsuldur. Nigaranlıq həmin sizlər tərəfindədir. Kağız yazmaqda kütahlıq olmasın, mənə gələn kağızları zakaznoy edin və əgər firəng dilini bilən olsa ünvanı firəngcə yazdırın.

***MEHDİQULU XAN.***
***12 may***

***ÜÇÜNCÜ MƏKTUB:***

Bu haladək səndən kağız vüsul olmayıb, əgərçi til rəf,e nigaranlıq etdi. Amma təfsilən bilmirəm ki, necəsən və uşaqlar necədirlər. Velikiy Knyaz Xaç suya düşən zamanda inşallah məni məzun edər və mən Qəl, əyə azim olaram. Hər vəqq və hər poçt ilə kağuz yazıb əhvalatdan müxəbbir et. Zəhranı və Ağabikəni, Rüstəm bəyi əhval pürsan ol. Bu kağız vüsal olan kimi cəvab yaz. Çünki çox nigaranam.

Vəssalam.

***MEHDİQULU XAN.***

***DÖRDÜNCÜ MƏKTUB:***

Bu şəhrə varid ola...

Ona-bəna bunca gəlməyə ektifa edib əhval-pürsan pərişanlıq çəndan yoxdur. Bir müddət Odessada olarıq, sonra sərhədə əzm olar ondan sonra nə olar bilmirəm. Oraya kağız təxir ilə çatır. Ancaq səlamatlıq olsa kafidir.

Ağbikəni, Biqeysi, Əzizəni didə bus ol.

Bu kağıza cəvab göndər. Vəssalam. Əmanı xanın kağızı burada bənə vüsal oldu.

***MEHDİQULU XAN,***
***17 fevral.***

---

1. Şuşa şəhəri nəzərdə tutulur - Ş.N.

Şahnəzərov oraya varid olub, sənə irsal olan şeyləri yetirməkdən xəbər yaz və Əkbərə corab anamın və bacımın xoşuna gəlsə yazın irsal olsun.

***MEHDİQULU XAN.***

***BEŞİNCİ MƏKTUB:***

Ruhum, bu gün sübh vaxtı Ağstafaya varid oldum. Yollar nəhayət xarabdırlar. Amma bir vəqiə ariz olmayıb hər cəhətdə salamatlıq hasildir. Uşaqlardan çox nigaranəm. Bu səfər uşaqları, ələlxüsus Ağbikəni müfariqəti çox müəssirdir.

Xasayı, Ədil xanı, Əzizəni didə bus ol. Amma Ağbikənin sənə dəxli yoxdur. Vəssalam.

***MEHDİQULU XAN.***

Qubernator ilə Ərzi rahda mülaqat oldu. Müşarəleyh Gəncəyə azimdir.

***MEHDİQULU XAN.***

Uzaq ellərdə müharibədə döyüşən oğlu Mehdiqulu xanın həsrəti ilə yanıb-yaxılan zərif qəlbli şairə Natəvan təsəllini şerlər yazmaqda tapırdı. Günümüzə qədər qorunub saxlanan şairənin şəxsi albomunda məşhur "Ölürəm" qəzəlində öz dəsti-xətti ilə yazdığı belə bir qeydi də qalıb: "Məriz olduğum halda Xanoqlanın (evdə, ailədə əzizlənən Mehdiqulu xanı belə çağırırdılar) xəyalilə inşa etdiyim qəzəl hala xitabdır nəqşdə olan quşa ki, yetirsin".

***Varımdı sinədə dərdü qəmi-nihan, ölürəm,***
***Fəda olum sənə, gəl eylə imtəhan, ölürəm.***

***O xaki-payini mən aşiyanə etmiş idim,***
***Vətəndən ayrı düşüb, indi laməkan, ölürəm.***

***Fəraqdən tükənib tabü taqətim, billah,***
***Vüsalə yetməz əlim, zarü Nətavan ölürəm.***

# BİR DAHA POLKOVNİK RÜSTƏM BƏY QARABAĞLI HAQQINDA
## *(1781 - 1845)*

***Elm heç bir millətin malı deyildir, hər kəs yiyələnmək istəsə, onundur.***

***Abbas Səhhət,***
***şair***



***Solda: Polkovnik Rüstəm bəy Qarabağlı İmperator Napalyonla birgə***

Elə kitablar var ki, tarixi faktlarla zəngin olduğuna görə onu tez-tez oxuyur və müraciət edirsən. Belə əsərləri müdriklər ağıllı əsər, stolüstü kitab adlandırmaqda səhv etməmişlər.

Mənim də şəxsi kitabxanamda həmişə gərəkli olan, təkrar oxuduğum əsərlər çoxdur. Onları göz-bəbəyim kimi qoruyuram. Çox vaxt belə stolüstü kitabları oxumaq, mütaliə etmək üçün hər istəyənə verməyə də əlim gəlmir.

Son illərdə tariximizin açılmamış səhifələrini inadkarlıqla araşdıran Q.Qeybullayevin əsərləri də belə maraqlı kitablar sırasındadır. Otuz ildən çox xalqımızın etnoqrafiyası və toponomiyası sahəsində inadlı axtarışlır aparan Qiyasəddin müəllimin xidmətləri əvəzsizdir.

Bu günlərdə professor Qiyasəddin Qeybullayevin "Qarabağ" (etnik və siyasi tarixinə dair) kitabını oxudum. Bu maraqlı əsərdə erməniləşmiş albanlardan danışılanda Qiyasəddin müəllim məşhur fransız sərkərdəsi Napoleon Bonopartın iki keşikçisinin - Rüstəmin və Petrosun müsəlman dinini qəbul etmiş Qarabağ ermənisi, ya da erməniləşmiş alban (albanlar) olduqlarını qeyd edir.

Guya bu iki gənc ticarət məqsədilə Dağlıq Qarabağdan Türkiyənin İzmir şəhərinə, ordan da Misirə gəlib çıxmışlar. Petros müsəlmanlığı qəbul edib Ömər olur. Napoleona təqdim olunanda isə Pyer adını qəbul edir. Rüstəm bəy isə Napoleonun yanında Rostom adını daşımışdır.

Qiyasəddin müəllim yəqin ki, faktları erməni mənbələrindən götürüb. Erməni Petrosun adı Rüstəm bəy Qarabağlının yanına 1899-cu ildə nəşr olunan "Arməne. Kratkiy oçerk ix istorii i sovremennoqo polojeniə" kitabında əlavə olunub və bu da tamamilə erməni uydurmasıdır. Bütün rus mənbələrində Napoleonun yanında qarabağlı polkovnik Rüstəm bəyin xidmət etməsi göstərilir.

Şuşalı Rüstəm bəy nə albandır, nə də erməni. O, azərbaycanlıdır və tarixi şəxsiyyətdir.

Bu qeydləri deməkdə məqsədimiz professor Qiyasəddin Qeybullayevin səhvini tutmaq deyil. Yalnız onun rast gəlmədiyi faktlarla oxucuları tanış etməkdir.

Polkovnik Rüstəm bəy Qarabağlı haqqında 1991-ci ildə nəşr olunmuş "Azərbaycan generalları" kitabımın ön sözündə oxuculara ötəri də olsa məlumat vermişəm. Qiyasəddin müəllimin Rüstəm bəy haqqında dırnaqda yazdığı rəvayətə görə sözləri artıqdır. İkincisi Rostan yox, mötərizədə onun "əsl adı Rüstəmdir" yazmağı daha doğrudur.

Nə üçün erməniyə inanıb rəvayətə görə yazırıq. Məgər biz indiyədək bilmirik ki, ermənilərin əməllərinin doxsan faizi saxtadır və onlarda Rüstəm bəy adlı sərkərdə ola bilməzdi. Olmayıb da.

Tarixi sənədlər göstərir ki, qarabağlı, azərbaycanlı polkovnik Rüstəm bəy həqiqətən də Napoleonun Rusiyaya yürüşündə iştirak edib. 1999-cu ildə Tiflisdə yaradıcılıq ezamiyyətində olanda Mərkəzi kitabxananın nadir fondunda saxlanan 1902-ci ildə nəşr olunmuş "Rus hakimiyyətinin bərqərarından sonra Qarabağın ilk könüllüləri" adlı kitabçaya rast gəldim. Sifariş verib gətirtdim və oxudum. Kitabçanı ermənipərəst general-leytenant, on doqquzuncu əsrin əvvəllərində Zaqafqaziya Hərbi Tarix

Muzeyinin rəisi Vasili Potto yazıb. Nə qədər ermənipərəst də olsa, faktdan qaça bilməyən general Vasili Potto Rüstəm bəyin azərbaycanlı, daha doğrusu Qarabağ bəyi və azərbaycanlı tatarı olmasını təsdiqləyir. Erməni Petrosun isə ona qoşulub Türkiyənin İzmir şəhərində ticarət məqsədilə onunla Misirə getməsi faktının qarşısında sual işarəsi qoyur.

Bu barədə ikinci bir dəqiq mənbə də var. Akademik Milisa Vasilyevna Neçkina on səkkiz və on doqquzuncu əsr dövründən bəhs edən tarixi əsərlər müəllifidir. O, sürgün olunmuş dekabristlərin Qafqaz fəaliyyətinin, A.P.Yermolovun, İ.F.Paskeviçin, Vorontsovların Qafqaz canişinliyi dövrünün ən yaxşı tədqiqatçısı kimi Rusiyada məşhurdur.

***1977-ci ildə M.V.Neçkina "Qriboyedov və dekabristlər" kitabını üçüncü dəfə təkrar nəşr etdirib. Akademik Neçkina 735 səhifəlik irihəcmli monoqrafiyasının 244-cü səhifəsində açıqça yazır: "U qenerala Alekseya Ermolova slujil, naprimer, karabaxskiy tatarin, (azerbaydjanes Ş.N.) prinadlejavşiy k napoleonovskomu korpusu mamelyukov vxodivşiy v liçnuö straju imperatora, on pobıval s Napoleonom v Eqipte i v Madride, poluçil iz ruk imperatora krest "Poçetnoqo Leqiona" za bitvu pri Vaqrame; vo vremya otstupleniya Napoleona iz Moskvı on bıl vzyat v plen i vernulsya na rodinu, v Karabax". Erməni Petrosun heç yerdə adı belə çəkilmir.***

Oxuculara onu da xatırlatmaq istəyirəm ki, Napoleon Bonapart kimi sərkərdə Fransanın ali hərbi "Fəxri Legion" ordeni ilə hər zabiti təltif etməzdi. Arxiv sənədlərində göstərilir ki, Rüstəm bəy yavər kimi Napoleonla birgə İspaniya, Misir yürüşlərində fəal iştirak edib. Qeyri-adi igidliyinə görə Vaqram döyüşlərində Napoleonun özü onu fəxri "Legion ordeni"lə təltif edib.

Polkovnik Rüstəm bəyin qarabağlı və Müsəlman olması haqqında daha bir tarixi fakt.

1818-ci ildə Qafqaza gələn İspaniyalı mayor Xuan Van-Qalen (1790-1864) Nijeqorod Draqun alayının sıralarında iki il dağlılarla döyüşdə iştrak edir. O, vətəninə qayıdanda geniş həcmli xatirələrini yazır. Van-Qalen xatirələrində Şamaxılı Mustafa xanla görüşünü, igid Qarabağ süvariləri - tatarları (Azərbaycanlı - Ş.N.) Gəncə, Şuşa və Şəkili Səlim xan haqqında maraqlı təsuratlarını qələmə alıb. Van-Qaleni 1884-ci ildə “İstoriçeskiy Vestnik” jurnalında dərc olunan xatirələrinin 17-ci fəsli “Fəxri leqiyon ordenli azərbaycanlı” adlanır.

Qazıqumux uğrunda gedən döyüşləri təsvir edən Van-Qalen yazır ki,

odlu döyüşlər gedəndə Qarabağ Müsəlman Süvarilərindən bir zabitin cəsurluqla vuruşmasının şahidi oldum. Diqqətlə baxanda onun yaxasındakı Fransanın “Fəxri leqiyon” ordeni məndə daha böyük marağ doğurdu.

Axşam üstü döyüşlərdən sonra süvarilərdən birini göndərdim ki, yaxasında “Fəxri leqiyon” ordeni olan müsəlman zabitini tapıb gətirsin.

Onu tapıb generalın çadırına gətirəndə mən dərhal ondan rus dilində soruşdum:

- Siz fransızca danışa bilirsinizmi?

- Bəli, cənab mayor, - deyə, o Fransız dilində mənə cavab verdi.

- Yaxanızdakı fransız ordeni ilə nə münasibətlə təltif olunmusunuz?

- Şəxsən imperator Napoleonun özü Vaqram döyüşlərində göstərdiyim igidliyə görə məni bu ordenlə təltif edib. Əgər bugünki döyüşlərimin şahidi olsaydı, yaqin ki bu ordenin ikincisini də mənə əta edərdi.

Müsəlman zabiti Misirdə İmperatorun hərbi korpusunda xidmətdə olmuşdu. Şəxsən Napoleonun qvardiya eskadronunda döyüşmüşdü. Moskva uğrunda gedən, o yaddançıxmaz döyüşlərdə isə əsir düşən müsəlman veteranı rus hərbi milisinin təşəbbüsü ilə vətəni Qarabağa göndərilib. O, burada da hərbi döyüş borcunu şərəflə yerinə yetirirdi...

Napoleon haqqında yazılan elmi, tarixi, sənədli və publisistik əsərlərdə "Müsəlman Rustəm bəy", "Qarabağlı Rüstəm bəy" və bəzən də "Türk Rüstəm bəy" kimi yazılır və göstərilir. Yalnız ermənilərin bu yaxınlarda internetə verdiyi "Rustam Raza Mamlök armenin v 1812 qodu - v svite İmperatora" sərlövhəli yazıda onun "erməni olduğu bildirilir".

Tarixi faktları təhriflə öz adlarına çıxan namərd ermənilər həmişəki kimi burda da saxtakarlığa caynaq atıblar. Rüstəm bəyin atası Rza bəy olduğu halda onlar "Raza" kimi yazırlar.

Guya Ağa Məhəmməd şah Qacar Tiflisə hərbi yürüş edəndə on üç yaşlı erməni Rüstəm Ermənistanın (?) Aperkan (?) adlı şəhərində əsir düşür. Əsir Rüstəmi bir azərbaycanlı bəy yeddi dəfə qul kimi satır. Konstantinopol şəhərində onu bir ərəb taciri alıb Kair şəhərinə gətirir.

Yüz səhifədən çox ermənilərin internet uydurması beləcə davam edir.

Aprel çevrilişindən əvvəlki ayrı-ayrı sənədlərdən, tarixi əsərlərdən məlum olur ki, Napoleonun məğlubiyyətindən sonra vətəninə qayıdan Rüstəm bəy Qarabağlını general Aleksey Yermolov Tiflisə dəvət edir. onu Qafqaz Canişinliyinin Əlahiddə Hərbi Korpusunda işlə təmin edir və çox maraqlıdır ki, əzazilliyinə görə Qafqazda "Yeni dövrün möcüzəli məxluqu" titulunu

qazanmış Yermolov onunla əsir kimi yox, igid, bacarıqlı bir sərkərdə kimi rəftar edir. Hərb tariximizin hələ tam öyrənilməmiş səhifələrində biz Rüstəm bəy Qarabağlının rütbəsinə bəzi sənədlərdə podpolkovnik, bəzilərində isə polkovnik kimi rast gəlirik.

İgid polkovnik eloğlumuz Rüstəm bəy Qarabağlının rütbəsini dəqiqləşdirmək üçün bircə çıxış yolu var. Peterburqun Qış sarayının hərbi arxivində saxlanan, 1816-1827-ci ildə Qafqaz canişini olmuş general-leytenant Aleksey Yermolovun şəxsi fondunda araşdırmalar aparılmalıdır.



General Əli ağa Şıxlinski (1906)

Bizə polkovnik Rüstəm bəy Qarabağlının Napoleon ordusundakı döyüş fəaliyyəti və Qafqaz Əlahiddə qoşunlarında xidmət etməsi və ölüm təvəllüdü məlumdur.

O, Qafqaz Hərbi Dairəsində uzun illərdəki xidmətindən sonra istefaya çıxmış və dədə-baba vətəni Qarabağa qayıtmışdır. Ömrünün sonlarını Şuşada və Xankəndində yaşayan polkovnik Rüstəm bəy Qarabağlı 1845-ci ildə altmış dörd yaşında Xankəndində vəfat edir. O, vaxt

Şuşada yerləşən alayın müşayəti ilə Mirzə Həsən qəbiristanlığında şərəflə dəfn olunur.

***P.S. Onu da xatırlatmaq istəyirəm ki, ikinci dəfə Fransanın "Fəxri Legion" ordenini görkəmli sərkərdəmiz Əli ağa Şıxlinski 1913-cü il sentyabrın 13-də Artilleriya Zabitləri Məktəbində rəis müavini vəzifəsində işləyərkən almışdır.***

Bu barədə general Əli ağa Şıxlinski "Xatirələrim" kitabında məlumat verir. O yazır:

..."Bu yay çox gurultulu keçdi. Fransa Baş Qərargahının rəisi generalisimus Joffr Jozef Jak Sezar (1852-1931) fransız ordusunun on yeddi zabiti ilə bərabər Rusiyaya gəldi. Onlar günlərindən birini bizim Artilleriya Zabitləri Məktəbi ilə tanış olmaq üçün ayırdılar. Manevra keçirdik. Fransızlar haubitsa atış üsullarından, təlim meydanımızın təchizatından, telefon qurğularının bağlantılarından çox məmnun qaldılar.

Manevralardan sonra bizim məktəbdə ziyafət verildi. Yemək zamanı fransız polkovniki Varlen mənim yanımda oturmuşdu. Dövlət başçılarının, rus və fransız xalqlarının, müttəfiq orduların sağlığına rəsmi tostlar deyildi. Polkovnik Varlen əyilib qulağıma dedi:

- Əli ağa, növbədən xaric olaraq, Sizin sağlığınıza!

Mənim adımı haradan bildiyinə təəccüb etdim, çünki biz birinci dəfə idi ki, görüşürdük.

Adımı haradan bildiyini soruşduqda, o mənə dedi:

- Əli ağa, Fransada topçular Sizi tanıyırlar. Buraya gəlib Topçu Zabitləri Məktəbinə baxaraq Fransaya dönənlər həmişə Sizdən danışırlar…

Bundan bir il sonra, padşaha vizit vermək üçün Fransa Respublikasının prezidenti Puankare Raymon (1860-1934) Peterburqa gəlmiş və rus ordusunun generalisimus Joffrə göstərilməsi münasibətilə mükafatlar gətirmişdi. ***Mükafatlar içərisində komandirlərə məxsus cəmi iki ədəd "Fəxri Legion" ordeni (generallara məxsus xaç ordeni) vardı. Bunlardan birini süvari generalı, qvardiya korpusunun komandiri general-adyutant Bezobrazov aldı, ikincisi isə mənə verildi."***

***09.11.2003-cü il***

# ABŞERON SÜVARİ ALAYI

*Əsgər komandirinə,*
*zabit generalına oxşamalıdır.*
***General Səməd bəy Mehmandarov***

Səksən birinci Abşeron Süvari alayı rus ordusunun qədim alaylarından biridir. Əsası 1700-cü ildə qoyulmuş alay 1760-cı ildə Berlinin alınmasında, 1798-ci ildə A.V. Suvorovun komandanlığı ilə İtaliya yürüşündə, Qafqaz və Orta Asiya müharibələrində iştrirak etmişdir.

1723-cü il sentyabrın 12-də Rusiya ilə Səfəvi imperatorluğu arasında sülh müqaviləsi imzalandıqdan sonra Dərbənd, Quba, Bakı, Salyan, Lənkəran, Ənzəli və Astrabad Rusiyanın himayəsinə keçir. Həmin dövrdə imperator I Pyotr Azərbaycanda adlı alaylar yaradılmasını əmr edir. O vaxtlar Astrabadda yerləşən səksən birinci süvari alayı Abşerona köçürülür və həmin ildən də Abşeron süvari alayı adlandırılır.

1812-ci il Vətən müharibəsində, xüsusilə Borodino döyüşündə üçüncü ordunun sıralarında qəhrəmanlıq nümunəsi göstərən Abşeron alayı Avropaya yürüşdə də iştirak etmişdir.

Şöhrəti və hünəri bütün Rusiyanı dolaşan Abşeron alayı 1819-cu ildə yenidən Azərbaycana - Abşeron yarımadasına qaytarılır. 1862-ci ilə kimi Abşeronda yerləşən alay həmin il Kubana köçürülür və Pşexa çayının sahilindəki düzəngahda düşərgə salır. Yaxınlıqda yeni salınmış stansiya da alayın adı ilə Abşeronsk adlandırılır. Sonralar həmin kiçik stansiya şəhərə çevrilir və bu günə kimi Abşeronsk adını daşıyır. Hazırda orada 40 minə yaxın əhali yaşayır.

1914-cü ildə, Birinci Dünya Müharibəsində həmyerlimiz, tam artilleriya generalı Səməd bəy Sadıq bəy oğlu Mehmandarovun komandan olduğu iyirmi birinci piyada diviziyası dörd alayı birləşdirirdi. Diviziya səksən ikinci Dağıstan, səksən üçüncü Samur, səksən dördüncü Şirvan və səksən birinci Abşeron alaylarından təşkil olunmuşdu. 1914-cü il sentyabrın 15-də başlanan Lodz əməliyyatında və Qafqaz cəbhəsindəki döyüşlərdə bu alaylar general Səməd bəy Mehmandarovun komandanlığı ilə məharətlə vuruşaraq özlərinə məxsus döyüş ənənəsi qazanmışdılar.

İki rus diviziyasının geri çəkildiyi belə bir ağır vaxtda Mehmandarovun diviziyası böyük bir iştahla irəliləyən düşmənə ağır zərbələr vurub onu geri oturtdu. Üç günlük ağır döyüşlərdən sonra İvanqorod şəhərinin hüdudlarına çatıb onu həmləyə aldı. Birinci Dünya müharibəsi tarixində general Səməd bəy Mehmandarovun bu müvəffəqiyyətli əməliyyatı alman generalı Makenzenin sürətli

planlarını puça çıxartdı. Geri çəkilən iki rus diviziyasını isə mühasirəyə düşmək rüsvayçılığından xilas etdi.

Həmin əməliyyat zamanı general Əli ağa Şıxlinski Ali Baş komandan tərəfindən səhra toplarının baş müfəttişi yanında xüsusi tapşırıq generalı vəzifəsini daşıyırdı. Sonralar o yazırdı:

"O zaman rus ordusunda yeni bir silah olan ağır səhra toplarının vəziyyətini yoxlamaq və bu sahədə fəaliyyətə istiqamət vermək üçün qərb cəbhəsinə çağrıldım. Mən yeddi korpusu gəzdim və müəyyən etdim ki, yalnız Səməd bəy Mehmandarovun İkinci Qafqaz korpusunda ağır topların vəzifəsi düzgün başa düşülmüş və bu toplar həmin vəzifələrə uyğun yerləşdirilmişdir. Bu iş korpus top müfəttişinin təşəbbüsü ilə yox, məhz mahir topçu olan Səməd bəy Mehmandarovun şəxsi təşəbbüsünün nəticəsi idi."

General-leytenant Səməd bəy Mehmandarovun komandanlıq etdiyi diviziya döyüş qabiliyyətinə görə ordu heyətində böyük şöhrət qazandı. 81-ci Abşeron və 83-cü Samur süvari alayları bu döyüşlərdə xüsusilə fərqləndilər.

Bu müharibədə misilsiz qələbələrə görə Səməd bəy Sadıq bəy oğlu Mehmandarova tam artilleriya generalı rütbəsi verildi. 1915-ci ildə o, İkinci Qafqaz ordu korpusuna komandan təyin edildi.

Vətəndaş müharibəsində isə səksən birinci Abşeron süvari alayı ağqvardiyaçı ordunun sıralarında Şimali Qafqaz və Həştərxan uğrunda döyüşlərdə iştirak etmişdir.

Moskvada Kutuzov prospektində bir müzey var: "1812-ci il Vətən Müharibəsi muzey-ponoramı". Onun salonlarından birində tamaşaçıları ayaq saxlayıb baxmağa məcbur edən qəhrəmanlıq tablosunun annotasiyasında oxuyuruq: ***"Üçüncü ordunun sıralarında igidliklə vuruşan Abşeron alayının qəhrəmanları"***.

Borodino döyüşlərinin 100 illiyinə 1912-ci ildə yağlı boya ilə çəkilmiş tablo-şəklin müəllifi dünya şöhrətli rəssam Frans Rubodur.

Müxtəlif arxiv sənədləri və hərbi-tarixi əsərlər öz səhifələrində vaxtı ilə Abşeron süvari alayında xidmət etmiş eloğullarımızın haqqında qismən də olsa məlumat saxlayıb.

***Səksən birinci Abşeron süvari alayında 1912-ci ildə podpraporşik İskəndərxan Sultan İlusulu şərəflə xidmət etmişdir. Birinci Dünya müharibəsi illərində cəbhələrdə şərəflə döyüşən podpraporşik İskəndərxan 1916-cı il fevralın 26-da ikinci dərəcəli "Müqəddəs Anna" (qılıncla birgə) ordeni ilə təltif olunmuşdur. Həmin illərdə Abşeron süvari alayında kapitan Məmmməd Əhməd oğlu Məmmədov və Əzizbəy Yusifbəyov da cəbhələrdə şərəflə döyüşmüşlər.***

## GENERAL-MAYOR TƏRLAN BƏY ƏLYARBƏYOV
*(1892-1956)*

***Şamaxı! Min ilin inci danəsi!***
***Şərqin ən sehirkar bir əfsanəsi!***
***Şamaxı! Ağ saçlı Şərqin bəzəyi***
***Elm-ürfan məşəli! Sənət çiçəyi.***

***Məşhur rus şairi,***
***Vladimir Şuf (1864-1913).***



1944-cü il fevralının doqquzunda polkovnik Tərlan bəy Əlyarbəyov döyüş xidmətlərinə görə general-mayor rütbəsi ilə təltif edilib.

Keçmiş zamanlarda belə hesab edirmişlər ki, zabit ömrü cəmi iki müharibə əzablarından keçə bilər. Biri onun gəncliyinə, o biri isə yaşlı vaxtına təsadüf edər. Lakin general Tərlan bəy Əlyarbəyov altmış dörd illik ömür yolunda üç müharibənin iştirakçısı olub. O, Birinci Dünya müharibəsində, 1918-1920-ci illərdə Azərbaycan Milli Ordusunda və Böyük Vətən müharibəsi cəbhələrində vuruşub.

Tərlan bəy 1908-ci ildə Şamaxıdakı altı illik şəhər məktəbini bitirmişdi. 1911-ci ildə üçüncü Qafqaz alayının əlaçı əsgəri olan Tərlan bəy Əlyarbəyovu Tiflisdəki Mixaylovsk hərbi piyada məktəbinə oxumağa göndərdilər. Dörd il kursdan-kursa müvəffəqiyyətlə keçən Tərlan bəy hərbi məktəbi birinci dərəcəli diplomla bitirdi. Podporuçik Əlyarbəyov Şamaxıdakı 205-ci piyada alayında xidmətə başladı.

1914-cü ilin yayında Birinci Dünya Müharibəsi başlandı. Kayzer Almaniyası Rusiyaya müharibə elan etmişdi. Əlyarbəyovun xidmət etdiyi 205-ci alay da Qərb cəbhəsinə göndərdilər. Od-alov yağan səngərlərdə gənc zabitin çətin sınaq günləri başlandı. Komandirin verdiyi tapşırıqları yerinə yetirən, hər döyüşdən qələbə ilə çıxan Tərlan bəy əsgərlərin də sevimlisi oldu. Ona görə də rota komandiri olan Əlyarbəyovu batalyon komandiri kimi məsul vəzifəyə təyin etdilər.

Öz batalyonunu qələbədən-qələbəyə aparan ştabs-kapitan Əlyarbəyovun igidliyi bütün Qərb cəbhəsinə yayılmışdı.

1916-cı ilin mayında onun sinəsini üçüncü dərəcəli "Müqəddəs Stanislav" (qılıncla və bantla birgə) və üzərində "İgidliyə görə" yazılmış dördüncü dərəcəli "Müqəddəs Anna" ordenləri bəzəyirdi.

* * *

Bir dəfə Verden şəhəri ətrafında gedən vuruşmaların qızğın çağında ona 10-cu ordunun komandanı general Əli ağa Şıxlinski ilə görüşmək nəsib olub.



General hərbçi qaydası ilə onu başdan-ayağa süzüb: "Səsini-sorağını eşitmişəm, eloğlu, əsl igid kimi vuruşursan", - deyib. Əlini onun çiyninə qoyub - "Böyük şair Puşkin vaxtilə Şamaxı gözəlini vəsf eləyib, indi yeni bir Puşkin lazımdır ki, sənin - Şamaxı Tərlanının qəhrəmanlığını qələmə alsın".

Sonra maraq dolu baxışlarını Tərlan bəyə zilləyib:

- Bir de görüm, hansı hərbi məktəbi bitirmisən, oğul?

- Tiflisdəki hərbi gimnaziyanı...

General Əli ağa Şıxlinski sevinclə:

- Hə, demək ikimiz də bir yuvadan pərvazlanmışıq. Çox şadam. Bu qürbət diyarda sevindirdin məni, oğul. Onsuz da bir neçə gündür ki, sevincimdən ürəyim köksümə sığmır. Xəbərin varmı, bu günlərdə bir eloğlumuz qeyri-adi igidlik göstərdiyinə görə "Müqəddəs Georgi" ordeni ilə təltif olunub.

- Xeyr, eşitməmişəm. Düzü, cəbhəyə gələndən heç bir azərbaycanlıya rast gəlməmişəm, cənab general. İcazənizlə soruşum, kimdi belə yüksək təltifata layiq görülən?

- Nijeqorod-draqun alayının rotmistri Teymur bəy Novruzovun igidliyi haqqında qəzetlər bar-bar bağırır. Sən isə burdan-buraya eşitməmisən. Eloğlumuz Teymur bəy özünün eskadronu ilə bir ay əvvəl düşmənin süvarilərinə hücum edərək onların hamısını qılıncdan keçirib. Hələ üstəlik də iki ağır topunu qənimət götürüb. Cəmisi iki ay yarımlıq döyüşdən sonra həmyerlimiz Teymur bəy Novruzov "Müqəddəs Georgi" xaç ordeni ilə təltif olunub. Bu çox böyük fəxrdir. O, artıq Georgi kavalerləri sırasındadır.

Tərlan bəy bu şöhrətli generalla görüşünü uzun müddət unuda bilmədi. Onlar bir də on səkkizinci ildə Bakıda görüşdülər.

1916-cı ilin yayında süvari generalı Aleksey Brusilovun ordusu Pripyat çayından Rummiya sərhədinə kimi uzanan dörd kilometrik cəbhə boyunca hücuma keçib düşmənin müdafiə xəttini yardı. Ağır şəraitdə vuruşan qoşunlar güclü düşməni xeyli geriyə qovdu. Tərlan bəy Əlyarbəyov bu döyüşlərdə sinəsindən ağır yaralandı. Bu müharibə başlanandan Tərlan bəyin aldığı dördüncü yara idi. Ştabs-kapitan bir müddət Brest şəhərindəki hospitalda müalicə olunduqdan sonra Bakıya göndərildi.

1918-ci noyabrında Əli ağa Şıxlinskinin yaratdığı Əlahiddə Müsəlman Korpusuna könüllü gələn Tərlan bəy Əlyarbəyov ikinci alayın komandir köməkçisi təyin edildi. Rusiyada qızıl Ordu tərəfindən dağıdılmış ağqvardiyaçı general Anton Denikin ordusu pərən-pərən düşüb ölkənin hər yerinə

səpələnmişdi. Dərbəndi tutan ağqvardiyaçılar Azərbaycana soxulmaq istəyirdilər. Qusarda yerləşən ikinci Azərbaycan alayı gecə-gündüz vuruşaraq düşməni Azərbaycana buraxmadı.

İyirminci ilin baharında rotmistr Tərlan bəy Əlyarbəyov Bakı Hərbi İdarə rəisinin müavini və alay komandiri vəzifəsinə təyin edilir. O, heç vaxt Bakını belə qaynar, belə təlatümlü görməmişdi.

Döyüşlərdə böyüyüb-bərkimiş Tərlan bəy Əlyarbəyov konüllü olaraq ordu sıralarına yazıldı.

Bir neçə qolçomaq Şuşanın yalçın qayaları arasına sığınaraq başına quldur dəstələri yığmışdı. Tez-tez kəndlərə hücum edir, kənd soveti sədrlərini, komsomolçuları öldürürdülər. Kapitan Tərlan bəy Əlyarbəyovun 1920-21-ci illərdəki böyük fəallığı ilə bu quldur dəstələri ləğv edildi. 1922-ci ildə respublika Xalq Komissarlığı qərargahında Hərbi Dəniz İşləri üzrə rəis işləyən Əlyarbəyova yeni bir tapşırıq verildi:

«Kürdəmir və Qaraqoyunlu ərazilərində baş qaldıran daşnak dəstələrini məhv etməli». O, cəsur silah yoldaşları ilə yorğunluq və yuxusuzluq nə olduğunu bilmədən az bir vaxtda düşməni məğlub etdi.

Azərbaycan Sovet Sosialist Respublikası Hərbi Dəniz Xalq Komissarlığının 1922-ci il 9 dekabr tarixli 525 nömrəli əmrində deyilirdi:

"Mənə etibar olunmuş Komissarlığın qərargah rəisi Tərlan bəy Əlyarbəyov yoldaş Azərbaycanda Sovet hakimiyyəti qurulan ilk günlərdən məsul vəzifələr daşımış, vicdanlı, səliqəli olması, ona tapşırılan vəzifələri can-başla yerinə yetirməsi və proletar hakimiyyətinə sədaqəti ilə fərqlənmişdir.

Hərbi işi tam bildiyini göstərmiş və Azərbaycan SSR-də mahal hərbi komissarlıqlarının təşkili işinə böyük qüvvə və qayğı sərf etmişdir. 1920-ci ildə Bakı qəzasında və 1921-ci ildə bütün respublikada səfərbərliyi yüksək bacarıqla keçirmişdir.

Hazırda HDXK-nın qərargahı ləğv edildiyi üçün Əlyarbəyov yoldaşı Azərbaycan SSR Hərbi Komissarlığının müavini vəzifəsinə təyin etməklə inanıram ki, onun öz biliyi və Sovet hakimiyyətinə sədaqəti sayəsində Azərbaycanda səfərbərlik işi həmişə yüksək səviyyədə olacaqdır.

Təxminən üç il müddətində hərbi idarədə birgə çalışdığımız vaxtlar gənc Sovet Azərbaycanının yaradılması işinə böyük zəhmət və enerji sərf etdiyinə görə Tərlan bəy Əlyarbəyova rəhbərlik adından təşəkkür elan edir və əmr edirəm ki, şəxsi xidmət kitabçasına yazılsın.

Hərbi Dəniz Xalq Komissarı və Əlahiddə Qafqaz Ordusu
Hərbi İnqilab Şurasının üzvü Əliheydər Qarayev.
Qərargah rəis əvəzi podpolkovnik Yusif bəy Məğrubov".

Komandanlıq Tərlan bəy Əlyarbəyovu hansı sahəyə göndərirdisə, namuslu bir zabit kimi çalışır, verilən tapşırığı ləyaqətlə yerinə yetirirdi. 1927-ci ildə M.V.Frunze adına Hərbi Akademiyada Ali komanda heyəti kursunu bitirdikdən sonra Bakıya qayıdan Əlyarbəyov hərbi istedadını milli hərbi kadrların yetişdirilməsinə sərf edib.

Ali komanda heyəti kursunu müvəffəqiyyətlə bitirən mayor Tərlan bəy Əliyarbəyov Azərbaycan Dağ-Atıcı diviziyasında xidmətini davam etdirir. Əsgərlərin döyüş və siyasi hazırlıqlı yetişməsində var qüvvəsi ilə çalışırdı. Azərbaycan diviziyasının o vaxtkı şöhrətli komandiri Cəmşid xan Naxçıvanski və hərbi komissar Hüseyn Rəhmanov ona verdikləri növbəti attestasiyada yazırdılar: "Ali komanda heyəti kursunu bitirən Tərlan bəy Əlyarbəyov biliyi və bacarığı ilə diviziyanın hərbi-məşq və manevrlərində yüksək komandirlik məharəti ilə iştirak edir".

Sonralar – 1932-ci ildə onun Azərbaycan Neft İnstitutdakı (indiki Neft Akademiyası) hərbi-pedaqoji fəaliyyətini yüksək qiymətləndirən Azərbaycan diviziyasının komandiri, general Qambay Vəzirov yazırdı: "Tələbələrin qazandığı əla praktiki atış nəticələrinə görə istedadlı komandir Tərlan bəy Əlyarteyova təşəkkürümü bildirirəm. Səksən səkkiz tələbədən səksən yeddisi kiçik komandir rütbəsi almaq üçün müvəffəqiyyətlə imtahan vermişlər. Onların iyirmi ikisi vzvod komandirinin müavini, beş nəfəri isə starşina rütbəsinə layiq görülmüşdür. Atış təlimdə və təcrübədə Tərlan bəy Əlyarbəyov tərəfindən yaxşı hazırlanmış bilikli tələbə-zabitlər üçüncü atıcı alayın sıralarına daxil ediliblər.

Onu da qeyd etmək lazımdır ki, Tərlan bəy Əlyarbəyov diviziyanın və ayrı-ayrı hərbi hissələrin praktiki məşğələlərində həmişə fəallıqla iştirak edir. T.Əlyarbəyov hərbi sahədə həmişə nizam-intizamlı, bacarıqlı və nümunəvi komandirdir".

1934-cü ildə Zaqafqaziya Hərbi dairəsindən ali məktəblərdə hərbi dərslərin səviyyəsini yoxlamağa gələn polkovnik Slujekov Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun hərbi rəhbəri Tərlan bəy Əlyarbəyova verdiyi xarakteristikada yazırdı: "Ali məktəblər üçün çox qiymətli hərbi pedaqoqdur. Yaxşı təşkilatçıdır. Rus və Azərbaycan dillərində aydın, səlis danışıq qabiliyyətinə malikdir. T.Əlyarbəyov məhz ali məktəblər üçün istedadlı mütəxəssisdir".

O, ikinci dəfə (1941-ci il) M.V.Frunze adına Ali Hərbi Akademiyanı bitirəndə Böyük Vətən Müharibəsi başlandı.

Cəbhəyə səfərbər olunan polkovnik Tərlan bəy Əlyarbəyov 1942-ci il oktyabrın 15-də azərbaycanlılardan ibarət 416-cı diviziyanın komandir müavini, üç ay sonra isə komandiri təyin edilib.

Diviziya 1942-ci il noyabrın otuzunda səhər Terek çayı sahilində düşmənlə ilk dəfə döyüşə girib. İki günlük döyüşdən sonra İşşorski rayonunda faşistlərin müdafiə xəttini yarıb, Novo-Lednev və Kapustino yaşayış məntəqələri azad edilib.

Xalqımızın igid oğullarından ibarət olan diviziya dekabrın altısında inamla vuruşaraq düşmənin möhkəmləndirilmiş daha bir atəş nöqtəsini məhv edib. Hücumu müvəffəqiyyətlə genişləndirən polkovnik Tərlan bəy Əlyarbəyov həmişə ön cəbhədə olub, döyüşçülərdə qələbəyə sarsılmaz inam yaradıb.

Qırx dördüncü ordunun tərkibində olan bu diviziya 1942-ci ilin qışında Şimali Qafqazda üç yüz əlli kilometrlik döyüş yolu keçərək, onlarla şəhər və kəndi düşməndən azad edib. Dəfələrlə ordu komandanlığının təşəkkürünə layiq görülüb.

1943-cü ildən sonra yetmiş doqquzuncu, səksən səkkizinci alaylara, 402-ci atıcı diviziyaya başçılıq edən və əlli səkkizinci korpusun komandan müavini kimi məsul vəzifələrdə çalışan Tərlan bəy Əlyarbəyov özünün komandirlik bacarığını parlaq şəkildə nümayiş etdirib. O, xidmət etdiyi bütün hərbi hissələrdə böyük nüfuza və hörmətə malik olub.

Müharibə illərində Tərlan bəy Əlyarbəyovun döyüş xidmətlərini yüksək qiymətləndirən komandanlıq 1944-cü il fevralın doqquzunda ona general-mayor rütbəsi verilmişdir.

Peşəkar hərbçi, igid general Tərlan bəy Əlyarbəyov 1892-ci il noyabrın iyirmi səkkizində qədim Şamaxıda anadan olmuşdur. Əsl mənada eli, obası və doğma xalqı üçün əvəzsiz xidmətlər göstərən general Tərlan bəy Əlyarbəyovun yetişdirdiyi milli hərbi kadrlar respublikada böyük nüfuza malikdirlər.

Müharibənin ağır sınaqlarında həqiqi sərkərdə şöhrəti qazanan general Tərlan bəy Əlyarbəyovun sinəsini Lenin ordeni, Qırmızı Bayraq, Qırmızı Ulduz ordenləri və çoxlu medallar bəzəyirdi.

1956-cı ildə vəfat edən generalın oğlu atasının sənədlərini qayğı ilə qoruyub saxlayırdı. Nadir Əlyarbəyovun xatirələrindən:

- Atamın söhbətləri yaxşı yadımdadır. Danışardı ki, 1908-çi ildə Şamaxıdakı altı illik şəhər məktəbini bitirəndən sonra Vladiqafqaza gedib kadet korpusuna daxil olmaq istəyirdim. Lakin babam Abdullanın qəfil ölümü onun hərbi məktəbə getməsinə mane olur. Atam yalnız 1910-cu ildə Tiflisə gedib Mixaylovsk hərbi piyada məktəbinə daxil olur.

Atam özü haqqında çox az danışardı. Evdə də az olardı. O, daim əsgərlərin yanında olar, onların ailə həyatı ilə, güzəranı ilə maraqlanardı.

Yadımdadır, atamın ölümündən sonra bizə bir jurnalist gəlmişdi. Atam haqqında yazmaq istəyirdi. Anam Lətifə xanımdan atam haqında danışmağı xahiş etdi.

Anamsa, nə deyim, nə danışım, ay oğul, - dedi, - bir doyunca üzünü kördüm ki... Qonaq kimi gəlib-gedərdi.

Anam- «Tərlan bizə gələndə belə oldu, Tərlan belə dedi»,— deyə danışanda qonşular gülərdilər.

Atamı tanıyanlar - döyüş yoldaşları, dostları həmişə deyərdilər ki, Tərlan özü üçün yaşamadı, eli, obası üçün yaşadı. O, məzuniyyət, istirahət nə olduğunu bilməzdi. Onun xidmətləri Lenin ordeni, Qırmızı Bayraq ordeni, Qırmızı Ulduz ordeni və çoxlu medallarla təltif olundu. Doğma Şamaxıda adına abad küçə qoyuldu.

Şahidi olduğum bir xatirəni heç vaxt unuda bilmirəm. Atam hərbi qulluqda idi. Anamla mən bir dəfə onun yanına getmişdik. Bizim gəlişimiz günorta vaxtına düşmüşdü. Aşpaz üç qabda yemək gətirdi. Atamın bərk acığı tutdu. Aşpazı geri çağırıb dedi:

- Bunlar buraya yeməyə gəlməyiblər ki?.. Sən niyə əsgərin payından kəsib bunlara gətirirsən. Bu saat qaytar... Sonra anama «niyə nahar vaxtı gəlmisiniz?» - dedi.

1956-cı il fevralın on beşində vəfat edən general-mayor Tərlan bəy Əlyarbəyovun adına dünyaya gəldiyi Şamaxıda və Bakıda abad küçələr qoyulub, Fəxri Xiyabanda dəfn olunub.

## SÜVARİ GENERALI YAQUB QULİYEV

***Ölümümdən sonra da mən insanlar üçün ulduz və cəsarət rəmzi olacam. Mənim adım onlar üçün çağrış, məqsəd və ümid simvoluna çevriləcəkdir.***

***Napaleon Bonapart***
***(1769-1821)***
***fransız imperatoru və sərkərdəsi***

***Azərbaycanlılarla türkmənlər eyni anadan doğulan əkiz övladlardır. Əsrlər boyu məqsə–dimiz, muradımız da bir olubdur.***

***Berdı Kerbabayev (1894-1974)***
***Türkmən xalq yazıçısı***



General-mayor
Yaqub Allahqulu oğlu Quliyev
(1900-1942)

Stalinqradın azərbaycanlı qəhrəmanlarından bir də bu günə qədər xalqımızın yaxşı tanımadığı – süvari general-mayoru Yaqub Allahqulu oğlu Quliyevdir. Həmin döyüşlərin qəhrəmanı qvardiya mayoru Qaçay Aslanov təsvir etdiyi döyüşlərdə general həmyerlimizlə eyni cəbhədə vuruşub. Xatirələrinin yalnız bir yerində Qaçay Aslanov onun adını və döyüş fəaliyyətini yada salır. Görünür, məlumatı az olub, şəxsən onu tanımayıb.

Əlbətdə, general Yaqub Quliyevi o vaxtlarda tanıyan olsa-olsa ancaq general Həzi Aslanov olardı. Ona görə ki, Həzi Aslanov da, Yaqub Quliyev də ali zabit heyəti dəstəsinə məxsus idi. Onlar müşavirələrdə, həlledici döyüş planının müzakirəsində, ordu komandanının məsləhət və məşvərəsində şübhəsiz ki, görüşüb tanış olmuşdular.

Təəssüf ki, Həziyə müharibədən sağ çıxmaq qismət olmadı. O, 1945-ci il yanvarın 24-də qədim kəhrəba diyarı Litvanın Yelqava şəhəri uğrunda döyüşlərdə qəhrəmanlıqla həlak oldu.

Müharibədən yazılan çoxsaylı memuarlarında, xüsusilə Stalinqrad döyüşləri barədə süvari generalı Yaqub Quliyev haqqında Sovet İttifaqı Marşalı S.S.Biryuzovun «Toplar atəş açmağa başlayanda», Sovet İttifaqı Qəhrəmanı, ordu generalı, professor S.P.İvanovun «Ordu gərargı, cəbhə qərargahı», general-leytenant Həsən Xaraziyanın «Mərdlik yollarında», Yakob Melkumovun «Türküstanlılar» kitablarında, S.Skoroboqatovun, B.Qudjalovun, general M.Y.Qryaznovun, A.S.Kibalnikovun məqalə və xatirələrində general həmyerlimiz Yaqub Quliyevin milliyyətcə türkmən olduğu bildirilir. Hətta, 1942-ci il dekabrın 22-də Stalinqrad yaxınlığındakı Liski çayı uğrundakı ağır döyüşlərdə qəhrəmanlıqla həlak olan, 4-cü süvari korpusunun komandir müavini, general Yaqub Quliyevin cəbhədaşları dəfn mərasimindəki mitinqdə and içmişlər ki, «Türkmən ulduzu» heç vaxt sönməyəcəkdir. Əzizimiz Yaqub bizim qəlbimizdə həmişə nur saçacaqdır, əbədi şölə saçıb ürəklərdə yaşayacaq.

Müharibədən iyirmi beş il keçəndən sonra Türkmən tarixçisi Roza Bazarova general haqqında yazdığı monoqrafiyasında ilk dəfə etiraf etmişdir ki, general Yaqub Quliyev azərbaycanlıdır. Tarixçi R.Bazarova 1970-ci il yanvarın 25-də «Ədəbiyyat və sunqat» qəzetində monoqrafiyadan bir parçanı dərc etdirmişdir. Tarixçi R.Bazarova yazır: «O, Azərbaycan torpağında – Şuşa şəhərində anadan olmuşdur. Milliyyətcə azərbaycanlıdır. Onun həyat yolu sıravi döyüşçüdən generaladək yüksəlmiş həqiqi insanın həyat yoludur».

Bəli, apardığımız tədqiqat və araşdırmalardan məlum olur ki, general, doğrudan da, azərbaycanlıdır. Bizim xalqın oğludur. Sevindirici haldır ki, türkmən tarixçisi R.Bazarova da bu faktı etiraf etmişdir. Hələ 1982-ci ildə biz generalın Gəncədə toxuculuq kombinatında işləyən bacısı qızı Xədicə Abbasova ilə görüşüb, ondan dayısı haqqında müəyyən faktları öyrənib, foto şəkillərini almışdıq. O vaxtlar «Hünər» televiziya proqramında veriliş də hazırladıq…

Generalın türkmən xalqının oğlu kimi təqdim olunması və indiyədək xalqımızın onu tanımaması səbəbsiz deyil. Qısa da olsa bu tarixçəni oxuculara çatdırmaq borcumuzdur. Dahi rus yazıçısı Lev Tolstoy çox gözəl demişdir: «Əsl nəşə həqiqəti kəşf etməkdə deyil, gec də olsa onu axtarıb həyata keçirməkdədir».

* * *

Yaqub Allahqulu oğlu Quliyev 1900-cu il yanvarın 25-də füsünkar Qarabağın Şuşa şəhərində dünyaya gəlib. Həmin vaxtlarda Şuşada erməni-müsəlman

qırğını başlamışdı. Aclıq, səfalət və təhlükə tüğyan edirdi. İmperiya canilərinə arxalanan daşnaq erməniləri havadanlarından silah alıb azərbaycanlıları qırırdılar. İnsanların üz-gözündən bədbəxtlik, fəlakət yağırdı. Güzəran Şuşada ağır idi. Çörək qıtlığı ərşə qaxmışdı. Hamı ölümdən, aclıqdan qaçıb qurtarmaq istəyirdi.

Həmin illəri tərcümeyi-halında təsvir edən məşhur yazıçı Yusif Vəzir Çəmənzəminli (1887-1943) ürək ağrısı ilə yazırdı: «Çar hökuməti Şuşadakı erməni kilsəsinə məxsus əmlakı almışdı. Bizim vəqf əmlakı da alınmış və indiyə qədər geri verilməmişdi. Bizimlə hesablaşan kim idi ki?.. Rus-yapon müharibəsi və inqilab ixtişaşlarından istifadə edərək daşnaq firqəsi terrora başladı: günün günorta çağı hökümət məmurlarını küçələrdə öldürməyə başladılar. Şuşada da az adam qırmadılar.

Ermənilər bərk hazırlaşır: bol tüfəng, tapanca, patron alırdılar. Daşnak fədailərinin əlindən şəhərdə yer yoxdur. Şuşanın iqtisadi vəziyyəti fəna olduğu üçün sənət və işi olmayanlar çəkilib kəndlərə və başqa şəhərlərə gedirdilər. Əhalinin ziyalısını Bakı və bir qismini də Aşxabad cəlb edirdi».

Bu bəladan qurtarmaq üçün Allahqulu kişi köçüb Türkmənistanın Mərv şəhərinə gəldi. Onda oğlu Yaqub altıaylıq körpə idi. Az müddət burada yaşadılar. Onlardan əvvəl Türkmənistanın şəhər və kəndlərinə xeyli Qarabağlı ailəsi köçüb gəlmişdi. Şəhərdə dolanmaq çətin olduğu üçün Allahqulu kişi həmyerlilərinin məsləhəti ilə köçüb Yolötən qəsəbəsində əbədi məskan saldı.

O, ailəni saxlamaq üçün torpaq aldı, tərəvəz əkib-becərməklə günü-güzəranı xeyli yaxşılaşdı. Yolötəndə Yaqubun bacısı Badisəbə və qardaşı Qulam dünyaya gəldi. Ailənin böyük oğlu kimi Yaqub atasına bazarda göy-göyərti satmağa kömək edirdi. Burda nə azərbaycanca, nə də türkməncə məktəb yox idi. Ona görə də həddi-bulluğa çatan Yaqubu atası rus məktəbinə qoydu. İlk vaxtlar oxumaq çətin olsa da, Yaqub gecə-gündüz çalışır, sinif yoldaşları ilə ayaqlaşırdı. Boş vaxtlarını Murqab çayının sahilində rus uşaqları ilə hərbi oyunlarda keçirirdi. Yolötən sərhəddə yerləşdiyinə görə burada çoxlu rus sərhədçiləri vardı. Yaqub da onların uşaqları ilə dostluq edirdi. Rus dilini az da olsa öyrənə bilmişdi.

1916-cı ilin yazında atası Allahqulu kişi bərk xəstələndi, sətəlcəm olmuşdu. Öləcəyini hiss edən kişi balalarını çağırıb vəsiyyət elədi: «Halal əməklə məşğul olun, ananızın qayğısına qalın» - deyib bir daha yerindən durmadı.

Dolanacaq çətinləşdiyindən Züleyxa ana evdən bəzi şeyləri satmağa məcbur oldu. Bu ağır vəziyyəti görən Yaqubun ürəyi dözmədi. Məktəbi atıb əvvəlcə Yolötəndə, sonra Marıdakı (keçmiş Mərv şəhəri – Ş.N.) pambıqtəmizləmə zavo-

dunda işə düzəldi. Amma sərhətçi uşaqları ilə yenə dostluq edirdi. Tez-tez hərbi hissəyə gedir, rus sərhədçilərinin atlarını sulayır, onlara yem verirdi.

Bir gün evə həyacanla gələn Yaqub qardaşı Qulama dedi:

- Eşitdin şəhərdəki nümayişi? Çar yıxıldı. Sən anamızdan muqayat ol, mən uşaqlarla iki-üç günlüyə Mərvə gedirəm…

Dediyi vaxtdan bir neçə gün keçdi, gəlib çıxmadı. Gəlib çıxanda anası Züleyxa onun başında qırmızı lentli papaq, əlində tüfəng görüb mat qaldı.

- Bıy, bu ki, qurban olduğum Yaqubdur, sənə nə yaman yaraşır, ay bala, bu paltar – deyə, anası sevincək onu qucaqladı, o üz, bu üzündən dönə-dönə opdü. Bu nə deməkdi, ay oğul?

- Mən daha qızıl qvardiya əsgəriyəm, ana! – deyib qımışdı.

Qonum-qonşular da bu qaraşın, suyu şirin gənc əsgərə həsədlə baxırdı.

Yaqub Quliyevin hərbi həyatı həmin gündən başladı.

* * *

1918-ci ilin yazında Mərv şəhərində orduya yeni gələnlər üçün iki aylıq hərbi kurs açılır. Hərbi işə güclü marağı olan Yaqub Quliyev əlaçı əsgər olduğuna görə həmin kursa oxumağa göndərilir. O, burada hərbi təlimlər keçir, müxtəlif silahları həvəslə öyrənir.

Yenidən rotaya qayıdan Yaqub ağqvardiyaçılara qarşı döyüşlərdə iştirak edir. Həmin illərdə onunla birgə xidmət edən S.Skoroboqatov sonralar Yaqub haqqında yazırdı: «Ordu sıralarında sinfi düşmənlərə qarşı cəsarətlə döyüşən qravdiyaçı Yaqub son dərəcə cəsur və qorxmaz idi. Bir dəfə ağqvardiyaçılara əsir düşmüşdü. O, əsirlikdən qaçaraq Yolötənə, ordan da piyada Bayram-Əliyə gəldi və yenidən ordu sıralarında vzvod komandiri kimi düşmənlərlə mübarizəyə başladı. Yaqub əsirlikdən bir qrup yoldaşlarını da xilas eləyib gətirmişdi».

1924-cü ildə Yaqub Daşkənddəki Orta Asiya milli hərbi məktəbə təhsil almağa göndərilir. Məktəbi əla qiymətlərlə bitirən Y.Quliyev orada müəllim saxlanılır və eskadron komandiri vəzifəsinə təyin olunur. Beş ildən sonra – 1929-cu ildə gənc zabit Yaqub Quliyevə daha mühüm vəzifə tapşırılır. O, ikinci Türkmənistan süvari alayının nəzdindəki hərbi məktəbin rəisi təyin olunur.

General Yaqub Quliyevin haqqında yazılan çoxsaylı xatirələrlə, istər Orta Asiya dövrü, istərsə də Böyük Vətən müharibəsi illərindəki fəaliyyəti ilə tanış olanda onun igidliyinə və peşəkar hərbiçiliyinə heyran qalmamaq mümkün deyil. Cəmi qırx iki il ömür sürmüş istedadlı sərkərdə əsgər və zabit heyəti arasında böyük nüfuza malik olub.

Otuzuncu illərdə Yaqub Quliyevin komandalıq etdiyi eskadron Qızıl-Arvatda,

Qara-Qum səhrasının ənginliklərində, Ağ-Zila çöllərində, Qırx quyu ərazisində basmaçılara və ağqvardiyaçı tör-töküntülərinə qarşı müvəffəqiyyətli əməliyyatlar aparıb.

1932-ci ildə Yaqub ikinci Tükmənistan süvari alayının qərargah rəisi təyin olunub. Bir il sonra o, M.Frunze adına Hərbi Akademiyaya oxumağa göndərilib. Deməli, Orta Asiya komandirləri arasında ilk ali hərbi təhsil alan həmyerlimiz Yaqub Quliyev olmuşdur.

Akademiyada Yaqub Quliyevin keçmiş kursant dostu, general-mayor Mixail Qryaznovun xatirəsindən:

Otuz il əvvəl Hərbi Akademiyada Yaqub Quliyevlə birgə təhsil almışam. O, qrupumuzun starşinası idi. Yaqub yaxşı oxuyurdu. Bacarıqlı komandir idi. Ona görə də təlim qrupumuzun rəisi general Pavel Alekseyeviç Kuroçkin Yaqub Quliyevi həmişə bizə nümunə göstərirdi. Həsas, təvazökar gənc komandirə hamı hörmət edərdi. İlk baxışdan sakit görünən qaraşın zabit təlim qrupları arasında keçirilən yarışlarda od-alova dönərdi. Onun başçılıq etdiyi eskadron həmişə birinci yeri tuturdu. Yaqub geridə qalan kursantlara elə kömək göstərirdi ki, o özünü təhqir olunmuş hesab etməsin.

Elə dostluğumuzun təməli də akademiyada oxuyanda qoyuldu, çətinliyə düşəndə Yaqub həmişə köməyimə çatardı. 1936-cı ilin payızında təhsilimizi başa vurduq. Moskvada keçirilən paradda iştirak elədik. Yadımdadı, 1936-cı ilin noyabr ayında ayrıldıq. Yaqub özünün Qafqaz qılıncını mənə hədiyyə verdi: «Al, - dedi, yadıgar qalsın ki, xatırlayasan. Amma unutma ki, dədə-baba Vətənimin əl işidir. Qafqazdandır». O, qılıncı indi də evimdə saxlayıram. Ordu sıralarında xidmətdə olanda dostum az olmayıb. Yaqub Quliyev onların arasında xüsusi yer tutur. Belə dostun itkisi çox ağır olur. Heyif, çox heyif ki, nə qələbəni gördü, nə də qocaldı. Qırx iki yaşında istedadının çağlayan vaxtı həlak oldu…

* * *

Sovet İttifaqı Marşalı Qeorgi Jukov da qeneral Yaqub Quliyevi müharibədən çox sonra xoş sözlərlə xatırlayırdı. «Sovet Türkmənistanı» qəzetinin müxbiri Boris Paromanovski ilə müsahibəsində Stalinqrad uğrunda döyüşlərdə faşistlərin darmadağın edilməsində Türkmən döyüşçülərinin iştirakından danışan görkəmli sərkərdə bildirmişdir ki, onların sırasında çox qabiliyyətli komandir, sonrakı döyüşlərin birində qəhrəmancasına həlak olmuş general-mayor Yaqub Quliyev da var idi («Sovet Türkmənistanı», 1966, 8 dekabr).

1941-ci ilin may ayında polkovnik Yaqub Quliyev Orta Asiyadakı şöhrətli iyirmi birinci süvari diviziyasının komandiri təyin oldu. İyulun 14-də Baş

Qərargahdan əmr gəldi: diviziya eşalonlara dolub, cəbhəyə yola düşdü. Qatar Orta Asiya torpağını arxada qoyub Qərbə doğru irəliləyirdi. Faşistlər Bryanskini və Oryolu bombalayırdılar. Baş komandalığın sərəncamı ilə onun diviziyası cəbhə komandanlığının sərəncamına verilmişdi. Onlar Suraj şəhərinin iyirmi kilometrliyindəki meşədə yerləşdirildi. Kəşfiyyat xəbər gətirmişdir ki, diviziyanın irəliləyəcəyi istiqamətdə düşmənin güclü tank və mexanikləşdirilmiş qrupları yerləşir. Polkovnik Yaqub Quliyev düşmənlə üzbə-üz döyüşə girməyi məsləhət gömədi: ancaq düşmənin kiçik bölmələrini mühasirəyə alıb qəfil zərbə ilə onları məhv etmək olardı.

Tez-tez faşist təyyarələri alçaqdan uçur, diviziyanın yerini öyrənməyə çalışırdı.

Generalın döyüşçü dostu, podpolkovnik Aleksandr Kibalnikovun xatirəsindən:

«Meşədə gizlənməyimizə baxmayaraq düşmənin qırıcı təyyərələri tez-tez diviziyamızı atəşə tuturdu. Ağır dəqiqələr idi. Düşmənin qırıcısı növbəti dəfə hücum edəndə Yaqub özü yaxınlıqdakı əl pulemyotunun arxasına keçib faşist təyyərəsinə atəş açdı. Arxadan gələnlər atəşi görüb dərhal geri döndülər. Komandir Yaqub Quliyevin bu şücayəti bizim süvariləri cəsarətə gətirdi. Bir az aralanan düşmən təyyərəsi tüstülənə-tüstülənə meşəyə düşüb partladı. Bu, vurduğumuz ilk düşmən təyyərəsi idi.

Bizim diviziya Roslavla gedən yolla irələyirdi. Avqustun 2-də gecə saat üçdə kəşfiyyatçılardan məlumat gəldi: Kriçyov-Roslavl şosesi ilə general Quderianın qoşununun 24-cü tank korpusu irəliləyir.

Yarım saat keçər-keçməz diviziyamız düşmənlə üz-üzə gəldi. Möhkəm vuruşma oldu. Bu, bizim ilk əsil döyüşümüz idi. Diviziyamız böyük itki versə də, döyüş müvəffəqiyyətlə keçdi. Bizim diviziya düşmənin sürətlə irəliləyən 24-cü tank korpusunu bir sutkadan çox ləngitdi, bir neçə tankını məhv etdi.

Döyüş qabiləyyətini, təcrübəsini və xidmətlərini nəzərə alaraq, Bryansk cəbhəsinin Hərbi Şurası polkovnik Yaqub quliyevi 21-ci, 52 və 55-ci süvari diviziyalarından təşkil olunmuş birləşmiş süvari qrupuna komandir təyin etdi. Bu birləşmiş süvari qrupu xüsusi hərbi əməliyyatları həyata keçirmək üçün yaradılmışdı və biz sonralar Yampol və Oryol şəhəri uğrunda döyüşlər apardıq».

* * *

Polkovnik Yaqub Quliyevin 21-ci Dağ-süvari diviziyası müharibənin ilk aylarından Belorusiyanın meşəli və bataqlıq ərazilərində vuruşaraq alman-faşist qoşunlarına sarsıdıcı zərbələr endirmişdir.

Bu müvəffəqiyyətli əməliyyatların şahidi olan Sovet İttifaqı Marşalı Sergey Semenoviç Biryuzov sonralar «Toplar atəş açmağa başlayanda» hərbi memuarlarında general Yaqub Quliyevin döyüş fəaliyyətindən və insani keyfiyyətlərindən geniş söhbət açıb.

Marşal yazır: «O zaman 21-ci Dağ-süvari diviziyası Orta Asiya Hərbi Dairəsindən cəbhəyə yenicə gəlmişdi. Diviziyaya qarabəniz, qaragöz, çox cəld və cəsur polkovnik Yaqub Quliyev komandanlıq edirdi. Quliyevin qarşısına tapşırıq qoyulan kimi o dərhal dedi:

- Bircə bu bataqlıqdan açıqlığa çıxsaydıq… Orda heç nədən qorxumuz olmaz.

Bu döyüşlərdə biz süvarilərlə dostlaşdıq. Məlum oldu ki, onlar vətənpərvər və yaxşı yoldaşlardır. Bu dostluq döyüşlər arası fasilələrdə yox, döyüşün çətin anlarında özünü xüsusilə göstərirdi. Mən cəsur döyüşçüləri və onların komandiri polkovnik Yaqub Quliyevi indiyədək minnətdarlıqla xatırlayıram».

1942-ci il yanvarın axır günlərində polkovnik Yaqub Quliyevi Moskvaya çağırıb, onu Dördüncü Türküstan süvari korpusunun müavini təyin etdilər. ***Həmin il fevralın 11-də ona SSRİ Xalq Komissarları Sovetinin əmri ilə general-mayor rütbəsi verilmişdir.***

***Onu da xatırladaq ki, Böyük Vətən müharibəsi illərində ilk dəfə general-mayor rütbəsi ilə təltif olunan Yaqub Quliyev olmuşdur. Həmin il noyabrın 10-da Heybət Heybətov, 1944-cü il fevralın 9-da Tərlan bəy Əliyarbəyov və 1944-cü il martın 13-də isə Həzi Aslanov general mayor rütbəsinə layiq görülmüşlər.***

* * *

Cəbhələrdə vəziyyət ağırlaşmışdı. Ölkənin içərilərinə soxulan faşist ordusu geniş Don çöllərini keçib Stalinqrada can atırdı. Yaqub Quliyev də həmin cəbhəyə göndərildi.

1942-ci il noyabrın 19-da general-leytenant Timofey Şapkinin və general-mayor Yaqub Quliyev düşmənin arxasına keçib qəflətən zərbə endirmək üçün neçə yuxusuz gecələr keçirərək həlledici hücuma hazırlaşdılar. İlk hücum çox uğurlu oldu. Süvari korpusu Abqanerovo stansiyasını, Aksay şəhərini və xeyli yaşayış məntəqəsini düşməndən azad etdi. Həmişə cəbhənin ön xəttində olan general Yaqub Quliyev cəsurluğu, misilsiz şücaəti ilə süvarilərinə şəxsi nümunə göstərirdi.

Dördüncü süvari korpusun komandiri general-leytenant T.T.Şapkinin imzaladığı təltif təqdimatında qeyd edilir: «General-mayor Yaqub Quliyev ən təhlükəli sahələrdə olaraq, özünün cəsarəti və igidliyi ilə komandir və döyüşçüləri qəhrəmanlığa ruhlandırmışdır. 23 noyabr 1942-ci ildə general Yaqub

Quliyev şəxsən döyüşçülər sırasında olmuş və onları Solyanıy kurqanını ələ keçirməyə irəli aparmışdır. Vəziyyət bunu tələb edirdi və Solyanıy kurqanı alınmışdı. General-mayor Yaqub Quliyev 222-ci süvari alayını düşmən üzərinə aparmışdır. Tank döyüşlərində artilleriyanın atəş mövqelərində olaraq artilleriyaçıların uğuruna kömək etmişdir. Alman işğalçıları ilə mübarizədə Stalinqrad cəbhəsi komandanlığının fərdi tapşırığını yerinə yetirdiyinə görə və bu zaman döyüş meydanında şəxsi igidlik və cəsarət nümayiş etdirdiyinə görə, general-mayor Yaqub Quliyev «Qırmızı Bayraq» ordenilə təltif olunmağa tam layiqdir».

Beşinci Zərbə ordusunun tərkibində həmin günlərdə iki mərd həmyerlimizin süvariləri Kotelnikova rayonunda yanaşı vuruşurdu: podpolkovnik Həzi Aslanovun tank alayı və general Yaqub Quliyevin komandir müavini olduğu dördüncü süvari korpusu.

Dekabrın 16-da quduzlaşmış Manşteyn qoşunları Hitlerin köndərdiyi «Pələng» tanklarına arxalanıb inadkarlıqla vuruşurdular. Onların məqsədi feldmarşal Paülüsun qoşunlarını mühasirədən qurtarmaq idi. Nəyin bahasına olursa-olsun düşmənin bu niyyəti pozulmalı idi. Bu tapşırıq 4-cü süvari korpusun əsgər və zabitlərinə də verilmişdi. Onlar general R.Malinovskinin 61-ci Qafqaz diviziyası gələnədək zirvəni müdafiə edib əldə saxlamalı idilər. Bu döyüşlər zamanı general Yaqub Quliyev cəbhənin lap ön xəttində vuruşurdu. Stalinqrad cəbhəsində qəti qələbəyə az qalmış – 1942-ci il dekabrın 22-də faşistlərin atdığı top gülləsi mərd general Yaqub Allahqulu oğlu Quliyevi ölümcül yaralandı. Mərd Azərbaycan oğlu və «Türkmən ulduzu» kimi şöhrət qazanmış Yaqub Quliyev Volqa sahilində əbədi yuxu tapdı. Onun rəşadəti ölümündən sonra da dövlət tərəfindən yüksək qiymətləndirildi. Təəssüf ki, Lenin ordenini sinəsində gəzdirmək generala qismət olmadı.

Xalqımızın mərd oğullarına sevgi və məhəbbət bəsləyən, Sovet İttifaqı Marşalı Sergey Biryuzovun səmimi sözləri yada düşür. Stalinqrad döyüşlərinin iştirakçısı olan marşalın Həzi Aslanov haqqında da ürək açan sətirləri var. Marşal general Yaqub Quliyev və onun döyüşçülərinin qəhrəmanlığı haqqında yazır: «Bizdən ön cəbhədə olan 51-ci ordunun hissələri bir neçə gün idi ki, gecələr də arası kəsilməyən döyüşlərdə iştirak edirdilər. Sağ qonşumuzun – beşinci zərbə ordusunun vəziyyəti xüsusilə ağır idi. Həmin orduya daxil olan dördüncü süvari korpusu böyük itkilərə məruz qalmışdı. Onlar Şərqə tərəf çəkilmişdilər. Süvari korpusunun bir neçə komandiri həlak olmuşdu. Korpus komandirinin müavini general-mayor Yaqub Quliyev ölümcül yaralanmışdı. O, mənim Bryansk

cəbhəsində döyüş yoldaşım idi. Mehriban insan, qayğıkeş komandir kimi şöhrət qazanmışdı. Yadımdadır, Belorusiyada olanda o, operativ sahəyə çıxmağa, süvarilərə məxsus tərzdə vuruşmağa can atırdı. Süvarilər Vətəndaş müharibəsi illərində olduğu kimi, böyük rol oynaya bilmədiklərinə baxmayaraq, general Yaqub Quliyev kimi komandirlərin sayəsində hitlerçi işğalçılara qarşı sovet xalqının mübarizəsində misilsiz hünərlər köstərmişlər. Stalinqradın Mamay təpəsində digər iştirakçılarla birlikdə mərd və heç vaxt unudulmayan general Yaqub Quliyevin də adı qranit lövhə üzərində həkk olunmuşdur».

* * *

İstefada olan general-leytenant Həsən Laqustanoviç Xaraziya 1984-cü ildə nəşr olunmuş «Mərdlik yollarında» kitabında döyüş yoldaşı general Yaqub Quliyevi unutmamışdı. Müharibədən əvvəl o, iyirmi birinci Dağ-süvari diviziyanın tərkibinə daxil olan alayların birində mayor rütbəsində qərargah rəisi vəzifəsində xidmət edirdi. Həsən Xaraziya yazır: «1941-ci il iyunun əvvəlində diviziya komandiri general Aleksey Semyonoviç Jadov yeni təyinat aldı, onun yerinə isə dairə qərargahında idarə rəisi olan Yaqub Quliyev təyin olundu. Bəli, belə əvəzlənmə A.S.Jadovla ayrılığın acısını müəyyən dərəcədə azaldırdı. Bizim çoxumuz polkovnik Yaqub Quliyevi tanıyırdıq və hörmət edirdik. O, millətcə türkmən (!? - Ş.N.) idi, ***1900-ci ildə Azərbaycanda anadan olmuşdur. Yaqub Allahqulu oğlu Quliyev A.S.Jadova layiqli əvəz idi. Bu bizi ruhlandırırdı»***

General-leytenant Həsən Xaraziya xatırlayır ki, diviziyanın yeni komandiri ciddi və tələbkar idi, lakin yumor hissindən də məhrum deyildi. Diviziyanın cəbhəyə göndərilməsindən bəhs edərkən o, belə bir epizodu yada salır: «Budur, çoxdan gözlədiyimiz gün çatdı. Eşelonlara yüklənmə ərəfəsində alaya polkovnik Yaqub Quliyev gəldi. O, alayın şəxsi heyət və hərbi texnika ilə komplektləşdirilməsini diqqətlə yoxladı, süvarilərin əhval-ruhiyyəsilə maraqlandı. Sonra şəxsi heyəti toplamağı əmr etdi. Onun ürəkdən gələn sözləri indiyə kimi yadımdadır: «Yoldaşlar! Partiya, dövlət və xalq qarşısında verdiyimiz andı icra etmək vaxtı, sovet silahını şöhrətləndirmək zamanı çatıb. Qüdrətli sosialist Vətənin layiqli övladları olun». Sonra Yaqub Allahquliyeviç komandirlərə yaxınlaşıb dedi: «Nəhayət, dostlar, bizim zamanımız yetişdi. Vətəni qorumağa gedirik!». Hər yandan:

- Yoldaş polkovnik, bizi hara göndərirlər? Hansı cəbhəyə? - sualları səsləndi.

- Bax bunu indi deyə bilməyəcəyəm, özünüz başa düşürsünüz, hərbi sirdir, - diviziya komandiri Yaqub Quliyev gülümsədi. Və zarafatla dedi:

- Onu bilin ki, maşinist yolu yaxşı tanıyır, hara lazımdır çatdıracaq».

* * *

1990-cı ildə Moskvada «Hərbi memuar» seriyasından nəşr olunmuş bir kitab aldım. Dörd yüz səksən səhifəlik kitabın müəllifi, Ordu generalı, Sovet İttifaqı Qəhrəmanı, professor S.P.İvanovdur. Kitabda general həmyerlimiz Yaqub Quliyevin foto-şəkilini və döyüş qəhrəmanlığından səhifələri oxuyub sevindim. Stalinqrad döyüşlərindən alli il keçməsinə baxmayaraq ordu generalı iki həmyerlimizin – Yaqub Quliyevin və Həzi Aslanovun qəhrəmanlığını hələ də unutmayıb. Yeri gəlmişkən, general Yaqub Quliyevin haqqında xatirə yazan rus generallarından yalnız Semyon İvanov onun türkmən yox, qafqazlı olduğunu bildirir.

«…Şimal qrupuna rəhbər təyin etməkdə komandanlığın fikirləri hacalandı, Ordu komandanı general A.M.Qorodnyanski oraya 307-ci atıcı diviziyanın komandiri polkovnik Q.S.Lazkonu, amma Qərargah rəisi general-leytenant A.V.Petruşevski, general Y.A.Quliyevi təyin etməyi məsləhət gördü. Müzakirə zamanı general Yaqub Quliyevin daha bacarıqlı olmasını yüksək rütbəli zabitlər xüsusi qeyd etdilər.

Faktiki olaraq ordu komandanının müavini vəzifəsini icra edən Yaqub Quliyevin namizıdliyində dayandılar. Ona görə ki, onun belə birləşmələrə rəhbərlik etmək təcrübəsi vardı. General Yaqub Quliyev əvvəllər 21, 52 və 55-ci süvari diviziyalarının tərkibində olan qruplara rəhbərlik etmişdi. On üçüncü ordunun veteranı olan Yaqub Quliyev çox səciyyəvi xüsusiyyətlərə malik idi. Bu ehtiraslı qafqazlının qarabəniz sifətini kömür kimi qara və ağıllı gözləri daha da işıqlandırırdı. Demək olar ki, onun bütün həyatı alovlu və ehtiraslı keçmişdir. Onun kasıb kəndli ailəsindən olmasına baxmayaraq qırx ildən bir qədər artıq ömründə çox əziyyətlər görmüşdü.

On səkkizinci ilin baharından öz həyatını Qızıl Ordu ilə həmişəlik bağlamışdır. O, Xəzəryanı cəbhədə ağqvardiyaçılara və ingilis müstəmləkəçilərinə qarşı cəsarətlə döyüşmüş, sonralar isə Qaraqum səhralarında basmaçılarla mübarizədə polad kimi bərkimişdi. Cəsarət və hünərinə görə ordenlə təltif olunmuşdur. Müharibədən əvvəl M.V.Frunze adına Hərbi Akademiyanı və Baş Qərargahın nəzdində olan Hərbi Akademiyanın təkmilləşdirmə kursunu da müvəffəqiyyətlə bitirmişdir.

Böyük Vətən müharibəsinin ilk günündən on üçüncü ordunun tərkibində olan İyirmi birinci Dağ Süvari diviziyasına komandanlıq etmişdir. General Yaqub Quliyevin süvariləri düşmənə cəsarətli və sürətli zərbələr vurmuşdur.

Ordu komandanı, general A.M.Qorodnyanski əmr etdi ki, nəyin-bahasına

olur-olsun gələcək əks zərbələr naminə əlverişli mövqeləri itirməmək üçün düşmən qoşununun Şimal istiqamətində irəliləməsinə yol verilməsin. Məhz bu zaman general Yaqub Quliyevin əla döyüş keyfiyyətləri üzə çıxmışdır. Hitlerçilərin Şimal həmlələrinin qarşısını almaq üçün ordu komandanı Yaqub Quliyevə Trosno istiqamətində düşmənə zərbə vurmağı əmr etmişdir. General Y.Quliyev qısa vaxtda bu hücumu təşkil edib, müvəffəqiyyətlə başa çatdırmışdır. Bundan əlavə Quliyevçilər düşmənin atəş məntəqələrini, tankların çoxluq təşkil etdiyi yerləri aşkar etmiş və onlara sarsıdıcı zərbələr vurmuşlar. Bu da yalnız Quliyevçilərə deyil, bütöv cəbhə üçün əlverişli şərait yaratdı.

İyirmi birinci süvari diviziyasının qəhrəmanlıqla həlak olmuş döyüşçülərinin şərəfinə Ponyatovka stansiyasında əzəmətli abidə qoyulmuşdur. Quliyevçilər general Yaqub Quliyevin qeyri-adi sərkərdəlik bacarığı ilə hər yerdə, hər cəbhədə qəhrəmanlıqla vuruşmuşlar. Onlar bu şərəfə layiqdilər.

Şəxsən mən general Yaqub Quliyevin bir çox döyüşlərdə fərqləndiyinin şahidi olmuşam. Heç təsadüfi deyil ki, o, Qırmızı Bayraq ordeninə, general-mayor rütbəsinə layiq görülmüşdür. Dördüncü süvari korpusunun komandir müavini kimi yüksək vəzifə tutmuşdur. Əsasən onun Orta Asiya respublikalarının əhalisindən təşkil olunmuş döyüşçüləri hitlerçilərə qarşı böyük cəsarətlə vuruşurdular. 1942-ci ilin dekabr ayında altmış birinci süvari diviziyasının ön döyüş xəttində qəhrəmanlıqla vuruşan general-mayor Yaqub Quliyev Stalinqrad ətrafı döyüşlərin birində ölmcül yaralandı. Həlak olandan sonra Lenin ordeni ilə təltif olundu».

* * *

***Süvari general-mayoru Yaqub Quliyev haqqında oçerki yazıb qurtaranda vaxtilə özüm üçün tərtib etdiyim «Çox bilmək istəyənin dəftəri» adlı qeydlər kitabçamı vərəqlədim. Dəftərdə xalqımızın görkəmli ziyalıları, sərkərdələri haqqında nadir faktları, müdrik fikirləri toplamışam. Üç eloğlumuz haqqında nə vaxtsa yazdığım belə bir qeydə rast gəldim.***

***- Taciklərin ilk qəzetlərinin naşiri və redaktoru Mirzə Cəlal Yusifzadədir (1862-1931);***

***- Özbəklərin ilk xalq şairi, professor Maqsud Məsum oğlu Şeyxzadədir (1908-1967);***

***- Türkmənlərin ilk generalı Yaqub Allahqulu oğlu Quliyevdir (1900-1942).***

***Türkmənistanda general Yaqub Quliyevin xatirəsi əbədiləşdirilib. 1960-cı ilin aprel ayında Marı şəhər bağında ona bürünc heykəl qoyulub, muzey açılıb.*** Onun adına küçə və kolxoz var. Türkmən xalqı onu öz oğlu kimi qəlbən

sevir, ona bizim ulduzumuz və Türkmən ulduzu fəxri adı veriblər. Orduya gedən çağrışçılar generalın heykəli önündə andiçmə mərasimi keçirirlər. Türkmənistanda onun adı cəsarət rəmzinə dönüb.

İnanırıq ki, süvari generalı Yaqub Quliyevin adı təkcə Türkmən xalqının yox, bundan sonra həm də doğma Azərbaycan xalqının ümid simvoluna çevriləcək. Xalqımızın hərb tarixində adı iftixarla çəkiləcəkdir.

***Görədil – 14 oktyabr 2010-cu il***



# "SƏMƏD BƏY NAMINDA BİR KİŞİ GÖRDÜM"

***Borçalı elində bir şəxsi izzət,***
***Gedib qoca köydə xoş ülfət gördüm.***

***Aşıq ŞENLİK***
***(1853-1912)***



***Səməd ağa Daşdəmir ağa oğlu Qasımov***
***(1820-1880)***

Qənsələrin yanında avtobusdan düşdük. Qaranlıqda minib, qaranlıqda da düşdüyümüzə görə sərnişinlərdən heç biri bizi tanımırdı. Soyuq, çiskinli dekabr havasında hamı evinə, isti ocağına dağılışdı. Çöldə qalan ikimiz olduq. Geniş bir prospektin başında dayanıb Ağanın evini soruşmağa adam axtardıq. Yol yoldaşım Mahmud əmi əllinci illərdə burada müəllim işləmişdi. Ötüb-keçən illərin dəyişikliyi, üstəlik də axşamın sazağı, tor qaranlığı onu da çaşdırmışdı. İnscins olmayan yad küçədə hara istiqamət götürməyə çətinlik çəkirdik. Arxadan gələn ayaq səslərini eşidib geriyə döndüm. İki nəfər düşmən dilində nəyinsə qarasınca deyinə-deyinə ötüb keçdi. Mahmud əmi təəssüflə:

- Əyə, onlardan niyə soruşmadın? - dedi.
- Onların göstərdiyi yoldan xeyir tapmarıq, - dedim.
- Niyə?
- Ermənicə danışırdılar...
- Ə, bu qırılmışları hələ burdan rədd eləməyiblər?

Qarasına prospekt boyu bir az irəlilədik. Sağ tərəfə dönən yolun başlanğıcında, iki yük maşınının işığında doğma dilimizdə danışıq eşidəndə eynimiz açıldı.

Mahmud əmi irəli durub;

- A qardaşlar, - dedi, - Ağanın evinə yol hardan dönür?

- Düz gəlmisiniz, elə bu küçədir, - dedilər, - odey, darvazasına düşən gur işıq Ağanın mülküdür.

Qazaxdan ta Sarvana /indiki Marneuli - Ş.N./ kimi Mahmud əmi mənə Daşdəmir ağa Rüstəm ağa oğlu Paşayev və onun nəsli-nəcabəti haqqında danışmışdı. Demişdi ki, Borçalı mahalında hamı ona "Ağa" deyə müraciət edir. Mənə ləzzət verən də yol soruşduqlarımızın cavabı oldu. Onlar deməDilər ki, hansı ağa...

Ağanın görüşünə getməkdə iki məqsədim vardı: biri ulu babası Səməd ağa haqqında olan əhvalatları eşitmək, biri də onun ana tərəfdən Səməd Vurğunla qohumluğunu öyrənmək.

Evə çathaçatda Mahmud əmi dedi ki, kef bundadı, gedək görək Ağa evdə yoxdu.

Həyəcanımı gizlədə bilməyib:

- Nə danışırsınız, - dedim, - bunu Qazaxda desəydin, bu sazaqlı qış havasında, dörd-beş maşın dəyişə-dəyişə bu əziyyətlə gəlməzdik.

- Gəl görək, - dedi, - qardaşoğlu, əziyyətdən keçib, daha gəlib çatmışıq, ya qismət...

- Mahmud əmi, - dedim, - hanı Sarvan camaatı, hələ axşamdandı, amma iraq olsun, elə bil köçüblər?

- Qorbaçovun aşkarlığının işığına yığışıblar, oğul, - köksünü ötürüb - Allah pis rəhbərin evini yıxsın, - dedi, - yıxacaq da... Başıpozuqluqdan burda oğru, quldur çoxalıb. Adam girov aparmaq, ev yarmaq bu saat dəbdi. Ona görə də hamı axşamdan ocağının başına yığılıb. Bir fikir ver, qapı-pəncərə dəmir barmaqlıqlarla necə bərkidilib...

Gur işıq düşən darvazaya çatıb dayandıq. Mahmud əmi:

- Ay ev yiyəsi, ay Ağa - deyib bir-iki ağız çağırdı.

Eyvanın o başında qucağı uşaqlı bir gəlin göründü.

- Qızım, Ağaya de, bir eşiyə çıxsın.

- Ağa yoxdu evdə, kimdi soruşan?

- Hardadı? - Mahmud əminin səsi özü də hiss eləmədən hirsli çıxdı.

- Toya gedibdi. Kimdi ki, Ağanı soruşan?

- Mənəm, Mahmudam, Qazaxdan gəlirəm...
- Bıy, a Mahmud müəllim, sizsinizmi, qoy darvazanı açım, bircə dəqiqə...

***

İlahi, insan insana necə oxşarmış... Ata-babalarımız yox yerdən deməyib ki, insan ekiz doğulur. Kəndində-kəsəyində olmasa da, hardasa onun oxşarı, tən yarısı var. Şən əhval-ruhiyyə ilə toydan gələn Ağanı bilmirəm iki qardaşdan hansına oxşadım. Səməd Vurğunamı, yoxsa Mehdixan Vəkilovamı?

Boy-boxunda Mehdixan müəllim, danışıqda, təmkində isə Səməd Vurğun idi, dip-diri qarşımda durmuşdu.

- Anamın dediyinə görə, mən süd qohumlarım Vəkilovlara çəkmişəm.

İki gün qonağı olduğum Daşdəmir ağa bunu bircə dəfə təvazökarlıqla, həm də iftixarla e'tiraf elədi.

- Daşdəmir ağa, - dedim, - qohumun Səməd Vurğunla görüşünüz olubmu?
- Olub, çox gec. O da bircə dəfə. 1955-ci ildə gürcü şairi David Quramişvilinin 250 illik yubileyinə gələn Səməd Vurğun və Osman Sarıvəlli bizim qonşu yazıçı Hidayət Bayramovla Tbilisidə görüşür. Söhbət zamanı Hidayət müəllim deyir ki, sizin bir qohum Sarvanda bizimlə qonşudur. Saquramoya yubiley şənliyinə gedən Səməd Vurğun Hidayət müəllimə deyir ki, bizim qohuma salam söylə, deynən, onun görüşünə gələcəm.

Bir gün xəbər gəldi ki, Səməd Vurğun və Osman Sarıvəlli Faxralı kəndinə gediblər, sabah Sarvana gələcəklər. On-on beş kişi maşınlara minib Qızılhacılı yolunda onları qarşılamağa getdik.

***Hamımız cərgə ilə durmuşduq. Maşından düşən şairlər hamı ilə əl tutub keçirdilər. Səməd Vurğun mənimlə görüşüb dayandı, üzümə diqqətlə baxıb:***

***- Bizim qohum sən olarsan? - dedi.***

***- Bəli, - deyən kimi qollarını açıb məni qucaqladı. Öpüşdük, kövrəldik. Niyə kövrəldik, bu günədək özüm də bilmirəm. Onun od kimi isti, xəstəhal nəfəsini indi də üz-gözümdə hiss edirəm. Şair bir addım geri atıb mənə başdan-ayağadək bir də baxdı: - Ayə, - dedi, sən elə mənim gəncliyimsən ki, qoca Səməd Vurğunla üzbəüz durubsan.***

Qonaqları Hidayət müəllimin evinə apardıq. O, əvvəlcədən hazırlıq görmüşdü. Çünki Hidayət müəllim mənə demişdi ki, sizin ailə ilə çox maraqlanır, ananla görüşmək istəyir. Mən nisbətən cavan olduğumdan onlarla çox da həmsöhbət ola bilmirdim. Yemək-içmək başlandı. Elə birinci badələr qaldırılanda Səməd Vurğun hiss elədi ki, bizim evdə deyil. Onda dedi:

- İçin, nuş olsun. Belə çıxır ki, mən buraya Hidayətin evini görməyə gəlmişəm, qohumumun yox...

Durub bizə gəldik. Anamla görüşüb öpüşdü. Yanaşı oturub xeyli söhbət elədi.

- Ay Fatma xanım, - dedi, - bilirsən sən kimə oxşayırsan?

- Bilirəm, niyə bilmirəm, sənin nənən, mənim də xalam Aşa qarıya.

- İcazə ver, səni bir də öpüm. Səni gördüm, elə bil rəhmətlik nənəmlə görüşdüm. Torpağı sanı yaşayasan, - sonra üzünü məclisdəkilərə tutub: - Hə, dostlar, - dedi. Allaha şükür ki, özümün ağalıq evinə qonaq gəldim. İndi özümü burda rahat hiss edirəm.

Bizim raykom katibi Səmədə qıyğacı baxıb kinayə ilə:

- Nə ağabazlıqdır, - dedi, yoldaş Vurğun, ağaynan, bəynən çoxdan qurtarmışıq.

Səməd təfərrünclə ona baxa-baxa:

- Yoldaş, - dedi, - sən hansı vəzifədə işləyirsən?

Bir yaltaq dərhal:

- Bizim raykom katibidir, - dedi, - Səməd müəllim.

Səməd Vurğun iti və sərt baxışlarını katibdən yayındırmadan:

- Danışığından və hərəkətlərindən demaqoq adama oxşayırsan. Təsadüfən bizim ağalığımızı yuxarılara yazmazsan ki...

- Yazardım, şair, nə qabiliyyətim, nə də dəftər-qələmim yoxdu.

Səməd Vurğun gur və şaqaraq səslə:

- Ayə, onda çalın oynayaq, - dedi, - raykom katibiniz savadsız çıxdı.

Bu, Səməd Vurğunun bizə birinci və axırıncı gəlişi oldu.

***

Daşdəmir ağanın ana babası Həsən bəy Əfəndiyev 1905-ci ildə Sankt-Peterburqda universitet bitirir. Rus qızı ilə evlənib Salahlıya qayıdır.

Atası Musa əfəndi oğlunun gavur qızına evləndiyinə bərk əsəbiləşir. Övlad kimi onu vərəsəlikdən məhrum edir. Hirslənən ata:

- Çıx, - deyir, - mənim evimdən, kəndimdən. Sən mənim pak evimə qara ləkə saldın. Eldə-obada məni rüsvay elədin.

Oğlu Həsən yalvar-yaxarla bircə gecə qalmağa rüsxət istəyir. Allahın qəzəbindənmi, yoxsa tərslikdənmi gecə ot tayası uçur, arıq bir camış altda qalıb ölür.

Musa əfəndi haray salıb:

- Oğlum kafir qızı aldığına görə evimə bəla gəldi, - deyib Həsəni evdən qovur.

Türkmənistana gedən Həsən bəy 1908-ci ildə ilk dəfə Aşqabadda rus-tatar məktəbi açır. 1937-ci ildə Ali Təhsil Nazirliyində yüksək vəzifədə işləyən Həsən bəyi nəslən ağa olduğuna görə güllələyirlər. Onun üç oğlu - Aman, İskəndər və Cavad indi də Aşqabadda yaşayır. Nəslin bir qolu da orada davam edir.

Otuzuncu ildən başlayaraq, Daşdəmir ağanın Qasımlı nəslinə çox zülmlər olub. Hər iki tərəfdən - ana və ata tərəfindən nəslən ağalıq olduğuna görə onları Borçalıda "xalq düşməni" kimi qələmə veriblər. Arada su bulandıranların, yaltaq və buqələmunların əlinə girəvə düşüb. Çuğulların fitvası ilə 1930-cu ildə atası Rüstəm ağa, əmisi İskəndər ağa güllələnib. Əmiləri Şəmi və Balabəy isə sürgün olunub.

- Nəslimizin başı papaqlılarının hamısını yığışdırdılar. Mən 1944-cü ildə güc-bəla ilə Sarvan Dövlət Bankında şagird kimi işə düzəldim. Bir il əvvəl babam Səməd ağanın fotoşəklini tapmışdım. Onu Aşa nənəm qorxudan həyətimizdə daşın altında basdırmışdı. Bir az solan şəkli bərpa elətdim, başıma bəla açdım.

Qonşulardan kimsə NKVD-yə xəbər verir ki, ağa nəvəsi Daşdəmir babası Səməd ağanın şəklini saxlayır. Gecə saat ikidə qapımız çox kobudcasına döyüldü. Qapını açan kimi dörd nəfər içəri soxuldu. Podpolkovnik Parikyan, Oruc Məmmədov, milis Göyü Zamanov, Molla adlı birisi də Qızıl-Hacılıdan idi. Oruc içəri girən kimi:

- Əyə, köpək oğlu, - dedi, - Səməd ağanın şəkli hardadı?

- Niyə söyürsən, - dedim, - şəkli istəyirsən bu saat verərəm.

Kamoddan şəkli tapıb verdim. Qəfildən soldat kəməri ilə sol gözümün üstünə vurdular. Səntərləyib kamoddan tutdum. Yıxılmadım, hansısa: "köpək oğlunda doğrudan da ağa gücü var" - dedi. Əməlli-başlı geyinməyə qoymadılar. Maşına basıb Tiflisə apardılar. İki gün sorğu-sual elədilər. Elə sənəd düzəltmişdilər ki, guya mən hökumət çevrilişi eləməyə hazırlaşıram. Bir gecə "rəisin qəbuluna" - dedilər. Üç nəfər oturmuşdu; yuxarı başda general Rapava /millətcə meqrel idi/, mayor Karanidze və Naçqebia da yanında.

General Rapava diqqətlə mənə baxa-baxa astadan gürcücə dedi ki, bu ki, çox uşaqdır...

Onda mənim on dörd yaşım yenicə tamam olmuşdu.

Naçqebia məni azərbaycanca sorğu-suala tutdu:

- Hansı kənddənsən, oğlan?- dedi.
- Qasımlıdan.
- Hansı nəsildən, hansı famildənsən?
- Ağalıq nəslindənəm, - dedim. - Dəli Səməd ağanın qardaşı oğluyam. İskəndər ağanın da əmizadəsi.
- İşləyirsənmi?
- Bəli, yeddinci sinfi bitirmişəm. Atam güllələnəndən sonra dolana bilmədik, işə girdim.
- Komsomolçusanmı, kim səni komsomola götürüb?
- Bəli, Cəlal Məmmədov komsomola qəbul edib.
- Oğlan, görürəm çox dilli-dilavərsən, sənə bir sual verəcəm, düz cavab desən, canını qurtararsan...
- And içirəm ki, Sizə düz cavab verəcəm. Onsuz da mənə olan olub. Cavan yaşında atam güllələnib, evimizi hökumət alıb məktəb eləyib. Anamı məcbur elədilər ki, ya sürgünə, ya da ayrı ərə getməlisən ki, ağalıq familini daşımayasan. Anamın getdiyi ikinci əri 1941-ci ildə öldü, dəyirmançı idi. Ondan da üç uşaq qaldı. Mən də yetim bacı-qardaşımı saxlamaq üçün dəyirmanda işlədim. İndi də...
- Bəs sən bilmirsən ki, keçmiş çar zabitinin, ağanın fotoşəklini saxlamaq olmaz? Axı, sən komsomolçusan? . .
- Bu şəkil mənim babamındır. Siz də generalsınız. İllər keçib quruluş dəyişsə, nəvəniz Sizin şəklinizi saxladığına görə onu soldat kəməri ilə başına vurub bihuş etsələr, bu, Sizə xoş gələrmi?

Naçqebia susdu. Köksünü ötürüb mənim dediklərimi general Rapavaya tərcümə elədi. Üzünə xoş təbəssüm qonan Rapava:

- Okro bici var - dedi, yə’ni qızıl kimi oğlandır. Bununla işiniz olmasın...

Bir kapitan çağırdılar. Dedilər get, bir dəst paltar gətir. Paltarı mənə geyindirdilər. Məni gecəylə aparanda tuman-köynəklə aparmışdılar. Məni gətirənləri içəri çağırdılar, mənə isə dedilər ki, çöldə gözlə. Səhər saat altıdan səkkizə kimi gözlədim. Onların dördü də suyu süzülə-süzülə çıxanda biri dedi ki, mən sizə demədimmi ki, bu çox uşaqdı, bu qədər sənədi niyə hazırlamısınız?

Geri qayıdanda mənə hədə-qorxu gəlib dedilər:

- Bax ha, səni hara apardığımızı gərək heç kəs bilməsin, yoxsa yenə... Yazılı surətdə dilindən iltizam verməlisən.

Namərdlərin planlarının baş tutmamasından ayağım yer almışdı. Bir tərəfdən də general Rapavanın "okro bici var" - deməyi məni ürəkləndirmişdi. Ona görə də cəsarətlə dedim:

- Necə deməyim, vurub gözümün üstünü partlatmısınız, sabah mən işə çıxmalıyam. Hələ bir yoxsa yenə deyirsiniz...

Səhər işə çıxanda bankın direktoru Həsrət İsmayılov məni yanına çağırdı. Özümü saxlaya bilməyib uşaq kövrəkliyi ilə ağladım. Əhvalatı danışdım. Həsrət məni raykom katibi Qoçladzenin yanına aparıb dedi:

- NKVD gecə ilə bunu aparıb döyüb, gör nə kökə salıb.

Qoçladze orqana zəng elədi. Bir az danışıb sarısını udmuş halda dedi ki, hədə-qorxu gəlirlər, deyirlər, siz qarışmayın.

1949-cu il yanvarın iyirmi birində məni yenə həbs elədilər. Bu dəfə nə evimizi axtardılar, nə də şəkil-zad istədilər. Günahım nə idi, bilmirdim.

Mənim Givi Çaparidze adlı bir gürcü dostum vardı, atalığı Valiko Loladze rayon prokuroru idi. Kameradan Giviyə məktub yazıb xahiş elədim ki, atalığına desin, mənə kömək eləsin. Givi görüş alıb yanıma gəldi. Valiko deyib ki, qırx dördüncü ildə məni siyasi dustaq kimi aparanda ona görə buraxıblar ki, on səkkiz yaşım tamam deyilmiş. O vaxtdan səni həbs etmək üçün sənəd hazırlayıblarmış. İndi on səkkiz yaşın tamam olan kimi həbs ediblər.

- Doğrudan da həbs olunan günü - yanvarın iyirmi birində on səkkiz yaşım tamam olmuşdu.

Mənə beş il iş verdilər. Məhkəmədə üzümə elə adamları şahid elədilər ki, heç onlarla salam-kəlamım yoxuydu. Üzümə elə şeylər oxudular ki, heç yatsam yuxuma da girməzdi. Beş il Volqa-Don kanalında siyasi dustaq kimi işlədim. Üç il də səsimi aldılar.

***

Daşdəmir ağanın bu günlərindən olmuş bir əhvalat:

1981-ci ildə ailənin böyük oğlu Nazim Moskvada Ali Milis məktəbini bitirib orqanda işləyir. Nadürüstlərin "yuxarılara" imzasız danos və şikayətləri axışır, nə axışır. Nəhayət, bir gün Gürcüstan Daxili İşlər naziri, general Qevatadzenin özü şikayətə baxmaq üçün Nazimi yanına çağırır:

- Leytenant Paşayev, sənin keçmişin hansı nəsildəndir?

Nazim qürurla:

- Ağalıq, - deyə cavab verir.

Cavabdan xoşu gələn general bığaltı gülümsünüb:

- Səndən öz julikləriniz şikayət yazıblar, - deyir, - özü də nə az, nə çox - bir kisə. Cavabından xoşum gəldi, kişi kimi boynuna aldın. Mən də Tavat nəslindənəm... Get, işlə, heç kəsin səninlə işi ola bilməz...

İllər, haqsız təzyiqlər Daşdəmir ağanı çox sıxıb, güzəranı pis də olub, yaxşı da, özü demiş, elə-belə, ortabab da. Əzizlərini, yaxın-uzaq qohumlarını itirib, amma şah vüqarı sınmayıb, ağalıq dəyanətini qoruyub saxlayıb. Ona görə saxlaya bilib ki, nəsli-nəcabəti saf olub. Xoş saatda dünyaya gələn bu insanda yaxşı keyfiyyətləri qısa müddətli görüşdə də aydınca hiss etmək olur. Onun bircə nisgili, bircə intizarı var: nəslimin, kökümün adı itib-batmasın.

***

***Səməd ağanın igidliyi haqqında tarixə yazılmış bir əhvalat da var. O nə rəvayətdi, nə də ara söhbəti. Əhvalatı 1915-ci ildə Tula şəhərində nəşr olunmuş Y. Kanevskinin "Emin ağa Borçalinski" kitabından götürmüşük. Mərd Emin ağa elə kitabın əvvəllərində igid dostu Səməd ağadan söhbət açır.***

***..."Bizim mahalda tanınmış bir qəhrəmanımız vardı: poruçik Səməd ağa Qasımov. Onun adı bütün Zaqafqaziyada məşhur idi. Onun adına Rus - Türk müharibəsinin qəhrəmanları sırasında rast gəlmək olar. Lakin lənətə gəlmiş paxıllıq xalqın iftixarı olan bir insanı məhv etdi. O, əlində bir stəkan çay içərkən evində xaincəsinə öldürüldü.***

***Bəlkə məni də eynilə belə bir ölüm gözləyir. Ancaq mən istərdim ki, əlimdə silah şərəflə döyüşdə ölüm. Mən özümə bundan yaxşı ölüm arzulamıram. Qoy o kəs sevinməsin ki, mənə tinədən xəlvəti güllə atmaqla qanımı tökəcək.***

***Mənim uşaqlığımın kiçik bir xatirəsi Səməd ağa ilə bağlıdır. O vaxt mənim doqquz yaşım ola, ya olmazdı. Bizim Qaragöy adında atımız vardı. Bu at çox gözəl, güclü və ən əsası isə ağıllı idi. Onun sayəsində mən at oynatmağı öyrəndim. Onu həmişə Naxır bulağına sulamağa aparırdım. Bu dəfə də bulaqdan qayıdanda onu oynatmaq istədim. Bizim evə gedən yol bir balaca yoxuşlu və döngəlidi. Qaşa çıxana qədər bizim həyət görünmürdü. Belə olmağı yaxşı idi, yoxsa atamın, qardaşımın yanında atı oynatmağa cəsarət etməzdim. Mən atı səyirtdim, özüm də ağzı üstə onun belində həyətin ortasına girdim. Atamı və qardaşımı görən kimi bərk qorxdum. Tez də heç nə olmamış kimi atın belində dik oturdum. Amma artıq gec idi. Hamı məni görmüşdü. Onlar mənə tərəf qaçıb məni atın üstündən götürdülər. Atamgili gözəlrində yaş məni danlayır, qışqırır, gah da öpürdülər. Mən heç cür başa düşə bilmirdim ki, onlar sevinirlər, yoxsa qəzəblənirlər. Mən çox kiçik olduğuma və atla məharətlə***

***oynadığıma görə valideynlərim qorxurdular ki, mənə göz dəyər. Bir də belə eləməməyi tapşırdılar. Atamla qardaşım evdə olmayanda atla oyunlarımı yenə təkrar edirdim.***

***Hamıdan çox Səməd ağa məni tərifləyirdi: o bütün həyətin uşaqlarını yığıb onlarla bağa getdi, ağacın altına uzandı və dedi:***

***- Mən dəyirman, üzüm - taxıl olacağam, siz isə taxılı dəyirmana gətirməlisiniz.***

***Biz gülə - gülə onun ağzını üzümlə doldurmağa başladıq. Mənim növbəm gələndə, onun ağzına bir dənə giləmeyvəni qoydum, sonra isə boğazından tutub başladım onu boğmağa.***

***- Sən nə edirsən? - deyə - soruşdu Səməd ağa.***

***- Mənim taxılım qurtarıb, mən dəyirmanı saxlamaq istəyirəm, - dedim.***

***Səməd ağa güldü və dedi:***

***- Bu uşaqdan bir şey çıxacaq.***

***Qaranlıq düşəndə, Səməd ağa çıxıb getdi. Onunla birgə gələn bəy gecələməyə qaldı. Bu gecə mən heç bir vəchlə yatmaq istəmirdim. Mən hiss edirdim ki, Səməd ağa haqqında söhbət olacaq. Ona görə də yavaşca otaqdan çıxıb, eyvandakı mütəkkələrin arxasında elə gizləndim ki, heç kim məni görə bilməsin. Doğrudan da atamla gələn qonaq bəy oturan kimi, öz söhbətinə başladı:***

***Səməd ağa da gəlməli idi, ancaq nədənsə gecikir - onu hamı gözləyirdi. Onun adını pıçıltı ilə deyirdilər başladı danışmağa ki, nədən Səməd ağaya belə hörmət - izzət göstərilir, o , ki, buna layiq deyil və.s***

***Lovğa bəy dedi:***

***- O, gələndə mən heç bir vəchlə ayağa qalxmayacağam...***

***- Baxarıq görək Səməd ağa gələndə sən necə ayağa qalxmayacaqsan-ona cavab verdilər.***

***Bir azdan Səməd ağa göründü. Hamı ayağa qalxdı, lovğa igid isə atın üzəngisini saxlamaq və atı Səməd ağadan almaq üçün tez özünü qabağa atdı. Bir azdan yeməyə oturdular. Səməd ağa həmişəki kimi çərkəzi çuxasını əynindən çıxardıb oturmuşdu: arxasında onun mühafizi dayanmışdı və əlində sevdiyi silahı - qılıncı tutmuşdu.***

***Nahar vaxtı Səməd ağa ilə qonaqların birinin arasında mübahisə başladı. Sonra isə bu mübahisə dalaşmaya keçdi: hamı Səməd ağanı yola gətirməyə çalışdı ki, o ümumi şənliyi pozmasın; o, yenicə sakitləşməyə başlamışdı qəza rəisi müdaxilə edib ona nəsə xoşagəlməyən söz dedi. Səməd ağa onun üzərinə***

***tullandı. Daha çox bədbəxtlik baş verə bilərdi, lakin vaxtında özünü Astan ağa yetirdi, qardaşını saxladı. Bu yeganə adam idi ki, Səməd ağa ona qulaq asırdı.***

***Bir neçə dəqiqədən sonra Səməd ağa yenə qılıncı ilə haqq - hesab çəkmək istədiyi öz düşmənin yanında idi. Astan ağa onun yanında iki əli ilə masaya dirsəklənib dedi:***

***- Nə qədər ki, mən burdayam - ona əl vurmağa icazə verməyəcəm. - Səməd ağanın qılıncı havada fit səsi verərək qardaşının kürəyinə sancıldı. Astan ağanın enli kürəyini yardı.***

***O, özündən çıxıb silahına əl atdı. Səməd ağa qılıncını aşağı saldı, sinəsini irəli verib qışqırdı:***

***- Vur! Sən öz qardaşlarına atəş açmağa adət etmisən.***

***Astan ağa silahını yerə tulladı və ağladı. Bu zaman məni öskürək tutdu. Gizləndiyim yerdən çıxardıb məni o biri otağa qovdular..."***

***

***Səməd ağa Qasımov haqqında arxiv sənədi də saxlanılır. Bu sətirlərin müəllifi həmin sənədə 1878-ci ildə nəşr olunmuş "Müharibənin rəsmli xronikası" səlnaməsinin II cildinin beşinci sayında 2005-ci ilin iyun ayında rast gəldi.***

***Zənnimizcə mərd Səməd ağanın fəaliyyəti haqqında ən rəsmi sənəd elə bu xronikada verilən yazılardı.***

***"Rus partizanı Səməd ağa Qasımov" məqaləsində oxuyuruq:***

***"Üç dəfə ordenlə təltif olunmuş kavaler Səməd ağa Qasımov inzibati qayda ilə Saxalin adasına sürgün olunmuş Daşdəmir ağanın kiçik oğludur.***

***Qasımovlar soyadı Borçalıda ən nüfuzlu nəsillərdəndir. Zaqafqaziyada Müsəlman zadəganlarının arasında Səməd ağa Qasımovun həyat və fəaliyyəti çox maraqlıdır.***

***Səməd ağa 1869-cu ildə, on üç yaşında Qafqaz Əlahiddə qoşun komandanının mühafizə dəstəsinə qəbul olunmuşdur. İki il sonra sakit həyat üçün darıxan Səməd ağa Borçalıya qayıdır. bədbəxtlikdən onun qardaşı Paşa ağa (sonralar Arpa çayda öldürülən) bir təsadüfdən adam öldürmüşdü. Paşa ağa qanun cəzasından qorxaraq qaçmışdı. Qardaşına olan məhəbbət sonradan ona qarşı şübhə yaradır. Səməd ağanı onun dalınca getməyə məcbur edir. Amma tezliklə o, fikrini dəyişir və evə qayıdır. O atası ilə birlikdə məhkəməyə verilir və hər ikisi Saxalinə sürgün olunurlar.***

***Səməd ağa sürgündə çox qalmır: qaçmaq üçün girəvə tapan kimi Monqolustandan, Çindən, Hindistandan, İrandan və Türkiyədən keçərək Tfilisə gəlir. General-adyutant, knyaz Dmitri İvanoviç Svyatopolk-Mirskiyə (1825-1899) təqdim olunur və əfv edilməsini xahiş edir.***

***Səməd ağa hökumət tərəfindən bağışlanılır və söz verir ki, bundan sonra qaçaq hərəkatına son qoyacaq. Doğrudan da o vaxtdan Borçalıda sakitlik hökm sürür.***

***Müharibə (1877-1878-ci illər müharibəsi-Ş.N) başlanan kimi Səməd ağa on nəfər süvarisi ilə korpus kamandanının yanına gəlib döyüşə göndərilməsini xahiş edir. Komandanın əmri ilə onun süvariləri Gürcü zadəganları dvizionunun tərkibinə daxil edilir. Səməd ağa xahiş edir ki, ona icazə versinlər ayrıca döyüşçü-kəşfiyatçı dəstəsi təşkil etsin. Komandanın razılığını alan kimi həmin gün dəstəsinə iyirmi nəfər də əlavə adam qoşdu. Otuz nəfər igidin rəisi olan Səməd ağa döyüş əməliyyatlarında ayrıca fəaliyyət göstərirdi. Onun dəstəsi düşmənə gözləmədiyi yerlərdən zərbələr vurur və çoxlu əsir götürürdü".***

***

Yüzdən çoxdu Borçalı mahalında bu nəslin ulusu Səməd ağa haqqında danışılan rəvayət var. Amma bu barədə yazılı heç bir sənəd-filan yoxdu. Artıq yaddaşlarda kök salmış bu rəvayət xalq arasında inanılmış həqiqətə dönüb. Bu gün bizim də ona inanmamağa haqqımız yoxdu. Mən də onu dönə-dönə Qazax və Borçalı aşıqlarından, ağsaqqallarından eşitmişəm.

...Ali bir məclisdən sonra Tiflis zadəganları Nəbatat bağında gəzə-gəzə xanım-xatın gözəllərlə söhbət edirmişlər. Səməd ağa da nəcib bir gürcü gözəli ilə əylənirmiş. Onun yanından keçən erməni generalı Karqanov kinayə ilə söz atır:

- Görəsən, bu gözəllikdə qız vəhşi türkdən nə zövq alır?

Hirslə ayağa duran Səməd ağa general Karqanovu qılıncı ilə yarıya bölür. Səməd ağanı həbs edirlər. Divan məhkəməsi uzun çəkir. General öldürdüyünə baxmayaraq, şəxsiyyəti təhqir olunan Səməd ağanı məhkəmə müəyyən mə'nada müdafiə edirmiş. Məsələni həll etməkdə çətinlik çəkən Qafqaz canişini Səməd ağanın ərizəsini çar I Nikolaya göndərir. (1837-ci ildə Çar Qafqazda olanda canişin Səməd ağanın və atası Daşdəmir ağanın imperatora təqdim etmişdir - Ş.N.) İmperator Səməd ağanın ərizəsinə belə bir dərkənar qoyur:

"Min düşmənimi məhv edən dostum Səməd ağa bir təəbəmi öldürüb. Ona görə də əfv edirəm".

Çar Səməd ağanı müharibələrdə göstərdiyi igidliyinə görə bağışlayıb.

Əfvetmə ilə bağlı el arasında belə bir əhvalat da var:

Deyilənə görə, çar Səməd ağanın müharibədə göstərdiyi qəhrəmanlığına heyran qalıb deyir:

- Səməd ağa, bir şey istə, diləyinə sərəncam verərəm.

Qürurlu Səməd ağa isə belə cavab verir:

- Ə'lahəzrət, iltifatınız artıq olsun. Mənə heç nə lazım deyil, sayənizdə bəndənizin hər şeyi var. Mənim atam Daşdəmir ağanın qızılı çanaqla ölçülür. Beş at mənzili torpaq sahibiyəm. Sizdən bircə diləyim var: acığımı, hirsimi özümə verin.

Çar məmnuniyyətlə razı olub deyir:

- Səməd ağa, bu mərdliyi ki, səndə görmüşəm, haqsız iş tutmayacağına əminəm. Amma ədalət naminə hirslənib Qafqaz canişinini doğrasan da, səni yenə də cəzalandırmaram. Get, acığın, ədalətin, bir də igidliyin sənə yar olsun!

***

El qəhrəmanı Səməd ağa Qasımlı haqqında Borçalı və Qazax ellərində danışılan əhvalatlar çoxdur.

1970-ci ilin qışında Ləmbəli Molla Məhəmməd Əfəndiyevin görüşünə getmişdim. Səksən yaşlı Məhəmməd dayının keçmiş igidlər və aşıqlar haqqında mə'lumatı çoxdur. Səməd ağa haqqında belə bir əhvalatı ondan yazıb götürmüşəm.

...İmperator I Nikolayın ölümündən sonra Səməd ağanı dolaşdırıb Sibirə sürgün edirlər. O, Sibirdən qaçıb Türkiyəyə pənah gətirir. Başında bir dəstə yaraqlı-yasaqlı, özü kimi qoçaq, vuran-tutan igidləri.

Türkiyənin bir kəndində Kərim adlı kişinin evinə qonaq düşürlər. İgidlər kürd Kərimə deyirlər ki, bu qışı bizi evində qonaq saxla. Görünür, kürd ya xəsis olub, ya da kasıb. Odur ki, e'tiraz edib deyir:

- Mən sizi necə saxlayım, bu qədər at, adam, məndə bunlara yem hardandı?

Səməd ağa cavab verir ki, kürd qardaş, sən bizim burada qalmağımıza razı ol. Yemək sarıdan fikir eləmə. Mənim igidlərim Türkiyədən, Ursiyyətdən, İrandan çalıb-çapıb gətirəcəklər. Sənə də bəs edər, bizə də.

Bu zaman aşıq Şenlik də gəlib həmin kəndə çıxır. Xəbər Səməd bəyə çatır. O, kürd Kərimi çağırıb deyir:

- Eşitmişəm, aşıq Şenlik sizin kənddədi. Get, onu gətir, bu gecə bizə bir söhbət eləsin. Qürbət eldə kefimizi açsın.

Kürd Kərim gedib aşığı gətirir.

Çuğulun evi yıxılsın, adamın şirin söhbətini yarımçıq qoyandı. Çarığının dabanını bərkidib ajana xəbərə qaçır. Şenlik çalıb-çağıran vaxtı kürdün evi üzük qaşı kimi araya alınır. Mühasirəni görən Səməd bəyin adamları türk ajanları ilə vuruşmaq istəyirlər. Bunu görən qeyrətli igid Səməd bəy yoldaşlarına deyir:

- Aya, ay uşaqlar, elə eləyin ki, bircə damcı da insan qanı tökülməsin. Dinbir, dilbir qardaşlarımızı öldürməyin. Taqqıltı-tuqqultu salın, bir təhər aradan çıxaq.

İgidlər mühasirədən çıxandan sonra türk zabiti başında da əsgərləri evə girir. Görür ki, burada əli sazlı bir adam var. Əmr verir ki, tez tutub qollarını bağlayın. Aşığı qolları bağlı türk paşasının yanına gətirirlər.

Paşa soruşur:

- Yavrum, sən də eşkiyasanmı[1]?
- Yox, əfəndim, mən yanşağam.
- Bəs onda söylə, görək bu qarapapaqlılar kimdi, sən bunlara niyə qoşulubsan?
- Əfəndim, paşam sağ olsun, əmr ver, qollarımı açsınlar, sazla deyim.

Aşığın qollarını açırlar. Şenlik sazı sinəsinə sıxıb deyir:

***Bir gün Səməd bəyin şəhrinə vardım[2],***
***Bu diyarı gəzə-gəzə, əfəndim.***
***Səməd bəy namında bir kişi gördüm,***
***Vəsfini qaldırdım sözə, əfəndim.***

***Alosman elinə talan saldılar,***
***Cəlalı kürdünə qılınc çaldılar.***
***İran ölkəsindən xərac aldılar,***
***Şahı da qoydular yasa, əfəndim.***
***Səməd bəy, İsmayıl qoşun başları,***
***Yanında vardı igid yoldaşları.***
***Mehralı deyilən şahin quşları,***
***Qalır Koroğludan nəsə, əfəndim.***

1. Qaçaq
2. Şe’r redaktə olunmadan verilir - Ş.N.

*Səməd bəy bənzərdi Rüstəmi-Zala,*
*Mahmudoğlu əzəmətli bir qala.*
*İsmayıl da boyun əyməz krala,*
*Qıymadılar bircə fəsə, əfəndim.*

*Səməd bəydir sanki aslan qurumlu,*
*Vəlli, beydə minar qulac kərimli.*
*Paşa səltənətli, bir xan verimli,*
*Baxan deyil çoxa-aza, əfəndim.*

*Çovuş oğlunun da zəhmi ağırdı,*
*Mahmudoğlu yüz kazakı dağıdı.*
*İsmayıl da urus üçün yağıdı,*
*Düşmə, onlar ilən bəhsə, əfəndim.*

*Səməd bəy ki, getdi Sibir yerinə,*
*Neçə min bəlalar gəldi sərinə.*
*Fərmansız şah olub qılınc zoruna,*
*Hökm edir Qazağa, Tiflisə, əfəndim.*

*Şennik mədh edər qoç igidin pirini,*
*Hər nadana açmaz gizlin sirrini.*
*Səməd bəylə İsmayılın yerini*
*Tutan olmaz bu diyarda, əfəndim.*

Sonralar Borçalıya tez-tez gələn aşıq Şenlik həmişə bu nəslə qonaq düşüb. Türkiyədə 1975-ci ildə nəşr olunan "Aşıq Şenlik" /həyatı, şe'rləri və hekayətləri/ kitabında "Səməd bəy dastanı" daha geniş verilib.

Nüfuzlu Qasımlı nəslində iki Səməd ağa olub. Baba 1880-ci ildə yeni tikdirdiyi mülkdə ustaya göstəriş verərkən çöldən atılan namərd gülləsinin qurbanı olub. O, 1839-cu ildə anadan olmuşdu. Nəvə Səməd ağa da babası kimi igid, vurub-tutan olduğuna görə el-oba ona Dəli Səməd ağa ayaması verib.

1928-29-cu illərdə Şura hökumətində ağa və bəylər tə'qib olunanda üç qardaş - Dəli Səməd ağa, İsgəndər və Rüstəm Türkiyəyə pənah aparırlar.

Otuzuncu ilin ortalarında Lavrenti Beriya Gürcüstan Ali Məhkəməsində işləyən Şabanov familyalı bir azərbaycanlını çağırıb deyir:

- Eşitdiyimə görə, Dəli Səməd ağa səninlə dost olub. Ona mənim və öz adından məktub göndər. Qoy, başının dəstəsi ilə qayıdıb gəlsin. Çalış, inandır ki, ona toxunmayacağıq. Tökdüyü bolşevik qanının hamısını bağışlayırıq. Torpağını, mülkünü, müsadirə olunmuş nəyi varsa, ona qaytarmağa söz ver.

Məktubu alan Dəli Səməd ağa bu yağlı və'dlərə inanmır. Amma Rüstəm və İsgəndər inanıb qayıtmaq qərarına gəlirlər. Onda Dəli Səməd ağa deyir ki, qardaşlarım, öz ayağınızla Şura hökumətinə qurban gedirsiniz.

1930-cu ildə İsgəndər və Rüstəmi Borçalıya qayıdan kimi həbs edib güllələyirlər.

Daşdəmir ağa:

- Atam Rüstəm ağa güllələnəndən sonra dolanışığımız çətin oldu. Anam Stalin adına kolxozda işləyirdi. Əllinci illərdə Sarvanın mərkəzi bağında Stalinin əzəmətli bir heykəli vardı. Anamı ona xidmətçi qoydular. İki il işləyəndən sonra onu Dövlət Təhlükəsizliyi şö'bəsinə çağırdılar. Möhkəm danlayıb dedilər ki, səni kim buraya qoyub, axı sən ağa arvadı olmusan. Ağa arvadı olduğuna görə onu işdən çıxartdılar. Kolxoz sədri İsa Xubanovu hədələdilər ki, sən bilmirsən ki, bu ağa arvadıdı, o hansı bir ürəklə heykəli silər, bağın gül-çiçəyini becərər.

Stalinin heykəlini silməyə hər il üç-dörd metr məxmər verirdilər. Bizi ondan da məhrum elədilər.

- Ağa, bəs Türkiyədə qalan Dəli Səməd ağanın taleyi necə olub?

- 1930-cu ildə Türkiyədən qayıdan İsgəndər ağa bir foto-şəkil gətirib. Şəkildə səkkiz nəfər təsvir olunub. Həmin şəkildə bizim nəsildən İsgəndər ağa Qasımlı, Dəli Səməd ağa, Kürüstü Kosalar kəndindən isə Dəli Əhməd var, ayaq üstə duran isə burda yazılana görə türk konsuludur. Qalanlarının kimliyi yazılmayıb. 1962-ci ildə Türkiyə radiosu xəbər verdi ki, vaxtilə şuralardan bizə pənah gətirən alay komandiri Dəli Səməd ağa vəfat etdi. Sonralar Türkiyə ilə ara elə kəsildi ki, nə Dəli Səməd ağadan, nə də övladlarından heç bir xəbər tuta bilmədik. Gedib-gələnlər onun igidliyindən, səxavətindən danışırdılar.

...Bir türk əsgəri naqanını sökür, amma yığa bilmir. Döyüşçülərdən biri Dəli Səməd ağanı göstərib deyir:

- Apar, ver, əcəmi qarapapaqlıya, o yığa bilər.

Səməd ağa da bir anın içində naqanı yığıb qoyur cibinə. Türk deyir:

- Ağa, neylədin, axı naqan mənimdir.

Səməd ağa:

- Yapmasını bilməyən, atmasını da bilməz. Naqan mənimdi...

Bu dəfə daha ciddi görkəm alıb - əfəndim, ətrafımız gavurlarla doludur. İstəyirsən ki, heç vaxt düşmənə hədəf olmayasan, naqanın yapmasını da öyrən, bu, sənin həmişə gərəyin olacaq, - deyib türkün naqanını özünə qaytarır.

***Aprel, 1993-cü il.***

## BORÇALIDAN GƏLƏN MƏKTUB

Adam var  tez-tez görüşürsən, amma ondan yaddaşında heç nə qalmır. Adam var ki, bircə dəfə həmsöhbət olursan, onun duruşu, davranışı, sözü-söhbəti hafizəndə ömürlük yaşayır. Tez ayrıldığına, ya da mənzil uzaqlığı ucbatından görüşə bilmədiyinə yanıb-yaxılırsan.

Borçalı Daşdəmir ağa ilə yeganə görüşümün bir ili 1993-cü il dekabrın səkkizində tamam oldu. Bu bir ildə Ağa /Borçalıda hamı onu belə çağırır/ üçün mən yaman darıxmışdım. Ağa üçün istək yanğıma ancaq məktubla təsəlli tapmışam. İnanıram ki, Borçalı igidi Səməd bəyin doğma nəvəsi Daşdəmir ağa ilə hər kəs bircə dəfə görüşsə, o da mənim kimi ağa vüqarına, şirin və maraqlı söhbətinə vurğun kəsilər. Nüfuzlu ağa nəslinin nümayəndəsini dinlədikcə Allaha dua-səna qılırdım ki, nə yaxşı bu saf bulağın gözü tutulmayıb. O danışdıqca fikirləşirdim ki, adama tərbiyə vermək, ədəb öyrətmək lüzumsuz bir zəhmət imiş. Gərək insan olan kəs anadan tərbiyəli doğulsun, vüqarlı və nəzakətli yaşasın. Bunun üçün də nəslində ağalıq, bəylik olmalıdır.

1955-ci ildə Səməd Vurğun Borçalıda qonaq olub. Böyük bir ziyafətdən sonra Daşdəmir ağagilə gələn Səməd Vurğun nahaqdan deməmişdir ki, Allaha şükür ki, özümün ağa evinə qonaq gəldim. İndi özümü burada rahat hiss edirəm. (Daşdəmir ağanın anası Səməd Vurğun nəslindəndir).

İkicə gün ziyarət etdiyim Daşdəmir ağa Rüstəm ağa oğlu Paşayev müdrik bir ağsaqqal kimi yaddaşımda ömürlük yaşayacaq.

Bu günlərdə ondan yenə bir məktub aldım. Ağa mənə aşıq Şenliyin üç şe'rini göndərib. Şe'rin biri mərd babası Səməd ağaya, ikisi isə Şulaverin qoruqçularına yazılıb. Borçalıda ağır yığnaqlı toylar keçirən Səməd ağanın

dostu Aşıq Şenlik "Borçalı Səməd ağa" adlı dastan da yazıb. Qazax və Borçalı aşıqlarının dilində əzbər olan bu dastan təəssüf ki, indiyədək özümüzdə yox, ancaq Türkiyədə, 1975-ci ildə nəşr olunub.

...Bir gün Səməd ağa ismarıc göndərib aşığı oğlunun toyuna də'vət edir. Uzaq mənzil gələn aşıq Şenlik Ləlvər dağını aşıb Şulaver düzündə dincəlmək istəyir. Atını ota buraxır, özü də böyrü üstə uzanıb, dünyanın gərdişini ələk-vələk edirmiş. Bu zaman iki erməni qoruqçusu bələni bəri aşıb aşıq Şenliyə hədə-qorxu gəlir. Tüfəngi dabana çəkib kişinin atını və üstündəki pul-paranı alırlar. Aşıq nə qədər deyir ki, mən Səməd ağanın qonağıyam, dinsizlər eşitmir ki, eşitmir...

Aşıq Şenliyin payi-piyada gəldiyini və qarət olunduğunu görən Səməd ağa adam göndərib atı da, pul-paranı da aldırır. Düşmənə isə özü cəza verir. Nökərini Şulaver keşişinin belinə mindirib kəndin içi boyunca ləhləyənə qədər qovdurur. Aşıq Şenlik də bu əhvalata iki - "Məni" və "Bəyim" şe'rlərini yazır. Üçüncü şe'r isə Aşıq Şenliyin qəlb və ürək dostu Səməd ağanın ölümünə yazdığı "Getdi" qoşmasıdır.

İndiyədək ancaq Borçalı, Qazax aşıqlarının sinəsində yaşayan şe'rləri Daşdəmir ağa mənə aşıq Nurəddin Qasımlının boxçasından yazıb göndərib.

**GETDİ**

***Borçalı mərdi Səməd bəyin ölümünə***

***Ay ariflər, gəlin sizə söyləyim,***
***Səməd bəy namında hökmü xan getdi.***
***Qazax, Şəmsəddin, külli-Borçalı,***
***İgidlər içində bəlli can getdi.***

***Meydana girəndə edərdi cəngi,***
***Apardı ayağını polad üzəngi.***
***Gəzdi Alosmanı, gəzdi Firəngi,***
***Saldı Cəlalıya bir tufan, getdi.***

***Şenlik mədh eyləyib çəkdi dastana,***
***Yaysın sorağını, yaysın hər yana.***
***Rüstəm tək səs saldı bütün cahana,***
***Heyif, əlimizdən qəhrəman getdi.***

## MƏNİ

***Ay qoruqçu, sən Allahı sevirsən,***
***Cəbr edib salmaynan azara məni.***
***Asdvası, Xristosu sevirsən,***
***Cəbr edib salmaynan azara məni.***

***Söylə görüm, nədir aşığın suçu,***
***Məryəm ana olsun sizə duaçı.***
***Sevirsən kilsəni, sevirsən xaçı,***
***Cəbr edib salmaynan azara məni.***

***Mən Şenliyəm mayıl oldum gülümə,***
***Təbib olan qulluq edər pirinə.***
***Məkanım Çıldırdı, göndər yerimə,***
***Cəbr edib salmaynan azara məni.***

## BƏYİM

***Dilbilməz yağının cənginə düşdüm,***
***Bizi daşdan-daşa saldılar, bəyim.***
***Arif məclisində ilham alardıq,***
***Bizdən də xərac aldılar, bəyim.***

***Dedim, Səməd bəydi sərdarın özü,***
***Deyərəm eşidər, öldürər sizi,***
***Çox yalvardım, eşitmədilər bizi,***
***Bizi də yalançı saydılar, bəyim.***

***Tək sənsən Şenliyin öz havadarı,***
***Sizin üçün gəldim bu yana sarı.***
***Viran Şulaverin qoruqçuları,***
***Paramı, heybəmi çaldılar, bəyim!***

## İLK HƏRBİ NÜMAYİŞ

Azərbaycan Demokratik Cümhuriyyətinin 1918-20-ci illərdəki fəaliyyət dövrünə qısaca nəzər salsaq, bir çox yeniliklərin şahidi olarıq.

1918-ci il Bakıda, ümumiyyətlə Azərbaycanda çox təlatümlü və həyəcanlı keçmişdir. Mart qırğını, yerli bolşeviklərlə döyüşlər, bundan əlavə də türklərin, ingilislərin gəlib-getməsi, o biri tərəfdən də ağqvardiyaçı Denikin ordusunun qara-qorxusu meydana çıxdı. Yalnız on səkkizinci ilin dekabr ayında azad nəfəs almaq mümkün oldu. İndi Azərbaycanda nə dost vardı, nə də düşmən, bircə Dərbənd yaxınlığında gəlib dayanan Denikin ordusundan təhlükə gözlənilirdi. Dekabrın iyirmi beşində hərbi nazir tə’yin olunan general Mehmandarov həmin gün “Azərbaycan vətəndaşlarına” adlı vətənpərvər yazısı ilə xalqa müraciət etdi.

Yeni gələn 1919-cu il daha uğurlu idi. Ordunun sayı 40 minə çatdırılırdı. Praporşiklər, artilleriya və minaaxtaranlar məktəblərinin yeni buraxılışı oldu. Bu ildə tam azad nəfəs alan respublikamız Qarabağda qayda-qanun yaratmağı da unutmadı. Marığa yatan, özlərini sakit aparan namərd erməni daşnakları Azərbaycan ordusunun silahının sərt üzündən ehtiyat edirdilər. Andranikin quldur dəstəsi Zəngəzurun böyür-başında hərlənirdi. O, aprel ayında general Cavad bəy Şıxlinskinin yenilməz diviziyası ilə döyüşə girməyə cəsarət etməyib İrəvana qayıtmışdı. Dro Kanayan ilə birləşib yenidən Qarabağ və Zəngəzura hücum planı hazırlayırdı. İkiüzlü erməni siyasətinə bel bağlamayan Azərbaycan hökuməti 1919-cu il yanvarın ilk günlərində Cəbrayıl, Zəngəzur və Şuşa qəzalarını Gəncə quberniyasından ayırıb Qarabağ general-qubernatorluğunu yaratdı. Xosrov bəy Sultanov general-qubernator tə’yin edildi.

Mart ayının 19-da Baş Qərargahın Baş İdarəsi yaradıldı. Bilavasitə operativ məsələləri həll edən idarəyə rəis Krım hökumətinin sabiq başçısı, general-leytenant Məmməd bəy Sulkeviç tə’yin edildi. Nisbətən sakit keçən bu ildə hərbiyyə naziri Səməd bəy Mehmandarov hələ yanvarın 31-də Gəncədə Novruz bayramı münasibətilə hərbi nümayiş keçirilməsinin hazırlığına belə bir əmr verdi:

“Mart ayının 22-də Gəncə şəhərində Novruz bayramı münasibətilə Gəncə qarnizonunun və Azərbaycan ordusunun digər hissələrinin iştirakı ilə,

həm də birinci Cavanşir alayından bölük, ikinci Bakı alayından tabor çağırmaqla parad keçirmək nəzərdə tutulur.

Bayram mərasimində qoşunların iştirakı müstəqil Azərbaycan Respublikası xalqının şənliklərinə milli bayram xarakteri veriləcək və bundan başqa bu parad hərbi hissələrin sıra tə'liminə baxış olacaqdır.

Yuxarıdakıları nəzərə alaraq komandirlərin müəyyən edilmiş müddətə öz hissələrini baxışa ə'la hazırlaması və təqdim etmələri gərəkdir.

***Əslini imzaladı:*** ***Ali Baş Qərargahın rəisi***
***Polkovnik Həbib bəy Səlimov".***

Respublika Mərkəzi Dövlət Yeni Tarix arxivində saxlanılan on doqquzuncu ilə məxsus sənədlərdə göstərilir ki, Novruz bayramını nəinki yerli əhali, Milli Ordu da çox təntənəli keçirmişdir.

Novruz bayramı münasibətilə hərbi nümayiş martın 22-də səhər saat 11-də Gəncənin Artilleriya meydanında keçmişdir. Bu münasibətlə nazirliyin baş mollası əzan çəkmiş və xeyir-dua diləmişdir.

Müdafiə naziri general Səməd bəy Mehmandarov isə Azərbaycan Parlamenti və öz adından gənc ordu hey'ətini bayram münasibətilə təbrik etmiş və onlara gələcək işlərində müvəffəqiyyətlər arzulamışdır.

Nizami addımlarla meydandan keçən əsgər və zabitlər həmin təntənə üçün bəstələnmiş belə bir şərqi-marşı oxumuşlar:

***Şükür Xuda, şadlıqla Novruz oldu,***
***Düşmənlərin gözü kor, Novruz oldu.***
***Neçə müddət möhtac idik düşmənə,***
***Yaramazdıq onun heç bir işinə.***
***İndi vurar hər kəs bir daş başına,***
***Şükür Allaha şadlıqla Novruz oldu,***
***Düşmənlərin gözü kor, Novruz oldu.***

***Lazımdır hamı verək əl-ələ,***
***Başqa millət şanı olmasın belə,***
***Görməsin Allah, daha zəlzələ,***
***Şükür Allaha şadlıqla, Novruz oldu.***
***Düşmənlərin gözü kor, Novruz oldu.***

***Təbrik edirik şanlı Səməd paşanı[1],***
***Etsin Allah həmişəlik şanını,***
***Minə qədər etsin Allah yaşını,***
***Şükür Allaha, şadlıqla Novruz oldu,***
***Düşmənlərin gözü kor, Novruz oldu.***

Bu, 1919-cu il martın 22-də keçirilən Milli Azərbaycan Ordusunun ilk bayramı oldu. İkinci belə bir bayram-nümayişini ordumuz həmin il mayın 28-də keçirdi. Bayram-nümayiş azad Azərbaycan Respublikasının yaranmasının bir illiyinə həsr olunmuşdu.

1920-ci il martın 22-də keçirilən istiqlaliyyət bayramını bir ay sonra - 1920-ci il aprelin 28-də bolşevik-daşnak ordusu qanla suvardı. Siyasi süquta uğrayan Azərbaycan Demokratik Respublikasının mübarizləri zəfər yürüşlü bayramı son nəfəsə qədər unutmadılar. O bəxtiyar günü ömrünə əbədi həkk edən polkovnik İsrafil bəy İsrafilbəyov mühacirətdə yana-yana yazırdı:

"1920-ci il martın 22-də Novruz bayramı münasibətilə icra edilən son rəsmi keçidi xatırlamamaq qeyri-mümkündür. Əcəba, hansı azərbaycanlı o mə'sud günü xatırlamır? Ordunun qabiliyyət və intizamı, mə'nəviyyatı təsəvvür olunmaz dərəcədə fövqəl'adə idi. Xarici aləm az bir müddət ərzində vəsaitsizlik içində bu qədər müntəzəm təşkilata malik bir əsgəri qüvvə vücudə gətirdiyimizə heyran qalmışdı. Əhalidən çoxu duyduğu həyəcandan ağlayırdı.

O gün Azərbaycanın ən şanlı, ən bəxtiyar günü idi. (Miralay İsrafilbəy, Azərbaycan ordusu haqqında "Yeni Qafqasiya" məcmuəsi, İstanbul. 28 may 1340 il, 17 sayı.)

Arxivdə saxlanan ən maraqlı sənədlərdən biri də Azərbaycan Respublikasının ordusunda türk dilinin dövlət dili kimi təsdiq edilməsi barədə verilən Ali Baş qərargahın 89 nömrəli əmrnaməsidir. Hərbi nazir haqlı olaraq bildirir ki, Azərbaycan ordusunda xidmət etmək istəyən hər bir şəxs türk-Azərbaycan dilini öyrənməli və bu sahədə açılan kurslarda savadını artırmalıdır.

İnanırıq ki, yetmiş ildən çox birtərəfli öyrəndiyimiz tariximizin səhifələri bugünkü oxucularımız üçün də maraqlı olacaqdır.

1. Müdafiə naziri, general Səməd bəy Mehmandarov - Ş.N.

## HƏRBİ MƏTBUAT TARİXİMİZDƏN

***Hər birimiz bu məcmuəni oxuyub istiqlalımız üçün iş görməliyiz.***

***Məmməd Həsən Tahirov***
***Məşhur maarif xadimi***

Azərbaycanda hərbi mətbuatın tarixi nə vaxtdan başlanmışdır? Bu sahədə indiyədək araşdırmalar aparılmadığından suala dəqiq cavab vermək qeyri-mümkündür. Əgər söhbət qəzet nəşrindən və hərbi mövzuda yazılardan gedirsə, onun tarixi rusların Zaqafqaziyanı işğalından sonraya düşür.

1828-ci ildən Tiflisdə rus dilində nəşrə başlayan "Tiflisskiye vedomosti" qəzetinin ayrı-ayrı nömrələrində Azərbaycan süvari alayları ilə bağlı yazıları və Əlahiddə Qafqaz ordu qərargahında hərtərəfli biliyə malik alim kimi tanınan polkovnik Abbasqulu ağa Bakıxanovun xidmətini xüsusi qeyd etməliyik. Rəsmi hərbi qulluqda olan Abbasqulu ağa ayrıca qəzet və ya jurnal nəşr etdirməmişdir. Lakin həmin qəzetin səhifələrində Rusiya-İran və Rusiya-Türkiyə müharibələri barədə orijinal və tərcümə əsərləri ilə çıxış etmişdir.

Bu barədə biz Azərbaycan mətbuatı tarixinin mahir araşdırıcısı, filologiya elmləri namizədi mərhum Nəriman Zeynalovun tədqiqatında əsaslı faktlara rast gəlirik:

"Abbasabad mühasirəsinin təsviri" (1829, №27, 30), "Müasir tarix. Azərbaycan vilayətinin hərbi vəziyyəti haqqında" (1829, №38, 43), "Moskvalı dostuma məktub" (1830, №28, 53 və b.), "Qarabağ əyalətinə tarixi baxış" (1836, №86), "Car və Balakən vilayətlərinə səyahət" (1830, №81-83) və s. məqalələrində Azərbaycan haqqında, azərbaycanlıların məişəti, yaşayış tərzi və s. haqqında mə'lumatlar verilirdi.

Qəzetdə azərbaycanlıların şifahi və yazılı ədəbiyyatları haqqında məqalələr də dərc olunurdu. Abbasqulu ağa Bakıxanov qəzetdə tərcümə əsərləri ilə də çıxış edirdi. "Dərbəndnamə" əsərinin tərcüməsi haqqında qəzet yazmışdı: "Lazımi mənbələrin tərcüməsi Qafqazın bu tərəfinin tarixini yeni dünyaya yayar..."

Ötən əsrdə hərbi mövzuda yazılar dərc edən ikinci qəzet alovlu vətənpərvər Həsən bəy Zərdabinin 1875-ci il iyulun 22-də nəşrə başlayan "Əkinçi" qəzeti olmuşdur. Ana dilli mətbuatımızın təməl daşını qoyan "Əkinçi" 1877-ci ildə "Tazə xəbərlər" şö'bəsində hərbi mövzuya daha çox yer vermişdi.

Hərbi mətbuat tariximizdən danışanda vaxtilə şahların, xaqanların və ayrı-ayrı bəylərin, sərkərdələrin yanında mirzə kimi qulluqda olan tarixçilərin yazıları hərbi-tarixi əsərləri də xatırlamağı zəruri sayırıq. Əlyazması şəklində yayılan, rus mətbuat orqanlarında dərc olunan bu əsərlər, zənnimizcə, çağdaş jurnalı əvəz edirdi.

Bir xeyli əvvələ - XV-XVI əsrlərə müraciət etsək, Azərbaycan tarixçisi Həsən bəy Rumlunun "Əhsənüt-təvarix" ("Tarixlərin ən yaxşısı") əsərində hərbi qüvvələrimiz haqqında faydalı qeydlərə rast gələrik.

"XV-XVI əsrlərdə qoşunlar mənsub olduqları yerin adı ilə adlandırılmışdır. Məsələn, Muğan, Şirvan, Qarabağ qoşunu və s.

Müharibə gözlənilən vaxt dövlətin hökmü altında olan yerlərə istimalətnamələr (cəlbedici məktublar) göndərilib, çoxlu ən'am və'd edirlər və beləliklə də, qoşun toplanışını sür'ətləndirirdilər. Vilayətlərdə yaşayan əmir və tiyuldarlar fərman alan kimi öz dəstələri ilə şahın köməyinə gələr, müharibə qurtarandan sonra məskənlərinə qayıdardılar.

Müharibə baş tutmayanda, yaxud dövlətlərarası razılıq əldə ediləndə sülhnamə yazılardı", (Azərb. EA Mə'ruzələri, XXXII c., Ş.F.Fərzəliyevin "Həsən bəy Rumlunun "Əhsənut-təvarix" əsərində bə'zi hərbi istilahlar" məqaləsi).

Deməк, indiki qəzet və jurnal vəzifəsini o vaxtkı cəlbedici çağırış məktubları yerinə yetirirdi.

1918-20-ci illərdə isə Azərbaycan Demokratik Cümhuriyyəti dövründə hərbi jurnalın olub-olmaması barədə hələlik əlimizdə heç bir əsas yoxdur. O vaxtlarda hərbi mövzuda yazılar "Azərbaycan", "Açıq söz", "İstiqlal" və başqa mətbuat orqanlarında dərc olunurdu. Respublika Yeni Tarix Mərkəzi Dövlət Arxivində hərb naziri, tam artilleriya generalı Səməd bəy Mehmandarovun 1919-cu il 2 aprel tarixli mə'ruzəsi saxlanılır. Nazir mə'ruzəsində göstərir ki, Azərbaycan hərb tarixi və Azərbaycanın müxtəsər tarixi haqqında kitablar yazılıb, jurnal nəşr edilsin. Hər bir əsgər və zabitin milli hərbi tariximizi öyrənməsi məqsədilə həmin ədəbiyyat alay və diviziyalara paylanılsın.

General Səməd bəy Mehmandarovun bu qiymətli təşəbbüsünə ilkin səs verən tarixi əsərlər müəllifi yazıçı Yusif Vəzir Çəmənzəminli olmuşdur. O, "İstanbul elçisi" olanda "Tarixi, coğrafi və iqtisadi Azərbaycan" adlı kitabını 1919-21-ci illərdə İstanbulda nəşr etdirir. Tarixçi Cahangir Zeynaloğlunun 1920-ci ildə yazdığı "Müxtəsər Azərbaycan tarixi" elmi publisistik və tarixi əsəri də 1924-cü ildə yenə İstanbulda işıq üzü gördü.

İstilaçı rus ordusunun süngüsü ilə süquta yetən Azərbaycan Demokratik Cümhuriyyəti ziyalılarının çox işıqlı arzuları yarımçıq qaldı. Onların ən mühüm arzularından biri də Milli Ordumuzun tarixi salnaməsini yazmaq idi...

Bəs Azərbaycanda ilk rəsmi jurnal nə vaxt yaranmışdır, onun naşiri kim olmuşdur? "Savadlı Qırmızı Əsgər" adlı ilk hərbi jurnal 1922-ci il sentyabrın 1-də Bakıda nəşr olunmuşdur. Ayda bir dəfə nəşr olunan, əsgərlər və zabitlər üçün nəzərdə tutulan siyasi, ictimai, ədəbi-elmi məcmuə yeni yaranmış Azərbaycan diviziyasının orqanı idi. Naşiri və məs'ul redaktoru komissar Həsən Rəhmanov olmuşdur. jurnalın əsas mövzusu əsgərlərin savadlanması, onların döyüş hazırlığı, silaha qulluq qaydaları, əsgər və ordu həyatından yumorlar, ədəbi-bədii yazılar dərc etmək idi. Bədii nümunələr də özlüyündə əsgərlərin vətənpərvərlik hisslərinin daha intensiv şəkildə inkişafına xidmət edirdi. Təbii ki, dövrün ədəbiyyatının səviyyəsini bu nümunələrlə müəyyənləşdirmək ədəbi anlaşılmazlığa, yanlışlığa səbəb olardı. Hər halda, jurnal imkanı həddinə əsgərlərin milli ideologiyasını, savadını, dünya duyumunu dolğunlaşdırmışdır. Məsələn: jurnalın


Пролетарии всех стран, соединяйтесь!

Краткий Русско-Тюркский
Военный Словарь.

(Пособие для перевода уставов и военно-научных книг с русского на тюркский язык.)

Ссотавил: АЛИ-АГА ШИХЛИНСКИЙ.

Азербайджанская Военная Редакцион. Издательская Комиссия при Р.В.С. К.К.А-

БАКУ 1926 г.

1923-cü ildə, beşinci nömrəsində "İzhari təşəkkür" adlı kiçik bir yazıda oxuyuruq:

"Gəncə qarnizonu alayının savad məktəblərinin müdiri yoldaş Qayıbov İsmayıl əsgər və zabitlər arasında savadsızlığın ləğvi işində ziyadə dərəcədə sə'y etmişdir".

İlk təcrübə kimi və zəmanəsinin ab-havasına müvafiq olaraq jurnalda gedən yazıların əksəriyyətinin sənətkarlıq baxımından səviyyəcə aşağı olması təbii idi. Lakin bu, jurnalın məramnamə anlamında tarixi xidmətlərinə zərrəcə xələl gətirə bilməz.

Milli Ordumuzu yeni gələn Şura hökuməti məhv etdikdən sonra Azərbaycan Hərbi İnqilab Komitəsi 1920-ci il iyunun 21-də hərbi məhəlli birləşmələrin yaradılması haqqında yeni qərar verdi. Ümumittifaq ordusunun ayrılmaz hissəsi olan bu birləşmələr "Azərbaycan Birləşmiş atıcı diviziyası" adı ilə fəaliyyət göstərirdi.

1924-1928-ci illərdə ordunun yenidən qurulması üçün ölkədə hərbi islahatlar həyata keçirilirdi. Hərbi mətbuatın kəmiyyət artımına, hərbi nəşrlərin keyfiyyətcə inkişafına diqqət artırıldı. 1920-ci ildən fəaliyyətə başlayan, ***Azərbaycan diviziyasının orqanı olan, "Qızıl əsgər" qəzetinin nəzdində hərbi yazıçı Hacıbaba Nəzərlinin rəhbərliyi ilə hərbi nəşriyyat yaradıldı. Bu nəşriyyatın buraxdığı kitabların əksəriyyəti tərcümə ədəbiyyatından ibarət idi.*** Xırda-para nizamnamə və kitab-



***Hərbi yazıçı Hacıbaba Nəzərli (1895-1938)***

çaları çıxmaq şərtilə nəşriyyatın işıq üzünə çıxardığı orijinal əsərlərdən yalnız general Əli ağa Şıxlinskinin iki hərbi əsəri mövcuddur - "Ruscadan türkcəyə qısa döyüş sözlüyü" (1926-cı il) və "İşçi-Kəndli Qızıl Ordusu topçusunun döyüş tə'limnaməsi". Birinci kitab. "Qoşun topçusu" (1927-ci il).

Həmin illərdə əsgər və zabitlər üçün kiçik yaddaş kitabçaları da nəşr olunmuşdur. 1926-cı ildə Hacıbaba Nəzərlinin "Yaxşı atəş açmağı necə öyrənməli", komissar Həsən Rəhmanovun "Dağ-nişançı diviziyasının on illiyi" (1930-cu ildə) və başqa əsərlər işıq üzü gördü.

1925-ci ildən Zaqafqaziya respublikalarında hərbi tərcümə kollegiyaları təşkil edilir. Azərbaycan hərbi kollegiyasının baş redaktoru vəzifəsinə keçmiş Azərbaycan ordusunun tam artilleriya generalı Əli ağa Şıxlinski ***(bu ali hərbi rütbə Əli ağa Şıxlinskiyə 28 iyul 1919-cu ildə Azərbaycan Demokratik Cümhuriyyətinin 339 nömrəli əmrilə verilmişdir - Ş.N.)*** tə'yin olunmuşdur. Məşhur "Xatirələrim" əsərində həmin illəri yada salan general Əli ağa Şıxlinski sonralar yazırdı:

"Nizamnamələr, tə'limatlar, göstərişlər və bə'zi hərbi dərsliklər tərcümə edilməli idi. Bizim tərcüməçilər buna qətiyyən hazır deyildilər. Bunların içərisində hərbi işi bilən, lakin öz ana dilini kifayət qədər bilməyən adamlar vardı. Elələri də vardı ki, hər iki dili bilir, lakin hərbi işlə tanış deyildilər. Eləcə də nə hərbi işi, nə də dilləri yaxşı bilməyənlər də vardı. Belə tərcüməçilərin hərəsi tərcüməni bir cür qarışıq salırdı... Belə tərcümələri redaktə etmək mənim üçün böyük əzab idi. Hər şeyi yenidən düzəltmək lazım gəlirdi.

Tərcüməçilərin bütün nizamnamə və göstərişləri təhrif etdiklərini görüb, mən ***"Rusca-azərbaycanca qısa hərbi lüğət"*** tərtib və nəşr etdim. Bura hərbi istilahların çoxu daxil edilmişdir. Bu lüğət hərbi kitabları tərcümə üçün bir vasitə idi".

Bu illərdə hərbi kitab nəşrinin sayı ilə yanaşı qəzet və jurnalların da miqdarı artmış və onlarda keyfiyyət dəyişikliyi əmələ gəlmişdi. "Savadlı Qırmızı Əsgər" jurnalı artıq "Qızıl Əsgər" adı ilə çıxırdı. 1928-ci ildən isə bu jurnal həm məzmunca, həm də tərtibat baxımından daha sanballı nəşr olunmağa başlayır. General Şıxlinskinin təklifi ilə jurnala "Hərbi Bilik" adı verilir. Azərbaycan atıcılıq diviziyasınan siyasi şö'bəsinin orqanı olan "Hərbi Biliy"in məs'ul redaktorları komissar Həsən Rəhmanov və diviziya komandiri Cəmşid xan Naxçıvanski tə'yin olunur. İlk hərbi jurnallarımızın nəşr ardıcıllığı belədir: "Savadlı Qırmızı Əsgər"in 1922-24-cü illərdə 14 nömrəsi, "Qı-

zıl Əsgər"in 1925-ci ildə 6 nömrəsi və "Hərbi Bilik" jurnalının 1928-29-cu illərdə 10 nömrəsi çıxmışdır.

Aparılan tədqiqatdan mə'lum olur ki, otuzuncu illərin əvvəllərində Sovet ordusunda kadr sistemində yenidənqurma və dəyişikliklər aparılmışdır. İttifaq daxilində olan bütün milli hərbi hissələr və birləşmələr ölkənin vahid ordusuna daxil edilir. Bununla da ayrı-ayrı respublikalarda və milli diviziyalarda hərbi mətbuat bağlanılır, əvəzində dairə və ordu qəzetləri nəşr olunur.

Azərbaycanda ilk hərbi qəzetin tarixi 1920-ci ildən "Qırmızı Əsgər"lə başlayır. Azərbaycan diviziyası siyasi şö'bəsinin orqanı olan bu qəzet 1925-ci ildən "Qızıl əsgər" adı ilə nəşr olunmuşdur. Respublika hərbi mətbuatının inkişafında xüsusi yer tutan bu qəzet on ildən çox nəşr edilmişdir. Diviziya və alay qəzetlərini öz ətrafında birləşdirən qəzetin baş redaktoru görkəmli yazıçımız Hacıbaba Nəzərli olmuşdur. İstər jurnallarda, istərsə də qəzetlərdə görkəmli sərkərdələrimiz general Əli ağa Şıxlinski, Qambay Vəzirov, Cəmşid xan Naxçıvanski, komissar Heydər Vəzirov, Həsən Rəhmanov, Cabir Əliyev, Cəlil Əliyev, polkovnik Seyfulla Mehdiyev öz maraqlı yazıları ilə yaxından iştirak etmişdir. Bir faktı da qeyd etmək fərəhləndiricidir ki, təkcə 1934-cü ildə rota və alay qəzetlərinin sayı səksənə yaxın idi. "Qızıl əsgər" diviziya qəzeti ilə yanaşı "Dəmir mübariz", "Qızıl topçu", "Döyüşçü səsi", "Qızıl bayraq", "Fəhlə-kəndli Qızıl ordusu" adlı çoxtirajlı alay qəzetləri nəşr olunurdu.

Altmış dörd ildən sonra (1993-cü il) Azərbaycan Müdafiə Nazirliyinin "Hərbi elmi-tədqiqat və tarix" idarəsi yenidən belə bir jurnalın nəşrini davam etdirdi. Dünyaya şirin dilimizdə yeni hərbi jurnal gəldi. Qədimdən qədim, uludan ulu olan Azərbaycan hərb tarixinin yayıcısı, təbliğatçısı olan "Hərbi bilik" yeni yaranan Milli Ordumuzun doğma övladı kimi xalqımıza xidmət edir. Jurnalda hərbi qəhrəmanlıq tariximizin arxiv künclərində saxlanan səhifələr, ayrı-ayrı ailələrdə mühafizə olunan nadir sənəd və fotoşəkillər, indiyəcən adı anılmayan sərkərdə oğullarımızın ömür yolundan maraqlı yazılar dərc edilir.

***1993-cü il.***

## ÜZEYİR BƏYİN HƏRBİ LÜĞƏTİ

***Binanın son daşı heç vaxt bünövrə daşını inkar edə bilməz; etsə, özü yuxarılarda dayana bilməz.***

***ÜZEYİR BƏY HACIBƏYOV.***



1948-ci il noyabrın 28-də gecə saat ikidə dünyadan köçən dahi bəstəkar Üzeyir bəy Hacıbəyovun pianosunun üstündə bitməmiş bir not qaldı. O, general Əli ağa Şıxlinskinin altı bəndlik şe'rinin iki bəndinə romans yazmışdı.

***Ey sevdiyim, ey dilrüba,***
***Səbrim, qərarımsan mənim.***
***Səd mərhəba, səd mərhəba!***
***Nə türfə yarımsan mənim.***

***Səni ziyarət eylərəm,***
***Sənə ibadət eylərəm,***
***Həm çox sədaqət eylərəm,***
***Çün sən Nigarımsan mənim.***

Bəstəkar Üzeyir bəy Hacıbəyov və general Əli ağa Şıxlinski. Birinin əlində qələm, o birinin əlində silah. Hər ikisi xalqımıza təmənnasız xidmət edib, əvəzsiz irs qoyublar. Sənətdə elmin çətin yollarında bəlkə də özlərinin də xəbəri olmadan birləşiblər. Onlarda tale oxşarlığı da var. Bu oxşarlıq könülaçan olmasa da həyat həqiqətidir. Nə Üzeyir bəyə, nə də Əli ağaya tale övlad qismət eləmədi. Əsrin əvvəllərində tale onlara bir əməl oxşarlığı qismət elədi. 1907-ci ildə bəstəkar Üzeyir bəy Hacıbəyovun siyasi, iqtisadi, hüquqi, əsgəri və qeyri sözlərə dair ***"Türk-Rus və Rus-Türk lüğəti" nəşr olundu.***

1926-cı ildə isə general Əli ağa Şıxlinskinin ***"Rusca-türkcə qısa hərbi lüğət"i işıq gördü.***

Oxucuların general Şıxlinskinin lüğətindən az-çox xəbəri var. Bu barədə biz ayrı-ayrı məqalə və kitablarımızda söhbət açmışıq. Hərb elmi üçün bu gün ən uğurlu tapıntılardan biri də Üzeyir bəyin lüğətidir. Onu bizə Respublika Əlyazmaları institutunun elmi arxivindən tapıb təqdim edən alim dostumuz Arif Ramazanova səmimi təşəkkürümüzü bildiririk. Bu qiymətli tapıntıyla hərbi lüğətçilik tariximiz düz iyirmi il qədimləşdi. Üzeyir bəyin hərbi lüğətində rast gəldiyimiz bir ad bizi xüsusilə sevindirdi. Onun naşiri ***"İrşad"ın mühərrirlərindən biri, xalqımızın böyük oğlu Məhəmməd Əmin Rəsulzadədir.*** Otuzuncu illərdə qırmızı bolşeviklər onun adının üstündən tuşla qara çəksələr də yenə aydınca oxumaq mümkün oldu. Burda deyiblər ki, yazıya pozu yoxdu.

Əlbəttə, Əli ağa Şıxlinskinin hərbi lüğəti ilə müqayisədə Üzeyir bəyin lüğəti həcmcə kiçik və nisbətən kasıb olsa da, ilk mənbə kimi qiymətlidir. Oxucu da nəzərə almalıdır ki, general Əli ağa Şıxlinski hələ gənc zabit ikən hərb elmi ilə, dilçilik və hərbi lüğət, terminologiya ilə maraqlanmış, bu sahədə çox uğurlu axtarışlar aparmışdır. Əlli ilə qədər qürbətdə, yad bir iqlimdə yaşayan general hərbi lüğətini nəşr etdirməyə imkan tapmamışdır. Onu da e'tiraf etməliyik ki, generalın hərbi lüğəti ilə bəstəkarın hərbi lüğəti arasında böyük fərq var. Üzeyir bəyin hərbi lüğəti hərb sənətinə ilkin maraq göstərənlər üçün hazırlanmışdır. O, siyasi, hüquqi, iqtisadi və hərbi lüğətdir. Burada izahlar aydın və sadə sözlərlə verilmişdir. Generalın lüğətində isə onların bə'zilərindən istifadə olunmamışdır. Məsələn: Admiral- Əmir ül-bəhr, Ataman-Qazax bəyi, Vaxmistr-baş çavuş, Voevoda - Qoşun rəisi, Qvardiya - Xassə qoşunu, Qərb - Tüğra, Yefreytor - onbaşı və s.

"İnternasional və xarici sözləri seçmək və izah etmək işində cəmiyyətin inkişafına dair o zamankı qabaqcıl ideyalara əsaslandığını nəzərə alsaq, deməliyik ki, Azərbaycan xalqının siyasi şurunun yüksəlməsi işində Üzeyir bəy Hacıbəyovun lüğətinin ciddi əhəmiyyəti olmuşdur." (M.Ş.Şirəliyev "1905-ci il inqilabı və Azərbaycan ədəbi dilinin xəlqiliyi uğrunda mübarizə" məqaləsi, "Azərb EA xəbərləri" jurnalı, 1956-cı il, №4).

General Əli ağa Şıxlinskinin hərbi lüğətini isə mütəxəssislər sırf elmi əsər kimi qiymətləndirirlər. O, hərb elminin mütəxəssisləri üçün yazılmışdır. 1907-ci ildə "İrşad", "Bakinskiy den", "Təzə həyat" qəzetləri Üzeyir bəyin lüğəti haqqında çox doğru olaraq yazırdılar ki, bu lüğət müsəlman qəzeti oxuyanlara çox böyük kömək göstərəcəkdir.

Üzeyir bəyin "Lüğət"inə yüksək qiymət verənlərdən biri də ***akademik Heydər Hüseynov olmuşdur. Akademikin fikrincə, "...Üzeyir bəy Hacıbəyov bu lüğəti ilə mədəniyyətimiz tarixində irəliyə bir addım atmışdır. Öz lüğətində bir sıra ictimai-siyasi istilahları izah və şərh edərkən, zəmanəsinə görə olduqca doğru və düzgün cavablar vermişdir".***

Doğrudan da, iyirmi iki yaşlı gənc müəllim Üzeyir bəyə xalq arasında yayılmış hərbi istilah və sözləri ilk dəfə dindaşlarına çatdırmaq xoşbəxtliyi nəsib olmuşdu.

Fərəhləndirici haldır ki, ilk nəşrindən səksən yeddi il keçməsinə baxmayaraq, Üzeyir bəy Hacıbəyovun hərbi lüğəti bu günümüz üçün də gərəkdir.

Silahlı Qüvvələrimizin əsgər və zabitlərinə, habelə terminologiya ilə maraqlananlara qiymətli bir vəsaitdir.



РУССКО-ТАТАРСКІЙ и ТАТАРСКО-РУССКІЙ

СЛОВАРИ

политическихъ, юридическихъ, военныхъ
и многихъ другихъ терминовъ.

(Пособіе для чтенія татарскихъ газетъ, книгъ и для переводовъ изъ русскихъ брошюръ на современныя темы).

СОСТАВИЛЪ

Узейръ-бекъ Гаджибековъ.

ИЗДАНІЕ

[redacted]

БАКУ.

Типографія Бр. Оруджевыхъ, Николаевская ул., д. Ашумова.

1907.

## "GENERAL TAĞIYEV" MARŞI

***Hacı Zeynalabdin Tağıyev parlaq ağlı, aydın kamalı, tükənməz enerjisi nəticəsində yüksək sərvət qatlarına yüksələrək, bütün Bakı kapitalistlərini kölgədə buraxmışdı. Hacı savadsız idi, imzasını belə ata bilmirdi. İmza əvəzinə yalnız Zeynalabdin sözündəki on bir hərfə uyğun olaraq, on bir cızıq çəkərdi. Məhz belə bir adam yalnız Azərbaycanda, Rusiyada deyil, bütün Avropada iri iqtisadi və ticarət əlaqələrində görkəmli simaya çevrilmişdi.***
***Hacı Zeynalabdin Tağıyev Şərq aləminin ilk mesenatı idi. Sərvət və sərmayədarlıq onu heç zaman doğma xalqından ayırmamışdır. Xalqı da doğma Vəəni kimi ona əziz idi.***

***Qılman İlkin,***
***Xalq yazıcısı***

Xalqımızın qeyrətli oğlu milyonçu Hacı Zeynalabdin Tağıyev haqqında bu kiçik yazını qələmə almamışdan əvvəl fikirləşdim ki, beş-üç nəfərlə sorğu aparacam. Görüm Hacının general olduğunu bilən varmı. Bu arzu ilə küçəyə çıxdım. Qarşıma əli çəlikli yetmişbeş- səksən yaşlı qoca çıxdı.

- Hacı Zeynalabdin Tağıyev hansı hərbi rütbəni daşıyıb? -deyə soruşdum.

Qoca sərt-sərt üzümə baxıb az qala qəzəblə dedi:

-Məni dolayırsan, bala? O, savadsız idi. Nə olsun ki, varlı-hallı idi. Eşitdiyimə görə adını yaza bilmirmiş. Heç qol da çəkə bilmirmiş, qızıl üzzüyün qaşına "H.Z.T." həkk elətdiribmiş. Onu da sənədlərə möhür kimi vururmuş.

Sonrakı iki otuz-otuz beş yaşlı vətəndaşlar isə mənim sorğuma sualla cavab verdilər:

-Siz deyin görək Tağıyev kim olub, nə vaxt, harada, hansı illərdə yaşayıb? Sonra da Sonra da rütbəsini soruşun.

Bundan sonra sorğumu davam etdirməyə lüzum görmədim.

Mən bu dünyadan bixəbərlərə deyəndə ki, Hacı Zeynalabdin Tağıyevin general rütbəsi olub. Hətta onun şərəfinə 1907-ci ildə "General Tağıyev" marşı da yazılıb. Onda elə bil onların isti aşına soyuq su qatdım. Müsahiblərim təəccüb və inamsızlıqla məndən aralandılar...

Hacı Zeynalabdin Tağıyevin müsəlman milləti üçün elədiyi xidmətlərini durub burada saymaq fikrinə düşsək, heç olmasa bir ay qəzetimizi ancaq elə bu təfsilatla doldursaq, yenə hamısını deyə bilmərik".

Məşhur naşir Haşım bəy Vəzirov bu sətirləri 1907-ci il aprelin 10-da "Tazə həyat" qəzetində dərc etdirmişdi. Əsrin əvvəllərində Tağıyev bütün dünyada Qafqaz müsəlmanlarının fəxri kimi tanınırdı. Onun xalqımıza göstərdiyi əvəzsiz xidmətlərini bu gün də saymaqla qurtarmaz. Məktəblər açdıran, su kəməri çəkdirən, teatr binası tikdirən, mülklər inşa etdirən Azərbaycanın ictimai, iqtisadi işlərinin başında duran ilkin şəxs Hacı Zeynalabdin Tağıyev idi. Və nəhayət, bu günlərdə mə'lum oldu ki, xalqına general kimi xidmət edənlər sırasına Hacı Zeynalabdin Tağıyev də olub. Əlbəttə, bə'zi oxucular Hacının general olmasına şəkk-şübhə edəcək. Amma ağıllı oxucu dərhal anlayacaq ki, Hacının xalqa xidməti hər bir generalın xidmətindən qat-qat mənfəətli və xeyirli olub. Şərt nə zər-paqon daşımaqdı, nə də cəbhədə vuruşmaq. Hacı bütün sahələrdə, mülki geyimdə xalqının generalı olub.




Milli ayrı-seçkiliyə fərq qoymayan Tağıyev işində, əməlində böyük bir şəxsiyyət olduğunu əyani olaraq göstərmişdir. Xüsusilə, müsəlman dindaşlarının nəfinə xeyriyyə işlərinə külli miqdarda qızıl və pul xərcləndiyinə görə səxavətli Hacıya imperator II Nikolay 1907-ci ildə, yanvarın 25-də həqiqi dövlət müşaviri ali rütbəsi vermişdir. Bu da donanmada

kontr-admiral, orduda general və ədliyə sahəsində isə ober-prokuror rütbələrinə bərabərdi.

Bu hadisə ilə əlaqədar Qafqaz çanişini qraf Varantsov-Daşkov tərəfindən H.Z. Tağıyevin ünvanına teleqram göndərilmişdi. Teleqramda deyilirdi:

*"Ali əmrlə siz həqiqi dövlət müşaviri rütbəsinə layiq görülmüsünüz. Bu yüksək adla sizi təbrik edirəm, əminəm ki, sizin xidmətlərinizin bu Ali təsdiqindən dindaşlarınız arasında təhsilin yayılması kimi olduqca faydalı işə davam etmək üçün yeni qüvvə olacaqsınız.*

***Qraf Vorontsov-Daşkov***

Hacı Zeynalabdin Tağıyev cavab teleqramında yazmışdı:

***Tiflis şəhəri***

İmperator Əlahəzrətlərinin Qafqazdakı canişini Qraf İllarion İvanoviç Varantsov-Daşkova:

*Zati aliləri, Monarxın lütfü ilə əlaqədar Siz Zati-alilərinin mənim üçün xoş olan təbriklərinə görə səmimi təşəkkürlərimi qəbul edin. Zati-alilərinizdən Sizin insani həssaslığınız və atalıq qayğınız sayəsində dindaşlarımın marifləndirilməsi yolu ilə ömrümün axırına qədər yorulmadan calışacağam. Zati- aliləri, inanın ki, Qafqazın bütün müsəlmanlarının, həm qocaların, həm də bizim tərbiyələndirdiyimiz cavanların simasında Çara və Vətənə sadiq olan və bunu sözdə deyil, həm də işdə sübut etməyə qadir olan oğullarımız var. Siz Zati-alilərinin bizə göstərdiyiniz qayğı, Sizə borclu olan bütün müsəlmanların qəlbində həkk olunacaq. Öz gələcək nəsillərimizə də bütün Qafqaz üçün əziz olan Siz cənab aliləinin adını daim xeyr-duayla xatırlayacağıq.*

***Fəaliyyətdə olan dövlət müşaviri Tağıyev."***

Xalqına etdiyi əvəzsiz xidmətlərinə görə 1900-cü ildə Hacı Zeynalabdin Tağıyevin nəsli fəxri vətəndaş adına və senatın 1910-cu il 8 fevral tarixli fərmanı ilə zadəgan rütbəsinə layiq görülür.

Hələ sağlığında Tağıyevə çoxlu şeir, publisistik və nəsr əsərləri yazılıb.1900-cü ildə görkəmli publisist N. Nərimanov "Hacı Zeynalabdin Tağıyevin əlli illiyi-məişətə və cəmiyyətə xidmətləri" adlı qiymətli əsərini çap etdirdi. M.V.Kneydin adlı müəllif isə "General Tağıyev" marşı bəstələmişdir. Marşın mətnini də bəstəkar özü yazmışdır.

General Hacı Zeynalabdin Tağıyevin şərəfinə yazılan nadir not bəstəkar dostum Tofiq Babayevin ailə arxivindən 1991-ci ildə aşkar edilmişdir. Təəssüf ki, notun yazılma və bəstələnmə tarixini dəqiqləşdirmək mümkün olmadı. Üz qabığındakı yazıdan aydın olur ki, "General Tağıyev" marşı Bakıda və Kiyevdə ifa olunmuşdur. Ümid edirik ki, doxsan ilə yaxın "əsir" qalan "General Tağıyev" marşı bəstəkarlarımız tərəfindən yenidən işlənib ifa olunacaq.

***1991-ci il, oktyabr***

# ULULARIN SÖZ YADİGARI

*Azərbaycanın qəhrəman oğulları, peşəkar hərbçiləri haqqında sanballı əsərlər yazan Şəmistan Nəzirlini otuz ilə yaxındır ki, tanıyır və dostluq edirəm. O, bu sahədə uzun illər səmərəli axtarışlar aparmış, yüzdən çox azərbaycanlı generallar barədə məlumatlar toplayaraq xalqımıza çatdırmışdır. Şəmistanın 1991-ci ildə "Gənclik" nəşriyyatı tərəfindən 50 min tirajla çap olunmuş "Azərbaycan generalları" kitabı oxucular tərəfindən böyük rəğbətlə qarşılanıb.*

*Şəmistan Nəzirli müasir peşəkar hərbçilərimiz haqqında da maraqlı yazılarla çıxış edir. O, torpaqlarımızın erməni işğalçılarından azad olunması uğrunda gedən döyüşlər vaxtı mənimlə birlikdə cəbhə bölgələrində olmuş, əsgərlərimizi qələbəyə ruhlandırmış, müşahidələrini qələmə almışdır.*

*Yadımdadır, 1993-cü ilin avqust və oktyabr aylarında Ş. Nəzirli Tovuz, Gədəbəy, Qazax və Füzuli bölgələrində səngərləri gəzdi və mətbuatda silsilə yazılarla çıxış etdi.*

*Həmin ilin oktyabr ayında Başkənddə çəkilmiş bu foto - şəkil də cəbhə bölgəsindən yadigardır.*

*Polkovnik*
*Hamlet Hüseynov*



***El şairlərinin sözləri o qədər narın, o qədər incədir ki, insanın ürəyi o sözlərdən öz payını almamış sovuşa bilmir. Onların bə'zisini oxuyanda adamın könlü qızılgül qönçəsi kimi çıtlayıb, dodaqlarında gülümsənmək görünüb, gözləri də şəhlalanır. Qəmli, qüssəli, bir parçası söyləndikdə, qayğı oxları kimi, qulaq asanların qəlblərini dəli-dəlik edib ilan kimi qıvrıldır.***

***Salman Müntaz,***
***(1884-1941)***
***Tədqiqatçı-ədəbiyyatşünas.***

***Nizaminin, Füzulinin küllüyatını tabutuma qoyun. Çiyinlərinizdə də onlarla olum. Qəbir evində də...***

***Xalq artisti Kazım Ziyanın***
***son sözləri***
***(1896-20.11.1956)***

# "ƏLİM UZANIQLI QALIB"

***(Şeyx Şamil və ailəsinin sonrakı taleyi barədə bəzi məqamlar)***



***Mən ağır döyüşlərdən sonra tam qənaətə gəldim ki, ölümün gözünə dik baxan, şəhidliyi şərəflə qarşılayan insanlara əsarət təklif etmək boş və gülünc bir şeydir. Ey vətən dağlarının bənzərsiz zinəti olan onun şərəfli qoruyucuları! Azadlığı yalvarışla almaq qeyri-mümkündür. Silahla işğal olunmuş vətən torpaqları yalvarışla qaytarılmaz, döyüşlə alınar. Bizdən nəvələrimizə qalacaq ən böyük miras istiqlal və hürriyyət uğrunda vuruşmaq, yeri gələndə də bu yolda şəhid olmaqdır. Məhv olsun səfil əsarət, yaşasın şanlı və şərəfli ölüm!***

***1840-cı ilin noyabrında Şeyx Şamilin Çeçenistan xalqı qarşısında nitqindən.***

***Azadlıq və hürriyyət yolunda mübarizədə əzm və səbat göstərmək üçün dəmir iradə sahibi olan İmam Şamillər lazım imiş. Halbu ki, analar hər dəfə və hər əsrdə İmam Şamil doğmaz.***

***Üzeyir bəy Hacıbəyli,<br>“Azərbaycan” qəzeti,<br>2 iyun 1919-cu il***

Şeyx Şamil 1869-cu il mayın 19-da Məkkə, Mədinə səfərinə gedəndə yolu İstanbuldan keçirdi. Məkkə Şeyxülislamının dəvətini gözləyən Şamil səkkiz ay İstanbulda qalmalı olur. Bunu eşidən türk Sultanı Əbdül Əziz Şeyx Şamili Topqapı sarayına görüşə dəvət edir.

Şeyx Şamil saray adamları ilə bir-bir əl verib hal-əhval tutur, lap axırda isə Sultan Əbdül Əzizlə görüşür. Sultan Şamilin əlini buraxmır və pərt halda deyir:

- Sizi Osmanlı imperiyasında görməyimə çox şadam. And olsun allahın varlığına, yalnız atam Sultan Mahmud qəbirdən durub gəlsəydi, bu qədər sevinə bilərdim. Amma deyin görüm, bu nə məsələdir, niyə mənə axırda əl verdiniz? Niyə məni bu qədər intizarda qoyub gözlətdiniz? Bayaqdan əlim uzanıqlı qalıb...

***Müdrik Şeyx Şamil cavabında:***

- Sultan sağ olsun, - deyir, - siz beş-üç dəqiqə intizarda qalıb gözlədiniz. Mən isə Sizi düz iyirmi beş il gözləmişəm. İyirmi beş il əlim sizin qardaş köməyiniz üçün uzalı qalıb - ürək ağrısı ilə köksünü ötürən Şeyx Şamil daha sonra əlavə edir: - Əgər mərhum atanız Sultan Mahmud və Siz vaxtında mənə kömək əlinizi uzatsaydınız, bu gün Vətənimiz Qafqaz gavur əsarətində qalmazdı.

Şeyx Şamilin haqlı iradından sonra üzürhaxlıq edən Sultan Əbdül Əziz ona və ailəsinə daha çox qardaş iltifatı göstərir. Böyük oğlu Qazi Məhəmmədə paşa - general rütbəsi verib. Şəxsi mühafizə qvardiyasındakı Qafqaz alayının komandiri təyin edir.

***

Böyük Şeyx Şamil yetmiş dörd yaşında - 1871-ci il fevralın 4-də Mədinədə öz əcəli ilə vəfat etdi. Onu Məhəmməd Peyğəmbər (Ə.S.) yatan torpaqda - Cənnət-əl-Baki qəbristanlığında şərəflə dəfn etdilər. Atasının dəfnindən sonra Türkiyəyə qayıdan Qazi Məhəmməd Türk ordusunda general-mayor rütbəsi ilə hərbi xidmətdə qaldı. 1877-ci ildə Rus-Türk müharibəsi başlananda onu çərkəzlərdən təşkil olunmuş Bayəzid qalası uğrunda vuruşan süvari diviziyanın komandanı təyin etdilər. Qazi Məhəmmədin ruslara qarşı vuruşduğunu eşidib, bilən rus alayının komandiri mayor Ştokvis general Qazi Məhəmmədə belə bir məktub göndərir:

***"Türk ordusunun diviziya generalı Qazi Məhəmməd Şeyx Şamil oğluna! Ayıb deyilmi? Axı, Siz 1866-cı il avqustun 26-da Kaluqadakı Zadəganlar***



*Qazi Məhəmməd Şeyx Şamil oğlu (1833-1902)*

***Sarayında igid atanızla birgə Rusiyaya sədaqətli olacağınız haqqında and içmisiniz. Yəqin ki, mərhum atanız Şeyx Şamil sağ olsaydı bu hərəkətinizə görə Sizi bağışlamazdı."***

Deyilənə görə, məktubu alan Qazi Məhəmməd heç kəsə, heç nə demədən Bayəzid qalası uğrunda gedən döyüşləri yarımçıq qoyub getmişdir. Görünür atasının içdiyi andını unudubmuş. Bəlkə də müdrik atanın ruhunu incitməkdən qorxub...

Şeyx Şamil 1866-cı il avqustun 26-da imperator ikinci Aleksandra yazırdı:

"Mənim müqəddəs borcumdur ki, oğlanlarıma Rusiya qarşısında borclarını başa salım. Mən onlara vəsiyyət etmişəm ki, Rusiyaya sədaqətli olsunlar, ikinci Vətənimizə layiqli qulluqçu olsunlar. Hökmdar, bu qoca vaxtımda rahat olmaq üçün, göstəriş ver, harada istəsən (Kaluqada, Moskvada, Peterburqda) oğlanlarımla birlikdə əbədi sədaqətli qalacağımıza and içək. Mən bütün xalq qarşısında and içməyə hazıram. Qoy fikrimin paklığına göydəki Allah, ulu Peyğəmbərimiz Məhəmməd şahid olsun, cəsədi təzəcə souyumuş qızım Nəfisətin qəbrinə və müqəddəs Qurana and içirəm.

...Mən yeri, göyü yaradan, bizi xəlq edən Allaha and içirəm. And içirəm ki, ailəmlə birlikdə imperator Aleksandr Nikolayeviçə, onun varisinə və Rus dövlətinə həmişə sədaqətli olacağam".

Avqustun 29-da Şeyx Şamilin andını imperator ikinci Aleksandra təqdim etdilər. İmperatorun Şeyx Şamilə cavabı qısa və çox səmimi oldu: "Möhtərəm İmam, şükür İlahiyə ki, sənin qəlbində böyük dönüş yaradıb. Mən inanıram ki, sən sözündə sadiqsən, ikiüzlülük eləmirsən, çünkü sən böyük şəxsiyyətsən, vicdanlısan, xeyirxahsan".

Şeyx Şamil Həcc ziyarətinə gedəndə imperator ikinci Aleksandrın təklifi ilə ortancıl oğlu Məhəmməd Şəfini Rusiyada girov qoymuşdu. Hələ Şamil Rusiyada olanda Məhəmməd Şəfi hərbi məktəbi bitirib, imperatorun şəxsi

leyb-qvardiya alayında xidmət edirdi. Bir az sonra general rütbəsi aldı. Rus hərb tarixçiləri Məhəmməd Şəfini sərkərdəlik qabiliyyətindən yazanda iftixarla qeyd edirlər ki, o, silahdaşlarının yaddaşında xeyirxah, həssas və əla süvari generalı kimi qalmışdır.

1877-ci ildə qardaşı Qazi Məhəmmədin Türk süvari diviziyasının komandanı kimi ruslara qarşı vuruşmaq xəbəri Məhəmməd Şəfiyə də çatır. Atasının andını pozan qardaşının "dönüklüyündən" sarsılan Məhəmməd Şəfi imperatora raport yazıb xahiş edir ki, onu "dönük və sayıqlığını" itirən qardaşı Qazi Məhəmmədə qarşı vuruşan rus diviziyasına döyüşə göndərsin.

Çar ikinci Aleksandr general-mayor Məhəmməd Şəfinin raportuna belə bir dərkənar yazır:

***"Heç bir ailə eyibsiz olmur. Mən, Sizin və mərhum atanız Şeyx Şamilin içdiyi sədaqət andına inanıram. Ona görə də qardaşın qardaşa qarşı vuruşmasına icazə vermirəm. Hələlik gözlə! Əgər Avropada döyüşlərə başlamalı olsaq, onda mən özüm səni çağıracam."***

Ümumiyyətlə, tarixi sənədlər və tarixi əsərlər şahidlik verir ki, rus çarı ikinci Aleksandr nə Şeyx Şamilə, nə də onunla Rusiyada sürgündə olan iyirmi iki nəfərlik ailə üzvünə qarşı əzazillik etməmişdir. O, Şeyx Şamilə nə əsir, nə də düşmən gözü ilə baxmamışdır.

1859-cu il sentyabrın 15-də imperator özü hörmət əlaməti olaraq Xarkov yaxınlığındakı Çuquyevo qəsəbəsinə əsir Şamilin görüşünə gəlmiş, ona qiymətli xəz  kürk, üstü yazılı xəncər və ərəb atı bağışlamışdır. Həmin görüşündə imperator Şeyx Şamilə demişdir: "Mən çox şadam və hədsiz dərəcə də sevinirəm ki, Siz Rusiyadasınız. Təssüflənirəm ki, Sizin kimi Müdrik sərkərdə ilə bu görüş çoxdan olmayıb. Böyük İmam, Siz peşiman olmaycaqsınız. Mən Sizə yaxşı şərait yaradacağam və biz dost kimi birgə yaşayacağıq".

Çar Şeyx Şamillə qalib sərkərdə kimi rəftar etmişdir. Ona istədiyi yerdə - Kaluqa şəhərində mülkədar-podpolkovnik Suxotinə məxsus üç mərtəbəli mülkü boşaltdırıb Şamil və ailəsinə yaşamaq üçün bağışlamışdır. Evin həyətində Şamilin istəyi ilə məscid tikdirmişdir. Ailəsinin dolanacağını on bir il, ildə on beş min manat padşahlıq xəzinəsinin hesabına təmin etmişdir. Şəhərdə və iki yüz kilometr məsafədə istədiyi vaxtı gəzmək üçün dilican-kareta bağışlamışdır. Əsir alınandan bir az sonra  polkovnik Apollon Runovskinin Şamil haqqında yazdığı "Şamil" (Qalib Şamilə həsr olunur) və "Şamil haqqında qeydlər" kitablarının 1860-cı ildə nəşrinə icazə vermişdir.



***İlisu Sultanı, general Danial bəyin qızı və Şeyx Şamilin gəlini Kərimət xanım (1837-1862)***

Peterburq, Kiyev, Kaluqa və Kazan şəhərlərində yaşayan adlı-sanlı zadəgan ailələri ilə, görkəmli şərqşünas-alim, həmyerlimiz Mirzə Kazım bəylə istədiyi vaxt görüşməyə, Ermitaja, hərbi məktəblərə getməyə icazə vermişdir.

***

Qazi Məhəmməd - 1833-cü ildə Şamilin birinci arvadı Fatimatdan dünyaya gəlmişdi. Şamil onun adını Dağıstanın birinci imamı, ustadı və müəllimi Qazi Məhəmmədin şərəfinə qoyub. ***Onun həyat yoldaşı Kərimət xanım azərbaycanlı idi.*** Kərimət on altı il Şeyx Şamilin birinci naibi olan general Daniyal bəy Sultan Əhməd xan oğlu İlisulunun qızı idi. Kərimət 1862-ci ildə iyirmi beş yaşında Kaluqada vərəmdən öldü. Sultan və general qızı olduğuna görə imperatorun əmri ilə Şəkiyə gətirilib, anası Balaxanımın[1] yanında dəfn olunub.

Türk marşalı rütbəsində istefaya çıxan Qazi Məhəmməd ömrünün son illərini Mədinə şəhərində yaşayıb, 1902-ci ildə orada vəfat edib. Atası Şeyx Şamilin yanında - Cənnət-əl-Baki qəbristanlığında dəfn olunub.

1. Balaxanım Şəki xanı Hacı Çələbi xanın (?-1755) nəvəsi idi. -Ş.N.

# QAÇAQ KƏRƏMİ DOĞAN ANA

*İgidi qılınc yox, qeyrət yaşadar.*

***Qaçaq Kərəm***
***(1860-1910)***

*Dustaqlıqdan qaçaqlıq, qaçaqlıqdan ölüm yaxşıdır*

***Balasöyün Zaloğlu***
***Qaçaq Kərəmin qardaşı***

*O, əfsanə və nağılların qəhramanıdır...*

*O, ədalət mücəssəməsidir. Qaçaq Kərəm haqqında eşitdiklərim o qədər əfsanəvidir ki, o hazırda sağ olmasaydı, onun həqiqətən yaşadığına insan heç cür inana bilməzdi.*

***Maksim Qorki,***
***"Nijeqorodskiy listok" qəzeti***
***23 noyabr 1896-cı il.***



1913-cü ilin fevral ayında Romanovlar sülaləsinin 300 illiyi bayram kimi imperiyanın hər yerində qeyd olunurdu. Bu münasibətlə çar II Nikolay Rusiyanın mərkəzi şəhərlərinə gedir, təntənəli ziyafətlər keçirirdi. Tiflisə gələn çar şəhərin görməli yerlərini gəzdi, məktəblərə getdi. Bir aya yaxın bal-ziyafətlərdə eyş-işrətdə olan çar, Dərbənd yolu ilə Peterburqa qayıtmalı oldu. Qatar Gürcüstan ərazisini keçəndə soruşur ki, indi hansı mahaldan, hansı stansiyadan keçəcəyik?

- Əlahəzrət, Qazax mahalından və Ağstafa stansiyasından keçəcəyik.

İmperator duruxur və bir neçə dəfə:

- Kazaklar, yoxsa Qazaxstan... demək istəyirsiniz, - deyə soruşur.

- Çar sağ olsun, bura nə Kuban kazaklarının, nə də Orta Asiya qazaxlarının yurdudur. Burda Qafqaz tatarları, azərbaycanlılar yaşayır. Bir azdan keçib gedəcəyimiz yerin, mahalın adı Qazaxdır.

- Aha, xatırladım! Qafqaz igidi Qaçaq Kərəmin vətənidir?

- Bəli, bəli, əlahəzrət, özüdür ki, var.

Azacıq fikrə gedən çar deyir:

- Maraqlıdır, görəsən, Qaçaq Kərəmin nəslindən qalan varmı? Məmnuniyyətlə görüşüb kəlmə kəsərdim.

Qatar Ağstafada dayananda Kərəmin anası Fəxrənisəni ehtiramla imperatora təqdim edirlər. Çar böyük bir səmimiyyətlə ananın əlindən öpüb:

- Ana, - dedi, - oğlun Kərəmin igidliyi, adı külli-aləmə bəllidi. Qəlbən etiraf edirəm ki, onun adı gələndə yasovuldan tutmuş Qafqaz canişininə kimi rütbəli şəxslər qorxudan tir-tir əsirdilər. Bizim hökumətə qarşı vuruşdu. Heç kəsə boyun əymədi. Təəssüf ki, Tehranda dünyasını tez dəyişdi. Şəxsən mən onun qorxmazlığını yüksək qiymətləndirirəm. Ana, möhtərəm ana, indi de görüm, Kərəm kimi igidi yenə doğa bilərsənmi?

İmperatorun oğlu haqqında dediyi tərifdən qürurlanan Fəxrənisə ana qəddini daha da şax tutub:

- Kərəm kimi oğlu yenə doğaram, dərdin alım, niyə doğmaram. Əgər ərim Molla Zal oğlu İskəndər  kimi kişini mənə qaytara bilsən. Karvan getdi, igidlər öldü, zaman dəyişdi, dərdin alım...

Sadə kəndli qadından bu müdrik cavabı gözləməyən çar heyrətlə geri çəkilib:

- İnanıram, - dedi, - inanıram ki, belə hakimanə cavab verən ana Qaçaq Kərəm[1] kimi igid doğa bilər.

## ŞİRİN DİLLİ MOLLA ZAL

Məşhur ədəbiyyatşünasımız Firidun bəy Köcərli Qıraq Kəsəmənli Mollazal oğlu İsgəndərin ziyadə fəsih (sözü aydın və düzgün deyən, söz ustası Ş,N), dilavər və çəsur bir kişi olduğunu iftixarla yazıb, Molla Zalın

1. Qacaq Kərəmin foto şəkili məşhur İran alimi Mehdi Bamdadın beş cildlik "Tarixi-riçali-İran" ensiklopedik əsərindən götürülmüşdür. (Bax! 3-çild, Tehran, 1966-cı il, səh. 163-də)

müasiri və dostu şair Mirzə Nəbi Əfəndi Qayıbov (1810-1889) "Əhli-dövran" şerində cərxi-fələyi lənətləyir ki, dünyadan Molla Zal kimi igidləri də apardı.

***Gör neçə məğşuşluq olubdur əhval -***
***Kim, günçü heyrətdə qalıb nitqi lal,***
***Fəsih sözlü, şirin dilli Molla Zal***
***Məgər üzün örtüb bel ilə kürək?***

Məşhur Qacaq Kərəmin atası Molla Zal oğlu İsgəndər (? - avqust 1884) XIX əsrin əvvələrində yaşamışdır. Elin yaddaşında birçə şeri və çoxlu müdrik hazırcavablıqları qalıb. O, Bəhlul Danəndə, Molla Nəsrəddin sayağı lətifələri və şerlərilə Qazax, Borçalı mahalında məşhur olmuşdur. Molla Zal deyərmiş: Dindarlar deyir ki, cin "bismillah"dan qaçar, ancaq indi elə dövran gəlib ki, cin özü "bismillah" deyir. Molla Zal yenə deyib ki, südün üzlü olsun, ancaq qonağın üzlü olmasın. Bir də deyib ki, dilini saxlaya bilən, başını da saxlaya bilər.

Bizə gəlib catan yeganə "Yaxalanmamış" şerində Molla Zal dövrünün haqsızlığını tənqid edir, ərşə çıxan harayında qadir Allahdan kömək diləyir.

***Aman təbib, mənə bir əlac eylə,***
***Sinəm eşq oduna yaxalanmamış.***
***Ölüb bu dünyadan həsrət gedirəm,***
***Bir ağ buxaq öpüb yaxalanmamış***

***

***Versə idin sən mürğinə təzə dən,***
***Dəxl olmazdım bu azara təzədən,***
***Yar da mənə yara vurdu təzədən***
***Köhnə yaralarım yaxalanmamış.***

***

***Molla Zalam, işim getdi haraya?***
***Bayram ayı deмək olmaz hər aya.***
***Qadir Allah, özün yetiş haraya***
***Canım Əzrayıla yaxalanmamış.***

# NÖVCAVANLAR VAR OLSUN...

***Biz türklərdə hissiyyat və qədrşünaslıq yoxdur. Şan və şərafətimizə, Vətən və millətimizin sərəfrazlığına səbəb olan, dilimiz və ədəbiyyatımıza rövnəq verən əziz və möhtərəm vücudların qədr və mənzilətini bilmirik. Onların asari-güzidələri ilə iftixar etmirik. Milliyyət hissi bizlərdə ayılmayıbdır, Vətənimizin, dilimizin və ədəbiyyatımızın qədrini bilmirik.***

***FİRİDUN BƏY KÖÇƏRLİ,***
***Ədəbiyyatşünas - alim***
***(1863-1920)***



***M.P.Vaqif (1717-1797)***

Uzaq mənzil gedəcək qonaqlar obaşdan durdular. Cilovdar atları yəhərləyib-yüyənləmişdi. Qaynənə Tükəzban, gəlini Pəri Soltanla xurcunları qabğarırdı. Tənha tutun altında cilovdar Vaqifin yəhərli-yüyənli atını oxşaya-oxşaya gəzdirirdi.

İki dost isə bir az aralıda sakitcə söhbət edirdilər. Vaqifin dediklərini başıaşağı dinləyən Vidadi sükuta getmişdi. O, ahəstəcə qaldırdığı əlini ustadının çiyninə qoyub:

- Gəl, sən məndən incimə, - dedi ustad, Mələk Cahanı uzağa vermək istəmirəm. Məni düzgün başa düş, balalarıma fərq qoymuram. Dörd balam var, dördü də mənim üçün əzizdi, doğmadı. Bir də, elə düşünərsən ki, Pəri Soltanın sizin ocağa düşməyinə peşimanam. Yox, vallah, əsla elə deyil. Axı, mən də qocalmışam, qəlbim nazikləşib, düşkün könlümdə Mələk Cahan balama ayrıca istək var. Ona görə də balamın uzağa düşməyindən ağzım yanıbdı...

Söz tapmayan Vidadi:

- İşi düzəltməməyin xatirinə sən də özünü qoca sanırsan, a Mehdioğlu? Səni anlayıram, rəhmətlik Mədinə xanımın son yadigarıdır, yə'qin ona görə... - deyən Vidadi ilk dəfə şagirdini məzəmmət elədi.

- Ustad, bəlkə də sən deyən kimidir. Axşam da bir işarə vurdun, mən də bütün gecəni düşünüb-daşınmışam. Hey fikirləşirəm, görürəm yox... Mələk Cahan anamın, həm də Mədinə xanımın tən oxşarıdır ki, mənə təsəlli üçün dünyaya gəlib. Hər ikisinin iyini ondan alıram. Ona görə də istəməzdim uzağa düşsün.

Molla Vəli incik halda:

- A saqqalı ağarmış, nə vaxtdan doğulduğun el-oba sənin üçün uzaq oldu? Gəncliyindəki şıltaqlıq hələ də qalıb haa... Bir də ki, özgə evinə gəlmir ki... öz babası evinə, öz ocağına gəlir də... Sən məni anlamadın, yə'ni bizim Qazax, Borçalıda qız qəhətliyidi, amma mən istəyirəm ki, Osman ağaya halal adamın südünü əmmiş bir gəlin rast düşsün. - Başını yırğalayıb, təsbehini əsəbiliklə çəkən Vidadi - Yox, yox, səni başa düşə bilmirəm. Onda açıq de, bəlkə başqasına söz vermisən?

Vaqif oğul ərkilə ustadını qucaqlayıb:

- Yaxşı, yaxşı, sən Allah, incimə, - dedi, - Ondan ümid və intizarla cavab gözləyən qocanın kefini açmaq üçün zarafatla: - Günah qızım Pəri Soltandadı...

- Niyə - deyə Vidadi dərhal sərt səslə soruşdu - Mənim gəlinimin günahı nədədi?..

- Günahı odu ki, sizə yaxşı baxıb, əgər Pəri Soltan sizin pişiyinizi ağaca dırmaşdırsaydı Mələk Cahana da elçi düşməzdiniz. - Sonra ciddi görkəm alıb, - Axı, bir ailədə iki bacının gəlin olmağına xalq, el-oba necə baxar, ustad? Üstəlik də mən kimsəsiz və yetim qalıram. Mən necə də olsa qürbətdəyəm, ustad məni də düşün. Bir dərdim-sərim olanda kimin yanına gedim, kimlə bölüşüm?

- Bunlar hamısı xırda-xuruş bəhanələrdir. Nə sən yetimsən, nə də Qarabağ qürbət deyil. İkincisi də, ay saqqalı ağarmış, iki könül bir olandan sonra kimin ona sözü ola bilər. İki bacının bir evdə gəlin olmağı isə tək bizdə görünməyib ha. Bu, bütün müsəlman dünyasında var, eldə-obada olan adətdir. Osman istəyir, Mələk Cahan da razıdır. Səndən, məndən gizlin uşaqlar işi düzəldiblər. Bir də ki, bunun nəyi pisdi, daha yaxşı, bir evdə iki hava yox, bir hava olar. Dedi-qodu da olmaz, mehribançılıq daha çox olar.

- Sən elə həmişə sakitlik axtarmısan. Azacıq aşım, ağrımaz başımdı, səninki. Söz vermirəm. Qayıdım Qarabağa, Qızxanıma qızın ağzını aradım. Bu xəbəri ilk dəfə sizdən eşidirəm. Doğmaca atası mənəm, bu işdən xəbərim yoxdu. Sən isə deyirsən ki, cavanlar sövdələşiblər.

Kefi durulan Vidadi arxayınçılıqla:

- Biz elə hazırlaşırdıq gəlməyə, yaxşı oldu, sən özün gəlib çıxdın, danışdıq ürəyim rahat oldu.

- Ay ustad, deyəsən siz elə toy tədarükündəsiniz?

- Bilmirəm, nə eləyirsən elə, qayıdanda Qarabağa səs sal ki, Mələk Cahana Şıxlıdan nişan gəlir. Qoy Qarabağ igidləri ondan gözünü çəksin. Sən də məni sinnimin ağır vaxtında incitmə, özgə qapısına göndərmə. Danışdıq, vəssalam, - deyib Vaqifə yol tədarükü görənlərin yanına getdi.

Vaqif heç nə demədi. Dan üzünün təmiz havasını udub səmaya boylandı. Açıq səmada yanan alaseyrək ulduzlardan xeyli aşağıda pənbə buludlar sürünürdü. Rütubətli, sərin meh çiskin ətri gətirirdi. Gəmi qayasına yaxınlaşıb dayandı. Çılpaq at üstündə, camışların belində o tay Qarayazıya keçdiyi uşaqlıq, gənclik günlərini xatırladı. Ağzı qaralan Qurd damı tənha gözü ilə bu geniş vadinin keşiyini çəkirdi. Yarğanın dibini yalayıb, keçən Kür təbiətin dərin yuxusunu pozmamaq üçün sakitcə axıb gedirdi. Kəndin bir neçə yerində xoruzlar ağız-ağıza verəndə o, geri qayıtdı. Səhər dumanından hələ sıyrılıb çıxmayan kəndə baxa-baxa: “Doğma yurd əzəlim də sən olmusan, axırım da sən olacaqsan. Ya qismət!!!”

Vidadi onun qoluna toxunanda diksindi.

- Yenə öz-özünə nə gümüldənirsən? Yə’qin doğma yerlər səni ilhama gətirib.

- Bu yerlər kimi ilhama gətirməyib ustad, şər deməsən, xeyir gəlməz. Birdən başıma bir iş gəlsə, istərdim ki, əzəlim olan yerdə axırım da olsun.

- O nə sözdü, oğul, səfər üstəsən, ağzını xeyirliyə açsana, heç olmasa ya qismət de...

- Demişəm. Fələyin işini bilmək olmaz. Toxuduğu tor yaman sıxdı. Dünya yaman qarışıb, ustad. Qabağından yeməyənlər, mənəm deyənlər farağat durmur.

- Eh, oğul, doxsan ildi bu dünyanı belə qarışıq görmüşəm. Düzələn tərəzi döyül...

Onlar asta addımlarla qapıya qayıtdılar. Vaqif hamı ilə görüşüb cilovdarın tutduğu ata yaxınlaşdı. Dəri iyi verən yəhərin quşqunundan tutub bir an-

lığa dayandı. İçəridən sür'ətlə çıxan Pəri Soltan kəlağayısını düzəldə-düzəldə:

- Ata, bəs mənnən görüşmürsən? - deyib onun boynunu qucaqladı. Bir anlığa atasının boynundan qollarını çəkməyib qulağına pıçıltı ilə nəsə dedi:

Vaqif qızının alnından öpüb kövrək səslə:

- Bəs mənə yazığınız gəlmir, qızım? Mən tənha qalım?.. Of, Mədinə, məni yetim qoydun... - deyib ürək dolusu bir ah çəkdi. Sərt addımlarla cilovdara tərəf gedib hirslə yəhərə sıçradı.

...Bir aydan sonra Vaqifdən gələn məktub Vidadinin kefini durultdu. Salam-kəlamdan sonra onun yazdığı bircə bənd qoşma Qoca Vidadinin qəddi-qamətini düzəldib, kefini xoşhal eləmişdi.

***Növcavanlar qoy həmişə var olsun,***
***Amma ki, bizlərdən xəbərdar olsun.***
***Vaqifin duası sənə yar olsun!***
***Səni, haqq saxlasın ömrü dövlətdə.***

## BİÇARƏ VAQİF...

***Molla Pənah Vaqifin Qafqaziyada vücuda gələn şairlərin babası ustadı adlanmağa haqqı vardır. Tamam Qafqazda ondan müqəddəm və müqtədir ədib, xoşkəlam və mövzuntəb şair zühur etməyibdir ki, ibtidai-süxən onun adı ilə başlansın.***

***FİRİDUN BƏY KÖÇƏRLİ,***
***Ədəbiyyatşünas - alim***

Ədəbiyyat tariximizdə Vidadi və Vaqifin dostluğundan çox yazılıb, çox da danışılıb. Hətta namizədlik dissertasiyası da müdafiə olunub. Lakin Vidadi ilə Vaqifin həm də qohum olduqları indiyədək araşdırılıb oxuculara çatdırılmayıb.

On səkkizinci əsrin ortalarında Qazax və Borçalı camaatı tez-tez II İrakli hökumətinə qarşı üsyana qalxırdılar. Üsyanın əsas səbəbi ağır vergi və sərhəd məsələləri idi. 1736-cı ildə Nadir şah tərəfindən Gürcüstana ilhaq olunan

Qazax[1] torpağından gürcü tavatları ağayana istifadə etmək eşqinə düşmüşdülər. Onlar Qarayazı meşəsini sərbəst ov yerinə, Ceyrançölü isə mal-qaraları üçün otlaq eləmək istəyirdilər. Bu da Qazax camaatının haqlı narazılığına səbəb olurdu. Basqınlardan, qarət və müharibələrdən cana doyan Qazağın Salahlı, Dəmirçihəsənli, Alpout, Qızılhacılı, Kəngərli, Qaraçarlı, Qaraqoyunlu, Xəlfəli, Boyəhmədli, Səfikürd, Cinli kəndləri Gəncə və Qarabağ xanlıqlarına köçdü.

1759-cu ildə bu köçənlər arasında məşhur şair Molla Pənah Vaqifin ailəsi də vardı. Onda Molla Pənah qırx iki yaşında idi. Vaqif Qarabağa köçəndən bir il sonra arvadı Mədinə xanım vəfat edir. Vaqifin yaxın dostu, Qazaxlı şair İsrafil Sail onun arvadının ölümünə mərsiyə yazmışdır. Həmin mərsiyənin yaddaşlarda ikicə misrası qalmışdır:

***Biçarə Vaqifin - Molla Pənahın,***
***Hayıf oldu, Mədinəsi yıxıldı.***

"Azərbaycan gəncləri" qəzetinin 24 iyun 1978-ci il tarixli nömrəsində Ələmdar Fərzəliyev "Naməlum bir müxəmməs haqqında" məqaləsində yazır:

"Vaqif şe`rlərində Mədinə həm şəhər, həm qadın adı mə`nalarında işlənmişdir. "Riyazül-aşiqin" təzkirəsinin müəllifi Məhəmməd ağa Müctəhidzadə Qarabaği, görkəmli tədqiqatçı Salman Mümtaz Mədinəni Vaqifin arvadı hesab etmişlər. Sonrakı tədqiqatçılar da bu mülahizənin doğruluğunu təsdiq etmişlər. "Mədinə" rədifli müxəmməs bu fikrin düzgünlüyünü bir daha sübuta yetirir... Şeir 1935-ci ildə Şuşada yazıya alınıb. Respublika Əlyazmaları İnstitutunda saxlanılır".

***Vaqifəm, çün ona mən canımı qurban deyərəm,***
***Dəhanə, abi-həyat, çeşmeyi-heyvan deyərəm.***
***Taqi-əbruyə kəman, kirpiyə peykan deyərəm,***
***Bu sifətdə adəm olmaz, ona qılman deyərəm,***
***Müxtəsər, türfə mələkdir, degil insan Mədinə.***

1. Həmin ili Qazax mahalı ona görə Gürcüstana ilhaq olunmuşdu ki, Nadir şah Əfşarın Muğanın Cavad şəhərində keçirdiyi şahseçmə qurultayına qazaxlılar gəlməmişdilər. Şahseçmə qurultayına Gəncə xanı Ziyadxanoğlu da gəlmədiyinə görə Nadir şahlıq taxtına əyləşdikdən sonra onun gücünü zəiflətmək naminə Qarabağın Kəbirli, Cavanşir, Otuzikilər və başqa adlı-sanlı tayfalarını Xorasanın Sərəxs vilayətinə köçürmüşdür. Borçalı, Qazax mahallarını isə Gürcüstana ilhaq etmişdir - müəl.

Mədinənin Vaqifin birinci arvadı olmaq faktını Vaqifin müasiri Aşıq Əli Kəlibəri Qaracadaği də təsdiq etmişdir:

***Əli çəkər gecə-gündüz ahü zar,***
***Kəsildi müddava, getdi ixtiyar,***
***Vaqif olsun bu mə'nadan xəbərdar,***
***Mədinə kuyinə Səkinə gəlmiş.***

Firidun bəy Köçərli yazır ki, Səkinə Aşıq Əlinin arvadının adıdır. Qaracadağdan Qarabağa gələndə Aşıq Əli öz hərəmini özü ilə gətirmişdi və Molla Pənahın övrəti Mədinə ilə Səkinə görüşübdür.

Molla Pənah Vaqif ikinci dəfə Cinlu Dürbənd bəyin qızı Qızxanımla evlənmişdi. Dürbənd bəy çox zəngin, varlı bir şəxs idi. Torpaq mülkünün böyük bir hissəsi Yevlax ərazisində olub. XIX əsrin sonlarında həmin torpaqları məşhur milyonçu Hacı Zeynalabdin Tağıyev almışdır.

Görkəmli tədqiqatçımız Salman Mümtaz yazır ki, Qızxanım hüsnü gəmalı ilə öz vaxtının ən məşhur gözəli hesab olunurdu. Onu istəyənlər çox olsa da Dürbənd bəy həmşəhərlik münasibətilə Vaqifə verilməsini məsləhət bilmişdi.

Vaqif fövqəl'adə gözəlliyə malik olan Qızxanımla evləndikdən sonra oğlu Qasım ağa dünyaya gəlir.

Bə'zi tədqiqatçılar arxiv sənədlərində Vaqifin Qasım ağa adlı oğlu olduğuna rast gələndə onu mö'cüzəli bir tapıntı kimi mətbuat səhifələrinə çıxarır və az qala Səməd Vurğunu ittiham edirlər ki, o, "Vaqif" pyesində Qasım ağanı dəyişib Əli ağa edib. Guya qafiyə xatirinə. Bu, dayaz tədqiqatın nəticəsidir. Vaqifin birinci arvadı Mədinədən olan oğlunun adı Əli ağa, ikincisi Qızxanımdan olan oğlu isə Qasım ağa idi. Əli ağa "Alim" təxəllüsü ilə şe`rlər də yazmışdır. Müfti Mirzə Hüseyn əfəndi Qayıbzadə "Məcmuəsi"ndə Vaqifin oğlu Əli ağa Alimlə şe'rləşməsini də vermişdir.

Hətta Səməd Vurğunun sağlığında Moskvada rusca nəşr olunmuş (1948-ci ildə) seçilmiş əsərlərində Əlibəyin adının qarşısında "Vaqifin birinci arvadından olan oğlu" sözləri yazılmışdır. Bu izahat sonrakı rusca nəşrlərinin hamısında saxlanılmışdır. Amma əsərin Azərbaycan dilində olan nəşrlərində "Əlibəy Vaqifin oğlu" yazmaqla kifayətlənmişlər.

1950-ci il avqustun 1-də Osman Sarıvəlli Kislovodskidə istirahət edən Səməd Vurğuna yazırdı: "...Pyeslərin ikinci korrekturası gəldi, səninlə görüşüb

məsləhətləşmək istəyirdim. Nə etməli, görüşə bilmədik. Özüm bildiyim kimi düzəltməli oldum.

Səməd! Pyeslərin orijinalında “iştirak edənlər” yox idi (düşmüşdü), yalan-yanlış özüm yazmalı oldum”.

“İştirak edənlər” möhtərəm Osman Sarıvəlli tərəfindən yalan-yanlış yazıldığına görə Vaqifin oğlu Əli bəy pyesin Azərbaycan nəşrinin hamısında səhvən “Vaqifin oğlu” kimi verilmişdir. Rusca nəşrində Əli bəyin “Vaqifin birinci arvadından olan oğlu” kimi verilməsindən mə’lum olur ki, Səməd Vurğun bu faktı bilirmiş, hətta bu fakta “Vaqif” əsərinin özündə də rast gəlirik.

Əli bəy biləndə ki, ögey anası şöhrət naminə İbrahim Xəlil xana ərə getmək istəyir, onda atasına - ***Vaqifə deyir:***

***- Ata, qoy öldürüm o mürvətsizi!***

VAQİF:

***Əli bəy, alçaldar cinayət bizi:***
***Bir bax əllərinə, yaraşarmı qan?***
***Oğlum, yaşatmağa yaranmış insan.***

ƏLİ BƏY:

***Bunda qalmamışdır nə namus, nə ar,***
***Vəfasız olurmuş ögey analar...***

İkinci arvadı Qızxanımın vəfasızlığını Vaqif öz poeziyasında açıq-aydan bildirir. O, məşhur “Görmədim” müxəmməsinin son bəndində yazır:

***Baş ağardı, ruzigarım oldu gün-gündən siyah,***
***Etmədim, səd heyf kim, bir mahi ruxsarə nigah,***
***Qədr bilməz həmdəm ilə eylədim ömrü təbah[1];***
***Vaqifə, ya Rəbbanə, öz lütfünü eylə pənah,***
***Səndən özgə kimsədə lütfü-inayət görmədim.***

Bəs, Molla Pənah Vaqifin birinci arvadı Mədinə xanımdan necə, övladı olmuşdurmu?

1. Təbah - puç, məhv, heç, çürük

Tədqiqat göstərir ki, iki qızı, bir oğlu olmuşdur. Pəri Soltan, Mələk Cahan və Əli ağa. Vaqif hər iki qızını yaxın dostu Molla Vəli Vidadinin oğlanlarına ərə vermişdir. Vaqiflə Vidadi şe'r, sənət dostluğundan başqa iki dəfə quda olmuşlar. Vidadinin böyük oğlu Məhəmməd ağa Vaqifin böyük qızı Pəri Soltanla, kiçik oğlu Molla Osman isə Vaqifin kiçik qızı Mələk Cahanla ailə qurmuşdur.

XIX əsrin tanınmış ədəbiyyatşünası, məşhur maarif və din alimi



***Soldan 1-ci Məhəmməd Müftizadə, Gövhər xanım Usubova, Şahzadə xanım Müftizadə, Məhəmməd ağa Şıxlinski (Məhəmməd ağa və Şahzadə xanım şair Molla Vəli Vidadinin nəvələridir). Şəkil 1925-ci il iyulun 27-də Dlican yaylağında çəkilib***

Mirzə Hüseyn Əfəndi Qayıbzadənin "Azərbaycanda məşhur olan şüarının əş'arına məcmuədir" dörd cildlik toplusunda Yəhya bəy Qazaği adlı şairin bir neçə şe'ri verilib.

Kimdir Yəhya bəy Qazaği? Ədəbiyyat tariximizdə çox az şe'rləri qalan bu şair nədənsə unudulub, tədqiq olunmayıb.

Şair Yəhya bəy Qazaği Vidadinin oğul, Vaqifin isə qız nəvəsidir. Onun atası Məhəmməd ağa, anası isə Pəri Soltandır. Bu qohumluq haqqında Firidun bəy Köçərli daha dəqiq mə'lumat verir. O, "Azərbaycan ədəbiyyatı" kitabında yazır: "Yəhya bəy mərhum Molla Vəli Vidadinin fərzəndi Məhəmməd ağanın oğludur ki, əhli elm və sahibi-tə'b olduğu ilə belə, bir az zarafatcıl və hərzəku imiş... Mərhum Yəhya bəy rövşənzəmin və xoştəb bir şair imiş və özü də iki böyük şairin nəvəsi olduğu üçün babaları Vidadi və Vaqifin tə'bi-şe'riyyəni irsən almışdır" (1-ci cild səh. 282,283-də).

Yəhya bəy cavan yaşında, 1841-ci ildə vəfat etmişdir. Məzarı Birinci Şıxlı kəndindəki qədim qəbristanlıqdadır. Yəhya bəyin müasiri, məşhur şair Kazım ağa Salik Şıxlinski onun ölümündən ağır sarsıntı keçirmişdir. Bunun əyaniliyi Kazım ağa Salikin şairin qəbir daşına yazdırdığı altı misralıq şe'ridir.

***Bu məzarın sahibi Yəhya bəgi - rövşənzəmir,***
***Şairi-kani-süxən hüsnü-kəlami binəzir.***
***Ol Vidadi Xəstənin fərzədinin fərzəndidir.***
***Vaqif ol kim, Vaqifin həm bintinin peyvəndidir,***
***Çünki, getdi bu cəhandan, buldu rəsmi-məğfirət,***
***Oldu tarixi-vəfatı, Salika, no axirət.***

Kazım ağa Salik Yəhya bəyin ölümünə təkcə şe'r-sənət dostu kimi yanmırdı. Yəhya bəy həm də onun kürəkəni idi. Kazım ağanın qızı Xeyransa xanım Yəhya bəyin həyat yoldaşı idi. Yəhya bəyin ölümünə dözməyən Xeyransa xanım düz bir ildən sonra - 1842-ci ildə dünyasını dəyişəndə dərdli Salik yazırdı:

***Cahan, Salik, bizə çünki fədadır,***
***Duadır, xeyrimiz, ancaq fənadır.***
***Ağarmış saqqalım gər sürx[1] görsən,***
***Dü çeşmim qanıdır, sanma hənadır.***

Mirzə Hüseyn Əfəndi Qayıbzadənin məcmuəsində Kazım ağa Salikin şair dostu Yəhya bəy Qazağiyə ünvanlanmış beş nəsihət şe'ri var. Şe'rlərin məzmunundan hiss olunur ki, Yəhya bəy ədalətsizliyə dözməyən, həmişə haqqın tərəfini saxlayan kəskin ruhlu bir şair imiş. Mahalda dərəbəylik

1. Sürx - qırmızı.

edənləri həcvə tutduğuna görə onu ölümlə hədələyənlər də az olmamışdır. Salik ona nəsihət edərək deyirdi:

***Yəhya bəy, əl götür hərcayi sözdən,***
***Bir şey hasil eylə olmadan həlak,***
***Gedər cani pak.***
***Bir gün səndən oğul-uşaq yad olur,***
***Salıb gedər səni anda dərnak,***
***Yə'ni ziri xak.***
***Yə'ni ziri-xakə qoyarlar səni,***
***Mürdəşirlər tamam soyarlar səni,***
***Anda oyum-oyum oyarlar səni,***
***Olur qərargahın bir dərin məğak,***
***Görünməz əflak.***

Cavan olmasına baxmayaraq, Yəhya bəy Qəzaği dövrünün görkəmli şairləri Dağkəsəmənli Mustafa ağa Nasirlə, Mirzə Məhəmməd ağa Qayıbovla, Kazım ağa Saliklə, Şıxlı Əbdürrəhman ağa ilə, Kəmərli İbrahim ağa Qiyasbəyovla, Salahlı Sədəfoğlu Süleyman koxa ilə sənət meydanında şe'rləşmişdir.

Araşdırmalar vasitəsilə öyrənə bildik ki, şair Yəhya bəy Qazağinin yeganə qızı Fəxrənsə xanım şair Mirzə Nəbi əfəndi Qayıbzadənin (1810 - 1869) həyat yoldaşı olmuşdur. Mirzə Nəbinin oğlu isə XIX əsrin məşhur şairi Abbasağa Nazir Qayıbzadədir. (1849-1919)

Respublika Əlyazmaları İnstitutunun elmi arxivində şair Abbasağa Nazirin çap üzü görməmiş "Bəyani halım" adlı qiymətli bir poeması saxlanılır. Nəsli-nəcabətini, doğulduğu mahalın tə'rifini nəzmə çəkən şair yazır:

***Min səkkiz yüz idi, qırx doqquz***
***Ki, vücudum ədəmdən etdi büruz.***
***Doqquzuncu günündə oktyabrın***
***Məskənim oldu səfhəsi dəhrin.***
***Adımı qoydular mənim Abbas,***
***Şöhrət etdim bu adla bəynünnas.***
***İsmi Mirzə Nəbi idi atamın,***
***Adı Fəxrənisə idi anamın.***

***Ana cəddim mənim Vidadidir,***
***Nəzmi şeirin o, ustadıdır.***
***Əsrin əllaməsidi[1] desəm atam,***
***Zənn olunmaz mübaliğə bu kəlam.***
***Bir xirədmənd mərdi-danəmənd***
***Zirəkü durbinü qeyrətmənd***
***Sahibi elm, əhli fəzlü-kəmal***
***Nitqi şirin, çox fəsihməqal.***

***1993-cü il.***



***Nəsib ağa Qiyasbəyli***

1. Dərin bilikli, alim, bilici - müəl.

## KAPİTAN - ŞAİR MUSTAFA AĞA HƏSƏN AĞA OĞLU QİYASBƏYOV
***(1824-1873)***

***Əbədi yaşayır yaxşı adamlar,***
***Ölsə də şöhrəti dillərdə qalar***

***Zeynalabdin Marağayi.***
***(1837-1910), yazıçı***

Əlahiddə Qafqaz Qoşunlarının Müsəlman Süvari alayında xidmət edib. 1863- 1864-cü illərdə Polşada baş vermiş "Yanvar üsyanı"nı yatırmaq üçün rus komandanlığının Qafqazdan aparlan bəylərə məxsus Müsəlman Süvari alayında Mustafa ağa Qiyasbəyov da olmuşdur. Üç il Varşavada hərbi xidmətdə olan Mustafa ağa fransız, polyak və rus dillərini mükəmməl öyrənmişdir. Üç ildən sonra Qafqaza qayıdan Mustafa ağa dağlılara qarşı döyüşlərdə hünərlə vuruşaraq kapitan rütbəsi alıb.

Məşhur ədəbiyyatşünas - alim Firidun bəy Köçərli onun haqqında yazır: "Mustafa ağanın hünər və sədaqətləri dövlət nəzərində qədrü - qiyamətsiz qalıb və hətta onun haqqında aşkarən ədalətsizlik vüqua gəlməyə görə, Mustafa ağa öz vətəninə (Qazax qəzasının Dağkəsəmən kəndində - Ş.N.) müraciət edib və üzlətü (tənha yaşayan) fərağət guşəsini ixtiyar qılıb, vaxtlarını ibadətdə və təhsili - ülumi maarifdə keçiribdir".

...1804-cü ildən 1917-ci ilə kimi imperiya ordusunda xidmətdə olan azərbaycanlı zabitlər, bu gün bəzilərinin dediyi kimi rus təbəliyini "Ura" ilə qəbul etməyiblər. Onların arasında elə qeyrətli zabitlər olub ki, milli dilini, adət ənənəsini, milli vüqarını saxlayaraq ata - babalarına sadiq qalıblar.

İşğalçı rus ordusunun sıralarında xidmətdə olarkən müsəlman əyalətlərində zor siyasəti aparıb silah işlədənlərə qarşı etiraz səslərini qalırıblar. Rus ordusunun 1800-cü ildən sonra silah gücünə işğal etdiyi Axalski, Qars, Axal - Təkin, Dağıstan, Şimali Qafqaz və başqa ərazilərdə döyüşməkdən imtina edib ordudan təxris olunmağı tələb ediblər.

General - mayor Daniyal bəy İlisulu, şamaxılı podpolkovnik Omar bəy və Osman bəy Qasımxanov qardaşları, polkovnik Süleyman xan Şəkinski, şuşalı rotmistr Əbdürəhman bəy Vəzirov, praporşik Alxaz bəy İlisulu, praporşik Ağabəy Yadigarov, kapitan Mustafa ağa Qiyasbəyov rus

istilasına qarşı çıxıblar. Öz torpağı uğrunda döyüşən din və dil qardaşlarına silah qaldırmayıblar.

Onların sırasında kapitan - şair Mustafa ağa Qiyasbəyovun fəaliyyəti və bilik dairəsi daha geniş olub.

***

...Alay komandiri, polkovnik Yuri Maxnatski:

- Kapitan Qiyasbəyov, nə üçün Türküstan Hərbi Dairəsinə xidmətə getməkdən imtina edirsiniz?

- Cənab polkovnik, mən hər şeyi raportumda göstərmişəm.

- Nə göstərmisən? Yazdığın raportu oxudum. Çox savadlı və səlis rus dilində yazsan da orada şovinist bir cümlə işlətmisən. Oxuyuram bir daha özün də eşit: "Din və dil qardaşlarıma silah qaldırmağı nə Allahım, nə də Peyğəmbərim Məhəmməd mənə bağışlamaz. Ona görə də ordudan tərxis olunmağımı Siz cənablardan təvəqqe edirəm". Başa düşə bilmirəm, hansı axmaq iyirmi il sizi orduda xidmətdə saxlayıb. Üstəlik də kapitan rütbəsi veriblər.

- Cənab polkovnik, rütbəni heç bir orduda qəşəng qaşa - gözə görə vermirlər. Mən Qafqazda, Varşavada üsyançılara qarşı xidməti borcumu nümunəvi zabit kimi yerinə yetirmişəm. Tərifəlayiq bütün xidmətlərim Sizin əlinizin altında olan hərbi xidmət kitabçamda göstərilib.

Bu dəfə səsinin sərt ahəngini dəyişən polkovnik:

- Bəs nə üçün istefaya getməyi arzuladınız?

- İistər Dağıstanda Saltı döyüşlərində, istərsə də Çərkəz kəndlərinin od vurulub yandırılmasından sonra yuxum ərşə çəkilmişdi. Yata bilmirdim. Axı onlar da mənim din bacı, qardaşlarımdır. Günahsız körpələri süngüyə taxmaq, isti ocağını dağıdıb viran qoymaq... Gecə - gündüz meşələri qırdırıb quldur axtarmaq, füsunkar Qafqaz təbiətini məhv etmək...

- Sən lap dekabristlər kimi danışırsan. Bu siyasi əhval - ruhiyyə hardandı səndə? Sənin fikrincə, biz ruslar daş qəlbliyik, insani hisslərdən uzağıq. Əksinə, biz əlahəzrət imperatorun əmri ilə dağlıları Şeyx Şamil və onun quldur dəstəsindən xilas edirik.

- Nə vaxtdan öz torpağının, yurd - yuvasının azadlığı uğrunda vuruşan igidlərə quldur ayaması verilib. Əgər elədirsə, monqollar Rusiyanı 300 il çalıb - çapanda ona qarşı vuruşan rus xalqı onda kim idi?

- Kapitan Qiyasbəyov, sən gəl məni siyasi söhbətə cəlb etmə. Biz hər ikimiz hərbçiyik. Heç bir siyasi qurumun, siyasi söhbətin mövzusuna toxuna bilmərik. Buna əlahəzrətin nizamnaməsi yol vermir. Bəs, Türküstan yürüşündən niyə imtina edirsən?

- Ona görə ki, ora türk torpağıdır. Orada da silah qaldırıb öldürəcəyim əhali milliyyətcə türkdür. Mən günahsız qan qardaşlarımı öldürməyi vicdanıma sığışdıra bilmərəm.

- Sən bilirsən ki, bunun üçün səni hərbi məhkəmə mühakimə etməlidir, cənab kapitan. Sən sıravi əsgər deyil. Zabitsən, bir yaxşı düşün gör nə danışırsan. Bu inadkarlığın sənə ağır otura bilər.

- Cənab polkovnik, mən gəncliyimdə orduya könüllü gəlməmişəm. Mənim ata - babalarım nəslən bəy olduğuna görə Sizin imperatora məni girov veriblər. Əvvəllər bir müddət Üçüncü Müsəlman Süvari Alayında xidmətdə olmuşam. Siz bunu bilirsiniz. Görünür, o vaxtlar bu düşüncədə, bu ağılda olmamışam. Hərbi nizamnaməyə görə iyirmi ildən sonra könüllü surətdə ordudan tərxis oluna bilərəm. Siz məni məhkəmə ilə qorxutmayın, orada da cavabım belə olacaq.

Polkovnik dodaqaltı donquldana - donquldana:

-Bəzi rus zabitləri doğru deyir ki, imperator aziat müsəlmanları orduya cəlb etməkdə özünə düşmən hazırlayır. İndi budur, ən yaxşı nümunə sənsən, cənab kapitan Qiyasbəyov, sən orduda bilik, bacarıq qazandın, gözün açılıb düşüncən dəyişdi, inkişaf edib, oldun bizə düşmən.

- Düşmən niyə, mənim zənnimcə hər kəs öz torpağında, öz evində yaşasa, daha yaxşıdır. "Parçala, hökm sür" siyasəti ilə silah gücünə sayca böyük olan xalq, kiçik və qürurlu xalqlara azadlıq verə bilməz. "Slovo" jurnalından keçmiş Qafqaz canişini general Aleksey Yermolovun 1819-cu ilin yayında dağlıların başına törətdiyi faciələri Sizinlə birgə oxuduq. Nə tez yadınızdan çıxdı. Yermolovun silah dostu general P. İ. Pestel xatirələrində yazır ki, ruslara itaət etmək istəməyən Akuşa, Başlı, Uplu-Ayya aullarında və bir çox başqa yerlərdə general Yermolov daşı daş üstə qoymamış, aulları yerlə-yeksan etmişdir.

General Yermolov Kubanın çərkəzlər yaşayan on yeddi böyük auluna və yüz doxsan xutoruna od vurub yandırmışdır. Özünün bəd əməllərindən ruhlanan Yermolov fəxrlə deyərdi ki, mən biz ruslara silah qaldıran canqutayların kəndlərini məhv etdim. Özləri ilə birlikdə evlərinə və var - yoxlarına da od vurub yandırdım.

Bu da əlahəzrət rus çarının "Qafqazda sülh yaradıcısı" deyə tərifədiyi general Yermolov. Cənab polkovnik, dağlı analar bu gün də nadinc uşaqları yatmayanda "Yermol gələr, səni aparar, yat mənim əziz balam" - deyə onun adı ilə qorxudurlar.

- Oxumusunuzmu şair Mixil Lermontovu?

- Bəli, amma çoxdan.

- Onda "İsmayıl bəy" poemasından kiçik bir parçanı yadınıza salım.

***O yerin tayfası vəhşi doğulmuş,***
***Allahı - azadlıq, qanunu - vuruş.***
***Orda rus adı ilə öz körpəsini***
***Analar qorxudur kəssin səsini.***
***Yaxşılığa qarşı orda yaxşılıq,***
***Qana qarşı qan var, mərdanə, açıq.***
***Nifrət ölçüsüzdür məhəbbət qədər.***
***İlqarda möhkəmdir o qəbilələr.***

Polkovnik:

- Siz mənim miliyyətcə polyak oluduğumu bilirsinizmi?
- Bəli, bilirəm.
- Belə çıxır ki, 1863-cü ildə Polşada üsyançılara silah qaldırmaqda mən də cinayətkaram. Öz millətimi, din qardaşımı qanına qəltan eləmişəm.

Kapitan Qiyasbəyov:

- Diqqətlə düşünəndə, hə .. elə də olur. Axı, bütün dünya bilir ki, sizin zəif və rus çarının məiyyəti olan Polşa kralına qarşı polyak xalqı Varşavada yerləşən istilaçı rus qoşunlarının çıxarılması uğrunda üsyana qalxmışdı. Qafqazdan və Rusiyadan Polşaya yeridilən güclü qoşun hesabına üsyan yatırıldı. Azadlıq deyib küçələrə çıxan polyak xalqının nahaq qanı axıdıldı.
- Yaxşı, cənab kapitan, səni istefaya buraxsaq, nəynən məşğul olacaqsan? Ruslara qarşı təbliğat aparacaqsan? Yəqin sən də İmam Şamil kimi dağlıları toplayıb mübarizəyə...
- Xeyir, mən elə fikrə düşməmişəm, heç istəmirəm də. Bizim Şərq müdrikləri deyir ki, dünyada insan üçün elmdən daha yaxşı dost yoxdur. Elm var - dövlətdən də yaxşıdır, çünki dövləti sən saxlamalısan. O da sənə qismət ola - olmaya, Allah bilir. Elm isə səni saxlayır.

Mən doğma obama qayıdıb məktəb açacam. Balaların təlim - tərbiyəsi ilə məşğul olacam. Günahsız insanların qanını tökməkdənsə, hər hansı bir canlını, bir uşağı tərbiyə etmək daha çox savabdır.

Polkovnik:

- Sizin raporta qol çəkib icazə verirəm. Tərxis olunun. Amma sənədlərinizdə göstəriləcək ki, ciddi xəstəliyiniz olduğuna görə müalicəyə ehtiyacınz var. Razısınızmı?
- Əlbəttdə razıyam.
- Bircə xahişim var. Alayda hamı bilməlidir ki, həqiqətən xəstəliyə görə istefaya gedirsiniz. Yoxsa, bayaq dediklərinizi eşitsələr, alaydakı qeyri - millətləri də ayıldarsınız.

Hərbi xidmətdə ədalətsizliyə, din ayrı seçkiliyə qarşı çıxan Mustafa ağa ordudan tərxis olunur. Bilik və bacarığını doğma kəndində həmyerlilərinin təlim - təhsilinə həsr edir. Lakin Mustafa ağanın ailə səadəti üzünə gülməmişdir. O, Zəyəmli Məhəmməd bəy Zülfüqarovun qızı Xeyransa xanımla evlənir. Heç altı ay tamam olmamış sevimli zövcəsi qəflətən vəfat edir. İlk sevgisini puç görən Mustafa ağa Nasir onun ölümünə təsirli bir mərsiyə yazmışdır:

***Bu mərqəd mərqədi - Xeyrənnisadır,***
***Təvaf et, ey könül, əhli - vəfadır.***
***Özüdür gərçi nəsli - Zülqədərdən,***
***Vəli zövcü Qazaxi Mustafadır.***
***Çü cananım vida etdi cahandan,***
***Qəmi - hicranə canım mübtəladır.***

Bir neçə il sonra Mustafa ağa Qıraq Kəsəmənli podpolkovnik Məhəmməd ağanın qızı Bədirnisa xanıma aşiq olmuş, atanın razılığı olsada qızın anası Səltənət xanım bu ülvü izdivaca razılıq verməmişdir. Sevgi bəxtinin ömürlük əzabını çəkən kapitan - şair Mustafa ağa ailə xöşbəxtliyindən əl üzüb zahid kimi guşənişin, tərki - dünya yaşamışdır. Ona görə də şer və qəzəllərinin əksəriyyətində kapitan - şair Mustafa ağa Nasir özünün məhəbbət Kəbəsi Bədirnisanı əzabla, həsrətlə yad edir:

***Cani dildən olmuşam Bədirnisanın aşiqi,***
***Sərv qəddü müşkmuyu məhliqanın aşiqi,***
***Əhli - eşqin dərdinə düşən eylər əlac,***
***Dərdimə dərman edər badi - səbanın aşiqi.***
***Candan özgə tövhə mümkünmidir etsün Nasira,***
***Səltənət təxtindəki şahə gədanın aşiqi.***

"Nasir" təxəllüsü kapitan - şair Mustafa ağa Qiyasbəyov öz dövrünün görkəmli şairi kimi məşhur olmuşdur. O, Hacı Mirhəmzə Əfəndi "Nigari", Hacı Rəhim ağa "Vəhidi", Mirzə Nəbi Əfəndi Qaibov, Mirzə Mehdi "Naci", Mirzə Rəhim "Fəna", İsgəndər ağa Qiyasbəyov, Şahnigar xanım Rəncur və başqa görkəmli şairlərlə şerləşmişdir.

Kapitan - şair Mustafa ağa Nasirin qırx altı şer və qəzəlini ilk dəfə Zaqafqaziya müftisi Mirzə Hüseyn əfəndi Qaibov (1830-1917) toplaşmışdır. XIX əsrin altmışıncı illərində "Azərbaycanda məşhur olan şüəaranın əşarına məcmüədir" dörd cildliyini tərtib edən Mirzə Hüseyn əfəndi maddi

imkansızlıqdan məcmuəsini nəşr etdirə bilməmişdir. Yalnız 1989-cu ildə Mirzə Hüseyn əfəndi Qayıbovun dörd cildlinin ikinci cildində Nasir şerlərinin bir qismi oxucu üzü gördü.

Mustafa ağa Nasiri Azərbaycan oxucusuna ilk dəfə təqdim edən isə Firidun bəy Köçərli olmuşdur.

Firidun bəy "Azərbaycan ədəbiyyatı" əsərinin ikinci cildində şair - kapitan Mustafa ağa Nasirə ayrıca bir fəsil həsr etmiş, onun yaradıcılığını yüksək qiymətləndirmişdir.

Kapitan Mustafa ağa Nasir ilk dəfə dahi Nizami Gəncəvinin "Xosrov və Şirin" əsərinin xeyli hissəsini Azərbaycan dilinə tərcümə etmişdir. Tənha yaşayan şair bir qış gecəsi mütaliə etdiyi vaxtda yorulub yuxuya getmiş, yanında yanan şamdan kitablarına od düşüb özü də həlak olmuşdur.

Məhşur ədəbiyyatşünas - alim Firidun bəy Köçərli onu misli bərabəri az tapılan xoşxlüq, nazik təb və ali nəsəb bir şəxs kimi qiymətləndirir. Qırx doqquz yaşında həlak olan Mustafa ağa Nasirin Nizami Gəncəvidən etdiyi tərcümənin yarımçıq qalmasına isə təəssüflə yazır ki, pürqiymət zəhməti heyf ki, yarımçıq qaldı. Ədəbiyyat və lisanımız "Xosrov və Şirin" kimi lətif və gözəl əsərin tərcüməsindən məhrum oldu.

Mustafa ağa Nasirin atası Həsən ağa da uzun illər nizami ordu sıralarında xidmət etmiş, podpolkovnik rütbəsində istefaya çıxmışdır.

M.V.Vidadinin oğul, M.P.Vaqifin qız nəvəsi şair Yəhya bəy Qazaği (? - 1841) podpolkovnik Həsən ağaya 1828-ci ildə "Cəlal olsun" adlı qəzəl yazmışdır:

***Görüm, ey xan, şanü-şövkətin gün-gün cəlal olsun.***
***Həmişə həmdəmin hüsnü-Həsən sahib- cəmal olsun.***
***Humayi himmətin şahbaz tək pərvaz edər uca,***
***Xudaya, ol tülək tərlan şikarı Şahbal[1] olsun.***

***Sənin mədhin deyən Yəhyayə nisbət ola xoş göftar,***
***Vəli bədgülərin manəndi Salik, dili lal olsun.***

1828-1829-cu illər Rus - Türk müharibəsində kapitan rütbəsində olan Həsən ağa Mustafa ağa[2] oğlu üçüncü Qazax Süvari alayının komandiri Meşşeryakovun köməkçisi olmuşdur. 1829-cu il iyulun 19-da Xart kəndi uğrunda gedən döyüşlərdə fərqləndiyinə görə Həsən ağa "Müqəddəs Georgi" xaç nişanının dördüncü dərəcəsilə təltif olunub.

***1. Şahbal — podpolkovnik Həsən ağa Dağkəsəmənlinin həyat yoldaşı olmuşdur. — Ş.N.***
2. Həsən ağa Qiyasbəyov oğluna atası Mustafa ağanın adını qoymuşdu.-Ş.N.

## İSGƏNDƏR ağa HÜSEYN ağa oğlu QİYASBƏYOV - təxəllüsü "Ş A İ R"
***(1820-1873)***

Məşhur şair Mustafa ağa Nasir Qiyasbəylinin əmizadəsidir. İskəndər ağa əmizadəsi Nasirdən dörd yaş böyük olub. Hər ikisi eyni ildə dünyasını dəyişib. 1873-cü il sentyabrın 24-də İsgəndər ağa, həmin ili oktyabrın 10-da isə Nasir vəfat edib.

Firidun bəy Köçərlinin tədqiqatında soyadı səhvən Qaibbəyov kimi kedib. Şübhəsiz ki, bu da Firidun bəyin səhvi deyil, mətbəə xətasıdır. Mirzə Hüseyn əfəndi Qayıbovun "Azərbaycanda məşhur olan şüəranın əşarınına məcmuədir" çox cildliyində doğru olaraq Qiyasbəyov kimi verilib. Əvvala Qayıbov, İsgəndər ağanın qohumudur. Azərbaycan şairlərinin şerlərini XIX əsrin altmışıncı illərində ilk dəfə toplayan o olub. Ona görə də Firidun bəy qiymətli tədqiqatında Qayıbovdan bəhrələndiyini dönə-dönə minnətdarlıqla xatırlayır.

Üstəlik də Mustafa ağa Nasirlə əmizadə olmağı onun soyadının Qiyasbəyov olmasını təsdiq edir.

İsgəndər ağa 1820-ci ildə Qazax qəzasının Dağ Kəsəmən kəndində bəy ailəsində anadan olub. Yaxşı ailə təhsili alan İsgəndər ağa güclü təbə malik olub. Açıq qabaqlı, xoş danışıqlı baməzə söhbətli şairin ən çox xoşu gəlmədiyi molla tayfası imiş. 0, bisavad mollaları həcv etməkdən xüsusi zövq alırmış. Ona görə də mollalar şair olan məclisə gələndə əməlli başlı qorxu hissi keçirərmişlər.

***Geymə saluslugla ağü kətan, ay molla!***
***Gəzmə avarə, olub tərki-vətən, ay molla!***

***Soydun, ol pirin apardın nə üçün çarığını,***
***Qoydun ancaq ona bir qara kəfən, ay molla!***

***Xəlqə iblis cəhənnəm tələb eylər, sən əcəl,***
***Sirriniz bir idi sizin iblis ilən, ay molla!***

***Məlun atan səninlə gedəli qırx ildir,***
***Bircə ehsan veribən evdə yesən, ay molla!***

***Cümə axşamı yolun düşməyə dostun evinə,***
***Çəkilə yollarına qara tikan, ay molla!***

İskəndər ağanın poeziyasına yüksək qiymət verən Firidun bəy Köçərli yazır ki, molla qisminin, əlbəttə, eybləri çoxdur. Azərbaycan şairləri öz əsərlərində ruhani atalarımızın eyb və nöqsanlarını nazik işarə və eyham ilə göstəriblər. Bu barədə şayani-diqqət olan əsərlər mərhum Qasım bəy Zakirin və Hacı Seyid Əzimin əsərləridir ki, xeyli zərifanə ruhanilərə toxunub onların çirkin və nalayıq işlərindən, xüsusən dəryalara bərabər olan hirsu tamahlarından yazıb bəyan ediblər. Amma İsgəndər ağa isə lap baltanı dibindən vurub, haqqı söyləməkdən zərrə qədəri də ürpənib çəkinməyibdir.

Filhəqiqə, Şair İsgəndər ağa hər kəsin eybini açıq üzünə deməkdə tək yaranmışdır. Necə ki, buna özünün də bir şeri şəhadət verir:

***Ərseyi- əşardə mən Rüstəmi-dəhrəm, vəli***
***Söylərəm xovfü xətərsiz, şiri-aslan içmişəm.***

***Yad kuyində demə mən zəhri verdim Şairə,***
***Rövzeyi-cənnət bilib, mən abi-heyvan içmişəm.***

## ŞAİR MƏHŞƏRİ CƏNNƏTZADƏ
***(1803-1896)***

Min doqquz yüz otuz birinci ilin payızı sərt və acı gəldi. Təbiət isə gülürdü, onda nə duman vardı, nə də çiskin, sazaqlı payız yağışları hələ başlamamışdı. Amma həyatda ağlayan, ah-vay edən çox idi. İyirminci ilin aprelindən başlanan tuthatut yenə də davam edirdi. Ölkədə musavat zabiti adı ilə tutulmağa, güllələnməyə adam qalmamışdı. İndi də ziyalıları, molla və axundları həbs edib sürgünə göndərirdilər. Üç il əvvəl (1928-ci il) yaranan "Tanrısızlar Cəmiyyəti"nə bolşevik rəhbərləri zor-xoş xeyli üzv toplamışdılar. Onların əksəriyyəti savadsız rəiyyətdən, keçmiş nökərdən və çoban-çoluqdan ibarət idi. Bolşevik-daşnak göstərişi ilə məscidləri

uçurdanlar, bəy-xan bağlarını doğradanlar, ərəb və fars əlifbasında yazılan kitabları yandırtdıranlar yeni cəmiyyətin fəal nümayəndələri idilər.

Sədi Şirazinin fars əlifbasında kitabı evindən tapıldığı üçün Ömər əfəndi də payi-piyada Ağstafa vağzalına aparılmış və ordan "xalq düşməni" adı ilə gedər-gəlməzə göndərilmişdi.

Seminarist Mustafa Əfəndiyev bu xəbəri eşidən kimi saymazyana darvazaya tərəf üz tutdu. İsrafil ağanın hamamının yanına çatanda qorxulu-qorxulu geriyə boylandı. Heç kəsi görməyib sürətlə kəndə tərəf götürüldü.

Evə çatan kimi anası Nabatdan babası Hacı İmam Cənnətzadənin divanını istədi.

- Neynirsən oğul, odey divan həmişəki yerində, kitab taxçasında.

Qazaxdan Dağkəsəmənə kimi yürüyə-yürüyə gələn Mustafa alnında pucurlanmış təri silib:

- Ana, - dedi, - müəllimimizi dünən gecə həbs edib aparıblar.

- Niyə, bala, neyləmişdi ki?

- Evindən ərəb-fars əlifbası ilə yazılmış kitablar tapılıb. Kişinin abrını alıblar ki, sən niyə İslam dinini təbliğ edirsən. Deməк sən gizli musavat təşkilatının üzvüsən. Kim köhnə əlifbada nə oxuyursa-oxusun, onu sürgün edirlər. Unutma ki, bizim nəslə də "Molla evi" deyirlər. Mütləq bizim evi də axtaracaqlar.

- İndi sən neyləmək fikrindəsən, oğul? Ağlını başına yığ, birdən kitabı oda-zada atıb yandırarsan. - Gözləri hədəqəsindən çıxmış Nabat ana heyrətlə:- Elə şey eləmə, Allahın sənə qəzəbi keçər, bala. Əllərin quruyar, gözün tutular...

Rəhmətlik Hacı İmam babanın ruhu da bizi dinc qoymaz. Evimizə, ailəmizə bəla gələr.

- Ana, yavaş danış, hay-küy salıb, qonum-qonşunu bura tökmə. Mən o qədər də qansız döyüləm. Babamın divanını nə odda yandıracam, nə də suya atacam. Onu yaxşı qurumuş dəriyə bükəcəm, gecə ilə aparıb qəbrinin yanında torpağa basdıracam. Vaxt gələr, dünya düzələr, cıxardarıq.

Ana fikrə getdi. Handan-hana:

- Yox, oğul, - dedi, qəbrin yanında məsləhət döyül, bax elə çəpərimizin sağ yaxasındakı dağdağan ağacının dibində basdıraq. Ora həmişə quru olur. Dağdağanın dibinə su vermirik ki... Dağdağan yüz ilin möhkəm ağacıdır, nə qədər güclü külək əssə də, onu yıxa bilməz. Qalan meyvə ağacları il pis

gələndə quruyur, həm də onlar dağdağana nisbətən kövrək olur. Bərk tufan qopanda sınar, yerini itirərik.

Nabat ana divanı Mustafadan alıb bikef halda o biri otağa keçdi. Gəlinlik cehizini yığdığı sandığı açıb rəngbərəng parçaları bir qırağa tökdü. Qalın Şiraz ipəyidən olan yaylığını tapdı. Baş yaylığını ona qaynatası Hacı İmam Məşhəd ziyarətinə gedəndə alıb gətirmişdi. Gəlin vaxtı Nabat ana onu bir-iki dəfə örtmüşdü. Qıymadığından övladı Mustafanın toyu üçün saxlamışdı. Divanı üç dəfə öpüb gözünün üstünə qoydu. Gəlin-ana qaynatasının hər bir şerini Quran ayəsi qədər sevib əzizləyirdi. Divanı ipəyə bükə-bükə:

- İpək parça gec çürüyür, oğul, üstündən də keçi dərisinə bükərik. Qaç get, zirzəmidə bir az mum var, onu da gətir, üstündən çəkək, onda yüz il də qalsa, heç nə olmaz. Bir də ki, dünya belə qalmayacaq ha... Bolşeviklər ömürlük gəlməyiblər ki, yəqin bir gün rədd olub gedəcəklər. - Ana köksünü ötürüb: Ay Allah, sən bu gavurların bəlasını ver, gör bizi nə günə qoydular. Evimizin bərəkətinə də əl uzatdılar.

***

El şairi Hacı İmam Molla Mikayıl oğlu Cənnətzadənin əlyazma divanının torpağa basdırıldığı gündən düz altmış üç il keçdi. Bolşeviklərin "Tanrısızlar cəmiyyəti"nin təbliğatı o qədər güclü idi ki, bu müddətdə heç kəs cəsarət edib divana əl uzada bilmədi. Nabat ana da, oğlu Mustafa da dünyasını dəyişdi. Ömrünün son günlərində Mustafa Əfəndiyev ehtiyatla övladlarına pıçıldamışdı ki, əgər dünya düzəlib, hürriyyət olarsa, babamın divanını dağdağanın dibindən çıxarıb nəşr etdirərsiniz.

Bu xoşbəxtlik 1994-cü ilin yazında şairin nəticəsi Fəyyaz Əfəndiyevə qismət oldu. İki yüz yetmiş səhifəlik divan altmış üç ildən sonra işıq üzü gördü.

1803-cü ildə Qazax qəzasının Dağkəsəmən kəndində andan olan Hacı İmam Cənnətzadə şerlərini "Məhşəri" təxəllüsü ilə yazmışdır. Əsl adının Mahmud olduğunu, lakin el arasında Məhşəri kimi tanındığını şerlərinin birində özü də qeyd edir. O, ilk təhsilini kənddəki dini məktəbdə almış, mütaliə yolu ilə biliyini artırmışdır. Oğul nəvəsi, Sosialist Əməyi Qəhrəmanı Mustafa Əfəndiyevin xatirələrindən məlum olur ki, babası səliqəli, yaxşı iş görən usta kimi eldə, obada məşhur olmuşdur. Daş üzərində nəfis oyma işləri görən, yazılar həkk edən Məhşəri dülgərlik sənətinin də mahir bilicisi

olmuşdur. O, araba və fayton düzəldər, ev tikib, məişət alətləri hazırlayarmış.

Məşhur ədəbiyyatşünasımız Firidun bəy Köçərli özünün qiymətli tədqiqat əsəri olan "Azərbaycan ədəbiyyatı" kitabında şair Cənnətzadənin bircə yerdə adını çəkir və təəssüflə bildirir ki, əfsuslar olsun, belə gözəl təbli şairin divanı əlimizə düşmədi.

Şair Hacı İmam Cənnətzadə 1896-cı ildə doxsan üç yaşında doğma kəndi Dağkəsəməndə vəfat etmişdir. Özünün vəsiyyəti ilə "Gördüm" qəzəlinin on misrası baş daşına yazılmışdır:

***Bu dünyada vəfa hərgiz tapılmaz heç bir insanda,***
***Kimə bel bağlayıb hərdəm inandımsa zərər gördüm.***
***Mənə bu nəfsi-əmmarə[1]; qalıb hərdəm üzü qara***
***Nədir ya Rəb çarə dolanır dərdə-dər gördüm.***
***Dəni nəfsə uyub, hər gün dolanıb olmuşam bədyəmin,***
***Bilir ol qadirü biçun[2] nə fe[3] etdim kədər gördüm.***
***Mühəssəl, yoxdur bu çərxdən vəfa hərgiz bu dövranda,***
***Kimi gördüm cəfa söylər, özümdən beş betər gördüm.***
***Əla[4] ey Məhşəri qafil, oturma! Bir tədarük qıl,***
***Gəlir ruzi qiyamət açılır çox nələr gördüm.***

El şairi Məhşərinin 1885-ci ildə öz dəsti-xəttilə qələmə aldığı divanında əsasən qəzəllər toplanmışdır. Onun yaradıcılığında Füzuli, Nəsimi, Qövsi Təbrizi, Qasım bəy Zakir və Molla Pənah Vaqif kimi klassiklərin təsiri duyulur. Xüsusilə, dahi Füzuliyə nəzirə və bənzətmələri onun ustad şairdən bəhrələndiyini açıq-aydın göstərir:

***Dil nədir, dilbər nədir, aləmdə bir kəs bilmərəm,***
***Eylə məst etmiş gözüm eşqində hər dəm görməni.***

Təbiət gözəlliyinin aşiqi olan Məhşəri fəsli-baharın gəlişini həsrətlə gözləyir. "Gələcək" rədifli qəzəlində Azərbaycan təbiətinin misilsiz gözəlliyini, bol və bəhrəli olduğunu ilhamla tərənnüm edir:

1. Əmmarə - insanı pisliklərə məcbur edən meyl.
2. Biçun - əvəzi olmayan Allah.
3. Nə,fe - fayda, xeyir.
4. Əla, - agah ol: dinlə, bax.

***Şükrillah ki, bahar oldu gülüstan gələcək,***
***Qümrülər qu çəkəcək, bülbüli xoş xan gələcək.***
***Rövzə çün ali Əba Səbzi libasın geyinib***
***Bağü bostan bitəcək, laləvü reyhan gələcək.***

Ərəb əlifbasında yazılmış iki yüz yetmiş iki səhifəlik bu divanda bir-birindən oxunaqlı qəzəl, qəsidə, mərsiyə, nə,t, minacat, mənzum məktub və qoşmalar və farsca yazılmış qəzəlləri vardır:

***Səd həzəran aşiqi-mövzun qədd***
***Əz qəmi-hicrət şudəndü həmçu dal.***

(Yəni sənin ayrılığının həsrətindən "dal" kimi - Ərəb əlifbasının "d" hərfi kimi olmuşam).

Şair Məhşəri qoşmalarında böyük sələfi Vidadi və Vaqifin də təsiri var:

***Məhşəriyəm, qan ağlaram, gülmənəm,***
***Qanlı yaşım gözlərimdən silmənəm.***
***Zəhd nədir, təqva nədir bilmənəm,***
***Rahi-xərabatın nə pərvanəsiyəm.***

Şairi ağıllı-bilikli adamların ehtiyac içində yaşaması qəmləndirir. O, zamanından şikayət edir. Arif adamların pis gündə, ehtiyacda qalmasını, axmaqların və varlıların belində qızıldan kəmər olduğunu "Gördüm" qəzəlində yana-yana deyir:

***Qalıbdır zari-sərgərdan, tühi-dəstarifi-dana***
***Həmişə gövdəni axmaq belində zərkəmər gördüm.***

Məşhəri təxəllüslü el şairi Hacı İmam Cənnətzadə yüz doxsan bir il bundan əvvəl dünyaya gəlmişdir. Doxsan üç il ömür sürmüşdür. Doxsan səkkiz il bundan əvvəl doğma kəndi Dağkəsəməndə vəfat etmişdir. Lakin bu illərin heç birində onun zəngin yaradıcılığı tədqiq olunmamışdır. Adı nə ədəbiyyat tariximizdə, nə də el şairləri sırasında çəkilməmişdir.

İnanırıq ki, bu gün yaşadığımız demokratiya və aşkarlığın işığı şair Məhşərinin zəngin yaradıcılığına nur salacaq. Sovet totalitar rejiminin dini şair kimi qəbul etmədiyi Hacı İmam Cənnətzadə tədqiqatçılarımız tərəfindən öz layiqli qiymətini alacaq.

## İSRAFİL AĞA SAİL

1759-cu ildə Molla Pənah Vaqiflə birgə Qazaxdan Qarabağa köçənlərdəndir. Bəzi mənbələrə görə Vaqifin Daş Salahlıda dərs aldığı məşhur məktəbdar Şəfi Əfəndinin oğludur. İkinci bir mənbə də var ki, İsrafil ağa Sail Molla Pənah Vaqifin həmkəndlisidir. O, Şuşanın Saatlı məhəlləsində Vaqifin açdığı məktəbdə müəllim olub

İsrafil ağa Sail şairin oğlu Əli ağaya ev təhsili verib.

İlk gəncliyində "Salahlı" təxəllüsü ilə şerlər yazan Əli ağanın istedadına, dərin elmi biliyinə və hafizəsinə heran qalan İsrafil ağa Sail şagirdi Əli ağaya "Alim" təxəllüsünü əta edib. Ona görə də Əli ağanın hər iki təxəllüsdə yazdığı şerlərə biz arxiv sənədlərində rast gəldik. İsrafil ağa Vaqifin bacısı oğlu - 1831-ci ildə Varşavada Azərbacanın səlahiyyətli nümayəndəsi olan rotmistr Əhməd ağaya da dərs deyib.

İsrafil ağa Sail Molla Pənah Vaqifin birinci arvadı, Əli ağanın anası Mədinə xanımın vaxtsız ölümünə mərsiyə yazıb. Ədəbiyyatşünas-alim Firidun bəy Köçərlinin və Salman Mümtazın verdikləri məlumata görə həmin mərsiyədən yaddaşlarda bircə beyt qalıb:

***Biçarə Vaqifin, Molla Pənahın,***
***Hayıf oldu Mədinəsi yıxıldı.***

Bu günümüzə gəlib çatan İsrafil ağa Sailin yalnız beş bəndlik "Ağlaram" şeridir. Vəfatı və ölüm tarixi dəqiq məlum deyil. Tədqiqatlardan belə qənaətə gəlmək olur ki, İsrafil ağa Sail böyük ustadı Molla Pənah Vaqifdən on səkkiz - iyirmi yaş kiçik olub.

### AĞLARAM

***Səhərdən ağlayan bülbül,***
***Sən ağlama, mən ağlaram.***
***Ürəyimi dağlayan bülbül,***
***Sən ağlama, mən ağlaram.***

***Bülbüllər geyibdir sarı,***
***Oxur anıb laləzarı,***
***Sən gül itirdin, mən yarı,***
***Sən ağlama, mən ağlaram.***

***Bülbüllər geyibdir qara,***
***Ürəyimə vurdun yara,***
***Həsrət qaldım nazlı yara,***
***Sən ağlama, mən ağlaram.***

***Bülbüllər geyibdir yaşıl,***
***Zülflərin boynundan aşır,***
***Ağlamaq mənə yarşır,***
***Sən ağlama, mən ağlaram.***

***Bülbüllər geyibdir ağı,***
***Sinəmə sən çəkdin dağı,***
***Sailin çeşmi-çırağı,***
***Sən ağlama, mən ağlaram.***



***Ədəbiyyatşunas-alim Firidun bəy Köçərli (1863-1920) və həyat yoldaşı Badisəba xanım (1881-1954), Qori şəhəri, 1910-cu il.***

## HACI RƏHİM AĞA DİLBAZOV - təxəllüsü. VƏHİDİ
### *(1822-1874)*

Xanlıqlar qəryəsindən, Dilbazilər nəslindən olan ikinci məşhur şair Hacı Rəhim ağa Allahyar ağa oğlu Dilbazovdur. O, "Vəhidi" təxəllüsü ilə şerlər yazmışdır. Onun atası Allahyar ağanın adı XIX əsrə aid sənədlərdə "Qazax süvari dəstəsi"nin igid döyüşçüsü kimi tez-tez xatırlanır. Sözü bütöv, səxavətli və ziyadə dindar olan Allahyar ağa mahal ağaları arasında xüsusi hörmətə malik olub. Hacı Rəhim ağa mərhum xalq şairimiz Mirvarid xanım Dilbazinin ata babasıdır.

Hacı Rəhim ağa Dilbazov dövrünün görkəmli şairləri Qarabağlı Mirhəmzə Seyid Nigarinin, Ağaköynəkli Şahnigar xanım Rəncürün, Dağkəsəmənli Mustafa ağa Nasirin yaxın dostu olmuş, onlarla şerləşmişdir.

Müasirlərinin yazdığına görə Hacı Rəhim ağa ilk təhsilini valideynlərindən almışdır. O, iti zehni, parlaq fərasəti sayəsində az vaxtda geniş məlumat və mərifət kəsb etmişdir.

Ömrünün çoxunu Qazax şairlərinin və alimi-üləmaların məclisində keçirirmiş, şer və ədəbiyyat mübahisələrində fəal iştirak etdiyinə görə ***ona "fazili-möhtərəm şair" ləqəbini vermişlər.*** Firidun bəy Köçərli yazır ki, xüsusən mərifəti-ilahiyə dair bilik və kamalatı Hacı Rəhim ağanı müasirləri arasında mötəbər mərtəbəsinə yüksəltmişdir.

Hacı Rəhim ağanın ziyadə zehninə aşiq olan mövlana Hacı Mirhəmzə əfəndi Seyid Nigari Xanlıqlar qəryəsində 1859-cu ildə onların qonağı olmuşdur. Ali mənsəb şeyx Nigarinin Qazaxda və nüfuzlu dilbazilər nəslində yüksək ehtiramla qarşılanması haqqında Firidun bəy yazır: "Şeyx Mirhəmzə əfəndi Osmanlı məmləkətinə azim olmaqdan qabaq bir neçə vaxt Qazax mahalında Xanlıqlar qəryəsində şəxsi iqamət edib, orada özünə xeyli müridlər cəm edibdir və Xanlıqlar ağalarının içində özünə çox dost və aşna və həmrəy əhibba tapıbdır. Onların məşhuru Allahyar ağa Dilbazi də olubdur ki, məşhur Hacı Rəhim ağa Vəhidi təxəllüsün atasıdır. Mirhəmzə əfəndinin Vəhidiyə və şairə Nigar xanım Rəncurəyə artıq təsiri keçibdir".

Hacı Rəhim ağa Vəhidi isə Kəbəyə gedib - qayıdarkən İstanbulda Seyid Nigarinin çox hörmətli qonağı olmuşdur. "Dəyanətkirdar və səxavətşüar bir

bəy ailəsindən" (Firidun bəy) olan Vəhidi Dilbazi 1867-ci ildə səfalı bir guşədə tikdirdiyi məscidinin tərifinə də şer yazıb:

***Nə cayi-dilgüşadır kim, bu məscid bunda var olmuş,***
***Baxan göz açılır könül, çay üstü laləzar olmuş.***

***Müvərrix tarixin, bil, "xaneyi-pərvərdigar" etmiş,***
***Vəhidi, ali-Dilbazə bu məscid yadigar olmuş.***

Vəhidinin şerləri axıcı, dili rəvan və oxunaqlıdır. O, Ağköynəkli şair Şahnigar xanım Rəncür Qiyasbəyovanın ağköynəklər təriqətinin ən fəal üzvlərindən biri idi.

1822-ci ildə anadan olan Hacı Rəhim ağa Vəhidi 1874-cü ildə əlli iki yaşında vəfat edib. Məzarı Xanlıqlar kənd qəbristanlığındadır.

Şair Vəhidi müasiri, görkəmli ziyalı Hacı Sədi əfəndi ilə yaxın dost olub. Firidun bəy Köçərlinin xahişi ilə Sədi əfəndi dostu Vəhidinin şerlərini toplayıb və şairin ölümünün səbəbini də yazıb Firudun bəyə göndərib.

Hacı Sədi əfəndinin yazdığına görə 1874-cü il məhərrəm ayının doqquzunda çərşənbə günü şair Vəhidi hökumətdən alacağı maaş üçün Xanlıqlardan Dağkəsəmən kəndinə gəlib. Bir xeyli bikef olan Vəhidi çox sevdiyi güclü təriqət müəllimi olan Molla Vəli Kirvəli oğluna baş çəkib onu ziyarət edib. Kecəni Kirvəli oğlunun evində qonaq qalan Vəhidi səhər sübh namazını qılıb. Sonra çay içə-içə çox sevdiyi şair İbrahim Həqqinin[1] "Keç!" qəzəlini avazla oxuya-oxuya qəfildən canını tapşırıb.

***Vəfa istərsən allahdan bu gün çövrü cəfadan keç!***
***Səfa ümüd edərsən şirətü zövqü səfadan keç!***

***Dila, biganələrlə aşina olmaq sənə düşməz,***
***Kəsil biganədən, mövladən özgə aşinadan keç!***

***Sənin kimi hezarın bağrına xar oldu bu gülşən,***
***Təəllüq eyləmə hərgiz bu dəhri - bivəfadən keç!***

---

1. İbrahim Həqqi (?-1772) məşhur türk filosofu və şairi "Mərifətnamə" əsərinin müəllifi.

*Müridi - eşq isən tərki - iradət eylə, ey sufi,*
*Vücudi - məhvi - küll qıl, (həm) fənadan keç, bəqadən keç!*

*Əlin ərşi - bərinə irsə, Həqqi, olmağil - məğrur,*
*"Ov ədna"[1] mərkəzin gözlə, məqami - müntəhadən keç!*

***

*Fazili-möhtərəm Şeyx Sədi əleyhirrəhmənin aşağıdakı:*

*Ağıllıların nəzərində yaşıl ağacların yarpağının*
*Hər biri allahın qüdrətindən bir dəftərdir.*

- beytinə Hacı Rəhim ağa Vəhidi farsca cavab yazmışdır. Onun sətri tərcüməsi belədir:

*Bəxtiyar sədəfdə nisan yağışının bir damcısı*
*Allahın qüdrətindən saf cəvahir olur.*
*Zəif bir qurd ağacın yarpağını yeyir, ondan*
*Allahın qüdrətilə təbii atlas əmələ gəlir.*
*Saqi badə verir və müridlər məst olurlar,*
*Hər biri allahın qüdrətindən danışırlar.*

***

*Bir məlahət gülşənində yarı gözlər gözlərim,*
*Bəhri-dür qəvvasiyəm, mirvari gözlər gözlərim.*

*Feyzininin müştağı çeşmin müttəsil bidardır.*
*Ol təriqət mürişdi Nigarı[2] gözlər gözlərim.*

*Saqiya, ver bir qədəh, artır gözüm fəvvarəsin.*
*Çün sənin sərməstinəm, xumarı gözlər gözlərim.*

1. "Ov ədna" - sözü sufilərin işlətdiyi istilahdır.
2. Şer Qarabağın Çəjimli kəndində yaşayan ustadı və mürşidi Hacı Mir Həmzə əfəndi Seyid Nigarini (1815-1885) görmək, həmsöhbət olmaq həsrətinə yazılıb. Ş.N.

***Qılma inkarın, həsuda, aşiqin məhbubu var,***
***Var olalı yox demə, bir vari gözlər gözlərim.***

***Eşq sərfindən, həbiba, bir mətaim var mənim,***
***Bu mətai satmağa bazarı gözlər gözlərim.***

***Şükrülillah çün Vəhidi saqidən sərməstdir,***
***Məsti-lütfi-vəhidətəm, didarı gözlər gözlərim.***

***

***Mən sənin ixlasınam, yanında gər məzur isəm,***
***Fəhm qıl, yaxşı tanı bir dost ilə düşmanı sən!***

***Gah lütf et, gah də ol guşədə xəlvətnişin.***
***Oxu şeri - Sədinin, Firdovs ilə Xəqani sən!***

***Çün Vəhidi, şaira, çox müntəzirdir vəslinə,***
***Tövbə qıl, bir də demə hər dəm ona böhtani sən!***

***

***Şair, ol guşənişin, söz demə agahlərə,***
***Dilini zəb telə bir düşməyəsən çahlərə,***

***Bir ocağız ki, biz çaçiləyən təliqədir,***
***Bu səfahət nə sən kimi bədxahlərə.***

***Bu ocaq eylə acaqdır işığı hər yanə***
***Gah-gah şölə salır sən kimi gümrahlərə.***

***Vəkil olmaqda məramın bu imiş ev yıxasan,***
***Neçə sən kimiləri dur gərək cəhlərə.***

***Bu qəzəldir ki, Fizuli dedi xoş saətdə:***
***Bəxt şayəstə deyil himməti kutahlərə.***

***Təbi əla olanı bəxt özü meydanə çəkər,***
***Belə ədna təbilə uyuma o həmrahlərə,***

***Ya rəb, oldur duamız özünə möhtac eylə,***
***Bizi möhtac eləmə hər üzü siyahilərə.***

***Ey Vəhidi, sığınıb sidq ilə sən eylə dua,***
***Aləmin xaliqinə, rütbə verən şahlərə.***

***

***Nə cayi-dilgüşadır kim, bu məscid bunda var olmuş,***
***Baxan göz açılır, könül çay üstü laləzar olmuş.***

***Xətibi xütbə oxuyur, imami mədhi-mövlayi,***
***Yanar qəndil ilə şəmi cəmaət feyzbar olmuş,***

***Səhər bülbül sədasindan müəzzin xobdən bidar.***
***Müəzzin naləsindən gör balıqlar gumdar olmuş,***

***İbadət eyləyir onda, xuda indində məqbuldur***
***O kim, ondan qaçar, bil, xarü zarü şərmsar olmuş.***

***Müvarrik tarixin, bil "xaneyi-pərvərdigar" etmiş,***
***Vəhidi, ali-Dilbazə bu məsçid yadigar olmuş.***

## “ANNAX BƏY” ŞEİRİNİN TARİXİ

***Qazax bəylərindən qonağı gəldi,***
***Bir həftə ziyafət göyə yüksəldi.***
***Şah Abbas şülənli məclis düzəldi,***
***Hatəm süfrəsini aşdı Annax bəy.***



*Soldan İsrafil ağa Kərbalayev (1866-1917), Əbdürrəhman ağa Dilbazi və Annax bəy Salahlı*

Bu misraları ulu Aşıq Ələsgər 1916-cı ildə Salahlı Annax bəyin oğlu Mədəd bəyin toy məclisində deyib. Altmış il əvvəl çap olunan “Annax bəy” şe’rinin yazılma tarixi bu günə qədər heç kəsə mə’lum deyil. Nədənsə, tədqiqatçıların marağına səbəb olmayıb. Şübhəsiz ki, onları “bəy” sözü qorxudub. Əgər aşıq, Annax bəyə həcv yazmış olsaydı, tədqiqatçılar da onu tənqid atəşinə tutardılar. Amma ustad Ələsgər şe’ri elə yazıb ki, tənqidə zərrəcə əl yeri qoymayıb.

Müdrik Aşıq Ələsgər Annax bəyə həcv yazmadığı halda, yenə insafsız tərtibçilər “Annax bəy” şe’rini aşığın seçilmiş əsərlərinin “həcv və hərbə-zorbalar” fəslinə daxil ediblər. Kimliyi barədə isə heç bir izahat verməyiblər (“Aşıq Ələsgər”, I kitab, səh.201. “Elm” nəşriyyatı, 1973-cü il).

Kimdi Annax bəy və Ələsgər kimi ustad sənətkar necə olub ki, ona belə bir gözəl şe’r yazıb?

...Salahlı Annax bəyin çoxdankı arzusu imiş ki, gözünün ağı-qarası bircə oğlu Mədəd bəyin toyunu aşıq Ələsgərin aparsın. Bu arzu ilə də, 1916-cı ildə Göyçəyə adam göndərib ustadı xeyir işinə də’vət edir. Bir həftəlik xeyir işində səxavətli bəyin özünə bərabər adlı-sanlı Qazax bəyləri, ağaları da iştirak edir. Ağköynəkli İsmayıl ağa Qiyasbəyli, Qıraq Kəsəmənli İsrafil ağa Kərbalayev, Salahlı Mədəd bəy Vəkilov, Əskiparadan Mikayıl ağa, Söyün-

bəyli Söyün ağa Sübhanverdixanov, Daşsalahlı Məmməd koxa Mahmudov, şair Abbas ağa Nazir Qayıbov, Borçalıdan Sadıq bəy Yadigarov, Əbdürrəhman ağa Dilbazi, Gəncədən Nağı xan və başqaları.

Həftə tamam olur, toyun son günündə bəylər, ağalar Aşıq Ələsgərə xələt verirlər ki, bizə Annax bəyin tə'rifini de.

Müdrik Ələsgər dinmir. Fikirli-fikirli meydanda gəşt eləyir. Bəylərin arasına pıçhapıç düşür: bəlkə aşığın xələti az oldu, bəlkə Annax bəyə layiq söz tapa bilmir, - deyənlər olur. Aşıq Ələsgər görür ki, fikirlər gedib ucuzluğa calanır. Bu vaxt üzünü məclisə tutub deyir:

- Həzərat, sizin hər birinizi yaxşı tanıyıram. Yaz gəlib Göyçənin yolları açılandan ta payız qırovu düşənədək sizin süfrənizdə çörək kəsirəm. Annax bəyin şərəfinə sinəmdə bir neçə bənd söz var, deyəcəm. Amma gərəkdi, kimsə inciməsin, aşıq gördüyünü çağırar. Mən də bir həftədə şahidi olduğumu deyim, eşidin. Bununla da məclisi bağlayaq. Ömürdü, gündü, bəlkə bu yerlərə bir də güzarım düşmədi...

***Eyvanın, otağın mübarək olsun,***
***İmarəti al qumaşdı, Annax bəy!***
***Bu yerdə gördüyüm bəylər içində,***
***Səxada hamıdan başdı Annax bəy.***

***Bəylərin bəyisən, xanların xanı,***
***Unutma insafı, satma imanı,***
***Əldə əsas tutma qəni dövranı,***
***Neçələri gəldi keşdi, Annax bəy.***

***Vaxt olacaq, ömür yetəcək başa,***
***Hörmət qoy hamıya, hörmətli yaşa.***
***Bu dünya işinə qılsan tamaşa,***
***Mal-dövlətin sonu puşdu, Annax bəy.***

***Yazıq Ələsgərin çoxdu nalası,***
***Silinmir, könlünün açılmır pası,***
***Hər zaman qəm çəkir, saxlayır yası,***
***Gəşt eyləyir gözü yaşdı, Annax bəy.***

Ağsaqqalların dediyinə görə, bu, Dədə Ələsgərin Qazağa sonuncu səfəri olub. "Qulaqlı yer" Qazax bəylərinin gileyini ustada çatdırıb. Sən demə, bəylərin bir parası Aşıq Ələsgərin Annax bəyə dediyi bir misradan daha çox incik düşüblər: "Bəylərin bəyisən, xanların xanı" - deyimi bə'zi bəylərin xətrinə dəyib. Gözü götürməyən qəlbi qaralar Annax bəyə deyilən həqiqi tə'rifdən rəncidə olublar.

Bu günümüzün el şairi Qulu Çaylının da elin igid oğlu Annax bəyin səxavətinə "Deyim" adlı müxəmməsi var:

***Gəlin sizə isnad verim,***
***Salahlıda Annax bəyi.***
***Kəsmək ona adət imiş,***
***Hər qonağa bir inəyi.***
***Gecə-gündüz yığılmayıb***
***Süfrəsinin bol çörəyi,***
***Daş Salahlı Məmməd koxanın,***
***Əyilməyib nər biləyi.***
***Əyrilərə şılğam çəkib,***
***Dolaşıb aşkara deyim.***

Hazırda Annax bəyin nəsli Orta Salahlı kəndindədir. Onlar Annaxbəyovlar familini daşıyırlar.

Qazaxda olanda ağsaqqal Müseyib Dilbazi ilə görüşdüm, bir axşam qonağı oldum. Keçmiş igidlərdən, bəy və ağalardan xoruz banına qədər söhbəti-söhbətə caladıq.

Müseyib əmi:

- Məndə - dedi, - Annax bəyin Salahlının, İsrafil ağa Kərbəlayevin və babam Əbdürrəhman ağa Dilbazinin 1890-cı ildə Batum şəhərində birgə çəkdirdikləri şəkilləri var.

Şəklin üzünü çıxartdırmaq üçün Müseyib əmidən icazə istədim. Səxavətli Müseyib əmi:

- Bağışlayıram, - dedi - bu şəkli sənə, oğul, amma itirmə, çalış dərc elətdir.

On ildən çox şəxsi arxivdə dustaq qalan bəylərin şəklini aşkarlığın işığında oxuculara təqdim edirəm. Dilbazilər ocağının xeyirxah ağsaqqalı Müseyib əmiyə yüz yaşlı şəkli mühafizə edib saxladığına görə minnətdarlığımı bildirirəm.

***1990-cı il, 20 sentyabr.***

# "AY ÇİÇƏK" MÜƏLLİFİ İLƏ GÖRÜŞ

*Artıq ötüb keçmiş illər o gündən,*
*Neçə yol açmışdır güllər o gündən.*
*Demə ki, yadımdan çıxdın, ay Çiçək,*
*Niyə gülümsəyib baxdın, ay Çiçək?*

Bu mahnını dəfələrlə eşitmişəm. Hər dəfə mənə elə gəlib ki, müəllif Gəncənin, Göyçayın məşhur çinarlarını tərənnüm edib. Mənə elə gəlib ki, yel əsdi, titrədi, səsləndi şamlar, - yazan müəllif məhz ulu Şirvanı və onun əsrarəngiz təbiətini nəzərdə tutub. Lap bu yaxınlarda bildim ki, şe'rdə Şirvan yox, onun ulu qardaşı Muğan tərənnüm olunur. Hadisə də bu torpaqda olub, şe'r də bu torpaqda boy atıb cücərib, dillər əzbəri olub. Amma heç vaxt ağlama gəlməzdi ki, "Ay çiçək" şe'rinin müəllifi Ukrayna şairidir. İki il əvvəl xalq şairi Nəbi Xəzrinin Petro Qoretskinin kitabına yazdığı müqəddimədə bu fakta rast gələndə təccübləndim və tərcümənin məharətinə heyran qaldım. Respublikamızda xalq mahnısı kimi şöhrət tapmış "Ay Çiçəy"in demə müəllifi varmış...



***Sağdan: Şəmistan Nəzirli, Valentina Georgievna Şabelskaya, "Ay çiçək" şe'rinin müəllifi Pyotur İqnatyeviç Qoretski və b. Truskovetsk şəhəri, 1987-cı il sentyabr***

***

Qeydiyyatdan sonra Truskavetsin əsrarəngiz təbiətində gəzmək istədim. Qərbi Ukraynanın bu guşəsinə təbiətin fusunkar gözəlliyi səxavətlə bəxş olunub. Hara gedirsən, nəyə baxırsan gönülaçan mənzərənin şahidi olursan. Bir-birinə arxa olan Karpat dağlarının yam-yaşıl ormanları insanı valeh edir.

Axşamüstü toran qovuşanda dəmir darvazanı açıb pansionatın sakit guşəsinə daxil oldum. Cəmi on dörd yazıçının istirahət edib, müalicə olunduğu "Naftusiya" pansionatında nəinki həmyerlimiz, heç Zaqafqaziya respublikalarından belə nümayəndə yox idi.

- Siz Bakıdan gəlmisiniz?

Alaqaranlıqda eşitdiyim səsə geriyə döndüm. Dərhal da "bəli" deyə cavab verdim.

- Görüşək - dedi, - biz "həmyerliyik", Petro İqnatyeviç Qoretski - çox şadam ki, "həmyerlimə" rast gəldim.

- Familiyanız - dedim, - nəsə mənə tanış gəlir, amma harada, nə vaxt tanış...

- Biz elə indi tanış oluruq. Görünür, siz mənim familiyama 1984-cü ildə Azərbaycanda çıxan "Ay çiçək" kitabımda rast gəlmisiniz.

- Hə, xatırladım, demək "Ay çiçəy"in müəllifi sizsiniz?

- Bəli, bəs yox yerdən demirəm ki, biz "həmyerliyik". Azərbaycanlı görəndə, onunla söhbət edəndə elə bilirəm ki...

***Nəğmə dinləyirəm Odlar elində,***
***Gönül belə yerdə gəlməzmi cuşa?***
***Muğan çöllərində köhlən belində***
***Yenə də Vurğunla səkirik qoşa...***

Petro Qoretski 1919-cu ildə Ukraynanın Marinski rayonunun Maksimyanovka kəndində doğulsa da, Azərbaycanı özünə Vətən sayır. O, 1939-cu ildə Ordu sıralarına çağrılanda Prişib sərhəd zonasında hərbi xidmətdə olub. İmişlinin Qaradonlu kəndindəki komendaturada siyasi şöbə rəisi müavini işləyən Qoretski bu yerin adamlarını indi də hörmət və məhəbbətlə xatırlayır.

- Qaradonluda xidmət edəndə bizim komendaturanın yanında poçt idarəsi vardır. Atası poçtalyon işləyən Fatma[1] adlı bir qız çox vaxt atasının əvəzində poçtu aparmağa gəlirdi. Mən də hər gün hissəmizə aid olan məlumatları orda qəbul edərdim.

On dörd - on beş yaşlı Fatma rus dilinin zəif bilsə də çox zərif və lətafətli danışardı. Onun kənd qızlarına məxsus dağınıq birçəkləri həyalı yanağını tül kimi örtərdi. Bu lirik təssüratın gücü ilə, çiçəklərin timsalında, 1943-cü ildə Azərbaycan qızı Fatmanın obrazını yaratdım. İndi illər keçsə də, Muğanı və onun gözəlliklərini xatırlayanda istər-istəməz Fatmanı da yada salıram.

- Petro İqnatyeviç, - dedim dostunuz Nəbi Xəzri haqlı olaraq yazır ki, Ukrayna şairinin sədaqət və məhəbbət mahnısı Azərbaycan xalqının ürəyində isinərək səmimi və şirin bir nəğməyə çevrilib dillərdə səslənir. Bu, əsl dostluq nəğməsidir.

- Əlbəttə, bir müəllif kimi mən buna çox şadam. Şe'rimin Azərbaycanda belə şöhrət tapmasında şair dostum Nəbi Xəzriyə və həvəskar bəstəkar Xaləddin Xəlilova, bir də onu ifa edən müğənni Ramiz Hacıyevə, Qulu Əsgərova minnətdarlığımı bildirirəm.

- Azərbaycanda neçə il hərbi xidmətdə olmusunuz?

- Dörd il. Sonra cəbhə yollarından keçdim. Bir müddət ölkəmizin müxtəlif şəhərlərində xidmətdə oldum.. Astaralı Həsənlə mənim Ukraynam uğrunda çiyin-çiyinə vuruşduq. 1956-cı ildə yaradıcılıq e'zamiyyətinə Azərbaycana getdim. Nə gizlədim, doğma Muğanın qonaqpərvər və mehriban adamları üçün yamanca darıxmışdım. Bir vaxt qulluq elədiyim yerləri gəzdim, dostlarımla görüşdüm. Bakıda Nəbi Xəzri ilə görüşdüm, tanış oldum. Nəbi mənə dedi ki, bəlkə Azərbaycan haqqında şe'riniz var? O vaxtlar Nəbi "Azərbaycan" jurnalında işləyirdi. "Ay çiçək" şe'rimi ona verdim. Şe'r jurnalın onuncu nömrəsində dərc olundu. İkinci dəfə gələndə Nəbi dedi ki, Petro, sənin şe'rinə mahnı yazılıb, indi sən Azərbaycanda məşhursan.

Ukraynanın Rusiyaya birləşməsinin 300 illiyi yubileyində Azərbaycanda Ukrayna ədəbiyyatı həftəliyi keçirilirdi. Orada bizim məşhur söz ustalarımızdan Leonid Vışeslavski, Aleksandr Pitsuxa, Dmitri Belorus, İqor Muratov və

---

1. Əlli ildən sonra P.Qoretskinin "Ay çiçək" şe'rini həsr etdiyi Fatma Talıbovanı axtarıb tapdım. Şairi respublikamıza də'vət etdim. Sabirabad rayonunun Əbdülyön kəndində yaşayan səkkiz uşaq anası Fatma ilə şairi görüşdürdüm. P.Qoretski bu ailədə çox mehriban qarşılandı - müəl.

başqaları iştirak edirdilər. Azərbaycan Elmlər Akademiyasında keçirilən poeziya axşamında ilk sözü mənə verdilər. Bu görkəmli şairlərin arasında ilk sözün mənə verilməsi böyük fəxr idi. Dmitri Belorus zarafatla dedi ki, ilk sözü Petroya ona görə veririk ki, bizim Ukraynada hamı onu Azərbaycan şairi kimi tanıyır. Mən yolda yazdığım "Salam, Bakı" şe'rimi oxudum.

***Sənin hər bir küçən, hər bir meydanın,***
***Musiqiylə dolu, axarla dolu.***
***Bakı, sənin ruhun, sənin lisanın,***
***Sabirin ruhudur, Vurğunun dili.***

***Şeirim qartal kimi havalan bu an,.***
***Dostun ümmanına qarış, ilhamım.***
***Bakı, mənim sənə, bil, Ukraynadan***
***Çox-çox salamım var, qardaş salamım.***

- Petro İqnatyeviç, tərcümə ilə məşğul olursunuzmu və Azərbaycan şairlərindən kimləri tərcümə etmisiniz?

- Təkcə Azərbaycan yox, rus və belorus şairlərinin şe'rlərini də Ukrayna dilinə çevirmişəm.

1954-cü ildə Bakıda olanda Səməd Vurğun, Mehdi Hüseynlə, Mirzə İbrahimovla və Süleyman Rüstəmlə tanış oldum. Özümlə gətirdiyim "Jolten" /"Oktyabr"/ jurnalında Səməd Vurğunun "Səadət nəğməsi" şe'rini Ukrayna dilinə tərcümə etmişdim. Onu böyük şairə təqdim etdim. Səməd Vurğun: "Oxuyun, görüm - dedi - Ukrayna dilində necə səslənir?" Oxudum. Şair təşəkkür edib razılığını bildirdi.

- Daha hansı Azərbaycan şairlərinin şe'rlərini Ukrayna dilinə tərcümə etmisiniz?

- Süleyman Rüstəmin, Əhməd Cəmilin, Mirvari Dilbazinin, Rəsul Rzanın, Zeynal Cabbarzadənin, Bəxtiyar Vahabzadənin poeziyasından numunələri tərcümə etmişəm.

1981-ci ildə Nəbi Xəzrinin "Şe'rlər" kitabını çap etdirdim. İş elə gətirdi ki, həmin il özümün də şe'rlər kitabım tematik plana düşdü. Nəşriyatda mənə dedilər ki, bir ildə həm tərcümənizi, həm də şe'rlər kitabınızı çap edə bilmərik. İkisindən biri qalmalıdır. Onda mən öz kitabımı geri götürdüm. Dedim, qoy dostum Nəbinin kitabı çıxsın. Öz kitabım isə 1982-ci ilə qaldı.

Bir neçə il əvvəl Minskdə Yanka Kupalanın 90 illik yubileyində Nəriman Həsənzadə ilə tanış oldum. O, mənə şe'rlər kitabını bağışladı. Nəriman şe'rlərinin axıcılığı, onlardakı hiss-həyacan məni bir şair kimi valeh etdi. Özünü isə səmimi bir insan kimi sevdim, vuruldum ona. Artıq Nərimanın dörd şe'rini tərcümə etmişəm Ukrayna oxucularını onun ürəyə yatımlı şe'rləri ilə sevindirəcəyəm, ayrıca kitabını hazırlayıram.

- Azərbaycan mövzusunda gələcək planlarınız?

- Bəxtiyar Vahabzadənin şe'rlər kitabı artıq hazırdır. Nəşriyata təqdim etmişəm. Nəbi Xəzrini bizim Ukraynada sevir və maraqla oxuyurlar. Altı il əvvəl çıxan kitabı az bir vaxtda satıldı. Ona görə də yeni, daha samballı nəşrini hazırlayıram. Bütün bunlarla yanaşı, mənə Ukraynam qədər doğma olan Azərbaycanı tərənnüm etməkdə nə yoruluram, nə də doyuram. Bakılılar haqqında silsilə şe'rlər üzərində işləyirəm.

- Azərbaycanda sonuncu dəfə nə vaxt olmusunuz?

- Son üç ildə iki dəfə getmişəm. 1985-ci ilin payızında və 1986-cı ilin yazında. Mən Azərbaycanın bütün fasillərini görmüşəm və sevmişəm. Hər dəfə gələndə Muğanı, Qaradonlunu, Beləsuvarı, Xan Arazın sahillərini qarşı-qarşı gəzirəm. Bunun də səbəbi var. Məqsədim ötən illərdə olduğum Muğanı elə-belə gəzmək deyil. Muğan haqqında roman yazmaq istəyirəm. Azərbaycana, onun füsünkar təbiətinə yüzdən çox şe'r yazmışam, yenə də ürəyim soyumur. Mənə belə gəlir ki, sözümün hamısını deyib qurtarmamışam.

Mənim Muğanda olmağım müharibənin ilk illərinə təsadüf edir. O illərdə Azərbaycan xalqının cəbhəyə göməyini, ağır pambıq işində gecəli-gündüzlü əzmlə çalışanların şahdi olmuşam. Bu sadə zəhmət adamları necə də cəsur idilər. Romanda hünərvər Muğan camaatının güzaranını təsvir edəcəyəm. Sərhəddə olan hadisələr də burada öz əksini tapacaq. Muğanlıların min bir əziyyətlə qazandıqları çörəyi öz boğazlarından kəsib cəbhəyə göndərmələrinin mən şahidi olmuşam.

Bə'zən yuxum ərşə çəkilir , yata bilmirəm. Yadıma bilirsiniz nə düşür? Yazbaşı Qaradonludan Beləsuvara qədər olan çöldə qanqırmızı lalələrin Xan Arazdan əsən mehdən azacıq titrəməsi. Cəmi on-on beş gün bizim zastavanın dörd yanı lalələrdən cənnət olardı. Sonra ulu Muğanın tamam yeni bir mənzərəsi peyda olardı.

***Əriyib getsə də illər uzaqda...***
***Ancaq xatirimə gəlir ki, bu dəm:***
***O Qaradonluda, elə bu çağda,***
***Yasəmən ətrindən şərbət içmişəm.***

***Yaşıl, taravətli çinarsa, fəqət,***
***Yenə də oxuyur əvvəlki kimi.***
***Şe'rimdə, nəğməmdə bir gövrək həsrət,***
***Yandırır, dindirir bu gün qəlbimi.***

- Petro İqnatyeviç, bəs Ukraynada necə, sizin şe'rlərinizə musiqi yazılıbmı?

- Əvvala onu deyim ki, Ukrayna mərkəzi mətbuatda ilk şe'rim 1937-ci ildə çap olunub. "Boqatır haqqında mahnı" şe'rim məşhur xalq qəhramanı Nikolay Şorsa həsr olunub. Bəstəkar isə bu mahnıya "Sıx ağcaqovaq altında" adı verib. Azərbaycanda "Ay çiçək" xalq mahnısı olub, birinci Ukrayna xalq mahnısı kimi şöhrət tapıb. Hər iki mahnıda adım çəkilməsə də xoşbəxtəm ki, hər iki xalqın qəlbində, dilində sözlərim mahnıya çevirilib, dillər əzbəri olub. Məni düzgün başa düşün, bunu təsəlli üçün demirəm. Hələ altmışıncı illərin əvvəlində dostum Nəbi Xəzri deyəndə ki, Petro, şe'rinə musiqi yazılıb, sən Azərbaycanda məşhursan,. bu sözlər qəlbimin dirinliyində hələ də şirin bir laylay kimi yaşayır.

İllər keçdi, yaşımın üstünə yaş gəldi. Yetmişi haqlayıb qocaldım. Amma əlli il əvvəl Muğanın qoynunda gördüyüm çiçəkləri, qan-qırmızı laləlləri hələ də unuda bilmirəm. Mən ölkəmizin elə bir guşəsi yoxdur ki, orada olmayım. Qarlı Sibirdən tutmuş günəşli Azərbaycana, Ukraynaya qədər gəzib görmüşəm, çox yerlərdə hərbi xidmətdə olmuşam. Hər yerin gülünü, çiçəyini görmüşəm, ətrini dadmışam. Nə gizlədim, Muğanda bitən nadir və gözəl çiçəkləri heç yerdə görməmişəm. Ona görə də Azərbaycan çiçəyinə şe'r yazmışam.

***Truskovetsk-Bakı***
***1988-ci il***

## "ETİRAF EDİRƏM QƏLBƏN"...

Bir səhvimi yadıma salanda heç vaxt özümü bağışlaya bilmirəm. Bu səhv on altı ildir qubar olub ürəyimi didir, parçalayır. Elə bir tarixi şəxsiyyətin, əvəzsiz insanın yaradıcılığında səhv iş tutmuşam ki, yadıma düşəndə məni od götürür. Mən bununla gələcək tədqiqatçıları da çaş-baş salıb onları pis vəziyyətdə qoya bilərəm. Ona görə də fikirləşdim ki, neçə ki, sağam, möhtərəm oxucular qarşısında, Səməd Vurğunun pak olan ruhu naminə bu səhvimi e'tiraf eləməliyəm.

1976-cı ildə böyük şairin uşaqlıq və seminariya dostlarını dinləmək üçün Qazağa getdim. Mərhum Mirqasım Əfəndiyev kimlərlə mütləq görüşməyi qeyd dəftərçəmə bir-bir yazdırdı.

- Bir başa Qazax rayon Partiya Komitəsində üçüncü katib işləyən Qəmbər Orucovun yanına get, - dedi, - ona sənin haqqında demişəm. Nə çətinliyin olsa sənə kömək edəcək...

Qəmbər müəllimin doğrudan da şairin dost və qohumları ilə görüşməkdə mənə çox böyük köməyi oldu.

İşimi qurtarıb Qəmbər müəllimə təşəkkür eləməyə getdim. Bir ağsaqqal, xeyirxah adam kimi ona minnətdarlığımı bildirdim. Məni diqqətlə dinləyən müsahibim:

- Bir de görüm, kimlərlə görüşdün? - deyə, məndən soruşanda şairin bibisi qızı Qızxanım Axundovanın, uşaqlıq dostu meşəbəyi Cəfəroğlu Mahmudun, əmi-



***Görkəmli maarif xadimi Mirqasım Omar oğlu Əfəndiyev (sağda) və jurnalist Şəmistan Nəzirli, 1978-ci il***

si oğlu Rüstəmağa Vəkilovun, müəllimi Əli Əliyevin, Abdulla Babanlının, seminariya dostu Hüseyn Nəsibovun, Əhməd Əhmədovun, Əsgər Xasməmmədovun, həmkəndlisi Mahmud Alıoğlunun, aşıq Məhəmməd Şıxlının və başqalarının adını çəkdim.

- Bəs Mirpaşa Nəsibov? Onunla görüşmədin?

- Yox, - dedim, - o tay Saloğluda yaşayır, yolu uzaqdı, ismarıc da göndərdik gəlmədi. Bizim maşının da benzini yoxdu, qalsın gələn dəfəyə. Bir də...

Qəmbər müəllim:

- İnanıram ki, Mirpaşa müəllimə xəbər çatmayıb. O, Səməd Vurğunun adını eşitsə mütləq gələrdi. Nə danışırsan, - dedi. - o tay Qarayazıdan bu yağışda, qiyamətdə səksən beş yaşlı ağsaqqal Cəfəroğlu Mahmud Səməd Vurğunun adını eşidən kimi dilbozunu minib, haray-həşirlə axan Kürü keçib gəlib. (Dörd gün ara verməyən yağışlara görə o tay Qarayazıya gediş-gəliş tamam kəsilmişdi.) Yox, sən Mirpaşa müəllimlə mütləq görüşməlisən, yoxsa heç yerə, Bakıya-zada buraxan deyiləm. Qal, sabah maşını mən özüm təşkil edəcəm, axşam da yola salacam Bakıya...

Əslində xeyirxah Qəmbər müəllimin təklifi ürəyimcə idi. Bu maraqlı adam haqqında çox eşitmişdim, amma onunla söhbət eləmək qismət olmamışdı. Uzaqdan-uzağa elə-belə tanıyırdım ağsaqqalı. Rayonda ona hamı Səməd Vurğunun yaxın dostlarından biri kimi hörmət və ehtiram göstərirdi. Toy məclislərində Mirpaşa müəllim mütləq Səməd Vurğunun və özünün yazdığı şe'rlərlə sağlıq deməyi xoşlardı.

Səhər tezdən komsomolun birinci katibi Qasım Əliyevlə birgə o tay Saloğluya Mirpaşa müəllimin görüşünə getdik.

Mirpaşa Nəsibov söhbətinə çox-çox uzaqlardan başladı: Qazağın qədim tarixindən, görkəmli maarifçi Əhmədağa Mustafayevdən, şairin ulu babalarından bildiyini, eşitdiyini bizə söylədi. Nəhayət, mən söhbətin yönünü dəyişib seminariya illərinə gətirdim. Onda Mirpaşa müəllim fəxrlə dedi ki, məndə Səməd Vurğunun heç yerdə dərc olunmamış bir şe'ri var.

- Nə vaxt yazıb? - deyə soruşdum.

- Seminariya illərində, Dürrəyə dəlicəsinə vurulan vaxtı. Amma şe'ri Sizə verməyəcəm. Yetmiş illik yubileyidi, özüm dərc etdirəcəm.

- Nə olar - dedim, özünüz bilən məsləhətdir.

Seminariya illərindən maraqlı epizodlar danışan Mirpaşa müəllim birdən nə fikirləşdisə:

- Yaz - dedi, - şeiri də deyim, yaz. Bu əhvalatdan sonra da şeiri dərc etdirmək yerinə düşər. (Mirpaşa Nəsibovun danışdığı əhvalat inandırıcı olmadığına görə "Ulduz" jurnalının baş redaktoru Əhməd Cəmil ixtisar eləyib ancaq şeiri saxladı. - Ş.N.)

Mən şeiri də yazıb götürdüm.

***Quş budağa gəlib qonu,***
***Alacadır onun donu.***
***Qərib elə düşüb yonu,***
***Ay ürəyi yara Səməd.***

***Gecə-gündüz yarı andın,***
***Kərəm kimi oda yandın.***
***Bivəfaya sən inandın,***
***Yox dərdinə çarə, Səməd.***

***Fələk verməz nüsrətini,***
***İtirmisən hörmətini.***
***Çək illərlə həsrətini,***
***Sən, ey bəxti qara Səməd.***

Bakıya qayıdanda Qazax təəssüratımı - "Vurğun keçib bu yerlərdən" silsiləmin birini də yazıb "Ulduz" jurnalına təqdim etdim. Dostum Səyavuş Sərxanlı o vaxtlar nəsr şöbəsinin müdiri idi. Yazını oxuyub bəyəndi. Vərəqləyib şeir olan səhifəni tapdı. Çox incə bir eyhamla:

- Sarı Şəmistan, (o mənə zarafatla belə müraciət edirdi) - dedi, nəsə bu şeirdən gözüm su içmir, düzü heç Səməd Vurğunun şeirinə oxşamır. Zəif deməyə də dilim gəlmir. Mən toxunmayıb Əhməd müəllimə (Əhməd Cəmil) təqdim edirəm. Görək ağsaqqal nə deyəcək.

Aradan yarım saat keçər-keçməz Əhməd müəllim əvvəl Səyavuşu, sonra məni də yanına çağırdı. Özünə məxsus ağır, ahəstə səslə:

- Gəl, burda yaxında əyləş, oğul - dedi, dərindən nəfəs alıb - oxudum, yazını, çox sağ ol, silsilənin bu hissəsini də oxunaqlı yazmısan, maraqlı faktların var. Səməd Vurğunun ulu babaları haqqında olan əhvalatlar xüsusilə xoşuma gəldi. - Sonra az qala pıçıltı ilə - bu şeir məni açmadı, heç elə bil Səmədin deyil, - deyib duruxdu, fikrə getdi.

Mən cəsarətlənib:

- Əhməd müəllim, - dedim, - istəyirsiniz çıxardın. O boyda Səməd Vurğunun bir zəif şeirə məncə çox da ehtiyacı olmaz...

- Yox, niyə çıxardaq, tapıntıdır, - dedi. - Sən gəl, bir zəhmət çək, bu şe'ri apar Osman Sarıvəlliyə göstər. O, bu işin xiridarıdır. Hər halda Osman baxsa yaxşıdır. Onlar seminariyada birgə oxuyublar. Şeir də o vaxtlar yazılıb.

Yazını götürüb Osman müəllimgilə getdim. Nizami küçəsi ilə gedəndə hədiyyələr mağazasının yanında təsadüfən Osman əmi ilə üzbəüz gəldim. Salamlaşdıq.

- Hara belə a bala, başı alovlu?
- Sizə gedirdim, Osman əmi.
- Xeyir ola?
- Qazağa getmişdim. Səməd Vurğun haqqında bir yazı hazırlamışam. Mirpaşa Nəsibov da dərc olunmamış bir şe'rini verib. Mən də onu yazıya daxil eləyib, “Ulduz”a təqdim eləmişəm. Əhməd müəllim dedi ki, balaca şübhəm var, şeirin Səməd Vurğunun olmasına, qoy ona Osman da baxsın...
- Hanı şeir, hardadır?
- Budu, məndə.
- Ver bura, gedək ittifaqa, orda baxaram.

Osman müəllim şe'ri birinci dəfə oxuyub:

- Əlbəttə, Səmədindi - dedi. - Amma xeyli başını qaldırmayıb şe'ri iki-üç dəfə yenidən oxudu, xırda bir düzəliş də elədi. - Ver, - dedi - getsin, cavanlıq vaxtı yazıb. Bir az da ola bilər Mirpaşa yaddaşında itirib. Onun özünün də bala-bala yazmağı var, yəqin ki, unutduğu misranı özündən toqquşdurub. Mirpaşanın cavanlıqdan özündən toxumağı, gopu var...
- Bəs qol-zad çəkmək lazım deyil? - soruşdum.
- Nə qol əyə, buxalter kağızı-zaddımı? Bu saat - deyib, Osman əmi dəstəyi götürdü. Xoş-beşdən sonra: - Əhməd, şe'rə baxdım, ver getsin, düzdü, bir az təhrifləri var, amma nə bilim, deyəsən Səmədindi. Zalım oğlunda səliqə varıydımı ki...

Şe'r yazı ilə birgə 1976-cı ildə “Ulduz” jurnalının beşinci nömrəsində dərc olundu.

Jurnal çıxan kimi həmin nömrəni götürüb sevinclə Mirqasım əmigilə getdim. Lütviyyə xala da, Mirqasım əmi də məni mehribanlıqla qarşıladılar. Lütviyyə xala:

- A Mirqasım, sonra oxuyarsan, ver bir mən baxım, deyəsən Səmədin şəkli var, orda gözümə dəydi...

Lütviyyə xala jurnalı alıb vərəqlədi. Səməd Vurğunun şəklini dönə-dönə öpüb:

- Can, can a Səməd, hayıf olan Səməd - deyib kövrəldi.

Çay süfrəsi arxasında Mirqasım əmi yazını oxuyurdu. Lütviyyə xala ilə mən də Qazaxdan, qohum və tanışlardan danışırdıq. O, Mehdi Hüseynin, Səməd Vurğunun, Osman Sarıvəllinin cavanlığından danışa-danışa “yadındadımı a Mirqasım, Səməd bizim Nazimin toyunda tamada olanda”...

Birdən Mirqasım əmi hirslə:

- Bu nədi, - dedi, - gör neyləmisən, mən elə bilirdim ki, Mirpaşa səni gopları ilə əfsunlayacaq. Bu şe'r Səmədin döyül, bu şe'r bizim seminariya müəllimimiz

Mirzə Mehdi Vəlizadənindir. - Mirqasım əmi yana-yana hirslə: - Gör bir neyləmisən, bütün zəhmətini də batırmısan...

- Mirqasım əmi, düzdü, şe'rin Səməd Vurğunun olmamasına Əhməd müəllim də şübhələndi. Apardım Osman müəllim də baxdı, təsdiq elədi ki...

- Top aparsın Osmanın başını, top. Həlvət qocalıb ağlı azalıb, - deyib telefona tərəf getdi. Zəng eləyib: - Əyə, Osman, - dedi, Nazarlıdan bir yaxşı müəllimimiz vardı, adı nəydi onun? Mirzə Mehdi Vəlizadə! Ay sağ ol, bə, həncəri sən onun şe'rinin Səmədin adına olmağını təsdiqləyibsən? Bə, yadında döyülmü onun gözəl, lirik və satirik şe'rləri... "Tələbə əfkarı" adlı divar qəzetimizdə onun şe'rlərini oxumağını nə tez unutdun? Sən də, mən də bütün seminaristlər əzbər bilmirdik. Əyə, Mirpaşa Şəmistanı uşaq görüb aldadıb bə, sənə nə olmuşdu? Bilmirəm, neyləyirsiniz eləyin, sən də, Əhməd də, Şəmistan da oxuculardan üzr istəyib, günahınızı yuyun, yoxsa...

Lütviyyə xala hirsli Mirqasım əmiyə təskinlik verib:

- Dünyamı dağılıb, yıxılmışın oğlu, mən də deyirəm nə olub? Əsəbiləşib özünə qəsd eləmə, havayıca yerə...

Mirqasım əmi hirslə:

- Sən belə şeyi bilməzsən, dağılıb, əlbəttə, dağılıb. İki dağ boyda adamın ruhunu birdən təhqir eləyiblər. Alının papağını Vəlinin başına qoyublar...

Lütviyyə xala ərklə danlaya-danlaya kişini ram elədi. Bir-iki stəkan çay içib toxdayan Mirqasım əmi:

- Mirzə Mehdi Vəlizadə - dedi, - bizim tələbə dram dərnəyimizin rəhbəri və ədəbiyyat müəllimimiz idi. Tarix-coğrafiyanı Əli əfəndi ***(Əli Molla Vəli oğlu Hüseynov. Yazıçı Mehdi Hüseynin atası - Ş.N.) deyirdi. Fars dilini direktorumuz Firidun bəy Köçərlinin özü keçirdi***. İbrahim əfəndi Qayıbzadə ilahiyyat, Alay bəy Şıxlinski riyaziyyat, Əli Mustafayev nəğmə, Əhməd Gülməmmədov rus dili, Yusif Əfəndiyev ədəbiyyat müəllimimiz idi.

Təsərrüfat müdirimiz ***Yusif ağa Vəkilovun (Səməd Vurğunun atası - Ş.N.)*** vəfatından sonra İlyas Kazımov oldu. Çaylı kəndindən olan bu cavan oğlan yenicə yaranan komsomoldan gəlmişdi. Kasıb İlyasın var-yox bircə inəyi vardı. Bir gün 1922-ci ildə Çaylı kəndindən xəbər gəldi ki, inəyi canavar yeyib. Bərk dilxor olan İlyas kəndə getdi. Axşamüstü çox pərişan halda qayıtdı. Qəm-qüssə içində gəzən İlyasa müəllimimiz Mirzə Mehdi Vəlizadə nə qədər təsəlli verdisə, qaşıqabağı açılmadı ki, açılmadı... Onda Mirzə müəllim İlyasa bir şeir yazdı. Şeirin bircə bəndi yadımda qalıb:

***Zavxozun sərdar inəyi,***
***Yeyibdi murdar, inəyi,***
***Deyib: yenə var inəyi,***
***Yeyib canavar inəyi...***

Səməd Vəkilov isə ona belə bir cavab yazmışdı:

***Gəlin qeydinə qalaq,***
***Zavxoza inək alaq!***
***İlyas kəndə haylasın,***
***Südün sağıb paylasın.***

Həmin ili (1976-da) "Azərbaycan" jurnalının beş və altıncı nömrələrində Səməd Vurğunun qardaşı Mehdixan Vəkilovun "Mənim qardaşım" xatirə-povesti dərc olundu. Jurnalın beşinci nömrəsində Mehdixan müəllimin bu cümlələrini oxuyanda mənə tam aydın oldu ki, aldanmışam. Mehdixan müəllim yazırdı:

"Səməd Vurğun haqqında xatirə yazanlar, məsələn, onun məktəb yoldaşı Mirpaşa Nəsibov, bə'zən Səmədi az qala anadangəlmə siyasi xadim kimi ifrat dərəcədə bəzəyirdi. Mirpaşa on beş-on altı yaşlı Səmədin dili ilə elə kəskin siyasi mülahizələr söyləyir ki, belə mühakimələr hətta müasir savadlı gənclərin siyasi bilik səviyyəsini üstələyir."

Professor Mehdixan Vəkilov Mirpaşa Nəsibovun şair haqqında 1966-cı ildə "Ədəbiyyat və incəsənət", "Qalibiyyət bayrağı" qəzetlərindəki yazılarını oxuyandan sonra bu qənaətə gəlmişdi.

İnsafla desək, rəhmətlik Mirpaşa müəllimdə Səməd Vurğunun şəxsiyyətinə, poeziyasına elə bir güclü ilahi məhəbbət vardı ki, o, həyatda yaxşı nə varsa onu Səməd Vurğuna şamil edərdi...

Bundan sonra Səməd Vurğun haqqında nə yazırdımsa, Mirqasım əmiyə oxuyur, onunla məsləhətləşir, sonra çapa verirdim. Şair haqqında yazdığım beş kitabın hər sətrində, hər fəslində Mirqasım əminin əməyi var. Onun güclü hafizəsi, maraqlı söhbətləri yazılarımın daha dolğun, daha məzmunlu çıxmasına kömək edirdi. Saxta bir deyimi, uydurma əhvalatı Mirqasım əminin "senzura"sından keçirmək qeyri-mümkün idi. Bu ağıllı və xeyirxah insanın mənə yaxşılıqlarını deməklə, saymaqla qurtaran deyil. Bu gün də Səməd Vurğun haqqında nəsə yazanda, istər-istəməz vaxtilə mərhum Mirqasım əmidən götürdüyüm qeydlərə baxmağa ehtiyac duyuram, onunla "məsləhətləşir" və "dəqiqləşdirirəm". Rəhmətlik o qədər saf, doğru danışan idi ki, artıq-əskik, şişirtməli söhbət eləyən adam görəndə "ölüm də yoxdu ki, bu bədbəxti bizdən ala, canımız qurtara" - deyərdi.

O vaxtdan illər keçib. Mənə bu səhvi elətdirən Mirpaşa Nəsibov, səhvimi tutan Mirqasım Əfəndiyev də dünyasını dəyişib. Allah onlara rəhmət eləsin. Səhv isə ağır yük olub mənim boynumda qaldı. Axı, şe'ri mən dərc elətdirmişəm. Və gələcək tədqiqatçılar da bu səhvə görə şübhəsiz ki, məni ittiham edəcəklər. Qoy, oxucu məni düzgün başa düşsün: məqsədim Mirpaşa müəllimin pak ruhuna xə-

ləl gətirmək deyil. Yalnız vicdanımın səsi məni məcbur elədi ki, səhvimi e'tiraf edim. Bəs nəyə görə o vaxt - 1976-cı ildə "Ulduz" jurnalının səhifələrinin birində üzr ictəyib səhvimi boynuma almadım? Buna mərhum Əhməd Cəmil razı olmadı.

- Əvvəla bu səhvi yuxarılara (Mərkəzi Komitəni nəzərdə tuturdu - Ş.N.) başa salmaq mümkün olmayacaq. İkincisi də, Səməd Vurğunu və Şəmistanı istəməyən nadanların əlinə tənqid üçün girəvə düşəcək. Hələlik qalsın... - deyib Mirqasım əmini razı saldı.

***1.09.92***

## BİR GÖRÜŞDƏN XATİRƏ

***Səməd Vəkilovun və Osman Sarıvəlinin Seminariya illəri Firudin bəy Köçərli Gürcüstan menşevik hökümətindən aldığı Qori Seminariyasının Azərbaycan şöbəsinə aid olan bütün əmlakı, mebeli , kitabxana və sair müxəllifatı Poylu vağzalında vaqondan boşaltdırmışdı. Qazax ziyalılarının təşəbbüsü və köməyi sayəsində seminariyanın bütün əmlakı öküz-kəl arabalarında Qazaxa daşındı.Məşədi İbrahim Mirabı mülkü boşaldılıb seminariya üçün verildi. Halbuki danışığa görə vaqon Yevlaxda boşaldılıb, Ağdama daşınmalı və seminariya da burada açılmalı idi***

***Seyfulla Şamilov (1902-1974 ),***
***Qazax Seminariyasının məzunu,yazıçı***

1976-cı ildə böyük şairimiz Səməd Vurğunun yetmiş illik yubileyi hər yerdə, hər obada təntənə ilə keçirdi. Məktəblərdə, kitabxanalarda tez-tez maraqlı görüşlər təşkil edilirdi. Kitabxanalardan biri "Səməd Vurğun və gənclik" adlı sərgi açmışdı. Məni də vurğunşünas kimi oraya dəvət etmişdilər.

Şairin gənclik dostları haqqında bildiyim faktları, əhvalatları danışdım. Danışdıqca fikrim-zikrim Səməd Vurğunun iki misrasının çevrəsində cövlan edirdi:

***Gəncliyim bir oddur, yandıqca sönməz,***
***İnad bir insanam, sözümdən dönməz...***

Görüş iştirakçılarının nə danışdığını daha eşidə bilmirdim. Xəyalən "Gəncliyim bir oddur"... adlı verilişin səhifələrini vərəqləyirdim. Yubiley münasibətilə yazacağım ssenarinin mövzusunu və adını elə bu görüşdən tapmışdım.

Redaksiyaya qayıtdım. Baş redaktor Yusif Kərimov və şöbə müdiri Həqiqət xanımla kimlərin çıxışını vermək barədə birgə plan tutduq. Axtarışlarım zamanı şairin 1933-cü ildə yazdığı "Muradxan" mənzum oçerkinin qəhrəmanı Muradxan Musa oğlu Hacıyevi tapıb görüşdüm. Çox maraqlı, nurani bir ağsaqqal idi. Onu dinləyəndə, hazırcavablığının şahidi olanda fikirləşirdim ki, Səməd Vurğun mənzum - poemasına Muradxan kişini qəhrəman seçməkdə heç də səhv etməyib. Sumqayıta gedib onun gənclik dostları barədə söhbətini lentə yazdıq.

Daha sonra maarifçi Mirqasım Əfəndiyevin, professor Yusif Yusifovun və şairin ən sadiq gənclik dostlarından biri - əziz şairimiz Osman Sarıvəllinin çıxışını verməyi nəzərdə tutduq. Elə həmin anda zəng edib Osman müəllimə fikrimi bildirdim. Daha doğrusu, bu mövzuda bizim verilişdə çıxış eləməsini xahiş etdim. Telefonda ani olaraq susan Osman müəllim:

- Ay yoldaş, adınız necə oldu? - deyə soruşdu.
- Şəmistan - dedim.
- Bəs familyan?
- Nəzirli - deyə, cavab verdim.
- Vaxtınız varsa, durun gəlin bizə, oturaq bir əməlli-başlı söhbət edək. Görək hardan başlayıb, harda qurtaracağıq. Belə sanballı mövzunu telefonda həll etmək olmaz - dedi.

Həmin günü Osman muəllimin görüşünə getdim. O illərdə televiziyada kino-lentin qıtlığı ərşə qalxmışdı. Moskvanın şovinist rəhbərləri bizim respub-



***Xalq şairi Osman Sarıvəlli və Şəmistan Nəzirli, 1976-cı il***

likaya kinolenti cirə ilə verirdi. Ondan da o vaxtın ən mühüm partiya və sovet tədbirlərində istifadə olunurdu. Hər verilişə çəkiliş üçün lent verilmədiyindən əksəriyyətində foto-şəkildən istifadə edirdik. Bu da ən yaxşı ssenarini belə keyfiyyətcə yarıbayarı aşağı salırdı. Kinolent veriləcəyinə ümidim yox idi. Fotoqraf dostum Seyfəddin Məmmədvəliyevdən Osman müəllimin görüşünə birgə getməyi xahiş elədim.

Osman müəllim hər ikimizlə ehtiramla görüşüb "xoş gəldin" elədi. Yazı masasının yanında ayaq üstə dayanıb ikimizə də diqtətlə baxa-baxa:

- İkiniz də bir-birinizə oxşayırsınız; əsl sovet uşaqlarısınız, elə bil nə çörək yemisiniz, nə də su içmisiniz. Əyə, nə yaman arıqsınız - deyib bizi zarafatla qarşıladı. Asta, ağır addımlarla yaxınlaşıb əlini ərklə mənim çiynimə qoydu- İncimədiniz ki?..

- Yox - dedim, niyə incəyək ki ? Olanı deyirsiniz.

- Yaxşı, mənnən telefonda danışan hansınız idi?

- Mən idim, Osman müəllim.

- Demək Şəmistan Nəzirli də sənsən?

- Bəli, mənəm.

- Lap yaxşı, lap yaxşı, - diqqətlə, fikirli-fikirli mənə başdan- ayağa kimi baxdı- De görüm, sən bizim hansı Şıxlıdansan?

- Mənim babalarım Şıxlıdandı, vaxtilə köçüb Körpülüdə məskən salıblar. Şıxlıdan bir az yuxarıda...

Osman müəllim bığaltı gülümsünüb, sol çiyni üstə döndü.

- Ağız, a Səyalı, bəri çıx, qohumun gəlib - deyə həyat yoldaşını çağırdı. Sol tərəfdəki qapının pərdəsi titrəyib aralandı. Səyalı xala görünən kimi:

- Durma, mərcimi gətir, mən uddum. Buyur, bu da sənin Körpülü qohumun - deyib, məni göstərdi.

Səyalı xala canıyananlıqla:

- Boy-dedi, - onda bu, Süleyman əminin nəvəsidir.

- Bəli, bəli Süleyman katdanın... Sənə demədimmi bu, sənin Nəzirli qohumlarından olacaq. - Üzünü bizə tutub: - əyləşin, ay uşaqlar, siz gələnə kimi Səyalı xalanızla əməlli-başlı mübahisəmiz oldu. - Zarafatla: - Allaha şükür ki, heç olmasa, bir dəfə Nəzirli tayfasının hesabına mən də muştuluq yeyəcəm. Sən də, a Səyalı, gör orda nəyin var, təzə qohumuyun hesabına bizə bir görüm-baxım elə...

Səyalı xala:

- Eləyərəm, niyə eləmirəm - dedi. Süleyman əmimin nəvəsi də xoş gəlib, onun dostu da...

Osman müəllim söhbətinə ilk gəncliyindən, Səməd Vurğunla, Möhsüm Poladovla, Komissar Şəmistan Əyyubovla (Səməd Vurğunun “Komsomol

poeması"nın qəhrəmanı Sarı Şəmistan – Ş.N), Allahverdi Namazovla, Mirqasım Əfəndiyevlə, İbrahim Mirzəyevlə tanışlığından başladı. Seminariyadakı təhsil illərindən maraqlı əhvalatlar danışdıqca mən də qısa qeydlər götürdüm. Dostum Seyfəddin isə şair Osman Sarıvəllinin bolluca foto-şəkillərini çəkdi. Bu nadir foto-şəkillər də 1976-cı ilin sentyabrından bizə yadigar qaldı. Verilişin hazırlanmasından bir həftə əvvəl rəhbərliyə məlumat verdim ki, burada Osman Sarıvəlli də çıxış eləməyə söz verib. Səməd Vurğuna və Osman müəllimə görə sədr Elşad Quliyev bizim verilişə səxavətlə limitdən kinolent verdi. Veriliş efirdə səslənəndən sonra həmin süjetin kinolentini götürdüm. İndi də özümdə həmin verilişi yadigar saxlayıram.

Osman əmi ötən günləri yada saldıqca başını bulayır, yanıqlı-yanıqlı gənclik dostlarından danışırdı. İnqilab illərində, otuz yeddinin acı tufanlarında qətlə yetirilən, günahsız həbs olunanlardan söz düşəndə o, Dağkəsəmənli igid Sarı Şəmistanın vaxtsız ölümünə heyfsləndi. Asta, ağır səslə Səməd Vurğunun bir bənd şerini əzbər dedi:

***Biz az döyüşmədik qoca dünyada,***
***Qorxub çəkinmədik isti qanlardan.***
***Atımız ölüncə getdik piyada,***
***Çıxdıq o qarışıq imtahanlardan.***

Sonralar o ağır illəri xatırlayan professor Mehdixan Vəkilov yazırdı: "Səməd Vurğunla Osman Sarıvəllinin həyat, mübarizə və yaradıcılıq yolları bu illərdən (1930-cu illər) başlayaraq birləşir. Əlbəttə, mən, seminariya illərini demirəm.Onların arasında yaranan səmimiyyət, fədakarlıq və mənəvi yaxınlıq ömürləri boyu davam etmişdir. Bu iki ədəbi simanın dostluğu, qədim yunan əsatirində söylənən, Homer nəğmələrində oxunan əfsanəvi dostluğu xatırladır"

-Osman əmi ,keçmiş müsahibələrimizin birində demisiniz ki, Səməd Vurğun haqqında hələ çox yazılacaq.Səməd Vurğöunu öyrənən araşdırıcılar bu günə qədər seminarist Səməd Vəkilovu tədqiq edib oxuculara çatdırmayıblar.Olarmı sizinlə bu günkü, söhbətimizin şah damarı seminariya illəri olsun?

-Olar,niyə olmur . Onda mən istəyirəm , dədə-babalarımız demiş söhbətimizə dib –dəhnədən başlayım.Mənim də ,Səmədin də uşaqlığımız Kür qırağında keçib.Bir gün bir dəstə uşaq Kür çayında çimirdik.Bir də gördük budu üç atlı üz tutub sürətlə bizə tərəf gəlir.Elə gəlir deyirsən bəs qovurlar. Fikirləşdik ki, aya , görəsən bu nə qovhaqovdu,kəndə-kəsəyə qaçaq -quldurmu hücüm edib?

Ha baxdıq tanıya bilmədik atlıları.Yetirən kimi də sözləri bu oldu ki, gəlmişik sizi aparaq Qazaxa , seminariyada oxuyub savadlanasınız.

Çöldə, bayırda qoyun-quzu otarsaq da seminariya sözünü eşitmişdik. O vaxtlardan da xeyli qabaq bizim Şıxlıda 1885-ci ildə ilk məktəb açan İsa bəy Abakarovun məktəbində oxumuşdum.İsa bəy Qazax və onun kəndlərindən hazırlaşdırdığı yetim uşaqları öz xərci ilə Qori şəhərinə aparıb seminariyaya qəbul elətdirərdi. Yəqin ki,eşitmisən, bilirsən, məşhur yazıçı, "Can yanğısı" romanının müəllifi Abdulla bəy Divanbəy-oğlunu da İsabəy aparıb oxutdurub. Qocalarımız danışırdı ki, İsa bəyin apardığı uşağı seminariyaya imtahansız qəbul edərdilər.

Nəisə, uzun sözün qısası, bu atllılar bizi götürüb gətirdilər kəndə, ata-analarımızdan rusxət alıb, doldurdular arabalara, oradan da bir başa Qazaxa – seminariyaya gətirdilər. Payızın ilk günləri idi. Əynimizdə yamaqlı boz köynək,ayaqlarımızda kotğu çarığı, başımızda da quzu dərisindən papaq. Əvvəlcə bizi tibbi müayinədən keçirdilər. Sonra hamama aparıb, yaxşıca çimizdirdilər. Çıxanda hamımıza məktəbli üçün xüsusi tikilmiş göy mahuddan təmiz paltar verdilər. Kirli və yoxsul paltarlardan çıxan uşaqlar bir-birini az qala tanımırdılar.

Seminariya binasında Əli əfəndi Hüseynov bizə təmiz,işiqlı otaqları göstərdi.Zəngin kitabxana və labaratoriyalarla tanış elədi. Bu zənginliyi bircə adamın –Firudun bəy Köçərlinin yaratdığını xüsusi qeyd elədi. Sonralar bildik ki,bunların hamsını Qori şəhərindən Firudun bəy özü gətirib. Zəngin,çox zəngin kitabxanamız vardı. Otuz yeddinci ildə Qazaxın NKVD-si Xoren Qriqoryan keçmişin qalığı - deyib hamsını yandırdı.

Tətil vaxtı bu geyimdə ,bu səliqədə kəndə qayıdanda az qala ata-anamız da bizi tanımırdılar. Onların fərəhi , sevinci yerə-göyə sığmırdı.

Seminariyada tələbələr Firudun bəyin rəhbərliyi ilə çox maraqlı "Tələbə əfkarı" divar qəzəti buraxırdılar.Hələ balacalıqda mənim saza, sözə həvəsim vardı.Hərdən bir özümdən söz qoşmağım da olurdu.

Osmab əmi, Seminariyanın direktoru Firudun bəy Köçərlini necə xatırlayırsınız ?

-Mən aşağı sinifdə oxuduğuma görə Firudun bəy hələ bizə dərs demirdi.Mehdi Hüseynovun atası Əli əfəndi ədəbiyyat, Alay bəy Şıxlinski riyaziyyat, Borçalıdan Mahmud Bayramov təbiət müəllimimiz idi. Elmi ilahiyyat müəllimimiz İbrahim Əfəndi Qayıbovu bu gün də hörmətlə yad edirəm .Biz tələbələr ona " İbrahim əfəndi " –deyə müraciət edərdik.

Firudun bəy bizə yuxarı siniflərdə dərs deyəcəkdi.Bizim sinif o günü səbirsizliklə gözləyirdi.Təəssüf ki,qismət olmadı.O ,1920-ci ildə həbs olunub güllələndi.Firudun bəy mənə dərs deməsə də dövrün görkəmli şəxsiyyəti, çox savadlı adamı kimi ona dərin hörmət və məhəbbət bəsləyirdim.Görkəmli, yerişi ,duruşu indi də gözlərimin qabağındadır. Çuxalı, papaqlı, arxalıqlı gördüyüm bu adam bütün ziyalıların ümid yeri, arxası, dayağı idi.Onun açdığı Qazax

seminariyası bizə təkcə bilik yox, məlumat yox, əsl həyat və tükənməz yaradıcılıq eşqi verdi.Biz şagirdləri böyük arzulara səfərbər elədi.

-Osman əmi, Səməd Vurğunla necə tanış oldunuz.Seminariyaya gəlməmişdən qabaq onunla tanışlığınız vardımı?

-Yox, tanımırdım.Tanışlığımız divar qəzeti vasitəsilə oldu. O vaxt Səməd Vəkilovun "Tələbə əfkarı" qəzetində çixan şeirlərini, kiçik ədəbi parçalarını maraqla oxuyurdum.

Kənddən gələn biz uşaqlar yaman utancaq idik.Bir simsar tapmırdım ki, soruşam, bu Səməd Vəkilov kimdi. Yazıb-oxumağı əməlli-başlı öyrənmişdim.Artıq ikinci sinifə keçmişdim. Başıma, beynimə nə gəlirdisə bir dəftərim vardı ora köşürürdüm. Onu da deyim ki, seminariyada dəftər-qələmi bizə pulsuz verirdilər.Bir gün divar qəzetində mənim də yazım çıxmışdı.Tənəffüsdə uşaqlar oxuyurdular.Mən də orada idim.Bu vaxt bizdən iki sinif yuxarıda oxuyan qıvrım saçlı bir oğlan da gəldi.Mən onu üzdən tanısam da, adını bilmirdim.Mənim yazımı oxuyub: -Ə, bu Qurbanzadə kimdi?-deyə soruşdu. Tələbələr məni göstərdilər,dedilər ki, Qurbanzadə Osman budu, a Səməd. Düzü, mən də ona çox diqqətlə baxdım.Qarşımda qarabuğdayı, xoş sifətli, qaynar gözlü bir oğlan dayanmışdı.Boyda mənim bərabərimdə olardı, amma hərəkətimdən, danışığından da hiss olunurdu ki, heç özünə görəsi deyil. "Əyə,sən də yazırsan?" – yekəxana sual verməyi toxundu mənə. Dedim , nə bilim, az-az uydururam dana , hərdən. Dedi: Əyə, pis döyül, filanı yaxşı deyibsən, amma, yaxçı olardı ki, filanı bax belə deyərdin.Bundan sonra Səmədlə dostlaşdıq. Bu dostluğumuz, qardaşlığımız ömrünün son gününə, son saatına qədər davam etdi.

Osman əmi fikrə getmişdi. Xeyli sükütla dayandı. Hiss olunurdu ki, ötən günlərm–daha doğrusu Səmədli və seminariyalı günlər onu bərk tərpətmişdi. Handan –hana:

- A Şəmistan, a bala, -dedi- sən Səmədin haqqında çox çalışırsan ,bir neçə kitab da yazdın. Çox sağ ol. Getdin Rusyetdə kimlərlə görüşmədin.Mixail Şoloxov, Boris Polevoy,Nikolay Tixonov, Konstantin Simonov. . . .

Seminariyada oxuyanda Səmədin 1923-cü ildə çəkilmiş bir foto şəkli var.Yaxasında da ərəb əlifbası ilə yazılmış bir bənd şeiri.Oxumusanmı ,o şeiri yadında varmı?

-Yox Osman əmi, yadımda deyil.

-İndiyə kimi heç kimi diqqətini cəlb etməyən bir bənd şeirdə Səməd yazıb.:

***Bilsin bütün aləm ,***
***Ki,mən bir pərişan haləm.***
***Düşün ki, dilsizəm,laləm,***
***Kəsibsən dilimi dilbəra***

İnsanın gənçliyində dəli-dolu vaxtı olur. Səməd bu şeiri ilk sevgisi Dürrə Mustafayevaya yazıb.Səməd ilk gəncliyində dərin iztirablar,həyəcanlar keçirirdi.Kədərli motivlər o zaman qıvrımsaçlı, qarayanız gənc Səmədin poeziyasında daha güclü idi.Elə mən özüm də Səyalı xalana vurulanda dünya gözümdə heç nə idi,xəyalım, huşum daima buludlarla əlləşirdi.

-Osman əmi, Səməd Vəkilovun onda şair kimi təxəllüsü vardımı?

-Vardı,gah Səməd Vəkil,gah Şahin, gah da Səməd Məsrur ( sevincli ) təxəllüsü ilə Tiflisdəki, " Yeni fikir " və " Dan yıldızı"qəzetlərində çıxış edərdi.1922-ci ildə Dürrə Bakıya oxumağa Darülmüəllimata keçəndən sonra Səmədin təxəllüsü " Vurğun " oldu .

Aya,yaxşı yadıma saldın, a bala, o vaxt seminariyada oxuyanda mənim də təxəllüsüm vardı: "Qəyyur", mənası bilirsən nə idi? El dərdi çəkən. Seminariyanın divar qəzetində təbiət təsvirləri haqqında və aşiqanə qoşmalarımla çıxış edərdim.O vaxtlar Vaqifi,Vidadini,Zakiri məşhur türk şairlərindən Tofiq Fikrəti,Əbdülhəq Hamidi daha çox sevər, şeirlərini hər gün əzbər oxumaqdan xüsusi zövq alardım. Vaqifin ,Vidadinin ruhu, şeir dili iliyimə,qanıma hopur,məni yaradıcılığa ruhlandırırdı. Birinci ,ikinci sinifdə oxuyanda mənim riyazi elmlərə həvəsim daha çox idi. Riyazi terminləri şeirə gətirməkdən ləzzət alırdım.Bu xususiyyət Səməddə də vardı.Çünki, riyaziyyat müəllimimiz Alay bəy Şıxlinski dərsi poetik pafosda keçirdi.Ona görə çoxumuz Alay bəyə oxşamağa çalışırdıq.

-Osman müəllim, kənddən ,ata-anadan ayrılmış on iki –on üç yaşlı uşaqlar kimi yəqin ki,ev, ailə üçün darıxan vaxtınız da olub?

-Açığını deyim ,darıxmağa vaxt yox idi.Seminariya pansion tipli məktəb idi.Yəni qapalı.Biz səhər tezdən durardıq,əl-üzümüzü yuyub məktəbin həyətində gəzinə-gəzinə dərslərimizi hazırlardıq.Seminariyada çox ciddi qayda- qanun vardı.Yalnız cümə günü həftədə bir dəfə şəhərdə gəzməyə,ya da evə getməyə icazə verilirdi.Dərsə davamiyyəti pis olan seminarist bu gəzintidən ,bu hüquqdan məhrum olunurdu.Seminariyada şagirdlərdən ibarət gözəl teatr və musiqi kollektivi yaranmışdı.Yaxın kəndlərə -Qarapapağa ,Xanlıqlara,Daş Salahlıya gedib teatr verərdik.Səməd skripkada ,Əsgər Xasməmmədov klarnetdə ,mən də sazda çalıb oxuyardım.Dərnəkələrdə ,xorda iştirak edərdim.Bütün fənlər üzrə çox güclü müəllimlərimiz var idi.Mirzə Mehdi Vəlizadənin ,Əhməd ağa Mustafayevin,Alay bəy Şıxlinskinin,İbrahim əfəndi Qayıbovun ,Əli əfəndi Hüseynovun ,Yusif Qasımovun fədəkarlığı ilə Qazaxda misilsiz təhsil ocağı fəaliyyət göstərirdi.Açıq fikirli, vətənpərvər müəllimlərimiz tez tez yazıçı və şairlərlə görüşlər keçirir,ədəbi söhbətlər ,müsamirələr təşkil edirdilər.

1948-ci ildə ictimaiyyət Qazax seminariyasının otuz illik yubileyini keçirirdi.Yubileyə keçmiş şagird və müəllimlərlə yanaşı Şəkidən Firudun bəy Köçərlinin həyat yoldaşı Badisəba xanım da dəvət olunmuşdu.Həmin illərdə (1937-ci ildə) totalitar sovet rejimi seminariyanın adını dəyişib S.M.Kirov adına Pedoqoji Məktəb eləmişdi.Badisəba xanım çıxışında kədər hissi ilə bildirdi ki, gərək Azərbaycanda nəyi dəyişsəniz də seminariyanınadını dəyişməyəydiniz.Çünki, Qazax seminariyası Azərbaycanda açılan ilk müəllimlər seminariyası idi.Mənə ağır təsir edən bir də seminariyanın kitabxanasının məhv edilməsidir.Zəngin bilik xəzinəsinin necə böyük bir çətinliklə toplanmasının mən şahidiyəm.Firudun bəy kitabların üstündə övlad məhəbbəti ilə əsim-əsim əsirdi.Orda xalqımızın tarixinə və ədəbiyyatına aid hansı kitblar yox idi.Hamısı da qədimi.Onlardan indi əsər -əlamət qalmayıb,deyirəm ürəyim ağrıyır.

Xalq şairi Osman Sarıvəlli ədəbi aləmdə mühüm və danılmaz rolu olan Qazax seminariyasının yubileyi münasibəti ilə göndərdiyi təbrik məktubunda yazmışdır: ”Qazax Pedoqoji məktəbi bir çox ziyalının, eləcə də mənim tərbiyə beşiyim olmuşdur.Əynimdən döşləri çarpazlı boz arxalığı ,ayaqlarımdan çırıq çarıqları,başımdan yunlu papağı ilk dəfə bu məktəbdə çıxarmışam.Yeni,təmiz və səliqəli tələbə libasını orada geymişəm.Əlifbanı ilk dəfə orda öyrənmişəm... Sağlam tələbə mühitini,geniş ictimai tələbə yığıncaqlarını, komsomol özəklərini ilk dəfə orda görmüşəm.Elmlərin əsasını o məktəbdə öyrənmiş,ədəbiyyatı, incəsənəti orada sevməyə başlamış,onlarca odlu ,aşiqanə gənclik şeirlərimi ilk dəfə orada yazmışam.”

- Osman müəllim, - dedim - Səməd Vurğunun sonrakı gənclik illərindən hansı epizodu tez-tez xatırlayırsınız?

- Eh – dedi,- ay oğul, birdimi, beşdimi... 1929-cu ildə Səməd Vurğun, Əkrəm Cəfər, Süleyman Rüstəm,Əbdülbağı Fevzi bir də mən Moskvaya Maksim Qorki adına "Ali Ədəbiyyat Kursları"nda oxumağa getdik. Bizi - Azərbaycan proletar yazıçılarını çox böyük hörmət və izzətlə qəbul elədilər. Yataqxanada yer paylananda Səmədi itirdim. Axşam el yatanda gəlib çıxdı. Komendantdan yerzad ala bilmədi. "Osman, bu axşam baş-ayaq yataq, sabaha özümə yer alacam". Bu minvalla ay yarıma yaxın mənimlə baş-ayaq yatan Səməd özünə yer almadı. Axırda da nə desə yaxşıdır: "Əyə, Osman, vallah, sənə elə öyrəşmişəm, heç ayrılmaq istəmirəm".

- Sən atanın goru - dedim, məndən əl çək, səhərə qədər bir böyrü üstə yatmaqdan qabırğalarım əzilib.

Gördüm Səməd öz kefindədi, mənim isti, yumşaq, halalca çarpayımdan getmək istəmir. Onda məcbur olub özümə gün ağladım, köhnə bir çarpayı tapıb, sınıq-salxaq yerini təmir elədim. Səmədin "çarpayısı" ilə yanaşı qoydum.

-Moskvadan danışdıq, oğul, yadıma bir əhvalat da düşdü. Onu da deyim ki, Qazax seminariyasında da, Moskvada da mən Səmədlə birgə oxumuşam.

Moskvada oxuyanda ikimiz də İvan Turgenevin yaradıcılığından kurs işi yazıb, imtahan verməli idik. Mən günümü kitabxanalarda keçirir və Turgenevin əsərlərini oxuyurdum. Ən çox da yazıçı haqqında olan tədqiqatları mütaliə edir, yaradıcılığını öyrənirdim. Amma Səmed adlı adam nə kitabxanaya gəlir, nə də kurs işi yazırdı. Bütün günü şəhərdə gəzməkdə, öz kefində idi. Axşamlar da uşaqları başına yığıb skripka çalardı. Bəzi hallarda məndən kitabxanada nə oxuyub öyrəndiyimi soruşardı, danışdıqlarıma diqqətlə qulaq asardı. Özünün dediyinə görə, Turgenevin iki əsərini oxumuşdu: "Asya" və "Bahar suları".

İmtahan günü gəlib çatdı. Mənim danışdıqlarımdan Turgenevin yaradıcılığını öyrənən Səməd "Əla" qiymət aldı. Mən isə "Kafi". O zaman da ikicə qiymət vardı: "Kafi" və "Əla".

- Ay oğul, Səmədlə belə günlərimiz çox olub, lap çox. Mənim indi huşum qalmayıb - deyib, əlini ağ saçlarında gəzdirdi. "Bax, ağrının hamısı burdadır, beyin də ki, ağrıdı, heç nə... düşünməyin, fikrin motoru, mühərriki budu, bu...

Xeyli sükutla dayandı. Dostum Seyfəddin ona yaxınlaşıb:

- Osman müəllim, - dedi,- yorğunluqdandır, işləməyi bir az azaldın, nə qədər işləmək olar? Sizin indi istirahət vaxtınızdır. Allah canınızı sağ eləsin, onsuz da Siz xalqımız üçün çox iş görmüsünüz.

O, Seyfəddinə təfərünclə baxıb:

- Oğul, - dedi. - İstər şair olsun, istərsə yazıçı. Gecə də, kündüz də işləməlidir. Atalar deyir ki, at ölüncə otlayar. Demək şair, yazıçı da son nəfəsinə qədər yazmalıdır.

Seyfəddin masanın üstündən götürdüyü "Səməd Vurğun" foto-albomunu ona göstərib soruşdu:

- Bu kitabı tez-tezmi oxuyursunuz?

- Burda oxumağa bir şey yoxdu. Rəhmətlik Səmədin, mənim, bizim dostlarımızın yaxşı şəkilləri var burda. Darıxanda vərəqləyib Səmədlə keçirdiyim günlərin azlığına heyfslənirəm.

Osman əmi kitabı vərəqləyəndə Seyfəddin onun müxtəlif rakuslardan şəklini çəkdi. Biz getmək üçün yığışdıq. Osman müəllim də ayağa durdu. Asta addımlarla yaxınlaşıb mənimlə uzbəüz dayandı, sağ əlini ərklə çiynimə qoyub:

- Yaxşı, - dedi. - a Körpülü balası, bayaqdan sən sual döşəyirsən, mən də cavabını verirəm. İndi sən mənim bircə sualıma cavab ver görüm. Sizin kənddə körpü varmı?

- Yox-dedim.

- Bə, niyə kəndinizin adı Körpülüdür?

- Deyirlər, XVIII əsrdə Sınıq körpünün bir qolu uçub dağılıbmış, bizim kəndin də qoçaq kişiləri onun tikintisində fəal iştirak ediblər. Onda Şıxlı varıymış, Körpülü yox. Vaxtılə körpünün tikintisində işləyənlər 1841-ci ildə Şıxlıdan ayrılıb gəlib indiki Körpülüdə məskən salıblar. Kəndimizin adını da Körpülü qoyublar.

Osman müəllim mənalı-mənalı gülümsünüb:

- Hə, - dedi,- yəqin ki, elədi. İndi sən mənə de görüm bunları hardan bilirsən, axı sənin nə yaşın var ki?....

- Bu barədə - dedim- Tiflis Dövlət Arxivində olan sənədlərdən. Qocalarımızdan Şıxı oğlu Vəkilin, Nəzir oğlu Məmişin yaxşı məlumatları var... Bir də Xram çayının sağ sahilində, qara sal daşlardan tikilmiş bir körpü var. Həmkəndlilərim ona “Nəzir körpüsü” deyirlər. Onun mənim babam Nəzir kişi kəndxuda vəzifəsində olanda tikdirib.

- Amma mənim yaxşı yadımdadır ki, bizim ağsaqqallar sizin kəndçiləri görəndə zarafatla deyərdilər:

***Körpülünün yoxdu körpüsü***
***Dəysin ona Tanrı törpüsü***

Sonralar görüşəndə də Osman əmi bu iki misranı təkrar-təkrar deməyi xoşlardı.

Ayrılanda, elə qapının ağzında Osman əmi Səməd Vurğundan yenə bir əhvalat danışdı.

- 1952-ci ildə Səməd Akademiyada vitse-prezident idi. Mən də bilmirəm nəyə görəsə yanında idim. Bu vaxt Mehdixan və Yusif Yusifov da gəldi. Telefon tez-tez zəng eləyirdi. Yadımdadır, Səməd iki nəfərə məsləhət verib yol göstərdi, üçüncüyə isə kömək elədi.

Səmədin xətrini çox istədiyi, zarafatla "yetim Yusif" çağırdığı professor Yusif Yusifov dedi:

- Hamıya iş düzəldib, kömək edirsən, bəs bizə keçmiş seminarist dostlarına nə vaxt arxa, dayaq olacaqsan?

- A yetim, nə sənə, nə də qardaşım Mehdixana karyera dalınca qaçmağı məsləhət bilmirəm. Siz Əli əfəndi (xalq yazıçısı Mehdi Hüseynin atası Ş.N.), Firidun bəy Köçərli, Əhmədağa Mustafayev kimi kişilərdən, görkəmli maarifçilərdən bilik almısınız. İllərin ağır sınağından çıxmış adamlarsınız. Sizin hər ikinizi müəllim, maarifçi kimi el-oba yaxşı tanıyır. Gedin, peşənizdən bərk yapışın. Elm dalınca gedin. Vəzifə, rəyasət boş şeydir, qardaşlarım.

Səməd Vurğunun məsləhəti ilə hər ikisi elmin çətin yollarından keçib elmlər doktoru, professor və əməkdar elm xadimi kimi yüksək ada layiq görüldülər.

## BİR ŞƏKLİN TALEYİ

İyirmi ilə yaxındır ki, bir nadir fotoşəkli şəxsi arxivimdə saxlayıram. Onu mənə sənətkar dostum Seyfəddin Məmmədvəliyev verib. O vaxt çox çalışdım ki, qəzetlərin birində dərc etdirim, mümkün olmadı. Bir bolşevik jurnalist "dostum" şəkli iki aydan çox redaksiya qovluğunda saxlayıb özümə qaytardı.

- Buradakıların əksəriyyəti Sovet hökumətinin düşmənləri olub, - dedi - dərc etsək, sənin də başın ağrıyar, bizim də. At getsin...

Mən isə "tənbəllik" elədim, atmadım. Saxladım. Ona görə saxladım ki, bu nadir şəkildə xalqımızın çox qiymətli oğulları təsvir olunub. Bu günlərdə basırıqda qalmış qovluqlarımdan birini açanda yenidən həmin şəkillə üzbəüz gəldim. Sanki şəkildəki qırx bir adam birdən dilə gəldi: "Nə oldu, ay oğul, bolşevik hökuməti də yıxıldı. Biz yenə də oxucu üzü görməyəcəyikmi?"

O illərdə professor Fatmaxanım Vəkilova ilə tez-tez görüşərdim. Bu səmimi ana ilə söhbətimiz çox vaxt Səməd Vurğundan, Firidun bəy Köçərlidən, atası İsmayıl ağa Vəkilovdan, general Əli ağa Şıxlinskidən və başqa görkəmli maarif, elm xadimlərindən olurdu. Bir dəfə onun ev albomundan Səməd Vurğunun Moskvada azərbaycanlı ziyalılarla birgə çəkilmiş nadir bir şəkli çıxdı. Onu alıb "Sovet kəndi" qəzetində dərc etdirdim. Görüşlərimizin birində qırx bir ziyalının təsvir olunduğu bu şəkli də apardım ki, onları tanımaqda mənə kömək etsin. Eynəyini taxıb şəklə baxan Fatma xanım kövrələ-kövrələ:

- Bunların əksəriyyəti mənim müəllimlərim olub - dedi. 1927-ci ildə Bakı Darülmüəllimatında oxuyanda Mədinə xanım Qiyasbəyli, Atababa Musaxanlı, Hüseyn Cavid, Şəfiqə xanım Əfəndizadə, Abdulla Şaiq, Böyükağa Talıblı, Əhməd Cavad, Soltan Məcid Qənizadə, Cabbar Əfəndizadə mənə dərs deyiblər.

Fədakar tədqiqatçımız Salman Mümtazın şəxsi arxivində mühafizə olunan bu şəkli 1925-ci ildə Əlibəy Hüseynzadə çəkib. 1926-cı il fevralın 26-da Bakıda keçirilən Birinci Türkoloji qurultayın iştirakçıları Akademiyanın əsas binasında yerləşən "Ədəbiyyat cəmiyyəti"nin üzvləri ilə görüşə gəliblər. Bu foto şəkil də onda çəkilib.

Fatma xanım Vəkilovanın köməkliyi ilə aşağıdakıları dəqiqləşdirə bildik:

Üçüncü cərgədə ayaq üstə duranlar (soldan): yazıçı Mirzə Cəlal Yusifzadə (1), şair Bədrəddin Seyidzadə (2) (1882-1945), ədəbiyyatşünas Salman Mümtaz (3) (1884-1937), yazıçı-dramatruq Süleyman Sani Axundov (4) (1875-1939), yazıçı-dramatruq Abdulla Şaiq (5) (1881-1959), türkiyəli ədəbiyyatşünas



İsmayıl Hikmət (6), şair-dramatruq Hüseyn Cavid (7) (1882-1944), jurnalist-tərcüməçi Əli Kərimov (8), publisist Əli Mirzə Cəlal oğlu Yusifzadə (9), yazıçı Sultan Məcid Qənizadə (12) (1866-1937), jurnalist və dövlət xadimi Əhməd Pepinov (13) (1893-1938), Azərbaycanda ilk cocuq jurnalı "Dəbistan"ın redaktorlarından biri, Azərbaycanda ilk dəfə təqviminin alimi, şair, mütərcim və müəllim Abdulla bəy Əfəndizadə-Azaqbəyli (16) (1873-1928), yazıçı-tənqidçi Seyid Hüseyn (17) (1888-1937).

Ortada oturanlar (soldan): şair Mirzə Rəhim Fəna (1) (1841-1931), şair Əbdülxalıq Cənnəti Qafarzadə (2) (1855-1931), şair Səməd Mənsur (3) (1879-1927), şair Azər Buzovnalı (4) (1870-1951), jurnalist tərcüməçi və maarifçi qadın Mədinə xanım Mustafa bəy qızı Qiyasbəyli (5) (1886-1937), jurnalist və ictimaii xadim Həbib Cəbiyev (6) (1899-1938), türk, ədəbiyyatşünas-alim Məhəmməd Fuad Köpürülzadə (7) (1890-1966), yazıçı Böyükağa Talıblı (8) (1897-1938), müəllimə. jurnalist-yazıçı Şəfiqə xanım Əfəndizadə (9) (1882-1959), dramatruq Nəcəf bəy Vəzirov (10) (1854-1926), yazıçı Əbdürrəhim bəy Haqverdiyev (11) (1870-1933), professor Bəkir Çobanzadə (12) (1893-1937, maarif xadimi, bir müddət "Maarif və Mədəniyyət" jurnalının baş redktoru Cəlil Məmmədzadə (13), şair Ağadadaş Müniri (14) (1863-1940).

Yerdə oturanlar (soldan): şairlərdən Mirzə Əbdülxalıq Əraqi (1) (1853-1924), Əli ağa Vahid (2) (1895-1965), şair-tarixçi Əli Hüseynzadə (3), şair-tərcüməçi və naşir Adil Əfəndiyev (4), şair Əhməd Cavad (5) (1892-1937), ədəbiyyatşünas Cabbar Əfəndizadə (6), ədəbiyyatşünas Atababa Musaxanlı (7) (1905-1941), tənqidçi-alim Mikayıl Rəfili (8) (1905-1958), Hambal təxəllüslü şair (9), şair, jurnalist və ictimaii xadim Ağahüseyn Rəsulzadə (10) (1884-1938).

Şəkildəki ziyalılarımızın əksəriyyəti 37-ci ilin qara günlərində bolşevik-kommunist rejiminin haqsız qurbanları olmuşlar.

Tariximizin bir çox qatları kimi fotolara köçürülmüş məqamları da qaranlıqdır. Dünənə qədər bəzi adamların qoruyub saxladıqları belə nadir şəkillər mətbuat, kitab səhifələrinə çıxarıla bilməyib. “Düşmənlərimizin” özləri kimi şəkilləri də repressiyaya uğrayıb. Təbiidir ki, tariximizlə bağlı nadir şəkillər əvəzsiz sərvətdir.

***10 fevral 1992-ci il.***

## UNUDA BİLMƏRƏM

***"Bizim Vurğunun dolaşdığı diyarları qarış - qarış gəzib onun əfsanəvi hekayətlərini toplayıb əbədiləşdirən Şəmistana ən xoş arzularla".***

***İsmayıl Şıxlı "Xatirəyə dönmüş illər" kitabına yazdığı avtoqraf***
***16 iyun 1980-cı il***

Mən İsmayıl Şıxlının yoxluğuna inanmıram. O, cismən aramızdan getsə də ruhən həmişə, hər an bizimlədir. Neçə ki, “Dəli Kür” var, onun səhifələrindən sərt baxışlı Cahandar ağanın zəhmli səsi gəlirsə, İsmayıl Şıxlı yaşayır və yaşayacaqdır.

Məgər onun biz gənclərə yetmişinci illərdə elədiyi köməklikləri, yaxşılıqları unutmaq olarmı? Mənim cızma-qaralarımı səbr və təmkinlə oxuyub verdiyi ağıllı məsləhətlərdən, göstərdiyi doğru yoldan qazandığım nailiyyətlərin sevincini unuda bilərəmmi?

O, qızıldan qiymətli vaxtını təkcə mən arxasıza, köməksizə yox, Azərbaycanın onlarla gəncinə sərf etmişdir. Mənim kimi onlarla azərbaycanlı indi iftixarla deyir ki, ədəbi aləmdə mənim müəllimim İsmayıl Şıxlı olmuşdur. Onun yetirmələrinə heç kəs irad tutub şübhə ilə baxa bilmir. Çünki İsmayıl Şıxlı adı saflıq, təmizlik mücəssəməsidir.

Görkəmli yazıçı-alim Qulu Xəlilli İsmayıl Şıxlı saflığından danışanda deyərdi: “Bizim çoxumuz ali məktəb müəllimləri zamanın havasına uyduq, təmiz adımızı qoruya bilmədik. İsmayıl Şıxlı isə bu adı ürəyi kimi təmiz saxladı.”

Bu gün şəxsi arxivimdə saxladığım onun mürəkkəbli qələmlə yazdığı qeydlərinə baxır və istər-istəməz kövrəlirəm. Onun ağayana, zəhmli səsi varlığımı titrədir: “Burda cızığından çıxdın”, “Uydurmusan”, “Yenə deyirəm, obraz şişirdilib, özü də üfürtməli danışır”,“Qız, qadın yanında Səməd Vurğun



belə danışa bilməzdi". Onun bu qeydləri tənqid yox, mənim üçün iftixar idi, baş ucalığı idi. Hələ neçə il əvvəl telefonda İsmayıl Şıxlının dediyi sözlər mənim üçün nə qədər əziz və doğmadır: "Oxudum əsərini, sabah səhər saat 12-də gəl kafedraya, bir neçə məsələdə "dərsini verim". Bəli, elə bu dərslər məni böyük şairimiz Səməd Vurğun, məşhur generalımız Əli ağa Şıxlinski və Azərbaycan generalları haqqında kitabların müəllifi elədi. Bütün bunlar üçün ancaq və ancaq xeyirxahım İsmayıl Şıxlıya ömürlük minnətdaram.

Ötən ilki - 1994-cü il söhbətlərimizin birində deyəndə ki, İsmayıl müəllim, general Əli ağa Şıxlinskinin hərbi elmi əsərlərini çapa hazırlayıram, kitabda nələri verəcəyimi dinləyəndən sonra sevinə-sevinə öz təkliflərini də əlavə etdi. Bu xoş xəbərdən xəstəliyini belə unutdu. Onda kimlərin söhbətlərini xatırlamadı, atası Qəhrəman əfəndinin, dayısı Qiyas bəyin, Alay bəyin və nüfuzlu Şıxlinskilərin bir çoxunun... Mənim sevincimin üstünə bir sevinc də əlavə etdi İsmayıl müəllim: "Allah qoysa, ayağa durum, yaranalın (bu sözü deməyi yaman xoşlardı) kitabına müqəddiməni özüm yazacağam".

Ümidə xanım: "İsmayıl, çay buza döndü"- dedi qalın qaşlar gah çatılır, gah da yarğan kimi yarılırdı. Sanki yaraşıqlı üzündə Kür nəhri axırdı. Bu anlarda adam ona baxmaqla doymurdu... Xəyal İsmayıl Şıxlını hara aparmışdı, onu bir Allah bilirdi... Mən də başımızın tacı, ömrümüzün varlığı İsmayıl Şıxlını sevindirə bildiyimlə özlüyümdə iftixar edirdim. Handan-hana əlini kreslonun dirsəyinə vurub:

- Nə gözəl fikrə düşübsən. Generalın kitabını bu gün biz nəşr etdirməsək, gələcəkdə heç kəs məşğul olub, tədqiqat aparmayacaq.

Bundan sonrakı söhbətlərimizdə, telefon zənglərində ilk sorğusu general haqqında olardı.

- Yaranalın kitabı nə yerdədi? - deyə soruşardı - tələs, bir az tələsmək lazımdı, mən o kitabı görmək istəyirəm...

Ürəyinə nəsə daman İsmayıl Şıxlının "tələsmək lazımdı" sözlərində dərin bir kədər vardı...

***İyul, 1995-ci il.***

***"Əziz Şəmistan! Siz babaları axtaran kimi kaş balalar da bir gün Sizi axtara. Buna əminəm... Axtaranı axtararlar"***

***Xalq şairi Hüseyn Arif "Ayrı düşəli"***
***kitabına yazdığı avtoqraf.***
***20 mart 1988-ci il***



## *VURĞUNUN BABALARI DEYİB Kİ...*

### NEÇƏ YAŞINDA

Xalq şairi Səməd Vurğunun ulu babası Alı ağa uzun müddət Qazax mahalının vəkili olmuşdur. Bir dəfə onu İrana şahın yanına nümayəndə göndərməli olurlar. Tədbirli, savadlı Vəkil Alı ağa İrana çatanda üzünü tərtəmiz qırxdırıb əvvəlcə ə'yanların hüzuruna gedir. Ə'yanlardan biri Alı ağanın çox gənc olmasına və üzünü tərtəmiz qırxdırıb saqqal saxlamamasına görə sataşmaq məqsədilə belə bir sual verir:

- Vəkili-Mahali-Qazax Alı ağa, lütfən deyin görək sizin obada dayçanı neçə yaşında qırxırlar?



***Xalq şairi Səməd Vurğun və xalq yazıçısı Mehdi Hüseyn. 1953-cü ildə, Soçidə***

Saqqallı ə'yanın nəyə işarə vurduğunu başa düşən uzaqgörən, hazırcavab Vəkil Alı ağa təmkinlə belə cavab verir:

- Əyan sağ olsun, o, dayçanın cinsindən asılıdır, bir yaşında, ya da yaş yarımında. Amma qatırla eşşəyi heç vaxt qırxmazlar.

## SONRA BAĞLAYA BİLƏCƏKSƏNMİ

Gürcü padşahı II İraklinin şəxsi dostu olan Vəkil Alı ağa bir vasitəçi kimi İran, Rusiya və başqa ölkələrin nümayəndələrilə görüşdə, diplomatik danışıqlarda həmişə yaxından iştirak etmişdir.

1783-cü il noyabrın 3-də II İrakli Vəkil Alı ağanı məsləhət üçün yanına çağırıb deyir:

- Vəkil, mən Daryal dərəsini müvəqqəti də olsa açmaq istəyirəm, buna necə baxırsan? Rus qoşunlarını Qafqaza buraxmaq istəyirəm...

Uzaqgörən Vəkil Alı ağa fikirli-fikirli belə cavab vermişdir:

- Hökmdar sağ olsun, özünüz bilən yaxşıdır, açmaq asandır, amma sonralar görün bağlaya biləcəksinizmi?

## KEÇ YUXARI BAŞA

Vəkil Alı ağanın böyük oğlu Hacı Məmmədxan ağanı (Səməd Vurğunun ata babası) bir dəfə dağ kəndinə toya çağırırlar. Hacı Məmmədxan ağa məclisə bir az tez gəlibmiş. Keçib oturur məclisin yuxarı başında. Qonaqlar yığışdıqca toy babası gələnləri yuxarı başa də'vət edir. Hacı Məmmədxan ağanı, görünür, tanımır.

- Paho, xoş gəlmisən, ağa, bir az o yana otur, - toy babası üzünü yeni gələnə tutur: - buyur, bura yuxarı. Mən ölüm buyur, öz həmyerlimsən. Mən ölüm, keç başa, - deyib hamını başa keçirir.

Hər yeni qonaq gəldikcə Hacı Məmmədxan ağa bir az o yana oturub, bir də baxır ki, gəlib düşüb lap qapının ağzına, yanında da bir ala-bula küçük, quyruğunu bulyayıb ondan pay umur. Hirslənmiş Hacı Məmmədxan ağa küçüyün boğazından yapışıb düz yuxarı başa fırladır və acıqla:

- Köpəy oğlunun küçüyü, sən də bunların həmyerlisisən, mən ölüm, keç yuxarı başa, - deyib məclisi tərk edir.

## QARA ZAĞIN QAYDASI

Vəkil Alı ağanın oğlu Hacı Məmmədxan ağa ərəb kimi qara bir adam imiş. O, Xədicə Sultan xanım adlı qənirsiz bir gözələ evlənir. Onun tə'rifi bütün mahala yayılıbmış. Qohumunun ağıllı və gözəllikdə tayı-bərabəri olmayan

bir qızla evlənməsi şair Kazım ağa Salik Şıxlinskiyə (1781-1842) də çatır. Salik atını minib Xədicə xanımı görməyə gəlir. Hacı Məmmədxan ağa evdə olmadığından, Xədicə Sultan xanım ağzı yaşmaqlı onun qabağına çıxır. Buyurub düşməsini təklif edir. Salik atdan düşür, onun gözəlliyini yaxından görmək üçün soyuq su istəyir. Xədicə Sultan xanım su gətirir. Su içəndən sonra şair Salik deyir:

***Evləri var bağ ağzında,***
***Gül bitirər dağ ağzında,***
***Bir xınalı kəklik gördüm***
***Bir dümqara zağ[1] ağzında.***

Bunu deyib, Salik atını sürüb gedir. Axşam Hacı Məmmədxan ağa evə qayıdanda Xədicə Sultan xanım xəbər verir ki, bu gün şair Kazım ağa Salik gəlmişdi. Onu evdə tapmadı, bu bayatını deyib getdi. Hacı Məmmədxan ağa gülümsəyir və cavabında deyir:

***Ələm qardan almaqdı,***
***Qovğu cana salmaqdı,***
***Qara zağın qaydası***
***Xınalı kəklik almaqdı.***

## İGİDLİYƏ BAĞIŞLAYIRAM

Hacı Məmmədxan ağanın igidliyi haqda eldə, obada danışılan əhvalatlara Səməd Vurğun heyranlıqla qulaq asarmış. Mehdixan müəllim yazır ki, atam Yusif ağa babamız Hacı Məmmədxan ağanın hərbi əməliyatlarda təşkil etdiyi könüllü süvari dəstələrinə məharətlə başçılıq etməsindən tarixi söhbətlər edərdi.

...Bir dəfə necə olursa, hökumət işində Hacı Məmmədxan ağanın əlindən xəta çıxır. O, qaçaq düşüb İranla Zaqafqaziya arasında dolaşırmış. Gürcü çarı II İrakli tə'kidlə tələb edirmiş ki, üzə çıxıb təslim olsun. Vəkil Alı ağanın ikinci oğlu Vəkil Yusif ağa bu işi özünün ağıllı bir tədbiri ilə sahmana salmışdır. II İrakli Ceyrançöldə ov edərkən uzaqdan, qabağına ceyran sürüsü qatıb ildırım sür'əti ilə gələn bir ağ atlı görür. Sürü hökmdarın qarşısından keçəndə at ceyranın birini yaxalayır və üstündəki igid qılıncla ceyranı yerə sərir. Bu mənzərəyə heyran qalan II İrakli üzünü Vəkil Yusif ağaya tutaraq:

- Vəkil, bu igid adam kimdir? - deyə soruşur.

1. Zağ - qarğa.

Tədbirin baş tutduğunu duyan Vəkil Yusif ağa:

- Padşah sağ olsun, - deyir, - nökəriniz Hacı Məmmədxan ağadır, sizə düşmən olan xanlardan birinin ərəb atını gətirib sizin qarşınızda sürür.

Qardaşının işarəsilə Hacı Məmmədxan ağa atdan düşür və qılıncın tiyəsini hər iki əlində tutaraq II İraklinin qabağında hörmətlə tə'zim edir. Hökmdar isə əlini Hacı Məmmədxan ağanın çiyninə qoyub:

- Mərhəba,-deyir,-sən əsl igidsən, bütün günahlarını igidliyinə bağışlayıram.

## QAŞQA AT ƏHVALATI

Vəkil Yusif ağa[1] hər il köçünü yaylaqdan qaytaranda "Qaşqa tala" adlı mənzərəli bir yerdə dayanacaq edərmiş. Qonşu kənddən aşıq çağırtdırıb, məclis qurar, kef edərmiş. Məclisin sonunda aşığa ayağı səkili bir at bağışlarmış.

Kişinin qoca vaxtı imiş. Yenə yaylaq köçündən qayıdır. Adəti üzrə aşığı çağırtdırıb oxudur. Birdən yadına düşür ki, var-yox bir ayğır atı, bir baş da dayçası var. Bəs aşığa nə bağışlasın. Aşıq isə ötən illərdəki kimi şirin-şirin şövqlə oxuyur. Və ona yenə ayağı səkili qaşqa at bağışlayacağını gözləyirmiş.

Vəkil Yusif ağa arvadı və böyük oğlu ilə məsləhət eləyir ki, bu il ayğır at bağışlamağa imkanımız yoxdur. Gərək dayçanı verək, amma qorxuram aşıq inciyə. Onların söhbətini dəyənin kölgəsində əyləşib nəfəs dərən aşıq eşidib ayağa durur və belə bir söz oxuyur:

***Əzizim Qaşqa tala,***
***Şəmşivar, Qaşqa tala.***
***Ağa istər day verə,***
***Aşıq istər qaşqa at ala.***

Vəkil Yusif ağa üzünü oğluna tutub:

- Oğul, - deyir, aşıq bizi qabaqladı. Qaşqa atı ver minib getsin. Kişiyə haləldı.[1]

## BOLUŞ BƏY

Qarabağ xanı İbrahimxəlil xanın dövründə Boluş bəy adlı bir cavan xanlığa və onun adamlarına boyun əyməyən cəsur bir igid kimi ad-san qazanıbmış. Dağlarda mal-qara və qoyun sürüsü saxlayan Boluş bəy yarımqaçaq, öz

1. Gürcüstan Mərkəzi Dövlət Arxivində saxlanan sənədlərdə Salahlı vəkil Yusif bəyin 1799-cu ildə Gürcü çarı XII Georginin sarayında eşik ağası vəzifəsində işləməsi göstərilir - müəl.

sürülərinin içində dolanırmış. Xan və onun adamlarının əlinə keçməmək üçün tez-tez yerini dəyişib sərt və qayalı dağlarda məskən salarmış..

İbrahimxəlil xan adamlarına əmr edir ki, Boluş bəyi tutmaq üçün müəyyən yerlərə gözətçilər qoyun, çalışın diri tutun, tuta bilməsəniz də öldürün. Xan fikirləşirdi ki, Boluş bəyin ona tabe olmamağı, ağayana hərlənməyi qalan rəiyyətlərə də rəvac verər. Uzun zaman güdəndən sonra xanın adamları Boluş bəyi tutub xanın hüzuruna gətirirlər. Boluş bəy Şuşa qalasına gətiriləndə axşam tərəfi imiş. Xan əmr edir ki, onu bu gecəlik dama salsınlar, sabah divanına baxıb, cəzasını verər.

Bu zaman vəzir Molla Pənah Vaqif dostları ilə başmaq seyrinə çıxıbmış. Görür ki, xanın adamlarının qabağında ucaboylu, pəhlivan cüssəli, neçə illərdi xana meydan oxuyan el qəhrəmanı Boluş bəy gətirilir. Belə bir igidin tutulmağı Vaqifi bərk kədərləndirir. Gözətçilər vəziri görəndə dustağı dayandırıb ona hörmətlə tə'zim edirlər. Boluş bəyə canı yanan vəzir Vaqif ona kömək məqsədilə deyir:

***Xan mən olsam, Boluşu sabaha qoymaram,***
***Boluş da mən olsam, sabaha qalmaram.***

Boluş bəy Vaqifin işarəsindən anlayır ki, işi xarabdır; səhərə qalsa, xan onu ya qayadan atdıracaq, ya da dar ağacından asdıracaq. Ona görə də bütün gecəni yatmır, əlinə keçən dəmir parçası ilə damın arxasından yarıq açıb dağlara qaçır.

Qəzəbli İbrahimxəlil xan Boluş bəyi nə qədər axtartdırırsa, tapa bilmir. Bundan sonra Boluş bəy Vaqifin məsləhətilə oturub-durur. Bir gün Vaqif ona xəbər göndərir ki, mal-qarasını, qoyun sürüsünü də götürsün, ev-eşikli köçüb Salahlı kəndində yaşasın.

Məhəd bəy Vəkilov 1941-ci il martın 25-də yazdığı bu əhvalatın sonunda qeyd edir ki, o vaxt Qarabağdan köçüb gələn Boluş bəyin nəslindən bizim Salahlı kəndində indi də yaşayanlar var. Boluş Əhmədi, Boluş Kərəmi və Boluş Nəcəfi şəxsən mən yaxşı tanıyırdım. Boluşlular kəndin ucqarında ayrıca məhəllə kimi yaşayırdılar. Yayda yaylağa çıxanda da, boluşlular dağın ən sərt yerində "Atqırılan" qayasının dibində çətin yollu sarp yerlərdə dəyələrini qurub yaşayırdılar. Heç bir bəyə, heç bir hökumətə onlar boyun əyməzdilər. Sürü-sürü qoyunları, naxırları olsa da nə qubernatoru, nə də pris-

1. Əhvalat Respublika Əlyazmaları İnstitutunda saxlanan (F.27.s.v.1615) İsgəndər İsmayıl oğlu Vəkilovun "Azərbaycan xalq şairi Səməd Vurğun haqqında" yazısından götürülmüşdür. İsgəndər Vəkilov həmin yazısını 1962-ci ilin noyabrında yazıb göndərmişdir - müəl.

tavı saymazdılar. Onların kiçik yaşlı uşaqları da at sürməkdə, ov eləməkdə və oğurluqda ad-san qazanmışdı.

Bu onlarda babaları Boluş bəydən qalma irsdir.

"Vaqif" dramında xalq qəhrəmanı kimi verilən Eldar obrazı əslində Boluş bəydir. Eldar Boluş bəyin prototipidir. Səməd Vurğun öz qəhrəmanını ona görə Eldar adlandırmışdır ki, o şəxs el arasından çıxmış bir özəkdir. Eldar el qabaqcılı, el təəssübü çəkən, el tərəfdarı deməkdir.

Heç təsadüfi deyil ki, "Vaqif" dramında Səməd Vurğunun Vaqifin dililə: "Divanı sabaha qalanlardan ol", - deyimi vaxtilə Vaqifin Boluş bəylə üzbəüz gələndə dediyi fikirlə eyni səsləşir.

## QABAN OVU

Hacı Məmmədxan ağanın əmisi oğlu Məmmədşərif ağa bir dəfə dostları ilə söhbət edərkən deyir:

- Xədicə Sultan xanımı qoyaydılar qabanın iki qaşının arasına, görəydin onu ordan mən alırdım, yoxsa Hacı Məmmədxan ağa.

Bunu Hacı Məmmədxan ağaya xəbər verirlər. Bir neçə gündən sonra Hacı Məmmədxan ağa dostlarını toplayır. Məmmədşərif ağanı da götürüb Qarayazı meşəsinə qaban ovuna gedirlər. Əlində sıyırma qılınc, qalın böyürtkən kolları arasından keçən cığırı kəsir. Məmmədşərif ağanı da yanında saxlayır. Dostları meşədə hay-küy salıb, qabanı yatağından hürküdürlər. Erkək qaban su cığırı ilə bunların üstünə cumub gələndə Məmmədşərif ağa qaçmağa başlayır. Hacı Məmmədxan ağa onun qolundan yapışır:

- Hara qaçırsan, Xədicə Sultan xanım qabanın qaşlarının arasındadır, al, - deyir, qılıncı endirib Məmmədşərif ağanı yaralayır. Cəld geriyə dönür, qılıncı üstünə hücum edən qabana endirir. Zərblə vurduğu qılınc qabanın üst çənəsini kəsir, alt çənəsində dişə ilişib qalır. Qaban diz çöküb yıxılır.

## CANI DA ÇIXSA...

Səməd Vurğunun ata babası Hacı Məmmədxan ağa ahıl yaşlarında Salahlı Qazisi İbrahim Əfəndi Qayıbova nökərindən bir çuval buğda göndərir. Araba həyətin doqqazına çatanda İbrahim Əfəndi qapıda oturubmuş.

- Bu nədi, bala? - deyə nökərdən soruşur.

- Bir çuval buğdadı. Hacı Məmmədxan ağa göndərib. Deyir ki, buğdanı halal eləyirəm, amma bu il məni orucluqdan azad eləsin.

- Hə, lap yaxşı, düşürt qoy talvarın altına. Get, ağana de ki, buğdaya görə çox sağ olsun. Amma, canı çıxsa da oruc tutmalıdır. Bir çuval buğda ilə mən orucluqdan heç kəsi azad eləmirəm.

## HALALLAŞIRAM

Səməd Vurğunun bibisi qızı mərhum Qızxanım Axundova 1981-ci ilin payızında Qazaxda mənə belə bir əhvalat danışdı:

Səməd Vurğunun atası Yusif ağanın əmizadəsi Bəhram ağa Vəkilovun uzaq görənliyi və görücülüyü vardı. Evin uçmağını, kimin nə vaxt evlənəcəyini, bu gecə güclü sel olacağını əvvəlcədən bilirdi.

1917-ci ildə bir axşam Bəhram ağa "Gəncimalı" adlı atını tövlədən çıxartdırıb üz-gözündən öpürdü. Anam Pəri xanım yarı şübhə, yarı doğru üzünü Bəhram ağaya tutub dedi:

- Ay Bəhram ağa, atı niyə öpürsən, nə olub, nə məsələdir?

Bir az bikefləmiş Bəhram ağa anama cavab verdi ki, özün bilirsən, bu at mənə qardaşım qədər sadiq olub. Neçə dəfə məni ölüm-itimdən qurtarıb. İndi son dəfə onunla halallaşıram. Bu gecə mən öləcəyəm...

Həmin gecə Bəhram ağa Vəkilov dünyasını dəyişir.

## QAŞ-QABAQI BƏS ELƏR

Elin məşhur aşığı Hüseyn Bozalqanlı bir dəfə yaylaq səfərindən qayıdırmış. Yolu Ayrım kəndinin yanından düşür. Bu kənddə bir dostunun yaşadığını xatırlayıb ona baş çəkir. Hal-əhval tutduqdan sonra ev yiyəsi üç-dörd dəfə:

- Ay arvad, kişiyə yemək gətir, yoldan gəlib, - deyirsə arvad özünü eşitməməzliyə vurur. Nəhayət, gecdən-gec mis cam dolu yağlı bozartma gətirir.

Bozartma yağlı olduğundan aşıq bir-iki tikə zorla yeyib, geri çəkilmək istəyir, amma aclıq güc gəldiyindən çörəyi yağa batırıb könülsüz-könülsüz dişləyir.

Aşığın zəif yediyini görən ev yiyəsi:

- Ay arvad, turşu da gətir, ət çox yağlıdı, aşıq yeyə bilmir.

Bu vaxt aşıq dözə bilməyib deyir:

- Turşu lazım deyil, elə arvadın qaş-qabağı bəs eləyər...

***

Bulaq üstə məclis quran üç nəfər yeyib-içir, həm də zarafatlaşırdılar. Onlardan biri şair, biri mağaza müdiri, biri də şəxsi maşını olan müəllim idi.

Mağaza müdiri şairə yaltaqlıqla:

- Şair, mən sənin şe'rlərini oxuyanda on il cavanlaşıram, hətta az qala dünyaya sığışmıram. Vallah, düz sözümdür. Mən sənin bir misranı bu müəllim dostumun QAZ-21-nə dəyişmərəm.

Hirslənən müəllim dərhal maşınına oturub onu işə salır.
- Hara, hara tələsirsən, bəs biz, - deyə mağaza müdiri həyəcanla soruşur.
Müəllim:
- Mən getdim. Siz də şairin o biri misrasını minib gələrsiniz - deyib, maşını sürüb uzaqlaşır.

## BURCUTMAQ AĞLIMA GƏLMƏDİ

Xanlıqlar kəndinin sakini Abıl kişini bir gün arvadı Sənəm bərk danlayıb deyir:
- A kişi, ocağın altına atmağa qapıda bir çöp də yoxdu. Qoş arabanı, get, Vəlixan meşəsindən bir az odun gətir. Bu nədi, fətir salanda əlimiz-ayağımız çəpərlərdə qalır.
Abıl kişi də arabanı qoşub Vəlixan meşəsinə oduna gedir. Ağacın birini kəsir, ikincisinə baltanı var gücü ilə ilişdirəndə nə qədər eləyir, balta quru dəmirqara ağacından çıxmır ki, çıxmır. Arabanı sürüb kor-peşman kəndə qayıdır. Boş arabanın qapıya gəldiyini görən Sənəm arvad:
- A kişi, bu nədi, - deyir, - arabanı niyə boş qaytardın?
Abıl kişi hirslə:
- Əşi, cəhənnəm olsun sənin odunun da, baltan da. Zəhrimar balta qaldı ağacın yarığında, nə qədər elədim geri çıxarda bilmədim. Nə eləyim orda, meşədə yatmayacaqdım ki...
- A kişi, ayıbdı, asta danış, qonşular eşidər, biabır olarıq. Gəl otur, arabanı sür qayıdaq meşəyə.
Ər-arvad meşəyə qayıdırlar. Sənəm arvad üç-dörd dəfə sağa-sola burcudub baltanı ağacdan çıxardır.
- Bə niyə çıxdı, ölü oğlu ölü, baltanı burcutmaq lazımdı - deyir.
Abıl kişi təəssüflə:
- Arvad, atamın goru haqqı heç burcutmaq ağlıma gəlmədi...

## DOLAŞIB GƏLİB

Daş Salahlılı Qərib kişi öz həmkəndlisinin qızına oğlu üçün elçi gedir. Danışırlar, barışırlar, hətta toy günü də tə'yin olunur. Çölə çıxanda Qərib kişi görür ki, dirəkdən asılan kotan zəncirinə böyük oğlu çox iştahla baxır (Zəncir qışda dirəkdən asılı vəziyyətdə saxlanılır ki, pas atmasın). Kişi dörd yanına baxır, görür ki, təzə qudası qayıdıb girdi içəri. Dərhal oğluna:
- Ayə, mal kimi ağzını açıb niyə baxırsan, dola belinə aparaq, əldə-ayaqda lazım olar - deyib oğluna təpinir.

Oğlu da zənciri belinə dolayıb gətirir. Toydan bir az sonra el adətincə Qərib kişi qudasını qonaq çağırır. Qonaqlıqdan çıxanda quda baxır ki, dirəkdən asılan kotan zənciri ona tanış gəlir. Yaxınlaşıb diqqətlə baxanda öz zəncirini tanıyır.

- A quda, a Qərib, - deyir, - siz bizə gələn gündən bizim kotan zənciri yoxa çıxmışdı. İndi budur, sizin dirəkdən tapdım. Əyə, nə təhər olub, bizim zəncir sizə gəlib çıxıb?

Söz altda qalmayan Qərib kişi:

- A quda, - deyir, - vallah bilməyib, sizin kotan zənciri bizim uşağın ayağına dolaşıb gəlib.

## OĞRU-QULDUR ƏYYAMIDIR

... Gün o gün olur ki, hökumət ölkədə hürriyyət e'lan edir. Qazaxlı şair Abbas ağa ***Nazir Qayıbzadə (1849-1919)*** də bu hürriyyətə sevinir. Bu mövzuda "1905-ci il inqilab cərəyanına dair" qəzəlini və "Millətə xitab" şe'rini yazır. Bir neçə gün keçər-keçməz onun ilxısını oğurlayırlar. Abbas ağanın ilxıçısı, nökər-naibi Qazaxdan Qaraçöpəcən, Dilicandan Şəmşəddinə və Şəmkirə kimi olan ərazini ələk-vələk eləyirlər, amma ilxını tapa bilmirlər. Hara çapar gedirsə, əliboş qayıdır, ilxını gördüm deyən olmur... Salahlı ağsaqqalları yığışıb Abbas ağaya təsəlli verməyə gəlirlər. Dili dinc durmayan baməzə Xocaoğlu zarafata salıb deyir:

- Abbas ağa, çox deyirdin ki, hürriyyət gəlsin, xalqım, millətim ayılsın. Bu da sənə hürriyyət, sən arzu elədin, yazdın, o da gəldi. Millət ayıldı, sənin də ilxını oğurladı.

Abbas ağa dözə bilməyib:

- Xocaoğlu, - deyir, - səhvin var, bu, mən arzulayan hürriyyət deyil, bu dərəbəylikdir. Mən hürriyyəti xalqıma arzulamışdım, oğruya, quldura yox. Bu hürriyyət deyil, qor-qodux zamanıdı, oğru-quldur əyyamıdır...

***Könül, aldanma çərxə, bivəfadır,***
***İşi daim onun cövrü cəfadır.***

## Sovet işğalından sonra güllələnən Azərbayjan Sərkərdələri

| Rütbəsi | Adı və soyadı | Təvəllüdü və güllələndiyi il |
|---|---|---|
| General-mayor | Əbdülhəmid bəy Qaytabaşı | (1884-1920) |
| General-mayor | Həbib bəy Səlimov | (1881-1920) |
| General-mayor | İbrahim ağa Usubov | (1875-1920) |
| General-mayor | Murad Gəray bəy Tlexas | (1874-1920) |
| Tam Süvari generalı | Hüseyn xan Naxçıvanski | (1863-1919) |
| General-leytenant | Məmməd bəy Sulkeviç | (1865-1920) |
| General-mayor | Əmir Kazım Qajar | (1853-1920) |
| General-mayor | Feyzulla Mirzə Qajar | (1872-1920) |
| General-mayor | Məhəmməd Mirzə Qajar | (1872-1920) |
| General-mayor | Əliyar bəy Haşımbəyov | (1856-1920) |
| General-mayor | Davud bəy Yadigarov | (1881-1920) |
| General-mayor | Firidun bəy Vəzirov | (1850-1925) |
| General-mayor | Əsədulla xan Əbülfəthzadə | (? - 1918) |
| General-mayor | Xəlil bəy Talışxanov | (1859-1920) |
| Polkovnik | Danyal bəy Hələjov | (1876-1920) |
| Polkovnik | Rüstəm bəy Şıxlinski | (1877-1920) |
| Polkovnik | Sədrəddin Mirzə Qajar | (1866-1921) |
| Polkovnik | Əhməd bəy Dibirov | (1860-1934) |
| Polkovnik | Bəhram bəy Nəbibəyov | (1884-1930) |
| Polkovnik | İsrafil bəy Yadigarov | (1888-1944) |
| Kapitan | Bahadır bəy Vəkilov | (1899-1920) |
| Kapitan | Firidun Mirzə Qajar | (1890-1920) |
| Kapitan | Lütvəli bəy Vəkilov | (1890-1937) |
| General-mayor | Qambay Vəzirov | (1899-1937) |
| General-mayor | Jəmşid xan Naxçıvanski | (1895-1938) |
| Komissar | Şəmistan Əyyubov | (1896-1937) |
| Polkovnik | Qalib bəy Vəkilov | (1888-1937) |
| Polkovnik | Seyfulla Mehdiyev | (1902-1937) |
| Komissar | Jabir Əliyev | (1902-1938) |
| Komissar | Heydər Vəzirov | (1893-1937) |
| Polkovnik | Murtuz Talıbzadə | (1902-1937) |
| Polkovnik | Sultanhəmid Paşayev | (1898-1937) |
| Polkovnik | Mehdi bəy Sultanov | (1880-1937) |
| Komissar | Hüseyn Rəhmanov | (1902-1938) |
| Komissar | Hajıbaba Nəzərli | (1895-1938) |
| Mayor | Jəlil Əliyev | (1905-1937) |
| General-mayor | Əbbülqasım Əzimi | (1903-1947) |
| General-mayor | Mirzə Rəbi Kəbiri | (1889-1947) |
| Palkovnik | Agahi Məhəmməd | (1909-1946) |



***Musavat ordusunun zabitləri: ön cərgədə soldan praporşik K.İsmayılov, kapitan Bahadır bəy Vəkilov, M.Sadıqov, podpolkovnik Cəmşid xan Naxçıvanski, II cərgədə sağdan 3-cü general Murad Gəray bəy Tlexas, kapitan Meydayev, 4-cü polkovnik Şirin bəy Kəsəmənli, 3-cü kapitan Heydər Vəzirov. 1919-cu il***



***Tam artileriya generalı Əli ağa Hacı İsmayıl ağa oğlu Şıxlinski və həyat yoldaşı Nigar xanım Mirzə Hüseyn qızı. 1909-cu il Magilyov şəhəri.***



***2-ci cərgədə, soldan süvari generalı Hüseyn xan Naxçıvanski, imperator II Nikalay. Təltif olunmuş süvari qvardiyasının zabitləri ilə birgə. Baranoviç şəh. 1914-cü il 25 oktyabr***




***Polkovnik Vəli bəy Yadigarov. 1930-cu ildə Polşa ordusunda xidmətdə olanda verilmiş vəsiqə.***



***Port-Artur, 2-ci Dağıstan alayının döyüşçüləri 1905-ci il yanvarın 14-də Landunqoy kəndi uğrunda hücuma keçərkən. Öndə komandir polkovnik Hüseyn xan Naxçıvanski. Rəssam V.Mazurovskinin yağlı boya ilə işlənmiş əsəri.***



***Topoqraf-general İbrahim ağa Vəkilov və ailə üzvləri. 1912-ci il Tiflis şəhəri.***



***Bakı, 1902-ci il İran şahı Müzəffərənddin Qacar (1853-1907), 2-ci cərgədə soldan 5-ci polkovnik Hüseyn xan Naxçıvanski və Bakı ziyalıları.***



***General İbrahim ağa Usubov və həyat yoldaşı Gövhər xanım (1885-1944)***



***1919-cu il. Hərbiyyə naziri Səməd bəy Mehmandarov***



***General Qaytabaşının anası Xədicə xanım Əli ağa qızı***



***Xədicə xanım Mirzə Əli ağa qızı Qaytabaşı və övladları. Sağdan 1-ci general Əbdülhəmid bəy Qaytabaşı uşaq vaxtı***



***General İbrahim ağa Usubov (1875-1920) və ailə üzvləri***



**General Firidun bəy Vəzirov (1850-1925) və həyat yoldaşı Zinaida Səlim qızı Vəzirova (Kriçinskaya)**



**General İbrahim ağa Vəkilov (1853-1934)**



**Məmməd Koxanın qardaşı oğlu Paşa Həsən oğlu Mahmudov (1920-1944)**



**Soldan polkovnik Şirin bəy Kəsəmənli, həyat yoldaşı Qeysər xanım və qaynı Davud bəy Kaşıyev. 1916-cı il Tiflis şəhəri. Şəkil ilk dəfə dərc olunur.**



***Soldan 1-ci İlya İdris oğlu Osmanov, Şamxal Qulu oğlu Quluyev və Səid Hacıkərim oğlu Şərifov. Dilican, 1925-ci il***



***Soldan 1-ci balaca Cəmşid xan Naxçıvanski, anası Fərəntac xanım və Ehsan xan, Kəlbalı xan. 1898-ci il.***



***Sağdan 6-cı general Əsədulla bəy Yadigarov (1844-1901), 7-ci general Firudun bəy Vəzirov. 1879-cu il***



***Ştabs-kapitan Sadıq bəy Yadigarov və həyat yoldaşı Olqa Russiya-Korçibaşeva. 1912-ci il***



***General-leytenant Cəfərqulu ağa Bakıxanov (1799-1867)***



***General Qambay Vəzirovun həyat yoldaşı İzzət xanım Qiyasbəyli-Vəzirova (1903-1976)***



*Tən ortada Səməd ağa Ağamalıoğlu, sağında general Qambay Vəzirov, solda isə Ə.Qarayev, sağdan 2-ci cərgədə 1-ci gələcəyin generalı, kursant Hacıbaba Zeynalov. 1921-ci il.*



*1859-cu il, Peterburq. Sağdan professor Mirzə Kazım bəy, Şeyx Şamil, oğlu Qazı Məhəmməd, arxada Şamilin pristavı polkovnik Apollon Runovski*



*21 yanvar 1936-cı il. Azərbaycan nümayəndə heyyəti Kremldə. Sağdan 3-cü cərgədə 1-ci Səməd Vurğun, arxadan 4-cü cərgədə 1-ci general Qambay Vəzirov, komissar Cabir Əliyev, polkovnik Seyfulla Mehdiyev, təyyarəçi Leyla Məmmədbəyova, Züleyxa Seyidməmmədova, Sona Nuriyeva, müğənni Bülbül, akademik Mustafa bəy Topçubaşov, pambıqçı Bəsti Bağırova, Manya Kərimova və başqaları.*

**KİTABIN İÇİNDƏKİLƏR**

LAYİQLİ ÖMÜR YAŞAYAN İNSAN (ELŞAD QOCA) ....................4
**20-Cİ İLƏRİN SƏRKƏRDƏ QURBANLARI ....................10**
**N.NƏRİMANOV:** «HEÇ KİM GÜLLƏLƏNMƏSİN…»....................10
GENERAL MURAD GƏRAY BƏY TLEXAS .................... 30
GENERAL HƏBİB BƏY SƏLİMOV.................... 43
GENERAL-LEYTENANT MƏMMƏD BƏY SULKEVİÇ .................... 58
SÜVARİ GENERALI HÜSEYN XAN NAXÇIVANSKİ .................... 67
UZUN ÖMRÜN SƏHİFƏLƏRİ ....................77
GENERAL-MAYOR İBRAHİM AĞA USUBOV. ....................81
GENERAL ƏLİYAR BƏY MEHDİ OĞLU HAŞIMBƏYOV .................... 88
GENERAL ƏBDÜLHƏMİD BƏY QAYTABAŞI....................91
GENERAL FİRİDUN BƏY VƏZİROV ....................95
GENERAL-MAYOR ƏSƏDULLA XAN ƏBÜLFƏTHZADƏ....................100
POLKOVNİK QALİB BƏY VƏKİLOV ....................102
POLKOVNİK DANİYAL BƏY HƏLLƏCOV....................109
POLKOVNİK ŞİRİN BƏY KƏSƏMƏNLİ ....................116
**NƏSİLLƏRİN HƏRB TARİXİNDƏN....................124**
*GENERAL YADİGAROV QARDAŞLARI....................126*
*GENENRAL - LEYTENANT İSRAFİL BƏY YADİGAROV ....................128*
*GENERAL-MAYOR ƏSƏDULLA BƏY YADİGAROV ....................140*
*POLKOVNİK VƏLİ BƏY YADİGAROV....................144*
*POLKOVNİK İSRAFİL BƏY YADİGAROV ....................155*
GENERAL-QUBERNATOR MƏMMƏD KOXANIN ACI TALEYİ....................160
HƏRBİ TƏHSİL DALINCA (SƏMƏD BƏY MEHMANDAROV)....................200
ALİM-GENERAL (TAM ARTİLLERİYA GENERALI Ə.ŞIXLİNSKİ).................... ...272
**QACAR NƏSİLİNİN GENERAL OĞULLARI ....................330**
*GENERAL ŞAHZADƏ - ƏMİR KAZIM MİRZƏ QACAR ....................332*
*GENERAL-MAYOR FEYZULLA MİRZƏ QACAR ....................336*
*GENERAL-MAYOR MƏHƏMMƏD MİRZƏ QACAR ....................338*
*GENERAL - ŞAHZADƏ ƏMƏNULLA XAN QACAR....................340*
*GENERAL - ŞAHZADƏ RZAQULU MİRZƏ QACAR ....................342*
*GENERAL - ŞAHZADƏ HƏSƏN XAN QACAR....................344*
*GENERAL - ŞAHZADƏ KAMRAN MİRZƏ QACAR....................347*
**AZƏRBAYCANIN İLK ADMİRALI....................348**
**BAKIXANOVLARIN HƏRBÇİ OĞULLARI....................362**
*GENERAL ABDULLA AĞA BAKIXANOV* ....................362
*GENERAL - MAYOR HƏSƏN AĞA BAKIXANOV* ....................366
**TALIŞXANOVLARIN HƏRBÇİ OĞULLARI....................369**
*GENERAL-MAYOR ƏSƏD BƏY TALIŞXANOV....................369*
*GENERAL-MAYOR MIR İBRAHIM XAN TALIŞXANOV....................370*
*GENERAL MIR KAZIM BƏY TALIŞXANOV....................371*
*GENERAL-MAYOR XƏLIL BƏY MIRƏLIXAN OĞLU TALIŞXANOV....................373*
NURU PAŞANIN QAFQAZ YÜRÜŞÜ ....................375
ƏŞRƏF BƏY QÜRURU....................395
**MƏZARSIZ AZƏRBAYCAN GENERALLARI....................414**
**TARİXİN AĞ SƏHİFƏLƏRİ....................424**
37-Cİ İLİN SƏRKƏRDƏ QURBANLARI....................426
GENERAL-MAYOR QAMBAY VƏZİROV ....................433
KOMİSSAR HEYDƏR VƏZİROV....................444

SAHİBƏ XANIMLA SÖHBƏT (KOMİSSAR S. PAŞAYEV) ....450
GENERAL CƏMŞİD XAN NAXÇIVANSKİ....453
KOMISSAR SARI ŞƏMISTAN (ƏYYUBOV)....479
1937-Cİ İL OKTYABRIN 13-DƏ GÜLLƏLƏNƏN 77-Cİ AZƏRBAYCAN DİVİZİYASININ HƏRBİÇİLƏRİ ....485
"DİKAYA DİVİZİYA", YOXSA....487
**UNUTSAQ, UNUDULARIQ....504**
*İLK MİLLİ ORDU GENERALIMIZ (SÜLEYMAN BƏY ƏFƏNDİYEV) ....505*
*GENERAL - LEYTENANT FƏRƏC BƏY AĞAYEV....516*
*GENERAL-LEYTENANT BALAKİŞİ BƏY ƏRƏBLİNSKİ....523*
*GENERAL HACI YUSİF XAN YUSİFXANOV....529*
**İYİRMİNCİ İLDƏ QARABAĞ DÖYÜŞLƏRİ....531**
*GENERAL MƏMMƏDSADIQ BƏY AĞABƏYZADƏ....546*
*KNYAZ-PODPOLKOVNİK MEHDİQULU XAN USMİYEV....549*
*POLKOVNİK RÜSTƏM BƏY QARABAĞLI HAQQINDA ....557*
*ABŞERON SÜVARİ ALAYI....563*
*GENERAL TƏRLAN BƏY ƏLYARBƏYOV ....565*
*SÜVARİ GENERALI YAQUB QULİYEV....572*
*"SƏMƏD BƏY NAMINDA BİR KİŞİ GÖRDÜM"....584*
*İLK HƏRBİ NÜMAYİŞ....602*
*HƏRBİ MƏTBUAT TARİXİMİZDƏN....605*
*ÜZEYİR BƏYİN HƏRBİ LÜĞƏTİ ....611*
*"GENERAL TAĞIYEV" MARŞI....614*
**ULULARIN SÖZ YADİGARI....617**
*"ƏLİM UZANIQLI QALIB" (ŞEYX ŞAMİL HAQQINDA)....618*
*QAÇAQ KƏRƏMİ DOĞAN ANA....624*
*ŞİRİN DİLLİ MOLLA ZAL ....625*
*NÖVCAVANLAR VAR OLSUN... (Sənədli hekayə) ....627*
*KAPİTAN - ŞAİR MUSTAFA AĞA QİYASBƏYOV....638*
*İSGƏNDƏR AĞA QİYASBƏYOV - təxəllüsü "ŞAİR"....644*
*İSRAFİL AĞA SAİL....650*
*HACI RƏHİM AĞA DİLBAZOV - təx. VƏHİDİ ....652*
*"ANNAX BƏY" ŞEİRİNİN TARİXİ....657*
*"AY ÇİÇƏK" MÜƏLLİFİ İLƏ GÖRÜŞ....660*
*"ETİRAF EDİRƏM QƏLBƏN"....666*
*BİR GÖRÜŞDƏN XATİRƏ ....672*
*BİR ŞƏKLİN TALEYİ....682*
*UNUDA BİLMƏRƏM (XALQ YAZIÇISI İSMAYIL ŞIXLI HAQQINDA) ....684*
*VURĞUNUN BABALARI DEYİB Kİ... ....687*

**ŞƏMİSTAN ƏMİRASLAN OĞLU NƏZİRLİ**

**GÜLLƏLƏNMİŞ AZƏRBACAN GENERALLARI**
***Hekayələr, portretlər, oçerklər, məqalələr***

Elmi məsləhətçi: ***KƏRİM Vəliyev***
***General-leytenant***

Redaktor: **MEHMAN Süleymanov**
**Polkovnik, hərb elmləri doktoru**

Kompüter tərtibatçısı
və dizayneri: **Ömər Məmmədov**

Yığılmağa verilib: 01012016
Çapa imzalanıb: 30022016
Kağız formatı: 70/100, 1/8
Çap vərəqi: 38
Tiraj: 500